Əhalinin həyat səviyyəsi öyrənilməsi və qiymətləndirilməsində fərqli metodoloji yanaşmalar vardır. Bu metodoloji yanaşmalarda əhalinin həyat səviyyəsinin qiymətləndirilməsi beynəlxalq səviyyədə qəbul edilmişbir sıra göstəricilər əsasında aparılır ki, bunlara ölkə üzrə minimum yaşayış büdcəsi, bir nəfərə düşən pul gəlirləri, ölkə üzrə orta aylıq əmək haqqı, əhalinin bir nəfərinə düşən pul gəlirlərinin alıcılıq qabiliyyəti, əhali gəlirləri üzrə kasıblıq səviyyəsi, Cini əmsalı və s. aiddir.

Aşağıda İnsan Kapitalı İndeksinin reytinqi üzrə 174 dünya ölkələrinin məlumatlarının müqayisəli təhlili əsasında keçmiş sovetlər ittifaqı ölkələrinin reytinq cədvəlini nəzərdən keçirək (cədvəl 1).

Keçmiş sovetlər ittifaqı ölkələrinin insan kapitalı indeksi göstəricisinin təhlilindən görünür ki, burada birinci sırada yer almış 14-cü sırada yer almış Tacikistan arasında 0, 28 vahid
fərq vardır. Onu da qeyd edək ki, müqayisə edilən Estoniya ilə Tacikistanın reytinq sırasında 99 sıra fərq mövcuddur. Müqayisə edilən ölkələr üzrə qeytinq sırasına nəzər salsaq görərik ki, 12-ci və 111-ci sırada yer almış keçmiş sovetlər ittifaqı ölkələri içərisində orta reytinq sırasına malik ölkələrə Qazaxstan (0,63), Özbəkistan (0,62) və Qırğızıstan (0,60) aiddir. Bu ölkələr

üzrə ilk beşlikdə Estoniya (0,78), Latviya (0,71), Litva (0,71), Belorus (0,70) və Rusiya (0,68) yer

**Cədvəl 1. Keçmiş sovetlər ittifaqı ölkələrində İnsan Kapitalı İndeksinin reytinqi**

| Reytinq | Ölkələr | İnsan Kapitalı İndeksi |
|---|---|---|
| 12 | Estoniya | 0,78 |
| 33 | Latviya | 0,71 |
| 34 | Litva | 0,71 |
| 36 | Belorus | 0,70 |
| 41 | Rusiya | 0,68 |
| 53 | Ukrayna | 0,63 |
| 55 | Qazaxstan | 0,63 |
| 57 | Özbəkistan | 0,62 |
| 72 | Qırğızıstan | 0,60 |
| 79 | Moldova | 0,58 |
| 82 | Ermənistan | 0,58 |
| 83 | Azərbaycan | 0,58 |
| 85 | Gürcüstan | 0,57 |
| 111 | Taciksitan | 0,50 |
| - | Türkmənistan | - |

Qeyd: [7] əsasında müəllif tərtib etmişdir

almışdır. Həmin sıralamada 10-14-cü sıralarda yer almış ölkələr sırasında Azərbaycan (0,58) da vardır. Lakin ümumi 174 ölkə içərisində Azərbaycanın reytinq sıralanması təxminən orta sıralardan bir neçə pillə yuxarıda yerləşmişdir.

İnsan Kapitalı İndeksinin reytinqi üzrə 174 ölkə içərisində son onluq ölkələrə Sierra-Leone (0,36), Anqola (0,36), Mozambik (0,36), Nigeriya (0,36), Liberiya (0,32). Mali (0,32), Niger (0,32), Cənubi Sudan (0,31), Çad (0,30) və Cənubi-Afrika Respublikası (0,29) aid edilmişdir. Beləliklə, reytinq sıralanmasında ilk sırada yer alan Sinqapur ilə ən son sırada yer alan Cənubi-Afrika Respublikası ölkələri arasında reytinq göstəricisində 0,59 vahid azalma sırası ilə meyl etmə vardır [7].

**Həyat səviyyəsinin resurs təminatının inteqral indiqatoru**-əhalinin hər nəfərinə düşən ümumi daxili məhsulu (ÜDM) (bu göstərici KDR-də 2020-ci ilə qədər əhalinin həyat səviyyəsinin ümumiləşdirici göstəricisi hesab edilmişdir) alıcılıq qabiliyyəti pariteti (AQP) ilə hesablanır. Bu göstərici 2021-ci ildə BVF və DB-nin hesablamaları əsasında 185 ölkə üzrə tərtib edilmişdir. Həmin sıralamaya görə minimum göstərici Cənubi Sudanda (230 ABŞ dolları) və maksimum göstərici Lüksemburqda (131301 ABŞ dolları) olmuşdur. Hər nəfərə düşən ümumi daxili məhsul standartının ölkələr üzrə təsnifatı aşağıdakı kimi qəbul edilmişdir: yüksək gəlirli ölkələr-10 min dollar və yuxarı (66 ölkə); orta gəlirdən yuxarı gəlirli ölkələr-3250-dən 10 min dolladək (62 ölkə); orta gəlirdən aşağı gəlirli ölkələr- 800 dollardan 3250 dolladək (43 ölkə); aşağı gəlirli ölkələr- 800 dollardan az (14 ölkə). Beləliklə, 185 ölkə üzrə yüksək gəlirli ölkələrin xüsusi çəkisi 35,7%; orta gəlirdən yuxarı gəlirli ölkələrin xüsusi çəkisi 33,5%; orta gəlirdən aşağı gəlirli ölkələrin xüsusi çəkisi 23,3%; aşağı gəlirli ölkələrin xüsusi çəkisi 7,5% təşkil etmişdir.

Dünya ölkələrində əhalinin hər nəfərinə düşən ümumi daxili məhsulun həcmi məlumatlarının təhlili göstərir ki, ölkələr üzrə əhalinin həyat səviyyəsinin resurs təminatının inteqral indiqatoru kimi hər nəfərə düşən ümumi daxili məhsulun alıcılıq qabiliyyəti pariteti hesablanmış və ölkələr dörd qrupda cəçləşdirilmişdir: 1) Hər nəfərə düşən ÜDM-in həcmi 10 min və yuxarı olan ölkələr; 2) Hər nəfərə düşən ÜDM-in həcmi 3250 dollardan 10 min

dollaradək olan ölkələr; 3) Hər nəfərə düşən ÜDM-in həcmi 800 dollardan 3250 dollaradək olan ölkələr; 4) Hər nəfərə düşən ÜDM-in həcmi 800 dollardan az olan ölkələr.

**Əhali gəlirlərinin bölüşdürülməsinin beynəlxalq inteqral indiqatoru**-Cini indeksi əhalinin müxtəlif qruplarında pul gəlirlərinin ümumi həcminin konsentrasiyasını xarakterizə edir. Hər il Beynəlxalq Valyuta Fondu (BVF), Dünya Bankı (DB) və Birləşmiş Millətlər Təşkilatı (BMT) tərəfindən müxtəlif ölkələr üzrə hər nəfərə düşən ÜDM və Cini indeksinin standartları hesablanılır. Cini indeksinin qiymətləri dünya ölkələrində gəlirlərin qeyri-bərabər bölgüsünün müqayisəsini əks etdirir və bu göstərici hər bir ölkənin dünya ölkələri içərisində (ölkələrin ümumi sayı 185) tutduğu sırasını müəyyən edir: hər nəfərə düşən ÜDM-in həcmi 5 min dollardan az olan ölkələr (87 ölkə) üzrə Cini indeksinin səviyyəsi 0,300-dən çox; hər nəfərə düşən ÜDM-in həcmi 5-10 min dollar hüdudunda olan ölkələr (32 ölkə) üzrə Cini indeksinin səviyyəsi 0,360-dan çox; hər nəfərə düşən ÜDM-in həcmi 10-20 min dollar hüdudunda olan ölkələr (24 ölkə) üzrə Cini indeksinin səviyyəsi 0,380-dən çox; hər nəfərə düşən ÜDM-in həcmi 20-30 min dollar hüdudunda olan ölkələr (11 ölkə) üzrə Cini indeksinin səviyyəsi 0,360-dan çox; hər nəfərə düşən ÜDM-in həcmi 30 min dollardan çox olan ölkələr (31ölkə) üzrə Cini indeksinin səviyyəsi 0,330-dan çox olması hesablanmışdır.

İPİİ, hər nəfərə düşən düşən ümumi daxili məhsul və Cini indeksi üzrə Azərbaycanın qiymətləndirildiyini əks etdirən bu göstəricilər və onların ötən ilə nisbətən artma və ya azalma meyli göğstərir ki, Azərbaycan insan potensialının inkişaf indeksinə görə orta göstəricili ölkələr sırasında 60-86-cı sıradakı ölkələr içərisində 83-ci yeri tutmuşdur. Bundan əlavə, əhalinin pul gəlirlərinin bölüşdürülməsində iqtisadi qeyri-bərabərlik hüdudunun qiyməti 2018-ci ilə nisbətən (0,337) 2021-ci ildə 0,357 təşkil etmiş və müqayisə dövründə meyletmə (+0,020) olmuşdur.

**Regionlar üzrə həyat səviyyəsinin qeyri-bərabərliyinin qiymətləndirilməsi üçün bəzi ölkədaxili sosial standartların tətbiqi**

Azərbaycanda əhalinin etibarlı sosial müdafiəsinin təşkili məqsədi ilə yeni Dövlət Proqramı hazırlanır və burada nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində ölkəmizdə sığorta-pensiya sistemi daha da təkmilləşdiriləcək, könüllü sosial sığortalanmanın və qeyri-dövlət pensiya fondlarının fəaliyyəti ilə bağlı məsələlər öz həllini tapacaq, işləyən vətəndaşların layiqli həyat səviyyəsini təmin etmək məqsədi ilə iqtisadiyyatın inkişafından asılı olaraq minimum əmək haqqı məbləğinin tədricən minimum yaşayış standartlarına çatdırılması istiqamətində tədbirlər görüləcək, əhalinin gəlirlər üzrə diferensiasiyasının azaldılmasına nail olunacaqdır [1,səh.28-30].

Beləliklə, yuxarıda qeyd edilmiş insan potensialının inkişafı, adambaşına düşən ÜDM-in miqdarı və Cini indeksi kimi əhalinin həyat səviyyəsinin sosial standartlarının tətbiqi ilə əhalinin həyat səviyyəsinin bölgələrdə qeyri-bərabərliyini xarakterizə edən aşağıdakı indiqatorların tətbiq edilməsini məqsədəuyğun hesab edirik: -pul gəlirlərinin alıcılıq qabiliyyəti əmsalı ($k_{p.g.a.q}$); pul gəlirləri üzrə kasıblıq əmsalı ($k_{p.g.k.ə}$).

Pul gəlirlərinin alıcılıq qabiliyyəti əmsalı YM-na daxil olan əmtəə və xidmətlərin əldə edilməsi məqsədi ilə ödənilən pul gəlirini ifadə edir [6]. 2021-ci ilin göstəricilərinə əsasən Azərbaycanda əhalinin pul gəlirlərinin alıcılıq qabiliyyəti əmsalı 2,82 təşkil etmişdir.

İkinci göstərici olan əhalinin pul gəlirlərinə görə kasıblıq əmsalı gəlirləri ölkə üzrə YM-dən (2022-ci il üçün 210 manat) aşağı olan əhali sayının ümumi əhalinin sayına olan nisbəti ilə hesablanılır:

$$K_{p.g.k.ə}=\frac{N_{g.<YM}}{N_{Ü}}; \qquad (3)$$

burada: $K_{p.g.k.ə}$- əhalinin pul gəlirlərinə görə kasıblıq əmsalı;

$N_{g.<YM}$-gəlirləri YM-dən aşağı olan əhalinin sayı, milyon nəfər;

$N_{Ü}$-ümumi əhalinin sayı, milyon nəfər.

2020-ci ilin göstəriciləri əsasında əhalinin pul gəlirlərinə görə kasıblıq əmsalının qiyməti (3) formulası əsasında hesablanaraq $K_{p.g.k.ə}$ =0,11 müəyyən edilmişdir.

Aparılmış təhlil göstərir ki, Azərbaycanda əhalinin həyat səviyyəsini əks etdirən göstəricilərin bəzilərində qeyri-bərabərlik azalmışdır, xüsusilə bu azalma gəlirlər üzrə kasıblıq əmsalı və əhali gəlirlərinin alıcılıq qabiliyyəti əmsalında nəzərə çarpacaq dərəcədə olmuşdur. Belə ki, bu azalma gəlirlər üzrə kasıblıq əmsalında 8,3% (0,12-0,11/0,12), alıcılıq qabiliyyəti əmsalında isə 5,4% (2,98-2,82/2,98) təşkil etmişdir. Eyni zamanda əhalinin pul gəlirlərinin bölüşdürülməsində iqtisadi qeyri-bərabərliyi əks etdirən Cini indeksinin qiymətində müqayisə edilən dövrdə 0,020 qədər artım əldə edilmişdir. Sonuncu göstərici olan hər nəfərə düşən ümumi daxili məhsulda isə 25,0% və ya 1035 ABŞ dolları həcmində artımın olduğunu müşahidə etmək mümkündür.

**Nəticə**

Təhlili göstərir ki, Azərbaycan bölgələrində əhalinin pul gəlirlərinin alıcılıq qabiliyyəti arasında fərq çoxdur və bu göstəricinin qiyməti bir sıra şəhərlərdə digər bölgələrə nisbətən yüksəkdir. Bu göstəricinin qiymətinin qeyd edilən şəhərlərdə yüksək olması əhalinin işləmək məqsədi ilə digər bölgələrdən bu şəhərlərə axınına şərait yaradır və beləliklə də urbanizasiya prosesinin sürətlənməsinə təsir göstərir. Şübhəsiz ki, əhalinin həyat səviyyəsi üzrə tədqiqatların genişləndirilməsində, həmçinin ölkə üzrə bu göstərici indikatorlarının ölçülməsində ixtisaslı cəmiyyətin müzakirəsinə ehtiyac vardır.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**


1. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında. Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 30 iyun 2020-ci il
2. Бобков В. Р. Оценка качества и уровня жизни населения. М., Вестник ВГУ. Серия: Экономика и управление. 2009. №2, с.34-36
3. Социальные стандарты качества жизни: сб. статей /под ред. А. В. Очировой и др.-Москва: МАКС Пресс. 2008, стр.15-55
4. Клинова М. А. Уровень жизни городского населения РСФСР в отечественной историографии. Екатеринбург. 2014, с.353
5. Квалиметрия жизни /Г. Г. Азгальдов и др. Ижевск: Изд-во Института экономики и управления УдГУ. 2006, стр.210
6. Уралов В.М. Уровень нашей жизни : аналит. справ. М., 1995, с.18-20
7. Рейтинг стран мира по индексу человеческого капитала. World Bank: Human Capital Index, 2020.
8. Список стран по номинальному ВВП на душу населения. Список МВФ, Октябрь 2021
9. https://ru.wikipedia.org/wiki/ Список_стран_по_индексу_человеческого_развития
10. https://ru.wikipedia.org/wiki/ Список_стран_по_ВВП_(ППС)_на_душу_населения
11. https://ru.wikipedia.org/wiki/Список_стран_по_индексу_Джини
12. https://az.wikipedia.org/wiki/Minimum_istehlak_səbəti
13. http://www.e-qanun.az/framework/41035
14. http://www.stat.gov.az/
15. https://az.trend.az/azerbaijan/society/2284248.html

**д.э.н. Исмайлов В. И.**
**Имамалиев Н.Я.**

## ОЦЕНКА УРОВНЯ ЖИЗНИ НАСЕЛЕНИЯ С ПРИМЕНЕНИЕМ СООТВЕТСТВУЮЩИХ ИНДИГАТОРОВ

**Резюме**

В статье рассказывается об основных преимуществах применения соответствующих индигаторов при оценке уровня жизни населения. Здесь обоснован новый методический подход к оценке компонентов, отражающих уровень жизни населения.

Рассмотрены методологические вопросы определения нормативных критериев и применения ряда социальных стандартов на основе минимальных гарантий и стандартных ориентиров, охватывающих уровень жизни населения. В то же время был проведен сравнительный анализ рейтинга индекса человеческого капитала по различным странам.

**Ключевые слова:** население, уровень жизни, минимальные гарантии, социальные стандарты, критерии, индекс человеческого капитала, рейтинг, оценка

**Doctor of Economics Ismailov V. I.**
**Imamaliyev N.Y.**

## ASSESSMENT OF THE STANDARD OF LIVING OF THE POPULATION WITH THE USE OF APPROPRIATE INDIGATORS

**Summary**

The article describes the main advantages of using appropriate indicators in assessing the standard of living of the population. A new methodological approach to the assessment of components reflecting the standard of living of the population is justified here.

Methodological issues of defining normative criteria and applying a number of social standards based on minimum guarantees and standard guidelines covering the standard of living of the population are considered. At the same time, a comparative analysis of the rating of the human capital index for various countries was carried out.

**Keywords:** population, standard of living, minimum guarantees, social standards, criteria, human capital index, rating, estimation

## I BÖLMƏ

## İQTİSADİ-EKOLOJİ ASPEKTLƏR

**UOT: 631.173**

**İsrafil İsmayılov, tex. e.d., prof.**
*"Aqroservis" ASC, sədrin müşaviri*
*i.israfil@aqroservis.gov.az*

# RESPUBLİKADA KƏND TƏSƏRRÜFATI TEXNİKASI PARKININ YENİLƏNMƏSİNDƏ DÖVLƏT DƏSTƏYİ

***Açar sözlər:*** dövlət dəstəyi, texnika, traktor, taxılyığan kombayn, xidmət ömrü, texnikanın silinməsi, texnika parkı, parkın yenilənməsi, yenilənmə sürəti

Məlumdur ki, kənd təsərrüfatını texnikasız təsəvvür etmək mümkün deyil. Həmçinin hər növ texnikanın müəyyən xidmət ömrü vardır və zaman keçdikcə mənəvi və fiziki köhnəlmə səbəbindən texnika istismardan çıxarılır. Kənd təsərrüfatının texnika ilə təminatını tələb olunan səviyyədə saxlamaq üçün texnika parkının daim, müəyyən temlə yenilənməsi zəruridir. Planlı iqtisadiyyat dövründə təsərrüfatların texnika parkının optimal yenilənməsi yeni texnikanın alınması yolu ilə həyata keçirilmişdir. Lakin bu zaman texnikanın alınmasına, təmirinə və istismarına çəkilən xərclərin, sənayeyə və təmir bazasına əlavə kapital qoyuluşunun nəzərə alması ilə minimallaşdırılması zəruru anda parkın ölçüsünün verilmiş həddə olması prinsipi əsas götürülmüşdür. Yenilənmə xərcləri texnika alınmasına çəkilən xərclə onun qalıq dəyərinin fərqindən yaranır.

Lakin silinən maşınların nomenklaturası və qalıq dəyərinin müəyyən edilməsi adətən dəyərləndirilmir. Odur ki, parkların yenilənməsində təcrübi məlumatlar əsasında müəyyən yanaşma formalaşmışdır.

Latviya təsərrüfatlarında traktor parkının yenilənmə dərəcələrinin təhlilinə dair tədqiqat işində kiçik və iri ölçülü təsərrüfatların traktor parklarının strukturu müqayisə edilmişdir [1, 2].

Tədqiqat işində qeyd edilir ki, təsərrüfatların iqtisadi səmərəliliyini təmin etmək üçün traktor parkının strukturu formalaşdırılmalı və onların rəqabət qabiliyyəti yüksəldilməlidir.

Latviyada kiçik ölçülü təsərrüfatların 57%-də traktor mühərriklərinin gücü 20-50 kVt arasındadır, iri təsərrüfatlarda isə bu gücdə olan traktroların xüsisi çəkisi 32% təşkil edir. Digər tərəfdən 80-100 kVt gücündə traktoru olan təsərrüfatların xüssusu çəkisi kiçik ölçülü təsərrüfatlarda 40%, iri təsərrüfatlarda isə 66% təşkil edir. Mühərrikinin gücü 100 kVt olan traktorların xüsusi çəkisi iri fermer təsərrüfatlarında kiçik təsərrüfatlara nisbətən 5 dəfə yüksək olması daha kəskin fərqin olmasını göstərir.

Bununla yanaşı, kiçik ölçülü təsərrüfatlarda xüsusi enerji təminatı 2,79 kVt/ha, iri təsərrüfatlarda isə xüsusi enerji təminatı 1,16 kVt/ha təşkil edir. Göründüyü kimi, tətbiq edilən traktorların strukturu arasında belə bir fərqin olması böyük ölçülü təsərrüfatlarda enerji tutumlu maşınlardan daha çox istifadə edilməsi ilə izah oluna bilər. Müəlliflər müəyyən etmişlər ki, Latviyada 1997-2006-cı illərdə alınan yeni traktorların sayında orta illik artım sürəti 2,7%, 2000-ci ildən 2007-ci ilə qədər olan dövr 6,3% təşkil etmişdir [1,2].

Bəzi xarici ölkə tədqiqatçıları traktor parkının yenilənmə sürətinin aşağı olmasının səbəblərindən biri kimi kifayət qədər dövlət dəstəyinin olmaması ilə əlaqələndirilir [1, 2, 3].

Traktor parkının yenilənmə sürəti çox parametrli amillərin təsirindən formalaşır. Təbii ki, onlardan biri parkın yeni texnika ilə dəstləşdirilməsidir. Təhlil edilən ədəbiyyat

materiallarından aydın olur ki, traktor və digət texnika parklarının yexnilənmə tendensiyası dəyərləndirilərkən yalnız illər üzrə istehsal edilən və ya alınan yeni traktorların xüsusi çəkisi nəzərə alınmışdır.

Fikrimizcə, təsərrüfatların traktor və digər kənd təsərrüfatı texnikasının yenilənmə sürəti müəyyən edilərkən yeni alınan texnika ilə yanaşı, xidmət müddətini başa vurmuş texnikanın istehsalatdan çıxarılması, texniki nasazlıq səbəbindən texnikanın vaxtından tez istismardan çıxarılması kimi parametrlər də nəzərə alınmalıdır. Bu halda, qeyd edilən mühüm kəmiyyətlərin nəzərə alınması ilə əldə edilən qanunauyğunluqlar traktor və digər kənd təsərrüfatı texnikasının yenilənmə trendini daha düzgün dəyərləndirməyə imkan verəcəkdir.

Bunun üçün cari ildən əvvəlki illər üzrə xidmət müddətini başa vurmuş, yararsız texnikanın silinməsinin trendi və yeni alınmış texnikanın trendi qarşılıqlı nəzərə alınmalıdır. Başqa sözlə yeni alınan və silinən texnikanın sürətlər fərqi yenilənmə sürətini daha dəqiq xarakterizə edə bilər. Belə ki, texnikanın qalıq dəyərinin dəyişməsi xidmət ömründən asılı olaraq azalan eksponensial qanunauyğunluğa uyğun gəldiyi qəbul edilmişdir [4].

Respublikada texnika parkının yenilənməsi daim dövlərin marağında olmuş və hal hazırda da texnikanın kənd təsərrüfatı məhsulları istehsalçılarına dəyərinin 40%-i həcmində dövlət güzəşti ilə lizinqə verilməsi və satılması davam etdirilir. 2013-2020 illərdə respublikada dövlət güzəşti ilə fermer təsərrüfatlarına satılmış kənd təsərrüfatı texnikasının əsas növləri üzrə, traktorlar, taxılyığan kombaynlar, pambıqyığan kombaynlar və asma-qoşma kənd təsərrüfatı maşınları üzrə xüsusi çəkisinin paylanmasını və dinamikasını nəzərdən keçirək. Respublikada fəaliyyət göstərən iri taxılçılq, pambıqçılıq, çuğundurçuluq, tütünçülük və s. şirkətlərin, Aqrofirmaların bəzi texnikanı öz vəsaitləri hesabına aldıqları üçün məlumatda əks edilməmişdir.

Son 10 ildə respublikanın fermerlərinə dövlət tərəfindən güzəştlə satılan texnika növlərinin xüsusi çəkisi haqqında dolğun məlumat şəkil 1-də verilmişdir.




**Şəkil 1. 2013-2020-ci illərdə respublikada fermerlərə dövlət tərəfindən güzəştlə satılan texnika növlərinin xüsusi çəkisi**

Mənbə: [5] ədəbiyyatın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Şəkil 1-dən göründüyü kimi, satılan texnikanın 69%-i kənd təsərrüfatı əməliyyatlarını yerinə yetirən, traktrolara asılan, qoşulan texnika təşkil edir, traktrolar - 26%, taxılyığan kombaynlar 3%, pambıqyığan kombaynlar isə 2 % təşkil edir.

Bir qədər ətraflı təhlil etsək, satılan asma –qoşma texnikanın bir traktora düşən payı 2,7 təşkil etdiyini görmək olar. Yəni hər 10 traktora 27 kənd təsərrüfatı maşını düşür. Başqa

sözlə, qeyd etmək olar ki, təsərrüfatda olan 1 traktora 2- və ya 3 kənd təsərrüfatı maşını qoşulur.

Respublikada dövlət tərəfindən güzəştli şərtlərlə kənd təsərrüfatı məhsulları istehsalçılarına 2013-2020-ci illərdə satılan kənd təsərrüfatı texnikası növlərinin dinamikası şəkil 2-də verilir.




**Şəkil 2. Respublikada dövlət tərəfindən güzəştli şərtlərlə kənd təsərrüfatı məhsulları istehsalçılarına 2013-2020-ci illərdə satılan kənd təsərrüfatı texnikasının növlər üzrə dinamikası**

Mənbə: [5] ədəbiyyatın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir

Qrafikdən göründüyü kim,i bu müddət ərzində ən çox sayda alınan traktorlara asılan və qoşulan müxtəlif təyinatlı kənd təsərrüfatı texnikasıdır. Bu artım baxılan müddətdə respublikada kənd təsərrüfatının, xüsusilə pambıqçılığın inkişafı ilə əlaqədar dövlət dəstəyinin artırılması ilə əlaqədardır.

Kənd təsərrüfatında əsas energi vasitəsi olan traktorun və respublikada taxılçılığın strategi sahə olduğunu nəzərə alaraq taxılyığan kimbaynların satışı barədə məlumata diqqət yetirək. Traktorların və taxılyığann kombaynların satışı bu texnika növlərinin kənd təsərrüfatının mexanikləşdrmə səviyyəsinin yüksəldilməsində mühüm əhəmiyyət daşıdığını göstərir. Lakin, burada da həm traktrolar parkının və həm də taxılyığan kombayn parkının yenilənməsinin zəruri olduğu müşahidə olunur.  2013-2020-ci illərdə fermerlərə satılan traktorların və taxılyığan kombaynların sayının dəyişmə dinamikası şəkil 3-də verilir.

Diaqramdan görünür ki, 2015-ci ildən sonra traktorların alınması dinamikası yüksəlmişdir. Bu,  respublikada pambıqçlığın inkişafın dövlət dəstəyinin artırılması ilə izah olunur. Şəkil 2-dən də göründüyü kimi, pambıqyığan kombaynların istismarda olma müddəti 1-5 il olduğu üçün demək olar ki, tam yenidir. Həmçinin qeyd edilməlidir ki, fermer təsərrüfatlarının mülkiyyətində olan, 2013-cü ildən əvvəl istehsal olunmuş texnikanın da hazırda istifadəsi davam etdirilir. Mənəvi və fiziki köhnəlmiş texnikanın silinməsi texnika parkının yenilənməsi üçün əsasdır. Yəni, texnika parkının yenilənmə sürəti, texnikanın köhnəlmə, silinmə tempini üstələməlidir.




**Şəklil 3. 2013-2020-ci illərdə fermerlərə satılan traktorların və kombaynların dəyişmə dinamikası**

Mənbə: müəllif tərəfindən tərtib edilmişdir

**Nəticə**

1. Respublikada kənd təsərrüfatının inkişafını stimullaşdırmaq məqsədi ilə fermerlərə texnikanın, gübrənin və digər materialların dövlət tərəfindən güzəştlə satılması geniş tətəbiq olunur.

2. Müəyyən edilmişdir ki, 2013-2020-ci illərdə fermerlərə dövlət tərəfindən güzəştlə satılan texnikanın 69%-ini kənd təsərrüfatı əməliyyatlarını yerinə yetirən, traktrolara asılan, qoşulan texnika, 26%-ini traktrolar, 3%-ini taxılyığan kombaynlar , 2 %-ini pambıqyığan kombaynlar isə təşkil edir.

3. Kənd təsərrüfatının texniki ilə təminatını tələb olunan səviyyədə saxlamaq üçün, xidmət ömrünü başa vurmuş, mənəvi və fiziki köhnəlmiş texnikanın silinməsi və texnika parkının daim, müəyyən temlə yenilənməsi zəruridir.

## Ədəbiyyat siyahısı


1.Kopiks N., Viesturs D. Fleet of tractors on farms of Latvia and trends of development, Jelgava, 28.-29.05.2009.

2.Kopiks N., Viesturs D.The renewal rates of the fleet of tractors on the farms of Latvia, Engineering for rural development, Jelgava, 24.-25.05.200

3, Ганиев И. Обоснование поэтапной модернизации технико-технологической оснащенности процессов производства хлопка в Республике Таджикистан, дисс. д. т.н. Челябинск ,2016,384 с.

4.Черноиванов В.И. Не спешите расставаться с изношенной деталья // МТС, 2009, № 2,с.4-7

5. Elektron resurs: https://www.stat.gov.az/source/agriculture/

AMS Subject Classification:E11, A11

**Andrii Karpenko, Doctor of Economics**
**Rodion Sevast`yanov, PhD in Economics**
*National University "Zaporizhzhia Polytechnic"*
*andreykarpenko@ukr.net*

# ON THE PROBLEM OF INTEGRATION OF UKRAINIAN CLUSTERS IN GLOBAL VALUE CHAINS

*It is important to assess the political and economic factors influencing changes in global and regional value chains. Clusters in Ukraine have problems with the rupture of production and distribution chains. To solve these problems, it is necessary to correct the activities of clusters under martial law. Violations of transport routes and relocation of business have a significant economic impact on the formation of global value chains. The structure of the modern world economy has features of multilevel and interdependence.*

## Introduction

In 2022, there have been significant changes in the global distribution of resources. The invasion of Russian troops into Ukraine has prompted the developed world community to push Russian and Belarusian companies out of the global value chain. Such changes provide new opportunities for Ukrainian business. Creating new global and regional value chains can be based on innovative industrial high-tech ecosystems. Developed industry and regional clusters can be based on such ecosystems. It is proposed to consider new proposals to adjust the areas of cooperation of Ukrainian clusters and refocus their activities in the new economic situation. Integration into global and regional businesses may include the development of services, the development of international cooperation between enterprises on global business platforms.

## Material and methods

The issues of creation and development of clusters, formation of value chains and consolidation of local community efforts to develop territories were studied on the basis of scientific materials, author's research of Zaporizhzhia cluster "Engineering-Automation-Machinery" and Ukrainian Cluster Alliance. Methods of theoretical generalization, system analysis, comparative analysis, classification were used for publication. These methods justify the directions of further integration into global and regional value chains.

## Results and discussion

The direction of supporting the Ukrainian economy is the integration of Ukrainian companies into global value chains. The role of consolidating the efforts of the human community and business is important. This contributes to the development of clusters. Clusters form new areas of cooperation. In this way, value chains are built. Clusters create new opportunities to combine the competencies of different actors (business, education and science, government and the public) and to form value chains. Therefore, the study of the integration of Ukrainian clusters into global value chains is relevant in modern conditions

Competition and changes in world global processes against the background of growing consequences of the military invasion of Ukraine by Ukraine force us to consider economic recovery mainly on an innovative basis in the framework of cluster development. Clusters are formed in order to strengthen the own position of small and medium enterprises and gain market advantage. Clusters allow companies to combine all levels of innovation policy. Clusters provide a concentration of resources and create the conditions for economic breakthrough in the form of innovation. Clusters also increase the competitiveness of

enterprises, facilitate access to resources and technologies, reduce financial risks and promote innovative development of territories [1]. The clusters provide collaboration and synergy of scientists, business, government and the public. This is based on legal support, discipline, trust and responsibility [2].

Ukrainian companies are integrating into global value chains. After the annexation of Crimea (2014), the integration of Ukrainian enterprises into the markets of developed countries accelerated. During the period 2018-2021, Ukraine demonstrated positive dynamics of foreign trade. However, Ukrainian enterprises mainly exported low value-added goods and imported high value-added goods. Ukrainian exports are dominated by metallurgical and agricultural products. A feature of Ukrainian exports is the high share of intermediate goods used as raw material for the production of other final consumer goods. Current circumstances give hope for a change in the situation, as the markets of developed countries are opening up. The development of clusters in Ukraine helps the development of Ukrainian business. This development is ensured by integration into global production and distribution networks with a reduction in the processing of raw materials with low added value.

The development of clusters in Ukraine occurred in 2020. This year, a draft National Strategy for Cluster Development until 2027 was developed. Almost simultaneously, the German Society for International Cooperation (GIZ) supported the cluster development initiative. This support allowed to start a project for the development of EAM (Engineering-Automation-Machinery) clusters in the Zaporizhia and Kharkiv regions. The implementation of this project contributed to the development of cluster processes in these regions, certain changes in innovation ecosystems, the impact on the development of cluster movement in Ukraine [3].

More than 50 clusters are registered in Ukraine. On March 24, 2022, 16 clusters and cluster organizations of Ukraine merged into the Ukrainian Cluster Alliance. This alliance undertook the mission of developing the entire cluster movement in Ukraine [4]. The cluster movement helps increase exports for the business community. There are additional opportunities to include clusters and their members in global value chains.

The basis for Ukraine's successful integration into global value chains should be the development of the cluster movement and innovative ecosystems of industrial high technologies. It is important to develop services and production in the context of global and regional directions. It is also important to promote the formation of international cooperation between enterprises on global business platforms

Ukraine will be one of the emerging markets in Europe. This market provides a wide range of economic opportunities. Location, talented human capital, cost-competitiveness, and the availability of free trade agreements with many global markets can all ensure rapid growth and a high return on investments in key sectors, such as information technology, agriculture, energy, manufacturing, and infrastructure.

The integration of Ukrainian companies into value chains is fundamentally important for the development of Ukrainian industry. Participation in such chains allows the participants to join forces to improve competitiveness. There are international value chains based on Ukrainian companies. Thus, Metinvest uses the full cycle of production of metallurgical products and assets abroad. Metinvest is part of global value chains. Table 1 presents Ukrainian companies participating in GVCs, including with the EU’s countries.

Table 1 shows successful examples of integrating Ukrainian big business into global value chains. In fact, these companies are cluster associations. However, successful examples mostly concern big business. And for small and medium-sized businesses, there are few such examples. According to the authors, the solution to this problem is the development of cluster associations. These associations promote further integration into regional ones and global value chains.

**Table 1. Examples of integrating Ukrainian companies into international cooperation as of 2021**

| Company | Sphere of activity | Partnerships with companies in the EU | Partnerships with companies beyond the EU |
|---|---|---|---|
| **Metinvest** | mining, metals, sales, logistics, service | Bulgaria, Italy | Belarus, Switzerland, the UK, Russia, the United States |
| **Aeromeh** | engineering | Bulgaria, Germany, Greece, Italy, Latvia, Lithuania, Poland, Romania, the Czech Republic, Finland, Estonia | Australia, Armenia, Belarus, Bolivia, Brazil, China, Great Britain, Georgia, India, Israel, Kazakhstan, Kyrgyzstan, Mongolia, Tajikistan, Turkmenia, Turkey, Switzerland |
| **Motor Sich** | aircraft and engine building | Poland, Czechia, Slovakia | Bangladesh, Belarus, Canada, Ethiopia, Myanmar, Pakistan, Singapore, South Korea, Sri Lanka, the UAE, the UK |
| **Ukrainian Automobile Corporation** | automobile maker | Poland | Egypt, Uzbekistan |
| **Konecranes Ukraine** | cranes, lifting equipment and crane services | Austria, Belgium, the Czech Republic, Denmark, Germany, Greece, Finland, France, Hungary, Italy, Latvia, the Netherlands, Poland, Portugal, Romania, Spain, Slovakia, Slovenia, Sweden | Australia, Bangladesh, Brazil, Canada, Chile, China, Colombia, India, Indonesia, Hong Kong, Mexico, Morocco, New Zealand, Norway, Peru, the Philippines, Russia, Singapore, South Africa, South Korea, Thailand, Turkey, Switzerland, the UAE, the UK, the USA, Venezuela, Vietnam, Japan |
| **Kernel** | food processing | Germany, Israel, Latvia, Lithuania, Estonia, Sweden | Bangladesh, Canada, South Korea, Norway, the USA |
| **EKTA** | LED displays, imaging equipment/software | France, Estonia, Sweden | Norway, the UAE, the UK |
| **Luxoft** | software development | Bulgaria, Germany, Italy, the Netherlands, Poland, Romania, Sweden | Australia, Canada, China, India, Malaysia, Mexico, Russia, Singapore, South Korea, Switzerland, the UK, the USA, Vietnam |
| **Nibulon** | grain and oilseeds, shipbuilding, logistics | Bulgaria, Croatia, the Czech Republic, Denmark, Estonia, Finland, France, Germany, Italy, Latvia, | China, Norway, Turkey, the UK |

| | | | |
|---|---|---|---|
| | | Lithuania, the Netherlands, Poland, Romania, Sweden | |
| **Kernel** | oilseed processing, infrastructure and trading, farming, logistics | the Netherlands, Spain | China, Egypt, Indonesia, India, Kenya, the Philippines, Turkey |
| **MHP** | crop production, poultry, meat processing | Germany, the Netherlands, Slovakia, Slovenia, Romania | Armenia, Azerbaijan, China, Iraq, Hong Kong, Kuwait, Moldova, Morocco, the Philippines, Saudi Arabia, Singapore, South Korea, Tunisia, Vietnam, the UAE, Japan |

*Source:* [5]

Ukrainian company Luxoft develops car-control technologies, including unmanned ones, for German car manufacturers. Ukraine would also be capable of supplying products to the EU from metal to complex components of construction and finished machines, units, vehicles. Ukrainian manufacturers of specialized software and hardware also have the economic potential. It is important to consider the favorable factors for the entry of Ukrainian industrial enterprises into GVCs. These factors include the proximity to European markets, developed transport, energy infrastructure and a high potential for developing information and communication technologies. The cluster "Zakarpattya" is represented by the associations of international chains of brands, such as "Eurocar", "Jabil", "Yazaki", "Fischer", and others. This cluster was one of the first to move to a system model of global integration.

In the Zaporizhzhia region in 2020 the Zaporizhzhia cluster "EAM" was created [6]. This cluster includes 20 companies and organizations. Leading companies in the EAM cluster are sectors of industrial engineering, automation, IT and machinery. Such cooperation allows to increase the economic potential of the Zaporizhzhia region through the formation of competitive advantages of cluster members (table 2).

**Table 2 Structure of regional cluster of Zaporizhzhia Cluster "Engineering – Automation – Machinery" (EAM) as of 2021**

| Name (brand) | Services | Countries where the cluster operates | Market presence (years) | Official site |
|---|---|---|---|---|
| ZAPORIZHZHIA CLUSTER “ENGINEERING – AUTOMATION – MACHINERY” (EAM) | A platform for companies in the Zaporizhia region working in the Engineering, Automation and Machinery sectors to share best practices and create a | all below | 1 | https://www.iamcluster.zp.ua/ |

| | | | | |
|---|---|---|---|---|
| | consolidated industry position | | | |
| PRIVATE SMALL INDUSTRIAL AND COMMERCIAL ENTERPRISE "ASSOL" | Production of bulldozers, modernization and overhaul of equipment. | Italy, Slovakia, Ukraine | 31 | https://assol.com.ua/ |
| LLC "LIZMARK" | Production of freight elevators and cottage elevators. | Ukraine | 4 | https://lizmark.in.ua/ |
| PLANT OF METAL STRUCTURES LLC "PC KOTLOMONTAZH" | Boilers utilizers, deaerators, gas cleaning equipment, building metal structures | Ukraine | 30 | https://steel-work.com.ua/ |
| LLC "SATURN" | Production of auto parts and spare parts for agricultural machinery; service services for the production of equipment and machining of metals. | Ukraine | 20 | https://saturnavto.com.ua/ |
| LLC "TERMOLIT" | Production of innovative equipment for melting, heating and hardening of metals | Azerbaijan, Armenia, Uzbekistan, Estonia, Kazakhstan, Poland, Moldova, Germany, Israel, Turkmenistan, Latvia, Italy, Finland, Lithuania, Ukraine | 25 | https://termolit.com/ |
| LLC "TAVRIA FOUNDRY COMPANY "TALCO" | Foundry production of aluminum alloys | Italy, Germany, Ukraine | 25 | https://talko.com.ua/ |
| LLC "THERMO-ENGINEERING" | Design and construction of | Kazakhstan, Mongolia, | 61 | http://niiterm.com/ |

| | | | | |
|---|---|---|---|---|
| | industrial and civil construction facilities; modernization or repair of industrial equipment | Ukraine | | ru/kompaniya/o-nas |
| WELDING ENGINEERING COMPANY<br>LLC "TRIAD LTD. AND CO." | Development and creation of welding technologies, design of robotic technological complexes. Laser cutting, Metal casting, Metal forming, Plasma cutting, Electroplating services | Kazakhstan, Ukraine | 30 | http://www.triada-welding.com/ |
| LLC "GLOSS METAL SERVIS PRO" | Production of polypropylene equipment for galvanic processes, supply of voltage rectifiers | Sweden, Ukraine | 6 | bmservice.pro |
| LLC "ROLL GRAND" | manufacturer of components for all types of gates | Italy, Ukraine . | 19 | https://rollgrand.com/ |
| PRIVATE ENTERPRISE "YUZHTRANSPOLIS PLUS" | Gates of various levels of complexity for domestic and industrial purposes | Italy, Germany, Ukraine | 20 | https://www.vorota-utp.zp.ua/ |
| LLC "GREEN SYSTEM" | Turnkey solar power plants, service in the field of alternative energy and energy efficiency | China, Poland, Ukraine | 10 | greensystem.com.ua teplonasos.biz electro-auto.com.ua |

| | | | | |
|---|---|---|---|---|
| LLC "INFOCOM LTD" | Automation software development (MES, ERP) | USA, Japan, Germany, Bulgaria, Egypt, France, Great Britain, Zambia | 25 | https://ia.ua/ru/ |
| LCC "IT PROGECT" | Design and implementation of IOT at facilities of industrial complexes, agriculture, transport, housing and communal services | Ukraine | 12 | https://www.atiko.com.ua/ |
| HR COMPANY "WORLDWIDEOPPORTUNITIES" | Employment, training and retraining services for specialists. | Germany, Ukraine | 3 | https://wwop.com.ua |
| NATIONAL UNIVERSITY "ZAPORIZHZHIA POLYTECHNIC" | Basic and applied research; training. The university prepares specialists for the aviation, aerospace, electrical, electric power, metallurgical, machine-building, radio-electronic industries | Austria, Belgium, Bulgaria, Belarus, Kazakhstan, Georgia, Spain, Germany, United Kingdom, Poland, Romania, Slovakia, Turkey, Czech Republic, Ukraine | 121 | https://zp.edu.ua/ |
| ASSOCIATION OF INDUSTRIAL AUTOMATION OF UKRAINE (APPAU) | development of the local market through set-up of professional standards in technical field and in business development. It represents the interests of the Ukrainian | EU, USA, Ukraine | 11 | https://appau.org.ua/ |

| | | | | |
|---|---|---|---|---|
| | industrial automation community. | | | |
| ZAPORIZHZHIA CHAMBER OF COMMERCE AND INDUSTRY (CCI) | Certification of origin of goods<br>Customs broker services<br>ATA carnets<br>Legal Services<br>Translation agency<br>Organization of international economic cooperation<br>Implementation of quality management systems<br>Certification of commercial documents<br>Educational programs<br>Conference service<br>Conference halls for rent<br>Public procurement<br>Commodity expertise<br>Price examination<br>Patent and license services<br>Definition of codes | Argentina, Australia, Bulgaria, Brazil, Czech, Canada, India, France, Finland, Georgia, Germany, Lithuania, Poland, Slovakia, Spain, Syria, Tajikistan, Turkey, Ukraine, Venezuela | 81 | https://www.cci.zp.ua/ |

Compiled by authors from open sources

The Zaporizhzhia CCI plays an important role in the development of the Zaporizhzhia EAM cluster. The National University "Zaporizhzhia Polytechnic" is a member of the Zaporizhzhia Cluster "Engineering – Automation – Machinery" (EAM). The aim of this cluster is to become a cross-border excellence organization with high quality services for international demand orientation. This organization is based on a collaboration of a wide variety of players in engineering as well as automation and machinery. Members of the cluster include the Zaporizhzhia Chamber of Commerce and Industry, industrial enterprises (Triada Ltd Co., Blysk metal service pro), IT companies (Infocom Ltd), industrial parks (Konecranes), and other organisations. Infocom Ltd (the city of Zaporizhzhia) offers market products and solutions in the field of specialised software

development, alternative energy, electric vehicles, robotics, computer vision, drones, etc. For this company, it is exports and integration into global value chains that are the source of its innovative development.

Zaporizhzhia cluster "EAM" is included in the regional development strategy until 2027. The draft action program for the development of small and medium enterprises in the city of Zaporizhia for 2022-2025 has been included in the action plan. Zaporizhzhia cluster "EAM" has initiated cooperation between all members of the cluster. A joint innovation ecosystem of the region was also created for the purpose of innovation and R&D (research and development), production of new generation products ("Industry 4.0"), as well as joint implementation of engineering projects. Enterprises and organizations of the cluster created more than 1.6 thousand jobs and paid about 70 million UAH taxes (2020). The basis of the cluster formation is the coordination, coordination and synchronization of cooperation of participants in the following areas: definition of common goals and needs; building trust through networking and regular communications; launching a specific action plan, etc.

Members of the Zaporizhzhia EAM cluster regularly hold networking meetings, consult with each other, visit new enterprises, work on joint projects and discuss opportunities to create joint products, constantly study and participate in organized professional events, participate in exhibitions, etc. An important activity of the cluster is the formation of regional value chains and joining the global value chains. In September and November 2021, cluster representatives visited Lithuania and the Czech Republic and signed 2 memoranda of cooperation with two clusters (INDUSTRY CLUSTER 4.0 and Lithuanian Automotive Export Association LAuGEA Cluster) on cooperation and development of global value chains with more than 50 participating companies. The INDUSTRY CLUSTER 4.0 presents the Czech association of engineering and IT companies. Such measures are relevant in terms of developing global and regional value chains in the context of Ukraine’s cooperation with the EU’s countries.

Clusters are important organizational associations for combining the expertise and resources of small and medium-sized businesses. To this end, the unification of clusters into the Ukrainian Cluster Alliance was Clusters are important organizational associations for combining the expertise and resources of small and medium-sized businesses. To this end, the clusters were united into the Ukrainian Cluster Alliance. This Alliance of Clusters facilitates the ability to integrate into global value chains through Cluster2Cluster meetings.

The cluster community unites about 1800 enterprises from different regions of Ukraine at 35 clusters. These companies have their own specialization, resources and experience, the potential for joint growth. The expert environment expands, acquires new knowledge and initiates exchange and cooperation. Increasing the scale of the cluster community gives results in the search and implementation of projects, the formation of partnerships. Such processes take place in the national and international economy with business and clusters. Coordination of common priorities, loyalty to new participants, building trust against the background of current threats should ensure the development of the cluster movement. Integration into the GVC is able to stabilize economic relations and contribute to the recovery of Ukraine's economy.

## Conclusions

In the current situation of rapid changes in the authors consider relevant the interaction of economic potentials of Ukrainian and Azerbaijani clusters in order to integrate into regional and global value chains. The integration of clusters into global and regional value chains is important. The study showed that the enterprises of the Zaporizhzhia cluster have economic ties with the enterprises of Azerbaijan. The authors believe that the integration of Ukrainian and Azerbaijani clusters has great potential. This article examines proposals for

studying the practice of clustering in Ukraine. It is proposed to search for new directions of integration of Ukrainian and foreign cluster associations. The authors propose to organize a business presentation of the capabilities of the Zaporizhzhia cluster EAM (Engineering-Automation-Machinery) and cluster associations of Azerbaijan in order to find ways of mutual integration into global and regional value chains. The mission of EAM cluster is to become a cross-border excellence organization with high quality services for international demand orientation. Achieving new markets, branding and building long-term partnerships is important for the cluster.

**References**

1. Карпенко А. В. Розвиток інтелектуальних активів людського потенціалу: теорія та практика: монографія. Запоріжжя: Мокшанов В. В. 2018. 510 с. URL: https://jmonographs.donnu.edu.ua/issue/view/217

2. Карпенко А. В., Карпенко Н. М. Кластери як форма забезпечення інноваційного розвитку регіону. Підприємництво в аграрній сфері: глобальні виклики та ефективний менеджмент : матеріали II Міжнародної науково-практичної конференції (9-11 лютого 2021 р.). за заг. ред. Л. М. Бухаріної. Запоріжжя: ЗНУ, 2021. С. 204-207.

3.Юрчак О. Розвиток кластерів «Інжиніринг – Автоматизація – Машинобудування» в регіонах Харкова та Запоріжжя. Фінальний звіт проєкту ClusteRISE. 2021. 34 с. URL:www.appau.org.ua

4.Official site of Ukrainian Cluster Alliance. URL: https://www.facebook.com/UAClusterAlliance

5. Sevast`yanov R.V. (2021). The Prospects of Ukraine's integration into global value chains within the framework of European integration . Public Governance, No. 2(56)/2021, p. 100-115. URL: https://publicgovernance.pl/index.php/zpub/article/view/603/411

6. Official site of the Zaporizhzhya cluster EAM (Engineering-Automation-Machinery). URL: https://www.iamcluster.zp.ua/

**Andrey Karpenko**
**Rodion Sevastyanov**

## UKRAYNA KLASTERLƏRİNİN İNTEQRASİYA PROBLEMİ HAQQINDA QLOBAL İSTEHSALAT-SATIŞ ZƏNCİRLƏRİ

**Xülasə**

*Qlobal və regional istehsal-satış zəncirlərindəki dəyişikliklərə təsir edən siyasi və iqtisadi amilləri qiymətləndirmək vacibdir. Ukraynadakı qruplar istehsal və satış zəncirlərinin pozulması ilə bağlı problemlər yaşayırlar. Bu problemləri həll etmək üçün klasterlərin fəaliyyətini hərbi vəziyyət şəraitində tənzimləmək lazımdır. Nəqliyyat marşrutlarının pozulması və biznesin yerdəyişməsi qlobal istehsal-satış zəncirlərinin formalaşmasına əhəmiyyətli iqtisadi təsir göstərir. Müasir dünya iqtisadiyyatının strukturu çoxsəviyyəli və qarşılıqlı asılılığın xüsusiyyətlərinə malikdir.*

UOT 33.63

**Hicran Mirzəyeva**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, dosent, dekan*
*akademiya_sm@mail.ru*

# KƏND TƏSƏRRÜFATININ İDARƏ EDİLMƏSİNİN MODERNLƏŞDİRİLMƏSİ VƏ AQRAR SİYASƏT METODLARI

**Xülasə**

Sosialist təsərrüfatçılıq sisteminin dağıdılması, bazar iqtisadi sisteminə keçid xüsusi mülkiyyətə və sərbəst iqtisadiyyata əsaslanan təsərrüfatçılığın özünə məxsus prinsip və metodlarını müəyyənləşdirir. Məhz bunlardan bacarıqla istifadə sayəsində istehsalın iqtisadi səmərəliliyi təmin oluna bilər. İslahatların ilkin mərhələsində planlaşdırmadan və dövlət tənzimlənməsindən imtina edilməsi nəticə etibarı ilə idarəetmənin mahiyyətinə, forma və metodlarına ciddi xələl gətirdi. Məqalədə idarəetmənin təkmilləşdirilməsi məsələləri təhlil edilir.

***Açar sözlər:*** kənd təsərrüfatı, aqrar sahə, idarəetmə, indikativ planlaşdırma, ərzaq təhlükəsizliyi

## Giriş

Hələ XX əsrin 80-cı illərindən inkişaf etmiş dünya ölkələrindən pompalanan "globallaşma" ideolagiyası iflasa uğramaqdadır.

Son illərdə dünyada baş verməkdə olan təbii – iqtisadi və sosioloji katoklizmalar, dövlətlər arasında münasibətlərin kəskinləşməsi, yeni qütbləşmə tendensiyalarının meydana gəlməsi, maliyyə iqtisadi risklərinin tezliyinin artması və ən nahayət kəskin ərzaq qıtlığının yaranması fonunda qlobal miqyasda siyasi-iqtisadi gərginlik günbə gün artmaqdadır.

Vəziyyət elə bir kritik hal almışdır ki, sanki idarəoluna bilən "xaos" senarisi dövrün siyasi və iqtisadi kateqoriyası kimi qəbul oluna bilən hal kimi qəbul olunmaqdadır. Yəni günü - gündən kəskinləşən bu qlobal dəyişikliklər hər bir gənc suveren dövlətin mövcudluğunu, siyasi və iqtisadi suverenliyinin təmin olunmasını çətinləşdirməkdədir. Mövcud inkişaf səviyyəsində dövlətlər iqtisadi və siyasi təhlükəsizliyinin təminatının gündəmdən düşməməsi üçün ölkələrin strateji inkişaf strategiyasının əsas prioritetlərinin reallaşdırmasına imkan tapmırlar.

Belə bir mühitdə suveren dövlətin iqtisadi təhlükəsizliyinin əsas tərkib hisslərindən biri olan ərzaq təhlükəsizliyi məsələsini təmin edə bilən kənd təssərüfatının, aqrar sahənin inkişafı ön plana keçirilir. Bu həm inkişaf etmiş və həmdə inkişaf etməkdə olan ölkələrin hamısı üçün eyni mahiyyət daşımaqdadır. Fərq ondadır ki, sonuncu ölkələrdə istehsalın təşkili, təmərküzləşməsi, sivil istehsal münasibətlərinin qurulması, maliyyə-sığorta, planlaşdırma və proqramlaşdırma məsələləri idarəetmə sahəsində ciddi və operativ təkmilləşdirmələr tələb edir.

## Modernləşmə aqrar sahədə təkmil idarəetmə sisteminin əsas şərtidir

Ölkəmizin inkişafında ən mühüm prioritet məsələlərdən biri olan aqrar -sənaye kompleksinin problemlərinin təcili həlli, öz dərinliyinə və mürəkkəbliyinə görə dövlətin və cəmiyyətin düşünülmüş uzunmüddətli strategiyasını tələb edir. Bu strategiyanın əsas tərkib

hissəsələrindən biri olan modernləşmə prosesləri Azərbaycanda ilkin olaraq aqrar sahədə radikal islahatlar ilə başlanmışdır.

9. Mentsiev A.U., Tamirlan R.Magomaev and Kamila D.Dauletukaeva. Cloud technologies in the education system. Journal of Physics: Conference Series, 2020, volume 1691, 1st International Scientific Conference «ASEDU-2020: Advances in Science, Engineering and Digital Education» 8-9 October 2020, Krasnoyarsk, Russian Federation. DOI:10.1088/1742-6596/1691/1/012178
10. Sarfraz N.Broh, Mervat A.Bamiah, Babak Bashari Rad. Big Data technology in education: Advantages, implementations, and challenges. Journal of Engineering Science and Technology, Special Issue on ICCSIT 2018, pp.231-241.

**Nurəngiz Mikayılova, dosent**
**Hikmət Mirzəyev, doktorant**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*maliyyə.mühasibatuçotu@bk.ru*

## İNKİŞAF ETMİŞ ÖLKƏLƏRDƏ BÜDCƏLƏRARASI TRANSFERTLƏR

***Açar sözlər:*** *transfetr, xarici ölkələr, dövlət büdcəsi, bələdiyyə büdcəsi, daxilolmalar*

### Giriş

Beynəlxalq təcrübədə bir qayda olaraq transfert ehtiyaclarının müəyyən edilməsi zamanı ya transfert fondunun milli büdcədə xüsusi çəkisi müəyyən edilir, ya fondun həcmi hər ilin büdcə qanununda müəyyən edilir, ya da transfertlərin həcmi "xərclərin əvəzlənməsi" prinsipinə əsaslanır.

Transfert fondunun həcminin müəyyənləşdirilməsindən dərhal sonra onun bölüşdürülməsi prinsiplərinin və meyarlarının seçilməsi məsələsi aktuallaşır.

Burada 4 müxtəlif variant mümkündür:

1. Dövlət orqanları yerli özünüidarə qurumlarının ərazisindən yığdığı gəlirlərin bir hissəsini onların özlərinə qaytarır (buna "vəsaitlərin mənşə" prinsipi deyilir);
2. Transfertlərin düstur üzrə bölüşdürülməsi,
3. Müqavilə əsasında bölüşdürmə. Burada transferti alanın tələbatından asılı olaraq həmin vəsaitlər müqavilə əsasında təqdim edilir;
4. Transfertlər xərclərin əvəzlənməsi prinsipinə uyğun olaraq bölüşdürülür.

Transfertlər yerli özünüidarəetmə qurumlarına onların öz səlahiyyətlərini həyata keçirmək üçün yuxarı büdcə həlqələrindən aşağıya doğru ötürülən maliyyə yardımıdır. Büdcələrarası transfertlərin təcrübədə tətbiqi zamanı daima iki problem önə çəkilir. Birincisi, bu transfertlərin ümumi həcmi necə müəyyən edilir, ikincisi isə məcmu transfert fondu aşağı büdcə həlqələri arasında necə bölüşdürülür.

### Büdcələrarası transfertlərin hesablanmasının ən populyar metodları

Ayrı-ayrı ölkələrin təcrübəsində büdcələrarası transfertlərin istifadəsində məqsəd və formalar oxşar olsa da, onların tətbiqi fərqli metodologiyalara əsaslanır. Beynəlxalq təcrübədə transfertlərin hesablanmasının ən geniş metodlarına aşağıdakılar daxildir:

1. Faktiki büdcə xərcləri əsasında maliyyə ehtiyaclarının müəyyənləşdirilməsi. Xərc ehtiyaclarının qiymətləndirilməsi baza ilinin faktiki büdcə xərclərinə əsaslanır. Bu

metodikanın üstünlüyü onun şəffaflığı və tətbiqinin sadəliyidir. Lakin faktiki büdcə xərclərilə ehtiyaclılığın qiymətləndirilməsi yerli hakimiyyət orqanlarının kifayət qədər muxtariyyətə malik olduğu şəraitdə effektli olur. Uzun müddət ərzində mərkəzləşdirilmiş xərc siyasətinin həyata keçirildiyi ölkələrdə isə bu metod əhalinin bu və ya digər ictimai xidmətlərə tələbatının səviyyəsini müəyyənləşdirməyə imkan vermir. Faktiki xərc üsulunun ən çatışmayan cəhətlərindən biri yerli hakimiyyət orqanlarında qeyri-səmərəli xərcləmələri azaltmağa stimul yaratmamasıdır. Beynəlxalq təcrübə göstərir ki, adətən bu üsul daha çox etibarlı regional statistikanın olmadığı şəraitində tətbiq olunur. Hazırda faktiki xərc metodundan İspaniyada, İndoneziyada, Vyetnamda və bir sıra postsosialist ölkələrdə istifadə edilir.

2.Əhalinin sayı əsasında transfertlərin müəyyənləşdirilməsi. Bu üsul əhalinin ictimai xidmətlər dəstinə (və ya ayrıca götürülmüş ictimai xidmətə) əlçatanlığını təmin etmək üçün transfertlərin ayrılmasını nəzərdə tutur. Əhalinin say göstəricisi əsasında xərc ehtiyaclarının hesablanmasının başlıca çatışmayan cəhəti ərazilərin büdcə resurslarına ehtiyaclarını nəzərə ala bilməməsidir. Bu üsul kifayət qədər çoxsaylı ölkələrdə, o cümlədən, Almaniya və Kanadada geniş tətbiq dairəsini tapmışdır.

3.Normativlər əsasında transfert ehtiyaclarının müəyyənləşdirilməsi. Təcrübədə belə normativlər sosial və fiziki standartlara əsaslanır. Bu üsulun tətbiqi zamanı transfert ehtiyaclarının hesablanması zamanı planlaşdırılan xərclərin ümumi həcmi ictimai xidmətlərin istehlakçılarının (məktəb yaşlı uşaqların, əmək qabiliyyətli yaşdan yuxarı yaşda olan əhalinin) sayına bölünür. Coğrafi şəraitlə bağlı ximətlərin dəyərində fərq olduqda, o halda əmsalların tətbiqilə həmin fərqlər korreksiya edilə bilər. Bu üsulun ən başlıca üstünlüyü onun şəffaflığında və asan hesablana bilməsində, çatışmayan tərəfi isə bəzən əhalinin real büdcə ehtiyaclarını nəzərə ala bilməməsindədir.

Normativlərə əsaslanan xərclərin qiymətləndirilməsi metodikasının tətbiqinin bir sıra çətinlikləri mövcuddur. Hər şeydən əvvəl onun təcrübədə istifadəsi böyük həcmi statistik informasiya tələb edir. Təbii ki, statistik uçotun mükəmməl olmadığı keçid ölkələrində bu regionlar üzrə ehtiyaclığın müəyyən olunmasında ciddi kənarlaşmalara səbəb ola bilir.

Normativlər əsasında transfert ehtiyaclarının qiymətləndirilməsi metodikası keçid ölkələrində (məsələn, Ukrayna, Çexiya və s.) zəif inkişaf etmiş ölkələrdə (məsələn, Vyetnam), həmçinin inkişaf etmiş ölkələrdə (məsələn, Danimarka, Yaponiya və s.) istifadə olunur.

4.Reprezentativ sistem əsasında transfertlərin həcminin müəyyənləşdirilməsi. Bu metod konkret ərazilərdə vahid büdcə xidmətləri dəstinin dəyərini müəyyən etməyə imkan verir.

Reprezentativ sistemlə xərclərin qiymətləndirilməsi sisteminin əsasında belə bir yanaşma dayanır ki, xərc ehtiyaclarının ərazilər üzrə bölgüsü büdcə xidmətlərinə tələbin (bu, büdcə xidmətlərinin istehlakçıları olan benefisiarların sayına əsasən müəyyən edilir) coğrafi differensiyasına uyğundur. İlkin mərhələdə transfertlərin təqdim olunacağı hər bir ərazi üzrə büdcə xidmətlərinin standart dəsti, sonrakı mərhələ isə seçilmiş hər bir xidmət üzrə istehlakçıların kateqoriyası müəyyənləşdirilir. Öz növbəsində, ayrı-ayrı ərazilərin büdcə xidmətlərinin benefisiarlarının ümumi sayında xüsusi çəkisi həmin ərazilərin konkret xidmətlərə nisbi ehtiyaclılıq səviyyəsini müəyyən etməyə imkan verir.

5.Nisbi büdcə ehtiyaclılığı indeksi əsasında transfertlərin müəyyənləşdirilməsi. Transfertlərin hesablanmasının bu metodu beynəlxalq təcrübədə kifayət qədər geniş yayılıb və onun tətbiqi bir sıra mühüm məsələnin həllilə bağlıdır. Burada hər şeydən əvvəl ərazinin xərc ehtiyatlarına təsir göstərən coğrafi faktorlar müəyyən edilir. İstifadə edilən amillərin sayı isə etibarlı statistik məlumatların mövcudluğundan asılıdır. Məsələn, bu üsulla transfertlər hesablanarkən Hindistanda iki faktordan - əhalinin sayı və ərazinin ölçüsündən, İsveçrədə isə bu amillərdən savayı dağlıq ərazilərdə yaşayanların ümumi əhalidə xüsusi

çəkisi göstəricisindən istifadə olunur.

Yerli özünüidarəetmələr dövlətin maliyyə siyasətinin üç əsas funksiyası olan iqtisadi sabitliyin təmin edilməsi, gəlirin bölüşdürülməsi və ictimai xidmətlərin yerinə yetirilməsində mühüm rol oynayır. Dövlət idarəetmə sisteminin əhəmiyyətli ünsürlərindən olan bu qurumlar, bazar iqtisadiyyatının müvəffəqiyyətsiz və ya qeyri-kafı olduğu zaman iqtisadiyyata müdaxilə etmək surətiylə müxtəlif funksiyaları yerinə yetirən dövlətin, ictimai sahədəki məsuliyyətlərini bölüşən bir təşkilatlanma formasıdır [Ergin Y.B., 1981:65].

**Transfertlərin tətbiqi təcrübəsi**

Böyük Britaniya dünyanın ikipilləli büdcə sisteminə malik inkişaf etmiş ölkələrindən biridir. Hazırda bu ölkədə dövlət xərclərinin üçdə birindən çoxu yerli büdcələr vasitəsilə maliyyələşdirilir. Öz növbəsində təhsil xərclərinin 29, sosial müdafiə xərclərinin 33, ictimai təhlükəsizlik (polis və yanğınsöndürmə) xərclərinin 12 faizi yerli özünüidarəetmə orqanları vasitəsilə reallaşdırılır.

Dövlət öz üzərinə düşən idarəçilik yükünün bir hissəsini müəyyən subyektlərə verir və bununla da, idarəçilik resurslarına qənaət olunur. Başqa bir tərəfdən, dövlət idarəçilik verilən subyektlərə öz marağına uyğun problemləri həll etmək imkanı verməklə bərabər, onun qarşıya qoyulan məqsədlərə çatmaq istəyini də stimullaşdırır və idarəetmənin səmərəli olması müəyyən qədər təmin edilmiş olur [Huntington, və başqaları, 1976:173]

Böyük Britaniyada büdcələrarası tarazlaşdırma sistemi kifayət qədər mürəkkəbdir və hər şeydən əvvəl ölkənin müxtəlif hissələrində fərqli sistemlərin tətbiqilə bağlıdır. Amma maliyə yardımlarının ayrılması bütün ölkə üçün vahid olan prinsiplər əsasında keçirilir. Yerli büdcələrin maliyyə dəstəklənməsinin iki forması mövcuddur. Birincisi, blok/qrantlardır - bunlar İngiltərə və Uelsdə gəlirlərin artırılması üçün maliyyə yardımları adlandırılır. İkincisi xüsusi məqsədlər üçün qrantlardır. Sonuncu qrup maliyyə yardımları "təhsil qrantları" da adlandırılır.

Birinci qrup transfertlər yerli büdcənin xərcləri və yerli gəlirlər (reprezentativ vergi sistemi əsasında yerli idarəetmə orqanlarına həvalə olunmuş gəlir mənbələri əsasında hesablanmış məcmu gəlirlər) arasında fərqə əsasən ödənilir. Əgər mərkəzi hökumət prioritet maliyyələşmə istiqamətləri müəyyən edirsə, bu halda yerli büdcələrə xüsusi qrantlar ayrılır. Ümumi (məqsədsiz) qrantlardan fərqli olaraq xüsusi (məqsədli) maliyyə yardımları yalnız təyinatı üzrə xərclənə bilər. Hazırda Böyük Britaniyada mərkəzi hökumətin maliyyə yardımlarının 90 faizini məqsədsiz, cəmi 10 faizini isə məqsədli tansfertlər təşkil edir.

Transfertlərin həcminin müəyyən olunması üçün gəlir bazası müəyyənləşdirilərkən mənzillər üçün tətbiq olunan əmlak vergisindən daxilolmaların səviyyəsi əsas götürülür. Bu vergi növündən yerli bücələrə faktiki daxilolmaların proqnozdan kənarlaşması qrantların həcminə dərhal təsir göstərir[Марченко Г.В. 1995: 86].

Xərc normativləri isə xarakterinə görə bir-birindən xeyli fərqlidir. Məsələn, təhsil alan uşaqların sayı, o cümlədən, xüsusi qayğıya ehtiyacı olan uşaqların sayı, yolların uzunluğu, o cümlədən, intensiv istifadə olunan yolların uzunluğu və s. kimi faktorlar əsasında orta xərc normativləri müəyyənləşdirilir. Bundan başqa, xərc normativləri təhsil müəssisələrinin tipindən asılı olaraq fərqlənir. Məsələn, uşaq bağçaları, orta məktəblər və ibtidai tədris müəssisələri üçün xərclərin standart qiymətləndirilməsi kriteriyaları aşağıdakı kimi müəyyən edilir:

- yerli dövlət məktəblərində oxuyanların sayı;
- ölkədən kənarda oxuyanların sayı;
- natamam ailələrin sayı;
- sosial yardım alan ailələrin sayı;
- əhalinin sıxlığı;

- ❖ uşaqların məktəbdə gün ərzində pulsuz qidalanmalarının sayı;
- ❖ pensiya yaşlı əhalinin sayı;
- ❖ 0-17 yaşlı uşaqların sayı;
- ❖ mənzili olmayan uşaqlı, yaxud hamilə qadınların sayı;
- ❖ icarə mənzildə yaşayan yaşlı əhalinin sayı;
- ❖ tənha yaşayan ahılların sayı və s.

İtaliya unitar dövlət quruluşuna malik olsa da, bu ölkədə çoxpilləli dövlət hakimiyyət orqanları mövcuddur. Ölkə 20 regiona, 99 əyalətə, 8100 bələdiyyəyə və 212 yerli səhiyyə vahidinə (Local Health Units) bölünür. Öz növbəsində, 20 regiondan beşi xüsusi statusa malikdir və onların öz büdcələrinin xərc bazasının müəyyənləşdirilməsilə bağlı geniş müstəqilliyi var. Hazırda İtaliyada büdcə sistemi üzrə xərc öhdəliklərinin bölgüsü aşağıdakı kimidir:

- ❖Regionların büdcəsi hesabına tibb müəssisələrinin saxlanması, şəhərsalma, su təchizatı və yol tikintisi işlərinin planlaşdırılması, habelə regionlararası sərnişin daşınmasının təşkili həyata keçirilir;
- ❖Əyalətlərin büdcəsi hesabına regional əhəmiyyətli yolların saxlanması və tikintisi, ətraf mühitin qorunması, regional əhəmiyyətli təhsil və mədəniyyət müəssisələrinin (muzeylər, teatrlar, yerli universitetlər və s.) fəaliyyətinin təmin olunması həyata keçirilir;
- ❖Bələdiyyə büdcələri hesabına bu qurumlara məxsus yolların saxlanması və tikintisi, küçələrin təmizlənməsi, bələdiyyə ərazisində yaşayan əhalinin qaz və elektriklə təminatı, məktəblərin və yerli polis məntəqələrinin saxlanması və s. həyata keçirilir.

Bələdiyyələrin səlahiyyətində olan xərc öhdəliklərinin əksəriyyəti yuxarı idarəetmə pillələrindən ötürülüb. Bununla yanaşı, İtaliyada xərc səlahiyyətlərinin ötürülməsi yuxarı büdcə həlqələrindən uyğun həcmdə məqsədli qrantların ayrılması ilə müşayiət olunur.

Hazırda bu ölkədə yerli büdcələrin gəlirlərinin yarısından çoxu həmin qurumların şəxsi gəlir mənbələri hesabına təmin edilir. Halbuki 1992-ci ildə həyata keçirilən vergi islahatlarınadək region büdcələrinin cəmi 3 faizini bu qurumların vergi və qeyri-vergi mənbələri, yerdə qalan hissəsini isə məqsədli qrantlar təşkil edirdi. 1993-cü ildə büdcə-vergi sisteminin əksmərkəzləşməsi istiqamətində başlanan islahatların ilk mərhələsi çərçivəsində regionlar bir sıra vergilər üzrə vergi dərəcələrini dəyişmək hüququ qazandılar. Eyni zamanda, səhiyyə sistemi üçün müəssisə və təşkilatların əmək haqqı fondundan, fiziki şəxslərin gəlirlərindən səhiyyə sistemi üçün tətbiq olunan məqsədli vergidən daxilolmaların müəyyən hissəsinin regionların büdcəsinə köçürülməsi barədə qərar qəbul olundu.

İtaliyada region büdcələrinə ayırmaların iki mənbəyi var: ümumi fond (Common Fund) və regionların inkişafı fondu (Regional Development Projects Fund). Hər iki fondun vəsaitlərinin bölgüsü əhalinin sayına, ərazinin ölçüsünə və regionda işsizliyin səviyyəsinə görə bölüşdürülür.

İtaliyada yerli büdcələrə ayrılan transfertlərin iki növü mövcuddur: məqsədsiz və məqsədli xarakter daşıyan transfertlər. Məqsədsiz transfertlərin regionların məcmu büdcə gəlirlərində payı cəmi 3 faiz təşkil edir. Bu ölkədə adıçəkilən transfertlər əsasən üç müxtəlif məqsədə yönəldilir və həmin istiqamətlər aşağıdakılardır:

- ❖ Standart cari xərclərin maliyyələşdirilməsi;
- ❖ Xüsusi proqramların (məsələn, gənclərin məşğulluğunun təmin edilməsi proqramı) maliyyələşdirilməsi;
- ❖ Bələdiyyələrin vergi bazasındakı natamamlığın kompensasiya edilməsi ilə bağlı xərclərin maliyyələşdirilməsi.

Məqsədli qrantlar məcmu transfert fondunun əhəmiyyətli hissəsini təşkil etməklə iki mənbədən ayrılır: Səhiyyənin maliyyələşdirilməsi üzrə Milli Fond və Milli Nəqliyyat Fondu. Qeyd etmək lazımdır ki, İtaliyada nəqliyyat və tibbi xidmətlər bilavasitə regional orqanlar tərəfindən göstərilmir. Çünki sərnişin nəqliyyatı bələdiyyə korporasiyalarının

mülkiyyətində, tibb müəssisələri isə yerli səhiyyə dairələrinin balansında yerləşir. Amma xidmətlərdən əldə olunan gəlirlər onların dəyərini kompensasiya etmədikdə aradaki fərq regional büdcədən ödənilir.

Nəhayət, dünyanın inkişaf etmiş unitar dövlətləri sırasında büdcələrarası transfertlərin tətbiqi sahəsində yetkin təcrübəyə malik ölkələrdən biri də Fransadır. Bu ölkədə yerli özünüidarəetmənin qeyri-iearxik üç pilləsi mövcuddur. Bura 22 region, 96 departament və 36621 kommuna daxildir. Departament və regionların hər biri dövlət hakimiyyətinin təmsilçiləri kimi ayrı-ayrılıqda inzibati-ərazi vahidləri hesab olunurlar. Fransada yerli büdcə xərclərinin məcmu dövlət xərclərində xüsusi çəkisi 18 faizdir. Öz növbəsində, mənzil-kommunal təsərrüfatı xərclərinin 24 faizi, təhsil xərclərinin 20 faizi, sosial yardım xərclərinin isə 18 faizi yerli büdcələr hesabına təmin olunur. Fransada yerli gəlirlərin 30 faizindən çoxu mərkəzi büdcədən ayrılan transfertlər hesabına təmin edilir. Transfertlər departament və kommunalar üçün ayrıca olaraq müəyyən olunur və onların bank hesabına köçürülür. Bu ölkədə əsas transfert fəaliyyət üçün dotasiya hesab edilir və o məqsədsiz xarakter daşıyır. Fəaliyyət üçün dotasiyanın həcmi və bölüşdürülməsi prinsipləri 1979-cu ildə qanunvericiliklə təsdiqlənib, 1994-cü ildə isə həmin normativ bazaya dəyişikliklər olunub [government.nl/topics]. Bu, dotasiyanın benefsiarları qismində departament və kommunalar çıxış edir. Fəaliyyət üçün dotasiya onlar arasında 5:1 nisbətində bölünür. Transfert fondunun həcminin illik artımı baza ilinin inflyasiya və ÜDM artımına uyğun olaraq korreksiya olunur. Fəaliyyət üçün dotasiya hər bir bələdiyyə üzrə obyektiv göstəricilər və vergi potensialı nəzərə alınmaqla departament və kommunalar arasında bölüşdürülür. Həmin göstəricilərə əsasən büdcə xidmətlərinin istehlakçılarını sayı (o cümlədən əhalinin sayı, məktəb şagirdlərinin sayı və s.) və baza indikatorları (məsələn, bələdiyyənin şəhər, yoxsa kənd yaşayış məntəqəsi olması, yolların uzunluğu və s.) daxildir.

Kanada. Kanada 10 əyalət və 3 ərazi olmaqla 13 federativ subyektdən ibarətdir. Bundan əlavə, Kanadada 5000-ə yaxın bələdiyyə vardır ki, buraya şəhərlər, kəndlər, tuanşiplər (xüsusi ərazi vahidləri), qraflıqlar və xüsusi xidmət rayonları (special service districts) daxildir. Kanadada büdcə sistemi üçsəviyyəlidir: federal, regional (əyalət/ərazi) və yerli.

Kanada Konstitutsiyasında büdcə sisteminin hər üç səviyyəsi üzrə idarəetmə orqanlarının səlahiyyətləri və vergilərin tipi müəyyənləşdirilmişdir.

Federasiya səviyyəsində yalnız büdcə sisteminin birinci və ikinci səviyyələri-yəni federal hökümətlə 10 əyalət və 3 şimal ərazisinin hökümətləri arasında büdcələrarası münasibətlər qanunvericiliklə tənzimlənir. Yerli özünüidarəetməyə (yerli büdcələr səviyyəsinə) konstitutsiya ilə təminat verilir, lakin hər bir əyalət və ərazi üzrə fərdi qaydada tənzimlənir. Bununla belə Kanadada müxtəlif əyalətlərdə həyat səviyyəsinin bərabərləşdirilməsinə yönəldilən tədbirlər-federal büdcədən geridə qalmış əyalətlərin büdcələrinə dotasiya proqramları həyata keçirilir. Bu ödənişlərin miqdarı heç də hər il təsdiq olunmur, belə qərarlar əyalətlər üzrə adambaşına düşən gəlirlər əsasında hesablanan formullar üzrə hesablanaraq qəbul olunur. Bu ödənişlərin bir hissəsi birgə federal-əyalət və əyalət bələdiyyə iqtisadi və sosial inkişaf proqramlarının reallaşdırılmasına yönəldilir.

Kanadada vergi sistemi əsasən ABŞ vergi sistemini müəyyən mənada təkrarlayır. Burada vergilər federal, regional və yerli büdcələr tərəfindən sərbəst şəkildə təyin edilə bilər. Bütün səviyyəli büdcələr tərəfindən təyin olunan vergilərin siyahısı açıqdır. Bununla belə Kanadada icmal büdcənin gəlirlərinin əksər hissəsi federal hökümət tərəfindən təyin edilən vergilər hesabına təmin olunur. Üç büdcə səviyyəsi arasında vergi gəlirlərinin nisbətləri 48:43:9 kimidir.

Federal büdcəni gəlirləri əsasən fiziki şəxslərdən gəlir vergisi (büdcənin bütün gəlirlərinin 47 faizinə qədəri), korporasiyaların gəlirlərindən (mənfəətindən) vergi (büdcə gəlirlərinin 14 faizinə görə qədəri) və əmtəə və xidmətlərə görə vergilər (büdcə gəlirlərinin

13 faizinə qədəri) hesabına formalaşır. Regional (əyalət/ərazi) büdcələrin gəlirlərinin formalaşmasında fiziki şəxslərdən gəlir vergisi (büdcənin bütün gəlirlərinin 30 faizi), satışdan vergi (büdcə gəlirlərinin 16 faizi) və əmtəə və xidmətlərə görə vergilər (büdcə gəlirlərinin 13 faizi) başlıca rol oynayır. Bunlardan fərqli olaraq yerli büdcələrin gəlirlərinin 70 faizini daşınmaz əmlaka görə ödənilən vergilər təşkil edir.

Kanadada büdcə sisteminin 3 səviyyəsi arasında xərclər nisbəti 41:48:11 kimidir. Başqa sözlə, xərc səlahiyyətlərinin əksər hissəsi məhz regional (əyalət/ərazi) büdcənin üzərinə düşür. Regionun (əyalətin və ya ərazinin) icmal büdcəsinin başlıca xərclərini təhsil (bütün xərclərin 25 faizindən çoxu), səhiyyə (bütün xərclərin 20 faizinə qədəri) və sosial yardımlar (bütün xərclərin 20 faizinə qədəri) təşkil edir[value-taxes/municipal-taxes].

Kanadada aşağı səviyyəli büdcələrin formalaşmasında transfertlər əhəmiyyətli rol oynayır. Federal büdcədən ayrılan transfetlər məqsədli (konkret proqramlar üzrə) və məqsədsiz olur. Federal büdcədən transfertlərin təqdim edilməsinn məqsədi ümumi şəkildə belə izah olunur: transfertlər ölkə daxilində harada yaşamalarından asılı olmayaraq bütün kanadalıların təqribən bərabər səviyyədə dövlət xidmətləri almalarına təminat verir. Tranfertlər əyalətlərdə səhiyyə, tam orta və ali təhsil, sosial yardım və sosial xidmətlər, uşaqların qorunması kimi ən mühüm proqramların həyata keçirilməsini dəstəkləyir.

Almaniya. İnzibati ərazi quruluşuna görə 16 əyalətdən (o cümlədən 3 şəhər) ibarətdir. Bu əyalətlərin (torpaqların) hökümətləri, federal hökümətdən sonra, dövlət hakimiyyətinin ikinci pilləsini təşkil edir.

Almaniyada yerli özünüidarəetmənin iearxik olmayan 3 səviyyəli büdcə sistemi mövcuddur: federal büdcə, əyalət (torpaq) büdcələri və yerli büdcələr. Federal hökümətlə əyalətlərin qarşılıqlı maliyyə münasibətlərini tənzimləyən prinsip və qaydalar, habelə vergilərin siyahısı Konstitutsiyada əks olunub. Almaniyada büdcələrarası münasibətlər sisteminin başlıca prinsipi ölkənin bütün əhalisi üçün eyni həyat səviyyəsinin təmin edilməsi hesab olunur.

Almaniyada gəlirlərin bölüşdürülməsi müxtəlif səviyyəli büdcələr vasitəsilə həyata keçirilir. Həm federal hökümət, həm də əyalətlər vergiqoyma sahəsində qanunverici səlahiyyətlərə malikdir. Vergilərin şaquli bölüşdürülməsi Konstitutsiyada təsbit olunub.

Ümumi vergilərə vətəndaşların gəlirlərindən vergi, korporasiyaların gəlirlərindən (mənfəətindən) vergi və satışdan (dövriyyədən) vergi daxildir. Qeyd edək ki, Almaniyanın icmal büdcəsinin məcmuu vergi daxilolmalarında ümumi vergilər 70 faizlik paya malikdir.

Qeyd etmək lazımdır ki, gəlir və korporasiyaların mənfəətindən verginin bölüşdürülməsi sabit xarakter daşıyır və bu proporsiya qanunverici əsaslarla təsbit olunub. Lakin onlardan fərqli olaraq, satışdan verginin büdcələr arasında paylanmasına hər il yenidən baxılır.

Almaniyada federal vergilərə gömrük ödənişləri, benzin, tütün, kofe və alkoqollu içkilərə (pivə istisna olmaqla) görə aksizliklər, yol vergisi, qiymətli kağızlarla əməliyyatlardan vergilər, sığorta ödənişləri, korporasiyaların mənfəətindən və əhalinin gəlirlərindən vergilər üzrə əlavə dərəcələr, AB-yə ödənişlər və s. aiddir.

Əyalət (torpaq) vergilərinə daxildir: sərvətə görə vergi (əmlak vergisi), miras və bəxşişə görə vergi, nəqliyyat vasitələrinin sahiblərindən tutulan vergi, pivəyə görə aksiz vergisi və qumar biznesinə görə vergi. Daşınmaz əmlaka görə vergi, yerli aksizlər, mədən vergisi və yerli yığımlar (ova görə, balıq ovuna görə, itlərin sahiblərinin ödənişləri və s.) yerli büdcələrin gəlirlərini əmələ gətirir.

Bütövlükdə federal büdcəyə bütün növ vergi gəlirlərinin 45 faizi, əyalətlərə 37 faizi, yerli büdcələrə 13 faizi daxil olur, yerdə qalan 5 faiz isə Avropa Birliyinin büdcəsinə köçürülür [Parsons T.,2016.:.324].

Almaniyada maliyyə sisteminin səciyəvi cəhəti yerli vergilərin dərəcələrinin aşağı və uyğun olaraq yerli büdcələrin gəlir potensialının az olmasıdır. Ona görə də mərkəzi

hakimiyyət orqanları yerli özünüidarəetmə qurumlarının xərclərinin əksər hissəsini yuxarı büdcə pillələrindən dotasiyalar hesabına kompensasiya edirlər. Bunun nəticəsidir ki, bələdiyyə büdcələrində subsidiya və dotasiyaların, bütövlükdə transfertlərin xüsusi çəkisi kifayət qədər yüksəkdir. Belə transfertlərin yerli büdcələrin gəlirlərində payı son illər 27-30 faiz təşkil edir. Bu vəsaitlər əsasən şəhərsalma, məktəb tikintisi, su təchizatı, kanalizasiya sisteminin inkişafı, mədəniyyət və incəsənət tədbirlərinin maliyyələşdirilməsi və bu kimi başqa yerli tədbirlərə yönəldilir. Ümumiyyətlə, Almaniyada transfertlər sisteminə daxildir:

- Şaquli tarazlaşdırma (vergi transferti);
- Satışdan (dövriyyədən) vergi üzrə gəlirlərin yenidən bölüşdürülməsi vasitəsilə ilə üfüqi tarazlaşdırma;
- Mənfi transfertlər vasitəsi ilə üfüqi tarazlaşdırma;
- Federal büdcədən transfertlər hesabına üfüqi tarazlaşdırma;
- Federal büdcədən əyalətlərə (torpaqlara) əlavə transfertlər.

Tranfertlərin ümumi həcmi əyalətlərin bütün gəlirlərinin 40 faizini təşkil edir.

Federal büdcədən əyalətlərə (torpaqlara) əlavə transfertlər. Yuxarıda qeyd olunan tarazlaşdırma proqramları ilə yanaşı federal büdcə ayrı-ayrı əyalətlərə xüsusi transfertlər də təqdim edir. Bu cür xüsusi transfertlər sırasında aşağıdakıları qeyd etmək olar:

- Şərqi əyalətlər üçün əlavə ayırmalar (il ərzində təqribən 7 milyard avro);
- Daha yüksək inzibati xərcləri kompensasiya edən bəzi əyalətlərə verilən transfertlər (təqribən 0,5 milyard avro);
- Federal büdcə borclarına xidmət göstərmək üçün əyalətlərə müvəqqəti subsidiyalar ayıra bilər;
- Federal büdcə əyalətlərə məqsədli proqramlar çərçivəsində transfertlər ayıra bilər.

**Nəticə**

Böyük Britaniyada transfertlər yerli büdcənin xərcləri və yerli gəlirlər (reprezentativ vergi sistemi əsasında yerli idarəetmə orqanlarına həvalə olunmuş gəlir mənbələri əsasında hesablanmış məcmu gəlirlər) arasında fərqə əsasən ödənilir.

Almaniyada yerli büdcələrə verilən transfertlər bir neçə funksiyanı yerinə yetirir: əvvəla, bunlar yerli özünüudarəetmə orqanlarının maliyyə vəsaitlərinin artırılmasına xidmət edir; ikincisi, bunların daha bir funksiyası məhsuldar qüvvələrin optimal planlaşdırılmasıdır-yəni ayrılan vəsaitlər xüsusi layihələrin maliyyələşdirilməsinə sərf olunur; nəhayət, transfertlər tarazlaşdırıcı funksiyanı yerinə yetirirərək ayrı-ayrı icmaların gəlirlərindəki fərqlərin aradan qaldırılmasına xidmət edir.

İtaliyada region büdcələrinə ayırmaların iki mənbəyi var: ümumi fond (Common Fund) və regionların inkişafı fondu (Regional Development Projects Fund). Hər iki fondun vəsaitlərinin bölgüsü əhalinin sayına, ərazinin ölçüsünə və regionda işsizliyin səviyyəsinə görə bölüşdürülür.

Sonda qeyd edə bilərik ki, yerli özünüidarə qurumlarının zəruri maliyyə resursları ilə təminatı əksmərkəzləşdirilmənin fundamental prinsipi hesab edilir və bu orqanların maliyyə resurslarının iki mənbəyi var:

1. Yerli özünüidarə qurumlarının özlərinə məxsus olan maliyyə mənbələri: yerli vergi və ödənişlər, borc vəsaitləri, əmlakın özgəninkiləşdirilməsindən daxilolmalar, ianələr və s.
2. Transfertlər. Bura milli (yaxud regional) büdcədən vergi ayırmaları və əvəzsiz köçürmələr (subsidiya, subvensiya və ya dotasiya) daxildir.

**Ədəbiyyat**

1. Ergin Y.B. Şehircilik. Ankara: Yüksek Teknik Öğretmen okulu matbaası, 1981, 303 s. 65

2. Huntington, Samuel P, Joan M. Nelson. No easy choice: political participation in developing countries, Harvard University Press, 1976 p. 332
3. Марченко Г.В. Государственная власть и местное самоуправление // Россия и современный мир. М.,1995. №4, с.84-86.
4. Parsons T. Strucüture and Process in Modern Societies; London 2016. p.324
5. https://www.government.nl/topics/municipalities/municipal-taxes
6. https://www2.gov.bc.ca/gov/content/governments/local-governments/finance/requisition-taxation/local-government-taxation/property-value-taxes/municipal-taxes

**Hümeyrə Mustafayeva**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), f.f.d., dosent*
*humeyramustafayeva12@gmail.com*

## MÜSTƏQİLLİK DÖVRÜNDƏ ELM VƏ TƏHSİL QURUCULUĞU

***Açar sözlər:*** dövlət, azərbaycançılıq ideologiyası, islahat, təhsil, elm

Cəmiyyətin özünü təşkilində sosial-siyasi model kimi milli cəmiyyət strukturu mürəkkəb təşkil mexanizminə malikdir.Bu mürəkkəblik müasir cəmiyyətimizdə daha çox qloballaşan dünyada milli maraqlarla ümumbəşəri maraqlar arasındakı qızıl ortanın tapılmasında, milli mentalla planetar demokratik universum arasında təzada,ziddiyyətə deyil,nizama əsaslanan münasibətlərin müəyyənləşdirilməsində özünü göstərir.Bu mürəkkəblik milli cəmiyyətin,yəni milli dövlət quruculuğunun elmi əsaslarla qurulmasını adi halda olduğundan daha çox zəruri edir.

Artıq dünyada çoxdan qəbul olunmuş bir həqiqət mövcuddur ki,sosial-ictimai və sosial-siyasi strukturun daha dayanıqlı mövcudlugu hökm sürür.Dünyada insan amilinə xidmət baxımından inkişafı heç bir amildən asılı olmayaraq ,həmin strukturada elmi idrakın nə dərəcədə iştirakından və bu idrakın texnoloji tətbiqinin geniş miqyasından asılı vəziyyətə çevrilibdir.Bu həqiqətin dərk olundugu demokratik ölkələrdə elmin və təhsilin inkişafı dövlətin əsas strateji istiqamətlərindən birinə çevrilmişdir.Elm və təhsil sosial-siyasi sistem içində elə bir strukturdur ki, cəmiyyətin sosial,siyasi,iqtisadi,mənəvi,mədəni və s.struktur mərhələləri bu sistemin məqsədləri əsasında təşkil olunaraq ictimai harmoniya yaradır.Yaranışdan məqsədi ali həqiqəti və gerçəkliyi dərk etmək olan elm gerçəkliyi və təbiəti öz məqsədlərinə xidmət etdirmək olan texnologiya ilə birləşərək həm cəmiyyətin struktur mexanizmlərinin təşkilində,həm də elmi-texniki irəliləyiş sahəsində əhəmiyyətli rol oynamışdır.Yenə də həm tarixin,həm də müasir dünyamızın sosial-siyasi cəmiyyət tiplərinin neqativ təcrübəsi onu göstərir ki,elmi inkişafın aşağı səviyyədə olduğu ölkələr sosial-strukturun dağılması, ictimai xaos və iqtisadi səfalət girdabına yuvarlanır,ictimai disharmoniya və total psixoz şəraitində məhvə sürüklənirlər.Müasir dövrdə müsəlman ölkələri Suriyanın,Liviyanın, Əfqanıstanın, İraqın taleyində biz bunun olduqca acı nümunələrini görmüş olduq.Bu total sosial disharmoniyanın baş verməsində,yaxud bunu yaratmağa çalışanların məqsədlərinə nail olmasında başlıca səbəb bütün digər amillərdən daha çox

elmsizlik idi.Biz elmsizliyi əsas səbəb kimi göstərərkən heç də bir ölkənin digərindən elmi-texnoloji biliklərə əsaslanan hərbi-texnoloji üstünlüyü nəzərdə tutmuruq.Biz daha çox mürəkkəb mexanızmlər əsasında da təşkil olunan cəmiyyətin özünün elmi prinsiplər əsasında təşkil olunmamasını,cəmiyyətin ayri-ayri səviyyələrini öyrənən elmi tədqiqat institutlarının olmamasını,cəmiyyətdə baş verən proseslərin vaxtında elmi baxımdan proqnozlaşdırılmamasını nəzərdə tuturuq.

Elmin və təhsilin cəmiyyətin formalaşmasında fəal iştirakına nail olmaq üçün ilk növbədə onun öz təşkilatı strukturunun elmi təşkilinə nail olmaq lazımdır. Bu iki təşkil bir biri ilə qarşılıqlı əlaqədə olan,biri digərinin şərtləndirən prosesdir.İnkişaf etmiş demokratik cəmiyyət adətən güclü maliyyə bazasına əsaslanan daha mükəmməl elmi təşkilati struktur təqdim edir. Eyni zamanda bu struktur beynin elm istehsalı üçün daha əlverişli şərait yaradır. Adətən bu əlverişli şəraitdə əldə olunan yeni elmi nailiyyətlər cəmiyyətin gələcək inkişaf mərhələsinə addim atmasına imkan və şərait yaradır.Elm və təhsil bir institusional sistem olaraq tərkibində olan siyasi sistemə heç vaxt borclu qalmır.İstənilən halda o,dövlətin milli gəlirindən ona ayrılan vəsaitini bir neçə dəfə artıqlaması ilə özünə qaytarmış olur. Yaxın tarixi keçmişimizdə müxtəlif ölkələrin elmi-təşkilati strukturlarının təcrübəsində bu proses dəfələrlə sübut olunmuşdur. Dünya dövlətlərinin yaşadığı müxtəlif tarixi mərhələlərdə cəmiyyətin inkişafına elm və təhsil mühüm amil kimi təsir göstərmişdir.

Tanınmış akademik N.Vavilovun sözləri iə desək,ən fəal biokimyəvi enerji mədəniyyətin istehsal etdiyi enerjidir. Lakin bu enerjidən həm milli sosial- strukturun,həm də qloballaşan dünyada
milli “mən”in qorunması üçün istifadə etməyi,onu idarə etməyi bacarmaq lazımdır. Ümummilli lider H.Əliyevin azərbaycançılıq ideyasını möhkəmləndirmək üçün mədəniyyət və humanitar elm siyasətində bu aspektlərin hər ikisi nəzərə alınırdı. Məsələn,1994-cü ildə H.Əliyevin birbaşa rəhbərliyi ilə dahi Azərbaycan şairi M.Füzulinin 500 illik yubileyinin üç il təntənələrinin keçirilməsi əhəmiyyətini qeyd edərkən H.Əliyev daha çox bu tədbirin əhəmiyyətini planetar kompleksdə qeyd olunmasını dəyərləndirmişdir: ”Dünya birliyində,dünya xalqları arasında xalqımızın tarixini,mədəniyyətini,milli ənənələrini təblığ etmək,yaymaq,sübut etmək üçün belə yubileylər həmişə böyük bir təsir vasitəsidir. Uzun illərin təcrübəsi göstərir ki,belə tədbirlər mənəviyyatın yüksəlməsinə,insanların tariximizlə bağlı olmasına kömək edir [H.Əliyev. Müstəqilliyimiz əbədidir. 2-ci cild, Bakı,1997, səh 91-92], [7].

H.Əliyevin milli dövlət quruculuğu siyasətində elmi və təhsil potensialından istifadə bütün təsisatlara Milli Elmlər Akademiyası və ali təhsil müəssələrinin qarşısında mühüm vəzifələr qoymuşdur. Ümummilli lider Heydər Əliyevin sərəncamı ilə 1998-ci ildə təhsil sahəsində İslahat Proqramının hazırlanması üçün Dövlət Komissiyası yaradıdı. Təhsil sahəsində mühüm strateji proqram çərçivəsində islahatların həyata keçirilməsinə start verildi. 1999 -cu ilin iyun ayının 15-də Dövlət Komissiyası tərəfindən “Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı” qəbul edildi. Azərbaycanda təhsil sahəsində yeni strategiyalar,uzun illərdir həllini tələb edən vacıb tarixi faktların,xüsusilə Qarabağla bağlı tarixi sənədlərin araşdırılması və dərsliklərdə əks olunması,yeni kadrların hazırlanması,təhsil sisteminin idarə olunmasında və strukturunda mərhələli şəkildə islahatların aparılması bu Proqramda geniş şəkildə əks olunmuşdu.

Dağlıq Qarabağ,Emənistan –Azərbaycan münaqişəsi zəminində erməni millətçilərin apardığı etnik təmizləmə siyasəti nəticəsində Ermənistan və Dağlıq Qarabağ ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların müxtəlif problemləri ilə yanaşı təhsil probleminin həlli dövlətin əsas məsələlərdən biri idi. İllərdir münaqişə zəminində təhsildən kənarda qalmış qaçqın və köçkün uşaqları həm yenidən təhsilə cəlb etmək,həm yeni məktəblər tikmək, həm də psixoloji zədə almış uşaq və yeniyetmələrə yardım göstərmək ilkin zəruri addımlar atmaq lazım idi. Azərbaycan Respublikasının Prezidentinin 1998-ci il

Sərəncamına əsasən "Qaçqınlarn və məcburi köçkünlərin problemlərinin həlli üzrə"uzunmüddətli Dövlət Proqramı təsdiq edildi.2000-2006-cı illərdə Dövlət Neft Fondu onlara ayrılmış vəsait hesabına 5184 yerlik 33 məktəb,3 musiqi məktəbi,751 yerlik 23 uşaq bağçası tikildi. İslam İnkişaf Bankının xətti ilə ayrılan vəsaitlə Biləsuvar və Füzuli rayonlarının ərazisində məcburi köçkünlər üçün salınmış qəsəbələrdə yaşayanların təhsil problemi həll olundu. Dövlət ali təhsil müəssisələrində bakalavriat və magistratura təhsil səviyyələrində və AMEA-nın magistratura səviyyəsində təhsilalan məcburi köçkünlər qanunvericiliklə müəyyən edilmiş qaydada təhsil müddəti ərzində,şəhid ailələrindən olan 23 yaşadək tələbələr təhsil haqqından azad edilir [edu.qov.az] [ 11]. Hər il Heydər Əliyev Fondu tərəfindən ilk dəfə məktəbə gedən məvburi köçkün uşaqlara məktəbli ləvazimatından ibarət hədiyyələr təqdim olunur.

Müstəqillik əldə etmiş respublikada təhsil sahəsində xüsusilə azərbaycançılıq idealogiyasının və yeni yetişən gənclər arasında milli ruhun yüksəlişini qaldırmaq, milli dövlətçilik arzularının və hisslərinin güclənməsi və real amilə çevrilməsi vacib amil idi. Dağlıq Qarabağ münaqişəsinin səbəb və nəticələri,işğal olunmuş rayonların tarixi təhsil proqramlarında, dərsliklərdə əks olunaraq milli özünədərkin təmin edilməsinə,xalqın tarixi yaddaşının özünə qaytarılmasına xidmət etməli idi.

Həmçinin bu islahatlar müxtəlif ixtisaslar üzrə xaricdə təhsil alan gənclərimizin gələcəkdə dövlət idarəetmə strukturlarında yüksək ixtaslı kadrlarlar kimi çalışmaqla, ölkəmizin iqtisadiyyatını və sosial sferalarını yeni demokratik ənənələrə əsaslanaraq idarə olunması nəzərdə tutulurdu. Eyni zamanda xaricdə təhsil alan və əmək fəaliyyətilə məşgul olan azərbaycanlılar azərbaycançılıq məfkurəsinə əsaslanaraq gələcəkdə güclü Azərbaycan diasporasını yaratmaqla,azərbaycançılıq ideologiyasının xaricdə təbliğini həyata keçirməli idilər. Qarabağ həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdirmalı və ermənilərin Dağlıq Qarabağda azərbaycanlılara qarşı törətdikləri vəhşilikləri,xüsusilə Xocalı soyqırımını təbliğ etməli idilər.

Azərbaycanda son illər ərzində ali təhsil sistemində aparılan kadr hazırlığı,beynəlxalq təcrübəyə əsaslanaraq boloniya prosesinə keçid, bakalavr, magistr, doktorantura akademik dərəcələrin tətbiqi, yeni ixtisaslar üzrə ixtisas hazırlığı, ali məktəblərə bəzi məsələrin həllində muxtariyyət hüququnun verilməsi,orta məktəblərdə kurrikulum sisteminin tətbiqi, müasir texnologiyalardan tədris prosesində istifadə edilməsi bacarığının təkmilləşdirilməsi, gənc müəllimlərin pedoqoji ünsiyyət və idarəetmə bacarıqlarına yiyələnməsi, pedaqoqların peşəkarlıq səviyyələrinin yüksəlməsi, təhsil sistemində attestasiya və akkreditasiyasının keçirilməsi və s. təhsilimizı tərəqqiyə aparan reformlardan olmuşdur.

Azərbaycan gəncləri dünyanın müxtəlif ölkərində müxtəlif ixtisaslar üzrə təhsil alırlar. Sovet İttifaqı dövründə xaricdə təhsil almaq əlçatmaz olduğu halda, artıq respublikamız müstəqillik əldə etdikdən sonra Türkiyənin, Rusiya Federasiyasının,Almaniya Federasiyasının, Macarıstanın, İtaliyanın, Böyük Britaniyanın, Amerika Birləşmiş Ştatlarının, Polşanın, Litvanın, Ukraynanın, İsveçrənın, Fransanın, Cənubi Koreyanın, Birləşmiş Ərəb Əmirliklərinin və s.dövlətlərin mötəbər ali məktəblərində minlərlə azərbaycanlı gənc oğlan və qızlar yüksək ixtisaslı kadr kimi yetişirlər. Həmçinin Azərbaycanın ali məktəblərində xarici tələbələrdə müxtəlif ixtisaslar üzrə təhsil alırlar. Təhsil sistemində dünyanın müxtəlif nüfuzlu ali məktəbləri arasında əlaqərin yaranması,eyni zamanda bakalavr və magistr pilləsi üzrə Dövlət Proqramı çərçivəsində ikili diplom proqramları həyata keçirilir. Məsələn: UNEC bakalavr pilləsi üzrə Böyük Britaniynın London Universiteti (London İqtisadiyyat Məktəbi),Fransanın Montpeller Universiteti,magistr akademik dərəcəsi üzrə Litvanın Mikolas Romeris Universiteti,Uludağ Universiteti, MBA proqramı üzrə isə İsveçrənin Biznes və Beynəlxalq Tədqiqatlar Universiteti, ABŞ-ın Linkoln Universitetləri ilə beynəlxalq ikili diplom proqramlarını misal gətirə bilərik..

Təhsil müəssələrində tələbələrə və şagirdlərə təhsilin bəşəri və dünyəvi məzmununun aşılanması və elmi biliklərin verilməsi ilə yanaşı,gənc nəslin azad düşüncəli,yaradıcılıq potensialının artmasını,vətənpərvər olması,milli mənəvi dəyərlərə hörmətlə yanaşıb,qanun qaydaların aliliyini qorumağı,müxtəlif mədəniyyətlərə,dinlərə,irqlərə,millətlərə,etnik azlıqlara tolerant münasibət göstərməyi,başqalarının fikirlərinə hörmətlə yanaşmağı və ən əsası ləyaqətli şəxsiyyət kimi formalaşması prosesi həyata keçirilir. Bu gün elm və təhsil sistemində dövlətimizin və dövlətçiliyimizi qorumaq məqsədilə gənc nəslin sağlam ruhda,sağlam düşüncədə yetişdirilməsi prioritet vəzifələrdən biridir. Unutmamalıyıq ki,insanların həyat səviyyəsinin yüksəlməsi, elmin və mədəniyyətin inkişafı təhsillə bağlı olur. Müstəqillik dövründə elm və təhsil sahəsində aparılmış məqsədyönlü və uğurlu islahatlar gənc nəslin intelektual səviyyəsinin yüksəlməsinə,dövlətimizin müstəqilliyinin möhkəmlənməsinə, iqtisadi inkişafına, mədəni tərəqqisinə, beynəlxalq arenada nüfuzunun yüksəlməsinə müsbət təsir göstərmişdir.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının təhsilin inkişafı üzrə Dövlət Strategiyası
2.Cəbrayılov İ.”Müasir təhsil: axtarışlar və perspektivlər” Bakı.Mütərcim.2013,287s
3.Qədimova X. “İnteraktiv təlim metodları və onların tətbiqi yolları”Bakı.Nərgiz,2003.32s
4.Əhmədov H.” Ali təhsilin modernləşdirilməsi”(monoqrafiya) Bakı.Maarif.2008.190s
5.Əhmədov H.’’Azərbaycan təhsilinin inkişaf strategiyası.(monoqrafiya)”Bakı.Elm.2010.800s
6. Əsgərov Ş. “Təhsilimiz dünən,bu gün,sabah.”.Bakı.Azərbaycan,2003.280s
7.Heydər Əliyev Müstəqilliyimiz əbədidir. 2-ci cild.Bakı.1997.91-97s
8.Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır.Bakı.Azərbaycan.1994,171s
9.Heydər Əliyev mədəni irsimizin keşində 1-ci kitab.Bakı.Azərbaycan.2000.440s
10.Hüseynov İ.Abbasov H.’’Milli ideyaların inkişafı naminə”.Bakı.,Mədəni-maarif. n.5.2004.9-11s
11.edu.gov.az

**Zakir Əlizadə**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, dosentı*
*zakiralizada@yahoo.com*

# AZƏRBAYCAN İQTİSADİYYATININ ƏSAS SAHƏLƏRİNİN İNKİŞAFININ BƏZİ MƏSƏLƏLƏRİ

***Açar sözlər***: iqtisadi inkişaf, sənaye, kənd təsərrüfatı, təhsil, islahatlar, rəqəmsallaşma

**Giriş**

Azərbaycanda 2003-cü ildən başlayaraq təsərrüfatını sürətlə inkişaf etdirmək üçün geniş miqyaslı islahatlar aparılmış,iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sahələrinin, regionların inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarının səmərəli istifadəsi təmin olunmuş, milli valyutanın sabitliyi, bank sisteminin etibarlılığı artırılmış, konservativ xarici borclanma strategiyası həyata keçirilmiş, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, əhalinin

sosial rifahı davamlı olaraq yaxşılaşmışdır. Ölkəmizin sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi uğurların davamlılığını təmin etmək məqsədi ilə son 17 ildə 201 proqram xarakterli sənəd, o cümlədən 12 Konsepsiya, 12 Milli Strategiya, 12 Strateji Yol Xəritəsi, 94 Dövlət Proqramı, 10 Milli Fəaliyyət Planı, 23 Tədbirlər Planı, 21 Tədbirlər Proqramı, 17 Milli Plan və proqramlar qəbul edilmişdir. Qlobal maliyyə-iqtisadi böhran nəticəsində dünyanın aparıcı ölkələrində baş vermiş kəskin ressesiyaya baxmayaraq, Azərbaycanda 2003-2020-cu illərdə ümumi daxili məhsul (ÜDM) nominal ifadədə 9,8 dəfə, real ifadədə 3,2 dəfə artmışdır. Bu dövrdə ölkədə orta illik iqtisadi artım 9,4 faiz, o cümlədən qeyri-neft sektorunda 8,2 faiz təşkil etmişdir. Sosial-iqtisadi sahədə həyata keçirilən tədbirlər iqtisadi artımın iqtisadi inkişaf amilinə çevrilməsinə yönəldilmişdir. Ölkə iqtisadiyyatında neft sektoru həlledici rol oynasa da, son illər qeyri-neft sektorunun fəaliyyətində əhəmiyyətli canlanma hiss olunur. 2003-2020-ci illərdə sənaye istehsalı 2,6 dəfə, qeyri-neft sektoru üzrə ÜDM 2,8 dəfə, qeyri-neft sənayesi 2,2 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artmışdır.(AR DSK, 2021). Əldə edilmiş nailiyyətlər ilə yanaşı ölkə iqtisadiyyatının inkişafında biur sıra promlemlər mövcuddur.Aparılmış tədqiqatlar iqtisadiyyatın aşagıda göstərilən əsas sahələrində inkişafa mane olan cəhətləri aşkar etməyə və onları aradan qaldırmaq üçün zəruri tədbirlərin işlənməsinə imkan verir.

**Sənaye**

Dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da sənayeləşmə iqtisadi siyasətin prioritetlərindəndir və bu sahədə ölkəmiz zəngin tarixi ənənələrə malikdir. Azərbaycan sənayesi və onun tərkib hissəsi olan ağır sənaye və maşınqayırma özünün inkişaf prosesində bir sıra mərhələlərdən keçmişdir. Müstəqilliyin əldə edilməsi ilə Azərbaycanda səneyenin inkişafının yeni mərhələsi başlayır.Bu mərhələnin əvvəlində iqtisadiyyatda geriləmə baş verirsə də,1995-ci ildən ölkə sənayesi dirçəliş dövrünü yaşamağa başlayır. Bu illərdə düşünülmüş neft-qaz strategiyası nəticəsində 20-dən çox ölkənin 30-dan artıq şirkəti ilə Azərbaycanın neft və qaz yataqlarının birgə işlənməsinə dair 26 saziş imzalanmışdır. Qlobal əhəmiyyətinə görə Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri böyük önəm kəsb edir. Neft-qaz sahəsinə yönəldilən investisiyalar neft maşınqayırması sahəsi ilə yanaşı, sənayenin digər sahələrinin də canlanmasına şərait yaratmışdır.2004-cü ildən sənayenin yeni inkişaf dövrü başlanmışdır. Bu dövrdə neft-qaz sektorundan əldə edilən gəlirlərin bir hissəsi sənayenin müxtəlif sahələrinin inkişafına yönəldilmiş, regionlarda sənaye strukturunun optimallaşdırılması üçün dövlət proqramları tərtib edilmiş, enerji təminatının həlli istiqamətində mühüm işlər görülmüş, ümumi infrastrukturun yaxşılaşdırılması, yeni istehsal obyektlərinin açılması üçün çoxsaylı layihələr icra edilmişdir. Beləki, 2014- cü il "Sənaye ili" elan olunmuş, sənayenin inkişafı üzrə tədbirlər planı icra edilmiş, "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015- 2020-ci illər üçün Dövlət Proqramı" yerinə yetirilmişdir. Düşünülmüş dövlət siyasətinin reallaşdırılması ölkənin dayanıqlı maliyyə resurslarının formalaşmasına və bununla da sənayenin bütün sahələrinin inkişafına şərait yaratmışdır. Son on ildə sənayenin həcmi iki dəfəyə yaxın artmışdır. Görülmüş tədbirlər nəticəsində 2020-ci ildə sənayedə istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi (ümumi buraxılış) 24, 4 milyard manat təşkil etmişdir.Qeyri-neft sənayesi isə 7,7 milyard manat təşkil etmiş və ötən illə müqayisədə 8,4% artmışdır. Azərbaycanda ağır sənaye və maşınqayırma sahəsinin gələcəkdə də inkişafı üçün münbit şərait mövcuddur. Ağır sənaye və maşınqayırma sektorunun təhlili bu sahədə aşagıdakı üstün cəhətlərin mövcudlugunu göstərir:

- sənaye bazasının və ənənələrin mövcud olması;
- ağır sənaye və maşınqayırma sektoruna dövlət dəstəyinin olması;
- böyük regional bazarlara yaxınlığın olması;
- mədən sənayesi və metallurgiya üçün xammal bazasının mövcud olması;

• biznes fəaliyyəti üçün ümumi infrastrukturun və güzəştlərin mövcudluğu;
• işçi heyətin texniki bacarıqlarının olması;
• gənclərin sayının çox olması;
• əməkhaqlarının orta rentabelliliyi təmin edən səviyyədə olması.

Bu üstün cəhətlər ilə yanaşı sahənin aşagıdakı zəif tərəfləri onun sürətli inkişafına mane olur:

• avadanlıqların köhnə olması;
• əmək məhsuldarlığının yüksək olmaması;
• maliyyə çatışmazlığı;
• marketinq, satış, paylama xidmətlərinin aşağı səviyyədə olması;
• müəssisələrdə müasir biznes modelinin qurulmaması;
• məhsul keyfiyyətinin beynəlxalq standartlara uyğun olmaması;
• innovativ fəaliyyətlərin az olması.
• xarici maliyyə bazarlarına çıxış ilə bağlı çətinliklərin olması;
• ölkənin dünya sənayesində gedən proseslərdən və yeni tələblərdən geridə qalması;
• ətraf mühitin qorunması ilə bağlı artan tələblərin olması;
• idxal məhsulları ilə rəqabətin güclü olması;
• idxal olunan xammaldan asılılıq və ölkədə mövcud olmayan xammala idxal rüsumlarının tətbiqi.

Azərbaycan səneyesinin potensialını canlandırmaq,gücləndirmək,onu qabaqcıl ölkələrin yeni "Sənaye 4.0" mərhələsinə yaxınlaşdırılması və onun məhsullarının ixrac imkanlarını genişləndirmək üçün aşagıdakı işlərin görülməsi məqsədəuygun hesab edilə bilər:

- Sənayedə istifadə olunmayan aktivlərin və təbii resursların mərkəzi reyestrinin yaradılması, mərkəzi reyestrə daxil olan aktivlərin və təbii resursların qiymətləndirilməsi;
-Azərbaycanın qlobal dəyər zəncirinə inteqrasiyasının təmin edilməsi;
- Seçilmiş sahələrə investisiyaların cəlb olunması;
- İdxalı yerli istehsalla əvəzlənə bilən məhsulların müəyyən ediməsi;
-Maşın və avadanlıq, qoşqu və yarımqoşqular, elektrik avadanlığı və digər nəqliyyat vasitələri istehsalı üzrə sahəvi işçi qrupların yaradılması və fəaliyyətinin təmin edilməsi;
-Neft maşınqayırması sahəsində birgə istehsal sahələrinin yaradılması;
- Dağ-mədən sənayesi və metallurgiya kompleksinin inkişaf etdirilməsi;
- Xidmət sektorunun inkişaf etdirilməsi.

**Kənd təsərrüfatı**

Ölkə iqtisadiyyatının ixrac potensialının yüksəldilməsi və ixrac potensialının artırılmasında digər vacib sahəsi kənd təsərrüfaıdır. Ölkəmizin iqtisadiyyatının tənəzzül dövründə (1991-1995) və sonrakı illərdə kənd təsərrüfatının idarə olunması və maliyyələşdirilməsi arzu olunmaz vəziyyətə salınmışdı: kapital qoyuluşlarının ümumi investisiyalarda payı xeyli azalmış, subsidiyalar başqa ölkələrlə müqayisədə zəruri səviyyədən xeyli aşağı olmuşdur. Əgər 1991-ci ildə milli iqtisadiyyata qoyulan investisiyaların 15%-i kənd təssərrüfatına yönəldilirdisə, 2020-ci ildə bu rəqəm 3.5%-ə enmişdir.{5} Dünya miqyasında kənd təsərrüfatının normal fəaliyyəti dövlət dəstəyi olmadan həyata keçirilə bilməz. Əgər əksəriyyət ölkələrdə dövlət dəstəyinin payı kənd təsərrüfatının ümumi gəlirlərindən 30-75% təşkil edirsə, Azərbaycanda bu rəqəm 3-7% ətrafında cərəyan edir ki, bu səviyyədə dövlət dəstəyi tam yetərsiz sayılır. Ümumi milli iqtisadiyyatda olduğu kimi kənd təsərrüfatının maliyyələşməsində də əsas payı (50%-dən yuxarı) tətbiqi elm xərcləri tutmalıdır ki, bu sahə intensiv əsaslarla inkişaf etdirilə bilsin.Ölkə iqtisadiyyatının bərpası və dinamik inkişaf dövrlərində görülən genişmiqyaslı tədbirlərə baxmayaraq Sovet dövrü ilə müqayisədə

kənd təsərrüfatının əksəriyyət sahələrində ciddi geriləmə müşahidə olunmuşdur. Onsuz da geridə qalan kənd təsərrüfatı istehsalı başqa ölkələrlə və bütövlükdə dünya miqyasında müqayisədə daha da geriləmiş, kənarlaşma xeyli yüksəlmişdir. Əsas istehsalat sahələri olan pambıqçılıq, üzümçülük, barama, tütün və s. istehsal sahələrində 2-10 dəfə geriləmə olmuşdur. Texnika ilə təminat səviyyəsi texniki tərəqqinin prinsiplərinin əksinə xeyli zəifləmişdi. Əgər 1990-cı ildə ölkənin kənd təsərrüfatı sahəsində 40 min traktor var idisə, onların sayı 2015-ci ildə cəmi 12 min və 2020-ci ilin əvvəlinə 22 min olmuşdur, uyğun rəqəmlər kombaynlar üzrə 4.5, 0.7 və 1.6 min təşkil etmişdir. Eyni meyl bütün başqa texnika növləri üzrə müşahidə olmuşdur [5].

2016-cı ildə qəbul olunmuş strateji yol xəritəsinə uygun olaraq ölkə iqtisadiyyatının əsas sektorlarında,o cümlədən onun vacib sahələrdən biri olan kənd təsərrüfatını sürətlə inkişaf etdirmək üçün geniş miqyaslı islahatların aparılmasına başlanmışdır. İslahatlar bütün sahələri əhatə etməli və kənd təssərrüfatının idarə edilməsi, dövlətin dəstəyi mexanizmi və maliyyələşdirilməsi sistemi kökündən yenidən qurulmalıdır.Kənd təsərrüfatında əsas islahat tədbirlərinin ugurla reallaşdırılması üçün aşagıdakıların nəzərə alınması məqsədə uygun olardı:

1. Dünyada kənd təsərrüfatının elmi texniki nailiyyətlər əsasında qurulması təcrübəsində ilk yüksək yerlərdə duran İsrail, Hollandiya və Cənubi Koreyanın təcrübəsindən istifadə edərək Azərbaycan şəraitinə daha yaxın olan kombinə olunmuş bütöv bir sistem qurulmalı, islahatların tam elmiləşdirilməsi, texniki təminatın bu ölkələr səviyyəsinə çatdırılmalı.
2. Kənd təsərrüfatında elmin maliyyələşdirilməsi və idarəedilməsi mexanizmi yenidən qurulmalı, bu sahədə dövlət qurumları bir mərkəzdə cəmləşdirməlidir. Belə mərkəzin İsraildə fəaliyyət göstərən "Agriculutural Research Organization (ARO) Volcani Center" elm mərkəzinin prinsipləri əsasında qurulması məqsədəuyğundur.Elmi tədqiqat institutlarının maliyyələşmə mexanizmini olduğu kimi saxlamaqla təbii seçmə prosesini yerinə yetirmək üçün əlavə və böyük maliyyələşməni həmin institutların iştirakı ilə yaradılan Startap elmi tədqiqat və təcrübə şirkətlərinin vasitəsilə həyata keçirmək olar.
3. Startaplar ilk mərhələdə dövlət vəsaiti hesabına formalaşmalı, nəticə hasil olduqdan sonra səhmləşdirilərək açıq satışa çıxarılmalıdır.Burada ilk mərhələdə müxtəlif xarici və daxili şirkətlərin iştirakı və investisiyalarının cəlbi də mümkündür. Startap şirkətlərinin maliyyə mexanizmi tam sərbəstləşdirilməli, alim və mütəxəssislərin əməyinin ödəniş və mükafatlandırılması sistemi İsrail və Hollandiya sisteminə uyğunlaşdırılmalıdır.
4. Startapların əsas tədqiqat istiqamətləri: bitkiçilikdə məhsuldarlığın artırılması, yeni bitkilərin Azərbaycan şəraitinə uyğunlaşdırılması,heyvandarlıqda yeni cins heyvanların yetişdirilməsi, soyuq şəraitə dözümlü heyvan cinslərinin yetişdirilməsi,süni mayalanma, yeni heyvan cinslərinin yaradılması, gen mühəndisliyinin tədqiqinin genişləndirilməsi,kənd təsərrüfatı maşınlarınn və robotların hazırlanması, immunitet problemləri, başqa iqlim zonalarının faydalı bitki növlərinin Azərbaycan şəraitinə uyğunlaşdırılması, kənd təsərrüfatı tullantılarının səmərli istifadəsi problemləri və s. olmalıdır.
5. Kənd təsərrüfatına dövlət dəstəyinin (subsidiya və dotasiyaların) təşkili və istifadəsinin Avropa İttifaqı prinsiplərinə uyğunlaşdırılmalı,subsidiya və dotasiyalar əsasən elmin inkişafına, bazar, təbiət və siyasi risklərdən qorumağa və daha zəruri sahələrin və regionların sürətli inkişafının stimullaşdırılmasına yönəldilməlidir
6. Kənd təsərrüfatı istehalını təbii risklərdən qorumaq üçün kənd təsərrüfatı istehsalı hər sahədə sığortalanmalıdı və həm də risklər təkrar sığorta vasitəsilə böyük beynəlxalq sığorta təşkilatlarında yenidən sığortalanır. Mülkiyyət mənsubiyyətindən asılı olmayaraq bütün təssərüfatlarda sığorta tədiyyələrinin 70%-i dövlət və 30%-i istehsalat sahibləri tərəfindən ödənilir.
7. Kənd təsərrüfatı məhsullarının siyasi və regional risklərdən qorumaq üçün kənd təsərrüfatı məhsullarının idxal-ixrac əməliyyatları olan bütün ölkələrlə qarşılıqlı anlaşmalar, yaxın

ölkələrlə, məsələn, İsrail, Cənubi Koreya, Avropa İttifaqı, ABŞ və s. ölkələrlə azad ticarət anlaşmaları (FTA) imzalanmalı, həmin ölkələrlə sərbəst ticarət şəraiti yaradılmalıdır. Üç regionda – Qirmizi körpüdə (Azərbaycan-Gürcüstan sərhəddi), Biləsuvar (Azərbaycan-İran sərhəddi) və Yalamada (Azərbaycan-Rusiya sərhəddi) sərbəst iqtisadi zonaların və uyğun olaraq soyuducu-anbar sisteminin qurulması, bu zonalarda kənd təsərrüfatı məhsullarının xüsusi imtiyazlı və sadələşdirilmiş keçid mexanizminin qurulması.

8. Dövlət büdcəsi hesabına: fermerlərin hazırlanması və ixtisasının artırılması məktəblərinin qurulması (tədrisdə yüksək ixtisaslı xarici alim və mütəxəssislərin iştirakının təmin olunması ilə), ölkədə İsrailin MAŞAV kurslarının tədris mərkəzinin yaradılması və geniş miqyaslı tədris proqramlarının həyata keçirilməsi.Tədris xarakterli video fondunun, məlumat və məsləhət mərkəzinin yaradılması, bütün fermerləri gündəlik informasiya bazası ilə təmin etmək.

9. Kənd təsərrüfatı məhsullarının satış sisteminin qurulması, ixrac və idxal əməliyyatlarının liberallaşdırılması. Kənd təsərrüfatı islahatlarının müvəffiqiyyətlə həyata keçirilməsi üçün bütün mallar üzrə ixrac və idxalın köklü islahatı zəruridi. Bu ən azından Doing buziness indeksində ilk yeri tutan Aİ ölkələri standartına uyğunlaşdırılmalıdı.

10. Meşə təsərrüfatının idarə olunması, planlaşdırılması və meşasalma işləri elektronlaşmalı, meşə örtüyünün uçotu və bərpası üzrə soft proqram hazırlanmalı, boş qalan bütün torpaqlarda yeni meşə salınmalıdır. Startap şirkətlər qurulması vasitəsi ilə yeni salınan meşə örtükləri regionların torpaq xüsusiyyətlərinə uyğunlaşdırılmalı, tibb, sənaye, dekorativ və başqa təyinatlı ağacların yerləşmə prinsipləri müəyyən edilməlidir. Təcrübəsinə istinad olunan C. Koreyanın meşə örtüyünün 92%-i islahatlardan sonra salınan süni meşə örtüyündən ibarətdir.

11. Balıqçılıq təsərrüfatı böyük istehsal gücünə malikdir. Dünyanın unikal və qiymətli balıqlarının ən çoxu, hətta ən faydalısı Azərbaycanda yerləşir, lakin, lazımi səviyyədə istifadə olunmur. Nərə balıqlarının və qara ikra məhsulunun emalının genişləndirilməsi sisteminin stimullaşdırılması, bu balıqların və həmçinin digər ölkələrdən gətirilmiş yeni balıq növlərinin yetişdirilməsi bazasının yaradılması üçün dövlətdən dəstək mexanizminin müəyyənləşdirilməsi, nərə balıqlarının mayalanmış kürü satışı hesabına gəlirlilik səviyyəsinin artırılması, ixracat potensialının yüksəldilməsi.

Bu tədbirləri bir neçə rayon bazasında pilot layihə hazırlayaraq sürətli təcrübədən keçirməklə ölkə boyu bütün kəndlər üzrə həyata keçirmək olar.Hazırda ölkəmizdə kənd təsərrüfatının inkişafı üzrə ciddi islahatlara başlanmışdır. Amma bu islahatlar maliyyə vəsaitləri ilə dünya ölkələri səviyyəsində təmin olunsa səmərə tez və geniş miqyaslı olacaqdır.

**Təhsil**

Milli iqtisadiyyatın bütün sahələri üzrə rəqabətqabiliyyətliyin yüksəldilməsi və ixrac potensialının artırılmasının əsas yollarından biri iqtisadiyyata yüksək ixtisaslı kadrların cəlb edilməsi,təhsil sistemini dünya standartları səviyyəsinə yaxınlaşdırmaq,təhsili rəqəmsallaşdırmaqdır.Son illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı”nın icrası olaraq təhsil sistemində informasiya-kommunikasiya infrastrukturunun inkişaf etdirilməsi, elektron təhsil texnologiyalarının tətbiqinin genişləndirilməsi, təhsil sistemində idarəetmənin informasiyalaşdırılması, kadr potensialının gücləndirilməsi, normativ hüquqi bazanın təkmilləşdirilməsi və digər istiqamətlərdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi davam etdirilmişdir.

Yaxın perspektivdə təhsil sahəsində aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuygun olardı:

- Təhsil sahələrinə investisiya cəlb etməklə insan kapitalına qoyulan investisiyaların həcminin artırılması;
- Ali təhsil müəssisələri üçün universitet şəhərcikləri (kampuslar) və müvafiq texnoparkların yaradılması;

• Peşə təhsili sisteminin maddi-texniki bazasını və kadr hazırlığını beynəlxalq standartlara cavab verən səviyyədə təşkil etmək;
• Təhsil sisteminin istehasal ilə əlaqəsini təmin etmək;
• Xarici ölkələrə getmiş Azərbaycan Respublikası vətəndaşları olan ixtisaslı kadrların ölkənin iqtisadi inkişafına cəlb olunması üçün onların geriyə qayıdışının stimullaşdırılması;
• Elmin inkişafı üçün qrant fondlarının yaradılması sistemini inkişaf etdirmək,bu fondların formalaşdırılmasında sahibkarların iştirakını həvəsləndirmək;
• Elektron təhsil texnologiyalarının tətbiqinin daha da genişləndirilməsi, müəllim və şagirdlər üçün virtual öyrənmə mühitinin formalaşdırılması.
• Rəqəmsal təhsil haqqında qanun və ya qanun qüvvəli qərar hazırlanması və zəruri büdcə ayrılması. Büdcə təhsil nazirliyinin icmal büdcəsi daxilində ayırıla bilər.
• Rəqəmsallaşmanın proqram təminatının hazırlanması üçün tender elan olunması və bütün ölkə miqyasında vahid elektron sistem qurulması.
• Rəqəmsal təhsil bu məqsəd üçün sərf olunan vaxta ən azı 50% qənaət edir.İnsanların istifadə etdiyi nəqliyyat vasitələrini, trafik sıxıntılarını, tıxacları və yola çəkdiyi məsrəfləri, yanacağı, nəqliyyat vasitələrinin idarə edənlərin məsrəflərini,rayonlardan gələn şagirdləri, müəllimləri, xaricdən cəlb olunan professor-müəllim heyətini nəzərə alsaq böyük həcmdə qənaət və rahatlıq əldə etmək olar.
• Universitetlərdə, məktəblərdə bina, avadanlıq, mebel çatışmazlığı, onlara çəkilən xərc günü-gündən artır. Təhsil büdcəsinin böyük hissəsi bu məqsədlər üçün xərclənir. Rəqəmsal təhsillə bu problemə ömürlük xitam vermək olar və böyük miqdarda vəsaitə qənaət etmək mümkündür. Rəqəmsal onlayn təhsil zamanı hətta həftənnin iki və ya bir gününü auditoriya təhsili günü elan olunsa belə bir neçə il əlavə binaya və ya mebelə və avadanlığa ehtiyac qalmayacaq.
• Rəqəmsal onlayn təhsil vasitəsilə bütün sərhədlər aradan götürülür, çox bahalı dünya alimlərini və yerli müllimləri rahat hər yerdə təhsilə cəlb etmək olar və buna klassik təhsillə müqayisədə bir neçə dəfə az məsrəflə nail olmaq mümkündür. Tanınmış alimlərin və müəllimlərin dərsləri, olimpiadalara hazırlıq dərsləri bütün ölkə üzrə sosial şəbəkələr vasitəsilə ictimailəşdirilməli, birbaşa efirə verilməli, youtubdə yerləşdirilməlidir. Bu təhsilin ümumi inkişafı üçün çox böyük fayda verə bilərdi.
• Yaxud, əhalinin əsasən Abşeron iqtisadi rayonunda cəmləşməsi və təbii artımın azalması ilə əlaqədar kənd məktəblərində oxuyan şagirdlərin sayı sürətlə azalır.Elə siniflər var ki, 2-3 nəfər şagird var. Belə halda bir neçə məktəbin şagirdlərini birləşdirib prosesi dəfələrlə az məsrəflə və daha rahat çəkildə tənzimləmək olar.
• Rəqəmsallaşma tamamilə elmi məhsuldu və elm əsasında həyata keçirilir. Hər hansı bir proqram təminatının öyrənilməsi ciddi bir işdi və bunun üçün şox böyük məsrəf gedir. Rəqəmsal təhsilə keçid özü elmin inkişafına, insanların öyrədilməsinə, ümumi elektron savadsızlığın aradan qaldırılmasına böyük köməkdi.
• Dərsliklər və dərs vəsaitlərinin rəqəmsallaşdırılması həm tələbələrin və həm də ümumiyyətlə dövlətin məsrəflərini bir neçə qat azalda bilərdi, kağız istehlakını 90% azalda bilərdi, bu da təbii ki, ekologiyanın yaxşılaşmasına ciddi töhvə olardı.
• Rəqəmsal təhsil cəmiyyətdə demokratik prosesləri inkişaf etdirmək, şəffaflığı təmin etmək üçün, korrupsiyanı minimuma endirmək üçün xüsusi vasitədir.

**Nəticə**

Təbii ki, bu problemlərin həlli üçün bu sahədə internet təminatı, onu sürətinin və ucuz qiymətə təmin olunması, internet texnologiyaları və soft proqram təminatı istehsalının qurulması tezləşdirilməlidir. Hazırda Azərbaycanda elmi məhsul (soft proqramlaşma daxil) istehsalı demək olar ki, sıfır vəziyyətindədir. Ümumiyyətlə, elektron sistemin tətbiqi, xüsusilə

də, təhsil sisteminə sirayət etməsi prosesi nə qədər tez başlanılsa bir o qədər cəmiyyəti irəli çəkilmiş olar.

**İstifadə edilmiş ədəbiyyat**
1. İlham Əliyev "İnkişaf – məqsədimizdir",çoxcildlik 95-ci kitab, Azərnəşr, Bakı 2020
2. 2020-ci il fevralın 3-də "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi.
3."Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri".2016
4. Azərbaycanın statistika göstəriciləri.Bakı."Səda nəşriyyatı " .2020
5. Azərbaycan-faktlar və rəqəmlər.AR DSK.2020
6. www.stat.gov.az

**Niyar Umarova**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, t.ü.f.d.*
*niyar61@list.ru*

## MODERNLƏŞDİRMƏ VƏ İKT

***Açar sözlər***: İKT, İT, modernləşdirmə, texnologiya

**Giriş**

Yaşadığımız müasir cəmiyyət informasiyanın sürətli inkişaf tempi, istifadə olunan informasiya kommunikasiya texnologiyalarının (İKT) tətbiqi, virtual əlaqələrin aktivliyi və s. müxtəlif xüsusiyyətlərinə görə əvvəlki cəmiyyətlərdən (aqrar cəmiyyət və sənaye cəmiyyəti) fərqlənir. Müasir cəmiyyətdə informasiya emalı texnologiyalarının əsas rol oynaması, informasiya resurslarının artmasına, fiziki əməyin intellektual əməklə əvəz olunmasına, iqtisadiyyatda elektron iş sistemlərinin gəlir gətirən vasitəyə çevrilməsinə, real əlaqələrin virtual məkan üzərindən aparılmasına, xəbərlərin elektron sistemlər üzərindən əldə olunmasına, elektron ədəbiyyatlardan istifadənin artmasına, cəmiyyətin sürətlə artan informasiya resurslarına malik olmasına səbəb olmuşdur.

Covid 19 pandemiyasının məhv edici təsiri cəmiyyətin məcburən izolyasiya olunmuş mühitə keçməsinə səbəb oldu və dünyada fəaliyyət göstərən müəssisələri virtual şəbəkə üzərindən işləməyə məcbur etdi. Şəbəkə üzərindən aparılan virtual əlaqələrdə isə əsas rol İKT sistemlərinin, internet-şəbəkə əlaqələrinin üzərinə düşür (yəni, informasiya emalı texnologiyalarından istifadəyə həm ehtiyac və həm də tələbat var). Bütün sahələrdə İKT sistemlərindən istifadəyə kütləvi şəkildə ehtiyac yarandı. Bu sahələrə daha çox qurğuların inkişafı, müxtəlif sahələr üçün istifadəsi nəzərdə tutulan proqramların tətbiqi, yeni dizayn sistemlərin yaranması, komputer qrafikası və s. aid etmək olar. Ona görə də sənayenin istənilən sahəsində, təhsildə, sosial mediada, kütləvi informasiya vasitələrində (KİV) bu yönümlü müxtəlif platformalara (Google Hangouts, WhatsApp Video call, Zoom, Microsoft Teams və s.) tələbat günü-gündən artır və İKT sahəsində daha sürətli inkişaf prosesi baş verir [3]. Məsələn, 4G və 5G sisteminin daha sürətlə inkişaf etməsi və öz yerini tədricən 6G texnologiyasına verməsi, üç ölçülü (3D) sistemlərdən 4D sistemlərinin tətbiqinə keçid, qlobal telesağlamlıq marketinq (ing.-telehealth. Telesağlamlıq - İKT tətbiqinin təzahüründən yaranan

yeni termdir. Burada əsasən sağlamlıqla əlaqədar verilənlərin İKT sistemləri vasitəsilə ötürülməsi, virtual qarşılıqlı əlaqələrin yaradılması, müzakirələrin onlayn aparılması təmin edilir) platformalarından istifadə, İT modernləşdirilməsinin inkişafı və s. sahələr müasir cəmiyyətdə olduqca aktual sahə hesab edilir.

**İT modernləşdirilməsi**

Hazırda günün tələbinə uyğun olaraq daha çox inkişaf etmək istəyən iri şirkətlər məqsədlərinə çatmaq, iş axınlarını avtomatlaşdırmaq, biznesdə lazımi ardıcılığı izləmək, bugünkü biznes ekosistemində rəqabəti qazanmaq, yarana biləcək problemləri proaktiv şəkildə həll etmək və s. üçün İT modernləşdirilməsinin tətbiqinə xüsusilə maraqlıdırlar. Çünki, İT modernləşdirilməsi müxtəlif departamentlər arasında biznesin böyüməsini və strategiyasını idarə etməyə kömək edir [4]. Bu sahənin inkişafı və tətbiqi müasir rəqəmsal iqtisadiyyatda rəqabət aparmaq üçün informasiya emalı texnologiyalarının və biznes bölmələri sahələrinin uyğunlaşdırılması,müştəri təcrübəsinin rəqəmsallaşdırılaraq təkmilləşdirilməsi, müasir cəmiyyətin inkişaf tələbatına uyğun obyektlər və fərdlər arasında genişlənən biznes məqsədlərinə çatdırılması və s. üçün olduqca əlverişli mühitin yaradılması deməkdir. İT modernləşdirilməsində məlumat mərkəzlərinin etibarlı müdafiəsinin təşkili üçün bulud yanaşmalarının rolunu xüsusilə qeyd etmək lazımdır. Modernləşdirmə layihələri inkişaf tempinə uyğun olaraq daim yeniləşməyi tələb edir (istər proqramlarda, istər aparatlarda, istər tətbiq sistemlərində miqrasiyalar tələb edilir, lakin bunların nəzəriyyədən praktikaya keçməsi üçün xüsusi İT bacarıqları tələb edilir). Ümumilikdə, İT modernləşdirilmə təkmilləşdirilən yeni texnologiyaların, intellektual bacarıqların tətbiqini, istifadəsini tələb edir, çünki, hazırda intellektual sistemlərdən istifadə digər mühitdə olduğu kimi, istənilən biznes mühitində də xüsusi əhəmiyyətə malikdir və burada idarə oluna bilən xidmət təklifləri xüsusi rol oynayır.

Hazırda bu sahə daha aktiv sahələrdən hesab edildiyinə görə dünyada tanınmış bir çox şirkətlər (məsələn, Google, Apple, İBM, Microsoft, Deloitte-un üzv şirkətləri, Amazon və s.) çevikliyi artırmaq üçün İT modernləşdirilməsindən istifadə edirlər. Lakin İT modernləşdirilməsi çətindir. Çünki, onlar eyni zamanda biznesi idarə edən bir sıra texnologiyaları, insanları, prosesləri və s. əhatə edir [1, 5]. İT modernləşdirilməsində yeni proseslər üçün çoxsaylı inkişaf iterasiyalarından və sınaq dövrlərindən keçmə kimi bəzi nüanslara diqqətlə yanaşmaq lazımdır. Bu sistemin modernizasiyasında İT-nin modernləşdirilməsi üzrə təcrübəli peşəkar xidmətlər qruplarına müraciət etmək (məsələn, müştərilərin mövcud proseslər haqqında məlumatları azdırsa, yaxud heç yoxdursa və ya təhlillə bağlı yardıma ehtiyac yaranarsa, yeni tələblər varsa və s.) məsləhətdir. Çünki, peşəkar xidmət qrupları inteqrasiya üzrə ekspertlər hesab edilir, onlar bütün növ İT modernləşdirilməsində böyük təcrübəyə malikdirlər. Bu sistemi yaradarkən köhnə tətbiqlərin müasirləşdirilməsi trendlərinə diqqətlə yanaşmaq lazımdır, lakin bu zaman həllində problem yarana biləcək müxtəlif məsələləri və ya iş prosesində problemə səbəb ola biləcək halları (məsələn, - Köhnə tətbiqləri necə modernləşdirmək olar?; Əvvəlki proqramların tətbiqində yaranan problemləri az vəsaitlə yenidən necə bərpa etmək olar?; İş prosesində sistemin yaratdığı problemləri necə aradan qaldırmaq olar və ya onlar niyə problem yaradır?; Köhnə sistemlər və müasir inteqrasiya həlləri arasındakı boşluğu necə azaltmaq olar?; Uyğunlaşmaq qabiliyyətini necə bərpa etmək olar? və s.) mütəxəssisə müraciət edərək, ciddi şəkildə analiz etmək lazımdır (bu həmdə çəkilən xərclərin azalmasına müsbət təsir edir).

İT modernləşdirilməsi sahəsi müasir tətbiq səviyyəsinə çatana qədər müxtəlif inkişaf mərhələlərindən keçmişdir [2, 5]. Məsələn, 1876-cı ildən etibarən telefon texnologiyasından istifadənin inkişafı, 1900-cü illərin əvvəllərində L.L.Beanın ABŞ-da kataloq işinə başlaması, 1990-cı illərin əvvəllərinə qədər sifarişin poçt və ya telefon vasitəsilə verildiyi kataloqla satışı (AOL, CompuServe və Prodigy öz xüsusi onlayn xidmətləri vasitəsilə satış təcrübəsinə başlaması və satış kanallarının genişləndirilməsi s.), 1994-cü ildə NetMarket kredit kartının

şifrələndiyi ilk internet satışının təşkili, 1995-ci ildə Amazon.com saytının istifadəçilərin ixtiyarına verilməsi, e-ticarət satış kanalının yaradılması (virtual bişnesin inkişafı), 1997-ci ildən etibarən tədricən mobil ticarətin çoxkanallı pərakəndə şəkildə alış-verişinin təşkili, 2003-cü ildən Omnichannel (yüksək keyfiyyətli müştəri təcrübələrinə əsaslanan bir-birindən fərqli kommunikasiya kanallarının vahid sistemə qarşılıqlı inteqrasiyasını ifadə edən marketinq) biznes strategiyasının inkişafı, [4]. 2009-cü ildən etibarən kriptovalyutanın virtual biznesdə rolunun yaranması və hazırda biznesdə önəmli rol oynaması və s. misal göstərmək olar. Ümumi şəkildə isə dünyada *İT modernləşdirilməsi sahəsi 2018-ci ildən etibarən daha çox aktivləşdi.*

Hazırda bu sahədə Elektron Resurs Planlaşdırma sistemləridə önəmli rol oynayır. Bu sistemlərin təkmilləşməsi, müxtəlif firmalarda biliklərin və inteqrasiya imkanlarının genişlənməsi və inkişafı, fərqli firmalarda bütün sistem və proseslərin (və ya onlarla əlaqəli resursların) vahid inteqrasiya platformasında birləşdirməsi, idarəetmənin və inteqrasiya imkanlarının gəlir gətirən sahə kimi səmərəli şəkildə təmini (köhnə sistemdəki həll vasitələrinin əlverişli şəkildə dəyişdirilməsi və ya tələbatı ödəyəcək yeni sistemlərlə modernizasiyası) İT modernizasiyasının inkişafında xüsusi rola malikdir [4, 5]. Bu sahə üçün müasir B2B inteqrasiya platformaları hazır funksionallığı təmin edir.

Azərbaycanda rabitə və informasiya texnologiyaları sahəsinin inkişafını dünya səviyyəsində olan yeni sistemlərə uyğun təmin etmək üçün texniki və texnoloji cəhətdən modernləşmə inkişaf etdirilir. Həmin sahə üzrə yüksək ixtisaslı mütəxəssislərin hazırlanması istiqamətində sistemli tədbirlər və müxtəlif layihələr hazırlanır, həmin layihələr isə uğurlu şəkildə həyata keçirilir (tətbiq olunur) [6]. Yazılanlara aşağıda adları qeyd olunanları misal göstərmək olar:

- transmissiya və kommutasiya şəbəkələrinin tam rəqəmləşdirilməsi və telekommunikasiya sektorunda müasir tələblərə cavab verən standartların tətbiqi,
- milli rabitə şəbəkəsi sisteminin təkmilləşdirilməsi,
- mobil rabitənin yüksək səviyyədə inkişaf etdirilməsi,
- geniş çeşidli telekommunikasiya xidmətlərinin göstərilməsinin təmin edilməsi,
- yerli İT mütəxəssislərinin hazırlanması,
- poçt sisteminin texniki cəhətdən modernləşdirilməsi,
- daxili və xarici maliyyə sahəsində İT modernizasiyasının tətbiqi,
- idarəetmədə son texnologiyaların tətbiqi,
- "Son mil" (ing. "last mile") səviyyəsində fiber-optik şəbəkəyə investisiya qoyuluşlarının davamlı şəkildə artırılması,
- İnternet şəbəkəsinin xidmətlərindən istifadəsinin təkmilləşdirilməsi,
- beynəlxalq şlüzlərə qoşulan operatorların sayının artırılması,
- genişzolaqlı şəbəkənin əhatə dairəsinin genişlənməsi,
- Fiber-optik texnologiyaları ilə genişzolaqlı internet şəbəkələrinin əhatə dairəsinin genişləndirilməsi, optika formatlı (FTT-X) genişzolaqlı şəbəkə xidmətlərinin keyfiyyətinin və sürətinin artırılması;
- İKT sistemindən istifadə üzrə əlverişli biznes mühitin yaradılması;
- Təhsil sistemində rəqəmsal iqtisadiyyatın daha da inkişafına şəraitin yaradılması və s.

Azərbaycan maliyyə bazarına Müəssisə Resurslarının Planlaşdırılması (Enterprise Resource Planning, ERP) sistemini xüsusi B2B kanalı vasitəsilə inteqrasiya edir [7]. Çünki, bu sistemin tətbiqilə hər hansı ödənişlərin, şirkət-daxili hesablaşmaların sürətlə aparılması, onların təstiqləməsi, valyuta mübadiləsinin təmini, aparılan virtual əməliyyatların lazımi səviyyədə həyata keçirilməsi, ödənişlərin statusunun və icrasının yoxlaması və s. bu kimi müxtəlif hesabatların aparılması asanlıqla həyata keçirilir.

İT modernləşdirilməsində dəqiqlik diqqətlə nəzərə alınmalıdır. Burada sadələşdirilmiş iş prosesinin təşkili, funksional əlaqələrin və proseslərin daha asanlığı, inkişaf səviyyəsinə

uyğun yeni sistemlərlə düzgün əlaqənin yaradılması və tətbiqi, onun hərtərəfli təkmilləşdirməsi, biznes ehtiyaclarının düzgün qiymətləndirilməsi və s. proseslər diqqətli şəkildə nəzərə alınmalıdır. (yəni, miqrasiya yol xəritəsinin düzgün aydınlaşdırılması dəqiq təyin edilməlidir). Qeyd etdiyimiz kimi İT modernləşdirilməsi texnologiyaların yeniləşərək təkmilləşdirilməsi ilə bərabər, həm də bacarıqların da təkmilləşdirilməsi deməkdir.

**Nəticə**

İT Modernləşdirmə layihələrinin hazırlanması daim yeniləşən proqramları, sistemləri və miqrasiyaları tələb edir ki, bu da hazırkı işçilərin əksəriyyətinin malik ola bilməyəcəyi xüsusi İT bacarıqlarını tələb edir. Burada ehtiyac yaranan məxsusi sahə resurslarının və yarana biləcək bacarıq boşluqlarının inkişafını nəzərə almaq lazımdır. Bunun üçün İT modernləşdirmə sahəsində idarə olunan xüsisi xidmət təklifləri hazırlanmalı və müasir informasiya cəmiyyətində ehtiyac yaranan bu sahənin inkişafı üçün müəyyən tədbirlər görülməlidir. Məsələn:

- Sabit genişzolaqlı şəbəkədən istifadəçinin internetdən orta istifadə sürətinin 50 Mbit/s və daha yüksək səviyyədə olan əlaqələr səviyyəsinə çatdırılması
- Bu sahə üzrə xüsusi maliyyə vəsaiti ayrılaraq güclü infrastrukturun qurulması ilə bağlı müvafiq mexanizmlərin yaranması və onun tətbiqinin sürətləndirilməsi
- Telekommunikasiya sektoruna investisiya qoyuluşlarının stimullaşdırılması
- Milli tezlik bölgüsünün səmərəliliyinin aparılması, onun idarə edilməsi
- Güclü potensialı olan İKT sənayesinin yaradılması, milli Super Kompüter mərkəzinin inkişafı istiqamətində məxsusi layihələrdən istifadə
- Ölkənin texniki savadlılıq səviyyəsinin daha da yüksəldilməsi və rəqəmsal iqtisadiyyatın formalaşması istiqamətində xüsusi layihələrin hazırlanması və tətbiqi

**Ədəbiyyat**


1. Kubielas, Stanisław & Olender-Skorek, Magdalena. ICT modernization in Central and Eastern Europe: A Schumpeterian catching up perspective. International Economics and Economic Policy. 2014.
2. Faik, Isam & Walsham, Geoff. Modernisation through ICTs: Towards a network ontology of technological change. Information Systems Journal. 2013.
3. N.Ə.Umarova. İqtisadiyyatda innovativ texnologiyalar. Elektron kommersiya. ADNSU mətbəəsi 2022
4. https://www.cleo.com/blog/it-modernization
5. https://www.privacyshield.gov
6. http://www.anl.az/down/
7. https://www.pashabank.az/



**Kəmalə Məmmədova**

*Azərbaycan Memarlıq və İnşaat Universiteti, i. f. d., dos. əvəzi*

*kama.1973@list.ru*


## AZƏRBAYCANDA TİKİNTİ SAHƏSİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ


Açar sözlər: tikinti sahəsi, inkişaf, innovasiya, stateji idarəetmə, investisiya


Ümummilli lider Heydər Əliyevin Azərbaycan SSR-na rəhbərlik etdiyi dövrdə tikinti sektoru sürətlə inkişaf edərək Azərbaycanın aqrar ölkədən böyük sənaye ölkəsinə çevrilməsinə şərait yaratmışdır. Azərbaycanda tikinti sektorunu keçid dövrünün böhranlı vəziyyətindən çıxarmaq üçün investisiyaların qoyulmasına ehtiyac olmuşdur. Tikinti-quraşdirma işlərinə yönəldilmiş investisiyaların ümumi həcmindəki xüsusi çəkisi 1995-ci ildə 50,4% olmuşdur. Demək olar ki, dövlət və digər xarici investisiyaların 1995-2014 illəri arasında tikinti sektorunun davamlı inkişafını dəstəkləmişdir. Bu göstərici 2014-cü ildə 75,4% yüksəlmişdir (DSK).

Tikinti şirkətinin strateji idarəedilməsinin inkişafının təməlində dayanan əsas məsələ tikintidə yenilik potensialını qiymətləndirən metodik yanaşmalardır. Bu yanaşmaları nəzərə

alaraq, qərarların bir hissəsində kadr, istehsal, struktur potensialının təhlili və reytinq qiymətləndirilməsi həyata keçirilir. Strateji idarəetmənin metodoloji inkişafı bir çox mərhələdən keçmişdir (Məmmədova 2016, 88).

Strateji idarəetmə sahəsinin müasir konsepsiyalarının tədqiqi, alternativ iqtisadi inkişaf istiqamətlərinin formalaşmasına və tikinti şirkətinin səmərəliliyinin artırılmasına birbaşa təsir göstərir. Tikinti şirkətlərinin strateji idarəedilməsinin qeyri-ənənəvi, səmərəli və müasir bir texnologiya olması ilə əlaqədar olaraq, onun nəzəri-metodoloji əsaslarının öyrənilməsi və tətbiqi yollarının müəyyənləşdirilməsi, Azərbaycanda əsas iqtisadiyyat sahələrindən biri olan tikinti sektorunun təkmilləşdirilməsi və bu yolla bir çox sosial-iqtisadi problemlərin aradan qaldırılması istiqamətində mühüm bir addımdır.

Tikinti şirkətinin strateji idarəedilməsinin araşdırılması Azərbaycan tikinti şirkətinin dünya bazarında rəqabət gücünün artırılmasına, tikinti məhsullarının keyfiyyətinin yüksəlməsinə, dövlət büdcəsinin artmasına birbaşa və ya dolayı yolla təsir edən iqtisadi amillərdəndir (Məmmədova 2016, 181).

Bu sahədə aparılan tədqiqatlar ikinti şirkətinin strateji idarəedilməsinin elmi bazasının formalaşmasını və onun təməli üzərində müvafiq sahələr üzrə mütəxəssislərin hazırlanmasını, yəni tikinti sektorunun inkişafında əsas təkanverici qüvvə olan müasir kadrların yetişdirilməsini təmin edən ən mühüm amillərdəndir.

Tikinti sektorunda ənənəvi inzibati sistemdən yeni strateji idarəetmə sisteminə keçid mərhələsində ortaya çıxan bir çox problemlərin həllində və tənzimlənməsində, dövlətin rolunun tikinti şirkətinin fəaliyyətində müəyyənləşməsində, tikinti sektorunun ölkə iqtisadiyyatında tutduğu yerin ortaya qoyulmasında, yerli tikinti şirkətinin dünya bazarında rəqabət qabiliyyətinin artırılmasında müvafiq tədqiqatların rolu böyükdür.

Tikinti şirkətinin resurslarının vahid strateji məqsəd ətrafında səfərbər olunması və onların düzgün istiqamətdə funksional bölgüsünün təşkili və idaəredilməsi, bazar iqtisadiyyatının qeyri-sabit inkişaf strategiyasında gözlənilməz risqlərin nəzərə alınması və gələcək perspektivlərin proqnozlaşdırılması, yanlız bu sahədə aparılan ciddi araşdırmalar sayəsində mümkündür (Məmmədova 2016, 101).

Tikinti şirkətinin strateji idarəedilməsinin nəzəri əsaslarının tədqiqi və ortaya qoyulan praktiki tövsiyələr, şirkərin müxtəlif resurslarının səmərəli istifadəsinə, binanın tikintisində itkilərin azalmasına, ehtiyatların qənaətinə və müasir texnologiyaların istehsala cəlb olunmasına şərait yaradır.

Tikinti şirkətinin kapitalının artırılması, kadr imkanlarının inkişafı, təşkilati strukturun təkmilləşməsi strateji idarəetmənin nəzəri-metodoloji əsaslarının formalaşmasını və onların tətbiqi yollarının müəyyənləşməsini zəruri edir.

Tikinti şirkətinin strateji idarəedilməsi sosial-iqtisadi inkişafda insan resurslarının fəallaşmasına şərait yaradır. Son dövrlərin sosial-iqtisadi təhlili göstərir ki, insan amili iqtisadi inkişafın ən güclü və ən sabit amilidir. Azərbaycanda bütün sosial-iqtisadi sahələrdə strateji idarəetmə vasitəsilə insan amilinin fəallaşmasına təkan vermək, ölkənin davamlı iqtisadi inkişafı üçün zəmin hazırlayacaqdır. Buna yerli tikinti şirkətinin inkişafını da aid etmək olar. Bu baxımdan tikinti şirkətinin strateji idarəedilməsi  mühüm əhəmiyyət daşıyır (Məmmədova 2015, 131).

Müasir bazar şəraitində yerli tikinti şirkətinin beynəlxalq səviyyədə imic qazanması və rəqabətədavamlı olması üçün, strateji idarəetmənin şərtlərinə əməl etməsi zəruridir. Əks təqdirdə bazarda uğur qazanmaq və iqtisadi inkişafa nail olmaq mümkün deyildir.

Azərbaycanda səhmdar mülkiyyət formasının inkişafında bəzi problemlər vardır. Bütün səhmdarların korporativ idarəetmə sistemində iştirakını və maraqlarını bir araya gətirmək problemi yaşanır. Tikinti sahəsində iqtisadi uğurlar əldə etmək üçün, korporativ idarəetmənin inkişaf etdirilməsi labüddür. Lakin, korporativ idarəetmə  sistemi iqtisadiyyatımız üçün yeni bir hadisə olduğu üçün, bu məsələdə bütün maraqlı tərəflərin mənfəətlərinin korporativ

idarəetmənin strateji məqsədində birləşməsini təmin edən nəzəri-metodoloji və praktiki məsələlərin tədqiqinə xüsusi diqqət yetirilməlidir (Мамедова 2016, 54).

Tikinti şirkətinin strateji idarəedilməsinin əsas mərhələlərindən hesab olunan daxili və xarici mühit amillərinin təhlilidir. Tikinti şirkətinin strateji idarəedilməsinin xarici mühitinə siyasi (yerli icra orqanlarının biznesin inkişafına müsbət və ya mənfi təsiri və s.), iqtisadi (məşğulluq və inflyasiya səviyyəsi, vergi sistemi və s.), bazar (rəqabət qabiliyyəti, bazara giriş imkanları və s), rəqabət (rəqib mövcud durumu ilə barışıb-barışmaması) texnoloji (onun istehsalda tətbiqi, müasirliyi, təhlükəsizliyi) və beynəlxalq amillər daxildir. İnvestisiya-tikinti layihələrinin xarici mühitini müəyyənləşdirən, təşkilata və investisiya-tikinti fəaliyətinə təsir edən amillərə - siyasi, iqtisadi, tekniki-texnoloji, sosial-psixoloji, təşkilati-idarəetmə və hüquqi amilləri aid etmək olar (Коготкова 2009, 54).

Tikinti şirkətinin strateji idarəedilməsinin daxili mühitinə maliyyə (rentabellik, gəlir, dividentlər və s), marketinq (məhsulun rəqabətqabiliyyəti və müxtəlifliyi, bazarın payı, reklama və s), istehsal (avadanlığın cari və texniki vəziyyəti), əmək resurslarının qiymətləndirilməsi (yaş və təhsil səviyyəsi, kadr məsələsi) və kooperativ mədəniyyətin qiymətləndirilməsi (adətlər, mentalitet, dəyərlər və s.) kimi amillər daxildir. İnvestisiya-tikinti layihələrinin daxili amillərinə əsasən layihənin effektivliyi, müddəti və reallaşmasından əldə olunan mənfəətin miqdarını tənzimləyən layihə təşkilatı və onun iştirakçıları aid edilirlər. Layihənin gerçəkləşməsində və qarşıya qoyulan məqsədə çatmaqda maraqlı olan əsas iştirakçı, layihənin gələcək sahibi və onun nəticəsindən yararlanan investisiya qoyuluşunda iştirak edən sifarişçidir (dövlət, əhali və ya əhalinin təmsilçisi). İnvestor və sifarişçi fərqli subyektlər olanda, onlar arasında layihədə nəzərdə tutulan şərtlərin həyata keçirilməsi istiqamətində müqavilə bağlanır. Maliyyə mənbəyinə görə investorlar kommersiya investorları və büdcə investorlarına bölünürlər (Самкаев 2007, 89).

Tikinti məhsulları bazarında tikinti materiallarının satışı ilə müxtəlif sahələri təmsil edən şirkətlər arasında maliyyə, insan və işçi resursları cərəyan edir. Bu mühitdə tikinti şirkətləri arasında istehsal rəqabəti yaranır. Tikinti-quraşdırma işlərində əmək səmərəliliyi tikinti-quraşdırma şirkətlərinin istehsal olunan məhsulun həcmi və keyfiyyəti ilə əlaqədar olan lokal əmək məhsuldarlığı ilə əlaqəlidir (Федонюк 2008, 45).

**Nəticə**

Tikinti şirkətinin strateji idarəedilməsi mexanizminin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlı apardığımız tədqiqat işinin nəzəri nəticələri Azərbaycanda tikinti şirkətinin iqtisadi inkişafına mühüm təsir göstərə bilər. Bununla əlaqədar olaraq dissertasiyada tikinti şirkətinin strateji idarəedilməsi mexanizminin nəzəri əsaslarını, müxtəlif konsepsiyaların müqayisəli təhlilini, Azərbaycanın makroiqtisadi inkişaf dinamikasında tikinti sektorunun yeri və rolunu, Azərbaycan tikinti şirkətinin iqtisadi inkişafında idarəetmə faktorunu araşdıraraq aşağıdakı nəticələri əldə etdik:

1. Hər bir tikinti şirkətinin yetişdirdiyi kadr potensialı, onun əsas resurslarıdır. Məhz, bu resursların müasir strateji idarəetmə metodları əsasında mükəmməl idarə olunması, tikinti şirkətinin iqtisadi uğurlarının təməlini təşkil edir.
2. Kadr siyasətində uzunmüddətli strateji hədəflərə yönələrək strateji planlaşdırma əsasında personalın innovativ inkişafını və kreativliyini təmin etmək zəruridir. Bu, tikinti şirkətinin dünya bazarında özünəməxsus yer tapmasına və perspektivinə mühüm şərait yaradır.
3. Tikinti şirkətinin qarşıya qoyduğu strateji hədəflərə çatması üçün sistemli idarəetmə mexanizminə ehtiyac vardır. Bu mexanizm, tikinti şirkətinin bütün bölmələrini üfiqi müstəvidə inteqrasiyasını təmin edərək bir-birinə üzvi şəkildə bağlılığına şərait yaradır. Bu mexanizm tikinti şirkətinin daxilində səfərbərliyi, operativliyi, çevikliyi, mütəşəkkilliyi, dövriliyi, sabitliyi təmin edir.

4. Azərbaycanın makroiqtisadi inkişaf dinamikasında tikinti sektorunun mühüm yeri və rolu vardır. Son 20 ildə Azərbaycanda tikinti sahəsində dövlətin rolu azalmış və qeyri-dövlət sahəsinin rolu artmaqdadır. Bu, tikinti şirkətinin iqtisadi baxımdan daha mütəşəkkil və səmərəli fəaliyyətinə şərait yaradır. Lakin, tikinti şirkətinin dünya bazarında rəqabətədavamlı olması üçün, tikinti şirkətinin inkişafında dövlətin də rolu labüddür. Məhz, dünya tikinti bazarında tanınan tikinti şirkətinin dinamik inkişafında dövlət dəstəyinin olduğu məlumdur. Bu sahədə ən uğurlu yol, tikinti şirkətinin müstəqil strateji idarəetmə siyasəti ilə dövlətin iqtisadi dəstəyinin bir-birini tamamlamasıdır. Çünki bu əməkdaşlıq iqtisadi baxımdan hər iki tərəfin maraqlarına cavab verir.

5. Azərbaycanın tikinti sahəsində qeyri-dövlət sahəsinin daxilində bələdiyyələrin rolu cüzidir. Əslində, bələdiyyələr tikinti şirkətinin əsas istehlakçısı qismində iştirak edərək, onların fəaliyyət sahələrinin genişlənməsinə və gəlirlərinin artmasına imkan yaradarlar. Onlar arasında sosial-iqtisadi əlaqələrin artması, həmçinin bələdiyyələrin inkişafına da şərait yaradar. Buna görə, tikinti şirkəti-dövlət-bələdiyyə əməkdaşlığına əsaslanan yeni layihələrin həyata keçirilməsinə ehtiyac vardır. Dövlət bu layihələrdə investor, bələdiyyələr sifarişçi, tikinti şirkəti istehsalçı qismində iştirak edərək qarşılıqlı inkişafa zəmin hazırlayarlar.

6. Tikinti şirkətlərinin kadr siyasətində gənclərə xüsusi önəm verilməlidir. Çünki gənc kadrlar yeniliyə daha həssas və gələcəyə yönəlik layihələrə daha çox meyllidirlər. Tikinti şirkətinin gənclərin işə cəlb olunmasına, onların xarici ölkələrə təcrübə və bilik əldə etməsi üçün göndərilməsinə daha çox maraqlı olmalıdırlar. Bu sahədə təhsil alan tələbələrin şirkətlərdə səmərəli fəaliyyətinə stimul verən tədbirlərin keçirilməsinə, onlar arasında istedadlı gənclərin yüksək təhsil alması istiqamətində maddi dəstəyin verilməsinə, təhsil-praktika əlaqələrinin intensivləşməsinə böyük ehtiyac vardır.

Azərbaycanda strateji idarəetməsinin inkişaf etdirilməsi və şirkətlərin iqtisadi səmərəliliyinin artıtılması üçün bir çox islahatları aparılması ilə bağlı tövsiyələr:

1. Azərbaycan qanunvericiliyinə bəzi dəyişiklərin edilməsi vasitəsilə korporativ idarəetmənin müşahidə şurası və idarə heyəti üçün müvafiq hüquq və vəzifələrin, müşahidə şurası və idarə heyətinin səlahiyyət və vəzifələrinin dəqiqləşdirilməsinə, bu qurumların üzvlərinə təlimlərin keçirilməsinə ehtiyac vardır.

2. Azərbaycanda auditorların müstəqilliyini artırmaq, səhmdar cəmiyyətlərinin təftiş komissiyalarına əvəzinə audit komitələrini yaratmağa həvəsləndirmək, təftiş komissiyasının audit komitəsi ilə əvəz etmək, auditorlarla maraqların toqquşması hallarını məhdudlaşdırmaq, MHBS-ların icrasını təmin etmək tövsiyə olunur.

3. Bazarın konsolidasiyasına şərait yaratmaq, şirkətin şura və idarə heyəti üzvləri və investorlar arasında məlumatlılığın artırılmasını təmin etmək tikinti şirkətinin strateji idarəedimısi baxımından əhəmiyyətlidir.

4. Azərbaycanda səhmdar cəmiyyətləri üçün hüquqi bazanın təkmilləşdirilməsinə, kiçik səhmdarların müdafiəsinin artırılmasına, səhmdarların səlahiyyətlərinin konkretləşməsinə, səhmdarların ümumi yığıncaqda iştirakı hüquqlarının gücləndirilməsinə və səlahiyyətlərinin konkretləşməsinə ehtiyac vardır.

5. Mülkiyyət və aidiyyəti tərəflərin əqdləri haqqında açıqlama vermək tələblərinin gücləndirilməsi və icrasını, korporativ məlumatların ictimaiyyətə açıqlanmasını təmin etmək, maliyyə və korporativ açıqlamaların təkmilləşdirilməsi tədbirlərini artırmaq zəruridir.

**6.** Azərbaycanda institusional investorlar üçün hüquqi bazanın yaradılmasını, şirkətlərin fəaliyyəti ilə bağlı məlumatların onlayn şəklində yayılmasını təmin etmək lazımdır.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (DSK) http://www.stat.gov.az
2. Məmmədova K.M. Tikinti şirkətlərində innovasiya potensialını qiymətləndirən metodik yanaşmalar. AzMİU "Elmi Əsərlər" jurnalı №2. Bakı 2016.
3. Məmmədova K.M. Azərbaycanda tikinti sahəsinin iqtisadi inkişaf mərhələləri. AMEA "İqtisadiyyat İnstitutunun "Elmi Əsərlər" toplusu"-№1, s. 179-184. Bakı 2016.
4. Məmmədova K.M. Tikinti şirkətlərində strateji idarəetmənin nəzəri əsasları. AMEA "İqtisadiyyat İnstitutunun "Elmi Əsərlər" toplusu"№3 -Bakı 2016.
5. Məmmədova K.M. Müasir təcrübədə tikinti sahəsinin strateji idarəedilməsi prosesində daxili və xarici amillərin rolu. AMEA-nın Xəbərləri №6. Bakı 2015 s.129-133.
6. Коготкова И.З. Маркетинговые исследования в строительстве. М.Книжный мир, 2009 (224s)
7. Мамедова К.М. Макроэкономическая динамика управления строительным сектором Азербайджана. Научно-практический журнал «Инвестиции: практика и опыт" №2, (52-56 s) Украина 2016.
8. Самкаев И.М. Федосеев И.В. Механизм управления инновациями в современных экономических условиях/ Строительный комплекс: экономика, управление, инвестиции (выпуск 7): межвузовский сб. науч. тр.СПб. ГУЭФ, 2007 (213s).
9. Федонюк Н.И. Сущность управления факторами развития строительного комплекса как экономической системы // «Предпринимательство», № 1, 2008 (87s).

**Aytən Quliyeva**
*Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə*
*Milli Observatoriya, aparıcı mütəxəssis*
*e-mail:aytan.z.guliyeva@sosial.gov.az*
orcid.org/0000-0002-4211-7456

# AZƏRBAYCANDA GƏNCLƏRİN ƏMƏK BAZARINA İNTEQRASİYASININ MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

Tezisdə müasir dövrdə gənclərin məşğulluğunun təmin olunmasında təhsilin əsas rol oynadığından bəhs olunur. Bildirilir ki, mövcud əmək ehtiyatlarından səmərəli istifadə edilməsi istiqamətində dövlətin həyata keçirdiyi məqsədyönlü fəaliyyətlər sayəsində əhalinin məşğulluğunun genişləndirilməsinə əhəmiyyətli dərəcədə təsir göstərməkdədir. Qeyd edilir ki, gənclərin əmək bazarına daxil olmasına hazırlıq işləri onların müvafiq olaraq orta ümumtəhsil məktəblərindən başlayaraq, təhsilin digər səviyyələrində davam etdirilməsi əsas vəzifələrdən biri kimi qəbul edilməlidir.

**Açar sözlər:** əmək bazarı, ixisaslı kadr, gənclər, peşə təhsili, aktiv məşğulluq tədbirləri

Gənclər həyatın müəyyən qayğılarla yüklənməyən, fiziki və mənəvi inkişafında

tamamlama dövrünü yaşayan, yetərli bir təhsillə gələcəyə hazırlanan cəmiyyətin ən dinamik üzvüdürlər. Gənclik dövrü müəyyən və məhdud bir yaş dövründə düşüncələrin, davranışların, peşə yönümünün formalaşdığı və bütünlükdə fərdin aktiv iqtisadi həyata hazırlandığı bir dövrdür. Əmək ehtiyatlarının mühüm bir hissəsi olan gənclər digər əhali qruplarından çevikliyi, mobilliyi, müstəqilliyi, daha uzun müddətli əmək fəaliyyəti imkanına malik olması və eyni zamanda təcrübəsizliyi, kifayət qədər rəqabət qabiliyyətinin olmaması və əmək bazarında müdafiəyə xüsusi ehtiyaclarının olması ilə fərqlənirlər.

BƏT-in təsnifatına görə, gənclərə 15-24 yaşda olan əhali qrupu aid edilir. Avropada gənclik dövrü 15-29 yaş, Rusiyada 16-30 yaş qruplararı hesab olunur. Azərbaycanda 2007-ci ilə qədər gənclər 16-35 yaş qrupuna aid idilər. Ancaq 2007-ci ildən Azərbaycan Respublikası Prezidentinin “Gənclər siyasəti haqqında” Qanuna dəyisikliklər və əlavələrin edilməsi ilə bağlı imzaladığı Sərəncama əsasən gənclərin yaş həddi 14-dən 29-dək müəyyənləşdirilmişdir, bununla bağlı dünyada qəbul olunan gənclik yaşının son həddi 29-dur (elmi tədqiqat və təhsil sisstemində bu 42 yaşa qədərdir). Bundan əlavə yaşlarına görə gənclər bir neçə qrupda təsnif olunurlar:15-17, 17-21, 21-24 və 24-29 yaş qrupları.

Bundan əlavə müvəqqəti hərbi xidmətə çağırılan gənclərin sosial müdafiələrinin gücləndirilməsi ilə əlaqədar xidmətdən tərxis olunandan sonra onların öz iş yerlərində əmək fəaliyyətlərini davam etdirə bilmələri “Gənclər siyasəti haqqında” Qanunda öz əksini tapmışdır.

17 yaşınadək gənclərdən ibarət olan yeniyetmələr qrupuna əsasən orta məktəblərin yuxarı siniflərinin və ilkin peşə təhsili müəsisələrinin şagirdləri daxildir. Onlar bir qayda olaraq valideyin himayəsində olurlar. Bu dövrdə insanların əsas sosial-iqtisadi oriyentirləri, o cümlədən peşə yönümünün müəyyənləşdirilməsi baş verir.

17-21 yaşlı gənclər qrupuna əsasən əmək fəaliyəti ilə məşğul olmaq üçün bilik və bacarıq yığmaqda olan ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri, ilkin peşə təhsili müəssisələrinin məzunları, habelə orta məktəbi bitirmiş, lakin təhsilini davam etdirə bilməyən və hər hansı bir peşəyə yiyələnmədən əmək bazarına atılanlar aiddir. Qeyd etmək lazımdır ki, aşağı təhsil səviyyəsi və səriştəsizlik məhz bu sonuncu kateqoriyadan olan insanların işə düzəlmə imkanlarına mənfi təsir göstərir, əmək bazarında gərginliyi artırır. Bunu əyani olaraq aşağıdakı qrafikdə də müşahidə etmək olar.



*Diaqram 1. Məşğul əhalinin təhsil səviyyəsinə görə bölgüsü*
Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi. www.stat.gov.az

21-24 yaşlı gənclər qrupuna ali və orta ixtisas təhsili müəssisələrində oxuyanlar, peşə hazırlığını bitirmiş və ya bitirməkdə olanlardır. Bu gənclər kifayət qədər peşə təcrübələri və səriştələri olmadıqlarına görə əmək bazarında daha aşağı rəqabət qabiliyyətinə malik olur və ən zəif qrup hesab olunurlar.

24-29 yaşlı gənclər qrupuna artıq müəyən peşə üzrə ixtisaslaşmış, təcrübə və səriştə əldə etmiş əmək ehtiyatları aiddir. Bunlar artıq təklif olunan işə öz tələblərini irəli sürürlər.

**Gənclərin əmək bazarı** özünəməxsus xüsusiyyətlərə malikdir:

Əvvəla, gənclərin əmək bazarı həm peşə-ixtisas, həm ərazi, həm də sosial cəhətdən çevikliyi və mobilliyi ilə fərqlənir. Əmək ehtiyatlarında gənclər demoqrafik cəhətdən də çevik və fəal olurlar. Onlar, ölkədaxili və xarici ölkələr üzrə miqrasiya edənlər sırasında və məşğuliyyət sahələri üzrə işçi qüvvəsinin yenidən bölüşdürülməsində daha çox çevikliyə malikdirlər. Gənclərin əmək bazarının dördüncü xüsusiyyəti əmək bazarının tələbləri nəzərə alınmadan bütün mümkün peşələr üzrə gənc mütəxəssislərin hazırlanmasıdır. Bu peşələrin çoxuna əmək bazarında tələbat olmadığına görə iş axtaran gənclər, o cümlədən də təhsil müəssisələrinin yeni məzunları ixtisası üzrə tapmır və ixtisasına uyğun olmayan işdə çalışmağa məcbur olur və yaxud ümumiyyətlə işsiz qalır. Bu gənclərin əksəriyyəti yenidən hazırlıq yolu ilə başqa peşə və ixtisasa yiyələnmək məcburiyyətində qalır ki, bu da həm əlavə xərc, həm də əmək bazarına daxil olma vaxtının uzanması deməkdir. Bunu əyani olaraq aşağıdakı Sxem 1-də də müşahidə etmək olar.

Odur ki, Azərbaycanın ixtisaslı işçi qüvvəsinə və çevik əmək bazarına malik ölkəyə çevrilməsi üçün hələ çox işlər görülməlidir. Bunlardan biri, bəlkə də birincisi, gənclərlə bağlı fəal məşğulluq siyasətinin həyata keçirilməsidir. Bu baxımdan gənclərin təhsil və əmək fəaliyyəti ilə bağlı sosial davranışlarının tədqiqi, onlar üçün müvafiq əmək bazarının formalaşması və səmərəli məşğulluqlarının təmin olunması baxımından aktualdır. Burada bir tərəfdən əmək bazarının bu və ya digər peşələr üzrə müxtəlif ixtisas səviyyəsinə malik işçilərə olan ehtiyaclarının nisbəti, digər tərəfdən gənclərin gələcək həyat yolunun seçimindəki meylləri və planları mühüm əhəmiyyət kəsb edir. Fəal məşğulluq siyasətinin həyata keçirilməsi üçün ölkədə mövcud olan və yaxın gələcəkdə formalaşacaq əmək ehtiyatlarının tərkibi və strukturu öyrənilməli və ölkə iqtisadiyyatının perspektiv inkişafına uyğun formalaşdırılmalıdır.



**Sxem 1.Gənclər və əmək bazarı**

Gənclərin məşğulluğunun təmin edilməsi müasir dövrün ən aktual problemlərindəndir. Belə ki, gənclər əmək qabiliyyətli əhalinin mühüm tərkib hissəsi olmaqla yanaşı, cəmiyyətin gələcək inkişafını təmin edən başlıca qüvvə hesab olunur. Bu qüvvədən səmərəli istifadə edilməsi isə onun təhsilinin, peşə hazırlığı səviyyəsinin yüksəldilməsindən, intellektual potensialının artırılmasından, əmək bazarının tələblərinə uyğun bilik və bacarıqları mənimsəməsindən xeyli dərəcədə asılıdır. Müasir dövrdə əmək bazarında işçi qüvvəsinə olan tələblərin sürətlə dəyişməsi gənclərin məşğulluğunun təmin olunmasında daha çevik siyasətin həyata keçirilməsini tələb edir.

**Cədvəl-diaqram 2. Məşğul əhalinin təhsil səviyyəsi və yaş qrupları üzrə bölgüsü, (min nəfər).**

| Yaş qrupları | Məşğul əhali,gənclərin sayı, cəmi | o cümlədən təhsil üzrə | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | ali təhsil | orta ixtisas təhsili | peşə təhsili | tam orta təhsil | ümumi orta təhsil | ibtidai təhsil |
| Cəmi | 4938.5 | 829.7 | 548.2 | 276.5 | 2949.3 | 296.3 | 38.5 |
| Məşğul gənclərin təhsil səviyəsi,cəmi. | 1250.5 | 257.6 | 137.7 | 48.7 | 695.1 | 109.6 | 1.8 |
| 15-19 | 92.6 | - | 5.6 | 2.4 | 69.0 | 15.3 | 0.3 |
| 20-24 | 444.1 | 77.8 | 50.9 | 20.8 | 248.1 | 45.8 | 0.7 |
| 25-29 | 713.8 | 179.8 | 81.2 | 25.5 | 378.0 | 48.5 | 0.8 |
| Faizlə | | | | | | | |
| Məşğul gənclərin təhsil səviyəsi,cəmi. | 25.3% | 31.0% | 25,1% | 17.6% | 23.6% | 37.0% | 4.7% |
| 15-19 %-lə | 1.9% | - | 1.0% | 0.9% | 2.3% | 5.2% | 0.8% |
| 20-24 %-lə | 9.0% | 9.4% | 9.3% | 7.5% | 8.4% | 15.5% | 1.8% |
| 25-29 %-lə | 14.5% | 21.7% | 14.8% | 9.2% | 12.8% | 16.4% | 2.1% |

**Mənbə: ARDSK-nin məlumatları əsasında müəllif A.Quliyeva tərəfindən hazırlanmışdır.**

Cədvəl 2-dən göründüyü kimi, 20 yaşa qədər gənclər arasında məşğul olanların sayı, digər yaş qruplarından fərqli olaraq azdır. Məşğul əhalinin təhsil səviyyəsi və yaş qrupları üzrə bölgüsünə nəzər yetirsək, gənclər (15-29) ümumi məşğul əhalinin 25,3%-ni, ali təhsilli 20-24 yaş qruplarına aid olanlar 9,4%-ni, 25-29 yaş qrupları isə 21,7%-dir. Orta ixtisas təhsillilər 20-24 yaş kateqoriyasında 9,3%, üstünluk təşkil edən orta ixtisas təhsillilər yenə də 25-29 yaş qrupları arasındadır. Onların məşğul əhalidə olan payı 14,8%-dir. Peşə təhsilli gənclərin, ümumi məşğul əhalidə olan payı 17,6%. Burada 15-19 yaş qruplarında olanlar 0,9%, 20-24 yaş qrupları arasinda olan gənclər 7,5%, ibtidai təhsilli məşğul gənclərin xüsusi çəkisi isə 4,7%-dir. Burada ən yüksək göstərici 25-29 yaş qruplarına aid olanlar təşkil edir. 15-24 yaşda olanlar müəyyən kvalifikasiya səviyyəsinə nail olurlar. Bu qrupda olanlar adekvat bilik və bacarıqlar toplamalı, özlərini gələcək iş yerlərinə hazırlamalıdırlar. Buna görə də onların əsas vəzifələri mükəmməl təhsil almaqdan, yeni texnika və texnologiyanı dərk etmək üçün bilik toplamaqdan ibarətdir. 15-24 yaşda olanların əksəriyyəti yaşayış yerindən asılı olmayaraq təhsil almaqla məşğuldurlar və təhsil aldıqdan sonra əmək bazarına daxil olurlar. Cəmiyətdə bilik yığımı prosesi daimi təhsil alanlar ordusunun artmasını tələb edir ki, bu da 15-24 yaşda olanların əmək aktivliyinin səviyyəsinin aşağı düşməsinə səbəb olur. Araşdırmalardan məlum olmuşdur ki, məşğul əhalinin yaş strukturunda 20-24 (25%) və 25-29 (18%) yaş qrupu ən böyük xüsusi çəkiyə malikdirlər. Hesab edilir ki, əhaliniun yaş strukturunda 20-24 yaş həddində olanların payı daha yaşlı qruplara nisbətən çoxdursa, burada iş qüvvəsinin təklifinin (işsizliyin) artması müşahidə oluna bilər. Qeyd etmək lazımdır ki, göstərilən kateqoriyadan olan insanların heç də hamısı iş axtarmırlar və

deməli, əmək bazarına daxil olmurlar. Onlardan bəziləri təhsillərini davam etdirməyi planlaşdırırlar və ya digər səbəblər üzündən iş axtarmırlar

**Cədvəl-diaqram 3. İşsiz əhalinin təhsil səviyyəsi və yaş qrupları üzrə bölgüsü, (min nəfər)**

| Yaş qrupları | İşsiz əhalinin təhsil səviyyəsi | o cümlədən təhsil üzrə | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | ali təhsil | orta ixtisas təhsili | peşə təhsili | tam orta təhsil | ümumi orta təhsil | ibtidai təhsil |
| Cəmi | 251.6 | 34.3 | 30.7 | 19 | 131.4 | 35.3 | 0.9 |
| İşsiz gənclərin təhsil səviyəsi,cəmi. | 14.7 | 14.7 | 13.3 | 5.2 | 72.6 | 14.1 | 0.0 |
| 15-19 | - | - | 0.3 | 0.5 | 12.4 | 1.6 | 0.0 |
| 20-24 | 7.3 | 7.3 | 6.4 | 2.6 | 37.8 | 7.3 | 0.0 |
| 25-29 | 7.4 | 7.4 | 6.6 | 2.1 | 22.4 | 5.2 | 0.0 |
| Faizlə | | | | | | | |
| İşsiz gənclərin təhsil səviyəsi,cəmi. | 5.8% | 42.9% | 43.3% | 27.4% | 55.3% | 39.9% | 0% |
| 15-19 %-lə | - | - | 1.0% | 2.6% | 9.4% | 4.5% | 0 |
| 20-24 %-lə | 2.9% | 21.3% | 20.8% | 13.7% | 28.8% | 20.7% | 0 |
| 25-29 %-lə | 2.9% | 21.6% | 21.5% | 11.1% | 17.0% | 14.7% | 0 |

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Statistik məcmuə, 2020**

Gənclər arasında işsizliyin səviyyəsinin yaş qrupları üzrə müqayisəli təhlili göstərir ki, 15-19 yaşlılar azalsa da 20-24 və 25-29 yaş qrupundakı gənclər arasında işsizlik səviyyəsi artmışdır. Görülən bütün bu tədbirlər peşə təhsilində hələ də ciddi problemlərin olmasına işarədir.

Aparılan tədqiqatlardan göründüyü kimi, hazırda ölkədə mövcud olan işsizlik problemi təkcə iş yerlərinin kifayət qədər olmaması səbəbindən deyil, həmçinin işsiz vətəndaşların peşə-ixtisas təhsilinin və vərdişlərinin əmək bazarının müasir tələblərinə cavab verməməsi ilə də bağlıdır.

**İstifadə edilmiş ədəbiyyat**


1.Azerbaijan: Youth unemployment rate from 1999 to 2019, https://www.statista.com/statistics/ 811652/youth-unemployment-rate-in-azerbaijan

2.“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası

3. https://ilostat.ilo.org/topics/population-and-labour-force -ILOSTAT

4. www.stat.gov.az



**Айтен Гулиева**

*Национальной Обсерватории по рынку труда и социальной защите, ведущий специалист*


## Анализ и оценка ситуации интеграции современной молодежи на рынок труда в Азербайджане

***Резюме***


В тезисе рассматривается ключевая роль образования в обеспечении занятости молодежи в современный период. Констатируется, что благодаря целенаправленной деятельности, проводимой государством в направлении эффективного использования

имеющихся трудовых ресурсов, оно оказывает существенное влияние на расширение занятости. Отмечается, что подготовку молодежи к выходу на рынок труда следует рассматривать как одну из основных задач, начиная со средней школы и продолжая на других уровнях образования.

**Ключевые слова**: рынок труда, квалифицированные кадры, молодежь, профессиональное образование, меры активной занятости

**Ayten Guliyeva**
*National Observatory for Labor Market and Social Protection, leading specialist*

## Analysis and assessment of the situation of integration of modern youth into the labor market in Azerbaijan

***Summary***

И так, изучение одних сторон моделируемого объекта осуществляется отказом от отражения других сторон. Поэтому любая модель замещает оригинал лишь в строго ограниченном смысле. Из этого следует, что для одного объекта может быть построено несколько "специализированных" моделей, концентрирующих внимание на определенных сторонах исследуемого объекта.

На следующем этапе процесса моделирования модель выступает, как самостоятельный объект исследования. Одной из форм такого исследования является проведение "модельных" исследований, при которых сознательно изменяются условия функционирования модели и систематизируются данные о ее "поведении". Конечным результатом этого этапа является множество знаний о модели R.

На дальнейшем этапе осуществляется перенос знаний с модели на оригинал - формирование множества знаний S об объекте. Этот процесс переноса знаний проводится по определенным правилам. Знания о модели должны быть скорректированы с учетом тех свойств объекта-оригинала, которые не нашли отражения или были изменены при построении модели. Мы можем переносить какой-либо результат с модели на оригинал, при одном условии, что если этот результат необходимо связан с признаками сходства оригинала и модели. Если же определенный

результат модельного исследования связан с отличием модели от оригинала, то этот результат переносить невозможно.

Четвертый этап – эта проверка получаемых с помощью моделей знаний и их использование для построения обобщающей теории объекта.

Для того ,чтобы понять сущность моделирования важно не упускать из виду, что моделирование - не единственный источник знаний об объекте. Процесс моделирования "погружен" в более общий процесс познания. Это обстоятельство учитывается не только на этапе построения модели, но и на завершающей стадии, когда происходит объединение и обобщение результатов исследования, получаемых на основе многообразных средств познания.

Моделирование - циклический процесс. Это объясняется тем, что за первым четырехэтапным циклом может последовать второй, третий и т.д. При этом знания об исследуемом объекте расширяются и уточняются, а исходная модель постепенно совершенствуется. Недостатки, обнаруженные после первого цикла моделирования, можно исправить в последующих циклах. Таким образом, в методологии моделирования, заложены большие возможности саморазвития.

Применение математики в экономическую науку связано с преодолением значительных трудностей. Математика, на протяжении нескольких веков сыграла огромную роль. Но главные причины лежат в природе экономических процессов.

Наиболее распространено понимание системы как совокупности элементов, находящихся во взаимодействии и образующих некоторую целостность. Важным качеством любой системы является наличие таких свойств, которые не присущи ни одному из элементов, входящих в систему. Поэтому при изучении систем недостаточно пользоваться методом их расчленения на элементы с последующим изучением этих элементов в отдельности. Одна из трудностей экономических исследований - в том, что не существует экономических объектов, которые можно было бы рассматривать как отдельные элементы.

Сложность системы определяется количеством входящих в нее элементов, связями между этими элементами, а также взаимоотношениями между системой и средой. Она объединяет огромное число элементов, и связей с другими системами. В народном хозяйстве взаимодействуют технологические, природные, объективные и субъективные факторы.

Экономика, иногда рассматривалась как обоснование невозможности ее моделирования, изучения средствами математики. Но такая точка зрения в принципе неверна. Моделировать можно объект любой природы и любой сложности. И как раз сложные объекты представляют наибольший интерес для моделирования; именно здесь моделирование может дать результаты, которые нельзя получить другими способами исследования.

Математическое моделирование любых экономических объектов и процессов не означает, ее успешной осуществимости при данном уровне экономических и математических знаний, имеющейся конкретной информации. Нельзя указать абсолютные границы математического моделирования экономических проблем, всегда будут существовать проблемы, а также ситуации, где математическое моделирование недостаточно эффективно.

Наполнение разработанных моделей конкретной и качественной информацией затормаживает практическое применение математического моделирования в экономике. Точность и полнота первичной информации, реальные возможности ее сбора и обработки во многом определяют выбор типов прикладных моделей. С другой стороны, исследования по моделированию экономики выдвигают новые требования к системе информации.

В зависимости от моделируемых объектов и назначения моделей используемая в них исходная информация имеет существенно различный характер и происхождение. Она может быть разделена на две категории: о прошлом развитии и современном состоянии объектов (экономические наблюдения и их обработка) и о будущем развитии объектов, включающих данные об ожидаемых изменениях их внутренних параметров и внешних условий (прогнозы). Вторая категория информации является результатом самостоятельных исследований, которые также могут выполняться посредством моделирования [4].

В процессе моделирования возникает взаимодействие "первичных" и "вторичных" экономических измерителей. Любая модель народного хозяйства опирается на определенную систему экономических измерителей (продукции, ресурсов, элементов и т.д.). В то же время одним из важных результатов народнохозяйственного моделирования является получение новых (вторичных) экономических измерителей - экономически обоснованных цен на продукцию различных отраслей, оценок эффективности разнокачественных природных ресурсов, измерителей общественной полезности продукции. Однако эти измерители могут испытывать влияние недостаточно обоснованных первичных измерителей, что вынуждает разрабатывать особую методику корректировки первичных измерителей для хозяйственных моделей.

С точки зрения "интересов" моделирования экономики в настоящее время наиболее актуальными проблемами совершенствования экономических измерителей являются: оценка результатов интеллектуальной деятельности (особенно в сфере научно-технических разработок, индустрии информатики), построение обобщающих показателей социально-экономического развития, измерение эффектов обратных связей (влияние хозяйственных и социальных механизмов на эффективность производства).

**Список использованной литературы:**


1. Математическое моделирование в экономике и социологии труда, ЮНИТИ, 2007 год.
2. Бывшев В.А., "Эконометрика", М.: Финансы и статистика, 2008
3. Бабешко Л.О., "Основы эконометрического моделирования", М.: Дом Книга, 2008
4. Трегуб И.В. "Математические модели динамики экономических систем", М.: Финская академия, 2009
5. Красс М.С. Математика для экономических специальностей. - М.: ДЕЛО, 2002.
6. Лабскер Л.Г. Вероятностное моделирование в финансово-экономической области. - М.: Альпина.2002.
7. Трегуб И.В. Имитационное моделирование: Учебное пособие. - М.: Финская академия, 2007
8. Красс М.С. "Математика в экономике. Основы математики". М., ФБК-Пресс, 2005 г.



**Mahir Calalov**


## RİYAZİ MODELLƏŞDİRMƏ METODUNUN İQTİSADİYYATDA TƏTBİQİNİN XÜSUSİYYƏTLƏRİ

**Xülasə**


Məqalədə riyaziyyatın iqtisadiyyatda tətbiqi, əhəmiyyətli çətinliklərin aradan qaldırılması ilə bağlı ətraflı məlumat verilir. Xüsusilə bir neçə əsr ərzində, əsasən fizika və texnikanın ehtiyacları ilə əlaqəli inkişaf edən riyaziyyat çox böyük rol oynamışdır. Ancaq əsas səbəblər iqtisadi proseslərin təbiətində, iqtisadiyyat elminin xüsusiyyətlərindədir.

**Məqsəd**-istənilən iqtisadi obyektlərin və proseslərin riyazi modelləşdirmə potensialını göstərmək.

**Tədqiqatın nəticələri-**riyazizi modelləşdirmənin kifayət qədər səmərəli olmadığı yerdə, iqtisadi problemlərin riyazi formalarla mütləq sərhədlərini göstərmək mümkün deyil.

**Açar sözlər:** model, riyazi modelləşdirmə, obyekt, iqtisadi proseslər, məlumat, rabitə, proses

**Mahir Jalalov**

**FEATURES OF THE APPLICATION OF THE METHOD OF MATHEMATICAL MODELING IN ECONOMICS**

**Summary**

The article provides detailed information on the application of mathematics in economic science associated with overcoming significant difficulties. In particular, mathematics, which has developed over several centuries, mainly in connection with the needs of physics and technology, has played a huge role. But the main reasons lie in the nature of economic processes, in the specifics of economic sciense.

**Purpose-**show the potential for mathematical modeling of any economic objects and processes.

**Findings-**it is impossible to indicate the absolute boundaries of the mathematical formalization of economic problems, where mathematical modeling is not effective enough.

**Keywords:** model, mathematical modeling, object, economic processes, information, communication, process

**Təranə Vəliyeva**
*Azərbaycan Əmək və Sosial Münasubətlər Akademiyası*
*tarana055@mail.ru*

## İNNOVASİYALI TEXNOLOGİYALARDAN İSTİFADƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

***Açar sözlər:*** innovasiya. innovasiyalı texnologiyalar, informasiyalaşdırma, model, innovasiya sistemi.

***İnnovasiya-***(*ingliscə-innovatio sözündən yenilənmə, yaxşılaşma deməkdir*) yüksək səmərərlilik və tərəqqi məqsədilə yeniliyin tətbiq olunması prosesidir. 1911-ci ildə "innovasiya" terminini ilk gündəmə gətirən amerikalı və avstriyalı iqtisadçı alim **Yozef Şumpeter** olmuşdur. O, "İqtisadi inkişaf nəzəriyyəsi" kitabında "innovasiya"anlayışını yenilik fəaliyyətlərinin reallaşdırılması kimi qeyd etmişdir(Tağıyev, 2015:5).

İnnovasiyalı texnologiyaların əsas funksiyası yeni məhsul və ya xidmətlərin bazara daha tez daxil olmasnı, mövcud bazar şərtlərində müştərinin ehtiyac və tələblərindəki sürətli dəyişiklikləri və innvovasiyanın şirkətlərə gətirdiyi üstünlükləri araşdırmaqdan ibarətdir.
Dünya İqtisadi Forumunun etdiyi araşdırmalara görə, son illərdə rəqabət gücü ən yüksək olan ölkə Finlandiyadır. Bu səviyyəyə çatmaq üçün Finlandiya innovasiyaya etdiyi yatırımla güclü bir iqtisadiyyata malik cəmiyyət yaratmışdır. Belə ki, təqribən 20 il əvvəl Finlandiyada innovasiya əsaslı iqtisadiyyat formalaşmağa başlamış, innovasiyaya böyük məbləğlər ayrılmış, universitetlər və şirkətlər arasında güclü əlaqə qurulmuş və bu əməkdaşlıq əsasında ***texnoparklar(texnopark****-innovasiya və kəşf sahiblərinin müvəffəqiyyət qazana bilməsi üçün münasib iş şəraiti yaradan, şirkətləri, yeni təşəbbüskarları bir araya gətirən infrastrukturdur)* yaradılmışdır(Qasımov, Cəbiyev, 2017:7).

Qeyd: ilk dəfə "texnopark" anlayışı 1950-ci illərdə ABŞ-da yaranmış və dünyanın ilk texnoparkı ABŞ-da qurulmuşdur.

İqtisadiyyatın maddi bazası yüksək inkişaf etmiş maşınqayırma və istehsalın yenidən təşkili ilə xarakterizə olunur. Bunun da əsasında istehsal proseslərinin avtomatlaşdırılmasını, informasiyalaşdırılmasını və intellektləşdirilməsini təmin edən sahələr dayanır. Elektronika, radiofizika, optoelektronika, lazer texnologiyaları, müasir aviasiya və kosmonavtika sahələrində müəyyən edilən texnoloji və fundamental ixtiralar, müasir informasiya texnologiyalarından istifadə, mikro və makro elektronika sahələrində alınmış nəticələr, nanotexnologiyalar elm tutumlu məhsulların yaranmasına səbəb olmuşdur. Elm tutumlu texnologiyalardan istifadə edilməsi də iqtisadi inkişafın yeni bir istiqamətinin- "İnnovasiya yönümlü iqtisadi inkişaf" modelinin qurulması deməkdir. Bu model öz yüksək səmərəliliyini elm, texnika və istehsalın qarşılıqlı təsiri sferasında göstərir(Tağıyev, 2015:5).

İnnovasiya prosesi sosial-iqtisadi münasibətlərin keyfiyyətini dəyişməklə, xüsusi sərvət strukturu meyarları kəsb etməklə və yeni innovasiya yönümlü iqtisadiyyatı yaratmaqla bütün təsərrüfatçılıq sisteminin fəaliyyətində də hakim rol oynayır. Bu zaman iqtisadi artım kimi istehsalın intellektləşdirilməsi çıxış edir, bu da məhsul və xidmətlərin buraxılışı və reallaşdırılması hesabına əldə edilir.

İqtisadiyyatda İnnovasiya strategiyasının komponenti olan İnnovasiya Sistemi (İS) yeni və iqtisadi cəhətdən faydalı olan bilginin işlənməsi, istifadəsi və yayılması prosesində qarşılıqlı əlaqədə olan elementlərin və münasibətlərin məcmusu olub, bilginin əldə edilməsi, yaranması, yayılması və istifadəsinin effektivliyini təmin edir. Dinamik inkişaf edən iqtisadiyyat daim özü ilə yeniliklər və dəyişikliklər gətirir. Yeniləşən və inteqrasiya olunan müasir dövrdə hər bir ölkənin dünya bazarında yerinin müəyyənləşməsi və mövqeyinin möhkəmləndirilməsi mühüm aktuallıq kəsb edir. İnkişaf etmiş dövlətlər bu məsələlərin həllində daha çevik siyasət həyata keçirərək mürəkkəb və sadə təzahür formasına malik biznes alətləri formalaşdırmağa çalışırlar. Təbii ki, bunun kökündə yenə də mövcud insan, kapital, əmək ehtiyatları, təbii sərvətlər kimi resurslardan maksimum səmərəli istifadə olunması məsələləri dayanır. Bu məsələnin mərkəzində insan və kapital amili qarşılaşaraq daha çox gəlir gətirən bir model ortaya çıxır. Bu model bazarda özünə müvafiq yer qazanmaq uğrunda mübarizə aparan firmaların maliyyələşdirilməsi üçün nəzərdə tutulan maliyyə vəsaitidir. Maliyyə vəsaitlərinin də əldə olunması üçün xüsusi maliyyə innovasiyaları tətbiq olunur (Qasrmov, Əliyev, Nəcəfov, 2013:3).

Hazırda avtomatlaşdırma, minibotlar, maşın öyrənməsi və süni intellekt ildırım sürəti ilə iqtisadiyyat komandasının bir hissəsinə çevrilmişdir. Başqa sözlə, ***mühasibatlıq sahəsində innovasiyanın, innovasiyalı texnologiyaların*** tətbiqi prosesi sürətləndirilmişdir. Məsələn:

- maşın öyrənməsi insanları digər vəzifələri yerinə yetirməkdən azad etməklə mühasibat proseslərinin avtomatlaşdırılması əməliyyatlarını yaxşılaşdırmağa və xərcləri azaltmağa kömək edir (1 C Mühasibat, SAP proqramları)(Umarova, 2016:6).
- süni intellekt ilə işləyən hesab-faktura idarəetmə sistemləri həyata keçirilən rəqəmsal iş axınları sayəsində fakturaların işlənməsi asanlaşdırılır. Yəni, süni intellekt hesab-fakturaya uyğun olan mühasibat kodlarını öyrənə, kredit ballarını və ya vergi məlumatlarını yoxlaya, təchizatçıları insan iştirakı olmadan sistemdə qura və hətta bütün lazımi məlumatları əldə etmək üçün portalları sorğulaya bilir;
- audit prosesi rəqəmsallaşdırılır, yəni audit zamanı tələb olunan sənədləri fayl şkafında axtarmaq əvəzinə, rəqəmsal fayllar istifadə edilir;
- təşkilatın müvafiq siyasətə uyğun olmasını təmin etmək üçün xərclər nəzərdən keçirilir və mümkün pozuntu baş verdikdə insanlara xəbərdarlıq edilir.

Bu gün ***marketinq innovasiyası***- şirkətin bütün funksiyalarını əhatə edən innovasiyadır və şirkət qurulmadan öncə müştərini tanımaq, öyrənmək, bazarı anlamaq, müştərinin istək, ehtiyac və problemlərinə uyğun məhsul və ya xidmətlərin məsələləri üzrə dizaynı və tədqiqatlar aparılması anlamıdır. Şirkətlərin sahib olduqları bazar innovasiya qabiliyyətləri, davamlı rəqabət üstünlüyü üçün potensial metoddur.

Marketinqdə innovasiya müştəri-satıcı əlaqələrinin klassiklikdən çıxaraq innovativ bir hal almasıdır. Bu baxımdan şirkətlərin məhsulu innovativ yollarla istehsal etməkləri deyil, eyni zamanda bunları bazara necə təqdim edəcəkləri və böyük əhəmiyyət kəsb edir. **Baskaran Sukunun** fikrincə, marketinq innovasiyasının əsas hissəsi məhsulun üzərində müştərilərin fikirləri nəzərə alınaraq edilən müəyyən dəyişikliklər, məhsulun qramında və ya paketlənməsində edilən yenilənmələr, məhsulların müştərilərə müxtəlif və rəqiblərdən fərqli kanallarla çatdırılması, bu kanalların axtarılması, inkişaf etdirilməsi, yeni texnologiya və metodlardan istifadə edərək məhsulun bazarda tanıtımıdır(Əzizova, 2012,:1)

İqtisadi inkişafın zəruri məsələlərindən biri vergi mexanizminin innovasiyalı proseslər vasitəsi ilə tənzimlənməsidir və bu sahədə həyata keçirilən stimullaşdırıcı tədbirlər əhəmiyyətli yer tutur. Stimullaşdırıcı vergi tənzimlənməsi yolu ilə xüsusi kapital rəqabət qabiliyyətli texnologiyaların maliyyələşdirilməsinə və investisiya yatırılmasına cəlb edliir. Vergi Uyğunluğunda İnnovasiyalar proqramı vergi islahatlarına vahid yanaşma vasitəsilə aşağı və orta gəlirli ölkələrdə vergi uyğunluğunu artırmaq məqsədi daşıyır. Proqramın üç əsas sütunu olan *icra, asanlaşdırma* və *etibar* komponentləri vergi ödəyiciləri və vergi administrasiyaları arasında etimadın artırılmasını yüksəldir. Bu prosesin icrasının gücləndirilməsi və asanlaşdırması üçün innovatik islahatlar həyata keçirilir.Belə ki, vergi gəlirlərininn artırılması dövlət potensialını artırmaq, gələcək planlar üçün siyasi dəstək yaratmaq, nəticədə vətəndaşlar və hökumətlər arasında daha güclü müqavilələr yaratmaq yeni innovasiya şəraitində investisiyalar qoymağa səbəb olur(Musayev, 2014:4).

Müasir şəraitdə yeni texnologiyaların tətbiqi müəssisələrin fəaliyyət imkanlarını genişləndirməklə onun hərtərəfli inkişafını təmin edir. İnnovasiya yönümlü texnikaların tətbiqi iqtisadi səmərəliliyinin artırılması yollarının müəyyənləşdirilməsi və qiymətləndirilməsi sahəsində dünya təcrübəsində sınaqdan keçirilmiş üsulların istifadəsi özünü doğruldur. Belə ki, innovasiyalar müəsisələrdə keyfiyyət göstəricilərini təkmilləşdirməklə yanaşı yeni fəaliyyət mühiti də formalaşdırır. ***Sənayeyə innovasiyalı texnologiyaların*** iri həcmli tətbiqi məhsulun istehsal zəncirinin balanslaşdırılmış inkişafı şəraitində mümkündür. İstehsal zənciri dedikdə, yeni innovasiyalı texnologiyaların əsasında elmi tədqiqatlardan məhsulun kütləvi istehsalına qədər keçilən yol nəzərdə tutulur. Mütəxəssislərin fikrincə, sənaye texnologiyaları istehsal xüsusiyyətləri, texnoloji proseslərin təsviri, sifarişçinin məqsədi üçün texnoloji avadanlıqlar və layihələrdir. Mövcud istehsal gücünün modernləşdirilməsi və innovasiya inkişafının sürətlənməsi strategiyasının həyata keçirilməsi üçün istehsal xətlərinin (texnoloji proses və avadanlığın) təkmilləşdirilməsinə tələbat çoxdur. İnnovasiya istehsal şirkətlərinə yeni texnologiyaların tətbiqindən iqtisadi səmərə, texnoloji proseslərin həcmliyini və optimallığını təmin edərək əlavə rəqabət üstünlükləri verir. Dünya təcrübəsinə görə innovasiya mərkəzləri (İM) fəaliyyət növü kimi çox uğurludur. İM sifarişçinin texnoloji nəticələrinin işlənməsi üzrə kommersiya fəaliyyəti göstərirlər. Eyni zamanda, innovasiya mərkəzlərinin yaradılması texnoloji sıçrayışa, iqtisadiyyatın yüksək texnoloji sahələrinə investisiyanın cəlb edilməsinə və sənayenin ümumi artımına kömək edir və tədbirlərin həyata keçməsi məqsədi daşıyır:

1. Kiçik və orta sahibkarlığın dəstəklənməsi sərhədlərində müasir texnoloji baza əsasında orginal texnologiya, avadanlıq və məhsul hazırlamaq;
2. Böyük sənaye sifarişçilərini çoxlu sayda innovasiyaların tətbiqini stimullaşdırmaq.
3. Xarici innovasiya mərkəzlərinin və şirkətlərinin lokal dayaq nöqtələrin açmaq və innovasiya xidmətləri göstərmək(Əliyev, Şahverdiyeva,2014:2).

***Sosial sahədə innovasiyalı texnologiyalar*** əhalinin müxtəlif tipli sosial tələbatlarına cavab verən yeni texnologiyaları əhatə edir. Hazırda İnternet vasitəsi ilə sosial innovasiyaların tətbiqi məsələsi daha aktualdır, belə ki, İnternet sosial innovasiyaları həyata keçirmək üçün ən ucuz və sürətli vasitə hesab olunur. Sosial İnnovasiyalar hazırda cəmiyyətdə e-dəyişikliklər

tətbiq etməklə müxtəlif proseslərin İnternet və rəqəmsal alətlər üzərindən daha asan və ucuz yollarla həyata keçirilməsinə xidmət edir(Tağıyev.2015:5).

***Elm və təhsilə innovasiyaların*** tətbiqi zamanın tələbidir. Bəşəriyyətin inkişafının zirvə nöqtəsi vətəndaş cəmiyyətinin qurulması, elmi uğurları tətbiq etməklə, təhsilin elmi innovasiyalar əsasında inkişaf etdirilməsi, elm-təhsil-istehsalat əlaqələrinin möhkəmləndirilməsi yolu ilə insanların intellektual səviyyəsini yüksəltməkdir. Elmi innovasiyaların təhsil mühitinə transferi son dərəcə zəruri amildir və bu proses, əsasən 3 istiqamət üzrə həyata keçiriir:

1) Tədrisin elmi innovasiyalara əsaslanan prioritet elmi istiqamətlər əsasında təşkili;
2) Təhsil alanların elmi nailiyyətlərə yiyələnməsi;
3) Təhsil sisteminin maddi-texniki bazasının gücləndirilməsi(Umarova, 2016:6)

Elm və təhsildə innovasiya haqqında **Aydın Kazımzadənin** çox dəyərli fikirləri vardır:

*"Bu gün təhsil elmdən ayrı təsəvvür edilə bilməz. Sovet dönəmində elm əsasən akademiya sistemində cəmləşirdi və universitetlər daha çox təhsil mərkəzi kimi qəbul edilirdi. Lakin hazırda inkişaf etmiş dünya dövlətlərində universitetlər ilk növbədə elm mərkəzləri kimi formalaşır və təhsil prosesi elmi innovasiyalar əsasında qurulur. Beləliklə universitetlər cəmiyyətin tələbat və ehtiyaclarını ödəmək üçün elm - təhsil mərkəzləri kimi formalaşır."*

***Bu gün səhiyyə sahəsində innovasiyalı texnologiyaların*** tətbiqi böyük nailiyyətlərə səbəb olub, tibbin inkişafına, xəstəliklərin daha tez müəyyən edilməsinə gətirib çıxarmışdır. Belə ki, tibbdə istifadə olunan texnologiyalara *kompüter tomoqrafiyasını (KT), Ultrasəs müayinəsini (USM), Elektrokardioqraf (EKQ), Flüoressein angioqrafiya (FA)* və s. misal göstərmək olar.İnnovasiyalı texnologiyalar vasitəsilə tibb və digər elmi sahələrdə beynəlxalq konfranslar keçirilir və belə konfranslara müxtəlif ölkələrin nümayəndələri qatılırlar, bu da biliklərin tez çatdırılımasına və yeni metdoların tətbiqinin gecikməməsinə səbəb olur. Bu da minlərlə insanın sağlamlıq problemlərinin həll olunmasını təmin edir.

***Kənd təsərrüfatı sahəsində də innovasiyalı texnologiyalar*** çox geniş şəkildə tətbiq olunur. Azərbaycan respublikası Prezidentinin 19 dekabr 2018-ci il tarixli Fərmanına uyğun olaraq bu sahənin texnikalarla təminatı liberallaşdırılmışdır.

*Aqrar sahə üzrə innovasiyalı texnikalar* müxtəlif şirkətlər tərəfindən gətirilərək müəyyən güzəştlərlə (40%) fermerlərə lizinq yolu ilə verilir. Bundan əlavə, istifadəsiz torpaqlar dövriyyəyə cəlb edilir, yeni aqroparklar, kollektiv təsərrüfatlar yaradılır, həmçinin yeni texniki vasitələrin, elektron kənd təsərrüfatı informasiya sisteminin, innovativ enerji və resursqoruyucu texnologiyaların, "Pivot" avtomatik suvarma sisteminin tətbiqinə böyük üstünlük verilir.

*Dəqiq əkinçilik* müasir dövrün ən aktual texnologiyalarından biri sayılır. Bu texnologiya - kompüter və peyk texnologiyalarının tətbiqi ilə əkinlərin məhsuldar idarə olunmasına kompleks yanaşma sistemidir. Buraya daxildir: *texnikanın marşrut üzrə hərəkəti, iş prosesi,, cari vaxt anında yerinə yetirilən işin həcmi, aqreqatın getdiyi yol, hərəkət sürəti, yanacaq sərfinin göstəricilərinə nəzarət etmə, elektron qeydiyyat aparma.*

Son illər ərzində Azərbaycanın kənd təsərrüfatında dronlardan istifadə, ağıllı bağ, müasir əkin metodları, zərərvericilərə qarşı müasir bioloji mübarizənin təşkili, biotexnologiya laboratoriyalarında virussuz toxum və ting yetişdirilməsi, əkin sahələrinin koordinatlarının və sahədə hansı məhsulun əkilməsinin müəyyənləşməsi texnologiyaları geniş istifadə olunur. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi tərəfindən tətbiq edilən Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində bu proseslər öz əksini tapmışdır.

*Heyvandarlıq sahəsində innovasiya*-heyvandarlıq istehsalı və heyvan mənşəli qida istehlakı ilə bağlı problemlərin həllini həyata keçirir. Buraya aiddir:

- ✓ mal-qaranın qidalanması üçün **y**em ehtiyatlarının yaxşılaşdırılması,
- ✓ yem çeşidlərin müəyyən edilməsi,
- ✓ qida təhlükəsizliyi məsələlıri,

- ✓ südlük mal-qara üçün ən yaxşı, sərfəli pəhrizlərin seçilməsi və s. (Əhmədov, 2010:9)

Ümumilikdə, innovasiya fəaliyyətinin mürəkkəb modelini təşkil edən İnnovasiya sistemi, innovasiya fəaliyyəti daxilində qarşılıqlı münasibətləri ifadə edir. İnnovasiya sistemini tədqiq edərkən bu sistemə daxil olan atributların tədqiqi zəruri əhəmiyyət kəsb edir. İnnovasiya sistemi hər bir ölkədə müəssisə və təşkilatları, innovasiya fəaliyyətində zəruri olan texnoloji yenilik və dəyişiklikləri, həmçinin qlobal rəqabətin artması istiqamətində lazım olan dəstəyi təmin edir(www.ict.az)

**Nəticə**

Beləliklə, qeyd ermək olar ki, innovasiyalı texnologiyaların aşağıdakı məsələlərin həllində əvəzsiz rolu vardır:

- həyatımızda əvəzsiz rol oynayır;
- tətbiq edildiyi bütün sahələrdə sürətli inkişaf gedir;
- insanların işini asanlaşdırır və azaldır;
- tətbiq edildiyi sahənin səmərəli fəaliyyətini təmin edir;
- istifadə olunduğu sahələrdə maksimum məhsuldarlığa nail olunmasına imkan verir.

**Ədəbiyyat**


1. Əzizova G.A “Dövlətin investisiya –innovasiya siyasəti” Bakı-2012
2. Əliyev Ə.Q, Şahverdiyeva R.O “İnformasiya cəmiyyəti problemləri” Bakı 2014 №2 (50-60)
3. Qasrmov F., Əliyev T., Nəcəfov Z. “Milli innovasiya sisteminin təşkili və idarə edilməsi”, Dərs vəsaiti, 2013
4. Musayev A.F.- İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırılması, Bakı -2014
5. Tağıyev A.H “İnnovasiya sual-cavabda (Broşura)”, Bakı 2015
6. Umarova N.Ə. “İnformasiya Kommunikasiya Texnologiyasi” Dərs vəsaiti. İTİ nəşriyyatı. Bakı 2016.
7. Qasımov İ., Cəbiyev F. “İnnovasiya sahibkarlığı və texnoparklar” , Dərs vəsaiti , 2017
8. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Strateji Yol Xəritəsi”
9. Əhmədov G.Ə. “Kənd təsərrüfatında innovasiyaların tətbiqi istiqamətləri”. Bakı, “Elm”, 2010
10. www.ict.az



**Nigar Məmmədova**

*Əmək bazarı və Sosial Müdafiə Məsələləri üzrə*
*Milli Observatoriya, böyük mütəxəssis*
*e-mail: nigar.kh.mammadova@sosial.gov.az*


# ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA OPTİMAL MEDİAN, ORTA, MİNİMUM VƏ XALİS ƏMƏK HAQQININ ROLU


***Xülasə***

Tədqiqatda bir neçə ölkənin (Avstraliya, Çin, ABŞ, Kanada və Avropa İttifaqı ölkələri) əmək haqqı təcrübəsinə nəzər salınmışdır. Xüsusilə Avstarliyada tətbiq olunan əmək haqqı növlərinə dair məlumatlar verilmiş, ABŞ və Kanadada minimum əmək haqqının ştat və federal səviyyədə təyini qeyd olunmuş, Avropa İttifaqına üzv ölkələrində inkişaf səviyyəsinə əsasən əmək haqqı səviyyələri arasındakı fərqlər təhlil olunmuşdur. Ölkələr üzrə istifadə olunan əmək haqqı növləri (real, minimum, median, vaxtamuzd, saathesabı və s.), səviyyəsi, tətbiq olunan sistemlər təhlil olunmuşdur. İnkişaf səviyyəsinə əsasən ölkələrdə əmək haqqı növləri arasında olan fərqlər araşdırılmışdır. Həmçinin Azərbaycan Respublikasında əmək

haqqı ilə bağlı cari vəziyyətin digər ölkələrlə müqayisəli təhlili aparılmışdır.

**Açar sözlər:** əmək haqqı, əmək bazarı, minimum əmək haqqı, median əmək haqqı, orta əmək haqqı

**The role of optimal, average, minimum and net wages in the socio-economic development of the country**

**Abstract**

In the paper have been analyzed wage practice of several countries (Australia, China, the United States, Canada, and the European Union). The study provided information on the different types of wages applied in Australia, the United States, and Canada with examples. Also, different wage levels of EU member states were analyzed in terms of economic development. Wage types (real, minimum, median, time, hourly, etc.), levels, and current systems of selected countries were analyzed, and examples were provided. Differences between types of wages in countries were studied in terms of economic development. A comparative analysis of the wages of the Republic of Azerbaijan with other countries was conducted.

**Keywords:** wage, salary, labor market, minimum wage, median wage, the mean wage

**Роль оптимальной, средней, минимальной и чистой заработной платы в социально-экономическом развитии страны**

**Резюме**

В ходе исследования были проанализированы опыт оплаты труда нескольких стран (Австралия, Китай, США, Канада, Европейский Союз). Исследование предоставило информацию о различных типах заработной платы, применяемых в Австралии, США и Канаде, с примерами. Также были проанализированы различные уровни заработной платы в странах-членах ЕС с точки зрения экономического развития. Были проанализированы виды заработной платы (реальная, минимальная, медианная, повременная, почасовая и т. д.), уровни и действующие системы выбранных стран и приведены примеры. Различия между видами заработной платы в странах изучались с точки зрения экономического развития. Проведен сравнительный анализ заработной платы Азербайджанской Республики с другими странами.

**Ключевые слова:** заработная плата, зарплата, рынок труда, минимальная заработная плата, медианная заработная плата, средняя заработная плата

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 154-cü maddəsinə əsasən əmək haqqı müvafiq iş vaxtı ərzində əmək funksiyasını yerinə yetirmək üçün əmək müqaviləsi ilə müəyyən edilmiş, işçinin gördüyü işə (göstərdiyi xidmətlərə) görə işəgötürən tərəfindən pul və ya natura formasında ödənilən gündəlik və ya aylıq məbləğ, habelə ona edilən əlavələrin, mükafatların və digər ödənclərin məcmusudur.

İş qüvvəsi bazarında "satıcı" kimi müəyyən peşə və ixtisasa sahib işçilər, alıcı kimi isə sahibkarlıq və qeyri-sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslər çıxış edirlər. İş qüvvəsinin qiyməti aylıq maaş (oklad), tarif, işəmuzd və vaxtamuzd formada təmin olunmuş baza əmək haqqıdır.

Əmək haqqının bölüşdürücü, sosial, stimullaşdırıcı kimi əsas funksiyaları vardır.

Bölüşdürücü funksiya bilavasitə istehsalçılara (iş qüvvəsinin istehlakçısılarına) aiddir, belə ki, onlar istehsal vasitələri və əməyin nəticələri üzərində sərəncam vermək hüququna

malikdirlər. Müasir iqtisadi şəraitdə bölüşdürmə münasibətlərinin forması dəyər göstəricilərinə, bazar rəqabətinə istiqamətlənmişdir və müəssisənin maliyyə vəziyyətini əks etdirir.

Əmək haqqının sosial funksiyasını nəzərdə keçirərkən qeyd etmək lazımdır ki, əməyin ödənilməsi məsələsi müəssisə səviyyəsində həl olunur. Bu sahədə dövlət yalnız əmək haqqının təminatlı minimum həddini müəyyən edir.

Əmək haqqının stimullaşdırıcı funksiyası iş qüvvəsindən intensiv istifadə olunmasında mühüm rol oynayır, onu idarəetmə məqsədlərinin reallaşdırılmasına yönəldir.

Statistika, təhlil, tədqiqatlar məqsədləri üçün ölkələr üzrə müxtəlif əmək haqqı növlərindən istifadə olunur. Bunlara misal olaraq, nominal, orta aylıq, real, minimum, median və s. əmək haqqı növlərini göstərə bilərik.

Beynəlxalq Əmək Təşkilatının Qlobal Əmək haqqı Hesabatının (Global Wage Report) məlumatına əsasən qlobal miqyasda 327 milyon əmək haqqı alan insan qəbul olunan saat hesabı məbləğindən az qazanır. Bu ümumi əmək haqqı alan əhalinin 19%-ni təşkil edir və 152 milyon nəfər qadını əhatə edir.

Ölkələrdə əmək haqqının səviyyəsi qiymətləndirilən zaman əsas götürülən göstərici real əmək haqqıdır. İnkişaf etmiş ölkələrdə (İEÖ) real əmək haqqı artımı inkişaf etməkdə olan ölkələrə (İEOÖ) nisbətən daha aşağı olur. Belə ki, İEÖ-də qlobal pandemiyadan öncəki 4 ildə real əmək haqqında artım illik 0,4-0,9% idisə İEOÖ-də bu göstərici 3,5-4,5% təşkil etmişdir. Qlobal real əmək haqqının artımı isə 1,6-2,2% təşkil etmişdir. İEÖ-də əmək haqqı artımının surətinin aşağı olma səbəbi iqtisadiyyatın stabil inkişafı ilə əlaqədardır. İEOÖ-də isə iqtisadiyyatda baş verən dalğalanmalar birbaşa əmək bazarına təsir etdiyindən əmək haqqının artım səviyyəsi də qeyri-stabil olur.

Regionlar üzrə real əmək haqqındakı artıma nəzər yetirsək ən yüksək artım Asiya və Sakit Okeanı hövzəsi ölkələrində müşahidə olunmuşdur. Ən aşağı artımı isə Şimali Amerika və Avropa ölkələrindədir (1%-dən aşağı).

Minimum əmək haqqının düzgün təyin olunması əmək bazarı üçün önəmli faktordur. Hər qrupdan məşğul əhalinin hüquqlarının qorunması və əmək haqqının gender bərabərsizliyinin səviyyəsinin aşağı salınmasında minimum əmək haqqının səviyyəsi önəmli rol oynayır. Minimum əmək haqqının səviyyəsinin təyin olunması üçün Beynəlxalq Əmək Təşkilatı (BƏT) tərəfindən Minimum əmək haqqının təyin olunması üzrə Konvensiya (Minimum Wage Fixing Convention) qəbul olunmuşdur. Konvensiyada minimum əmək haqqının təyinatı zamanı məşğul əhalinin və onların öhdəliyində olan insanların maraqlarının qorunması ilə yanaşı ölkənin iqtisadi vəziyyətinin nəzərə alınması da tövsiyə olunur.

Ölkələrin minimum əmək haqqı sistemləri üzrə fərqliliklər vardır. 2 əsas minimum əmək haqqı sistemi mövcuddur: vahid və diferensial.

ABŞ, Braziliya, Çin, Avstraliya kimi ölkələrdə diferensial əmək haqqı sistemi tətbiq olunur. Məsələn: ABŞ-da ölkə üzrə federal minimum əmək haqqı təyin olunmuşdur. Bununla yanaşı, ştatların icra hakimiyyəti orqanlarına minimum əmək haqqı həddinin təyin olunması üzrə səlahiyyətlər də verilmişdir. Burada əsas şərt təyin olunacaq əmək haqqı normasının federal normadan aşağı olmamasıdır.

Avstraliyada iqtisadi fəaliyyət sahələri üzrə minimum əmək haqqının səviyyəsində müəyyən fərqlilik vardır. Çin və Braziliyada isə inkişaf səviyyəsindən asılı olaraq ölkənin regionları üzrə fərqli minimum əmək haqqı normalarında istifadə olunur.

Aİ üzv ölkələrin 14%-də müxtəlif minimum əmək haqqı səviyyəsi təyin edilmişdir. Minimum əmək haqqının səviyyəsi ixtisas, vəzifə, bacarıq səviyyəsi və yaşa görə təyin olunur. Məsələn, Birləşmiş Krallıqda, Lüksemburq və İrlandiya kimi ölkələrdə minimum əmək haqqının səviyyəsi yaş kateqoriyasına görə fərqləndirilmişdir.

Ölkənin minimum əmək haqqının effektivliyinin ölçülməsinin əsas metodlarından biri də minimum əmək haqqı ilə median əmək haqqının nisbətinin ölçülməsidir. Minimum əmək

haqqı ilə median əmək haqqının nisbətini təyin edərkən saathesabı çalışan tam ştatlı işçilərin aylıq minimum əmək haqqının məbləğini müqayisə etmək vacibdir. Belə ki, tam ştatda çalışan əhali ilə sərbəst və ya yarım-ştatda çalışan əhalinin ortalama minimum əmək haqqı real vəziyyəti əks etdirmir.

İnkişaf etmiş ölkələrdə minimum əmək haqqı əsasən median əmək haqqının 35-60%-ni təşkil edir. İnkişaf etməkdə olan ölkələrdə isə bu nisbət daha yüksəkdir. Bunu inkişaf etməkdə olan ölkələrdə əmək haqlarının aşağı olması ilə də izah edə bilərik. Faktorların nəzərə alınması işləyən və işə götürənlərin maraqlarının qorunmasına xidmət edir.

***Qrafik 1.*** **Seçilmiş Aİ üzv ölkələri və Azərbaycanda son 5 ildə minimum əmək haqqının median əmək haqqına nisbəti (2020)**




Mənbə*:* https://stats.oecd.org/viewhtml.aspx?datasetcode=MIN2AVE&lang=*en*

Ölkəmizdə vahid minimum əmək haqqının tətbiqi uzun illərdir həyata keçirilir. 2021-ci ildə ölkəmizdə minimum əmək haqqı 300 AZN-ə bərabər olmuşdur ki, bu göstərici son 3 ildə 2 dəfə artmışdır. Ölkəmizdə minimum əmək haqqı normasına baxılması hər il həyata keçirilir və hökumət tərəfindən 2025-ci ilədək minimum əmək haqqı məbləğinin 500 AZN-ə çatdırılması hədəfi qoyulmuşdur. Median əmək haqqının hesablanmasına isə 2021-ci ildən başlanılmışdır və göstərici həmin il üzrə 343 AZN təşkil etmişdir.

Ölkəmizdə əmək haqqı ilə bağlı əsas önə çıxan məsələlərdən biri qadın və kişilərin nominal əməkhaqqı məbləğlərindəki fərq üzrədir. 2020-ci ilin statistik məlumatına əsasən ümumi iqtisadi fəaliyyət sahələri üzrə qadınların əməkhaqqıları kişilərdən 36,7%, o cümlədən dövlət sektoru üzrə 35,3%, qeyri-dövlət sektoru üzrə isə 32.4% az olmuşdur. İqtisadi fəaliyyət sahələrinə ayrılıqda nəzər yetirdikdə mənzərə fərqli deyil. Bütün iqtisadi fəaliyyət sahələri üzrə qadınların əməkhaqqı kişilərdən az olmasını aşaödakı qrafikdə görmək olar.




Qrafikə nəzər yetirdikdə əməkhaqqı səviyyəsində kəskin fərqlərin peşə, elmi və texniki fəaliyyət sahələri, maliyyə və sığorta fəaliyyəti, mədənçıxarma sənayesində olduğunu görürük. Bu fərqləri aşağıdakı kimi də izah etmək olar:

– uzun iş saatlarının və yükünün çoxluğu səbəbindən qadınların bu sahələrə meyl etməmələri. Məsələn: audit, kredit sahəsində çalışanların əraziyə çıxmaları, ezamiyyələrin sıxlığı, qeyri-sabit iş saatları və s;

–nisbətən yeni yaranan sahələrə kişilərin daha çox yönələndirilməsi və işin riskliliyi və mürəkkəbliyi bu sahələrdə əsasən əməkhaqqılarının daha yüksək olmasını şərtləndirir (IT, kosmik sahələr və s.);

–"Qadın əməyinin tətbiqi qadağan olunan, əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin siyahısının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qanununa əsasən metal emalı, tikinti quraşdırma və təmir-tikinti işləri, tikinti materiallarının istehsalı, mədən işləri, qurğuların qazılması, qara metallurgiya, neft emalı da daxil olmaqla ümumilikdə 38 sahəyə aid bəzi peşə və ixtisaslar üzrə qadınların çalışması qadağan olunmuşdur. Qanunun qəbul olunmasındakı motivlər bu işlərin təhlükəli, iş yükünün ağır olması, fiziki güc tələb etməsi, əsas motiv isə reproduktiv sağlamlığa ziyan vurması ehtimalının yüksək olmasıdır. Lakin həm də bu sahələrdə əməkhaqqı yüksəkdir. Bu sahələrdə çalışanların əksəriyyətinin kişilər olması da qadın və kişi əməkhaqqı məbləğlərində fərqin yaranmasına səbəb olur.

**Ədəbiyyat siyahısı**

1. https://www.stat.gov.az/source/labour/az/004.doc
2. https://www.ilo.org/global/topics/wages/minimum-wages/setting-adjusting/WCMS_439253/lang--en/index.htm
3. https://www.sosial.gov.az/post_433900
4. https://president.az/articles/49786
5. https://www.ilo.org/global/topics/wages/minimum-wages/rates/lang--en/index.htm
6. https://www.pewresearch.org/fact-tank/2021/05/20/the-u-s-differs-from-most-other-countries-in-how-it-sets-its-minimum-wage/
7. https://www.ilo.org/global/topics/wages/minimum-wages/setting-adjusting/WCMS_463092/lang--en/index.htm

**Səadət Quliyeva**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.f.d.*
*13sada@mail.ru*

# İQTİSADİ TƏHLİLİN AUDİTLƏ ƏLAQƏSİ

**Xülasə**

Ölkə iqtisadiyyatının bazar münasibətlərinə uyğun inkişaf etməsi, müxtəlif təşkilati-hüquqi formalı təsərrüfat subyektlərinin yaranması, yeni təsərrüfatçılıq və idarəetmə sistemlərinin formalaşması, milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə inteqrasiyası Azərbaycanda da sivil idarəetmə nəzarət formalarının istifadəsini tələb edir.

Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasının dərinləşməsi auditin aparılmasının vahid sistemini işləyib hazırlamağa gətirib çıxarmışdır. Bu mənada inkişaf etmiş xarici ölkələrdə və MDB ölkələrində audit standartlarının işlənib hazırlanması sahəsində toplanmış təcrübənin öyrənilməsi və tətbiqinin böyük əhəmiyyəti vardır.

Audit iqtisadi-hüquqi nəzarətin daha yüksək pilləsidir. Onun vəzifəsi iqtisadi münasibətləri qeyri-əsassız müdaxilədən qorumaq, həm də iqtisadiyyat sahəsində hüquq pozuntularının qarşısını almaq və ictimai hüquq şüurunu daha yüksək səviyyədə formalaşdırmaqdır.

**Açar sözlər**: sivil idarəetmə, nəzarət, audit, audit standartları, auditin vəzifəsi

İqtisadi təhlildə müəyyən informasiya mənbələrindən istifadə olunur. Bu informasiyaların çox hissəsi mühasibat uçotu və hesabatlarda öz əksini tapır. Deməli, təsərrüfat fəaliyyətinin təhlili mühasibat uçotu ilə əlaqəli surətdə fəaliyyət göstərir.

Müəssisə, idarə və təşkilatların işini xarakterizə edən mühüm iqtisadi göstəricilər statistik hesabatlarda verilir. Bu hesabatlar iqtisadi təhlilin köməyi ilə öyrənilir, təhlil edilir. Deməli, iqtisadi təhlil statistika elmi ilə də qarşılıqlı surətdə fəaliyyət göstərir.

İqtisadi təhlil elmi cəhətdən əsaslandırılmış planlaşmanın, tənzimləmənin və idarəetmənin tərkib hissələrindən biridir. Müasir şəraitdə həmin elmlərin rolu və əhəmiyyəti heç də azalmır, əksinə yüksəlir, istehsalın inkişafına və nəticələrinə təsiri daha da genişlənir.

Xalq təsərrüfatının ayrı-ayrı sahələrində əməyin, istehsalın, texnoloji proseslərin təşkili iqtisadiyyatı və planlaşdırılmasının özünəməxsus xarakterik xüsusiyyətləri vardır. Bu xarakterik xüsusiyyətləri bilmədən bu və ya digər sahənin, müəssisə, idarə və təşkilatların fəaliyyətini ətraflı və dürüst öyrənmək mümkün olmur. Deməli, iqtisadi təhlil ayrı-ayrı sahələrin iqtisadiyyatı ilə də qarşılıqlı surətdə fəaliyyət göstərir.

İstehsalın inkişaf tempinin daim artırılması zəruriliyi və idarəetmənin mürəkkəbləşdiyi indiki şəraitdə iqtisadi təhlilin dərinləşdirilməsi və təhlilin nəticələrinin düzgün hesablanması çoxlu miqdarda və mürəkkəb hesablamaların aparılmasını tələb edir. İqtisadi təhlil riyaziyyat, riyazi proqramlaşdırma, iqtisadi məlumatların mexaniki üsulla işlənilməsi və digər elmlərlə qarşılıqlı surətdə fəaliyyət göstərir.

Müasir şəraitdə inkişaf edən audit postsovet məkanında tamamilə istifadə olunmayan adi iqtisadi termin idi. Nəzəri kökləri, dərinlikləri, təsərrüfat kateqoriyalarının əlaqələrini nəzərə almadan demək olar ki, sovet dövründə istehsal, bölgü, tədavül və istehlak prosesləri vahid əldə birləşdirildiyi üçün praktiki cəhətdən auditə bir o qədərdə ehtiyac yox idi.

Bu gün isə auditə - xüsusi mülkiyyətin, sahibkarlığın, bazar iqtisadiyyatının <<məhsulu>> kimi yanaşmaq və onlarla əlaqədə olan elmi bir sahə kimi öyrənilməsi daha məqsədəuyğun olar.

Ölkəmizdə bazar münasibətlərinə keçidlə əlaqədar audit yeni bir elmi bilik kimi XX əsrin sonunda fəaliyyətə başlamışdır.

Son illərdə nəşr edilmiş bir çox iqtisadi ədəbiyyatlarda auditin mahiyyətinə, yoxlama təftiş və ya təsərrüfat fəaliyyətinin təhlili kimi baxılır. Dünya ölkələrində nəşr edilmiş iqtisadi ədəbiyyatlarda isə bu məsələ daha da dəqiqləşdirilərək haqlı olaraq qeyd edilir ki, audit dedikdə kompleks iqtisadi təhlil başa düşülməlidir.

Audit fəaliyyəti – auditorun və audit firmasının fəaliyyətidir. İdarəetmə, maliyyə və vergi hesabat məlumatlarının düzgünlüyünə nəzarətin təminatıdır. Auditor-mahiyyətinə, sənədlərin yoxlanmasına, yoxlananlarla qarşılıqlı münasibətinə gəldiyi nəticəyə görə təftişdən fərqlənir. Auditor anlayışı təftişçi və nəzarətçi anlayışlarından qat-qat genişdir.

Audit nəinki maliyyə göstəricilərinin düzgünlüyünü yoxlamaqla kifayətlənir, eyni zamanda mənfəətin artırılması üçün məsrəflərin səmərəliliyinin yüksəldilməsi üzrə təkliflər paketi hazırlayır. Audit üzrə məşhur amerikan iqtisadçısı Dr.Robertsonun fikrincə audit – planlaşdırılmış tədbirin riskinin azaldılması, yumşaldılmasına yönəldilən tədbirdir, maliyyə hesabatlarından istifadə edənlərin məlumat risklərinin səviyyəsini minimuma endirməyə imkan verir [1].

Audit məhkəmə - mühasibat ekspertizasından fərqlənir, audit heç kimdən asılı olmayan yoxlama olduğu halda məhkəmə - mühasibat ekspertizası məhkəmə orqanlarının qərarı ilə həyata keçirilir. Məhkəmə - mühasibat ekspertizası hər hansı bir cinayət işini mühasibat uçotunun məlumatları əsasında ekspert yolu ilə hüquqi qaydada sübuta yetirir. Audit cinayət və arbitrajlıq işinin olduğu və olmadığı hallarda da fəaliyyət göstərir [2]. Məhkəmə - mühasibat ekspertizası isə cinayət və arbitraj işi olmadan həyata keçirilə bilməz.

Auditin iqtisadi təhlilə nisbətən mühasibat uçotuna daha yaxın olması fikrini irəli sürən iqtisadçılarlada razılaşmaq olmaz. Məlumdur ki, mühasibat uçotu – istehsal prosesində müəssisənin, birliyin, idarənin, təşkilatın vəsaitlərinin vəziyyətini və istifadə olunmasını sənədlərdə əks etdirməklə məşğuldur. Audit dedikdə müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanması və bu barədə rəyin ifadə edilməsi başa düşülür. Auditin əsas məqsədi müəssisənin maliyyə hesabatının düzgün olduğunu və müəssisə tərəfindən təsərrüfat hüququna dair müəyyən qanunlara və normalara, vergi qanunvericiliyinə necə riayət olunduğuna nəzarət etməkdir. Audit mühasibat uçotunun qeydə aldığı təsərrüfat-maliyyə fəaliyyətinin əməliyyatlarını, onların düzgünlüyünü yoxlayır və məqsədinə uyğun nəticə çıxardır.

İnkişaf etmiş qərb ölkələrinin əksər iqtisadçıları audit dedikdə kompleks iqtisadi təhlil başa düşürlər. Ümumiyyətlə bir çox alimlər bu sahədə araşdırma aparan tədqiqatçıları müayinəçi həkimlərlə müqayisə edib eyniləşdirirlər, daha doğrusu həyata keçirdikləri funksiyalara görə bərabər tuturlar [3].

İqtisadçı-tədqiqatçılar bütün cəmiyyətin, bir dövlətin, ölkənin, mənsubiyyət xüsusiyyətindən asılı olmayaraq hər bir təsərrüfatın, müəssisənin, idarənin, təşkilatın nailiyyətlərinin, çatışmamazlıqlarının və ehtiyatlarının səbəblərini, mənbələrini subyektləri idarə edənlərdən soruşmadan onlardan daha yaxşı bilir və subyektlərin hər biri üzrə əməli təkliflər və tövsiyələr hazırlayır.

Ölkənin inkişaf tempi çox yüksək və iqtisadi vəziyyəti yaxşı olduqda da iqtisadçı-tədqiqatçılar narahatlıq keçirir. İnkişaf tempinin, əhalinin yaşayış səviyyəsinə mənfi təsir göstərmədən tənzimlənməsi və ölkənin, əhalinin iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılması üçün tədbirlər planının hazırlanması üzərində düşünür.

Ölkənin inkişaf tempi aşağı və əhalinin iqtisadi vəziyyəti pis olduqda iqtisadçı-tədqiqatçılar daha çox narahatlıq keçirirlər. Ölkənin inkişaf tempinin yüksəldilməsi və əhalinin yaşayış

səviyyəsinin yaxşılaşdırılması yollarının axtarılmasına gərgin əmək sərf edərək kompleks təkliflər planı hazırlamaqla məşğul olurlar. Bununlada cəmiyyəti, ölkəni, ayrılıqda götürülmüş hər hansı bir təsərrüfat subyektinin böhranlı vəziyyətdən çıxarır və həyatın inkişaf relsi üzərinə yönəldirlər.

Əlbətdə burada söhbət öz ixtisasının sahibi olan yüksək nəzəri biliyə, həyati təcrübəyə malik, cəmiyyətin, ölkənin, xalqın işini öz şəxsi işindən üstün tutan iqtisadçı-tədqiqatçılardan gedir. Ümumiyyətlə həqiqi mənada iqtisadçılar həyatda gördükləri hər bir şeyi dərk etməyi və onun haqqında mülahizələr yürütməyi bacarmalıdırlar.

Göründüyü kimi, iqtisadçılar müayinəçi həkimlər kimi tək-tək fərdləri deyil bütün cəmiyyəti müayinə edir və onun nasazlıqlarını aradan qaldırmağa çalışırlar.

İqtisadi ədəbiyyatlarla tanışlıqda məlum olur ki, daxili inkişaf istiqamətinə və tələbata uyğun olaraq auditin yayıldığı ölkələrdə ona müxtəlif mənalar verilir. Misal üçün, İngiltərədə audit dedikdə müstəqil (heç bir yuxarı təşkilatdan asılı olmayan) yoxlama və müəssisənin maliyyə hesabatı haqqında anlayış-məlumat başa düşülür. Bu halda audit kompaniyası ilə dövlət müəssisələrinin və yerli orqanların auditləri arasındakı fərq nəzərə alınmır.

ABŞ-da audit dedikdə - iqtisadi fəaliyyət və hadisələr haqqında sistemli şəkildə məlumatların düzgün qiymətləndirilməsi başa düşülür. Bunlar məhsul istehsalı və satışı, yerinə yetirilmiş iş və xidmətlər haqda mühasibat uçotunun, təsərrüfat obyektlərinin mühasibat və maliyyə hesabatlarının düzgünlüyünü, həqiqəti əks etdirməkdən ibarətdir. Amerika mütəxəssislərinin fikrincə audit-iqtisadi obyektin fəaliyyəti və yerləşməsi haqda məlumatın toplanması və qiymətləndirilməsidir. Audit heç bir təşkilatdan asılı olmayan hazırlıqlı mütəxəssis tərəfindən həyata keçirilir, o müəyyən olunmuş meyara uyğun işin keyfiyyəti haqda rəy verir. Audit dedikdə müstəqil yoxlama və müəssisənin maliyyə hesabatı haqda fikir söylənməsi başa düşülür. Auditin əsas məqsədi kompaniya və firmaların maliyyə hesabatlarının düzgünlüyü və qanuniliyini müəyyən etməklə, kompaniya və verginin müəyyən olunmuş qanunlarına, təsərrüfatın hüquqi normalarına riayət olunduğunu müəyyən etməkdən ibarətdir.

Audit sərbəst məşğuliyyət növü kimi Avropanın aksioner kompaniyalarında dörd əsr bundan əvvəl meydana gəlməyə başlamışdır. Bu aksionerlərin, kreditorların və vergi xidmətçilərinin müəssisənin maliyyə vəziyyətinin düzgün qiymət verə bilən, heç kimdən asılı olmayan, müstəqil ixtisas sahibi – üçüncü tərəfə ehtiyacın yaranmasından irəli gəlmişdir.

Müxtəlif ölkələrdə auditin hüquqi təminatı fərqli olmuşdur. Məsələn, İngiltərədə hüquqi məcburiliyi haqda qanun 1862-ci, Fransda 1967-ci, ABŞ-da 1937-ci ildə qüvvəyə minmişdir. Hazırda dünyanın bütün ölkələrində özünün hüquqi və təşkilati infrastrukturu olan ictimai audit institutları fəaliyyət göstərir. Dünya təcrübəsində audit bazar iqtisadiyyatının ayrılmaz hissəsidir və çox müxtəlif, mürəkkəb təşkilati formalara malikdir.

Respublikamızda audit xidməti və müvafiq infrastrukturlar son dövrlərdə inkişaf etməyə başlanmışdır. Auditin ilk dalğası 80-ci illərin axırlarında müşahidə edilirdi. Həmin illərdə keçmiş sovet qanunvericiliyi əsasında müştərək müəssisələrdə audit faliyyəti ilə məşğul olan strukturlar yaratmaq nəzərdə tutulurdu. Lakin, auditin qanunvericilik bazası 1991-ci il sentyabrın 16-da Respublikanın Milli Məclisinin 883 saylı qərarına əsasən <<Auditor xidməti haqqında>> Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindi. Daha sonra bir sıra başqa qanunvericilik sənədləri qəbul edildi. Bununlada audit öz funksiyasını yerinə yetirməyə başladı.

Azərbaycan Respublikası Milli Məclisi 1994-cü ilin sentyabrın 19-a <<Azərbaycan Respublikasında Auditorlar Palatası haqqında >> əsasnamənin təsdiq edilməsi barədə qərar qəbul etdi. Həmin qərara əsasən, Azərbaycan Respublikasının Auditorlar Palatasının xalq təsərrüfatının bütün sahələrində auditor fəaliyyətini tənzimləyən əsas orqan funksiyaları həvalə edilmişdir. 1995-ci ilin noyabrın 1-dək respublikada fəaliyyət göstərən auditorlar və audit təşkilatları Auditorlar palatasında qeydiyyatdan keçmişlər. Auditorlar palatasına fəaliyyətin bütün növünü lisenziyalaşdırmaq vəzifələri həvalə edilmişdir [4].

Müasir dövrdə audit yoxlamalarının aparılmasının araşdırılması və sadələşdirilməsi işində mühüm vasitələrindən biri uçotun aparılması və hesabatların tərtibinin vahid formada həyata keçirilməsidir. Uçot və hesabatın eyniliyi bütün mülkiyyət formalarına mənsub olan subyektlərin təsərrüfat-maliyyə fəaliyyətinin yoxlanmasında (auditində) iqtisadi təhlilin bütün üsulları və növlərindən istifadə edilməsinə geniş imkan yaradır. Elə buna görə də auditor həm yüksək ixtisaslı mühasib və həm də təhlilçi olmalıdır. Mühasib kimi uçotun düzgünlüyünü müəyyən etməli, təhlilçi kimi nailiyyətlərin daha da yüksəldilməsi, nöqsan və çatışmamazlıqların müəyyən edilərək aradan qaldırılması, ehtiyat və imkanların səfərbər edilməsi haqqında əsaslandırılmış təkliflər hazırlamalıdır.

Audit xidmətinin ən vacib vəzifələrindən biri biznes planının əsaslılığını, obyektivliyini və optimallığını yoxlamaqdan ibarətdir. Biznes – plansız heç bir subyekt təsərrüfat maliyyə fəaliyyətini həyata keçirə bilməz.

Maliyyə sisteminin sabitləşdirilməsi, dövlət büdcəsinin ardıcıl olaraq gəlirlə təmin edilməsi, fiziki və hüquqi şəxslərin dövlət qarşısında öz öhdəliklərini tam yerinə yetirməsi üçün vergi intizamının gözlənilməsi tələbləri maliyyə intizamının yeni bir istiqamətinin – vergi auditinin meydana çıxmasını zəruriyyətə çevirir. Vergi auditinin mahiyyətinə - iqtisadiyyatın dövlət tərəfindən idarə olunması funksiyası (elementi) və vergi qanunvericiliyinin icra edilməsi üzrə xüsusi fəaliyyət kimi baxılmalıdır.

Vergi orqanlarının fəaliyyətinin bu istiqamətlərinin vacibliyi vergi auditinin mahiyyətini yalnız qanunçuluğun gözlənilməsi ilə məhdudlaşdırmağa əsas vermir, çünki bu halda onun fəal iqtisadi təsir imkanları çox məhdud bir şəkil alır. Vergi orqanları öz fəaliyyətlərində passiv müşahidəçi rolunu oynaya bilməzlər. Ona görə ki, vergi auditi prosesində, təsərrüfat-maliyyə fəaliyyətinin miqdar göstəriciləri ilə yanaşı, həm də bu fəaliyyətin qanunauyğunluğu, keyfiyyəti və həcmi, iqtisadiyyatın vergi potensialının artırılmasının əsas istinad nöqtəsi kimi tədiyyəçinin maliyyə vəziyyəti qiymətləndirilir.

**Nəticə**

Bütün yuxarıda qeyd olunanları nəzərə alaraq belə nəticəyə gəlmək olar: auditin yekun məqsədi subyektlərin maliyyə vəziyyətini, maliyyə sabitliyini və maliyyə göstəricilərini təhlil etməkdən ibarətdir.

Audit firmasının balansın likvidliyini təhlil etməsi də onun əsas vəzifələrindəndir. Bu hal subyekt müflisləşdikdə, iflasa uğrama həddinə çatdıqda həyata keçirilir. Bu halda audit firması subyektin balansını və əmlak qalığını təhlil edərək onun – aksionda satılması və ya istifadə üçün banka verilməsi haqda təkliflər verir.

Hazırda respublikamızda auditorların – ali maliyyə nəzarət orqanları, vergi müfəttişliyi, təsərrüfatdaxili və müstəqil audit formaları fəaliyyət göstərir. Auditorların hər bir forması (tipi) özünə məxsus funksiyaları iqtisadi təlilin bütün üsulları, növləri və tədqiqat metodlarını tətbiq etməklə həyata keçirir.

**Ədəbiyyat siyahısı**

1. Робертсон Д.Ж “Краткое руковосмво по станжартам и нормам аудита” М.Финансы и статистика 2012.
2. Стоянов Е.А “Аужит Стоянова Е.С экспертная диагностика” М.Финансы и статистика 2012.
3. М.И.Бáканоб “Теория А.Д.Шереметин экономического анализа” М.2020.
4. “Audit haqqında” Azərbaycan Respublikasının Qanunu

**Ülkər Məmmədova**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,müəllim*
*Azərbaycan Kooperasiya Universiteti, dissertant*
*ulker555@mail.ru*

# KƏND TƏSƏRRÜFATI İSTEHSALÇILARININ MALİYYƏYƏ ÇIXIŞININ ASANLAŞDIRILMASINDA SIĞORTA AMİLLƏRİ: XARİCİ TƏCRÜBƏ

**Açar sözlər:** xarici təcrübə, sığorta, maliyyəyə çıxış, kənd təsərrüfatı, istehsalçılar.

Aqrar sığortanın inkişafı müasir dövrdə kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılması prioriteti kimi diqqət mərkəzində olmalıdır. Özünün formalaşma və inkişafı mərhələləri boyunca aqrar sığortanın müxtəlif formaları meydana gəlmiş, sınaqdan çıxarılmış və təkmilləşdirilmişdir. Bu proses müxtəlif ölkələrdə fərqli tempə və əhatə dairəsinə malik olmuşdur. Kənd təsərrüfatının təbii-iqlim amillərindən güclü asılılığı onun sığorta şirkətlərinin marağını azaldan əsas amillərdəndir. İnvestorların sahəyə marağını azaldan xeyli sayda maliyyə, bazar və digər xarakterli amillər də vardır. Artıq qeyd edildiyi kimi kənd təsərrüfatında gəlirliyin digər sahələrə nisbətən az olması, qiymət dipariteti və s. kimi amillər bura aid edilməlidir. Bankların aqrar sahəyə nüfuz etməsini nəzərəçarpacaq dərəcədə ləngidən bu və digər amillərin davamlı təsiri demək olar ki, bütün ölkələrdə kənd təsərrüfatının sığortalanmasına alternativ yanaşmaları sınaqdan çıxarmağı zəruri etmişdir. Odur ki, kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılmasında sığorta amilinin yerinin və rolunun qiymətləndirilməsi aspektində qabaqcıl xarici təcrübənin araşdırılması mühüm əhəmiyyətə malikdir.

Risklərin idarə edilməsinin daha səməli üsul və vasitələrinin tapılması baxımından, ilk növbədə inkişaf etmiş ölkələrin təcrübəsini təhlil etməyə ehtiyac vardır. ABŞ-da tətbiq edilən aqrar sığorta sistemində dövlətin və özəl bölmənin sıx qarşılıqlı əlaqəsi nəzərdə tutulur. Belə ki, dövlət tərəfindən sığorta şirkətlərinə təqdim olunan subsidiyalar kənd təsərrüfatı istehsalçılarının, habelə özəl sığorta şirkətlərinin sığortaya zəruri marağını təmin edir. Aqrar istehsal üçün etibarlı zəmanət mexanizmi, demək olar ki, ölkənin bütün ştatlarında ahəngdar fəaliyyət göstərir.

ABŞ-da aqrar sığortanın səmərəliliyi burada tariflərə çevik münasibətlə də əlaqədardır. Məhz həmin münasibətin sayəsində, təcrübədən göründüyü kimi dövlətin ayırdığı vəsaitin həcmində, istehsalçını və özəl sığorta şirkətini qane edən səmərəli kompromis əldə etmək olur. Odur ki, bir qayda olaraq “sığorta haqlarının yığılması sığorta ödənişlərini həyata keçirmək üçün kifayət edir. Sığorta şirkətlərinin inzibati və əməliyyat xərcləri üçün dövlət tərəfindən verilən subsidiyalar sığorta tariflərini 21% - ə qədər ucuzlaşdırmağa imkan verir” [1, s. 97]. Onu da qeyd edək ki, ABŞ-da da aqrar sığortanı həyata keçirən şirkətlərin fəaliyyət dairəsinin genişləndirilməsi onların gəlirlərini artırsa da, həmin gəlirləri məhdudlaşdıran normalar da mövcuddur.

Mövcud sistem sığorta şərtlərinin və obyektlərinin müxtəlifliyi halında sığorta ödəmələri və sığorta tarifləri arasında da zəruri kompromis əldə etməyə, demək olar ki, imkan verir. ABŞ-da "sığorta şərtlərinin, sığorta sxemlərinin və sığorta obyektlərinin müxtəlifliyi, habelə dövlət tərəfindən sığorta mükafatlarının 50% -dən 100% -ə qədər ödənilməsi, sığorta ödənişi və sığorta tarifi arasında kənd təsərrüfatı istehsalçısı üçün məqbul olan vəhdəti əldə etməyə şərait yaradır” [2].

ABŞ-ın aqrar sığorta sisteminin hüquqi bazası müvafiq münasibətlərin səmərəli tənzimlənməsi üçün zəruri şəraiti təmin edir. İstehsalçılar və sığorta şirkətləri arasında hüquqi müstəviyə çıxan ziddiyyətlər, bir sıra digər ölkələrə nisbətən çox azdır. Tənzimləmənin verilənlər bazasının yaradılması və istifadəsində müasir rəqəmsal yanaşmalar tətbiq edilir. "ABŞ-da sığorta şirkətlərinin maliyyə fəaliyyətinə dair tənzimləyici qaydalar kənd təsərrüfatı məhsulları istehsalçıları üçün təhlükəsiz mühit yaradır. Milli Sığorta Bazarı Assosiasiyaları Birliyi (NAIC) tərəfindən saxlanılan xüsusi verilənlər bazaları buna nəzarət etməyə kömək edir" [3]. Aqrar sığortanın ABŞ təcrübəsində kənd təsərrüfatı istehsalçılarının qarşılaşdıqları risk növlərindən asılı olmayaraq yaxşı mühafizə olunduqlarını söyləmək olar. Bununla belə, aqrar sığortanın təşkili ilə əlaqədar inzibati xərclər, nəzərəçarpacaq dərəcədə böyükdür.

Kanadanın aqrar sığorta sistemi ABŞ-dakı müvafiq sistemlə birgə formalaşsa da bəzi məqamlarda, kifayət qədər fərqli cəhətlər meydana çıxmışdır. "Burada kənd təsərrüfat sığortasının formalaşdırılması onun icbariliyi əsasında baş verdi. Sığorta sisteminin formalaşması mərhələlərində uzun müddət statistik və hava məlumatlarının olmaması səbəbindən müvafiq hesablamaların etibarlılığı problemi yaranmışdı. Lakin sığortanın inkişafı ilə zəruri verilənlərin toplanması mümkün oldu, bu da daha əsaslandırılmış aktuar hesablamalar aparmağa imkan verdi" [1, s. 94]. Ölkədə aqrar sığorta işinin inkişafı elmi əsaslandırılmış surətdə planlaşdırılır. Belə yanaşma, kənd təsərrüfatının yüksək inkişaf etdiyi Kanadada istehsalçılar üçün ahəngdar işləyən etibarlı zəmanət sistemi yaratmağa imkan vermişdir. Təkrar sığorta işinin təşkilində dövlətin iştirakı formalarının axtarışında maraqlı nəticələr əldə edilmişdir. Belə ki, Kanadada "dövlət stop-loss prinsipinə əsaslanan təkrar sığorta təklif edir. Bu o deməkdir ki, sığorta ödənişlərinin səviyyəsi ödənilən sığorta haqlarının həcmindən çox (məsələn, 3-4 dəfə) olduqda, stop-loss mexanizmi işə düşür və dövlət sığorta şirkətlərinin zərərlərini ödəyir" [4, s.2000].

Aqrar sığortanın Almaniya təcrübəsində, indiyə qədər adı çəkilən ölkələrin təcrübəsindən kifayət qədər fərqli cəhətlər vardır. İlk növbədə onu qeyd edək ki, Almaniyada tətbiq edilən aqrar sığorta sistemində dövlətin fəal iştirakı nəzərdə tutulmur. "Almaniya hökuməti hesab edir ki, kənd təsərrüfatı istehsalçıları biznesləri üçün yalnız özləri məsuliyyət daşımalıdırlar. Xüsusi sığorta şirkətləri tərəfindən təklif olunan mövcud sığorta məhsulları istehsalçılara əsas iqlim risklərindən səmərəli mühafizəni təmin edə bilir. Hökumət kənd təsərrüfatı istehsalçıları üçün sonrakı subsidiyalaşma ilə xüsusi sığorta proqramı yaratmağı məqsədəuyğun hesab etmir" [5]. Almaniyada sığorta polisinin dəyərini tamamilə kənd təsərrüfatı istehsalçısı özü ödəyir. Belə vəziyyət sığorta şirkətlərinə imkan verir ki, məhz istehsalçıların daha çox istədikləri sığorta məhsullarını təqdim etsinlər. Əksər hallarda, bu, müəyyən risklərdən (məsələn, cənub ərazilərindəki dolu) qarşı sığorta məhsullarına aiddir, çünki kənd təsərrüfatı istehsalçıları üçün çoxriskli (multiriskli) sığorta məhsullarından istifadə çox bahadır [6, s. 363-390]. Almaniyada kənd təsərrüfatı istehsalçılarına dövlət tərəfindən kompensasiya yalnız kənd təsərrüfatı heyvanları arasında xəstəliklər epidemiya halı aldıqda ödənilir. Onu da qeyd edək ki, heyvanların sığorta olunması zəruri şərtdir və ödənilən kompensasiya dəyən zərərin 50%-qədər olur [7, s. 567-581].

İsveçrədə tətbiq edilən aqrar sığorta sistemi könüllülük əsasında qurulmuşdur. Bununla belə, heyvanların yoluxucu xətəliklərdən sığortalanması istisna təşkil edir. Başqa sözlə, ölkədə yoluxucu xətəliklərdən sığortalanması icbari xarakter daşıyır. Aqrar sahəyə fors major halları da nəzərə alan dövlət himayəsi ərazi səviyyəsində həyata keçirilir. "İsveçrədə milli səviyyədə subsidiyalaşma həyata keçirilmir. Eyni zamanda, ölkənin bəzi rayonları öz fermerlərinə maddi yardım göstərir. Bu dəstək növü regional kontekstdə unifikasiya olunur və onun ölçüsü hər bir ayrıca kantonun daxili siyasətinin xüsusiyyətlərindən birbaşa asılıdır" [4, s.2003]. İsveçrədə aqrar sığorta işinin tənzimlənməsi regional səviyyədə təşkil edilir. Belə ki, regional hakimiyyət strukturları kənd təsərrüfatı heyvanlarının sığortalanması müqavilələri üzrə kompensasaiyaları həyata keçirir, zərərlərin ödənməsi ilə əlaqədar inzibati xərcləri öz

üzərinə götürür. Kənd təsərrüfatı heyvanları arasında xəstəliklər epidemiya halı aldıqda kənd təsərrüfatı istehsalçısının sığorta polisi varsa, ona dövlət yardımı göstərilir [8, s. 43-66].

İnkişaf etmiş ölkələr sırasında çoxsaylı risklərdən sığortalanmanın dövlətin iştirakı ilə subsidiyalaşdırılması proqramlarının hazırlanması və icrası baxımından Avstriya təcrübəsi diqqətə layiqdir. Sığorta mükafatlarının kompensasiyası həm mərkəzi, həm də regional səviyyədə həyata keçirilir. Aşağıdakı mənbədə göstərildiyi kimi "Qanunvericiliyə uyğun olaraq hökumət sığorta haqqının dörddə birini ödəyir və hər vilayətin regional hökuməti regional büdcədən mükafat məbləğinin əlavə 25 faizini subsidiyalaşdırmağa borcludur" [4, s. 2002]. Ölkədə aqrar sığorta icbari olmasa da 2015-ci ilin sonuna olan məlumata görə kənd təsərrüfatı istehsalçılarının 85%-ə qədərinin sığorta müqaviləsi vardır. Özlüyündə, bu yaxşı, postsovet məkanı ölkələri ilə müqayisədə isə çox yaxşı göstəricidir. Avstriyada özəl sığorta şirkətləri arasında rəqabət mübarizəsi yoxdur. Belə ki, səhmdar şirkətlər kənd təsərrüfat sığortasının texniki cəhətlərinin mürəkkəbliyi səbəbindən sığortanın yalnız Hagelversicherung şirkəti tərəfindən həyata keçirilməsi barədə razılığa gəliblər [6, s. 363-390]. Avstriya təcrübəsinin maraqlı cəhətlərindən biri yeganə ixtisaslaşdırılmış aqrar sığorta şirkəti sayəsində risklərin səmərəli qarşılanması və aradan qaldırılmasıdır. Artıq qeyd olunduğu kimi oxşar cəhət İsveçrə modelində də vardır.

Aqrar sığorta işində İsrail təcrübəsi üçün dövlətin fəal iştirakı xüsusilə xarakterikdir. Burada kənd təsərrüfatı istehsalçısının, demək olar ki, rastlaşa biləcəyi bütün risklər sığortalanır. Sığorta mükafatlarının 35%-i "Təbii fəlakətlərdən mühafizə üzrə Dövlət Fondu - KANAT" tərəfindən subsidiyalaşdırılır. Həmin fond habelə təbii fəlakətlərdən mühafizə proqramı çərçivəsində kənd təsərrüfatı istehsalçılarına söğorta mükafatının 80%-i qədər vəsaitin ödənilməsinə nəzarət edir [9, s. 399-417]. İsrail və Kanada təcrübəsi arasında aqrar sığortanın inkişafında: planlaşdırma amilinin böyük rolunun olması, dövlətin xeyli miqdarda inzibati xərcləri öz üzərinə götürməsi, sığorta şirkətlərinin gəlirliyinin məhdudluğu və s. kimi oxşarlıqlar vardır.

Aqrar sığortanın İspaniya modeli səmərəli dövlət-özəl bölmə tərədaşlığı nümunəsi hesab edilir. Aqrar sığortanın səmərəli təşkili və əlaqədar inzibati xərclərin azaldılması məqsədilə inkişaf etdirilmiş bu tərəfdaşlığın müsbət təcrübəsindən inkişaf edən ölkələrdə istifadə olunur. "ABŞ və Kanadadan başqa, 35 ildən çoxdur uğurla inkişaf edən və bazar iştirakçıları arasında səmərəliliyi şübhə doğurmayan İspan modeli, dövlət və özəl tərəfdaşlığın səmərəli qurulması nümunəsi kimi göstərilir" [4, s.2001].

Aqrar sığortanın İspaniya modeli, Türkiyədə yaradıcılıqla tətbiq edilir. Dövlət-özəl bölmə tərəfdaşlığı imkanlarından istifadə sayəsində bəzi yeniliklər edilmiş, müsbət nəticələr əldə olunmuşdur. "İspaniya modelinə bənzər dövlət-özəl tərəfdaşlığın Türkiyə modeli də bir çox ölkələr üçün yaxşı nümunədir. Türkiyədə, 2005-ci ilə qədər heyvan və məhsul sığortası toplanmış sığorta haqlarının sayında daim öz aralarında rəqabət aparan 15 özəl sığorta şirkəti tərəfindən təmin edilirdi. 2005-ci ildə dövlət və özəl sığorta şirkətləri arasında qarşılıqlı razılığa əsasən Aqrar sığorta pulu yaradılmışdır" [4, s.2001].

Uğurlu aqrar sığorta modeli kimi Türkiyə təcrübəsinin öyrənilməsinə ölkəmizdə bir neçə il əvvəl başlanmışdır. Bunun nəticəsidir ki, "Azərbaycanda kənd təsərrüfatının sığortalanması ilə bağlı hazırlanmış qanun layihəsində TARSİM (Kənd təsərrüfatı məhsullarının sığortası fondu) modeli əsas götürülmüşdür. Bu modelə görə, aqrar sahədə risklərdən qorunmaq üçün "sığorta daxılı" mexanizmi yaradılmalıdır. Sığorta şirkətləri topladıqları sığorta haqlarını "Sığorta daxılı"na təhvil verməli, buna görə komisyon haqqı almalıdır. Başqa sözlə, şirkətlər "Sığorta daxılı"nı idarə edən büronun agentinə çevrilir. Sığorta ödənişləri isə birbaşa büro tərəfindən aparılır" [10]. Aqrar sığortanın Türkiyə təcrübəsinin özünəməxsus cəhətlərindən biri də burada tariflərin diversifikasiyasıdır. "Türkiyədə dövlət dəstəyi olan kənd təsərrüfatı məhsullarının təbii fəlakətlərdən sığortalanması zamanı tətbiq edilən sığorta tarifləri bölgələr üzrə müxtəlifdir.

Fərqliliyin əsas səbəbi isə həmin bölgələrdə təbii fəlakətlərin baş verme ehtimallarının müxtəlif olmasıdır... Güzəşt tətbiq edilən kənd təsərrüfatı məhsullarının sığortasının əhatə dairəsi təminat verilən risklər göstərilməklə, hər il Türkiyə Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilir" [11, s. 4]. Yeri gəlmişkən Azərbaycan kənd təsərrüfatı sığortası sahəsində Türkiyə təcrübəsini tətbiq etmək niyyətindədir. Bu məqsədlə 11 dekabr 2018-ci ildə iki ölkənin kənd təsərrüfatı nazirləri arasında əməkdaşlıq protokolu imzalanmışdır [12].

Nəhayət onu qeyd edək ki, yuxarıda adı çəkilən və digər ölkələrin təcrübəsi aqrar sığorta sistemində dövlət-özəl bölmə tərəfdaşlığının imkanlarının geniş olduğunu göstərir. Həmin imkanlardan daha səmərəli istifadə etmək üçün aqrar sığorta bazarı iştirakçılarının münasibətləri daha çevik, daha şəffaf və innovasiyalı olmalıdır. Aqrar sığortanın səmərəli təşkili sahənin investisiya cəlbediciliyinin yüksəldilməsində mühüm rola malikdir.

**Ədəbiyyat**


1. Хожаинов Н. Т., Назарова А. А. Государственное содействие развитию сельскохозяйственного страхования в России с учетом зарубежного опыта// Государственное управление. Электронный вестник. Вып.53, ноябрь 2015, с.90-106

2. Crop Yield & Revenue Insurance // USDA-United States Department of Agriculture, Economic Research Service [Official Site]. Last updated: March 11, 2014. URL: http://www.ers.usda.gov/topics/farm-economv/farm-commoditv-policv/program-provisions/crop-vield-revenue-insurance.aspx#.UpB7FSfYvt-(accessed: 25.09. 2015

3. Американская модель RMA как возможный путь развития агрострахования в Украине//https:// forinsurer.com/public/ 17/11/ 10/4799

4. Прокопчук Е.Т. Мировой опыт государственного регулирования рынка агрострахования (исследование литературы) // Финансы и кредит. 2017. Т. 23, № 33, с. 1997 – 2014. https://doi.org/ 10.24891/fc.

5. Международный опыт частно-государственного партнерства и государственной поддержки в агростраховании 21.04.2015 //https:/ / agroinsurance. com/ru/29980

6. Smith V.H., Glauber J. W. Agricultural Insurance in Developed Countries: Where Have We Been and Where Are We Going? Applied Economic Perspectives and Policy, 2012, vol. 34, no. 3, pp. 363-390. doi: 10.1093/aepp /pps029

7. Hazell P.B. The appropriate role of agricultural insurance in developing countries. Journal of International Development, 1992, vol. 4, iss. 6, pp. 567-581

8. Garrido A.M., Zilberman D.D. Revisiting the Demand of Agricultural Insurance: The Case of Spain. Agricultural Finance Review, 2008, vol. 68, iss. 1, pp. 43-66. URL: http://ageconsearch.umn.edu/bitstream/ 9266/1/sp07ga01

9. Goodwin B.K., Vado L.A. Public Responses to Agricultural Disasters: Rethinking the Role of Government. Canadian Journal of Agricultural Economics, 2007, vol. 55, iss. 4, pp. 399-417. doi: 10.1111/j .1744-7976.2007. 00099.x

10. Azərbaycan Türkiyənin aqrar sığorta ilə bağlı təcrübəsini öyrənməyə başlayır//https://report.az/maliyye-xeberleri/ 24 iyun, 2016

11. R. Hüseynəliyev. Aqrar sahədə sığorta xidmətinin təkmilləşdirilməsi vacib şərtdir// Xalq qəzeti, 16 avqust 2017 s. 4

12. Азербайджан и Турция подписали Протокол о сотрудничестве в сфере аграрного страхования //http://abc.az/ mobile/view. php?id=21001

**Təranə Əhmədova**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
**Hafizə Əliyeva**
*Odlar Yurdu Universiteti*

# AQRAR BİZNESİN ELEKTRONLAŞDIRILMASI VƏ ONUN İNKİŞAF MƏRHƏLƏLƏRİ

***Açar sözlər:*** aqrobiznes, investisiya, rəqabət, gəlir, valyuta, xidmət

## Giriş

Kənd təsərrüfatının inkişafı üçün müasir informasiya texnologiyalarından istifadə etməklə sahənin tam elektronlaşdırılması dövrün tələbidir. Ona görə də müasir texnologiyalar üzrə kompleks məlumatların toplandığı interaktiv rəqəmsal ekspert sistemləri yaradılmalıdır. Aqrobiznesdə maddi-texniki bazanın formalaşdırılması, müxtəlif mənbələrdən investisiya qoyuluşları formasında əsas kapitalın cəlb edilməsində elektronlaşmanın müstəsna rolu vardır. Son dövrlərdə respublikamızda aqrar sektorun inkişafına dövlət dəstəyinin gücləndirilməsi istiqamətində yeni çağırışlara uyğun olaraq, strateji hədəflər və institusional dəyişikliklər müəyyən edilmişdir. Ölkə iqtisadiyyatının neftdən asılılığının aradan qaldırılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi və yüksək artımın təmin olunması dövlətin iqtisadi siyasətinin əsasını təşkil edir. Daha çox islahatlar aparılan və dövlət dəstəyi göstərilən aqrar sahənin modernləşdirilməsi, intensiv inkişaf mexanizmlərinin tətbiq edilməsi və fermerlərin maddi rifahının yüksəldilməsi dövlət siyasətində xüsusi yer tutur. Bu da əsas etibarilə aqrar sahənin inkişafı, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı, yeni iş yerlərinin açılması və kənd təsərrüfatı məhsullarının ixracından ölkəyə valyuta daxil olmalarının artması deməkdir. Aqrar islahatların müasir mərhələsində strateji yanaşmanın əsasları məhz bundan ibarətdir.

## Aqrobiznesin inkişafında əsas fəlaliyyət prinsiplərinin xüsusiyyətləri

Azərbaycanda aqrar iqtisadiyyatın inkişafı struktur yenidənqurma, sahənin rəqabət qabiliyyətinin yüksəldilməsi, istehsal həcminin artırılması və bu qəbildən olan digər strateji hədəflərin reallaşdırılması ilə müşaiyət olunmaqdadır. Aqrobiznesin inkişafına dair yaxın və uzunmüddətli dövrü əhatə edən prioritet vəzifələrin həyata keçirilməsini və müvafiq hədəflərin müəyyən olunması isə aqrar sahənin tərəqqisində yeni mərhələdir. Bu mərhələdə aqrobiznesin ölkənin valyuta ehtiyatlarının və milli gəlirin formalaşdırılmasında aqrobiznesin payının artırılmasının təmin edilməsi başlıca məqsədlərdən biri kimi qəbul edilir. Qeyd olunanlar ölkədə aqrobiznesin fəaliyyət strategiyasının işlənilməsini və reallaşdırılmasını tələb edir. Bu baxımdan aqrobiznesin tədricən elektronlaşdırılmasına keçid və onun hüquqi, təşkilati və iqtisadi əsaslarının təkmilləşdirilməsi mühüm əhəmiyyət daşıyır. Kənd təsərrüfatı sahələrinin yeni texnologiyalara, elektronlaşdırma xidmətlərinə tələbatının artması və aqrobiznesin rəqəmsallaşması sahənin inkişafı imkanlarını müəyyən edir. Təsadüfi deyil ki, respublikamızda telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsində aqrobiznesdə elektronlaşma sisteminin strateji hədəf kimi seçilmişdir.

Aqrobiznesdə elektronlaşdırmanın təşkilinin müasir vəziyyətinin təhlil edərkən məlum olur ki, elektronlaşdırma tədbirləri aqrar sahədə reallaşdırılmaqdadır. Başqa sözlə, Azərbaycanda ərzaq təminatının yaxşılaşdırılması strategiyasının həyata keçirildiyi dövrdən etibarən aqrobiznesdə elektronlaşdırma xidmətlərin təşkili işlərunə start verilmişdir. Aqrobiznes qarşısında duran digər əsas məsələ yetişdirilmiş ərzaq və qida məhsullarının qısa

zamanda və itkisiz olaraq, regional və dünya bazarlarına çıxarılmasının təmin olunmasıdır. Göstərə bilərik ki, son dövrlərdə Rusiya Federasiyasına pomidor ixracında yaranmış maneələr sahənin potensialından səmərəli istifadə ilə bərabər onun perspektiv inkişafına da mənfi təsir göstərməkdədir. Lakin ixracatçıların bu problemlərlə üzləşməməsi üçün vaxtında elektron vasitələrdən istifadə etməklə elektron ticarətin təşkilinə keçid təmin olunmalı idi.Hətta fyucers müqavilələrinin bağlanılması və bu müqavilələrin təmin etdiyi imkanlardan bəhrələnməklə yeni müştəri kontingentinin formalaşdırılması mümkündür. Bütövlükdə elektronlaşmış iqtisadi əlaqələrin yaradılması, alqı-satqı əməliyyatlarının aparılması və onların həcminin artırılmasının hüquqi mexanizmlərinin müəyyənləşdirilməsi lazımdır.

Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi siyasət kənd təsərrüfatının daha da inkişafını nəzərdə tutur, bu məqsədlə dövlət tərəfindən geniş dəstək tədbirləri həyata keçirilir və aqrar xidmətlərin elektronlaşdırılması istiqamətində mühüm addımlar atılır. Beləliklə, aqrobiznesin inkişafında aşağıdakı üç fəaliyyət prinsipi əsas yer tutur: fermerlərə yaxınlıq; şəffaf və səmərəli idarəetmə; innovasiyaların tətbiqi. Göstərilən prinsiplər şəffaflıq və operativlik baxımından fermerlərin işini asanlaşdıran və kənd təsərrüfatı məhsulları ilə bütün biznes prosesləri əhatə edən modulların formalaşdırılmasını özündə ehtiva edir.Onları özündə birləşdirən elektronlaşdırma sisteminin fəaliyyətə başlaması kənd təsərrüfatı ilə bağlı bütün proseslərin məntiqi əlaqəsinin qurulmasına, zəruri təhlillərin aparılmasına, müasir texniki yeniliklərin tətbiqinə və dolğun informasiyaya əsaslanan proqnozların verilməsinə imkan verir. Aqrobiznesdə elektronlaşmanın tətbiqinin ən mühüm mərhələlərindən biri bəyanetmə prosesidir. Nəzərə alınmalıdır ki, kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması qaydasına əsasən 2020-ci il yanvarın 1-dən fermerlərə subsidiyalar yalnız Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS) vasitəsilə, məhz elektron sistem vasitəsilə fermerlərə təqdim edilən bəyannamələr əsasında verilir.Bu da Azərbaycanda subsidiyaların verilməsində şəffaflığın təmin edilməsinə və aqrodataların toplanmasına şərait yaradır. Qeyd edə bilərik ki, hazırda fermerlər payızlıq əkinləri bəyan etmək üçün Dövlət Aqrar İnkişaf Mərkəzlərinə müraciət edərək informasiya-məsləhət xidməti ala bilərlər.

**Aqrobiznesdə elektronlaşmanın təşkili mərhələləri və hüquqi-iqtisadi əsasları**

Aqrobiznesin elmi əsaslarla təşkilində və onun müasir texnologiyalar əsasında idarə olunmasında, bu sahənin müasir xidmətlər sistemi ilə təminatında elektronlaşmaya daha çox diqqət yetirilməlidir. Ona görə ki, aqrobiznesdə müxtəlif istiqamətlərdə elektronlaşdırma mexanizmlərinin tətbiqi və ardıcıl olaraq çoxlu sayda elektron xidmətlərin təklif olunması biznes fəaliyyətinin genişləndirilməsinə və onun iqtisadi səmərəliliyinin yüksəlməsinə gətirib çıxarır. Aqrobiznes subyektlərinin və aqrobiznes fəaliyyətinin təşkilində elektron xidmətlərindən istifadə edilməsində olan mövcud problemlərin dövlət tənzimlənməsində respublika Prezidentinin 23 oktyabr 2004-cü il tarixli "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncamını qeyd etmək olar. Bu sərəncamda aqrobiznesdə texniki vasitələrdən və mütərəqqi avadanlıqlardan istifadə edilməsinin mümkünlüyü beynəlxalq elektronlaşma təcrübəsinin öyrənilməsi və tətbiq edilməsi ilə mümkünlüyü göstərilmişdir. Aqrar istehsalçıların zəruri olan kənd təsərrüfatı texnikası ilə təchizatını artırmaq və əsas da istehsal olunan məhsulların keyfiyyətlinin yüksəldilməsi üçün aqrobiznes subyektləri haqqında informasiyaların maneəsiz əldə edilməsi tələb olunur. Bu bütövlükdə Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemindən əldə oluna bilər. Həm respublikanın aqrobiznes subyektlərinin, həm də xarici ölkələr üzrə informasiya sistemindən lazımi məlumatlar almaq mümkündür. Beləliklə, respublikamızın aqrobiznes subyektləri heç bir vasitəçi olmadan, şərtləri özü müəyyən etməklə iqtisadi əlaqələrini qura bilirlər. Qeyd edə bilərik ki, inkişaf etmiş ölkələrdə aqrar sahədə elektronlaşma tam başa çatmış və rəqəmsallaşma yekunlaşmışdır. Hətta gözlənilir ki, aqrobiznesdə hesablaşmalar kriptovalyutalar ilə də aparıla bilər.

Qeyd etmək lazımdır ki, 10 may 2005-ci il tarixində qəbul edilmiş "Elektron ticarət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə elektron ticarətin və yeni texnologiyaların tətbiqində hüquqi baza yaradılmışdır. Buna baxmayaraq, aqrobiznesdə müasir idarəetmənin elektronlaşma mexanizmlərinin yaradılmasında, təkmilləşdirilməsində və mövcud problemlərin aradan qaldırılmasında sahədə informasiya-kommunikasiya texnologiyalarının genişmiqyaslı tətbiqi olduqca zəruridir. Yüksək texnologiyalar əsasında istehsalın və emalın təkmilləşdirilməsi, modernləşdirilməsi, yeni elektronlaşma xidmətlərin yaradılması, innovativ texnologiyaların tətbiqi aqrobiznesdə yüksək nəticələrə imkan verir. Bu baxımdan ölkə Prezidentinin 16 aprel 2014-cü il tarixli "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanında bir çox vacib məqamlara aydınlıq gətirilmişdir. Bu fərmanla Kənd Təsərrüfatı Nazirliyinin struktur bölmələrində və tabeliyində olan qurumlarda idarəetmənin təkmilləşdirilməsi istiqamətləri müəyyən edilmişdir. Eyni zamanda beynəlxalq təcrübəyə uyğun müasir aqroparkların yaradılması, aqrobiznesin dövlət tənzimlənməsində hesabatlılığın elektronlaşdırılması və şəffaflığın təmin edilməsi ilə bağlı tədbirlər nəzərdə tutulmuşdur (Fərman, 2014: 156).

Aqrobiznesdə reallaşdırılan zəruri tədbirlərdə, o cümlədən biznes əlaqələrində informasiya komunikasiya texnologiyalarının tətbiqinə imkan yaratmışdır. Ümumiyyətlə, aqrobiznesdə dünya təcrübəsi əsasında fəaliyyətnin diversifikasiyası, innovasiyalı fəaliyyət formalarının təşkili məqsədilə yeni qanunlar qəbul edilmişdir. Kənd təsərrüfatı iqtisadiyyatında İKT-nin tətbiqi imkanlarının sürətləndirilməsinin və rəqəmsallığa əsaslanan informasiya iqtisadiyyatının yaradılması həm də cəmiyyətin inkişaf etdirilməsi əsas hesab edilə bilər. Dünyanın bir çox ölkələrində aqrobiznesdə bu həm prioritet, həm də strateji vəzifə olaraq qiymətləndirilir. Aqrobiznesin fəaliyyətinin bütün mümkün istiqamətlərində elektronlaşma mexanizmlərinin və alt sistemlərinin əsaslı istifadəsi nəticəsində mənfəətliliyin yaxşılaşdırılması göstəricilərinə nail olmaq mümkündür. Bu hüquqi sənəddə aqrobiznesin də elektronlaşdırma infrastrukturunun mövcud və gələcək tələbata uyğun olaraq formalaşdırılması və inkişafı nəzərdə tutulur. Bu səbəbdən aqrobiznesdə keyfiyyətli elektronlaşdırılmış xidmətlərdən yararlanma və bu xidmətlərə çıxış imkanları təmin edilməlidir. Əldə olunan nəticə şanlı ordumuzun otuz illik işğaldan azad etdiyi Qarabağ bölgəsində də aqrobiznesin tam eletronlaşmış formada fəaliyyətinə, Qarabağda yaradılacaq tranzit dəhlizi ilə idxal-ixrac əməliyyatlarının uğurla reallaşdırılmasına zəmin yaradacaqdır. Bu, bölgədə beynəlxalq internet magistrallarına, aqrobiznes subyektlərinin elektronlaşmış xidmətlərdən yararlanmaları üçünalternativ və yüksək sürətli şəbəkələrə inteqrasiyasını təmin edəcəkdir.

Aqrobiznesdə elm tutumlu və yüksək texnoloji məhsulların istehsalının artırılmasında və onun reallaşdırılmasında elektronlaşmış xidmətlər böyük əhəmiyyət kəsb edir. Odur ki, aqrobiznes subyektləri milli brendlərlə dünya bazarlarına çıxacaqlar. Aqrobiznesdə İKT-dən geniş istifadə imkanlarının olması və elektron xidmətlərin çoxsaylı çeşidlərinin daha da genişləndirilməsi indiki dövrün əsas vəzifələrindəndir. Aqrobiznesin elektronlaşması Qarabağın işğaldan azad olunmuş ərazilərində aqrar sahələrinə cəlb ediləcək xarici investorların, investisiyaların həcminin artması imkanlarını artıracaqdır. Qarabağın işğaldan azad olunmuş ərazilərində yaradılacaq aqrobiznesdə elektronlaşmanın tətbiqi vasitəsilə bir çox investisiya-innovasiya layihələrinin, inkişaf proqramlarının, strategiyalarının reallaşdırılması istiqamətində əhəmiyyətli işlər görülə bilər.

Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində ümumilikdə sistemin elektron sistemə inteqrasiyası və iqtisadi funksionallığın təmin edilməsi nəzərdə tutulur. Aqrobiznesdə elektronlaşmanın tətbiqində daha əsaslı tədbirlərin görüləcəyini və bu prosesin təkmilləşdirilməsi istiqamətində subyektlərin səmərəliliyinin yüksəldilməsini proqnozlaşdırmaq mümkündür. Bununla bərabər aqrobiznesdə eletronlaşdırılma prosesinin təkmilləşdirilməsi ilə əlaqədar olaraq, İKT-nin hüquqi normativ qanunvericilik bazasının

dünya təcrübəsi əsasında daha da təkmilləşdirilməsinə ehtiyac duyulur. Bu sahədə respublikada qüvvədə olan qanunların, hüquqi aktların və mexanizmlərin daha da təkmilləşdirilməsi zərurətinin olması qənaətinə gəlmək olar. Aqrolizinq xidmətləri aqrar sahədə dövlət dəstəyinin istiqamətlərindən biridir. Aqrolizinq təsərrüfatlarının yaradılmasında məqsəd ölkədə kənd təsərrüfatı məhsulları istehsalçılarının texnika ilə təminatının yaxşılaşdırılması, fermerlərə güzəştli şərtlərlə aqrotexniki xidmətlər göstərilməsindən ibarətdr. Son 15 il ərzində "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə ölkəyə qırx mindən çox texnika gətirilmişdir və ya güzəştli şərtlərlə verilmişdir. Bütün bunlarla yanaşı hazırda aşağıdakı vəzifələrin ardıcıl şəkildə həyata keçirilməsi məqsədəuyğun hesab olunur:

- istismar müddəti başa çatmaqda olan avadanlıqların yenilənməsi:
- yüksək məhsuldarlığa malik innovativ texnologiyaların tətbiqi imkanlarının genişləndirilməsi;
- aqrotexniki xidmətlər göstərilməsində rəqabət və keyfiyyətin yüksəldilməsi;
- kənd təsərrüfatına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi (Qanun, 2016: 157).

Kənd təsərrüfatı təyinatlı istehsal vasitələri bazarının rəqabətyönümlü fəaliyyəti, texnikanın güzəştli lizinq şərtlərilə satışı mexanizminin təkmilləşdirilməsi, özəl aqrotexniki xidmətlərin genişləndirilməsi və dövlət-özəl sektor tərəfdaşlığı prinsipinin tətbiqi də təmin olunmalıdır. Bu məqsədilə Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyin vəsaitlərindən istifadə qaydaları təsdiq olunmuşdur. Bundan əlavə 21 may 2019-cuil tarixdə "Aqrar Xidmətlər Agentliyi haqqında Əsasnamə"nin təsdiq edilməsi ilə mərkəzi dövlət qurumunun vəzifələri, funksiyaları və hüquqları müəyyən edilmişdir. Bu həm də aqrobiznesdə elektronlaşdırılmış idarəetmə və xidmət strukturlarının hüquqi bazasının təkmilləşdirilməsinə, elektron xidmətlərlə bağlı tədbirlərin həyata kecirilməsinə, şəffaflığının təmin edilməsinə və xidmətlərin operativliyinin yüksəldilməsinə xidmət edir. Nəticədə aqrobiznes subyektlərinin elektron müraciətlərinin qısa müddətdə cavablandırılması imkanları genişlənir (Fərman, 2019: 157). Elektronlaşdırma istiqamətində dövlət aqrar inkişaf mərkəzlərinin səmərəli fəaliyyətinin təşkilini növbəti uğurlu mərhələ kimi qəbul etmək olar. Həmin mərkəzlər 70-dən çox xidmət növlərini özündə birləşdirir və fermərlərə "bir pəncərə" prinsipi əsasında xidmət göstərir. Ümumiyyətlə, fermerlərin fəaliyyətinin genişləndirilməsinə, maddi-texniki təminatınınyaxşılaşdırılmasına və iqtisadi səmərəliliyinin artırılmasına dövlət daim dəstək göstərir. Kənd təsərrüfatı istehsalında istifadə olunan texnikaların yanacaq və sürtkü məhsulları ilə təminatı xərclərinin yarısını dövlət hesabına ödənilir və kənd təsərrüfatı texnikası fermerlərə böyük güzəştlərlə satılır. "Azexport" portalının yaradılmasını elektronlaşdırmada növbəti mütərəqqi addım kimi qiymətləndirmək olar. Həmin portal vasitəsilə ticarət evləri və ticarət nümayəndəlikləri, ölkəmizin ixrac potensialı təbliğ olunur. Aqrar Xidmətlər Agentliyinin fəaliyyətə başlaması sertifikat və sənədlərin verilməsində şəffaflığın təmin edilməsilə yanaşı fermerlər tərəfindən daha keyfiyyətli məhsulların istehsalına və satışına zəmin yaratmışdır.

## Nəticə

Aqrobiznesdə elektronlaşdırmanın tətbiqi kənd təsərrüfatı məhsullarının istehsalı üzrə beynəlxalq təcrübənin öyrənilməsinə, qlobal trendlərin müəyyən edilməsinə, daxili bazarın mövcud vəziyyətinin dəyərləndirilməsinə, ayrı-ayrı məhsullar üzrə dəyər zəncirinin təhlilinə, məhsulların ixrac potensialının artırılması imkanlarının müəyyən edilməsinə və kənd təsərrüfatı məhsullarının daxili bazar qiymətlərinin tənzimlənməsinə şərait yaradır. Vacib məqamlardan biri aqrar sahədə innovasiyaların daha geniş tətbiqinə nail olmaqdır. Bu baxımdan Azərbaycanda aqrar texnologiyalardan və "yaşıl enerji"dən isrifadə üzrə beynəlxalq təcrübənin tətbiqi məsələləri ön plana çəkilməlidir. Proseslərin gedişi göstərir ki, Azərbaycan yaxın gələcəkdə aqrar sahədə innovasiyaların daha geniş tətbiq olunduğu ölkələr sırasında yer alacaqdır.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafınadair Strateji Yol Xəritəsi. Bakı 2016
2. “Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi iləbağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı 2014.
3. Kənd təsərrüfatı kooperasiyası haqqında Azərbaycan Respublikasının qanunu. Bakı 2016.
4. “Aqrar Xidmətlər Agentliyi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı 2019.
5. https://www.agro.gov.az/az/ekt/elektron-xidmetler.
6. https://e-qanun.az/



**Rüqiyyə Hacıoğlu**
*Əmək Bazarı və Sosial Müdafəı Məsələləri üzrə*
*Milli Observatoriya, baş mütəxəssis*


## RƏQƏMSAL ƏMƏK BAZARININ ƏSAS XÜSUSİYYƏTLƏRİ VƏ MÜASİR DÖVRDƏ ƏMƏK BAZARINDAKI VƏZİYYƏTİ XARAKRETİZƏ EDƏN AMİLLƏR


***Xülasə***

İqtisadiyyatın rəqəmsallaşmasının müasir əmək bazarına təsiri və rəqəmsal əmək bazarının əsas xüsusiyyətləri təhlil edilmişdir.

***Tədqiqat metodologiyası*** müqayisəli, metodlardan, struktur və problem analizinin sintezindən istifadəyə əsaslanır.

***Əsas nəticələr***. Tezisdə iqtisadiyyatın rəqəmsallaşması və informasiya, kompüter texnologiyalarının geniş tətbiqi ilə əlaqədar əmək bazarında əsas qlobal tendensiyalar sistemləşdirilir. Rəqəmsal texnologiyaların əmək bazarına etdiyi müsbət təsirləri şərh edilir. Eini zamanda, iqtisadiyyatın rəqəmsallaşmasının əmək bazarlarına əks təsirləri, orta müddətli perspektivdə aşağı ixtisaslı iş yerlərinin azalması, robotlaşdırma səviyyəsinin artması ilə ifadə olunur. Rəqəmsallaşmanın mənfi nəticələrinə qarşı müvafiq tədbirlərin görülməsinə dair təkliflər verilir.

***Açar sözlər:*** rəqəmsal əmək bazarı, ixtisaslaşma, qlobal tendensiyalar, çeviklik, yenidən hazırlıq



**Rugiya Hajioglu**
*Chief Specialist at the National Observatory*
*for the Labor Market and Social Protection*


## MAIN FEATURES OF THE DIGITAL LABOR MARKET AND FACTORS DETERMINING THE SITUATION IN THE MODERN LABOR MARKET


**Summary**

The impact of digitalization of the economy on the modern labor market and the main features of the digital labor market are analyzed.

***Research methodology.*** based on the use of comparative methods, structural synthesis

and problem analysis.

***Main results.*** The main global trends in the labor market, due to the digitalization of the economy and the widespread use of information and computer technologies, are systematized. The positive impact of digital technologies on the labor market is explained. At the same time, the negative consequences of the digitalization of the economy for labor markets, the reduction of low-skilled jobs in the medium term, and the increase in the level of robotization. Proposals are made to take appropriate measures against the negative consequences of digitalization.

***Keywords:*** digital labor market, specialization, global trends, innovations, retraining

**Ругия Гаджиоглу**
Главный специалист Национальной обсерватории
по рынку труда и социальной защиты

# ОСНОВНЫЕ ОСОБЕННОСТИ ЦИФРОВОГО РЫНКА ТРУДА И ФАКТОРЫ, ОПРЕДЕЛЯЮЩИЕ СИТУАЦИЮ НА СОВРЕМЕННОМ РЫНКЕ ТРУДА

**Резюме**

Анализируются влияние цифровизации экономики на современный рынок труда и основные черты цифрового рынка труда.

**Методология исследования**. основана на использовании сравнительных методов, структурного синтеза и проблемного анализа.

**Основные результаты.** Систематизированы основные мировые тенденции на рынке труда, обусловленные цифровизацией экономики и широким использованием информационно-компьютерных технологий. Объяснено положительное влияние цифровых технологий на рынок труда. При этом негативные последствия цифровизации экономики для рынков труда, сокращение низкоквалифицированных рабочих мест в среднесрочной перспективе, повышение уровня роботизации. Вносятся предложения по принятию соответствующих мер против негативных последствий цифровизации.

**Ключевые слова:** цифровой рынок труда, специализация, мировые тренды, инновации, переподготовка

***Aktuallıq.***Mövzunun aktuallığı iqtisadiyyatın innovativ inkişafı şəraitində əmək bazarı və əhalinin məşğulluğu sahəsində baş verən dərin dəyişikliklərin təhlil edilməsi zərurətindən irəli gəlir. Əmək bazarının dəyişən tələblərinə uyğun peşə və bacarıqların əldə edilməsi imkanlarının nəzərdən keçirilməsi xüsusi əhəmiyyətə malikdir.

Müasir dövrdə dünyanın müxtəlif ölkələri rəqəmsallaşma prosesinin sosial və iqtisadi həyata daha sürətli inteqrasiyası üçün texnoloji (proqram) vasitələri hazırlayır və tətbiq edirlər. Rəqabət mühitində iri korporasiyalar mövcudluqlarını qoruyub saxlamaq üçün yüksək texnologiyalar vasitəsilə böyük həcmli məlumatların idarə olunmasına, vətəndaşlar isə gündəlik həyatda rəqəmsal texnologiyalardan daha çox istifadəyə üstünlük verirlər.

Hazırda mobil cihazların və tətbiqlərin sayının sürətlə artması, sosial medianın bütün sərhədləri aradan qaldırması və gündəlik həyatımızın bir hissəsinə çevrilməsi, məlumatların artıq adi fiziki qurğularda deyil, bulud (Cloud) texnologiyalarında saxlanılması, eləcə də məlumat mərkəzlərinin sayının durmadan artması – bütün bunlar rəqəmsallaşdırma proseslərinin sürətlə həyata keçirilməsinin göstəricisidir.

Müasir qlobal əmək bazarı- informasiya texnologiyalarının fasiləsiz təsirinə məruz qalan mürəkkəb çoxkomponentli dinamik sistem kimi əmək prosesinin məzmununda, onun

təşkilində, məşğulluğun strukturunda, sosial-əmək münasibətlərində dəyişiklikləri zəruri edir.

Rəqəmsal texnologiyalar tam spesifik əmək prosesi yaratmaqla, onun bütün elementlərinə: əmək predmetinə, əmək vasitələrinə, texnologiyasına, təşkilinə və əməyin nəticəsinə öz dəyişikliklərini gətirmişdir. Rəqəmsal iqtisadiyyatda məhz informasiya əməyin predmeti kimi, kompüterlər, planşetlər, mobil telefonlar, kameralar və s. kimi rəqəmsal qurğular əmək vasitəsi kimi çıxış edir.

Bu mühitdə iş fəaliyyətinin texnologiyası ikili xarakter daşıyır. Bir tərəfdən, bu, ümumi istifadə üçün mövcud olan müxtəlif ixtisaslaşmış kompüter proqramları, digər tərəfdən, əmək fəaliyyətinin təşkilinin distant xarakter daşımasıdır. Sifarişin icraçıya çatdırılması, icranın müddəti və keyfiyyəti üzərində nəzarət, işin nəticəsinin sifarişçiyə təhvil verilməsi və ödəniş prosesi internet vasitəsilə həyata keçirilir.

Rəqəmsal əmək bazarında icra olunan xidmətlər informasiya-kompüter texnologiyaları vasitəsilə yaradılmış əmək xidmətidir. Bu bazarda əmək fəaliyyətinin tipik forması informasiya məhsullarının tədqiqi, təhlili, sistemləşdirilməsi, emalı və istehsalıdır. Göstərilən xidmətə görə ödəniş çox vaxt elektron puldan istifadə etməklə elektron ödəniş sistemləri vasitəsilə həyata keçirilir. Xidmət sektorundakı transformasiyalar rəqəmsal maliyyə xidmətlərinin formalaşmasına təkan verir.

Rəqəmsal əmək bazarı növbəti xüsusiyyətlərlə xarakterizə olunur [3,5]:

1. **Rəqəmsal məşğulluğun formalaşması**. Bu informasiya-kompyuter texnologiyalarından istifadə etməklə iqtisadi fəal əhalinin məqsədəuyğun fəaliyyətidir, fəaliyyətin özü isə ictimai və şəxsi tələbatların ödənilməsinə yönəlib, həm işçilərə, həm də işəgötürənlərə iqtisadi cəhətdən sərfəlidir. İşçi qüvvəsinin təklifi və ona olan tələbat xüsusi online platformalarda müəyyən edilir, burada işəgötürmə, ödəniş və əmək nəticələrinin qiymətləndirilməsi şərtləri də formalaşır. Rəqəmsal məşğulluq iki əsas formada həyata keçirilir: elektron frilans və elektron autsorsinq.

2. **Rəqəmsal əmək bazarının qlobal xarakter daşıması.** Bu cür məşgulluğun meydana gəlməsi yalnız İKT-nin aktiv istifadəsi nəticəsində qloballaşmanın gücləndiyi şəraitdə mümkündür. Burada rəqəmsal əmək xidmətlərinin distant təklifi və tələbi formalaşır. Qloballaşma rəqəmsal əmək bazarındakı rəqabəti gücləndirir və innovativ insan kapitalına tələbatı artırır.

3. **Rəqəmsal əmək bazarının çevikliyi, məşğulluğun mobilliyinin faktiki olaraq qeyri-məhdud səviyyədə olması.**

Əmək bazarının bu seqmentinin mobilliyinin əsas xüsusiyyəti onun virtuallığıdır. Yəni işçi qüvvəsinin hərəkəti onun dünyanın bir nöqtəsindən digərinə fiziki köçürülmədən baş verir. Müəyyən növ xidmətlərə tələbat, virtual əməkdaşın lazımi keyfiyyətli xidmət göstərmək bacarığı, habelə yeni sifarişlərin axtarışı və yerinə yetirilməsinə hazır olması əmək mobilliyi üçün vacib şərtlərdəndir. Beləliklə - digital işçi qüvvəsinin fiziki hərəkət olmadan baş verən yeni mobillik növünün formalaşması işəgötürənin xərclərini əhəmiyyətli dərəcədə azaltmaga imkan verir.

4. **Qloballaşma və müasir informasiya texnologiyalarının tətbiqi şəraitində** mükəmməl təhsilli, yüksək peşəkarlıq səviyyəsinə, istedada, məsuliyyətə malik və qeyri - standart məsələləri həll etməyə hazır olan **fərdlərin rəqabət üstünlüyü**.

Rəqəmsal əmək bazarında göstərilən xidmətlərin xüsusiyyətlərindən asılı olaraq, intellektual əməyə daha çox tələb vardır. İş qüvvəsi özünü reallaşdırmaq üçün yeni imkanlara, işəgötürənlər isə bütün dünyanın intellektual resurslarına çıxış əldə edirlər.

Rəqəmsal əmək bazarı innovativ məşğulluğun formalaşmasına kömək edir. İnnovativ insan kapitalının daşıyıcıları öz biliklərini, peşəkar bacarıqlarını daim təkmilləşdirən fərdlərdir. Virtual əmək bazarında əmək xidmətlərinin əsas sifarişçiləri innovativ qlobal şirkətlər və sürətlə inkişaf edən gənc şirkətlərdir.

5. **Rəqəmsal əmək bazarının dinamikliyinin yüksək səviyyəsi.**

Əmək bazarının dinamikasının dəyişməsinə işçi qüvvəsinin yeniləşməsinin intensivliyi (yüksək, aşağı) və iş yerlərinin yenilənmə intensivliyi (yüksək, aşağı) çox ciddi təsir göstərir.

İqtisadiyyatın rəqəmsallaşması şəraitində əmək bazarının inkişafının iki yolunu təxmin etmək olar:

1. Nikbin hal odur ki, rəqəmsal iqtisadiyyatda əmək bazarı kreativ düşünməyi bacaran yaradıcı insanlara ehtiyac duyur. İstehsalın əsasən insanlara ehtiyacı olmayacaq, lakin onlar "insan yönümlü" xidmətlər sahəsi üçün lazım olacaq. Bununla yanaşı, rəqəmsal texnologiyalar yaşlı, məhdud imkanlı işçilərin əmək bazarına daha yaxşı inteqrasiya olmalarına şərait yaradacaq.

2. Rəqəmsallaşmanın ən böyük riski isə davamlı işsizliyin meydana gəlməsindən ibarətdir.

Rəqəmsal texnologiyaların əmək bazarına etdiyi növbəti müsbət təsirləri qeyd etmək olar:

➢ İş axtarışı üçün müasir rəqəmsal portallardan istifadə edən vətəndaşlar aktual vakansiyalar bazasına daxil olaraq öz karyera vəziyyətlərini yaxşılaşdırmaq imkanı əldə edirlər.

➢ İnternet və xüsusi veb-xidmətlər sayəsində həm işçi axtaran şirkətlər, həm də potensial namizədlər-(iş axtaranlar) haqqında məlumatların şəffaflığı əhəmiyyətli dərəcədə artır.

➢ Rəqəmsal iqtisadiyyatın hərəkətverici qüvvəsi - rəqəmsal məlumatlar və rəqəmsal platformalardır (sistemləşmə, kodlaşma, standartlara uyğunlaşma qaydaları). Rəqəmsal platformaları həm də yeni ”bazar hakimiyyəti” adlandırırlar. Rəqəmsal platformalar vasitəsilə əmək məhsuldarlığının artırılması da innovativ texnologiyaların əmək bazarına etdiyi müsbət təsirlərdən biridir. Həmin platformalarda təklif olunan vakansiya ilə iddiaçı profilinin uyğunluğu daha dəqiq dəstəklənir.

➢ Həyatın bütün sahələrində müasir rəqəmsal alətlərin tətbiqi yeni peşələrin və iş yerlərinin yaranmasına səbəb olur. Hal-hazırda Sənaye 4.0 çərçivəsində tez-tez baş verən hadisə, işçinin şirkətdəki fəaliyyətinə dəstək olaraq robot texnikasından istifadə edilməsidir. Bu texnogiyalar insanları tam əvəz edə bilmir, əksinə informasiya məlumatlarının işlənməsini sürətləndirən və daha dəqiq nəticələr verən müəyyən alqoritmlərə və funksiyalara keçən bir növ köməkçi rolunu oynayır. Məhz bu yanaşma şirkətdə mövcud olan resurslardan düzgün istifadəni göstərir. Bununla əlaqədar olaraq əmək məhsuldarlığında artım baş verir, işçi qüvvəsinə tələbat isə qalır. “The Future of Jobs 2018” hesabatına görə, yeni texnologiyaların və innovasiyaların tətbiqi və uyğunlaşdırılması nəticəsində 2022-cü ilə qədər əmək məhsuldarlığının təxminən 30% artacağı gözlənilir [9].

➢ Müasir texnologiyalar sayəsində “məsafədən” işləmək imkanı yaranır ki, bu da regionlarda yerli tələbatı aşağı olan mütəxəssislərin işlə təmin olunmasına müsbət təsir göstərə bilər. Nəhayət, rəqəmsal texnologiyalar işçilərə distant elektron təhsilin köməyi ilə öz ixtisasını artırmaq, yeni bilik və bacarıqlar əldə etməyə və ya yeni peşələrə yiyələnməyə kömək edir.

Qloballaşma şəraitində rəqəmsallaşma prosesləri Azərbaycan üçün də geniş imkanlar açır. Dördüncü sənaye inqilabı şəraitində Azərbaycanın özünün əlverişli coğrafi mövqeyindən (Regional Enerji Mərkəzi, Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri mərkəzi), zəngin təbii və insan resurslarından istifadə edərək daha sürətli inkişafı təmin edərək, habelə İKT sahəsində yeni və qabaqcıl dünya təcrübələrini tətbiq etmək imkanları yaratmışdır. Rəqəmsal iqtisadiyyat və rəqəmsal iqtisadiyyatın qurulması ölkənin davamlı inkişafı üçün yeni bir mərhələni aça bilər.

“Rəqəmsal iqtisadiyyat” dövlət proqramına görə Azərbaycan sosial-iqtisadi sahələrdə yüksək texnologiyaların tətbiqinin keyfiyyətcə yeni səviyyəsinə (mərhələsinə) keçməlidir. Yeni texnoloji səviyyə təkcə istehsalı deyil, həm də əmək ehtiyatlarının strukturunun

dəyişməsini nəzərdə tutur. Bu dəyişikliklər iş qüvvəsinin keyfiyyətinə və onların yenidən hazırlığı, o cümlədən ixtisalaşması sisteminə öz təsirini göstərməlidir. Bununla əlaqədar olaraq, ölkənin təhsil və təlim sisteminin həyata keçirdiyi aktual peşə və ixtisaslar üzrə kadr hazırlığı tədbirləri əmək bazarının tələbləri ilə uzlaşmalıdır.

Hər il "Highs" beynəlxalq işə düzəltmə şirkəti Oksford Economics konsaltinq şirkəti ilə birgə əmək bazarının vəziyyəti indeksi üzrə illik "Qlobal Bacarıq İndeksi" tədqiqatının nəticələrini hazırlayır. Həmin araşdırmaya Şərqi və Qərbi Avropadan, Asiyadan, Şimali və Cənubi Amerikadan 34 ölkə cəlb edilmişdir [7,8].

"Highs" peşəkar bacarıqların qlobal indeksi haqqında hesabatı - dünyanın əmək bazarının yeganə hərtərəfli icmalı olaraq, ən çox tələb olunan ixtisaslı mütəxəssislərin axtarışında təşkilatların üzləşdikləri problemlər haqqında məlumat verir. Hesabata daxil olan 34 ölkənin əmək bazarı, məşğulluq və iqtisadi vəziyyəti barədə ekspertlərin fikirləri yer almışdır.

Global Skills Index (Qlobal Bacarıq İndeksi) tədqiqatının nəticələri - əmək bazarının mövcud vəziyyətini göstərir və təşkilatların ixtisaslı kadrları cəlb etməsinə təsir edən yeddi əsas komponentin göstəricilərini əks etdirir. Hər bir ölkənin indeksi 1-dən 10-a qədər ölçülə bilər. İndeksin qiyməti beşdən az olduqda, əmək bazarı xarici və daxili amillərdən azaddır, əgər indeks beşdən çoxdursa, bazar adi göstəricilərdən daha çox təzyiqə məruz qalır.

İştirakçı ölkələrin hər birinin indeksi yeddi əsas komponentlə ölçülür:

1. Təhsil sisteminin çeviklik səviyyəsi.
2. İqtisadiyyatın ixtisaslı mütəxəssislərə ehtiyacı.
3. Əmək qanunvericiliyinin çeviklik səviyyəsi.
4. Biznesin ehtiyacları ilə işçilərin bacarıqlarının uyğunsuzluğu.
5. Əmək haqqına ümumi təzyiq.
6. Yüksək peşəkarlıq tələb edilən sahələrdə əmək haqqlarına təzyiq.
7. Yüksək kvalifikasiya tələb edən vəzifələrdə əmək haqqına təzyiq.

Mütəxəssislərin fikrincə, dünya əmək bazarının əsas problemlərindən biri əmək haqqının artımının ləngiməsidir. Bu, həyat səviyyəsinə mənfi təsir göstərir. Ekspertlər hesab edirlər ki, əmək haqqının durğunluğunun arxasında qeyri-rəqabətli əmək bazarları, autsorsinqin artması, həmçinin sürətli texnoloji dəyişikliklər və avtomatlaşdırma kimi amillər durur.

Ekspertlərin fikrincə, əmək qabliyyətli yaşda əhalinin ölkə iqtisadiyyatına cəlb olunma səviyyəsi getdikcə artır. Bu, pensiya yaşının artması, özünəməşğul vətəndaşlara vergi tətbiq edilməsi, biznesin inkişafı və dövlət layihələrinin işə salınması nəticəsində ola bilər. Hesab edilir ki, pensiya yaşının artırılması kadr çatışmazlığı probleminin azalmasına müsbət təsir göstərəcəkdir. Bununla yanası, yetkin kadrların rəqabət qabiliyyətini artırmaq üçün təhsil müəssisələri və işəgötürənlərin özləri bu kateqoriyadakı işçilərin inkişafına yönəlmiş təlim və motivasiya proqramlarını yenidən nəzərdən keçirməsi məqsədə müvafiqdir.

Eyni zamanda işə götürənlərin ehtiyacları ilə işçi bacarıqları arasındakı uyğunsuzluq artmaqda davam edir. Əmək bazarındakı sürətli dəyişikliklər səbəbindən işəgötürənlər üçün ixtisaslı kadr tapmaq getdikcə çətinləşir. Bu tendensiya sürətlə inkişaf edən və dəyişən İT, rəqəmsal telekommunikasiya sektorlarında yeni peşə və ixtisasların meydana çıxması səbəbindən daha çox nəzərə çarpır. Şirkətlərdə yeni vakansiya növlərinin (yeni aktual peşələrin) meydana gəlməsi, namizədlərin yeni bacarıq və alətləri öyrənməsi prosesini qabaqlayır.

Əmək bazarının artan tələblərinin qarşılanması üçün müvafiq bacarıq və biliklərə malik işçi qüvvəsinin catışmazlığı onunla bağlıdır ki, əməyin təklifi çevik deyil, lakin tələblər daha sürətlə dəyişir. Bacarıqların uyğunsuzluğuna görə aşağı rəqabətlilik formalaşır. Bu səbəbdən bazar münasibətləri şəraitində əmək bazarında işçi qüvvəsinə olan tələb və təklifin razılaşdırılmış mexanizminin çevikliyinin təmin edilməsi və ixtisaslı işçilərin rəqabətə

davamlılığının yüksəldilməsi istiqamətində aşağıdakı tədbirlərin görülməsi təklif olunur:

- İşəgötürənlərlə təhsil müəssisələri arasındakı əlaqələrin inkişaf etdirilməsi;
- işəgötürən tərəfindən işçilərin yenidənhazırlıq və ixtisasartırma kursları ilə məqsədyönlü şəkildə təmin edilməsi;
- məktəblərdə aşağı siniflərdən başlayaraq informasiya texnologiyaları üzrə innovasiyalarının tətbiq edilməsi;
- dövlət təhsil sistemində riyaziyyat və informasiya texnologiyaları fənnlərinin tədrisinin yenidən qurulması ilə tələbələrdə ilkin rəqəmsal bacarıqların formalaşdırılması;
- əhalinin rəqəmsal savadlılıq səviyyəsinin yüksəldilməsi;
- gənclərin gələcək peşələrdə müasir tendensiyaları dərk etməsinə dəstək vasitələrinin inkişaf etdirilməsi (internet resurslar, əmək bazarının aktual problemlərinə dair məqalələr);
- vətəndaşların tələb olunan və populyar peşələr haqqında məlumatlandırılması sisteminin inkişaf etdirilməsi;
- ətraf mühitin dəyişməsinə və texnoloji çağırışlara vaxtında diqqət yetirilməli olan kadrların yenidən ixtisaslaşması və fasiləsiz təlimi üçün kompleks proqramların işlənib hazırlanması.

**Ədəbiyyat siyahısı**


1. 2019–2030-cu illər üçün "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası
2. http://www.bossmag.ru/ рынок труда – 2019: тенденции и вызовы
3. Круглов, Д.В. Влияние digital-технологий на качество человеческих ресурсов. Экономика труда. Том 5. № 4, Октябрь-декабрь 2018, Russian Journal of Labor Economics.
4. «Конкуренция в цифровую эпоху, стратегические вызовы» ,world bank group сентябрь, 2018г.
5. Головенчик, Г.Г. «Трансформация рынка труда в цифровой экономике». Минск, 2018.
6. https://newsroom.mastercard.com/ru/press-releases/mastercard
7. https://www.hays.com/resources , Hays Global Skills Index 2019 Report_cit.pdf
8. Reports and Documents_282021000_Global_Skills_Report_2021.pdf (mcit.gov.eg)
9. The Future of Jobs Report 2018, http://www3.weforum.org/docs/WEF_Future_ of_Jobs_2018.pdf


**UOT 33.338**

**Abbas Səfərov**
*Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi,*
*Aqrar Tədqiqatlar Mərkəzi, dissertant*
*abbas211@rambler.ru*

## AZƏRBAYCAN İQTİSADİYYATINDA AQRAR SAHƏNİN SİSTEMLİ TRANSFORMASİYA MODELİ

**Açar sözlər:** iqtisadiyyat, aqrar sahə, sistem, transformasiya, model

Ölkə iqtisadiyyatının real sektorunun əsas halqası olaraq əmək və kapital tətbiqinin xüsusi sahəsi formasında aqrar istehsal çıxış etməklə milli istehsal strukturunun

formalaşmasında mühüm əhəmiyyət kəsb edən sahədir. Azərbaycanın aqrar sferası digər sahələrdən özünəməxsus xüsusiyyətlərinə görə fərqlənir. Milli iqtisadiyyatın aqrar sektoru əmək fəaliyyəti sahəsi olub, burada cəmiyyətin tələbatını təmin edən həyati əhəmiyyətli nemətlər istehsal olunur [5, s.31]. Məhz aqrar sahənin bu qeyd edilən funksiyası onun insan cəmiyyətinin formalaşması və inkişafında xüsusi rolunu müəyyənləşdirir. Qeyd etmək lazımdır ki, aqrar istehsal ilkin sahələrdən biri olmaqla bütün ictimai istehsalın başlanğıcını müəyyən edir. Buna görə də, davamlı inkişafda aqrar sahənin rolunu Nobel mükafatı laureatı Qunnar Myrdal aşağıdakı kimi xarakterizə edir: "Davamlı uzunmüddətli inkişaf uğrunda mübarizənin nəticəsi aqrar sektorda həll olunacaq"dır [8, s.104].

Müasir şəraitdə iqtisadiyyatın bütün sahələrinin, o cümlədən aqrar sferanın transformasiyasının zəruriliyinin təmin olunması vacib şərtlərdən biri hesab edilir. Belə ki, aqrar sferanın bütün sahələrinin fəaliyyətinin yeni iqtisadi mexanizmi çevik, dayanıqlı olmalı, o, ölkənin aqrar sferasını formalaşdıran bütün faktorların məcmusunu nəzərə almaqla həm sosial-iqtisadi, həm də təbii qanunların tələblərinə cavab verməlidir [7]. Tədqiqat işinin gedişatında işlənilmiş kənd təsərrüfatı istehsalı prosesinə rıçaq amillərinin təsirinin kompleks modelinin əsasnda Azərbaycanın aqrar sahəsinin funksional strukturunun işlənilməsi vacib şərtlərdən biridir. Belə ki, ölkəmizin sosial-iqtisadi inkişafında aqrar sferanın rolu iqtisadi, sosial, ekoloji, informasiya, innovasiya, kadr və elmi təminat, siyasi aspektlərdə daha nəzərə çarpan səviyyədə təmin edilməlidir.

Aqrar-iqtisadi sistemin transformasiyası iqtisadi münasibətlərin yenidən qurulması və ya dəyişdirilməsi prosesini özündə əks etdirir. Bu sistemin transformasiyasına üç aspektdən yanaşmaq olar: təkamül, inqilabi və islahat. Azərbaycanın aqrar sferasında mövcud vəziyyət çoxillik institusional inqilabın və islahatların nəticəsidir. Müstəqillikdən sonra ölkənin aqrar institusional cəmiyyətində aparılmış islahatların nəticəsi göstərir ki, bu sahədə aparılan bütün dəyişikliklər tsikl şəklində baş verir. Aqrar institusional sistemdəki bu dəyişikliklər nəticəsində tsiklik inqilabın mexanizmini tərtib etmək olar. Bu mexanizm zəncirvari reaksiyaları öz aralarında baş verən tsiklik asılıq ilə xarakterizə olunur.

İnstitusional sistemin mexanizminin iş prinsipi aşağıdakı zəncirvari reaksiyaların bir-birindən asılılığını əks etdirir. Belə ki, dövlət institutlarından birinin fəaliyyəti (1) müxtəlif amillərin reaksiyasını yaradaraq ideologiyaları dəyişdirir və forlaşdırır (2), ideologiyalar öz aralarında (3) bu və ya digər səbəbdən təsir dairəsini möhkəmlətmək məqsədilə rəqabət mübarizəsi aparır (4), institutların fəaliyyətində yaranan problemlərin həlli üçün qanunvericiliyin məzmununu müəyyənləşdirir (5), yeni qanunvericilik (6) köhnə və yeni problemlərlə fəaliyyətdə olan institutlara təsir göstərir və beləliklə proses tsiklin əvvəlki (1) vəziyyətinə qayıtmış olur, bu isə aqrar institusional sistemin tsiklik inqilabi müxanizmini özündə ehtiva edir. Beləliklə, ölkəmizin aqrar institusional sistemi öz təşkiledicilələri ilə qarçılıqlı əlaqədə olmaqla özəyini saxlamış, yalnız müəyyən dəyişikliyə məruz qalır və kooperativlər, kəndli təsərrüfatları, kənd təsərrüfatı müəssisələri, fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları formasında transformasiya edir (şəkil 1).






**Şəkil 1. Aqrar institusional sitemin tsiklik inqilabi mexanizmi**
Qeyd: müəllif tərtib etmişdir

Onu da qeyd edək ki, aqrar sahənin transformasiyası bütün cəmiyyətin inkişaf dövrü ərzində fasiləsiz olaraq baş verir. Bununla yanaşı, transformasiya yalnız sistemin özünü açıqlaması, onda mövcud olan potensialların aktuallaşdırılması, vəziyyətlərin dəyişməsi,fəaliyyət göstərmə forması deyildir. Transformasiya nəticəsində sistem əvvəllər onun üçün əlçatmaz və qeyri-mümkün olan fəaliyyət səviyyəsinə çıxır və bu zaman öz təşkilatını dəyişmiş olur.

Azərbaycanın aqrar sferasının nisbətən stabil vəziyyətinin, dayanıqlığının və sistemli keyfiyyətinin saxlanılması ilə əlaqəli olan funksional inkişafı müvafiq dəyişikliklər toplandıqca transformasiyalı inkişafa keçir. Transformasiyalı inkişaf sistemin dayanıqlılığını qoruyub saxlamaqla kəmiyyət-keyfiyyət dəyişiklikləri mərhələsini və sistemin yenidən dirçəlməsi mərhələsini (əslində transformasiya) özündə birləşdirən keyfiyyət dəyişiklikləri ilə bağlı davamlılığı pozmaqla, yaranan yeni sistemin bərqərar olması və ya onun dağılması ilə başa çatdırıla bilər.

Bazar iqtisadiyyatı şəraitində ölkə iqtisadiyyatının aqrar sahəsində baş verən transformasiya dəyişikliklərinin mənfi nəticələri aşağıdakı xüsusiyyətlərə malikdir:

1.Aqrar-ərzaq sektorunun struktur deformasiyası və sahələrarası əlaqələrin və proporsiyaların pozulması: aqrar istehsal strukturunun fərqli təsərrüfat formalarına, o cümlədən həyətyanı təsərrüfata doğru yerdəyişməsi, istehsal təyinatlı məhsulların kənd təsərrüfatına axınlarının azalması və s. son nəticəsdə sənayenin texnoloji tənəzzülünə səbəb olmuşdur. Bütün bunlar isə aqrar sahədə fəaliyyət göstərən sahibkarların maliyyə çətinliyinin mövcudluğu və tədricən artması üzündən kənd təsərrüfatı müəssisələrinin bir çoxunun inkişaf səviyyəsinə mənfi təsirində özünü göstərir.

2. Torpaqların münbitliyinin itirilməsi, bir hissəsinin kənd təsərrüfatı dövriyyəsindən çıxarılması və ya əhəmiyyətli əkin sahələrinin bir çox iqtisadi rayonların ərazilərində qeyri-kənd təsərrüfatı torpaqları kateqoriyasında istifadəyə verilməsi. Belə ki, bu kateqoriyalı torpaqlarda meliorasiya işləri praktiki olaraq dayandırılmış, hektarlıq tələbata uyğun bir sıra gübrələrin verilmə norması azalmış, kənd təsərrüfatında istehsalın hidroloji əsası pisləşmişdir.

3. Aqrar sferaya dövlət dəstəyinin son illərdə artırılması, proteksionist siyasətin qurulmasına baxmayaraq, bütün aqrar-ərzaq sektorunun inkişafını səviyyəsində əvvəllər tətbiq edilən məqsədli tənzimləmə metodlarının nəzərə alınmaması istehsal edilmiş məhsulların daxili və xarici bazarlarda rəqabət qabiliyyətinin aşağı olması ilə nəticələnmişdir. Həmçinin, aqrar siyasətin innovasiya komponentinin kifayət edici səviyyədə təmin edilməməsi kənd təsərrüfatı üçün zəruri olan elmi ixtiraların tətbiqinin zəifləməsinə səbəb olur.

4. Kəndin sosial inkişafının nisbətən zəif səviyyədə olması, bir çox kənd yaşayış məskənlərində istehsal, emal, tədarük və satış müəssisələrinin həddən çox az olması və ya ümumən olmaması, kənd əhalisinin depopulyasiyası, iş yerlərinin azalması və s. Bununla yanaşı, texniki peşə məktəblərində hazırlıq sisteminin (traktorçu, kombaynçı, təmir-texniki xidmət işçilərinin sayının və s. ) normal səviyyədə olmaması nəticəsində kənd təsərrüfatının inkişafını təmin edə biləcək kütləvi peşə işçilərinə olan tələbat artır.

İqtisadi sistemin transformasiyasının müasir mərhələsində (2003-2019-cu illər ərzində) kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq üzrə ümumi daxili məhsulun istehsal səviyyəsini əks etdirən məlumatların təhlili göstərir ki, ÜDM-in strukturunda kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsinin xüsusi çəkisi 2003-cü ilə nisbətən 2015-2019-cu illərdə 6,2-7,2% hüdudunda azalma olmuşdur. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq üzrə ÜDM-un həcmində 2003-cü illə müqayisədə 2015-2019-cu illərdə 3,78-5,26 dəfə artım müşahidə olunur. Təhlil göstərir ki, ölkə üzrə ümumi daxili məhsulun tərkibində bu sferanın payının minimum 6,2% (2015-ci il) və maksimum 7,2% (2019-cu il) azalmasına baxmayaraq istehsal həcmində 3781,6 milyon manat artım baş vermişdir [2, s. 54-55].

İqtisadiyyatın aqrar sahəsində spesifik xüsusiyyətlər bir tərəfdən maddi amillərin (torpaq ehtiyatları, binalar, qurğular, çoxillik əkmələr və s.), digər tərəfdən təbii-iqlim və iqtisadi şəraitin dinamikliyi və qeyri-müəyyənliyi ilə bağlı ətalətliliklər ilə müəyyən edilmişdir.

Bütövlükdə, transformasiya eksperimentləri illərində aqrar istehsalatın ölkədəki strukturu bir qədər dəyişmişdir ki, bu da cədvəl 1-in məlumatları ilə təsdiqlənir.

Təhli göstərir ki, hər bir vətəndaş üçün istehsal olunmuş kənd təsərrüfatı məhsullarının həcmində əvvəlki illə müqayisədə 2015-2019-cu illərdə ən az artım 2015-ci ildə (0,019 milyon manat), ən çox artım isə 2017-ci ildə (0,053 milyon manat) olmuşdur. Lakin 2016-cı ildə bu göstəricidə azalma olmuş və 0,0012 milyon manat təşkil etmişdir. Həmçinin qeyd edilən göstricinin 2003-cü illə müqayisəsindən görünür ki, burada ən çox artım 2019-cu ildə 4,36 dəfə, ən az artım isə 2016-cı ildə 3,25 dəfə olmuşdur (cədvəl 1).

**Cədvəl 1**

**Azərbaycan Respublikasında hər nəfərə düşən aqrar məhsulların istehsal həcmi**

| Göstəricilər/İllər | 2003 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| Bir nəfərə düşən kənd təsərrüfatı məhsullarının istehsalı, mlyn.manat | 0,1074 | 0,3502 | 0,3490 | 0,4020 | 0,4218 | 0,4678 |
| Əvvəlki ilə nisbətən bu göstəricinin artımı və ya azalması, mlyn.manat | - | +0,0190 | -0,0012 | +0,053 | +0,0198 | +0,0460 |
| 2003-cü ilə nisbətən bir nəfərə düşən məhsul istehsalının artımı və ya azalması, dəfə, (+), (-) | - | +3,26 | +3,25 | +3,74 | +3,93 | +4,36 |

Mənbə:[2,s. 51, s. 55] əsasında müəllif tərtib etmişdir

Əlverişli təbii-iqlim şəraiti, kənd ərazilərinin adət və ənənələri və s. bu ərazilərdə yetişdirilən kənd təsərrüfatı məhsullarının bir nəfərə düşən həcminin artım tendesiyası olduğunu müəyyənləşdirir. Bütün bunlar isə ölkədə aqrar sferanın real istehsal həcmindəki əhəmiyyətli fərqlərdən, ölkənin iqtisadi sistemində kənd təsərrüfatının rolu və əhəmiyyətindən xəbər verir.

Aqrar sahənin transformasiyası altında ölkə iqtisadiyyatında aqrar sferanın təşkilati-iqtisadi fəaliyyətinin struktur, forma və üsullarının, həmçinin idarəetmə təsirlərinə əsaslanan onun məqsədli hədəfə istiqamətinin dəyişdirilməsi başa düşülür. Aqrar sahənin tədqiq olunan sistemli transformasiyası halında söhbət ölkədə bütün sosial iqtisadi sistemin inqilabi dəyişikliklərinə səbəb olan müəyyən sistem daxilində silsilə təkamül dəyişikliklərindən gedir.

Bu baxımdan da, müəllif tərəfindən ölkə iqtisadiyyatının aqrar sferasının sistemli transformasiyasını əks etdirən yeni model təklif olunmuşdur (şəkil 2).

Modeldən göründüyü kimi, Azərbaycanın aqrar ferasının transformasiyası iki səviyyədən ibarətdir:

-institusional transformasiya;

-məkan transformasiyası.

Məkan transformasiyası yalnış hər haksı bir məkan çərçivəsində ola biləcək bir dəyişikliyi özündə əks etdirir. Lakin institusional transformasiya iki yolla həyata keçirilir: təkamül transformasiyası və islahatlı-inqilabi transformasiya. Dissertasiya işində Azərbaycanın aqrar sferasında baş verən dəyişikliklər islahatlı-inqilabi transformasiya formasını özündə ehtiva edir. Dəyişikliyin bu forması beş aspektdə: demoqrfik, sosial-iqtisadi, torpaq-resurs, aqrar sferanın inkişafını təmin edən elmi-texniki sistem və  bu sferadakı sahə və müəssisələrin təşkilati strukturu üzrə həyata keçirilməlidir.




**Şəkil 2. Azərbaycan iqtisadiyyatının aqrar sferasının sistemli transformasiya modeli**

Qeyd: model müəllif tərəfindən tərtib edilmişdir

Aqrar sferanın sosial-iqtisadi transformasiyası əhalinin qida məhsulları istehlakı və ərzaq təminatı sisteminin, həmçinin həmin sahənin srtateji prioritetlərinin, bütün idarəetmə səviyyələrində aqrar siyasətin məqsəd və vəzifələrinin transformasiyasını əks etdirir. Beləliklə, Azərbaycanın aqrar sferasını əhatə edən və müəllif tərəfindən təklif edilən model

iqtisadiyyatın bu vacib istiqamətinin ÜDM-in strukturunda xüsusi çəkisinin artırılması, ölkənin aqrar məhsullara olan tələbatının və iqtisadi inkişafın artımını təmin etməklə son nəticədə ölkə əhalisinin məşğulluğunun artırılması və həyat səviyyəsinin yüksəldilməsi istiqamətində həlledici şərtlərdən biri ola bilər.

**İstifadə edilmiş ədəbiyyat**


1. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"//Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı.-Bakı: 2016.-177s.
2. Sosial, iqtisadi inkişaf. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. 12 №-li məruzə// Bakı:- 2020.-188s.
3. Qarayev, R. Ə. Sahibkarlığın inkişafında biznes mühitinin yaxşılaşdırılmasının nəzəri-metodoloji məsələləri //Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İqtisadiyyat seriyası .-2020. №4, s. 23-30
4. Quliyev, Ş. B. Azərbaycanda kənd təsərrüfatı məhsulları üzrə müqayisəli üstünlüklərinin müəyyənləşdirilməsi // Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İqtisadiyyat seriyası .-2016. №1, s. 75-82
5. Босич, С. Аграрная политика Сербии в контексте обеспечения продовольственной безопасности: автореферат диссертации на соискание ученой степени кандидата экономических наук./- Москва, 2019. – 31с.
6. Галкин, Д. Г. Возможности развития аграрного сектора при реализации концепции «зеленого» роста //- Нижний Новгород: Агропродовольственная экономика,- 2019, №2, с.15-26
7. Пшихачев, С.М. Органическое сельское хозяйство - важнейший сегмент эколого-экономически устойчивой хозяйственной системы, (международные и внутринациональные аспекты). Нальчик: Принт Центр,- 2014. - 256 с
8. Myrdal G. "Asian Drama: An Inquiry Into the Poverty of Nations ". The Stogolma, 1968, 104 p.
9. Sinha D.K. He measurement of agricultural productivity in India.İnternational Journal of chimical Studies. 2019, pp. 58-72. Electronic journal



**Rəşad Quliyev**
*Əmək bazarı və Sosial Müdafiə Məsələləri üzrə*
*Milli Observatoriya, aparıcı mütəxəssis*
*e-mail:Rashad-027@mail.ru*
*orcid.org/0000-0002-3486-4494*


## PEŞƏ TƏHSİLİ SİSTEMİNİN ƏMƏK BAZARININ TƏLƏBLƏRİNƏ UYĞUNLUĞU MƏSƏLƏLƏRİ


**Xülasə**. Məqalədə ölkəmizin peşə təhsili sistemində mövcud olan çatışmazlıqlar, qarşıya çıxan problemlər araşdırılmış və onların həlli yollarına dair təkliflər irəli sürülmüşdür. Qeyd edilir ki, hazırda texnologiyanın və yeni texnoloji sistemlərin sənayedə geniş şəkildə tətbiqi xüsusi keyfiyyətlərə malik insan kapitalının hazırlanması zərurətini yaratmışdır. Bildirilir ki, keyfiyyətli işçi qüvvəsinin formalaşması vəzifəsi iqtisadiyyatın davamlı inkişafının aparıcı şərtlərindəndir. Belə ki, əmək bazarının müvafiq tələblərinə uyğun kadr

hazırlığının həyata keçirilməsi, insan resurslarının potensialından tam şəkildə və səmərəli istifadə edilməsi üçün keyfiyyətli peşə hazırlığı sistemi yaradılmalıdır.
**Açar sözlər:** iqtisadi inkişaf, dayanıqlıq, peşə təhsili, kadr hazırlığı, əmək bazarı, tələb və təklif,

**Rashad Guliev**

## PROBLEMS OF COMPLIANCE OF THE SYSTEM OF VOCATIONAL EDUCATION WITH THE REQUIREMENTS OF THE LABOR MARKET

**Summary**

The article discusses the existing shortcomings in the system of vocational education in our country, the problems that have arisen and puts forward proposals for their solution. It is noted that the widespread use of technology and new technological systems in industry has given rise to the need to develop human capital with special qualities. It is said that the task of forming a quality workforce is one of the leading conditions for sustainable economic development. Thus, a high-quality system of vocational training should be created to carry out training in accordance with the current requirements of the labor market, for the full and effective use of the potential of human resources.
**Key words:** economic development, sustainability, vocational education, personnel training, labor market, supply and demand,

**Рашад Гулиев**

## ПРОБЛЕМЫ СООТВЕТСТВИЯ СИСТЕМЫ ПРОФЕССИОНАЛЬНОГО ОБРАЗОВАНИЯ ТРЕБОВАНИЯМ РЫНКА ТРУДА

**Резюме**

В статье рассматриваются имеющиеся недостатки в системе профессионального образования нашей страны, возникшие проблемы и выдвигаются предложения по их решению. Отмечается, что широкое применение техники и новых технологических систем в промышленности породило необходимость развития человеческого капитала с особыми качествами. Говорится, что задача формирования качественной рабочей силы является одним из ведущих условий устойчивого экономического развития. Таким образом, должна быть создана качественная система профессионального обучения для осуществления подготовки кадров в соответствии с актуальными требованиями рынка труда, для полного и эффективного использования потенциала человеческих ресурсов.
**Ключевые слова:** экономическое развитие, устойчивость, профессиональное образование, подготовка кадров, рынок труда, спрос и предложение,

Müasir dövr texnologiya,elm və sənayeləşmənin paralel olaraq inkişaf etdiyi ölkələrdə texnologiyanın və yeni texnoloji sistemlərin sənayedə kollektiv şəkildə tətbiqi xüsusi keyfiyyətlərə malik insan kapitalının hazırlanması zərurətini yaratmışdır.Keyfiyyətli işçi qüvvəsinin formalaşması probleminin düzgün həll edilməsinin iqtisadiyyatın davamlı inkişafının aparıcı şərtlərindən olan əmək bazarının müvafiq tələblərinə uyğun kadr hazırlığının həyata keçirilməsi, insan resurslarının potensialından tam şəkildə və səmərəli istifadə edilməsi üçün keyfiyyətli peşə hazırlığı vacibdir. Texniki peşə təhsili sistemi yaradılarkən peşə təhsili müəssisələrində tələbələrin müasir texnoloji üsullara yiyələnməsi əsas götürülməlidir. Təbii ki, təkcə peşə məktəblərində verilən bu nəzəri və praktiki biliklər qənaətbəxş olmayacaq. Avropa İttifaqının ən güclü iqtisadiyyatına malik Almaniya, Fransa və Böyük Britaniyada peşə təhsili modeli digər ölkələrin modellərindən kəskin şəkildə fərqlənir.

Bu modellər Azərbaycan peşə təhsili sisteminə uyğun tətbiq edilir. Bununla belə, Azərbaycan peşə təhsili sisteminin bəzi məqamlarında dünya peşə təhsili modelləri əsasında yaradılmış və inkişaf etdirilən problemlər mövcuddur. Problemin kökü müxtəlif səbəblərdən qaynaqlandığı üçün Azərbaycanda peşə təhsilinin dünya peşə təhsili nümunəsi olması və gələcəkdə güclü peşə təhsili modelinə çevrilməsi üçün yarana biləcək problemlər əvvəlcədən dəyərləndirilməli və vaxtında həll edilməlidir. Azərbaycanda belə bir araşdırmanın olmaması bu prosesi ləngidən səbəblərdəndir.

Yaxın gələcəkdə işlərin 90%-nin müəyyən səviyyədə rəqəmsal iş bacarıqları tələb edəcəyi proqnozlaşdırılır. Bununla belə, hazırda hətta Avropada əhalinin yalnız 53%-i lazımi səlahiyyətlərə malikdir. Bu gün dünyada təxminən 70 milyon layihə mühəndisi, layihə mühəndisi və dizayneri var. Peşə təhsili bu gün Azərbaycanın təhsil sistemində çox mühüm yer tutur. Hazırda iqtisadiyyatda və ölkənin ictimai-siyasi vəziyyətində baş verən dəyişikliklər nəzərə alınmaqla tələbələrin ixtisas və peşələr üzrə hazırlığı dəyişir. Texnologiyanın inkişafı bütün dövrlərdə insan fəaliyyəti sahələrində dəyişikliklərə təsir göstərmişdir. 20-ci əsrin ortalarında avtomatlaşdırmanın tətbiqi ilə elektronikaya əsaslanan qurğular meydana çıxdı və nəticədə yeni peşələr və ixtisaslar meydana çıxdı [1]. Azərbaycanda təhsil sisteminin əsas məqsədi tələbələri peşə təhsilinə olan marağını aşkarlamaq və düzgün təhsil yolunu seçib bu sahədə olan bacarlqlarını inkişaf etməkdəköməklik göstərmək olmalıdır. Peşə təhsili səviyyəsi əmək bazarına gedən ən kəsə, qısa yol sayılır. 6 aya, bir ilə hər hansı yeni peşə ilə bağlı ilkin biliyə sahib olub həmin peşə üzrə əmək bazarına daxil olmaq mümkündür. Əlbəttə ki, bu təhsil səviyyəsini seçənlər üçün daha qısamüddətli təlimlərlə müəyyən bacarıqlar əldə etmək imkanı da var [2].

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fermanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" peşə təhsilinə verdiyi dəstək və qayğısından irəli gəlir. Bu sənəd peşə təhsili və təlimi sahəsində dünyada mövcud olan meyillər nəzərə alınmaqla, ölkədə əmək bazarının tələblərinə uyğun təhsil proqramları əsasında ixtisaslı kadrlar hazırlayan peşə təhsili sisteminin inkişaf etdirilməsi məqsədilə çeviklik və inteqrasiya prinsipləri əsasında hazırlanmışdır. Sənəddə peşə təhsili və təlimi sektoru üzrə 2020-ci ilədək strateji baxış, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış müəyyən edilmişdir. 2020-ci ilədək olan dövr ərzində Azərbaycan Respublikasının peşə təhsili və təlimi sistemində aşağıdakı strateji hədəflər müəyyən edilmişdir:

- işəgötürənlərin peşə təhsili və təlimi sisteminə inteqrasiyası;
- nəticələrə əsaslanan güclü maliyyələşdirmə sisteminin yaradılması;
- məqsədli peşə inkişafı proqramlarının yaradılması;
- sektorlar üzrə spesifik proqramların yaradılması;
- peşə təhsili və təlimi üzrə hədəflərin əldə olunmasına təkan verəcək vasitələrin tətbiqi [3].

Azərbaycanda peşə təhsilinin problemləri: Əmək bazarında ixtisaslı kadrların hazırlanmasının təşkilində müəssisələrində danılmaz rolu mühümdür. Həyata keçirilən tədbirlərə baxmayaraq, təhsil sisteminin prioritet sahələrindən biri olan peşə təhsili və təlimi sistemində müəyyən problemlər mövcuddur. Belə ki, inkişaf etmiş ölkələrdə orta məktəb məzunlarının 40-60 faizi peşə təhsili müəssisələrinə qəbul olunduğu halda, Azərbaycanda bu rəqəmin 11 faizdən az olması əhalinin bu təhsil sahəsinə marağının az olduğunu göstərir.

Peşə təhsili və təlimi sistemində bir sıra problemlərin mövcud olmasına baxmayaraq, ölkə səviyyəsində aparılan məqsədyönlü islahatlar çərçivəsində, bütövlükdə, ölkə iqtisadiyyatında müşahidə olunan müsbət meyillər peşə təhsili sistemi qarşısında yeni tələblər qoyur. İqtisadiyyatın şaxələndirilməsi, neft-qaz sənayesi sahələri ilə yanaşı, qeyri-neft sektorunun yüksək əlavə dəyər yaradan sahələrinin inkişaf etdirilməsi istiqamətində görülən tədbirlər əmək bazarında rəqabətqabiliyyətli və ixtisaslı kadrlara tələbatı artırır. Bu baxımdan

peşə təhsili və təlimi sistemi əmək bazarının bu cür artan və dinamik dəyişən tələbatını ödəyən qabaqlayıcı kadr hazırlığını təmin etməlidir.

Peşə təhsili müəssisələri müxtəlif sektorlarda yaranan kadr çatışmazlıqlarını aradan qaldırmaqdan ötrü bu sahələrə uyğun bacarıqlı,bilikli kadrlar hazırlamalıdır. Həmçinin

| **Peşə təhsili və təlimi sektorunun GZİT təhlili** | |
|---|---|
| **Güclü tərəflər** | **Zəif tərəflər** |
| Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın olması; | infrastruktur, avadanlıq və maddi-texniki bazanın köhnəlməsi; |
| | təhsil proqramları, dərslik və dərs vəsaitlərinin köhnəlməsi; |
| | müəllim-pedaqoji heyətin və kadrların hazırlıq səviyyəsinin qənaətbəxş olmaması; |
| Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması; | peşə təhsili müəssisələrində idarəedici heyətin zəif olması; |
| | peşə təhsili müəssisələrinin maliyyə təminatının zəif olması; |
| peşə təhsili müəssisələrinin balansında torpaq sahələrinin və digər aktivlərin mövcud olması; | peşəyönümü işinin qənaətbəxş səviyyədə aparılmaması; |
| | peşə təhsilinin imicinin aşağı olması; |
| yüzlərlə peşə üzrə peşə standartlarının olması; | stimullaşdırıcı əməkhaqqı sisteminin olmaması; |
| | peşə təhsilinin əmək bazarının tələblərinə cavab verə bilməməsi; |
| Azərbaycanda bir çox istiqamətlər üzrə peşə ənənələrinin olması. | işəgötürənlərlə əlaqələrin zəif olması; |
| | özəl sektorun təhsilə cəlb olunmaması. |

Mənbə: https://president.az/az/articles/view/22252

vurğulamaq lazımdır ki, peşə təhsili müəssisələrinin sayında azalma müşahidə olunmuşdur. Son illər baş vermiş azalmanın səbəbi bu sahəyə marağın az olması ilə deyil, əksinə bu sahədə dövlət sifarişləri əsasında keyfiyyətli kadr hazırlığı həyata keçirilir. Bunun üçün əhali arasında peşə hazırlığına maraq yaratmaq üçün müvafiq tədbirlər və islahatlar uğurla işlənib hazırlanır. Aşağıdakı cədvəldə Dövlət Statistika komitəsinin verdiyi məlumatlara əsasən 2015 və 2021-ci ilin əvvəlinə peşə təhsili müəssisələrinin sayı verilmişdir.

Peşə təhsili müəssisələri mövcud tələbələrin sayı baxımından peşə təhsilinin çox mühüm hissəsidir. Peşə təhsili müəssisələrində ümumilikdə peşə təhsilindəki boşluqların və problemlərin müəyyən edilməsi müxtəlif amillərin təhlili əsasında mümkündür. Peşə təhsilində yaranan problemləri müxtəlif araşdırmalar və peşə məktəblərində tələbə və müəllimlərdən anonim sorğular keçirilmək yolu ilə boşluqlar müəyyən edilməlidir. Alınan statistik göstəricilər əsasında problemlər aşkarlanmalı və aradan qaldırılması üçün təkliflər hazırlanmalıdır. Problemlərin üzə çıxması üçün bu sorğuların keçirilməsi vacibdir. Müasir rəqəmsal dünyada inkişaf etmiş texnoloji avadanlıqlar vasitəsilə də anketin WhatsApp və Telegram mediası üzərindən keçirilməsi mümkündür.




Mənbə : http://stat.gov.az -Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi saytı

Qeyd etmək lazımdır ki, peşə təhsili tələbələrinin səriştəsi əsasən həmin müəssisələrin müəllim-pedaqoji heyətinin keyfiyyətindən asılıdır. İstehsalatı peşə təhsili ilə birləşdirmək, nəzəriyyənin praktika ilə inteqrasiyasını təmin etmək vacib vəzifələrdən biri olmalıdır. Peşə təhsili sistemində praktik təcrübənin olmaması, bacarıqların iş yerində təcrübə keçməklə mənimsənilməsinin təşkil olunmaması nəticədə bu müəssisəlrinməzunlarının özlərinə müvafiq iş tapa bilməmələrinə səbə olur. Peşə təhsili sistemində hələ də köhnə kurikulumlardan istifadə edilməsi,maddi-texniki bazanın zəif olması kadr hazırlığının keyfiyyətinə ciddi təsir göstərir. Bu səbəbdən də peşə təhsili müəssisələrinin müəllim-pedaqoji heyətinin keyfiyyətin artırılması üçün müxtəlif layihələr əsasında onların mütamadi olaraq təlimlərə cəlb edilməsi işi təşkil edilməlidir. Təlimin məzmunu istehsal xəttinə didqq\tin artırılması, bu sahədə ictimai müzakirələrin keçirilməsi məsələləri populyarlaşdırılmalıdır [6]. Bu sahədə inkişaf olmadan peşəkar müəllim-pedaqoji heyətinin yetişdirmək mümkün deyil.

**Ədəbiyyat siyahısı**


1. https://infourok.ru/statya-na-temu-cifrovizaciya-professionalnogo-obrazovaniya-plyusy-i-minusy-5185554.html
2. https://muallim.edu.az/news.php?id=16206
3. https://edu.gov.az/uploads/peshe-tehsili/2021/Pesə_təhsili_ve_təliminin_inkisafına_dair_strateji_yol_xəritəsi.pdf
4. https://president.az/az/articles/view/22252
5. https://en.calameo.com/books/006784155f99202bd23b8
6. https://www.scirp.org/journal/paperinformation.aspx?paperid=112136

**Rüfət Həsənov**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*baki15ruf@yahoo.com*

# İKT VƏ VİRTUAL MƏKANDA-VPN

***Açar sözlər:*** İKT, VPN, İC, İT , texnologiya

**Giriş**

XXİ əsr, yəni yaşadığımız müasir dövr infromasiya komunikasiya texnologiyaları (İKT) dövrüdür. İnformasiya emalı texnologiyaları isə cəmiyyətdə fəaliyyət gostərən insan həyatının bütün sahələrinə öz təsirini göstərir. Məsələn, təhsil sistemində, tibb və biznes sahələrində, kənd təsərrüfatında, virtual əlaqələrdə, oyun proqramlarında və s.

İKT sahəsi gündən günə inkiaf edir, bu inkişaf isə digər sahəlöridə özü ilə paralel inkişaf etdirir. Eyni zamanda da var olan sahələrin də yeni qolları əmələ gəlir. Bu isə bütövlükdə cəmiyyətə təsir edir. Yəni, daim yeniləşən İKT-nin tətbiqi iş şəraitinin dəyişməsinə, məlumatların avtomatik idarə edilməsinə, sürətli informasiya mübadiləsinə, tədris metodlarında elektronlaşmanın əsas yer tutmasına, yeni təlim yanaşmalarına, elmi tədqiqatlar gündən günə vertuallaşmasına və s. səbəb olur.

Covid 19 pandemiyasının öldürücü təsirinin dünyada hökmran rol oynaması bütün real əlaqələrin virtual əlaqələrə keçməsinə səbəb oldu. Məsələn, Covid 19 pandemiyasında insanların demək olar ki, 90%-i internet üzərindən əlaqə yaratmağa məcbur oldular, yəni öz işlərini virtual olaraq görmək məcburiyyətində qaldilar, bu isə virtual aləmin, internet-şəbəkə sisteminin daha da böyüməsinə və bu sahəyə xüsusi marağın yaranmasına səbəb oldu.

Müasir cəmiyyətdə informasiya emalı İKT vasitəsilə, onun mübadiləsi isə virtual məkan üzərindən aparılır. Ona görə də hazırda bu məkanda yaranan əsas problemlərdən biridə informasiyanın qorunması, mühafizəsi məsələsidir. İnternetden istifadənin çoxalması isə kiberhücumların sayını artırır, bu da öz növbəsində kiber cinayətlərin sayını artırmış olur. Belə hücumların qarşısını almaq üçün bir çox vasitələrdən, proqramlardan isrifadə olunur. Məsələn, biometrik texnologiyalardan, kod-parol sistemlərindən, antivirus proqramlarından və s. Hətta bulut texnologiyasının tətbiqi də informasiyanın qorunmasında tam şəkildə rol oynaya bilmir. Lakin internet üzərindən informasiya mübadiləsində yaranan belə problemləri müxtəlif proqramların tətbiqi ilə qismən həll etmək mümkündür. Burada istifadə edəcəyimiz etibarlı vasitə kimi, yəni, buna qarşılıq olaraq özümüzü kiber hücumlardan qorumaq üçün Vertual Şəxşi Şəbəkələrdən (VPN) istifadə edirik. Məqalədə Vertial Şəxşi Şəbəkə (VPN) nədir? Necə yaranıb? Nə üçün istifadə olunur? Kimlər istifadə etməlidir? Vertial Şəxşi Şəbəkə (VPN) yararları nələrdir? Vertial Şəxşi Şəbəkə (VPN) istifadə etdikdə nə kimi təhlükələr bizi gözləyir?- kimi suallara cavab verilir.

## I. Vertual Şəxşi Şəbəkə (VPN) nədir?

VPN " Virtual Private Network" deməkdir və ictimai şəbəkələrdən istifadə edərkən qorunan şəbəkə bağlantısı yaratmaq imkanını bizə verir. VPN-lər internet hərəkətinizi şifrələyir və onlayn kimliyinizi/şəxsiyyətinizi gizlədir. Bu, üçüncü tərəflərin fəaliyyətinizi onlayn izləməsini və məlumat oğurlamasını çətinləşdirir. Şifrələmə real vaxt rejimində baş verir. VPN, şəbəkənin onu VPN hostu tərəfindən idarə olunan xüsusi konfiqurasiya edilmiş

uzaq server vasitəsilə yönləndirməsinə icazə verməklə IP ünvanınızı gizlədir. Bu o deməkdir ki, VPN ilə onlayn sörf edirsinizsə, VPN serveri məlumatlarınızın mənbəyinə çevrilir. Bu o deməkdir ki, İnternet Xidmət Provayderiniz (ISP) və digər üçüncü tərəflər hansı vebsaytlara daxil olduğunuzu və ya hansı məlumatları onlayn olaraq göndərib qəbul etdiyinizi görə bilməz. VPN, bütün məlumatlarınızı "şifrələmə"yə çevirən bir filtr kimi işləyir. Kimsə məlumatlarınızı əlinə alsa belə, bir faydası olmur.

VPN bağtasının əsas işi online məlumatlarınızı şifrələmək və xarici girişlərdən qorumaqdır. Bu sahədə də sizi hakerlər və kiber cinayətkarlar sizin məlumatlarınızı götürə bilmirlər.

VPN-də əsas vacib şərtlər aşağıdakılar kimi aşadakı təlabatlar ödenilməlidir.

- **Təhlükəsiz şifrələmə:** Məlumatı oxumaq üçün sizə şifrələmə açarı lazımdır. Aşağıdakılardan olmasaydı, kobud güc hücumu zamanı kompüterin kodu deşifrə etmələri milyonlarla il çəkərdi. VPN-in köməyi ilə onlayn fəaliyyətləriniz hətta ictimai şəbəkələrdə də gizlədə bilərsiniz.
- **Hansı demoqrafiq məkanda olmağınızın gizlədilməsi:** VPN serverləri əsasən internetdə proxy kimi çıxış edir. Demoqrafik məkan məlumatları başqa ölkədəki serverdən gəldiyi üçün faktiki yerinizi müəyyən etmək mümkün olmur. Bundan əlavə, əksər VPN xidmətləri fəaliyyətlərinizin qeydlərini saxlamır. Bəzi provayderlər isə əməliyyatlarınızı qeyd edirlər, lakin bu məlumatı üçüncü tərəflərə ötürmürlər.[1] Bu o deməkdir ki, istifadəçi davranışınızın hər hansı potensial data(verilənlər bazası) həmişəlik gizli qalır.
- **Regional məzmuna giriş:** Regional veb məzmunu həmişə əlçatan deyil. Xidmətlər və vebsaytlar çox vaxt yalnız dünyanın müəyyən yerlərindən əldə edilə bilən məzmunu ehtiva edir. Standart bağlantılar yerinizi müəyyən etmək üçün ölkədəki yerli serverlərdən istifadə edir. VPN-də məkanının saxtalaşdırılması ilə siz başqa ölkədə olan serverə keçə və yerinizi effektiv şəkildə "dəyişdirə" bilərsiniz.
- **Təhlükəsiz məlumat ötürülməsi:** Uzaqdan işləyirsinizsə, şirkətinizin şəbəkəsindəki vacib fayllara daxil olmanız lazım ola bilər. Təhlükəsizlik səbəbləri ilə bu cür məlumatlar təhlükəsiz əlaqə tələb edir. Şəbəkəyə daxil olmaq üçün çox vaxt VPN bağlantısı tələb olunur. VPN xidmətləri şəxsi serverlərə qoşulur və məlumat sızması riskini azaltmaq üçün şifrələmə üsullarından istifadə edir.

**Niyə VPN bağlantısından istifadə etməlisiniz?**

İnternetə qoşulduğunuz zaman İnternet provayderiniz adətən bağlantınızı qurur. IP ünvanı vasitəsilə sizi izləyir. Şəbəkə hərəkətiniz onlayn etdiyiniz hər şeyi daxil edə və göstərə bilən ISP serverləri vasitəsilə yönləndirilir.İnternet provayderiniz etibarlı görünə bilər, lakin o, baxış tarixçənizi reklamçılar, polis, hökumət və ya digər üçüncü tərəflərlə paylaşa bilər. ISP-lər də kibercinayətkarların hücumlarının qurbanı ola bilər[2].
Əgər onlar sındırılıbsa, şəxsi məlumatlarınız ələ keçirilə bilər.Əgər siz müntəzəm olaraq ictimai Wi-Fi şəbəkələrinə qoşulursunuzsa, bu xüsusilə vacibdir. Həm də siz heç vaxt bilməyəcəksiniz ki, sizin internet hərəkətinizə kimin nəzarət edə bilər və ya onlar sizdən nəyi oğurlaya bilər (parolları, şəxsi məlumatları, ödəniş məlumatını və hətta bütün şəxsiyyətiniz haqqında və s.).

**Şəkil 1.1 VPN-nin işləmə qaydası**

Ümumiyyətlə internetdən istifadə etdiyiniz vaxt İSP-lər sizin məlumatlarınızı qorumağa çalışsada, yenə bu sistemin virtual məkanından əlaqənin yaradılması nisbətən etibarsızdır. Yarana biləcək belə problemlərin qarşısının alınması və ya etibarlı informasiya mübadiləsi üçün VPN-dən istifadə etmək olduqca əlverişlidir. *Şəkil 1.1*-də olduğu kimi siz VPN müştərisi ilə əlaqədə olaraq, sizi yenədə İnternet provayder xidmətinə bağlana bilirsiniz, lakin məlumatlarınız artıq şifrələnir. Yəni, məlumatlarınız şifrəli olduğuna görə digər tərəflər onu




oğurlamağa çalışsalarda, heç nə edə bilmirlər

VPN-siz olduğu zaman isə Şəkil 1.2 İstifadəçinin Qurğusu birbaşa İnternet Provayder xidməti




vasitəsi ilə İnternete bağlanır və məlumatlar şifrələnməmiş olduğu üçün 3-cü şəxslər tərəfindən görülməsi mümkün olur.

**VPN-nin əsas parametrləri:**

I. VPN-də əsas olan gizliliyin qorunmasıdır və bunun olması üçündə ən əsas əmil İP adresin gizlədilməsidir. Bunun olması İSP-lərin və ya digər üçüncü şəxslərlərin sizdən və VPN provayderlərindən başqa heç kimin görmə riski olmadan onlayn məlumat göndərməyinizə imkan verir.
II. İnternet protokollarınıın şifrələnməsidir yəni axtarış tarixçənizin, cookilerin, internet tarixçənizin şifrələnməsdir və buda izlər buraxmağınızın qarşısını alır.\
III. VPN bağlantınız qəfil kəsilirsə, təhlükəsiz bağlantınız da kəsiləcək. VPN bu qəfil fasilələri aşkarlaya və əvvəlcədən seçilmiş proqramları dayandıra bilər və bunada ***kill keçidi*** deyilir və məlumatların təhlükə altına düşmə ehtimalını azaldır.
IV. Müxtəlif autentifikasiya (məs.google autentifikasiya, microsoft autentifikasiya) üsullarından istifadə etməklə, güclü VPN daxil olmağa çalışan hər kəsi yoxlayır. Məsələn, sizdən parol daxil etməyiniz tələb oluna bilər, bundan sonra mobil cihazınıza kod göndərilir. Bu, dəvət olunmamış üçüncü tərəflərin təhlükəsiz bağlantınıza daxil olmasını çətinləşdirir.[3]

**Nəticə**

VPN hər nə qədər də sizə qorunma və gizlilik versədə əfsuslar olsun ki indiki internet şəraitində VPN istifadəsində bir çox risklə qarşı-qarşıya qala bilərsiniz. Bunların ən təhlükəlilləridə pulsuz VPN serverləridir.

Bir VPN provayderinə qoşulduğunuz dəqiqədən etibarən artıq onun sizin adınıza internet hərəkətinə müdaxilə etməsinə icazə verirsiniz. Çünki əlaqə serverə qədər şifrələnir və serverdən sonra heç bir təhlükəsizlik tədbiqi olmur. Təbii ki, serverə daxil olan insanlar/şirkətlər internet bağlantınızı istədikləri kimi idarə edə və ya sizi yönləndirə bilərlər. Unutmamalısınız ki, ***pulsuz*** ad altında olan bir çox VPN provayderi internet hərəkətinizi qeydə alır və bu məlumatı kommersiya və ya kəşfiyyat məqsədləri üçün istifadə edir.

Unutmamaq lazımdır ki, qoşulduğunuz VPN server həmin ölkənin qanunlarına uyğun idarə olunur. Digər tərəfdən internet hərəkətinizə müdaxilə edərək sizi istiqamətləndirə biləcəklərini də unutmamalısınız. Pullu xidmətlər təqdim edən bir çox VPN xidmət provayderi təhlükəsizlik və məxfiliyi təmin etsələr belə, hərəkətinizi və **DNS sorğularınızı** qeyd altında saxlayırlar.

Pulsuz və ya məhdud xidmətləri olan VPN provayderlərinin bant genişliyinizi məhdudlaşdırdığını görə bilərsiniz. 50 Mbit internet sürəti olan halda pulsuz VPN istifadə etdiyiniz zaman internet sürətiniz 3-5 Mbit-ə düşə bilər. Onlar məhdud bant genişliyi təklif edirlər və bəzi məqamlarda brauzerinizdə öz reklamlarını da göstərə bilərlər. Əlbəttə ki, bu məhdudiyyətlərə əlavə olaraq, Ping vaxtınız artacaq və DNS cavablarınızı gec ala bilərsiniz. Çünki siz fərqli qitədəki çox uzaq kompüterə qoşulursunuz. Təbii ki, sörf edərkən və ya oyun oynayarkən VPN istifadəsində nəzərəçarpacaq yavaşlama var.[4]

VPN xidmətlərinin yalnız internet hərəkətinizi şifrələdiyini də xatırlamalısınız. İnternetdə çoxlu təhlükələr var. Viruslar, troyanlar, təhlükəli veb səhifələr və ya oxşar təhdidlər həmçinin VPN xidmətləri ilə yüklədiyiniz fayl və ya daxil etdiyiniz veb səhifə vasitəsilə kompüterinizə yoluxa bilər.[5]

Coğrafi maneələri də unutmaq olmaz. VPN-ə qoşulduğunuz andan siz həmin ölkəyə tətbiq edilən məhdudiyyətlərlə qarşılaşa və problemlərlə üzləşə bilərsiniz.

**Ədəbiyyat:**

1. An Analysis of the Performance in State-of-the-Art Virtual Private Network solutions in Unreliable Network Conditions
2. P4-IPsec: Site-to-Site and Host-to-Site VPN With IPsec in P4-Based SDN
3. https://www.potaroo.net/
4. https://berqnet.com/
5. Комплексный Алгоритм Мониторинга Защищенности Узлов Vpn От Компьютерной Разведки И Ddos-Атак

**UOT 338.22**

**Mahayət Nəbiyev**
Azərbaycan Universiteti, dissertant

## TİKİNTİ SAHƏSİNDƏ İNVESTİSİYALARIN ƏHƏMİYYƏTİ

**Açar sözlər**: risk, investisiya, tikinti sahəsi, kredit, inkişaf

Azərbaycanda neft bumu dövründə xidmət sektoruna kredit qoyuluşlarının artımı bir sıra mənfi proseslərlə müşayiət olunmuşdur. Birincisi, kredit bumu xidmət sahələrində kreditlərin mənfəətə nisbətini artıraraq xidmət sektorunda borc defoltu riskini artırmışdır. İkincisi, xidmət sektoruna kreditlərin böyük hissəsi xarici valyutada olmuşdur ki, bu da valyuta riskini artıraraq borc defoltu riskini daha da gücləndirmişdir. Xidmət sahələrində maliyyə riskləri özünü post-neft dövründə göstərdi. 2014-2015-ci illərdə ölkənin neft gəlirlərinin azalması xidmət sahələrində artım tempinə mənfi təsir göstərərək firmalara kredit qaytarmasında çətinliklər yaratmışdır.

Azərbaycanda tikinti firmalarına kredit qoyuluşlarının azalması onların ödəmə qabiliyyətliliyinə müsbət təsir etmişdir. Lakin qeyd etməliyik ki, tikinti sektoruna kredit qoyuluşları azalsa da, kreditlərin böyük hissəsini xarici valyuta ilə verilmiş kreditlər təşkil edir (2018-ci ildə 43%), bu da tikinti sektorunun valyuta riskinə məruz qaldığını göstərir. Manatın dəyərdən düşməsi tikinti sektoruna da mənfi təsir etmişdir. Bu, əhalinin alıcılıq qabiliyyətliliyinin aşağı düşməsi və investisiya cəlbediciliyinin azalması, tikinti xərclərinin artması, inşaat və tikinti sektorunda fəaliyyət göstərən firmalara kreditlərin kəskin azalması, ipoteka kreditlərinin verilməsinin demək olar ki dayandırılması və əhalinin real gəlirlərinin azalması ilə əlaqədardır. İnvestisiya-tikinti layihələrinin həyata keçirildiyi zaman qeyri-müəyyənliyin əsas mənbələrindən biri hazır məhsulların və tikinti materiallarının qiymətidir. Belə ki, investisiya-tikinti layihələri uzun müddət ərzində həyata keçirildiyi üçün materialların qiyməti çətin proqnozlaşdırılan bir göstəricidir. Materialların, konstruksiyaların, məhsulların qiymətlrinin artması bir çox hallarda valyuta riskinin təsirinin nəticəsidir. Sahibkarın riskə hazır olması, onun qeyri-müəyyən şəraitdə qərar qəbul edib investisiya yatırmağa sövq edir, bu da investisiya fəaliyyəti və ümümiyyətlə firmaların fəaliyyəti və inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Risk həmçinin sahibkarlarda məsuliyyət və intizam yaradır, təhlükəsizliyin təmin edilməsi, firmanın fəaliyyərinin davamlılığının artırılması istiqamətində tədbirləri stimullaşdırır [Теплякова 2016, 674]. Lakin sahibkarın riskə hazır olması destruktiv olduqda sahibkar avantürist qərarlar verə bilər və bu, çox vaxt yüksək risklərlə

nəticələnir və böyük itkilərlə, hətta firmanın müflisləşməsinə gətirib çıxarır. Qeyd edək ki, bu cür qərarlar əsasən iqtisadi bum dövründə yaşanan eyforiya şəraitində müşahidə olunur. İqtisadi bum və eyforiya bitdikdə bum dövründə yatırılan investisiyaların böyük hissəsi zərərli olur.

Müxtəlif biznes fəaliyyəti və investisiya layihələrinin hər birinin özünə məxsus riskləri vardır. Risklərdən tam yayınmaq mümkün deyil. Firma sadəcə risk hadisəsi baş verdikdə itkiləri azaldmaq məqsədilə müvafiq tədbirlər görə bilər. Buna görə firmaların səmərəli fəaliyyəti və investisiyaların yönləndirilməsi risklərin əvvəlcədən müəyyənləşdirilməsi, qiymətləndirilməsi və idarə edilməsi ilə bağlıdır. Risklərin yönləndirilməsi – firmaların fəaliyyətinin faktiki göstəricilərinin əvvəlcədən planlaşdırılmış mənalardan kənarlaşmaların azaldılması məqsədi ilə risklərin monitorinqi, təhlili və müəyyənləşdirilməsini birləşdirən tədbirlər kompleksidir [Финансовый менеджмент 2011, 133].

Riskin azaldılması - şaxələnmə, immunizasiya və hecləşdirmə kimi xüsusi texnologiyaların istifadəsinə əsaslanır. Şaxələnmə risk amili üzrə əks meyillərə malik olan müxtəlif aktivlər arasında risklərin bölüşdürülməsini nəzərdə tutur. Şaxələnmə metodu fəaliyyət növləri, satış və alışın, investisiyaların şaxələndirilməsini, məsuliyyətin istehsal iştirakçıları arasıda paylanmasını nəzərdə tutur. Bu metod firnaya çevikliyi artırnağa imkan verir. Bu metodu tətbiq edən firma istehsal etdiyi məhsulun çeşidini artırır, istehlakçıların müxtəlif sosial təbəqələrinin maraqlarına cavab verir.

Şəxalənmə metodu investorların və investisiya mənbələrinin da şaxələnməsini nəzərdə tutur. Firmalar müxtəlif investorlardan və maliyyə mənbələrindən investisiya cəlb etməklə bir investordan asılılığı azaltmağa nail olurlar. Öz fəaliyyətini şəxaləndirmək istəyən firma üçün əsas məsələlərdən biri həmçinin investisiyaların şaxələnməsidir, yəni firma investisiya yatıran zaman bir layihəyə böyük məbləğdə vəsait yatırmaq əvəzinə bir neçə layihələrə investiya yatırmalıdır. Bu, bir layihənin uğursuzluğunun firmaya mənfi təsirini azaltmağa imkan verir. Risklərin sığortalamasının əsasını investorun riskin aşağı salınması naminə gəlirin bir hissəsindən imtina etməyə hazır olması, yəni riskin sıfıra endirilməsi üçün ödəniş etməyə hazır olması təşkil edir. Bu risk firmanın investisiya fəaliyyətinin həyata keçirilməsi prosesində maliyyə itkiləri ehtimalını xarakterizə edir. İnvestisiya fəaliyyəti növlərinə uyğun olaraq, investisiya riskinin iki növünü göstərmək olar - real investisiya riski və maliyyə investisiyası riski. İnvestisiya fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar qeyd olunan bütün maliyyə riskləri müxtəlif növlərdən ibarət olan mürəkkəb risklərə aid olunur. Belə ki, real investisiya riskinin tərkibinə aşağıdakı risklər daxil edilir:

- layihə-konstruktor işlərinin gec tamamlanması riski;
- tikinti-montaj işlərinin vaxtında başa çatdırılmaması riski;
- investisiya layihəsi üçün maliyyələşmənin vaxtında açılmamasır riski;
- səmərəliliyinin azalması ilə əlaqədar layihənin investisiya cəlbediciliyinin itirilməsi riski və sair [Финансовый менеджмент 2012, 166].

Maliyyə investisiya risklərinə aiddir:

- Mənfəəti əldən buraxmaq riski – sığortalanma, hedc əməliyyatı və sair əməliyyatın həyata keçirilməməsi zamanı yaranan dolayı maliyyə itkisi ehtimalıdır.
- Gəlirliliyin enməsi riski – əmanətlər, portfel investisiyaları və kreditlər üzrə faiz dərəcəsinin azalması nəticəsində baş verə biləcək itkinin ehtimalıdır.

Depozit riski - banlkarda yerləşdirilən depozitlərin qaytarılmaması ehtimalını əks etdirir. Bu riskə nisbətən nadir hallarda rast gəlinir və firmanın depozit əməliyyatları aparmaq üçün kommersiya bankının yanlış qiymətləndirilməsi və uğursuz seçimi ilə əlaqədardır. Buna baxmayaraq, depozit riskinin reallaşması halları bir çox ölkələrdə müşahidə olunur.

Valyuta riski - kredit, xarici iqtisadi, firmanın xarici ölkədə investisiya yatırdığıvə digər

valyuta əməliyyatları zamanı bir xarici valyutanın digər valyutaya nisbətən məzənnəsinin dəyişməsi zamanı yarana biləcək valyuta itkilərini əks etdirir.
Bazar (portfel) riski - qiymətli kağızlar portfeli investorun əlində olan qiymətli kağızlar toplusudur. Qiymətli kağızlar portfeli özündə müxtəlif gəlir və risk səviyyəsi olan səhmlər və istiqraz toplusunu əks etdirir.

Maliyyə risklərinin komponentləri risklərin qiymətləndirilməsi və səmərəli idarə edilməsi proseslərinin təşkili üçün aşağıdakı xüsusiyyətlər əsasında təsnifləşdirilə bilər:

- Obyektin xarakterinə görə:

1) ayrı maliyyə əməliyyatlarının riski. Bu risk müəyyən bir maliyyə əməliyyatına xas olan maliyyə risklərinin bütün növlərini kompleks şəkildə xarakterizə edir (məsələn, müəyyən səhmin əldə olunmasına xas olan risk);

2) müxtəlif növ maliyyə əməliyyatlarının riski (məsələn, firmanın investisiya və ya kredit fəaliyyəti riski);

3) firmanın ümumi maliyyə fəaliyyətinin riski. Firmanın maliyyə fəaliyyətinə xas olan müxtəlif növ risklərin kompleksi onun fəaliyyətinin təşkilati-hüquqi forması, kapitalın strukturu, aktivlərin tərkibi, sabit və dəyişkən xərclərin nisbəti və s. ilə müəyyən olunur.

- Tədqiq edilən alətlərin məcmusuna görə:

1) fərdi maliyyə riski – ayrı-ayrı maliyyə alətlərinə xas olan məcmu riski xarakterizə edir;

2) portfel maliyyə riski - bir portfelə daxil olan tək funksiyalı maliyyə alətləri kompleksinə xas olan məcmu riski təsvir edir (məsələn, firmanın kredit portfelinin riski, investisiya portfelinin riski və s.).

- Tədqiqatın mürəkkəbliyinə görə:

1) sadə maliyyə riski - növləri olmayan risklərdir. Belə bir riskin nümunəsi kimi inflyasiya riskini göstərmək olar;

2) mürəkkəb maliyyə riski - müxtəlif növləri olan maliyyə riskidir. Mürəkkəb maliyyə riskinin nümunəsi kimi investisiya riskini (məsələn, investisiya layihəsi riskini) göstərmək olar.

Məlum olduğu kimi öz dövriyyə kapitalı (şəxsi kapital ilə dövriyyə vəsaitləri arasında fərq) çox vaxt istehsalın genişləndirilməsi və modernləşdirilməsi üçün əsas investisiya mənbəyidir. Buna görə böyük həcmdə öz dövriyyə kapitalına sahib olmaq biznesin inkişafı üçün vacib şərtlərdən biridir. Manevr əmsalı firmanın dövriyyə kapitalının mövcudluğu baxımından nə qədər müstəqil olduğunu göstərir. Şəxsi kapitalın sabit aktivləri təmin edə bilməməsi bəzi hallarda firmanın qeyri-səmərəli idarə olunması və mənfəətin qeyri-səmərəli istifadəsi ilə əlaqədar ola bilər. Və ya əksinə, firma uzunmüddətli aktivlərə həddən artıq investisiya yatıra bilər ki, bu da gələcəkdə hesablaşmalar, xammalın alınmasına və s. üçün pul çatışmazlığına gətirib çıxara bilər. Nəticədə, firma kredit və borc cəlb etməyə, borc üzrə ödəmələri taxirə salmağa çalışacaq, bu da firmanın ödəmə qabiliyyətliliyinə mənfi təsir göstərəcək.

Tikinti fəaliyyərində geniş mənada yalnız tikinti işçiləri deyil, həm də müştərilər, layihələndirmə üzrə şirkətlər və investorlar iştirak edirlər. Dar mənada tikinti fəaliyyəti yalnız müxtəlif obyektlərin inşası və bununla əlaqədar müxtəlif tikinti işləri kimi az zamanlı xarakterizə oluna bilər. Tikinti sahəsində investisiya layihələri uzun müddətli olaraq qeyri-müəyyənliklə müşayiət olunur və kifayət qədər böyük maliyyə resursları tələb edir. Buna görə də, tikinti fəaliyyətinin həyata keçirilməsi müxtəlif risk növləri ilə əlaqədardır. Tikinti fəaliyyərinin həyata keçirilməsində investisiya layihələrinin səmərəliliyinə təsir edən risklərdən maliyyə risklərini göstərmək olar. Tikinti fəaliyyətində maliyyə riskləri qeyri-müəyyənlik şəraitində layihənin maliyyə axınlarının hərəkəti ilə əlaqədar olan və layihənin dəyərinin yüksəlməsinə və ya layihənin mənfəətinin azalmasına səbəb ola biləcək hadisələrdir.

Kredit riski - qarşı tərəfin tikinti layihəsi üzrə kredit və ya ödəniş müqaviləsinin şərtlərinə uyğun olaraq öhdəliklərini yerinə yetirməməsi nəticəsində tikinti layihəsi üzrə xərclərin artması, eləcə də investorların maliyyə vəziyyətinin pisləşməsi ehtimalıdır. Bu risk həm tikinti obyekti üzrə kredit və ya ödəniş müqaviləsi ilə bağlı firmaları hərəkətləri, həm də investorun kredit riskinin idarəetməsi üzrə qərarlarına görə yarana bilər. Kredit riskinin həyata keçirilməsinin əsas səbəbləri aşağıdakılar ola bilər:

- yerinə yetirilmiş işlərin investorun (müştəri) tərəfindən vaxtında ödənilməməsi
- yerinə yetirilmiş işlərin investor (müştəri) tərəfinfən tam ödənilməməsi;
- kredit müqaviləsinin şərtlərinin borc verən tərəfindən pozulması və ya dəyişdirilməsi;
- investorların maliyyə vəziyyətinin pisləşməsi;
- podratçı tərəfindən sifarişçiyə ödəniş üçün təqdim edilən sənədlərin tam olmaması;
- yerinə yetirilən işə görə ödəmələrin gecikdirilməsi baş verdikdə itkilərin ödənilməməsi və cəlb olunan borc vəsaitləri üzrə faizlərin ödənilməsi.

Kredit riskinin azaldılması üçün əsas tədbirlər aşağıdakılardır:

- investisiya-tikinti layihəsinin maliyyə planının işlənib hazırlanması;
- keyfiyyətli kredit təminatının təqdim edilməsi;
- maliyyə ehtiyatlarının formalaşması;
- investor ilə podratçı arasındakı yerinə yetirilmiş işlərə görə ödənişin forması, müddəti və qrafiki barədə ödəniş müqaviləsində ödəmə şərtlərinin sərtləşməsi;
- kredit şərtlərinin sərtləşməsi;
- investorlar (müştərilər) ilə imzalanmış müqavilə şərtlərinin və ya tələblərinin pozulması halları baş vermişdirsə kompensasiya dərəcəsinin artırılması.

Maliyyə risklərinin nəticəsi investisiya-tikinti layihəsinin təsdiq edilmiş büdcə çərçivəsində həyata keçirilməsinin mümkünsüzlüyü və ya hətta layihənin dayandırılmasıdır. İnvestisiya-tikinti fəaliyyətini müşayiət edən maliyyə riskləri hər hansı layihənin fəaliyyətində obyektiv, davamlı təsir edən və idarəetmə qərarlarının qəbul edilməsi prosesində idarə edənlər tərəfindən dəqiq nəzərə alınmasını tələb edən amillərdir [Теплякова 2016, 675].

Yuxarıdakı təhlil göstərir ki, investisiya-tikinti layihələrinin həyata keçirilməsi zamanı müxtəlif maliyyə riskləri mövcuddur və bu maliyyə riskləri layihələrin səmərəliliyinə təsir göstərir. Bununla əlaqədar layihənin planlaşdırılmış iqtisadi nəticələrinə nail olmaq üçün investisiya-tikinti layihəsinin obyektini bilməklə yanaşı, həmçinin maliyyə risklərinin idarə edilməsi zəruridir. Layihənin həyata keçirilməsi prosesində maliyyə risklərinin idarə edilməsi layihənin müvəffəqiyyətli həyata keçirilməsi ehtimalının tənzimlənməsinə, yəni obyektin tikintisini təsdiq edilmiş büdcə çərçivəsində başa çatdırılmasına yönəlmiş maliyyənin idarəedilməsi üzrə davamlı məqsədyönümlü fəaliyyətlərinin məcmusu kimi başa düşülür. Maliyyə risklərinin idarə edilməsi proseslərinin məqsədi əlverişli maliyyə hadisələrinin baş vermə ehtimalını artırmaq və mənfi maliyyə hadisələrinin baş vermə ehtimalını və onların mənfi təsirlərini azaldmaqdır.

Maliyyə risklərini neytrallaşdırmaq və ya minimuma endirmək üçün risklərin diversifikasiyası önəmlidir. Risklərin diversifikasiyasının mahiyyəti yumurtaların hamısını eyni səbətə qoymamasıdır və bu metod risklərdən sığortalanmaq məqsədilə firmalar tərəfindən geniş istifadə olunan metodlardan biridir. Risklərin diversifikasiyasını aşağıdakı bir numunə ilə izah etmək olar. Tutaq ki, firmanın 1 mlyn. manat həcmində sərbəst vəsaiti var və bu sərbəst vəsaiti investisiya kimi yatırmaq fikri var. Fərz edək ki, firma pulun hamısını "A" investisiya layihəsinə yönəltdi. Lakin investisiya layihəsi uğursuz oldu və firma itkilərlə üzləşdi. Beləliklə firma müflis ola bilər. Bunun əvəzinə firma, investisiya risklərini diversifikasiya edib, yəni bölüşdürüb məsələn 500 min manatı "A" investisiya layihəsinə, 300 min manatı "B" investisiya layihəsinə, 200 min manatı isə "C" investisiya layihəsinə qoysaydı, bu zaman firma "A" investisiya layihəsininin zərərini digər investisiya layihələrinin

mənfəəti hesabına zərərini əvəz etmiş olacaqdıq və daha az itki ilə üzləşəcəkdir.

Risklərin diversifikasiyasını firma aşağıdakı yollarla təmin edə bilər:

- firmanın biznes fəaliyyətinin diversifikasiyası;
- investorların diversifikasiyası;
- investisiya layihələrinin diversifikasiyası;
- material və xammal təchizatçılarının diversifikasiyası;
- məhsul alıcılarının diversifikasiyası;
- valyuta səbətinin diversifikasiyası.

Risklər konstruktiv (yəni yaradıcı) və dağıdıcı ola bilər. Riskin konstruktiv rolu ondan ibarətdir ki, riskə hazır olmaq sahibkarın uğurlu fəaliyyətinin əsas amillərindən biridir və perspektiv yeniliklərə mane olan mühafizəkarlıq, dogmatizm və psixoloji maneələri aşmağa imkan verir. Konstruktiv (yaradıcı) risklər stimullaşdırıcı olub sahibkarlar üçün katalizator rolunu oynayır. Sahibkarın riskə hazır olması, onun qeyri-müəyyən şəraitdə qərar qəbul edib investisiya yatırmağa sövq edir, bu da investisiya fəaliyyəti və ümümiyyətlə firmaların fəaliyyəti və inkişafı üçün böyük əhəmiyyət kəsb edir.

**Ədəbiyyat**

1. Теплякова Е. В. Финансовые риски: сущность, классификация и методы их оценки // Молодой ученый. — 2016. — №8. — С. 673-676. — URL https://moluch.ru/archive/112/28377/ (дата обращения: 10.11.2018)

2. Финансовый менеджмент: теория и практика: Учебник / под ред. Е. С. Стояновой. — 6-е изд. — М.: Изд-во «Перспектива», 2011. — 656 с.

3. Финансовый менеджмент: Учебник для вузов / под ред. акад. Г. Б. Поляка. — 2-е изд., перераб. и доп. — М.: ЮНИТИ-ДАНА, 2012.- 527 с.

**Kəmalə Yusifova**

*Azərbaycan Kooperasiya Universiteti, dissertant*

*yusifovakemale38@gmail.com*

## QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFI ARQUMENTLƏRİ VƏ AQROTURİZM POTENSİALI

***Açar sözlər:*** aqroturizm, turizmin inkişafı, infrastruktur, xidmət, turizm sahəsi

***Key words:*** agritourism, development of tourism, infrastructure, service, tourism area

***Ключевые слова:*** агротуризм, развитие туризма, инфраструктура, услуга, туристическая зона

Müasir iqtisadi reallığın əsas məqamlarından biri xidmətə istiqamətlənmiş iqtisadiyyatın üstün inkişafıdır. Əmtəələrin dominantlığı modelindən xidmətlərin dominantlığı modelinə keçən müəssisələrin xüsusi çəkisinin artmasını şərtləndirən amillər sırasında innovasiyaya açıqlıq özünəməxsus rol oynayır. Xidmətin müxtəlif növlərinin, o cümlədən turizm fəaliyyətinin təşkilində müşahidə olunan fəallığın, ilkin yanaşmada həlledici dərəcədə innovasiyaya həssaslıq və investisiya axınlarının çevikliyi ilə əlaqədar olduğunu söyləmək olar [Gössling S., Peeters P., 2005, s.417-434].

Digər amillərin əhəmiyyətini azaltmadan, qeyd edək ki, sürətli inkişaf imkanlarına malik xidmət sahəsi kimi aqroturizmin qeyri-neft iqtisadiyyatının digər sahələrinə müsbət təsirini şərtləndirən amillər sırasında investisiya axınlarının vektorlarına çevik təsir imkanları, tələbin stimullaşdırılmasının az xərclə başa gəlməsi və əlbəttə kreativ yanaşmalar üçün

potensial poliqonun mövcudluğu xüsusi olaraq qeyd edilməlidir. Burada bir məqamı da qeyd etməyi lazım bilirik. Turizmin inkişafına vəsait ayrılmalarının yuxarı həddindən danışarkən, bəzi mənbələrdə milli iqtisadiyyatın xidmət iqtisadiyyatına çevrilmə təhlükəsi nəzərə alınmalıdır. İstehsal ölkəsi olan Azərbaycan üçün xatırlanan məqamın aktuallığı ayrıca bir tədqiqat mövzusu ola bilər.

Sosial inkişaf baxımından aqroturizmə diqqətin artırılması, hazırda obyektiv zərurətə çevrilmişdir. Məsələ ondadır ki, turizmin məhz bu növü kənd ərazilərində xidmət sahələrinin inkişafina, nəzərəçarpacaq və hətta əhəmiyyətli təkan verə bilir. Aqroturizmin inkişafı istiqamətlərini müəyyən edən edən mühüm amillərdən biri sahəyə dövlət dəstəyinin vektoru və xarakteridir. Aqroturizmin inkişafında dövlət siyasətinin prioritetləri kimi aşağıdakılara xüsusi diqqət verilir:

"- elmi-texniki dəstək;
- kadr potensialının inkişafı;
- aqroturizm kompleksinin təşkili və idarə edilməsi;
- kənd infrastrukturunun inkişafı;
- normativ-hüquqi fəaliyyət;
- aqrar sahə məhsullarının bazara yeridilişi" [Məmmədov E.Q. 2013. s.172].

Turizm sahələrinin, o cümlədən aqroturizmin potensialının reallaşdırılması, hətta ilkin yanaşmada belə qeyri-neft sektorunun inkişafına ciddi təkan verə bilər.

Azərbaycan öz torpaqlarını azad etdikdən sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizmin inkişafına xüsusi diqqət yetirməkdədir. Milli iqtisadiyyatın, xüsusilə onun qeyri-neft sektorunun inkişafında aqroturizmin inkişafı və səmərəli təşkili istiqamətləri barədə aşağıdakıları xülasə etmək olar.

Hər şeydən əvvəl, onu qeyd edək ki, aqroturizm potensialının qiymətləndirilməsi, tələbi şərtləndirən əsas amillərin xarakteristikası, turist xidmətlərinin qiymətlərinin əmələ gəlməsi proseslərinin müştəri məmnuniyyəti baxımından çevikliyinin təmin edilməsi sahənin qeyri-neft sektorunda rolunu artıra bilər.

Mühüm tarixi-mədəni əhəmiyyət kəsb edən obyektlərin, milli sərvət hesab edilən qədim yaşayış məskənlərinin, tarixi şəxsiyyətlərə məxsus məqbərələrin, onların həyat və yaradıcılığını əks etdirən ev muzeylərinin təbliği üzrə turist marşrutlarının müəyyən edilməsi olduqca mühüm əhəmiyyətli fəaliyyət istiqamətidir. Məsələ ondadır ki, Azərbaycan öz ərazilərini azad etməklə yanaşı, öz mədəni və tarixi abidələrini də erməni təcavüzündən qorumalı, iki əsrə yaxın bir dövr ərzində düşmənin yalan üzərində qurulmuş informasiya müharibəsinin fəsadlarını aradan qaldırmalıdır. Ermənilərin üç onillik ərzində törətdiyi ekoloji terrorun nəticələrinin aradan qaldırılması uzun müddət tələb edəcəkdir. Bu işdə kənd turizminin rolu artırılmalı, təbiət abidələrinin, landşaft elementlərinin, hidroloji obyektlərin istifadəsi əsasında turizm obyektləri yaradılmalıdır.

Postsovet məkanı təcrübəsi göstərir ki, turizm fəaliyyətinin əhatə etdiyi ərazilərin genişlənməsi, kənd turizmi növlərinin üstün inkişafı istiqamətində tədbirlər kənd ərazilərində fəaliyyətin şaxələndirilməsi, yerli kənd təsərrüfatı və ərzaq məhsullarına tələbin artırılması üçün əlverişli şərait yarada bilər. Müvafiq mənbələrdə göstərildiyi kimi, "kənd turizmi, dünya təcrübəsindən göründüyü kimi milli kənd təsərrüfatı məhsullarının daxili və xarici bazarlara yeridilişinin ən səmərəli alətlərindədir" [Əlirzayev Ə.Q. 2010. s.528].

Digər sahələrdə olduğu kimi aqroturizmin də inkişafında insan amili və işgüzar fəallığın təşviqi mühüm rola malikdir. Bu və digər səbəblərdən işğaldan azad edilmiş ərazilərdə aqroturizmin inkişafı üçün yerli əhalinin fəallaşdırılması tədbirlərinin intensivləşdirilməsi, onlar arasında informasiya-məsləhət xidmətinin təkmilləşdirilməsi məsələləri gündəlikdə olmalıdır. Bu baxımdan, tədqiqatçıların məlumatlandırma sistemlərinin təkmilləşdirilməsinin mühüm iqtisadi və təşkilati əhəmiyyətə malik olduğu barədə nəticələri diqqəti cəlb edir.

Kənd ərazilərində insanların yaşayış tərzi, adət-ənənələri, o cümlədən, mərasimləri ilə tanışlığın təşkili aqroturizmin təşkili elementi kimi özlüyündə az əhəmiyyətli deyildir. Azərbaycanın erməni işğalından azad edilmiş ərazilərinə qayıdan yerli əhalinin öz adət və ənənələrini bərpa etməsi prosesi ilə tanışlıq bu baxımdan, xüsusi maraq turizmi istiqaməti kimi kənd turizminin müxtəlif növlərinin inkişafında kreativ yanaşmalara rəvac verə bilər.

Qeyri-neft sektorunun aparıcı sahələrindən biri kimi aqrar sahənin inkişafında turistlərin kənd təsərrüfatı işlərində iştirakı mühüm əhəmiyyət kəsb edir. Bu işin təşkili yerli kənd təsərrüfat sistemi ilə tanışlıqla, kəndin ənənəvi məhsulların hazırlanan yeməklərlə qidalanmaqla, mədəni tədbirlərdə iştirakla və s. müşaiyət olunur.

Konkret halda mədəni tədbirlərin, festivalların, sərgilərin, aqroturizmin daha geniş arealda inkişafı məqsədi ilə biznes tərəfdaşlarının tapılması üçün mühüm vasitə və platforma olmaq perspektivi realdır.

Ümumiyyətlə, Azərbaycan üçün aqroturizmin inkişaf vektorunun müəyyən edilməsi məsələsi, hazırda gündəlikdə olmalıdır. Belə ki, "dünyanın bir çox ölkələri, özləri üçün aqroturizmin bu və ya digər inkişaf vektorunu müəyyən ediblər". Haqqında danışılan vektorların kifayət qədər fərqli olması aqroturizm fəaliyyətinin çoxşaxəli, inkişafa yönümlü olması əlaməti kimi qəbul edilə bilər.

Kənd ərazilərinin dayanıqlı inkişafında üzvi aqrar istehsalın və aqroturizm fəaliyyətinin optimal vəhdətinin əldə edilməsi ciddi müsbət nəticələr vəd edir. Turizmin dayanıqlı iqtisadi inkişafda rolunu araşdıran tədqiqatçılar, bu rolun kifayət qədər yüksək olduğunu göstərirlər. Dayanıqlı inkişafda saf təbiətə uyğunlaşma baxımından kənd ərazilərində turizmin müxtəlif növlərinin, habelə aqroturizmin inkişaf etdirilməsi halında daha geniş imkanlar yaranır.

Qeyri-neft sektorunun inkişafında aqroturizmin potensialından səmərəli istifadənin təşkili məqsədilə həyata keçirilməli tədbirləri xarakterizə edərkən, ilk növbədə münasib və rahat turist mühitinin təmin edilməsi, xidmətin keyfiyyəti və qiyməti arasında tələbin artırılması meyarları baxımından optimal nisbətin yaradılması əsas istiqamətlərdən hesab edilməlidir.

Aqroturizmin inkişafı kənd ərazilərində yoxsulluqla mübarizə amili kimi əhəmiyyətli rola malikdir. Göstərilən mənbələrdə qeyd olunduğu kimi, aqroturizm xidmətləri göstərənlərin bu fəaliyyət hesabına layiqli gəlir əldə etməsi üçün, onlar ən azı başlanğıcda mərkəzi və yerli idarəetmə orqanlarının məqsədli himayə tədbirləri ilə əhatə olunmalıdırlar.

Turizm fəaliyyətinin inkişafı və kənd ərazilərində məşğulluq səviyyəsi [Трухачев A.B. 2016, c.34-43] arasında qarşılıqlı əlaqənin tədqiqi, bu əlaqənin nəinki mövcudluğu, habelə məşğulluğun strukturuna ciddi müsbət təsir etmək iqtidarında olduğu barədə fikir söyləməyə imkan verir. Haqqında danışılan göstəricilər arasında əlaqələrin ikitərəfli xarakteri, əhəmiyyətli dərəcədə aşağıdakı amillərlə şərtlənir. İlk növbədə, artıq qeyd edildiyi kimi kənd turizminin inkişafı əlavə iş yerləri və ya əlavə məşğulluq yarada bilir. Məşğulluq səviyyəsinin aqroturizmə təsirinə gəldikdə isə, bu kadrlara münasibətdə daha tələbkar olmağa, yəni onlara hazırlıq səviyyəsinə görə münasibət bildirməyə imkan verir. Sirr deyildir ki, aqroturizm obyektləri olan təsərrüfatlarda mehmanxana, səyahət, qonaqpərvərliyin digər istiqamətləri üzrə az-çox dərəcədə hazırlığı olan kadrları tapmaq çətin və ya qeyri-mümkündür. Məşğulluğun səviyyəsinin yüksəldilməsi üzrə həyata keçirilən tədbirlər, əksər hallarda ixtisasartırma və ya ixtisas dəyişmə təlimləri ilə müşayiət olunduğundan, aqroturim sahəsində də kadrların ilkin hazırlığına rəvac verilməsi, heç də nadir hal deyildir.

Aqroturizmin inkişafı müvafiq infrastruktur elementlərinin sistem əmələ gətirməsi prosesini sürətləndirir. Bu isə əslində həmin prosesin iştirakçılarının məhsul və xidmətlərinə tələbi artırmaqla yanaşı, innovasiya infrastrukturunun təşəkkülünü təşviq etmiş olur. Məsələ ondadır ki, aqroturizm təkcə ekzotik cəhətləri ilə deyil, həm də müasir texnoloji tələblərə

uyğunluğu ilə cəlbedici olmalıdır. Sonuncu tələblər sırasında isə, istirahət məkanından asılı olmayaraq, turist üçün rəqəmsal inkişaf tempinin aşağı düşməməsi hesab edilə bilər.

Valyuta ehtiyatlarının özünəməxsus mənbəyi olan turizm sahəsində mövcud potensialdan səmərəli istifadə nəinki mikro, həm də makro səviyyədə aktual vəzifə kimi qarşıda durur. Qlobal və lokal iqtisadi səviyyələrdə qarşılıqlı əlaqələrin inkişafında turizmin yeri və rolunun tədqiqatçıları kompleks yanaşmanın zəruriliyini qeyd edirlər. İqtisadi artımın təmin edilməsində turizm potensialının reallaşdırılmasının böyük perspektivlərinin olduğu bir çox mənbələrdə [Milne S., Ateljevic I. 2001;3:369-393] qeyd edilir. İqtisadi artım amili kimi aqroturizmin təsir dairəsində müşahidə edilən dəyişikliklər xarakterizə olunur. Əlbəttə, Azərbaycanda da qeyri-neft sektorunun inkişafında turizm, o cümlədən aqroturizm potensialından səmərəli istifadənin prioritetləri müəyyən edilərkən, valyuta mənbəyi olmaq əlaməti diqqətdən kənarda qalmamalıdır.

Qeyri-neft sektorunun üstün inkişafının təşviqi sisteminin hazırlanması, o cümlədən sektorun inkişaf imkanlarının, biznes və investisiya mühitinin qiymətləndirilməsi, üstün inkişaf prioritetlərinin əsaslandırılması nəticəsində müvafiq konsepsiyalar, strategiya və proqramlar işlənib hazırlanmışdır. O cümlədən, Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir [Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi. Bakı, 2016].

Turizm, o cümlədən aqroturizm fəaliyyəti, artıq qeyd edildiyi kimi, əksər ölkələrin və onun ayrı-ayrı bölgələrinin iqtisadi inkişafına birbaşa və dolayı təsir göstərir. Araşdırmalar göstərir ki, həmin təsir özünü daha çox qeyri-neft sektorunun nəqliyyat, ticarət, ictimai iaşə, əyləncə sənayesi, sığorta, bank və maliyyə xidmətləri, rabitə və s. kimi sahələrində büruzə verir. Böyük ehtimalla söyləmək olar ki, aqroturizmin inkişafı üçün əlverişli biznes və investisiya mühiti sadalanan və bir sıra digər sahələrin birgə inkişafında, xüsusilə insan kapitalına münasibətdə multiplikasiya effekti yarada bilər.

Aqroturizmin qeyri-neft sektorunun müxtəlif sahələrində iqtisadi fəallığa təsiri istiqamətlərinə aşağıdakılar aid edilməlidir:

- digər fəaliyyət sahələrinin nəticələrinə, başqa sözlə, məhsul və xidmətlərə tələbin təşviqi;
- kənd ərazilərində maliyyə resurslarına çıxışın asanlaşdırılmasına dair məlumatlandırma sisteminə münasibətin yaxşılaşması;
- özəl investorların potensial aqroturizm obyektləri kimi aqrar istehsal subyektlərinə marağın və investisiya qoyuluşlarının artması;
- indiyə qədər yalnız kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan subyektlərin, çoxfunksiyalı status əldə etmək məqsədilə innovasiyalara həssaslıq səviyyəsinin yüksəlməsi.

Qeyri-neft sektorunun inkişafında aqroturizm potensialından səmərəli istifadənin təşkili üçün aşağıdakı məsələlər həll edilməlidir:

- aqroturizmin və ərazinin rekreasiya potensialının birgə inkişafı üçün müvafiq normativ-hüquqi bazanın təkmilləşdirilməsi;
- sahənin maliyyəyə çıxışının dəstəklənməsi tədbirlərinin sürətləndirilməsi;
- aqroturizm bazarı iştirakçılarının könüllü şəkildə təşkilatlanmsı üçün əlverişli şəraitin yaradılması;
- kadr hazırlığı prosesinin institusional dəstəklənməsi;
- müvafiq məlumatlandırma sisteminin nəticəyönümlüyünün təmin edilməsi.

**İstifadə edilmiş ədəbiyyat**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi. Bakı, 2016.

Ekanayake E., Long A.E. Tourism development and economic growth in developing countries. Int. J. Bus. Financ. Res. 2012; 6:61-63.
Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarə olunması. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2010. s.528
Gössling S., Peeters P., Ceron J.P., Dubois G., Patterson T., Richardson R.B. The eco-efficiency of tourism. Ecol. Econ. 2005;54: 417-434
Məmmədov E.Q. Azərbaycanda turizm bazarının formalaşması və idarə olunmasının regional xüsusiyyətləri (Monoqrafiya). Bakı: "Gənclik" Nəşriyyatı 2013. s.172
Onder K., Durgun A. Effects of Tourism Sector on the Employment in Turkey: An Econometric Application. Epoka Univ. Press. 2008:365-373
Трухачев А.В. Концепции и модели развития сельского туризма за рубежом // Сервис в России и рубль. Т.10. № 7 (68), 2016, с.34-43

**Musa Hacıyev**
*Milli Aviasiya Akademiyası, dissertant*
*İnfo00994@gmail.com*

## HAVA NƏQLİYYATININ HÜQUQİ-NORMATİV BAZASININ TƏKMİLLƏŞDİRİLMƏSİ

***Açar sözlər:*** nəqliyyat, daşımalar, normativ-hüquqi baza, konvensiya, unifikasiya, müqavilə, beynəlxalq əlaqələr

## СОВЕРШЕНСТВОВАНИЕ НОРМАТИВНО-ПРАВОВОЙ БАЗЫ ВОЗДУШНОГО ТРАНСПОРТА

**Резюме**

В статье рассматривается роль транспортной отрасли в международных экономических отношениях. Все международно-правовые документы в развитии государств последнего периода констатируют целесообразность содействия гармонизации административно-технических правил, касающихся безопасности на всех видах транспорта, с учетом национальной специфики в этой области. Транспортные конвенции разрабатываются в рамках деятельности некоторых международных организаций, в первую очередь Организации Объединенных Наций, соответствующих специализированных учреждений этой системы, международных транспортных организаций - ИКАО, ИМО и ряда других. Было проведено комплексное изучение договорной политики Азербайджанской Республики в сфере транспорта, а также анализ законов и иных правовых актов, принятых в рамках национальной реализации этих соглашений.

**Ключевые слова**: транспорт, перевозка, нормативно-правовая база, конвенция, унификация, соглашение, международные отношения.

## IMPROVING THE REGULATORY FRAMEWORK FOR AIR TRANSPORT

**Summary**

The article discusses the role of the transport industry in international economic relations. All international legal documents of the last period of development of states state the expediency of promoting the harmonization of administrative and technical rules relating to safety in all modes of transport, taking into account national specifics in this area.

Transport conventions are developed within the framework of the activities of some international organizations, primarily the United Nations, the relevant specialized agencies of this system, international transport organizations - ICAO, IMO and a number of others. A comprehensive study of the contractual policy of the Republic of Azerbaijan in the field of transport was carried out, as well as an analysis of laws and other legal acts adopted within the framework of the national implementation of these agreements.

**Key words:** transport, transportation, legal framework, convention, unification, agreement, international relations.

**Giriş**

Dövlətlərin dünya iqtisadi əlaqələrinin inkişafı obyektiv iqtisadi və demokratik sabitliyi xarakterizə edir ki, bu da dövlətlər arasında beynəlxalq normalara əsaslanaraq, o cümlədən nəqliyyat sahəsində onların iqtisadi cəhətdən yaxınlaşmasına sövq edir. Nəqliyyatın inkişafı problemləri dövrümüzün qlobal problemlərindən biri kimi həlli xüsusilə yeni suveren dövlətlər, o cümlədən Azərbaycan Respublikası üçün həyati əhəmiyyət kəsb edir.

Nəqliyyatın inkişafı problemləri daha çox BMT Nizamnaməsi, Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Konfransın yekun aktı kimi beynəlxalq hüquqi aktların müddəalarının həyata keçirilməsindən asılıdır ki, bu da digər məsələlərlə yanaşı, daşıma şəraitinin yaxşılaşdırılmasının vacibliyini vurğulayır, dövlətlər arasında əməkdaşlığın inkişafında mühüm amillərdən biridir. Onu da qeyd etmək lazımdır ki, dövlətlərarası, habelə onların fiziki və hüquqi şəxsləri arasında müxtəlif nəqliyyat növləri üzrə münasibətlərin hüquqi tənzimlənməsi əhəmiyyətli fərqlərə malikdir. Buna görə də müasir və dövlətlərin son inkişaf dövrünün bütün beynəlxalq hüquqi sənədlərində bu sahədə milli xüsusiyyətlər nəzərə alınmaqla, məsələn, bütün nəqliyyat növlərində təhlükəsizliklə bağlı inzibati və texniki qaydaların uyğunlaşdırılmasına töhfə verilməsinin məqsədəuyğunluğu qeyd edilmişdir.

## 1. Beynəlxalq nəqliyyat hüququnu səciyyələndirən cəhətlər

Müasir beynəlxalq nəqliyyat hüququnu səciyyələndirən cəhətlərdən biri həm də onun həm beynəlxalq ictimai, həm də beynəlxalq özəl hüququn ümumi prinsip və normalarından, strukturundan istifadə etməsi, bu mənada özəl hüquqdan daha çox ictimai hüquqa böyük üstünlük verməsidir. Lakin beynəlxalq hüququn mürəkkəb tərkib hissəsi kimi beynəlxalq nəqliyyat hüququ həm ictimai hüquq, həm də xüsusi hüquq xarakterli münasibətlərdən ibarətdir.

Maraqlıdır ki, "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının Qanununa (Maddə 26)(Qanun,1999) əsasən, nəqliyyat sahəsində beynəlxalq əməkdaşlıq dövlətlərarası, hökumətlərarası, idarələrarası müqavilələr, habelə nəqliyyat müəssisələri və daşıyıcılar tərəfindən qanunvericiliyə uyğun olaraq, xarici hüquqi və fiziki şəxslərlə birbaşa olaraq bağlanmış müqavilələr əsasında həyata keçirilir.

Digər tərəfdən, yüklərin dəniz və ya hava yolu ilə daşınmasının bir tərəfdən dəniz və ya hava hüququna aid edilməsi, digər tərəfdən də beynəlxalq nəqliyyat hüququnun mürəkkəb sahə olmasının bariz nümunəsi ola bilər (Qanun,1999). Müasir dövrdə müəyyən nəqliyyat konvensiyaları sistemi mövcuddur və fəaliyyət göstərir ki, bu da aşağıdakıları əhatə edir:

a) beynəlxalq rabitənin ümumi prinsipləri və təşkili haqqında sazişləri,

b) yüklərin və sərnişinlərin daşınması üçün vahid şərtlərin yaradılması haqqında müqavilələri,

c) dövlətlər arasında nəqliyyat əlaqələrinin asanlaşdırılmasına yönəlmiş sazişləri (məsələn, vaqon və konteynerlərin istifadəsi, gömrük prosedurlarının asanlaşdırılması, vergi rejimi haqqında).

Bundan əlavə, bəzi beynəlxalq təşkilatların, ilk növbədə BMT-nin, bu sistemin müvafiq ixtisaslaşmış qurumlarında, beynəlxalq nəqliyyat təşkilatlarında - ICAO, IMO və bir sıra digərlərinin fəaliyyəti çərçivəsində nəqliyyat konvensiyaları hazırlanır. Qeyd edək ki,

ictimai həyatın bütün sahələrində, o cümlədən nəqliyyat sahəsində əsaslı hüquqi islahatlar aparılmadan bazar iqtisadiyyatına keçid mümkün deyil. Bunu nəzərə alaraq, Azərbaycan Respublikasında və digər suveren dövlətlərdə düzgün siyasi demokratiya, liberal iqtisadiyyat, xüsusilə də nəqliyyatın əsasları üzərində inkişafa təkan verəcək qanunvericilik aktlarının qəbulu prioritet əhəmiyyət kəsb edir. Bu isə bütün postsovet dövlətlərinin üzləşdiyi dünya bazarına çıxmaq, dünya iqtisadi əlaqələrinə inteqrasiya kimi əsas iqtisadi vəzifənin uğurlu həlli üçün vacibdir, onların nəqliyyat qanunvericiliyi beynəlxalq əməkdaşlığın müsbət təcrübəsinə əsaslanmalı, bu sahədə mövcud beynəlxalq konvensiyalar və sazişlərin tələblərinə uyğun olmalıdır.

Qeyd olunanlar zəminində 1999-cu il iyunun 11-də qəbul edilmiş Azərbaycan Respublikasının Qanunu yüksək qiymətə layiqdir. Bu qanunların əsas məqsədi dövlətin tənzimlənməsi və idarə edilməsinin optimal səviyyəsinə nail olmaq üçün nəqliyyat sektorunun səmərəli fəaliyyətini artırmaqdır. Qeyd olunan qanunlar, eləcə də digər normativ hüquqi aktlar dövlətimiz üçün TRASEKA kimi strateji əhəmiyyətli qlobal nəqliyyat və ticarət layihələrinin həyata keçirilməsi və tarixi Böyük İpək Yolunun bərpası baxımından böyük əhəmiyyət kəsb edir.

İqtisadçı alimlərin fikrincə, müasir beynəlxalq nəqliyyat kommunikasiyalarının və beynəlxalq daşımaların sosial, iqtisadi, hüquqi və digər aspektlərdə özünü göstərən mürəkkəb və çoxşaxəli problemlərinin həlli müxtəlif məsələləri tənzimləyən normativ hüquqi aktlar və dövlətimizin beynəlxalq nəqliyyat qanunvericiliyi və onun fəaliyyəti çərçivəsində mümkündür. Yuxarıda deyilənlərə əsasən, Azərbaycan Respublikasının nəqliyyat sahəsində müqavilə siyasətinin hərtərəfli tədqiqi, habelə bu müqavilələrin milli icrası çərçivəsində qəbul edilmiş qanunların və digər hüquqi aktların təhlili çox aktualdır.

1999-cu ildə qəbul edilmiş "Nəqliyyat haqqında" MR Qanunu əsasında və tərəfdaş ölkələrin beynəlxalq daşımalara, nəqliyyat dəhlizlərinə dair qüvvədə olan qanunvericilikləri nəzərə alınmaqla, milli nəqliyyat qanunvericiliyinin tələblərinə uyğun olaraq artıq Azərbaycan Respublikasında bu istiqamətdə müəyyən işlər aparılır. Keçid dövründə yeni suveren dövlətlər, o cümlədən AR üçün mülki aviasiyanın inkişaf etdirilməsi məsələləri təkcə onların öz milli maraqları baxımından deyil, həm də bu ölkələrlə etibarlı və səmərəli beynəlxalq nəqliyyat əlaqələrinin yaradılması prosesində vacib rol oynayaraq, beynəlxalq və regionlararası ticarəti, turizmi və qarşılıqlı faydalı iqtisadi əməkdaşlığı təşviq edir.

Dövlət öz hava məkanı üzərində suverenlik prinsipinə əsasən, ümumiyyətlə, uçuş marşrutları və ya marşrutları, zərurət olduqda isə uçuşa qadağan zonaları müəyyən edir, radio rabitəsi və təhlükəsizlik qaydalarını müəyyən edir. Universal prosedur belədir ki, xarici hava gəmisi hava limanına gəldikdən sonra hər bir dövlətin səlahiyyətli orqanları onu və sənədləri (qeydiyyat şəhadətnaməsi, uçuşa yararlılıq sertifikatı, ekipaj üzvlərinin ixtisas sertifikatları, sərnişinlərin siyahıları) yoxlamaq hüququna malikdir. Belə ki, Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, Azərbaycana gələn və ya ölkədən gedən xarici hava gəmiləri, onların heyətləri və sərnişinləri müəyyən qaydalara (pasport, gömrük, sanitariya, əmlakın idxalı və ixracı və s.) tabedirlər. O cümlədən, "Nəqliyyat haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin 3-cü bəndində müəyyən edilir ki, "daşıma və boşaltma şəraiti, nəqliyyat vasitələrindən istifadə qaydaları, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi, əməyin mühafizəsi, yanğın təhlükəsizliyi, texniki, texnoloji, ekoloji və sanitariya tələblərinə riayət edilməsi ,nəqliyyat münasibətlərinin bütün iştirakçıları üçün məcburi olan müvafiq nəqliyyat növlərinin fəaliyyətini tənzimləyən normativ hüquqi aktlarla, habelə tərəflərin razılığı (bağlanmış müqavilələr) ilə müəyyən edilir.

**2.Azərbaycanın dəstəklədiyi beynəlxalq müqavilələr**

Müəyyən edilir ki, AR-in dəstəklədiyi beynəlxalq müqavilələrdə bu qanunun Qaydalarından fərqli qaydalar müəyyən edilirsə, bu müqavilələrin qaydaları tətbiq edilir (4-cü

bənd) (Qanun,1999).Müasir beynəlxalq iqtisadi münasibətlərin fəallaşması və dünya iqtisadi münasibətlərinə inteqrasiyası, dövlətlərin qarşılıqlı faydalı və bərabərhüquqlu əməkdaşlığı, yeni beynəlxalq iqtisadi nizamın formalaşması, müasir beynəlxalq iqtisadi münasibətlərin fəallaşması və tərəqqisinin sürətləndirilməsi maraqlarını rəhbər tutaraq, öz sosial-iqtisadi inkişaf tempini sürətləndirmək və irəliləyişə nail olmaq, ümumbəşəri dəyərlərə və demokratiyaya uyğun olaraq Azərbaycan Respublikası hava nəqliyyatı və təyyarə uçuşlarına dair bir sıra beynəlxalq konvensiyalara qoşulmuşdur:
Xarici hava gəmilərinin yerüstü üçüncü şəxslərə vurduğu zərərin ödənilməsi haqqında" (Roma, 1952; Konvensiyaya düzəlişlər edən Protokol, Monreal, 1978); Mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönəlmiş qanunsuz hərəkətlərə qarşı mübarizə haqqında "(Monreal, 1971; Protokol 1980);" Hava gəmilərinə hüquqların beynəlxalq tanınması haqqında "(Cenevrə, 1948);" Təyyarələrin qanunsuz ələ keçirilməsinə qarşı mübarizə haqqında "( Haaqa, 1970), "Beynəlxalq Hava Nəqliyyatında Tranzit Haqqında" (Çikaqo, 1944), "Beynəlxalq hava nəqliyyatı ilə bağlı müəyyən qaydaların unifikasiyasına görə" (Varşava, 1929; Düzəliş Protokolu, (Haaqa, 1955). Varşava Konvensiyasına əlavə (Qvadalaxara, 1961, Əlavə Protokollar № 1,2,3,4, Monreal, 1975); Beynəlxalq Mülki Aviasiya Konvensiyasına düzəlişlərə dair Protokollar (Monreal, 1977, 1980, 1984).( Eyvazov, Balabəyova,2019) Beynəlxalq hava daşımalarına aid bəzi qaydaların unifikasiyası haqqında Konvensiya (1929-cu il Varşava Konvensiyası) Azərbaycan da daxil olmaqla 150-yə yaxın üzvə malikdir. "Varşava sistemi" 1929-cu il Varşava Konvensiyasının özündən, protokollar və bir əlavə konvensiyalardan ibarət mürəkkəb sənədlər sistemidir: Varşava Konvensiyasına düzəlişlər edən 1955-ci il Haaqa Protokolu;müqavilə üzrə daşıyıcıdan başqa şəxs tərəfindən həyata keçirilən daşıma haqqında 1961-ci il Qvadalaxara Konvensiyası; Varşava Konvensiyasına düzəlişlər edilməsi ilə bağlı Monreal Əlavə Protokolu 1975-ci il № 1; 1955-ci il Haaqa Protokolu ilə dəyişdirilmiş Varşava Konvensiyasına düzəlişlərlə bağlı 1975-ci il № 2 Monreal Əlavə Protokolu;yük daşımaları ilə bağlı 1955-ci il Haaqa Protokolu ilə dəyişdirilmiş Varşava Konvensiyasına düzəlişlər edən 1975-ci il 4 saylı Monreal Əlavə Protokolu.

Üstəlik, bu sənədlərdən birində dövlətin iştirakı onun başqalarında iştirakını hər zaman zəruri etmir. Dövlətin, məsələn, Haaqa Protokolunda iştirakı onun Haaqa Protokolu ilə düzəlişlər edilmiş Varşava Konvensiyasında iştirakı deməkdir, lakin onun Varşava Konvensiyasının özündə iştirakına gətirib çıxarmır (Haaqa Protokolunun XXI və XXIII maddəsinin 2-ci bəndi). Buradan belə nəticə çıxır ki, yalnız Varşava Konvensiyasının iştirakçısı olan ölkə ilə Haaqa Protokolunun yalnız iştirakçısı olan ölkə arasında daşıma bu sənədlərin hər ikisinin əhatə dairəsindən çıxır. Obyektiv olaraq, bu cür daşımalar beynəlxalq olaraq qalır, lakin onlara tətbiq edilən daxili, milli qanunvericiliyin müddəaları ilə tənzimlənir.

Varşava Konvensiyasına düzəlişlərin edilməsinin əsas səbəbi aviadaşıyıcının məsuliyyətinin artırılması zərurəti idi ki, bu da aviaşirkətlərin iqtisadi mövqeyinin möhkəmlənməsi, uçuşların təhlükəsizliyinin artması və yaşayış minimumu ilə bağlıdır. Aparıcı Qərb ölkələrinin bu istiqamətdəki səyləri öz milli aviasiya şirkətlərinə münasibətdə proteksionizm siyasəti yürüdən "sosialist düşərgəsi" dövlətləri tərəfindən dəstəklənən inkişaf etməkdə olan ölkələrin müqaviməti ilə nəticələndi. Dəyişikliklərin mahiyyəti ondan ibarət idi ki, 1955-ci il Haaqa Protokolu Varşava Konvensiyası ilə müəyyən edilmiş daşıyıcının həyat və sağlamlığı üçün məsuliyyətini iki dəfə artırdı. Qüvvəyə minməyən 1971-ci il Qvatemala Protokolu onu daha altı dəfə artırdı və sərnişinlərin həyatına və sağlamlığına zərər vurmağa və baqajın nasazlığına görə daşıyıcının obyektiv məsuliyyətini müəyyən etdi, bu da sərnişinlər üçün baqajın və əl yükünün çatdırılmasında təhlükəsizlik və gecikmə halları ilə bağlı vahid məsuliyyət limitini nəzərdə tutur. Qvatemala Protokolu yüklərin daşınmasına aid olmadığından, 1975-ci ildə 4 saylı Monreal Protokolu qəbul edildi və burada daşıyıcının onun təhlükəsizliyinə görə məsuliyyəti də obyektiv oldu. 1961-ci il Qvadalaxara Konvensiyası ilk

növbədə, daşıma müqaviləsi bağlamayan, lakin faktiki olaraq onu həyata keçirən daşıyıcıya fürsət verdi ki, Varşava Sisteminin sənədləri ilə müəyyən edilmiş məsuliyyət şərtlərinə və məhdudiyyətlərinə istinad etsinlər.

Artıq qeyd edildiyi kimi, aviadaşıyıcılar arasında beynəlxalq müqavilələr olmayan, lakin qlobal və regional razılaşmalar əsasında fəaliyyət göstərməklərinə bxmayaraq onların Varşava Konvensiyasının sənədlər sisteminə formal daxil edilməsi tam düzgün görünmür. Buna baxmayaraq, onlar beynəlxalq hava daşımaları üçün şəraitin formalaşmasına həlledici təsir göstərirlər. Nəticədə, onların hüquqi rejimlərinin çoxlu variantları yaradıldı ki, onlar artıq hüquq normalarına və ya beynəlxalq müqaviləyə deyil, daşıma müqaviləsinin şərtlərinə əsaslanırdı ki, bu da öz növbəsində çoxlu mübahisələrə və fikir ayrılıqlarına səbəb oldu. Beləliklə, Varşava Konvensiyası hava nəqliyyatının inkişafının başlanğıcında beynəlxalq hava daşımaları ilə məşğul olan aviaşirkətlərə münasibətdə özünəməxsus, lakin özünü doğrultmuş proteksionizm təsbit etdi. Bu, ilk növbədə, sərnişinin həyatına və sağlamlığına zərər vurmağa görə aviadaşıyıcının məsuliyyətinin aşağı səviyyədə olmasında ifadə olunurdu. Uzun illər Varşava Konvensiyasına, beynəlxalq hava daşımaları müqaviləsi üzrə öhdəliklərin yerinə yetirilməməsinə və ya lazımınca yerinə yetirilməməsinə görə aviadaşıyıcının məsuliyyətinin artırılması istiqamətində yenidən baxılmalı idi. (Eyvazov,  Balabəyova,2019) Bu prosesin məntiqi nəticəsi hazırda Varşava sisteminin sənədləri ilə müəyyən edilmiş köhnə, lakin hələ də qüvvədə olan hüquqi rejimi böyük ölçüdə əvəz edən yeni Monreal Konvensiyasının yaranması oldu.

Monreal Konvensiyasının yaranmasının əsas səbəbi odur ki, ötən əsrin sonunda 80 il əvvəl Varşava Konvensiyasında təsbit olunmuş aviadaşıyıcının məsuliyyəti anlayışı, beynəlxalq hava nəqliyyatının inkişaf səviyyəsinə və etibarlılığına cavab verməyi dayandırdı. Elmi-texniki tərəqqi, beynəlxalq hava nəqliyyatının sürətli inkişafı, onun istismarının təhlükəsizliyinə tələblərin səviyyəsinin artması yükün, baqajın nasazlığına və onların daşınmasında gecikmələrə görə daşıyıcının məsuliyyətinin əhatə dairəsinin genişləndirilməsini və daha dəqiq tənzimlənməsini zəruri etmişdir. Yeni beynəlxalq Konvensiya beynəlxalq hava daşımalarında xəsarət almış şəxslərə dəymiş ziyana görə kompensasiyanın adekvat səviyyəsini təmin edir və sərnişinlərin, baqajın və yüklərin beynəlxalq hava daşımalarının hüquqi tənzimlənməsi sahəsində əsas aktual məsələləri həll edir. Varşava sisteminin sənədlərindən fərqli olaraq, Monreal Konvensiyası rus, ingilis, ərəb, ispan, çin və fransız dillərində bağlanmışdır, bütün mətnlər eyni autentikdir. Beləliklə, hazırda dünyada beynəlxalq hava daşımalarının iki prinsipial fərqli hüquqi rejimi mövcuddur. Dövlətlərin böyük əksəriyyətini təşkil edən Monreal Konvensiyasının iştirakçısı olan ölkələr arasında daşımalar, artıq bu yeni konvensiyanın müddəaları ilə tənzimlənir. Qalan dövlətlərin əksəriyyətinin Monreal Konvensiyasına qoşulması məsələsi əslində əvvəlcədən gözlənilən nəticədir, çünki bu ölkələrin milli daşıyıcılarının qlobal hava nəqliyyatı bazarında tam hüquqlu işləməsi bundan asılıdır. Bununla belə, Varşava Konvensiyası və ona əlavə edilən bütün sənədlər ölkələr arasında daşımalarda qüvvədə qalır.

Bir tərəfdən "Varşava Sistemi" və digər tərəfdən Monreal Konvensiyasının sənədləri ilə müəyyən edilmiş beynəlxalq hava daşımaları üçün iki müxtəlif hüquqi rejimin mövcudluğu onların təsirinin məhdudlaşdırılması məsələsini ortaya qoyur. Bu məsələ Monreal Konvensiyasının 55-ci maddəsi ilə həll olunur ki, (Cheng,2004) bir dövlətin ona qoşulması Varşava sisteminin rejimini məhv etməməli və  bu dövlətlər arasında həyata keçirilən daşımaların beynəlxalq hüquqi tənzimlənməsi ilə bağlı boşluq yaratmamalıdır. Bir dövlətin Monreal Konvensiyasına qoşulması bu dövlətin Varşava Konvensiyasını denonsasiya etməsi tələbinə tabe deyil və belə bir dövlətin onun iştirakçıları arasından avtomatik çıxması demək deyil. Monreal Konvensiyasının 55-ci maddəsi (1-ci bənd) onun iştirakçı dövlətlər arasında daşımalara münasibətdə "Varşava sistemi"nin müddəalarından üstünlüyünü təmin edir. Bu qayda, aşağıda göstərilən şərtlərə uyğun olaraq, Monreal Konvensiyasının iştirakçısı

olan hər hansı bir dövlətin ərazisi daxilində ölkədaxili daşımalara da şamil edilir (55-ci maddənin 2-ci bəndi). (Hanneke,1999) Bununla belə, Varşava Sisteminin qaydaları gediş və ya təyinat məntəqəsi yeni Konvensiyanın iştirakçısı olmayan və Varşava Sisteminin sənədində iştirakını saxlayan dövlətdə olan daşımalara münasibətdə qüvvədə qalır. Buna görə də, köhnəlmiş, lakin hələ də vahid hava nəqliyyatı rejimini qorumaq üçün Monreal Konvensiyasında iştirak edən dövlətlər Varşava sisteminin sənədlərini denonsasiya etməyə tələsmirlər.( Giemulla, Schmid, Muller-Rostin, Dettling-Ott,2010) İştirak edən ölkələrin sayı Varşava Konvensiyasında və ya onu dəyişdirən protokollarda praktiki olaraq dəyişməyib və müvafiq olaraq Monreal Konvensiyasında iştirak edənlərin sayından artıqdır. Sadəcə Monreal Konvensiyasının iştirakçılarının sayının artması ilə Varşava Konvensiyası getdikcə universallığını itirir.

Bu sənədlərə qoşulma və onların qüvvəyə minməsi haqqında qanunlar 1999-cu il noyabrın 9-da imzalanmışdır. "Beynəlxalq Mülki Aviasiya haqqında" Konvensiyaya qoşulmaq haqqında ICAO-nun 19 noyabr 1992-ci il tarixli SG 1332/92 saylı sənədinə əsasən, Azərbaycan Respublikası noyabrın 8-də ICAO-ya üzv dövlət olub.(Hanneke,1999)

Azərbaycan Respublikası Qanununun ("Nəqliyyat haqqında", 1999-cu il) 5-ci maddəsində müəyyən edildiyi kimi, bu sahədə dövlət tənzimlənməsi aşağıdakı tədbirlərlə həyata keçirilir: a) hüquqi təminat siyasəti, b) vergitutma, maliyyələşdirmə, investisiyaların qiymətləndirilməsi c) vahid elmi-texniki siyasət.

**Nəticə**

Nəqliyyat sahəsində dövlət idarəçiliyinin əsas vəzifələri sırasında aşağıdakıları vurğulamaq olar:

- yük daşımalarına və digər nəqliyyat xidmətlərinə dövlət ehtiyaclarının proqnozlaşdırılması, onların təmin edilməsi üçün nəqliyyat kompleksinin fəaliyyətinin təşkili və əlaqələndirilməsi;
- nəqliyyat məsələləri ilə əlaqədar dövlətlərin iqtisadi maraqlarının, nəqliyyat müəssisələrinin və nəqliyyat istifadəçilərinin qanuni mənafelərinin və hüquqlarının müdafiəsi;
- beynəlxalq nəqliyyat xidmətləri bazarında milli nəqliyyat kompleksinin fəaliyyətinin səmərəliliyinin və rəqabət qabiliyyətinin artırılması, xarici investisiyaların cəlb edilməsi;
- nəqliyyat sahəsində xarici ölkələrlə qarşılıqlı faydalı əməkdaşlığın möhkəmləndirilməsi və inkişafı .

Bu sahədə geniş tanınmış beynəlxalq hüquqi sənədlərin norma, prinsip və tələblərinin əks etdirilməsi, Azərbaycan qanunvericiliyi ilə uğurla həll olunan vəzifədir.

Ədəbiyyat


1. Nəqliyyat haqqında Azərbaycan Respublikasının Qanunu.1999
2. Elcin Eyvazov, Nərminə Balabəyova. Beynəlxalq nəqliyyat əməliyyatları (dərs vəsaiti) Bakı, "Elm və təhsil," 2019, 336 səh.
3. Cheng B. A New Era in the Law of International Carriage by Air: From Warsaw (1929) to Montreal (1999)//International and Comparative Law. Quarterly. 2004. Vol. 59. № 4. P. 859.
4. Hanneke L. van Traa-Engelman. Legal Symposium 99-IATA Airline Conference, Madrid, February 1999// Air & Space LAW, Vol. XXIV, Number 3, 1999.
5. Giemulla E., Schmid R., Muller-Rostin W., Dettling-Ott R., Margo R. Montreal Convention. Austin, Boston, Chicago, New York, The Netherlands. Wolters Kluwer. 2010. Art. 2-55.

**İlkin Əliyev**
*Bakı Biznes Universiteti,doktorant*
*Azərbaycan Beynəlxalq Bankı ASC, pərakəndə xidmətlər üzrə mütəxəssis*
*Ilkin_aliyev@mail.ru*
*Tel:+994517799657*

# RƏQƏMSAL İQTİSADİYYATA KEÇİD DÖVRÜNDƏ AUDİTİN İNKİŞAF İSTİQAMƏTLƏRİ VƏ AUDİT 4.0

**Xülasə**

Dördüncü sənaye inqilabının başlanması istehsal sahələri ilə yanaşı bir sıra xidmət sektorlarına da ciddi təsir etmişdir. Aparılan araşdırmada dördüncü sənaye inqilabına keçid dövründə rəqəmsallaşan audit fəaliyyəti haqqında məlumatlar əldə edilmişdir. Ənənəvi audit və rəqəmsal auditin ortaq və fərqli cəhətləri təhlil olunmuş, inkişaf etmiş Avropa ölkələrinin təcübəsindən bir sıra məqamlar qeyd olunmuşdur. Həmçinin aparılan araşdırma son 20 ili əhatə etmişdir. Araşdırmada tarixi ardıcıllıq, müqayisə-təhlil, sistemin və auditin uçot metodundan istifadə edilmişdir.

## Giriş

Texnologiyanın sürətli inkişafı, məlumatların asan və tez əldə edilməsi istəyi dünya iqtisadiyyatının da daha sürətli rəqəmsallaşmasının, aparılan nəzarət işinin avtomatlaşdırılmasının ən üstün cəhətlərindən biri də baş vermiş kənarlaşmaların həmin anda aşkar edilib aradan qaldırılmasına imkan verməsidir [2]. Sözsüz ki, bu rəqəmsallaşma istehsal sahələri ilə yanaşı bir sıra xidmət sahələri də əhatə etmişdir ki, bu sahələrdən biri də məhz audit olmuşdur. Son illərdə dünya iqtisadiyyatının sürətli rəqəmsallaşması və Covid 19 pandemiyasının yayılması da bir sıra sahələr kimi auditə də güclü təsir göstərmişdir. Belə ki, bir sıra müəssisə və təşkilatlar auditin aparılmasını məhz uzaqdan olaraq tam formada elektronlaşdırılmış həyata keçirilməsinə başlamışdır.

Belə ki, yeni sənaye inqilabı özünü iqtisadiyyatın müxtəlif bölmələrində mühasibatlıqda, marketinqdə, menecmentdə və s. göstərir. Rəqəmsal iqtisadiy-yatdan bəhs etdiyimiz zaman ilk öncə senaye inqilablarından, onların tarixi ardıcıllığı ilə formalaşmasından bəhs etməyimiz daha doğru olardı.

Birinci sənaye inqilabı XVIII əsrin son illərində fabriklərdə buxar mühərriklərindən istifadənin tətbiqi ilə, ikinci sənaye inqilabı XX əsrin əvvəllərində elektrik enerjisinin tətbiqi sayəsində kütləvi istehsalı ilə, üçüncü sənaye inqilabı isə informasiya texnologiyalarının və sənaye avtomatlaşdırılmasının tədqiqi ilə tamamlanmışdır. Dördüncü sənaye inqilabı isə bulud texnologiyalarının, əşyaların interneti, böyük "data", süni intellekt və kiber təhlükəsizliyin gündəlik həyatımızda tətbiqi ilə başlamışdır. Beləliklə sənaye inqilablarının əsas xüsusiyyətlərini aşağıdakı sxem 1-də qeyd edə bilərik.




**Sxem 1. Sənaye inqilablarının əsas xüsusiyyətlərinin tarixi ardıcıllığı**

Rəqəmsal bazar iqtisadiyyatının əsas xüsusiyyətlərindən biri də gündəlik həyatımızın böyük bir hissəsinin elektron-hesablayıcı texnologiyalardan asılı vəziyyətə gəlməsidir. Belə ki, artıq bütün insan fəaliyyəti yeni texnologiyalar vasitəsi ilə idarə olunur. Dördüncü sənaye

inqilabında isə bu insan-texnologiya qarşı münasibəti daha da mürəkkəbləşməkdədir. Yeni sənaye inqilabının əsas elementlərindən biri də süni zəka ve insansız istehsalın təkmilləşdirilməsidir. Dördüncü sənaye inqilabında iqtisadiyyatın inkişafı qədər onun təhlükəsizliyinin təmin olunması, mövcud qanunvericiliyə uyğunluğunu yoxlamaq, əsaslı bütün əsas predmetlərindən birini təşkil edir.

Dördüncü sənaye inqilabına paralel olaraq iqtisadiyyatda Audit 4.0-ın yaranması zərurətini ortaya çıxarmışdır. Əvvəlki illərdə iri müəssisə və təşkilatlarda lazımlı məlumatlar məhz insanlar tərəfindən toplanılır, yoxlanılır və ümumi bazara daxil edilirdi. Lakin dördüncü sənaye inqilabında bu sadalanan addımların heç biri olmayacaqdır. Sənaye inqilabının əsas hissəsini süni intellekt tərəfindən məlumatların əldə edilməsi, əşyalar arası internet-telekommunikasiya vasitəsi ilə məlumat mübadiləsinin həyata keçirilməsi, məlumatların cəmləşdirilməsi, bulud texnologiyalarının toplanılması və müasir təşkilatlar üçün aylıq, rüblük və illik hesabatların hazırlanması təşkil edir. Audit 4.0-ın əsas mahiyyəti yeni sənaye inqilabının tam funksionallığından yararlanaraq təftişin daha sürətli aparılmasına, əldə olunan məlumatların daha əlçatan olmasına şərait yaratmışdır. Lakin əvvəlki fəaliyyətindən fərqli olaraq audit 4.0-ın böyük bir hissəsinin bulud texnologiyalarında cəmləşməsi kiber təhlükəsizlik baxımından bir sıra risklər ilə qarşılaşmasına da səbəb olacaqdır. Bu səbəbdən də audit 4.0 da audit aparılması zamanı əldə olunan rəqəmsal informasiyaların real rəqəmlər ilə nə qədər uyğunlaşmasını yoxlamaq, əldə olunan hesabatların real göstəricilərə uyğunluğunu yoxlamaq olduqca önəmlidir.

Ümumilikdə auditin tarixi ardıcıllığı ilə inkişaf tarixini aşağıdakı sxem-2 üzrə göstərilməsi daha məqsədəuyğun olardı.




**Sxem2. Auditin aparılma mexanizimlərinin tarixi ardıcıllığı**

Rəqəmsal iqtisadiyyatına keçid dövründə dördüncü sənaye inqilabı onun azərbaycanda da formalaşması azərbaycan iqtisadiyyatının dördüncü sənaye inqilabına adaptasiya olunması son bir neçə ildə başlamışdır. Hətta dünya iqtisadiyyatında cərəyan edən rənglərin diqtə edən rəqabət qaydalarını dəyişən 4-cü sənaye inqilabında Azərbaycan Respublikasının mövqeyini gücləndirmək və bu sahədə uğur əldə etmiş ölkələr ilə əlaqələri sürətləndirmək məqsədi ilə ölkə prezidenti cənab İlham Əliyevin 06 yanvar 2021-ci il tarixli fərmanı belə mövcuddur. Bu fərman ilə Azərbaycanda dördüncü sənaye inqilabı, onun təhlili və kardinasiya mərkəzi publik hüquqi şəxsin yaradılmasına dair göstəriş verilmişdir.

Cari ölkə iqtisadiyyatının yeni sənaye inqilabı ilə müasir rəqəmsal iqtisadiyyata keçidi uzunmüddətli bir prosesdir. Hal hazırda bu proses hissəli şəkildə özəl və dövlət müəssisə-təşkilatlarda həyata keçirilir. Ölkəmizdə fəaliyyət göstərən bir sıra şirkətlərdə də rəqəmsallaşma məhz yeni sənaye inqilabına uyğun olaraq həyata keçirilir. Əvvəlki illərdən fərqli olaraq vergi nəzarətinin bir hissəsi, ölkədə fəaliyyət göstərən kommersiya banklarının kargüzarlıq işləri, gündəlik aparılmış əməliyyatların mənfəəti və vergi hesablanılması avtomatlaşdırılmışdır.

Son bir neçə ildə ənənəvi auditin və rəqəmsal auditin (Audit 4.0) fərqli cəhətlərinə dair bir sıra araşdırmalar aparılmışdır. Bu fərqliliklər aşağıdakılardır:

- Auditin ilkin məlumatlarının qəbulu və incələnməsi-ənənəvi auditdən fərqli olaraq tam rəqəmsallaşmış audit, audit aparılması ilə bağlı müraciət olduğu zaman müəssisə və ya təşkilatdan hər hansı hesabatların təqdim edilməsini tələb etməyəcək. Audit 4.0 maliyyə hesabatlarını ilkin olaraq mərkəzi sistemlərdən avtomatik olaraq əldə edəcək, süni intellekt vasitəsi ilə lazımlı məlumatlar təhlil olunacaq, mövcud risklər aşkarlanacaq və audit yoxlaması reallaşdırılacaq.
- Auditin planlaşdırılması-ənənəvi audit aparılması zamanı müəssisə və təşkilatlarda audit aparılması zamanı baş audit və digər işçi auditorlar tərəfindən araşdırılacaq sənədlər, hesabatlar bölüşdürülərək həyata keçirilirdi. Rəqəmsal auditdə isə (Audit 4.0) müəssisə və təşkilatlarda audit gündəlik olaraq süni intellekt tərəfindən avtomatik olaraq həyata keçirilir, məlumatlar toplanılır və baş vermiş hər hansı bir – həmin an araşdırılaraq aidiyyatı strukturlar üzrə yönləndirilir.
- Audit nəticələri təqdimi- ənənəvi audit aparılan zaman audit bitdikdən sonra müəssisə və təşkilatların aylıq, rüblük və illik fəaliyyətləri haqqında kafi, yaxşı, qənaətbəxş kimi qiymətləndirmə verilirdi. Rəqəmsal Auditdə isə (Audit 4.0) fəaliyyət göstərən hər bir müəssisə və təşkilatlarda audit gündəlik olaraq aparılacaq. Rəhbərlik istədiyi zaman bazaya daxil olaraq avtomatlaşdırılmış audit nəzarətinə nəzər yetirə biləcək. Auditin avtomatlaşdırılmış olması müəssisə və təşkilatlarda nəzarətin zaman və maddi baxımdan olduqca əlverişli olacaqdır.

**Nəticə**

Aparılan araşdırmada müasir bazar iqtisadiyyatının rəqəmsallaşan iqtisadiyyata keçidi dövründə hansı istiqamətlərdə yeniliklərin tətbiq olunması zərurəti aşkar edilmişdir. Nəticə olaraq ölkəmizdə də dördüncü sənaye inqilabına adaptasiya olunması məqsədi ilə inkişaf etmiş Avropa ölkələrinin təcrübəsi tətbiq olunmalıdır. Audit 4.0 növbəli şəkildə öyrənilməli ,audit tələbləri arasında informasiya texnologiyalarının istifadəsi daha da genişləndirilməli, mövcud olaraq ənənəvi yoxlamalar aparılması növbəli şəkildə məhdudlaşdırılmalıdır. Uzaqdan auditin aparılması daha da stimullaşdırılmalı və bu barədə qanunda bir sıra dəyişikliklər qəbul edilməlidir. Covid 19 pandemiyası məsafədən işin tam cəmiyyətdə tətbiq edilməsi zərurətini ortaya çıxmasıdır. İnkişaf etmiş Avropa ölkələrində artıq bir sıra fəaliyyət sahələrinin məsafədən etdiyi bu dövrdə bu təcrübənin ölkəmizdə də tətbiq olunması məqsədəuyğundur.

**Ədəbiyyat siyahısı**


1. Celayir və Celayir.2020.səh.129
2. Herman vd.2015.səh12
3. Denedim mesleğinin dijitalleşmesi. Denetim 4.0.2020
4. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tabeliyində "Dördüncü Sənaye İnqilabının Təhlili və Kordinasiya Mərkəzi" publik hüquqi şəxsinin yaradılması haqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.

**Xançoban Şahbazov**
**Teymur Kərimov**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, magistrant*
*teymur-kerimov@internet.ru*
*shahbazov.xançoban@mail.ru*

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN ÖLKƏ TURİZMİNƏ TÖHFƏSİ

**Xülasə**

*Məqalədə uzun illər düşmən tapdağı altında qalan torpaqlarımızın azad edildikdən sonra ölkə turizminə verdiyi töhfədən söhbət açılır. Bundan başqa azad edilmiş ərazilərimizin turizm potensialı və işğal müddətində iqtisadiyyatımıza vurduğu ziyanlar göstərilir. Xarici investorların bərpa planında yer alması prosedurları və müvafiq təkliflər, xarici investorlar üçün cəlbedici mühitin yaradılması amilləri göstərilir. Məqalədə eyni zamanda qarşıya qoyulmuş turizm məqsədləri,xarici turistləri cəlb etmə yolları izzah olunur. Ən əsası azad olumuş ərazilərimzin qədim tarixi yerləri,ən cox turist marağına səbəb olacaq məkanları göstərilir. Gələcək üçün prespektiv gəlir gətirə biləcək turizm növləri qeyd olunur.*

***Məqsəd*-a**zad olunmuş torpaqlarımızın turizm ehtiyatlarını müəyyənləşdirmək və onun ölkə iqtisadiyyatına verdiyi töhfəni aydınlaşdırmaqdan ibarətdir.

***Metodologiya***-tədqiqat işində statistik, iqtisadi və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

**Tədqiqatın nəticələri-**işğaldan azad edilmiş ərazilərimizdə turizm ehtiyyatları,onlardan səmərəli istifadə və alınmış dəyərin ölkə iqtisadiyyatındakı rolu aydınlaşdırılmışdır.

**Açar sözlər-**töhfə, turizm potensialı, işğal, azad edilmiş, rol, dəyər

## Giriş

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyilə Azərbaycan Respublikasının müzəffər ordusu tərəfindən 44 gün ərzində işğal altında olan tarixi torpaqlarımızın düşmən əsarətindən geri qaytarılması ,uzub illər ərzində məhv olmaq təhlükəsi ilə üz-üzə qalan saysız hesabsız tarixi,mədəni abidələrimizin,vaxtilə dünya turistərinin sevimli məkanı olan dilbər guşələrimizin yenidən öz əvvəlki vəziyyətinə qayıtmasına zəmin yaratdı.Əzəli torpaqlarımızda tariximizi, mədəniyyətimizi və iqtisadiyyatımızı yenidən canlandırmaq və bərpa etmək üçün bu ərazilərə mərhələli şəkildə, investisiya qoyuluşlarına və digər sərmayələrin cəlb edilməsinə öz töhfəsini verəcəkdir.Hesab edirəm ki,azad olunmuş bölgələrimiz ölkəmiz üçün mənəvi dəyərlə yanaşı eyni zamanda iqtisadiyyatımız üçün maddi dəyər də qazadıracaq.

## İşğaldan azad olunmuş ərazilərin ölkə turizminə töhfəsi.

İlin dörd fəslində ecazkar təbiəti ilə qonaqları heyran edən,təmiz havası, mineral suları, tarixi abidələri ilə dillər əzbəri olan bu torpaqlar artıq düşmən tapdağından azad olunub. Bu gün aktual olan mövzulardan biri də işğaldan azad olunmuş ərazilərimizdə mövcud turizm potensialının qiymətləndirilməsidir.

İlk öncə münaqişədən sonra bölgəyə dəymiş zərərin müəyyənləşdirilməsidir.Beynəlxalq təcrübə onu göstərir ki zərər müyyən edildikdən sonra minim yaşayış üçün sosial infrostrukturlar qurulmalıdır.Fikrimcə minimum sosial infrostruktur qurulması üçün aşağıdakı amillər nəzərə alınmalıdır:

- ✓ ərazilərin minalardan təmizlənməsi
- ✓ dağılmış evlərin bərpası

- ✓ elektrik enerjisi,rabitə və digər komnikasiya xəttlərinin bərpası
- ✓ magistral və daxili yolların bərpası
- ✓ hava limanlarının yenidən qurulması
- ✓ içməli su və kommunal xidmətlərin bərpası

İlkin olaraq sadalanan amillərin yerinə yetirilməsi mərhələli şəkildə digər sahələrində canlanmasına gətirib çıxaracaq.Sosial infrostruktur qurulduqdan sonra əhalinin məşğulluq problemi öz həllini tapandan sonra iqtisadi canlanma müşahidə olunacaq.İqtisadiyyat səmərəli şəkildə inkişaf etdikcə, bu da öz növbəsində bölgəyə maraq oyadacaq.Bank və Turizm xidmətləri ön plana çəkiləcək.

İşğaldan azad edilmiş ərazilərdən söhbət açarkən yeni yaradılmış Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizm potensialına qısa nəzər salmaq məqsədəuyğun olardı. İlk öncə Qarabağın mədəniyyət beşiyi Şuşadan söhbət açaq. Hələ sovet dönəmində ən çox üz tutulan bölgələrdən biri idi. Şuşada çoxlu sayda sanatoriyalar yerləşirdi. Bununla yanaşı, pioner düşərgələri də var idi. Şuşa şəhərində ilk istirahət evi 1936-cı ildə istifadəyə verilib. Şuşa şəhərində 1316 yerlik Şuşa Sanatoriya Kurort birliyi, 130 yerlik "Şəfa" turist bazası fəaliyyət göstərib. Hələ işğaldan əvvəl Kəlbəcərin İstisu qəsəbəsində 2 böyük sanatoriya fəaliyyət göstərirdi. Hər il orada 50 min nəfər müalicə olunur və istirahət edirdi. Buradakı “İstisu” mineral suları ilə insanın həm xarici, həm də daxili xəstəliklərini müalicə etmək mümkün idi [1,s.32].

Bundan başqa öz füsünkar gözəlliyi ilə seçilən Cidır düzü,Turşsu,Çətir şəlaləsi,İsa bulağı göstərmək olar.Tarixi abidələrdən isə Yuxarı Gövhər ağa məscidi,Natəvan sarayı,Qarabağ xan sarayını,Şuşa qalası,Bülbülün ev müzeyi,Qazançı kilsəsini,Molla Pənah Vaqifin türbəsini,Üzeyir Hacıbəyovun ev muzeyini və s. vurğulamaq olar.Qarabağ iqtisadi rayonunda isə ekoturizm nümünələrinə Suqovuşan, Ağgöl milli parkı, Köndələnçay milli parkını, mədəni turizm nümunələrinə isə Ağdam cümə məscidi, Azıx mağarası, Tağlar, Şahbulaq qalası, Amaras monastrı, Çörək muzeyi, Şah Abbas karvansarayı və s misal göstərmək olar. Şərqi Zəngəzur iqtisadi rayonunda isə ekoturizm nümünələrinə Kəlbəcərdə İstisu,Qoturlu, Laçında İlıqsu misal göstərmək olar. Mədəni turizm abidələrimizə gəlincə bu bölgədə Xudafərin körpusu, Qız qalası, Xudavəng monastrı, Laləzar körpüsü, Zar mağarası,Uşaq qalası, Lex qalası və s qeyd etmək olar [3].

Qarabağ zonası milli mədəniyyət beşiyimiz sayılır.İşğala qədərki dövrlərdə saysız hesabsız turist axını olan bu bölgəmiz işğaldan sonra qısa zamanda əvvəlki qüdrətini bərpa edəcəyinə inanırıq. Əlverişli ekoturizm potensialı ola bu bölgələrə turist turlarının təşkili,ərazidə vacib həyati inforstrukturlarını özündə cəmləyən turizm destinasiyaları yaradılmalıdır. Son zamanlar Bakıdan Şuşaya avtobus turlarının təşkil bu sahədə ilk atılan addımlardan hesab oluna bilər. İlkin səyahət zamanı 400-ə yaxın insan bu turdan yararlanmışdır [4].

Təbbi ki milyonlarla vətən həsrəti çəkən insanın həmin bölgələrə səyahət arzusunun olduğu məlumdur, buda öz növbəsində daxili turizmin bu bölgədə yüksək səmərə verəcəyinə gətirib çıxaracaq. Təhlükəsiz gediş-gəlişin təmin edilməsi başlıca amillərdən biridir. Turistlərə aldıqları tur paket zamanı təhlükəsizliyin təmin olunmasında yüksək təminat vacibdir. Gələn əcnəbi vətəndaş artıq müharibə zonasına yox tam sülh və əminamanlıq şəraitində olan bir bölgəyə gəldiyinə əmin olmalıdır.

Təbliğat işləri sadaladığımız planlarla eyni zamanda aparılmalıdır.

Yerli sakinlərin daha çox işlə təmin olunması turizm üzrə ixtisaslı kadrların məhz bölgə sakinlərindən seçilməsi regionda kadr hazırlığının inkişafına da müsbət təsir göstərəcək. Göstərilən xidmət nə qədər peşəkar olarsa səmərə bir o qədər yüksək olacaq.

Yerli əhalinin bərpa edilmiş bölgələrə qayıdışı da vacib amillərdən biridir. Turist öz seçimini edərkən bölgədə olan yerli sakinlərlə də maraqlanmalı olacaq və yaşayış olan yerdə özünəgüvənlik də öz növbəsində artacaq.

Bölgənin əlverişli məkanda yerləşməsi və komnikasiya qovşaqlarının ərazidə olması eyni zamanda gələcəkdə tranzit məkan kimi də istifadə olunması ölkə üçün əlverişli iqtisadi səmərə gətirəcək. Zəngəzur dəhlizinin açılması qardaş Türkiyədən gələn turistlərin qısa zamanda bölgəyə yerləşməsinə və daha az xərclə gəlişinə səbəb olacaq. Füzüli hava limanının açılışı, Zəngilanda və Laçında açılacaq hava limanı beynəlxalq turistlərin maniyəsiz gəlişinə töhvə verəcəkdir. Xudafərin vasitəsi ilə İranla sərbəst gediş-gəliş mümkün olacaq.

Hesablamalara görə bu gün Qarabağ ərazisində 50-yə yaxın hotel var. Onların bərpası və beynəlxalq standartlara uyğun 3,4,5 ulduzlu hotellər səviyyəsinə çatdırılması böyük səmərə verə bilər. Bununla da ölkəyə gələn xarici turistlərin sayını 4 milyon nəfərə,yerli turistlərin sayını isə 5 milyon nəfərə çatdırmaq olar. Turizmin ÜDM -də payını 4 milyard manata çatdırmaq əsas hədəfdir. Ümumilikdə işğaldan azad eilmiş ərazilərin turizm potensialı 10 milyon nəfərdir. 2025-ci ilə kimi ilkin mərhələdə yerli və xarici turistlərlə birgə 1 milyona yaxın insanın işğaldan azad edilmiş ərazilərə səyahəti planlaşdırılır [8].

**Nəticə**

İşğaldan azad edilmiş ərazilərdən danışarkən fikrimcə erməni vandalları tərəfindən dağıntılara məruz qalmış abidələrimiz bərpası ön plana çəkilməlidir. Müharibə zamanı zərər görən bəzi tarixi abidələr turistlərə oluğu kimi təqdim edilməli və buda öz növbəsidə fərqli bir marağa "Müharibə vəhşiliyi" adı altında dünya ictimaiyyətinə çatdırılmalıdır. Hər bir rayonda dağıntılara məruz qalan binalardan,abidələrdən bir neçəsi erməni vandalizminin nəticəsi olaraq tarixi eksponat kimi saxlanılmalıdır.

Son olaraq bildirmək istərdimki mərhələli şəkildə turizm sənayesinin bərpası,xarici investorların bölgəyə maraq yaratması azad olumuş ərazilərimizin mənəvi dəyəri ilə yanaşı iqtisadi dəyərinə də gətirib çıxaracaq Azad edilmiş bölgələrimzdə son zamanlar aparılan quruculuq işləri,xarici şirkətkətlərlə yeni layihələr (ağıllı kənd) buna bariz nümünə ola bilər. Ümumilikdə azad edilmiş ərazilərin ölkə turzminə töhfəsi aşağıdakı amillərin reallaşdırılmas ilə mümkün olacaq:

- ✓ təhkükəsizlik təminatı
- ✓ əhalinin kütləvi qayıdışı
- ✓ beynəlxalq əhəmiyyəətli tədbirlərin təşkili
- ✓ yüksək səviyyəli infrastruktur layihələrinin reallaşdırılması
- ✓ rabitə,yollar,informasiya təminatı
- ✓ kütləvi reklam və marketinq fəliyyəti

Yuxarıda sadalanan amillər reallaşdırıldığı təqdirdə turizm mərkəzlərinə turist axını mərhələli şəkildə artacaq və bu da öz növbəsidə ölkə iqtisadiyyatının neft sektorundan asılılığını minumuma endirəcəkdir.

**Ədəbiyyat**


1. Azərbaycanın tarixi abidələri. AMEA., Bakı, -1958, -75s.
2. Ismayilov V.İ. Turizmin iqtisadiyyatı. Bakı, -2019, -357s.
3. https://ereforms.gov.az/az
4. https://xalqqazeti.com/az/news/73571
5. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi - www.mct.gov.az

6. Azərbaycan Respublikası - www.azerbaijan.az
7. World Tourism Organization - www2.unwto.org
8. www.turizm.az

**Kərim Kərimov**
*Bakı Avrasiya Universiteti, magistrant*
*kerimkerimov75@gmail.com*

## TURİZMİN FORMALAŞMASININ ƏSAS XÜSUSİYYƏTLƏRİ

*Turizmin məqsədindən asılı olaraq bir-birindən fərqli növlərini əhatə edən, turistləri həmin səyahət-istirahət məqsədlərindən istifadəyə vadar edən müxtəlif istiqamətli turist marşrutlarının inkişaf etdirilməsi nöqteyi nəzərindən Azərbaycan da bu istiqamətdə geniş imkanlara malik olan ölkələr sırasına aid edilir. Turizm məhsulu-turistlərin yerləşdirilməsi məqsədinə xidmət göstərən tur hüquqlarıdır və o ümumiləşdirilərək üç qrupa ayrılır: məqsəd əsasında yerinə yetirilən qrup gəzintiləri; fərqli aspektdən icra edilən işlər: yerləşdirmə, qidalanma, nəqliyyat və s.; turistlərin səyahət etdiyi yerdən özü ilə apadığı təəssüratlarının bölüşdürülməsində yararlana biləcək yerli suvenir mallarının ailə üzvlərinə hədiyyələr kimi alınması. Turizm sferası istehsal və qeyri-istehsal funksiyalarına malikdir, yəni onun təyinatının birinci rolu turizmin yeni material dəyərini yaratmaq və xidmət formasında həyata keçirməkdir, ikinci rolu isə qeyri-material xidmətləri çərçivəsində turistlərə xidməti icra etməsidir. Beləliklə, turizm sferası qeyri-neft sektorunda əsas sahə olmaqla ölkənin milli iqtisadiyyatının dayanıqlı inkişafının əldə edilməsində həlledici rol oynayır ki, bu da ölkəyə beynəlxalq turist axının düzgün təşkilindən, turizm sferası müəsisələrinin yeni turməhsul istehsal etmə bacarığından, turist qəbulu zamanı onlara komfortlu xidmətlərin təşkilindən, yerləşdirmə, iaşə, nəqliyyat və s infrastrukturlarla sıx əlaqənin təşkilindən və s. asılıdır.*

**Açar sözlər:** turizm, turməhsul, funksiyalar, formalaşma, xüsusiyyətlər

### Giriş

Azərbaycanda milli iqtisadiyyatın dayanıqlı inkişafının, o cümlədən onun struktur tərkibinin əsas bölmələrindən biri olan turizm sektorunun iqtisadi inkişafının təmin edilməsi dövlətin mühüm vəzifələrindən biri hesab olunur. Turizm sferasının uzunmüddətli perspektivdə planlı şəkildə inkişaf etdirilməsi üzrə dövlət rəhbərliyinin apardığı məqsədyönlü siyasətdə nəzərdə tutulur ki, bu sahə bütün dünyada önəmli inkişafı əsasında milli iqtisadiyyatın artımının təmin edilməsində öncül mövqedə durur. Həmçinin, hazırda turizmin əhatə etdiyi dairələrin genişlənərək maksimum dərəcədə priritetli sahələrindən birinə çevrilməsi də sübut edir ki, həqiqətən bu sahə həm ölkənin iqtisadi inkişafının təmin edilməsində yüksək gəlir gətirən sferalardan biridir, həm də beynəlxalq turistlərin gəlməsi nəticəsində ölkəmiz artıq dünya miqyasında hərtərəfli inkişaf etmək meyliyində olan dövlətlər sırasında tanınır.

Bu baxımdan bütün dünya ölkələrində olduğu kimi, ölkəmizdə də fərqli iqtisadi bölmələrin inkişaf etdirilməsinə istiqamətləndirilmiş iqtisadi artımın əldə olunması üzrə uzunmüddətli strateji yol xəritələri hazırlanaraq qəbul edilmişdir. Bu aspektdən Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş *"Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"* xüsusilə əhəmiyyətli sənədlərdən biri hesab edilir.

**Azərbaycanda ixtisaslaşmış turizm sənayesinin inkişaf priritetləri**

İxtisaslaşmış turizm sənayesinin inkişafını əks etdirən Strateji Yol Xəritəsində göstərilənlərin isra edilməsi məqsədilə turizmin mövcud vəziyyəti SWOT (GZIT) metodu təhlil edilmişdir [2]. Təhlil nəticəsində həm mövcud dövr, həm 2025-ci ilədək, həm də 2025-ci ildən yuxarıdakı illərdəki həyata keçirilməsi nəzərdə tutulmuş işlər müəyyənləşdirilmişdir. Ölkəmizdə bu sferanın inkişafı ilə əlaqəli qəbul edilmiş Strateji Yol Xəritəsində ölkənin turizm sferasının inkişaf etdirilməsi üzrə strateji məqsədlər müəyyən edilmiş və gələcək dövr üçün strateji hədəflərin (dörd strateji hədəf) həyata keçirilməsinə nail olunması istiqamətində bir sıra prioritetlər müəyyənləşdirilmişdir. Strateji Yol Xəritəsində müəyyənləşdirilmiş hədəflər içərisində ilk hədəf kimi, beynəlxalq turistlərin ölkəyə cəlb edilməsi yolu ilə Bakı şəhərinin turizm potensialının genişləndirilməsi istiqamətində qəbul edilmiş prioritetlərin (dörd prioritet) lazımi səviyyədə yerinə yetirilməsi üzrə görüləcək işlərin həyata keçirilmə ardıcıllığı müəyyən edilmişdir.

Bəllidir ki, turizm sferası dünya təsərrüfatının ən perspektivli və dinamik inkişafa meylli olan sahələrindən biridir. Belə ki, turizm sektoru xidmət sahəsinə daxil olmaqla bərabər yüksək inkişaf tempinə malikdir. Turizm təsərrüfatı birbaşa və dolayı yolla turist istehlakının ümumi həcminin dəyərində 8,3 trilyon abş dolları təşkil edir. 2020-ci ilin məlumatına əsasən dünyada ÜDM-in 10% -dən çox hissəsini, əmtəə, mal və xidmətlərin ümumi dünya ixracının 6,5% -ni və dünya investisiyalarının 4,5% -ni özündə formalaşdırır. Həmçinin, dünya üzrə xidmət ticarəti üzrə ixracın 30% -i, iqtisadiyyatda bütün məşğul əhali sayının 9,9% -i turizmin payına düşür. BTT-nin 2009-cu ildən 2019-cu ilə qədər beynəlxalq turizmdən daxilolmalar üzrə hesabatına əsasən bu göstəricinin real artımı (54%) dünya ÜDM-in artımını (44%) təxminən 10% üstələmişdir [3, 4].

Zəngin mədəni-tarixi irsə, əlverişli təbii iqlim və ekologi şəraitə malik olan Azərbaycanda da turizm sahəsində böyük inkişaf perspektivləri mövcuddur. Odur ki, turizmin məqsədindən asılı olaraq bir-birindən fərqli növlərini əhatə edən, turistləri həmin səyahət-istirahət məqsədlərindən istifadəyə vadar edən müxtəlif istiqamətli turist marşrutlarının inkişaf etdirilməsi nöqteyi nəzərindən Azərbaycan da bu istiqamətdə geniş imkanlara malik olan ölkələr sırasına aid edilir.

**Turizmin digər iqtisadi sahələrdən fərqli spesifikası**

Turizmin milli iqtisadiyyatın digər sahələrindən fərqli cəhəti ondadır ki, o, yalnız bir istehlakçı xidmətinə-turistə malikdir. Qeyd edək ki, turist həm turizm məhsullarının (turların, xidmətlərin və malların) istehlakçısıdır, həm də onunla yanaşı turizm müəssisələrinin fəaliyyət obyektidir. Həmçinin qeyd edək ki, milli iqtisadiyyatın digər sferalarından ikinci fərqli xüsusiyyəti ondadır ki, digər bazarlarda (əmtəə və maliyyə bazarları**)** məhsullar sifarişçilərə təqdim olunur, lakin səyahətçilər turizm müəssisələrinin istehsal etdiyi turməhsul və xidmətlərə yönəldilir. Odur ki, turizm müəssisələrinin məhsulunun alıcısı olan insanlar yuxarıda qeyd etdiyimiz spesifik xüsusiyyətinin olmasına görə şərtləndirilir. Bu məqsədlə qeyd edilmiş sferadan yararlananlar, turizm bazarında satılan yollayış blankları əsasında ondan istifadə edən səyyahlar məhsulun keyfiyyətli və ya keyfiyyətsiz olmasından məlumatlı ola bilmir, çünki bütün bunlar yalnız turist son istehlak məntəqəsinə gələrək yerləşdikdən sonra göstərilən xidmət səviyyəsi ilə tanış ola bilir. Beləliklə də,turizm müəssisələrinin istehsal etdiyi turizm məhsulu öz qiymətini yalnız turistlər tərəfindən istehlak edilməsi və ya mənimsənilməsi prosesində formalaşdırır və onu əldə edə bilir.

Birləşmiş Millətlər Təşkilatının (BMT) müəyyənləşdirmələrinə görə turist dedikdə digər dövlətin sərhəddini keçmiş, ölkəyə daimi yaşamaq üçün gəlmiş (emiqrant) vətəndaşlar istisna olmaqla istənilən xarici ölkə vətəndaşı başa düşülür.

Rəsmi Turist Təşkilatlarının Beynəlxalq İttifaqı (RTTBİ) tərəfindən turistin mənası yuxarıda qeyd etdiyimiz kimi qəbul edilmişdır. Qeyd edilən İttifaq tərəfindən turistlərin əsas qrupları, həmçinin turist hesab olunmayan qruplara aşağıdakıların aid edilməsi təklif edilmişdir:

1.Turistlərin əsas qruplarına daxil edilənlər:- istirahət,səyahət, ailə vəziyyəti ilə əlaqədar, müalicə və digər məqsədli vətəndaşlar; -iclaslarda, qurultaylarda (elmiitədqiqat, konfrans, simpozium, dövlət idarəçiliyi, idman yarışları və s.) iştirak edən vətəndaşlar; -müəssisədəki icra ediyi peşə və ya ixtisasına daha dərindən yiyələnmək üçün bu istiqaməti seçənlər; -bir sutkadan az olmaqla gəmi və s. su nəqliyyatı vasitələrində (kruizlərdə) gəzintiyə çıxanlar.

2.Bu sfera üzrə məhsullardan istifadə etməyən insan dəstəsi: -ölkəyə gələn digər ölkə və ya kənarda daimi yaşayaraq öz ölkəsinə yaşamağa gələn vətəndaşlar; -hər hansı təşkilatla bağlanılmış müqavilə əsasında və müqavilə bağlanılmadan iş axtarmağa gələn vətəndaşlar; -daimi yaşamaq üçün öz ölkəsini tərk edib gəldiyi ölkədə yaşamaq istəyən vətəndaşlar; -ölkə sərhəddinə yaxın ərazidə yaşayan, lakin digər qonşu ölkənin ərazisində işləmək istəyən həmsərhəd rayonlarda yaşayan vətəndaşlar.

Azərbaycan Respublikasının *"Turizm haqqında qanun"*-da (14 dekabr 2021-ci il) qeyd edilir ki, turist- üç ayadək gedəcəyi ərazidə gecələməklə qalan şəxsdir. Bu qanuna əsasən turizmin mənası belə başa düşülür: fiziki şəxslərin getdiyi ölkədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərtilə, turizmin müxtəli məqsədlərindən istifadə etməklə ondan yararlanaraq fərqli ölkələrə səyahət etməklə daimi yaşadığı ölkənin hüdudlarından kənara müvəqqəti gəzinti kimi müəyyənləşdirilir [1, s.1-2]. 4 iyun 1999-cu ildə qəbul edilmiş ilk qanunda cəmi 17 maddə olduğu üçün yeni qanun qəbul edildi və həmin qanunun 16-cı maddəsində turistlərin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlərin görülməsi, 17-ci maddəsində turistlərin sığortalanması, 18-ci maddəsində turizm ehtiyatlarından istifadənin ümumi şərtləri, 20-ci maddəsində turizm sahəsinin maliyyə mənbələrinin açıqlanması və s. öz əksini tapmışdır.

1985-ci ildə *ÜTT-nın Baş Assambleyasının qəbul etdiyi* Nizamnamədə turistlərin səyahəti ilə əlaqəli olan bütün tələbələr qeyd edilmiş, bu sənədə bu qrup insanlarla bağlı *Məcəllə* də daxil edilmişdir.

Tur dedikdə hər hansı bir zaman kəsiyində müəyyən edilmiş hərəkət istiqaməti ilə tək və ya qrup halında gəzinti nəzərdə tutulur, buna isə turizm şirkətlərinin hazırladığı xidmətlər daxil olmaqla satılan sənədlərdə yararlanma formasıdır. Turizm yollayışı turistin hərəkət edəcəyi marşrut xətti üzrə qəbul edilmiş sənəd olub orada planlaşdırılmış işlərin icra edilməsi əsasında ödənilmiş vəsaiti təsdiq edən blakdır. Xidmətlərdən başqa turistlər turist təyinatlı mallar, məhsullar ( xidmətlər) ala bilərlər. Turist təyinatlı mal (məhsul) və xidmətlərin məcmusu bu sferada çalışan şirkətlərin işləyib hazırladığı və müəyyən bir müddətdə öz ərazisindən digər bir ölkənin ərazisinə gəzintini özündə əks etdirən məhsul anlayışıdır. Hazırda fəaliyyət göstərən qanunçuluğa görə bu məhsuldan istifadə edən insanların xidmətlərdən yararlanmasının məcmusudur. Bu xidmətlərə onların qəbul edilməsi, xidmət məntəqəsinə gətirilməsi, qaldığı müddət ərzində qidalanması, müxtəlif istiqamətli gəzintilərin təşkili və onun məqsədi əsasında həyata keçirilən kompleks işlərin cəmi aiddir.

**Turməhsulun qruplaşdırılması xüsusiyyətləri**

Turizm məhsulu-turistlərin yerləşdirilməsi məqsədinə xidmət göstərən tur hüquqlarıdır. Turizm məhsulunu ümumiləşdirərək üç qrupa ayırmaq olar:

1. Məqsəd əsasında yerinə yetirilən qrup gəzintiləri.
2. Fərqli aspektdən icra edilən işlər: yerləşdirmə, qidalanma, nəqliyyat və s.
3. Turistlərin səyahət etdiyi yerdən özü ilə apadığı təəssüratlarının bölüşdürülməsində yararlana biləcək yerli suvenir mallarının ailə üzvlərinə hədiyyələr kimi alınması.

Hər bir ölkədə turizmin idxalı və ixracı yerinə yetirilir. İdxal dedikdə səyahət edənlərin olduğu ölkədən qayıtdığı fikir və təəssüratla onun özü ilə yaşadığı ərazisinə gətirəcəyi vəsaitdir. Turizmin bütün infrastrukturunu əhatə edən kompleksi kimi xüsusiyyətləri ölkə iqtisadiyyatında onun təyinatının ikili rolunu müəyyənləşdirir:

- Turizm yeni material dəyərini yaradır və onu xidmət formasında həyata keçirir.
- Eyni zamanda qeyri-material xidmətləri çərçivəsində turistlərə xidməti icra edir və həyata keçirir.

Odur ki, turizm sferası istehsal və qeyri-istehsal funksiyalarına malikdir. Yəni turizm sənayesi iqtisadiyyatında onun təyinatının birinci rolu turizmin yeni material dəyərini yaratması və onu xidmət formasında həyata keçirməsidir. İkinci rolu isə qeyri-material xidmətləri çərçivəsində turistlərə xidməti icra etməsi başa düşülür. Turistlərin bu sferaya uyğun tələbat növündən asılı olaraq onlar aşağıdakı kimi qruplaşdırılır:

- turizmə tələbatlı və gəzmək arzusunda olanlar;
- özü ilə ölkələrdən suvenir, digər əşya alaraq qohum və yaxınlarına ədiyyə etmək istəyənlər, bunlar yüksək ödəmə etməkdən ləzzət alanlardır;
- istehlakçı davranışına malik insanlar.

İnsanların turizmə olan tələbatını müxtəlif motivlər meydana gətirir. Motiv hər hansı bir (işə, peşəyə və s.) oyadıcı səbəbi olan müəyyən qrup insanların turizmlə əlaqəli konkret tələbatıdır. Turizmin əsas motivləri aşağıdakılardır: istirahət, tanış olma; idrakı (tarix və mədəniyyət sərvətlərindən) bəhrələnmə; idman; müalicə; dini ocaqlara ziyarət; hər hansı iş üçün gələnlər (konqres, beynəlxalq konfrans, simpoziumlar).

Turizm sferasında motivləşdirici vəziyyət bir sıra amillərdən asılıdır: müxtəlif qrup insanların spesifik xüsusiyyətləri, turist qəbul edən ölkənin turizm sənayesinin mövcud vəziyyəti, turizm müəssisələrinin istehsal etdiyi məhsulun tanıdılması, keçmiş illərdə istifadə edilmiş xidmətlərə görə istirahət edənlərin topladığı məlumatlar və s. Turistlərdə gəzintinin tələbatını formalaşdıran amillərə tanış olma, regional, iqtisadi və psxoloji aiddir. Bu tip amillər isə özlüyündə fərqli alt amilləri cəmləşdirməklə yeni motiv yaradıcılar kimi formalaşırlar.

1. Müxtəlif ərazilərə məxsus fərqli aspektli (tarixi, mədəni, ekoloji-təbiət) amillər üzrə maraqlar. Bu maraqlar adətən yerli əhaliyə məxsus adətləri, tarixi-coğrafi- arxeoloji aspektləri aid edilir.

2.Ölkənin yerləşdiyi əraziyə məxsus amillərin və hadisələrin zənginliyi. Məsələn, müxtəlif mədəniyyət aspektli festivallar (Azərbaycanda adətən bu cür tədbirlər Bakı, Quba, Qəbələ və s.- də, həmçinin gələcəkdə Şuşa şəhəri, Suqovuşan qəsəbəsində turizm mərkəzi və s. işğaldan azad edilmiş ərazilər də planlaşdırılmaqla), turizm avadanlıqlarının nümayişi sərgiləri (iaşə avadanlıqları ilə əlaqəli sərgilər, mehmanxana tipli müəssisələrin avadanlıqları ilə əlaqəli sərgilər) (Azərbaycanda adətən bu cür tədbirlər Bakı, Gəncə, Qəbələ, Mingəçevir və s.- də və gələcək illərdə Şuşa şəhəri də planlaşdırılmaqla), müxtəlif təyinatlı satış sərgiləri (Azərbaycanda adətən bu cür tədbirlər Bakı, Sumqayıt, Gəncə, Naxçıvan, Mingəçevir, Şəki, Qəbələ və s.-də) turistlərin həmin regionlara gəlməsinə səbəb olur.

3.İqtisadi amillər. Bu amillərə turməhsuldan istifadə etməyə maraqlı olanların gəlirləri, səyahətlərin dəyəri və onları qəbul edən regionlarda turizm xidmətlərinin səviyyəsi və təşkilinə müvafiq təyin edilmiş qiymətlər, bu ərazidə turizm sənayesinin inkişaf səviyyəsi, turizm sferası ilə əlaqəli digər infrastruktur sisteminin mövcud vəziyyəti, xarici turistlərin ehtiyacını təmin edə biləcək səviyyədə müxtəlif növ məhsulların satışını həyata keçirən köşklər və marketlərin miqdarı. Sadalanan bu iqtisadi faktorlar gəzintidə olanların almaq istədiyi əmtəə tərkibinin formalaşmasında həlledici əhəmiyyət kəsb etməklə normal gəlirli turistlərin say çoxluğunun təmin edilməsini şərtləndirir.

4.Turis psixologiyasını əhatə edən faktorlar özlüyündə insan qruplarını regionlara səfər etməkdə maraq yaratmaqla psixoloji tələbatı ödəyə biləcək motivlərdən ibarətdir. Bu tip

faktorlara səfərdə olanları fərqli dinə aid olması, müxtəlif istiqamətli fərqli maraqlara olan meylləri, hər hansı məhsulun tanıdılmasına fərqli baxışları qeyd edilə bilər.

**Nəticə**

Beləliklə, turizmin formalaşması istiqamətində qeyd etdiklərimiz onu göstərir ki, turizm sferası qeyri-neft sektorunda əsas sahə olmaqla ölkənin milli iqtisadiyyatının dayanıqlı inkişafının əldə edilməsində həlledici rol oynayır. Bu da ölkəyə beynəlxalq turist axının düzgün təşkilindən, turizm sferası müəsisələrinin yeni turməhsul istehsal etmə bacarığından, turist qəbulu zamanı onlara komfortlu xidmətlərin təşkilindən, yerləşdirmə, iaşə, nəqliyyat və s infrastrukturlarla sıx əlaqənin təşkilindən və s. asılıdır. Bu baxımdan da, beynəlxalq turist axınının aktivləşdirilməsini əks etdirən nəzəri-metodoloji aspektlərin tədqiq edilməsi vacib şərtlərdən biri hesab edilir.

**İstifadə edilmiş ədəbiyyat**


1. Azərbaycan Respublikasının "Turizm haqqında qanun"u. Bakı, -14 dekabr 2021
2. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı
3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycanda turizm.-Bakı, -2021, -s.99
4. BMT-nin 2009-2019-cu illərdə beynəlxalq turizmdən daxilolmalar üzrə hesabatı
5. "Dünya üzrə səyahətlər" saytının məlumatları



**Nurlana Məmmədova**

*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, magistrant*

*Nurlana300@mail.ru*


## MALİYYƏ NƏZARƏTİ VƏ AUDİTİN YARANMASINDA ELMİ YANAŞMALAR


**Açar sözlər:** maliyyə nəzarəti, audit, istehsal münasibətləri, maliyyə resursları, istehsal, məhsulun bölüşdürülməsi, yenidən bölüşdürülməsi


**Giriş**

Maliyyə nəzarəti istehsal sferasında baş verən istehsal münasibətlərinə və məhsuldar qüvvələrə nəzarət etməklə, ictimai əməyin məqsədəuyğun insan fəaliyyəti kimi, o cümlədən əməyin özünün, əmək obyektlərinin və vasitələrinin istifadəsinin səmərəliliyini, onun qüvvədə olan qanunvericiliyə, normativ hüquqi aktlara uyğunluğunu müəyyən edir. Xüsusilə, maliyyə münasibətləri federal, regional və sektor səviyyələrində yoxlanılır.

İctimai məhsulun bölüşdürülməsi prosesi zamanı maliyyə nəzarətinin vəzifəsi cəmiyyətin müxtəlif tələbatlarının ödənilməsini yoxlamaqdan ibarətdir. Bura aiddir istehsal prosesində istehlak edilmiş istehsal vasitələri və alətlərinin əvəzinin ödənilməsi və bazar münasibətlərinə uyğun olaraq yeni yaradılmış məhsulun bölüşdürülməsi və yenidən

bölüşdürülməsi. İstehsal münasibətləri əmək vasitələri və əmək obyektləri ehtiyatlarının normalarının bərpası, sərf olunan canlı əməyin ödənilməsinə vəsaitlərin xərclənməsi və onun kəmiyyət və keyfiyyətinə uyğun olaraq, yığılma və istehlak üçün ictimai fondların yenilənməsi və doldurulması baxımından nəzarət edilir; müxtəlif səviyyəli büdcələrə vəsaitlərin ayrılması, xüsusi sığorta.

Sosial məhsulun bölüşdürülməsi mərhələsində maliyyə nəzarətinin predmeti maliyyənin bütün hissələrini əhatə edir.

Hər hansı bir dövlətin "taleyində" maliyyə nəzarətinin əhəmiyyətinə, eləcə də elmi-tədris hüquq ədəbiyyatında bu terminin geniş yayılmasına baxmayaraq, təəssüf ki, müasir qanunvericilikdə bu hüquq kateqoriyasının tərifi yoxdur.

**Maliyyə nəzarəti və auditin yaranması**

Maliyyə nəzarətinin tarixinə nəzər salsaq əramizdan əvvəl 2600-cü ildə Aralıq dənizi ölkələri (Misir, Roma, Yunanıstan) və Şərq ölkələrinin (Babiliya, Çin və s.) adlarına rast gəlmək olar. Bu dövlətlərdə dövlət maliyyə nəzarəti, maliyyə idarə olunmasını xüsusi məmurlar həyata keçirilirdi. Eradan əvvəl 1792-1750 –ci illərdə Babilistanda ilk dəfə tacirlər müstəqil uçot aparmağa başlamışlardır. Kilsələrə isə dövlət hesabatları hazırlanırdı. Bunlara plan köçürülməsi üzrə qəbzsiz sövdələşmələr, kassanın inventarizasiyası və s. aid edilir.
Maliyyə nəzarəti sistemini yaradan ilk ölkə Çin olmuşdur.

Qədim Çin qeydləri göstərir ki, hələ eramızdan əvvəl 700-cü ildə Çində baş auditor vəzifəsi mövcud idi, onun əsas vəzifəsi dövlət puluna və əmlakına sərəncam vermək hüququna malik olan dövlət məmurlarının fəaliyyətinə nəzarət etmək idi. E.ə. 1122-256-cı illərdə Çyon dinastiyası tərəfindən "dövlət uçot sisteminə" büdcə yoxlanması müddəaları hazırlanmışdır.

Təxminən eramızdan əvvəl 200-cü il. Roma qubernatorları questorları, yəni Roma imperiyasının maliyyə və məhkəmə işlərinə cavabdeh olan məmurları əyalətin dövlət mühasibləri üzərində nəzarəti həyata keçirmək üçün təyin edirdilər. 1318-ci ildə Fransada maliyyə nəzarətinin ali orqanı yaradılmışdır və Hesablama Palatası adı ilə fəaliyyətə başlamışdır.
Daha sonralar təşkilatlarının idarə edilməsi və pul qoyanların (mülkiyyətçilər, səhmdarlar, investorlar) maraqlarının bölüşdürülməsi ilə bağlı auditin yaranma baş tutmuşdur.

Audit təşkilatın maliyyə-təsərrüfat fəaliyyətinə nəzarətin ən təsirli formasıdır, xidmətlərin göstərilməsinin tənzimləyici xarakterinə malikdir, çünki onun subyektləri auditor xidmətlərinin göstərilməsi haqqında müqavilə əsasında sahibkarlıq fəaliyyəti çərçivəsində fəaliyyət göstərərək, ictimai funksiyaları yerinə yetirir, bununla da həm cəmiyyətin, həm də dövlətin hüquq və qanuni mənafelərinin müdafiəsinə töhfə verirlər.

Audit maliyyə nəzarətinin formalarından biridir ki, ona ehtiyac əmtəə mübadiləsi və pul münasibətlərinin yaranması və inkişafı ilə eyni vaxtda yaranmışdır.

Hesablar məhkəmədə sübut kimi istifadə olunmağa başlayan 15-ci əsrdən etibarən onların həqiqiliyinə nəzarət etmək zərurəti hamılıqla qəbul olundu. Bunun qeydi 1494-cü ildə Luca Pacioli tərəfindən nəşr olunan mühasibat uçotu üzrə ilk kitablardan biri olan Hesablar və qeydlər haqqında traktatda yer alır.

16-cı əsrdə İngiltərədə "auditor" sözü artıq hesablara nəzarət edən şəxslərə aid etmək üçün geniş şəkildə istifadə olunurdu. XX əsrin əvvəllərindən iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə audit və audit firmalarının məhkəmə ekspertizası adi hala çevrilmişdir. İlk təsdiq olunmuş auditor sənədi kimi "Cənub dəniz şirkətinin" 1720-ci ildə iflası prosesi qələmə alınmışdır. Bu hadisə Böyük Britaniyada baş vermişdir və tarixə "Cənub dəniz köpüyü" kimi düşmüşdür.

**Maliyyə nəzarati və auditin inkişafı və mahiyyəti**

Maliyyə nəzarəti maliyyə idarəetmə sisteminin mühüm hissəsidir, müasir dünyada artan əhəmiyyəti digər şeylərlə yanaşı, Nəzarətin Rəhbər Prinsiplərinin Lima Bəyannaməsində öz əksini tapır, buna görə maliyyə nəzarəti maliyyə idarəetməsinin ayrılmaz tərkib hissəsidir.
Tədqiqat mövzusunun aktuallığı dünyanın inkişaf etmiş ölkələrində maliyyə nəzarətinin rolunun güclənməsi və onun həyata keçirilməsinin səmərəliliyinin artırılması yollarının axtarılması ilə bağlıdır.

Beynəlxalq təcrübə göstərir ki, dövlətdə idarəetmənin müxtəlif səviyyələrində nəzarətedici orqanlar, əsasən, büdcə-maliyyə sahəsində çox səmərəli fəaliyyət göstərirlər. İnqilabdan əvvəlki dövrdə nə qanunvericilikdə, nə də elmi ədəbiyyatda "maliyyə nəzarəti" anlayışına rast gəlinməsə də, qərarın icrasının yoxlanılması prosedurunu ifadə edən "dövlət nəzarəti" termini geniş istifadə olunurdu. Hər hansı dövlət orqanı və ya yoxlama məqsədi ilə monitorinq, habelə bu yoxlamanı həyata keçirən qurumun özü (dövlət orqanı) tərəfindən həyata keçirilir.

Maliyyə və hüquq elmi XIX - XX əsrin əvvəllərində dövlət nəzarətini müstəqil maliyyə-hüquq institutu kimi deyil, dövlət büdcəsi doktrinasının bölmələrindən biri kimi hesab edirdi, yəni mahiyyət etibarilə dövlət və büdcə nəzarəti anlayışlarını müəyyən etmişdir: "Büdcə doktrinası nəzarət doktrinası ilə əlaqəli olmasaydı, natamam olardı. Büdcə qanununun dəyəri, nazirlərin məsuliyyətinə uyğun olaraq, nəzarətin az və ya çox mükəmməl qurulmasının mövcudluğundan asılıdır "deyə G. A. Vatsuro hesab edirdi.

18-ci əsrə qədər maliyyə elmi müstəqil bilik sahəsi kimi yalnız Fransada inkişaf etmişdir. Digər ölkələrdə maliyyə biliklərinin başlanğıcı kameral elmlər adlanan elmin bir hissəsi idi ki, bu da kameral, yəni dövlət əmlakının düzgün idarə edilməsi üçün zəruri olan məlumatların məcmusu kimi başa düşülürdü.

1980-ci illərin ikinci yarısında iqtisadi və siyasi sahələrdə başlanan əsaslı dəyişikliklər maliyyə nəzarətinin öyrənilməsində yeni mərhələnin başlanğıcını qoydu. Əgər əvvəllər dövlət sosialist mülkiyyət forması üstünlük təşkil edirdisə, formal olaraq yeganə olmasa da, indi plüralizm və müxtəlif mülkiyyət formalarının bərabərliyi konstitusiya səviyyəsində təsbit edilmişdir.

**Maliyyə nəzarəti və auditə elmi yanaşmalar**

Maliyyə nəzarətinin maliyyə hüququ sistemi ilə bağlı bir alt sektor və ya bir qurum kimi nəzərdən keçirilməsinə dair müəlliflərin fikirlərində fərqliliklər mövcuddur.
A.İ. Xudyakov maliyyə hüququnun ümumi hissəyə aid institutlarını ayıraraq, onların arasında maliyyə nəzarətini yerləşdirib.

E.Y. Qraçova maliyyə nəzarəti haqqında maliyyə hüququnun bir alt sahəsi kimi nəticə çıxararaq, dövlət və bələdiyyə maliyyə nəzarətini hüququn nəzərdən keçirilən alt sahəsinə aid edir. Y. E. Ashmarina, Maliyyə Qanununun Ümumi Hissəsi ilə əlaqəli qurumlardan danışaraq, "maliyyə nəzarəti ilə bağlı ümumi müddəalar" da daxil olmaqla, belə müəyyən edir.

1990-cı illərdə maliyyə nəzarəti ilə bağlı məsələlər həm maliyyə (N. T. Beluxa, Yu. A. Danilevski və s.), həm də maliyyə və hüquq elmi (A N. Kozyrin.) çərçivəsində inkişaf etməkdə davam edirdi. , N. I. Ximiçeva, və s.). Haqlı olaraq qeyd etdiyi kimi, prof. N. İ. Ximiçev, maliyyə hüququ ilə tənzimlənən münasibətlərdə maliyyə nəzarətinin əsas məzmunu: a) vətəndaşlar və təşkilatlar tərəfindən dövlət və yerli özünüidarəetmə orqanları qarşısında maliyyə öhdəliklərinin yerinə yetirilməsini yoxlamaq; b) dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatları tərəfindən onların təsərrüfat yurisdiksiyasında və ya operativ idarəetməsində olan maliyyə vəsaitlərindən (büdcə və öz vəsaitləri, bank kreditləri, büdcədənkənar və digər fondlar) istifadəsinin düzgünlüyünün yoxlanılması; c) müəssisə, təşkilat və idarələr tərəfindən

maliyyə əməliyyatları, hesablaşmalar və vəsaitlərin saxlanması qaydalarına riayət olunmasının yoxlanılması və s.

Razılaşmamaq olmaz kı, maliyyə nəzarətinin mahiyyəti onun vəzifələrində əks olunur, bunlardan ən mühümü maliyyə resurslarının vəziyyətinə nəzarətdir ki, bu da dövlət büdcəsi qarşısında öhdəliklərin vaxtında və tam yerinə yetirilməsinin, mərkəzləşdirilmiş və mərkəzləşdirilməmiş pul vəsaitlərinin istifadəsi üzrə əməliyyatların yoxlanılmasını nəzərdə tutur.

A.A. Yalbluqanovun iddiasina görə, 1917-ci il inqilabından əvvəlki dövrdə "maliyyə nəzarəti" kimi anlayış nə elmi ədəbiyyatda, nə də qanunvericilik səviyyəsində istifadə edilməmişdir. İnqilabdan əvvəlki dövrdə yalnız "dövlət nəzarəti" termini işlədilirdi. Beləliklə, yuxarıda deyilənlərə əsaslanaraq, inqilab dövründən əvvəl "dövlət nəzarəti" termini həm də maliyyə nəzarəti kimi başa düşülürdü.

N.S.Maleinin fikrincə, maliyyə nəzarəti maliyyə, kredit və təsərrüfat orqanlarının (təşkilatlarının) qanun normaları ilə tənzimlənən, planların icrası prosesində maliyyə, büdcə, kredit, hesablaşma və kassa intizamının təmin edilməsinə yönəlmiş və pul xərclərinin qanuniliyinin, əsaslılığının və rasionallığının yoxlanılmasından ibarət fəaliyyətidir.

N.I.Ximiçeva iddia edirdi ki, "maliyyə nəzarəti ölkənin və ayrı-ayrı regionların səmərəli sosial-iqtisadi inkişafı üçün dövlət və yerli özünüidarəetmə orqanlarının pul vəsaitlərinin təhsil, bölgüsü və istifadəsi sahəsində hərəkətlərin qanuniliyinə nəzarətdir". Maliyyə nəzarətinin elm sahəsi kimi göstərilməsinə gəlincə, bu yanaşma ilə razılaşmaq lazımdır, ancaq bir şərtlə: bu anlayışda "maliyyə nəzarəti nəzəriyyəsi" ifadəsini işlətmək məntiqlidir.

Polşa Elmi İdarəetmə İnstitutunun yaradıcısı, 1925-ci ildə yaradılmış Beynəlxalq Elmi İdarəetmə Komitəsinin vitse-prezidenti professor Karol Adameckinin (1866-1933) xüsusi rolunu qeyd etmək lazımdır. idarəetmənin ən mühüm prinsiplərini, həm də təşkilatlar üzərində ciddi nəzarət nəzəriyyəsini inkişaf etdirmişdir. Adamatskinin fikrincə, planlaşdırılan tədbirin gedişatını "sona qədər" yoxlamaq lazımdır. Ona görə də yadda saxlamaq lazımdır ki, nəzarət məqsəd deyil, alətdir.

**Nəticə**

"Maliyyə nəzarəti" anlayışının çoxlu sayda təriflərini öyrənərək və təhlil edərək belə nəticəyə gəldik ki, bu termin həm dar baxış perspektivi, həm də onun daha geniş şərhi ilə xarakterizə olunur. Maliyyə nəzarətini daha dar prizmada nəzərdən keçirən müəlliflər bu tərifin həm maliyyə nəzarətinin müxtəlif forma və metodlarında, həm də nəzarət funksiyalarını həyata keçirən subyektlərin fəaliyyətinin xarakterində aşkarlanan spesifikliyini və unikallığını vurğulayırlar. Maliyyə nəzarəti sisteminin bərpası və onun iqtisadiyyatın hazırkı vəziyyətinə adekvat olan üsullarının işlənib hazırlanması zərurəti getdikcə daha aydın görünür.

Fikrimicə, maliyyə nəzarəti nəzarət orqanlarının funksiyalarından biri hesab oluna bilər ki, bu da nəzarət obyektinin həyata keçirdiyi əməliyyatların qanuniliyini müəyyən etmək üçün onun maliyyə hərəkətləri haqqında məlumatların toplanması və qiymətləndirilməsi sistemidir. müəyyən forma, üsul və metodlardan istifadə etməklə əldə edilən maliyyə göstəricilərinin etibarlılığı və keyfiyyəti.təşkilat növləri. Obyektin maliyyə axınları dedikdə, onun əmlakının hər hansı elementlərinin və ya mülkiyyət hüququ obyektlərinin hərəkəti başa düşülməlidir, müvafiq olaraq onların formalaşması (maliyyələşdirilməsi) mənbələrinin pul ifadəsi ilə qiymətləndirilməsi. Bu tərif maliyyə nəzarətinin mahiyyəti haqqında ümumi təsəvvür yaradır və onun növlərinin hər biri ilə bağlı əsas elementlərin aydınlaşdırılmasını tələb edir. Belə ki, maliyyə nəzarəti iqtisadi nəzəriyyənin üstünlüklərindən istifadə edərək, praktiki tövsiyələri ilə idarəetmə, bölgü və istehlak sistemində mühüm rol oynayır.

Cəmiyyətdə mövcud olan qeyri-mütənasiblikləri və neqativ halları üzə çıxarmaqla (aşkar etməklə) onların aradan qaldırılmasına və təkrarlanmamasına gətirib çıxarır, eyni zamanda istehsal münasibətlərinin rasional təşkilinə, istehsal güclərindən optimal istifadəyə töhfə verir.

**İstifadə olunmuş ədəbiyyat**


1. Е. В. Ендовицкая, Е. Ю. Колесникова, Е. И. Тулинова "Финансовый контроль и аудит"
2. И.б. Романов О.Ф. Ермишина "Аудит"
3. Н. А. Богданова, М. А. Рябова "Основы аудита"
4. М.В. Мельник, А.С. Пантелеев, А.Л. Звездин "Ревизия И Контроль"
5. Н.Д. Эриашвили «Финансовое Право: Учебник Для Вузов»
6. Финансовое Право: Учеб. / Под Ред. Н. И. Химичевой.
7. Э. Н. Елькина, Аспирант Уральского Государственного Аграрного Университета Международный Опыт Финансового Контроля
8. Лекции по «Финансовому Праву»
9. Статья З.М. Хайруллаева «Формирование Финансового Контроля Как Правового Института»
10. D.A.Bağırov. Vergi auditi.
11. Xankişiyev B.A. "Maliyyə nəzarəti". Bakı, 2012.
12. Rzayev Q.R. "Mühasibat uçotu və audit". Bakı, "Təhsil" 2002



**Rüzgar Məhyəddinli**

*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, magistrant*

*ruzgar_rustemova@mail.ru*


## AZƏRBAYCANDA KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ İXRACININ PERSPEKTİVLƏRİ


**Xülasə**-məqalədə Azərbaycanda kənd təsərrüfatının, kənd təsərrüfatı məhsullarının ixracı istiqamətində təhlil aparılmışdır. Eyni zamanda Azərbaycanda xarici ticarətin mövcud vəziyyəti araşdırılır və ixracın artırılması üçün yüksək potensiala malik sahələrin inkişafı üçün tövsiyələr verilir.



**Açar sözlər**- Kənd təsərrüfatı ərzaq məhsulları, məhsul ixracı, məhsul idxalı, ərzaq təhlükəsizliyi, tələbat



**Резюме**- в статье анализируется экспорт сельскохозяйственной продукции и сельскохозяйственной продукции в Азербайджане, а также подробно анализируется удовлетворение спроса на сельскохозяйственную продукцию в Азербайджане, увеличение импорта, обеспечение продовольственной безопасности.



**Ключевые слова**- Сельскохозяйственная пищевая продукция, экспорт продукции, импорт продукции, продовольственная безопасность, спрос



**Summary**-the article analyses the export of agriculture and agricultural products in Azerbaijan. It also analyses in detail the meeting of demand for agricultural products in Azerbaijan, increasing imports, ensuring food security.



**Keywords**- Agricultural food products, product exports, product imports, food security, demand


Beynəlxalq aləmdə gedən inteqrasiya və qloballaşma prosesləri aktual olan kənd təsərrüfatı məhsullarının ixracının əhəmiyyətini artırmışdır. Ölkələrin ixracı, xarici ticarət əlaqələrinin keyfiyyəti və həcmi, dünyadakı iqtisadi vəziyyəti, inkişafı, rifahı, təsərrüfat vahidlərinin faydalarının maksimuma çatdırılması. onlara təsir göstərir.

Kənd təsərrüfatı məşğulluğa, milli gəlirə verdiyi töhfəyə, başqa sahələrin inkişafı üçün xammal, kapitalla təmin edilməsinə, ixraca birbaşa və dolayı yolla təsirinə görə ölkə iqtisadiyyatının ən vacib sahəsidir. Kənd təsərrüfatı məhsulları bəşər sivilizasiyasının təkamülü və inkişafında əsas rol oynayır. Xüsusilə sənayenin inkişafının nəticəsi olaraq kənd təsərrüfatı istehsalının xarakteri, eyni zamanda bununla əlaqədar fəaliyyətlər dəyişməyə başlamışdı. Beləliklə, həmin sahədə istehsal təkcə əmtəə əldə etməyə çalışmamış, eyni zamanda kapitalın artırılmasının ən vacib vasitəsinə çevrilmişdir (Sodano, 2012: 375). Buna görə də kənd təsərrüfatı istehsalı yalnız insanların yaşaması üçün lazım olan sektora deyil, həm də milli gəlirə öz töhfəsini vermişdir.

Bu gün ölkələrin yerli istehsalı artırmaqla idxaldan asılılıqdan qurtulması, eyni zamanda "artıq" kənd təsərrüfatı məhsullarının ixracından gəlir əldə etməsi strateji əhəmiyyətə malikdir. Bu sektor əsas gəlir mənbəyi olmaqla yanaşı, ölkəyə əhalinin məşğulluğunun təmin olunmasında və valyuta axınında vacib rol oynayır. Beləliklə , kənd təsərrüfatının şaxələndirilməsi davamlılıq üçün ən əsas sektorlardan biridir.

Kənd təsərrüfatı sektoru müxtəlif məhsullar istehsal etməklə, insanların bu məhsullara olan tələbatını ödəməklə cəmiyyətin inkişafına mühüm təsir göstərir. Buna görə də, bu məhsullar cəmiyyətin iqtisadi, sosial, ekoloji tərəqqisi də daxil olmaqla daimi inkişaf üçün zəmin yaradır. Bu gün kənd təsərrüfatının tənzimlənməsinin bir neçə səbəbi mövcuddur. Qida təhlükəsizliyi ən əsas səbəblərdən biridir. Ərzaq təhlükəsizliyi bütün ev təsərrüfatlarına adekvat iqtisadicəhətdən , eləcə də təhlükəsiz, keyfiyyətli , sağlam qida istehlak etmək hüququna təminat verir. Qida təhlükəsizliyi qida zəncirini də əhatə edən sahələrdən biridir. Başqa cür söyləsə, ərzaq təhlükəsizliyinin təmin olunması istehsaldan istehlaka qədər bütün mərhələlərdə lazımi tədbirlər görülməklə insan sağlamlığına mənfi təsir göstərəcək bütün şərait, amillərin aradan qaldırılmasına xidmət edir. Bu sektorun iqlim şəraitindən asılılığı bu sahədə risk və qeyri-müəyyənlik faktorlarını artırır.

Digər səbəblərdən biri isə "iqtisadi inkişaf" sistemi ilə bağlıdır. Kənd təsərrüfatı, xidmət və sənaye sektorları iqtisadi inkişaf prosesi ilə güclü ahəngdə inkişaf edir. Məsələn, kənd təsərrüfatı sektoru sənaye sektorunu xammalla təmin etməklə yanaşı, eyni zamanda sənaye məhsullarına görə yeni bazarlar açır. Bənzər bir vəziyyət xidmət sahəsinə də aid edilir. Başqa sözlə söyləsək, kənd təsərrüfatı, xidmət və sənaye sektoru bir-biri ilə ciddi və canlı şəkildə qarşılıqlı əlaqədədir. Ümumilikdə, kənd təsərrüfatında xarici ticarət 2000-ci ildən xeyli artmışdır. Sürətlə inkişaf etmiş ölkələrdə sənaye istehsalının artması kənd təsərrüfatı xammalına tələbatın artmasına səbəb olmuşdur. Nəticədə kənd təsərrüfatı məhsullarının beynəlxalq ticarətində sürətli artım müşahidə edilmişdir. Bu tendensiya inkişaf etməkdə olan ölkələrə beynəlxalq bazarlarda iştirakını genişləndirməyə (FAO, 2018) , qlobal miqyasda "ən yaxşıları" axtarmağa imkan verdi.

Qrafik 1-ə əsasən, Azərbaycanda ümumi kənd təsərrüfatı məhsulunun dəyəri 1990-cı ildə 0,102 mln. manat, 2000-ci ildə 1112,4 mln. manat, 2010-cu ildə 3877,7 mln. manat, 2018-ci ildə. isə 7010 mln olmuşdur.

Cədvəl 1-dən göründüyü kimi, ölkədə istehsal olunan kənd təsərrüfatı məhsullarının maya dəyəri illər ərzində artsa da, ÜDM-də kənd təsərrüfatı məhsullarının xüsusi çəkisi qənaətbəxş olmamışdır, azalmışdır. Bu, ÜDM-də başqa sahələrin, əsasən də neft sektorunun böyük payına düşür. Kənd təsərrüfatı məhsullarının istehsalını qənaətbəxş səviyyədə artırmaq, həmçinin ÜDM-də payını da artırmaq üçün Azərbaycanda bu sahədə yüksək potensiallı məhsullar yetişdirilməlidir.




**Qrafik 1. Kənd təsərrüfatı məhsullarının ümumi dəyəri, milyon manat**
Mənbə: https://www.stat.gov.az/source/agriculture/

**Cədvəl 1**

**Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda ümumi daxili məhsul**

| | ÜDM, mln manat | ÜDM, % |
|---|---|---|
| 2000 | 758,9 | 16,1 |
| 2001 | 788,7 | 14,8 |
| 2002 | 846,0 | 14,0 |
| 2003 | 888,0 | 12,4 |
| 2004 | 937,3 | 11,0 |
| 2005 | 1137,9 | 9,1 |
| 2006 | 1329,4 | 7,1 |
| 2007 | 1901,0 | 6,7 |
| 2008 | 2246,0 | 5,6 |
| 2009 | 2179,5 | 6,1 |

| | ÜDM, mln manat | ÜDM, % |
|---|---|---|
| 2010 | 2344,6 | 5,5 |
| 2011 | 2643,5 | 5,1 |
| 2012 | 2813,7 | 5,1 |
| 2013 | 3122,2 | 5,4 |
| 2014 | 3139,2 | 5,3 |
| 2015 | 3159,4 | 6,2 |
| 2016 | 3386,8 | 5,6 |
| 2017 | 3944,1 | 5.6 |
| 2018 | 4190,1 | 5,3 |

Mənbə: https://www.stat.gov.az/source/agriculture/

Bu baxımdan, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının məlumatına görə, Azərbaycan beynəlxalq bazarda müsbət mövqeyə malik yeganə ölkədir. Fındıq ixracından əldə edilən gəlir illər keçdikcə artaraq 2019-ci ildə 85,643 min dollara çatıb.Qoz ixracı ilə bağlı vəziyyət isə tam əksinə olub. Belə ki, idxal illər ərzində kəskin artsa da, ixrac çox aşağı olmuşdur.

“Made in Azerbaijan” brendin tədbirləri mühüm stimullardan biridir. Ötən müddət ərzində “Made in Azerbaijan” brendinin xarici ölkələrə tanıdılması məqsədilə 30-dan çox ixrac missiyası həyata keçirilib. Azərbaycan məhsulları 24 beynəlxalq sərgidə nümayiş etdirilmişdir.

Bu tədbirlər çərçivəsində imzalanmış müvafiq sazişlər əsasında əlavə ixrac istiqamətləri araşdırılaraq fəaliyyətə başlanılmışdır (http://xalqqazeti.com/az/news/28672).

Bundan əlavə, biri "Made in Azerbaijan" brendinin xarici bazarlarda tanıdılması istiqamətində görülən tədbirlər xaricdə Azərbaycan ticarət və şərab evlərinin yaradılması olmuşdur. 2017-ci ildə Belarusda, 2018-ci ildə Ukrayna, Latviya, Polşa və Çində, 2019-cu ildə isə Birləşmiş Ərəb Əmirliklərində Azərbaycan ticarət evləri açılmışdır. Bu ticarət evlərinin demək olar ki, hər birində Azərbaycanın müxtəlif məhsullarının daimi sərgisi mövcuddur. Eyni anda Azərbaycanın ticarət nümayəndələri də təyin olunmuşdur (http://xalqqazeti.com/az /news/28672).

Azərbaycan da öz növbəsində xarici ticarət əlaqələrinin gücləndirilməsini həmişə əsas məqsəd hesab etmişdir. Bu məqsədlə ölkədə çoxsaylı islahatlar aparılmış, qanunvericilik bazası genişləndirilmiş, müxtəlif əməkdaşlıq müqavilələri imzalanmışdır. Bundan əlavə, Azərbaycan xarici ticarət əlaqələrini şaxələndirməli, xüsusilə qeyri-neft məhsullarının ixracını artırmalıdır. Buna ancaq bu sahədə beynəlxalq standartlara cavab verən rəqabətqabiliyyətli məhsulların, xüsusilə kənd təsərrüfatında ekoloji cəhətdən təmiz məhsulların istehsalı ilə nail olmaq olar.

**Nəticə və təklif**

Azərbaycanın qeyri-neft sənayesində, xüsusilə tərəvəz, qoz-fındıq, sitrus meyvələri, çay və ədviyyatlar sahəsində böyük potensialı mövcuddur. Bu sahələri inkişaf etdirmək, rəqabət qabiliyyətini artırmaq və beynəlxalq bazara çıxarmaq üçün bu məhsulların beynəlxalq standartlara uyğunlaşması lzımdır. Dünyanın bir çox ölkələrində ekoloji təmiz məhsullara tələbatın yüksək olduğunu, bu tendensiyanın gələcəkdə də davamlı olacağını nəzərə alaraq, Azərbaycan ekoloji təmiz məhsulların istehsalına üstünlük verməlidir.

Bunun üçün bu sahələrdə aşağıdakı islahatlar aparılmalıdır:

• Beynəlxalq standartlaşdırma qaydalarının öyrənilməsi;
• Beynəlxalq ekspertlərlə əməkdaşlığın təşkili;
• Yeni iqtisadi, sosial və ekoloji meyillərə uyğunlaşmaq üçün insan resurslarının inkişafı;
• Kooperativlərin yaradılması;
• Dövlət təchizat şirkətlərinin yaradılması;
• Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin birgə mərkəzinin yaradılması;
• Dövlət Gömrük Komitəsi və kənd təsərrüfatı kooperativləri ixracı asanlaşdırsın.

Belə ki, beynəlxalq standartlara, normalara uyğun yüksək potensiallı məhsullaın istehsalı Azərbaycan məhsullarının dünya bazarında brend kimi tanınmasına, eyni zamanda xarici ticarətin müsbət saldosunu artırmaq lazımdır.

**Ədəbiyyat siyahısı**


1. Azərbaycanın xarici ticarət əlaqələri genişlənir, 04.01.2020-ci ildə http://xalqqazeti.com/az/news/28672 saytından əldə edilib.
2. Chen, T.B., Chai, L.T. (2010). Ətraf mühitə və yaşıl məhsullara münasibət: istehlakçıların baxışı. idarə et. Sci. Eng. 4, 27–39
3. Ekoloji təmiz qida və kənd təsərrüfatı məhsullarının etiketlənməsi Qaydaları (06.11.2018). 02.01.2020-ci il tarixində http://www.e-qanun.az/framework/40551 saytından alınıb.
4. FAO (2018). Kənd Təsərrüfatı Əmtəə Bazarlarının Vəziyyəti 2018. Kənd təsərrüfatı ticarəti, iqlim dəyişikliyi və ərzaq təhlükəsizliyi, Roma.
5. Sadiqzada, E.R., Loewenstein, W. and Həsənli, Y. (2019). Əmtəə gəlirləri, kənd təsərrüfatı sektoru və sənayesizləşmənin miqyası: Yeni multisektor perspektivi, iqtisadiyyatlar, 7.
6. Seo, S., Ahn, H.K., Jeong, J., Moon, J. (2016). İstehlakçıların davamlı qida məhsullarına münasibəti: Tərkibi və Qablaşdırma. Davamlılıq, 8, 1073.

**Elnur Cavadov**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, magistrant*
*cavadov.elnur2000@gmail.com*

# UZUNMÜDDƏTLİ İNVESTİSİYALARIN BEYNƏLXALQ VƏ UÇOT STANDARTLARINA UYĞUN UÇOTUNUN TƏŞKİLİ

## Xülasə

*İqtisadi proseslərin mütəhərrikliyi, inkişaf surəti bu sahəyə dinamik xarakter verir. Bu proses modern anlayışların əhəmiyyətli formalarının iqtisadiyyat elminə gətirilməsi, onların tətbiqi və inkişafı ilə nəticələnir. Bu anlayışlardan biri də investisiyadır. Demək olar ki, hər bir dövlətin, müəssisənin fəaliyyəti bu və ya digər dərəcədə investisiya fəaliyyəti ilə əlaqəlidir. Resursların məhdudluğu və onlara tələbatın durmadan inkişafı cəmiyyəti xarici və daxili resursları cəlb etmək üsullarının axtarılmasını tələb edir.Məqalədə, Azərbaycan iqtisadiyyatına xarici və daxili kapitalın cəlb olunması təcrübəsinin təkmilləşdirilməsi və onun təhlili, investisiya mühitinin daha da sabitləşdirilməsi məsələlərinə baxılmışdır.*

**Açar sözlər:** investisiya fəaliyyəti, investisiya obyekti, gəlir, emissiya gəliri, dividend, portfel investisiya

### Giriş

Bazar təsərrüfatçılıq formalarına keçidlə əlaqədar olaraq, habelə Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası ilə bağlı olaraq investisiya qoyuluşu ölkənin iqtisadi siyasətinin tərkib hissəsinə çevrilmişdir. Son zamanlar, Azərbaycan iqtisadiyyatının neft sahəsindən asılılığının aradan qaldırılması yolları, qeyri-neft sahələrin inkişaf etdirilməsi dövlətimizin və hökümətin qarşısında duran prioritet məsələlərindəndir. Bunun üçün kənd təsərrüfatı, istehsal sahələrinin, turizmin inkişafı labüddür. Bu sahələrin inkişafı isə uzunmüddətli investisiya qoyuluşlarını tələb məsələlərin öyrənilməsi həm ona görə böyük aktuallıq kəsb edir ki,Azərbaycanın bu sahədə təcrübəsi heç də böyük deyildir.

Azərbaycan Respublikasının bazar iqtisadi münasibətlər sisteminə keçməsi çoxlu problemlər ortaya atmışdır ki, onlar arasında başlıcası investisiya problemidir. Məqalənin məqsədi uzun müddətli investisiya uçotunun milli və beynəlxalq uçot standartlarına uyğun təşkilini araşdırmaq, onların yaranma mənbələri və uçotu problemlərini müəyyən etməkdir Bütün bunlar uzun müddətli investisiya qoyuluşunun uçotunu və nəzəri təhlilinin aparılmasını vacib edir.

### İnvestiya anlayışı, onun iqtisadi mahiyyəti və təsnifatı

Hər bir milli iqtisadiyyatın əsas və nadir resurslarından biri-investisiyadır. Bu alətdən istifadə istehsalı təkmilləşdirməyə, modernləşdirməyə, yeniləşdirməyə, iqtisadiyyatın strukturunun yenidən qurulmasına, mövcud iş yerlərinin sayının artırılmasına, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə, bazarı ucuz və keyfiyyətli məhsullarla təmin etməyə, yerli əmtəə istehsalçılarının rəqabət qabiliyyətini yüksəltməyə imkan verir ki, bu da axır nəticədə ölkənin beynəlxalq münasibətlərdə nüfuzunun artırılmasına və əhalinin həyat səviyyəsinin yüksəlməsinə səbəb olur [1,s.2].

İnvestisiya (latınca «invest» - «sərmayə qoyuluşu» mənasını verir) - gəlir götürmək məqsədilə, iqtisadiyyatın müxtəlif sahələrinə qısa və uzunmüddətli sərmayə

qoyuluşudur.

Baxmayaraq, "invetisiya" anlayışı çoxdan dünya iqtisadiyyatı elminin terminlərinə daxil olmuşdur, milli iqtisadi ədəbiyyatlarda uzun müddət "investisiya" termini adı altında "kapital qoyuluşu" başa düşülürdü. Başqa sözlə, "investisya" termini çox dar mənada müəyyən olunurdu: Sənaye, tikinti, kənd təsərrüfatı, nəqliyyat, ticarət və iqtisadi fəaliyyətin başqa sahələrinə uzunmüddətli kapital qoyuluşu şəklində həyata keçirilən xərclərin məcmusu kimi başa düşülürdü [1,s.5].

Uzunmüddətli maliyyə qoyuluşları əsas kapitalın bərpası ilə əlaqədar olduğu üçün "investisiya" anlayışı çox zaman kapital qoyuluşu kimi müəyyən olunur.İnvestisiya anlayışına belə yanaşma düzgün deyil, çünki əsas fondlar dövrüyyə vəsaitlərindən təcrid olunmuş şəkildə normal fəaliyyət göstərə bilmir. Bununla əlaqədar, həmçinin beynəlxalq standartların tələbilə "investisiya" anlayışı gəlir əldə etmək məqsədilə əsas və dövrüyyə kapitalına qoyulan daxilolmalar kimi başa düşülür [7,s.130].

Amma kifayət qədər tez-tez investisiya və kapital qoyuluşu anlayışları eyniləşdirilir. Lakin, kapital qoyuluşu-gəlir əldə etmək məqsədilə vəsaitlərin investisiyalaşdırılması formalarından biridir. Qeyd etmək lazımdır ki,kapital qoyuluşu investisiya kompleksinin əsas halqasıdır; müəyyən vaxt çərçivəsində həyata keçirilən əsas fondların köhnəlmə səviyyəsi iqtisadi vəziyyətin müəyyən indikatorunu əks etdirir: tələb olunan əsas kapitalı əvəzləmək üçün kapital qoyuluşu kifayət qədər deyilsə, istehsalın durğunluq və böhran vəziyyətindən danışmaq olar.

"İnvestisiya" kateqoriyası özünə istənilən iqtisadi, ekoloji və sosial effekt verən, axır nəticədə iqtisadi effekt şəklində qayıdan qoyuluşları aid edir.

## Uzunmüddətli investisiyaların beynəlxalq və milli uçot standartlarına uyğun uçotunun təşkili

Əsas vəsaitlər mühasibat balansının 11-ci maddəsində "Torpaq, tikili və avadanlıqlar" adlanır. "Torpaq, tikili və avadanlıqlar" 7 saylı Milli Mühasibat Uçotu Standartında açıqlanıb. Mühasibat balansının bu maddəsinə təşkilatın mülkiyyətində olan və ya maliyyə icarəsi üzrə istifadə edilən, amortizasiya xərcləri çıxıldıqdan sonra torpağın, tikililərin, avadanlıqların, maşınların, cihazların, nəqliyyat vasitələrinin və digər torpaq, tikili və avadanlıqların xalis balans dəyəri aiddir. Bu maddəyə həmçinin 13 saylı Milli Mühasibat Uçotu Standartına əsasən torpaq, tikili və avadanlıqların təkrar istehsalı ilə əlaqəli yaranmış hər hansı məsrəflərin kapitallaşdırılması daxildir. Torpaq,tikili və avadanlıqlar müvafiq olaraq hesablar planının 111 və 113-cü hesablarında uçota alınır [8,s.215].

Torpaq,tikili və avadanlıqların uçotu onların nümunəvi təsnifatına müvafiq olaraq, mərkəzləşdirilmiş qaydada təşkil edilir. Uçot hər bir təsnifat qrupu daxilində ayrı-ayrı inventar obyektləri çərçivəsində aparılır. İnventar obyekti dedikdə, vahid bütövlükdə birləşdirilmiş və konkret istehsal funksiyalarının yerinə yetirilməsi üçün ayrılmış torpaq, tikili və avadanlıqların, bioloji aktivlərin hər bir ayrıca əşyası və ya kompleks əşyası başa düşülür.

Uçotun düzgün təşkil edilməsi və torpaq,tikili və avadanlıqların mühafizəsinə nəzarətin təmin edilməsi üçün, hər bir inventar obyektinə müəyyən nömrə verilir. İnventar nömrəsi obyektin təşkilatda bütün istismar dövrü ərzində saxlanılır. O, obyektin mövcud olması və hərəkətini rəsmiləşdirən bütün ilkin sənədlərdə əks olunur [1,s.67].

Torpaq,tikili və avadanlıqların düzgün istifadə edilməsi ölkənin iqtisadiyyatının gələcəkdə yüksəldilməsi üçün böyük əhəmiyyətə malikdir. Ona görə həmin vəsaitlərin yaxşı təşkil edilmiş mühasibat uçotunun təşkili ilə təmin etməlidir.

Kommersiya təşkilatlarında torpaq,tikili və avadanlıqlar, binalar,qurğular, ötürücü

qurğular, maşın və avadanlıqlar, nəqliyyat vasitələri, alətlər, istehsalat inventarları və ləvazimatları, təsərrüfat inventarları və sair vəsaitlər əsas vəsaitlərin tərkibinə daxil edilir.
Təşkilat ödəmə hesabına, yeni obyektlərin tikilməsi və ya uzunmüddətli investisiyalar qaydasında, fəaliyyətdə olan istehsal güclərinin yenidən qurulması, genişləndirilməsi və texniki cəhətdən yenidən silahlanması nəticəsində cari və uzunmüddətli icarə şərtləri ilə torpaq, tikili və avadanlıq əldə edə bilər. Kommersiya təşkilatı nizamnamə kapitalına qoyuluş kimi iştirakçıdan (təsisçidən) torpaq, tikili və avadanlıqda ala bilər. Təşkilatın balansına qəbul edilmiş torpaq,tikili və avadanlıqların mövcudluğu və hərəkətinin uçotu 111 saylı "Torpaq,tikili və avadanlıqlar-Dəyər" adlı aktiv inventar hesabında aparılır.
İşlərin təşkilinin xarakterinə kapital qoyuluşları ya podrat üsulu ilə, yəni müqavilə əsasında xüsusi tikinti təşkilatı vasitəsi ilə və yaxud da təşkilatların özləri tərəfindən, yəni təsərrüfat üsulu ilə yerinə yetirilir.

Kapital qoyuluşlarının uçotu həm tikinti üzrə bütövlükdə və həm də ayrı-ayrı obyektlər üzrə (binalar, qurğular, ötürücü qurğular və i.a.) obyektləri işə salana qədər və ya müvafiq işlərin və məsrəflərin silinməsini tamamilə yerinə yetirənə qədər ilin və tikintinin əvvəlindən artan yekunla faktiki məsrəflər üzrə aparılır.Bununla yanaşı, sifarişçi tikintinin həyata keçirilməsi üsulundan asılı olmayaraq həyata keçirilən kapital qoyuluşlarının uçotu smeta dəyəri ilə də aparılır. Sifarişçinin mühasibatında bütün maliyyələşmə mənbələrində həyata keçirilən kapital qoyuluş qoyuluşlarının uçotu 113 saylı "Torpaq, tikinti və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması" hesabında aparılır.Hesabın debetində müəyyən edilmiş qaydada torpaq, tikinti və avadanlıqların obyektlərinin ilkin dəyərinə daxil edilən sifarişçinin faktiki məsrəfləri, həmçinin tikili və avadanlıqların obyektlərinin ilkin dəyərinə daxil edilməyən, tikili və avadanlıqların tikintisi və əldə edilməsi ilə əlaqədar olan məsrəflər də əks olunur [1,s.105].

Uzunmüddətli investisiya qoyuluşlarının uçotunun mürəkkəbliyini nəzərə alaraq, onların analitik uçotunu düzgün təşkil etmək çox vacibdir, əsaslı tikinti üzrə məsrəflərin analitik uçotu 18 saylı "Kapital qoyuluşları üzrə məsrəflər"cədvəlində aparılır. Kapital qoyuluşları üzrə əməliyyatlar 16 saylı jurnal-orderdə uçota alınır,əməliyyatlar 113 saylı "Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması" hesabının krediti üzrə aparılır.Bu zaman işlər ancaq podrat üsulu ilə həyata keçirilərsə 16 saylı jurnal-orderdə,113 saylı hesabın krediti üzrə aparılır.Əgər işlər təsərrüfat üsulu ilə aparılarsa, onların istehsalına çəkilən xərclər 10-M/d saylı jurnal-orderdə uçota alınır,buna görə də 113 saylı hesabın krediti üzrə əməliyyatlar 16 saylı jurnal-orderdə əks olunmur.

**Nəticə**

Azərbaycan Respublikasının iqtisadiyyatı müstəqilliyin ilk dövrlərində böhran vəziyyətinə düşmüşdü və eyni zamanda Azərbaycan bir müstəqil dövlət olaraq bazar iqtisadiyyatının iqtisadi modelini seçmişdir. Belə bir şəraitdə milli valyuta ehtiyatları tamamilə tükənən bir ölkə üçün yeganə çıxış yolu xarici və daxili investisiyaların ölkəyə cəlb olunması yolu ilə milli iqtisadiyyatı dirçəltmək, investorlar üçün investisiya mühiti yaratmaq qarşıda duran əsas məqsədlərdən biri olmalıdır. Ölkədə investisiya mühitinin formalaşdırılması sahəsində müəyyən tədbirlər görülür və bu sahədə qanunlar qəbul edilir. Bunun nəticəsidir ki, Azərbaycan iqtisadiyyatına qoyulan investisiyaların həcmi 2015-ci il ilə müqayisədə 8% artaraq 17,2 milyard manat olmuşdur.

Azərbaycanın müasir investisiya siyasətinin əsas xüsusiyyəti isə Azərbaycan iqtisadiyyatının neftdən asılılığının tamamilə azaldılması və neftdən gələn gəlirlərin qeyri-neft sektoruna investisiya şəklində yönəldilməsi yolu ilə bu sektorun yüksək inkişafına nail olmaqla müəyyən olunur. Buna nail olmaq üçün isə mövcud istehsal obyektlərinə investisiyalar yönəltməklə onların istehsal gücünü artırmaq və müasir innovativ

texnologiyalar tətbiq etməklə yeni istehsal müəssisələri yaratmaq lazımdır. Buna isə, iqtisadiyyata uzun müddətli investisiya qoyuluşlarının cəlb olunması yolu ilə nail olmaq olar.

Son dövrlərdə isə dünya bazarında xam neftin qiymətinin qeyri-stabilliyi Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun inkişafının sürətlənməsinin vacibliyini göstərir, bu sahəyə uzunmüddətli investisiya qoyuluşlarını tələb edir. Bütün bunlar isə uzunmüddətli investisiya qoyuluşunun uçotunu, onların üzərində nəzarət və təhlilin aparılmasını vacib edir.

**Ədəbiyyat siyahısı**


1. Atakişiyev M., Süleymanov Q., "İnnovasiya menecmenti" Bakı-2004.
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi,2021
3. "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu,13 yanvar 1995-ci il.
4. "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının qanunu, 30 noyabr 1999-cu il
5. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının qanunu.
6. Mühasibat uçotunun Beyəlxalq Standartları.
7. Sadiqov Ə.A, Sadıqov T.Ə,CəfərovaŞ.Ə, Sadıqov C.Ə, "Mühasibat uçotu" , Bakı-2015
8. Səfərov R., "Azərbaycanda yeni texnologiyaların tətbiqi sahəsində innovasiya fəaliyyətinin təkmilləşdirilməsi mexanizmləri" Bakı-2007



**Soltan Hüseynov**

*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, magistrant*

*sultanhuseynovjob@gmail.com*


## İKİQAT VERGİ VƏ ONUN ARADAN QALDIRILMASI YOLLARI


***Açar sözlər:*** vergi, ikiqat vergi, ikiqat verginin aradan qaldırılması, ikiqat vergitutma, ikiqat vergiyə dair beynəlxalq vergi müqavilələri


### Giriş

Birinci Dünya Müharibəsindən sonrakı iqtisadi depressiya və ölkələrin həyata keçirdikləri proteksionizm siyasəti dünya ticarətinin daralması ilə bağlı olaraq beynəlxalq müstəvidə inkişaf etmiş ölkələrin təşəbbüsləri ilə aradan qaldırılmağa çalışılmışdır. Beynəlxalq ticarətin liberallaşdırılması İkinci Dünya Müharibəsindən sonra da davam etmişdir. Bu çərçivədə həm "Gömrük Tarifləri" və eləcədə "Ticarət Baş Sazişi", həm də "Azad Ticarət Sazişi" çərçivəsində çoxtərəfli ticarət müqavilələri imzalanmaqda idi. Saziş, Azad Ticarət Zonası və Gömrük İttifaqı kimi iqtisadi əməkdaşlıq hərəkətləri vasitəsilə dünya ticarət həcmini artırılmağa çalışılmışdır. İnkişaf edən texnologiya ilə birlikdə dünya ticarətinin qloballaşdığı belə bir mühitdə mənfəətin maksimumlaşdırılması kontekstində kapital və işçi axını da ən sərfəli ölkələrə getməkdə idi. Beynəlxalq ticarət əlaqələrindən yaranan ölkələrin iqtisadi fəaliyyəti onların xeyrinə vergitutma, ikiqat vergi problemini ortaya çıxardı.

### İkiqat vergi anlayışı və onun mahiyyəti

Milli və beynəlxalq səviyyədə, hüquqi və iqtisadi mənaya sahib olan ikiqat vergi hər bir ölçüsü və mənası etibarı ilə ayrı-ayrı ifadə edilməkdədir. Hər şeydən əvvəl, milli ölçüdə ikiqat vergi; eyni dövlət daxilində müxtəlif səbəblərdən vergi səlahiyyətlərinin müxtəlif inzibati və ya siyasi səviyyələrə bölüşdürülmüş vergi vəzifəsinin eyni vergi öhdəliyi üzərində münaqişəsi kimi müəyyən edilə bilər. Beynəlxalq ölçüdə ikiqat vergi bir-birindən asılı olmayaraq iki və ya daha çox dövlətin vergitutma səlahiyyətlərinin üst-üstə düşməsi

nəticəsində eyni vergi ödəyicisinin eyni vergi öhdəliyi üzrə iki dəfə eyni vergiyə cəlb edilməsi kimi müəyyən edilə bilər [8, s. 56-57]. Bununla birlikdə ikiqat vergi kimi geniş şəkildə qəbul edilən iqtisadi mənada ikiqat vergi müxtəlif vergi ödəyicilərinin eyni vergi öhdəliyi üzərində bir dövlətə və ya birdən çox dövlətin vergi öhdəliyinə tabe olmasıdır [3, s. 52]. Bunun əsas səbəbi vergi öhdəliyinin müxtəlif dövlətlərdə fərqli formada tanınması və ya vergitutma bazasının müəyyənləşdirilməsində fərqli metodların tətbiqidir [3, s. 139]. Məsələn, bir ölkədə vergi ödəyicisi kimi qəbul edilmiş şirkətin gəlirinin hüquqi şəxs kimi qəbul edilmiş şirkət tərəfindən ayrı, fiziki şəxs hesab edilən şirkət ortağı tərəfindən ayrı vergiyə cəlb edilməsi və ya bir ölkənin vətəndaşının digər ölkənin vətəndaşına ödədiyi kompensasiyanın xərc kimi silinməsinə icazə verilməyərək kompensasiyanın ödəndiyi ölkədə də gəlir olaraq qəbul edilərəkvergiyə cəlb edilməsi bu növ ikiqat vergi hesab edilir [1, s.89].

Geniş mənada ikiqat vergi kimi qəbul edilən hüquqi mənada ikiqat vergi isə iki və daha artıq dövlətin eyni vergi ödəyicisini eyni vergitutma dövrü ərzində və eyni vergitutma dövrü ərzində və eyni vergi öhdəliyinə cəlb edilməsidir [4, s. 4]. Bu kontekstdə ikiqat verginin hüquqi mənası ilə onun beynəlxalq ölçüsünün üst-üstə düşdüyünü söyləmək olar.

İqtisadi mənada ikiqat vergi və hüquqi mənada ikiqat vergi arasındakı əsas fərq vergi ödəyicisi nöqtəsində yaranır, lakin bununla belə, ikiqat verginin qarşısının alınması sahəsində beynəlxalq vergi müqavilələri əsasən hüquqi mənası və beynəlxalq ölçüsü əsasında formalaşır.

Beynəlxalq ölçüsünü və hüquqi mənasını nəzərə alaraq, ikiqat verginin başlıca elementlərini aşağıdakı kimi sadalamaq olar:

- vergi ödəyicisinin eyni şəxs olması;
- vergi öhdəliyinin eyni olması;
- verginin eyni xarakterli olması;
- vergi müddətinin eyni olması;
- iki və ya daha çox dövlətin eyni vergi ödəyicisi və eyni vergi obyekti üzrə vergiyə cəlb etmə səlahiyyətinə sahibi olması.

İkiqat vergitutmaya səbəb olan vergitutma ilə bağlı prinsiplərə aşağıdakılar daxildir:

- **mənbə prinsipi** - Bu prinsip ondan ibarətdir ki, vergi qanunları dövlətin suverenliyində qüvvədədir və vətəndaş və ya əcnəbi olmasından asılı olmayaraq ölkə hüdudları daxilində aparılan bütün əməliyyatlar, iqtisadi fəaliyyətlər və əmlaklar həmin dövlətin qanunları ilə vergiyə cəlb edilir.
- **yaşayış yeri prinsipi** - Bu prinsipə görə, şəxsin yaşadığı və xidmətlərdən faydalandığı ölkə, bu şəxsin öz ölkəsinin hüdudları daxilində və hüdudlarından kənarda olan bütün əməliyyatlarını, fəaliyyətlərini və aktivlərini vergiyə cəlb etmək səlahiyyətinə malikdir.
- **milliyyət prinsipi** - Bu o deməkdir ki, bir dövlətə vətəndaşlığı ilə bağlı olan şəxslərin həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda həyata keçirdiyi hər cür əməliyyatları, fəaliyyətləri və əmlaklarını vergiyə cəlb etmək səlahiyyətinə malikdir.
- 

**İkiqat verginin qarşısının alınması metodları**

Beynəlxalq hüquqda mənbə prinsipi, xarici mənbədən əldə edilən gəlirin ölkə daxilində vergiyə cəlb edilməsini qadağan etmir və birdən çox dövlətin vergitutma səlahiyyətlərinin üst-üstə düşdüyü zaman yaranan ikiqat vergi hər bir dövlətin daxili qanunlarının beynəlxalq hüquq normalarına uyğun tənzimləndiyi üçün beynəlxalq konvensiyalar çərçivəsində qadağan olunmur. Bununla belə, ikiqat vergi, oxşar vəziyyətdə olan insanlar müxtəlif vergi yüklərinə məruz qalmağlarına, yəni vergi ədalətsizliyinə səbəb olmasına, rəqabət bərabərsizliyi yaratması, beynəlxalq malların və kapital hərəkətlərinin qarşısını alması, dövlətlər arasında beynəlxalq əlaqələrin inkişafına təsir göstərmək kimi səbəblərdən dolayı qarşısının alınması lazımdır [3, s. 138]. Bu istiqamətdə ikiqat verginin qarşısını almaq üçün əsasən iki fərqli yol var. Bunlardan birincisi dövlətin daxili

qanunvericiliyində vergitutma səlahiyyətinin birtərəfli məhdudlaşdırılmasıdır, ikincisi isə ikiqat verginin qarşısını almaq üçün beynəlxalq müqavilələrdir [6, s. 61-64].

Bir qayda olaraq, vergi ödəyicisinin vətəndaşlığı və ya rezidenti olduğu ölkə tərəfindən ikiqat verginin aradan qaldırılması və qarşısının alınması qəbul edilir. Bu kontekstdə ikiqat verginin qarşısını almağın ilk yolu xaricdən əldə edilən gəlirlər üzrə dövlətin vergitutma səlahiyyətinin birtərəfli qaydada məhdudlaşdırılmasıdır.

Dövlətlər ikiqat verginin qarşısını almaq üçün birtərəfli qaydada vergitutma səlahiyyətlərini məhdudlaşdırarkən müəyyən üsullardan istifadə edirlər (endirim, ofset və istisna) Ofset və istisna üsulları OECD-nin modelinə daxil edilən üsullardır [3, s. 140].

Endirim metodu: bu üsul ümumiyyətlə gəlir və sərvət vergilərində tətbiq olunur. Rezidentlik əsas alınaraq ölkədə vergi hesablanarkən, xarici ölkədə ödənilən vergilər vergi ödəyicisinin bütün resursları nəzərə alınmaqla hesablanmış vergi bazasından çıxılır. Bu məqamda demək olar ki, güzəşt metodu ikiqat vergini tam aradan qaldırmır, əksinə təsirini azaldır  [5, s. 57].

Ofset metodu: OECD-nin seçmə modeli tərəfindən qəbul edilmiş metodlardan biri olan və həmçinin kredit metodu da adlandırıla bilən ofset metoduna görə, vergitutmada rezidentlik əsasını qəbul edən bir ölkə vergi öhdəliyini hesablayır. Vergi ödəyicisinin bütün resursları nəzərə alınmaqla, eyni xarakterli xarici ölkədə ödənilən vergilər hesablanmış ümumi vergidən çıxılır. Bu məqamda çıxılma üsulu ikiqat verginin qarşısını tam olaraq almasa da, tutma üsulundan daha çox ikiqat verginin təsirini azaltdığını söyləmək olar.

İstisna metodu: OECD nümunə modelinin qəbul etdiyi başqa bir üsul olan azad etmə üsuluna görə, vergi ödəyicisinin vergi öhdəliyi xarici ölkədə sahib olduğu gəlir və sərvət elementləri nəzərə alınmadan yalnız öz ölkəsindəki resursları üzərindən hesablanır. Endirim və ofset üsullarında yaşayış prinsipi əsas götürülərkən, istisna metodunda isə mənbə prinsipi əsas götürülür. İstisna metodunda, digər iki üsulla müqayisədə, ikiqat verginin təsirini azaltmaq əvəzinə, qarşısının alınması hədəflənir.

**İkiqat verginin qarşısının alınmasında beynəlxalq vergi müqavilələri**

Dövlətlərin vergi sistemlərindəki fərqliliklərə və dövlətlərin iqtisadi şəraitinin müxtəlifliyinə görə daxili qanunvericilikdəki tənzimləmələr bəzən ikiqat verginin qarşısının alınmasında qeyri-kafi ola bilər, ölkələr ikiqat vergi ilə bağlı beynəlxalq müqavilələr bağlayaraq daha əhatəli və daimi həll yolları axtarırlar. Bu kontekstdə ikiqat vergiyə əsaslanan vergi ödəyicilərinin vergi yükünü minimuma endirmək üçün dövlətlər alacaqları vergidən tamamilə və ya qismən imtina edərək vergi sazişləri imzalayırlar [2, s. 25].

Beynəlxalq vergi hüququnun mənbəyini təşkil edən vergi müqavilələri dövlətlərin ikiqat verginin qarşısını almaq üçün tətbiq etdikləri ən mühüm və effektiv alətlərdir. Beynəlxalq vergi müqavilələri iki və ya daha çox dövlətin vergitutma səlahiyyətlərinin üst-üstə düşməsi nəticəsində yaranan ikiqat verginin qarşısını almağa yönəlmiş ziddiyyətli qaydalar toplusu kimi müəyyən edilə bilər.

Beynəlxalq vergi müqavilələrinin ən mühüm funksiyası ikiqat verginin aradan qaldırılması üçün birdən çox dövlətin vergitutma səlahiyyətlərinin üst-üstə düşməsinin qarşısını almaq və qeyd olunan dövlətlərin səlahiyyətlərinin hüdudlarını müəyyən etməkdir. Bu kontekstdə demək olar ki, vergi müqavilələrinin əsas məqsədi ikiqat verginin qarşısını almaq və ya azaltmaqdır. Bundan əlavə, beynəlxalq verginin imzalanmasında qarşıya qoyulan məqsədlər sırasında transsərhəd maliyyə eroziyasının qarşısının alınması, iqtisadi əlaqələrin və ticarətin inkişafı, məlumat mübadiləsi yolu ilə inzibati vahidlər arasında əməkdaşlığın təmin edilməsi, vergidən yayınma hallarının qarşısının alınması göstərilə bilər  [7, s. 25].

**Nəticə**

Bu gün qloballaşma ilə birlikdə beynəlxalq iqtisadi əlaqələrin və beynəlxalq ticarətin inkişafı ciddi problemlər yaradır. Bu məqamda müxtəlif ölkələrdə fiziki şəxslərin və təşkilatların kommersiya və iqtisadi qazanclarının vergiyə cəlb edilməsi özü ilə ikiqat vergi problemini də gətirir. Dövlətlərin fiskal suverenlik çərçivəsində sahib olduğu vergi səlahiyyətləri başqa ölkədə əldə edilən gəlirin həm rezident, həm də qeyri-rezidentlər tərəfindən vergiyə cəlb edilməsinə imkan verir. Bu vəziyyət ikiqat vergi probleminə səbəb olur.

İkiqat vergitutma milli və beynəlxalq ölçüləri, iqtisadi və hüquqi mənası olan çoxşaxəli anlayışdır. Bununla belə, beynəlxalq səviyyədə ikiqat verginin beynəlxalq ölçüsü və hüquqi mənası ön plana çıxır. Bu çərçivədə ikiqat vergi; Eyni vergi ödəyicisi və eyni vergi obyekti üzərində eyni vergitutma dövrü ərzində iki və ya daha çox vergiyə cəlb edilməsi kimi ifadə edilir.

İkiqat vergi problemi bu gün də dövlətlər üçün problem olaraq qalır. Şübhəsiz ki, beynəlxalq vergi müqavilələri bu problemin həlli üçün ən mühüm mexanizm olaraq qalır. Vergi müqavilələri ilə dövlətlərin vergitutma səlahiyyətləri bölüşdürülür, başqa sözlə, dövlətlərin onların vergitutma səlahiyyətlərindən istifadə hüdudları müəyyən edilir. Bununla belə, Nümunəvi Vergi Sazişləri nəzərə alındıqda, beynəlxalq vergi sisteminin iki aspektdə qeyri-kafi olması diqqət çəkir. Bunlar, beynəlxalq vergi müqavilələrində mübahisələrin həlli və vergi orqanının rəqəmsallaşma və bölüşdürülməsi ilə bağlı mövcud konsepsiya və institutların qeyri-adekvatlığı kimi ifadə edilə bilər.

**İstifadə edilmiş ədəbiyyatlar**


1. Berkay, Armağan, Ramazan, "Vergilemenin Uluslararası Boyutlarından Çifte Vergilendirme Sorunsalının Türk Vergi Sistemine Etkisi", Süleyman Demirel Üniversitesi, Vizyoner, 5/3, 2011, s. 88-106.
2. Işık, Hüseyin, Uluslararası Vergilendirme, On İki Levha Nəşriyyatı, İstanbul, 2014.
3. Karakoç, Yusuf, Genel Vergi Hukuku, 2. Yetkin Nəşriyyat, Ankara, 2014.
4. OECD, Model Tax Convention on Income and Capital, OECD Publishing, 2017, (https:// read.oecd-ilibrary.org/taxation/model-tax-convention-on-income-and-on-capital- 2017-full-version_g2g972ee-en#page1)
5. Oktar, Ateş, Vergi Hukuku, 10, Türkmen Kitabevi, İstanbul, 2018,
6. Öncel, Mualla, Kumrulu, Ahmet, Çağan, Nami, Vergi Hukuku, 24, Turhan Kitabevi, Ankara, 2018.
7. Rohatgı, Roy, Basic International Taxation Second Edition I: Principles, Richmond Law&Tax Ltd, Richmond, 2005.
8. Yaltı Soydan, Billur, Uluslararası Vergi Anlaşmaları, 1. Baskı, Beta Basım Yayın Dağıtım, İstanbul 1995.



**Nailə Sarıyeva**

*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, magistr*

*sarıyev.seymur@bk.r*


## Kənd və şəhər əhalisinin həyat səviyyəsinin mahiyyəti və makroiqtisadi meylləri


**Xülasə**

Əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün iqtisasi artımla yanaşı, sahibkarlığın inkişafı, yeni iş yerlərinin açılması, təhsil səviyyəsinin yüksəldilməsi dövlətin qarşısında

dayanan əsas vəzifədir. Kənd və şəhər əhalisinin məşğulluq səviyyəsinin artırılması, yeni iş yerlərinin yaradılması iqtisadi artımın təmin olunmasının əsas göstəricisidir.

***Məqsəd*** – əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətləri

***Metodologiya*** – müqayisəli təhlil

***Tədqiqatın nəticələri*** – yoxsulluğun azaldılması istiqamətləri əsaslandırılır.

***Açar sözlər*:** həyat səviyyəsi, yoxsulluq, tənzimləmə, gəlir

**Giriş**

Azərbaycanda əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması dövlətin apardığı sosial siyasətin əsas məramını təşkil edir. Bu baxımdan kənd yerlərində mövcud sərvətlərdən səmərəli istifadə etməklə sənaye-emal sahələrinin və kənd təsərrüfatı ilə yanaşı alternativ qeyri-kənd təsərrüfatı sahələrinin inkişafının genişləndirilməsi, yoxsulluğun azaldılması, həyat səviyyəsinin yüksəldilməsi, regionların sosialiqtisadi cəhətdən tarazlı inkişafının təmin edilməsi dövlətin qarşısında duran prioritet məsələlərdəndir.

Kənd yerlərində əhalinin həyat səviyyəsinin yüksəldilməsinin başlıca şərtlərindən biri məşğulluğun təmin edilməsidir. Regionlarda yeni yaradılmış iş yerlərinin daha çox daimi olmasına diqqət verilməlidir. “Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”ndə nəzərdə tutulduğu kimi kənd yerlərində kiçik və orta sahibkarlığın, əhalinin özünü məşğulluğunun inkişafı üçün əlverişli biznes mühitin yaradılmasıdır.

**Əhalinin həyat səviyyəsinin mahiyyəti**

Həyat səviyyəsi sosial-iqtisadi kateqoriya olub cəmiyyətin və sosial inkişafın meyarı olmaqla, müasir şəraitdə iqtisadi islahatların həyata keçirilməsində mühüm konseptual istiqamət kimi çıxış edir. Həyat səviyyəsi ölkə iqtisadiyyatının dinamikası və onun keyfiyyətinin son nəticəsi kimi başa düşülür. Ölkədə iqtisadi artım həyat səviyyəsinin yaxşılaşması və onun müəyyən tələbata uyğunlaşması ilə qiymətləndirilir. Həyat səviyyəsi artımın, yəni ümumi daxili məhsulun bölgüsü, yenidən bölgüsü ilə, həmçinin iqtisadi artımın özünə təsir edən makroiqtisadi amildir ( Əlirzayev, s.84-89).

Bazar iqtisadiyyatı inkişaf etdikcə özəl sektorun ÜDM-un payının yüksəlməsi, onun əmək haqqı fondunda xüsusi çəkisinin artması, tələbatın ödənilmə dəyərində və əmtəə-xidmət bazarında tələb və təklifin tarazlaşmasında , həyat səviyyəsinin yüksəldilməsində rolu artır.

2020-ci ilin yanvar – noyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqql 2019-cu ilin müvafiq dövrünə nisbətən 12.9 faiz artarq 703.5 manat təşkil etmişdir. Əməkhaqqı neft-qaz sektorunda 3331.6 manat, qeyri neft qaz sektorunda 646.9 manat təşkil etmişdir. Dövlət müəssisələrindəçalışan işçilərin əməkhaqları 623.9 manat, özəl müəssisələrində isə 803.0 manat olmuşdur (cədvəl 1.2).

İqtisadi artımın stimullaşdırılmasında sosial prioritetlər , daha çox yerli tələbatın ödəmək üçün və istehsal strukturunu inkişaf etdirmək daxili bazarın qorunması ilə investisiyaların yerli mənbələrinin hesabına stimullaşdırılmasına şərait yaratmaq, əhalinin iş yerləri ilə təmin olunmasına gətirib çıxarır, digər tərəfdən sahıbkarlığın inkişafında yerli kapitalın istifadəsinə

**Cədvəl 1.2.**

**2020-ci ilin yanvar-noyabr aylarında iqtisadi fəaliyyət və mülkiyyət növləri üzrə orta aylıq nominal əməkhaqqı (manat)**

| İqtisadi fəaliyyət növləri | Cəmi | O cümlədən |
|---|---|---|

| | | dövlət | qeyri – dövlət |
|---|---|---|---|
| **Ölkəüzrə - cəmi** | **703.5** | **623.9** | **803.0** |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 429.5 | 394.8 | 461.0 |
| Mədənçıxarma sənayesi | 3267.4 | 1651.9 | 4293.3 |
| Emal sənayesi | 644.1 | 815.0 | 613.2 |
| Elektrik enerjisi,qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 697.8 | 697.2 | 723.1 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 560.2 | 524.8 | 915.5 |
| Tikinti | 791.9 | 673.9 | 834.3 |
| Ticarət | 521.3 | 479.4 | 521.7 |
| Nəqliyyat və anbar təsərrüfatı | 878.8 | 861.6 | 907.0 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 533.4 | 1154.5 | 510.6 |
| İnformasiya və rabitə | 1071.1 | 820.7 | 1380.1 |
| Maliyyə və sığorta fəaliyyəti | 1178.8 | 1703.9 | 1720.8 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 607.6 | 523.0 | 670.1 |
| Peşə, elmi və texniki fəaliyyət | 1178.8 | 680.3 | 1895.0 |
| İnzibati və yardimçı xidmətlərin göstərilməsi | 419.4 | 372.2 | 558.4 |
| Dövlət idarəetməsi və müdafiə, sosial təminat | 929.8 | 962.6 | 311.1 |
| Təhsil | 512.3 | 504.0 | 799.8 |
| Əhaliyə səhiyyə və soail xidmətlərin göstərilməsi | 512.8 | 516.4 | 489.2 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 522.2 | 472.1 | 1166.0 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 669.1 | 892.4 | 644.3 |

Mənbə: Az.Dövlət Statistika Komitəsi, 2020

və onun respublikada reallaşması ilə nəticələnir. Respublikada ÜDM-un istehsal strukturunda gəlirli sahələrin xüsusi çəkisi və bazarda tələbata olan xidmət sahələrin inkişafı daha çevik və dinamik artır.

Həyat səviyyəsinin yüksəldilməsi potensial imkanlar və mövcud reallıqlar onların perspektiv imkanlarını təkmilləşdirmək üçün təsərrüfatçılıq mexanizminin təkmilləşdirilməsini də tələb edir (Əlirzayeva, s.71):

- Sahibkarlığın təşkili və onun inkişafı üçün ilkin şəraitin yaradılması;
- Vergi siyasətində ayrı-ayrı sahibkarlığın inkişafına şərait yaradılması , güzəştli vergi dəyərləri, bəzi vergilərin ərazi və regionlarda differensial vergi tariflərinin tətbiq;
- Maliyyə-kredit və lizinq fəaliyyətinin təşkili və onların yerli resuruslardan istifadə edilməsinin stimul yaratmaq üçün tətbiqi;
- Regional bazarın təşkili, bəzi məhsulların istehsalı və emalı ixrac üçün dövlət idarəçilik siyasəti, rayonlarda istehsalın stimullaşdırılması və sahibkarlığa yardım;
- Sosial müdafiə mexanizmilərinin iqtisadi artımla və tələbatın dəyişməsi ilə təkmilləşdirilməsi, az təminatlı ailələrin , pensiyaçıların və uşaqların maddi mənəvi tələbatını təmin edən sosial təminatların , müavinətlərin yaşayış minumumuna qaldırılması.

Sosial müdafiə tədbirlərinin mexanizmi , pensiya islahatları, onun minimum səviyyəsi , orta aylıq pensiya və maksimal pensiyanın təkmilləşdirilməsi metodiki tövsiyələr və elmi əsaslarla hesablanmış tədbirlərlə bağlıdır.

**Kənd və şəhər əhalisinin həyat səviyyəsinin qiymətləndirilməsi metodikası və**

**makroiqtisadi meylləri**

Həyat səviyyəsinin makroiqtisadi təşkili, iqtisadi sistemin təkmilləşdirilməsi ilə yanaşı , iqtisadi artım, maddi rifah və bazarın qorunması arasında baş verən kəmiyyət və keyfiyyət dəyişmələrinin , səbəb və nəticə əlaqələrinin analitik, rəqəm və nisbi dəyişmə meylinin təsviri ilə mümkündür. Makroiqtisadi həyat səviyyəsinin qiymətləndirilməsi ÜDM, gəlirlər, istehlak, resuruslar, iş yerlərinin təhlili ilə mümkündür. Əhalinin gəlirlərinin qiymətləndirilməsi iqtisadi artımla bağlı olaraq, onun dinamikası, strukturu və ayrı-ayrı sosial-iqtisadi differensiyası parametrlər üzrə qiymətləndirilir. Həyat səviyyəsi sahə, ərazi funksional təyinat , ünvanlı tənzimlənmə və differensial yanaşma metodlarının tətbiqi və əlaqəsinin ən səmərəli variantı ilə mümkündür. Yoxsulluğun azaldılması üçün lazım olan maddi və mənəvi nemətlərin məcmuu, maliyyə əsasları və mənbələrinin aşkarlığı dinamikası qiymətləndirilir. Yoxsulluğun azaldılması məqsədi ilə sahibkarlığa kömək, xırda və orta biznesin inkişafına yaradılan şəraitin makroiqtisadi meyllərin iqtisadi əsasıdır. Həmçinin, təhsil səviyyəsinin maliyyə əsasları onun keyfiyyəti, müasir tələblərə uyğun peşəkar kadrların hazırlanması, həmçinin müasir dünya görüşlü insanların , yeni təfəkkürlü ailə başçılarının hazırlanması , kimi sosial-mənəvi ehtiyatlar baxımından yoxsulluğun azaldılması proqramında və həyat səviyyəsinin yüksəldilməsində öz yerini tapır.

Əhalinin rifahı kompleks göstəricilər və qarşılıqlı əlaqədə olan gəlirlərin məcmuu sistemi təsviri olduğu üçün onun makroiqtisadi təşkili, məhz bütün iqtisadi amillər, sahələr və tədbirlərin nəticəsi prizmasında təhlil olunur və ümumiləşdirilir.

**Nəticə**

Tədqiqat işində kənd və şəhər əhalisinin həyat səviyyəsinin proqnozlaşdırılmasında makrosəvyyənin təşkili, balans üsulları və mikrosəviyyəli funksional modellər verilmişdir. Həyat səviyyəsinin yüksəldilməsi üçün yaşayış minimumu, istehlak səbəti və minimum əmək haqqı, pensiya və müavinatlər arasında dünya təcrübəsinə əsaslanan və stimullar yaradan nisbətlər və meyllər qiymətləndirilərək pronozlaşdırılmışdır.

**Ədəbiyyat**

1. Əlirzayev R.Q., Əlirzayeva T.Ə. Əhali gəlirlərinin formalaşmasının maliyyə mənbələri. “Odlar Yurdu” Universitetinin elmi-pedoqoji məqalələri №6, 2003, s. 94-102.
2. Əlirzayeva T.Ə. Dövlət və əhali gəlirləri arasında əlaqələr. “Odlar Yurdu” Universitetinin elmi-pedoqoji məqalələri №9-10, 2003, s.70-71.
3. Əlirzayev Ə.Q., Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi. (dərs vəsaiti) .Bakı.2010. “İqtisadi Universiteti” nəşriyyat. Səh.84-89
4. Маер В.М. Доходы населения и рост благосостояния народа, М., Мысль, 1968, с.250.
5. http://stat.gov.az.
6. http://economy.gov.az.

## II BÖLMƏ

## MÜASİR FƏLSƏFİ BİLİKLƏRİN MODERNLƏŞDİRİLMƏSİ

*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun "Müasir fəlsəfəsinin problemləri" şöbəsinin təcrübəsi*

**Əli Abasov**
Fəlsəfə elmləri doktoru,professor,
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri
kila50@mail.ru

**Açar sözlər**: elm, fəlsəfə, bilik, klassika, qeyri-klassika, post qeyri-klassika, epistemologiya.

2011-ci ildə "Müasir fəlsəfə problemləri" şöbəsi "Müasir Azərbaycana hansı fəlsəfə lazımdır?" sualı ilə ifadə olunmuş tədqiqat mövzusu seçmişdir. Belə fərz edilmişdir ki, sualın mədəni irsin cəlb edilməsilə müzakirəsi, Azərbaycanın müstəqillik əldə etdikdən sonra başlanmış keçid prosesləri və qloballaşma şəraitində mümkün cavabların formulə edilməsinə kömək göstərəcəkdir.
Konkretləşdirilmiş proqram belə görsənir: əsas geopolitoloji amilin (*qloballaşmanın*) bütövlükdə dünya proseslərinin gedişinə  və ayrı-ayrı ölkələrin, onların *sosiomədəni inkişaf modellərində* ifadə olunmuş inkişaf ssenarilərinin dəyişməsinə təsirinin təsvir edilməsi. Biz belə fərz edirdik ki, məhz bu kontekstdə milli mədəni irs cəmiyyətin davamlı həmrəyliyi və ölkənin tədrici inkişafına ya qarşı dayanır, ya da mədəniyyətin uğurlu təfsir modeli yaradıldıqda həmrəylik və inkişafa yardımşı olur. Metodoloji planda dünyagörüşü səviyyəsində *postmodernizm və post-qeyri-klassik epistemologiya* konsepsiyaları ilə birləşdirilmiş mənəvi və mədəni axtarışların ümumi vəziyyətinə diqqət yetirmək lazım gəlirdi.
Bununla bağlı olaraq *ikinci* monoqrafiya Azərbaycanda post-qeyri-klassik fəlsəfə problemləri, onun bütövlükdə elm və mədəniyyətlə, müasir Azərbaycan dövləti və cəmiyyətinin praktiki gerçəklikləri ilə toqquşması və qarşılıqlı təsiri sahəsində sistem tədqiqatların ilk təcrübəsi olmuşdur. Həmçinin, Azərbaycanda bu epistemologiyanın artıq tətbiq olunduğu, yaxud yaxın gələcəkdə tətbiq oluna biləcəyi tədqiqat sahələri aşkarlanmışdır.
Respublikada əsas vəzifəsi yeni post-qeyri-klassik texnologiyaları mənimsəmək və müasir dövrün başlıca sosial kapitalı hesab olunan *insan+təhsili* əsas götürməklə tədris sistemində islhatlar aparmaq olan müasir təhsil xüsusi diqqət obyekti olmuşdur. Ümumi ziddiyyətsiz inkişaf paradiqması və klassik, qeyri-klassik və post-qeyri-klassik idrakın qarşılıqlı əlaqəsinin qurulması, fəlsəfə və ayrı-ayrı elmlərdə bu sistemin əsas məqamlarının mənimsənilməsinin metodika və metodologiyasını hazırlamaq zəruri olmuşdur. Post-qeyri-klassik baxışlar və metodların müasir Azərbaycan cəmiyyətinin, mədəniyyətin və dəyərlər sisteminin tədqiq praktikasına tətbiqi, həmçinin idarəetmənin (cəmiyyəti, dövləti, iqtisadiyyatı, mədəniyyəti, intellektual resursları) tətbiqi post-qeyri-klassik fəlsəfəsinin formalaşdırılması əsas vəzifə hesab olunmuşdur.
*Üçüncü* monoqrafiyada Azərbaycan xalqının milli özünüidentikləşdirməsinin ideya əsaslarının, onun milli ideyasının, milli ideologiyasının formalaşmasının, milli inkişaf strategiyasında onların praktiki gerçəkləşdirilməsinin tədqiqinə həsr olunmuşdur. Xalqın millətə çevrilməsinin birinci mərhələsində insanın sosial mahiyyətinin fərqləndirici əlaməti kimi etnik identifikasiya çıxış etmiş, konfessional, dil və zümrə mənsubluğu nisbətən az əhəmiyyət kəsb etmişdir. Xalq-etnik identiklikdən milli identikliyə keçid prosesində heç də hər dövlət və cəmiyyətdə olmasa da yalnız bir identifikasiya amili –dil identikliyi qalmışdır. Bütün bu vahidlərin həmrəyləşdirilmiş birgəliyi yeni anlayış –millət anlayışını törətmişdir ki, onun xalq anlayışından fərqi etnik və siyasi variantlara müxalifliyi ilə müəyyənləşmişdir.
Postsovet dövlət və cəmiyyətlərində milli ideya, ideologiya, strategiyaların işlənib hazırlanması ən azı iki çətinliklə üzləşmişdir. Bu dövlətlər və onların cəmiyyətləri tarixi gerçəkliklər səbəbindən

Qərb ölkələrinin təcrübəsindən, məsələn fasiləsiz müstəqil inkişaf amilindən məhrum olmuşlar. İkincisi, dünyəvi prosesin hərəkətverici qüvvəsinin əvəzlənməsi olmuşdur. Belə bir qüvvə rolunda qloballaşma çıxış etmişdir ki, o da totalitarizmdən demokratiyaya onsuz da çətin keçid prosesini daha da mürəkkəbləşdirmişdir.

Belə görünürdü ki, bütün şübhələri bir kənara ataraq Qərb inkişaf yolunu seçmək, etnik dünyadan millət dünyasına doğru addımlamaq kifayətdir. Lakin buna həm dünya düzəninin dəyişən siyasi iqlimi, həm də xalqdan millətə gerçək tarixi keçidin "şüurda" mənalı yaşamağın mümkünsüzlüyü mane olmuşdur. Müstəqilliyin ilk illərində, milli-demokratik rejimlərin demək olar ki, bütün postsovet məkanında hakimiyyətdən uzaqlaşdırıldığı dövrdə belə bir keçid cəhdlərinin böhranı dediyimiz nəticənin təsdiqi ola bilər.

"Millət" terminin mahiyyəti probleminə və onun arxasında dayanan gerçəklik probleminə xüsusi diqqət yetirilmişdir. Millət yalnız rahat konstruksiyadır, yoxsa müasir cəmiyyətdə fövqəladə dərəcədə tələb olunan gerçək tarixi fenomendir?

*Dördüncü* monaqrafiyada əsas diqqət dinin çoxtərəfli problemlərinə yönəldilib. Ötən əsrin ikinci yarısında inkişaf etmiş Qərb ölkələrində sonralar F.Fukuyamanın "Böyük parçalanma" adlandırdığı proses başlandığı zaman ictimai quruluşun əsas dəyərlərindən olan din institutu yenidən permanent ostrakizmə məruz qalır. İstər sovet, istərsə Qərb sosioloq və filosofları bu gerçək təmayülü din institutunun, sonra isə Allaha inamın tədrici ölümü kimi dəyərləndirdilər, çünki o dövrdə elm qısa zamanda materialist əsaslarla dünyanın son sirrlərini aşkarlamağı vəd edirdi.

Proqnoz özünü doğrultmadı: postsovet dövlətləri və cəmiyyətləri din institutunun mürəkkəb inkorporasiyası prosesinə start verdilər. Etiqadın dirçəlişi nəinki sıravi vətəndaşların, həmçinin dini rəhbərlərin –"məişət islamının" intişarçılarının aşkar savadsızlığı şəraitində gerçəkləşirdi. Və bu zaman dinin dünyada dirçəlişi iki təmayüllə müşaiyət (qismən müəyyənləşmə) olunur: əvvəla, elmi idrakın əvvəllər inkar olunan sosio-mədəni və mənəvi-etik komponentlərlə zənginləşməsi, ikincisi, islamın rolunun təkcə müsəlman ölkələrində deyil bütün dünyada siyasi sferada güclənməsi. Bu artan təmayül özünün növbəti pik nöqtəsinə 2001-ci ilin sentyabrında çataraq islama sonsuz maraq və müasir fundamentalizmin əsası hesab edilən bütün müsəlmanlığa dərin fobiya doğurmuşdur.

Tədqiqatlar göstərmişdir: bütövlükdə dünya islamı özünün siyasi və iqtisadi transformasiyasını yekunlaşdırmayıb, lakin o, birbaşa özününün böhranlı "bifurkasiya" nöqtəsinə yaxınlaşıb, bundan sonra XIX-XX əsrlərin sonundakı "bifurkasiya dayanacağının" törətdiyindən daha kəskin nəticələr tam gözlənilləndir. Bu dövr əsrzində islam özünün Maarfçilik əsrini yaşamış, Qərbə "çatmağ"a səsləyən modernləşmə layihələrinə maraq göstərmişdir. İslamın tarixi inkişaf və təcrübənin bütöv mərhələləri üzərindən atlayıb keçməklə gerçəkləşən bu günkü inkişafı özünün identifikasiyasını tələb edir. Aydınlaşdırmaq zəruridir: nə üçün bəzi müsəlman ölkələri dünyadakı dəyişikliklərə hansısa islahatlarla reaksiya verməyə cəhd göstərir, digərləri əksinə, onları tamamilə inkar edir, üçüncülər isə dünya inkişafını müakirə etməməyə üstünlük verərək çaşqınlıq vəziyyətində qalırlar? Nə üçün müsəlman dünyasının mənzərəsi demokratikləşmə cığırına doğru cəsarətsiz addımlardan tutmuş nəhəng radikal əhval-ruhiyyələr gurultusuna qədər son dərəcə ziddiyyətli tendensiyalar nümayiş etdirir?

*Beçinci* monoqrafiyada post-qeyri-klassik epistemologiyaya dair, əsas etibarilə Azərbaycan oxucusuna ünvanlanmış icmal, elmi-kütləvi və maarifləndirici xarakterli məqalələr tolanmışdır. Bu post-qeyri-klassik epitemologiyanın ölkədəki tədqiqatlara tətbiq dərəcəsini aydınlaşdırmağa qismən imkan yaratmışdır.

Altıncı monoqrafiya qloballaşma dövrünün unikal post-qeyri-klassik və postmodernist qaydaları ilə toqquşan müasir mədəniyyətin problemlərini tədqiq etmişdir. Bu dövrdə idraka postmodernizm, elmlərin konvergensiyası, post-qeyri-klassika, sinergetik və sosio-mədəni yanaşmalar, informasiya inqilabının yekunları və s. kimi ziddiyyətli konseptlər daxil edilir ki, onlar müasir mədəniyyətin inkişaf modelinə relyativizm, indeterminizm, qeyri-xətti topoloji,

şəbəkə və qeyri-lokal metodologiyanı inteqral şəkildə daşıyır. Xarici mədəni çağırışların qarşılıqlı təsirlərini adaptasiya edən milli ənənənin səciyyə və xarakterinin sistemli əsasları qanunauyğun maraq doğurmuşdur. Qloballaşmanın çağırış və risklərinə potensial "cavabları"nı aşkarlamaq məqsədilə milli mədəniyyətin xüsusiyyətlərini sistemləşdirməyə cəhd göstərilmişdir.

Son olaraq bu nəticə formulə edilmişdir: qeyd olunmuş bütün problemlərin tədqiqini növbəti "bifurkasiya nöqtəsi" haqqında xəbər verən və yeni yaranmaqda olan yeni mədəni ənənə çərçivəsində gerçəkləşdirmək zəruridir, bu "bifurkasiya nöqtəsindən" sonra isə bəşəriyyətin yeni mənəvi və koqnitiv vəziyyətə keçidi başlanmalıdır. "Çatıb və ötüb keçməyə çalışan" postsovet ölkələrinə milli mədəni ənənələrin köhnəlmiş stereotiplərinin kənrlaşdırılması, onun dünya təcrübəsi və məxsusi müstəqil inkişafı ilə zənginləşdirmək zərurəti ilə bağlı daha uzun yol keçmək lazım gələcək.

*Yeddinci* monoqrafiya geopolitika və müasir dünya düzəni problemlərinin post-qeyri-klassik epistemologiyanın metod və üsulları vasitəsilə tədqiq etmişdir.

XXI əsrin başlanğıcında fəlsəfənin, bütövlükdə idrakın vəziyyəti ötən əsrin əvvəllərindəki vəziyyəti xatırladılır. Məhz o vaxt kvant mexanikası və nisbilik nəzəriyyəsi ideyaları yaranaraq klassik idrakın məhdudlaşdırıcı çərçivələrini aşmış, onun inkişafında qeyri-klassik mərhələyə doğru yeni yol açmışdır. Ötən əsrin ortalarından sonuna qədərki dövrdə idrakın formulə edilmiş bir sıra ən yeni istiqamətləri idrak ənənəsində üçüncü, post-qeyri-klassik mərhələnin əsasını qoymuş, bunula da təkcə klassikanın deyil, həm də qeyri-klassikanın ilk baxışda qərarlaşmış görsənən kateqoriyaları, ideyaları, aksiomları, nəzəriyyələri, paradiqma və konseptləri əhəmiyyətli (bəlkə də radikal) surətdə dəyişmişdir. Sinergetikanın, mürəkkəblik nəzəriyyəsinin, fənnlərarası yanaşmanın, ümumi təkamülçülüyün və s. ideyeları klassizmin təməlini dağıtmaqla prinsipal fərqli, idrak binasının hansısa təməl üzərində ucaldılma imkanını inkar edən postmodernist dünyagörüşünün qərarlaşmasına rəvac vermiş, bununla da sanki 2500 illik fəlsəfə tarixini dalana gətirmişdir. Doğrudanmı məsələ əslində elə belədir? Doğurdanmı biz fəlsəfəni "sonuncu mənzilə" yola salırıq? "Əziz mərhumun" nurlu simasını bizim üçün nə əvəz edə bilər? Təqdim olunan monoqrafiyalar seriyası da təbii olaraq postmodern qeyri-müəyyənlik əsrində mütləq həqiqətlər söylədiyini iddia etmədən məhz bu mürəkkəb vəziyyətdə düzgün istiqamətlənməyə cəhd kimi düşünülüb. Əsas vəzifə isə adı hələ ki, müəyyənləşməmiş, idrakın *dördüncü* (post-qeyri-klassikadan sonra) mərhələsinin səciyyə və əsasları haqqında müzakirələrin başlanması məqsədilə əvvəllər bir-birindən uzaqda dayanan müxtəlif fənnlərin predmetləri arasında əlaqələrin aşkarlanması nəzərdə tutulmuşdur.

Bu gün geopolitika sinergetika, fraktal və mürəkkəblik yanaşması, kompütinq və s. istiqamətlərdən istifadə etməklə post-qeyri-klassik paradiqma məcrasında sürətlə inkişaf edir; onun tədqiqatlarının metodologiyası fənnlərarası yanaşma və qlobal təkamülçülüyə əsaslanır; analiz metodu ilə daha çox qeyri-xətti refleksiya prinsipi seçilir. Ona görə də monoqrafiyada qarşıya qoyulmuş məqsədlərdən biri də geopolitikanın fəlsəfəsinin sistemli təhlili olmuşdur. Belə fərz olunur ki, məhz bu yolla onun müasir vəziyyəti aşkarlana və onun praktikada tətbiqinin nüansları aydınlaşdırıla bilər.

*Səkkizinci* monoqrafiyanın tədqiqat mövzusunun seçilməsi iqtisadiyyatın post-qeyri-klassik epistemologiyadan sanki uzaqlaşmış kimi görünməyi səbəbindən izahını tələb edir. Bizim tədqiqatlar bu illüziyanı alt-üst etmişdir. Bundan əlavə elmi dairələrin, praktiki mütəxəssislərin və nəhayət cəmiyyətin sadə üzvlərinin iqtisadiyyatın çoxcəhətli problemlərinə geniş müraciəti öz ixahını tələb etmişdir. Qloballaşma, dünya böhranı və postsovet dövlətlərinin iqtisadi inkiaşf modellərinin axtarışı bizim marağımızı daha da artırmışdır.

Belə görsənir ki, elmi-təbiət fənlərindən fərqli olaraq iqtisadi nəzəriyyə idrakın klassik və qeyri-klassik mərhələlərini keçərək birbaşa post-qeyri-klassik ideya və konsepsiyaların mənimsənilməsinə yaxınlaşmış və inkişafın gələcək yolları haqqında düşüncələrdə dayanmışdır. Bununla əlaqədar olaraq dünya iqtisadiyyatı və maliyyə böhranına, xüsusilə neoliberal yönümlü iqtisadi nəzəriyyələrdəki durğunluğa (XX əsrin əvvəllərindəki fizikaya analoji olaraq)

iqtisadiyatın nəzəriyyə və praktikasında inqilabi dəyişikliklərin başlanmasından xəbər verən amillər kimi nəzərdən keçirilməlidir. Bu islahatlara yanaşmalarda mədəniyyətin, permanent iqtisadi proseslərə qoşulmuş cəmiyyət və dövlətlərin milli (etnik), dini, mental və xalqların digər bir çox xüsusiyyətlərinin təsiri problemi geniş müzakirə olunur. İqtisadi fikir və praktikanın sosio-mədəni dominantı müvəqqəti olaraq iqtisadiyyatın praktiki problemlərini sıxışdıraraq az qala mərkəzi paradiqmaya çevirilmişdir. Gender, etik, ekoloji, biosfer, bütövlükdə aksioloji tədqiqatlar iqtisadiyyata yeni həcmli (topoloji) məna gətirir, nəzəriyyəyə post-qeyri-klassik paradiqma ilə aşkar şəkildə bağlı olan fərqli anlayış və konsepsiyalar daxil edir.

Cəmiyyətin transformasiyasının əsas amili və müasir tarixin mühərriki olan qloballaşma, tarixi prosesin model və konseptləri, tarix və tarixşünaslığa etdiyi əlavələrlə götürülən "postmodernist fəlakət", "qeyri-formal", feminist, gender, şifahi, "canlı" və s. tarixlərin güclü inkişafı, dünyanın və postsovet dövlətlərinin öndəki gələcəyi və s. *doqquzuncu* monoqrafiyada əksini tapan tarix fəlsəfəsinin tədqiqatlarının nüvəsini təşkil etmişdir.

Belə görsənir ki, postmoderrnizmdən məhz tarix daha çox "ziyan görüb", lakin eyni zamanda məhz tarix daha çox post-qeyri-klassik təsəvvür və ideyaları özünə cəlb etmiş, bu ideyalar da onu gerçəklik və öz aralarında tamamilə dəyişkən, qeyri-sabit insan dəyərlər –aksiologiya ilə birləşən və ondan geri qalan "itmiş" keçmişin və proqnazlaşdırıla bilməyən gələcəyin üzərində refleksiyanın tam yeni səviyyəsinə çıxarmışdır.

*Onuncu* monoqrafiya seriyanı milli fəlsəfənin tədqiqi ilə bitirmişdir. İnsanların etnos, xalq, millət triadası ilə ifadə olunan tarixi birlik tiplərinin tədqiq yolları və metodologiyasının seçilməzi zamanı bir sıra suallar meydana çıxmışdır. Məsələn, milli fəlsəfənin genezisi hansı dövrə aiddir? Nəyi "etnik fəlsəfə" kimi qəbul etmək olar, mif və eposların (dastanların) dünyagörüşü və mənəvi etik məzmunu bu funksiyanı yerinə yetirə bilərmi? Orta əsrlər Azərbaycan mütəfəkkirlərinin ərəb dilində yazdıqları sırf fəlsəfi əsərləri ona daxildirmi, yaxud fəlsəfi poeziyanı ora daxil etmək lazımdırmı? Bu refleksiya nümunələri milli fəlsəfəyə təsir göstəribmi, əgər göstəribsə bu təsir davam edirmi?

Belə bir prinsipdən çıxış etmək lazım gəlirmi ki, xalqın müstəqil dövlətçiliyinin yoxluğu milli fəlsəfənin formalaşması yolunda maneədirmi, belə ki, kommunikasiya məkanında müstəmləkəçi-millətin mədəniyyəti, dili və dəyərləri hökmran rol oynayır?

Məqalələrdə əksini tapmış bəzi cavablara nəzər yetirək.

Hər bir millət üçün mədəniyyət – din – incəsənət – ədəbiyyat – fəlsəfə – elm ardıcıl mürrəkkəbləşən refleksiya tiplərinin tarxən qarşılıqlı əlaqədə olan sistemini əmələ gətirir. Dil ilkin xaos olub ondan tədricən fəlsəfi refleksiya meydana gəlir, sonuncu isə sonradan etnik identiklik və hökmran dinlə zənginləşir.

Milli mədəniyyətin elementləri (tarixi təcrübə, kollektiv psixikanın xüsusiyyətləri, dünyaanlamı və dünyaqavramının tipləri) zaman-zaman fəlsəfi refleksiyanın (təfəkkürün) predmeti olur. İdentikliyin formalaşması millətin unikal dünyaqavramı və dünyaanlamının, dünyagörüşünün qərarlaşmasına gətirir. Bu identiklik şəxsiyyət və cəmiyyətin həyat fəaliyyəti strategiyasını seçimi və gerçəkləşdirilməsinin əsasını təşkil edir. Seçilmiş identiklik tipi milli fəlsəfənin ardıcıl formalaşmasına gətirən milli özünüdərkin genezisini müəyyənləşdirir. Ümummilli fəlsəfə cəmiyyət və şəxsiyyətin milli özünüdərkinin səciyyəsindən asılı olur.

"Milli fəlsəfə" anlayışı ilk növbədə onun məzmununun təhlilini tələb edir. "Milli fəlsəfə" söz birləşməsində birinci termin həlledicidir, çünki məhz o, ümumbəşəri fəlsəfəni vahid dəyərlər sistemi ilə konsolidasiya olmuş ayrı-ayrı insan birliklərinin təkcə fərqli dünyagörüşü tiplərinə differensasiya edir.

Sonra, "millət" anlayışının konkret olaraq nəyi nəzərdə tutduğunu aydınlaşdırmadan milli fəlsəfənin də nə olduğu sualına cavab vermək olmaz. Əvvəla, elmi-fəlsəfi və sosioloji tədqiqatlar praktikasında millət anlayışı konkret tarixi dövr ərzində təzahür edən müəyyən konstruksiya qismində çıxış edə bilər. İkincisi, o hər bir millətə təkrarolunmaz unikallıq verən ümumi psixoloji, konfessional və mədəni səciyyə əsasında izah formulə edilə bilər. Üçüncüsü,

millət dövlət daxilində etnik, konfessional, mədəni, gender və digər fərqlərdən asılı olmadan bərabər hüquqlar verilmiş ayrıca cəmiyyətin vətəndaşlarının həmrəyliyini nəzərdə tutan siyasi termin kimi də başa düşülə bilər.
Aydındır ki, milli fəlsəfənin təfsir olunan mahiyyəti millət anlayışının təhlil üçün seçilmiş mənasından asılı olaraq dəyişəcək, ona görə də hər dəfə ona müraciət olunduqda aparılacaq təhlilin çərçivələrini öncədən dəqiq müəyyənləşdirmək zəruridir. Bununla birlikdə millətin tədqiqinə yuxarıda sadalanmış bütün tərifləri birləşdirən sintetik metodologiyanın tətbiqinə heç nə mane olmur. Belə bir sintetik kontekstdə milli fəlsəfənin həm cəmiyyətin, həm də onun ayrı-ayrı üzvlərinin transformasiyasını determinasiya edən, fasiləsiz dəyişən xarici təbii və sosial mühit şəraitində millətin sağqalma və həyat tərzi strategiyasının inteqrativ konsepsiyasının qərarlaşması gedişində refleksiyanın ali (əgər bu gün üçün ən ali olmasa) formalarından biri kimi adekvat tədqiqatına imkanlar yaranır.
Bəşəri refleksiyanın tarixi inkişafının ardıcıl tədqiqini konsolidasiya olmuş insan birliklərinin həyat və sağqalma tərzini müəyyənləşdirən bir sıra paraloji, mifik, primordial, etno-epik, dini, fəlsəfi və elmi strategiya tiplərinə gətirmək olar. Aydındır ki, bu gün millət və onun ayrıca nümayəndəsinin müasir şəraitdə optimal həyat tərzini ifadə etməyə qabil olan növbəti, əsasən sintetik strategiyanın formalaşdırılmasına ciddi zərurət mövcuddur.
Haqqında söhbət açılan mövzunun nəticələrinə görə və bəşəriyyətin üzləşdiyi pandemiya şəraitində tamamilə təbii olaraq şöbənin və redaksiya heyətinin qərarına əsasən 2020-ci ildə ikinci seriya "Etika, estetika, aksiologiya: əsas epistemoloji paradiqmalar" kollektiv monoqrafiyası ilə başlanıb.
Son çıxan monoqrafiya (2021) "Müasir fəlsəfənin tədrisi: metodologiya, nəzəriyyə və praktika". Məcmuədə əsas diqqət fəlsəfənin xüsusi bir elm sahəsi və tədris predmeti kimi mövcud vəziyyətinə, onun qarşısında duran aktual problemlem və vəzifələrə yetirilir. Müasir dövrün tələb və çağırışları müstəvisində fəlsəfənin inkişafında və onun tədrisində ortaya çıxan ziddiyyətli, narahatedici məqamlar aşkarlanıl, perspektiv istiqamətlər müəyyənləşdirilir, müvafiq təklif və tövsiyələr irəli sürülür.

## MODERNLƏŞMƏ MÖVCUDLUQ ÜSULU KİMİ: İSLAHATLARIN ELMİ-NƏZƏRİ TƏMİNATI PROBLEMİ

**Əbülhəsən Abbasov**
fəlsəfə elmləri doktoru, professor
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun
baş elmi işçisi

**Açar sözlər:**modernləşmə, cəmiyyət, islahatlar,Çində islahatlar, "səo-kan" konsepsiyası, idarəetmə

Böyük Atatürkün bütün dövrlərə və cəmiyyətlərə aid mühüm bir fikri, yəqin ki, çoxlarına bəllidir: zəmanənin tələblərinə uyğun olaraq daimi yeniləşmə hər bir cəmiyyətin mövcudluq üsuludur. Bu fikrin nəzəri müstəvidə xüsusi sübuta ehtiyacı yoxdur, zira bəşər tarixinin özü, ictimai praktika onun həqiqiliyini təkrar-təkrar, inandırıcı surətdə təsdiqləmişdir. Tarixi təkamül onu da təsdiqləmişdir ki, cəmiyyətlərin yeniləşməsi və bu əsasda mütərəqqi inkişaf zəminləri əldə etməsi yalnız zəruri, hərtərəfli düşünülmüş, reallıqlarla uzlaşan islahatlar vasitəsilə mümkündür. O islahatlar vasitəsilə ki, mükəməl elmi-nəzəri təminata malikdir, aydın və dəqiq müəyyənləşmiş fəlsəfi nüvəsi, müvafiq təsəvvürlər

sistemi var, o cümlədən, aparıcı ideya və prinsipləri, prioritet və hədəfləri cəhətdən dolğun və kamildir.

Yəni, elmi-fəlsəfi mənada desək, həyata keçirilməli olan islahatlar zərfi, ilk öncə, etibarlı epistemoloji bazaya malik olmalıdır. Belə ki, əvvəlcədən ciddi düşünülmüş və işlənilmiş epistemoloji təməl olmadan əməli-praktiki sahədə hansısa uğurlara imza atmaq qeyri-mümkündür. Etibarlı epistemoloji təməlin olması ontoloji, qnoseoloji, metodoloji, aksioloji, habelə, praksioloji baxımdan yetkinlik deməkdir. Bu, islahatların həyata keçirilməsi yolunda vacib olan idarəetmə və fəaliyyət fəlsəfəsinin tələbidir. Danılmaz bu həqiqət də dəfələrlə tarixdə öz təsdiqini tapıb və inandırıcı sübut qismində kifayət qədər faktlar göstərmək olar. Heç bir islahatlar təşəbbüsü, etibarlı epistemoloji zəmin və özüllər olmadan, uğurla nəticələnməyib, Gözləntilərin əksinə olaraq, hətta ayrı-ayrı dövlətlərin süqutuna və dağılmasına, cəmiyyətlərin tənəzzülünə və çöküşünə səbəb olub. Elə SSRİ-nin tənəzzülə uğrayıb dağılması olduqca əhəmiyyətli bu qanunauyğunluğun əyani sübutudur. Xatırlayırsızsa, M. Qorbaçovun "yenidənqurması" elmi-nəzəri, epistemoloji cəhətdən o dərəcədə qeyri-kamil idi ki, eyni bir vaxtda tamamilə bir-birinə zidd olan, antaqonist məqsəd-vəzifələrin ("yenidənqurma" və "sürətlənmə") həyata keçirilməsi gündəliyə gətirilmişdir. Belə ki, hətta bütün varlıqların mövcudluğu və inkişafı üçün taleyüklü rola malik "enerjinin saxlanması qanunu" hesaba alınmamışdır. Yenidənqurma pretorları, bədnam Abel Aqanbeqyan da daxil, "unutmuşdular" ki, köklü rekonstruksiyaya, yəni, yenidənqurmaya cəlb edilmiş varlıq, eyni zamanda, sürətlənmə mərhələsini yaşamağa qadir ola bilməz. Nəticə olaraq, günbəgün genişlənən və kəskinləşən daxili ziddiyyət (yenidənqurma – sürətlənmə antaqonizmi) sistemi (SSRİ-ni) çökdürmüşdür. Əlbəttə, başqa çoxsaylı ziddiyyət və məqamlar da bu prosesdə öz rolunu oynamışdır. Vaxtilə onların hərtərəfli təhlili və şərhi mənim hələ 1991-ci ilin əvvəllərində nəşr edilmiş "Mürəkkəblik. Zaman. Sinergetika" adlı kitabımda verilmişdir.

Cəmiyyətin və dövlətin modernləşməsində elmi-nəzəri təminatın nə qədər əhəmiyyətli olduğunu göstərmək üçün M. Qorbaçov yenidənqurmasının başqa bir ziddiyyətli cəhətinə də – "antialkoqolizm kampaniyası"na diqqət yetirmək istərdim. Həmin kampaniya, faktiki, SSRİ iqtisadiyyatına (dövlət büdcəsinə) axan spirtodollar selinin qarşısını kəsmiş və qısa zaman daxilində spirtli içkilər bazarında qeyri-qanuni münasibətlərə, sürətlə artan spekulyasiyalara yol açmışdır. Bu əsasda "kölgə iqtisadiyyatı" daha da çiçəklənmiş və genişlənmiş, asosial element və dairələrin qeyri-qanuni varlanması baş vermişdir. Spirtin satışından dövlət büdcəsində toplanmalı olan maliyyə ayrı-ayrı cinayətkar qrup və şəbəkələrin əlində cəmləşmişdir ki, nəticə etibarilə, bu acınacaqlı durum dövlətin normal fəaliyyəti üçün ciddi təhlükə və fəsadlar yaratmışdır. Üstəlik də, həmin zaman intervalında SSRİ iqtisadiyyatına neftin satışından əldə edilən valyuta axını hədsiz dərəcədə azalmışdır, çünki dünya bazarında neft olduqca ucuzlaşmış və uçuzlaşmaqda davam edirdi. Əlbəttə ki, burada SSRİ-nin əsas geostrateji və ideoloji rəqibi olan ABŞ-ın məqsədyönlü fəaliyyəti həlledici rol oynamışdır. Beləliklə də ölkə iqtisadiyyatını valyuta ehtiyatları ilə təmin edən hər iki kanal (neftedollar və spirtodollar axınları) kollaps vəziyyətinə salınmışdır. Aydındır ki, belə maliyyə təminatına malik olan iqtisadi sistem aqoniya mərhələsi yaşayaraq dağılmaya məhkum idi.

Modernləşmənin elmi-nəzəri təminatının nə qədər əhəmiyyətli rola malik olduğunu əyani surətdə arqumentləşdirən dünya təcrübəsindən xeyli pozitiv nümunələr də göstərə bilərik. Bu mənada, məsələn, imperator Meydzi (Sibusava Eydzi), Atatürk, Konrad Adenaur (Lüdviq Erxard), Kan Yuvey, Pak Çjon Xi, Den Syaopin, Tszən Tszinqo, Li Kuan Yu kimi görkəmli reformatorların adı xüsusi qeyd olunmalıdır. Onların həyata keçirdikləri uğurlu islahatlar praktikası bu gün də bir örnək olaraq təqdir edilir. Bu islahatlar nümunəsi həm nəzəri, həm praktiki müstəvidə bizim üçün çox faydalı ola bilər. Həmin səbəbdən çıxış edərək, vaxtilə ayrı-ayrı məqalə və kitablarımda bu islahatlar təcrübəsinə nəzər-diqqət yetirməyə, onların fəlsəfi zəminlərinə, ideya-siyasi, sosial-iqtisadi və əxlaqi-mənəvi

aspektlərinə dair təhlil aparmağa, nəticə olaraq, müvafiq təklif və tövsiyələrlə çıxış etməyə çalışmışdım.

Məsələn, göstərmişdim ki, böyük reformator Den Syaopin nəzərdə tutduğu islahatları həyata keçirməzdən öncə ideya-nəzəri hazırlığı, Çinin mənəvi-mədəni irsinə, fəlsəfi ənənəsinə müraciəti vacib bilmiş, partiya-təsərrüfat işçilərinin, məmur aparatının elmi dünyagörüşü, habelə, ideoloji cəhətdən formalaşmasına və kamilləşməsinə xüsusi diqqət yetirmişdir. Bu işə, 1976-cı ildən başlayaraq, təxminən iki il sərf edilmiş və əməli-praktiki islahatlara 1978-ci ildə start verilmişdir. Yəni, islahatlar praktikası əvvəlcədən mükəmməl praksioloji sistemlə təmin olunmuşdur ki, uğurlu nəticələrin qazanılmasına zəruri zəmin və şərtlər yaranmışdır.
Sanballı idarəetmə təcrübəsinə, böyük ağıla və dərin biliyə malik Den Syaopin kadrların (xüsusən ictimai rekonstruksiya, islahatlar dövründə!) hansı rola malik olduqlarını, nə kimi fayda və yaxud ziyan verə biləcəklərini yaxşı anlayırdı. Onun başlıca qayəsindən biri ondan ibarət idi ki, hər cür səfehliyin, qəbahət və yaramazlıqların daşıyıcısı olan “xırda adam”lar dövlətin idarəetmə strukturlarına daraşmasın, müxtəlif həlledici nöqtələrdə özlərinə yer edib, mənfur xislətlərinə uyğun, cəmiyyətdaxili destruksiyaya yol açmasınlar, ictimai mühiti içindən zədələyən, çürüdən işlər apara bilməsinlər. Əksinə, elə sərt, ardıcıl və sistemli tədbirlər görülməlidir ki, idarəetmə indiyə qədər artıq özlərinə yer etmiş mənfur kadrlardan təmizlənsin. Bu məqsədə də o, etiraf edək ki, müvəffəq olmuşdur. Təsəvvür edin ki, bu nəticə hasil olmasaydı (Denin islahatlarının verdiyi imkanlardan – “açıq qapı” siyasətindən və kapitalizmə məxsus bazar mexanizmlərindən sui-istifadə edərək!) “xırda adam”lar ölkəni hansı kökə sala bilərdilər!? Den Syaopinin əsasən rəhbər tutduğu fəlsəfi təlimin banisi Konfutsi deyərmiş: “Xırda adam, bəzən əzəmətli görünsə də, qəlbən qorxaq, yaltaq və satqın olur, o, pəncərədən və ya divarı aşaraq evə daxil olan oğruya-talançıya bənzəyir; alicənab adam daim ədalət barədə, xırda adam isə yalnız şəxsi mənfəəti haqqında düşünür” ( Конфуций, 1999: 613)

Çin islahatlarının başlıca müəyyənedici gücü-qüdrəti mədəni ənənənin, əsrlərlə formalaşmış mənəvi-sosial sərvətlərin potensialından qaynaqlanırdı. Bu potensialı müdrik dövlət xadimi Den Syaopin yenidən dirçəltmiş və mütərəqqi gələcək naminə cəmiyyətin, xalqın, dövlətin istifadəsinə yönəltmişdir. Böyük tarixin yetişdirdiyi sərvət, keçmişin qazancları onun üçün, sadəcə, qürrələnmə mənbəyi deyildi, müasir həyatı daha yaxşı təşkil etmək, etibarlı gələcəyi qurmaq, xalqı xoşbəxtliyə və qaneedici rifah səviyyəsinə doğru aparmaq üçün lazım idi. Cəmiyyəti bir üzvi “Tam” olaraq elə modernləşdirmək ki, onun bütövlüyü və dayanıqlığı zərər çəkməsin, dövlət idarəetmə orqan və mexanizmləri əsaslı surətdə təkmilləşsin, milli sərvətlərin artmasına və səmərəli istifadəsinə xidmət edən optimal üsul və vasitələr işə salınsın, yaradıcı və məhsuldar fəaliyyəti təşviq edən etibarlı amillər sistemi qərarlaşsın. İşgüzarlığın və ümumən, fəaliyyət dinamizminin artması ilə yanaşı məsuliyyət hissi artsın, sosial ədalət prinsipi pozulmasın. Və beləliklə, cəmiyyətdaxili mühit daha da sağlamlaşsın, ictimai harmoniya və tarazlıq təmin olunsun, qeyri-qanuni əməllərə, o cümlədən, şəxsi və korporativ məqsədlərdən qaynaqlanan sui-istifadələrə, mənimsəmələrə, habelə, kəskin sosial qütbləşməyə və bunun nəticəsində törəyən antaqonizmlərə yol açılmasın.

Böyük reformator gözəl anlayırdı ki, xalq üçün nəzərdə tutulan elə ilk növbədə xalqın özünün yaxından iştirakı ilə hasil ola bilər. Belədirsə, deməli, islahatların təşkili və gedişində hansısa “xoşməramlı” xarici ekspert-mütəxəssislərin və yaxud siyasi meydanda var-gəl edən boşboğazların, mənfəətdar haramzadələrin yox, xalqın rəyi, onun necə düşünməsi və münasibət bildirməsi vacibdir. Bir sözlə, xalqı yeni hədəflərə səsləyən, ondan fədakarlıq və vəfadarlıq uman, ilk növbədə, elə xalqla hesablaşmalı, əmək adamını, halal çörək yeyən sadə insanları dəyərləndirməlidir. Cəmiyyət və dövlət üçün həyatverici sağlam ruh da, tarixi ənənə-irs də, fəzilətlərin, ülvi əməllərin və mütərəqqi ictimai münasibətlərin kodu da, etik-estetik dəyər və ölçülər də məhz bu əmək adamlarında və onların vasitəsilə yaşayır. Xalqın rifah halının yüksəlməsinə hesablanmış hər bir möhtəşəm islahatlar sisteminin qüdrəti və pozitiv

nəticələri ədaləti-haqqı, ümumi mənafeni üstün tutan, əməldə fədakarlıq göstərən, ağır zəhmətə qatlaşan insanların ön sıralarda yer alıb, fəaliyyət göstərməsindən asılıdır. Fəndgirlər-şarlatanlar, siyasi dəllallar-sutenyorlar, anadangəlmə "xırda adam"lar məqbul, təqdirəlayiq olanı da puç edərlər. Qoca tarix dəfələrlə bunu sübut edib: mükəmməl biliklər sisteminə, dəqiq və aydın nəzəriyyəyə, bununla yanaşı, Əmək Adamına arxalanmayan, xalqın mental-psixiloji kimliyi, rəyi və suverenliyi ilə hesablaşmayan "reformator"un özü belə xırda-cır adamların, mənfəətdar dələduzların, bir sözlə, qarğa-quzğunların yemi olur və yarıtmaz fəaliyyətilə ölkənin tənəzzülünə, hətta tam dağılmasına rəvac verir.

Den Syaopinin sağlam düşüncə aləmini genişləndirən və zənginləşdirən modernləşdirmə kursu və onun islahatlar praktikası bu zəminləri özündə üzvi surətdə ehtiva edirdi:

- milli ləyaqət-qürur hissinin dirçəlişi və öz xalqının gücünə inam;
- tarixi və mənəvi dəyərlərin əsaslı surətdə yenidən öyrənilməsi və mənimsənilməsi;
- ənənələrə hörmət və milli nailiyyətlərdən istifadə etmək bacarığı;
- əsrlər boyunca xalqın vahid güc kimi möhkəmlənməsinə və mətnləşməsinə xidmət etmiş sosial dəyər və institutların, o cümlədən ailənin sağlam dayaqlarını qoruyub saxlamaq, bu institutların yeni tələblər müstəvisində rasional təşkilini və funksionallığını təmin etmək;
- izolya (təcrid) olunmanın ziyanvericiliyini anlamaq və müəyyən (konkretləşmiş) ölçülər daxilində açıqlığa getmək;
- dünya ilə münasibətdə "açıq qapı" siyasətini həyata keçirərkən, cəmiyyəti və dövləti xaricdən daxil ola biləcək entropiyadan, nizamsızlığa və destruksiyaya yol açan meyllərdən qorumaq;
- mümkün qədər başqa ölkələrə, xalqlara, dövlət və quruluşlara məxsus mütərəqqi element və mexanizmləri, üsul və formaları əxz etmək, yaradıcı surətdə onları cəmiyyətin istifadəsinə vermək;
- müasirliyə və tərəqqiyə ağıllı cəhd, bu istiqamətdə prioritetlərin, məqsəd və vəzifələrin düzgün müəyyənləşdirilməsi;
- Çində, sosializm quruculuğu praktikasına hörmət hissini itirmədən, tarixi nailiyyətləri və itkiləri tənqidi təhlildən keçirmək və ümumiləşdirmələr aparmaq;
- sosializmin obyektiv-həqiqi müddəalarına, habelə, sosializmin qərarlaşması və inkişafında böyük rolu olmuş tarixi şəxsiyyətlərin irsinə sadiqliyi qorumaq . (Müvafiq ədəbiyyatla dərindən tanışlıq bu zəminlərin nə qədər zəruri və əhəmiyyətli olduğunu dərk etməkdə öz müsbət rolunu oynayır. Bu mənada Den Syaopinin öz nəzəri yaradıcılığı ilə tanışlıq xüsusən vacibdir. Məsələn, bax: Дэн Сяопин. Основные вопросы современного Китая. М.: Политиздат. 1988.)

Bu zəminləri rəhbər tutaraq, artıq 1976-cı ildən Den Syaopin Çinin mərhələli və çoxölçülü yeniləşməsi, onun dəyişən dünyada öz layiqli və daha da təsirli yerini tutması üçün hərtərəfli düşünülmüş (nəzəri və ideoloji hazırlıq müstəvisində) tədbirlər sistemini həyata keçirməyə başlamışdır. Rəsmən sosialistcəsinə modernləşmə qərarı 1978-ci ildə, Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin 11-ci çağırış üçüncü plenumunda qəbul edilmişdir. İslahatlar əvvəlcə kənd təsərrüfatında, sonra isə iqtisadiyyatın başqa sahələrində aparılmışdır. Bütün sahələrdə islahatların dövləti əsasını, ideya-siyasi dayağını milli səciyyəni nəzərə alan sosialist meqatred təşkil etmişdir. Elə bu səbəbdən də başlanğıcdan inhisarçılığa, bazar mexanizmlərindən, rəqabət mühitindən sui-istifadə hallarına, həmçinin, korrupsiya və rüşvətxorluğa sipər çəkilmiş, sosial ədalət və hüquq bərabərliyi prinsipləri rəhbər tutulmuşdur. Bununla belə, dövlət sərfəli kreditlərin əldə olunmasını kifayət qədər asanlaşdırmışdır ki, sağlam rəqabətə söykənən biznes inkişaf edə bilsin.

Den Syaopinin Çin səciyyəli sosializm quruculuğu üçün Konfutsi təliminin mühüm tərkib hissəsi olan "**səo kan**" konsepsiyası rəhbər tutulmuş əsaslardan idi. "Qaneedici rifah", "ortasəviyyəli rifah" anlayışını aşılayan "səo kan" konsepsiyası (bəzi müəlliflər prinsip də

deyirlər!) Den Syaopinin proqramında xüsusi yer tuturdu və islahatların gedişi prosesində müasirləşən siyasi mədəniyyətin, sosial-iqtisadi münasibətlərin atributu rolunda çıxış edirdi (Международная научная конференция «Конфуцианство в диалоге китайской и российской цивилизаций», 2014: 327)

Ümumiyyətlə, müxtəlif mənbələrdə şərhi olduqca mürəkkəb, çoxqatlı olsa da, Çin mədəni-fəlsəfi ənənəsində "sao kan" anlayışı əsasən iki mənada istifadə olunub: dövlətdaxili müstəvidə - sakitliyin (rahatlığın) və iqtisadi vəziyyətin yaxşılaşması rəmzi kimi; ailədə - nisbi varlılığın ifadəsi anlamında (ailə istiliyin və toxluğun həsrətini çəkmir!). Qeyd edim ki, əsrlər boyu "sao kan" həm elmi-nəzəri şüurda, həm də xalqın psixologiyasında funksionallığını saxlayıb – hansısa həcmdə-formada yaşayıb və qüdrətli mütəfəkkirlərin arzuladığı Böyük (səmavi) Vahidləşmə yolunda mühüm amil-təkan olub.

"Sən kan" konsepsiyasının funksional bir əhəmiyyəti ondan ibarət olmuşdur ki, insanların düşüncə və əməllərində tarazlığa, hamı üçün məqbul "orta yol"a hörmət qoymaq, "qırmızı xəttlər"i aşmamaq, ölçüləri gözləmək kimi keyfiyyətləri aşılamış və formalaşdırmışdır. Yəni, bu konsepsiya ictimai nizama sahiblənmək, müxtəlifliklər vasitəsilə birliyə nail olmaq, vahid milli hədəflər ətrafında birləşmək və məsuliyyətli fəaliyyət göstərmək, zəruri hallarda isə yüksək fədakarlıq nümayiş etdirmək kimi vərdiş və ənənələrin qərarlaşmasına ciddi zəmin yaratmışdır. Məhz bu təqdirəlayiq keyfiyyətlər, mükəmməl dəyərlər sisteminə çevrilərək, hal-hazırda uğurlu reallaşma mərhələsini yaşayan Çin ictimai meqatrendinin məzmun-mahiyyətində önəmli yerə və rola malikdirlər. Digər təqdirəlayiq elementlərin, qibtəedici xüsusiyyətlərin həmin məzmun-mahiyyətdə özlərinə məxsus yer almasını, mövcudluğunu nəzərə alsaq və bu əsasda ümumi təhlil, dərin ümumiləşdirmələr aparsaq, tam əminliklə söyləmək olar: müasir dövrdə, bütün ölkələrlə müqayisədə götürdükdə, Çin ictimai meqatrendi ən optimal keyfiyyətli, danılmaz perspektivi olan meqatrenddir. Gəldiyim bu qənaətin ətraflı əsaslandırılmasını 2019-cu ildə nəşr edilmiş "Yeni dünya nizamı: siyasət və idarəetmə" adlı kitabımda vermişəm.(Abbasov, 2019: 237-269, 287-324.)

Son yüzillikləri götürsək, Den Syaopindən əvvəl "sao kan"ın xüsusi dirçəlişi Çinin böyük reformatoru, filosof-mütəfəkkir və kalliqraf Kan Yuveyin (1858-1927) adı ilə bağlıdır. Onun sayəsində XIX əsrin sonunda (ölkənin modernləşdirilməsi uğrunda hərəkat dövründə) "sao kan" Çin ictimai-siyasi tarixinin səhnəsinə qayıdır – müstəqil konsepsiya kimi yox, "Böyük vahidləşmə" cəmiyyətinin qurulmasında zəruri vasitə-amil kimi. Mütəfəkkir öz həyatının təyinatı barədə yazırdı: "Mən bu dünyaya bəşəriyyəti xilas etmək naminə gəlmişəm ki, insanlıq cəhənnəm əzabı çəkməsin və ölümə məhkum olmasın, bu pozğun dünya Pak Yer vəziyyətinə sahiblənsin. Mən nə imperator, nə də knyaz deyilən, sadə aliməm, lakin öz tənhalığımdan ləzzət alıb özümə hörmət edə bilmərəm, çünki bütün canlılarla vahid qan bağlantısındayam. Hamını xilas etməyə borcluyam və bunun üçün günbəgün, hər an çalışmalıyam". (Мартынов, 2010:115-116).

Görkəmli çinşünas alim, akademik S.L. Tixvinski göstərir ki, Kan Yuvey Çin ictimai fikrində ilk olaraq belə qənaətlə çıxış edib: Konfutsi öz şagirdi Yan Yanla söhbətdə, Böyük Vahidləşmədən danışarkən, keçmiş cəmiyyəti deyil, gələcək (qurulacaq) cəmiyyəti nəzərdə tuturmuş və indiyə qədər Konfutsi təliminin bütün şərhçiləri kobud səhvə yol veriblər; "Böyük Vahidləşmə" dövrü – heç də Çin tarixinin keçmiş mərhələsi qismində təqdim edilməməlidir (Тихвинский, 1980: 258).

"Səo kan" ifadəsinin özü Kan Yuvey tərəfindən "kiçik rahatlıq zəmanəsi" və ya "xaos erası"ndan çıxmaq üçün zəruri olan "təşəkkül tapmaq erası" mənasını verən "da tun" anlayışı ilə uzlaşmada istifadə edilib (Лукьянов, // http://www.sociognosis.narod.ru/myweb8/docs/ lukjanov_sjao-kan.htm#_ftn1).

Akademik S.L. Tixvinski qeyd edir: "Konfutsi təliminin Kan Yuvey tərəfindən "yeni açılışı"na görə, bəşəriyyət öz inkişafında üç mərhələ yaşayır ki, hər birinə öz qanunları

müvafiqdir. “Xaos və hərcmərclik” dövründən sonra, ardıcıl olaraq, “qərarlaşma” və “Böyük Rahatlıq” dövrləri gəlir. “Qərarlaşma” dövrü üçün “Kiçik Dünya” qanunları xarakterikdir, “Böyük Rahatlıq” dövründə isə “Böyük Vahidləşmə” erasının qanunları qüvvəyə minir” (Тихвинский, 1980: 262)

Mütəxəssislərin qeyd etdiklərinə görə, vaxtilə Tayvanda ictimai rekonstruksiyaya başlamış generalissimus Çan Kayşi, əsasən, Kan Yuveyin şərhində verilmiş “səo kan” konsepsiyasından (burada iqtisadi dəqiqləşdirmələr apararaq!) istifadə etmişdir.

Çan Kayşinin formalaşdırdığı təməl sonralar oğlu Tszən Tszinqo (Nikolay Yelizarov) tərəfindən, xüsusi yaradıcılıqla, istifadə olunmuşdur. Tszən Tszinqo (1910-1988) atasının ölümündən sonra əvvəlcə (1975-ci ildən) Tayvanın Baş naziri, sonralar (1978-1988-ci illərdə) prezidenti olmuşdur. Onun hakimiyyəti və şəxsiyyəti barədə xeyli maraqlı əsərlər mövcuddur (Məsələn, bax: Галицкий, 2002).

Atasından fərqli olaraq, o, çox ziddiyyətli şəxs kimi tanınmayıb, ümumən, hakimiyyəti dövründə də, ölümündən sonra da populyar və xalq tərəfindən sevilən olub. Bir dövlət xadimi, istedadlı rəhbər kimi Tayvanın inkişafında misilsiz xidmətləri danılmazdır.

Tszən Tszinqonun hakimiyyəti dövrü yaddaşlarda iqtisadi tərəqqi və tədrici demokratikləşmə zamanəsi qismində yaşayır. İnsanlar ona həm də gözəl şəxsi keyfiyyətlərinə görə dərin hörmət bəsləyiblər. Sadə, təvəzökar, ləyaqətli, ədalətsevər, aza qane olan, gözütox, xalqın malına və haqqına müqəddəscəsinə yanaşan, ümumi mənafeni yüksək tutan nadir tarixi şəxslərdən olub. Hakimiyyəti dövründə ailəsi üçün adi bir ev də əldə etməyib, necə deyərlər, “kazyonnıy” mənzillərdə yaşayıb.

O, mübaliğəsiz, mübariz, hətta deyərdim ki, üsyançı adam olub. Lakin, heç vaxt bu mübarizənin məğzini onun şəxsi məqsədlərini təmin edəcək motivlər, subyektiv məqsəd və vəzifələr təşkil etməyib. Mübarizəsi insanı və insanlığı yüksək pyedestaldan salan yalan, hiylə, tamah, acgözlük, ədalətsizlik, məsuliyyətsizlik, vəzifədən sui-istifadə kimi ciddi qəbahətlərə qarşı olub. Hiyləgər adam olmadığından da mübarizəsi həmişə xoş niyyətlərə, “Tam”ın və onun hər bir “hissə”sinin tərəqqisinə xidmət edib. Ümumiyyətlə, onu da deyim ki, bütün nümayişkaranə canfəşanlığına baxmayaraq, hiyləgər adamın mübarizəsi bəd niyyətli olur və o, heç vaxt sağlamlaşdırıcı hansısa bir işə-məqsədə xeyir gətirmir, ümumiyyətlə, verdiyi sözə əməl etmir və həmişə məsuliyyətdən yayınmağa çalışır.

Tszən Tszinqo baş nazir və prezident kürsülərini tutmamışdan əvvəl də, yüksək bacarıqla çalışdığı bütün vəzifələrdə (daxili işlər naziri, müdafiə naziri və s.) müftəxorluğa, korrupsiya və rüşvətxorluğa, haramçılığa, məmur özbaşınalığına, israfçılığa və talançılığa, vəzifədən və imkanlardan sui-istifadə hallarına qarşı ardıcıl və ciddi mübarizə aparıb. Bu mübarizəsində də kifayət qədər uğurlar qazanıb, qələbələr əldə edib. Həddən ziyadə halallıq tərəfdarı olub. Heç vaxt cəmiyyətdə kəskin qütbləşməni qəbul etməyib, sosial tarazlıq və sosial ədalət məsələsinə həssaslıqla yanaşıb. İctimai nizam və sabitliyin başlıca dayağını, qarantını ədalətin, məsuliyyət və vicdanın zəfər çalmasında görüb.

Görünür, onun təqdirəlayiq bu cəhətlərinin formalaşmasında, genetik-irsi amillərlə yanaşı, yaşadığı və tərbiyə aldığı ictimai mühitin də təsirli rolu olub. Belə ki, Tszən Tszinqo 16 yaşından (1925-ci ildən) Rusiyada yaşayıb (1937-ci ilin mart ayına qədər). Burada o, bir müddət V.İ. Leninin böyük bacısı Anna İliçna Yelizarova-Ulyanovanın ailəsində qalıb və tərbiyə alıb, “Yelizarov” soyadını da bu səbəbdən götürüb. Rusiyada mükəmməl təhsil alıb, olduqca fəal, təşəbbüskar və zəhmətsevər olub, kifayət qədər əziyyətli və bəzən də məşəqqətlərlə dolu həyat yaşayıb, bərkə-boşa düşüb, hətta əsassız təqiblərlə üzləşib.

Moskvada o, sonralar Sun Yatsen adına Universitetə çevrilmiş Beynəlxalq Lenin məktəbində oxuyub, həmin illərdə yaşça ondan böyük olan Den Syaopin də burada təhsil alıb. Artıq inqilabi mübarizə, qeyri-leqal fəaliyyət təcrübəsi qazanmış Den Syaopin, gələcəkdə Tszənin ideoloji-siyasi düşməninə çevrilsə də, bu təhsil illərində onun üçün bir nüfuzlu böyük yoldaş olub və formalaşmasına müəyyən təsir göstərib . (Bax.: Ларин,2000 )

Den Syaopini və Tszən Tszinqonu birləşdirən amil-əlamətlər az deyil. Yuxarıda qeyd etdiyim şəxsi keyfiyyətlər baxımından da Tszən Tszinqo Den Syaopinlə oxşarlıq təşkil edir, baxmayaraq ki, sonrakı ideya-siyasi görüşlərinə, apardıqları islahatların mahiyyətinə görə bir-birilə əks mövqedə, hətta bir-birini (siyasi-ideoloji baxımdan) təkzibedici münasibətlərdə olublar. Biri ölk əsini kapitalizm vektoru üzrə əsaslı surətdə yeniləşdirib və dirçəldib, o birisi isə sosialist vektorunu rəhbər tutub və uğurlu islahatlara müvəffəq olub.

Elə bu fakt (iki görkəmli dövlət xadiminin həyata keçirdikləri islahatların böyük nailiyyətlərlə yekunlaşması və ölkələrinin gələcəyini daha da etibarlı etməsi) bir çox qənaətlər söyləməyə, həqiqətlər ortaya qoymağa əsas verir. Məsələn, etiraf etməli oluruq ki, islahatlar təcrübəsinin uğuru hansı vektor – kapitalizm və ya sosializm istiqamətləri üzrə hərəkət etməkdən çox, ilk növbədə, reformatorun şəxsi keyfiyyətlərindən, mənəvi-intellektual potensialından, ağır zəhmətə qatlaşaraq özündə formalaşdırdığı çeşidli qabiliyyətlər toplusundan, xalq və dövlət qarşısında daşıdığı məsuliyyət yükünün böyüklüyünü anlamaq səviyyəsindən, seçdiyi ideoloji-siyasi xəttə sadiqliyindən və ideya-idealların təmizliyini necə qorumasından, habelə, vahid amal-məqsəd naminə səfərbər etdiyi komandadan, ətrafında birləşdirdiyi dövlət məmurlarının necəliyindən asılıdır.

Bir sözlə, möhtəşəm islahatlara iddia edən şəxsin özü möhtəşəm olmalı, onun əxlaqı, biliyi, mənəvi zənginliyi, siyasi iradəsi, idarəetmə ustalığı, həyat təcrübəsi, tərcümeyi-halı şübhələr doğurmamalıdır. O, qarşıya çıxan problem və çətinliklərin, dolaşıq situasiyaların yükünü, məsuliyyətini addımbaşı başqalarının üzərinə yıxmamalı, buraxılan səhv və nöqsanlara görə, ilk növbədə, şəxsən özünü günahkar və cavabdeh bilməlidir. Belə şərtlər daxilində, aydındır ki, islahatçılar komandası da, ayrı-ayrı sahələr üzrə məsuliyyət yükünü üzərlərinə götürmüş şəxslər, habelə, onların təmsil etdikləri idarəetmə qurumları zəruri keyfiyyətlərin cəmi baxımından kamil və yararlı olar. Komandanın kamil və yararlı olması isə, yəni, optimallığı uğurlu modernləşmənin və ictimai yeniləşmənin mühüm tələbidir.

Uğurlu nəticələrlə səbəb olmuş islahatlar təcrübəsinə bir əlamətdar cəhəd də xasdır ki, əksər hallarda biz onu ya görmürük, ya da görüb layiqincə anlamırıq. Söhbət islahatların milli səciyyəsindən gedir. Tarixi praktika əyani surətdə göstərir ki, milli səciyyədən kənar, ümumiyyətlə, heç bir ictimai layihə, nəzərdə tutulan modernləşmə özünü doğruldub reallaşa bilməz. Belə ki, hər bir modernləşmənin taleyi konkret insanlardan, geniş mənada, xalqdan və onun daha yüksək inteqrallaşma-nizam forması olan millətdən asılıdır. Və bu asılılığı milli dəyərlər, milli özünəməxsusluq, yəni, milli mentalitet şərtləndirir. İnsanlar prosesdə mücərrəd bir varlıq, müqəvva qismində iştirak etmirlər. Onların kimliyi, psixologiyası, intellektual keyfiyyətləri, inam və inancları, adət-vərdiş ənənələri, irsi-genetik kodları, söykəndikləri dəyərlər sistemi, tarixi təcrübə qazancları (həm "təkcə" və "xüsusi", həm də "ümumi" müstəvilərdə!) bu prosesi şərtləndirir. Bir sözlə, mentalitet məsələsi hər bir modernləşmə prosesi üçün olduqca böyük əhəmiyyət kəsb edir.

Müasir Azərbaycanda islahatlar mövzusuna gəldikdə, etiraf edək, bu problem, öz danılmaz əhəmiyyətinə baxmayaraq, demək olar ki, xüsusi diqqətə alınmır və bu istiqamətdə zəruri işlər aparılmır. İlk öncə, əlbəttə ki, konkret faktoloji və sosioloji materiallara söykənən elmi təhlil işlərinin, nəzəri araşdırmaların aparılmasını nəzərdə tuturam. Əslinə qalanda, biz özümüz özümüzü bilmirik və öyrənmək də istəmirik. Ola bilsin ki, məsələnin nə qədər ciddi əhəmiyyət kəsb etdiyini kifayət qədər anlamırıq. Faktiki, "Azərbaycan milli özünəməxsusluğu" bizim üçün naməlum bir noumendir. Vacibdir ki, o, məhz daim aktual bir fenomen kimi məqsədyönlü, ardıcıl və sistemli tədqiqatın obyekti olsun, hərtərəfli və dərindən öyrənilsin. Bu özünəməxsusluğun strukturu, tərkib elementləri, əsas dominantları nədən ibarətdir? Burada rasionallıqla irrasionallığın, bədiiliklə məntiqiliyin, variativliklə invariantlığın, novatorluqla konservativliyin, "Tam"la "hissə"nin nisbəti, qarşılıqlı əlaqəsi necədir? Özünəməxsusluğun arxitektonikası hansı üfüqi və şaquli əlaqələr üzərində qurulub?

Ümumiyyətlə, strukturdaxili üfüqi və şaquli əlaqələri tənzimləyən qanunauyğunluqlar nədən ibarətdir?

Bu tip suallar çoxdur və onların sayını xeyli artırmaq olar. Lakin, mühüm iş onları cavablandırmaqdan ibarətdir. Əfsuslar ki, buna lazımınca qadir deyilik, çünki vaxtında, məsələnin ciddiliyini anlayaraq, zəruri tədqiqatlar aparmamışıq, özümüz özümüzü öyrənməkdə bağışlanılmaz laqeydliyə yol vermişik. Və bu vəziyyət öz xoşagəlməz təsirini islahatlar prosesinə göstərməyə bilməz. Vacibdir ki, heç olmasa indi, milli mentalitet məsələsi elmi tədqiqatların gündəliyində mühüm, taleyüklü problem kimi qoyulsun. Burada, düşünürəm ki, fərdi təşəbbüslərlə kifayətlənmək olmaz və bilavasitə dövlətin, müvafiq məsul qurumların dəstəyinə böyük ehtiyac var.

## İstifadə olunmuş ədəbiyyat


Аббасов А. Ф. Сложность. Время. Синергетика: общетеоретический анализ проблем сложности и развития сложных систем. Баку: «ЭЛМ». 1991.

Конфуций. Уроки мудрости. Сочинения. М.: ЗАО Издательство ЭКСИМО-Пресс. Харьков: «Фолио». 1999

Международная научная конференция «Конфуцианство в диалоге китайской и российской цивилизаций» (26-27 июня 2013 г. в Институте Дальнего Востока РАН) // Проблемы Дальнего Востока. 2014. № 1

Abbasov Ə.F. Yeni dünya nizamı: siyasət və idarəetmə. Bakı: “Zərdabi Nəşr”, 2019

Мартынов Д. Е. Кан Ю-вэй: Жизнеописание. — Казань: Ин-т истории АН РТ им. Ш. Марджани, 2010

Тихвинский С.Л.Движение за реформы в Китае в конце Х1Х в. М., 1980

Лукьянов А.Е., Переломов Л.С. «Сяо кан» в китайской цивилизации // http://www.sociognosis.narod.ru/myweb8/docs/ lukjanov_sjao-kan.htm#_ftn1

Тихвинский С.Л.Движение за реформы в Китае в конце Х1Х в. М., 1980

Владимир Галицкий. Цзян Цзинго: Трагедия и триумф сына Чан Кайши. Москва: РАУ – Университет, 2002.

Ларин А. Г. Два президента, или Путь Тайваня к демократии. М.: Academia, 2000 г.


# QİSMƏT VƏ İLAHİ MÜQƏDDƏRATA ROMANTİK – FƏLSƏFİ YANAŞMA


**Afaq Məmmədova**
*fəlsəfə elmləri doktoru*
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*e-mail: mamedov.afaq@yandex.ru*



**Açar sözlər:** *qismət, tale, ilahi müqəddarat, iradə, azadlıq, romantizm, fəlsəfə*


Yaşadığımız dünyanın çoxcəhətli mürəkkəbliyi və fraqmentar «açılışı» romantik fəlsəfi təfəkkürü sonsuz təəccübə qərq edir. Romantiklər fövqəl «sirlərin» dərkində insan idrakının gücsüzlüyü və onların həlledilməzliyindən çıxış edərək müxtəlif şey, hadisə və proseslərdə, onlar arasındakı əlaqə və qanunauyğunluqlarda Tanrının iradəsinin və mistik talenin bəlirləndiyini iddia edir və həyatın gizli şifrə və kodlarında ilahi müqəddaratı anlamağa cəhd edirdilər. Yaradılışın nizamlı dövranı, və mistik determinizmi romantik filosofları xürafata inanmağa sövq edir.

Romantizm fəlsəfəsində qismət və ya ilahi müqəddarat “dünya qanunu” kimi mənalandırılır. İnsana mütləq azadlıq tələb edən romantik filosoflar azadlığı mistik tale, ilahi müqəddarat çərçivəsində məhdudlaşdırırlar. Bu, fikir bir çox avropa romantiklərinin dünyagörüşündə və yaradıcılığında təzahür edir.

Romantizm fəlsəfəsinin görkəmli nümayəndəsi Karleyl (Thomas Carlyle, 1795-1881) insanın məqsəd və məramını ilahi missiya ilə əlaqələndirir. Karleylə görə, baş verən bütün hadisələrin mahiyyətində və ardıcıllığında ilahi ideya, mistik tale mövcuddur. Varlıq gizli işarətlər və simvollar dünyasıdır. İnsan müvəqqəti, xarici təzahürlərdən ali həqiqətə aparan yolun qanunauyğunluqlarını sezməli və dərk etməlidir. İnsan kainatın gizli şifrələrini açmağa xidmət edir. Karleylin inamına görə, tale və qismət insana daxili hissləri vasitəsi ilə əyan olur. İlahi müqəddarat müqəddəs borc, qəhrəmanlıq mübarizəsi və "təsadüfi" zərurətlərdə təzahür edir. Dünya tarixində qəhrəmanlar və qəhrəmanlıqlar ilahinin qisməti və ya müqəddaratı ilə müəyyənləşir.

Romantizmin görkəmli nümayəndəsi Fridrix *Şleyermaherin* (Friedrich Schleiermacher, 1768-1834) ilahi müqəddarat və qismət haqqındakı fikirləri də maraq doğurur. Onun fikrincə, insan həyatının mahiyyəti və mənası ali ilahi qanunlardan və ruhun ölməzliyi ideyasından deyil, onun (insanın) idrakı və arzuları arasındakı bütöv və arasıkəsilməz harmoniyadan, uyğunluqdan asılıdır. Aristotelin «Etika»sından bəhrələnən Şleyermaher belə hesab edirdi ki, xoşbəxtliyin dəyəri onun insanın ictimai vəziyyəti, təhsili və həyat şərtlərindən asılı olmayaraq hər yerdə eynidir. Həyat ədalətlidir, «insanlar ancaq bu dəyəri ödəmək üsullarına görə yanlışlığa yol verirlər». Tanrı mövcud dinlər və ehkamlarda təsvir edilməklə məhdudlaşmır, o, qeyri-müəyyən duyğularda yaşanır. Şleyermaherin romantik dini görüşlərinə görə, mükəmməl idarəetmə qabiliyyətinə malik Tanrı aləmi rasional qanunlarla idarə edir. Yaradıcılıqları boyu ideal aləm xəyal edən romantiklərdən fərqli olaraq Şleyermaher möcüzənin – nə isə gözlənilməz bir şeyin baş verməsini, Tanrının özünün qoyduğu qanunlara qarşı çıxması kimi mənalandırırdı. Zəka ilahi atribut olub, digər ilahi keyfiyyətlərlə yanaşı təbiətin qanunauyğunluqlarında təzahür edir. Tanrı, Mütləq başlanğıc öz istək və hökmlərini öncədən nizamladığı təbiət qanunlarında əks etdirir. Şleyermaherə görə, ilahi mistik duyğularla rasional idrak, zəka arasında əslində bir uyğunluq və tarazlıq mövcuddur. Romantiklərə görə, düşünən ağıl, intellekt dini duyğularla birləşərsə, bu duyğuları anlamağa, aləmin sirrlərini dərk etməyə imkan yaranar. İnsana mütləq azadlıq tələb edən romantik filosoflardan fərqli olaraq Şleyermaher azadlığı mistik tale, ilahi müqəddarat çərçivəsində məhdudlaşdırırdı. Filosofun fikrincə, sonlu varlıqlar sonsuz varlıqlar qarşısında məsul olub, bir-birləri ilə münasibətlərində sərbəstdirlər. Şleyermaher dini ehkam və təlimləri mistik duyğulardan sonra gələn, onları aydınlaşdırmağa və gerçəkləşdirməyə xidmət edən vasitə hesab edirdi. Zamanın təsirinə məruz qalan, dövrün tələbinə uyğun olaraq dəyişikliklərə uğrayan ehkamlar səmimi ilahi duyğulardan, Tanrının əsl mahiyyətini açmaqdan uzaqlaşırlar. Şleyermaxerə görə, bütün digər dinlər də bu cür "islahatlara" məruz qalır. Çünki "həqiqi din" sonlu olan insan nəslinin mühakiməsinə birdən-birə, konkret tarixi anda və məkanda verilə bilməz. Tanrının sonsuz varlığı tarixi dövrlər ərzində fasilələrlə, diskret şəkildə insan düşüncəsinə əyan olur və Tanrının vahidliyi, tək və yeganə olması haqqında "mütləq həqiqi bilik" tarixən mövcud olan və yanaşı yaşayan təriqətlərə, yaxud bir-birinin ardınca yaranan dinlərə bölünmək və fərqlənmək zərurəti ilə qarşılaşır [bax: 3, 396].

Alfred de Vinye (Alfred Victor de Vigny 1799-1863) də öz gündəliklərində ilahi müqəddaratı və taleyi məbəsə bənzədir. Tanrı isə həbsxana müdiri kimi çıxış edir. Həyat – ağır mükəlləfiyyət, "məhbus vaxtını çəkmədir". Müəllifə görə, insanlar ayılaraq qəfildən özlərinin məhbəsdə olduğunu dərk edirlər. Onlar suçlarını bilməsələr də, etmədikləri cinayətin günahını ödəyərək məhbus həyatına alışırlar. Sonra məhbusları bir-bir harasa aparırlar. Heç kim özünün hara, nə üçün aparıldığını bilmir. Müəllif mövcudluğun mənasızlığı haqqında yazır: «Mən özümü öz həbsxanamda çox yaxşı hiss edirəm. Mən orada hər şeyi unutmaq üçün saman toxuyuram. Çünki insan əməyi bununla məhdudlaşır».

Romantik filosof Novalis (Georg Friedrich Philipp Freiherr von Hardenberg, 1772-1801) ilahi tərəfindən müəyyən edilən taleyə inanmırdı. Onun fikrincə, hər bir insan mahiyyət etibarilə sonsuz iradəyə malikdir və öz fəaliyyəti ilə taleyini müəyyənləşdirir. İnsanı təbiətən

əxlaqlı varlıq hesab edən Novalisə görə, hər bir insan sonsuz iradəsini daxili əxlaqı ilə tənzimləməli – özü öz daxilində sərt məhkəməsini qurmalıdır. Romantik filosof Tanrıya inamın mənşəyini insanın daxili əxlaqı, mənəvi etik idealı və Məni ilə əlaqələndirir. Onun fikrincə, insanda daxili Mən-in mücərədləşməsi və fərdi Mən-in üzərində yüksəlməsi yolu ilə insanın daxili məni ilə ünsüyyəti Tanrıya xitabla nəticələnir və fəlsəfənin dinə çevlilməsinə zəmin yaradır. İctimai Mən-in əxlaqi mən-dən uzaqlaşması, batini - mən ilə zahiri - mən arasındakı fərqlərin dərinləşməsi insanın daha pak və ülvü biri ilə təmasına ehtiyacını zəruriləşdirir. Bununla belə, Novalis hesab edirdi ki, bəşər həyatı və tale roman kimi struktura malikdir. «Roman kitab formasını alan həyatdır. Hər bir həyat epiqrafa, başlığa, naşirə, ön sözə, girişə, mətnə, qeydlərə və s. malik ola və ya olmaya bilər. Adətən dünya və tale adlandırılan məhfumlardan daha romantik heç nə ola bilməz. Biz nəhəng bir romanda yaşayırıq [3.s.133].

Teodiseya[1] tərəfdarı olan Fansua Rene de Şatobrian (François-René, vicomte de Chateaubriand, 1768-1848) belə hesab edirdi ki, insanın öz bədbəxtlikləri üçün Tanrı yox, insanın özü məsuliyyət daşıyır. Onun fikrincə, Tanrı insanlar üçün qədərlər yazır, lakin sonra onlardan müstəqil olaraq fəaliyyət göstərməyi tələb edir, çünki əks təqdirdə, o, cismani şəkildə idarə etməli olardı, axı insanlar onun möcüzələrini pozurlar".

Şatobriana görə, taleyin zərbələrindən xilas üçün kilsə və monastıra sığınan insan azadlığa nail olmaq əvəzinə, əksinə, həm Tanrıdan, həm də rahibdən asılılğı qəbul edir.

Fridrix Şlegelin (1772-1829) fikrincə, əgər insan şüuri və qeyri-şüuri olaraq bütün dini inanclardan təcrid edilsəydi o, belə halda daxili məzmuna malik olmayan maddi varlığa çevrilərdi. F.Şleqel «İdeyalar» əsərində yazırdı ki, həqiqi mömün insan Tanrını görməsə də, hər şeydə hadisələrin dərinliyində ilahi müqəddaratı sezir. Şleqelə görə, azadlıq ilahi müqəddaratın dəyişdirilməsi və "tale hüdudlarının" ləğvi deyil, öz şəxsi istəkləri üzərində mənəvi hökmran olmaq, bütün fəaliyyəti və var qüvvəsini ilahi qanuna tabe etdirməkdir. F.Şlegel qeyd edirdi ki, «İnsan şəxsi iradəsi ilə daxili və xarici hüdudları dəf edərək tam daxili və xarici azadlığına nail olur. Daxili azadlığı hesabına özünü xöşbəxt hesab edir». Xarici azadlıq isə şəxsiyyətin sosial fəaliyyətini ictimai qadağalarla uzlaşdırmağı labüdləşdirir. [3. 190].

Taleyin hökmünə qarşı daxili qiyam və ilahi müqəddaratdan narazılıq romantizm fəlsəfəsində azadlıq probleminə münasibətdə maraqlı, özünəməxsus və müəyyən dərəcədə ziddiyyətli fikirlərlə səciyyələnir. Azadlıq anlayışı bəzən yaradıcılıq imkanlarının sonsuzluğu, bəzən şəxsiyyətin sosial statusu və məsuliyyətsizliyi, bəzən isə insanın ilahi müqəddarata və taleyə etirazı ilə əlaqələndirilir. Azadlığı ifrat dərəcədə abstaktlaşdıran romantik hətta, bəzən bu hissin (azadlıq hissi) həzzindən və hüdudsuzluğundan vahimələnir, ilahi qədərə baş əyir. V.Vordsvortun (1770-1850) aşağıdakı fikirlərinə diqqət yetirək: "Mən sənin nəzarətin üçün dua edirəm, ... azadlığın hüdudsuzluğu məni yorur; mən təsadüfi arzuların üzərimdəki yükünü hiss edirəm; qoy mənim ümidlərim artıq öz adlarını dəyişməsinlər; mən sakitlik istəyirəm və bu sakitliyin əbədi olaraq dəyişməz olmasını arzulayıram".

Sosial ziddiyyətlərdən məyus olmuş romantik ya taleyinə qarşı çıxıb iradə azadlığını təsdiq etməli, ya da öz təsəllisini ilahi müqəddaratda, "qismətin xeyirli olması" ideyasında tapmalıdır. Mistik alın yazısının obyekti yox, subyekti olmağı arzulayan romantikin isə azadlığına xətər yetirən daha güclü rəqibə - taleyə qarşı mübarizəsi qaçılmazdır. Azadlıq insanın daxili tələbatıdır. Bu mənada insanın azadlıq arzusu və onu reallaşdırmaq mücadiləsi sonsuz və əbədidir.

**İstifadə olunmuş ədəbiyyat**

1. Afaq Məmmədova. Romantizmin fəlsəfəsi. Bakı, "Elm", 2011.

[1] teodiseya - dünyada olan ədalətsizliyə bəraət qazandırmaq və Tanrınınqadir və mərhəmətli olduğu haqqındakı əfsanələri doğrultmaq məqsədini daşıyan dini fəlsəfi görüş.

2. Карлейль Т. Прошлое и ностоящее (1843), пер.с англ. М. Республика, 1994, с-294.
3. Литературные манифесты западноевропейских романтиков, Москва, МГУ, 1980, 638 с.
4. Шатобриан Ф. Р. Замогильные запикси. – М., 1995. – С. 509.

# ALİ MƏKTƏBLƏRDƏ SOSİAL ELMLƏR SAHƏSİNDƏ KEYFİYYƏTLİ DƏRSLİK VƏ YA DƏRS VƏSAİTİNİN HAZIRLANMASI XÜSUSİYYƏTLƏRİ

**Rəfail Həsənov**
**sosiologiya elmləri doktoru, professor**
**BDU-nun sosiologiya kafedrasının müdiri**
has_rm62@yahoo.com

**Rüfət Həsənov**
**AƏSMA Riyaziyyat və İnformasiya Texnologiyaları kafedrası, kompüter mühəndisi,**
**baki15ruf@yahoo.com**

**Açar sözlər: dərslik, dərs vəsaiti, tələbə, müəllim,** rəqabətli bazar

**Dərsliyin qısa tarixi**

Dərsliklərdən hələ bir neçə min il bundan öncə istifadə olunub. Belə ki, qədim şumerlər gildən hazırlamış olduqları xüsusi lövhələrdən dərslik kimi istifadə etmişlər. Antik dövrdə çoxlu sayda dərsliklərin mövcudluğu tarixə məlumdur. Avropada hələ V əsrdə Prissianın "Commentarium grammaticorum libri XVII"*, VI əsrdə isə Donatanın qrammatika dərsliyi haqda məlumatlar vardır. Şərqdə, xüsusilə də İslam ölkələrində, Qurani-Kərimlə yanaşı, onun düzgün tələffüzü, qiraəti və s. ilə bağlı müxtəlif dərslik xarakterli kitabların mövcudluğu bir faktdır. Müasir dərslik nümunələrinə ən yaxın ilk dərslik isə XVII əsrdə yaşamış çex pedaqoqu və ictimai xadimi Yan Komenskiyə məxsusdur (https://az.wikipedia.org/wiki/D%C9%99rslik).

Azərbaycan ərazisində ana dilində yaranan dərsliklərin tarixi XVII əsrə təsadüf edir. Bu vaxt, klassik Azərbaycan ədəbiyyatının ən tanınmış nümayəndələrindən biri sayılan Saib Təbrizinin ana dilində yazdığı kitabdan uzun müddət məktəblərdə dərslik kimi istifadə edilmişdir.

Müəyyən vaxtdan sonra məktəb və mədrəsələrdə Sədi Şirazinin "Gülüstan" və "Bustan" əsərləri, Məhəmməd Füzulinin "Divanı", Əmir Mir Yusif Milaninin "Tarixi-Nadir", Şeyx Bəhainin "Camei-Abbas" və başqa kitablar dərslik və dərs vəsaitləri kimi istifadə olunmuşdur. Bu kitablar milli dərslik yaradıcılığında ilk nümunələr kimi qiymətləndirilir.

Sonralar Abbasqulu Ağa Bakıxanov, Seyid Əzim Şirvani kimi maarifçilər dərslik hazırlığı sahəsində ilk cəhdlər göstərmiş, işlədikləri məktəb və mədrəsələrdə hekayə və şeirlərindən təlim materialları kimi istifadə etmişlər (https://az.wikibooks.org/wiki/D%C9%99rslikl%C9%99r/Az%C9%99rbaycan_dilind%C9%99_d%C9%99rslikl%C9%99rin_tarixi/%C4%B0lkin_savad_t%C9%99limi).

Sovet dövlətinin yaranmasının ilk illərində SSRİ-də müxtəlif metodik və məzmun yönümlü çoxlu dərsliklər nəşr edilmişdi. Bununla belə, 1934-cü ildə Bolşeviklərin Ümumittifaq Kommunist Partiyası və SSRİ Xalq Komissarları Soveti tədris ədəbiyyatının birləşdirilməsi haqqında qərar qəbul etdi və dərsliklərin bütün çeşidi hər bir tədris fənni üçün

* "Commentarium grammaticorum libri XVII" - "Qrammatiklər üçün şərh. 17-ci kitab".

vahid versiyaya endirildi. Yeni dərsliklərin yaradılması prosesinə Təhsil Nazirliyi və Pedaqoji Elmlər Akademiyası cəlb olundu. RSFSR-də tədris ədəbiyyatını çap etmək hüququna malik olan yeganə nəşriyyat "Üçpedqız" (sonralar "Maarif") , Azərbaycan SSR-də isə "Maarif" nəşriyyatı idi. 1991-cı ildə SSRİ-nin süqutu ilə dərsliklərin vahid sistemi qərarla ləğv edildi; hər bir təhsil pilləsi və hər bir fənn üzrə bir neçə versiyada dərslik hazırlamaq mümkün oldu. Dərslik kitab nəşri bazarının inhisardan çıxarılması tədris ədəbiyyatının istehsalı üzrə ixtisaslaşmış bir çox nəşriyyatların yaranmasına səbəb oldu (https://studref.com/646315/pedagogika/uchebnik_uchebnoe_posobie).

**"Dərslik" və "dərs vəsaiti" anlayışlarının izahı**

**Dərslik**" dedikdə müəyyən bir fənn üzrə sistemli məlumatlar tolanmış, fundamental xarakterli və praktikada sübut edilmiş, tələbənin biliyinin əsasını təşkil edəcək elmi biliklərə əsalanan, kurrikuluma uyğun gələn və bir nəşr növü kimi rəsmi olaraq təsdiq edilmiş kitab nəzərdə tutulur (https://zaochnik.ru/blog/chem-otlichaetsja-uchebnik-ot-uchebnogo-posobija/). Ondan fərqli olaraq "**dərs vəsaiti**" dərsliyə əlavə hesab edilir, yəni bütün fənni deyil, onun yalnız bir hissəsini (bir neçə bölməsini) əhatə edir. O, təkcə sübut edilmiş, ümumi qəbul edilmiş bilik və müddəaları deyil, həm də konkret problem üzrə müxtəlif fikirləri ehtiva edə bilər (https://izd-mn.com/nekotoryie-pravila-napisaniya-uchebnyih-posobiy.html) .

Gəlin bu iki anlayış arasındakı oxşar və fəqli cəhətləri müəyyənləşdirək. Onlar arasındakı oxşarlıq ondan ibarətdir ki, hər ikisi yeni biliyin alınması üçün zəruridir və tələbə tərəfindən əsas material kimi imtahan vaxtı istifadə olunur. Bəs onda fəqlər nədən ibarətdir? Əgər dərslikdə praktikada sübut edilmiş və sonra diqqətlə sistemləşdirilmiş ümumi nəticələr təqdim olunursa, dərs vəsaitində əsas məlumatlara / faktlara / hadisələrə hansısa əlavələr oluna bilər və burada daha ixtisaslaşmış məlumatları tapmaq mümkündür. Başqa fərqləri də göstərə bilərik. Məsələn, əgər dərslikdəki materiallar müəllimlə öyrənmək üçün təqdim olunmuşdursa, dərs vəsaitindəki materiallar daha sərbəst xarakter daşıyır və tələbə yeni materialı özü oxuyub öyrənə bilər. Daha sonra, dərslik üzərində adətən yüksək elmi adlara və ya elmi dərəcələrə malik şəxslər işlədiyi halda, dərs vəsaitini müəyyən bilik və bacarıqlara malik olan bir və ya bir neçə şəxs hazırlaya bilər. Lakin bu iki kitabı birləşdirən bir amil vardır: onların paralel istifadəsi məqsədəuyğundur, çünki onlar bir-birni inkar yox, tamamlayırlar. Məhz bu halda tələbə gələcək peşəsi sahəsində yaxşı nəzəri və praktiki biliklərə malik ola bilər.

**Yaxşı dərslik və ya dərs vəsaiti necə olmalıdır?**

Bu günki kompüter, robot əsrində dərsliklərə tamam başqa yanaşma nümayiş etdirilir. Bu məqalədə bizim diqqət mərkəzimizdə ali məktəb dərslikləri və dərs vəsaitləri ilə bağlı bəzi məqamlar durur ki, onları da oxucularımızla bölüşdürmək istərdik.

**Keyfiyyətli və effektiv tədris prosesinin aparılması üçün ilk növbədə yaxşı dərslik və ya dərs vəsaiti lazımdır. Məsələ sadə və bayağı görünsə də, məlum ədəbiyyatda buna dair dəqiq bir cavab yoxdur.**

Yaxşı bir dərsliyi qiymətləndirməkdən ötrü meyarlar hazırlamaq üçün dərslik istifadəçisinin, ilk növbədə, tələbənin, sonra isə müəllimin istək və ehtiyaclarından çıxış etmək lazımdır. O, həm tələbə, həm də müəllim üçün faydalı olmalıdır. Dərslik elə qurulmalıdır ki, o, bir tərəfdən tələbənin psixoloji ehtiyaclarına uyğun yazıla bilsin, digər tərəfdən də bilikləri uğurla və maraqlı çatdırmaq istəyən müəllimin məqsədlərinə xidmət etsin.

Tələbə nə istəyir? Tələbə sorğularına və öz şəxsi təcrübəmizə əsaslanaraq dərsliyin bir neçə mühüm parametrlərini müəyyənləşdirək: **1) məlumatlandırıcılıq; 2) əyanilik; 3) aydınlıq; 4) elmilik; 5) aktuallıq; 6) maraqlılıq; 7) məntiqi ardıcıllıq; 8) praktiklik; 9) bütövlük; 10) orijinallıq** (https://mysl.kazgazeta.kz/news/447).

İndi isə bu meyarların hər birini qısaca aydınlaşdırmağa çalışaq:

1. **Məlumatlandırıcılıq**. Dərslikdə mövzu ilə bağlı kifayət qədər böyük miqdarda faydalı məlumatlar olmalıdır, lakin bu həcm optimal şəkildə balanslaşdırılmalıdır. Burada qeyd etmək lazımdır ki, məlumatın həddindən artıq olması pis hal kimi qiymətləndirilməlidir, çünki dərslik elmi monoqrafiya deyil. Təbii ki, bir dərsliyə bir fənn haqqında bütün məlumatları sığışdırmaq olmaz. Buna görə də, ona daxil edilməli olan ən vacib məlumatı prioritetləşdirmək və seçmək lazımdır.
2. **Əyanilik**. Dərslik əyani olmalıdır, yəni o, faydalı vizual materiallarla - diaqramlar, illüstrasiyalar, qrafiklər, cədvəllər, xəritələr və s. ilə təchiz olunmalıdır. Bu materiallar keyfiyyətli, gözəl görünməli, başa düşülən olmalı və oxucuda maraq oyatmalıdır. Bəzi dərsliklərdə mövzu ilə əlaqəli internetdən mütəlif maraqlı linklər də təqdim edilir.
3. **Aydınlıq**. Dərsliyin dili aydın, oxunması asan və yadda qalan olmalıdır. Onu yad və anlaşılmaz sözlərlə yükləmək olmaz. Dərslikdəki ifadələr asan qavranılmalıdır və orada müxtəlif nitq ifadələri ilə həddən artıq yüklənmiş mürəkkəb, uzun cümlələrə rast gəlinməməlidir. Bəzən dərslik müəllifi öz erudisiyasını, savadını göstərmək istəyir və bunun üçün çoxlu əcnəbi sözlərdən istifadə edir, çox mürəkkəb cümlələr işlədir. Nəticə etibarı ilə belə bir dərsliyi oxumaq hər addımda maneələr, çətinliklər yaranan çox sıx bir meşədən keçməyi xatırladır. Belə dərsliyin bir-iki səhifəsini oxuyandan sonra oxucu tez yorulur, daha sonra oxumağa marağı qalmır. Ümumiyyətlə, unutmaq lazım deyil ki, dərslik elmi monoqrafiya deyil, peşəkar yüksəlişə yeni başlayan gənc üçün kitabdır.
4. **Elmilik**. Dərslik müasir elmin səviyyəsini özündə əks etdirməli, bu sahədə mövcud olan son informasiyanı oxucuya çatdırmalıdır, elmi baxışların və mədəni dəyərlərin tətbiqinə səbəb olmalıdır. Lakin bir məqamı yadda saxlamaq lazımdır: bu informasiya müəyyən həcmdə olmalı, oxucunun – bakalavrın, magistrin və ya doktorantın səviyyəsini nəzərə almalıdır.
**5. Dərslik aktual olmalıdır**, yəni onun materialı öyrənilən obyektin mövcud vəziyyətinə uyğun olmalıdır. Bu, xüsusilə normativ fənlər üzrə dərsliklər üçün vacibdir. Dərsliyin oxşar kitablardan nə ilə fərqləndiyini aydın şəkildə müəyyənləşdirmək lazımdır. Nəşriyyatçılara və digər pedaqoqlara (potensial alıcılara) niyə başqa kitabdan deyil, məhz sizin kitabınızdan istifadə etmələrini izah etmək vacibdir.
6. **Maraqlılıq.** Dərslik maraqlı dildə yazılmalı, yeri gəldikdə qrafiklər, qəzetlərdən və s.-dən parçalar verilməlidir. Daha yaxşı yadda saxlamaq üçün məlumatı insana yaxşı məlum olan və maraqlı faktla əlaqələndirmək məsləhətdir.
7. **Məntiqi ardıcıllıq.** Dərslik materialı məntiqi, ardıcıl, sadədən mürəkkəbə doğru təqdim edilməlidir. Bir fikir digərinin əsası olmalıdır. Səbəb-nəticə əlaqəsinə mütləq əməl olunmalıdır. Təklif olunan materialda bu tələblər təmin olunarsa, dərslik başa düşülən olacaq və tələbə tərəfindən bəyəniləcək. Əgər material təsadüfi, bir-biri ilə əlaqələndirilmədən verilirsə, bu, tələbə üçün problemlər yaradacaq, o, dərsliyin səhifələrində təklif olunan nəticələrin nəyə əsaslandığını, bu faktların haradan gəldiyini başa düşməyəcək. Sonda o, sadəcə olaraq, imtahandan keçmək üçün materialı mexaniki şəkildə əzbərləyəcək və imtahandan çıxandan yarım saat sonra orada oxuduqlarının hamısını unudacaq.
**8. Praktiklik**. Dərslik tələbəyə gələcək işlərdə köməkçi olmalıdır. Müəllif mütləq nəzərə almalıdır ki, dərslik sırf nəzəri biliklərlə yanaşı, praktiki məsləhətlər, misallar, hesablamalar və s. təqdim etməlidir. Çox vaxt tətbiqi fənn üzrə dərslik çoxlu fundamental elmi biliklər, nəzəriyyələr verir, lakin iş üçün zəruri olan praktiki nümunələr burada çox az yer tutur. Dərslik tələbələri problemləri həll etməyə həvəsləndirmək üçün kifayət qədər material təqdim etməlidir (https://yoursmartclass.com/essentials-of-a-good-textbook/).
9. **Bütövlük**. Dərslikdə mütləq qaydada müəllifin şəxsiyyəti gözə çarpmalıdır. Dərslikdə bir quruluş prinsipi, müəllifin bir fəlsəfi konsepsiyası olmalıdır. Elə dərsliklər var ki, müəllif bir çox səhifələrdə bir obyekt haqqında müxtəlif instansiyaların açıqlamalarına istinad edir, lakin öz fikrini demir. Müəllif tez-tez bir-birinə zidd olan müxtəlif fikirlər və nəzəriyyələr verir,

lakin oxucu dərslik müəllifinin fikrini eşitmir. Belə bir dərslik oxucunun beynində qarışıqlıq yaradır və bu fənni öyrəndikdən sonra necə davranacağını yəqin ki, heç vaxt başa düşməyəcək. Bir çox dərslik müəllifləri unudurlar ki, indi auditoriyalarda oturan tələbələr sabah real istehsala və biznesə gələcəklər, onlar onun təşkilatının mövqeyinə təsir edən qərarlar qəbul etməli olacaqlar. Buradan da tələbələrə elə təlim keçmək lazımdır ki, onlarda düzgün qərarlar qəbul etmək üçün, hər hansı bir bir uyğun təlimatlar olsun.

10. **Orujinallıq.** Bu seçimin iki aspekti var. Birincisi, orijinallıq müəllifin səviyyəsini göstərir, o, kifayət qədər təzə məlumat verir, onu yeni prizmadan göstərir, məlum informasiyanın əvvəllər diqqətdən kənarda qalmayan yeni cəhətlərini açır. Aydındır ki, belə bir dərslik yeni biliklər verir. Bu yaxşıdır. İkincisi odur ki, plagiat həmişə pisdir: ən azı hardasa gördüklərini oxumaq maraqlı deyil. Digər tərəfdən, bu, müəllif hüquqlarının pozulması, hüquqi cinayətdir (https://mysl.kazgazeta.kz/news/447).

Bir çox müəlliflər tamamilə sərbəst şəkildə bütün səhifələri digər kitablardan hərfbəhərif köçürür, digərləri isə bunu daha da asanlaşdırır - onlar skanerlə fəal işləyirlər. Bir fənn üzrə dərslikləri oxuyarkən onilliklərlə eyni bir illüstrasiyalardan istifadə olunduğu aşkarlanır və həmin nümunə müxtəlif müəlliflərin onlarla kitabında ola bilər. Skan edilmiş illüstrasiyalar üstəlik çox aşağı keyfiyyətə malik olurlar, zəif görünürlər və bəzi elementlər onlarda demək olar ki, orada heç görünmür.

Son zamanlar köçürmə baxımından internetdən çox aktiv şəkildə istifadə olunur. Dərslik yazarkən yadda saxlamaq lazımdır ki, o, istehlakçı qismində çıxış edən tələbə üçün hazırlanmışdır. Bu nöqteyi-nəzərdən yaddan çıxarmamalıyıq ki, dərslik böyük zəhmət, istifadə dəyərinə malik əmtəədir. O, öz alıcısını azad rəqabətli bazarda tapmalıdır. Dərsliyin keyfiyyətinin ən obyektiv dürüst göstəricisi onun kitab mağazalarında alış səviyyəsidir. Əgər adi bir tələbə öz istəyi ilə adi bir kitab mağazasına gəlirsə və bu dərsliyin universitetin kitabxanasında olduğunu bilirsə və dərsliyiniz üçün öz zəhməti ilə qazanılan pulu ödəyirsə, bu sizin dərsliyin kifayət qədər keyfiyyətli olduğunu göstərir. Deməli, siz əbəs yerə işləməmisiniz. Bu kursu bitirmiş yuxarı kurs tələbələrinin öz dərsliklərini aşağı kurs tələbələrinə satmaqdan imtina etməsi də işinizin keyfiyyətinin yaxşı göstəricisidir. Onlar inanırlar ki, bu dərslik onların gələcək işlərində hələ də faydalı olacaq.

Dərsliyin ikinci istehlakçısı müəllim, əsasən də yeni başlayan gəncdir. Son zamanlar bir təhsil müəssisəsində, xüsusən də universitetdə fənlərin sayı xeyli artıb. Bir müəllim 5-7 müxtəlif fənni tədris edir və fənlər tez-tez dəyişir. Müəllim öz fənnini mükəmməl bilmir, çox vaxt dərs onu dediyi tələbələrdən çox da yaxşı bilmir. Bu halda onun təcili olaraq sadə, başa düşülən, tez mənimsənilə bilən dərsliyə ehtiyacı olur. Bir universitet saytında tələbələr gənc müəllimin dediyi ilə razılaşırdılar ki, müəllim yeni fənni zəif bildiyi üçün həmin fənni onlarla birlikdə öyrənir (https://mysl.kazgazeta.kz/news/447).

Müasir dərsliklər bir çox hallarda "müəllimlər üçün təlimatlar"la təchiz olunur. Buna xarici ölkə dərsliklərində daha tez-tez rast gəlmək olur. Məsələn, amerikalı müəllif Riçard Şaefer tərəfində9n tərtib edilmiş belə təlimatda hər bir fəsildə müəllimlər üçün ona dair əlavə ideyalar, diskussiya mövzuları və bununla əlaqədar əlavə ədəbiyyatlardan passajlar, esse sualları, tələbə tədqiqatı üçün mövzular, audiovizual materiallar təqdim olunur (Richard T. Schaefer, Mark Kassop, 2000, 45-59).

**Dərsliyin satışı və marketinqi**

Bəzi dərslik müəllifləri üçün dərsliyin yazılmasında əsas məqsəd elmi ad almaq, attestasiyadan keçmək, nüfuzunun artırılması, elmi-pedaqoji hesabat verilməsi və s. kimi səbəblər olur. Bu vaxt tələbənin maraqları arxa plana keçir. Dərslik müəllifi üçün isə əsas məqsəd kitabın çapıdır.

Kitabın çap etdirilməsində də bəzi məqamlara diqqət yetirmək lazımdır. Belə ki, dövlət nəşriyyatları və daimi dövlət sifarişlərini yerinə yetirən özəl nəşriyyatlar plaana və nəşr fonduna malik olurlar.

Onların üzərinə istehlakçının istəklərini təmin etmək deyil, nəşr planını yerinə yetirmək vəzifəsi düşür. Bütün tirajı dövlət qurumları - kitabxanalar, universitetlər, rayon mədəniyyət və təhsil idarələri və d. əldə edirlər. Bu nəşriyyatların kitabları mağazalarda olduqda orada aylarla qalır və çox az alınır.

Əksinə, azad rəqabət bazarında fəaliyyət göstərən özəl nəşriyyatlar dərsliklərin keyfiyyətinin artırılmasında maraqlıdırlar. Onlar müəlliflərin ad-sanına o qədər də fikir vermirlər. Burada bir məqama nəzər yetirmək lazımdır: kitab əgər qismən və ya tamamilə nəşriyyatın hesabına çap olunursa, dərsliyin alıcı üçün kommersiya cəhətdən cazibədarlığı və orijinallığı mütləq qaydada öyrənilir. Bu cür nəşriyyatlar tirajın bir hissəsini son zamanlar titab satınalınmasına diqqət yetirməyə başlamış təşkilatda realizə edirlər. Tirajın digər hissəsi isə kitab ticarətini həyata keçirən pərakəndə satış şəbəkəsi olan özəl şirkətlərinə göndərilir (https://mysl.kazgazeta.kz/news/447).

Daha bir məsələ ondan ibarətdir ki, bu gün bir çox dərsliklər elektron kitablar, bəziləri yalnız elektron formada şəklində mövcuddur, digərləri də kağız üzərində nəşr olunur. Dərsliyi rəqəmsal auditoriya üçün necə uyğunlaşdırmaq haqqında ciddi düşünmək lazımdır.

Dərsliyin daha yaxşı satılması yollarına həmçinin onların təqdimatının keçirilməsini, kitab sərgilərində nümayiş etdirilməsini, kütləvi informasiya vasitələrində dərslik haqqında yetərincə məlumat verilməsini və s. aid etmək olar.

Beləliklə, bu gün yaxşı tədris vasitəsi müasir dövrün tələblərinə uyğun şəkildə tərtib olunmalı, auditoriyanı maraqlandırmalı və marketinq qaydalarına cavab verməlidir.

### İstifadə olunmuş ədəbiyyat siyahısı

https://az.wikipedia.org/wiki/D%C9%99rslik
https://az.wikibooks.org/wiki/D%C9%99rslikl%C9%99r/Az%C9%99rbaycan_dilind%C9%99_d%C9%99rslikl%C9%99rin_tarixi/%C4%B0lkin_savad_t%C9%99limi
https://studref.com/646315/pedagogika/uchebnik_uchebnoe_posobie
https://zaochnik.ru/blog/chem-otlichaetsja-uchebnik-ot-uchebnogo-posobija/
https://izd-mn.com/nekotoryie-pravila-napisaniya-uchebnyih-posobiy.html
https://mysl.kazgazeta.kz/news/447
https://yoursmartclass.com/essentials-of-a-good-textbook/
https://mysl.kazgazeta.kz/news/447
https://mysl.kazgazeta.kz/news/447
https://mysl.kazgazeta.kz/news/447
Richard T. Schaefer, Mark Kassop. Instructor's Manual to accompany Sociology. A Brief Introductory. Third edition. Boston. 2000.

## ÇAĞDAŞ DÖVRDƏ AZƏRBAYCAN TÜRK FƏLSƏFƏ TARİXİNİN TƏDQİQİNDƏ PROBLEMLƏR VƏ HƏLL YOLLARI

**Faiq Ələkbərli**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, f.f.d., dosent*
*faikalekperov@mail.ru*

**Açar sözlər:** Zakir Məmmədov, çoxcildlik "Azərbaycan fəlsəfə tarixi", Zümrüd Quluzadə, çağdaş Azərbaycanın fəlsəfə tarixçiləri

SSRİ dağılıb Azərbaycan Respublikası müstəqilliyini yenidən bərpa etdikdən sonra digər sahələrdə (tarix, ədəbiyyat, dil və s.) olduğu kimi, fəlsəfə tarixçiliyi sahəsində də

nisbətən Qərb-Sovet ideoloqlarının uydurduqları naməlum kimlikli deyil, məhz Azərbaycan Türk kimliyi mahiyyətinə uyğun olaraq kitablar, dissertasiyalar yazılmağa başladı. Belə kitablardan biri də, AMEA-nın müxbir üzvü, f.e.d. Zakir Məmmədovun qələmə aldığı qədim dövrlərdən 19-cu əsr də daxil olmaqla böyük bir dövrü əhatə edən "Azərbaycan fəlsəfəsi tarixi" (1994) kitabıdır. Hələ, Sovetlər Birliyi dövründə Azərbaycan Türk fəlsəfi fikir tarixinə dair qiymətli əsərlər ("XI-XIII əsrlərdə Azərbaycanda fəlsəfi fikir", "Bəhmənyarın fəlsəfəsi", "Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri" və b. və b.) yazan Z.Məmmədov "Azərbaycan fəlsəfəsi tarixi" kitabında bütün bunları sistemli şəkilə salmışdır. O, "Qədim və erkən orta əsrlərdə Azərbaycan fəlsəfi fikri" fəslində Azərbaycan xalqının ən qədim dini inanclarına toxunub, türksoylu tayfaların əski inamlarından bəhs etimşdir (Məmmədov 2006, 11). Z.Məmmədov Zərdüştün Azərbaycanda doğulması, «Avesta»nın Azərbaycanda yaranması və maqların bu təlimin yaranmasında başlıca rol oynamasından çıxış edərək zərdüştiliyi Azərbaycan fəlsəfəsinə, dini-fəlsəfi dünyagörüşünə aid etmişdir (Məmmədov 2006, 12-15). O, "7-10-cu əsrlərdə Azərbaycan fəlsəfəsi" adlı ikinci fəsildə «Kitabi-Dədə Qorqud» boyu ilə bağlı müəyyən qədər Azərbaycan-Oğuz türklərinin dini-fəlsəfi dünyagörüşünə toxunmuş (Məmmədov 2006, 38), Oğuz türklərinin islamdan öncəki dini inamlarının, düşüncə tərzinin, eləcə də müəyyən qədər totemlərə bağlılığın öz əksini tapdığını qeyd etmişdir (Məmmədov 2006, 41). Bu fəsildə islam və onun müqəddəs kitabı Quran haqqında ümumi bilgi verən Z.Məmmədov daha çox sünni hüquqi (hənəfilik, malikilik, şafilik və hənbəlilik) və şiəlik (qalilik, ismaililik) və sufilik məzhəbləri, eləcə də bu məzhəblərin Azərbaycandakı nümayəndələrindən bəhs etmişdir (Məmmədov 2006, 22-32). O, "11-12-ci əsrlərdə Azərbaycan fəlsəfəsi" fəslində Bəhmənyar, Əbühəfs Sührəvərdi, Eynəlqüzat Miyanəci, Şihabəddin Sührəvərdi və Nizami Gəncəvinin (Məmmədov 2006, 52-171); "13-14-cü əsrlərdə Azərbaycan fəlsəfəsi" fəslində Əfzələddin Xunəcinin, Siracəddin Urməvinin, Nəsirəddin Tusinin (Məmmədov 2006, 172-238); "15-16-cı əsrlərdə Azərbaycan fəlsəfəsi" fəslində Nəsimi, M.Qarabaği, Füzulinin (Məmmədov 2006, 239-279); "17-18-ci əsrlərdə Azərbaycan fəlsəfəsi" fəslində Rəcəbəli Təbrizinin (Məmmədov 2006, 280-295); "19-cu əsrdə Azərbaycan fəlsəfəsi" fəslində A.A.Bakıxanov və M.F.Axundzadənin fəlsəfi irsindən geniş şəkildə bəhs etmişdir (Məmmədov 2006, 296-319).

Tanınmış fəlsəfəçi alim Yusif Rüstəmov (1932-2010) da yaradıcılığında Azərbaycan xalqının fəlsəfi və ictimai fikir tarixinə müəyyən qədər yer vermişdir. O, "Sosial-siyasi və hüquqi təlimlər tarixi" (2003), "Mövlana Cəlaləddin Ruminin sufilik fəlsəfəsi", "Əbu Həfs Sührəvərdinin təsəvvüf fəlsəfəsi", "Türk fikir tarixi haqqında mülahizələr", "Fəlsəfənin əsasları" (2004) və digər əsərlərində Azərbaycan xalqının fəlsəfə tarixini işıqlandırmağa çalışmışdır.

Professor İzzət Rüstəmovun Azərbaycan xalqının fəlsəfi və ictimai fikir tarixinin öyrənilməsi istiqamətində ən mühüm əsərləri "Həsən bəy Zərdabi" (2012), "XX əsrin əvvəllərində Azərbaycanda təbii-elmi və fəlsəfi fikrin vəhdəti" (1992), "Azərbaycanda təbii-elmi biliyin inkişafının fəlsəfi problemləri" (2001) və başqaları olmuşdur. Dosent Qəmər Mürşüdlü də milli fəlsəfi və ictimai fikir tariximizə aid bir sıra dəyərli əsərlər yazmışdır. Onun bu cür əsərləri arasında "Cəmaləddin Əfqaninin sosial-siyasi fəlsəfəsi" (2019) və digərlərini göstərmək olar. Azərbaycan xalqının fəlsəfi və ictimai fikir tarixinin müəyyən dövrlərini əhatə edən "Azərbaycan fəlsəfəsi. Qədim dövr"(Şükürov Ağayar və Abdullazadə Gülnaz, 1993), "Azərbaycan mifologiyası (tədqiqi tarixindən)", "Müstəqil dövrün fəlsəfəsi və filosofları" (2007), "Fəlsəfə" (2002), "Şərq fəlsəfəsi və filosofları" (2005) adlı kitabların müəllifi olan prof. Ağayar Şükürovun da bu sahədə böyük əməyi vardır. Xüsusilə də, 20-ci əsr Azərbaycan xalqının fəlsəfi və ictimai fikri tarixini öyrənmək baxımından A.Şükürovun "Müstəqil dövrün fəlsəfəsi və filosofları" diqqəti cəlb etməkdədir.

Tanınmış fəlsəfə tarixçisi, f.e.d. Elmira Zamanovanın (1933-2016) da fəlsəfə tarixinə aid yaradıcılığı hər iki dövrü (SSRİ və müstəqillik dövrü) əhatə etmişdir. O, "Çağdaş Türkiyədə estketik fikir: əsas problemlər və təmayüllər", "İsmail Tunalı - Türkiyədə ontoloji estetika-

nın görkəmli nümayəndəsi", "Türk estetikası: tarixi və müasir inkişafı", "XX əsr Azərbaycan romantizminin estetikası", "XIX-XX əsrlərin əvvəllərində Azərbaycanda estetik fikir" və digər əsərlərində milli fəlsəfi və ictimai fikir tariximizə aid qiymətli tədqiqatlar aparmışdır.

Müstəqilliyimizin bərpasından sonra Azərbaycan xalqının fəlsəfi və ictimai fikir tarixini öyrənmək baxımından prof. Rafail Əhmədlinin də bir çox əsərləri vardır. O, "Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsi: türkçülük, müasirlik, islamçılıq" (2007), "Mirzə Kazımbəyin ictimai fikirləri" (2012), "Azərbaycan dövlətçilik fəlsəfəsi" (2008), "Seyid Əzim Şirvaninin fəlsəfi görüşləri" (2005), "Mirzə Bala Məhəmmədzadənin ictimai-siyasi görüşləri" (2017) və digər əsərlərində Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixinə aid dəyərli araşdırmalar aparmışdır. Fəlsəfə tarixi tədqiqatçısı, f.ü.f.d., dos. Müstəqil Ağayev də Azərbaycan xalqının fəlsəfi və ictimai fikir tarixinə aid bir çox qiymətli əsərlər yazmışdır. O, "Məhəmməd Əmin Rəsulzadə" (2006), XX əsr Azərbaycan ictimai və fəlsəfi fikrində din problem" (2008), "Azərbaycan demokratik fikrində insan konsepsiyası" (2009), "Hüseyn Cavidin dünyagörüşü" (2005), "Azərbaycan ictimai fikrində milli məsələ" (2007), "Abbas Səhhət (fəlsəfi və sosial-siyasi görüşləri)" və digər əsərlərində Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixinə aid dəyərli araşdırmalar aparmışdır.

Çağdaş dövrdə Azərbaycan xalqının fəlsəfi və ictimai fikir tarixini araşdıran mütəxəssislərdən biri də fəlsəfə elmləri doktoru Arzu Hacıyevadır. O, "Nəriman Nərimanovun din haqqında fəlsəfi düşüncələri" (1998), "Şərqdə hermenevtika. Fəlsəfə tarixi kontekstində" (2006), "Akademik Heydər Hüseynov" (2015), "Azərbaycan mütəfəkkirləri zamanın kontekstində: hermenevtik təcrübələr" (2017) və digər əsərlərində Azərbaycan xalqının fəlsəfi və ictimai fikir tarixinə aid dəyərli araşdırmalar aparmışdır. Xüsusilə də, A.Hacıyeva "Azərbaycan mütəfəkkirləri zamanın kontekstində: hermenevtik təcrübələr" əsərində əsasən fəlsəfi fikri tariximizin 19-20-ci əsrlərini və həmin əsrlərdə yaşamış mütəfəkkirlərimizdən M.F.Axundzadə, N.Nərimanov, M.Ə.Sabir, Ü.Hacıbəyli və başqalarının mədəni-fəlsəfi irsini işıqlandırmağa çalışmışdır.

Fəlsəfə elmləri doktoru, prof. İlham Məmmədzadə də bir çox əsərlərində Azərbaycan xalqının milli fəlsəfi və ictimai fikir tarixinə müəyyən qədər müraciət etmişdir. Məsələn, o, "Vətəndaş cəmiyyəti və milli ideologiya: Azərbaycanda siyasi prosesin fəlsəfəsi", "Siyasi etika", ""Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında" (2009), "Bir daha fəlsəfə haqqında" (2012), "Mədəniyyətlərin qarşılıqlı təsirinin fəlsəfəsi və almanların Cənubi Qafqazda məskunlaşması" və digər əsərlərində fəlsəfi-ictimai fikir tarixmizlə də bağlı araşdırmalar aparmışdır.

Qeyd edək ki, son zamanlarda Azərbaycan xalqının fəlsəfi və ictimai fikir tarixini araşdıranlar sırasında AMEA-nın müxbir üzvü, f.e.d. Könül Bünyadzadə, fəlsəfə elmləri üzrə fəxri doktor Əlisa Nicat, prof. Səlahəddin Xəlilov, prof. Rəbiyyət Aslanova, prof. Cahangir Məmmədov, prof. Zakir Məmmədəliyev, prof. Dilqəm İsmayılov, f.e.d. Yadigar Türkel, dr. Cavad Heyət, dr. Məhəmmədtağı Zehtabi, f.e.d. Zeynəddin Hacıyev, f.e.d. Afaq Məmmədova, f.e.d. Əlikram Tağıyev, f.e.d. Azər Mustafayev, f.e.d. Lalə Mövsumova, f.e.d. Niyazi Mehdi, f.e.d. Xatirə Quliyeva, dos. Arif Bəşirov, f.ü.f.d. Zakir Qasımov, f.ü.f.d. Mətanət Şəkixanova, f.ü.f.d. Radif Mustafayev, f.ü.f.d. Fazil Vahidov, f.ü.f.d. Məsud Şükürov, f.ü.f.d.Rahil Nəcəfov, f.ü.f.d.Əli İbrahimov, f.ü.f.d. Kəmalə Pənahova, f.ü.f.d. Zöhrə Əliyeva, f.ü.f.d. Fazil Mustafa, f.ü.f.d.Ağasəlim Həsənov, dos. Aqşin Quliyev, f.ü.f.d. Anar Qafarov, f.ü.f.d. Rauf Məmmədov, f.ü.f.d. Nicat Məmmədov, f.ü.f.d. Bağır Babayev, f.ü.f.d. Rəşad Əsgərov, f.ü.f.d. Əliyar Orucov, gənc tədqiqatçı Zaur Rəşidov və başqaları da vardır.

**Çoxcildlik "Azərbaycan fəlsəfə tarixi"nin milli fəlsəfə tarixinin tədqiqində əhəmiyyəti.** Dörd cildlik nəzərdə tutulmuş, ancaq indiyə qədər iki cildi nəşr olunmuş "Azərbaycan fəlsəfə tarixi" kitabı Azərbaycan xalqının fəlsəfi və ictimai fikir tarixini öyrənmək baxımdan qiymətli əsərlərdir. Çünki bu iki cilddə qədim dövrlərdən 19-cu əsrə qədərki Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi, Azərbaycan Türk mütəfəkkirləri əsaslı

və akademik şəkildə tədqiq olunmuşdur (Azərbaycan fəlsəfə tarixi 2014/1, 8-10). Hər halda müstəqilliyimizin bərpasından sonra əməkdar elm xadimi, fəlsəfə elmləri doktoru Zümrüd Quluzadənin rəhbərliyi altında yazılmağa başlayan “Azərbaycan fəlsəfə tarixi” dörd cildliyinin nəşr olunmuş ilk iki cildində ən qədim dövrlərdən XVIII əsrdə daxil olmaqla Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi hərtərəfli şəkildə və akademik üslubda araşdırılmışdır (Azərbaycan fəlsəfə tarixi 2014/1; Azərbaycan fəlsəfə tarixi 2014/2).

Kitabın 1-cildinin “Azərbaycanda fəlsəfi fikrin yaranması və inkişafı (Qədim dövrdən b.e.-nın VII əsrinədək)” adlanan ilk fəslində zərdüştlikdən, zurvanizmdən, mağların təlimindən, şamanizmdən, Göy Tanrıçılıqdan bəhs olunur (Azərbaycan fəlsəfə tarixi 2014/1, 14, 20, 53, 55, 148). Eyni zamanda, bu fəsildə Mani və Manilikdən, Məzdək və Məzədkilikdən (Azərbaycan fəlsəfə tarixi 2014/1, 41,43) də hərtərəfli şəkildə bəhs olunmuşdur. Kitabın “VII-X əsrlərdə Azərbaycan fəlsəfəsi” adlanan 2-ci fəslində isə öncə Azərbaycanda İslam dininin yayılması və onun ilk təbliğatçılarından, daha sonra da Əli ibn Harun əz-Zəncanidən «İxvan əs-Səfa və Xüllan əf vəfa» cəmiyyətinin ideoloqlarından biri kimi, söz açşılmışdır (Azərbaycan fəlsəfə tarixi 2014/1, 115-139). Eyni zamanda, bu fəsildə Məhəmməd Bakuvinin fəlsəfi baxışları da ayrıca təhlil olunmuşdur (Azərbaycan fəlsəfə tarixi 2014/1, 140-159). Kitabın “XI-XII əsrlərdə Azərbaycan fəlsəfəsi” adlanan 3-cü fəslində isə Xətib Təbrizi, Eynəlqüzat Miyanəci, Yusif Tahir Xoylu, Məhsəti Gəncəvi, Ə.Bəhmənyar, Şihabəddin Yəhya Sührəvərdi, Xaqani Şirvani və Nizami Gəncəvinin dünyagörüşü ayrı-ayrılıqda geniş şəkildə təhlil və təfsir olunmuşdur (Azərbaycan fəlsəfə tarixi 2014/1, 160-447).

Çoxcildlik “Azərbaycan fəlsəfə tarixi”nin 2-ci cildinin “XIII-XVI əsrlərdə Azərbaycanda fəlsəfi və ictimai fikir” adlanan ilk fəslində Şəms Təbrizi, Nəsrəddin Tusi, Məhəmməd Təbrizi, Əsirəddin Əbhəri, Əvhədi Marağayi, Mahmud Şəbüstəri, Fəzlullah Nəimi, İmadəddin Nəsimi, Şəms Məğribi, Qasimi-Ənvar, Seyyid Yəhya Bakuvi, Yusif Muskuri və M.Füzulinin (Azərbaycan fəlsəfə tarixi 2014/2, 471-528) ictimai-siyasi və fəlsəfi irsindən bəhs olunmuşdur. Kitabın 2-ci cildinin “XVII-XVIII əsrlərdə Azərbaycanda fəlsəfi və ictimai fikir” adlanan ikinci fəslində isə Y.Qarabaği (Azərbaycan fəlsəfə tarixi 2014/2, 566-601), Saib Təbrizi (Azərbaycan fəlsəfə tarixi 2014/2, 602-647) və Zeynalabidin Şirvaninin (Azərbaycan fəlsəfə tarixi 2014/2, 648-674) ictimai-siyasi və fəlsəfi irsi araşdırılmışdır.

Ümumilikdə, həm Azərbaycan Türk dilində, həm də rus dilində nəşr olunan çoxcildlik “Azərbaycan fəlsəfə tarixi”nin ilk iki cildi bəzi cüzi istisnalarla, Azərbaycan xalqının fəlsəfi və ictimai fikir tarixini öyrənmək baxımından olduqca əhəmiyyətli və mükəmməl əsərlərdir. Ümid edirik ki, Azərbaycan xalqının fəlsəfi və ictimai fikir tarixinin 19-20-ci əsrlərini və bu dövrün tanınmış mütəfəkkirlərini özündə ehtiva edəcək 3-cü və 4-cü cildlər də yaxın zamanlarda nəşr olunacaqdır.

**Üçcildlik “Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi” əsərinin milli fəlsəfə tarixinin tədqiqində yeri.** S on illərdə AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Faiq Ələkbərlinin “Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi. XIX-XX əsrlər” adlı üçcildliyi nəşr olunub ki, bu əsərlər Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixinin XIX-XX əsrlərini və həmin əsrlərdə yaşamış Azərbaycan Türk mütəfəkkirlərinin mədəni-fəlsəfi irsini öyrənmək baxımından əhəmiyyətlidir. Xüsusilə də, çoxcildlik “Azərbaycan fəlsəfə tarixi”nin həmin əsrləri özündə əhatə edəcək 3-cü və 4-cü cildlərinin hələlik, nəşr olunmadığı bir dövrdə F.Ələkbərlinin üçcildlik kitabının əhəmiyyətinin vacibliyi danılmazdır.

Faiq Ələkbərlinin “Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi. XIX-XX əsrlər” adlı üçcildliyinin birinci cildində Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixinin inkişaf yolları üç istiqamətdə təhlil edilmişdir: 1) Azərbaycanda Şərq-İslam-Türk mədəniyyəti və fəlsəfəsinin davamı: sxolastik fəlsəfədən dünyəvi fəlsəfəyə, dini təfəkkürdən dünyəvi təfəkkürə dönüş: A.A.Bakıxanov, Zeynalabdin Şirvani, Q.b.Zakir, M.M.Nəvvab, Seyid

Əbülqasim Nəbati, Heyran xanım, Əbuturab Axundoğlu, Mir Həmzə Nigari və başqaları; 2) Azərbaycanda Qərb-Avropa mədəniyyəti və fəlsəfəsinin təşəkkülü: avropaçılıq təsirindən radikal-inqilabçı fəlsəfəyə doğru: Mirzə Şəfi Vazeh, Tahirə (Zərintac) Qürrətul-Eyn, Mirzə Məhəmməd Əli Kazım bəy, Mirzə Fətəli Axundzadə, Nəcəf bəy Vəzirov, Zeynalabdin Marağalı və başqaları; 3) Azərbaycanda Şərq-İslam-Türk mədəniyyəti və Qərb-Avropa mədəniyyətinin "sintezi" problemi və həll yolları: Cəmaləddin Əfqani, Həsən bəy Zərdabi, Seyid Əzim Şirvani, Mirzə Əbdürrəhim Talıbzadə və başqaları (Ələkbərli 2018, 9-11).

F.Ələkbərlinin "Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi. XIX-XX əsrlər" adlı üçcildliyin ikinci cildində isə XX əsr Quzey Azərbaycan Türk fəlsəfi fikrinin inkişaf yollarından və bu fəlsəfi fikrin tanınmış Azərbaycan Türk mütəfəkkirlərinin dünyagörüşlərindən bəhs olunur. Müəllif kitabın ikinci cildində Quzey Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixinin inkişaf yollarını üç istiqamətdə təhlil edib: 1) Milli-demokratik və siyasi-fəlsəfi ideya cərəyanları: türkçülük/azərbaycançılıq, müasirlik və islamçılıq (Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə, F.b.Köçərli, Ə.Tobçubaşov, Ü.Hacıbəyli, M.B.Məhəmmədzadə, N.Yusifbəyli, H.Bayqara və başqaları); 2) Marksizm-leninizm ideologiyası: milli təmayülçülük və beynəlmiləlçilik (N.Nərimanov, S.M.Əfəndiyev, R.Axundov, H.Hüseynov, C.Nağıyev və başqaları); 3) Milli maarifçilik fəlsəfəsi: realizm və romantizm: C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, M.Ə.Sabir, H.Cavid, A.Şaiq, A.Səhhət, M.Hadi və başqaları (Ələkbərli 2020, 5-26).

Faiq Ələkbərlinin "Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi. XIX-XX əsrlər" adlı üçcildliyin üçüncü cildində XX əsr Güney Azərbaycan Türk fəlsəfi fikrinin inkişaf yollarından və bu fəlsəfi fikrin tanınmış Azərbaycan Türk mütəfəkkirlərinin dünyagörüşlərindən bəhs olunur. Müəllif burada Güney Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixinin inkişaf yollarını üç istiqamətdə təhlil etmişdir: 1) Milli-demokratik və siyasi-fəlsəfi ideyaların sintezi (Ş.M.Xiyabani, S.C.Pişəvəri, Məhəmməd Biriya, Firudin İbrahimi, Tağı Ərani, Tağıxan Rüfət, Əlirza Nabdil və başqaları); 2) Milli maarifçilik və ictimai-fəlsəfi ideyalar (M.Ə.Şəbüstəri, M. Tərbiyət, M.Şəhriyar, Səhənd, H.Billuri, Həbib Sahir, H.Nitqi, Ə.Təbrizli, M.Zehtabi, Cavad Heyət və başqaları); 3) İslam fəlsəfəsi və islamçılıq: Ə. əl-Xoyi, M.Təbatəbai, M. Şəriətmədari, M.Cəfəri, C.Sübhani və başqaları (Ələkbərli 2021, 5-19).

**"Fəlsəfə" və "Fəlsəfənin əsasları" kitablarında Azərbaycan xalqının fəlsəfi-ictimai fikir tarixinin əksi.** Müstəqilliyimizin bərpasından sonra nəşr olunan "Fəlsəfə" ya da "Fəlsəfənin əsasları" kitablarının əksəriyyətində anlayış olaraq "Azərbaycan fəlsəfəsi", "Azərbaycan fəlsəfə tarixi"ndən istifadə olunur ki, çox zaman burada konkret hansı xalqın fəlsəfəsindən ya da fəlsəfə tarixindən söz açılması anlaşılımır. Daha doğrusu, bu kimi kitablardan əsasən belə bir nəticə çıxarmaq olur ki, "Azərbaycan fəlsəfəsi" adı altında xaotik ya da qarışıq bir fəlsəfə tarixi şüurlara yeridilir.

*Prof. Fərrux Ramazanovun rəhbərliyi altında nəşr olunan "Fəlsəfə" (1997), H.İmanovun "Fəlsəfənin əsasları" (2007), Y.Rüstəmovun "Fəlsəfənin əsasları" (2004), A.Şükürovun "Fəlsəfə" (2002) və başqa müəlliflərin "Fəlsəfə" adını daşıyan əksər kitablarda Azərbaycan Türk xalqına aid tanrıçılıq, qamlıq-şamanizm və "Kitabi-Dədə Qorqud"la bağlı, əsasən heç bir məlumat verilməmişdir. Yalnız akademik Ramiz Mehdiyevin 2010-cu ildə nəşr olunan "Fəlsəfə" dərsliyində Azərbaycan xalqının fəlsəfi fikrinin tərkib hissəsi kimi "Kitabi-Dədə Qorqud" eposuna müraciət olunmuşdur (Mehdiyev 2010, 81). Bu gün "Fəlsəfə" adını daşıyan kitablarda, əsasən Sovetlər Birliyi dövründə olduğu kimi, Azərbaycan xalqının şüuruna yalnız irandilli-farsdilli etnoslara aid atəşpərəstliyin, zərdüştiliyin yeridilməsini doğru hesab etmirik. Artıq SSRİ dövrünün ideyalarından imtina etməyin vaxtı nəinki çatmış, hətta keçmişdir. Ən çox təəssüf doğuran haldır ki, SSRİ dövrünün bu cür ənənələrinə daha çox "Azərbaycan tarixi", "Fəlsəfə", "Politologiya", eləcə də müəyyən qədər "Azərbaycan fəlsəfəsi tarixi" və başqa akademik nəşrlərdə, ali məktəb üçün dərsliklərdə rast gəlmək olur.*

“Fəlsəfə” kitabında (Ramazanov və b. 1997, 42), eləcə də Z.Hacıyevin eyni adlı “Fəlsəfə” kitablarında zərdüştiliklə bağlı mülahizələr isə cüzi fərqlərlə təkrar olunmuşdur. Hətta Z.Hacıyev yazır ki, “Avesta” Azərbaycan xalqının bədii fəlsəfi fikrinin ilk qaynağı hesab olunur (Hacıyev 2001, 40). H.İmanov, Y.Rüstəmov, M.Fərhadoğlu da eyni adlı “Fəlsəfənin əsasları” kitablarında, yuxarıda adları çəkilən fəlsəfə tədqiqatçıları kimi heç bir ciddi dəlil, sübut irəli sürmədən Zərdüştün Azərbaycan xalqına məxsus olmasını iddia etmişlər(İmanov 2007, 37). Y.Rüstəmov isə zərdüştiliyi Azərbaycan və İran xalqlarının ortaq dini-fəlsəfi təlimi hesab etmişdir (Rüstəmov 2004, 77). M.Fərhadoğluna görə, “Avesta”da qədim Azərbaycanda yaşayan xalqların dini-fəlsəfi, ictimai görüşləri əks olunmuşdur (Fərhadoğlu 2006, 43).

Maraqlıdır ki, çağdaş dövrdə nəşr olunmuş “Fəlsəfə”, “Fəlsəfənin əsasları” kitablarında islam dininin Azərbaycan xalqının həyatında oynadığı mühüm rol, milli mənəvi dəyər kimi qazandığı status heç də istənilən səviyyədə əks olunmamışdır. Məsələn, “Fəlsəfə ensiklopedik lüğət”də islamın Azərbaycan xalqının həyatında tutduğu mövqe konkret şəkildə izah olunmamışdır. Burada yalnız bildirilir ki, Azərbaycanda islam hərbi işğalçılıq yolu ilə yayılmış və hazırda Azərbaycan əhalisinin xeyli qismi şiə, bir qismi hənəfi sünniləridir (Fəlsəfə ensiklopedik lüğət 1997, 193). Eyni sözləri 1997-ci ildə müəllif kollektivi tərəfindən nəşr olunan “Fəlsəfə” (red. F.Ramazanov), V.Abışovun, H.İmanovun, A.Şükürovun, Y.Rüstəmovun və başqalarının müəllifləri olduğu “Fəlsəfə”, yaxud da “Fəlsəfənin əsasları” kitabları barədə də demək olar. Bu kitablarda islam fəlsəfəsindən söz açılsa da, bu dinin Azərbaycan xalqının həyatında oynadığı mühüm rol barədə heç bir fikir söylənməmişdir. Məsələn, müəlliflər kollektivi şəklində nəşr olunan “Fəlsəfə” kitabında islamın, o cümlədən Quranın mahiyyəti, daxili keyfiyyətləri ilə bağlı çox səthi bəhs olunduğu halda, sonralar islamın əsasında yaranmış dini-fəlsəfi cərəyanların (cəbrilər, sifatilər, qədərilər, mötəzililik, əşərilik, sufilik, hürufilik və b.) izahına isə müəyyən qədər yer verilir (Ramazanov və b. 1997, 84-103). H.İmanov isə eyni adlı kitabında islam haqqında, bu dinin başlıca kitabı olan Quran haqqında çox cüzi məlumat vermiş, əsasən islamla bağlı təriqətlərdən, məzhəblərdən bəhs etmişdir (İmanov 2007, 56-80).

Professor Y.İ.Rüstəmovun müəllifi olduğu “Fəlsəfənin əsasları” kitabında islamla bağlı müsəlman dini fəlsəfəsi – qədərilər, cəbrilər, mötəzlilər (Rüstəmov 2004, 97-98), o cumlədən Şərq peripatetizmi, Saflıq qardaşları və sufizm barədə ümumi bilgi verilir (Rüstəmov 2004, 97-110). Eyni cizgini A.Şükürovun “Fəlsəfə” kitabında da görürük. A.Şükürov da bu kitabında islam və islamın Azərbaycan fəlsəfəsində yeri haqqında geniş şəkildə bəhs etməmişdir. İslamın mahiyyəti haqqında heç bir məlumat verməyən A.Şükürov yalnız bir neçə filosofun (Farabi, İbn Rüşd, İbn Sina, Ə.Biruni və b.) dünyagörüşü barədə danışmış, eləcə də bir neçə orta əsr Azərbaycan filosofu və panteizm, sufizm və hürufizm barədə qısa, ümumi bilgi vermişdir (Şükürov 2002, 186-199).

Qeyd edək ki, “Fəlsəfə” ya da “Fəlsəfənin əsasları” kitablarında orta çağ Azərbaycan Türk fəlsəfəsinin nümayəndələri, kimi ümumi şəkildə də olsa N.Gəncəvi, E.Miyanəci, Ş.Yəhya Sührəvərdi, Ə.Ö.Sührəvərdi, N.Tusi, S,Urməvi, M.Füzuli, M.Şəbüstəri, Y.Qarabaği və başqalarından bəhs olunur. 19-cu əsrə gəldikdə, burada Azərbaycan xalqının maarifçilik fəlsəfəsi adı altında isə A.A.Bakıxanov, M.F.Axundzadə, M.Ş.Vazeh, H.Zərdabi, M.Kazımbəy, S.Ə.Şirvani, C.Əfqani və başqalarından qısa formada söz açılır. Yeni və ən yeni dövrdə Azərbaycan Türk fəlsəfəsinə gəlincə, burada Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə, C.Məmmədquluzadə, M.Hadi, H.Cavid, H.Hüseynov, M.Xiyabani, S.C.Pişəvəri və başqa ziyalılarımzın mədəni-fəlsəfi irsindən müəyyən qədər bəhs olunmaqdadır.

**Nəticə.** Azərbaycan Türk fəlsəfə tarixinin qaynaqları, təşəkkülü və inkişafı ilə bağlı apardığımız araşdırmanın sonunda gəldiyimiz əsas nəticələrdən biri odur ki, milli fəlsəfi və ictimai fikir tariximizin bir bütün şəkildə öyrənilməsinin vacibliyinin dərkidir. Çünki bir xalqın fəlsəfi və ictimai fikri yarımçıq tədris ediləcəyi təqdirdə, onun üzvlərinin şüurunda da yarımçıqlıq, natamamlıq kompleksi olacaqdır. Bu baxımdan Azərbaycan Türk fəlsəfi və

ictimai fikir tariximizi Azərbaycan Respuiblikasının mədəniyyəti, fəlsəfəsi, tarixi və coğrafiyası sərhədlərində məhdudlaşdırmamalıyıq. Bugünkü reallıq baxımından biz, fəlsəfi və ictimai fikri tariximizi mövcud Azərbaycan Respublikası sərhədləri çərçivəsində yazsaq da, ancaq tarixən onbun sərhədləri və coğrafiyası bundan qat qat böyük olmuşdur. Bu o deməkdir ki, Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarix dünən olduğu kimi, gələcəkdə də bir bütün olaraq Azərbaycan xalqına çatdırılmalı, tədris olunmalıdır.

Eyni zamanda milli tariximiz, ədəbiyyatımız, mədəniyyətimiz kimi fəlsəfəmiz də yazılarkən burada Türk kimliyi əsla gözardı edilməməlidir. Məsələn, milli fəlsəfə tariximiz yazılarkən “Azərbaycan fəlsəfə tarixi” deyil “Azərbaycan Türk fəlsəfə tarixi” ya da ən azı “Azərbaycan xalqının fəlsəfə tarixi” anlayışı önə çəkilməli, bu anlamda yalnız Quzey Azərbaycan xalqının deyil, Güney Azərbaycan da daxil olmaqla vahid Azərbaycan Türk xalqının fəlsəfə tarixi ələ alınmalıdır. Bu zamanda özündən əvvəlki fəlsəfə tarixinin davamı kimi, Azərbaycan Türk ziyalılarının fəlsəfi düşüncədə ortaya qoyduqları mənəvi-zehni əmək qeyd olunmalıdır. Başqa sözlə, qeyri-müəyyən ya da qarışıq fəlsəfi düşüncə deyil, konkret olaraq Azərbaycan Türk xalqının fəlsəfi düşüncə tarixi yazılmalıdır. Təbii ki, tarix boyu Azərbaycan türkləri ilə yanaşı azsaylı etnik qrupların nümayəndələri arasında da müəyyən fəlsəfi fikir payı sahibləri olubsa, həmin kitablarda yer almalıdır. Ancaq bütövlükdə Azərbaycan xalqının fəlsəfəsi dedikdə, burada söhbətin ilk növbədə, Azərbaycan Türk mütəfəkkirlərinin fəlsəfi irsindən getdiyi açıq şəkildə ifadə olunmalıdır. Son illərdə nəşr olunmuş əski dövr və orta çağ Azərbaycan Türk fəlsəfə tarixinə həsr olunmuş kitablarda, dissertasiyalarda deyil, eyni zamanda XIX-XX əsrlər Azərbaycan Türk fəlsəfə tarixinə aid əsərlərdə olan ciddi nöqsanları aradan qaldırmaq lazımdır.

Burada ən vacib məsələrdən biri də, “Azərbaycan xalqının fəlsəfə tarixi”nin ensiklopediyası hazırlanmasıdır. Bizcə, belə bir ensiklopediyanın hazırlanması milli fəlsəfə tariximizin tədqiqi və inkişafı baxımdan çox zəruridir. Əlbəttə, buna qədər isə, çox tez bir zamanda çoxcildlik “Azərbaycan fəlsəfə tarixi”nin 19-cu əsrin əvvəllərindən, 21-ci əsrin başlarınadək nəzərdə tutulmuş 3-cü və 4-cü cildlərinin nəşrinə nail olunmalıdır. Çünki təxminən iki əsri əhatə edən bu dövr Azərbaycan xalqının bu gününü və gələcəyini daha aydın gələcəyə daşımaq baxımından olduqca önəmlidir.

### İstifadə edilmiş ədəbiyyat


Ağayev Müstəqil (2005). Hüseyn Cavidin dünyagörüşü. Bakı, “Təknur”

Ağayev Müstəqil (2006). Məhəmməd Əmin Rəsulzadə. Bakı: “Nurlan”

Azərbaycan fəlsəfə tarixi (2014/1). I cild. Bakı: “Elm” nəşriyyatı

Azərbaycan fəlsəfə tarixi (2014/2). II cild. Bakı: “Elm” nəşriyyatı

Ələkbərli F.Q (2018). Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). I cild. Bakı, “Elm və təhsil”

Ələkbərli F.Q (2020). Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). II clid. Bakı, “Elm və təhsil”

Ələkbərli F.Q (2021). Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). III cild. Bakı, “Elm və təhsil”

Əliyev Rəhim (2013). Məhəmmədəli Tərbiyət // Cənubi Azərbaycan ədəbiyyatı tarixi (XX əsr). İki cilddə, 2-cild. Bakı, Qanun

Əhmədli Rafail (2005). Seyid Əzim Şirvaninin fəlsəfi görüşləri. Bakı, Elm

Əhmədli Rafail (2008). Azərbaycan dövlətçilik fəlsəfəsi. Bakı, “Nurlan”

Əhmədli Rafail (2012). Mirzə Kazımbəyin ictimai fikirləri. Bakı, Elm

Əhmədli Rafail (2017).Mirzə Bala Məhəmmədzadənin ictimai-siyasi görüşləri. Bakı, Ozan

Fərhadoğlu Maqsud (2006). Fəlsəfənin əsasları. Bakı, Nurlan

Fəlsəfə ensiklopedik lüğət (1997). Bakı, Azərbaycan Ensiklopediyası NPB
Fəlsəfə (1997). Dərslik. Bakı, "Azərbaycan" nəşriyyatı (red. Fərrux Ramazanov)
Hacıyev Zeynəddin (2001). Fəlsəfə. Bakı, "Adiloğlu"
Hacıyeva Arzu (1998). Nəriman Nərimanovun din haqqında fəlsəfi düşüncələri. Bakı: Azərbaycan Ensiklopediyası NPB
Hacıyeva Arzu (2015). Akademik Heydər Hüseynov. Bakı, Elm
Hacıyeva Arzu (2017). Azərbaycan mütəfəkkirləri zamanın kontekstində: hermenevtik təcrübələr. Bakı, Elm və təhsil
Xəlilov Səlahəddin (2006). Müstəqillik illərində fəlsəfi fikrimizin inkiaf məqamlarına dair. Fəlsəfə, tarix və müasirlik. Bakı, "Azərbaycan Universiteti"
İmanov Həmid (2007). Fəlsəfənin əsasları. Bakı, Turan evi
История азербайджанской философии (2002). т.1. – Бак,: Элм (ответственный ред. З.А.Кулизаде).
Köçərli F.Q (1996). «Molla Nəsrəddin»çi Ömər Faiq. Bakı: Elm
Köçərli F.Q (1999). M.F.Axundovun dünyagörüşü. Bakı: Elm
Köçərli F.Q (1993). Azərbaycan fəlsəfəsinin tədqiqi. Bəzi nəzəri-metodoloji problemlər. "Xalq qəzeti", 31 iyun 1993-cü il
Кулизаде З.А (1992). Из истории Азербайджанской философии VII-XVI вв., Баку: Азернешр
Məmmədzadə İ.R (2009). Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında. Bakı, Təknur
Məmmədzadə İ.R (2012). Bir daha fəlsəfə haqqında. Bakı, Təknur
Məmmədov Zakir (2006). Azərbaycan fəlsəfəsi tarixi. Bakı, «Şərq-Qərb»
Məmmədova Afaq (2003). XX əsr Azərbaycan romantizminin fəlsəfəsi. Bakı, "İqtisad universiteti" nəşriyyatı
Mustafayev Camal (2013). Fəlsəfi-tarixi araşdırmalar.Bakı, "Vətən" nəşriyyatı
Mürşüdlü Qəmər (2019). Cəmaləddin Əfqaninin sosial-siyasi fəlsəfəsi. Bakı,"ULU"
Rüstəmov İzzət (1992). XX əsrin əvvəllərində Azərbaycanda təbii-elmi və fəlsəfi fikrin vəhdəti, Bakı, Azərnəşr
Rüstəmov İzzət (2001). Azərbaycanda təbii-elmi biliyin inkişafının fəlsəfi problemləri (XIX əsr-XX əsrin əvvəli). Bakı: Diplomat
Rüstəmov İzzət (2012). Həsən bəy Zərdabi. Bakı, Turan nəşrlər evi
Rüstəmov Yusif (2004). Fəlsəfənin əsasları. Bakı, "Azərbaycan Universiteti"
Rüstəmov Yusif (2000). Sosial-siyasi və hüquqi təlimlər tarixi. Bakı, "Azərbaycan Universiteti"
Рзакулизаде С. Дж (2010). Из истории философской мысли Азербайджана. Баку, Текнур
Şükürov Ağayar (2002). Fəlsəfə. Bakı, «Adiloğlu» nəşriyyatı
Şükürov A. (2005).Şərq fəlsəfəsi və filosofları.Bakı, "Əbilov, Zeynalov və oğulları"
Şükürov A. (2007). Müstəqil dövrün fəlsəfəsi və filosofları. Bakı, "Səda"
Şükürov A.M., Abdullazadə G.A (1993). Azərbaycan fəlsəfəsi (qədim dövr). Bakı, Azərnəşr
Tağıyev Ə., Mustafayev A.X, Balayev M.A (1994). Azərbaycanda milli hərəkat ideyalarının yaranması və təkamülü. (XIX sonu-XX əsrin əvvəlləri). Bakı, Azərnəşr
Türkel Yadigar (2010). Nizami Gəncəvinin siyasi və dini-ideoloji baxışları. Bakı, Təknur
Заманова Э (2011). Эстетическая мысль в Азербайджане в XIX – начале XX веках. Баку: Текнур

# SOSİAL XİDMƏT:TARİXİ VƏ MÜASİR VƏZİYYƏTİ

**Üzeyir Şəfiyev**
s.f.d., dosent
BDU-nun Sosial iş kafedrasının müdiri
**uzeyirshafiyev@gmail.com**

**Açar sözlər**: sosial xidmət, sosial siyasət, xeyriyyəçilik, filantropiya, çətin həyat şəraiti

İnkişaf etmiş ölkələrdə olduğu kimi Azərbaycanda da sosial sahə prioritet istiqamət olub davamlı inkişafdadır. Bu istiqamətdə həm hüquqi baza, həm də sosial islahatlar, institutsional dəyişikliklər özünü göstərməkdədir.Azərbaycan 2004-cü ildə Avropa Sosial Xartiyasına qoşulduqdan sonra sosial dövlət quruculuğu istiqamətində bir sıra əsaslı addımlar atmış, qanunvericilik bazasının təkmilləşdirilməsi sahəsində mühüm işlər görülmüşdür. Elə son dörd ildə Azərbaycanda ölkə əhalisinin 40 faizindən çoxunu əhatə edən üç əsas sosial islahat paketinin həyata keçirilməsi və bu paketlər üçün ayrılan əlavə illik vəsaitin ümumilikdə 6 milyard manat və ya 3,5 milyard ABŞ dollar civarında olması faktı sosial sahənin ölkəmiz üçün nə dərəcədə həssas olmasına dəlalət edir.

Sosial sferada baş verən proseslərin tarixi - müqayisəli təhlili göstərir ki, sosial xidmətlər 20-ci əsrdə sosial məsuliyyət ideyalarının inkişafı ilə formalaşmışdır. Sosial xidmətlər imkansız təbəqəni əhatə edən xüsusi qruplara dəstək və yardım göstərmək üçün nəzərdə tutulmuş bir sıra ictimai xidmətlərdir. Eyni zamanda, sosial xidmətlər cəmiyyətin geniş ehtiyaclarını qarşılamaq üçün çətin həyat şəraitində olan insanlara xidmət üçün istifadə olunur. 30 dekabr 2011-ci il Sosial xidmət haqqında Azərbaycan Respublikası qanununun 1.0.1. maddəsində sosial xidmət çətin həyat şəraitində yaşayan şəxsin (ailənin) sosial problemlərinin aradan qaldırılması və ictimai həyatda digər insanlarla bərabər iştirak imkanlarının yaradılması istiqamətində həyata keçirilən kompleks tədbirlər kimi anlaşılır [ 7]. Elə həmin qanunun 1.0.2.-ci maddəsində çətin həyat şəraiti şəxsin (ailənin) sosial xidmətə götürülməsi üçün əsas yaradan və həyat fəaliyyətini obyektiv surətdə pozan, təkbaşına aradan qaldıra bilmədiyi hal kimi xarakterizə edilir. İstisnasız olaraq bütün cəmiyyətlərdə çətin həyat şəraiti ilə qarşılaşmış şəxslər olmamış deyildir.Bu baxımdan dövlətin apardığı sosial xidmət siyasətində əsas məqsəd vətəndaşların həyat səviyyəsini ağırlaşdıran, sosial-psixoloji vəziyyətini çətinləşdirən, cəmiyyətdən təcrid olunmasına gətirib çıxaran halların qarşısını almaqdan, çətin həyat şəraitinin əmələ gəldiyi hallarda ehtiyacı olan şəxslərə sosial xidmətin göstərilməsini təmin etməkdən ibarətdir. Dövlət hakimiyyəti orqanları, hüquqi və fiziki şəxslər (sosial xidmət müəssisəsi, sosial işçi, sosial xidmətçi) sosial xidmətə tələbatın müəyyənləşdirilməsi və sosial xidmət göstərilməsi sahəsində fəaliyyət göstərirlər.

Məlum olduğu kimi sənayeləşmədən əvvəl sosial xidmətlərin göstərilməsi əsasən özəl təşkilatlar və xeyriyyə təşkilatları ilə, filantropiya ilə məhdudlaşırdı. Bu gün isə sosial xidmətlər qlobal səviyyədə cəmiyyətin və hökumətlərin sosial problemləri həll edə biləcəyi mexanizm kimi qəbul edilir.

Hökumətlər tərəfindən sosial xidmətlərin göstərilməsi ümumbəşəri insan hüquqlarına, demokratik prinsiplərə, eləcə də dini və mədəni dəyərlərə inamla əlaqələndirilir. Sosial xidmətlərin əhatə olunduğu əsas qruplar içərisində ailələr, uşaqlar, gənclər, qocalar, qadınlar, xəstələr və əlillər mühüm yer tutur. Sosial xidmətlər ictimai təhsil, rifah, infrastruktur, poçt, sosial iş, ərzaq bankları, universal səhiyyə, polis, yanğınsöndürmə xidmətləri, ictimai nəqliyyat, ictimai mənzil kimi obyekt və xidmətləri də əhatə edir.

Sosial xidmətlər müxtəlif modellər vasitəsilə həyata keçirilir[ 10.s.151]. Belə modellərin bir neçəsi ilə tanış olaq.

Skandinaviya modeli: “universalizm” adlı prinsiplərə əsaslanır. Bu model əlilliyi olan insanlar kimi imkansız qruplara əhəmiyyətli yardım göstərir və qeyri-hökumət təşkilatlarının məhdud töhfələri ilə yerli hökumət vasitəsilə idarə olunur.

Ailə qayğı modeli: Aralıq dənizi boyu tətbiq edilən bu model, adətən ruhanilərlə işləyən fərdlərin və ailələrin, həmçinin Qırmızı Xaç kimi QHT-lərin köməyinə əsaslanır.

Vasitələrlə sınaqdan keçirilmiş model: Böyük Britaniya və Avstraliyada tətbiq edilən hökumət dəstək verir, lakin kimin sosial xidmətlər və ya yardım almaq hüququna malik olduğunu müəyyən etmək üçün istifadə etdiyi ciddi qaydalara və yoxlamalara malikdir.

Diqqətlə təhlil etsək görmək olar ki, sosial xidmətlər polis və yanğınsöndürmə xidmətləri kimi bütün əhalinin istifadəsinə verilə bilər və ya cəmiyyətin yalnız müəyyən qrupları və ya təbəqələri üçün mövcud ola bilər.

Sosial xidmətlərin inkişafı Avropada XIX əsrin son iki onilliyində əhəmiyyətli dərəcədə artmağa başladı. Bu da sənayeləşmə və şəhərləşmənin təsiri, rifah üçün dövlət məsuliyyəti ilə bağlı protestant düşüncəsinin təsiri və həmkarlar ittifaqlarının və işçi hərəkatının artan təsiri ilə izah edilir.

Sənaye dövründə, xüsusilə on doqquzuncu əsrin sonlarında Fabrik Qanunları, işçi hərəkatları Avropada uşaq əməyini məhdudlaşdırmaq və dayandırmaq məqsədi daşıyırdı [ 8.s.93]. Ondoqquzuncu əsrdə ölkələr daha da sənayeləşdikcə, əmək sxemləri və kompensasiya şəklində sosial xidmətlərin əhatə dairəsi genişləndi. Sosial xidmətlərin genişləndirilməsi Britaniyanın 1833-cü il tarixli Fabrik Qanunundan sonra başladı.Qanunvericilik 9 yaşından kiçik uşaqların işləməsinə mane olmaqla, işləyən uşaqların minimum yaş həddinə məhdudiyyətlər qoyur. Bundan əlavə, Qanun 9-13 yaşlı uşaqlar üçün həftədə 48 iş saatı, 13-18 yaşlı uşaqlar üçün isə gündə 12 saat müəyyən etmişdir. Akt həmçinin Britaniya daxilində icbari təhsili tələb edən ilk qanunvericilik aktı idi.

Sosial xidmətlərin mövcudluğu üçün başqa bir əsas 1877-ci ildə İsveçrənin Fabrik Qanunu qanuni oldu. Fabrik Qanunu iş saatlarına məhdudiyyətlər tətbiq etdi, analıq müavinətləri təmin etdi və uşaqlar və gənclər üçün iş yerlərinin qorunmasını təmin etdi. Almaniyada Otto von Bismark da bu dövrdə böyük miqdarda sosial rifah qanunu qəbul etdi. İcbari xəstəlik sığortası 1883-cü ildə tətbiq olundu, 1889-cu ildə qocalıq və əlillik sxemləri ilə yanaşı, 1884-cü ildə iş yerində qəza sığortası qüvvəyə mindi. Bu cür sığorta qanunları daha sonra digər Avropa ölkələrində təqlid edildi, İsveç 1892-ci ildə, Danimarka 1892-ci ildə, Belçika 1894-cü ildə, İsveçrə 1911-ci ildə və İtaliyada 1886-cı ildə könüllü xəstəlik sığortası tətbiq etdi. Bundan əlavə, Belçika, Fransa və İtaliya bu dövrdə könüllü qocalıq sığortasını subsidiya edən qanunlar qəbul etdilər. Hollandiya 1913-cü ildə icbari xəstəlik sığortasını tətbiq edən zaman bütün əsas Avropa ölkələri sığorta sxeminin bəzi formasını tətbiq etmişdi. Fabrik aktlarının keçidi vasitəsilə uşaq əməyinin şiddəti və ümumiliyi azaldı.

Tədqiqatçılardan Carmelo Meso-Laqonun fikrincə, Cənubi Amerika daxilində sosial xidmətlər və rifah sistemləri üç ayrı mərhələdə inkişaf etmişdir və üç qrup ölkə fərqli sürətlə inkişaf etmişdir. Argentina, Braziliya, Çili, Kosta-Rika və Uruqvaydan ibarət birinci qrup 1910-cu illərin sonu və 1920-ci illərdə sosial sığorta sxemlərini işləyib hazırlamışdır.1950-ci ilə qədər həyata keçirilən diqqətəlayiq sxemlər əmək xəsarəti sığortası, pensiyalar, xəstəlik və analıq sığortasından ibarət idi. Boliviya, Kolumbiya, Ekvador, Meksika, Panama, Paraqvay, Peru və Venesueladan ibarət ikinci qrup 1940-cı illərdə bu sosial xidmətləri həyata keçirmişdir.Bu proqramların və qanunların həyata keçirilmə dərəcəsi birinci qrupa nisbətən daha az idi.Dominikan Respublikası, El Salvador, Qvatemala, Haiti, Honduras və Nikaraquadan ibarət final qrupda sosial xidmət proqramları 1950-ci və 1960-cı illərdə həyata keçirilmiş və hər bir qrupdan ən az əhatə olunmuşdur. Nikaraqua istisna olmaqla, sosial xidmət proqramları işsizlik sığortası və ya ailə müavinətləri üçün mövcud deyil. Bu ştatlarda sosial xidmətlər proqramlarına ÜDM-ə nisbətdə orta xərclər 5,3% təşkil edir ki, bu da Avropa və Şimali Amerika ilə müqayisədə xeyli aşağıdır.

Asiyada sosial xidmətlərin əhəmiyyətli inkişafı ilk dəfə İkinci Dünya Müharibəsinin başa çatmasından sonra Yaponiyada başlamışdır.1950-ci illərdə Yaponiya iqtisadiyyatının islahatlarından sonra artan sosial bərabərsizliyə görə, hazırkı Liberal Demokrat Partiyası 1958-ci ildə geniş tibbi sığorta qanunları və 1959-cu ildə pensiyalar haqqında qanunlar qəbul etdi. Yaponiyanın İkinci Dünya Müharibəsindən sonra əsas sosial xidmətlər üzrə iqtisadi xərcləri, Yaponiya Hökumətinin Səhiyyə, Əmək və Rifah Nazirliyindən qaynaqlanır.

Sinqapurda 1955-ci ildə məcburi pensiya sistemi tətbiq edilmişdir. Koreya daxilində könüllü tibbi sığorta 1963-cü ildə təqdim edildi və 1976-cı ildə mandatlaşdırıldı. Tayvanda Kuomintang hökuməti 1953-cü ildə səhiyyə işçilərini əhatə edən sığorta proqramını təbliğ etdi. Bu dövrdə Koreyada bürokratlar və hərbçilər üçün ayrıca sığorta sxemi də təmin edilmişdir. 1968-ci ildə Sinqapur sosial xidmətlər proqramını artıraraq ictimai mənzilləri əhatə etdi və 1984-cü ildə tibbi yardımı da əhatə edəcək şəkildə genişləndirdi. Həm Koreyada, həm də Tayvanda 1980-ci illərə qədər əmək sığortası ilə əhatə olunan işçilərin sayı 20%-dən yuxarı qalxmamışdı.

1980-ci illərdə Asiya ölkələrində baş verən daxili siyasi çaxnaşmalardan sonra regionda sosial xidmətlərin əlçatanlığı xeyli artdı. 1988-ci ildə Koreyada tibbi sığorta kənd işçilərinə verildi.

Sosial xidmətlər fərdlərin həyat keyfiyyətinə müsbət təsirini göstərməsi şübhəsizdir.OECD-nin 2011-ci ildə apardığı araşdırma, ən yüksək reytinqə malik ölkələrin Danimarka, Norveç, İsveç və Finlandiya olduğunu, ən aşağı reytinqləri isə Estoniya, Portuqaliya və Macarıstandan olan ölkələr olduğunu göstərdi. 2011-ci ildə Qlobal Xoşbəxtlik Barometri tərəfindən qeydə alınan başqa bir araşdırma da oxşar nəticələr tapdı.Bu tədqiqatların hər ikisi insanların həyat keyfiyyətinin ən vacib aspektlərinin sağlamlıq, təhsil, rifah və yaşayış dəyəri olduğunu göstərdi. Bundan əlavə, yüksək keyfiyyətli dövlət xidmətlərini qəbul edən ölkələr, xüsusilə Finlandiya, İsveç, Danimarka və Hollandiya xoşbəxtlik səviyyəsinə görə ən yüksək nəticə əldə ediblər. Əksinə, sosial xidmətlərdən məmnunluq səviyyəsinə görə aşağı bal toplayan Bolqarıstan, Rumıniya, Litva və İtaliyada xoşbəxtlik səviyyəsi aşağı idi, bəzi sosioloqlar bunun xoşbəxtlik və sosial xidmətlər arasında güclü əlaqə olduğunu göstərir.

Tədqiqatlar göstərir ki, sosial xidmətlərin bir hissəsi kimi daxil olan rifah proqramları rifah xərclərinin ÜDM-nin 20%-dən çoxunu təşkil edən ölkələrdə yoxsulluq dərəcələrinə əhəmiyyətli dərəcədə təsir göstərir.

Sosial xidmət proqramlarının yoxsulluğa təsiri xidmətdən asılı olaraq dəyişir. Çin daxilində aparılan bir araşdırma göstərir ki, birbaşa maliyyə yardımı şəklində sosial xidmətlərin yoxsulluq səviyyəsinin azalmasına müsbət təsiri yoxdur. Sənəddə həmçinin qeyd edilir ki, tibbi sığorta, səhiyyə xidmətləri və gigiyena mühafizəsi formasında dövlət xidmətlərinin göstərilməsi yoxsulluğun azaldılmasına əhəmiyyətli dərəcədə müsbət təsir göstərir.

Azərbaycanda hələ Xalq Cümhuriyyəti dövründə sosial siyasət, sosial xidmət sahəsində mühüm addımlar atılmışdı.Belə ki, həmin dövrdə sosial sahə diqqət mərkəzində olan xüsusi sahələrdən idi. ADR sosial xarakterli dövlət idi.İlk növbədə onu qeyd edək ki, ADR hətta bir sıra avropa ölkələrindən də öncə qadınlara seçki hüququ tanıyan şərqdə ilk demokratik respublika idi.ADR hökuməti bəyan edirdi ki, dövlət büdcəsinin yükünü yoxsullar yox, maddi imkanı yüksək olan siniflər daşımalıdır [6.s.150 ] .

Bütövlükdə isə ADR hökuməti 8 saatlıq iş günü tələbini, gecə işləmə, 16 yaşına kimi uşaqların əməyə cəlb olunması qadağalarını, kapitalistlərin maliyyəsi ilə yaradılmış fond hesabına işçilərin sığortasını, fabrik inspektorlarının və sanitar nəzarətçilərin müəssisədə paritet şərtlər əsasında işçilər və sahibkarlar arasında münaqişələrin araşdırılması üzrə komissiyanın təşkilini, həmçinin müəssisədə südəmər uşaqlar üçün bağçaların yaradılmasını dəstəkləyirdi[ 6.s.152]. Bundan əlavə, kapital və əməyin qarşılıqlı münasibətlərinə aid olan ciddi sosial problemlərin operativ həlli üçün Əmək Nazirliyi nəzdində yeni struktur bölmələr

yaradılırdı (1919). Əmək Naziri A.Safikürdski parlamentin sosialist fraksiyasına məktubunda qeyd edirdi ki, bahalaşma ilə bağlı nazirlik Bakı şəhərinin fəhlələri və sənaye müəssisələrinin işçilərinin maaşlarının artırılması ilə əlaqədar məsələ qaldırmışdır və bu məqsədlə xüsusi komissiya yaradılmışdır [6. s.173] .

Eyni zamanda, cumhuriyyət dövründə uşaq ölümü ilə mübarizə aparan cəmiyyət də yaradılmışdı. Bakı millionerlərinin həyat yoldaşları və övladları da belə xeyriyyə təşkilatlarında aktiv fəaliyyət göstərirdilər. Bu cəmiyyətin məqsədi o dövrdə geniş yayılmış uşaq ölumləri ilə mübarizə və milliyətindən, dini əqidəsindən asılı olmayaraq bütün yaşlarda olan uşaqların düzgün fiziki inkişafı üçün qayğının təşkili idi. Bu cəmiyyət yoxsul ailələrdən olan uşaqları qida məhsulları ilə təmin edirdi, evdə və xəstəxanada pulsuz tibbi yardım təqdim edirdi, uşaqları bağçalara, uşaq evlərinə, valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisəyə, sanatoriyalara yönəldirirdi. Cəmiyyət tərəfindən pulsuz uşaq yeməkxanaları, pulsuz dərman, süd və s. təqdim edən ambulatoriyalar təşkil edilirdi [ 6. s. 188.] .

Bəzən yoxsullar üçün ianələr kifayət qədər özünəməxsus forma alırdı. Belə ki, 1918-ci ilin noyabr ayının əvvəlində Bakı şəhərinin Ağsaqqalar Şurası uşaq müəssisələrinin xeyrinə Bakıda oyun kartları üzrə vergi təyin etdi [6. s.188]. Həmçinin cümhuriyyət dövründə Bakı müsəlman xeyriyyə cəmiyyəti fəaliyyət göstərirdi. Bu cəmiyyət həm qaçqınlara, həm də yaralanmış türk əsgərlərinə yardım göstərirdi.Qaçqınlar keçmiş əsgər kazarmasında və “Səfa” məktəbinə, onların övladları isə uşaq müəssisələrinə yerləşdirilmişdilər.1919-cu ilin sentyabrından cəmiyyətə ayrı-ayrı şəxslər tərəfindən ianələr verilirdi. Bu cəmiyyət həm də valideynsiz qalan uşaqlara peşə tədrisini də reallaşdırırdı [6. s.188]. Digər iri qeyri-hökumət təşkilatı kimi Mərkəzi Mənzil Komitəsinin adını qeyd etmək lazımdır. Komitə işsizlik və həyat səviyyəsinin aşağı düşməsilə bağlı şəhər əhalisini ərzaqla, ucuz çörəklə, epidemiyalarla mübarizə üçün ilkin yardım vasitələrilə təmmin edirdi, qida məntəqələri təşkil edirdi [ 6.s.184]

ADR-in rəhbərliyi dövlətin sosial siyasətini həyata keçirmək üçün ümumi daxili məhsulda istehlak fondunun payının artırılması, əhalinin hər nəfərinə görə istehlak fondunun, ümumi daxili məhsulda milli gəlirin və məşğulluq səviyyəsinin artırılması, əmək şəraitinin yaxşılaşdırılması, təhsil, səhiyyə, mənzil və kommunal təminatı səviyyəsinin yüksəldilməsinə nail olmaq nəzərdə tutmuşdu. Lakin mürəkkəb beynəlxalq və daxili vəziyyət, iqtisadi çətinliklər, yoluxucu xəstəliklər, keçmiş İrəvan quberniyası ərazisində ermənilərin soyqırımına məruz qalan 150 mindən çox soydaşlarımızın tarixi vətənlərindən didərgin düşərək Azərbaycana pənah gətirməsi, əhalinin çoxluğunu təşkil edən kəndlilərin həyat şəraitini yaxşılaşdırmağın əsas amili olan torpaq məsələsinin həll olunmaması və s. sosial vəziyyəti xeyli çətinləşdirirdi.

Qaçqınların maddi ehtiyaclarının ödənilməsi və yerləşdirilməsi, onlara tibbi xidmət göstərilməsinin təşkili və bununla əlaqədar başqa məsələlərə xüsusi qayğı göstərilirdi. Hökumət 1918-ci il iyulun 13-də "Qaçqınlara yardımın təşkil edilməsi haqqında", 1919-cu il fevralın 17-də "Qaçqınların yerləşdirilməsi məsələsini nizama salmaq üçün Şamaxı qəzasına komissiya göndərilməsi haqqında", həmin il iyunun 23-də "Qaçqın və köçkünlərin vəziyyətinin, onların daimi yaşayış yerlərinə qayıtması məsələsinin aydınlaşdırılması üçün Mərkəzi komissiyanın yaradılması haqqında”, noyabrın 8-də "Qaçqınların yerləşdirilməsi üçün təcili tədbirlərin görülməsi haqqında" qərarları, Parlamentin 1920-ci il yanvarın 8-də verdiyi "Qaçqınların ehtiyacları üçün 21 milyon manat pul ayrılması haqqında" qanunları bu sahədə atılan mühüm addımlardan idi. Ölkədəki ağır vəziyyətə baxmayaraq hökumət Gürcüstan və Ermənistanda yaşayan soydaşlarımıza da müntəzəm yardım göstərirdi.

Ümumilikdə, Xalq Cümhuriyyətinin fəaliyyəti dövründə parlamentin müzakirəsinə müxtəlif sahələrə aid 315 qanun layihəsi təqdim olunub və onlardan 10-u sosial sahəni əhatə edib. Pensiya məsələləri üzrə iki əsas qərar qəbul edilib və onlardan biri 1918-ci il avqustun 28-də verilən “Pensiya haqqında qanun layihəsinin tərtib olunması üçün komissiya

yaradılması haqqında" qərar idi. Qərarda istefaya çıxanlara xidmət illərinə görə pensiya təyin olunması nəzərdə tutulurdu. Cümhuriyyətin fəaliyyəti dövründə Bakı şəhərində Əmək Birjası fəaliyyət göstərirdi. Birja 1918-ci il yanvarın 13-də Bakı şəhər Dumasında yaradılmışdı.

`Parlamentin 1919-cu il yanvarın 21-də qəbul etdiyi qərarla Xalq Cümhuriyyəti hökumətində əmək münasibətləri və onunla əlaqədar digər məsələləri tənzimləmək məqsədilə Əmək Nazirliyi təsis edildi.

Azərbaycan hökuməti milliyyətindən asılı olmayaraq sosial vəziyyəti ağır olanlara yardım göstərirdi. Məsələn, hökumət 1919-cu ildə Müsəlman qadın xeyriyyə cəmiyyəti ilə yanaşı, rus və yəhudi xeyriyyə cəmiyyətinə, erməni və yəhudi milli şuralarına və digər cəmiyyətlərə uşaqların, qocaların və digər əhali qruplarının saxlanılması üçün xeyli vəsait ayırıb, 1920-ci ilin fevralında Gürcüstanda baş verən zəlzələ nəticəsində ziyan çəkmiş əhaliyə yardım göstərdi.

1919-cu ildə inflyasiya ilə əlaqədar olaraq müavinət və əmək haqlarının artırılması hökumətin sosial siyasətinin əsas prioritetlərini təşkil edirdi. Elə bu məqsədlə parlament Dəmir Yol Nazirliyinin xətti üzrə dəmir yollarında işləyənlərin xidmət illərindən sonrakı təminatı haqqında Əsasnaməni, habelə hökumət qulluqçuları və ibtidai məktəb müəllimlərinin əməkhaqlarının artırılması, yaşayış minimumunun qaldırılması haqqında qanunlar qəbul edildi.

1919-cu il avqustun 5-də Nazirlər Şurasının qərarı ilə Əmək Nazirliyinin nəzdində əməyin mühafizəsi, əməkhaqqı dərəcələrini və əmək mübahisələrini tənzimləmək məqsədilə Əmək Müfəttişliyi təsis olunub. Ölkənin 8 bölgəsinin hər birində rayon müfəttişi fəaliyyət göstərib. Aprel işğalınadək müfəttişlər tərəfindən nazirliyə daxil olan 1537 şikayətdən 922-si fəhlələrin xeyrinə həll edilib, 145-nə rədd cavabı verilib, 14-ü məhkəməyə göndərilib, 456-sı isə həll edilməmiş qalıb. ADR parlamentinin 1918-ci il dekabrın 7-də verdiyi "Fəhlə məsələsi haqqında" qərarda əmək qabiliyyətini tam və ya qismən itirməyə görə fəhlələrə sığorta ödənilməsini müəyyən edib.

1919-cu ildə hökumət fəhlə məsələsinə aid proqram hazırladı. Proqramda uşaq və qadın əməyinin mühafizəsinin təmin edilməsi, müdiriyyətin həmkarlar təşkilatının işinə qarışmasının yolverilməz olduğu, fəhlə təşkilatlarına hücumların dayandırılacağı, yığıncaq azadlığı və əməkhaqqının qaldırılması məsələləri nəzərdə tutulurdu.

Cümhuriyyət dövründə ehtiyacı olanların kommunal xidmətlərdən, nəqliyyatdan güzəştlə istifadə etməsi, maaşların artırılması və qaçqınlara əvəzsiz maddi yardım göstərilməsi kimi sosial güzəştləri nəzərdə tutan qərarlar qəbul edildi.

İnflyasiya ilə əlaqədar olaraq əhalinin müxtəlif təbəqələrinin maaşlarının artırılması məsələsi AXC hökumətinin sosial siyasətinin mühüm istiqamətini təşkil edirdi. Cümhuriyyət hökumətinin 1918-ci il iyulun 3-ü, sentyabrın 21-i və oktyabrın 13-də, 1919-cu il fevralın 10-da, aprelin 21-də və 1920-ci il yanvarın 5-də verdiyi qərarlarla hökumət qulluqçularının maaşlarının artırılması nəzərdə tutulurdu.Həmin məqsədlə parlament 1919 –cu il yanvarın 10-da "Qulluqçulara müavinət verilməsi haqqında", fevralın 4-də "Dəmir yolu qulluqçularının vəziyyətini yaxşılaşdırmaq haqqında", aprelin 7-də "Daxili İşlər Nazirliyi işçilərinin əmək haqqının müvəqqəti artırılması haqqında", mayın 12-də "Hökumət qulluqçularının maaşlarına müvəqqəti əlavələr haqqında", 1920-ci il martın 15-də isə "Bahalıqla əlaqədar mülki və hərbi təyinatlı hökumət idarələrində qulluqçuların maaşlarına əlavələr haqqında" qanunlar qəbul edildi.

Hökumətin sosial siyasətindəki əsas məsələlərdən biri fəhlə qanunvericiliyinin formalaşdırılmasından ibarət idi. Əmək Nazirliyinin tələbi ilə 1919-cu il martın 10-da parlament həmin nazirliyin nəzdində fəhlə məsələsinə aid xüsusi Məşvərət Şurasının təsis olunması haqqında qanun qəbul edib. Məşvərət Şurası əməyin mühafizəsi, fəhlə və sahibkarlar arasındakı münasibətlərin tənzimlənməsi məsələləri ilə məşğul olurdu. Məşvərət Şurası on nəfərdən - beş fəhlə və beş sahibkardan ibarət idi.

Qanunverici orqanın 1919-cu ilin iyunun 23-də qəbul etdiyi sosial xarakterli qanunlardan "Yaşayış minimumunun artırılması haqqında" qanun əhalinin sosial vəziyyətini yaxşılaşdırılması baxımından böyük əhəmiyyət kəsb edirdi.

Azərbaycan vətəndaşlarının sosial rifahının yaxşılaşdırılmasını prioritet vəzifə hesab edən "Torpaq məsələsi" layihə xəzinəyə, çara və çar nəslinə, eləcə də mülkədarlara məxsus bütün torpaqların pulsuz və əvəzsiz olaraq zəhmətkeşlərə, rəncbər xalqa verilməsini nəzərdə tuturdu. Hər bir mülkiyyət sahibində olacaq torpaqların həcmi qanunla müəyyənləşdirilir və bundan çox torpağa sahib olmaq qadağan edilirdi. Rəncbərlərə əvəzsiz verilmiş torpaqların müqabilində torpaq sahiblərinə xüsusi yaradılmış fond hesabına dəymiş zərərin mükafatı ödənilməli idi. Xüsusi torpaq sahibliyinə məxsus ərazilərdəki yerin təkində olan sərvət, dövlətin müəyyən etdiyi xüsusi nizam və qanunla tənzimlənməsi nəzərdə tutulurdu. Meşələr, səhralar, göllər, duzlaqlar və axar sular ümumi istifadəyə verilir, lakin onlardan istifadə qanunla tənzimlənirdi.

Bu gün Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan müasir Azərbaycan dövlətində sosial dövlət quruculuğu gedir, sosial xidmət sahəsində qlobal çağrışlara cavab verən ciddi addımlar atılır.Təkcə 2021-ci ildə 9019 nəfər vətəndaşa evdə sosial xidmət göstərilmişdir.Respublikamızda 10 mindən artıq şəxs qeydiyata alınaraq sosial xidmətlə əhatə olunmuşdur.Onlardan 1600-ü Bakıda, 8500-ü rayonların payına düşür.1400 sosial xidmətçi onlara sosial xidmət üçün cəlb olunub.Onların da 200-ü Bakıda, 1200-ü regionlarda çalışır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 31 yanvar tarixli 17 nömrəli qərarı ilə təsdiq edilmiş "Evdə (səyyar) sosial xidmətin göstərilməsi" Qaydasının 3-cü bəndinə əsasən evdə (səyyar) sosial xidmət həmin xidmətin xarakterindən asılı olaraq, sosial işçi və sosial xidmətçi tərəfindən göstərilir[ 5].Əfsuslar olsun ki, bir sıra hallarda məlummatsız insanlar tərəfindən sosial işçi ilə sosial xidmətçi eyniləşdirilir.Ancaq bu yolverilməzdir. Azərbaycan Respublikası Sosial xidmət haqqında qanunda onlar arasında fərq qeyd edilmişdir (30 dekabr 2011).

Sosial işçi tərəfindən göstərilən xidmətlərə aşağıdakılar daxildir:
sosial xidmətə ehtiyacı olan şəxsə tibbi və psixoloji yardım və hüquqi məsləhət almaqda köməklik göstərmək;

qəyyumluq, himayəçilik sənədlərinin hazırlanmasına, tənha-ahıl vətəndaşların və əlillərin internat evinə, sağlamlıq imkanları məhdud uşaqlara müvafiq xüsusi təhsil müəssisələrinə göndərilməsi üçün lazımi sənədlərin toplanmasına köməklik göstərmək;əlillərə və sağlamlıq imkanları məhdud uşaqlara reabilitasiya xidməti göstərmək;sağlamlıq imkanları məhdud uşaqların gündəlik həyatda lazım olan vərdiş və bacarıqlarını, böyük və kiçik motorika, ünsiyyət və koqnitiv bacarıqlarını inkişaf etdirmək; sağlamlıq imkanları məhdud uşaqların sosial uyğunlaşmasına dəstək vermək;sağlamlıq imkanları məhdud uşaqların inkişafı üçün valideynlərə müvafiq məsləhətlər vermək, o cümlədən zəruri yardımçı cihaz və vasitələrdən istifadəniöyrətmək; sağlamlıq imkanları məhdud uşaqların ehtiyaclarının ödənilməsi və problemlərinin həlli məqsədi ilə müvəkkillik fəaliyyətini həyata keçirmək.
Sosial xidmətçi tərəfindən göstərilən xidmətlərə aşağıdakılar daxildir:
- yemək hazırlanmasına kömək etmək (o cümlədən diyetik yeməklər);
- özünə qulluq edə bilməyən xəstələri yedizdirmək və qabları yumaq;
-şəxsin çimizdirilməsinə, saçlarının daranmasına yardım etmək;
-yataq dəstlərini dəyişdirmək, yataq və geyim əşyalarını yumaq və ütüləmək;
- yataq və geyim əşyalarını camaşırxanaya, kimyəvi təmizləmə məntəqəsinə (əgər camaşırxana və kimyəvi təmizləmə məntəqəsi varsa) aparıb-gətirmək;
-paltarların xırda təmirini etmək;
-mənzili yığışdırmaq və təmizləmək;

-zəruri ərzaq, sənaye və məişət mallarını almaq;
- mənzil pulunun və digər kommunal xərclərin ödənilməsini təşkil etmək;
- istiliyə, yanacağa, təmirə olan ehtiyacların ödənilməsi məqsədi ilə aidiyyəti təşkilatlarla əlaqə saxlamaq;
-həyətyanı sahəni nizama salmaq;
-evə həkim çağırmaq, həkimin təyinatı ilə aptekdən dərman almaq, həkim müayinəsinə aparıb-gətirmək;
- sosial xidmətə götürülmüş vətəndaş vəfat etdikdə, dəfni ilə bağlı məsələlərin həllinə köməklik göstərmək.

Sosial işçi xidmətə götürülmüş şəxsə fərdi plana uyğun olaraq xidmət göstərir. Əlillərə və sağlamlıq imkanları məhdud uşaqlara xidmət göstərilməsi vaxtı reabilitasiya xidmətinin növündən asılı olaraq tərəflərin razılığı ilə müəyyən edilir.
Aşağıdakı hallarda evdə (səyyar) sosial xidmət göstərilməsi dayandırılır:
- qismən ödənişli və tam ödənişli sosial xidmətin göstərilməsi ilə əlaqədar sosial xidmət müqaviləsində nəzərdə tutulan hallarda;
- sosial xidmətə ehtiyacı olan şəxs əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri ilə eyni yaşayış məntəqəsində yaşamağa başladıqda;
- tənha ahıllar, əlillər və sağlamlıq imkanları məhdud uşaqlar dövlət sosial xidmət müəssisələrinə yerləşdirildikdə;
- əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası başa çatdıqda;
-sosial xidmətə ehtiyacı olan şəxs vəfat etdikdə[1].

Yarımstasionar (günərzi) sosial xidmət özünün əsas həyati tələbatını müstəqil təmin edə bilən və aktiv hərəkət qabiliyyəti olan ahıllara və əlillərə, o cümlədən çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayanlara gündüz və ya gecə vaxtlarında sosial-məişət, tibbi, mədəni və başqa xidmətlər göstərilməsindən, asudə vaxtın səmərəli təşkil olunmasından, onların münasib əmək fəaliyyətinə cəlb olunmasından ibarətdir.

Stasionar sosial xidmət bu məqsədlə yaradılmış müəssisədə sosial xidmət göstərilən şəxslərin (ailələrin) fiziki durumuna və səhhətinə uyğun həyat şəraitinin yaradılmasından, tibbi və sosial reabilitasiya tədbirlərinin həyata keçirilməsindən, qulluğun təşkilindən ibarətdir.

Stasionar sosial xidmət özünəqulluq qabiliyyətini qismən və ya tamamilə itirən və sağlamlıq vəziyyətinə görə daimi qayğıya və baxıma ehtiyacı olan ahıllara və əlilliyi olan şəxslərə hərtərəfli sosial-məişət yardımının göstərilməsini nəzərdə tutur.

Sosial-məsləhət yardımına aşağıdakılar aiddir:

1.qohumlarından və ya qanuni nümayəndələrindən ayrı yaşayan və sosial-məsləhət yardımına ehtiyacı olan şəxslərin (ailələrin) müəyyənləşdirilməsi;
2. çətin həyat şəraitində olan şəxslərin (ailələrin) problemlərinin həllinə dövlət orqanlarının, bələdiyyələrin və qeyri-hökumət təşkilatlarının cəlb olunması məqsədilə zəruri tədbirlərin görülməsi;
3. sosial xidmət üzrə məsləhətlərin verilməsi.

Ehtiyacı olan vətəndaşlara sosial-məsləhət yardımı onların cəmiyyətə adaptasiyasına, sosial gərginliyin azaldılmasına, ailədə əlverişli mühitin yaradılmasına, habelə şəxsiyyət, ailə, cəmiyyət və dövlətin qarşılıqlı əlaqəsinin təmin edilməsinə yönəlmişdir. Sosial-məsləhət yardımı ahılların və əlilliyi olan şəxslərin psixoloji dəstəklənməsini və qarşılaşdıqları problemlərin həllində öz səylərinin aktivləşdirilməsini ifadə edir [11, s.56].
"Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 23-cü maddəsinə əsasən təyinatından asılı olaraq sosial xidmətlər aşağıdakı növlərə bölünür:
1.sosial-məişət xidmətləri–şəxslərin (ailələrin) məişət şəraitinin, yaşayış vəziyyətinin yaxşılaşdırılmasına yönəlmişdir;

2.tibbi-sosial xidmətlər - şəxslərin sağlamlıq vəziyyətinin yaxşılaşdırılmasına yönəlmişdir;
3.sosial-psixoloji xidmətlər - şəxslərin cəmiyyətə adaptasiyası məqsədilə psixoloji vəziyyətinin reabilitasiyasını nəzərdə tutur;
4.sosial-pedaqoji xidmətlər - yetkinlik yaşına çatmayanların inkişafındakı geriliklərin və davranışındakı pozuntuların profilaktikasına, onlarda müsbət maraqların yaranmasına, o cümlədən asudə vaxtlarının təşkilinə və ailədə tərbiyəsinə dəstəyə yönəlmişdir;
5. sosial-iqtisadi xidmətlər – şəxslərin həyat səviyyəsinin qorunmasına və möhkəmlənməsinə yönəlmişdir;
6. sosial-hüquqi xidmətlər - hüquqi yardım göstərilməsi, şəxslərin hüquqlarının qorunmasına yönəlmişdir;
7.palliativ xidmətlər – müalicəsi mümkün olmayan şəxslərin və onların ailə üzvlərinin fiziki, psixoloji, mənəvi və digər problemlərinin müəyyən edilməsi, qiymətləndirilməsi və bu şəxslərə yardımın göstərilməsinə yönəlmişdir.
Elmi ədəbiyyata nəzər saldıqda isə sosial xidmətlərin təsnifat meyarlarının əslində daha çox olduğunu və müəlliflərin bu sahədə fərqli fikirlərini, yanaşmalarını görə bilərik.

Xidmətlərin göstərilməsi müddətindən asılı olaraq sosial xidmətlər aşağıdakı növlərə bölünə bilər:
a)birdəfəlik sosial xidmətlər;
b) uzunmüddətli sosial xidmətlər.
Birdəfəlik sosial xidmətlər əvvəlcədən müəyyən edilmiş konkret bir dövr çərçivəsində göstərildiyi halda, uzunmüddətli sosial xidmətlər müəyyən dövr ərzində təkrarlanan hərəkətlər formasında təqdim edilir və eyni bir xidmətin və ya müxtəlif xidmətlər kompleksinin dövriliyini özündə əks etdirir.
Nəticəsinin təzahür formasından asılı olaraq sosial xidmətlərin aşağıdakı növlərini qeyd etmək olar:
a)sadə sosial xidmətlər;
b)mürəkkəb sosial xidmətlər.

Mürəkkəb sosial xidmətlərə psixoloji və reabilitasiya xidmətləri aid edilə bilər.
Təqdimetmə obyektinə görə:
a)fərdi sosial xidmətlər;
b)kollektiv (qrup) sosial xidmətlər.
Fərdi sosial xidmətlər fərdi ehtiyacları və tələbatları nəzərə alınmaqla konkret müştəriyə göstərilir.Kollektiv sosial xidmətlər eyni zamanda ümumi maraqlar əsasında birləşmiş müştərilər qrupuna təqdim edilir.
Ödənişli olub-olmamasından asılı olaraq sosial xidmətlər bölünə bilər:
-Ödənişli sosial xidmətlər;
-qismən ödənişli sosial xidmətlər;
-ödənişsiz sosial xidmətlər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2012-ci il tarixli 328 nömrəli qərarı ilə "Dövlət sosial xidmət müəssisələrində və evlərdə qismən ödənişli və tam ödənişli şərtlərlə sosial xidmətin göstərilməsi qaydası" təsdiq edilmişdir. Həmin qaydalara görə çətin həyat şəraitində olan şəxslərə (ailələrə) dövlət sosial xidmət müəssisələrində və evlərdə sosial xidmət zəmanət verilmiş həcmdə ödənişsiz göstərilir.Ödənişli sosial xidmət göstərilərkən çətin həyat şəraitində olan şəxsin maraqları, sağlamlıq vəziyyəti, çətin həyat şəraitində olmasının səbəbi, şəxs üçün müəyyən olunmuş reabilitasiya proqramının məzmunu, sosial xidmətlərə tələbatının qısamüddətli və ya uzunmüddətli olması nəzərə alınır. Ödənişli şərtlərlə sosial xidmət çətin həyat şəraitində olan şəxs (ailə) ilə sosial xidmət göstərən subyektlər arasında bağlanmış müqavilə əsasında həyata keçirilir.

Maliyyələşmə mənbəyinə görə:

-dövlət büdcəsindən maliyyələşdirilən;
-bələdiyyə büdcəsindən maliyyələşdirilən;
- digər maliyyə vəsaitləri (QHT-lər, ianələr, xeyriyyəçilik fəaliyyəti ilə məşğul olan şəxslər və s.) hesabına maliyyələşdirilən.
Bu təsnifatı başqa cür də formulə etmək olar.Belə ki:Təqdim edən subyektdən asılı olaraq:
a)dövlət sosial xidmətləri;
b)qeyri-dövlət sosial xidmətləri.
Dövlət sosial xidmətlərinə dövlət sosial təminat orqanları tərəfindən, qeyri-dövlət sosial xidmətləri isə ayrı-ayrı şəxslər (xeyriyyəçilər, fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar və s.) bələdiyyələr və qeyri-hökumət təşkilatları tərəfindən təqdim edilən xidmətləri aid etmək olar.
Texnologiya ilə əlaqəsindən asılı olaraq:
a)ənənəvi xidmətlər;
b)innovasion xidmətlər.
Göstərildiyi yerdən asılı olaraq:
a) evdə göstərilən sosial xidmətlər;
b)sosial xidmət müəssisələrində göstərilən sosial xidmətlər.

Sosial xidmətin xwsusi növlərinə aşağıdakıları aid edilir:1)əlillərin reabilitasiyası, təhsili və onların məşğulluğunun təmin edilməsi; 2) protez-ortopedik yardım və əlillərin nəqliyyat vasitələri ilə təminatı; 3) evdə və stasionar müəssisələrdə sosial xidmət;4)uşaqlara sosial xidmət [1,s.402].

Əlillərə reabilitasiya xidməti peşə təlimi, işədüzəltmə, nəqliyyat vasitələri ilə təminat, protezləşdirmə, güzəştlər üzrə xidmətlər kompleksinin göstərilməsini nəzərdə tutur. Bu xidmət orqanizmin pozulmuş, yaxud itirilmiş funksiyalarının bərpasına, kompensasiyasına; əlillərin müəyyən fəaliyyət növlərini yerinə yetirmək qabiliyyətinin bərpasına və kompensasiyasına yönəlmiş sosial-tibbi, peşə, psixoloji-pedaqoji, sosial-hüquqi və digər xidmətlərdən ibarət tədbirlər kompleksini özündə əks etdirir [3, s. 17]. Onları dörd qrupa bölür:
-səhiyyə orqanları tərəfindən təqdim edilən sosial xidmətlər;
-sosial siyasət orqanları tərəfindən təqdim edilən sosial xidmətlər;
-gənclər və idman orqanları tərəfindən təqdim edilən sosial xidmətlər;
-təhsil və elm orqanları tərəfindən təqdim edilən sosial xidmətlər [10, s. 48]. Sosial xidmətləri təmin etdikləri tələbatlardan asılı olaraq ümumi tələbatları təmin edən sosial xidmətlərə, habelə xüsusi tələbatları təmin edən sosial xidmətlərə (məsələn, reabilitasiya xidmətləri) bölmək olar.

Sosial risk hallarından asılı olaraq uşaqlı ailələrə sosial xidmətin aşağıdakı növləri fərqləndirilir: uşağın saxlanılması tərbiyəsi zərurəti ilə bağlı sosial xidmətlər; əlilliklə bağlı sosial xidmətlər; kimsəsizliklə bağlı sosial xidmətlər; xəstəliklə bağlı sosial xidmətlər; natamam ailələrə sosial xidmətlər; aztəminatlı ailələrə sosial xidmətlər [7, s. 16-220].

Beləliklə, sosial xidmət sferası çoxşaxəli olub mütammadi təkmilləşmə tələb edir.Əhalinin həyat keyfiyyəti yaxşılaşdıqca, sosial rifah göstəriciləri artdıqca sosial xidmət sektorunda da yeni-yeni çağrışlar və hədəflər zəruri, labüd olur.

**Ədəbiyyat:**

1.Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 29 noyabr tarixli 1862 nömrəli Sərəncamı.www.mincom.gov.az/media/xeberler/details/352
2.Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, “Qanun”, 2005, 64 s.
3.Azərbaycan Prezidenti İlham Əliyev məcburi köçkünlər üçün salınmış “Qobu Park” yaşayış kompleksinin açılışında çıxışı [https://president.az/articles/28737]

4.İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2011-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası keçirilmişdir.16 yanvar 2012.12.Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi.http://www.president. az/articles/4098/print
5.Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 31 yanvar tarixli 17 nömrəli qərarı ilə təsdiq edilmiş "Evdə (səyyar) sosial xidmətin göstərilməsi"Qaydası. http://e-qanun.az/framework/25205
6.Дж. Рустамова, Национальная буржуазия в период Азербайджанской Демократической Республики. Баку, 2007s.162).
7.Azərbaycan Respublikası sosial xidmət haqqında qanunu
8.Бориченко Е.В. Социальное обслуживание как вид социальной защиты семей с детьми // LEGEA ŞI VIAŢA, 2014, № 6/2 (270), с. 16-20
9. Социальное обслуживание на дому. http://refleader.ru/jgepolqasrnayfs.html
10.Теория и практика социальной работы: отечественный и зарубежный опыт / Отв. ред. Т.Ф.Яркина. Т.1. М., Тула, 1993, 368с.
11.Кочеткова Л. Н.Теория социального государства Лоренца Фон Штейна//Философия и общество,No3,2008, с. 69-79.

## AZƏRBAYCAN VƏ QONŞU ÖLKƏLƏR : II QARABAĞ SAVAŞINDAN SONRA REGİONDA YARANMIŞ YENİ GEOSİYASİ REALLIQ

**Ağasəlim Həsənov**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,
aparıcı elmi işçi, fəlsəfə üzrə fəlsəfə dktoru,dosent
email:aghasihasanli@gmail.com
https://orcid.org/0000-0003-3391-6843

*Açar sözlər*: **Azərbaycan, Qarabağ, Postmünaqişə, Region, Reallıq**

II Qarabağ Savaşında Azərbaycanın qazandığı qələbədən sonra Cənubi Qafqazda yeni geosiyasi reallıq yarandı. Belə bir şəraitdə Azərbaycan və ona qonşu olan ölkələr də daxil olmaqla bölgədə marağı olan bütün aktorların siyasətində bir canlanma və dəyişikliklər baş verdi. Cənubi Qafqaz qlobal və regional aktorlarının maraqlarının toqquşduğu ən mühüm regionlardan biridir. Böyük maraqların toqquşduğu bir coğrafiyada Azərbaycanın öz ərazilərini işğalçı erməni ordusundan azad etməsi Ermənistan və onun havadarlarına, dünya güclərinə tutarlı bir mesaj oldu. Qardaş Türkiyə bu məsələdə Azərbaycanı birmənalı şəkildə dəstəklədi. Demək olar ki, Türkiyə artıq Cənubi Qafqaz regionuna daxil olmuşdur. Rusiya isə Türkiyənin bütövlükdə Qafqaza və Mərkəzi Asiyaya daxil olaraq türk cümhuriyyətlərini öz təsir zonasında saxlamasından narahatdır. II Qarabağ Savaşında Rusiya öz müttəfiqi Ermənistana hər cür dəstək versə də, Türkiyənin müttəfiqi olan Azərbaycan Ermənistanı ağır məğlubiyyətə uğratdı. 10 noyabr Bəyannaməsi Ermənistan üçün faktiki olaraq kapitulyasiyaya aktı idi və rellığı ən sonda dərk edən Ermənista bu bəyannaməni imzalamağa məcbur oldu.

II Qarabağ Savaşından sonra Azərbaycanın yaratdığı yeni reallığa qonşu ölkələrin münasibəti, onların regiondakı toqquşan və uzlaşan maraqlarının araşdırılması böyük önəm daşıyır. Yeni geosiyasi reallıq Azərbaycanla həmsərhəd olan Türkiyə, Rusiya, İran və Gürcüstanı öz ənənəvi siyasətlərinə yenidən baxmağa sövq edir.

***Azərbaycanın mövqeyi.*** Öz ərazi bütövlüyünü təmin olunmasında BMT Nizamnaməsinin 51-ci maddəsinə əsaslanan Azərbaycan, orada əks olunmuş özünümüdafiə haqqına sahib olması şübhəsizdir. Ədalətli müharibə prinsiplərinə görə müharibə Azərbaycanın tamamilə legitim hakimiyyəti və qanuni ordusu tərəfindən aparılmışdır. 2-ci prinsipə əsasən Azərbaycanın müharibə aparmaq üçün bir çox haqlı səbəbləri vardır. Belə ki, Ermənistanın 30 ilə yaxındır Azərbaycanın beynəlxalq hüquqi çərçivədə tanınan sərhədlərini pozması, torpaqlarını işğal etməsi, 1 milyona yaxın insanı məcburi köçkün həyatına məhkum etməsi, işğal olunmuş ərazilərdə qeyri-qanuni fəaliyyətləri, bu torpaqlarda ekoloji terror həyata keçirməsi və s. bir çox səbəbləri göstərmək olar. 3-cü prinsipə əsasən Azərbaycanın niyyəti I Qarabağ müharibəsi nəticəsində yaranan ədalətsizliyi ortadan qaldırmaq, bölgənin hər iki etnik qrupu üçün sülh və əmin amanlıq təmin etməkdir. Lakin ermənilərin Dağlıq Qarabağın ətrafındakı rayonlarda məskunlaşma və istehsal fəaliyyətləri, həmçinin bütün dünyaya qondarma "Artsax"ı Dağlıq Qarabağ ətrafındakı 7 rayonla birlikdə olan sərhədlər çərçivəsində tanıtmaq cəhdləri onların təkliflərinin qeyri-səmimi olduğunu və sadəcə vaxt uzatmaq üçün ortaya atıldığını sübut edir. Erməni tərəfinin daimi olaraq Azərbaycanı təhrik etməsi, lokal atışmalarla münaqişəni qızışdırmaq və daha çox ərazi tutmaq cəhdləri onların əsl niyyətinin daha bir göstəricisidir. 4-cü prinsipə əsasən həqiqətən də Azərbaycanın müharibəyə başlamaqdan başqa hər hansı çarəsi qalmamışdır.

5-ci prinsipə əsasən Azərbaycanın uğur qazanma ehtimalı həqiqətən çox idi, belə ki, erməni tərəfi də müharibə başlayarsa məğlub olacağını bilir və dərk edirdi. Lakin buna baxmayaraq Ermənistan tərəfi müharibəni təhrik edərək çox saylı insan itkilərinə vəsilə oldu. 6-cı prinsipə əsasən Azərbaycan Ermənistanın hücum zərbələrinə uyğun şəkildə və formada əks-hücum etmək haqqına sahib idi. Bununla belə ermənilər Azərbaycanın müharibə bölgəsindən çox uzaqda yerləşən şəhərlərini və sivil yaşayış məskənlərini bombalasa da, Azərbaycan tərəfi adekvat addım atmamış və İlham Əliyevin də dəfələrlə vurğuladığı kimi, qisas döyüş meydanında alınmışdır. 7-ci prinsip isə Azərbaycan tərəfindən çox daha artıq dərəcədə Ermənistan tərəfindən də pozulmuşdur.[2]

Nəticə olaraq Azərbaycan təkcə beynəlxalq hüquq normalarına riayət etməsi (yəni BMT Nizamnaməsinin 51-ci maddəsinə istinadın legitimliyi) baxımından deyil, tarixi ədalətli müharibə prinsiplərinə əməl etməsi baxımından da haqlı hesab oluna bilər. Ən böyük haqq və ədalət isə torpaqlarımızın işğaldan azad olunmasıdır. Belə ki, 10 noyabr 2020 tarixində tarixi ədalət bərpa olunaraq Azərbaycanın 7 rayonu və Şuşa şəhərinin işğaldan azad edildiyini rəsmiləşdirən üçtərəfli (Azərbaycan- Rusiya-Ermənistan) atəşkəs sazişi imzalandı.

II Dağlıq Qarabağ müharibəsində Azərbaycanın hərbi qələbəsindən sonra bu müharibənin ədalətli olub-olmaması haqqında müxtəlif siyasi analitiklər arasında debat da canlandı. Tbilisidəki İlia Dövlət Universitetinin professoru Hans Gutbrod "Assembling the Moral Puzzle – Just War Tradition and Karabakh" adlı məqaləsində Dağlıq Qarabağ konfliktində Azərbaycanın mövqeyini ədalətli müharibə prinsipləri çərçivəsində dəyərləndirərək ədalətli müharibənin 2 prinsipi istisna olmaqla Azərbaycanı haqsız çıxarmışdır.[2] Azərbaycanın məcburi köçkünlərini öz yurd-yuvasına qaytarmaq məqsədilə müharibəyə başlamasını "haqlı səbəb" (2-ci prinsip) kimi göstərsə də, digər bir sıra məsələlərdə Azərbaycanın haqsız olduğunu vurğulamışdır.Bu isə tamamilə çəfəng fikirlərdir.

1.Azərbaycan "Dağlıq Qarabağ münaqişəsini" həll etdi.

2.BMT-nin bütün qətnamələrini öz gücünə həll etdi.

3.ATƏT-in Minsk qrupunun həmsədrlərinin 30 il görə bilmədiklərini 44 günə yerinə yetirdi. ATƏT-in Minks qrupu üçtərəfli bəyanatın icrasını dəstəkləməklə bölgədə sülh və inkişafın təmin olunmasına töhfə verə bilər. Azərbaycan Ermənistanla daha çox ikitərəfli danışıqlara meyl edir. İki ölkə arasında yaranmış sərhəd delimitasiyası və demarkasiyası problemini yoluna qoymaq üçün Azərbaycan Ermənistana ikitərəfli danışıqlara üstünlük verir.

4.Azərbaycan azad olunmuş torpaqlarda quruculüq işlərini sürətləndirir. Azərbaycan apardığı siyasi mübarizə ilə bərabər, həm də strateji iqtisadi inkişaf planı hazırlamalıdır:

*“• Regionun ilkin olaraq infrastrukturu qurulmalı, kommunal xətlər çəkilməli, yollar salınmalı və eyni zamanda əhalinin yaşayışı üçün lazımlı minimum infrastruktur layihələri həyata keçirilməlidir;*

*• Əhalinin köçürülməsi məsələsi sürətlənməli və yaşayış güvənliui təmin edilməlidir;*

*• Regiona sərmayə yatıracaq şəxslər 10 il müddətinə vergidən azad edilməlidir;*

*• İstehsal layihələri üçün lazımlı avadanlıqlarım, xammalların və eləcə də müəyyən inventarların gətirilməsi zamanı gömrük rüsumları ləğv edilməlidir;*

*• Dövlət büdcəsindən və dövlət fondlarından investorlar üçün xüsusi subsidiyalar ayrılmalıdır;*

*• Bizneslərin qurulması üçün əlverişli biznes mühiti formalaşdırılmalıdır;*

*• Xarici investisiyaların birbaşa yönəldilməsi istiqamətində dövlət qarantiyası yaradılmalıdır;*

*• Bütün investorlar üçün bərabər imkanlar və fürsətlər yaradılmalıdır.”[12, 18]*

5.Azərbaycan Zəngəzur dəhlizinin açılmasında israrlıdır.

6.Azərbaycan Cənubi Qafqazda regional təhlükəsizliyin təmin olunmasında maraqlıdır.

7.Cənubi Qafqazzda postkonflikt dövrünün yeni reallığının yaradıcısı dövlət başçısı İlham Əliyevdir. *"Ermənistan-Azərbaycan münaqişəsinin hərbi yolla həlli variantıyoxdur" deyən ATƏT-in Minsk qrupunun həmsədr dövlətləri və supergüclərprosesləri heyranlıq içində izləməli oldular. Xüsusilə Azərbaycan Prezidenti İlham Əliyevin siyasi-diplomatik, informasiya və hərbi sferalardakı qətiyyətli addımları təcavüzkarı çıxılmaz vəziyyətə saldığı kimi, dünyanın böyük güclərini də geri çəkilməyə məcbur etdi. Azərbaycan yeni geosiyasi reallığı siyasət, informasiya, hərbi-təhlükəsizlik istiqamətlərində yaratdı”[1].*

***Türkiyənin mövqeyi.* Qarabağın erməni işğalından azad olunması zamanı Azərbaycana ən böyük dəstəyi qardaş Türkiyə dövləti verib.** Türkiyə tərəfi Prezident, XİN başçısı, Milli Müdafiə naziri, Milli İstikbarat Təşkilatı – bütün səviyyələrdə qələbə gününədək Azərbaycanla birlikdə oldu və müharibədən sonrakı proseslərdə də Azərbaycanın yanındadır. Türkiyə işğalın aradan qaldırılmasında Azərbaycanla birlikdə mübarizə apardı. Dünyada heç bir iki dövlət tapılmaz ki, bir-birinə siyasi və iqtisadi maraqdan dolayısı deyil, sırf qardaş olduqları üçün belə dəstək versin. “Bir millət, iki dövlət” meydanda da özünü açıq şəkildə göstərdi və göstərməkdədir.

-Şuşa Bəyanaməsilə Türkiyə və Azərbayca arasında müttəfiqlik münasibətləri yarandı;

- Türkiyə Azərbaycanla hərbi sahədə, hərbi-sənaye kompleksi, hərbi təcrübə mübadiləri sahələrində sıx əməkdaşlıq edir.

-Azad olunmuş toppaqların minalardan təmizlənməsi və quruculuq işlərində də Türkiyə fəal iştirak edir.

**Qardaş Türkiyə Cümhuriyyəti hər zaman Azərbaycana yüksək səviyyədə dəstək ifadə edib. Türkiyə həm** II Qarabğ Savasında, həm də müharibədən sonrakı proseslərdə də Azərbaycanın yanında oldu. Qeyd etdiyimiz kimi “Bir millət, iki dövlət” fəlsəfəsinə dayanan qardaşlıq münasibətləri Azərbaycana verilən hər cür dəstəkdə özünü açıq şəkildə göstərmiş oldu. Şuşa Bəyanaməsinin imzalanması isə faktiki olaraq Türkiyə və Azərbayca arasında müttəfiqlik münasibətlərinin əsası qoyuldu.

II Qarabağ Savaşından sonra öz ərazi bütövlüyünü təmin edən Azərbaycan və Türkiyə ilə birlikdə digər region ölkələrini altılı platforma çərçivəsində əməkdaşlığa dəvət edir.

***Ermənistanın mövqeyi.*** Ermənistan postmünaqişə dövründə 10 noyabr bəyanatının bəzi bəndlərinə riayət etməməklə bölgədə yenidən gərginlik yaratmağa cəhd edir:

1. Ermənistan-Azərbaycan sərhədlərində erməni ordusu və Qarabağ iqtisadi rayonunun rus sülhməramlılarının nəzarəti altında olan ərazilərdə qeyri-qanuni silahlı quldur

dəstələr tez-tez təxribat törədərək dünya ictimayyətində “münaqişənin hələ həll olunmadığı” təsəvvürü yaratmağa çalışır;

2. 10 noyabr bəyanatında nəzərdə tutulmuş ermənilərin qeyri-qanuni silahlı dəstələrinin tərkisilah edilməsi, Ermənistandan gəlmiş silahlıların geri qaytarılması haqqında müddəalar pozulur. Əksinə bölgəyə Ermənistandan yeni-yeni silahlı dəstələr və hərbi texnika daşınır.

3. Zəngəzur dəhlizinin açılması yubadılır.

Ermənistanın baş naziri Rusiya hökumətinin sədr müavini Aleksey Overçukla 2021-ci il sentyabrın 20-də İrəvandakı görüşü zamanı Ermənistanın regional kommunikasiyaların açılmasında son dərəcə maraqlı olduğunu bəyan etmişdir: “*Biz kommunikasiyaların açılmasında maraqlıyıq. Bu bizə 25 ildən artıq olan Ermənistanın blokadasının aradan qaldırılmasına imkan verəcəkdir”[9].*

Ermənistan Zəngəzur dəhlizinin açılması ilə Rusiya ilə dəmiryol əlaqəsinin yaradılması və Avrasiya İqtisadi Zonasına səmərəli intiqrasiya olunacağını bildirir. Lakin, indiki reallıqda bu dəhlizin açılmasında marqlı olmayan İran tərəfi isə bu koridorun açılmasına mane olmağa çalışır. Gürünür , Zəngəzur dəhlizinin açılmaması üçün Ermənistana ən çox təsir edən də məhz İrandır.

***Gürcüstanın mövqeyi.*** Gürcüstan münaqişə zamanı öz neytallığını saxladı. Belə ki, bu ölkə Ermənistanı və Azərbaycanı özünə “dost” və qardaş dövlətlər hesab edir, onlar arasındakı münaqişədən narahatlığını bildirir, Qafqazda mehriban qonşuluq və sülh, əmin-amanlıq olmasını istəyir.

II Qarabağ müharibəsi başlayarkən Gürcüstan Xarici İşlər Nazirliyi Qarabağdakı hərbi münaqişənin sülh yolu ilə tənzimlənməsinə ümid etdiyini bildirdi: *“Biz yayılmış məlumatlara görə insan təlәfatına gətirib çıxarmış Azərbaycan və Ermənistan arasındakı növbəti hərbi münaqişəni həyacanla müşahidə edirik. Ümid edirik ki, tərəflər arasında atəşin dayandırılması haqqında razılıq əldə olunacaq və bütün regionun təhlükəsizliyinə mənfi təsir edən geniş miqyaslı hərbi əməliyyatlardan danışıqlar yolu ilə qaçmaq mümkün olacaqdır”[4].*

Gürcüstan XİN ATƏT-in Minsk qrupunun həmsədrlərini münaqişəyə son qoymağa və tərəflər arasında konstruktiv dialoqu təmin etməyə çağırıbdır. Gürcüstan regionda sülhün bərqərar olmasına hazır olduğunu göstərmişdir.

Gürcüstan konfliktoloqu Gürcüstan Cənubi Qafqaz Regional Təhlükəsizlik İnstitutunun əməkdaşı Aleksandr Rusetski Qarabağ münaqişəsini, ümumiyyətlə Cənubi Qafqazdakı münaqişələri tənzimləmək üçün Cənubi Qafqaz ölkələrinin regional təhlükəsizlik sistemləri modelini yaratmağı təklif edir. *“O, münaqişələrə son qoymağın yolunu regional təfəkkürün formalaşmasında görür”.[11, 22-23]*

Regionda bütün iqtisadi əlaqələr və nəqliyyat kommunikasiyalar açılmalı idi. Azərbaycan Respublikasının qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat yolları açılmalı idi. Nəqliyyat yollarına nəzarəti Rusiyanın FTX-nin sərhəd dəstələri təmin etməli idi.

Azərbaycan Respublikasının Naxçıvanla əlaqəsi təyyarə ilə, bir də İran və Türkiyə vasitəsilə quru yolla idi. İndi isə Zəngəzur dəhlizi Azərbaycanı ən qısa yolla Naxçıvanı birləşdirməlidir. *“Azərbaycan və türk ekspertləri belə hesab edirlər ki, nəqliyyat dəhlizi Ermənistanın Cənub sərhədlərinə qədər uzanıb gedirİranla Mehri vasitəsilə (Zəngəzur) yeni qaz və neft kəmərləri üçün istifadə olunmuşdu. Bundan başqa Rusiya-Türkiyə İranı birləşdirən dəmiryolları da bərpa oluna bilər. Qeyd edək ki, Şərqi və Mərkəzi birbaşa dəmiryolu yoxdur. Buna görə Cənubun da ən iri limanlarla (Ceyhan, Mersin, İskəndərun) dəmiryolu əlaqəsi yox idi. Onun tikintisi üçün yüksək məbləğdə kapital qoyuluşu tələb olunurdu. Paytaxtla birləşdirən Qars dəmiryolu yeganə trans türk magistralı idi.”[14]*

Cənubi Qafqazla həmsərhəd bölgələrdə İraqda, Suriyada qeyri-sabitlik, gerginlik hökm sürür. Rusiya 30 il fasilədən sonra İrana və Türkiyə ilə birbaşa dəmiryolu əlaqəsi qurmaq şansı əldə edir. *"Bununla da hazırda Gürcüstandan keçən tranzit yolun geosiyasi və geoiqtisadi əhəmiyyəti deyişir".[14]*

2020 il noyabrıb 10-dakı razılaşmanı Ermənistan məğlubiyyət kimi qarşıladı, ölkədə etirazlar, mitinqlər, özbaşınalıqlar baş verdi. Azərbaycan isə qələbəni paradla qarşıladı. Azərbaycan və Ermənistan arasındakı barışığı Gürcüstan prezidenti Salome Zurabişvili qonşu ölkələr arasında yeni era kimi dəyərləndirdi: *"Qafqazda yeni era başlayır. Sülhün və sabitliyin alternativi yoxdur. Biz Gürcüstan, Ermənistan və Azərbaycan arasında əməkdaşlığın yeni mərhələsinə başlayırıq".[7]*

Gürcüstan Xarici İşlər Nazirliyi öz dövlətinin iki ölkə arasında dialoqu dəstəklədiyini, beynəlxalq birliklə sülh proseslərinin realaşmasına kömək etməyə hazır olduğunu bəyan etdi: *"İnanırıq ki, beynəlxalq birliyin fəal səyləri və çoxtərəfli beynəlxalq mexanizmlər bütövlükdə regionda yeni imkanlar açan uzun müdətli sülhün əldə olunmasına gətirib çıxaracaqdır"[7].*

*"Gürcü tarixçiləri və politoloqları Qarabağ münaqişəsinə neytral münasibət bəsləyirlər. Bəzi hallarda isə bir çox gürcü müəlliflərinin reallığı əks etdirməyən, mübahisə doğuran və həqiqəti əks etdirməyən tarixi faktlara "əsaslanan" mühakimələrinə yol verilir".[8, 43]*

Son vaxtlar Gürcüstan Türkiyə-Ermənistan, Azərbaycan və Ermənistan aralarında vasitəçilik funksiyasını fəallaşdırmışdır.

***Rysiyanın mövqeyi.*** Rusiya sülhməramlılıq missiyası adı altında Azərbaycanın Qarabağ bölgəsində hərbi iştiraka nail oldu, Azərbaycan ərazisində öz qoşunlarını yerləşdirdi.

2020-ci il 10 noyabr bəyanatına Ermənistan narazılığını bildirdi. Rusiya Prezidenti Vladimir Putin bildirdi ki, 10 noyabr razılaşması *"Dağlıq Qarabağ ətrafındakı böhranın ədalət əsasında Azərbyacan və erməni xalqlarının maraqlarına uyğun olaraq uzunmüddətli və tam formatlı tənzimlənməsi üçün zəruri şərait" [13]* yaratdı.

Rusiya sülhməramlı atıcı silahlı 1960 hərbi qulluqçudan, 90 zirehli nəqliyyat və 380 ədəd avtomobil və xüsusi texnikadan ibarətdir. Atəşin kəsilməsinə xüsusi nəzarət mərkəzi yaradıldı. Lakin, sonradan müxtəlif təyinatlı qoşun birləşmələrinin bölgəyə yerləşdirilməsi hesabına sülhməramlı kontingentin sayı nəzərdə bir qədər də artırıldı.

Azərbaycan-Ermənistan dövlət sərhədlərinin delimitasiyası çərçivəsində münaqişə tərəfləri regionda özləri üçün əlverişli şərait yaratmaq üçün diplomatik səylərini gücləndirdilər. Azərbaycan daha çox azad olunmuş ərazilərdə infrastrukturu modernləşdirdiyi, təsərrufatı bərpa etdiyi halda Ermənistan isə Avropa ölkələri və Rusiyanın diplomatları və dövlət başçıları ilə görüşürdü ki, bu razılaşmanın "yenidən nəzərdən keçirilməsinə" nail olsun. Paşinyan Putinlə görüşündə Qarabağdakı vəziyyəti müzakirə etdilər, üç tərəfli bəyannamənin realaşması məsələsinə toxundular. Bəyanata əsasən Azərbaycan Qarabağ və ətraf rayonlara nəzarəti bərpa etdi. Ermənistan silahlı qüvvələri Azərbaycan ərazilərini tərk etdi, Qarabağda rus sülhməramlı kontingenti yerləşdirildi. Lakin Qarabağdakı qeyri-qanuni erməni silahlıları bölgəni tərk etmədi. Rusiya Ermənistan tərəfin razılaşmanın bəzi müddəalarının dəyişdirilməsinə razı olmadı. Bunu erməni tərəfi yeni vasitəçilik mərkəzi axtarması kimi dəyərləndirdi.

Rəsmi Moskva Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olduğunu onun statusundan söhbət belə getmədiyini dilə gətirsə də bəzi KİV, məmurlar hələ də statusdan, "Dağlıq Qarabağ Respublikası"ndan bəhs edirlər.

Dövlət Dumasının beynəlxalq məsələlər komitəsinin başçısı Leonid Slutskinin fikrincə, münaqişə zonasına rus sülhməramlılarının yerildiməsi onun qəti olaraq tənzimlənməsinə gətirib çıxaracaqdır. O, mühasibəsində demişdir: *"Rusiya postsovet məkanında ən qanlı münaqişələrin həllində yenidən ən səmərəli vasitəçilərdən biri kimi çıxış*

*edir".[3].* Lakin, bu fikirin mübahisəli olması , hətta mövcud rellıqla uzlaşmadığı şübhə doğurmur.

Rusiya 10 noyabr bəyanatının 4-cü bəndindəki müddəanı – "RF-nın sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilər" müddəasını pozmuş, hətta əksinə bölgəyə erməni silahlılarını və hərbi texnikasını buraxır. Pozulan digər bir müddəa 6-cı maddədir. Orada göstərilir ki, Avropa Şurası Parlament Assambleyası qəbul etdiyi qərarda (2020-ci il üzrə monitorinq komitəsinin məruzəsində) Qarabağa dair üçtərəfli razılaşmanın müddəalarının sürətlə reallaşdırılmasını, siyasi dialoqa mane olan ritorikadan uzaq olmağı göstərmişdir.

Lakin, Qarabağda müddətli "Sülhməramlı " funksiyasını yerinə yetirməli olan Rusiya hərbi kontingenti öz misyalarına uyğun olmayan davranışlar sərgiləyirlər. Məsələn, Qondarma "Artsaxın" rəhbərləri ilə görüşlər keçirilməsi, Ermənistandan Azərbaycan ərazisinə gələn silahlı erməni dəstələrin himayə olunması, İrana məxsus yuk maşınlarının Qarabağa daxil olmasına şəraitin yaradılıması və s. bu kimi problemlər üçün bölgədəki sülhmərmlı kontingent birbaşa məsuliyyət daşıyır.

***İran İslam Respublikasının mövqeyi.*** II Qarabağ Savaşından sonra yaranmış yeni geosiyasi reallıq şəraitində İran regionda baş verən proseslərə çox diqqətlə yanaşır. Ermənistan-Azərbaycan münasibətində İran özünü neytral, münaqişə tərəfləri arasında vasitəçi elan etsə də lakin Ermənistanla hərtərəfli əlaqə yaradaraq onu daim silahlandırmışdır.

İran özünün Cənubi Qafqaz siyasətində Türkiyəni, Səudiyyə Ərəbistanı, Rusiyanı regional, ABŞ və İsraili isə dünya arenasında rəqibi (İsraili isə düşməni) hesab edir. İran səhv olaraq Azərbaycanı, Ermənistan və Gürcüstan ərazilərinin bir hissəsini tarixi *"özünün torpaqları"* sayır. Formal olaraq, üzdə İran *"beynəlxalq qəbul edilmiş sərhədlərin pozulmazlığını qəbul edir, tarixi arqumentlərə əsaslanaraq ərazi iddialarının qanuniliyini qəbul etmir."* Çünki belə arqumentlər və iddialar regionda sonsuz münaqişələrə səbəb olur. İran münaqişələrə, xüsusən Azərbaycan –Ermənistan münaqişəsinə (əslində Ermənistan Azərbaycana əsassız ərazi iddialarına söykənən hərbi təcavüzünə, işğalçılığına) özünün təhlükəsizliyinə təhdid kimi baxır. Bu məkrli dövlət həm də münaqişə zonasındakı qaçqın axınının artmasından ehtiyat edir.

İranın vasitəçilik siyasətinin məqsədlərindən biri *"Ermənistan və Azərbaycan arasında qüvvələr tarazlığının saxlanılmasıdır. İran (guya) nə güclü xristian Ermanistanın, nə də azərbaycanlı əhalisi yaşayan İran rayonlarına (əslində Cənubi Azərbaycandan söhbət gedir) ərazi iddiaları irəli sürən Azərbaycan tərəfdarı kimi çıxış etmir. Hər iki güclü tərəfə təzyiq etmək yolu ilə tarazlığı qorumalıdır."[10]* İran qonşuların ərazi bütövlüyünü müdafiə edəcəyini öz öhdəsinə götürdüyünü bəyan edirdi.

İran Türkiyənin regiondakı təsirini məhdudlaşdırmaq məqsədi də güdür. Tarixdə əsrlər boyu İran-Türkiyə düşmənçiliyini barışdırmaq mümkün olmamışdır. Qarabağda Türkiyənin iştirakının qarşısını almaq üçün İran türk-erməni düşmənçiliyindən sui-istifadə edir. Bu düşmənçilikdən və Rusiyanın bölgədə qeyri-ardıcıl siyasətindən sui-istifadə edən İran bölgədə yeganə vasitəçi rolu oynamağa və gah Azərbaycan tərəfi gah da Ermənistanı müdafiə edir.

İkinci Qarabağ müharibəsindən sonra İran Cənubi Qafqazda regional oyunçu kimi rol oynaya bilmədi. Regionda onun rəqibləri Rusiya və Türkiyənin Cənubi Qafqazın təhlükəsizlik arxitekturasında rolunu gücləndirdi. Azərbaycan və Türkiyəni birləşdirəcək planlaşdırılmış Zəngəzur tranzit dəhliz layihəsi bölgənin iqtisadi inkişafına təkan verəcək. İsrail Azərbaycanla hərbi əməkdaşlıq sahəsində regionda öz təsirini gücləndirdi. *"Yeni geosiyasi konyuktura İran üçün regionda həm Ermənistanla, həm də Azərbaycanla daha fəal rol oynamağa imkan yaratdı."[9]*

Bütün əksər ölkələr və beynəlxalq qurumlar İranın məkrli siyasət yürütdüyünü və bölgədə özünün strateji ambisiyaları olduğunu göstərirlər.

İran Azərbaycanın ərazi bütövlüyünü tanısa da, iqtisadi əlaqələri gücləndirsə də Ermənistana və Qarabağ bölgələrindəki ermənilərə müxtəlif təyinatlı yardım edir.

İran Zəngəzur dəhlizinin açılmasına dəqiq münasibət bildirməsə də “Altı ölkənin regional əməkdaşlıq platforması”na qoşulmaq istədiyini bildirir. İran və Türkiyə arasında Suriyaya görə strateji rəqabəti bölgədəki Cənubi Qafqazdakı postkonflikt dövründəki əməkdaşlığa mənfi təsir göstərir.

II Qarabağ müharibəsi İrandakı dövlət kütləvi informasiya vasitələri Azərbaycanın uğurlu əməliyyatlarından qıcıqlanır, onu *“milli təhlükəsizliyə təhdid”* kimi təqdim edirdi. Suriyadan olan *“takfirist”* silahların (sünnü ekstremistlərinin) Azərbaycan tərəfində vuruşduqlarından bəhs edilirdi. Müharibə bitdikdən sonra Azərbaycana münasibət də dəyişdi. Bu zaman müsbət terminologiya üstünlük təşkil etdi.

Üçtərəfli razılaşmada İran üçün əhəmiyyətli o idi ki, Qarabağda yalnız Rusiya sülhməramlıları iştirak etsin. Türkiyənin bu prosesdə iştirakı və Cənubi Qafqazda rolunu və gücünü artırması rəsmi Tehranı ciddi narahat edir.

Tehran Universitetinin professoru Mərkəzi Asiya və Qafqaz problemləri üzrə mütəxəssis *“Qonşuluğun səkkiz prinsipi. İranın Dağlıq Qarabağa münasibətdə siyasəti”* məqaləsində bu prinsipləri və siyasəti aşağıdakı kimi müəyyənləşdirmişdir:

*“1. Azərbaycan hökumətinin Qarabağ regionuna və onun ətrafındakı yeddi rayona münasibətdə suverenlik hüququnun qəbul edilməsi;*

*2. “Artsax Respublikası”nın və Qarabağdakı digər siyasi proseslərin tanınmaması.*

*3. Ermənistan və Azərbaycan respublikaları ilə münasibətlərə balanslı yanaşmaq.*

*4. Qarabağ böhranının həlli üçün gücdən istifadəyə və müharibəyə qarşı durmaq.*

*5. Qarabağda dinc planda ermənilərin hüquq və təhlükəsizliklərinin təmin olunması.*

*6. Qarabağ böhranının tənzimlənməsində qeyri-regional qüvvələrin müdaxiləsinə qarşı durmaq.*

*7. İran sərhədlərinə yaxın Qarabağda təmas xəttində beynəlxalq sülhməramlı qüvvələrin yerləşdirilməsinə qarşı durmaq.*

*8. Azərbaycan və Ermənistan hökumətləri xahişilə münasibətlərin həlli və sülhün həlli prosesində vasitəçilik etmək.”[5].*

Lakin bu prinsiplərdən fərqli olaraq Azərbaycan Qarabağ münaqişəsini hərbi-siyasi yolla həll edə bildi. Həmçinin, Azərbaycan dövləti Qarabağa heç bir statusun verilməyəcəyini bəyan etməklə oradakı dinc erməni əhalinin Azərbaycan qanunlarına hörmət edəcəyi təqdirdə ,onların hüquq və təhlükəsizliyini təmin etməyə hazır olduğunu bildirmişdir.

Lakin, Azərbaycanın qələbəsini həzm edə bilməyən İran tərəfi hər cür vasitələrlə münaqişənin bitməsinə mane olmağa çalışır. Məsələn, 10 Noyabr Bəyannaməsində öz əksini tapmış, Azərbacanı Naxçıvanla birləşdirən Zəngəzur koridorunun açılmasına mane olmağa çalışır. Bundan əlavə Azərbaycanla dövlət sərhəddinə yaxın araz boyu ərazilərdə hərbi təlimlər keçirməklə sanki Azərbaycana əzələ numayiş etdirir. Zəngəzur ,dəhlizinin açılmasını İran dövləti üçün qırmızı xətt hesab edirlər. Hansı ki, bu dəhlizin açılması ilə Azərbaycan region ölkələrinə altılı əmakdaşlıq platforması təklif edir. Qeyd edək ki, bu dəhlizin açılmasından ən çox faydalanan ölkələr sırasında İran da ola bilər. Lakin , İran Azərbaycana qarşı apardığı çirkin siyasəti dəyişməli və regionda davamlı sülhün gəlməsinə mane olmamalıdır. Əks halda İran özünü təcrid durumuna salaraq, region ölkələri ilə əməkdaşlıq imkanlarını itirəcəkdir. Hansı ki, Zəngəzur dəhlizinin açılması ilə İran dövləti Türkiyə, Rusiya, Gürcüstan, Ermənistan və Azərbaycanla çoxşaxəli iqtisadi əlaqələri daha da güclənəcəkdir. Lakin, bir zaman Zəngəzur dəhlizinin açılmasını qəbul etməyən İran sonradan yeni geosiyasi reallığı dərk edərək, hətta öz ərazisindən belə bir yolun açılmasına rəsmi şəkildə razılıq vermiş oldu.

Beləliklə, Cənubi Qafqaz regionunda yeni geosiyasi reallığın yaranması məhz Azərbaycanın II Qarabğ Savasında qazandığı qələbə ilə şərtlənmişdir. Lakin, həm vətən müharibəsinin gedişində , həm də indiki reallıqda Azərbaycanın haqq işinə qonşu ölkələrin fərqli münasibətləri, yanaşmaları mövcuddur. Belə ki, region ölkəsi olan Gürcüstan bu məsələdə neytrallıq nümayiş etdirir, tərəflər arasında vasitəçilik missiyasını təklif edir. Rusiya və İran Qarabağ münaqişəsinin həlində işğalçı Ermənistanı dəstəkləməkdə davam edirlər. Özəlliklə, Rusiya Qarabağ münaqişəsinin tam şəkildə həll olunmasında maraqlı deyil. Digər tərəfdən Rusiya bölgədə sülhməramlılıq funksiyasını balanslı bir şəkildə yerinə yetirmir. Belə ki, sülhməramlılar öz funksiyalarından kənar əməllərə yol verir, yalnız erməniləri qorumağı özünün vəzifəsi hesab edir. Həmçinin, Rusiya erməni silahlılarının və hərbi texnikasının Azərbaycanın Qarabağ bölgəsinə daxil olmasına şərait yaradır. Zəngəzur dəhlizinin açılmasına qarşı çıxan və bu istiqamətdə Azərbaycana qarşı hər cür təhdidlər sərgiləyən İran isə, sonradan yeni geosiyasi reallığı dərk edərək öz ərazisindən bu dəhlizin açılmasına razılıq verdi.

**Qardaş Türkiyə isə Cümhuriyyəti hər zaman Azərbaycana yüksək səviyyədə dəstək ifadə edib. Türkiyə həm** II Qarabğ Savasında həm də, müharibədən sonrakı proseslərdə də Azərbaycanın yanında oldu. "Bir millət, iki dövlət" fəlsəfəsinə dayanan qardaşlıq münasibətləri Azərbaycana verilən hər cür dəstəkdə özünü açıq şəkildə göstərmiş oldu. Şuşa Bəyanaməsinin imzalanması ilə faktiki olaraq Türkiyə və Azərbayca arasında müttəfiqlik münasibətlərinin əsası qoyuldu.

II Qarabağ Savaşından sonra öz ərazi bütövlüyünü təmin edən Azərbaycan dövləti böyük sülh müqaviləsinin bağlanmasına hazır olduğunu bildirir və region ölkələrini altılı platforma çərçivəsində əməkdaşlığa dəvət edir.

## QAYNAQLAR


1. Adıgözəlov K. Cənubi Qafqaz: yeni geosiyasi konfiqurasiya və Azərbaycanın liderliyi//https: //newtimes.az/az/organisations/7296/1.03.2021/
2. BMT Nizamnaməsinin 51-ci maddəsi və Dağlıq Qarabağ ...https://azlogos.eu › Baxılıb:30.09.2021
3. В Госдуме прокомментировали соглашение о мире в Нагорном Карабахе // https://www.m24.ru/articles/za-rubezhom/10112020/157358
4. Грузия заявила с готовности содействовать деэскалации в Карабахе //https:/interfax.ru./world 728813 [Baxılıb: 27.09.2020]
5. Каледжи В. Восемь принципов добрососедства. Политика Ирана в отношении Нагорно-Карабахского конфликта. // https://ru. valdaiclub. com/a/highlights/vosem-printsipov-dobrososedstva-politika-irana/.[Baxılıb: 09.10.2020]
6. Маммадли Р. Проиграл ли Иран во втором войне в Нагорном Карабахе? //https^ // oc-media.org/ru/mneniya/ proigral-li….. karabakhe. [ Baxılıb: 29.09.2021ildə]
7. Нагорный Карабах и новые реалии на Южном Кавказе: взгляд из Грузии//https://sputnik-georgia.ru/conflicts/20201110/249994389/Na gornyy-Karabakh-i-novye-realii-na-Yuzhnom-Kavkaze-vzglyad-iz-Gruzii.html /28.05.2021/
8. Омаров В. Карабахский конфликт: взгляд из Грузии.//"İrs" jurnalı, №104, 2020, c.40-43
9. Пашинян: Армения крайне заинтересована в разблокировке региональных коммуникаций//https://apa.az/ru/xeber/mdb-olkeleri/pasinyan-armeniya-zaintere-sovana- v-razblokirovke-regionalnyx-kommunikacii-457145
10. Рамезанзаде Аб. Роль Ирана как посредника в Нагорно - Карабахском кризисе. //https^ //www.vub.be. /sites/vub/files/nieuvs/ users/bcoppiet/146 glava_VII pdl [ Baxılıb: 21,09,2021 ]

11. Русецкий А. Нагорный Карабах-взгляд из Тбилиси//Карабахского урегулирование: принципы, подходы и аспекты. - Ереван Амарас, 2002, -88 с.
12. Sadıqov E. Vətən müharibəsindən sonra Qarabağ bölgəsinin Azərbaycanın bazar iqtisadiyyatına təsiri //Qarabağ Azərbaycandır. UNESEKSPERT, Bakı: 2020 № 2(9)-2021 № 1(10), s.18(s14-18.)
13. Соглашение по Карабаху. Что получают и теряют стороны // https://www.rbc.ru/politics/ 10/11/2020/ 5fa a0bf b9a 79472d1159c5e8
14. Тарасов С. Грузия провисает после карабахской войны // https:// regnum. ru/news/ polit/3178486.html /25.11.2020/

## MODERNLƏŞMƏ PROSESLƏRİNİN DİNAMİKASINDA DƏYƏRLƏR PROBLEMİ

**Rauf Məmmədov**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,f.f.d., dosent,aparıcı elmi işçi
e-mail: raufsalam1@rambler.ru

**Açar sözlər:** milli dəyər, mənəviyyat, cəmiyyət, dövlət, sosial norma.

Dəyərlərin ümumi bölgüsünü apasaq, onu üç kateqoriyaya ayıra bilərik: maddi, mənəvi və sosial dəyərlər. Dəyərlərin yaranması və tarixi inkişaf formları ruhani (dini), mənəvi (fərdi), əxlaqi (sosial) və hüquqi dəyərlərdir. Maddi və mənəvi dəyərlər irqindən və coğrfiyasından asılı olmayaraq, bütün fərdlər üçün mahiyyət baxımından eynidir. Yəni, hər insan instinktiv baxımından öz varlığını və onun davamı olan öz nəslini artırmaq, qorumaq və inkişaf etdirmək üçün, maddi, mənəvi və sosial dəyərlərin əsasını qoyur. Lakin, sosial dəyərlər daha mürəkkb xarakter daşıyırlar. Çünki insan və insanların birliyindən təşkil olunan cəmiyyətlər də öz arzu və tələbləri baxımından çoxşaxəli və mürəkkəbdirlər.

Hər hansı bir insan yalnız maddi dəyərləri ideallaşdırmaqla mənəvi dəyərlərdən imtina edə bilməz və ya əksinə. Yaxud, ümumbəşəri dəyərləri dəstəkləməklə milli dəyərlərdən imtina edə bilmədiyimiz kimi, milli dəyərləri önə çəkməklə ümumbəşəri dəyərləri təkzib edə bilmərik. Çünki insan və cəmiyyət öz mürəkkəb quruluğu etibarilə bütün bu konfiqurasiyaları mürəkkəb şəkildə özündə birləşdirir və aktual məqamlarda adekvat olaraq fəallaşır. Bunda daxili və xarici mühitin dəyişən təsirləri mühüm rol oynayır.

Cəmiyyətdə sosial norma və dəyərlərin formalaşmasında və inkişafında fərdlərin şəxsi dəyərləri mühüm rol oynayır (Докучаев, 2009:89). Çünki hər bir fərdin məqsəd və məqsədə doğru davranışlarını müəyyənləşdirən maddi (karyera, pul, ailə) və mənəvi (bilik, idrak) dəyərləri vardır. Məsələn, qızlar üçün uğurlu şəkildə ərə getmək və ailə qurmaq bir dəyərdirsə, oğlanlar üçün, karyera qurmaq və ailəyə baxmaq bir dəyərdir. Bu dəyər, həm də ənənəvi-tarixi xarakter daşıyan sosial-mədəni dəyərdir. Çünki sosiomədəni stereotiplər bu dəyərlərin aktuallığını şüuraltı şəkildə qoruyub saxlayırlar (Коган 2007, 98). Belə bir mühitdə cəmiyyətin əsas dəyəri ailə olur. Lakin, son dövrdə Avropada ailə institutu çökür. Azərbaycanda da bu əsas dəyər son dövrdə iflasa doğru gedir. Əgər boşanmalar 30%-ə yaxınlaşıbsa, deməli, ailə artıq dəyər olmaqdan çıxır. Qızlar karyeranı özləri üçün əsas dəyər hesab edirlər. Deməli dəyərlər dəyişir. Bu normaldır. Çünki gender bərabərliyi müasir dövrün yeni bir dəyəri kimi, ənənəvi cinslərarası diskriminasiyaya əsaslanan ənənəvi ailə institutunu ortadan qaldırır. Bu proses, ailə institutunu deyil, onun ənənəvi formasını dəyəşir və yeni ailə

formaları meydana gəlir. Bu keçid dövründə ailə bir institut kimi böhran dövrünü yaşamalıdır. Sonrakı mərhələdə ailə yeni bir formada dəyər ola bilər.

Dəyərlər arasında əlaqə olsa da, bəzən bir-birinə zidd olurlar. Onlar və onların dərki məsələsi daima dəyişir. Məsələn, dünyada və Azərbaycanda XIX əsrin sonu və XX əsrin əvvəllərinə qədər qızların erkən ərə verilməsi sosial əxlaq normalarına zidd deyildi. O dövrün hüquq sistemi də bu sosial əxlaq normalarına uyğunlaşırdı. Avropa hüququnda qızların 12-13 yaşından ərə verilməsi qanuna zidd deyildi. Lakin, SSRİ dövründə bu əxlaq norması sosializmə zidd olduğu üçün, təqib olundu və cinayət hadisəsi kimi səciyyələndirildi. Lakin, erkən yaşda özündən bir neçə dəfə yaşlı birinə ərə verilən qız mənəvi baxımdan iztirab çəkirdi. Sosial əxlaq normaları və dövrün hüquqi sistemi onun mənəviyyatına qarşı zorakılıq törədirdi. O, cəmiyyətin əxlaq normalarının, hüquqi dəyərlərinin təzyiqi altında mövcud hadisə ilə üzdə barışsa da, mənəvi baxımdan onunla münaqişədə idi. O, ətrafda nələr baş verdiyini dərindən anlamasa da, mənəvi olaraq etiraz edirdi. Çünki onun mənəviyyatını təşkil edən vicdan, ləyaqət, şərəf hissi sosial əxlaqi dəyərlərlə, hüquqi sistemlə toqquşurdu. Biz islam dininin əsas mənbəyi olan Qurani-Kərimə nəzər salanda görürük ki, oradakı ayələrin məntiqi erkən evliliyə qarşıdır. Deməli, ruhani dəyərlər, cəmiyyətin islam dəyərlər adı altında təqdim etdiyi əxlaqi dəyərlərə və qanunlara deyil, daha çox o qızın fərdi mənəviyyatına yaxındır. Bu baxımdan, mənəviyyat və mənəvi dəyərlər fərdi və ümumbəşəri, əxlaqi dəyərlər sosial və lokal-milli xarakter daşıyırlar.

Sosial-mədəni dəyərlər və sosial əxlaq normaları, çox vaxt dini dəyərlər kontekstində şərh edilir. Əslində, mədəniyyət və din əksər hallarda bir-birinə zidd fenomenlərdir. Mədəniyyət dini dəyərlərin “əyri güzgüdə” təhrif edilmiş proyeksiyasıdır. Çünki dini dəyərlər dini mənbələrdə stasionar dəyər kimi mövcuddursa, mədəniyyətdə fərdlərə və qruplara görə dəyişən dinamik bir dəyərdir. Bu baxımdan, dini dəyərlər ilə mədəni dəyərləri fərqli konteksdə baxmaq lazımdır.

Fərdi və ümumbəşəri dəyərlər arasında əlaqə onunla bağlıdır ki, hər ikisi şüurüstü və irrasional xarakterlidirlər. Hər bir insanın cəmiyyətin əxlaqi və ya milli dəyərləri ilə çox vaxt uzlaşmayan azadlıq və ədalət hissləri mövcuddur (Гончаров 2007, 46). Bu hissiyat, onun şəxsi seçimi və fərdi dəyərləridir. Lakin, bu hissiyat onun şüurunda mücərrəd və qeyri-müəyyən şəkildə mövcuddur. Bu Sokratın “daymon”u, Kantın “özündə olan şey”i, transsendental noumenidir. O, fərdi olduğu kimi, həm də ümumbəşəridir. Çünki irqindən, cinsindən, coğrafiyasından asılı olmayaraq, bu başlanğıc bütün insanlara məxsusdur. O, mənəvi fenomen olaraq sosial-əxlaqi fenomendən daha böyük və sonsuz bir başlanğıcdır. Sosial-əxlaqi və milli dəyərlər zamana görə dəyişirsə, onlar zamana görə dəyişmir. O, öz əksini daha çox irrasional bədii -yaradıcı təfəkkürdə və incəsənətdə tapır. Buna görə də, şumer dövründə birinin yazdığı elmi əsər bu gün aktual görünməsə də, o dövrdə birinin yazdığı gözəl şeir müasir insanın qəlbini riqqətə gətirə bilir. Sokrat, Platon, Aristotel kimi qədim filosofların bu günün özündə də maraqlı olması da bununla bağlıdır. Çünki fəlsəfəni cəmiyyətin əxlaqi dəyərlərindən daha çox, mücərrəd, irrasional xarakterli mənəvi fenomenləri maraqlandırmışdır. Bu səbəbdən, antik fəlsəfə, siyasətin fəlsəfəsindən və onun kökündə dayanan etikadan qaynaqlanaraq inkişaf etmişdir. Lakin, mənəviyyat fenomeni bu günün özündə də transsendental noumen, “özündə olan şey” olaraq qalır. O, yaradıcı bir fenomen kimi daima şüurüstü sahədən şüura müəyyən siqnallar ötürməklə mədəniyyəti, sosial normaları yaradır. Lakin, onun proyeksiyaları çox vaxt onun özünə zidd olduğu üçün, insanın mənəvi şüuru tərəfindən irrasional şəkildə təkzib olunur və yenilənir.

Bəşəriyyət tarixində minillərlə mənəvi şüur tərəfindən inkar edilməyən və ümumbəşəri xarakter alan dəyərlər də mövcuddur. Məsələn, Nuh və Musa peyğəmbərdən gələn “aldatma, öldürmə, oğurluq etmə, zina etmə, yalançı şahidlik etmə, valideynlərinə hörmət et, özünə qarşı istəmədiyin şeyi başqasına istəmə” kimi on əxlaqi hökmlər buna misal ola bilər. Bu hökmlər öz əksini Tövrat, İncil və Quranda tapmışdır. Bu əxlaqi dəyərlər Buddizm, Daosizm

kimi digər Uzaq şərq dinlərində də öz əksini tapmışdır. Bu gün çətin elə bir cəmiyyət tapmaq olar ki, bu dəyərlərə qarşı çıxsın və onları təkzib etsin. Bu baxımdan, bu dəyərlər ümumbəşəri dəyərlərdir. Onlar, insanın mənəvi şüuruna zidd olmadığı üçün, daima öz aktuallığını qoruyub saxlamışdır. Təbii hüquq və insan hüquqları dəyərləri ona görə ümumbəşəridirlər ki, onlar insan fitrətinə zidd deyildirlər. Onlar, insanın mücərrəd mənəvi şüurunun konkret və daha mükəmməl proyeksiyalarıdır. Lakin, bu proyeksiyalar milli kontekstdə, milli adət-ənənələrdə təhrif oluna bilərlər. Məsələn, Tövratda Musa peyğəmbərin məşhur on əxlaqi hökmü təhrif olunaraq yanlız yəhudilərə aid bir hökmlər kimi məhdudlaşdırılır. Yaxud, Quranda qızların, qadınların hüquqları ilə bağlı irəli sürülən hökmlər, bir çox müsəlman cəmiyyətlərində onların hüquqlarının məhdudlaşdırılması ilə nəticələnir. Yaxud, islam dininin dəyərləri kimi qəbul edilən bir çox şeylər mövhumat və xurafatdan başqa bir şey deyildir. Bu baxımdan, adət-ənənələri, milli dəyərləri daima hər dövrün rasional-məntiqi prizmasından keçirilməsi, tədqiq olunması zəruridir. Bu sahədə fəlsəfənin və rasional metodlara əsaslanan teologiyanın epistemoloji aparatının rolu mühümdür.

Müasir Azərbaycan cəmiyyətində mövcud olan dəyərlər sistemi mürəkkəb xarakter daşıyır. Bu sistemdə İslam, türk, qərb dəyərləri, feodalizm, sosializm və kapitalizm dəyərləri iç-içədir. Hal-hazırda informasiya cəmiyyəti formasiyasına keçid dövründə yaşadığımız üçün, yeni rəqəmsal dəyərlər sistemi gündəmə gəlir. Bu gün internetin virtual məkanında lokal və illokal dəyərlər şəbəkəsi sistemi mövcuddur. Bu sistem daxilində əslində, ənənəvi dəyərlərin böhranı prosesi yaşanır. Bunlar nəinki cəmiyyətdə kollektiv dəyərləri ortadan qaldırır, hətta individualizasiya prosesini sürətlə dərinləşdirərək de-individualizasiya prosesini gücləndirir. Təbii ki, bu proseslər zəminində ənənəvi dəyərləri qorumaq mümkün olmayacaqdır. Bunun qarşısında yanlız mənəvi şüur və fəlsəfi təfəkkürün inkişafı maneə ola bilər. Yeni dövrün insanları məhz bu təməl üzərində baş verən sosial-mədəni proseslərin tərkib hissəsinə çevrilməkdən özünü qoruyaraq, ona qarşı immunitet gücünü artıra bilərlər. Yəni, virtual məkanda baş verən de-individualizasiya prosesinin qarşısını almaq üçün, özünüdərk instinktini qıcıqlandıran fəlsəfənin və müasir fəlsəfi epistemologiyanın inkişafı etdirilməsi vacibdir. Müasir təhsil, təlim-tərbiyə proseslərinin təməlində özünüdərkə yönələn fəlsəfi metodlar işlənib hazırlanmalı və praktiki tətbiqi yolları genişlənməlidir. Bu vacib məsələdir. Çünki müasir təhsil, xüsusilə, milli təhsil sistemi mahiyyət baxımından özünüdərkə qarşıdır. Hər şey əzbərçilik, nəzəri məlumatların yüklənməsi və yaddaşın, beynin yüklənməsinə yönəlibdir. Bizim üçün əsas dəyər gənclərimizdir. Onların şüurlarını bu təhlükədən qorumadan, heç bir dəyərdən danışmaq olmaz.

**Ədəbiyyat**


Гончаров С.З. Логико-категориальное мышление: онтологический, гносеологический и аксиологический аспекты: Дис. ... д-ра филос. наук. – Екатеринбург, 2007. – 542 с.

Докучаев И.И. Ценность и экзистенция. Основоположения исторической аксиологии культуры. – М.: Наука, 2009. – 595 с.

Коган М.С. Философская теория ценности. – СПб: ТОО ТК «Петрополис», 1997. – 205с.


## İNSAN KAPİTALININ İDARƏ EDİLMƏSİNİN AKTUAL MƏSƏLƏLƏRİ


**Mahir Səlimov**

*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı, direktor müavini, f.f.d, dosent,*
*e-mail: mahir.0707@mail.ru*



**Açar sözlər:** insan kapitalı, intellektual ehtiyatlar, təhsil, elm, innovasiya


İnsan kapitalının idarəedilməsinin ayrı-ayrı aspektlərinə fəlsəfi-sosioloji və iqtisadi ədəbiyyatda bir sıra elmi tədqiqat xarakterli yazılar həsr edilmişdir. Azərbaycanda bu sahənin

tədqiqində Ə.F.Abbasovun (intellektual-insan ehtiyatları) (Abbasov, 2006), Ş.Muradovun (insan potensialı) (Muradov, 2004), A.Muradovun (Muradov, 2005) (elmi-texniki potensial, intellektual potensial) xidmətlərini qeyd etmək olar. Azərbaycanda insan kapitalının idarə edilməsi probleminin işlənilməsi isə, demək olar ki, ilkin mərhələdədir. İdarəetmə sahəsində çoxsaylı tədqiqat işlərinin aparılmasına baxmayaraq, insan kapitalının idarə olunmasının bir çox nəzəri məsələləri kifayət qədər işlənilməmişdir. T.Quliyevin (Quliyev, 2006) və K.A.Şahbazovun, M.H.Məmmədovun, H.S.Həsənovun (Mehdiyev, 2004) həmmüəllifliyi ilə çap edilmiş menecment dərsliklərində kreativ menecment haqqında qısa şəkildə insan kapitalının aktual problemlərinə diqqət yetirilir. Kreativ idarəetmə ilə bağlı maraqlı fikirlər akademik Ramiz Mehdiyevin son illərdə nəşr olunmuş əsərlərində də irəli sürülür (Mehdiyev, 2008). Eyni zamanda, filosof Əbülhəsən Abbasovun mürəkkəblik fəlsəfəsi, sinergetika və postneoklassik epistemologiya zəminində yaradıcı idarəetməyə, bütövlükdə, insan kapitalının formalaşmasına və idarə olunmasına dair əldə etdiyi elmi nəticələr, hərtərəfli əsaslandırılmış fikirləri, təklif və tövsiyələri böyük aktuallığa və əhəmiyyətə malikdir (Abbasov, 2006).

Sosial-fəlsəfi tədqiqatlarda insan kapitalının yalnız ümumi kapitalın hissələrindən biri kimi deyil, həm də böyük potensiala malik olan, çoxşaxəli resurs kimi nəzərdən keçirilir.

Biliyin cəmiyyətdə rolunun artması, əksər inkişaf etmiş ölkələrdə istehsalın və idarəetmənin texnoloji bazasının dəyişməsinə gətirib çıxardı. Artıq kütləvi istehsal prosesi üçün əvvəllər xarakterik olmayan faktorlar ön plana çıxdı. Birincisi, qlobal proseslər getdikcə daha böyük əhəmiyyət qazanmağa başladı. Qlobal proseslərdə rəqabət qabiliyyəti ayrı-ayrı ölkələrin iqtisadi qüdrətinin mühüm tərkib hissəsinə çevirildi. İkincisi, yeni iqtisadiyyatda firmaların müvəffəqiyyəti və dayanıqlılığı xeyli dərəcədə fasiləsiz yenilikdən asılı olur. Məhsul və xidmətlərin həyat dövrünün qısaldığı, ənənəvi məhsullar üçün bazar yolunun gələcək diversifikasiyası, tələb və təklifin getdikcə daha çox fərdiləşməsi şəraitində innovasion aktivlik böyük əhəmiyyət kəsb edir. Üçüncüsü, sosial-iqtisadi inkişaf fasiləsiz texnoloji inkişaf fazasına qədəm qoyur. Bu da bütün ictimai münasibətlər kompleksinin struktur xarakterini dəyişir. Yeni peşələr, yeni idarəetmə sistemləri, yeni təhsil texnologiyaları meydana gətirir.

Postsənaye cəmiyyət xarakterizə edilərkən, ilk növbədə bu cəmiyyətdə elmi biliyin kapital formasında məhsuldar qüvvələrin müstəqil və mühüm elementi kimi çıxış etməsi göstərilməlidir. Tədqiqatçıların əksəriyyətinin fikrincə, insan kapitalı ölkələrin tərəqqisində getdikcə daha mühüm rol oynayaraq müasir dövrün həlledici faktoruna çevirilir.

Postindustrial dövrün məhsuldar qüvvələri üçün insanın əqli, idraki və yaradıcı qabiliyyətlərinin böyük rol oynaması səciyyəvidir. Postindustrial inkişaf mərhələsinin özünəməxsusluğu ondan ibarətdir ki, bu mərhələdə biliyin strateji sosial-iqtisadi resurs və kapital kimi rolu durmadan artır. U.Şumpeter öz tədqiqatlarında göstərirdi ki, iqtisadiyyat yalnız istehsala daha çox maddi-texniki ehtiyatların və maliyyənin cəlb edilməsi sayəsində inkişaf etmir. O, həm də yeniliyə təşəbbüs göstərən sahibkarlıq aktivliyi, innovasiyaların, yeni biliklərin və təkliflərin tətbiqi sayəsində inkişaf edir. Şumpeterin fikrincə, iqtisadi aktivlik, bazarların inkişafı müəyyən innovasion dövrlərə müvafiq olur (Baqov, 2006). Müasir dövrdə bilik və informasiya istehsalın mühüm faktorlarından biri kimi çıxış edir. İstehsalın bu mühüm faktorunu adətən intellektual capital adlandırırlar. Ancaq intellektual kapitalı sadə bilik və informasiya kimi müəyyən etmək olmaz. O, bilik və informasiyadan daha geniş tutumlu anlayışdır.

Öz inkişafının müəyyən mərhələsində dayanıqlı əlavə dəyər yaratmağa imkan verən insanın yaradıcı qabiliyyətləri cəmiyyətin intellektual kapitalının əsasını təşkil edir. Bu anlamda insan kapitalı insanın bilik, bacarıq və qabiliyyətlərinin cəmini, onun mobilliyini (yeni informasiya qəbul və təhlil etmə, təlim, yeni şəraitə adaptasiya qabiliyyəti), yeni məhsulun yaranmasını təmin edən kreativliyini və cəmiyyətin qeyri-maddi potensialını özündə ehtiva edir.

Tədqiqatçıların əksəriyyəti insan kapitalının qarşılıqlı əlaqədə olan elementlərdən ibarət olduğunu qəbul edirlər. İnsan kapitalının strukturunu intellektual kapital, təşkilati kapital və sosial kapital kimi müəyyən etmək olar (Nonaka, 1995).

İnsan kapitalı sosial kapitalın mühüm tərkib hissəsi kimi həm struktur, həm də institusional aspektlərə malikdir. Struktur yanaşmada sosial kapitalın mahiyyəti sosial şəbəkə anlayışının köməyi ilə aydınlaşır. O, şəbəkə əlaqələrinin cəmi kimi çıxış edir. İnstitusional aspektdən yanaşdıqda isə sosial kapital etibar anlayışına əsaslanır. Sosial kapital etibarın mövcudluğu nəticəsində meydana gələn müəyyən resurs kimi nəzərdən keçirilir. İnsan kapitalının idarə olunması idarəetmə fəaliyyətinin spesifik istiqamətidir. İnsan kapitalının idarə olunmasını onun «yaradılmasının, dəyişdirilməsinin, artırılmasının və həyata keçirilməsinin idarə edilməsi kimi nəzərdən keçirmək lazımdır». Müasir menecment nəzəriyyəsində insan kapitalının idarə edilməsinin iki mühüm istiqaməti fərqləndirilir: insan kapitalının formalaşdırılması və onun malik olduğu bilik kapitalının idarə edilməsi (bilik menecmenti) (Mehdiyev, 2008).

Bilik menecmenti konsepsiyasının formalaşmasına Yapon tədqiqatçıları İ.Nonaka və Q.Takeuçinin tədqiqatları böyük təsir göstərdi. İ.Nonakanın fikrincə, Qərb menecerlərinin əksəriyyəti biliyə, onun kampaniyada istifadəsinə məhdud çərçivədə yanaşırlar. Bilik menecmenti konsepsiyasının yaradıcılarından olan Nonaka və Takeuçi öz nəzəriyyələrin postpozitivizmin görkəmli nümayəndəsi M.Polaninin təklif etdiyi biliyin təsnifatı (aşkar və qeyri-aşkar bilik) konsepsiyasını qəbul etdilər. Aşkar və qeyri-aşkar biliyin epistemoloji vahidlər qismində ayrilmasına əsasən Nonaka biliyin transformasiyasının dörd vasitəsini müəyyən edir (Nonaka, 1995):

-sosiallaşma (gizli biliyin təşkilatın bir üzvündən digərinə ötürülməsi prosesi), eksternalizasiya (gizli biliyin aşkar biliyə çevrilməsi prosesi), kombinasiya (aşkar biliyin bir insandan digərinə ötrülməsi prosesi), internalizasiya (aşkar biliyin gizli formaya çevrilməsi). İ.Nonaka biliyin yaradılmasını müəyyən ardıcıllıqla gizli biliyin aşkar biliyə və əksinə çevrilməsi kimi nəzərdən keçirir. Bu prosesdə gizli bilik daha mühüm rol oynayır. Bir çox tədqiqatçıların fikrincə, yapon kompaniyalarında biliyin yaradılması prosesinə spesifik yanaşma onların müvəffəqiyyətini təmin etmişdir. Belə yanaşmaya əsasən əməkdaşların suyektiv baxış və gümanlarının innovasion məhsul və xidmətlərə transformasiyası məqsədilə onların əməli surətdə yoxlanılması və nəzərə alınması üçün kompaniyalarda imkanlar olmalıdır. Məhz bu, rəqəmsal hesabla bərabər, investisiyaların səmərəliliyini və rentabelliyini müəyyən edir (Nonaka, 1995).

Ölkəmizin insan kapitalının formalaşdırılması və inkişafı, müasir tələblər səviyyəsində idarə edilməsi, innovasion inkişaf modelinin hazırlanması zəruri məsələlər sırasındadır. Akademik R.Mehdiyev haqlı olaraq qeyd edir: «Təhsil, elm və texnoloji innovasiyaların daimi, qüdrətli dəstəyi olmadan inkişaf mümkün ola bilməz. Buna görə də Azərbaycan gənclərinin intellektual potensialını yüksəltmək məqsədini güdən təhsil proqramlarının daimi təkmilləşməsi və keyfiyyətinin artırılması son dərəcə vacibdir. Ölkənin ən qısa müddətdə, real olaraq müasirləşməsini məhz bu təmin edə bilər» (Mehdiyev, 2008).

Qeyd etmək lazımdır ki, yaradıcı şəxs öz qeyri-maddi ehtiyaclarının əksər hissəsini peşəkar fəaliyyət sferasında təmin etməyə çalışır. Bu proses bilik və informasiyanın istehsalı ilə onların istehlakı arasında sıx bağlılığın olmasına əsaslanır.

Mahiyyət baxımından bilik və informasiyanın istehsalı, onların istehlakı ilə oxşardır. Yeni, qeyri-maddi ehtiyaclar onların təmin olunmasının yeni sahələrini meydana gətirir. İnnovasion cəmiyyətdə işçinin ixtisası səriştəsi, təhsili, biliyi, təcrübəsi ilə, həm də onun yaradıcı qabiliyyətləri ilə müəyyən edilir. Heyətin yaradıcı potensialı təşkilatın müvəffəqiyyətini təmin edən faktorlardan birinə çevrilir. Belə şəraitdə bilik və təcrübə ilə yanaşı, təsəvvür kamilliyi, düşüncənin çevikliyi, yeni ideyalar yaratmaq, qeyri-standart məsələləri həll etmək kimi qabiliyyətlər müvəffəqiyyəti təmin edən faktorlar sırasına daxil

edilir. Beləliklə, müasir dövrdə yaradıcılıq rəqabət üstünlüyünü və cəmiyyətin intensiv inkişafını təmin edən mühüm sosial-iqtisadi resursa çevrilmişdir.

İnsan ehtiyatlarının səfərbərliyi və istifadəsi sahəsində Yaponiya idarəetmə təcrübəsinə nəzər yetirsək görərik ki, Yaponiyada əmək sisteminin təşkili qeyri-rəsmiliyə, çevikliyə və kooperasiyaya əsaslanır. Ümumiyyətlə, elmi ədəbiyyatda insan ehtiyatlarının istifadəsi sahəsində Yaponyanın üstün mövqeyə malik olduğu birmənalı qəbul edilir. Yapon işçilərinin bir çox göstəricilərə görə öz qərbli kolleqalarını üstələdikləri vurğulanır. Tədqiqatçıların bir hissəsi hesab edir ki, yapon işçilərindəki bu xüsusiyyətlər, yapon cəmiyyətində hələ də qorunub saxlanan sosiomədəni ənənələrin nəticəsidir. Digər qrup tədqiqatçılar isə yapon müəssisələrində insan faktorunun effektliliyini müasir yapon idarəetməsi ilə bağlayırlar. Prof. K.Pircels qeyd edir ki, yapon sahibkarlığının məqsədi hər bir işçinin ustalığı, istedadı və qabiliyyətindən bütünlüklə istifadə etməkdir (Vasilyev, 1996).

İnsan kapitalının əhəmiyyətinin artmasına gəldikdə bilik və ixtisası genişləndirilmək; informasiyaya, mədəni dəyərlərə malik olmaq; əməkqabiliyyətli dövrü uzatmaq, xəstəliklərin qarşısını almaq və ya onların mualicəsini qısaltmaq, ətraf mühitin qorunması hesabına insanın məhsuldarlığını artırmaq vacib vəzifələrdən biridir. İnsana qoyulan investisiyalar olmadan işçi qüvvəsinin və bütövlükdə iqtisadiyyatın hərtərəfli inkişafını mümkün deyil. Bu xərclər istehlak xərcləri hesab edilmir. Onlar uzunmüddətli sosialiqtisadi effekt yaratmağa qadir olan məhsuldar kapital qoyuluşu, yəni investisiya kimi qiymətləndirilir. İnsan kapitalı nəzəriyyəsinin tərəfdarlarının fikrincə, təhsil, iş yerində hazırlıq, istehsalatda təcrübənin toplanması, sağlamlığın qorunması, coğrafi mobillik, informasiyanın axtarışı insane qoyulan investisiya qismində çıxış edə bilər (Vasilyev, 1996).

Müasir dövrdə kapitalın strukturunda intellektual komponent mühüm əhəmiyyət kəsb edir. İnsan kapitalının ilk tədqiqatçılarından olan T.Stüart əmlak, avadanlıq və digər uzunmüddətli aktivlərə çəkilən xərclərlə yanaşı, elmi tədqiqatı və kadr hazırlığını da kapital adlandırır (Stüart, 1999). Başqa bir fikrə görə, «əgər elmə qoyulan xərclər biliyin dərinləşməsinə, texnologiya və məhsulların təkmilləşməsinə gətirib çıxaran investisiya kimi nəzərdən keçirilirsə, onda elmdə toplanmış investisiyanı elmi kapital» adlandırmaq olar (Stüart, 1999)]. Araşdırmalara görə, ABŞ və Qərbi Avropada insana qoyulan ümumi investisiyaların (həm dövlət, həm də özəl) həcmi istehsal vasitələrinə qoyulmuş bütün özəl və dövlət investisiyalarının həcmini dəfə üstələyir (Kapelyuşnikov, 1981).

Buradan belə qənaətə gəlmək olar ki, postindustrial cəmiyyətə keçidlə əlaqədar milli sərvət anlayışı əhəmiyyətli dəyişikliklərə məruz qalır. Postindustrial inkişaf mərhələsində meydana gəlmiş sərvətin yeni formaları milli sərvətin bütün strukturunu dəyişdirir. İnsan kapitalı nəzəriyyəsi milli sərvət, yığım, məhsul və mənfəət anlayışlarının daha geniş şərhinə səbəb olaraq, ümumiyyətlə, ölkənin milli sərvətinin tərkibinə həm maddi, həm də qeyri-maddi komponentləri daxil etmişdir.

İnsan kapitalı nəzəriyyəsinin yaradıcıları belə hesab edirlər ki, insanın məhsuldar əmək bacarığı, onun ümumi və xüsusi biliyi sərvətin əsas formalarından biridir. Daha sonra insanın sağlamlığı, toplanmış elmi bilik və təcrübə də sərvətin qeyri-maddi formasına aid edilməyə başlanıb.

Insan kapitalının formalaşmasına, təkrar istehsalına ən güclü təsir göstərən faktor təhsilin və elmin inkişaf səviyyəsi, ETTKİ-nin (elmi-tədqiqat və təcrübi-konstruktor işləri) keyfiyyətidir. Elm insan kapitalının meydana gəlməsini təmin edən əsas faktordur. Bu gün «böyük yeddilik» ölkələri daha böyük elmi potensiala malikdirlər. Bu ölkələrdə təxminən dünya elmi potensialının 90% cəmləşmişdir. Onlar dünya üzrə yüksək texnologiyalar bazarının 80%-nə nəzarət edirlər. Bu bazarın təxmini həcmi 2,5-3 trillion dollar həcmində qiymətləndirilir1.

Azərbaycanda elmi fəaliyyətin 63%-i dövlət sektorunun, 26,7% ali təhsil müəssisələrinin, 10,3%-i isə özəl sektorun payına düşür. Elmi tədqiqatla məşğul olanların

77%-i dövlət sektorunda, 9%-i ali təhsil müəssisələrində, 14%-i isə digər təşkilatlarda çalışır. Ölkədə elmi mühitdə mövcud olan problemlər ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 4 may 2009-cu il sərəncamı ilə «Azərbaycan Respublikasında 2009-2015 illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı» təsdiq edilmişdir. Milli Strategiya Azərbaycan elmi qarşısındakı mühüm problemlərin həllini və elmin gələcək inkişaf perspektivlərini nəzərdə tutur. Bu strategiyanın həyata keçirilməsi ilə Azərbaycan elmi bir sıra mühüm problemlərin həllinə nail ola bilər.

Azərbaycanda insan kapitalının inkişafına maneə törədən faktorlardan biri işçilərin yaradıcı potensialının lazımı səviyyədə istifadə edilməməsidir. Belə ki, Azərbaycanda fəaliyyət göstərən menecer-praktiklər üçün yaradıcılıq məfhumu müəyyən formaya malik olmayan, istehsal və iqtisadiyyatdan daha çox, elm və incəsənət sahəsinə aid nə isə qeyri-müəyyən bir şeydir. Onların fikrincə, yaradıcılığı idarəetmənin məlum sxeminə daxil etmək mümkün deyildir. O, proqnozlaşdırılmaz və nəzarətedilməzdir. Ölkəmizdəki menecerlərin əksəriyyəti, ümumiyyətlə, yaradıcılığa və onun müasir tələblər səviyyəsində idarə edilməsinə skeptikcəsinə yanaşırlar. Fikrimizcə, bu, menecerlərin təhsil və peşəkarlıq səviyyəsinin lazımi səviyyədə olmamasını göstərir. Belə görünür ki, bu kateqoriyaya aid menecerlərin əksəriyyəti idarəetmə və innovasiya sahəsində baş verən yeniliklər haqqında kifayət qədər məlumatlı deyillər.

Akademik R.Mehdiyev haqlı olaraq qeyd edir ki: «Təhsil, elm və texnoloji innovasiyaların daimi, qüdrətli dəstəyi olmadan inkişaf mümkün ola bilməz. Buna görə də Azərbaycan gənclərinin intellektual potensialını yüksəltmək məqsədini güdən təhsil proqramlarının daimi təkmilləşməsi və keyfiyyətinin artırılması son dərəcə vacibdir. Ölkənin ən qısa müddətdə, real olaraq müasirləşməsini məhz bu təmin edə bilər…Təhsil və elm zəruri səviyyədə olmasa, milli inkişafın perspektivləri və Azərbaycan dövlətçiliyinin davamlı inkişafı barədə düşünməyimiz çətin olacaqdır» (Mehdiyev, 2008). Milli ideya fərdlər və qruplar arasında tarazlığı, maraqların uzlaşmasını təmin etməli, vətəndaş-dövlət münasibətlərini optimal tərzdə tənzimləməli, ümumi rifahın və cəmiyyətdaxili sosial harmoniyanın bərqərar olmasını bir məqsəd kimi qarşıya qoymalıdır. İnnovasion inkişafı təmin etmək, insan kapitalının formalaşması və effektiv fəaliyyətinə nail olmaq üçün Azərbaycanda elm, təhsil, bütövlükdə mədəniyyətin innovasion əsaslara keçirilməsi zəruridir. Bunun üçün ölkədə bir sıra zəruri islahatlar aparılmalı, innovasion ictimai şüurun formalaşması üçün zəruri məqamları özündə əks etdirən təsəvvürlər sistemi formalaşdırılmalıdır.

## İstifadə olunmuş mənbələr


Abbasov Ə.F. İntellektual ehtiyatlar – müasir cəmiyyətin innovasion sisteminin əsasıdır // UNESCO-nun təsis etdiyi Ümumdünya Fəlsəfə gününə həsr edilmiş Respublika Elmi Konfransının Materialları. B., 2006. s. 31-35.

Muradov Ş. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. B., 2004.

Quliyev T. Menecmentin (idarəetmənin) əsasları. B., 2006.

Mehdiyev R. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı, 2004;

Becker G.S. The human capital: A Theoretical and empirical Analysis whit Special Reference to Education. N.Y., 1964, p. 187.

Багов В.П., Селезнев Е.Н., Ступаков В.С. Управление интеллектуальным капиталом. М., 2006, с. 108.

Nonaka I., Takeuchi H. The Knowledge - Creating Company. How Japanese Companies Create The Dynamics of Innovation. Oxford. 1995, p. 291.

Журавлев П.В., Кулапов М.Н., Сухарев С.А. Мировой опыт в управлении персоналом. Обзор зарубежных источников. М., 1998, с. 93.

Васильев В.С. У времени в плену: российские реалии и экономическая теория

Г.Беккера // США: экономика, политика, идеология. 1996, №4, с.22.
Капелюшников Р.И Современные буржуазные концепции формирования рабочей силы. (критический анализ). М., 1981, с. 287.

# ОСНОВАНИЯ СОВРЕМЕННОЙ МОДЕРНИЗАЦИИ

**Мир-Фарадж Абасов**
доктор философии по политическим наукам,
Азербайджанский университет туризма и менеджмента
Kila50@mail.ru

**Açar sözlər**: rəqəmsallaşdırma, dicitalizm, postkapitalizm, modernləşmə.
**Ключевые слова**: цифровизация, диджитализм, посткапитализм,модернизация.

**Xülasə**
**Müasir modernləşmənin təməlləri**.
Məqalədə postkapitalist iqtisadi inkişaf modelinin bəzi problemləri təhlil edilir. Bu baxımdan dünyanın gələcək siyasi-iqtisadi inkişafı və yeni bir formasiyasının meydana gəlməsi müzakirə olunur. Müəllif bu formasiyasının yeni adını –dicitalizm - təklif edir və əsaslandırır. Bu formasiya iqtisadi, sosial və siyasi münasibətlərin bir hissəsinin real dünyadan virtual aləmə köçürülməsi ilə xarakterizə olunur.

Человечество, отдельные сообщества продолжают находиться в процессе постоянного своего развития. Это развитие осуществляется сразу по нескольким направлениям: научно-техническом, экономическом, социально-политическом, культурном и духовном, являющимися основой модернизации.

Совокупность этих и других процессов порождает в научном познании все новые и новые вопросы, на которые ученые пытаются дать адекватные ответы. Современное общество достигло половины пути, после чего возможно дальнейшее развитие или же откат в прошлое. Это связано с противоречиями, возникающими в ходе не совсем продуманного развития, порождающего социальные и глобальные экологические проблемы.

Не случайно, первые годы нового века и тысячелетия крайне символичны своим безмолвием, напоминающим растерянность. Мировая философия, политика и экономика не выдвигают пока что на авансцену жизни гениальных акторов. Более или менее значимые персоны нового века это люди, отыгрывающие свои последние жизненные роли представители прошлого столетия, олицетворяющие умирающую формацию.

Мир стал меняться незаметно для большинства людей. Процесс изменений носит не частный характер, это всесторонний, взаимосвязывающий все свои элементы, глубокий процесс, протекающий в соответствии с принципами глобального эволюционизма. Все ведущие гуманитарии прошлой формации вне зависимости от своих политических, взглядов и причастности к тому или иному лагерю, видят, что мировая система в той форме, в которой она существовала, пришла в упадок. Они также предрекают эволюционные или революционные изменения, свидетелями которых мы скоро станем. Эти изменения, безусловно, связаны с вступлением человечества в новую эру информационной революции и цифровой экономики.

Современная цифровая экономика, являясь лидером процессов модернизации, одновременно порождает множество социальных, экономических, политических и

экологических проблем, способствующих трансформации сознания и стиля жизни общества и человека. Наиболее острый характер имеют политические проблемы, связанные со становлением новой формации, называемой посткапиталистической, выступающей в качестве интеграционного феномена глобализации и информационной революции. В этой связи на основе методов и методологии политического, экономического и социологического анализа следует исследовать возникающие проблемы на стыке цифровой экономики и посткапиталистической модели развития.

Данный контекст предполагает обсуждение будущего развития мира и условий становления новой формации. В предшествующих публикациях (M. Abasov, 2021) автор предложил и обосновал название новой формации – диджитализм, основной характеристикой которого является перевод части экономических, социальных и политических отношений из реальности в виртуальный мир.

Сегодня человечество еще намного отстоит от полной реализации новой формации. Предстоит, во-первых, пластический синтез наиболее действенных принципов социализма и капитализма, во-вторых, выработка на основе такого синтеза теории новой формации, которую, в-третьих, следует апробировать на практике. Экономика нового мирового порядка претерпит уход из реального мира в цифровой мир, и в этой связи большой интерес вызывают перспективы развития экономики малых стран, таких, как Азербайджан. Поэтому малые страны уже сегодня должны готовиться к предстоящему будущему, поскольку система диджитализма порождает разнообразные риски, которые необходимо отслеживать и нейтрализовать.

Цифровая печать, цифровые носители, цифровой сигнал, компьютерные системы и системы передачи информации в процессе постоянного прогресса все глубже и глубже интегрировались во все сферы нашей жизни от быта и до сложных математических программ, облегчающих планирование, моделирование и компилирование повседневных процессов. Мы и не заметили как вполне реальные объекты и субъекты экономической, политической и межчеловеческой взаимной деятельности стали наполняться пока плохо воспринимаемыми элементами новой цифровой эпохи. Речь должна идти о поглощении реального мира и старого света миром новым, базируемым на политико-экономической теории диджитализма. Старый мир будет потихоньку поглощен, переработан и встроен в новую мировую формацию. Такого рода модернизация, ни на что не похожая, основанная на новых принципах развития, требует разработки нетривиальной методологии, способной охватить ее исследования.

Диджитализм, в отличие от своих предшественников, система абсолютно новая (так как форма его консистенции – глобальная сеть - была заложена недавно), эта система действует по своим законам и в рамках установленных ею порядков. Если все предыдущие политико-экономические системы предполагали объединение людей для продвижения каких-либо глобальных целей, будь то мировая революция, или глобальный капитализм, то диджитализм сторониться реальных человеческих собраний. Отныне и впредь диджитализм работает лишь над одной целью – освободить человечество от всякого вида физического труда и сложившейся действительности, максимально разорвать сложившиеся связи между группами лиц и отдельными индивидами. Человечество перманентно сливается с этой системой, поэтапно происходит интеграция виртуальной системы в биомассу. Таким образом порождается новый субъект модернизации, объединяющий в себе реальный и виртуальный мир, использующий возможности, предоставляемые информационной революции, на усиление интеллектуальной и ментальной деятельности человечества.

Уже сейчас социальные сети (первый низший уровень диджитального мира, который будет развиваться дальше, врастая в реально-виртуальный мир) решают намного больше вопросов, чем политические партии, в них появились свои лидеры, есть свое мерило успеха (количество подписчиков), существует возможность прямых и сиюминутных оценок

значимости того или иного комментария или заявления. Иначе говоря, социальные сети уже сейчас вполне справляются со многими функциями государства, партий, учебных заведений, СМИ. А в это время печатные СМИ теряют свою необходимость, люди готовы читать и слушать он-лайн, старый процесс обучения тоже скоро будет не нужен. Мы стали свидетелями революцией, осуществленных средствами социальных сетей. Майдан, «Арабская весна» прошли бы по другому сценарию, не будь единого центра координации действий протестующих.

Сегодня весь мир вне зависимости от страновой и религиозной принадлежности участвует в гонке, конечной целью которой является укрепление диджитализма.

Хорошо видны отличие процесса становления новой формации. Прежде всего, происходит постоянное выдвижение на авансцену мировой экономики интеллекта и образования, меняющее смысл понятия социального капитала. Интеллект превращается в главный инструмент производства экономических благ. Поэтому следует ожидать изменение характера средств и затрат производства, товара, стоимости и цены на средства производства, а также вариацию их использования. Можно смело прогнозировать отход от традиционной экономики, человеческое воспроизводство предсказуемо будет сокращаться, сопровождаясь новым типом воспроизводства – «роботы, создаваемые роботами». И это новое воспроизводство в гораздо более стремительных темпах будет формировать новые поколения автоматов. Уже сегодня многие идеи прогнозируемой формации реализуются на практике, способствуя появлению в обороте виртуальных новшеств, например, денег – биткойнов, блокчейнов и т.д.

Важную роль уже сейчас начинает играть реклама – двигатель торговли. Эпоха диджитал-рекламы, по сути, уже началась, она сосредоточена на создании социально-медийного маркетинга, прямых виртуальных продаж, способствуя таким необычным процедурам, как «покупка воли» человека на оптимальных условиях или в кредит. Реклама эпохи диджитализма лучше любой войны или ее пропаганды, превратит эту формацию в новую форму функционирования экономики и существования общества.

Соответственно, будет возникать новый мировой порядок, осложненный появлением иного типа человека, битвой за ресурсы, постоянных угроз глобальной войны. Сама экономика нового мирового порядка, как уже отмечалось, претерпит переход из реального мира в цифровой мир, и в этой связи большой интерес вызывают процессы освоения этого перехода экономиками малых стран, таких, как Азербайджан.

В системе подготовки малых стран к предстоящему будущему важную роль должна сыграть переориентация экономики под воздействием идей и реальности диджитализма, а также Индустрии 4.0.

Но эта переориентация невозможна без пропаганды диджитализма как образа мышления и стиля жизни. То есть необходимо, прежде всего, готовить население к будущему, в котором человечество разделиться на две неравные в численном и ресурсном отношении группы: люди из системы диджитализма и люди вне этой системы. До этого, конечно, предстоит переходный период, так называемого реалтек-диджитализма, который определит черты новой формации и темпы ее модернизации. Эта формация, как и предыдущие, будет нести в себе как положительные, так и отрицательные черты, однако то, что она стабилизирует и приостановит кризис экономики, в котором она пребывает сегодня, не вызывает сомнения. Кроме того, она решительно ограничит сегодняшнее бездумное и безумное использование ресурсов, снизит потребление невозобновляемых энергоносителей.

Наконец, она снизит вероятность мировых войн, поскольку они будут рассматриваться как неразумное использование ресурсов, что, конечно же, не отменит саму войну, как способ решения социальных, политических и экономических проблем. Она также будет содействовать снижению уровня угроз в области глобальной и социальной экологии.

Как бы то ни было, ясно уже сейчас, что новая формация «цифровой экономики» предполагает развиваться на принципах, которые играют центральную роль в концепции модернизации, а потому представляет интерес для всех стран и народов мира. Следует только отметить, что предстоит непростой (и главное, неопределенный по длительности) период исследования последствий диджитализма для экономики, политики, общества и мира в целом, а также для каждого индивидуума в отдельности. Мы должны признать, что современные принципы модернизации не могут быть адекватно использованы в царящих условиях неолиберализма, однако они вполне реализуемы в экономике «цифрового общества и государства», которая постепенно вытесняет традиционные экономические модели развития предыдущих систем.

Но для этого компьютеры должны стать мощнее, медицина непременно должна стать БиоХакинговой, роботы и дроны обязаны заменить людей в рутинных процессах. И если кому-то кажется, что это ошибка и нет никакой гонки, то следует посмотреть на экономическую статистику UNESCO по затратам стран на научные исследования и опытно-конструкторские работы в этой области. Можно увидеть, что ведущие пять стран затратили на эти исследования только в 2018 году 1,2 триллионов долларов, при том, что за весь XX век весь мир потратил на войны (включая 2 мировые) 4 трлн.

Что будет, когда диджитализм возьмет вверх над современным миром? Наступит ли настоящая эра проявленного постмодерна? Или, может быть, установится мир социального равенства и справедливости? Все получат доступ к знаниям, медицине, воде и еде? Скорее всего, нет! Сумасшедшая гонка это инстинктивная попытка более умных и ловких ранних представителей рода «Хомо Деус» вскочить на стремительно уходящий технологический поезд жизни (скорее всего это будет поезд компании ALSTOM развивающий скорость 574 км в час). А тех, кто это сделать не успеет или по каким-то причинам не сможет, ждет бесславный конец. Диджиталисты закроются в своем прекрасном мире, где не так много места, а весь остальной мир будет вызывать у них чувства сожаления и грусть, они будут смотреть на все эти безнадежно отсталые страны – дауншифтеры так, как Кук смотрел на туземцев. Конечно, периодически самые гуманные представители диджиталистов будут пытаться помочь голодному, больному и поверженному миру, но общую картину это не изменит. Сожаления не помешают диджиталистам выкупать оставшиеся ресурсы у отсталых и вечно воюющих между собой стран, обменивая их на технологии, компьютеры и другие инструменты. Бесславный конец мира современной формации! Во все времена и во всех странах люди создавали системы с одной единственной целью - жить лучше. А все системы в той или иной степени служили лишь группе людей, обогащая и защищая их, выделяя из общей народной массы. Однозначно мы можем сказать, что по мере роста интеллектуальности и накопления знаний народы совершенствовали свои формы политико-экономических систем и к началу XXI века мы пришли с огромным багажом проб и ошибок. Мы дети бывшего СССР особенно ярко и многопозиционно испытали на себе смены систем, революции и эволюции (скрытые и явные), быть может, это и дает нам, некое преимущество - видеть латентные политико-экономические процессы, протекающие в мире.

И это видение определенно свидетельствует о начале новой эры человечества, основанной на уникальной системе модернизации, вобравшей в себя реальный и виртуальный мир.

**Литература**

Abasov Mir Faraj. Digitalism and the New Economic Agent. International Scientific Journal of Universities and Leadership 2 (12), 2021, p.76-87.

# İLHAM ƏLİYEVİN CƏNUBİ QAFQAZDA YARATDIĞI YENİ GEOSİYASİ REALLIQLAR: İNKİŞAF VƏ PERSPEKTİVLƏR

**Məhəmməd Cəbrayılov**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun
İnformasiya cəmiyyətinin fəlsəfi və sosioloji problemləri şöbəsinin müdiri
mehmetsoltanedu@gmail.com

**Açar sözlər:** Cənubi Qafqaz, lider, milli maraqlar,Vətən müharibəsi, Zəngəzur dəhlizi

Bu gün Cənubi Qafqaz regionunda qlobal güc mərkəzlərinin iştirakını nəzərdən keçirdikdə aydın olur ki, bu biləvasitə Azərbaycanın yaratdığı yeni geosiyasi şəraitin doğurduğu nəticələrdən asılıdır. Çünki, Cənubi Qafqazın lideri İlham Əliyevin yaratdığı yeni geosiyasi şərtlər regional güc balansını dəyişməklə yanaşı, həm də qlobal güclərin bölgədə 28 illik formalaşan qeyri-obyektiv siyasətinə düzəlişlər etmək zərurətini yaratmışdır. Məhz bu baxımdan Cənubi Qafqazda yeni geosiyasi düzəni yaradan səbəblərdən biri dünyanın qlobal nizamında baş verən mövqe savaşlarının müxtəlif qütblərdə yaratdığı dalğalnmaların təsiridirsə, digər tərəfdən İlham Əliyevin bu təsirləri neytrallaşdıran resurslara və milli maraqları önə çəkən siyasi iradəyə sahib olmasıdır. Regionda yaranan əlverişli geosiyasi vəziyyətə hazırlaşmaq, milli maraqları önə çəkmək, “ağıllı gücdən” istifadə imkanlarına sahib olmaq kimi keyfiyyətləri İlham Əliyevi Cənubi Qafqaz regionunda dünya nizamının sahəvi hissələrində baş verən proseslərin birmənalı liderinə çevirdi. Bu bir tərəfdən müstəqillik dövründə İlham Əliyevin həyata keçirdiyi regional və qlobal layihələrlə bağlıdırsa, digıər tərəfdən Azərbaycanın Cənubi Qafqazda münaqişə ocaqlarının ləğv edilməsində hərbi, diplomatik iradəyə sahib olmasıdır.

Mövzunun əsas məqsədi, bir tərəfdən Azərbaycanın Cənubi Qafqazda “maraqların uzlaşması” siyasəti ilə region dövlətlərinin geosiyasi mövqeyinə təsirinin ilk anda o qədər də dərk olunmayan tərəflərini təhlil etməkdirsə, digər tərəfdən neoimperialist güclər qarşısında 44 günlük müharibəinin qalibi, Türk dünyasının birliyini təmin etmədə regional və qlobal layihələrlə çıxış edən İlham Əliyevin strateq baxışlarını incələməkdir.

Müasir dünyanın önəmli siyasi liderlərindən biri olan İlham Əliyev milli maraqlar məsələsində güzəştsiz mövqeyi 44 günlük müharibə şəraitində tamamilə açıq müstəviyə keçdi və XXI əsr münaqişələr tarixinə həlli mümkünsüz görünən problemi ilk həll edən Prezident kim daxil oldu. Məhz bu baxımdan münaqişənin həll olunmasının geosiyasi aspekti bir lider kimi İlham Əliyevin geostrateji baxışlarını təhlil etmək zərurətini ön plana çıxarır. Mövzu daxilində İlham Əliyevin Vətən müharibəsində əldə olunan qələbəyə qədər və postmünaqişə dövrünü əhatə edən geosiyasi və geostrateji planlarını birinci və ikinci mərhələyə bölməklə daha düzgün nəticələr çıxarmaq mümkündür.

2003-cü il oktyabrın 15-də Prezident seçildiyi ilk gündən Qarabağ münaqişəsinin nizama salınmasına xüsusi diqqət yetirən ölkə başçısı İlham Əliyev bütün xarici səfərlərdə, eləcə də, Bakıda keçirdiyi çoxsaylı görüşlərdə Ermənistanın hərbi təcavüzü məsələsini daim önə çəkərək, Azərbaycan xalqının öz torpaqlarının işğalı ilə heç zaman razılaşmayacağını, zərurət yarandığı halda hərbi əməliyyatların başlanmasına qərar verəcəyini vurğulayırdı. Azərbaycanın xarici siyasət kursunun mühüm tərkib hissələrindən birinə çevrilən Qarabağ münaqişəsinin dinc yolla nizama salınmasının tərəfdarı olduğunu bildirməklə İlham Əliyev həm də geosiyasi layihələrin həyata keçirilməsi üçün vaxt qazanmışdı. Digər tərəfdən İlham Əliyevin xarici diplomatiya sahəsində çoxşaxəli fəaliyyətinin vacib aspekti münaqişə reallıqlarının dünya ictimaiyyətinə çatdırılması olmuşdu. Məsələn, 2019-cu il oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik

iclasının plenar sessiyasında iştirak edən Prezident İlham Əliyev çıxışında qlobal və regional geosiyasətin ən aktual məsələləri fonunda Rusiya-Azərbaycan münasibətlərinin strateji xarakterinə, toxunaraq Ermənistan Nikol Paşinyan "Dağlıq Qarabağ Ermənistandır və nöqtə". (3)
İlham Əliyevin beynəlxalq mərkəzlərə və qlobal güclərə göndəridiyi bu mesajında Azərbaycanın Qarabağın işğalı ilə heç zaman barışmayacağı və istənilən anda torpaqları işğaldan azad etmək iradəsi duyulurdu. Bu gün əminliklə deyə bilərik ki, İlham Əlievin Qarabağ probleminin həllinə gətirən yolda geostrateji konsepsiyaya və məqsədə çatmada ardıcıllığa malik olması Zəfərin əldə olunmasını şərtləndirən başlıca keyfiyyətdir.

Azərbaycanın 44 günlük Vətən müharibəsində yaratdığı reallığa və onun indiki mövcud nəticələrinə qədər region uğrunda mübarizə əsasən, qlobal güclərin Cənubi Qafqaz ölkələri üzərində təsir mexanizmlərnin yaradılması və gücləndirilməsi istiqamətində indeksləşirdi. Məsələn geostateq N. Spaykmən xarici siyasətin məqsədi dövlətin güc potensialının qorunması və ya artırılmasıdır fikrini irəli sürərək qeyd edir ki, "güc – son nəticədə uğurlu müharibə aparılmasını təmin edir və hərbi-siyasi strategiyanın problemlərinin açarı coğrafiyadadır. Coğrafiya dövlətin xarici siyasətində ən fundamental faktordur, ona görə ki, bu faktor daimidir. Nazirlər gəlib-gedir, hətta diktatorlar da ölur, amma dağ silsilələri məğlubedilməzdir". (1)

N.Spaykmənin yuxarıda qeyd olunan fikrini müqayisələndirməklə qeyd edə bilərik ki, İlham Əliyev uğurlu müharibə aparmasını təmin etmək üçün lazım olan "güc" potensialına nail olmuşdur. Azərbaycan və Ermənistan arasında 30 ilə yaxın davam etmiş hərbi münaqişə Cənubi Qafqazın əsas problemi kimi böyük ölçüdə həll olunması region uğrunda mübarizənin məzmununu, hətta hədəflərini belə, nisbətən dəyişməyə başlayıb. Ancaq 44 günlük Vətən müharibəsindən sonra bu hədəflər artıq real nəticələr vermədiyindən (Qərb və bəzi region dövlətlərin Gürcüstan və Ermənistanla apardığı gizli danışıqlar) öz əhəmiyyətini itirməyə başlayıb. Qərbdə anlamağa başlayıblar ki, Gürcüstan Cənubi Qafqazda regional mübarizənin taleyinə təsir edə biləcək geopolitik önəmə malik deyil. Bu baxımdan Gürcüstan xarici siyasətdə ABŞ və NATO-nun regional maraqlarına tam cavab vermək baxımından Qərbyönümlü xarici siyasət yürütmüş olsa da, nəticələrin Cənubi Qafqazda keçərli olmadığı aydınlaşır.

İlham Əliyev lider olaraq Vətən müharibəsinin qalibi kimi yaratdığı yeni reallıq Cənubi Qafqaz regionunda maraqları olan bütün beynəlxalq siyasi iradə mərkəzlərinin rəsmi Bakı ilə xüsusi təmaslar məcburiyyətində qala biləcəkləri ehtimalını artırır.

Ərazisində Rusiya hərbi bazaları olan Ermənistan Azərbaycanla müharibədə sarsıdıcı məğlubiyyətlə üzləşməsi, ordusunun darmadağın edilməsi, sosial-siyasi və maliyyə-iqtisadi böhranlarla üz-üzə qalması ABŞ-n və NATO-nun geopolitik hədəflərinə yararlı ola bilməz. Ölkənin ərazi bütövlüyünü bərpa edərək regionda olan əsas münaqişənin ədalətli həllinə nail olmaqla Azərbaycan ABŞ və Qərbin Cənubi Qafqazın gələcək perspektivləri ilə bağlı inkişaf faktorlarını geosiyasi və geoiqtisadi iradəsindən asılı vəziyyətə salmışdır. Məhz bu baxımdan İlham Əliyev regionda maraqların uzlaşma siyasətinə önəm verməklə Cənubi Qafqazda həyata keçirdiyi geoiqtisadi layihələr strateji əməkdaşlıq üçün geniş imkanlar yaradır. 44 günlük müharibənin sona çatmasının hüquqi və siyasi tənzimləmə sənədinin Rusiya tərəfindən imzalanması və sülhyaratma missiyasını öz üzərinə götürməsinin davamı olaraq, Ermənistanla sərhəd demarkasiyası və kommunikasiyaların açılması ilə bağlı prosesi uğurla yekunlaşdıra biləcəyi şübhə doğurmur. Regionda Rusiyanın əsas beynəlxalq rəqibi olan ABŞ və dünya nizamında iştirak edən qlobal güclər Cənubi Qafqazda "sülh yaratma missiyası" adı altında fəal hərəkətə keçib. Bütünlüklə dünya nizamında baş verən geosiyasi və geoiqtisadi dalğalanmalar yeni neoimperializmin Cənubi Qafqaz regionunda təsirlərinə qarşı keyfiyyətli müdafiə sistemi qurulması zərurətini yaradır. Çünki klassik imperializmdən fərqli olaraq

neoimperialzm yeni geosiyasi alətlərlə inhisarçı təzyiqlər yaradır. Bu baxımdan Samir Amin dünya imperializm mərkəzlərini inhisarçı fəaliyyətini 5 sahəyə ayırır:
1.Müasir mərkəzlərin texnologiya sahəsində ki, inhisarçılıq
2.Dünya miqyasında əhəmiyyətli maliyyə sisteminə təsir edən inhisarlar.
3. Planetin təbii ehtiyatlarına çıxışı təmin edən inhisarlar.
4. Kütləvi rabitə və media sahəsində fəaliyyət göstərən inhisarlar.
5. Kütləvi qırğın silahları sahəsində fəaliyyət göstərən inhisarlar." (2, s.26)

Göründüyü kimi dövlətlərin milli təhlükəsizliyi üçün neoimperializmin yuxarıda qeyd olunan inhisarlara qarşı İlham Əliyevin geosiyasi konsepsiyasında keyfiyyətli müdafiə imuniteti yaratması 44 günlük Vətən müharibəsində açıq-aydın hiss olundu. Məhz bu baxımdan "müasir mərkəzlərin texnologiya sahəsində ki, inhisarçılığa" baxmayaraq 44 günlük müharibədə süni intellektə əsaslanan silahlardan istifadə olunması, "dünya miqyasında əhəmiyyətli maliyyə sisteminə təsir edən inhisarların" qarşısını alan qlobal geoiqtisadi layihələrin həyata keçirilməsi, "planetin təbii ehtiyatlarına çıxışı təmin edən inhisarlar" qarşı Bakı-Tbilisi-Ceyhan, TAP, TANAP, Bakı-Tbilisi-Qars dəmir yolu, perspektivdə nəzərdə tutulan Zəngəzur dəhlizi layihələrinin reallaşdırması, "kütləvi rabitə və media sahəsində fəaliyyət göstərən inhisarlar" qarşısında Vətən müharibəsi zamanı dünyanın qlobal informasiya nəhənglərinə Azərbaycan reallıqlarını çatdırılması İlham Əliyevin geostrateji düşüncəsinin sərhədlərini göstərir.

Ərazisində Rusiya hərbi bazaları olan Ermənistanın iqtisadiyyatı da daxil olmaqla, bütün mövcudluq faktorları məhz dövlətin milli iradəsindən kənarda formalaşan resurslarla həyata keçirilir. ABŞ və Qərbin geopolitik hədəfləri altında "əzilmə" təhlükəsi ilə üzləşən Ermənistanın siyasi, iqtisadi resursları Rusiyanın iradəsinə tabe olduğuna görə, Cənubi Qafqazda əhəmiyyətini böyük ölçüdə itirməkdədir. Digər tərəfdən Qərb dövlətləri üçün Ermənistanın Cənubi Qafqazda əhəmiyyətinin azalmasına səbəb Azərbaycanın torpaqlarının işğal dövrü bitənə qədər İlham Əliyevin həyata keçirdiyi geosiyasi və geoiqtisadi layihələrlə bağlı olub. Misal üçün Azərbaycanın Dövlət Başçısı İlham Əliyev Ermənistanı mühüm layihələrdən kənarda qoyulmasından bəhs edərək qeyd edir ki, "Ermənistanı zəiflətmək üçün müxtəlif yollardan istifadə etdik və bütün bu yollar ictimaiyyətə təqdim edilirdi. Biz heç nəyi hansısa məxfi formatda etməmişdik. Demişdim ki, təcrid edəcəyik, etdik, neft kəmərləri, qaz kəmərləri, nəqliyyat yolları Ermənistandan yan keçdi, telekommunikasiya xətləri Ermənistandan yan keçdi, elektroenergetika layihələri Ermənistandan yan keçdi. Ermənistan mümkün olan gəlirlərdən məhrum edildi". (4)

İlham Əliyevin yuxarıda qeyd etdiyi fikirlər onu göstərir ki, Ermənistana qarşı işğal dövrünü əhatə edən dəqiq geosiyasi strategiyaya sahib olaraq nəinki Ermənistanın hətta Cənubi Qafqazın geostrateji mövqeyinə əhəmiyyətli səviyyədə təsir edib. Postmünaqişə mərhələsində "maraqların uzlaşma" siyasətini böyük strateji məharətlə hayata keçirməyin geoiqtisadi əsaslarını (Zəngəzur dəhlizi) yaratmaqla İlham Əliyevin məqsədi Cənubi Qafqazı logistiq mərkəzə çevirmək və region dövlətlərin bu maraq ətrafında birləşməsini təmin etməkdir. Məsələn F. Brayarn qeyd edir ki, "xarici siyasət dövlətlər arasında ümumi mənafedən irəli gələn yaxınlaşmanı həyati tələbata çevirir". (5)
F.Barayarnın yuxarıda qeyd etdiyi fikirlər İlham Əliyevin regionda apardığı geosiyasi və geoqtisadi layihələrin düşünülmüş elmi əsaslara söykəndiyini təsdiq edir.

Bu gün "kifayət qədər təbii sərvətlərə malik olan və ya onları idarə edən hər hansı qlobal güc coğrafi məkanın harasında olursa olsun dünyanı idarə edə bilər" fikri dünya nizamını və imperializmi araşdıran nəzəriyyəçilər tərəfindən elmi dövriyyəyə gətirilir. Beləki imperializm maraqları indi hərbi gücə əsaslanan ərazi fəthi ilə deyil, iqtisadi və mədəni mərkəzli bazarlar əldə etməyə yönəlmiş yanaşmalarla ön plana çıxır. Məhz bu baxımdan XXI əsrdə yüksək iqtisadi dəyər hesab olunan neftə, təbii qaza və ötürücü xətlərə sahib olan Azərbaycan uğrunda qlobal və regional güclər tərəfindən aparılan mübarizəni neytrallaşdırmaq kimi çətin

və mürəkkəb vəzifənin öhdəsindən İlham Əliyev bir strateq olaraq gəlməsi onu göstərir ki, münaqişə və postmünaqişə dövründə bölgənin sabitliyini pozmaq üçün qeyri-obyektiv fəaliyyətlə məşğul olan qüvvələr absurd iddalara yaşayan dövlətlərdi.
Azərbaycan regionun böyük dövlətləri olan Rusiya və İranla qarşılıqlı maraqlar çərçivəsində strateji əməkdaşlığa üstünlük verməklə hər hansı hərbi-siyasi bloka qoşulmadan qonşu dövlətlərlə bərabərhüquqlu münasibətlər sisteminə sahibdir. Lakin Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı qələbədən sonra İranın Cənubi Qafqaza müdaxilə səyləri onu göstərir ki, bölgədə imperiya maraqlarını həyata keçirmək kimi absurd iddalara üstünlük verən dövlətlər var. Məsələn, Azərbaycan Prezidenti İlham Əliyev 4 oktyabrda Cəbrayıl rayonunda çıxışı zamanı İranın bu əsassız ittihamı və şərləmə kompaniyası aparanlardan sübut və fakt tələb edərək qeyd edir ki, "Biz xoş niyyət göstəririk. Amma bu, o demək deyil ki, biz özümüzə qarşı əsassız ittihamları qəbul edəcəyik. Mən bunu burada – Cəbrayılda, bax, burada Araz çayının kənarında deyirəm, Azərbaycan xalqına və bütün dünyaya, bizə qarşı əsassız ittihamlar cavabsız qalmayacaq. Biz bu ittihamları rədd edirik, qəbul etmirik və sübutlar tələb edirik. (4)

İlham Əliyevin yuxarıda söylədiyi açıq bəyənatında müəyyən eyhamların vurulduğunu da nəzərə aldıqda, Cənubi Qafqazda yeni mərhələnin başlanma ehtimalını ciddiyə almağa ehtiyac yaranır. Çünki yeni dünya nizamında regional rola sahib olan Azərbaycan ərazi bütövlüyünü bərpa edərək, Cənubi Qafqazın gələcək perspektivləri ilə bağlı bütün inkişaf faktorlarını öz əlində cəmləşdirib. Məhz bu baxımdan Vətən müharibəsinə qədər və postmüharibə dövründə Azərbaycanın geoiqtisadi baxımdan həyata keçirdiyi layihələr bu regionda maraqları olan bütün siyasi güclər tərəfindən qəbul edilməsi zərurəti ilə üz-üzə qalacaq.

**Ədəbiyyat siyahısı**


1. Nicholas J. Spykman. The Geography of the Peace, New York, Harcourt, Brace and Company (1944) https://archive.org/details/the-geography-of-the-peace-nichoals-spykman-1943-questia/
2. Samir Amin. emperyalizm ve az gelişmişlik. Dicle Üniversitesi Sosyal Bilimler Enstitüsü Sosyoloji Anabilim Dalı, Diyarbakır: 2019
3. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciəti. https://president.az/articles/49798. 01 yanvar 2021, 00:02
4. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Zəngilan rayonunda çıxışı. İlhamhttps://president.az/news/speeche
5. İlham Əliyev Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında iştirak edib. https://president.az/articles/34346


## GƏNCLƏRLƏ SOSİAL İŞİN AKTUAL MƏSƏLƏLƏRİ


**Naib Niftəliyev**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin
baş müəllimi, doktorant



***Açar sözlər**: gənclər, sosial iş, sosial siyasət, cəmiyyət, karyera, davranış, problem.*


Gənclər bütün dövrlərdə və cəmiyyətlərdə dövlətin ən fəal, aparıcı zümrəsi hesab olunurlar. Hazırda dünyada 14-29 yaş arası – yeniyetməlik və gənclik yaşı həddində olan 3 milyarda qədər insan yaşayır (1, s.23). Onların hər birinin xoşbəxt, firavan gələcəklə bağlı

müəyyən nikbin ümidləri - öz həyatlarını, karyeralarını necə qurmaq barədə mütərəqqi düşüncələri mövcuddur. Qloballaşan dünyada gənclərin məşğulluğu, onların bu və ya digər peşəyə, ixtisasa yiyələnmələri, cəmiyyətin sosial strukturunda layiqli yer tutmaları aktual problemlərdən biri hesab edilir. Qeyd etmək lazımdır ki, məşğulluq, karyera, özünü inkişafetdirmə, sosial-siyasi, iqtisadi həyatda mövqetutma məsələləri, şəxsi-işgüzar maraqlar gənclər üçün hər zaman önəmlidir.

Azərbaycan gənclərinə gəldikdə, sosial inkişaf, məşğulluq problemləri, asudə vaxtın necə təşkili, mədəni inkişaf, istirahət və vaxtın düzgün bölünməsi məsələləri onların diqqətini daha çox çəkir. Statistikaya görə, Azərbaycanda 14-29-a qədər olan şəxslərin sayı 2,8 milyona yaxındır (2, s.14).

Müstəqilliyimizin bərpasının ilk illərində Azərbaycan yeni iqtisadi münasibətlərə daxil olduqdan sonra ölkədə əhalinin işlə təminatı ilə əlaqədar müəyyən problemlər yaranmış, gənclərin məşğulluğunun təmin olunması sahəsində müxtəlif çətinliklər meydana çıxmışdır. Bu, əhalinin müəyyən hissəsinin - xüsusən, gənclərin bir qisminin ölkəni tərk etməsinə, iş, yaşayış üçün Rusiya və digər xarici dövlətlərə miqrasiyasına gətirib çıxarmışdı. Azərbaycan hökuməti tərəfindən problemin aradan qaldırılması istiqamətində 2000-ci ildən etibarən dövlət proqramları həyata keçirilməyə başlanmış, məğulluğun təmin edilməsi üçün müvafiq tədbirlər nəzərdə tutulmuşdur. Son illər ölkəmizdə həyata keçirilən sosial proqramlar gənclərin gələcəyə yönələn pozitiv hədəflərinin reallaşmasına, rifah, uğurlu karyera imkanlarının genişlənməsinə əlverişli zəmin yaradır. Fikrimizcə, bu istiqamətdə islahatları dərinləşdirmək, daha geniş miqyaslı tədbirlərin sistemli şəkildə həyata keçirilməsi məqsədəuyğundur. Çünki ölkədə əmək ehtiyatları gündən-günə artmaqdadır. Dövlət Statistika Komitəsinin məlumatlarına görə, gənclər ölkə əhalisinin 25,5%-ni təşkil edir (2, s.16). Başqa sözlə, Azərbaycanda əmək ehtiyatlarının böyük hissəsi məhz gənc vətəndaşlardan ibarətdir.

Gənclərlə sosial iş sosial siyasətin aparıcı qollarından biridir, lakin terminin özü hələ müəyyən edilmiş elmi ifadəyə və bu sahə ilə bağlı hələ dəqiq sərhədlərə malik deyildir. Ancaq bir sıra tədqiqatçıların (məsələn, Xolostova, 2015; Firsov, 2012; Denisova, 2012; Zayinşev, 2002) qeyd etdiyi kimi, gənclərin spesifik sosial problemləri bizi bu problemlərin həlli üçün uyğun olan xüsusi sosial iş texnologiyalarının formalaşdırılması zərurətindən danışmağa məcbur edir (3, s.48-51). Gənclər üçün mühüm olan sosial problemlər arasında narkomaniya, fahişəlik, kriminallaşma və dəyərsizləşmiş sosial uyğunlaşma kimi məsələlər xüsusi vurğulana bilər.

Tədqiqatçı Denisovanın fikrincə, gənclərlə sosial iş üçün özünəməxsus texnologiyaların qurulması problemi, bir qayda olaraq, gənclərin sosial xidmətlərin məcburi müştəriləri olmasından irəli gəlir. Gənclər arasında problemləri həll etmək üçün sosial xidmətə müraciət etmək mədəniyyəti hələ formalaşmamışdır. Məhz bütün bu məsəslələr bizi gənclərlə sosial işin qurulmasına xüsusi diqqət yetirməyə məcbur edir [3, s.78].

Gənclərlə sosial iş kontekstində fərqli nəzəriyyələr və baxışlar özünü göstərir. Aydındır ki, gənclərlə sosial işin əsas nəzəri bazası digər sosial elmlərin ümumi prinsipləri ilə birbaşa əlaqədardır. Bu nəzəriyyələr çərçivəsində vahid konsepsiya işlənib hazırlanmışdır. Məhz bu konsepsiyada gənclərlə sosial işin obyekti, subyekti, məqsədləri, prinsipləri, texnologiyaları təzahür etmişdir (4, s.19-20). Bu kimi nəzəri konsepsiyalar əsasında gənclərlə sosial işin ümumi məqsədləri öz əksini tapmışdır. Bütün bu yanaşmalar əsasında gənclərlə sosial işin məqsədlərini aşağıdakı kimi ifadə etmək mümkündür:

1. Yetkinlik yaşına çatmayan gənclərin cəmiyyətə zidd davranışlarının inkişafını şərtləndirən amillərin aşkar edilməsi,
2. Çətin həyat şəraitinə düşmüş yetkinlik yaşına çatmayan gənclərə təcili kömək göstərilməsi,
3. Elə bir nəticəyə nail olmaq ki, kliyentin sosial işçinin köməyinə ehtiyacı qalmasın (Bu, son məqsəddir),
4. Hər bir gənc adamın inkişafı üçün əlverişli sosial-iqtisadi şəraiti təmin etmək,

5. Şəxsiyyətin sosial baxımdan yetkinləşməsi, onun hər cür sərbəstliyə nail olması və cəmiyyət həyatında tam iştirak etməsinə kömək etmək (5, s.49].

Beləliklə, gənclərlə sosial işin əsas vəzifələri gənclərin öz problemlərini müstəqil həll etməsinə yardımçı olmaqdan, yeni nəsilin bazar iqtisadiyyatının sosial-iqtisadi şəraitinə pozitiv uyğunlaşmasını, müstəqil həyat bacarıqlarına yiyələnmək və ictimai həyatda iştirak etmək bacarıqlarını inkişaf etdirməkdən ibarətdir.

Sosial və humanitar elmlərlə bağlı ədəbiyyatda təsir obyektlərinin sayı baxımından gənclərlə sosial iş üsullarını (metodlarını) 3 səviyyədə fərqləndirmək mümkündür:

1. Fərdi-müştəri ilə fərdi qarşılıqlı əlaqə yolu ilə psixoloji, şəxsiyyətlərarası, sosial-iqtisadi problemlərin həllində fərdlər və ailələrlə işləyərkən tətbiq olunan təcrübə növü (əsas forma məsləhətdir). Fərdi iş zamanı sosial şöbələrlə əlaqə qurmaqda köməklik edilir.
2. Qrup - qrup təcrübəsinin ötürülməsi yolu ilə müştəriyə kömək etmək üçün istifadə olunan iş üsulu. Qrup işi gənclərin sabit bir tərkibinin formalaşmasını, müəyyən bir məkanın və müəyyən bir vaxtın mövcudluğunu ehtiva edən klub və dairə işləri şəklində həyata keçirilə bilər.
3. Sosial icma - bu sahə sosial əlaqələrin qurulması və saxlanması, müəyyən bir ərazinin sakinləri və qurumlarının kəskin gənclik problemlərinin həllinə cəlb edilməsi üçün maksimum şəkildə hazırlanmışdır (6, s.34-35).

Bu gün gənclərlə sosial iş texnologiyalarının ən geniş yayılmış növlərinə aşağıdakılar daxildir:

**Sosial terapiya** - ictimai həyat subyektlərinin (o cümlədən, gənclər) mənəvi-həyat istiqamətlərinin, mənəvi dəyərlərinin anomaliyaları aradan qaldırmaqla bir sıra problemlərin həllinə yönəlmiş elm sahəsidir;

**Məsləhət** - şifahi əlaqə vasitəsi ilə əlaqə qurmaq, müştəri problemlərini müəyyənləşdirmək, həll yollarını tapmaqda kömək etmək və qarşılıqlı əlaqə yaratmaq;

**Art terapiya** - gənci sosial-mədəni işlərə, asudə vaxtın təşkili, yaradıcılıqla bağlı fəaliyyətlərə cəlb etmək, müxtəlif abidələri, mədəniyyət müəssisələrini ziyarət etmək və onlara incəsənət, mədəni istirahət vasitəsilə təsir;

**Musiqi terapiyası** - musiqi mədəniyyətinə, submədəniyyətə, konsertlərə, musiqili kütləvi tədbirlərə, yarışmalara, tematik diskotekalara istinad edərək, şəxsin sosiallaşması, musiqi əsərlərinin müntəzəm şəkildə dinlənilməsi;

**Biblioterapiya** - xüsusi ədəbiyyat seçimi yolu ilə məna - həyat istiqamətlərinin formalaşması prosesində fərdin şüuruna təsir;

**Sosial-pedaqoji texnologiyalar** - sosial işçinin (müəllimin) müştərinin tərbiyəsində və onun mənəvi-həyat istiqamətlərinin formalaşmasında fəal iştirak etməsi;

**Yaradıcı texnologiyalar** - gənclərin kollektiv, yaradıcı fəaliyyətə cəlb edilməsi, fərdi yaradıcılığın inkişafına təkan vermək;

**Loqoterapiya** (yunan dilindən tərcümədə logos - söz, terapiya - qulluq, müalicə deməkdir) – söz müalicəsi metodudur. Sosial loqoterapiya sosial proseslər, həyatın mənası, sosial dəyərlər haqqında insanların fikirlərinə təsir (qarşılıqlı təsir) metodlarını, vasitələrini, təsir yollarını öyrənir (7, s.1-2).

Gənclərlə sosial işin ənənəvi metodları ilə yanaşı, “mobil sosial iş” də daxil olmaqla yeniləri də formalaşmaqdadır. Bu metodun ortaya çıxması istər gənclik mərkəzlərinə, istərsə, sosial müdafiə orqanlarına müraciət etməkdən çəkinən, eyni zamanda, deviant davranışın və aqressivliyin təzahürünə meylli olan gənclərin bu hissəsinə təsir və nəzarət ehtiyacı ilə əlaqələndirilir (8, s.56). Bir qayda olaraq, müxtəlif alt mədəniyyətlərin nümayəndələri bu kateqoriyaya aiddir. Sosial işin prinsipi və məqsədi qanun pozuntularına meylli gənclərin dünyasına fəal şəkildə daxil olmaq məqsədi ilə etibarlı və birgə qarşılıqlı əlaqə yaratmaqdır. Səyyar sosial iş ABŞ-da böyük şəhərlərin küçələrində özünə məskən tapan gənclər qruplarının "əyləncə yerləri"ndə sosial yardım və bu kateqoriyalı gənclərin adaptasiyası ilə əlaqədar

axtarış işləri həyata keçirən şəxslər tərəfindən yaradılmışdır. Beləliklə, sosial iş müxtəlif şöbələrdən, mərkəzlərdən birbaşa küçələrə keçməyə başlamışdır. Qanunsuz davranışa meylli gənclər arasında evsizlərin sayının artması demək olar ki, bütün Avropada küçələrdə sosial işin (səyyar sosial iş və ya mobil sosial iş) sürətlə yayılmasına səbəb olmuşdur. Səyyar sosial işin növlərindən biri gənclər ilə müxtəlif şöbə və qurumların, gənclik mərkəzlərinin və məsləhət mərkəzlərinin daxilində deyil, birbaşa gənclərin mühitində ünsiyyəti özündə cəmləşdirən "küçə sosial işi"dir. Küçə sosial işləri müxtəlif formalarda baş verə bilər: boş vaxtı səmərəli keçirməyin müxtəlif alternativ yollarını təmin etmək, idman tədbirləri təşkil etmək, fahişələrin və narkomanların toplaşdığı avtobuslarda işləmə və s (9, s. 25-27).

Gənclər sosial təcrübədən də göründüyü kimi, müasir dövrdə sosial-iqtisadi və siyasi sahələrində baş verən dəyişikliklər səbəbindən əhalinin ən həssas zümrələrindən sayılır. Müasir gənclik bir tərəfdən cəmiyyətin həyatındakı rolu və yerinin qeyri-müəyyənliyi, digər tərəfdən işsizlik, alkoqolizm və narkomaniya, cinayətkarlıqla yüklənmiş potensial marginallaşma ilə əlaqələndirilir. Son onilliklər ərzində ölkəmizdə müxtəlif sahələrdə baş verən müsbət dəyişikliklər gənclərin cəmiyyətdəki rolunu və yerini dəqiq müəyyənləşdirməyə imkan verir. Bir tərəfdən, gənclər fəal sosial-demoqrafik qrupdur, digər tərəfdən isə onlar mədəniyyət, təhsil, iqtisadiyyatla tanış olduqda və dəyər yönümlərinin formalaşması zamanı sosial uyğunlaşma prosesinin başlanğıcındadırlar.

Gənclik yaş dövrü - aktiv sosiallaşma mərhələsidir. Bu zaman sosial işin əsas məqsədi gənclərə ictimai həyatda qeyri-fəal obyekt statusundan aktiv subyekt statusuna keçməyə kömək etməkdir. Sosiallaşma bir insanın kortəbii, nisbətən yönəldilmiş və məqsədyönlü şəkildə yaradılan yaşayış şəraiti ilə qarşılıqlı əlaqəsində meydana gələn mədəniyyətin assimilyasiyası və ya bərpası prosesində inkişafı, özünü dəyişdirməsidir. Gənclərin sosiallaşması mövcud dəyərlərin müxtəlifliyi ilə bilavasitə əlaqəli olan cəmiyyətin demək olar ki, bütün sahələrində mövcud olan qeyri-müəyyənlik şəraitində baş verir. Xüsusi sosial statuslarına, onlara məxsus psixoloji xüsusiyyətlərinə görə gənclər çətinlikləri çox vaxt müstəqil dəf edə bilmirlər (10,s.41).

Məşğulluğun olmaması (işsizlik) problemi iş təcrübəsinin olmaması səbəbindən gənclərə əmək bazarında tələbatın az olması ilə əlaqədardır. Gənclərin iş təcrübəsinin az olması və ya olmaması onlara əmək bazarında olan tələbatı azaldır. Buna görə də dövlət gənclər siyasətinin prioritet istiqamətləri bunlardır:

- gənclərin sosial təcrübəyə yiyələnməsi, onların potensial inkişaf imkanları barədə maarifləndirilməsi;
- gənclərin yaradıcı fəaliyyətinin inkişafı;
- gənclərin çətin həyat şəraitinin yüngülləşdirilməsi ilə onların cəmiyyətə inteqrasiyasını təmin etmək və s. (11, s.37).

Bu strategiyanın həyata keçirilməsinin bir hissəsi olaraq, sosial işçi mütəxəssis kimi, müəyyən layihələr çərçivəsində sosial rifah yönümlü fəaliyyətlə məşğul olur. Burada onun hədəfi gənclərlə pozitiv, konstruktiv ünsiyyətin qurulması, əyləncə mədəniyyətinin formalaşdırılması, sosial-dəstəkləyici mühit yaratmaqla profilaktik məkanın təşkilidir.

Gənclərlə uğurlu sosial işin təmin edilməsi üçün bu istiqamətdə bir sıra çətin vəzifələri həll etməyə qadir olan, yüksək ixtisaslı mütəxəssislərin hazırlanması vacibdir. Bu, gələcək sosial işçilərin universitetdə hazırlıq səviyyəsinə olan tələbləri artırır. Belə ki, sosial və humanitar yönümlü mütəxəssis mühüm peşə xüsusiyyəti kimi, psixoloji müdafiənin inkişafetdirici təmayülünü bilməli, humanist dəyərləndirməni sosial cəhətdən peşəkarcasına dəstəkləmək qabiliyyətinə yiyələnməlidir. Bütün bunlar gənclərlə effektiv, səmərəli sosial iş üçün zəruridir.

## Ədəbiyyat və mənbələr

1. World Employment and Social Outlook 2015. Geneva, 2021, 156 p.

2. Dövlət Statistika Komitəsinin məlumatları. 31 mart, 2022. (https://www.stat.gov.az/source/demoqraphy/)
3. Луков, В.А. Теории молодежи: междисциплинарный анализ. М.: Канон, Реабилитация, 2012, 430 с.
4. World Employment and Social Outlook 2016: Transforming jobs to end poverty. Geneva, 2016, 102 p.
5. World Social Protection Report 2017–19. Universal social protection to achieve the Sustainable Development Goals. Geneva, 2019, 98 p.
6. Лисовский, В.Т. Социология молодежи – СПб.: Издательство Санкт Петербургского Университета, 1996. – 361 с.
7. Stanly Hall G. Adolescence: Its psychology and its relation to psychology, anthropology, sociology, sex, crime, religion and education. N. Y.: D. Appleton and Company, 1904. Vol. 1–2.
8. Groos K. Zur Psychologie der reifenden Jugend. S. l., 1912, 163 p.
9. Buhler Ch. Das Seelenleben des Jugendlichen. Jena: Fischer, 1927, 104 p.
10. Spranger E. Psychologie der Jugendalters. 25. Aufl. Heidelberg: Quelle & Meyer, 1957, 211 p.
11. Ильинский И. М. Молодежь и молодежная политика. М.: Голос, 2001, 694 с.
12. Павловский В. В. Ювентология: Проект интегративной науки о молодежи. М.: Акад. проект, 2001, 301 с.

# İBN XALDUN TƏLİMİ MÜSƏLMAN ŞƏRQİNDƏ MODERNLƏŞMƏ VƏ REFORMLARIN NƏZƏRİ MƏNBƏYİ KİMİ

**Mahrux Nəcəfli**
fəlsəfə üzrə fəlsəfə doktoru
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işçisi
mahru.abbas@gmail.com

**Açar sözlər:** İbn Xaldun, müsəlman, Şərq, tədqiqat, siyasət, cəmiyyət, tarix, sivilizasiya, nəzəriyyə, islahat

Müsəlman dünyasında canlanma əsasən müasir fenomen kimi Qərbdən gələn çağırışlara cavab olaraq öyrənilib. Əslində müsəlman çiçəklənməsi və ya müasir terminlə "müsəlman renessansı" çox əvvələ, islamın ilk yüzilliyinə aiddir. Bu "renessansı" öyrənmək üçün başlıca nəzəri mənbələrdən biri isə Əbd-əl Rəhman İbn Xaldunun yaradıcılığıdır. İbn Xaldun hazırda həm Qərbdə, həm də müsəlman Şərqində yaxşı bilinən bir müəllifdir. Amma onu daha çox sosial elmlərin xəbərçisi və ya tarixi məlumat mənbəyi kimi təqdim edirlər. «İbn Xaldun həm Şərq, həm də Qərb alimləri arasında ilk dəfə cəmiyyətin obyektiv inkişaf qanunauyğunluqlarını aarşdırmış, soiologiyanın və iqtisadiyyatın əsas elmi prinsiplərini irəli sürmüşdür» **(Səlahəddin Xəlilov. İbn Xəldun – materialist, K.Marks isə idealist simasında//Fəlsəfə və sosial-siyasi elmlər jurnalı.№2, 2009)** İbn Xaldunun əsərləri nəzəri perspektivli resurs olaraq da çox qiymətlidir.

Müasir Qərb tədqiqatlarında İbn Xaldun 14-cü əsrdə yaşamış hüquqşünas və tarixçi kimi tanınır, müasir istorioqrafiya, siyasi və sosioloji təlimlər meynstriminqinə daxil edilir.

Bəs mütəfəkkirin siyasət və cəmiyyət nəzəriyyələrində hələ də qüvvədə olan ideyaları hansılardır? Bu ideyalar Qərbdə Makiavelli, Hobbs, Russo və Hegel fəlsəfələrində araşdırılan məsələlərdir. İdeyaların qarşılıqlı müqayisəsi fərqləri ortaya çıxardığı kimi oxşarlıqlardan da xəbər verir. Qabaqcadan bildirək ki, İbn Xaldunun siyasi güc, dövlət və sosial dəyişmələr anlayışlarını nəzəriləşdirməsi günümüzdə də öz aktuallığını qoruyur.

*İbn Xaldun kimdir*

İbn Xaldun (1332-1406) - Hafsidlər və İfriqyah sülalələrinin baş vəziri, Məmlüklər sülaləsinin baş qazisi Tunisdə doğulub, Zeytun universitetinin məzunudur. O, təhsil, tədqiqat və administrativ bioqrafiyasını səyahətnamə formasında qələmə alıb ki, onun dövrünü detalları və arxa planı aydın öyrənmək üçün qiymətli mənbədir. Həm müəllifin kimliyi, həm də dövr haqda dəqiq məlumat mənbəyi kimi bu əsər çöx qiymətlidir. İbn Xaldunun tarix fəlsəfəsi bu sahədə ilkdir, müasir sosiologiyanın banisi hesab oluna bilər. İnsan cəmiyyətinin inkişafını təbii proses hesab edən, tarixi hadisələri sosioloji və iqlim faktorlarından çıxış edərək izah etməyə çalışan ilk mütəfəkkirdir.

İbn Xaldun təhsil sosiologiyasını xırdalıqlarına qədər araşdırıb və Hafsidlər dövründə təhsillə sivilizasiyanın inkişafı arasında birbaşa əlaqələrin rolunu açıb göstərib. O, ilk tarix filosofu, Makiavelli və Vikonun öncüsüdür.

*Əsas tədqiqat sahəsi*

Sosial struktur anlayışını elmə İbn Xaldun gətirib. Onun tədqiqatları orta əsrlər Aralıq dənizi hövzəsinin şərq və qərb sahələrini, eləcə də Asiyanın bəzi hissələrini əhatə edir. O, biliyin sosiologiyası, bəşəriyyətin yaranandan çöküşə qədər teoloji, metafizik və fiziki səbəblərini araşdırıb və cəmiyyət, dövlət, fərdlər və bəşəriyyət miqyasında sosial dəyişmələr prosesinin vahid üsulunu-imaj təqdim edib. Onun əsas tədqiqat alətlərindən biri belə adlandırılan empirik müdriklikdir. Müqəddimə-də bu anlyışın izahına xüsusi yer ayrılır. Avropa və Qərbdə İbn Xaldunun bu kitabdakı elm tarixi və cəmiyyətdə elmin inkişafı ilə bağlı təsəvvürlərinə dayanan, elmin istorioqrafiyası haqda kitablar çox yazılıb. Ən çox bilinənlərdən biri Sartonun əsəridir**(Sarton, Introduction to the History of Science, III: 1262)**. O, bu kitabda İran, Misir, Dəməşq, Mesopotamiya, Transoxiana, Hindistan, Əndəlüs, Məğrib, İfriqiyədən alimlərin adlarını toplayıb. İbn Xaldunun əsəri İslam sivilizasiyasında elm tarixinin evolyusiyasını həssas və rasional zəmində öyrənir.

Bir məsələni də qeyd edək ki, Müqəddimə sərbəst əsər olaraq tanınıb-öyrənilsə də, Kitabül-İberi təşkil edən 3 kitabın birincisidir. Qaldırılan məsələlərin əhatəliliyi onu müstəqil əsər kimi tanıdıb.

*Tarixi sosiologiya*

Tarixi sosiologiya bir bilik forması olaraq həm nəzəri, həm də insanın öz baxış və davranışını necə dəyişməsini sərgiləyən praktiki əhəmiyyətə malikdir. İbn Xaldunun dahiliyi hələ orta əsrlərdə müasir dövrdə elm sahəsi kimi qərarlaşacaq tarixi sosiologiyanı ən mükəmməl formada təqdim etməsidir. Xaldun hədəf kütləsini izləmək üçün 8 yüz illik sosial dəyişmələr də daxil olmaqla tam arxiv və sənədləşmələr üzərində işləmək üçün xüsusi metodlar- sabit mental əməliyyatlar inkişaf etdirərək abstrakt sosiologiya nümunəsi ortaya çıxarır. Bu sosiologiya müsəlman cəmiyyətlərində gedən sosial proseslərə əsaslanır. Müəllif tarixilik və zamanı öz təliminin arxasında buraxaraq sosial konteksti ön plana çıxarır. Bu, hələ XII əsrdə tarixi sosiologiyanın dəqiq təyinatıdır və 3 müddəada öz əksini tapır:

1. İbn Xaldun Müqəddimə-də humanitar elmlərin nəzəri əsaslarını izah etməklə 7-15ci əsrlər İslam sivilizasiyanı ayrıca tarixi dövr olaraq öyrənir.
2. İbn Xaldunun fikirləri humanitar sahədə bir ilkdir və müasirləri də onun düşüncələrini elə belə dəyərləndirib. O, sivilizasiyanın premodern dövrdən əvvəlki ilk böyük araşdırmaçısıdır.
3. İbn Xaldun sosiologiyanın bir çox mövzu və o cümlədən sosial struktur analyışını ilk olaraq elmə gətirib. Maraqlıdır ki, Xaldunun sosial struktur anlayışı müasir sosiologiyadakının eynisidir. 4 yüz il sonra Spenser bu anlayışı eyni mənada işlədir. XX əsrdən bu yana XXI əsr

də daxil olmaqla humanitar sahənin mütəxəssisləri Müqəddimə- dən humanitar sahə üçün model olaraq istifadə edirlər, sosial strukturun ilkin və əsas anlayışı bu əsərə dayanır.
Burdan belə nəticə çıxarmaq olar ki, İbn Xaldun humanitar sahə üçün bir model və paradiqma rolu oynayır. XX əsrin 2-ci yarısından Frankfurt məktəbi sosial elmlər üçün alternativ model aramaqdadır. İbn Xaldunun modeli ən yaxşı nümunə ola bilər. Bu model təbiət və cəmiyyətin tarixini dəyərlər, din, empirik tətbiqlərə əsaslanan institutlardan çıxış edərək müstəqil, sistematik interpretasiya hesab oluna bilər.

*Tarix elm kimi, çöküş və inkişaf arasında tarixi dinamika*

Günümüzdə elm sosiologiyası aktual sahələrdən biridir. Elmi bilik və gündəlik həyat arasında əlaqə birisiqamətli deyil. Sosial dəyişmələr elmdə də yeniliklərə səbəb olur. Elm sosiologiyası insan, cəmiyyət və elm arasında mürəkkəb münasibətləri araşdırır. Bu da öz növbəsində tarixə elm kimi münasibət formalaşdırır. Yəni, sivilizasiyanın "xəstəlikləri"ni üzə çıxarmaqda kömək edir. Söhbət tərəqqi, cəmiyyət və insan arasında münasibətlərin anlaşılmasından gedir. Modernlik bu bağları dağıdıb və insan öz əvvəlki statusunu itirib. İbn Xaldun sistemində vurğu bu əlaqəyədir. Tarix intellektual elmlər ailəsində təqdim olunur, tarix ədəbiyyatdan qoparılaraq, elm səviyyəsinə qaldırılır, tarixin elm fəlsəfəsi müzakirə obyektinə çevrilir. Tarix insan cəmiyyəti problemlərini öyrənən xüsusi elm sahəsidir və onun məqsədi tarixi hadisələrin dinamikasını başa düşmək, nəticə çıxararaq gələcəyə yönəli planlarda istifadə etməkdir. Tarixi elm səviyyəsinə qaldırmanın faydası cəmiyyətlərin dağılma və yüksəliş dinamikasını eyni əsasda öyrənməklə bağlıdır. İbn Xaldun tarixdə sisvilizasiyaların inkişafı ilə bağlı öz dialektik modelini ortaya qoyur.
İbn Xaldunun tarix nəzəriyyəsi empirik ağla əsaslanır, induksiyadan tarix elmində istifadə inqilabi xarakterlidir və özündən əvvəlki islam sivilizasiyası ənənələrinə, o cümlədən, ilk növbədə Əl-Fərabi, İbn sina, İbn Rüşdün sosial fəlsəfəsi və epistemoloji görüşlərinə dayanır. İbn Xaldunun sisteminin epistemoloji yükü ilə yanaşı, teleoloji və ontoloji yanaşma bir bütün şəklində çıxış edir. Onun fikrincə, müdriklik, tarix, cəmiyyət, bilik arasında qarşılıqlı əlaqə var. Bu sadaladıqlarımızın maddi kökləri ilə yanaşı metamaddi və sosial qaynaqları da var. Onun təliminin orijinallığı həm Avropa, həm də Amerika mənbələrinin çoxunda etiraf olunur. Geniş sosiologiya terminləri sözlüyü onun bütövlükdə humanitar elmlər sahəsinə böyük ərməğanıdır.
İbn Xaldun Müqəddimə-də yeni bir elm, öz deyimi ilə "ilmül-ümrani-bəşəri"(insanların sosial təşkili elmi) və ya "ilmül-ictimai-insani"(insan cəmiyyəti elmi) yaratdığını söyləyir. Xaldun özündən əvvəlki tarixçilərdən fərqli bir tarix anlayışı ortaya çıxarır. Burda tarixin bir elm kimi metodologiyası, qaynaqları, əldə olan materialın işlənməsi və xüsusən səbəb-nəticə əlaqələri baxımından təqdimi və analizi kimi məsələlər əhatə olunub. İbn Xaldun sələflərini qaynaqlara tənqidi münasibət bəsləməməkdə, sadəcə tarixi hadisələri sadalayaraq onlar arxasında duran səbəblər və dəyişimləri gözardı etməkdə günahlandırır. Onun Müqəddimə-də qarşısına qoyduğu əsas məqsədlərdən biri bu dəyişmələri araşdırmaqdır. Xüsusən, dövlət bir ictimai qurum olaraq bütün aspektləri ilə- yaranışdan tənəzzülə, eləcə də idarə şəkillərinə görə diqqət mərkəzindədir. Kitabda ümran sosial təsisat olaraq bütün elementləri ilə birgə, bədəvi icması, dövlət, sultanlıq, yerli icma (el-ümranül-hadari) , sənətkarlıq və başqa fəaliyyət formaları, eləcə də elmlər və onların tədrisi kimi məsələlər əhatə olunur.

*Dövlət nəzəriyyəsi*

İbn Xaldun tarixi araşdırmanın metodoloji üsullarını təklif etməklə yanaşı, epistemoloji məsələlərə də toxunur. Dövlətlərin yüksəliş və çöküş nəzəriyyəsini irəli sürür. Onun əsas xidmətlərindən biri sosial struktur elementlərini konseptuallaşdırmaqdır. Sosial təsisatları bir-birindən fərqləndirir, idarəetmə şəklinin (məsələn, xilafət və ya sultanlıq) sosial dayanışmaya təsirini araşdırır. İbn Xaldun nəzəriyyəsinin maraqlı anlayışlarından biri asabiye- qəbilə dayanışması anlayışıdır. Onun fikrincə, ancaq asabiyəsi güclü olan bir toplum daha zəif dayanışmaya sahib toplum üzərində ağalıq qura bilər. İbn Xaldunun izahında asabiyə ümumi

soykökü olmasına inanan qrup üzvləri arasında yaranan həmrəylik hissidir. Bu hiss güclü olduqca köçəri xalqların şəhərlərdə özlərinə məskən salıb yurd qurmaq, yerli xalqa qalib gəlmək imkanları güclü olur. Köçəri qəbilə şəhərə yerləşib yeni bir xanədan qurunca, bu işi həyata keçirən təbəqə idarəedici sinif statusu alır. İbn Xalduna görə, hər kəsin ortaq şan və şərəf anlayışı olan bir vəziyyətdən yenisinə keşid baş verir: ikinci nəsil məhrumiyyətdən lüks həyata, bütün şan və şərəfin bir nəfərə aid olduğu iddia olunan bir həyata qədəm qoyur. "xanədanlığın əvvəlində az vergidən çox gəlir götürülür. Xanədanın sonunda çox sayda vergidən az gəlir əldə olunur" **(Mugaddimah, III 36, p. 230).** Əvvəlki həmrəylik itirilərək, tənbəllik baş qaldırır və bu şəkildə yerli xalqın təsirinə düşürlər. Həmrəylik-asabiyenin azalması əsgəri gücün və hakimiyyətin möhkəmliyini zəiflədir. "Onlar səhra həyatının adətlərini unudurlar... onların hərbi gücü zəifləyir, gücləri azalır və möhkəmlikləri sarsılır." **(Mugaddimah, III 11, p.135).** Burda İbn Xaldunun reform anlayışını yozumu meydana çıxır. Şəhərləşmə öncəsi bədəvilər və oturaq həyata keçmiş qəbilələr arasında münaqişələr sadəcə şəhər və şəhər həyatının meydana çıxardığı lüks və prestijdən qaynaqlanmır. Bədəviləri hərəkətə keçirən əsas səbəb reform istəyidir. Bu sayədə şəhər həyatının həddən ziyadəlikləri ötəri bir zaman da olsa, aradan qalxır.

Reformlar dövri xarakterlidir. Yəni bir qəbilə bir xanədanı məğlub edib özünkünü qurar və şəhəri yağmalamağa can atan qəbilələrin dəstəyinə sahib reform düşüncəli yeni lider tərəfindən devrilənə qədər hakimiyyətini sürdürər. Əxlaqi aşınmanın əsas səbəbi şəhər həyatının lüksləridir.

İbn Xalduna görə, sadə xalq hər zaman hakim avtoritar iqtidar ilə bu düzəni aradan qaldırmaqda israrlı dini liderin yönləndirdiyi qana susamış qəbilə xalqının hücum ehtimalı arasında sıxışıb qalır. İbn Xaldun bu dövriliyi əbədi hesab edirdi.

*İbn Xaldunun inkişaf nəzəriyyəsi*

İbn Xaldunun inkişaf nəzəriyyəsi mutidisiplinar və dinamikdir. Bu nəzəriyyəyə görə, iqtisadiyyat və ya cəmiyyətin inkişafı, ya da tənəzzülü bir faktordan yox, faktorlar cəmindən asılıdır: uzun tarix boyunca mənəvi, sosial, iqtisadi, sosial, siyasi və tarixi faktorların qarşılıqlı təsirindən. Bu faktorlardan biri tətikləyici rolu oynayır. Digərləri eyni istiqamətdə cavab verərsə, inkişaf və ya tənəzül qaçınılmaz olur.

İbn Xaldunun islam oyanışı təlimindən bəzi nəticələr çıxarmaq mümkündür:

Rejim dəyişməsi mənasında dini oyanış yeni bir idarəedici siniflə birlikdə meydana çıxır;

Dini oyanış qəbiləçilik, sinif və etnik mənsubiyyət anlayışını ötər. Yəni dini əsasda dayanışma bu mənsubiyyətlərdən daha güclüdür, amma güclü qəbilənin din anlayışına uyğundur;

Dini oyanışın qaynağı lüks və daha sadə həyat tərzləri arasında ziddiyyətlərdir;

Dini oyanış hələ institutlaşmamış qəbilə din anlayışı ilə şəhərlərdə təşkilatlanmış din anlayışı arasında meydana çıxır;

Dini təcrübə fərdi və psixoloji təzahürlərdən kənar həmrəylik funksiyası yerinə yetirən sosioloji fenomendir.

Qeyd etdiyimiz kimi, İbn Xaldun ən çox müzakirə olunan mütəfəkkirlərdən biridir. Müasir ərəb dünyasında da onun ideyaları diskussiya mərkəzindədir. Əsas səbəblərdən biri İbn Xaldunun böhran dövründə yaşaması və müasir ərəblərin indiki vəziyyətləri ilə o dövr arasında bənzərlik tapmasıdır. Üstəlik, İbn Xaldunun bir düşüncə adamı kimi Qərbdə öz təsdiqini tapması onun ideyalarının müsəlman Şərqində müzakirələrinə meydan açmış olur. Hələ 19-cu əsrdən başlayaraq onun əsərlərinə çoxsaylı interpretasiyalar meydana çıxıb. Pan-islamistlər, milliyyətçilər, sosialistlər və başqa ideologiya tərəfdarları öz yozum variantlarını ortaya qoyurlar.

İbn Xaldunun ideyaları Azərbaycanda həyata keçirilən reformaların nəzəri mənbəyi kimi də çox qiymətlidir. Zira "xalqın mənəviyyatı, etik dəyərləri, dini inancları, milli-irsi kodu ilə uzlaşmayan iqtisadiyyatın, biznes və işgüzarlığın gələcəyi ola bilməz; hər bir iqtisadiyyat o vaxt səmərəli və perspektivli ola bilər ki, xalqı əsrlər boyunca yaşatmış əhəmiyyətli

dəyərlərdən, əxlaqi-mənəvi xəzinədən qidalansın, bu xəzinəyə münasibətdə özgələşməsin”. **(Əbülhəsən Abbasov. Azərbaycanda uğurlu islahatlar naminə- Yapon möcüzələrinin banisi Sibusava Eydzi haqqında nə bilirik? Aktual.az, 30 Aprel, 2018)**

**İstifadə olunmuş ədəbiyyat siyahısı**


1. Əbülhəsən Abbasov. Azərbaycanda uğurlu islahatlar naminə- Yapon möcüzələrinin banisi Sibusava Eydzi haqqında nə bilirik? Aktual.az, 30 Aprel, 2018;
2. Ibn Khaldun. The Mugaddimah. An Introduction to History. Translated from the Arabic by Franz Rosenthal, Bollingen Series/Princeton;
3. Sarton, Introduction to the History of Science, III: 1262;
4. Səlahəddin Xəlilov. İbn Xəldun – materialist, K.Marks isə idealist simasında//Fəlsəfə və sosial-siyasi elmlər jurnalı.№2, 2009


# İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNİN SİYASİ TƏHLÜKƏSİZLİYİN TƏMİNİNDƏKİ ROLU


**Həbib Hüseynov**

fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Təhsil şöbəsinin müdiri
habib.huseynov@gmail.com



**Açar sözlər:** informasiya təhlükəsizliyi, siyasət, hüquq, tədqiqat, döyüş, hərb


Müasir informasiya cəmiyyəti informasiya təhlükəsizliyi sahəsində mövcud və potensial münasibətləri, habelə fəaliyyətləri tənzimləmək məqsədilə müvafiq institutların və nəzəri-konseptual sənədlərin hazırlanmasının qayğısına qalır. Dövlətin informasiya siyasətinin yaranmasını da belə bir zərurət səbəbləndirir. Dövlətin informasiya siyasəti dedikdə, dövlət orqanlarının informasiya sektorunun inkişafına yönəlmiş tənzimləyici fəaliyyəti başa düşülür. İnformasiya sektoru telekommunikasiya, informasiya sistemlərini və kütləvi informasiya vasitələrini, habelə hər növ (işgüzar, əyləncəli, elmi-tədris, xəbər və sair) informasiyaların yaradılması, mühafizəsi, işlənilməsi, nümayişi, ötürülməsi ilə bağlı istehsalın və münasibətlərin məcmusunu əhatə edir. Tədqiqatçı-alim Xalid Niyazovun fikrincə, Bu siyasətin həll etdiyi vəzifələr çərçivəsində KİV-in fəaliyyətində birmənalı olaraq önə keçən fərdi, cəmiyyət və dövlət maraqlarının uzlaşdırılmasına və tənasübünə yönəlmiş bütöv bir təşkilati, hüquqi, iqtisadi və texnoloji tədbirlər kompleksini fərqləndirmək mümkündür. Əsas məqsəd kütləvi informasiya vasitələrinə elə bir şəraitin yaradılmasıdır ki, onlar cəmiyyətin və sosial təsisatların obyektiv şəkildə məlumatlandırılması kimi imperativ funksiyalarını effektiv və keyfiyyətli şəkildə yerinə yetirə bilsinlər. Fikir, söz və məlumat azadlığı, sərbəst düşüncə kütləvi informasiya vasitələrinin və bütövlükdə müasir informasiya cəmiyyətinin söykəndiyi əsas dəyər və məqsədlərdir (Niyazov,2015:70). Kütləvi informasiya vasitələri hakimiyyətin fəaliyyəti haqqında cəmiyyətin məlumatlandırılmasını və ictimai fikrin ifadə olunmasını təmin edən təsirli vasitədir. Və kütləvi informasiya vasitələrinin bu xüsusiyyətləri onları

dövlətin informasiya siyasətinin mühüm sosial institutlarından birinə çevirir. Eyni zamanda informasiya təhlükəsizliyinə əməl edilməsinə zərurəti artırır.

İnformasiya təhlükəsizliyi problemlərinə qədim dövrlərdə rast gəlirik. Düşmənə hərbi olmayan vasitələrlə təsirin izlərini ibtidai icma quruluşunda tayfalararası toqquşmalarda, quldarlıq dövlətlərinin təcrübəsində də izləmək olar.

E.ə.III minilliyə dair Şumer abidələrində qeyd olunur ki, onlar Arratada şumerlərin qeyri-adı güclü olması haqqında şaiyələr yaymaqla onlardan çoxlu xərac almışlar (Леваков, 2003:43).

Qədim Çində də informasiya mübarizəsinə üstünlük verirdilər. Təsadüfi deyil ki, informasiya qarşıdurmasının elmi əsaslandırılması Konfutsi və Sun – Szinin adı ilə əlaqələndirilir. Sun – Szi hərbi qarşıdurmada düşmənə psixoloji təsir etməyi bir nömrəli vəzifə hesab edirdi. O, "Hərbi mədəniyyəti haqqında kitab" əsərində yazırdı: "Döyüşlərdə yüzlərlə qələbə qazanmaq peşəkarlıq deyil. Düşmənə döyüşsüz qalib gəlmək peşəkarlıqdır". O, müharibəni "hiylə yolu" adlandırıb yazırdı: "Buna görə də müharibədə o kəs qalib gəlir ki, müharibəni döyüşsüz udur". Buna nail olmaq üçün "düşmənin planlarını alt – üst etmək", "ittifaqını parçalamaq", "sonra qoşunu məhv etmək "tələblərini qoyurdu (История политических и правовых учений,1996:178).

Makedoniyalı İsgəndər də, müharibələrdə hərbi qüvvələrin musiqi sədaları altında hərəkətini təşkil edir, maskalanmadan istifadə edirdi.

İntibah dövrü müəlliflərindən H.Makiavellinin əsərlərində informasiya təhlükəsizliyi problemlərini görmək olur. O, müharibələrdə düşmənin dezinformasiya fikrini irəli sürürdü (Маккиавели, 1939:112).

Orta əsr Şərq mütəfəkkirlərindən Xacə Nizaməlmülkün "Siyasətnamə" əsərində informasiya təhlükəsizliyi problemlərinə rast gəlinir. Onun fikrinə görə şah ölkədə baş verən bütün proseslərdən xəbərdar olmalıdır, casuslardan istifadə etməlidir ki, onlar xalqın həyatı haqqında dövlətə ətraflı məlumatlar versinlər. Bu gizli təxribatlardan qorunmağın yoludur ki,bununla şah öz hakimiyyətini və eləcə də ölkədə stabilliyi qoruyur.O,yazırdı "beləliklə şahdan heç bir şey gizli qalmamalıdır;" bir iş baş versə, yenidən baş qaldırsa, vaxtında tədbir görülməlidir" (Nizamülmülk, 1987:79).

Yeni dövrdə dövlət xadimlərindən Napoleonun adını çəkmək olar ki, məhz hərbi şəraitdə informasiya qarşıdurması nəzəriyyəsi onun adı ilə bağlıdır. O, deyirdi: "Dörd qəzet daha çox ziyan verə bilər, nəinki yüz minlik qoşun". O, hesab edirdi ki, mətbuat yalnız onlara əmr edilən şeyi yazmalıdır, əks halda isə susmalıdır. O, hücum etməzdən əvvəl qoşunları haqqında şişirdilmiş şaiyələr yayırdı.

XIX əsrin filosoflarından F.Nitşenin də əsərlərində informasiya təhlükəsizliyi məsələlərinə toxunulur. O, bildirir ki, əhali arasında dövlətə inam hissi olmalıdır. Onun fikrincə insanların məqsədləri çılpaqlaşanda və simasızlaşanda cəmiyyət və dövlət üçün təhlükələr yaranır. Göründüyü kimi istər dövlət xadimləri,istərsə də mütəfəkkirlər informasiya təhlükəsizliyi məsələlərinə daim öz əsərlərində toxunmuşdurlar.Ancaq bu problemin daha ətraflı tədqiqi məhz XX əsrə təsadüf edir . Məhz bu dövrdən başlayaraq informasiya təhlükəsizliyi anlayışına ayrıca tədqiqat obyekti kimi yanaşmışdırlar.Müasir dövrdə Azərbaycan filosofu A.Vəliyev informasiya təhlükəsizliyi ilə bağlı yazaraq onun aktuallığını KİV-in siyasi proseslərə, hakimiyyətə, insanların şüur və psixikasına artan təsiri ilə müəyyənləşdirir. İnformasiya təhlükələrinin həm daxildən, həm də xaricdən qaynaqlandığını bildirir. O həmçinin informasiya təhlükəsizliyinin siyasi təhlükəsizliyin təminindəki rolunu aydınlaşdırır (Велиев, 1995:13). Onun bu araşdırmaları göstərir ki, informasiya təhlükəsizliyi geniş məna kəsb edərək milli təhlükəsizliyin digər elementləri ilə sıx bağlıdır .

Azərbaycan politoloqu A.Piriyev informasiya təhlükəsizliyi problemlərini tədqiq edərək göstərir ki, informasiya təhlükəsizliyi siyasi, hüquqi qurumlar tərəfindən təmin edilir, dövlətin milli maraqlarının, milli təhlükəsizliyinin qorunması informasiya təhlükəsizliyinin

təmin edilməsindən asılıdır. O, Azərbaycan Respublikasında informasiyanın inkişafını aşağıdakı sahələrin inkişafı ilə sıx əlaqələndirir:

- elmin və istehsalat texnologiyalarının inkişafı;
- mİlli elm – texniki potensialın inkişafı;
- informasiya yayımının və qəbul edilməsinin elmi-metodoloji cəhətlərinin hazırlanması;
- idarəetmə və təhsil sahələrinin elmi informasiya ilə təmin olunması. (Hacıyeva, 2015:49)

Digər tədqiqatçı-alim Firuzə Əliyeva Azərbaycanın informasiya təhlükə-sizliyindən yazaraq göstərir ki, informasiya təhlükəsizliyi siyasəti dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına, habelə informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlərin həyata keçirilməsindən ibarətdir (Əliyeva, 2008:60).

Rus politoloqu İ.A.Aleksensevin fikrincə,informasiya təhlükəsizliyi informasiya mühitinin elə bir vəziyyətidir ki, informasiya münasibətlərinin subyektlərinin informasiyaya olan tələbatlarını ödəməklə bərabər bu subyektləri və informasiyanın özünü neqativ informasiya təsirlərindən qoruyur. L.B.Skvorsov və S.B. Zarubin Rusiya politologiyasında mütəxəsislərin informasiya təhlükəsizliyi anlamına yanaşmalarını belə sistemləşdirir:

- informasiya mühitinin vətəndaşların, təşkilatların və dövlətin maraqları naminə qorunmasıdır;
- informasiyanın gizlilik, bütövlük və əlyetərliyinin qorunması;
- informasiya mühitinin daxili və xarici təhlükələrdən qorunması və s.

Göründüyü kimi bu yanaşmalar bu və ya digər şəkildə informasiya təhlükəsizliyi anlayışının mahiyyətini üzə çıxarır və onun milli təhlükəsizlik sistemindəki rolunu göstərir. (Hacıyeva,2015:29)

Qərbi Avropa və ABŞ tədqiqatçıları və siyasi xadimləri də milli təhlükəsizlik, informasiya təhlükəsizliyi problemləri ilə məşğul olaraq və bu sahədə sanballı nəzəriyyələr və tədqiqat işləri aparmışdırlar. Bu sahəni onlar milli maraqlar, informasiya müharibəsi və informasiya cəmiyyəti aspektində tədqiq etmişlər. H.Kissincer milli təhlükəsizliyin millətin həyat tələbatının ödənilməsindən ibarət olduğunu bildirirdi. "Soyuq müharibə"nin ideoloqlarından olan Bzerjinski isə informasiya müharibələrində yalnız o dövlətin qalib gələcəyini göstərirdi ki, həmin dövlətin informasiyanı toplayan, emal edən və yayan texnologiyaları və təhlükəsiz informasiya məkanı olsun. Müasir dövrdə "noosiyasət" anlayışı meydana gəlmişdir ki, onun əsasını fransız alimi Teyar de Şarden qoymuşdur. Tədqiqatçı-alim Ruhəngiz Hacıyeva yazır ki, noosiyasət – siyasi hakimiyyətin elə bir formasıdır ki, o, noomühitlə - ən geniş informasiya mühiti ilə,yəni kibermühitlə və infomühitlə (kibernetika və KİV) qarşılıqlı əlaqədə yaranır. Bu istiqamətdə informasiyadan, informasiya texnologiyalarından siyasi konsepsiyaların qurulmasında istifadə etməyi nəzərdə tutur. İnformasiya təhlükəsizliyi ilə bağlı bir neçə problem realist və neorealistlərin fərdi nəzər nöqtələri ilə əlaqədardır. Realizm məktəbi informasiya təhlükəsizliyi ilə bağlı danışarkən, təhlükəsizlik anlayışını gücə bərabər tutan mövqeyi müdafiə edir. Bu, informasiya təhlükəsizliyi anlayışına yanaşmalar arasında ən əsassız olanıdır və yalnız dövlətlərin güc əldə etmək üçün savaşdığı dünya müharibələri dövrünə uyğun gəlir. Müasir dünyada informasiya təhlükəsizliyi sistemlərinin artım prosesinin mürəkkəb və çoxtərəfli proses olduğunu nəzərə alsaq, B. Buzanın "İnsanlar, dövlətlər və qorxu" adlı kitabında təsdiq etdiyi kimi, qeyd olunan baxışın tamamilə köhnəldiyini söyləmək olar. Neorealist nəzəriyyəsinə əsaslanan Buzan informasiya sistemlərinin idarə olunması ilə bağlı ənənəvi realist baxışın zəif nöqtələrinə qarşı çıxırdı. (Hacıyeva,2015:20)

Realizm informasiya təhlükəsizliyinin idarə olumasında problemlər yaradır, çünki o əsas diqqəti milli informasiya təhlükəsizliyinə yönəldərək və böyük siyasətdən istifadə edərək, böyük güclərin əlaqələrini təmin etməyi nəzərdə tutur. Belə sistemlər siyasətçilərdən

fikirlərinə əsaslanaraq, informasiya təhlükəsizliyi sahəsində milli təhlükəsizlik məsələsini ön plana çəkirlər. Bu, dünya siyasətinin getdikcə artan qarşılıqlı əlaqəsinin dövlətlərarası siyasi təsir və iqtisadi qloballaşma vasitəsilə yanlış anlaşılmasıdır. Burada hətta superdövlətləri belə zəif dövlətlər qarşısında gücsüz vəziyyətdə qoyan aspektlərdən söhbət gedir. Realizmin informasiya təhlükəsizliyi məsələsinə baxışı liberallaşaraq demokratik olmağa çalışan dövlətlərin bütün səylərini boşa çıxarmağa yönəlmiş və bu yöndə inamla hərəkət edən düşüncə sistemidir. Təhlükəsizliyin idarə olunması üzrə bu sistemin ağır fəsadlarını Mirshaymer tutarlılıqla göstərmişdir. Misrhaymerə görə, dünya müharibəsi Almaniyaya qarşı birləşmiş kapitalist dövlətlərin öz informasiya təhlükəsizliyi maraqlarını qoruma istəklərinə əsaslanırdı.

Realizmdə informasiya təhlükəsizliyi heç vaxt öz kulminasiyasına çatmır, çünki dövlətlər həmişə başqalarının onlar üçün təhdid olduğunu düşünür. Belə şəraitdə, onlar aqressiv şəkildə başqalarını qabaqlamağa çalışır və bununla həm dünyanı birgə yaşayış üçün həddən artıq təhlükəli edir, həm də informasiya təhlükəsizliyi sistemlərini risk qarşısında qoyurlar. Misal üçün Napoleon dövrünün Fransasını, Vilhelm dövründəki Almaniyanı, ABŞ və Britaniyanın yüksəlişini örnək göstərən Mirshaymer, belə halların fəsadlarının ağır olduğunu, əsas səbəbin isə güc əldə etmək istəyi olduğunu yazır. Dünya informasiya təhlükəsizliyinin belə realistik qavranılması və anarxiya olaraq qəbul edilməsi sözügedən vəziyyətlərin ortaya çıxmasında müştərək rol oynayır. İnformasiya təhlükəsizliyinə realistik baxışa malik olmaqla, dövlətlər tarixə "ilişib qalır" və bir-biri ilə ədavət apararaq, qarşılıqlı şübhə ilə yaşayır, nəticədə isə, inkişafa daha az diqqət yetirirlər. Bu növ informasiya təhlükəsizliyi qavrayışı artıq uğursuqluğa uğramışdır, çünki hökmran dünya dövlətləri də daxil olmaqla, bütün dünya tam müstəqilliyi əldən vermiş və liberalizmin hökmranlığı qaçılmaz olmuşdur (Hacıyeva, 2015:24).

Beynəlmiləl təşkilatların inteqrasiyası, ticarət və qlobal kommunikasiya sahəsində fəaliyyət göstərən beynəlxalq qurumların mövcudluğu informasiya təhlükəsizliyi anlayışına mülayimlik xüsusiyyəti qazandırmışdır və belə şəraitdə sərt güc tətbiqi qeyri-mümkün olmuşdur. Bu fenomenlər neoliberalizm düşüncə tərzinin sürətlə yayılmasına və fərqli motivlər, fərqli yanaşmalarla da olsa, təkrarlanmasına yol açmışdır.

Qeyd edək ki, hər bir cəmiyyət informasiya təhlükəsizliyini ümumi milli təhlükəsizliyin vacib komponenti hesab edir. İnformasiya təhlükəsizliyi mövcud informasiya mühitinin potensial təhdid və təhlükələrdən qorunmasıdır. Tədqiqatçılar "informasiya təhlükəsini" dövlət, cəmiyyət, sosial qruplar və fərdlərin informasiya resursları və informasiya axınlarının kifayət qədər insanların psixikasına, fərdi və ictimai şüuruna, həmçinin kompüter şəbəkəsinə və informasiyanın digər texniki mənbələrinə mənfi təsirdən "Qorunmaq, informasiya təhlükəsinə qarşı durmaq üçün müdafiə olunmasını təmin etmək üsulu" kimi səciyyələndirirlər. Azərbaycanda vətəndaş cəmiyyətinin qurulması, XXI əsrin modernləşmə və qloballaşma çağırışlarına uyğun olaraq vətəndaş-cəmiyyət-dövlət üçlüyünün inkişafında informasiya resursları və texnologiyalarının rolunun artması vəzifələri, apriori, milli təhlükəsizliyin təmin edilməsi sistemində informasiya təhlükəsizliyinin rolunu da ön mövqeyə çıxarır. Belə bir zəruriyyət özündə bir sıra özünəxas işlək istiqamətləri ehtiva edir: - milli maraqlar, onlara qarşı mümkün təhdidlər və bu təhdidlərdən müdafiənin təmin olunması informasiya və informasiya mühiti üzərindən ifadə edilir, reallaşdırılır və həyata keçirilir; - insan və onun hüquqları, informasiya və informasiya sistemləri – bu, təkcə informasiya təhlükəsizliyinin obyekti olmaqla qalmır, eyni zamanda təhlükəsizlik anlayışının ehtiva etdiyi bütün sahələrin obyektlərinin əsas elementi kimi çıxış edir; -milli təhlükəsizliyin qarşısında duran vəzifələrin həlli aparıcı elmi-təcrübi metod kimi informasion yanaşmadan istifadə ilə bağlıdır; -milli təhlükəsizlik probleminin özü belə kifayət qədər bariz ifadə olunmuş informasion xarakter daşıyır (Niyazov, 2015:26). Buna görə də təsadüfi deyildir ki, informasiya təhlükəsizliyinin möhkəmləndirilməsi Azərbaycan Respublikasının milli

təhlükəsizlik konsepsiyasında ən mühüm və uzunmüddətli vəzifələrdən biri kimi bəyan edilmişdir.

**İstifadə edilmiş mənbələr**

Hacıyeva R. Azərbaycan Respublikasının informasiya təhlükəsizliyinin tədqiqinin siyasi aspektləri. Bakı, 2015, -146 s.
Əliyeva F. Qloballaşma və Azərbaycanın milli təhlükəsizlik fəlsəfəsi. Bakı: Səda, 2008. -163 s.
Niyazov X. İnformasiya azadlığı və informasiya təhlükəsizliyi: milli təhlükəsizlik kontekstində.Bakı, 2015, -274 s.
Nizamülmülk.Siyasətnamə.Bakı, Elm,1987, -212 s.
Велиев А.Ю. Политическая безопасность как составная часть национальной безопасности // Hərbi bilik, 1995, №3, с.35-42
Леваков А. Кибербезопасность по-американски. «Известия», 5 мая 2003. — http://www.izvestia.ru
История политических и правовых учений. М.: Инфрам, 1996. -480 с.
Макиаввели Н. О военном искусстве: Пер.с итал. М.: Воениздат,1939.-181с.

# İQTİSADİYYATDA GENDER TƏMƏLİ

**Həcər Abdallı**
fəl.f.d., dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi
hecerabdalli@mail.ru

**Açar sözlər:** iqtisadiyyat, gender, qadın, kişi, əmək bölgüsü, iş, hüquq

Bu gün dünyanın ən çox diqqət yetirilən məsələlərindən biri də qadın və kişi arasında bərabərlik problemidir, lakin bu problemin gündəlik məsələdən siyasətə və təcrübəyə keçməsi üçün qadın və kişilərin cəmiyyətə verdikləri faydanı dərk etmək lazımdır.

Təhsil qadınların bilik əldə edə bilməsi, professional hazırlıqlı olması və ümumdünya həcmində iqtisadi inkişaf prosesində iştirak etməkdə öz gücünə inam hiss etməsi üçün ən vacib vasitədir.

Təhsilli qadınlar gec ailə həyatı qurur, uşaqların sayının az olmasına çalışırlar. Onlar kontrasepsiya (lat. contraceptio-hamiləliyən qarşısını alan) metodlarından effektli istifadə edirlər və öz həyatlarını iqtisadi cəhətdən yaxşılaşdırmaq üçün geniş imkanlardan istifadə edirlər.

Son 10 illikdə ibtidai təhsilin vacibliyinin qiymətləndirilməsi sayəsində qadınlar arasında savadlılıq Latın Amerikasının, Şərqi və Cənubi Asiyanın əksər ölkələrində ən azı 75% artmışdır. Lakin hələ də Asiyanın bir sıra rayonlarında və Afrikanın bir çox ölkələrində savadsız qadınlar çoxluq təşkil edir. Savadsızlığın səviyyəsi artıq olanda isə, qadınlar və kişilər üçün göstəricilər xeyli fərqli olur (Vəliyev, 1999:35).

Ali təhsil sahəsində bir çox regionlarda qadınlar ya kişilərlə bərabər, ya da onlardan yaxşı vəziyyətdədirlər. İnkişaf etmiş regionlarda ali təhsil sahəsində qadınların sayı daha çoxdur (Şərqi Avropa, Latın Amerikası, Karib hövzəsi və Qərbi Asiyadan başqa). Digər regionlarda ali təhsilli qadınların sayı ali təhsilli kişilərin sayından çox azdır. Afrika və Cənubi Asiya ölkələrində isə ali təhsilli qadınların ali təhsilli kişilərə olan nisbəti belədir: 100 ali təhsilli kişiyə 35 ali təhsilli qadın.

**Əmək sahəsində imkanlar.** Ali təhsil sahəsində nailiyyətlər əldə etdiklərinə baxmayaraq, qadınlar öz təhsil səviyyələrindən istifadə edərək sosial və iqtisadi vəziyyətlərini yaxşılaşdırmağa çalışdıqları zaman ciddi maneələrlə üzləşməli olurlar. Məsələn, işgüzar aləmdə qadınlar ali rəhbər vəzifələrdən yalnız 1-2%-ni tuturlar, lakin inzibati və idarəedici vəzifələrdə işləyən qadınların sayı isə son onilliklərdə Avropadan başqa bütün regionlarda 16%-dən 33%-ə qədər artmışdır (Ailə.Qadın.Uşaq. jurnal, 2016, №18:23).

İki ən iri professional qruplar daxil olan və yüksək ixtisas dərəcəsi tələb edən tibbi işçilər və müəllimlər arasında qadınlar bir çox ölkələrdə üstünlük təşkil edirlər. Lakin onlar bu sahənin aşağı pillələrində və azmaaşlı işlərdə məşğuldurlar.

Müxtəlif ölkələrdə işləyən Kənd Təsərrüfatının elmi-tədqiqat institutlarının işçiləri arasında tədqiqatçılıqla bağlı olmayan vəzifələrdə qadınların az hissəsi məşğuldur və çox az həssəsi baş elmi işçi və ya rəhbər işçilərdir.

İnsanların qəzet, radio və televiziya verilişlərindən aldıqları informasiyalar onların dünyagörüşünə təsir edir. Buna görə qərarların qəbul edilməsi ilə, kütləvi informasiya vasitələri ilə bağlı vəzifələrdə nə qədər çox qadın işləyərsə, bir o qədər onlar qadınlara ziyan gətirən stereotiplərin dağıdılmasına imkan yarada bilər və cavan analara yeni təsəvvürlər, yeni ideallar təlqin etməklə ailədə, cəmiyyətdə bərabərlik probleminə insanların diqqətini cəlb edə bilər (Vəliyev, 1999:35).

Qədərincə olmayan qidalanma, qanazlığı, erkən hamiləlik qızların və yeniyetmələrin cansağlığına, həyatına təhlükə yaradır. Qadınların çox az hissəsinin reproduktiv sağlamlığını qorumaq imkanı var. İnkişaf etmiş ölkələrdə analıq ölümü reproduktiv yaşda qadınların ölməsi səbəblərindən ən başlıcasıdır. ÜST-nin verdiyi qiymətə görə hər il doğuş zamanı yarım milyondan artıq qadın vəfat edir, bir neçə milyon qadınlarda isə hamiləliklə bağlı çətinliklər yaranır. Afrikada Saxaranın cənubunda yerləşən ölkələrində sağlamlığın qorunmaması və iqtisadi vəziyyətin çətinləşməsi dünya miqyasında ən çox analıq ölümünə səbəb olur.

Hal-hazırda reproduktiv sağlamlığa və təhlükəsiz analığa daha çox diqqət yetirilir, ona görə ki, qadın hüquqlarının qoruyucuları tədricən insan hüquqları ilə bağlı olan reproduktiv sağlamlıq probleminin təsdiq edilməsinə nail olmuşlar.

Digər sosial və iqtisadi dəyişiklərlə yanaşı, əhali sahəsində dəyişikliklər qadınların ailədə və ev təsərrüfatında vəziyyətinin dəyişilməsi ilə müşaiyət olunur. Bir çox adamlar, xüsusən qadınlar çox gec ailə qururlar. İnkişaf etmiş regionlarda daha çox vətəndaş nigahına və digər qeyri-formal əlaqələrə üstünlük verilir. Bu dəyişikliklərin nəticəsində bir çox qadınlar həyatlarının xeyli hissəsini tək qalırlar ki, bu da ailənin iqtisadi rifahı üçün ciddi təhlükə yaradır.

**İŞ:** ödənişli və ödənişsiz. Qadının ödənişli işlə təmin olunması onun özünü təmin etməsi və öhdəsində olan ailə üzvlərinin iqtisadi rifahı üçün vacibdir. Lakin, ödənişli işlə təmin olunmaq qadın və kişilər üçün eyni deyildir. Qadınlar kişilərə nisbətən az maaşlı və aşağı statuslu işləri yerinə yetirirlər (Ailə.Qadın.Uşaq. jurnal, 2016, №18:46).

İnkişaf etməkdə olan ölkələrdə qadınların çoxu ödənişsiz (natural ev təsərrüfatında və ailə müəssisələrində) işləyir. Bundan əlavə bir çox qadınlar qeyri-formal sektorlarda işləyirlər ki, bu da onların əmək haqqının qeyri-sabit olmasına gətirib çıxarır. Onların əmək məhsuldarlığını artırmaq üçün vasitələrdən istifadə etmək imkanı demək olar ki, yoxdur. Çünki, onlar ev işlərinə cavabdehdirlər.

Ev təsərrüfatında iş iqtisadi xarakter daşısa belə düzgün ölçülmür və bu qadınlar və onların ailələrinin kreditləşmə, gəlir və müdafiəsi siyasətinə mənfi təsir göstərir. Azərbaycanın yenidənqurma iqtisadiyyatında gender proseslərinin real xətti rəsmi siyasət və ideologiya islahatlarına uyğun gəlmir.

Sosial iqtisadi münasibətlərdə ənənəvilik daha da möhkəmlənir.

Bu vəziyyəti xüsusi mülkiyyət sahəsində məşğulluq strukturu özündə əks etdirir:

- qadınların 6%-i, kişilərin isə 8%-i muzdla işləmir;

- qadınların 0,6%-i, kişilərin 1,2%-i sahibkardır;
- yerdə qalanlar öz əməklərini əvvəlkinə nisbətən daha ucuz satmağa məcburdurlar. İşəgötürənlər arasında qadınlar 25% təşkil edir (əsasən kiçik biznes sahəsində).

1991-1998 ci illərdə baş verən islahatlar zamanı iş itirənlərin çox hissəsini qadınlar təşkil edirdi. Onlar ilk növbədə ixtisaslaşdırılmış iş – idarəetmə, elmi-tədqiqat və konstruktor işləri, cihazqayırma, elektronika sahələrindən çıxarıldılar. Vətənimizin yüngül sənayesi ciddi böhran keçirirdi. Əslində toxucu və əyiricilərin ixtisası maşınqayırma işçilərinin ixtisası ilə eynilik təşkil edir. Ümumiyyətlə, iqtisadiyyatın bütün sahələrində məşğul olan qadınların məşğulluq faizi aşağı düşür (1990-cı ildə 51%-dən 1998-ci ildə 48%-ə qədər). Hətta iqtisadiyyatın ənənəvi olaraq qadınlar məşğul olan sahələrində (maliyyə, ticarət, rabitə, mənzil-kommunal təsərrüfatı), harada ki, qadınların məşğulluq faizi böyük idi, bu sahələrdə də qadınların kişilərlə əvəz olunması prosesi başlanmışdır (https://sesqazeti.az/news/social). Lakin qadınlardan sonra ixtisar «dalğası» kişilərə də təsir göstərdi və tikinti, maşınqayırma, qara və əlvan metallurgiya kimi iqtisadiyyatın kişilərə aid olan sahələrində də işsizlik yarandı, iqtisadiyyatın yeni bazar sahələrinə uyğunlaşması gender aspektində seqmentləşmiş oldu. Azərbaycan iqtisadiyyatı qadınların real hüquq bərabərliyinin təməli ola bilmədi və həyat strateğiyalarının seçilməsində qadın və kişilərə eyni imkanlar vermədi. Qadınların məşğulluğu strukturunda mənfi dəyişikliklər yarandı. Belə ki, 90-cı illərdə sənayedə əməyin payı azalmağa başladı: 1990-cı illərdə sənaye, nəqliyyat, tikinti və digər sahələrdə qadınların 45%-i, 1998-ci ildə cəmi 30%-i çalışırdı. Qadınların məşğul olduğu iş yerləri xeyli azaldı. Təhsil, mədəniyyət və səhiyyə kimi sosial sahələrdə məşğulluq artsa da (1990-cı ildə 24%, 1998-ci ildə 30%) qadınların məşğul olduğu iş yeri əvvəlki kimi qalırdı (https://sesqazeti.az/news/social).

Peşə sahələri strukturunda qadınların məşğulluğu (yaxın keçmişdə müvəffəqiyyətlə sıxışdırılmasına baxmayaraq) sosial-iqtisadi sahədə ənənəvi başlanğıcın sübutudur.

Hətta müvəffəqiyyət qazanmış müəssisələrdə belə qadınlar əsasən yüksək ixtisaslaşdırma tələb olunmayan işlərdə (katibə, qablaşdırıcı və s.) işləyirlər, kişilər isə yüksək səviyyə və professionallıq tələb olunan vəzifələrdə (menecer, usta, təmirçi, və s.) çalışırlar.

Düzdür, insanların yaşaması üçün natural təsərrüfatda işləmək vacibdir. Lakin çox vaxt bu əhalinin siyahıya alınması və kənd təsərrüfatının təftişi zamanı nəzərə alınmır. Əslində, inkişaf etməkdə olan ölkələrin kənd təsərrüfatı və ev təsərrüfatında işlədilən ərzaqların çoxusu qadın əməyinin sayəsində ev sahələrində istehsal olunur. Bəzi dəlillər kənd təsərrüfatında qadınların hesaba alınmayan işinin həcmini göstərir. Qadınların fəaliyyətini bilavasitə müşahidə, kənd rayonlarında demək olar ki bütün qadınların hər necə olursa olsun iqtisadi fəaliyyətdə iştirak etdiklərini müəyyən etməyə imkan verir.

İqtisadiyyatda qadın əməyinin tətbiqi miqyası böyükdür – məşğulların sayı yarıya yaxındır. Bəs nə üçün qadın əməyi əhəmiyyətli olaraq qalır. Burada də vacib problemlərdən biri – hətta ən yüksək ixtisaslı qadın əməyinin qiymətinin aşağı olması, ortaya çıxır. Bu keçmiş SSRİ-dən miras qalıb. O dövrdə mərkəzi tarif siyasəti, əslində, gender aspektində yeganə tarifin təyin olunmasına baxmayaraq «kişi» sahələrinə (ağır sənaye, hasilat sənayesi, tikinti-montac işi, nəqliyyat) daha çox üstünlük verirdi. Xalq təsərrüfatının qadın məşğulluğu üstünlük təşkil edən sahələrində (yüngül sənaye, yeyinti sənayesi, təhsil, səhiyyə) isə insan əməyinin qiyməti xeyli aşağı oldu. Kişilərin maaşına növbədənkənar iş, ağırlıq və s. kimi əlavələr verilməyə başlandı. Kişilərin xeyrinə vəzifə ierarxiyaları əmələ gəlirdi, deməli, istənilən müəssisə və təşkilatlarda kişilərin əmək haqqı yüksək idi.

Firmadaxili səviyyədə bu fərqlənmə bu gün tədricən aradan qaldırılır. Eyni təşkilatda çalışan qadın və kişilərin əməyi demək olar ki, eyni cür qiymətləndirilir. Gender fərqləniməsinin ümummilli göstəricisini əmələ gətirən sahələr və sahələrarası aspektlərdə gender fərqlənməsi əvvəlki kimi üstünlük təşkil edir.

Adətən, qadınlar hesaba alınmayan iqtğisadi fəaliyyətlərindən əlavə, ümumi milli məhsul hesablanarkən nəzərə alınmayan ev işləri üçün də məsuliyyət daşıyırlar. Lakin bir çox inkişaf etmiş ölkələrdə vaxtın sərf edilməsi rəqəmləri göstərir ki, qadınlarla kişilərin həftə ərzində iş saatları eynidir, bir çox ölkələrdə isə onlar kişilərədn 2 saat artıq işləyirlər. Bundan əlavə kişilərin işə sərf etdikləri vaxt onların ömrü boyu dəyişməz qalır. Qadınların iş günü isə çox dəyişkəndir.Bu dəyişkənlik ödənişli işdən əlavə onların ev əməyi və uşaqlara qayğı ilə məşğul olmasından irəli gəlir (www.respublica-news.az/index)

İnkişaf etmiş ölkələrdə ev işlərinin 2/3 hissəsindən 3/4 hissəsini qadınlar yerinə yetirir. Bir çox ölkələrdə qadınlar ev işinə həftədə 33 saatdan çox vaxt sərf edirlər, kişilər isə cəmi 11 saat. Ev əməyinin bölgüsünə gəldikdə isə əksər ölkələrdə eynilik təşkil edir. Kişilər çox nadir hallarda paltar yuyur, ev yığışdırır və paltar ütüləyir. Qadınlar isə öz növbəsində, nadir hallarda ev əşyalarını təmir edirlər. Əgər qadınlar evdənkənar işlə məşğuldurlarsa, yenə ev işlərini əsasən onlar yerinə yetirirlər.

**İstifadə edilmiş mənbələr**


Vəliyev O. Ailə və nikah məsələləri. Bakı, 1999.
Ailə.Qadın.Uşaq. jurnal. 2016, №18
www.respublica-news.az/index
https://sesqazeti.az/news/social


## MULTİKULTURALİZM VƏ MİLLİ –MƏNƏVİ DƏYƏRLƏR


**Daxil Vəliyev**
fəlsəfə üzrə fəlsəfə doktoru,
Bakı Dövlət Universiteti, Sosial elmlər və psixologiya fakültəsinin dekan müavini
daxilv@mail.ru



**Açar sözlər**: Multikulturalizm, tolerantlıq, milli mədəniyyət, birgəyaşayış


Çoxmədəniyyətlilik hər bir cəmiyyətin inkişafının təməlidir. Bu baxımdan multikulturalizm bir siyasi fəlsəfə mövzusu olaraq fərqli dərəcədə dəyişən ideologiyaları və siyasətləri əhatə edir, cəmiyyətin inkişafına təsir göstərir. Multikulturalizmin yaşam tərzi kimi beynəlxalq əhəmiyyəti müasir dünyamızda xüsusi diqqətdə olan məsələdir. Humanist olmaqla yanaşı demokratik dəyərləri özündə ehtiva edən ideologiya olaraq multikulturalizm tolerantlığın göstəricisidir. Multikultiralizmsiz humanizm, beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı anlaşma əsasında formaşalaşacaq dostluq və əməkdaşlıq münasibətləri mümkünsüzdür. Mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri göstəricisi məhz multkultiralizmdir. Təbii ki, digər mədəniyyətlərin xüsusiyyətlərini və tarixini öyrənmədən, həmin mədəniyyətə və nümayəndələrinə tolerant yanaşmaq mümkün deyil. Qeyd etmək lazımdır ki, bu münasibətlərin öyrənilməməsi mədəniyyətlərin və sivilizasiyaların dialoqunun qurulmasına mane olacaq bir məsələdir. Bu baxımdan multikulturalizm ölkədə yaşayan müxtəlif millətlərin mədəniyyət dəyərlərin tanıyan bir siyasətdir.

Bir dövlətin müxtəlif fərqli mədəniyyətlərin daşıyıcısı olan etno-mədəni qrupları və dini konfessiyaları özündə ehtiva etməsi hər zaman multikultural adlandırılmır. Multikulturalizmin formalaşması üçün mövcud prinsiplər və tələblər əsas götürülməlidir. Dövlətin

çoxkonfessiyalı bir cəmiyyətə sahib olması multikulturalizm siyasətinin yürüdülməsi fonunda ölkənin gələcək inkişafına təhlükə formalaşdırmır, məlumdur ki, müasir mədəni cəmiyyətlərin düşünülmüş multukulturalizm siyasəti olmadan sabit inkişafı da labüd məsələdir. Azərbaycan milli mədəniyyətinə inteqrasiya olunun müxtlif xalqların mədəni zənginlikləri ölkənin inkişafının təcəssümüdür ki, bu da qeyd olunan fikrin sübutudur. Aydın məsələdir ki, multikultural ənənələrdən imtina etmək etnik, siyasi qarşıdurmalara bünövrə olur.

Azərbaycan dövləti multikultural ənənələr əsasında inkişaf edən zəngin milli-mədəni dəyərlərə malik bir ölkədir.Multikulturalizm Azərbaycan xalqının həyat tərzi olaraq uzun illər ölkənin inkişafının stimullaşdırıcı siyasətidir. Xüsusilə qeyd etmək lazımdır ki, müstəqilliyin bərpasından sonra multikultiralizmin inkişafı üçün xüsusi dövlət dəstəyi güclənib. Bu güclü dəstəyin yekun nəticəsidir ki, bu gün Azərbaycanda müxtəlif xalqların nümyəndələri qarşılıqlı dostluq və əməkdaşlıq şəraitində yaşayır, ölkənin inkişafında rol alırlar. Azərbaycandakı etnik qruplar və onların münaqişə olmadan, qarşılıqlı anlaşma və dostluq şəraitində yaşaya bilməsi faktı dövlət başçısının Azərbaycan multikultural cəmiyyətindəki inteqrasiya və idarəetmə siyasətinin uğurlu nəticəsidir.Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycanın multikulturalizminin digər ölkələrdən daha yaxşı olmasının səbəbi ilk növbədə onun dövlət siyasəti olmaqla yanaşı həmdə xalqın həyat tərzinin bir parçası olmasıdır.Siyasi əsasları Azərbaycan Respublikasının Konstitusiyasının bəndlərində, qanunvericilik aktları ilə yanaşı fərman və sərəncamlarda da qeyd olunan bu siyasət eyni zamanda ölkənin sosial-iqtisadi, mədəni sahələrdə də inkişafının təməlidir.

Dövlət siyasəti və həyat tərzi olaraq ölkəmizdə multikultiralizmin əsasları Ümumilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycanda vətəndaş müharibəsindən qurtarması ilə yanaşı, ölkəmizdə mövcud olan bütün milli azlıqları vahid azərbaycançılıq ideologiyası ətrafında birləşdirilməsi bunun sübutlarındandır.Təbii ki, bu uğurlu multikultural xarici və daxili siyasətin nəticəsidir ki, həmin vaxtlardan etibarən bu günə qədər Azərbaycanda dinindən, dilindən və milliyətindən asılı olmayaraq bütün xalqlar rifah və firavanlıq içində yaşayır. Bu gün İlham Əliyev cənabları tərəfindən aparılan uğurlu multikultural siyasətin məqsədlərindən biri də mədəniyytlərin bir birinə inteqrasiyası dərəcəsini təşviq edərək bu siyasətin ölkənin inkişafına təsirini təhlil etmək və uğurlu , sağlam və firavan cəmiyyətin formalaşdırılmasının əsaslarını müəyyən etməkdir. Hələ 2016-cı ilin multikulturalizm ili elan edilməsi bu siyasətin əsaslarını təkmilləşdirdi. Bu siyasət növbəti illər ərzində də ölkənin uğurlu inkişafının təməlində durur. İlham Əliyev cənabları da Azərbaycanın əsrlər boyu dinlər, mədəniyyətlər və sivilizasiyaların bir araya gəldiyi məkan olduğunu vurğulayır və ölkəmizin Şərq və Qərb arasında coğrafi körpü olmaqla yanaşı mədəniyyət körpüsü olduğunu qeyd edir. Dünyada dəhşətli hadisələrin baş verməsi,Yaxın Şərq, Ön Asiya, Avropa böhranları fonunda, Azərbaycanın sabitlik, inkişaf, rifah, təhlükəsizlik şəraitinin başlıca səbəblərindən biri də məhz ölkədə multikultural dəyərlərin və ənənələrin mövcudluğu, müxtəlif xalqların birgə firavan yaşayışıdır.

Bir ölkənin iqtisadi inkişafı və mədəni inkişafı daim qarşılıqlı əlaqədədir. Bu baxımdan multikulturalizm dövlət siyasətinin, iqtisadi inkişafın özülündən kənarda ola bilməz. Bu gün Azərbaycan sosial-iqtisadi və digər sahələrdə dünyada qabaqcıl mövqeləri tutursa bu həm də onun müxtəlif mədəni, etnik qrupları birləşdirməsi, qoruması, dəyərlərin qiymətləndirilməsinin göstəricisidir. İnkişafımızın təməlində olan Azərbaycan multikulturalizm modeli dünyaya müasir inkişaf nümunəsi göstərir. Hazırda ölkəmizin bu sahədə təcrübəsi dünyaya bir örnək kimi öyrənilir . Azərbaycan xalqı birgə yaşayış təcrübəsi və həyat tərzi , müxtəlif cəmiyyətlərə tolerant münasibəti ilə multikulturalizmi yaşadır və onun gələcəyini müəyyən etməklə ölkənin inkişafını gücləndirirlər.

Ədəbiyyat siyahısı

1.Aslanova R. Qloballaşma və mədəni müxtəliflik. Bakı, Elm 2004. 264 s.
2.Məmmədov N. Qlobal siyasət: təhdidlər, çağrışlar, ümidlər. Bakı, 2013

# POSTMÜHARİBƏ DÖVRÜNÜN YENİ REALLIQLARI: ULU ÖNDƏRİN SÜLH VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİNƏ FƏLSƏFİ BAXIŞ

**Şölət Zeynalov**
Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,böyük elmi işçi
email: sholet@mail.ru
ORCID: 0000–0003–2509–1159

**Açar sözlər:** dialoq, dialoq mədəniyyəti, kommunikasiya, tarix, sülh, Azərbaycan

Aydındır ki, tarix öz həqiqi qiymətini o zaman almış olur ki, tarixə müxtəlif siyasi, iqtisadi, ideoloji, dini və s. zamanın yaratdığı yeni stiuasiyalar, spekulyativ maraqlar kontekstindən deyil, ona yalnız tam obyektiv qiymət verilmiş olsun. Bu baxımdan Azərbaycan xalqının son üç yüz illik tarixini biz obyektiv şəkildə, nəzəri anlamda interpretasiya edərkən ölkəmizin daima böyük və güclü dövlətlər tərəfindən təhdid olunduğunun, həm də bütün parametrlər üzrə sıxışdırıldığının çahidi oluruq. Lakin bu da danılması mümkün olmayan faktdır ki, sivilizasiyaların, dövlətlərin xalqların tarixi həm də mübarizələr tarixidir. (*Тойнби А. Дж. Постижение истории*) bu mübarizədə "zəifdüşmələr" yalnız bir xalqa şamil edilə bilməz, bu kimi hal yer üzündə bütün xalqların taleyində olmuşdur. Lakin tarixin interpretasiyası sübut edir ki, tarixdə böyük şəxsiyyətlər tərəfindən bir dəfə qoyulmuş əsas (dövlətçilik ənənəsi, bəşəri, milli və s. qurucu paradiqmalar) mütləq onun öz bəşəri və milli ideyalarıının həyata keçirilməsi ilə, öz müstəqilliyinin bərbası və inkişafı ilə nəticələnə bilir. Bu baxımdan ölkəmizin son 50 - 60 illik tarixinin nəzəri interperetasiyası sübut edir ki, istər sovetlər zamanında, istərsə də müstəqillik illərində məhz Ulu öndərin irəli sürdüyü dövlətçilik fəlsəfəsinin hədəfləri müstəqilliyimizin qarantı kimi çıxış etmişdir və hal-hazırda bu kurs ölkə prezidenti, qalib ordunun sərkərdəsi, Ali Baş Komandan İ. H. Əliyev tərəfindən zəfərlə irəli aparılır və dünya tarixində yeni bir nümunə kimi – birgəmövcudluq paradiqması kimi çıxış edir – təqdim olunur.

**Tarixi dinamika və şəxsiyyət amilinin tarixi istiqamətə təsirləri:** Tarixdən məlumdur ki, vaxtilə, milli təfəkkürlü intellektuallr şübhəylə yanaşsa da geniş kütlələr üçün "qırmızı inqilab" böyük rifah, azadlıq, hüquq və s. bərabəliliklər vəd edirdi. Lakin tezliklə məlun oldu ki, ikili standartlar sovetlər imperiyasının da ideologiyasından uzaq deyildir və bu xüsusilə, müsəlman respublikalarına mərkəzi hakimiyyətin münasibətində özünü açıq-aşkar göstərird. Lakin istər represiyalar, istərsə də ikili standartlar və imperiyanın periferiyalarına göstərilən münasibətlər Azərbaycan xalqının gələcəyə ümidini aradan qaldıra bilmədi. Bu ümid xalqın gizli yaddaşında olsa da, məhz praktiki şəxsiyyətlərin fəaliyyəti nəticəsində o yenidən praktikada öz inkişaf yoluna qədəm qoydu.

Faktlardan və real tarixi tendensiyadan məlumdur ki, sovetlər birliyi dövründə ölkəmizin iqtisadi, sənaye, sosial, mədəni və s. sahələrdə inkişafı H.Ə. Əliyevin 1969-cu ildə Azərbaycan Sovet Respublikasının Birinci Katibi seçildikdən sonra başladı. Paradoks ondadır ki, Xanlıqların işğal olunması və Azərbaycanın ikiyə bölünməsi başa çatdıqdan sonra zəngin potensiala malik Azərbaycana heç zaman mərkəzi hökumət tərəfindən ciddi dəstək verilməmişdi. Bunun əksinə olaraq Çar hökuməti tərəfindən açıq və gizli şəkildə qədim Azərbaycan torpaqlarına ermənilərin köçü elə ustalıqla həyata keçirilirdi ki, son nəticə olaraq tarixi Azərbancan toppaqlarında erməni dövləti yaradıldı. XX əsrin 30-50 ci illərdə baş vermiş represiyalar və sürgünlər isə bir növ Azərbaycan xalqının intellektul potensialına elə zərbələr vurdu ki, hətta insanlarda belə bir fikir formalaşmışdı ki, Azərbaycan heç zaman bir daha müstəqil dövlət olmayacaqdır. Düzdür 50-60 ci illərdə ədəbiyyat sahəsində ciddi, bir tərəfdən xəlqilik ideyalarıyla silahlanmış, digər tərəfdən də alt yapıda milli ədəbiyat istiqamətində kiçik cücərtilər olması – ürəklərdə tarixən yandırılmış işıqları sönməyə qoymayan əsərlər yaranmağa başlasa da, sənaye, kənd təsərrüfatı, təhsil, sosial və s. sferada vəziyyət qeyiri-qənaətbəxş olaraq qalmaqda idi. Digər problem onda idi ki, bu illərdə yenicə inkişafda olan tək-tük milli düşüncəli intellektualları da böyük həbslərdən xilas etmək üçün siyasəti incəliklərinə qədər bilən böyük bir lider çatışmazlığı ölkədə acıq-aydın hiss olunurdu (Mircəfər Bağırovun məhkəmədə məşur çıxışını burada xatırlamaq yerinə düşərdi). Bütövlükdə biz yuxarıda qeyd edilən tarixi paradoksu elmi-fəlsəfi cəhətdən burada, bir məqalə çərçivəsində əhatəli işıqlandırmaq imkanına malik olmasaq da, bir cümlə ilə yalnız onu deyə bilərik ki, xalqların inkişaf və tərəqqisi üçün onun həmişə böyük xarakter və xarizmaya malik olan liderə – böyük siyasəti bilən dövlət başçısına ehtiyacı olur. Çünki tarixdən məlumdur ki, xalqların taleyi həm də siyasi variasiyaların tarixidir və bu hal indi də istənilən **"modern" və "bilikli"** cəmiyyətlər üçün əsasdır. Alman filosofu K. Yaspers yazırdı: ***"tarixin birliyini dərk etmək, yəni dünya tarixini bir bütöv kimi anlamaq cəhdində tarixi biliyin öz son mənasını tapmaq cəhdi əks olunur***"(Yaspers, 2008, 371). Fakt odur ki, tarixdə böyük imperiya və dövlətlər yaratmasına, böyük dühalar yetişdirməsinə baxmayaraq Azərbaycan bu dövrə kimi (1969) sovetlər birliyində yalnız neft və geridə qalmış aqrar ölkə kimi xarakterizə edilirdi. Neftin isə ölkənin və xalqın rifahına yönəldilməsindən belə söhbət gedə bilməzdi. Dövlət strukturunda isə mərkəzi hakimiyyətin dəstəklədiyi ermənilər sözün əsl mənasında hegemonluq edir, istənilən vəchlə, azərbaycanlıları Moskvanın nəzərində geridəqalmış xalq kimi göstərməyə çalışırdılar. Bunun ciddi səbəblərini bilmək üçün keçən əsrin 20-60- cı illərdəki sovetlər Federasiyanın tərkibinə daxil olan 15 Respublikaya göstərilən müxtəlif münasibətlərə də nəzər salmaq vacibdir. Bəzi mütəxəssislər hətta Sovetlər billiyinin çöküşün də "milli" və "dini" məsələlərin həll olunmasını deyil, onların konservasiyasına nail olunmasını siyasətilə, yaxud eybəcər şəkildə torpaqların "alış-veriş" siyasətini həyata keçirilməsi ilə bağlayırlar. Lakin tarixdən bizə məlumdur ki, İkinci dünya müharibəsində məhz Bakı nefti müharibənin qələbə ilə nəticələnməsində əvəzsiz rol oynamışdı və Azərbaycan bu müharibədə az qala bir milyondan artıq insan resursları ilə iştirak etmişdi. Başqa sözlə desək, əhalinin hər beş nəfərindən birinin müharibədə iştirak etməsinə baxmayaraq heç bütün tarixi ərzində mərkəzi hakimiyyət tərəfindən Bakıya "Qəhrəman şəhər" adı verilmədi. Əlbəttə tək-tək istisnaları çıxsaq, XX əsrin 20-60-cı illər arasında Azərbaycanın "birliyə" ciddi verdiyi töhvələr içərisində, yuxarıda qeyd etdiyimiz kimi neft və insan resurslarını, o cümlədən "aqrar inkişafdan" başqa xalqın sosial, iqtisadi, və s. rifah baxımından öz həyatında ciddi bir uğurdan bəhs etmək mümkün deyildir. Halbu ki, bəşəri, yaxud hüquqi, insani və s. birlikdən söhbət gedərkən, hətta pozitiv ideologiyaları da bura əlavə edəriksə "***... tarixin fəlsəfi baxımdan öyrənilməsi zamanı həşişə birlik məsələsi qoyulur ki, onun da vasitəsilə bəşəriyyət vahid bir tam təşkil edir"*** (Yaspers, 2008, 371)

Məhs bu səbəblərdən də SSRİ dövrü tam xarakterizə edilərkən 70 - ci illərin əvvəllərinə kimi Azərbaycanın yüksək inkişafından danışmaq mümkün deyildir. Lakin H. Ə.

Əliyevin Azərbaycan Sovet Respublikasına rəhbərlik etdiyi dövrü biz xüsusi araşdırmaq istəsək son dərəcə ciddi bir çoxaspektli sıçrayışla rastlaşa bilərik. Bu onu sübut edir ki, tarixin yazılması və yaradılmasında şəxsiyyətlərin rolu əvəzsizdir. Məhz istər mədəni, demoqrafik, sosial, iqtisadi və sənaye, o cümlədən kənd təsərrüfatının inkişafı baxımından həmin dövrdəki inkişafın fəlsəfəsi sübut edir ki, H. Ə. Əliyevin rəhbərlik siyasəti elə o dövrdən ümummilli bir fəaliyyət, mədəni identikliyin qorunması və s. fundamental dövlətçilik sütunların yaradılması kimi qiymətlənləndirilməlidir. Təkcə Bakı şəhərində azərbaycanlıların demoqrafik üstünlüklərini təmin etmək üçün yeni mikrrayonların salınmasını, azərbaycan dilinin rəsmi dövlət dili səviyyəsinə qaldırılması xidmətlərini, təhsilin milliləşdirilməsini və 1978-ci il konstitutsiyasında dilimizin azərbaycan dili kimi göstərilməsi faktını qeyd etmək kifayət edir ki, hələ o zamandan gizli də olsa milli təfəkkür və şüurun formalaşması üçün aparılmış siyasətin miqyasını biz dərk edə bilək. Bütün bunlar sübut edir ki, müasir sivilizasiyamızın inkişaf mərhələsində – modern cəmiyyətdə siyasi xadim kimi yetişmək elə də asan məsələ deyildir.

**Ziddiyyətlər epoxasından Böyük Zəfərə doğru:** 90 - cı illərdə "Soyuq müharibə" başa çatdı hələ bu dövrə qədər, Siyasi Büroda məhz ermənilərin təzyiqləri ilə H. Ə. Əliyevə qarşı görünməmiş bir təzyiqlər aparılırdı... Ermənistanın Azərbaycan torpaqlarına təcavüzü və onun nəticələri indi hər kəsə bəllidir – bu artıq danılması mümkün olmayan tarixdir. Bu prosesin siyasi-fəsəfi, sosial, humanitar, elə həm də ekzistensial və s. aspektləri hələ uzun müddət nəzəri fikrin obyekti olaraq qalacaqdır. Bu tarixi dövr həm tarixin dərsləri kontekstində, həm də milli dövlətçilik tariximizdə məğlubiyyətə aparan yol və Böyük Vətən müharibəsi nəticəsində qazanılan Zəfərin tarixi kimi uzun müddət araşdırılacaqdır. Bir faktı qeyd etmək lazımdır ki, 1994-cü ildə əslində, Ulu öndər "Əsrin müqaviləsini" imzamaqla müasir inkişafımızın və böyük Zəfərimizin təməlini qoydu. Təbii ki, bu Zəfərin memarı Ulu öndər H. Ə. Əliyev və ata vəsiyyətini tarixin, tanrının və Azərbaycan xalqının, Ordusunun dəstəyilə həyata keçirən Ali Baş Komandan İ. H. Əliyev və onun 18 illik həyata keçirdiyi misilsiz siyasi strategiysıdır. Bu Zəfəri həm də 30 ildən sonra regiona qayıdan Sülhün və təhlükəsizliyin qaranti hesab etmək olar, heç şübhəsiz Ermənistan istisna olmaqla region ölkələri bunu belə də qəbul edirlər və müşahidələr göstərir ki, qarşı tərəf də artıq bu faktla razılaşaraq sülhə tərəf meyllənməkdədir.

Vaxtilə – 1940-cı ilin 13 mayında Böyük Britaniya parlamentinin İcmalar palatasında Uinston Çörçill tərəfindən edilmiş nitqdə belə bir məşhur fraza keçmişdi: *"Qan, zəhmət, göz yaşları və tər" (Çörçil, https://az.wikipedia.org/wiki/Qan,_z).* Əgər biz tarixə nəzər salsaq görərik ki, böyük dövlətlərin inkişaf tarixində bu kimi tarixi mərhələlər həmişə olmuşdur. Bu ifadının dərin və tarixi-fəlsəfi əhəmiyyəti onda idi ki, dövlətçilik naminə maraqlar siyasi xadimin həyatında əbədiyyət qədər fundamental əhəmiyyət kəsb edir. Siyasətin böyük dahisi Uinston Çörçill deyirdi: *"Siz soruşursunuz, bizim məqsədimiz nədir? Mən bir sözlə cavab verə bilərəm: Qələbə. Bütün dəyərlərdə qələbə – bütün dəhşətlərə rəğmən qələbə, ola bilsin ki, uzun və çətin yoldur, lakin qələbəsiz xilas yoxdur"(Çörçil, https://az.wikipedia.org/wiki/Qan,_z).* Azərbaycan tarixində bu qələbə də asan qazanılmadı və bu anlamda biz müstəqilliyin ilk illərinə yenidən qayıtmaq zərurəti görürük.

**Modern cəmiyyətlərin sülh problemi; Böyük sülh axtarışında:** Müstəqillik illərində Azərbaycan rəhbərlik etdiyi dövrdə Ulu öndər region ölkəyər ilə ciddi əlaqələr saxlayır və hər bir dövlətlə sülh və təhlükəsizlik şəraitində qonşuluq əlaqələrinin inkişafına xüsusui önəm verirdi. Bu siyasətin əsas təməl prinsiplərində sülhün və humanizmin bərqərar olması prioritet kimi əsas götürülür və region ölkələri ilə balanslaşdırılmış xarici siyasət strategiyanın ana xəttini təşkil ediridi. Ulu öndər regilon ölkələrindən Ermənistan istisna olmaqla, hər bir dövlətlə yüksək əməkdaşlıq və dialoq atmosferinə üstünlük versə də, *"İki dövlət, bir millət"* prinsipinə söykənərək Türkiyə Cümhuriyyəti ilə əlaqə və münasibətlərə xüsusi önəm verirdi. Yeni dağılmış bir sistemdən – sovetlər birliyindən çıxmış Azərbaycan

üçün çətin olan sosial, iqtisadi, siyasi, humanitar böhran şəraitində xilaskar kimi hakimiyyətə gəlmiş H. Əliyev məhz ilk dəfə 1994-cü ilin fevral ayının 8-11 tarixlərində Türkiyəyə ilk rəsmi səfərinin etdi. Bu səfərin strateji əhəmiyyəti onda idi ki, Ulu öndər ilk dəfə olaraq Türkiyə Böyük Millət Məcilisində çıxış edərkən iki qardaş ölkələrin inkişaf etməsi üçün Azərbaycan dövlətinin və xalqının bu əməkdaşlıq və əlaqələrə xüsusi önəm verdiyini vurğulamışdır. Səfər zamanı Türkiyə və Azərbaycan arasında qarşılıqlı yardım və əməkdaşlıq haqqında protokol, mədəni, iqtisadi, siyasi məsləhətləşmələr haqqında sazişlər yüksək səviyyəli əməkdaşlıqlar barədə müqavilə və müxtəlif vacib sənədlər imzalanmışdır. Aydındır ki, həmin illər dağılmış böyük bir siyasi sistemin varisləri kimi postsovet məkanında yaranmış dövlətlər üçün yeni strateji hədəfləri müəyyən etmək, sülh və təhlükəsizliyi təmin etmək elə də asan məsələ deyildi. Fakt odur ki, Ulu öndərin həmin illərdə irəli sürdüyü balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan tədricən region ölkələri ilə əlaqə və münasibətləri tənmizləməyə başladı. Bu həmin dövr üçün elə bir incə siyasət idi ki, onun fəlsəfəsi haqqında hələ uzun illər bəhs edləcəkdir. Bir tərəfdə qlobal güclərlə münasibətləri tənzimləmək, digər tərəfdən də reginal güclərlə stabilliyi təmin etmək, digər bir kontekstdə isə böyük bir məcburi köçkün və qaçqın ordusunun qayğılarını və s. çəkmək, həmçinin daxili təhlükəsizliyi təmin etmək elə də asan məsələ deyildi. Bu məqsədlə 1997-ci ilin may ayının 5-8 də H.Əliyev Türkiyə Cümhuriyyətinə ikinci vacib səfərini etdi və bu səfər zamanı səkkiz sənəd imzalandı. Həmçinin bu zaman Azərbaycan və Türkiyə arasında xüsusi strateji əməkdaşlığın, dostluq və qardaşlığın yeni mərhələyə qaldırılması yeni bir əhəmiyyət kimi təsbit edildi. Bütün bunların təməlində böyük qardaşlıq ideyaları dayansa da biz etiraf etməliyik ki, həmin dövrdə bu siyasəti həyata keçirmək elə də asan məsələ deyildi; Səbəb onda idi ki, Azərbaycan uzun illər bir sistemin, Türkiyə isə digər bir sistemin tərkibində olmuşdular. Məhz, 1997-ci ildə Türkiyənin dövlət nişanı, 1999-cu ildə Beynəlxalq Atatürk Sülh Mükafatına laiq görülmsi, dəfələrlə “İlin adamı” adını alması (seçilməsi) Türkiyə və Azərbaycan arasında gələcək strateji müttəfiqliyin və bölgədə sülh və təhlükəsizliyin təmin edilməsi istiqamətində görülmüş fundamental işlər həmin illərdə gələcək böyük Zəfər və sülhün təmin edilməsində təməl prinsiplərindən idi. Başqa sözlə desək, bu gələcəkdə hətta Rusiya – Türkiyə əlaqə və münasibətlərinin də tənzimlənməsində, yeni əməkdaşlıqların həyata keçirilməsində bir stimul oynayacaqdı. Fakt odur ki, H. Ə. Əliyev həmin dövürdə məhz regional sülhün və humanitar prinsipləriin həyata keçirilməsində elə addımlar atırdı ki, region dövlətləri gələcəkdə bir-birilə əməkdaşlıqları daha da genişləndirsin. Məsələn, burada Xəzərin statusuyla bağlı ilk illərdə Türkmənistanın tutduğu mövqe və onların sonradan koordinal dəyişikliklər nəticəsində ortaq mövqeyə gəlməsi əslində, H. Ə. Əliyevin yüksək siyasi strategiyasının prinsiplərindən qaynaqlanırdı.

Biz Azərbaycanın Sülh və Humanitar problemlərin həlli istiqamətində həyatə keçirdiyi ana xəttin strategiyasından bəhs edərkən görürük ki, Ulu öndər daha çox məhz tarixi təcrübəyə istinad edərək xalqların, millətlərin sülh və həmrəylik şəraitində yaşamasını təmin etmək istəyirdi. Şübhəsiz, H. Əliyevin əsas amalının hər bir qonşu dövlətlərlə yüksək sülh şəritində yaşamaq olsa da, o Türkiyə ilə əlaqələrə çox həssas yanaşırdı: Ulu öndər Türkiyə Azərbaycan əlaqələrinin çoxəsrlik tarixinə istinad edərək qeyd edirdi: **“...bizim xalqlar əsrlər bir-birinə boyu yaxın dost olmuşlar. Biz bir kökdənik, biz birdilli xalqlarıq. Bizim milli ənənələrimiz çox yaxındır, hətta bir çoxu eynidir” (Məmmədov, 2021, 31).** Daha sonra O, öz fikirlərinin əsaslarının tarixi təcrübədən gəldiyini qeyd edərək vurğulayırdı: **“Ona görə də bunlar hamısı xalqlarımızı hələ biz müstəqil olmadığımız vaxt da, ayrı-ayrı dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da bir-birimizdən ayırmayıb, bir-birimizə bağlayıb, bir-birimizlə daha sıx əlaqədə saxlayıb. Indi isə xalqlarımız öz müstəqilliyinini əldə etdikdən sonra, suveren dövlət kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik.”(Məmmədov, 2021, 31)**

Biz Ulu öndərin yaratdığı regional sülh və qonşuluq prinsiplərinin təməl strategiyasından bəhs edərkən qeyd etməliyik ki, bu siyasətin əsasında Rusiya Federasiyası ilə əlaqə və münasibətlərə o, xüsusi önəm verirdi. Etiraf etməliyik ki, müstəqilliyimizin ilk illərində Rusiya Azərbaycan əlaqə və münasibətlərində ciddi çatlar mövcud idi, həmin dövrlərdə hətta Rusiyada yaşayan azərbaycanlılara qarşı ciddi diskriminasiya hadisələri baş veruir, bir-birinə qarşı KİV səhivələrində qarşılıqlı ittihamlar, populist münasibətlər daha qabarıq şəkildə idi. Əlbəttə, istər Çarizm dövründə, istərsə də Sovetlər birliyi zamanı Azərbaycana göstərilən və bəzən də ermənipərəst şovinist siyasət xalqın yaddaşında özünə böyük yer etmişdi, Bu işdə xüsusilə, ermənilərin də aktiv şəkildə iştirak etdiyi 20 Yanvar faciəsi də öz təsirini saxlayırdı. Lakin biz regional sülh və təhlükəsizlik problemində fəlsəfi kontekstdən yanaşarkən asanlıqla müəyyən etmək olar ki, böyük tarixi şəxsiyyətlər, dahi siyasətçilər tarixin inkişaf dinamikasında hisslərlə deyil, tarixi tendensiyanın yaratdığı hər cür strateji siyasətdən çıxış edərək öz dövlətini inkişaf etdirmək prinsipini irəli sürürlər – yaradırdılar. Təsadüfi deyildir ki, böyük strategi siyasi hədəflərdən bəhs edərkən vaxtilə Böyük Britaniyanın baş naziri və dünyanın bugünkü simasını müəyyənləşdirən əsas şəxslərdən biri olan Uniston Çörçil qeyd edirdi ki, siyasi **"situasiyadan yararlanmaq azdır onu yaratmaq lazımdır**"(Çörçil,https://az.wikipedia.org/wiki/Vinston).

Böyük stabillik və regional stabilliyin təmin edilməsi işində Ulu öndərin dahiliyi həm də onda idi ki, o hər bir ölkə ilə ayrı-ayrılıqda yeni bir inam və etimad mühiti formalaşdırmışdı. Təsadüfi deyildir ki, vaxtilə Fransada rəsmi səfərdə olarkən Ulu öndər Azərbaycana investorların cəlb edilməsi üçün özünün bir dövlət başçısı kimi ölkəyə qoyulmuş investisiya layihələrinə qarant olduğunu qeyd edir və investorların Azərbaycana gəlişini təmin etməyə çalışırdı. Bu baxımdan H.Əliyev siyasi strategiyasının əvəzsizliyini bir daha özünü sübut edirdi. Yüksək qonşuluq və sülh əlaqələrinin inkişafı məqsədi ilə H.Əliyev daima qonşu dövlətlərlə əlaqələr saxlayır, yeni yaranan reallıqlar şəraitində qonşu ölkələrə səfərlər edirdi. Belə bir səfərlərdən biri Rusiya Federasiyasına oldu. Rusiya Federasiyası Prezidenti Boris Yeltsinin dəvəti ilə Ulu öndər ilk dəfə Rusiya Federasiyasına ikitərəfli münasibətlərin sağlamlaşdırılması və daha yaxşı inkişaf etdirmək üçün səfər etdi. Rusiya Federasiyasında 2000-ci ildə Vadimir Putinin prezident seçilməsi ilə ölkələrimiz arasında əlaqə və münasibətlər özünün yeni mərhələyə qalxması ilə səciyyələndi. Bu faktı xüsusi qeyd etməliyik ki, hazırda Azərbaycan və Rusiya Federasiyası arasında 150-dən çox siyasi, hərbi-texniki təhlükəsizlik, iqtisadi, elmi, mədəni və s. istiqamətlərdə iki ölkələr arasında sazişlər imzalanmışdır. *"Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin 9-10 yanvar 2001-ci il, 13 avqust 2013 tarixində, Dimitri Medvedevin 3-4 iyul 2008-ci il tarixində Azərbaycana, Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin 24-26 yanvar 2002-ci il tarixində Rusiyaya dövlət səfəri Prezident İlham Əliyevin 5-7 fevral 2004-cü il 19-20 aprel 2009-cu il tarxində Rusiyaya rəsmi səfərləri iki ölkə arasında münasibətlərin inkişafı üçün əlverişli zəmin yaratmışdır."* (Məmmədov, 2021, 34) Hazırda Rusiya və Azərbaycan arasında yüksək əməkdaşlıqlar mövcuddur. 2022-ci ilin 22 fevralında Moskvada "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamə də (https://president.az/az/articles/view/55496) hal-hazırda bu siyasətin davam etdirilməsinə xidmət edir. Bir məsələni yeri gəlmişkən vurğulamaq vacibdir: ermənilər tarixən Möskva və Bakı əlaqələrinə xələl gətirmək üçün etnik və dini kimlik kartından istifadə edərək yüksək münasibətləri pozmağa çalışmışlar. İkinci Qarabağ savaşında ermənilərin ciddi-cəhdlə din və müttəfiqlik amilindən istifadə edərək Rusiya-Azərbaycan münasibətlərini pozmağa cəhd etməsi isə məhz Azərbaycanın siyasi rəhbərliyinin yüksək səriştəsi, uzaqgörən siyasəti nəticəsində fiaskoya uğrdılmışdı.

Öz Prezidentliyi dövründə Ulu öndər H.Əliyevin istər yaxın cənub qonşumuz İrana, istər qərb qonşumuz Gürcüstana rəsmi səfərləri məhz regional sülh və sabitliyin saxlanılması, iqtisadi əlaqələrin yüksəldilməsi, qonşuluq prinsiplərinin möhkəmləndirilməsi strtegiyasına

xidmət edirdi. Həmin illərdə düzgün müəyyənləşdirilmiş bu strategiyanın nəticəsində Azərbaycan özünün inkişaf hədəflərinə doğru irəliləyirdi. Aydındır ki, həmin illərdə Ulu öndər region ölkələri ilə yanaşı beynəlxalq təşkilatlarla da sıx əlaqələr saxlayırdı. Lakin bütün bunlar yüksək şəkildə həyata keçirilsə də Ermənistanın regionda apardığı təcavüzkar siyasət sülh və təhlükəsizliyə böyük təhdid olaraq qalırdı. BMT- qətnamələrinin həyata keçməməsi işi BMT-nin nüfuzuna xələl gətirsə də ermənilər xristian dini amilindən istifadə edərək daima öz yazıq obrazlarını formalaşdıra bilmişdilər.

Biz yuxarıda qeyd etdik ki, böyük siyasətin uğurlarının həyata keçirilməsi müəyyən zaman tələb edir və bu siyasətin reallaşdırılması şəxsiyyət və lider amilindən müstəsna dərəcədə asılıdır. Bu siaysətin fəlsəfi əhəmiyyəti ondadır ki, o doğru və dürüst, aydın strategiya və xoş mərama söykənərsə mütləq öz nəticəsini verir. 44 günlük Böyük Vətən müharibəsi zamanı Azərbaycana verilən dost ölkələrin dəstəyi, yaxud tarixən konfrontasiyada olmuş müharibə zamanı isə loyal olan dövlətlərin münasibəti, həmin siyasətin nə qədər düzgün olğunu bir daha sübut etmiş oldu. Fakt odur ki, *"müharibəyədək hətta müharibə zamanı da Azərbaycanın sülhməramlı missiyasını heç bir dövlət inkar edə bilməz. Ona görə ki, Azərbaycan 30 ilə yaxın bir tarixdə yalnız bir mövqedən çıxış etmişdir: Tələbləri çox sadə və ədalətli idi. Azərbaycan torpaqlarından erməni işğalşıları çıxmalıdır. Bu sadə həqiqətlərin dərk edilməməsi, böyük fəlakətlərə gətirib çıxaran əsas səbəb idi. Əslində dünyanın heç bir ölkəsi Türkiyə və Pakistan dövlətləri istisna olmaqla erməniləri bu yoldan çəkindirmək üçün heç bir əməli fəaliyyətə malik olmadılar" (Məmmədzadə, Həsənov, 2021).* Hazırda regional sülhün bərpa işində bu gün gənc Təşkilat olmasına baxmayaraq Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasınında böyük əməyi vardır. Təbii ki, istər bu təşkilat səviyyəsində, istərsə də NATO- çərçivəsində böyük nüfuza malik olan Türkiyənin Azərbaycanın yanında olması Azərbaycan üçün əvəzsiz dəstəkdir. Bütün bu dostluq və qardaşlıq, sülh və həmrəylik mesajlarını nəzərə alaraq 12 noyabr 2021-ci ildə Türkiyədə keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə İlham Əliyevin qeyd etmişdir: *"Bugünkü Zirvə Görüşünün çox böyük tarixi əhəmiyyəti var. İlk növbədə, ona görə ki, biz Şuramızı təşkilata çeviririk və bu təşkilatın çox gözəl gələcəyi var. Çünki bu təşkilatın təməlində təbii müttəfiqlər yerləşir və həm tarix, həm mədəniyyət, həm bizim ənənələrimiz, bizim adət-ənənələrimiz, bax, bu, birliyi diktə edir. Eyni zamanda, indiki dünyada təhlükələr hər ay, hər il yaranır və əfsuslar olsun ki, dünyanın aparıcı ölkələri bu təhlükələrə qarşı düzgün addımlar ata bilmirlər və əminəm ki, Türk Dövlətləri Təşkilatının təkcə ölkələrimiz, xalqlarımız üçün deyil, dünya üçün önəmi bundan sonra da artacaq" (Əliyev, TDƏŞ öılkələrinin VIII Zirvə Görüşündəki nitqindən).* Daha sonra öz fikirlərini davam etdirərək ölkə başçısı İ. H. Əliyev qeyd etmişdir:*"Çünki bizim işbirliyimiz səmimidir, biz hamımız qardaşıq, bir-birimizə qardaş deyirik, biz hamımız ənənəvi dəyərlər üzərində ölkələrimizi inkişaf etdiririk. Bizim xalqlarımız arasındakı birlik, qardaşlıq gündən-günə möhkəmlənir və biz bu gün böyük coğrafiyanı əhatə edirik, böyük iqtisadi, siyasi, hərbi gücü bu coğrafiyada ehtiva edirik. Bizim ölkələrimizdə zəngin təbii qaynaqlar var, müasir infrastruktur var, nəqliyyat yolları var. Türkiyə hərbi, iqtisadi və sənaye gücə malik olan ölkədir. Təkcə onu demək kifayətdir ki, Türkiyə NATO-nun ikinci ən güclü ölkəsidir və bunu öz maraqlarını və dünyada sülhü təmin etməklə dəfələrlə göstərmişdir. Ona görə mən çox ümidliyəm ki, bizim təşkilatımız qarşıda duran bütün vəzifələri icra edəcəkdir" (Əliyevin, TDƏŞ öılkələrinin VIII Zirvə Görüşündəki nitqindən).*

İndi dünya nizamıdakı tendensiyada ən ziddiyyətli dövrlərindən biri olmasına baxmayaraq regionumuzda kövrək də olsa sülh və humanitar çağırışların həlli və və ona cavab reaksiyaları artıq yüksələn xətt ilə öz inkişafına doğru ilələməkdədir. Bu çağırışların fəlsəfəsi ondan ibarətdir ki, dünya o cümlədən regionumuz öz inkişaf və stabilliyinə nail olmaq istəyirsə humanitar problemlərin həllində neytrallıq və ya biganəlik göstərmək olmaz. Təsadüfi deyil ki, bu zərurəti qəbul edən ölkələrin regional əməkdaşlıqlardan artıq tərəfdaşlıq prinsiplərinə də meyl etdiklərini görürük. Bu baxımdan Türkdilli dövlətlərin yaratdığı

Təşkilatın da bu məsələdə xüsusi yeri və rolu vardır. Öz sıralarını genişləndirməkdə olan bu təşkilatın gələcəyinə onun regional çərçivədən çıxaraq beynəlxalq miqyaslı proseslərdə ciddi söz sahibi kimi söz deməsin faktı artıq yaxın gələcəyin reallıqlardan biridir. Ölkə başçısı prezident İlham Əliyevin bu işdə böyük əməyinin olması ona təşkilatın Ali Mükafatının verilməsi ilə nəticələndi. Hər halda, yaxın gələcəkdə biz təşkilatın həm sıralarındakı üzvlərinin sayının artdığını və oraya müşahidəçi qismində digər dövlətlərin də qatılmaq istəyinin şahidi olacağıq. İstanbul VIII Zirvə Görüşündə Azərbaycan prezidenti Təşkilatın hazırkı inkişaf yollarından bəhs edərkən qeyd etmişdir: *"Son iki il ərzində önəmli hadisələrdən biri Türkmənistanın bizim təşkilata müşahidəçi qismində qoşulmasıdır. Bu da təbiidir və mən böyük məmnuniyyətlə bu haqda bu gün hələ ki, təşkilata sədrlik edən şəxs kimi deyirəm. Bizim türkmən qardaşlarımızı da ürəkdən salamlayırıq və bu, çox önəmli addımdır. Eyni zamanda, Bakı Zirvəsində Özbəkistan bizim Şuraya üzv oldu, bu da çox önəmli hadisədir. Mən xatırlayıram, 2009-cu ildə Naxçıvan Zirvə Görüşündə o vaxt Naxçıvan sazişi imzalanmışdı. Onu dörd lider imzalamışdı. Amma bu gün bizim sayımız 7-yə çatıb. Bu, onu göstərir ki, bizim təşkilatımız çox cəlbedicidir və əminəm ki, hər bir üzv və hər bir müşahidəçi bundan sonra da bir nöqtəyə vuraraq bizim gücümüzü artıracaqdır" (Əliyev, TDƏM- in VIII Zirvə Görüşündə nitqindən).*

Göründüyü kimi, əsası ulu öndər H. Ə. Əliyev tərəfindən qoyulmuş müasir siyasət və Ordu quruculuğunda inqilabi dəyişikliklərə nail olmuş Ali Baş Komandanın bölgədə sülh və təhlükəsizlik istiqamətində həyata keçirdiyi yüksək strategiya öz bəhrəsini verməkdədir. Bütün bu əsaslardan çıxış edərək qeyd etmək vacibdir ki, gec və ya tez Ermənistan da bu zərurəti dərk edərək regional əməkdaşlıqlara qoşulacaqdır. Çünki müşahidələr göstərir ki, onlar havadarlarından asılı vəziyyətdə olsalar da "dəmir yumruq" əməliyyatının nəticələri onları da rasional siyasətə dönməyə məcbur edəcəkdir. Əslində Azərbaycanın həyata keçirdiyi humanitar layihələr multikulturalizm, dialoq və tolerantlıq siyasəti həm də ermənilər üçün böyük bir şansdır. Bu şansı dəyərləndirmək isə şübhəsiz Paşinyan rejiminin siyasi tərəkküründən və reallıqları qiymətləndirməsindən çox asılıdır. Başqa sözlə desək, hazırda bölgədə yeni dialoq mədəniyyətinin formalaşması prosesi gedir və bu mədəniyyətin mayakı Azərbaycanın həyata keçirdiyi sülh və təhlükəsizlik, kommunikasiya və birgəmövcudluq strategiyasında öz təzahürünü tapır.

Beləliklə yuxarıda irəli sürülən nəzəri və təcrübi məsələlərdən çıxış edərək qeyd edə bilərik:

- Azərbaycan xalqının tarixi inkişaf təcrübəsi sübut edir ki, o, tarixinin heç bir dövründə təcavüzkar siyasəti həyata keçirməmişdir, əksinə onun həyat fəlsəfəsində sülh və əməkdaşlıqlar, dialoq mədəniyyətinin formalaşması regional və beynəlxalq münasibətlərdə prioritet olmuşdur;
- Faktlar sübut edir ki, tarix daima təkrar olunur, bunu tarixdə "həmdövürlülük" və ya "paralellik" nəzəriyyələri də sübut edir. Lakin tarix həm də sübut edir ki, əgər xalqın, dövlətin, etnosun önündə aydın təfəkkürlü siyasi lider dayanarsa o "sınma", "qırılma" anlarından böyük Bərpa prosesinə keçə bilər;
- Azərbaycanın müasir tarixində regional sülh və təhlükəsizlik məsələlərinin qlobal həlli istiqamətində Ulu Öndər H. Ə. Əliyevin həyata keçirtdiyi strategiya özünün praktik əvəzolunmazlığını bir daha hər kəsə bəyan etdi. Bu hədəfləri uğurla davam etdirən Ulu öndərin siyasi varisi İ. H. Əliyev Azərbaycan xalqının taleyinə yazılmış iki yüz illik "qırılma" xəttindən onu qurtararaq inkişaf dövrünə çıxartdı;
- Tarixin fəlsəfi dərki, bəzən xalqlar, millətlər və insanlar üçün çətin olur. Lakin Heydər Əliyev strategiyasının dahiliyi ondadır ki, o öz mürəkkəb kombinasiyaları haqqında geniş məlimatlar verməsə də, nəticə etibarıyla hər kəs üçün anlaşılan bir fenomeni ortaya qoydu: tarix haqqında populist çıxışlar deyil, onun reallaşması yeni stuasiyalar yaratması üçün konkrekt iş görmək lazımdır.

- Azərbaycan Prezidentinin siyasi, iqtisadi, humanitar, hərbi strategiyası sübut etdi ki, İlham Əliyevin Prezidentliyi dövrü Azərbaycan tarixinin Qızıl dövrü kimi əbədi tarixdə qalacaqdır.
- Azərbaycanın humanitar aspektdə həyata keçirdiyi 30 illik fəaliyyət göstərdi ki, Azərbaycanın siyasi strategiyasının istiqaməti dünya miqyasında bəşəri sülh və təhlükəsizliyə nail olmaqdır. Bu yol çətin yol olsa da, o gələcəyin *Post Homo Sapiensin* yolu olduğundan ondan Yer üzündə yaşayan heç bir dövlət imtina edə bilməz. Gələcəyin fəlsəfəsi bu yola ehtiram və hörmətdən keçir.

**Ədəbiyyat siyahısı**

Məmmədov C., Cəmiyyət, səxiyyət, təhsil, din. Bakı, "Nurlar" Nəşriyyat Poliqrafiya Mərkəzi, 2021, 176 s.
Məmmədzadə İ,, Həsənov S.: "Qələbə və postmüharibə dövrünə Azərbaycanın yeni geosiyasi reallıqlara təsiri". AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun "Azərbaycanın strateji hədəfləri və Cənubi Qafqazda yeni reallıqlar" toplusu (Bakı, "Bilgi" 2021. səh., 250,
Yaspers K. Tarixin mənası və təyinatı, Bakı, "Zəkioğlu" nəşriyyatı, 2008, 764 s.
Zeynalov Ş. Dialoq Fəlsəfəsi. Bakı, 2017, 304 səh.
"Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamə də (https://president.az/az/articles/view/55496)
Əliyevin İlham/ Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə nitqi https://president.az/articles/54229
Uniston Çörçil: https://az.wikipedia.org/wiki/Vinston_%C3%87%C3%B6r%C3%A7ill
Тойнби А. Дж. Постижение истории, М.: Прогресс. 1996, 608 с.
Ясперс К. Смысл и назначение истории: Пер. с. нем. Москва: Политиздат, 1991, 527 с.
Шпенглер О. Закат Европы. В 2-х т, Т.1, Москва: Айрис-пресс, 2006, 528 с.
Хантингтон С. Столкновение цивилизаций. Пер. с англ. Т. Велимеева, Москва: АСТ, 2006, 571 с.

## TƏHSİL FƏLSƏFƏSİNİN İNKİŞAF TENDENSİYALARI

**Nəzakət Salmanova**
Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,böyük elmi işçi
naza_salmanova@mail.ru

**Açar sözlər:** təhsil, təhsil fəlsəfəsi, analitik fəlsəfə, ontologiya, epistemologiya, koqnitiv, aksiologiya.

Fəlsəfə insan biliyinin ən qədim sahələrindən biridir. Qısaca olaraq, fəlsəfə anlayış etibarilə insana hikməti sevməyi öyrədir. Eyni zamanda o, dünyagörüşü, xarakterli problemlərin qoyuluşuna və həllinə yönəlmiş mənəvi fəaliyyətin xüsusi sahəsidir.

Təhsil isə insana öyrəndikləri arasında əlaqə yaradıb, bunları həyatında tətbiq etmək bacarığı qazandırır. Həm fəlsəfənin, həm də təhsilin ortaq məqsədi mövcud reallıq üzərində düşünmə və onları təhlil-tərkib süzgəcindən keçirmə, insanın fərd olaraq düşüncə üfüqünün genişlənməsinə zəmin yaratmaqdır.

Eyni zamanda təhsil, ictimaiyyətin əldə etdiyi biliklərini, bacarıqlarını və dəyərlərini bir nəsildən digərinə ötürən bir prosesdir. Daha geniş mənada təhsilə şəxsin düşüncəsinin, xarakterinin və fiziki qabiliyyətinin təsiri ilə həyata keçirdiyi hər hansı bir hərəkət və ya

təcrübə daxil edilə bilər. Təhsil, inkişafa, həmçinin sosial və iqtisadi uğurlara nail olmaq üçün fərdlərin və icmaların imkanları və potensialına əsaslı təsir göstərir. Təhsil inkişafın, eləcə də insanların gücləndirilməsi üçün lazım olan əsas faktorlardan biridir.Təhsil insanları bilik və məlumatlarla təmin edir, həmçinin özünə hörmət və özünə inam hissi yaratmağa və potensialı reallaşdırmağa kömək edir.

Bəs təhsil fəlsəfəsi nədir? Bu iki məfhumu birləşdirən nədir?

Təhsil fəlsəfəsi fəlsəfi bilik sahəsi kimi, ümumi fəlsəfi yanaşma və düşüncələrdən istifadə edərək təhsilin inkişafının rolunu və əsas qanunlarını təhlil edir.Təhsil fəlsəfəsi, fəlsəfi bir metafizika, sosial fəlsəfə və fəlsəfi antropologiya ilə müqayisədə daha geniş fəlsəfi bilik sahəsidir. Təhsil fəlsəfəsi təhsil siyasətinin hazırlanmasına və həyata keçirilməsinə istiqamət verən fərziyyə, inanc, qərar və standartları araşdırır, tutarlı olub-olmaması istiqamətində nəzarət edir. O, təhsil sistemlərinin əsasında duran "İnsan" anlayışlarını qiymətləndirir.

Qədim dövrlərdən başlayaraq fəlsəfi cərəyanlarda təhsil probleminə geniş yer verilmişdir. Bunun əsas səbəbi fəlsəfənin əsas olaraq insanın bütövlükdə həyatını, onun dünyadakı yeri və rolunu, cəmiyyətdəki mövqeyini dərk etməyə çalışmasıdır. Başqa ifadə ilə desək, fəlsəfə insanın həyatının mənasını və onun toplumda mövcudluğunun təməl şərtlərini öyrənir. Təbii ki, bu, bir tərif deyil. Bizim araşdırdığımız problem aspektində isə vacib məqamı ifadə edir. Çünki fərdin toplumda var olması onun təlimindən birbaşa asılıdır. Filosoflar təsadüfən demirlər ki, idrak mövcudiyyətin özüdür. Yəni insan dərketmədə özünü reallaşdırır, tədqiq edir və bu mənada həyatının əsasını bu özəllik təşkil edir. Bu səbəbdən hər bir fəlsəfi cərəyanda insanın təhsilinə ciddi yer verilir. Təhsilin məqsədi, onun təşkili, fərdin və cəmiyyətin həyatındakı rolu fəlsəfə üçün aktual məsələlərdir. Bu prizmada geniş aspektdə fəlsəfi cərəyanlarda təhsil faktorunun yeri və rolunu araşdırmağa ehtiyac vardır.

Məlumdur ki, fəlsəfə (philosophy) hərfi mənası ilə "bilik və müdriklik sevgisi, axtarışı"dır.Fəlsəfə kainatın quruluş və nizamı, həyatın məna və məqsədi, biliyin mənbə və etibarlılıq dərəcəsini və doğrunun nə olduğunu izah edir.Fəlsəfə və təhsil arasında sıx əlaqə mövcuddur. Həqiqətə nail olmağa səy göstərmək, təhsil və fəlsəfənin ortaq məqsədidir. Hər bir elmi inkişafın məhvərində, təhsil paradiqmalarında bu inkişafa yol göstərən fəlsəfə vardır.Fəlsəfə də təhsilin əldə etdiyi nəticələrdən faydalanaraq yeni fikirlər ortaya qoyur.

Fəlsəfənin maraq sahələri ümumi olaraq varlıq fəlsəfəsi (ontologiya), bilik fəlsəfəsi (epistemologiya) və dəyərlər fəlsəfəsindən (aksiologiya) ibarətdir.Varlıq fəlsəfəsi var olanı araşdıran bir fəaliyyət sahəsidir.Ontoloji yanaşma həyatın dəyişən tərəflərini deyil, "dəyişməyən həqiqət nədir?" sualı ilə maraqlanır və var olanı bütöv müstəvidə araşdırır.Bilik fəlsəfəsi biliyin nə olduğunu, mənbəyini, onun sərhədlərini, doğru, səhv, mütləq ya da nisbi biliyin nə olduğunu araşdırır. Dəyər fəlsəfəsi əsas etibarilə dəyərlərin mənbəyini, insanlarda anadangəlmə mövcud olduğu, yoxsa sonradan qazanıldığı, dəyərlərin zamana və cəmiyyətə görə dəyişib-dəyişmədiyini, hər kəs üçün ortaq dəyərlərin olub-olmadığı, onların meyarlarının nə olduğu kimi suallara cavab tapmağa çalışır.Həm fəlsəfənin, həm də təhsilin əsasını varlıq, bilik və dəyərlərlə bağlı problemlər təşkil edir.

Fəlsəfə tarixinə baxdıqda varlıq, bilik və dəyərlərlə bağlı dünyagörüşləri bir-birindən fərqli olan müxtəlif fəlsəfi cərəyanların ortaya çıxdığı görünür.Bu fəlsəfi sistemlərin fonunda təhsil təcrübələri və tətbiq imkanlarına zəmin yaradan bir çox təhsil fəlsəfəsi cərəyanları formalaşmışdır.Bu təhsil fəlsəfəsi paradiqmaları təhsildə yeni novasiyaların bərqərar olmasında bazis rolunu oynamış, təhsilin fəlsəfə müstəvisində alt zəmininin formalaşmasına səbəb olmuşdur.

İyirminci əsrdə təhsil fəlsəfəsinin inkişafı prosesində iki istiqamət istiqaməti ayrıldı:

1. Elmə yönəlmiş və pozitivizm fikirlərindən istifadə edən empirik-analitik fəlsəfi istiqamətlər, pedaqoji biliklərin quruluşunun müəyyənləşdirilməsinə, pedaqogikada nəzəri biliklərin vəziyyətinin öyrənilməsinə, pedaqoji biliklərin problem irəli sürməkdən irəli gələn nəzəriyyələrə qədər artmasına yönəlmişdir.

2. Humanitar elmlər fəlsəfi istiqamətlərdir, məsələn: 19-cu əsrin əvvəllərindəki Alman idealizmi, həyat fəlsəfəsi, ekzistensializm və fəlsəfi antropologiyanın müxtəlif versiyaları, bunlar ruh elmləri kimi pedaqogika metodlarının özünəməxsusluğunu, onun humanist yönümünü vurğulayır, anlayış metodunu vurğulayır. , təhsil prosesində iştirak edənlərin hərəkətlərinin mənasının təfsiri.

Təhsil fəlsəfəsinin inkişafındakı əsas dünya tendensiyaları aşağıdakılardır: təhsilin sosial-mədəni paradiqmalarında dəyişiklik, klassik model və təhsil sisteminin böhranı ilə əlaqəli, təhsil fəlsəfəsi və sosiologiyasında, humanitar elmlərdə pedaqoji fundamental fikirlərin inkişafı; eksperimental və alternativ məktəblərin yaradılması; təhsilin demokratikləşməsi, davamlı təhsil sisteminin yaradılması; təhsilin humanistləşdirilməsi və kompüterləşdirilməsi; təlim və təhsil proqramlarının pulsuz seçimi; məktəblərin və universitetlərin müstəqilliyi əsasında məktəb icmasının yaradılması.

20-ci əsrin ortalarından bəri Qərbdə təhsil fəlsəfəsinin ümumi fəlsəfədən ayrılması faktı mövcuddur. Bunun üçün fəlsəfi düşüncənin təkamülünün ümumi tendensiyalarından tutmuş təhsilin aktual problemlərinin məhz fəlsəfi baxımdan həllinə konstruktiv yanaşma imkanlarına diqqəti artırmağın zəruriliyinə qədər bir sıra səbəblər var. Ölkəmizdə təhsil fəlsəfəsinin xüsusi bir istiqamət kimi formalaşması prosesi yenicə başlamışdır, baxmayaraq ki, belə bir istiqamətə ehtiyac olduqca hiss olunur. Aydındır ki, bu münasibət konstruktiv olmalıdır. Hal-hazırda, təhsil fəlsəfəsinin özünün problemlərini, bir tərəfdən ümumi fəlsəfədən, digər tərəfdən də təhsilə dair xüsusi elmlərin daha spesifik problemlərindən fərqli olaraq təyin etmək vəzifəsi çox aktualdır.

Təhsil fəlsəfəsi - təhsil nəzəriyyəsi və təhsil metodikasının inkişafı üçün ümumi təlimatlar, eyni zamanda insan şəxsiyyətinin və fərdiliyinin formalaşmasına, insan imkanlarının reallaşması üçün şəraitin yaradılmasına ilkin şərtlər, mənbələr, təlimatlar, təsir strategiyaları, eyni zamanda uyğun baxışlar, qiymətləndirmələr və dünyagörüşlər sistemidir. Buraya insanın mənəvi və təhsil məkanında varlığı və yaranması, təhsilin məqsədi və rolu, fərdin, cəmiyyətin, dövlətin taleyinə təsiri, təhsilin ziddiyyətli hədəfləri və mənalarının əlaqəsi, onun paradiqması və s. daxildir.

Təhsil fəlsəfəsinə həm bir elm, həm də təhsil haqqında düşüncə tərzi kimi baxılır. Bir elm olaraq təhsil psixologiyası, didaktika, müqayisəli pedaqogika yanında yer tutur və pedaqoji faktların (hadisələrin) əsas, ümumbəşəri xüsusiyyətlərini təsvir etməyə və anlamağa çalışır. Bir prinsip sistemi olaraq, təhsildə tətbiq olunan ümumi bir fəlsəfədir.

Təhsil fəlsəfəsinin ilk sosial-institusional forması ötən əsrin 40-cı illərində ABŞ-da yaradılmışdır. Ancaq həmin dövrə qədər təhsilin fəlsəfi öyrənilməsi filosofların diqqət mərkəzində olmamışdır.

Məsələn, Platon, Aristotel, Yan Komenski, Lokk və başqaları bu mövzuya böyük diqqət yetiriblər. Maarifçilik ideallarında təhsilin əsas yer tutduğunu demək artıqdır. Nəhayət, XIX əsrdə insanın təhsil problemi əsas mövzulardan biri kimi qəbul edilirdi (məsələn, Herder və Hegeldə). XX əsrdə təhsilə fəlsəfi yanaşmaya ehtiyac daha da artdı. Eyni zamanda cəmiyyətdə müşahidə edilən proseslərin dərki məsələsi daha da aktuallaşdı .

Təhsil fəlsəfəsini bir neçə mərhələyə bölmək olar. Bunlar aşağıdakılardır:

İlk mərhələdə 1940-50-ci illəri əhatə edir ki, bu mərhələdə təhsil fəlsəfəsi azaldıldı. Sovet məktəbində mövcud olan təcrübənin ideoloji müəyyən edilməsi ilə bağlı idi. 1940-50-ci illərin başlanğıcında ilk mərhələdə problemli olsa da təhsil fəlsəfəsi hələ müstəqil bir sahəyə çevrilməyib, hamısı onun ayrı-ayrı elementləri nəzəri əsərlər daxilində idi. Məsələn, fəlsəfə, psixologiya, pedaqogika.

İkinci mərhələ rasionalizasiya adlanırdı. 1950-60-cı illərin dönüş mərhələsi idi. Bu mərhələdə pedaqoji axtarışlar tədrisin səmərəliliyinin artırılması istiqamətində tədris prosesini təkmilləşdirməyə başladı.

1960-cı illərin üçüncü - kibernetik mərhələsində təhsil fəlsəfəsi öyrənmənin alqoritmləşdirilməsi və proqramlaşdırılması, optimallaşdırılması və idarəedilməsi kimi ümumiyyətlə, texnokratik formaları tətbiq etmək zərurəti ilə üzləşdi. 1960-70-ci illərin sonlarında fəlsəfi təməli olan təhsil proqramları, fəlsəfi təhsilin müxtəlif aspektləri öyrənilməyə başlanıldı.

1970-ci illərin dördüncü - problemli mərhələsində təhsil fəlsəfəsi sırf texnokratik çərçivədən kənara çıxan belə bir yanaşmanı əsaslandırmağa başladı. Tələbələrin idrak fəaliyyətini stimullaşdıran bir problem kimi öyrənilməyə başlanıldı. Bu psixologiyada şəxsiyyət-fəaliyyət yanaşması və fəlsəfədə sistem-fəaliyyət yanaşması idi.

Beşinci mərhələdə, 1980-ci illərdə təhsil fəlsəfəsi mədəni paradiqmaların yanında dialoqik və fəal şəkildə inkişaf edirdi. Beşinci mərhələdə 1990-cı və daha sonrakı illərdə təhsil fəlsəfəsi xüsusi bir bilik sahəsinə çevrilir, metodoloji, nəzəri və sosial əsaslarının sistematik şəkildə öyrənilməsi aparılır.

1980-90-cı illərin əvvəllərindəki altıncı - ekoloji - mərhələdə təhsil fəlsəfəsi problemlərini müxtəlif inkişaf edən mühitlərin qarşılıqlı münasibətləri kontekstində nəzərdən keçirir: ailədən məktəbə və universitetə qədər sosial-psixoloji, peşəkar fəaliyyət və informasiya-sosiogen. Bu mərhələdə mərhələdə sosial-mədəni və sosial-texniki aspektlərin qarşılıqlı əlaqəsi problemlərinə diqqət yetirilir.

1980-ci illərin sonu və 1990-cı illərin əvvəllərində fəlsəfi və təhsil problemləri düşünülmüş şəkildə formalaşdırılır, əks olunması və inkişafındakı paradiqmaların dəyişməsi baş verir, metodik iş növləri təhsil praktikasının dizaynının konseptual sxemləri kimi müzakirə olunur.

Fərdlə kollektiv arasında münasibətlərin mürəkkəbləşməsi, elmi biliyin cəmiyyət həyatında rolunun yeni səviyyəyə qalxması təhsil məsələsini ön plana çıxarırdı. Yaxşı vətəndaş yetişdirməklə peşəkar mütəxəssis formalaşdırmağın pedaqoji aspektləri üzərində daha dərindən dayanmaq lazım gəlirdi. Buna görə də təhsil fəlsəfəsi mövcud təhsil sistemlərinin təhlili ilə kifayətlənə bilməzdi, onun transformasiyaları və yeni modellərin hazırlanması kimi problemlərin fəlsəfi dərkinə can atmalı idi.

Təhsil fəlsəfəsində aşağıdakı əsas istiqamətlər aktuallaşır:
- təhsil sisteminin yenidən təşkil edilməsi üçün əsas istiqamətin müəyyən edilməsi;
- yeni dəyərlər sistemi və təhsil sistemlərinin yeni proqramlarının əsaslarının hazırlanması;

Bu prosesdə iki aspekt qarşılıqlı əlaqədə götürülür. Bunlar təhsilin institusional dəyişməsi və institusional təhsildən kənar sistemlərin transformasiyasından ibarətdir. Qeyd etmək lazımdır ki, həmin iki aspektin sintezdə nəzərdən keçirilməsi müasir dövrün tələblərindən qaynaqlanır.Belə ki, müasir cəmiyyətin bütün sahələri arasında sıx əlaqə mövcuddur. Dünyanın aparıcı alimlərinin qənaətinə görə, bu proses təhsilin fərqli təşkili formalarının təşəkkülünü zəruri edir. O cümlədən, rəsmi institusional təhsil sistemlərinin, ümumiyyətlə, cəmiyyətdə rolunun dəyişməsi prosesi gedir. Bir çox tədqiqatçılar bu kontekstdə institusional təhsildən kənar sistemlərin inkişaf zərurətini vurğulayırlar.Biz bu məsələyə irəlidə daha dərin və geniş diqqət yetirəcəyik.

Ancaq həmin bağlılıqda bir sıra aktual məqamları vurğulamalıyıq. Hazırda təhsil cəmiyyətin həyatının müstəqil sahəsinə çevrilir və beləliklə, təhsil institutları şaxələnir. Pedaqoji bilik plüralistik xarakter alır, onun ideal və məqsədlərinə yanaşmalar dəyişir .

Bunun kökündə isə təhsilin subyekti olan insana fərqli yanaşmaların mövcudluğu durur. Deməli, müasir təhsil sistemlərinin transformasiyası zərurəti əslində insanın cəmiyyətdə yeri, rolu, fərd ilə kollektiv səviyyələr arasında harmoniyanın yaradılması və insan şəxsiyyətinin formalaşdırılması kimi məsələlərdən qaynaqlanır.Təhsilin sosial-fəlsəfi refleksiyası da məhz bu faktorlarla sıx bağlıdır.Burada ilk növbədə təhsil fəlsəfəsində özünü göstərən emprik-analitik və humanitar istiqamətlər arasında olan fikir ayrılıqlarını vurğulamaq lazım gəlir.

Bu istiqamətlərin hər biri XX əsr boyu və XXI əsrin əvvəllərində təhsilə öz yanaşmaları ilə fərqlənmiş və onu qorumağa çalışmışlar.Yuxarıda qeyd etdiyimiz kimi, bu fərqlərin əsasında insana təhsilin subyekti kimi fərqli yanaşma dayanır.

Təhslin analitik fəlsəfəsi ötən əsrin 60-cı illərində ABŞ və İngiltərədə formalaşmağa başlamışdır. Onun nümayəndələri arasında E.Makmillanı, İ.Şeffleri, D.Soltisi və başqalarını göstərə bilərik . Onlar insan psixologiyasına biheviorizm, psixoanaliz mövqeyindən yanaşırdılar.Yəni təhsil məsələsinə sosial-mədəni kontekstdən çox, koqnitiv (idraki-şüuri) proseslərin prizmasında diqqət yetirirdilər. Bunun konkret forması isə dilin məntiqi analizindən ibarət idi. Konkret desək, təhsilin analitik fəlsəfəsi postpozitivizm aspektində inkişaf edirdi. Bu kontekstdə "təhsil", "təlim", "tədris", "tərbiyə" və s. kimi terminlərin məzmunu müəyyənləşdirildi. Bununla analitik fəlsəfə təhsili elmi meyarlara tabe etdirir ki, burada daimi yoxlama (K.Popper mənasında) xüsusi yer tutur. Eyni zamanda, bu fəlsəfə təhsildə ideoloji komponentin olmasına tənqidi yanaşır. Müasir təhsildə ideologiyanın insanın təhsil subyekti kimi yetişməsində mane olduğu fikrini müdafiə edirlər .

Həmin dövrdə təhsilin fəlsəfəsində tənqidi-rasionalist istiqamət meydana gəlmişdir.Onun tərəfdarları pedaqogikanı praktiki sosiologiya kimi izah edir, pedaqoji fəaliyyətdə uzunmüddətli planlaşdırma və layihələndirməni qəbul etmirdilər.Tənqidi-rasionalistlər K.Popperin "açıq cəmiyyət" modelinə üstünlük verirdilər.Onlar təhsilin bu məqsədə çatmaq üçün vasitə olduğunu düşünürdülər.

XX əsrin 70-ci illərindən başlayaraq təhsilin analitik fəlsəfəsi məntiqi pozitivizm prinsiplərindən linqvistik analiz fəlsəfəsinin prinsiplərinə keçid alır.Bu, təhsildə "dil oyunları", semantikanın yeri və rolunu aktuallaşdırmaq imkanı yaradır.Hazırda hər iki aspekt çox aktualdır.Onun yeni formaları meydana gəlir.Məsələn, kibersemiotika və biosemiotikanın getdikcə daha geniş miqyasda təhsil prosesində özünü göstərməsi zərurəti qarşıya çıxır.

Hələlik bu sahədə elə bir ciddi addım atılmayıb.Ancaq şübhəsiz ki, yeni təhsil konsepsiyalarında onların ciddi rolunu yaxın gələcəkdə etiraf etməli olacağıq.Məsələn, kibersemiotika biliyin özünütəşkili prinsiplərini öyrənir ki, bunun pedaqoji və tədris şərtlərini aydınlaşdırmaq prinsipial əhəmiyyət kəsb edir.Təhsil prosesi biliyin özünütəşkili qanunlarına uyğun aparılmalıdır ki, mənəvi-mədəni və elmi mühiti sürətlə dəyişən cəmiyyətlərdə layiqli insan-mütəxəssis yetişdirmək mümkün olsun.Bunlar hələlik sırf nəzəri "arzular"dır, lakin indi reallıqla fantaziya arasında elə bir məsafə qalmayıb.

Bütün bunlar XXI əsrin başlanğıcında təhsil fəlsəfəsi ilə bağlı olan bir sıra problemləri meydana çıxartdı.Hər şeydən əvvəl, təhsil sisteminin və pedaqoji fikrin böhranının özünü göstərməsini vurğulamaq lazımdır.Bunun kökündə bütövlükdə dövrün mənəvi böhranı dayanır.Xüsusilə, informasiya cəmiyyətinin formalaşması kontekstində bu məsələ olduqca aktual problemə çevrilib (8).

Digər məsələ odur ki, təhsil haqqında hələlik dağınıq halda olan fəlsəfi konsepsiyalar arasında ideya bağlantılarının yaradılmasına ehtiyac duyulur.Bu, belə olmasa, təhsilin fərdi və kollektiv səviyyədə müasir dövrün tələblərinə uyğun faydasını konkretləşdirmək imkansız olur.Strateji hədəf bəlli olmayanda cəmiyyətin davamlı inkişafı haqqında danışmaq mümkün deyil.

Beləliklə, yeni minilliyin və əsrin başlanğıcında formalaşan müasir informasiya sivilizasiyası dövründə təhsil, onun çağdaş və gələcək problemləri getdikcə daha da aktuallaşır və bu proses təhsilin fəlsəfəsinə yeni yanaşmalarla müşayiət olunur.

Fəlsəfə anlayış etibarilə insana hikməti sevməyi öyrədir.Təhsil isə insana öyrəndikləri arasında əlaqə yaradıb, bunları həyatında tətbiq etmək bacarığı qazandırır.Həm fəlsəfənin, həm də təhsilin ortaq məqsədi mövcud reallıq üzərində düşünmə və onları təhlil-tərkib süzgəcindən keçirmə, insanın fərd olaraq düşüncə üfüqünün genişlənməsinə zəmin yaratmaqdır.Əslində hər bir fəlsəfi məktəb və düşüncə sistemi özünə uyğun insan yetişdirmək istəyir.Bu yanaşmada idealizm, realizm, praqmatizm, ekzistensializm, materializm və

pozitivizmin məqsədləri fərqli olmuşdur.Ancaq müasir qloballaşan dünyada artıq fərqli "izm"lər arasında məsafə getdikcə qapanmaqdadır.Həmçinin çağdaş təhsil sistemi çərçivəsində təhsilli insan fərqli görüşləri öz düşüncə matrisasında birləşdirməyi bacara bilir.Fəlsəfə gerçəyi axtarıb tapmağa çalışır.Bu sorğulama fəlsəfənin vəzifəsidir.Təhsil fəlsəfəsi təkamül yolundakı insanı, yaratdığı bütün dəyərlərlə birlikdə fokusa alır və onu daha da yüksəltməyə çalışır.Fəlsəfənin və təhsilin bir-birindən ayrılmaz bir bütün olduğunun ən böyük əlaməti dövrün tələblərinə uyğun, dəyişən şərtlərə cavab verən insan yetişdirməkdir.Məzmunu nə olursa-olsun təhsilin hədəfi geniş düşüncəsi ilə insandır. Ana mövzusu insan olan təhsil fəlsəfəsi insanın çatmaq arzusunda olduğu bütün hədəfləri gerçəkləşdirməyin yollarını arayan bir sistemdir .

Müasir dövrdə təhsilşünaslığın yeni metodologiya axtarışı məsələsinin aktuallaşmasına qədər ötən əsrin müxtəlif dövrlərində təhsil fəlsəfəsinin inkişafını müəyyənləşdirən bir sıra metodoloji prinsiplər formalaşmışdır və hazırda da yeni axtarışlar üçün onların əhəmiyyəti böyükdür.Bu yanaşmada deyə bilərik ki, qlobal problemlərin maarifçilik düşüncəsinin problemi kimi qəbul edilməsi onların həllinin həm də təhsilşünaslığın məsələsi kimi başa düşülməsinə səbəb olur və bu tendensiya təhsil fəlsəfəsində aktual mahiyyət kəsb edir.Qlobal problemlərin mahiyyətində bir çox hallarda qarşılıqlı anlaşma, tolerantlıq və yardımlaşmanın olmaması durur.Burada təhsilin əsas funksiyası problemin fəlsəfi dərki ilə yanaşı, cəmiyyətdə inteqrasiya funksiyasını ifadə edən dəyərlər sisteminin (vətəndaş, sosiogen fərd və sair) tədqiqi məsələsidir.

Son 20-30 il ərzində dünyada baş verən hadisələr sosiumun bütün həyat sferasını dəyişdiyi kimi, cəmiyyətin fundamental alt sütunlarından biri olan təhsilin fəlsəfi mahiyyətinə yenidən baxmağı tələb edir, problemin dərkində mənəvi şüur mövqeyindən çıxış etməyi vacib bilir. Belə ki, məsələ şüurun seçim edə bilmək qabiliyyəti ilə əlaqələndirilir.Seçim şəraiti isə mənəviyyatın, individin müstəqil həyatının ilkin əsası kimi başa düşülür.Bu məsələ həm də insanın və sosiumun daxili inteqrasiya olunmuş bütövlük kimi öz təhsil dəyərlərinə olan münasibəti prizmasında dərk olunur.Burada təhsil fəlsəfəsinin üzərinə düşən missiya ondan ibarətdir ki, Haydeggerin qeyd etdiyi kimi, "insanın öz mənəvi dəyər aləminə inanma xüsusiyyəti onun üçün zəruridir. Ona görə zəruridir ki, məsələ həmişə insanın özünü təsdiqləməsi ilə bağlıdır" .

Burada həm "dəyərlilik", həm də "özünütəsdiq" faktında təhsilin qlobal mahiyyəti göz önündə canlanır.

Azərbaycanın təhsil fəlsəfəsinin tarixi erkən orta əsrlərdən başlayan sosial-fəlsəfi-kulturoloji dərketmə ilə nəinki o dövrün rasional təhsil konsepsiyalarını mənimsəyə bilmiş, eyni zamanda bu gün müasir Qərb təhsilşünaslığının əsas paradiqmalarından hesab olunan metabilik və bacarıqlar - ömürboyu öyrənmə, öyrənməyi öyrənmək, sosial harmoniyanı yaratmaq və sair dəyərlərin sələfi hesab oluna bilər.

Müasir dünya gerçəkliyini dərketmə rakursunda bəşəriyyətdə həm dəyərlərin mübarizəsi, həm də onların dialoqu özünü göstərir.Bu axtarış tendensiyası əslində bu və ya digər dərəcədə təhsil fəlsəfəsində də əks olunur. Təhsil fəlsəfəsi bəşəriyyətin yeni inkişaf yollarının gərgin axtarışını daha çox özündə hiss edir: "Axtarış mədəniyyətin müxtəlif sahələrində - fəlsəfədə, incəsənətdə, dünyanın dini cəhətdən dərk olunmasında, elm və təhsildə baş verir. Söhbət artıq insan varlığının fundamental əsaslandırılmasından, yeni dəyərlərin yaradılmasından gedir.Yeni dünyagörüşlü yönümün artıq ilkin əsasları texnogen sivilizasiyanın öz içində yaranır.Müasir dünyada tamamilə fərqli mədəni ənənələr bir-birilə toqquşur, qarşılaşır və dialoqa girir.Bəşəriyyət isə anlayır ki, bu dialoqu aparmağı öyrənmək lazımdır".

İlk növbədə, Azərbaycan fəlsəfi fikri üçün milli-mədəni və mənəvi sistemlərə, bu sistemlərin yaranmasında zəmin həlqə rolunu oynayan təhsil fəlsəfəsinə xas olan universalilərin öyrənilməsi də çox əhəmiyyətlidir.

Təhsil vasitəsilə insanın istedadı, bilik və bacarıqlarının inkişaf etdirilməsi istiqamətində fəaliyyətin məcmusunun sosial-fəlsəfi mahiyyətinin müəyyənləşdirilməsi aktuallıq kəsb edir.Həmçinin, bu prosesə cəlb edilənlərin fərqli istiqamətlərdə inkişafını araşdırmağa ciddi ehtiyac vardır.Bu fərqliləşmə təhsil prosesində qazanılan bilik, bacarıq, mövqe və dəyərlər yolu ilə reallaşır.Məhz bu nöqtədə təhsil eyni zamanda insanın bir "yetişdirmə" prosesidir.Cəmiyyətşünaslığın əsas anlayışlarından biri olan "sosiallaşma" (ictimailəşmə) insanın aid olduğu cəmiyyətin mədəni elementlərinin öyrənilərək özününküləşdirilməsini şərtləndirir.Şəxsiyyət əksər hallarda doğulduğu və yetişdiyi mədəniyyət tərəfindən müəyyən olunur.Hər cəmiyyət öz mədəni dəyərlərini yeni nəsillərə ötürmək alətlərinə malikdir.İctimailəşmə prosesi insanın dünyaya gəldiyi gündən başlayaraq, onun bütün həyatı boyu davam edən uzun bir dövrü əhatə edir.Bu müddət ərzində bioloji fərd şəxsiyyət kimi formalaşır.Başqa sözlə desək, ictimailəşmə müəyyən bir cəmiyyətin davranış qəliblərini şəxsiyyətin sosial varlığına müncər edərək onu cəmiyyətə aid olan sosiogen bir fərd halına gətirir.Dürkheymin təhsili "daha yaşlı nəsillərin hələ ictimai həyata hazır vəziyyətə gəlməmiş nəsillər üzərindəki davranışı" olaraq xarakterizə etməsi məhz özündə ictimailəşməni ehtiva edir.

Bu ictimailəşmə prosesi təhsilin ən mühüm paradiqmalarından biri hesab olunan davamlı təhsil anlayışı ilə assosiasiya olunur.

Şübhəsiz, təhsil bir çox aspektləri olan, mürəkkəb struktur-funksional xüsusiyyətlərə malik, açıq sistem kimi geniş və daimi tədqiqatlar aparmağı tələb edir.Bunun siyasi, sosial, iqtisadi, mədəni aspektləri haqqında kifayət qədər danışmaq olar.Eyni zamanda, qəbul etməliyik ki, qloballaşma prosesi tədricən təhsili "vahid kontinuum" halına gətirir.Yəni müxtəlif təhsil sistemləri arasında əlaqələr tapılmalı və təhsilə eyni mövqedən yanaşılmalıdır.Əks halda iqtisadi və sosial qloballaşma tamamlanmamış qalır.İnsanların bilik, tərbiyə və əxlaq baxımından bütövləşməsi dövrün əsas problemi hesab edilməlidir.İnsanlar intellekt və mənəviyyat sahəsində dialoqa varmalıdırlar.Buna nail olmaq üçün hər bir müstəqil cəmiyyətin öz milli təhsil sistemi olmalıdır. Burada milli ilə beynəlmiləlin real harmoniyasına çatmağın mexanizmləri işlənməlidir. O isə yalnız fəlsəfi təfəkkür səviyyəsində mümkündür. Deməli, milli təhsil sistemini yaratmaq əslində fəlsəfi problemdir.Burada zaman konteksti də fəlsəfi məzmun kəsb edir.Çünki fəlsəfədə zamana fərqli baxışların olmasına baxmayaraq, varlığın zamanda məzmun aldığını hər kəs qəbul edir.Milli təhsil sistemi konkret zaman çərçivəsində hansı məzmun kəsb etməlidir?Həmin kontekstdə zamana Aristotel, Nyuton və ya Berqson prizmasından yanaşmaq elə də fərq etmir.Əsas odur ki, zaman sürəkliliyi ilə təhsil sisteminin dinamikası və yeniləşməsi arasında praktiki uyğunluğu tapa biləsən.Buna görə milli təhsilə müasir dövr kontekstində nəzər salmaq çox aktual görünür.

Çağdaş dünyamız mürəkkəb, sürətli və ziddiyyətli proseslərlə müşayiət olunan açıq sistem kimi xarakterizə olunur.Bizi maraqlandıran problem baxımından ən əhəmiyyətlisi odur ki, bütün bu xüsusiyyətlər müasir elm sahələrinin tədqiqat predmetinə çevrilib. O cümlədən, çağdaş elmlərin konseptual aparatında onların ayrıca sahəsi meydana gəlib. Həmin özəllik həm təhsil məsələsini daha da aktuallaşdırır, həm də onun müasir həyat fəlsəfəsindəki yerinə daha geniş kontekstdə nəzər salmaq ehtiyacını vurğulayır.Bu bağlılıqda fəlsəfi kontekstdə bir sıra vacib məqamlara diqqət yetirmək vacibdir.

Böyük türk təhsilşünası Hilmi Ziya Ülkenin təbirincə desək, "pedaqogikanın tarixi düşüncə tarixi qədər qədimdir.Yalnız yunan fəlsəfəsində deyil, Çin və hind fəlsəfəsində də qədim insanın mənəvi inkişafı ilə bağlı ilkin fikirlərə rast gəlinir". Bu fəlsəfi cərəyanlardan sonralar həm də subyektlə obyektin, daxili ilə xaricinin, ruha aid olanla təbiətə aid olanın, fərdlə toplumun sintezindən təhsil fenomeni yaranacaqdır.Təhsil fəlsəfəsinə müxtəlif bucaqlardan baxsaq, həm onun mahiyyətinin daha dərindən açılmasına, həm də müasir dialektikanın qanunauyğunluqlarına daha dərindən nəzər yetirməyə imkan yaranacaq. Təhsil fəlsəfəçisi K.Pricenin qeydləri bu yanaşmada maraqlıdır: "Mən təhsil

fəlsəfəsi nədir?” deyə sual verdiyim zaman bu sualla həm bir, həm də üç dəyişik sual soruram. Bunlardan ilki təhsilin təhlili, ikincisi təhsil metafizikasının necəliyi, üçüncüsü də təhsil əxlaqının nə olduğu haqqındadır”.

İnsan dünyaya göz açdığı gündən özünü və ətrafını dərk etməyə çalışır, digərləri ilə qurduğu münasibətlər nəticəsində informasiya fəzasına düşür və mövcud dəyərləri özünəməxsus formada inkişaf etdirir.Yəni hər bir insan öz anlayışları istiqamətində bir dünyagörüşü, gələcəyə baxış tərzi, yaşam forması - bir sözlə, həyat fəlsəfəsi meydana gətirməyə səy göstərir.Fərdlər kimi daha böyük anlamda cəmiyyətlərin də mənimsədiyi fəlsəfələr vardır ki, cəmiyyətin arxitektonikasının qurulmasına bu fəlsəfi çərçivədən baxılaraq məqsədə doğru istiqamət götürülür.Bu məqsədin əsasında isə təhsil fəlsəfəsi dayanır.

**Nəticə**

Fəlsəfə anlayış etibarilə insana hikməti sevməyi öyrədir. Təhsil isə insana öyrəndikləri arasında əlaqə yaradıb, bunları həyatında tətbiq etmək bacarığı qazandırır. Həm fəlsəfənin, həm də təhsilin ortaq məqsədi mövcud reallıq üzərində düşünmə və onları təhlil-tərkib süzgəcindən keçirmə, insanın fərd olaraq düşüncə üfüqünün genişlənməsinə zəmin yaratmaqdır.Qədim dövrlərdən başlayaraq fəlsəfi cərəyanlarda təhsil probleminə geniş yer verilmişdir. Bunun əsas səbəbi fəlsəfənin əsas olaraq insanın bütövlükdə həyatını, onun dünyadakı yeri və rolunu, cəmiyyətdəki mövqeyini dərk etməyə çalışmasıdır. Başqa sözlə desək, fəlsəfə insanın həyatının mənasını və onun toplumda mövcudluğunun təməl şərtlərini öyrənir.

**Ədəbiyyat**

1. Xəlilov S.S.Təhsil, təlim, tərbiyə. Bakı, AzərbaycanUniversitetinəşriyyatı, 2005 - 650 s.
2. Rozin V.M. Təhsil fəlsəfəsi: Tədqiqatlar-tədqiqatlar / VM Rozin.-M: Moskva Psixoloji və Sosial İnstitutunun nəşriyyatı; Voronej: NPO nəşriyyatı "MODEK", 2007.-576 s.
3. Mixaylov F.T. Təhsil fəlsəfi problem kimi // Fəlsəfə problemləri. - 1995. - № 11
4. Platonov V.V. Təhsil fəlsəfəsi sistemlərarası qarşılıqlı əlaqə sahəsi kimi // Fəlsəfə problemləri. - 1995. - № 11

## 44 GÜNLÜK ZƏFƏRİMİZƏ FƏLSƏFİ BAXIŞ

**Elmira Təhməzova**
fəlsəfə üzrə fəlsəfə doktoru,
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, böyük elmi işçi
naza_salmanova@mail.ru

**Açar sözlər:** epistemologiya, sosial sinergetika, sinergetik metodoloji yanaşma, ictimai, inkişaf, zəfər.

Fəlsəfə, ictimai və humanitar elmlər kompleksi üçün epistomologiya məsələləri həmişə mühüm əhəmiyyət kəsb etmiş və diqqət mərkəzində olmuşdur. Müasir dövrdə ictimai inkişafın müxtəlif sahələrilə bağlı ciddi problemləin həlli zərurətindən doğan səmərəli üsul və yanaşmaların, idraki alətlərin axtarışı, yeni qnoseoloji-metodoloji zəminlərin işlənib hazırlanması, müvafiq ideya və prinsiplər sisteminin təklif edilməsi aktual və təxirəsalınmaz vəzifəyə çevrilir. Belə ki, epistemoloji qeyri-müəyyənlik, müəyyən tələblərə cavab verən idraki silahın yoxluğu konkret ictimai və bəşəri problemlərin həllini çətinləşdirir, qarşısında qoyulan sosial problemlərin həllinə imkan vermir. Bu məsələnin həlli üçün, yeni elmi epistomologiya problemi dayanır, eyni zamanda bu zamanın tələblərinə cavab verən məzmun daşısın. Epistemoloji yeniləşmələr çərçivəsində aktual problemlərin köklü həlli mümkündür.

Hazırda Müasir fəlsəfə elminin qarşısında duran vəzifə elmin müasir epistomologiya sahəsindı əldə etdiyi səviyyədə reallaşdırılmasıdır.

Professor Ə.Abbasov qeyd edir ki, postneoklassik epistemologiya bu epistemoloji cərəyan və modelləri özünəməxsus bir üzvi forma-məzmununda ehtiva edir. Belə deyə bilərik, böyük evristik gücə malik postmonoklassik epistemologiya digər qeyri-ənənəvi epistomoloji modellərə ("hissələrə") münasibətdə vahid bir "Tam" statusunda çıxış edir. Lakin bu mənada yox ki, o həmin hissələrin cəminə müncər edilə bilməz. O, bir idraki-instrumental sistem kimi, özlüyündə bu "cəm"dən çox-çox böyükdür. Dialektik inkişafda olan dinamik çoxluqdur! (Ə.Abbasov, 2021: 43 səh).

Belə ki, vətəndaş cəmiyyətinin formalaşmasında, sosial idarəçilik proseslərin həllində sinergetik metodoloji münasibətlərin roluna xüsusi diqqət yetirilir. Bu həqiqətin dərk olunması nəticəsidir ki, son illərdə sinergetika təşəkkül tapıb, inkişaf etməkdədir. Bütün bunlar dəqiq və humanitar elmlərin sintezinə şərait yaradan sinergetik yanaşma mövqeyindən ayrılmazdır. Azərbaycanda milli müstəqil dövlət quruculuğunun çoxşaxəli vəzifələrinin həllində onlardan istifadə olunması imkanlarını nəzərdən keçirmək tələbi yaranmışdır. Beləliklə ölkəmizdə vətəndaş cəmiyyəti və hüquqi dövlətin formalaşmasında, metodoloji, nəzəri əsaslarının işlənib hazırlanmasında sinergetik yanaşma metodu mühüm rol oynayır. Bu ictimai həyatın və sosial prinsiplərinə əsaslnanır. İnsan varlığının inkişafı, şəxsiyyətin özmüdafiə imkanları və yaradıcılıq qabiliyyətinin reallaşdırılması üçün ən əlverişli şərait yaradır. Bu həm də sinergetik antropologiyanın prinsiplərinə uyğundur. İnsan varlığının mürəkkəb sistem kimi öyrənilməsi, onu vahid və bütöv vəhdət halında götürməyə, mürəkkəb sistem kimi araşdırmağa şərait yaradır.

Eyni zamanda onu da qeyd etmək lazımdır ki, sinergetik paradikmanın müasir cəmiyyətdə idarəçilik elminin inkişafında və onun təşkilinin reallaşmasında aydın görünür. İctimai həmrəyliyə, şəxsiyyətin mənəvi zənginləşməsinə əsaslanır.

Beləliklə sistemli yanaşmada obyektin bütövlüyü aşkara çıxarılır. Onun mahiyyəti isə cəmiyyətdə və şüurda baş verən proseslərin öyrənilməsinə tətbiq edilməsidir. Sistem yanaşmanın mahiyyəti ondan ibarətdir ki, sistemin komponentləri həm ayrılıqda, həm də onların bir-biri ilə əlaqəsində öyrənilir. Sistem yanaşmanın bir prinsipi də ondan ibarətdir ki, sistemin fəaliyyəti qlobal məqsədlərə çatmaq üçün sistemin elemntini bir biri ilə əlaqəli hesab etməkdir. Ən nəhayət sistem yanaşmanın məqsədi bütöv sistemə çatmaq və bütöv bir problemi həll etməkdir.

Məhz qeyd etdiyim bu fəlsəfi metod sistem yanaşma qələbəmizin əldə olunmasında öz mühüm həllini tapmışdır. Hələ Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyev 10 oktyabr 1993-cü ildə Andiçmə Mərasimindəki nitqində torpaqlarımızın azad olmasına qədər xalqımızın keçdiyi yolu öz nitqində belə ifadə etmişdir... beş il ərzində gedən müharibə nəticəsində Azərbaycan xalqı böyük sınaqlardan çıxıb, qələbənində uğursuzluğun da nəticələrini görübdür. Bu müharibə bizim üçün böyük faciədir. Eyni zamnda bu müharibədə Azərbaycan xalqının gücü, qüdrəti, qəhrəmanlığı, müdrikliyi bir daha bütün dünyaya nümayiş etdirildi. İgid oğlanlarımız torpaqlarımızı müdafiə edərək qəhrəmancasına həlak olmuş, şəhid olmuşlar...

"Mən bu gün bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmayacaq, onların xatirəsi qəlbimizdə əbədi yaşayacaq, gəclərimiz və gələcək nəsillər onların qəhrəmanlıqlarından nümunə götürəcəklər. Azərbaycan xalqı öz qamətini düzəldəcək, ayağa qalxacaq, gücünü birləşdirəcək, müasir orduunu yaradacaq və müstəqil dövlətini, öz ərazisini bundan sonra göz bəbəyi kimi qoruyacaqdır." (H.Ə.Əliyev. sabaha doğru. 2004. S. 22)

Ulu Öndərin arzuladığı problemlər 44 günlük zəfərimizdə öz həllini tapdı.

Bu barədə Cənab ilham Əliyevin dediyi kimi "Mən xoşbəxtəm ki, ata vəsiyyətini yerinə yetirdim" (İ.Əliyevin nitqindən), 2020-ci il.

44 günlük müharibədə torpaqlarımızın azad olunmasında yuxarıda behs etdiyim sinergetik münasibət, sistemlilik prinsipləri, zəfər çalmağımızın əsas mahiyyətini təşkil etmişdir. Azərbaycanda milli müstəqil dövlət quruculuğunun çox tərəfli vəzifələrinin həllində ordumuzun, xalqımızın, Ali baş komandanın qətiyyəti bu qələbəmizə zəmin yaratmışdır:

Bir dövlətin:

- güclü iqtisadiyyatı varsa;
- güclü, vətənpərvər və müasir silahlanmış ordusu varsa,
- başqa xalqlarla tolerant münasibəti varsa,
- xalqın bütün nümayəndələri bir yumruq kimi birləşmişsə,
- Ən nəhayət bir xalqın hüquqi və onu idarə edən qətiyyətli dövlət başçısı, prezidenti varsa bu xalqın qarşısında heç bir mənfur qüvvələr dayan bilməz!

**Ədəbiyyat**

H.Əliyev "İRSİ" sabaha doğru Bakı, 2004. (Beynəlxalq elektron kitabxana)
İ.Əliyev – Müharibə zamanı qələbəmizi elan etdiyi zaman söylədiyi nitqindən. 2020-ci il (internet materialı)
Ə.Abbasov – Müasir fəlsəfənin tədrisi: metodologiya, nəzəriyyə və praktika.

## КУЛЬТУРА КАК ДВИГАТЕЛЬ СОВРЕМЕННОЙ МОДЕРНИЗАЦИИ

**Светлана Адыгезалова**
доктор философии по философии, доцент, Азербайджанский Государственный Педагогический Университет
E-mail: asvet53@mail.ru

### Mədəniyyət müasir modernləşmənin mühərriki kimi

**Xülasə.** Məqalədə mədəniyyət modernləşmə proseslərinin əsas mühərriki kimi təhlil edilir. Qeyd olunur ki, qloballaşma, postindustrial və informasiya cəmiyyətinin formalaşması dövründə mədəniyyətlə baş verən dəyişikliklər müasir cəmiyyətin və dövlətin davam edən modernləşməsini izah edə biləcək sosial fəlsəfənin yeni sahələrinin inkişafını tələb edir.

**Açar sözlər**: mədəniyyət, sosial fəlsəfə, qlobalaşma, cəmiyyətin və dövlətin müasir transformasiyası, modernləşmə.

**Ключевые слова**: культура, социальная философия, глобализация, современная трансформация общества и государства, модернизация.

Если интерпретировать культуру как вторую, созданную человечеством природу, в этом случае ее динамику следует считать основным двигателем модернизации общества и государства.

Такие масштабные социальные процессы, как глобализация, становление постиндустриального и информационного общества, не могли не трансформировать динамику развития культуры. А постнеклассическое и постмодернистское мировоззрение, соответственно, не могло не изменить традиционное восприятие культуры.

Сегодня хорошо известно, что глобализация в первую очередь воздействует на культуру, стремясь преобразовать многообразие национальных культур в единую общечеловеческую культуру. Большинство элементов формирующейся общечеловеческой культуры являются заимствованиями из западной культуры, что было бы приемлемо, если постмодернизм не поставил бы под сомнение истинность итогов ее развития на основе принятых некогда системообразующих начал.

Даже если метаморфозы концепции «столкновения цивилизаций» С. Хантингтона имеют под собой определенные основания, речь не может идти о поглощении западной культурной традицией - традиции восточной. Скорее следует думать о некой конвергенции этих двух традиций, способной вывести человечество из тупиков современного развития. Между тем, процессы перманентного ускорения темпов социальной жизни приводят к тому, что на подобную конвергенцию остается все меньше времени, а нагнетание напряженности, реализующееся в многочисленных военных конфликтах последнего времени угрожает дальнейшему существованию человечества. В сложившейся ситуации тщетно призывать народы отбросить свои страхи и поверить в отсутствие противоречий между их культурами и образами жизни, следует, как представляется, убедительно продемонстрировать единство культур как различных по способам, но единых по сути практикам выживания народов.

Следует признать как положительный фактор, что народы планеты находятся на разных стадиях развития и характеризуются отличным друг от друга его темпами, поскольку такое разнообразие помогает сравнивать между собой их модели функционирования, вдумчиво относиться к выбору и распространения культурных традиций, доказавших свою жизнеспособность. Так, возрождение на Востоке интереса к проблемам национальной самоидентификации, процесс политизации религиозной мысли в странах этого региона, без всякого сомнения, способствует более адекватному осознанию Западом собственного прошлого, от которого пролегает путь к пониманию современных реалий социокультурной жизни восточных народов. Эти реалии решительно меняют мир, а потому не могут быть проигнорированы. Конечно, диалог Запада и Востока не может быть основан только на сравнительном исследовании религий, подсчете вклада цивилизаций в общечеловеческое развитие (что обычно, так или иначе, и происходит). Подлинный диалог, требующий искренности и смелости, предполагает совместный поиск еще скрытых от человечества истин.

Различные страны мира противостоят вызовам схожих проблем, складывающимся под мощным прессингом основного мирового социального процесса - глобализации. В течение жизни одного поколения мир стал взаимосвязанным, более однородным и продолжает унифицироваться. Начался сложный, противоречивый процесс генезиса общечеловеческих ценностей, с одной стороны, но, с другой – ожесточилась борьба за сохранение традиционных ценностей, транслятором которых в каждом конкретном случае выступает та или другая интерпретация этно-религиозного наследия, облекаемая в форму социальной доктрины, способной объяснить любую проблему общества. Такой осознанный примитивизм импонирует сознанию масс, находящихся под гнетом не воспринимаемых до конца теорий, формирует протестное настроение, множит фобии и недоверие между носителями различных культурных традиций. Войны «возмездия» создали ситуацию новых вызовов как в мировой политике, так и в культуре.

Произошло крушение институтов государства, политики и демократии, в первую очередь, как институтов культуры, инструмента поддержания норм общечеловеческой морали. Идет напряженный поиск новых моделей этики взаимоотношений цивилизаций, культур и народов, в которых возрастает роль религии, а это требует своего объяснения. Имеется в виду современная тенденция, при которой в первую очередь развивается не культурная, а политическая составляющая религии. Замена реальных социальных и политических проблем мифологемами религиозного сознания весьма опасная практика, что подтверждается многочисленными межэтническими

конфликтами, за которыми незримо (а иногда и открыто) стоят ложно интерпретированные религиозные ценности.

Тенденции глобализации в мировом масштабе приводят к сворачиванию многогранности традиционных человеческих качеств, усиливают попытки стирания идентичности личности по менталитету, этносу, расе и национальности. В условиях глобализации одна из важных проблем – это сохранение и развитие свободы человека. Той свободы, которая определяется возможностью личности мыслить и поступать в соответствии со своими представлениями и идеями, а не вследствие внешнего принуждения. Произвольное ограничение свободы личности, жесткая регламентация ее сознания и поведения, низведение человека до роли простой «детали» в социальных и технологических системах наносит ущерб, как личности, так и обществу.

Современному обществу необходима такая социокультурная модель модернизации, которая способна нивелировать основные риски и угрозы глобализации.

Глобализация меняет и мир в целом, однако характер этого изменения и его последствия по-разному оцениваются специалистами. Так, некоторые из них полагают, что мировое сообщество в политическом и культурном аспекте перманентно становится более гомогенным (Ф. Фукуяма, М. Кастельс, У. Бек и др.). Другие, напротив, доказывают, что оно становится все более разделенным и расколотым (И. Валлерстайн, А.Н. Некласс, Э. Тоффлер, С. Хантингтон). Существует, наконец, движение антиглобалистов (Наоми Клейн, Вандан Шива, Амартий Сена, Ноам Чомски), требующих, если и не сворачивания глобализации, то, по крайней мере, контроля за ее неуправляемыми процессами.

Современный процесс глобализации следует рассматривать как, пусть и радикальный, не имеющий аналогов, но закономерный этап социальной эволюции. И в этой связи ее, как и любой процесс, в первую очередь необходимо проанализировать как проблему социальной философии. И в этой связи, естественно, необходимо понять, что социальный феномен глобализации является результатом человеческой деятельности, основанной на определенных ценностях. Поэтому необходимо теоретически реконструировать сформировавшиеся социокультурные модели сопровождающие процесс глобализации, выявить их плюсы и минусы, а также выявить динамику развития современной цивилизации в условиях глобализации.

Процесс глобализации был бы ущербным, если его не поддерживал другой важный процесс, приведший к революционному прорыву в области коммуникации - развитие информационного общества. Поэтому необходимо также выявить сущностные черты современного информационного общества, характеризующиеся спецификой информационно-технологических процессов, средств массовой коммуникации. Человек такого общества – «хомо информатикус» - является частью глобализирующегося мира.

Глобализация в целом означает триединый процесс усреднения, универсализации, унификации экономических, политических и социокультурных особенностей различных народов и государств под воздействием этого мирового процесса. Нам только еще предстоит выяснить, действительно ли так обстоят дела, является ли процесс глобализации естественным продолжением линии исторического развития, или же это искусственное внедрение неких социальных или даже политических сил, стремящихся придать мировому процессу определенные, их интересующие характеристики. Глобализация должна находить свою реализацию в достижении уровня единства, при котором существование и успешное развитие каждой страны, каждого народа оказывается в прямой и решающей зависимости от состояния мира в целом. Современный этап глобализации обусловил переход функции интеграции человечества к средствам массовой информации. В данном утверждении есть нечто виртуальное, замена реального объединения людей в обществе новыми средствами коммуникации. СМИ – создают новую форму объединения, при которой люди могут и не иметь информации о специфике жизни других людей, которые совместно участвуют в общей социальной интеграции, происходящей на новом уровне посредством разнообразных информационных систем. Новая социальная коммуникация реализуется в выстраиваемых компьютерных сетях, объединяющих большие группы людей с общими интересами и потребностями.

Если глобализация продолжится как процесс, охватывающий весь мир, связывающий структуры, культуры и их институтов, то малые государства и общества в результате превратятся в подэлементы более крупных систем, проповедующих идеи свободного мирового рынка, глобальной массовой культурой и мирового информационного сообщества, которому малые государства будут понуждаться делегировать свои суверенные права.

По мнению постмодернистов, человечество утратило иллюзии эпохи Просвещения, проповедующей изменение социальной жизни за счет образования и нравственного совершенствования человека. Угроза для жизни человека исходит теперь не от внешнего врага или некогда дикой природы, а от «второй», созданной руками самого человека искусственной природы, которая ведет к росту числа глобальных экологических катастроф. Прежние оптимистические прогнозы различных футурологов, как и идея непрерывного прогресса человечества, сегодня не вызывают общественного доверия. Проблемы выживания в этих новых условиях существования все чаще становятся предметом размышлений не профессиональных экспертов, а различных самодеятельных структур, построенных на принципах сети – неправительственных организаций, объединенных вокруг гуманитарных, религиозных и экологических вопросов.

Специалисты говорят о том, что постиндустриальное общество превратилось в общество риска для человека. Действовавшие в индустриальном обществе системы консолидации людей и их больших групп начинают постепенно отмирать. Например, мы являемся свидетелями того, как не только в постиндустриальных западных странах, но уже и в постсоветских государствах происходит снижение роли, а то и отмирание таких важнейших политических экономических институтов, как партии и профсоюзы. Между тем это были исторически наиболее развитые и организационно упорядоченные структуры, с помощью которых шло социальное развитие обществ. Вообще, надо признать, что строго иерархизированные коллективные организации индустриального общества в новых условиях сталкиваются с большими проблемами, преодоление которых принципиально невозможно, так как нормы этого общества требуют скорее исчезновения, чем трансформации коллективных организаций, построенных по принципу иерархии. Постиндустриальное общество, подпитываясь процессами глобализации и информационной революции, которые приобрели перманентный характер, открывает широкие возможности для индивидов устанавливать постоянные контакты и связи по собственным интересам, минуя официальные структуры и их каналы связи, контролируемые властными структурами. Революция в информационном обществе ускорила интернационализацию отношений обмена, она усилила роль и значение неформальных структур, построенных на добровольном объединении их членов; она позволила отдельным людям приобрести свой голос, который теперь не «вопль в пустыне», а вполне равноправный участник мировых дискуссий о будущем человечества. В этой связи достаточно вспомнить о «голосе» антиглобалистов, раздающимся все громче и авторитетнее.

Экономика эпохи глобализации сворачивает промышленное производство, а расширение информационных систем приводит к росту сферы услуг, которая становится основным полем приложения труда человека.

Постепенно происходит становление «третей среды» обитания человечества, которая в условиях, предоставляемых информационными технологиями, приобретает виртуальный характер. Соответственно этому масштабному процессу идет формирование новой культурной традиции, связывающей между собой реальный и виртуальный мир человека.

В этих условиях настоятельно требуется разработка новых областей социальной философии, способных объяснить происходящую модернизацию в жизни общества и государства.

# AZƏRBAYCAN RESPUBLİKASINDA AHILLARIN SOSİAL MÜDAFİƏSİ

**Rəcəbəli Əliyev**
fəlsəfə üzrə fəlsəfə doktoru,
Bakı Dövlət Universitetinin böyük elmi işçisi

**Açar sözlər**: sosial təminat, sosial sığorta, sosial müdafiə, sosial xidmət, ahıllar

Sosial təminat, sosial sığorta və sosial dəstək (yardım) kimi ənənəvi olaraq sosial müdafiə sisteminin strukturuna daxil olan yardım formasıdır. Sosial təminat vətəndaşlara dövlət pensiyaları, müavinətlər almaq imkanını təmin edən, ahılların və əlil vətəndaşların təminatı və onlara xidmət göstərilməsi üçün müxtəlif güzəştlər müəyyən edən müasir sosial müdafiə sisteminin ən mühüm elementi hesab oluna bilər. Müasir sosial təminat sisteminin məqsədi onun iqtisadi, siyasi, demoqrafik, sosial reabilitasiya və mənəvi-ideoloji funksiyalarında özünü göstərir.

Müasir ədəbiyyatda "sosial müdafiə" anlayışı bir neçə mənada şərh olunur. Bir sıra alimlər sosial müdafiəni "ananın uşaq dünyaya gətirdiyi dövrdən başlayaraq, insanın layiqincə dəfn olunmasına qədər bütün həyatı boyu müxtəlif problemlərin həllində dövlət tərəfindən ona hərtərəfli yardım göstərilməsi yolu ilə sosial risklərdən müdafiə" kimi müəyyən edirlər. Bu zaman əhalinin sosial müdafiəsinin məqsədi zəruri və kifayət qədər maddi təminatla yanaşı, vətəndaşların ictimai faydalı fəaliyyətə fəal cəlb olunmasına şərait yaratmaqdır (Косенко, 2010:438).

Digər yanaşma "sosial müdafiə" anlayışının daha dar mənada nəzərdən keçirilməsinə əsaslanır. Ensiklopedik lüğətlərdə bu, "həyatı təmin edən tədbirlər sistemi" və ya "iqtisadi transformasiyalar zamanı əhalinin sosial cəhətdən həssas təbəqələrinə minimum maddi dəstəyin təmin edilməsi üçün sosial-iqtisadi və hüquqi xarakterli dövlət tədbirlərinin məcmusu" (bazar münasibətlərinə keçid) və bununla əlaqədar olaraq onların həyat səviyyəsinin azalması" kimi müəyyən edilir.

Müasir sosial təminat sisteminin məqsədi onun aşağıdakı funksiyalarında özünü ifadə edir:

1. İqtisadi. Funksiya çətin həyat vəziyyətində olan vətəndaşlara maddi dəstək göstərməkdə özünü göstərir.
2. Siyasi. Funksiya sosial təminat sistemi vasitəsilə dövlətə sosial siyasətin əsas istiqamətlərini həyata keçirməyə imkan verir.
3. Demoqrafik. O, sosial təminat sisteminin bir çox demoqrafik proseslərə təsiri ilə həyata keçirilir: gözlənilən ömür uzunluğu, əhalinin çoxalması, doğum səviyyəsinin stimullaşdırılması və ya onun məhdudlaşdırılması. Belə ki, pensiyaçıların istehlakının kəskin azalmasına səbəb olan pensiya təminatının həddən artıq aşağı səviyyədə olması ahıllar və əlillər arasında yüksək ölüm hallarının səbəbinə çevrilib.
4. Sosial reabilitasiya funksiyası. Onun məqsədi bütün sosial təminat obyektlərinin sosial-hüquqi statusunu və sağlamlığını bərpa etmək və qorumaqdır.
5. Sosial təminatın mənəvi-ideoloji funksiyası. Buraya ideoloji, əxlaqi və sosial-psixoloji alt funksiyalar daxildir (Иванова, 1983:75).

Beləliklə, sosial təminat sosial müdafiə sisteminin ən mühüm struktur elementi və milli strategiyanın və ölkənin sosial-iqtisadi inkişafının dövlət tənzimlənməsinin istiqamətidir.

Geniş yayılmış ictimai rəyə görə, yaşlı insanlar ən az təminatlı təbəqəyə aiddir və onlar aktiv sosial müdafiəyə, o cümlədən xüsusi xidmətlərdən məqsədyönlü istifadəyə ehtiyac duyurlar.

**Azərbaycan Dövlət Statistika Komitəsinin 2019-ci il üçün göstəricilərinə görə yaşı 60-dan yuxarı olan vətəndaşlar əhalinin 11,5%-ni təşkil edir. Beynəlxalq proqnozlar 2050-ci ildə ölkə əhalisinin 25%-ə qədərinin yaşlılardan ibarət olacağını göstərir (18).**

2018-ci ildən ölkədə geniş sosial islahat paketinə start verilmişdir. 2020-ci ildə sosial ödənişlərin təyinatı ölkə üzrə mərkəzləşdirildi. Artıq bir mərkəz tərəfindən bütün ölkə üzrə əmək pensiyalarının, sosial müavinətlərin, təqaüdlərin, kompensasiyaların təyinatı aparılır, bu barədə vətəndaş məlumatlandırılır.

2021-ci ilin 2 fevral tarixində Azərbaycan Prezidentinin müvafiq Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq edildi. Qeyd edilən Milli Prioritetlər sənədinin 2-ci hissəsində dövlət başçısı tərəfindən sosial təminat sahəsində əsas prioritetlər müəyyən edilib. Belə ki, sənədin "Yüksək və ədalətli sosial təminat, inklüziv cəmiyyət" adlı 2.2-ci hissəsində sosial təminat sisteminin daha effektiv və ədalətli olması hesabına aşağıgəlirli və yoxsulluğa həssas təbəqənin, əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların sosial müdafiəsi və sosial təminatının gücləndirilməsi, bu məqsədlə ölkədə pensiya, müavinət, təqaüd və digər sosial ödənişlərin minimum məbləğlərinin layiqli səviyyəsinə nail olunması, pensiya təminatı sisteminin uzunmüddətli inkişafı üçün onun maliyyə dayanıqlığının gücləndirilməsi, pensiya məbləğinin ödənilən sığorta haqqına mütənasibliyinin artırılması nəzərdə tutulur. Qeyd edilənlər, növbəti dövrlərdə də sosial ödənişlərin məbləğlərində artımların olacağını deməyə əsas verir.

Prezident İlham Əliyevin göstərişinə uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin bütün sosial xidmət işçiləri səfərbər olunmaqla hazırda yaşı 65-dən yuxarı 10 mindən artıq tənha vətəndaşa evlərində gündəlik sosial məişət xidmətləri göstərilir. Hazırda tənha yaşlıların evlərində sosial xidmətlərlə təminatı işlərində DOST və ASAN, YAP könüllüləri, Təhsil Nazirliyinin "Bir" Tələbə-Könüllü proqramının, Gənclər Fondunun nəzdindəki Gənclərin İnkişaf və Karyera Mərkəzinin və "SƏLİS" Birliyinin könüllüləri və d. təşkilatlar yaxından iştirak edirlər (https://sputnik.az/20211007/pensiyaya-elleri-catmamis-dunyadan-kocurler---pensiya-yasi-niye-azaldilmir-433910666.html).

Daha sonra, respublikamızda tənha yaşlı insanlar evlərində qayğı və xidmətlərlə əhatə olunub. "Sosial xidmət haqqında" Qanuna uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sosial xidmət işçiləri tərəfindən tənha yaşayan və yaşı 70-dən yuxarı olan, ahıl şəxslər evlərində sosial məişət xidmətləri ilə təmin olunurlar. Bu xidmətlərlə təmin edilənlərin sayı 9500-dən çox idi, karantin dövrü ərzində həmin sosial məişət xidmətləri yaşı 65-dən yüksək olan tənha yaşayan vətəndaşları da əhatə edir (https://www.azerbaijan-news.az/view-186167/tenha-yasli-insanlar-evlerinde-qaygi-ve-xidmetlerle-ehate-olunub).

Beləliklə, yaşlılara qayğının təmin olunmasında müxtəlif sosial aktorların iştirakçılığı yalnız ənənə və qanunverici baza ilə deyil, həm də vətəndaşların qayğı təminatçısına nə dərəcədə inanması, onun təqdim edə biləcəyi xidmətlərin qayğı normaları və idealları ilə uyğunluq səviyyəsindən asılıdır. Tədqiqatlar göstərir ki, respublikamızda **yaşlıların tələbatlarını ödəmək üçün əsas məsuliyyət** ailə institutu və dövlətlə bağlıdır **və bundan sonra** dostlar və qonşular, özəl sektor, xeyriyyə cəmiyyətləri və nəhayət, könüllülər bu məsuliyyəti bölüşdürürlər.

**Nəticə**

Sosial xidmətlər sahəsində dövlət fəaliyyəti konkret ölkə üçün aktual olan müxtəlif sosial risklərin qarşısının alınmasına, habelə bu risklərin nəticələrinin ödənilməsinə yönəldilməlidir. Yaşlılara kompensasiya verilməsində mühüm rol yaşlılar üçün zəruri olan xüsusi sosial xidmətlərə verilməlidir.

Yaşlılara qayğının təmin olunmasında müxtəlif sosial aktorların iştirakçılığı yalnız ənənə və qanunverici baza ilə deyil, həm də vətəndaşların qayğı təminatçısına nə dərəcədə inanması, onun təqdim edə biləcəyi xidmətlərin qayğı normaları və idealları ilə uyğunluq səviyyəsindən asılıdır. Tədqiqatlar göstərir ki, respublikamızda **yaşlıların tələbatlarını**

**ödəmək üçün əsas məsuliyyət** ailə institutu və dövlətlə bağlıdır **və bundan sonra** dostlar və qonşular, özəl sektor, xeyriyyə cəmiyyətləri və nəhayət, könüllülər bu məsuliyyəti bölüşdürürlər.

### İstifadə olunan ədəbiyyat siyahısı:


1. Иванова Р.И. Предмет и метод советского права социального обеспечения. М., 1983.
2. Косенко О.Ю. Теория и практика развития системы предоставления социальных услуг лицам пожилого возраста // Управление экономическими системами: электронный научный журнал, 2010. - № 2 (22). - № гос. рег. статьи 0421000034/. - Режим доступа к журн.: http://uecs.mcnip.ru.
3. https://sputnik.az/20211007/pensiyaya-elleri-catmamis-dunyadan-kocurler---pensiya-yasi-niye-azaldilmir-433910666.html
4. https://www.azerbaijan-news.az/view-186167/tenha-yasli-insanlar-evlerinde-qaygi-ve-xidmetlerle-ehate-olunub


## TƏKQÜTBLÜ DÜNYA NİZAMININ FORMALAŞMASI


**İlham Soltanov**

AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işçisi
soltanovilham@rambler.ru



**Açar sözlər:** dünya nizamı, təkqütblü, müharibə, sivilizasiya, dialoq qloballaşma


İkiqütblü ideoloji qarşıdurma sisteminin süqutu ilə solçuların sosializm düzəni məğlub oldu. Kapitalizm dünyası öz qələbəsini az qala xeyirin şər üzərində qələbəsi kimi dəyərləndirdi. SSRİ-nin süqutundan sonra Yuqoslaviyanın və Yaxın Şərq dövlətlərinin parçalanması prosesi başladı. Dünyada durmadan artan etnik və dini separatçılıq amilləri, etnik-dini zəmində baş verən münaqişələrin artması bir daha təsdiq etdi ki, dünyada bundan sonra da bir çox milli dövlətlərin parçalanması tendensiyası davam edəcəkdir. Bu proseslər böyük humanitar faciələrlə müşayiət olunur. Lakin bu proseslərin davam etməsi həm də bir reallığı ortaya qoyur ki, təkqütblü dünya nizamını həyata keçirmək istəyən qüvvələr milli dövlətlərin varlığını özləri üçün təhlükə kimi görür. Bu təhlükənin ortadan qaldırılması üçün, milli dövlətlərin qarşısında sivilizasiyalararası dialoq və ya sivilizasiyalararası toqquşma dilemması qoyulur. Əslində, hər iki variant təkqütblü dünya nizamının formalaşmasına və güclənməsinə xidmət edir (Zeynalov, 2021:125). Sivilizasiyalararası dialoq, milli dövlətlərin öz xoşu ilə beynəlxalq siyasi, iqtisadi, hüquqi, sosial və mədəni qurumlara inteqrasiyasını təmin edirsə, sivilizasiyalararası toqquşma bu inteqrasiyadan imtina edənlər üçün hazırlanan təhdid metodudur. Qlobal güclərin himayəsi altında olan nəhəng media şirkətləri də bu məqsədlərə xidmət edən bir vasitəyə çevrilmişlər.

Hazırki dünya nizamı II Dünya müharibəsindən sonra formalaşan nizam hesab edilir. Bugünkü beynəlxaq təşkilatlar da, müasir dövlətlər də, beynəlxalq hüquq və qlobal dəyərlər də, əsas etibarilə, elə II Dünya müharibəsindən sonra formalaşdı. Şübhəsiz ki, "formalaşdı" dediyimiz zaman biz bunun öz-özünə formalaşdığını yox, müharibə qaliblərinin siyasi iradəsi və maraqları çərçivəsində formalaşdırıldığını nəzərdə tutmalıyıq. 1945-ci ildən 1991-ci ilə qədər mövcud olan dünya nizamı elmi – empirik mənada "bipolyar", yəni ikiqütblü dünya nizamı hesab edilirdi. Qütblərin biri kapitalist, digəri isə sosialist sistem idi. Ancaq 1991-ci ildə SSRİ və Varşava paktının ləğvi yeni dünya nizamına keçidi yaratdı və bu nizam "postbipolyar" nizam adlandırılmağa başlandı. Bu dövr isə 2001-ci ilə qədər davam

etdi. 2001-ci ildən 2014 – cü ilə qədər olan dövrü isə şərti olaraq, "monopolyar", yəni təkqütblü dünya nizamı adlandıraq və dərhal yenidən 2014–cü ilə qayıdaraq ondan sonrakı son səkkiz ili xarakterizə edək. Bu dövrü isə "multipolyar", yəni çoxütblü dünya nizamı dövrü kimi səciyyələndirək. Nə üçün belə bölgü apardığımızı dərhal izah edərək mövzumuza qayıtmaq istəyirəm. Ona görə də qısaca olaraq bu kritik tarixlərin açıqlamasını vermək lazımdır. 1991 və 2001-ci illər ikiqütblü nizamdan sonrakı bir növ tərəddüdlər dövrüdür, ya da yeni nizama hazırlıq mərhələsidir. 2001–ci il 11 sentyabr "Ekiz Qüllələr"ə qarşı törədilən terrordan sonra dünyada ABŞ-ın elan etdiyi antiterror koalisiyası dövrüdür və bu dövrü "monopolyar", yəni ABŞ-ın təkbaşına hakimiyyəti və yaxud dünya nizamını diktə etdiyi dövr kimi səciyyələndirmək mümkündür. 2011-ci ildən sonra Yaxın Şərq, Şimali Afrika və Suriya müharibəsinə Rusiya, Fransa (Liviyaya Fransanın aktiv müdaxiləsi), Çin və Türkiyənin müstəqil müdaxiləsi dövrü isə çoxqütblü nizam kimi qəbul edilə bilər. Əslində, tam formalaşmamış, hələlik uzlaşma və formalaşma dövrünü yaşayan bu yeni nizam indi hazırda müşahidə etdiyimiz dünya nizamıdır və bu nizam kimlərinsə əsla marağında deyil. Deməli, təşəbbüsü ələ alıb yeni bir eranı başlatmaq və dünyanı yenidən hegemon iradəyə tabe etmək lazımdır.

Dünyada baş verən hadisələr milli dövlətlər üçün çox gərgin bir durumun yarandığını göstərir. Çünki bir tərəfdən qlobal cəmiyyətə hərtərəfli inteqrasiya milli dövlətlərin daxili idarəetmə funksiyalarının zəifləməsinə, onların hərtərəfli şəkildə transmilli qurumların nəzarəti altına keçməsinə və tədricən ortadan qalxmasına, həmçinin cəmiyyətin milli dəyərlərini itirərək qloballaşmasına şərait yaradırsa, digər tərəfdən, milli dövlətlər daxilində milli qüvvələrin birləşməsinə, təşkilatlanmasına və milli müqavimət gücünün səfərbər olmasına səbəb olur. Qloballaşma prosesi, milli dövlətlərin ortadan qalxmasına, mədəniyyətlərin homogenizasiyasına səbəb olduğu kimi, əks təsir güc qismində sivilizasiyon özünüdərk proseslərinin də güclənməsinə təkan verir.(Бжезинский, 2006:43) Dünyada artan antiqloballaşma prosesləri də öz gücünü buradan alır.

ABŞ-ın eks prezisenti Corc Buş yeni dünya nizamını liberalizm və islam qarşıdurması kimi səciyyələndirərək, dini təmələ oturdulan sivilizasiyalararası toqquşma layihəsinin ilk mərhələsini başlatdı. Yaxın və Orta Şərqdə baş verən hadisələr bunu praktiki şəkildə təsdiq etdi. ATƏT üzvü olan ölkələrin liderlərinin 1990-cı il noyabrın 19-da Parisdəki sammitə toplanaraq "Yeni Avropa üçün Paris Xartiyası" adlı sənədi qəbul etməsi, 50 illik Soyuq müharibə dövrünün sonunun çatdığını və yeni qlobal dünya nizamının başladığını elan etdi.

"Dünya nizamı" fenomeninin aşağıdakı tarixi formaları mövcud olmuşdur:

1.Vestfal sülh müqaviləsi (1648—1815) - Avropadakı dövlətlərə dünya siyasətinin və beynəlxalq münasibətlərin əsas aktoru statusunu verməklə yeni dünya nizamını ortaya qoydu.

2.Vyana sülhü (1815—1871) - dünya siyasətinin və beynəlxalq münasibətlərin əsas aktoru statusunu yalnız suveren imperiya dövlətlərinə verməklə, müstəmləkəçilik siyasətinə əsaslanan yeni imperialist dünya nizamını yaratdı.

3.Versal sülh müqaviləsi (1918—1939) – yeni yaradılan Millətlər Liqası (ML) beynəlxalq təşkilatının nəzarəti altında böyük və qismən kiçik dövlətlərin siyasətlərinin qarşılıqlı razılaşma əsasında həyata keçirilməsini nəzərdə tutan polisentrik dünya nizamını yaratdı. Lakin, ML-sı bu nizamın qorunmasını təmin edə bilmədi. Buna görə də, bəzi tədqiqatçılar haqlı olaraq I və II Dünya müharibələrinin bir-birindən ayrılmasına qarşı çıxırlar.

4.Yalta-Postdam konfransı (1945—1991) – dünyanı ikiqütblü ideoloji idarəetmə sisteminə böldü (ABŞ və SSRİ blokları).

Postbipolyar düzən (1991) – SSRİ-nin süqutu və Soyuq Müharibə dövrünün bitməsi ilə başlayan, ABŞ-ın Yaxın Şərq, Avropa məkanında (Yuqoslaviyanın bölünməsi) həyata keçirdiyi siyasətlə davam edən monosentrik qlobal dünya nizamıdır. ABŞ-ın qloballaşma siyasətinə qarşı çıxan güc mərkəzlərinin (Çin, Aİ) dinamik müqaviməti dünya nizamının gələcək formasını müəyyən edəcəkdir . (https://ru.wikipedia.org/wiki.Мировой порядок)

Bütün dövlətlərə (əsasən Avropadakı) dünya siyasətinin və beynəlxalq münasibətlərin əsas aktoru statusunu verən Vestfal sülh müqaviləsindən sonra ortaya çıxan beynəlxalq sənədlərdə kiçik dövlətlərin deyil, yalnız imperialist dövlətlərin və XIX əsrdən başlayaraq ortaya çıxan transmilli şirkətlərin statusları təsdiq olunur. Buna görə də, Vyana sülhündən bu günə qədər olan tarix, yanlız Qərb müstəmləkə ölkələrinin tarixindən ibarətdir. Versal sülh müqaviləsinin nəticələri göstərdi ki, imperialist dövlətlər heç bir zaman kiçik dövlətlərə dünya nizamında öz suveren yerini tutmağa imkan verməyəcəklər.

SSRİ-nin süqutundan sonra dünyada təkqütblü qloballaşma siyasəti həyata keçirilir. Qloballaşma fenomeni ilə əlaqədar ortaya çıxan nəzəriyyələr siyasi, fəlsəfi, sosial-iqtisadi, ekoloji-mədəni və hüquqi sahələri əhatə edir. Bu mövzuda konspiroloji nəzəriyyələr də geniş yayılmışdır. Tədqiqatçılar qloballaşmanın mahiyyətinin axıradək dərk edilmədiyini onun kortəbii və ya obyektiv xarakter daşıdığını, təkamüldən yaranan bir zərurət olduğunu bildirirlər. Toffler qloballaşma nəticəsində milli şüurdan xilas olan yeni elitanı "planetar şüurun" daşıyıcıları kimi dəyərləndirmişdir.

Qloballaşma anlayşına olan müxtəif yanaşmaları təhlil edəndə belə bir nəticəyə gəlmək olar ki, qloballaşma elə bir prosesidr ki, hələ də onun mahiyyətini və istiqamətlərini tam aydınlaşdırmaq mümkün deyil. Ancaq qloballaşmanın yeni dünya nizamının bir forması olması artıq heç kimdə şübhə doğurmur (Zeynalov, 2021:126).

Qlobal dünya nizamı ilə bağlı araşdırma aparan tədqiqatçıları, ictimai-siyasi xadimləri ideoloji zəmində üç qismə bölmək olar: ifrat qlobalistlər (neoliberallar), antiqlobalistlər (neomarksistlər, tradisionalistlər) və transformasiyaçılar (qlobalistlərə daha yaxın olan islahatçılar). Bu ideoloji qruplaşmalarda böyük ictimai-siyasi hərəkatlar, dini qruplar, feministlər və digərləri təmsil olunurlar.

Artıq ideoloji bölünmə faktı, qlobal dünya nizamı fenomeninin ziddiyyətli xarakter daşıdığı sübut edir.

Qlobal dünya nizamı ilə bağlı disputlarda əsasən aşağıdakı məsələlər müzakirə obyektinə çevrilir:

1. Qloballaşma prosesinin obyektiv və ya subyektiv xarakter daşıması;
2. Qloballaşma şəraitində sosial ədalətin qorunub-qorunmaması məsələsi;
3. Qloballaşma şəraitində sülhün təmin olunub-olunmaması məsələsi;
4. Qloballaşma şəraitində milli dövlətlərin taleyi məsələsi;
5. Qloballaşma şəraitində ənənəvi milli-mənəvi mədəniyyətlərin mövcudluğu məsələsi;
6. Təkqütblü dünya nizamının mümkün olub-olmaması.

Tədqiqatçıların bir qismi hesab edir ki, qloballaşma prosesini yalnız subyektiv faktorlara bağlamaq düzgün deyildir. (Zeynalov, 2021:127). Çünki bu tarixi prosesi şərtləndirən obyektiv faktorlar da mövcuddur:

- elmi-texniki tərəqqi nəticəsində ortaya çıxan industrial və postindustrial cəmiyyət;
- sürətlə inkişaf edən müxtəlif nəqliyyat və informasiya texnologiyaları sayəsində ölkələr arasındakı siyasi və iqtisadi sərhədlərlə bağlı stereotiplərin tədricən ortadan qalxması;
- informasiya texnologiyalarının sürətlə inkişaf etməsi nəticəsində ölkələr, insanlar, mədəniyyətlər arasındakı məsafələrin azalması və inteqrasiya proseslərinin sürətlənməsi;
- ikiqütblü dünya düzəninin iflasından sonra siyasi qütbləşmələrin və ideoloji qarşıdurmaların əhəmiyyət kəsb etməməsi;
- liberal dəyərlərin (demokratiya, bazar iqtisadiyyatı) alternativsiz olması;

- iqtisadi-siyasi, sosial-mədəni xarakterli miqrasiya proseslərinin intensivləşməsi;
- bir çox dünya ölkələrini bir-biri ilə inteqrasiya edən iqtisadi-enerji layihələrinin reallaşması və s.

Professor İ.Məmmədzadə qloballaşma prosesinin şüurla bağlı olduğunu və bu sahənin araşdırılmasında fəlsəfənin xüsusi rol oynadığını vurğulayır: "İqtisadçı qloballaşmanı beynəlxalq bazar və texnologiyalar, politoloq isə Amerika qloballaşması və texnologiyaları kimi qəbul edir.Təkcə filosof dəqiq deyə bilər ki, qloballaşma bazar, texnologiyalar və imperializmdən yararlanan xüsusi bir şüur səviyyəsidir. Bu şüur keçmişlə bağlı olsa da, qarşısına yeni məqsədlər və vəzifələr qoymaqla digər şüurları da özünə tabe edə bilir." (Məmmədzadə,2020:20) Müəllif haqlı olaraq fəlsəfənin müasir qlobal prosesləri dərketmədə xüsusi rolunu diqqətə çatdırır. Bu baxımdan, fəlsəfə, mövcud problemin dərk olunmasında fənlərarası sistemi təmin etməklə, onun həlli üçün də mühüm şərait yarada bilər.

Yeni dünya nizamı, transmilli beynəlxalq təşkilatların qlobal iqtisadi, siyasi, mədəni və sosial layihələri vasitəsilə həyata keçirilir. Dünyanın idarə olunmasında birbaşa iştirak edən hakim siniflər öz aralarında fərqli maraqlara sahib olsalar da, onların birləşdirən ümumi mənafelər də kifayət qədərdir. Onların əlində olan korporasiyalar, hərbi-sənaye kompleksləri, siyasi institutlar, korporativ media, bank sektoru, dövlət rəhbərləri, məhkəmə sistemləri, onlara dünyanın idarə olunmasında yaxından iştirak etməyə imkan verir.

Qloballaşma prosesinin subyektiv amilləri gücləndikcə, ona paralel şəkildə əks-təsir müqavimət gücü də artır. İkiqütblü dünya nizamının süqutundan sonra təkqütblü ABŞ hegemonluğunun gündəmə gəlməsi, lokal sivilizasiyalar, milli dövlət və milli identikliyi məsələlərini də gündəmə gətirmişdir. Məsələn, SSRİ-nin "sovet vətəndaşı" identikliyi altında assimlyasiya etmək istədiyi xalqlar öz kimliklərini qoruyub inkişaf etdirmək uğrunda mübarizə etmişlər. SSRİ-nin dağılmasında da siyasi texnoloqlar milli və dini amillərdən istifadə etmişlər. Bu baxımdan, qloballaşma prosesi artıq XX əsrin əvvəllərindən başlayaraq inkişaf etmişdir. Post sosialist məkanda yaşayan insanların şüur və davranışlarında, onların mədəniyyətlərində bunlar öz izini buraxmışdır. Hətta, ərəb ölkələrində olan bir çox rejimlər (BAAS hərəkatı) sosializm ideologiyasının təsiri altında inkişaf etmiş və qismən sekulyarlaşmışlar. Lakin buna baxmayaraq, onlar müəyyən təsirlərə məruz qalsalar da, öz milli-mənəvi kimliklərini itirməmişlər. Əksinə, sivilizasiyon inteqrasiyadan təcrid olunan mədəniyyətlər daha çox deformasiyaya məruz qalırlar. Çünki hər bir kültür öz varlığını qorumaq üçün inkişaf etməlidir. Onun inkişaf etməsi isə, sivilizasiya ilə münasibətlərin qorunmasından, onun sivilizasiyaya açıq olmasından asılıdır. Sivilizasiya-kültür münasibətləri bir-birini inkar üzərində deyil, bir-birini tamamlayan harmonik əlaqələr çərçivəsində qurulmalıdır. Bu prinsipin təməl şərti modernləşməkdən, sağlam ənənələri qorumaqdan və dövrün tələblərinə uyğun olmayan ənənələrdən uzaqlaşdırmaqdan keçir.

Qərb ölkələri XIX əsrin əvvəllərindən modernləşmə mərhələsinə daxil olmuş və tədricən Qərb sivilizasiyası modernləşmə ilə eyniləşmişdir. Modernləşmə ilə vesternizasiyanın eyniyyət təşkil etməsi, digər sivilizasiya mənsublarının modernləşmədən uzaqlaşmasına və ona ehtiyatla yanaşmasına səbəb olmuşdur. Bunun nəticəsi olaraq bir çox Şərq sivilizasiyalarının əks dəyərlərlə (teokratizm, kollektivizm, konservatizm, monarxizm, irrasionalizm) eyniləşməsinə şərait yaratmışdır. Halbuki, modernizmin əksər dəyərləri ümumbəşəri və pozitiv xarakter daşıyır. Onların Qərb dəyərləri kimi səciyyələndirilməsi yanlışdır. Sadəcə olaraq Qərb ölkələri XVIII-XIX əsrlərdən başlayaraq öz inkişafında bu dəyərlərə üstünlük vermiş və ona doğru əzmlə addımlamışlar. Şərq ölkələrində sivilizasyon inkişafın yeganə yolunun modernləşməyə bağlı olduğunu dərk edən mütəfəkkirlər də, onu müasirlik və tərəqqi kimi dəyərləndirmişlər.

İlk dəfə 1885-ci ildə Yaponiyada həyata keçirilən Meydzi islahatları, 1918-ci ildə ADR liderlərinin "müasirlik" ilə bağlı ideyaları, Atatürkün 1923-cü ildə qurduğu Türkiyə Cümhuriyyətinin, Çin lideri Sun Yatsenin, Hindistan lideri Cəvahirləl Nehrunun modernist

ideyaları, bir çox Şərq ölkələrinin qərbləşmədən müasirləşməsinə səbəb oldu. Modernləşmə yolunu seçən Şərq ölkələri hərtərəfli şəkildə inkişaf edərək Qərb ölkələrinə bir çox sahələrdə rəqib oldular (Дьяков, 1974:27)

"Müasir dövrdə, professor S.Xəlilov yazır, proseslər vahid sivilizasiyanın formalaşması istiqamətində gedir. Ən azı, qloballaşma buna xidmət edir.O, fikrini belə davam etdirir: "İndi qloballaşma adı altında baş verən proseslər əslində birqütblü dünyanın mütləqiləşdirilməsi və milli dövlətlərin vahid bayraq altında sıraya düzülməsi, bir dilin başqa dilləri, bir siyasi iradənin başqa siyasi iradələri, bir iqtisadi marağın başqa iqtisadi maraqları sıxışdırıb çıxarması ilə müşayiət olunur."(Xəlilov, 2004:196-197).

Avropada avrosentristlərin (Roma – German ittifaqı, yaxud Almaniya – Fransa tandemi ) səsi daha ucadan gəlir, hətta "sarı jiletlilər"ə qarşı mübarizə aparmaqda çətinlik çəkən bir ölkədə Avropanın işğaldan azad edilməsindən danışılırdı, "NATO beyin ölümü keçirib" deyilirdi. Bu arada, Britaniya- Şimali Atlantika bloku anqlo-sakson-yəhudi ittifaqı kimi möhkəmlənir, hətta dini müstəvidə evangelizmi ideoloji birliyə çevirir, "Brexit"ə imza atırdı. Vaxtaşırı BMT-də islahatların aparılması zərurəti dilə gətirilir, qlobal siyasət qlobal səviyyədə milli dövlətləri dağıdan və millətlərin varidatını talayan mexanizmə çevrilir, xalqlar lidersizləşdirilir, dövlətsizləşdirilir, idarəolunan xaos zülmünə düçar edilir, bu proses Yaxın Şərq və Şimali Afrikadan Qərbə doğru istiqamətlənirdi (Babaoğlu H. https://m.modern.az/az/news/234736/postkorona-erasi-ve-yeni-dunya-nizami)

Ən mühüm məsələlərdən biri isə Balkanlardan sonra Yaxın Şərqdə yeni demoqrafik mühəndislik əsasında yeni milli-etnik, ya da yeni etnosiyasi və yaxud məzhəbə əsaslanan subideoloji coğrafiyalar dizayn edilirdi. Nəticədə ilkin orta əsrlərdə baş verən böyük xalqlar köçünün kiçik versiyası ortaya çıxırdı. Böyük xalqlar köçü Roma dövrünə son qoymuşdu. Bəs yuxarıda sadaladığımız çoxsaylı səbəblər və "kiçik" miqrasiya nələrə gətirib çıxaracaqdı?! Bütün bunların fonunda koronovirus pandemiyasının ortaya çıxması və bütün qlobal siyasi, sosial və iqtisadi prosesləri birdən birə tormozlaması, şübhəsiz ki, bəlkə də, bütün bu sahələrdə yeni bir era yaradacaq hadisələrin başlanğıcı hesab edilə bilər.

Professor H.Babaoğlunun fikrincə, artıq rasional düşünməyi bacaran hər kəsə aydındır ki, önümüzdəki uzun sürə biləcək mərhələ sadəcə qeyri-müəyyənliklər, sosial-iqtisadi katakilizmlər mərhələsi deyil, həm də kütləvi psixoz və depressiya mərhələsi olacaq. Ona görə də bu dövrü koronapsixoz dövrü adlandıra bilərik. Yalnız bu mərhələdən sonra tam mənada yeni eraya adaptasiya dövrü başlaya bilər. 14-cü əsrin əvvəllərində "qara ölüm", yaxud vəba pandemiyasından sonra müasir Avropanın yeni dəyərləri və inkişaf erası başladığı kimi koronavirus pandemiyasından sonra da, şübhəsiz ki, yeni era və yeni dünya nizamı başlaya bilər. Bu, bizim məsələyə sadəcə sosial- siyasi piramidadan baxışımız idi. Ancaq şübhəsiz ki, məsələnin iqtisadi, ekoloji, texniki, tibbi və s. kimi çox fərqli tərəfləri də var ki, bu barədə də ən müxtəlif fikirlər səsləndirmək və mümkün versiyalar irəli sürmək olar. Hazırda isə hər birimizin ümdə vəzifəsi özümüzü qorumaqla postkorona erasına hazırlaşmaqdır (Babaoğlu H. https://m.modern.az/az/news/234736/postkorona-erasi-ve-yeni-dunya-nizami).

Belə bir fikir irəli sürə bilərik ki, həqiqətən çağdaş dünyada din və siyasət münasibətləri öz əhəmiyyətini daha da artırmaqdadır. Yeni dünya nizamının formalaşmasında sivilizasiyalararası dialoq alternativsiz yol kimi görsənir.

**İstifadə edilmiş ədəbiyyat**

Məmmədzadə İ. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında. Bakı, Təknur, 2009. 226 s.
Zeynalov Ü. Yeni dünya nizamının formalaşmasında sivilizasiyalararası dialoqun rolu: sosial-fəlsəfi təhlil.Bakı, 2021

Xəlilov S. «Şərq və Qərb: ümumbəşəri ideala doğru (Fəlsəfi etüdlər)». «Azərbaycan Universiteti» nəşriyyatı, Bakı-2004, 623 s.
Babaoğlu H. https://m.modern.az/az/news/234736/postkorona-erasi-ve-yeni-dunya-nizami
Бжезинский З. Последний суверен на распутье // Россия в глобальной политике. № 1, январь-февраль 2006
Дьяков В.А. Методология истории в прошлом и в настоящем, М., «Мысль», 1974, 190 с.
https://ru.wikipedia.org/wiki.Мировой порядок

# AİLƏ MÜHİTİNİN MƏKTƏBƏQƏDƏR YAŞDA UŞAQLARIN ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA ROLU

**Günay Ağayeva**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının müəllimi
e-mail: gunaysherbet@gmail.com
**Açar sözlər:** ailə, uşaq, mühit, şəxsiyyət, məktəbəqədər tərbiyə, ünsiyyət, təhsil, inkişaf

Uşaq şəxsiyyəti ailə mühitinin bilavasitə təsiri ilə formalaşır.İstənilən halda uşaq şəxsiyyəti ailə mühitinin təsirlərinə məruz qalmaqla yanaşı özünün potensial imkanlarına uyğun mühitdən bir sıra sosial keyfiyyətləri qavrayaraq formalaşır. Bu zaman sosial situasiya və ailə mühiti mövcud potensial imkanların istiqamətləndirilməsində əsaslı rol oynayır.Lakin ailə mühitinin uşaq şəxsiyyətinin formalaşmasına təsirinin istiqamətləri ailənin mövcud olduğu cəmiyyətin xüsusiyyətlərindən, etnik cəhətlərindən və mövcud tərbiyə sisteminin təsir dərəcəsindən asılıdır.

Ailə mühiti müxtəlif olmaqla yanaşı,məktəbəqədər uşağın şəxsiyyət imkanlarıda fərqlidir.Hər birinin sosial situasiyası və özünəməxsus sahəsi var.Digər bir tərəfdən məktəbəqədər yaş dövrü olduqca dinamik və izlənməsi çətin olan yaş dövrüdür.

Ailə mühitinin məktəbəqədər yaşlı uşaqların şəxsiyyətinin formalaşmasına təsirinin konseptual əsaslarının ortaya qoyulması üçün tədqiqatın istiqamətlərinin aşkarlanması və bu dövrə aid edilmiş tədqiqatların çözülməsi vacibdir.

Məktəbəqədər yaşlı uşaqların şəxsiyyətinin formalaşmasında ailə mühitinin rolunu araşdırarkən aşağıdakı cəhətləri nəzərə almağı məqsədəuyğun hesab edirik:

Birincisi,məktəbəqədər yaş dövründə uşağın psixi inkişafı çox sürətli səciyyə daşıyır və bu fakt dəyişilmələrin hansı təsirdən qaynaqlandığını aşkarlanmasını çətinləşdirir.Buna görə də problemin tədqiqi zamanı məktəbəqədər yaşlı uşaqların psixi inkişafını və şəxsiyyət kimi inkişafını fərqləndirmək zərurəti ortaya çıxır.Fikrimizcə,bu istiqamətdə tədqiqatın konseptual əsaslarının qurulması zəruri nəticələrin sistemləşdirilməsinə zəmin yaradacaqdır.

İkincisi,ailə mühitinin psixoloji cəhətlərinin araşdırılması.Problemin qoyuluşunda ailənin tipi,onun tərbiyə üsulu,sosial -iqtisadi statusu,valideynlərin təhsil səviyyəsi və s.dəyişikliklərin nəzərə alıması vacibdir.Bu ona görə zəruridir ki,ailə mühitinin fərqləndirilməsi zamanı müəyyən meyarlara əsaslanmaq mümkün olsun.

Üçüncüsü,ailənin konkret milli-etnik şəraiti,o cümlədən cəmiyyətin inkişaf dinamikası,onun ailə mühitinə təsiri sistemləşdirilməlidir.Çünki belə sistemləşdirmə olmadan ailə mühiti anlayışının özünün semantikası və ya məzmunu mücərrəd qalır və tədqiqatın istiqamətləri aydın olmur.

Dördüncüsü,ailə mühitinin,onun psixoloji xüsusiyyətlərinin uşağın şəxsiyyət kimi formalaşmasına təsir istiqamətləri aşkar edilməli,belə təsirlərin fudamental əsasları müəyyən

edilməlidir.Ailə mühiti hər şeydən əvvəl psixoloji mühit kimi səciyyələndirilməli,o mühitin psixoloji mexanizmlər əsasında gələcək perspektivlərinin proqnozlaşdırılmasına çalışılmalıdır.Çünki istənilən təsir özünün müsbət cəhətləri ilə yanaşı mənfi cəhətlərinidə əks etdirir.Uşağın psixoloji xüsusiyyətlərinin müəyyən edilməsi kontekstində ailə mühitinin təsir imkanlarının səviyyələri müəyyən edilməlidir.

Hesab edirik ki,bu cəhətlər qlobal dəyişmə fonunda ailə mühitinin uşağın şəxsiyyət kimi formalaşmasına təsirinin konkret səviyyədə öyrənilməsinə zəmin yaradacaqdır.

Ailə hər bir insanın həyatında ilk sabit və ya müştərək kiçik bir komandadır.Uşağın əsas xarakter xüsusiyyətləri,vərdişləri məhz ailədə,hətta məktəbdən əvvəl formalaşır.Uşağın kim olacağı isə onun üzvləri arasında ailədəki münasibətlərdən çox asılıdır.Ailə mühitinin pozitiv psixoloji yönümdə formalaşdırılması onun üzvünün gələcək uğurlarından xəbər verir.

Ailə həyatı rəngarəng və müxtəlifdir.Problemsiz,çətinliyi olmayan ailə yoxdur.Ailə əsas təhsil müəssisəsidir.İnsanın ailədə əldə etdiyi hər şeyi sonrakı həyatı boyu özündə saxlayır.

Ailə mühitində baş verən konfliktlər,münasibətlərin qeyri-harmonikliyişəxsiyyətin kim olduğundan uzaqlaşdırır,onu hisslərinin və yaşanmış travmaların köləsinə çevirir.Ona görə də ailənin sosial-psixoloji mühiti mütləq qiymətləndirilməlidir.

Əsas vurğulanan cəhətlərdən biri də ailənin əhəmiyyətidir.Ailənin əhəmiyyəti ondan ibarətdir ki,insan ömrünün çox hissəsini bu ailədə keçiri.Şəxsiyyətin əsasları məhz ailədə qoyulur.Uşaqda həyatının ilk günlərindən ana,ata,qardaş,bacı,nənə,baba və digər qohumlarla yaxın münasibətlər prosesində formalaşmağa başlayır.Məhz burada ilk sosial münasibətlər formalaşır,insanın gələcək perspektivləri və yol xəritəsi cızılır.Eləcə də uşağın kim olacağı bu münasibətlərin xarakterindən çox asılı olur.

Tədqiqatlar göstərir ki,şəxsiyyəti yaradan və ya məhv edən ailədir,onun üzvlərinin psixi sağlamlığını gücləndirmək və ya zədələmək ailənin səlahiyyətindədir.Ailə bəzi şəxsi metlləri təşviq edir,digərlərinin qarşısını alır,şəxsi ehtiyacları ödəyir və ya boğur.

Ailə uşağın ilk ünsiyyət məktəbidir.Ailədə uşaq böyüklərə hörmət etməyi,qocalara,xəstələrə qulluq etməyi,hər cür kömək göstərməyi öyrənir.Qohumlarla ünsiyyətdə,birgə ev işlərində uşaqda vəzifə,qarşılıqlı yardım hissi inkişaf edir.Uşaqlar böyüklərlə münasibətlərə xüsusi həssaslıqla yanaşırlar,onlar əxlaqlılığa,sərtliyə,əmrlərə dözmürlər,böyüklərin kobudluğundan,inamsızlıqdan və hiylədən,xırda nəzarət və şübhələrdən,valideynlərin vicdansızlığından və qeyri-səmimiliyindən ciddi şəkildə sıxılırlar.

Təbii ki,insanın inkişafına və formalaşmasına ailə mühitindən başqa təsir edən digər amillər də vardır.Buraya öyrənmə mühiti,istirahət mühiti və s.daxil etmək olar.Ailə mühitinin strukturunda bu amillər əsaslı rol oynayır.Amma bundan üstün ailənin funksiyaları var.

Tədris prosesi hər saniyə baş verir.Makarenko yazırdı:"Öz davranışınız bir uşaq üçün həlledici şeydir.Uşaq boş bir vərəqdir,doldurulmağa hazırdır.Uşaq hər saniyə sizə baxır,davranışınızla verdyiniz məlumatları mənimsəyir.Hər şey vacibdir-danışıq tərziniz,davranış tərziniz,geyim tərziniz,yad insanlarla,dostlarla,düşmənlərlə ünsiyyət üsullarınız və əlbəttə ki,onların ümumi mövcudluğu vacibdir"( Макаренко А.С.,1977:131)

Valideynlərin şəxsiyyətlərarası münasibətlərinin təbiəti,valideynlər və uşaqlar,ailədə müsbət münasibətlər böyüyən insanın inkişafında mühüm rol oynayır.Uşağın bütövləşməsi üçün valideynləri və ətrafdakılardan uşağa qarşı xeyirxah münasibət lazımdır.Onun böyüklərin tanınmasını qazanmaq,onların tərifini almaq,hərəkətlərinə,davranışlarına,naliyyətlərinə müsbət qiymət vermək istəyi fərdin əhəmiyyətli ehtiyacları və məmuniyyəti üçün əlverişli şəraitin yaradılmasına və təkmilləşdirilməsinə öz töhfəsini verir.

İnkişaf və təkmilləşdirmə prosesinin monitorinqi məktəbəqədər uşağa motivasiya sistemi verir,uşağın öz davranışını başa düşmək bacarığı,onun məqsədyönlü fəaliyyətinin formalaşmasını anlaması üçün stimul rolunu oynayır.Bu proses müsbət təsirin yaradılması ilə həyata keçirilir.

Məktəbəqədər yaşda uşağın fəaliyyətinin motivləri bir xeyirxahlıq qazanmaq arzusu kimi çıxış edə bilər.Eyni davranışın motivləri fəaliyyətin uğurlu təşkilinə zəmin yarada,uşaqların qarşılıqlı əlaqəsini təmin edə,iddialı təzahürlər,özünü təsdiq etmək istəyi və rəqabət xüsusiyyətləri yarana bilər.Çox tez-tez mənəvi,estetik,idrak və yaradıcılıq motivləri bu kateqoriyadan olan uşaqların davranışının aparıcı motivləridir.( Выготский Л.С. 2016:496)

Məktəbəqədər dövrdə uşağın şəxsiyyətində davamlı xassələr kimi özünü göstərən xarakterin əsas konturları görünməyə başlayır. Bu əlamətlər uşağın gündəlik praktik fəaliyyətində və adamlarla ünsiyyətində aşkar olaraq görünür. Nümunəvi xarakterin müsbət əlamətləri kimi məqsədəyönəlişlik, işgüzarlıq, dözümlülük, məsuliyyətlilik, xeyirxahlıq kimi iradi-əxlaqi hərəkətlər uşağın xarakterində əşyavi-praktik fəaliyyət prosesində özünü göstərir. Şəxsiyyətlərarası ünsiyyət prosesində onlarda istiqanlılıq, xeyirxahlıq, sədaqətlilik, üzüyolalıq və s. kimi xüsusiyyətlər diqqəti cəlb edir. (Çələbiyev N. Z. 2005:149)

Ailə mühiti anlayışı subyektin ailəsini funksionallığını qiymətləndirilməsi üçün istifadə edilir.Ailə mühiti hal-hazırda ailənin necə fəaliyyət göstərdiyini qiymətləndirən öz-özünə hesabat verən ailə strukturudur.Başqa sözlə,ailə mühitinin necəliyi ümumi ailə iqliminin göstəricisidir. Ailə mühiti anlamına müxtəlif ölçülər uyğunluq, münaqişə, ifadəlilik, müstəqillik, nailiyyət, yönəlişlik, münasibətlər sistemi, əxlaqi-dini vurğu, təşkilatlanma, nəzarət, uyğunsuzluq və s.daxildir. Uyğunluq bir-birini təmin etmək ailə üzvlərinə bağlılıq, kömək və dəstək dərəcəsidir. Ekspressivlik ailə üzvlərinin nə dərəcədə açıq hərəkətlər etməyə və hisslərini birbaşa ifadə etməyə təşviq olmasıdır.Bununla yanaşı ailə mühitində ailə üzvləri arasında açıq şəkildə ifadə edilən qəzəb,təcavüz və münaqişənin olması da qaçılmazdır.Tədqiqatlar göstərir ki,belə hallarda uşaqların şəxsiyyət kimi formalaşması və nailiyyət qazanması çətin olur.Bir çox hallarda isə bu mümkün olmur.Uşaqların şəxsiyyət kimi formalaşmasında ailənin müstəqilliyi də mühüm rol oynayır.Müstəqillik ailə üzvlərinin bu və ya digər problemin həllinə nə dərəcədə iddialı olmasıdır.Onlar özlərini təmin edir,öz qərarlarını verir və bu zaman naliyyət yönəlişliyi ortaya çıxır.Belə naliyyət yönəlişliyi hələ müəyyən uğurları əldə etməyən uşaqlar üçün motivasiya imkanlarına və öyrənmə üsuluna çevrilir.Müstəqillik pozitiv ailə mühitinin formalaşmasının əsas göstəricilərindən biridir.

Ailə mühitinin uşağın şəxsiyyət kimi formalaşmasında bir məqamada xüsusi diqqət yetirmək lazımdır.Müasir dövrdə dəyərlərin mənzərəsində sıxılan ailə sosial təkamülün ən ağır dövrlərini yaşayır.Dəyərlərin dəyişməsi ənənəvi ailə tipindən müasir ailə tipinə doğru dəyişməkdədir.Uşaqları şxsiyyət kimi formalaşdıran ailə ənənəvi,uşaqlar isə müasir sistemin aparıcılarıdırlar.Belə bir şəraitdə dəyərlərin toqquşması,həmçinin ziddiyyətlərin ortaya çıxması mümkündür.

Çoxsaylı tədqiqatçılar indiki ailənin vəziyyətini böhran vəziyyəti kimi qiymətləndirirlər.Bu obyektiv proseslərlə,o cümlədən ailə-nigah münasibətlərinin dəyişməsi,ölkənin sosial-iqtisadi vəziyyətinin dinamikliyi,sosial təkamülün bioloji təkamülü üstələməsi və s.kimi faktlarla şərtlənmişdir.Belə bir zəmin ailədə boşanmaların sayını artırır,doğum prosesi aşağı düşür,tənha adamların sayı artır.Bu proses bütünlüklə məktəbəqədər uşaqların şəxsiyyət kimi formalaşmasına ciddi təsir göstərir.

Hesab edirik ki,ailə mühitinin xoşagəlməz və ya neqativ iqlim şəraitinin yaranması ailənin öz funksiyalarını yerinə yetirməsi üçün zəruri olan iqtisadi və psixoloji resursların çatışmazlığıdır.Belə vəziyyət ailənin hər bir üzvünə,o cümlədən uşaqlara təsir etməyə bilməz.Təbii ki,neqativ psixoloji iqlimin hökm sürdüyü ailə tipləri özlərinin sosiallaşdırma və tərbiyəetmə funksiyalarından məhrum olması deməkdir.Psixoloji və pedaqoji ədəbiyyatın təhlili göstərir ki, pozitiv və neqativ ailə mühitini formalaşdıran müxtəlif zəminlər var ki,onların nəzərə alınması vacibdir:

1)ananın qavrayışının adekvatlıq dərəcəsi və erkən uşaqlıqda uşağın affektiv təzahürlərinin fərqləndirilməsi xüsusiyyətləri;

2)"valideyn-uşaq" sistemində emosional ünsiyyətin xüsusiyyətləri,onun pozulmasının dərəcəsi və növü:uşaqların travması,valideynlərin zorakılığı,aldadılması,uyğunsuzluğu;
3)ailədəki emosional-əxlaqi atmosferin xüsusiyyətləri:emosional və mənəvi atmosferin tonu,emosional təmasların olması;
4)təhsil sisteminin bütövlük,məqsədyönlülük,məlumatlılıq dərəcəsi;istifadə olunan təhsil təsirlərinin humanistliyi;valideynlərin uşağın imkanları haqqında təsəvvürlərinin adekvatlığı;
5)ailədə uşağın həyatına nəzarət dərəcəsi:həddindən artıq qeyri-kafi;uşağın ehtiyaclarını ödəmək və onun təzahürlərini təşviq etmək vacibliyi ilə bağlı valideynlərin mövqeyi;valideynlər və uşaq arasında emosional məsafə.( Аптикиева Л.Р., Аптикиев А.Х.,Бурсакова М.С.,2014:186)

İnsanlığın bütün tarixi inkişaf dövründə ailə və ailə mühiti ən davamlı,sabit və xarici amillərin təsirindən asılı olmayaraq mövcud olan sosial institutdur.Bu institutun inkişaf etdirilməsi cəmiyyətin ümdə vəzifələrindən biridir.Müasir dövrdə də ailə öz aktuallığını saxlayaraq müxtəlif elmi istiqamətlərdən və paradiqmal yanaşma kontekstindən öyrənilir.Ancaq bir məqamıda qeyd etmək istərdik ki,ailənin təbiəti əvvəlki dövrlərə nisbətən ciddi dəyişikliyə uğrasa da,o özünün əsas funksiyasını uşağın sosiallaşması və tərbiyə edilməsi funksiyalarını qoruyub saxlayır.Lakin bu cəhətlər təbii ki,əlverişli və pozitiv ailə mühiti olduqda daha keyfiyyətlə yerinə yetirilir.

Verilmiş informasiyaları ümumiləşdirərək aşağıdakı nəticələrə gələ bilərik:

- Aparılmış tədqiqatlar göstərir ki,ailə mühitinin məktəbəqədər uşağın şəxsiyyət kimi formalaşmasına təsiri müxtəlif istiqamətlərdə tədqiq olunmuşdur.Burada problemin qoyuluşu əsasən ailə mühitinə deyil,bütövlükdə ailənin funksiyalarına yönəlir.
- Ailə mühitinin məktəbəqədər uşağın şəxsiyyət kimi formalaşmasına təsiri istiqamətləri əsasən qarşılıqlı əks əlaqə mexanizmi vasitəsilə şərh edilir ki,bu kənar təsirlərin məhdudlaşdırılmasına gətirib çıxarır.
- Ailə mühitinin məktəbəqədər uşağın şəxsiyyət kimi formalaşmasına təsiri istiqamətlərində sosial-psixoloji və pedaqoji yanaşmalar üstünlük təşkil edir ki,bu da ümumpsixoloji yanaşmanın daha geniş aspektlərini təhlil etməyə təməl prinsiplər yaradır.
- Hesab edirik ki, ailə mühitinin məktəbəqədər uşağın şəxsiyyət kimi formalaşmasına təsiri zamanı birtərəfli qaydada ailə mühitinin təsirlərini şişirtmək,uşağın potensial imkanlarını və fərdi psixoloji xüsusiyyətlərini kənara atmaq olmaz.

## İstifadə edilmiş ədəbiyyat

Çələbiyev N. Z. Uşaq psixologiyası. Bakı, 2005, 305s.
Аптикиева Л.Р., Аптикиев А.Х.,Бурсакова М.С. Семя как фактор личностного развития ребенка\\ Вестник ОГУ №7(168)/июл 2014,186 с.
Выготский Л.С.Педагогическая психология. М.Юраайт.2016.496 с.
Макаренко А.С.Избранные педагогические сочинения в двух томах. — М., Педагогика, 1977

# VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN TƏLİM PROSESİNDƏ ROLU

**Tamilə Həsənova**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının müəllimi,*
*Bakı Dövlət Universitetinin dissertantı*
*Email: toma.hasan@mail.ru*

**Açar sözlər: vətənpərvərlik, təlim, fəlsəfə,müəllim,bilik,mərhəmət**

Təlim fərdi, sosial, iqtisadi və siyasi funksiyaları baxımından əhəmiyyətli bir gücə sahibdir. Təlim sistemləri fərdlər tərəfindən cəmiyyətlərin mədəniyyətlərinə və əldə edilməsini istədikləri davranışlara uyğun olaraq formalaşır. Bundan əlavə, elm, texnika və sənətdəki yeni paradiqmalarla ayaqlaşmaq və yeniliklərə açıq, maraqlanan, vətənpərvər və tolerant olan şəxsləri yetişdirmək istiqamətində mühüm rol oynayır.

Təlim prosesinin fəlsəfəsi təlim və fəlsəfə sahəsində qarşılıqlı əlaqənin tətbiqini ifadə edir. Fəlsəfə, bütün fənlərin yönləndirilməsi, işlənməsi və qiymətləndirilməsi üçün əsas bir rəhbər intizamdır və təhsil fəlsəfəsi də təhsilin işində bir bələdçi rolunu oynayır. Bu baxımdan, təlim fəlsəfəsi təhsili istiqamətləndirən, hədəfləri formalaşdıran və təhsil tətbiqetmələrini yönəldən bir intizamdır.

Brauner və Burns fəlsəfədən uzaq bir təlim və təhsilin vəziyyətini yanında bələdçi olmadan yolunu azacaq görmə qabiliyyəti olmayan bir şəxsin vəziyyəti ilə müqayisə edirlər (1). Bu bənzətmədə olduğu kimi, fəlsəfə və təlim də birlikdə gəzir və qarşılıqlı təsir yolu ilə bir-birini əvəz edir.

Qərb cəmiyyəti biliyi güc olması və məlumatlıların güclü olacağı fərziyyəsini qəbul etməkdədir. Bundan başqa, "Bilik mərhəmət və bolluqdur" anlayışı da mövcuddur. Bu istiqamətdə yetişən fərdlər də bu anlayışdan təsirlənməkdədir. 1897-ci ildə Pablo Pikassoda “Bilik və mərhəmət” böyük əsərini yaradır və öz atasının nəsiətlərini burada əks etdirməyə çalışır. Bu baxımdan, təlim fəlsəfəsinin orijinal olmaması, qərb mərkəzli olması və müəyyən qisim insanları əks etdirməməsi çox vacib bir sual kimi ortalığa çıxır.

Təhsil müəssisələrində təlim fəlsəfəsi kursunun yetərli olmaması, dəyişən təlim fəlsəfəsindən asılı olaraq, verilən kifayət qədər ixtisas təhsili və dəyişikliklərə qarşı müqavimətin şüurlu və ya şüursuz gücü nəticəsində müəllimlər təlim fəlsəfəsindən xəbərsiz olaraq vəzifələrini davam etdirirlər.

Təlim fəlsəfəsi, təhsil siyasətinin müəyyənləşdiricisi kimi keçmişin izlərini daşıyan, günümüzün ehtiyaclarını nəzərə alan və gələcəklə bağlı düşüncələri də əhatə edən bir araşdırma sahəsidir. Təlim fəlsəfəsinin vacib sütunlarından biri olan keçmişin izlərini daşıma nöqtəsindədir. Tədqiqatçılar ayrıca təlim sisteminin vəziyyətinə görə digərini götürmək əvəzinə keçmiş təcrübələr sayəsində bu problemlərin əsas mənbələrindən birini bənzərsiz bir təhsil sisteminin yaradılması olduğunu vurğulamışdır. Bundan əlavə, məktəb proqramlarının utilitar fəlsəfəyə əsaslanan konstruktivizmə uyğun şəkildə təşkil olunmasına baxmayaraq, Avropa Birliyinin milli dəyərlərin və şüurlu vətənpərvərliyin son zamanlarda önə çıxması ilə birlikdə spesifiklik və qalıcılığının praktikada davam etdiyi və bunun müəllimlər, valideynlər və öyrəncilərin köhnə davranışlarını gizli bir proqramla davam etdirməsi müşahidə edilməkdədir.

Bu gün biz sivilizasiyanın informasiya cəmiyyətinə keçidi şəraitində yaşayırıq. Qloballaşma prosesləri cəmiyyəti kökündən dəyişir və təhsilə öz tələblərini qoyur. Bu proses o qədər dinamikdir ki, müasir təhsilin qarşısında duran problemləri tez, ağrısız və birmənalı həll etmək mümkün deyil.

Müəllim səriştələri mövzusu təlim fəlsəfəsinin ən vacib problem sahələrindən biridir. Müəllim məzmun biliyi, ümumi mədəniyyət və pedaqoji formalaşma baxımından yaxşı təchiz olunmuş bir şəkildə hazırlanmalıdır. Müəllimin öz sahəsi üzrə mütəxəssis olması və ümumi

mədəniyyət baxımından savadlı olması kifayət deyil və pedaqoji formalaşma baxımından səriştəsi artırılmalıdır.

Müəllimin rolu yalnız öyrənməklə əlaqəli olmadığı üçün, məsləhət ölçüsündən xəbərdar olmaq çox vacibdir. Bu nöqtə əslində təlimlərin yalnız rəsmi və örtülü proqramın funksionallığı olmadığını göstərir. Təlim prosesində müəllim davranışlarının uşaqlara təsiri aydın şəkildə görünəcəkdir. Bu səbəbdən müəllim bu təsirin fərqində olmalı və davranışında daima şüurlu bir münasibət göstərməlidir. Müəllimlərin status, onların özlərinin vətənpərvər olmaqlarını və, həmçinin gəliri kimi də məsələlərin həll edilməsi vacib problem sahələrindən birini təşkil etməlidir.

**İstifadə olunmuş ədəbiyyat və internet resursları:**

1. F.Ələkbərli "Vatikan arxivlərində saxlanan Azərbaycana aid əlyazmaları", Elm və təhsil, B-2014, 75s.

2. https://www.pablo-ruiz-picasso.ru/work-11.php

## «СПРАВЕДЛИВОСТЬ, РАВЕНСТВО, СВОБОДА» – КРЕДО ОБЩЕСТВЕННОГО И ГОСУДАРСТВЕННОГО ДЕЯТЕЛЯ АХМЕД БЕКА АГАОГЛУ

**Тахмина Сулейман Агакишиева**

*Доцент, доктор философии по философии*

*Национальная Академия Наук Азербайджана*

*Институт Философии и Социологии*

*Как человек, который сотрудничал с ним, хорошо знал, как героически он трудиться и борется, с полной уверенностью могу сказать, что в тот период, в те бурные годы никто другой, кроме Ахмед бека Агаоглу, не находился на передовой линии национального движения и национальной борьбы*

*Мамед Эмин Расулзаде*

**Ключевые слова:** Ахмед бек Агаоглу, Шуша, публисистика, свободы и равноправия в мусульманском обществе,

Необходимо подчеркнуть, что при знакомстве с работами азербайджанских и зарубежных авторов бросается в глаза довольно обширная библиография о жизни и деятельности Ахмед бека Агаоглу.

Ахмед бек Агаоглу родился в древней азербайджанской земле Шуше(1869г.). Его отец Мирза Гасан-бек принадлежал к знатному карабахскому роду Гурдлар. Этот род в XVIII веке переехал из Эрзурума в Гянджу, а позднее – в Карабах. Мирза Гасан-бек был состоятельным фермером, занимавшимся выращиванием хлопка. То, что родственникам Ахмед-бека с отцовской стороны был дарован титул "Мирза" (титул людей, получивших образование или занимавших небольшие государственные должности), говорит о том, что его семья принадлежала к прослойке интеллигенции. Его дед Мирза Ибрагим был одним из самых известных учёных города Шуша. Он был каллиграфом и писал стихи на турецком языке. Его дяди также владели, кроме турецкого, фарси, арабским и русским языками. Мать Ахмед-бека Тазе ханым

происходила из шушинского рода Сарыджалы и приходилась дочерью Рафи-беку и сестрой Зейналабдин-беку Рафибекову.

Заслуживает быть отмеченным, что Ахмед бек окончил светскую школу в Шуше, а потом в Тифлисе. В 1884 году Ахмед бек выбрал Париж — культурную столицу Европы «либерального века», где он провел лучшие годы для своего интеллектуального роста (1888–1894). Ахмед бек получил образование во Франции в Сорбонском университете, а также во Французском колледже и Высшей школе прикладных исследований. В это время наряду с учебой, он занялся также исследовательской деятельностью. Ахмед-бек писал статьи на общественно-политические темы во французской прессе ("Жюрна́ль де Деба́" и др.). Также посылал свои публикации в газету "Кавказ". Труды молодого Ахмед бека быстро привлекли пристальное внимание академических кругов Франции. Французский философ и писатель Эрнест Ренан, которого к тому же трудно заподозрить в симпатиях к мусульманам и исламу, высоко отзывался о работах А. Агаоглу, предсказывая ему блестящую научную карьеру. Более того, **Э.Ренан предлагал Ахмед беку после завершения учебы обосноваться в Европе:** «Ты обладаешь возможностями стать всемирно известным ученым, не возвращайся на родину, Восток проглотит тебя». Ответ А. Агаоглу на предложение преподавателя был достоин истинного патриота своего народа: «Восток тоже нуждается в образованных людях, и полученные от вас знания я буду передавать на родине соотечественникам» (1.с.6). В 1894 году он вернулся из Франции на свою Родину Шушу. Здесь он начинает преподавать французский язык в Шушинском реальном училище, а в 1896 году открывает первую библиотеку-читальню, которая в те годы была очагом культуры нового типа. В Шуше люди называли его «Фирянг Ахмед», то есть "Француз Ахмед". Характеризуя деятельность Ахмед-бека Агаоглу, оказавший своеобразное влияние на политическую и культурную жизнь Азербайджана и Турции, на развитие научной мысли, доктор философии по философии, доцент Айтек Закир кызы в своем докладе на тему «Три великих гения тюркского мира – Али-бек Гусейнзаде, Ахмед-бек Агаоглу, Хильми Зия Улькен» указала на чувство привязанности Ахмед-бека Агаоглу к городу Шуше, где он родился, а также отметила: “В своих впечатлениях от участия в проводившемся в Лондоне «Конгрессе востоковедов» он упоминал о тоске по Шуше во время прогулок по лондонскому Гайд-парку, что проявление патриотических чувств наблюдалось и в его письмах семье в период, когда он находился в изгнании на Мальте в течение двух лет”(4). В 1897 году по приглашению Гаджи Зейналабдина Тагиева переехал в Баку, где начал сотрудничать с местной газетой “Каспий”, а также работал преподавателем в Бикинксом коммерческом училище. Вместе с Али-беком Гусейнзаде был также редактором газеты “Хайят”(5).

Важно отметить, что за короткий временный отрезок (во время армяно – азербайджанского межнационального конфликта 1905 – 1906 гг.) Ахмед бек оставил такое богатое публистическое наследие, которое не теряет своей актуальности и сегодня, в условиях современных национальных и территориальных проблем на Кавказе. Обращение к этому наследию помогает осмыслить положение мусульманских народов в составе многонациональной России в начале XXв., корни межнационального антагонизма и высокого уровня конфликтности в армяно – азербайджанских отношениях и др.вопросы. Редактор газеты “Каспий” Алимардан бек Топчибашев, характеризуя Ахмед бека, подчёркивал его “Познания, любовь к делу, живое перо в связи с исповедуемыми им прогрессивными идеями”(2. стр. 11).

Следует довести до внимания, что в исследованиях Ахмед бека ведущее место стала занимать не только пропаганда идеи мира и согласия между народами, но и донесении правды о межнациональном конфликте, опровержение ложной и однобокой

информации. Ахмед бек Агаоглу интересовали насущные проблемы мусульманских стран и народов, которые по ряду объективных и субъективных причин отставали от Европы. Статьи Ахмед бека охватывали также различные стороны жизни и быта мусульман, злободневные проблемы народов Кавказа. Будучи блестящим мастером пера, обладая незаурядной эрудицией, аналитическим складом ума, он описывал проблемы, стоявшие перед мусульманским миром, подвергая к критике негативные, отсталые стороны жизни общества, призывая единоверцев к просвещению. Он подвергал к критике консервативных мусульманских священнослужителей, упорно защищавших устаревшие порядки и насаждавших невежество. Главным выходом из этого затворнического положения Ахмед бек видел просвещение в школу. В одном и своих статей он писал: “Единственное, что поможет им [мусульманам – Ф.Д.] – это школа”(2.стр. 15). Помимо проблем народов Кавказа, красной нитью через всю общественную деятельность А. Агаоглу проходила мысль о том, что мусульмане, будучи коренным и наиболее многочисленным населением в Баку, должны перестать находиться под опекой представителей других народов. Когда в 1904 г. Обсуждался вопрос об избрании городским головой гласного думы, редактора газеты Каспий А.Топчибашева, вызвало негативную реакцию части русской прессы в Петербурге, А. Агаоглу отвечал этим кругам: “Еще ни одним законом не ограничены права мусульман на общественность, на разыгрывание роли в той или другой законной форме общественной деятельности. Как жители России, они имеют одинаковые права, хотя бы наравне с армянами и грузинами, занимать те или другие общественные посты. Если армянин может быть головой в Тифлисе, грузин Николадзе в Батуми, то почему же мусульманин не может быть головой Баку. Чем же мусульмане по природе ниже этих народностей. Баку и исторически и фактически мусульманский город. Большинство жителей, большинство капиталов, большинство имуществ – мусульманские”(2.стр. 17). Более того интерес также представляет серия статей А. Агаоглу под заголовком “Мусульманские беседы”, которые были опубликованы на страницах газеты “Каспий”. Здесь автор раскрывал в форме разговора с неким ахундом причины отставания мусульман, неуклонно критикуя косность и невежество, поддерживаемые деспотическими режимами, как в самих мусульманских странах, так и там, где мусульмане были иноверцами.

Необходимо подчеркнуть, что статьи, которые писал Агаоглу после переезда в Баку, также были посвящены проблемам женщин в мусульманском обществе. Двумя основными врагами и неизлечимой раной мусульманского мира Ахмед бек считал отсталость женщин. В своих публикациях Ахмед бек указывал, что путь к национальному спасению лежит через культурное и образовательное развитие общества. Агаоглу, пропагандировавший идеи свободы женщин и считающий её основным фактором борьбы за свободу, был одним из первых представителей азербайджанской интеллигенции, призывавших к наделению женщин равными правами с мужчинами. В труде «Женщина в исламском мире» он отмечал: "Без свободной женщины не может быть национального развития". В своём произведении «Женщины согласно Исламу и в Исламе» он отмечал: "Только будучи свободно, независимо мыслящей матерью и женой, мусульманская женщина может целенаправленно выполнять свои социальные функции; только при этом условии она, воспитав в своих детях характер и волю, способна внедрять важные для общественной жизни чувства и мысли"(6). Он видел единственный выход из этой критической ситуации не только в максимальном использовании мусульманскими народами научно – технических достижений Запада, но и в активном внедрении европейских ценностей, прежде всего, принципов свободы и равноправия в мусульманском обществе. А. Агаоглу исходил из того, что без радикального изменения нравственных устоев общества и образа

мышления людей на мусульманском Востоке простое копирование западных достижений не принесет желаемых результатов. Он подчеркивал: «Можно сколько угодно составлять конституции, созывать меджлисы, но если не изменятся наша сущность и сознание, если внутри каждого из нас сидит деспотизм, проявления которого можно проследить в наших домах, улицах, собраниях, в нашей манере поведения, то мы не сможем двигаться вперед наравне с современными обществами» (3.с.12). В произведении "Ислам, ахунд и фатихульгейб" критиковал многочисленность мазхабов (учений, доктрин) в исламе и отмечал, что наибольший вред исламу наносят ахунды и муллы. Эта позиция была воспринята в штыки религиозными деятелями, в его отношении даже была вынесена смертельная фетва. Как писал сын Ахмед-бека Самед Агаоглу, из-за своих произведений отец был вынужден провести 6 месяцев в домашнем затворничестве, в течение этого времени его дом охраняла полиция. Ситуация благополучно разрешилась лишь после вмешательства Гаджи Зейналабдина Тагиева. Агаоглу призывает ориентироваться на примеры таких выдающихся мусульман, как Ибн Рушд (Аверроэс), Ибн Сина (Авиценна), аль-Джабари, Саади и Маснави (Джалалетдин Руми). При этом Ахмед бек призывал находиться в рамках мусульманской доктрины, опираясь на идеи современных ему выдающихся модернизаторов Джамалетдина аль-Афгани и Мухаммада Абдо. Занимаясь литературной критикой, Агаоглу публикует ряд статей о литературе, театре, в частности, "Сочинения Гаджи Сеида Азима", "Отелло" Шекспира и "Разбойники" Шиллера", "Горький и мусульманство", "Татарин Аслан" из пьесы Горького "На дне" и др. Занимаясь активной журналистской деятельностью, он участвует в создании ряда популярных в начале века газет: "Хаят" (основана совместно с А.Панах хан в 1905 г.), "Иршад"(1905 г.), "Тарагги" (1909 г.). Вскоре А. Агаоглу возглавил газету «Иршад» («Путеводитель»), выходившую под лозунгом «Адолат, Мушаверет, Хуррият», то есть «Справедливость, Равенство, Свобода»(7). В 1909 году Ахмед бек принимает решение переехать в Стамбул. В Стамбуле Агаоглу активно сотрудничает с лидерами культурного и языкового единства тюркских народов в движении «Тюрк очагы («Тюркский очаг»). Он публикуется в журналах «Тюрк йорду» и «Тарджеман и-хакикат». Ахмед Агаев призывал тюркские народы к развитию просвещения, торговли, ремесел и промышленности как единственных способов обеспечить создание сильного государства. В июне 1918г. в качестве советника Нуру-паши по политическим вопросам приехал в Азербайджан. Был избран депутатом азербайджанского парламента. Агаоглу находился в числе тех членов азербайджанской делегации на Парижскую мирную конференцию, где был арестован английскими оккупационными войсками. Ахмед бек выступал против колониальных захватов европейских держав и за свои патриотические убеждения был сослан на Мальту.

Важно подчеркнуть, что Агаоглу и на Мальте вёл бесстрашную, открытую, системную, аргументированную борьбу против англичан, не опасался критиковать их. Неоднократно выражал свой резкий протест против самоуправста англичан, писал официальным лицам письма, в которых настаивал на своём праве на освобождение. В одном из писем, в частности, он писал: "Я не хочу милосердия, помилования. Я хочу справедливости! Я заранее согласен предстать перед судом и подчиниться решению этого суда. Британцы своей силой мирового масштаба могут сокрушить многих беззащитных людей вроде меня. Но что это прибавит к славе Великобритании? Я говорю все это не для того, чтобы просить вашей милости. Нет! Я ни вкоем случае не принимаю ни милосердия, ни прощения. Я хочу справедливости!"

Следует акцентировать, что по возвращении в Турцию в 1921г. А. Агаоглу активно поддержал кемалистский режим, стал редактором официального органа анкарского правительства — газеты «Хакимиет-и-миллиет», стал директором главного управления

прессы, его статьи появлялись на страницах крупнейших общенациональных газет «Джумхуриет» и «Миллиет». В 1933 году Ахмед-бек учреждает газету «Акын», чтобы проповедовать в турецком обществе либеральные ценности. Из-за того, чтобы эти ценности противоречили существующей на тот момент однопартийной системе, Агаоглу и его газета подвергаются нападкам со стороны подконтрольной власти прессы и государственных структур. Периодически против него выдвигаются судебные иски. На одном из судебных процессов Агаоглу заявляет:" Оказывается, тот, кто подал на меня в суд, в своё время был моим студентом.Если меня стоит наказать, так это только за то, что я, будучи профессором конституционного права, не сумел правильно объяснить своему студенту, что значит ''свободная мысль'' и ''свободноное слово''. В сентябре 1933 года правительство закрыло газету «Акын». В последнем выпуске газеты от 24 сентября был жёстко раскритикована правительственная газета «Хакимиййет-и Миллийе». Кроме того, под видом реформ в университете Агаоглу был отправлен на пенсию. Это было трагедией для такого деятельного человека, как Ахмед-бек. В письме своему другу Фетхи Окьяру он писал: "Меня отправили на пенсию и после этого двери активной жизни захлопнулись передо мной. Я все это пишу вам не для того, чтобы жаловаться. Хочу излить душу тому, кого искренне люблю и кому доверяю. Жаловаться? На что и для чего. Вы знаете меня. Я достиг 66 – лет. Я разбираюсь в себе и не нахожу ничего, в чем могу себя упрекнуть. Самая тяжёлая, невыносимая беда для меня - быть выброшенным из жизни и оставаться озадаченным наблюдателем". Проведенное исследование показало, что Ахмед бек Агаоглу во всех сферах проявлял большой интерес к проблемам – "Справедливости, Равенства, Свободы".

Великий мыслитель всего исламского мира Ахмед бек Агаоглу, скончался 19 мая 1939 года в Стамбуле и похоронен на кладбище Ферикёй. В заключении хотелось бы отметить, что очень важно, чтобы был поставлен памятник Ахмед беку Агаоглу - великому мыслителю тюркского и всего исламского мира.


Xülasə

Məqalədə XX əsrin əvvəllərində Azərbaycanın içtimai xadimi, mütəfəkkiri, Əhməd bəy Ağaoğlunun ömür yolunu, həyata baxışını, yaradıcılığındakı təkamül prosesini, görüşlərini, dövrünün tanınmış şəxsləri ilə münasibətlərini, əlaqə və əməkdaşlığı xüsusi olaraq vurğulanmışdır.


Список литератур


1. Ağaoğlu Süreyya - Bir Ömür Böyle Geçti // Ankara, 1984, 46 s.
2. Ахмед бек Агаоглу – Национальный вопрос на Кавказе//Сборник статей и документов/Составитель, автор предисловий, комментариев и примечаний Ф.Р.Джаббаров – Баку:Мутарджим, 2019, 412 стр.
3. Ağaoğlu A. Üç Medeniyet. İstanbul, 1972, s. 12
4. Состоялся семинар на тему «Три великих гения тюркского мира – Али-бек Гусейнзаде, Ахмед-бек Агаоглу, Хильми Зия Улькен»- http://philosophy.edu.az/index.php?newsid=435
5. https://milliyyet.info/tarix/m%C9%99h%C9%99mm%C9%99d-%C9%99min-r%C9%99sulzad%C9%99-agaoglu-%C9%99hm%C9%99d/=
6. Ахмед бек Агаоглу – великий поборник европеизации Востока -https://irs-az.com/ru/article/315

7. Агаев Ахмед бек (Ахмед Агаоглу)- журналист, член Парламента АДР OurBakuhttps://ourbaku.com/index.php/%D0%90%D0%B3%D0%B0%D0%B5%D0%B2_%D0%90%D1%85%D0%BC%D0%B5%D0%B4_%D0%

## VƏTƏNPƏRVƏRLİK-QALİBİYYƏT AMİLİ

**Elşad Həsənli**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya
İnstitutunun aparıcı elmi işçisi
elshadhasanli1968@mail.ru

**Açar sözlər:** Vətən müharibəsi, Qarabağ, vətənpərvərlik, milli birlik, qələbə

Vətən sərhəddən, qələbə isə vətənpərvərlikdən başlayır. Ölkə təhlükə altında, sərhədlər pozulanda vətənpərvər övladlar sinəsini qabağa verib düşmənə həddini göstərir, onu yerində oturdurlar. 2-ci Qarabağ müharibəsi, müqəddəs Vətən savaşında da belə oldu. 30 ilə yaxın müddət ərzində haqqa söykənən, ədalətə ümid edən Azərbaycan dövləti və xalqı beynəlxalq ictimaiyyət tərəfindən adekvat reaksiya görməyəndə məyus oldu, erməni təcavüzkarlarını özünün cəzalandırmasına qərar verdi. Bu illər ərzində dəfələrlə hərbi təxribat və terrorla üzləşən xalqımız 27 sentyabr 2020-ci il tarixində ermənilərin növbəti həmləsinə qarşı əks-hücuma keçdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordumuz cavab tədbirlərinə başladı və 44 günlük savaşın nəticəsi olaraq böyük qələbə əldə etdi. Bu qələbənin kökündə isə ilk növbədə vətənpərvərlik amili dayanır.Vətənpərvərlik keyfiyyəti xalqımızın qanında, genində möhkəmlənib və lazımi anda özünü göstərib, soydaşlarımızı düşmənə nifrətə istiqamətləndirib. Tarixin burulğanlarından keçib gələn bu hiss zamanın sınaqlarında bərkiyib, ideyaların reallığa çevrilməsinə təkan verib. Müasir, müstəqil Azərbaycanın dövlətçiliyinin qorunub saxlanılmasında Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideologiyasının xüsusi rolu var. Bu ideologiya sayəsində mənəvi dəyərlərimizi,qoruyub saxlayan və gələcəyə ötürən xalqımız həm də yeni dövrün tələblərini nəzərə almaqla bir amal ətrafında birləşdi. Ulu öndərin siyasi kursunun davamçısı, Azərbaycan prezidenti, cənab İlham Əliyev uzaqgörən siyasətçi kimi qarşıda duran əsas problemi düzgün sərf-nəzər edərək mütərəqqi qərarlar verdi. İqtisadiyyatımızı dirçəltdi, ordu quruculuğuna xüsusi diqqət yetirdi, diplomatik əlaqələrin genişləndirilməsi, ölkəmizin təbliği yönündə zəruri addımlar atdı. ”44 günlük müharibədə Azərbaycan sübut etdi ki, qüvvələrini “Dəmir yumruq”da birləşdirməyə, strategiya hazirlamağa, Şuşanı almağı bacaran müasir ordu qurmağa, kosmik rabitəni inkişaf etdirməyə, modern tipli iqtisadiyyat yaratmağa, informasiya müharibəsində iştiraka və çox təcrübəli bir düşməni məğlub etməyə qadirdir” [Məmmədzadə, 2021:8]. Gənclərin vətənpərvərlik ruhunda yetişməsində, ideoloji işin təşkilində lazımi addımlar atıldı, mübarizlik ruhu təlqin olundu və nəticədə millətimiz “Dəmir yumruq” əməliyyatına vətənpərvərlik ruhu qatdı, 44 günlük Vətən Müharibəsində Silahlı Qüvvələrimizə möhkəm dayaq oldu və düşmənin başını əzdi Prezident-Ordu-Xalq birliyi öz qüvvəsini, qüdrətini göstərdi, şəhidlər və qazilərimiz öz qani-canı bahasına haqq-ədaləti bərpa etdi, erməni zülmünə son qoyuldu. Bu savaş xalqımızın vətənpərvərlik ruhunun təntənəsi olmaqla yanaşı, gələcək nəslə yurd sevgisi əmanətini qoydu. Vətən müharibəsi göstərdi ki, güclü iradə və birlik sayəsində hər bir çətin işin öhdəsindən gəlmək mümkündür. “İlham Əliyevin qələbəsi erməni xalqının sərsəm

təxəyyülünün məhsulu olan və onu əsrlərdir bəlalara sürükləyən "Böyük Ermənistan" xülyasının tam iflasıdır! İlham Əliyevin qələbəsi böyük qlobal güc olan dünya erməniliyinin, erməni lobbisinin, erməni təbliğat maşınının darmadağın olunmasıdır! İlham Əliyevin ən böyük zəfəri isə düşmənin indiyədək bütün qələbələrinin zəmini olan erməni xalqının birliyi, bütövlüyü, təəssübkeşliyi dəyərlərini məhv etməsidir!"[Hüseynli, 2022:1].

Qeyd etdiyimiz kimi, 44 gunluk Vətən müharibəsi xalqımızın qələbə əzmini sübüta yetirdi, cəmiyyətimizin daşıyıcı qüvvəsi olan gənclərimizin ruhunun sarsılmaz olduğunu nümayiş etdirdi. Azərbaycan gəncliyi, Azərbaycan əsgəri milli ruhu,Vətən sevgisi, haqqa inamı sayəsində yeni bir tarix yazdı, müqəddəs ideyaların həyata keçməsini tezləşdirdi. Gənclik xalqımızın vuran əli, düşmənin qəniminə çevrildi, yaddaşımızı təzələdi, gələcək nəslə nümunə oldu. Azərbaycan əsgəri torpaq, ana sevgisindən, xalq məhəbbətindən güc alaraq, yaralı və şəhid yoldaşlarını çiynində daşıya-daşıya vuruşdu. Bu hərəkəti ilə dünyanı heyrətləndirdi. O dünyanı ki, uzun illər haqqı nahaqdan seçmədi, seçmək istəmədi. Ölkə prezidenti, cənab İlham Əliyevin dediyi kimi, "İkinci Qarabağ müharibəsi bizdə Vətən müharibəsi adlandırılır. Çünki hər birimiz, hər bir Azərbaycan vətəndaşı bu günü nəinki səbirsizliklə gözləyirdi, bu günə inanırdı, eyni zamanda, öz əməyi ilə bu günü yaxınlaşdırırdı. Bizim üçün, xalqımız üçün torpaqlarımızın azad olunmasından daha vacib məsələ heç vaxt olmamışdır. Mən hesab edirəm ki, Qələbəmizin əsas amillərindən biri də məhz budur. Çünki biz Qarabağı unutmadıq, biz o vəziyyətlə barışmadıq. Halbuki bizə deyilirdi ki, artıq reallıqla gərək hesablaşasınız, siz birinci müharibədə, yəni, 1990-cı illərdə məğlubiyyətə uğramısınız. Siz indi gərək bu vəziyyətlə barışıb ermənilərlə kompromisə gedəsiniz, dil tapasınız. Mənim mövqeyim bəllidir. Mən bu mövqeyi həm ölkə daxilində, həm beynəlxalq tədbirlərdə bütün kürsülərdə çıxış edərkən bəyan edirdim ki, biz bu vəziyyətlə heç vaxt barışmayacağıq. Mənə güc verən məhz xalqımızın əzmkarlığı idi"[Əliyev, 2021].

Vətən müharibəsinin hər bir günündə qəhrəmanlqı salnaməsi yazıldı, vətənpərvərlik nümunəsi göstərildi. Döyüş mövqelərindən qaçmasınlar deyə zəncirlənmiş erməni əsgərlərindən fərqli olaraq Azərbaycan əsgəri döyüşə sevinə-sevinə gedirdi. Bu, 30 ilə yaxın müddət ərzində itirdiyimiz torpaqların, yurd yerlərinin azad olunması təşnəsinin göstəricisi idi. Gənc əsgərlərimiz əvvəllər o torpaqları görməsələr də, oralarda olmasalar da itkinin nə olduğunu, nədən ibarət olduğunu yaxşı başa düşürdülər. Onlarda bu ruh aşılanmış, onlar bu halları qiyabi də olsa yaşamışdılar. Çünki, torpağa, Vətənə sevgi əvvəlcə ailədən, sonra isə məktəbdən qaynaqlanmışdı. Hər birimiz yaxşı başa düşürdük ki, ölkəmiz heç vaxt ərazi itkisi ilə barışmayacaq, şəhidlərimizin qanı yerdə qalmayacaq. Bu, qan yaddaşı məsələsi idi. Tarix bizi imtahana çəkdi və biz bu imtahandan şərəflə çıxdıq. İmtahanlara çəkilənlərin sırasında gənclərimizə həyat, tarix və vətənpərvərlik dərsi keçən müəllimlər də oldular. Onlar, zabit və əsgərlərimiz bu dəfə düşmənə layiq olduğu dərsi verdilər. Saxta ideologiyaya, saxta tarixə, xəstə təxəyyülə malik ermənilərin gələcəkdə bundan necə nəticə çıxaracağını isə real tarix özü göstərəcək.

İkinci Qarabağ müharibəsində 10 mindən çox erməni əsgər və zabiti fərarilik etdi. Hazırda Ermənistanda bu məsələ ilə əlaqədar istintaq aparılır. Ermənilərin fərariliyi Azərbaycan əsgərinin güc və qüdrətinin, iradəsinin göstəricisi idi. Azərbaycan hərbçiləri arasında isə 1 nəfər də olsun fərari yox idi. Azərbaycan əsgərinin igidlik və qorxmazlığını erməni əsgər və zabitləri də etiraf edirdilər. Onlar bildirirlər ki, azərbaycanlılar vurulsalar da yaralı-yaralı üstümüzə gəlirdilər. Sanki onlara güllə təsir etmirdi. Bu Azərbaycan hərbçisinin vətənpərvərliyinin, yenilməzliyinin sübutudur. Ordumuzun hərbi əməliyyatlarının uğurlarını xarici hərbi ekspertlər, hərbçilər də dəyərləndirirlər. Onlar Silahlı qüvvələrimizin döyüş qabiliyyətinin , texniki təminatının yüksək səviyyədə olduğunu xüsusi vurğulayır, bu təcrübədən istifadə edilməsini zəruri sayırlar.

Müqəddəs savaş günlərində qəlbi vətən sevgisi ilə dolu olan hər bir vətəndaşımız, bütün qurumlar qələbəyə köklənmişdi. Bu işdə Kütləvi İnformasiya Vasitələrinin də üzərinə

böyük məsuliyyət düşürdü. Cəbhədəki əməliyyatların gedişi və nəticələri ilə bağlı ermənilərin dezinformasiyalarını ifşa etmək, xalqı gələcəyə ruhlandırmaq, cəmiyyətə düzgün informasiya çatdırmaq da ümdə məsələlərdən biri idi. Bu yöndə radio və televiziyalarımızın üzərinə də ciddi vəzifələr düşürdü. Ölkə başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı,Cənab İlham Əliyevin işğaldan azad olunmuş yaşayış məntəqələrimizlə əlaqədar xalqa müraciətlərinin çatdırılması, xəbər, şərh və analitik təhlillərə geniş yer verilməsi, ölkə başçısının xarici Kütləvi İnformasiya Vasitələrinə verdiyi müsabibələrinin təfərrüatı ilə geniş auditoriyaya ötürülməsi, daxili və xarici siyasətimizin beynəlxalq aləmə yetirilməsi də qələbəni təmin edən vasitələrdən biri idi. Çünki, informasiya müharibəsində də üstün mövqedə olmadan düşmənə qalib gəlmək mümkün deyil. 30 ilə yaxınmüddət ərzində xalqın və dövlətin bir məqsədə köklənməsi, əsas problemimiz olan ərazi bütövlüyümüzün bərpası yönündə atılan addımlar sonda öz müsbət nəticəsini verdi.”Vətən müharibəsi həmvətənlərimizin qəlbinin, ruhunun dərinliklərində öz oyanış vaxtını gözləyən enerjiyə yol açdı, adi həyatda fərqinə varmadığımız , lakin vətən torpaqları uğrunda ölüm-dirim mübarizəsi anında bir anda baş qaldıran mübarizlik və qəhrəmanlıq xüsusiyyətləri hər kəsə sirayət etdi. Fərdi qəhrəmanlıq qrup və kollektiv qəhrəmanlığı doğurdu, qısa zamanda bu bütün xalqın qəhrəmanlığına yol açdı”[Mədətli, 2021:162]. Bəs Azərbaycan 2-ci Qarabağ müharibəsi-Vətən müharibəsi ilə daha nələrə nail oldu?

1.Azərbaycan türkləri milli qürurunun ölməzliyini sübut etdilər;

2. Bu müharibə xalqımızın vətənpərvərlik və dövlətçilik şüurunun inkişafına yeni bir təkan verdi;

3. Yenilməz erməni ordusu mifi darmadağın edildi;

4. ATƏT-in Minsk Qrupunun fəaliyyətinin görüntü xarakteri daşıdığını sübut etdi və bu kontekstdə sülhə nail olmağın əsas yolunun müharibədən keçdiyini göstərdi;

5. Bəzi Qərb dairələri və ölkələrinin ikiüzlü siyasətinin qəbuledilməzliyini sübuta yetirdi, ikili standartlara lazımi qiymət verdi;

6. Azərbaycan xalqı dostu ilə düşmənini bir daha tanıdı.

Vətən müharibəsi haqqın nahaq, xeyirin şər üzərində qələbəsi, xalqımızın dəyanəti, ordumuzun qüdrəti, gənclərimizin yenilməzliyi və milli birliyimizin sarsılmazlığının göstəricisi idi. Bu qələbə həm də milli kimliyimizi, ölkəmizdə yaşayan bütün xalqların Vətən sevgisini sübut etdi, ədalətli idarəçiliyin və tolerantlığın nə dərəcədə vacibliyini dünyaya nümayiş etdirdi.

## Ədəbiyyat siyahısı

1.Azərbaycan Respublikasinin Prezidenti İlham Əliyev Fizuli rayon ictimaiyyətinin nümayəndləri ilə görüşüb. https://president.az/az/articles/view/53513

2.Hüseynli İ. Vətən Savaşı Azərbaycanın - İlham Əliyevin zəfəri ilə başa çatdı! https://www.azerbaijan-news.az/posts/detail/ -204123

3.Məmmədzadə İ. Liderlik fenomeni və müharibədən sonrakı dövrün bəzi gerçəklikləri. Prezident İlham Əliyevin Azərbaycanın inkişaf strategiyası:fəlsəfi, sosioloji və siyasi təhlil. Bakı,”Bilgi”MMC, 2021

4.Mədətli E. Vətən müharibəsində qələbəmiz və tarixi yaddaş. Azərbaycanın strateji hədəfləri və cənubi qafqazda yeni reallıqlar. Bakı,”Bilgi”, 2021

# POSTMÜNAQİŞƏ DÖVRÜNDƏ DAĞIDILMIŞ TARİXİ-MƏDƏNİ ABİDƏLƏRİN BƏRPASI VƏ QORUNMASI

**Humay Eminova**

AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, elmi işçisi
humayemonova@yahoo.com

**Açar sözlər:** Azərbaycan, Şuşa, Qarabağ xanlığı, tarixi abidələr, arxeoloji irs

Bu gün 44 günlük müharibədən zəfərlə çıxan Azərbaycan hərtərəfli yenidənqurma, yenidənbərpa olunma siyasətini uğurla həyata keçirir. İlk öncə Dağlıq Qarabağ ərazisində olan və münaqişə zamanı məhv olmuş maddi və mədəniyyət nümunələri, tarix və mədəniyyət abidələri haqqında məlumatların gənclər arasında daha geniş təbliğ etməkdən ibarətdir. Azərbaycanın işğal edilmiş ərazilərində 13 dünya əhəmiyyətli — 6 memarlıq və 7 arxeoloji, 292 ölkə əhəmiyyətli — 119 memarlıq və 173 arxeoloji və 330 yerli əhəmiyyətli — 270 memarlıq, 22 arxeoloji, 23 bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi tarix və mədəniyyət abidələri qalıb. Ermənistanın işğal altındakı Azərbaycan ərazilərində mədəni irsi məhv etməyə yönələn siyasətinin bir hissəsi də bu ərazilərdə qalan muzeylərdə saxlanılan misilsiz tarixi eksponatları, qiymətli incəsənət və mədəniyyət nümunələrini talan etməsidir. Mədəniyyət və Turizm Nazirliyinin statistikasına görə, işğal olunmuş ərazilərdə 40 mindən çox eksponata malik olan 22 muzey qalıb. Bu muzeylərdən azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlı qiymətli əşyalar, rəsm və heykəltəraşlıq əsərləri, dünya şöhrətli Azərbaycan xalçaları, xalça məmulatları, Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyaları, digər qiymətli eksponatlar talan edilib. Qədim sikkələr, qızıl və gümüş məmulatlar, nadir və bahalı daşlar, xalçalar və digər əl işləri ilə zəngin olan Kəlbəcər rayonunun Tarix muzeyi, Şuşa rayonunun Tarix muzeyləri, Ağdam rayonunun dünyada nadir olan Çörək Muzeyi, Qubadlı tarix-diyarşünaslıq muzeyi (3 mindən çox əşya), Zəngilan rayonunun tarix-diyarşünaslıq muzeyi (6 minədək əşya), daş abidələr muzeyi çərçivəsində və bir çox başqa muzeylər bura daxildir. Bu muzeylərin demək olar ki, heç birini xilas etmək, köçürmək mümkün olmayıb. Abidələr və tarixi yerlərimiz öz görkəmləri ilə xalqımızın zəngin tarixini bir daha əyani nümayiş etdirir. Bizə hər an kimliyimizi, nəyə qadir olduğumuzu xatırladır, vətən sevgisi və ona sadiqlik hisslərini aşılayır. Bu danılmaz faktdır ki, ölkəmizdə də yaşı əsrləri və minillikləri əhatə edən tarixi abidələr mövcuddur. Azıx mağarasından tapılmış qədim insanın çənə sümüyü, Qobustanda aşkar edilmiş yaşayış məskənləri Azərbaycanda ən qədim dövrlərdən insanların məskunlaşdığını təsdiqləyir (4).

Tarixi abidələrin bərpası və qorunmasına xüsusi diqqət göstərmiş, bu işlərə dövlət dəstəyini əsirgəməmiş ümummilli lider Heydər Əliyevin qoyduğu ənənəni bu gün Prezident İlham Əliyev, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ölkə daxilində və xaricində böyük işlər həyata keçirilməklə davam etdirir. Son illər ölkəmizdə tarixi abidələrin bərpası və qorunması istiqamətində bir sıra layihələr icra olunub.

Artıq beş ildir ki, dövlət başçısının müvafiq Fərmanı ilə mədəni irsimizin qorunması, inkişafı və təbliğinə bilavasitə cavabdeh olan dövlət qurumu - Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti yaradılıb. Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti mədəni irsin qorunması, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının əraziləri istisna olmaqla, dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət abidələrinin istifadəsi, bərpası, rekonstruksiyası, konservasiyası və yenidən qurulması sahəsində dövlət nəzarətini həyata keçirən icra hakimiyyəti orqanıdır. Ötən müddət ərzində Dövlət Xidməti ölkəmizdə bir sıra tarixi abidələrin bərpa və konservasiyasını həyata keçirib, hazırda bu istiqamətdə görülən işlər davam etdirilir.

Ölkə başçısının böyük diqqət və qayğısı sayəsində Azərbaycanda tarixi abidələrin tədqiqi, mühafizəsi və bərpası, mədəniyyət nümunələrinin beynəlxalq aləmdə təbliği istiqamətində böyük işlər görülür. Bütün bunlar isə Azərbaycanın qlobal dünyaya öz maddi və mənəvi mədəniyyəti ilə birgə inteqrasiyasını təmin edir.

Bakı, Naxçıvan, Şəki, Şamaxı, Quba, Qəbələ, Gəncə, Bərdə, bir sözlə Azərbaycanın dörd bir yanında yerləşən tarixi binalar, qalalar, dini məbədlər və digər mədəni irs nümunələrimizin bərpası istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında mədəni irsin qorunması və səmərəli idarə edilməsi ölkənin strateji inkişaf istiqamətlərindən biri kimi qeyd olunur. Bu Konsepsiyanı həyata keçirmək və milli mədəni irsin qorunmasını təmin etmək məqsədilə Prezident İlham Əliyevin müvafiq Fərmanı ilə "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı" təsdiq edilib (6). Bu proqramın icrası ilə əlaqədar milli pasportların və xəritələrin hazırlanması, normativ bazanın gücləndirilməsi, abidələrin təbliği istiqamətində bir sıra işlər həyata keçirilir. Xatırlayaq ki, təkcə ötən il ərzində Şamaxının Dəmirçi kəndində XVII əsr məscidi bərpa və Dəmirçi-Lahıc yolunda nekropolun və qala divarlarının konservasiyası başa çatdırılıb, Şəkidə Bəxtiyar Vahabzadənin ev-muzeyində yenidənqurma, Bakıda Azərbaycan Milli İncəsənət muzeyi, Bərdədə "Allah-Allah" türbəsi, Şuşa Dövlət Dram Teatrında bərpa işləri aparılıb.

Arxeoloji irsin qorunması sahəsində də il ərzində tarixi ərazilərdə 30-dan çox elmi ekspedisiya fəaliyyət göstərib. Yerli mütəxəssislərlə yanaşı, əcnəbi alimlər də arxeoloji qazıntılarda iştirak ediblər.

Abidələrin və tarixi yerlərin dağıdılması xalqın, millətin varlığının məhvi deməkdir. Hazırda dünyada baş verən siyasi proseslər nəticəsində minlərlə abidə məhv olmaq təhlükəsindədir. Abidələr və tarixi yerlərin məhv olmaq təhlükəsi ölkəmizdən də yan ötməyib. Torpaqlarımızın 20 faizini işğal etmiş Ermənistanın hərbi birləşmələri milli mədəniyyət abidələrimizi qəddarcasına dağıdıblar. Erməni terrorçuları tərəfindən zəbt olunmuş qədim Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli - 6 memarlıq və 7 arxeoloji, 292 ölkə, 330 yerli əhəmiyyətli memarlıq, arxeoloji, bağ, park, monumental və xatirə abidələri, sənət nümunələri qalıb. Həmçinin bu ərazilərdə 40 mindən artıq əşyanın toplandığı 22 muzey, yüzlərlə mədəni-maarif müəssisələri də düşmən tapdağı altındadır.

Bu baxımdan Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününün təsis olunması böyük əhəmiyyətə malikdir. Bu əlamətdar gün Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının (İCOMOS) təklifi üzrə UNESCO tərəfindən 1983-cü ildə təsis olunub. Məqsəd insanların diqqətini abidələrin və tarixi yerlərin qorunmasına yönəltməkdir.

Bu əlamətdar gün Azərbaycanda da geniş qeyd olunur. Hər il bu tarixdə qoruqlarda, tarixi məkanlarda abidələrin və tarixi yerlərin qorunmasının təbliği məqsədi ilə müxtəlif tədbirlər, sərgilər təşkil olunur.

Müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz bir sıra əhəmiyyətli beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq siyasətini həyata keçirir. Dünya səviyyəli mütəxəssislərin, texniki yardımların, kadrların hazırlanması, qlobal elmi layihələrdə iştirak etmək məqsədilə 1992-ci ildə Azərbaycan dövləti UNESCO ilə əməkdaşlığa başlayıb. Azərbaycanın bir sıra maddi və qeyri-maddi mədəni irs nümunələri UNESCO-nun Ümumdünya İrs və Qeyri-maddi irs üzrə reprezentativ siyahılarına daxil edilib. 2000-ci ildə İçərişəhər Qız Qalası və Şirvanşahlar Sarayı ilə birlikdə, 2007-ci ildə isə Qobustan Dövlət Tarixi-Bədii Qoruğu UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib. Hazırda digər tarixi yerlər və abidələrimizin də bu siyahıya daxil edilməsi istiqamətində işlər davam etdirilir.

Göründüyü kimi, aparılan işlərin nəticəsi olaraq zəngin mədəni irsimiz Azərbaycanın vizit kartına çevrilib. Ölkəmizin zəngin mədəni irsinin təbliği, milli memarlıq və bərpaçılıq

sənətinin təşviqi, tarix və mədəniyyət abidələrinin qorunması sahəsində fəaliyyətin dəstəklənməsi və stimullaşdırılması məqsədilə 2013-cü ildən etibarən Mədəniyyət Nazirliyi tərəfindən "Milli irs mükafatı" təsis edilib. Bu mükafat mədəni irsimizin təbliği, milli memarlıq və bərpaçılıq sənətinin təşviqi, tarix və mədəniyyət abidələrinin qorunması sahəsində fərqlənmiş şəxslərə və təşkilatlara təqdim olunur.

Abidələr xalqın daş yaddaşıdır. Onları qorumaq, abad saxlamaq və gələcək nəsillərə ötürmək bizim hər birimizin vətəndaşlıq borcumuzdur. Şuşa şəhəri Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri, ölkəmizin mədəniyyət beşiyi, ”Qafqazın konservatoriyası” olmuşdur. Şəhərin ərazisi qədim abidələrlə zəngindir. Ümumiyyətlə, şəhərdə 549 qədim bina, ümumi uzunluğu 1203 metr olan daş döşənmiş küçələr, 17 məhəllə bulağı, 17 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr və qala divarları mövcud idi. O cümlədən, 72 tarixi abidə, dövlət xadimlərinin və başqa tanınmış şəxslərin evləri olmuşdu. Bu abidələrin çoxu XIX əsrdə yaşamış memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilmiş və həmin dövrün ən məşhur nəqqaşı Kərbəlayi Səfərəli tərəfindən zövqlə işlənmişdir.

Ermənistanın Azərbaycana qarşı apardığı işağalçılıq siyasəti nəticəsində 1992-ci ilin mayın 8-də Şuşa düşmən tərəfindən işğal edilmiş və şəhərdə tarixi-mədəniyyət abidələri yerlə-yeksan edilmişdir. İşğalın davam etdiyi 29 il ərzində Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası, 160-dək mədəniyyət və tarixi abidə, 22 ümumtəhsil məktəbi, 7 uşaq bağçası, 8 mədəniyyət evi, 14 klub, 2 kinoteatr, 3 muzey dağıdılmış, məbəd və məscidlər təhqir edilmiş, 20 kitabxana yandırılmışdır.

Şuşa işğaldan azad olunduqdan sonra cənab Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dəfələrlə bu şəhərə səfər etmiş və şəhərin abidələrinin necə dağıdıldığının şahidi olmuşlar. Dövlət başçımız Şuşaya səfərləri zamanı bu şəhərin tezliklə bərpa ediləcəyini bildirmişdir: “Mən demişəm ki, Şuşa nəinki Azərbaycanın, dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəkdir və buna nail olacağıq, 100 faiz” (3). İşğaldan azad edildikdən sonra Şuşada başlanılan quruculuq işləri bunu bir daha təsdiq edir.

Ulu öndərin açılışında iştirak etdiyi M.P.Vaqifin məqbərəsinin bərpa işlərini Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu öz vəsaiti hesabına icra edir.

Bərpa işlərinin aparılması Şuşanın tarixi görkəminə xələl gətirməyəcək. Dövlət başçısı bildirib ki, bütün işlər planlı şəkildə aparılmalı, Şuşanın tarixi siması saxlanılmalıdır, Şuşaya yad olan hər hansı bir tikiliyə yol vermək olmaz. Mütəxəssislər, memarlar, tarixçilər, şuşalılar özləri deyəcəklər ki, bu şəhəri necə görmək istəyirlər, çünki bu, onların şəhəridir. Şuşanın əsl tarixi simasının və qədim mədəni abidələrinin bərpası Azərbaycan memarlıq üslubunu əks etdirməli və Şuşada yaşayacaq soydaşlarımız da, bütün işlər görüləndən sonra oraya qayıtmalıdırlar.

Şuşanın mədəni ruhu geri qayıdır, tarixi görkəmi bərpa edilir. Şəhərin Azərbaycan mədəniyyət tarixinin çox vacib örnəklərinin bərpa olunması, şübhəsiz ki, öz tariximizə, mədəniyyətimizə, abidələrimizə sahib çıxmağımızın nümunəsidir.

Bu gün işğaldan azad olunmuş ərazilərimizdə Azərbaycan dövləti tərəfindən həyata keçirilən nəhəng yenidənqurma işləri, o cümlədən Şuşada aparılan bərpa və quruculuq prosesi şəhərin tarixi simasının bərpa edilməsi məqsədilə, Şuşanın orijinal memarlıq üslubuna uyğun olaraq gerçəkləşdirilir.

Heydər Əliyev Fondu Şuşada Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidlərinin bərpa-təmir işlərini aparır. Hər üç məscidin memarı Kərbəlayi Səfixan Qarabaği olmuşdur və məscidlər ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələrinin siyahısındadır.

Yuxarı Gövhər ağa məscidinin interyeri məhv edilmiş, minarələrinin dekoru zədələnmiş, örtükləri dağıdılmışdır. Məscidin birinci mərhələdə bərpası başa çatıb, ikinci

mərhələ üzrə işlər aparılır. Bu mərhələdə məscidin daşları ilkin layihəyə uyğun olaraq dəyişdirilir. Məscid ərazisində dağıdılmış mədrəsə də bərpa ediləcək.

İşğal dövründə dağıntıya məruz qalan Aşağı Gövhər ağa məscidində isə xarici ekspertlər qiymətləndirmə işləri aparıblar.

Saatlı məhəlləsində yerləşən tarixi Saatlı məscidi də Şuşa şəhəri Ermənistan tərəfindən işğal olunduqdan sonra ciddi dağıntılara məruz qalıb.

Hazırda Qazançı kilsəsi də bərpa edilir. Bütün digər tarix-mədəniyyət abidələrimiz kimi. Qazançı kilsəsinin ilkin bədii-estetik görkəminə uyğun bərpa edilməsi nəzərdə tutulur. Bu, elmi-praktiki-tədqiqat fəaliyyəti olmaqla abidənin hərtərəfli təhlilini, memarlıq, tarixilik xüsusiyyətlərinin araşdırılmasını ehtiva edir. Hazırlanan bərpa layihəsi abidənin XIX əsrdəki ilkin-orijinal görkəminə qaytarılmasına imkan verir.

Şuşanın Qazançı kilsəsinin bərpa edilməsini həzm edə bilməyən işğalçı, terrorçu Ermənistan bizə qarşı şər-böhtan atır, cəfəng iddialar irəli sürməyə çalışır. Lakin bunlar hamısı əbəsdir və "Böyük Qayıdış" çərçivəsində abidələrimiz bərpa olunduqca, tarixi-mədəni irsimiz azad olunmuş ərazilərə qaytarıldıqca Azərbaycan dövlətinin sülhə, inkişafa və tərəqqiyə yönəlmiş siyasəti öz təntənəsini yaşayacaq.

Heydər Əliyev Fondu işğaldan azad edilmiş Şuşa şəhərində daha bir layihənin icrasına başlayıb. Hazırda şəhərdə Yaradıcılıq Mərkəzinin, Rəsm və Xalçaçılıq qalereyalarının təmir-bərpa işləri həyata keçirilir.

Vaxtilə Ağa Qəhrəman Mirsiyab oğlunun karvansarası kimi tanınan Şuşa Yaradıcılıq Mərkəzinin yerləşdiyi bina ölkə əhəmiyyətli tarixi memarlıq abidələri siyahısındadır.

Şuşa Xalçaçılıq qalereyası isə keçmiş Şuşa Xalça Muzeyinin binasında yerləşəcək. Binaya işğal dövründə ciddi ziyan dəyib. Və dövlətimiz erməni işğalçıları tərəfindən məhv edilən bu kimi tarixi mədəni abidələrimizi böyük səylə təmir və bərpa etdirir. Bu cəhdi görən mənfur düşmən xalqımızın və dövlətimizin bu fədakarlığını həzm edə bilmir. Və ona görə də təxribat xarakterli hərəkətlərə tez-tez cəhd göstərirlər. Və bu təxribatların qarşısı güclü ordumuz tərəfindən məharətlə və vaxtında alınır. Yuxarıda qeyd etdiyimiz binalarda hazırda təmir-bərpa işləri ilə yanaşı, hər üçündə də sərgilənəcək əsərlərin də seçimi aparılır. Qısa zamanda Şuşada Azərbaycan rəssamlarının əsərləri, Qarabağın işğaldan əvvəl və sonrakı görüntülərini əks etdirən əsərlər, həmçinin xalça eksponatları yer alacaq.

Əlbəttə, bunlar bərpasına başlanan abidələrin tam siyahısı deyil. Yaxın vaxtlarda Şuşanın bütün tarixi, mədəni və dini abidələri bərpa edilib öz əvvəlki görkəminə qaytarılacaq və şəhər Azərbaycanın mədəniyyət paytaxtı missiyasını uğurla yerinə yetirəcək.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpası ilə bağlı ölkə rəhbərliyi tərəfindən məqsədyönlü tədbirlər dayanmadan həyata keçirilir. Prezident İlham Əliyevin təşəbbüsü və tapşırıqlarına əsasən, ərazilərin bərpa edilməsi və yenidən qurulması ilə bərabər, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının reallaşdırılması da nəzərdə tutulur. Eyni zamanda cəmiyyətdə bərpa və quruculuq işləri istiqamətində fikir mübadiləsi aparılır, təkliflər irəli sürülür. İşğaldan azad olunmuş ərazilərdə yenidən həyatınn bərpası dövlət siyasətinin əsas prioritet istiqamətlərindəndir. Hər məhv olan tarixi mədəni abidələr öz ruhunun qayıtmasını istəyir və hər məhv olan mədəni irsimiz özünə və yerləşdiyi mühitə, əraziyə uyğun münasibət istəyir. Qeyd edək ki, abidələrin bərpasına yanaşma müxtəlif ola bilər. Elə abidə var ki, bu 30 ildə düşmən tərəfindən təhqir olunub, dağıdılıb. Məsələn, məscidlərimiz, qədim məbədlərimiz, xristian abidələri. Bunları bərpa etmək lazımdır ki, dindar insanlar ibadət etsinlər. Amma elə abidələrimiz var ki, 30 ildə yox, yüz illər ərzində mütəmadi olaraq dağıdılıb. Məsələn, Xudafərin körpüləri. Düşünürəm ki, həmin ərazi dövlət qoruğu edilməlidir. Lakin nəzərə alaq ki, uçub-dağılmış körpüləri təzədən tiksək, onun tarixiliyi itəcək. Beləliklə, biz keçmişimizi itirəcəyik. Odur ki, bu məsələlərə çox diqqətlə, həssaslıqla yanaşmaq lazımdır. Yuxarıda qeyd etdiyimiz kimi bu işlərdə dövlətə daha çox dəstək Heydər Əliyev Fondu tərəfindən göstərilir.

Heydər Əliyev Fondu “Qarabağın mədəni irsi” adlı nəşrlər toplusu hazırlayıb. Topluya ədəbiyyat, musiqi, memarlıq sahələrini, xalq sənətkarlığını və xalçaçılıq sənətini əks etdirən 5 nəşr daxildir (2).

Digər bir nəşrə nəzər yetirək. “Xalq sənətkarlığı” nəşrində Azərbaycan xalqının zəngin yaradıcılığında mühüm yerlərdən birini tutan, onun həyat və məişət, gündəlik güzəranı ilə bağlı olan xalq sənətlərindən bəhs olunur. Ən qədim dövrlərdən zəmanəmizədək yaşayan bu sənət növü xalqın geyimindən tutmuş müxtəlif təsərrüfat məmulatı və bəzəyinə qədər böyük bir sahəni əhatə edir. Nəşrdə təqdim edilən materiallar bol xammal ehtiyatı ilə zəngin olan Azərbaycanın ayrılmaz hissəsi - Qarabağda bir çox sənət sahələrinin, o cümlədən ağacişləmə, baramaçılıq, başmaqçılıq, bədii tikmə, boyaqçılıq, culfaçılıq, daşişləmə, dəmirçilik, dəriçilik, dulusçuluq, dülgərlik, həsirçilik, xalçaçılıq və digər sənətlərin geniş yayıldığını, özünəməxsus inkişaf yolu keçdiyini nümayiş etdirir.

Qarabağ bölgəsinin çoxəsrlik tarixə malik və Azərbaycan xalqının mədəni sərvətinin mühüm hissəsini təşkil edən musiqi irsi haqqında foto və məlumatlar “Musiqi” adlı nəşrdə cəmlənib. Təkrarsız maddi və qeyri-maddi mədəniyyət abidələri ilə seçilən Qarabağ Azərbaycan musiqisinin məbədi hesab olunur. XVIII əsrdə yaranmış Qarabağ xanlığı Azərbaycan ədəbiyyatı və incəsənətinin, xüsusilə də musiqi sənətinin inkişafına güclü təkan vermişdir. Toplunun Qarabağın musiqi irsinə aid olan nəşrində XIX-XX əsrlərdə cərəyan edən mürəkkəb mədəni-tarixi proseslərdə, regionun mənəvi mühitinin inkişafında, Şərq-Qərb musiqi dialoqunun formalaşmasında Qarabağ musiqiçilərinin müstəsna rol oynaması faktı ortaya qoyulur. Nəşrdə Qarabağın aşıq mühiti, muğam, bəstəkarlıq və vokal məktəbləri barədə məlumat və fotolar təqdim edilir.

“Ədəbiyyat” nəşrində Qarabağda xalqımızın yaratdığı, qədim və zəngin mədəniyyətin bir qolunu təşkil edən mədəni sərvətlər, söz və sənət nümunələri haqqında məlumatlar diqqətə çatdırılır. Əsrlər boyu Qarabağda Azərbaycan incəsənətinin müxtəlif sahələri: xalq musiqisi, aşıq sənəti, muğamat və ifaçılıq xüsusi inkişaf yolu keçmişdir. Şifahi xalq ədəbiyyatı nümunələrində Qarabağ ərazisindəki yer adları bu torpaqların Azərbaycan möhürüdür. Azərbaycanın yazılı ədəbiyyatında Qarabağ mövzusu geniş yer tutmuşdur. Nəşrdə Qarabağlı şair və yazıçılar barədə məlumatlar və fotolar təqdim edilir.

“Memarlıq” haqqında nəşrdə Azərbaycan ərazisində mövcud olan memarlıq abidələrinin forma, tipoloji və konstruktiv baxımından zənginliyi barədə məlumatlar toplanıb. “Qarabağın mədəni irsi” toplusunun bu bölməsində zamanın tələblərinə uyğun yaradılan memarlıq nümunələri haqqında məlumatlar fotolar və qrafik rəsmlər vasitəsilə diqqətə çatdırılır.

Qədim zamanlardan Azərbaycanın əlverişli iqlim şəraiti burada xalçaçılığın inkişafına təkan vermişdir. Azərbaycan xalçaları arasında Qarabağ xalçaları xüsusi yer tutur. “Xalçaçılıq” nəşrində Qarabağ ərazisində xalçaçılığın yaranma tarixi, xalçaların işlənmə texnikası, Qarabağ xalça qrupunun xarakterik xüsusiyyətləri, bu bölgədə toxunan xalçaların səsi-sorağının bütün dünyadan gəldiyi qeyd olunur.

Azərbaycanda milli şüurun və milli özünüdərkin bütün formalarının yüksək vüsət almasına imkan verən sürətli inkişaf strategiyasının seçilməsi və uğurla həyata keçirilməsi Ulu öndər Heydər Əliyevin rəhbərlik və idarəetmə fəlsəfəsinin aparıcı qayəsini təşkil edirdi. Bu xətt bu gün də davam edir. İstehsal, elm, mədəniyyət, Azərbaycan dilinin inkişafı sahəsində əldə edilmiş tərəqqi, milli ruhun inkişafına, milli özünüdərkin və milli uğurun yüksəlməsinə, gələcəkdə müstəqil Azərbaycan dövlətinin yaranmasına xidmət edən uzaqgörən planın tərkib hissələri olmuşdur. Azadlıq uğrunda açıq mübarizəyə hazırlıq mərhələsi 70-80-ci illəri əhatə etmişdir. Həmin mərhələnin əsas məqsədi Azərbaycanda hərtərəfli iqtisadi, siyasi, sosial, mədəni inkişaf zəminində xalqın mübarizlik ruhunu və əzmini gücləndirməklə, onu çətinlik və məhrumiyyətlərə hazırlamaq olmuşdur.

Azərbaycan eyni zamanda BMT-nin elm, təhsil və mədəniyyət üzrə bu nüfuzlu təşkilatı ilə əməkdaşlığı genişləndirmişdir. Məhz həmin beynəlxalq təşkilatla əməkdaşlıq sayəsində milli-mədəni irsimiz, tarixi mədəniyyət nümunələrimiz beynəlxalq aləmə təqdim edilmiş və tanıdılmışdır. Bu əlaqələrin inkişafında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın böyük xidmətləri var. Hazırda bir sıra maddi və mənəvi mədəniyyət abidələri UNESCO tərəfindən bəşəriyyətin yüksək dəyərləri kimi qorunur və dünyaya tanıdılır. Belə ki, həm ölkəmizin, həm də bütün bəşəriyyətin mədəniyyəti üçün Azərbaycan muğamının yüksək dəyəri nəzərə alınaraq 2008-ci ildə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmişdir. Bundan başqa, İçərişəhər təkcə Azərbaycan üçün deyil, həm də bəşəri dəyər kimi yüksək qiymətləndirilən tarixi abidədir. Bunu UNESCO-nun Dünya Maddi İrs Siyahısına İçərişəhərin Qız qalası və Şirvanşahlar Saray Kompleksi ilə birgə salınması da təsdiq edir. Həm Şirvanşahlar Saray Kompleksi, həm də Qız qalası Azərbaycan qanunvericiliyi, eləcə də UNESCO tərəfindən dünya əhəmiyyətli abidələr kimi tanınır. Hələ 2013-cü ildə UNESCO tərəfindən İçərişəhərə Şirvanşahlar Sarayı və Qız qalası ilə birlikdə gücləndirilmiş mühafizə statusunun verilməsi ölkəmizdə əlaqələrin yeni mərhələsi olmuşdur. Bu statusa malik mədəni obyektlər Silahlı Münaqişə Zamanı Mədəni Sərvətlərin Qorunması üzrə Haaqa Konvensiyası və onun İkinci protokoluna qoşulmuş ölkələrin silahlı qüvvələri tərəfindən tanınan xüsusi emblemlə nişanlanır və gücləndirilmiş mühafizə ilə təmin olunur.UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Komitəsinin Abu-Dabi şəhərində keçirilmiş 4-cü sessiyasının yekun qərarına əsasən, Azərbaycanın aşıq sənəti ilə yanaşı, Novruz bayramı da UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısında yer tutub. Bu uğur Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasətin və xalqımızın mədəniyyətinə, adət-ənənəsinə göstərdiyi yüksək qayğının nəticəsidir. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın ölkəmizin qeyri-maddi mədəni irsinin, xüsusilə muğam və aşıq sənətinin, milli adət-ənənələrimizin dünyada tanıdılması və təbliği istiqamətində gördüyü işlər bu uğurların qazanılmasında mühüm rol oynayıb.

Xalqlar dünya mədəniyyətini öz töhfələri ilə zənginləşdirirlər. Bütün bunlar isə bəşəriyyətin mədəni irsinə çevrilir. Xalçaçılıq dünyanın bir çox ölkəsində yayılsa da, qətiyyətlə deyə bilərik ki, bu sənət növünün beşiyi Azərbaycandır. Azərbaycan xalçasının UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilməsi böyük uğurdur. Söz yox ki, bu, çox çətin prosesdir. Dünyada məşhur olan Qobustan qoruğunun Dünya Mədəni İrs Siyahısına daxil edilməsi barədə ölkə rəhbərliyi iki dəfə məsələ qaldırmışdı. İlk belə müraciət 2004-cü ildə olmuşdu. Yeni Zelandiyanın Kristçorç şəhərində irs komitəsinin 31-ci sessiyasında iştirak edən Azərbaycan nümayəndə heyəti Ümumdünya İrs Komitəsinin bütün üzvlərini Prezident İlham Əliyevin Qobustanın inkişafı ilə bağlı imzaladığı sərəncamla tanış etmişdir. Həmçinin Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın UNESCO-nun baş direktoru Koişiro Matsuuraya göndərdiyi xüsusi məktubunun surəti də təqdim olunmuşdur. Yalnız bundan sonra sessiya Qobustan Dövlət Tarixi-Bədii Qoruğunun 2007-ci ildə Dünya Mədəni İrs Siyahısına daxil olunması barədə yekdilliklə qərar qəbul etmişdir. Bu gün onun qorunması və inkişaf etdirilməsi bəşəri əhəmiyyət daşıyır.Azərbaycan tar ifaçılığı sənətinin UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsi böyük zəhmət hesabına ərsəyə gəlmişdir. Bu məqsədlə Muğam Mərkəzində təqdimat mərasimi keçirilmişdir. Mərasimdə tar sənəti haqqında filmin nümayişi və tar musiqisinin rəngarəng nümunələrindən ibarət İtaliyada istehsal edilmiş diskin təqdimatı olmuşdur. Tar ifaçılarının iştirakı ilə konsert proqramı təqdim edilmişdir. Beləliklə, Azərbaycanın tar ifaçılığı sənəti də UNESCO-nun Qeyri-Maddi İrs Siyahısına salınmışdır. 2013-cü ildə Azərbaycanın ənənəvi at idman növü çövkən oyunu da UNESCO-nun Qeyri-Maddi İrs Siyahısına daxil edilmişdir. 2014-cü ildə isə kəlağayı baş örtüyünün xalqımızın milli-mədəni irsi kimi UNESCO-nun

Qeyri-Maddi Mədəni İrs Siyahısına salınması milli mədəniyyətimizin beynəlxalq aləmdə tanıdılması istiqamətində gördüyü işlərin nəticəsidir.

Prezident İlham Əliyevin fərmanı ilə “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasına əsaslanan “Daşınmaz tarixi və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı” milli- mədəni irsin qorunması istiqamətində aparılan islahatların davamı olaraq daşınmaz tarix və mədəniyyət abidələrinin, tarixi ərazilərin, mədəniyyət qoruqlarının mühafizəsinin müasir səviyyədə təşkilinə, daşınmaz mədəni irsin bərpası, öyrənilməsi, təbliği və inkişafı üzrə tədbirlərin həyata keçirilməsinə yönəldilmişdir (1, s.37). Bu mənada Azərbaycanın hələ bu siyahıya salınacaq xeyli maddi-mədəni irs nümunələri var. Yəqin ki, yaxın gələcəkdə onlar da həmin siyahıda öz yerini tutacaqdır. Hər bir xalqın özünəməxsusluğunu şərtləndirən amillər onun dövlətçilik ənənələri ilə yanaşı, həm də zəngin milli-mənəvi irsi, pak və ali dəyərləri, qlobal planda maddi-mənəvi mədəniyyət nümunələri əsasında müəyyənləşir. Milli kimliyi ifadə edən dəyərlər, eyni zamanda, xalqın mənəvi sərvəti, toxunulmaz xəzinəsidir.

Azərbaycan dövləti xalqın mədəniyyətinin və mənəviyyatının qorunub saxlanılmasına, inkişaf etdirilməsinə xidmət edən strateji siyasi kursa daim üstünlük vermişdir.

Bu gün milli-mənəvi dəyərlərimizə, milli irsimizə və onun qorunub saxlanılmasına dövlət qayğısı danılmaz bir faktdır. Prezident İlham Əliyev Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin yaradılması və fəaliyyətinin daha da təkmilləşdirilməsi haqqında fərmanlar imzalamışdır. Bu fərmana əsasən dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması sahəsində dövlət nəzarətini gücləndirmək, idarəetmənn səmərəliliyini təmin etmək məqsədilə bu xidmətə göstərişlər, tapşırıqlar verilir. Bu abidələrin qorunması sayəsində qanunvericiliyi də təkmilləşdirmək, məsuliyyətin gücləndirilməsi kimi məsələlər diqqət mərkəzində olmuşdur.

Daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması, tarix və mədəniyyət abidələrinin qorunması, tarix və mədəniyyət qoruqlarının işinin, fəaliyyətinin daha da gücləndirilməsi və inkişafına dair 2013-2020-ci illər üçün Dövlət Proqramı qəbul edilmişdir. Və informasiya cəmiyyətinin inkişaf etdiyi, İKT-nin gücləndiyi bir dövrdə mədəni irsimizin qorunması üçün bu proqrama əsasən vahid elektron məlumat bazası yaradılmışdır və bunun əsasında reyestr yenilənmiş, idarə optimallaşdırılmışdır. Eyni zamanda kadr potensialı və idarəetmə modelləri hansı ki dünya tərəfindən artıq qəbul olunub tətbiqi yenilənmişdir. Maddi texniki baza, İKT-nin gücləndirilməsi səmərəliliyi bir daha artırır və bu istiqamət də konsepsiya və proqramda öz əksini tapmışdır (1, s.36). Buraya qeyri-maddi irs, arxeoloji irs, onların qorunması, səmərəli idarə olunması kimi zəruri işlər bu gün də dövlətin dəstəyi və maliyyə yardımı ilə uğurla həyata keçirilir.

**İstifadə edilmiş ədəbiyyat**

1.Azərbaycan 2020: Gələcəyə baxış inkişaf konsepsiyası. Bakı, 2013
2.Azərtac, Bakı, 17 iyun 2021
3.Xalq qəzeti, 2021, 4 iyul
4.https://azertag.az

# MƏDƏNİYYƏT MADDİ VƏ MƏNƏVİ SƏRVƏTLƏRİN MƏCMUSU KİMİ

**Faiq Əliyev**
tarix üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Neft və Sənaye Universitetinin
Humanitar fənlər kafedrası
faigaliyev@mail.ru

**Açar sözlər:** mədəniyyət, maddi və mənəvi mədəniyyət, həyat, insan, sivilizasiya, dəyər

Mədəniyyət sosial-siyasi fenomen kimi ictimai-siyasi həyatın bütün sferaları ilə əlaqədar olub insanların tarixi təcrübələrindən toplanmış maddi və mənəvi sərvətlərin məcmusundan ibarətdir.

Mədəniyyət anlayışı ictimai həyatın çox geniş sahəsini əhatə etdiyindən onun müxtəlif aspektlərdən öyrənilməsinə böyük ehtiyac vardır. Çünki bəşəriyyət inkişaf etdikcə onun mədəni prosesləri hadisələri, predmetləri və s. dəyişir, yeniləşir və dayanmadan təkamül edir. Mədəniyyət maddi və mənəvi sərvətlər məcmusu kimi daha da zənginləşir. Müasir elmi yeniliklər, ictimai-siyasi proseslər mədəniyyət anlayışının kateqoriyalarının da sayını artırır. Beləliklə də, cəmiyyət daxilində mədəniyyətin çoxfunksiyalı olduğu aşkarlanır. Məlum olur ki, mədəniyyətin birinci və əsas funksiyası humanist xarakterli proseslərin yaradılması və inkişaf etdirilməsindən ibarətdir. Bu güclü maddi və mənəvi sərvətlər toplusu əldə edir, eyni zamanda təkamülün dialektik inkişafının əsasını yaradır. Humanist məqsədlərlə inkişaf edən maddi və mənəvi sərvətlər tarixin bütün dövrləri üçün yararlı olur. Bu baxımdan onlar mənəvi irs kimi gələcək nəsillərin həyat və yaradıcılığında xüsusi əhəmiyyət kəsb edir və mənəvi sərvət kimi daima qorunub saxlanılır. Bu cəhətinə görə humanist mədəniyyət tarixi varislik funksiyasını da yerinə yetirir. O bir çox nəsillərin sosial-mədəni təcrübəsini özündə cəmləşdirdiyinə görə böyük bilik mənbəyinə çevrilir, tarixi yaddaş xarakteri daşıyır [Əliyev, Tağıyev, Bayramov, 1999:23-24].

Müxtəlif dövrlərdə mədəniyyətin məzmununda yaranan dəyişikliklər onun adının anlaşılmasına da təsir etmişdir. Məhz mədəniyyət anlayışı təkamüldən doğan əsaslı tarixi dəyişiliklərlə əlaqədar olaraq həmişə aktual tədqiqat obyektinə çevrilmişdir. Elə bu səbəbə görə də XVII-XVIII əsrlərdə yaşayıb yaradan Avropa alimlərindən S.Pufendorf, C.Vikon, K.Helvetsi, B.Franklin, İ.Herder, İ.Kant və başqaları mədəniyyətin mahiyyəti haqqında maraqlı fikirlər söyləmişlər. Eyni zamanda mədəniyətin müxtəlif tiplərinə Y.Burhard, E.Teylor, K.Levi-Bryul, B.Malinovski, M.Baxtin və başqa alimlər münasibət bildirmiş, elmi təhlillər vermişlər. Yuxarıda adları çəkilən alimlərin hər birinin mədəniyətə müxtəlif, özünəməxsus təriflər verməsini məhz ictimai həyatın qanunauyğunluqları ilə əlaqələnqdirmək lazımdır. Amerika mədəniyyətşünasları Alfred Kreber və Klayd Klakson apardıqları birgə tədqiqatlar zamanı mədəniyətin 180 tərifi olduğunu göstərmişlər. L.E.Kertmana görə isə mədəniyətin 400-dən çox tərifi mövcuddur.

Mədəniyyət haqqında müxtəlif dövrlərdə ayrı-ayrı, bir-birindən fərqli şərhlərin və təriflərin verilməsi çox təbiidir. Çünki mədəniyyət hər bir ictimai-tarixi dövrdə öz xüsusi formasında, həmin dövrün xarakterik cəhətlərinə uyğun şəkildə təzahur edir. Mədəniyətin məzmunu ictimai quruluşlara uyğun olaraq tez-tez dəyişir. Hər bir dövrün istehsal üsuluna uyğun olan mənəvi dəyərlər, bütövlükdə isə ümumi mədəniyyət formalaşır. Buna görə də müasir dövrdə «kültür və mədəniyyət» anlayışlarını milli və beynəlmiləl cəhətlərə şamil etməyin özündə də nisbilik vardır [Tağıyev, Əliyev, 1997:18].

Belə ki, müasir mərhələdə dünya xalqları arasında yaranan elmi, mədəni, dini, ictimai,

iqtisadi əlaqələr bu iki anlayışın hər birinə öz təsirini göstərmiş, minilliklər ərzində bəşəri olanın vəhdətini yaratmışdır. Yəni, indi demək olar ki, hər bir kültür və mədəniyyət həm millidir, həm də ümumidir, beynəlmiləldir.

Mədəniyyətin müasir inkişaf mərhələsində bir sıra kültüroloji konsepsiyalara meyllər artmış, yeni elmi ədəbiyyatlarda onlar haqqında kifayət qədər məlumatlar verilmişdir. Bünlar ən çox K.Levi-Strossun antropologiyası, neofreydistlərin, eksiztensialistlərin, ingilis yazıçısı C.Snounun və başqalarının konsepsiyalarıdır. Onların çoxu vahid mədəniyyətin olmadığını sübut etməyə çalışır, bəziləri isə mənəvi mədəniyəti mənəvi istehsalla eyniləşdirməyə cəhd edirlər.

Sivilizasiya dedikdə isə əsasən cəmiyyətin və mədəniyyətin inkişaf səviyyəsi, onun maddi və mənəvi dəyərlərinin mənimsənilməsi və inkişafı nəzərdə tutulur. Texniki sivilizasiya müxtəlif tipli mənəvi dəyərlərin müxtəlif mədəni ənənələrə malik olan insan qrupları və cəmiyyətləri tərəfindən də mənimsənilməsinə imkan yaradır. Texniki sivilizasiya bəşər mədəniyyətinin təkamül etməsini daha da sürətləndirir. Ayrı-ayrı milli nümunələrin inteqrasiyasına əlverişli şərait formalaşdırır. Məhz buna görə də kütlələrin millətçi qanadları çox zaman texniki sivilizasiyasının ənənəvi mənəviyyata daxil olmasını qısqanclıqla qarşılayırlar. Xüsusilə insan dünyasında şəriət qanunlarına uyğun gəlməyən-informasiyalı, «texnotron» qərb yönümlü sivilizasiya formaları inkar edilir, onların təqlid olunması mənfi emosiyalarla qarşılanır.

Müasir dövrdə elmi-texniki tərəqqinin təsiri mədəniyyətin bütün sahələrində özünü büruzə verir. Mədəniyət müəssisələrinin iş fəaliyətini texniki vasitələrdən ayrı təsəvvür etmək mümkün deyildir. Milli adət və ənənələrin, hətta dini ayin və mərasimlərin icra olunması prosesində də texniki vasitələrin təsiri ilə böyük modernləşmə aparılmışdır. Toylar, el şənlikləri səs gücləndiricilərinin köməyi ilə keçirilir. Məscidlərin minbərlərindən səslənən azan mətni maqnitafon lentinin və səs gücləndiricinin köməyi ilə yayılır. Bütün el şənlikələri videokameralar vasitəsi ilə lentə köçürülür.

Təbii ki, vaxtaşırı baş verən elmi-texniki inqilab yeni mədəniyyətin yaranmasının əsas vasitəsinə çevrilir. İnsan təfəkkürü inkişaf etdikcə mədəniyyət də yeniləşir. Bu yeniləşmə dinamik olaraq tez-tez təkrarlanır. Məhz bu səbəbə görə də mədəniyətin funksiyası çoxşaxəlidir. Onun məzmunu və mahiyyəti də bir mənalı deyildir (Qasımova,2014:62).

Qeyd olunan misallardan aydın olur ki, mədəniyyət müəyyən zaman daxilində bir millət və ya dini anlayışla bağlı olduğu halda, zaman keçdikcə o bəşəriləşir, əhatə dairəsi genişlənir. Buna görə də mədəniyyət insanların bəşər tarixi boyu yaratdıqları maddi və mənəvi sərvətlərin toplusu kimi başa düşülür. Bu maddi və mənəvi sərvətlər toplusunda hər bir mədəniyətə milli kolorit, milli xüsusiyyət gətirir. Lakin milli kolorit milli tərəqqinin yeganə meyarı kimi başa düşülməməlidir. O, şişirdilb ifrat həddə çatdırılmamalıdır. Milli-mənəvi dəyərlər humanist ideyaların inkişafına, inteqrativ mədəni proseslərin yaranmasına xidmət etməlidir. Çünki mədəniyyət qapalı sistem deyildir, o açıq şəkildə bəşəri məzmuna malik olan əxlaqi təsir gücünü nümayiş etdirir. Mədəniyyət bütün dövrlərdə insanın ictimai fəaliyyətinn konkret üsul və formalarını reallaşdırır. Buna görə də müasir inkişaf mərhələsində milli mədəniyyətlərin bütün ənənəvi xüsusiyyətləri qarşılıqlı mənəvi zənginləşmə və humanistləşmə prosesinə xidmət etməlidir. Belə bir vəziyyətin ictimai həyata realizə olunması adət və ənənələrin və həmçinin milli hissin bütün tərəflərinin sosial bazasını genişləndirir, xüsusi ilə mədəniyyətin inkişafının azad mənəvi mühitini yaradır.

Yuxarıda deyilənlər onu göstərir ki, mədəniyətin inkişafı cəmiyyətin və xalqın tarixi inkişafı ilə qırılmaz surətdə əlaqədardır. Mədəniyyət öz təsdiqini və əksini məhz qarşılıqlı əlaqədə tapır.

Müasir fəlsəfi ədəbiyyatda «mədəniyyət» termini qədər mübahisəli başqa bir anlayış tapmaq çox çətindir. Əgər yarım əsr bundan əvvəl işıq üzü görmüş olan A.Kreber və K.Klasxonun «Mədəniyyət anlayışlarının və definisiyaların tənqidi şərhi» əsərində Qərb elmi

ədəbiyyatında (Avropa və Amerika) mədəniyyətə 170-dən artıq tərif verilmişdirsə, fransız sosioloqu A.Molun 1967-ci ildə nəşr olunmuş «Mədəniyyətin sosiodinamikası» əsərində 250-dən sox tərifə rast gəlinir. Qeyd etmək lazımdır ki, o vaxtdan tədqiqatlarda bu təriflərin sayı artmaqda davam edir. Son illərdə mədəniyyət probleminə həsr olunmuş əsərlərin demək olar ki, hamısında mədəniyyətə yeni tərif verilməsinə çalışırlar. Mədəniyyət bir fenomen kimi insanın təkmilləşməsi, onun daxili aləminin fəlsəfə, incəsənət, etik və normaların vasitəsi ilə təkmilləşməsi prosesini ifadə edir [Коган,2016:283].

Dahi humanist Albert Şveytser cəmiyyət tarixində mədəniyyətin yerini çox doğru müəyyən etmişdir. O, qeyd edirdi ki, mədəniyyət istər insanın, istərsə də bəşəriyyətin bütün sahələrdə əldə etdikləri elə nailiyyətlərin məcmusudur ki, həmin nailiyyətlər şəxsiyyətin mənəvi təkmilləşməsinə və ictimai tərəqqiyə şərait yaradır.

İngilis etnoqrafı və tarixçisi, kulturoloji konsepsiyanın tanınmış nümayəndələrindən biri E.V.Teylorun fikrincə, mədəniyyətdən söhbət gedərkən yalnız mənəvi mədəniyyətdən danışılmalıdır. Yəni əxlaq, incəsənət, etiqad, bilik, hüquq və s. Teylor qeyd etmişdir ki, mədəniyyətdə təkcə ümumbəşəri yox, həm də ayrı-ayrı xalqlar üçün spesifik olan dəyərlər də vardır… O, mədəniyyətin inkişafında təkcə onun daxili təkamülünü deyil, həm də tarixi təsirini və tarixi mənimsənilmənin əhəmiyətini açıqlamışdır. V.Teylor göstərirdi ki, mədəni inkişaf düzxətlə gedə bilməz (Qasımova,2014:64).Yalnız o, fikrini bəşəriyyətin mədəni inkişafının vəhdətdə olmasını sübuta yetirmək üçün cəmləmişdir. Halbuki tədqiqatçıların əksəriyyəti vahid mədəniyyətin yaranmasının qeyri-mümkünlüyünü söləyirlər.

Bəs əslində mədəniyyət nədir? - sualına fəlsəfə elmləri doktoru professor A.Şükürov öz fikrini belə bildirmişdir: «Çox saylı tədqiqatçıların bu fikri ilə razılaşmaq lazımdar ki, mədəniyyət sırf sosial hadisə olub, insanların həyat fəaliyyəti ilə əlaqədardır… Cəmiyyətdə mədəni və sosiallığın birliyi yalnız onun aşağı pilləsində mövcud olmuşdur. Doğrudur, mədəniyyət prosesləri bütün ictimai hadisələrlə qarşılıqlı əlaqədə baş verir. Lakin bütün hallarda mədəniyyət spesifik cəhətlərə malik olur, yəni özündə ümumbəşəri dəyərləri cəmləşdirir. Konkret olaraq mədəniyyətə belə bir tərif vermək olar. Mədəniyyət-cəmiyyətin bütün tarixi boyu əldə etdiyi maddi və mənəvi sərvətlərin məcmusudur, həmçinin onların yaradılması qabiliyyəti və bəşəriyyətin tərəqqisi üçün onlardan istifadə etmək və onları nəsildən-nəsilə vermək bacarığıdır. Onun özünü dərk etməsi və şəxsiyyətin mövcüdluğu üsuludur». (Qasımova,2014:65)

Mədəniyyət onun məzmunu və strukturunu təşkil edən bir sıra elementlərə malikdir. Geniş formada desək mədəniyyət insanın bütün fəaliyyətini-adi məişət və davranış normalarından tutmuş insan əqlinin ən yüksək zirvələrini belə əhatə edir. Gündəlik həyatda «əmək mədəniyyəti», «ünsiyyət mədəniyyəti», «davranış mədəniyyəti», «məişət mədəniyyəti», «musiqi mədəniyyəti», «nitq mədəniyyəti» və s. bu kimi anlayışlar geniş işlənir. Mədəniyyət anlayışı ən geniş mənada insanın əqli və fiziki əməyi nəticəsində yaradılmış nə varsa hamısını əhatə edir və eyni zamanda insanın təbiət, ictimai münasibətlər, öz fərdi fəaliyyəti üzərində nəzarət etməsi dərəcəsini xarakterizə edir.

Bəşəriyyətin mənəvi həyatı mürəkkəb və çətin bir yol keçmişdir. Bu yolda yüksəliş və tənəzzül dövrləri bir-birini əvəz etmiş, ancaq son nəticədə bəşəriyyət daim mənəvi-əxlaqi təkmilləşmə və inkişaf yolu ilə irəliləmişdir. F.Engelsin dediyi kimi, mədəniyyət yolunda irəli atılan hər bir addım azadlığa doğru atılan addım idi (Qasımova,2014:67)

Bildiyimiz kimi mədəniyyət əməyin fiziki və zehni fəaliyyət növlərinə bölünməsi ilə əlaqədar olaraq, maddi və mənəvi formalara bölünür. Maddi mədəniyyət mənəvi mədəniyyətin inkişafı üçün baza rolunu oynayır.

Mənəvi mədəniyyət insan idrakının cəmiyyəti və təbiəti dərketmə prosesində əldə etdiyi dəyərləri əhatə edir. Mənəvi mədəniyyət sosial əhəmiyyət kəsb edərək maddi və mənəvi tələbatları əks etdirməklə, sosial mənəvi sərvətlər sisteminin konkret tarixi inkişafını, onların bölgüsünü və istehlakını, cəmiyyətin mənəvi tərəqqisini özündə təcəssüm etdirir.

**İstifadə olunmuş ədəbiyyat**
Əliyev Q., Tağıyev Y., Bayramov M. Mədəniyyətşünaslığın əsasları. Bakı, Təbib, 1999, -202 s.
Tağıyev Y., Əliyev Q.Kulturologiya. Bakı, Təbib, 1997, -96 c.
Şükürov A. Kulturologiya.Bakı, Elm, 1999, -285 c.
Qasımova K. Müasir qlobal proseslər və mədəniyyətlərin dialoqu . Bakı, 2014, -140 s.
Коган М.С. Философия культуры. Санкт-Петерьбург: Петрополисъ, 2016, -283 с.

## SİYASƏT VƏ ƏXLAQIN QARŞILIQLI TƏSİRİ

**Kamran Vəlizadə**
*Naxçıvan Dövlət Universitetinin müəllimi*
*kvelizadeh@yahoo.com*

**Açar sözlər:** siyasi həyat, əxlaq, dəyərlər,vətənpərvərlik, cəmiyyət

Siyasi həyatın və mədəni-əxlaqi dəyərlərin qarşılıqlı münasibətlərindən bəhs edərkən siyasət və əxlaqın qarşılıqlı təsiri məsələsinə də toxunmaq lazımdır. Əxlaq və siyasət, əxlaqi və siyasi şüurun, eləcə də siyasi həyat və mədəni-əxlaqi dəyərlərin qarşılıqlı şərtlənməsi onunla müəyyənləşmişdir ki, onlar eyni bir fenomenə-cəmiyyətin mənəvi həyatına mənsubdur. Siyasi həyatda baş verən mühüm hadisələr və dəyişikliklər mədəni-əxlaqi dəyərlərdə öz əksini tapır. Onların sosial yönümlü xeyir və şər, ədalətlilik və ədalətsizlik, məsuliyyətlilik və məsuliyyətsizlik, humanizm və qeyri-humanizm kimi mənəvi anlayışlar vasitəsilə müəyyən olunur. Öz növbəsində siyasi həyat da müəyyən mədəni-əxlaqi mühit yaradır ki, burada ədalət və xeyirxahlıq idealları, sosial nikbinlik, inam möhkəmlənir. “Siyasət və əxlaqın qarşılaşmasının bu mərhələsində iki əsas proses baş verir. Birincisi-siyasi ideyaların əxlaqi şüura nüfuz etməsi və onların mənəvi əqidəyə çevrilməsi prosesi. Prinsip etibarı ilə sosial hadisələr, o cümlədən siyasi hadisələr bu şərtlə mənəvi fenomen ola bilər ki, o, əxlaqi cəhətdən assimiliyasiya oluna, sərbəst seçim, insanın daxili motivasiya əqidəsi, vicdan, şərəf və borc işinin predmeti ola. Əxlaq və siyasətin qarşılıqlı nüfuzuna ən aşkar nümunə dövlətçilik ideyasının, onun əzəməti və təhlükəsizliyinin dərin sosial-mənəvi əhəmiyyət kəsb etdiyi vətənpərvərlik hissidir” (https/lawbook.online/qosudarstvennıx-pra-va-teoriya/ qumanizatiya- poruadka-formiorvaniya-71861/html.21.05.2015/.

Beləliklə, əxlaq və siyasətin mədəni-əxlaqi dəyərlərlə siyasi həyatın qarşılıqlı nüfuz etməsi prosesi humanist meyarlar, insanların mənəvi təsəvvürləri və hisslərilə əlaqədardır. Bütün bunlar siyasi həyatın mənəvi mənasını dərinləşdirir, onu insanlara daha yaxınlaşdırır.

Siyasi həyata ciddi təsir edən mədəni-əxlaqi dəyərlərin tərkib hissəsi kimi vətənpərvərlik də mühüm amildir. O həm də azərbaycançılıq ideologiyasının ümummilli ideoloji əsası olub, mənəvi mahiyyət daşımaqla yanaşı, birləşdirici və möhkəmləndirici funksiyanı yerinə yetirir.

“Vətənpərvərlik, yüksək dərəcədə vətənə məhəbbət olub, öz varlığını, şəxsi maraqlarını vətən yolunda qurban verməyə əsaslanan emosional bağlılıqdır. Bu bağlılıq həm də, insanın mənsub olduğu millətin etnik, mədəni, siyasi və tarixi xüsusiyyətlərinə söykənən, milli hissiyyat və ya milli qürür kimi də hallanır. Vətəninin bayrağını uca tutmaq, onunla qürur duymaq, mədəni və maddi sərvətini qorumaq, şöhrətini artırmaq, öz xalqının marağına xələl gətirməmək və sair kimi keyfiyyətlər də vətənpərvərliyə aiddir”( Ağayeva, 2014:159).

Şübhəsiz ki, bu fikirdə siyasi həyat və mədəni-əxlaqi dəyərlərin qarşılıqlı münasibətlərində vətənpərvərlik və dövlətçilik hisslərinə yüksək önəm verilmiş,

vətənpərvərliyin millətin və dövlətçiliyin formalaşmasında mühüm rol oynadığı diqqətə çatdırılmışdır.
Ulu öndər Heydər Əliyev siyasi həyata təsir edən mədəni-əxlaqi dəyərlərin tərkib hissəsi olan vətənpərvərlik hissini dövlətçiliklə əlaqələndirərək deyirdi: "Birinci növbədə, hər bir gənc vətənpərvər olmalıdır. İndi, Azərbaycan müstəqil dövlət kimi yaşadığı zamanda vətənpərvərlik hər bir insanın, xüsusən hər bir gəncin ən ümdə borcu, vəzifəsidir. Ancaq vətənpərvərlik gərək insanın qəlbində olsun. Borc o demək deyildir ki, vətənpərvərlik tələb edirsən, o da vətənpərvər olur. Yox. Mən bunu deyərkən bildirmək istəyirəm ki, bütün təhsil ocaqlarında, gənclərlə məşğul olan bütün təşkilatlarda vətənpərvərlik hissinin aşılanması, vətənpərvərlik hissinin hər bir gəncin qəlbində olması üçün lazımi tədbirlər görmək lazımdır" (Əliyev, 1997:105). Bununla da dahi şəxsiyyət vətənpərvərliyin siyasi həyatın əsasını təşkil etdiyini, onun azərbaycançılığın tərkib hissəsi olduğunu göstərir.

Mədəni-əxlaqi dəyərlər mənəvi dəyərlərdən fərqli xüsusiyyətlərə malikdir. "Fərd başqa insanlarla əlaqəyə, ünsiyyətə girdikdə onlar əxlaqi dəyərlərə çevrilir". Bu zaman məhz ali mənəvi dəyərlər nöqteyi-nəzərdən siyasi həyatın müxtəlif institutlarının fəaliyyəti qiymətləndirilir.

Siyasi həyata müasir dövrdə humanist mahiyyətli qloballaşma təsir edir, müxtəlif xarakterli dəyərlər arasında böhran halları baş verir. Real praktikada onların qarşılıqlı münasibətləri bir qədər mürəkkəb və ziddiyyətli olur. Siyasi həyatın və mədəni-əxlaqi dəyərlərin balanslaşdırılmış qarşılıqlı təsirlərinə yalnız yetkin vətəndaş cəmiyyətində nail olmaq mümkündür. Çünki bu cür demokratik cəmiyyətdə hakimiyyət qanunlarına riayət olunur, təbii olaraq mədəni və intellektual və sivilizasion inkişaf həyata keçirilir. Digər cəmiyyətlərdə, xüsusən antidemokratik cəmiyyətlərdə əks hadisələrə təsadüf olunur. "İnsan sivilizasiyanı çox güclü, sürətli şəkildə və durmadan inkişaf etdirərək istər-istəməz özü fiziki cəhətdən və mənəviyyatca tükənir. Getdikcə sivilizasiya və mədəniyyət arasında uyğunsuzluq daha açıq şəkildə baş verir. Təfəkkürün və həyat tərzinin texniki istiqamətliliyi tədricən özünü daha artıq dərəcədə şəxsiyyətlərarası münasibətlərdə, davranış və mədəniyyətində göstərməkdir" (Əzimova, 2012:6).

Bununla da siyasi həyat və mədəni-əxlaqi dəyərlərin əlaqələri və ziddiyyətləri sosial sistemilərin və həyat tərzlərinin tipləri ilə müəyyən olunur. Hüquqi dövlət və vətəndaş cəmiyyəti çərçivəsində siyasi həyat məhdud sferaya malik olur.

Modernləşmiş cəmiyyətin dövlət siyasəti müxtəlif mədəni-əxlaqi dəyərlərə təsir edir. Sivilizasiyalı dövlət siyasəti humanizm normalarını zorakılıqla bərqərar etmir. Siyasi həyatda reallaşan ən güclü mədəni-əxlaqi dəyərlər modellərinin tərkibində humanist dəyərlər mühüm yer tutur. Humanizm-insanpərvərlik dəyərlərin dirçəldilməsi qlobal mənəvi böhrandan çıxış yollarından biri hesab olunur. "Humanizmin başlıca xüsusiyyətləri dedikdə aşağıdakılar başa düşülür:

-insan varlığının humanist əsaslarını qorumağın zəruri şərti kimi onun əsas hüquqlarının qorunması;

-cəmiyyətdə himayəyə və müdafiəyə ehtiyacı olan insanlara yardımçı olmaqla sosial ədalət prinsiplərinin təmin edilməsi;

-şəxsiyyətdə ictimai dəyərlər əsasında özünü reallaşdırmağa imkan verən sosial və əxlaqi nailiyyətlərin formalaşdırılması.

Tarixən humanizmin dini və dünyəvi kimi iki forması ayırd edilmişdir. Dini humanizm isə öz növbəsində bəşər tarixində bu fenomenin ilkin təzahür mərhələsi hesab olunur. Bunlar yəhudi, xristianlıq və islam dini hümanizmi kimi monoteizmə xas olmuşdur. Dünyəvi hümanizm də öz növbəsində əsasən sekulyarizm, liberalizm və sosializm timsalında özünü biruzə vermişdir. Humanizmin bu formaları onun mövcud olan çoxçalarlı təzahürlərini hərtərəfli əks etdirmir. Dini humanizm həm də konservativ humanizm kimi özünü müxtəlif

cür göstərmişdir" (Ağayeva, 2014:89). Müəllif haqlı olaraq siyasi həyatın və humanizm dəyərlərinin müxtəlif formaları arasında dialoqun zəruriliyini göstərir.

Mövcud rejimlərə uyğun olaraq üç tipdə siyasi həyata təsadüf etmək olar. Demokratik, avtoritar və totalitar siyasi həyatlar bir-birindən kəskin şəkildə fərqlənir. Bu siyasi həyat tipləri onlardakı siyasi azadlığın, plüralizm və mədəni-əxlaqi dəyərlərin səviyyəsinə görə fərqlənir. Demokratik siyasi həyatda cəmiyyətin bütün sahələrində mədəni-əxlaqi dəyərlər yüksək səviyyədə təzahür edir. Mədəni-əxlaqi dəyərlər və normalar siyasi aləmə, onun institutlarına, münasibətlərinə siyasi dünyagörüşünə və davranışına nüfuz edərək siyasi etik sistemin əsaslarını təşkil edir. Bütün sivilizasiyalara xas olan ümumbəşəri mədəni-əxlaqi dəyərlər bütün bəşəriyyətin vəhdətini yaradır. Eyni zamanda mədəni-əxlaqi dəyərlərdə baş verən dəyişikliklər cəmiyyətin bütün sahələrində, o cümlədən siyasi həyatda yeniliklərə gətirib çıxarır.

Siyasi həyat sferasında yüksək mədəni-əxlaqi dəyərlərin təzahürü mümkündür. Bu sahədə hakimiyyət məsələsi o qədər əhəmiyyətlidir ki, yaxın siyasi məqsəd uzaq strateji məqsəddən - bu hətta ən ümumi xoşbəxtlik, xalqın, bütün bəşəriyyətin rifahı olsa da belə əhəmiyyətli olur. Bütövlükdə xeyirxahlığa doğru istiqamətlənsə ideyaca yüksək mədəni-əxlaqi dəyərlər uğurlu siyasi fəaliyyətə təkan verir. Bunlar siyasi reallıqla sıx əlaqədar olan hüquqi münasibətlərdə əks olunur. "Cəmiyyətdəki qanunçuluq konkret siyasi maraqlara tabe olur... Qanun insana özünü necə aparmağı diktə edir. Ciddi normativ əxlaq elə fəaliyyət göstərir ki, insan üçün olmalı olanı müəyyən edir. Bu aspektdə mədəniyyətin hüquq və əxlaq sahəsində uğurları insanlar arasında münasibətlərdə müəyyən nizamlanma formalarının mövcud olmasını sübut edir...Qanunlarda da, mənəvi-əxlaqi tələblərdə də, davranış qaydalarında da nəsillərin həyat təcrübəsi tətbiq olunmuşdur"(Борисинков, А.А. Элементы политической жизни: [Электронный ресурс]/Москва, /http: //lekstiil.org/3-66535.html).

Bununla müəllif siyasi həyatda hüquqi və mənəvi, mədəni-əxlaqi dəyərlərin qarşılıqlı nüfuz və qarşılıqlı tamamlama prosesinə məruz qaldığını, mənəvi-əxlaqi mədəniyyətin, mədəni-əxlaqi dəyərlərin insan həyatının müəyyən davranış standartı, normaları kimi çıxış etdiyini diqqətə çatdırır. İnsanın yüksək qabiliyyəti olaraq mədəni-əxlaqi dəyərlər siyasi həyatda hüquq və əxlaqın qarşılıqlı təsiri şəraitində reallaşır.

Tədqiqatçılar siyasi həyata təsir edən mədəni-əxlaqi dəyərlərin patriarxal, ənənəvi və liberal modellərini fərqləndirirlər. Aydındır ki, liberal mədəni-əxlaqi dəyərlər Qərbin məhsulu olduğu üçün orada üstünlük təşkil edir. Şərqi Avropada və postsovet məkanında bu dəyərlər XX əsrin sonlarında baş verən dəyişikliklərdən sonra fəallaşmışdır. İ.R.Məmmədzadə liberal mədəni-əxlaqi dəyər modelində baş verən yönüm prosesini belə səciyyələndirir: "Dialoq, kompromis etikasında sivilizasiyalar arasında inam, etibar mühitinin bərqərar olması baş verir" (Мамедзаде, 2006:44)

Bununla da İ.Məmmədzadə liberal mədəni-əxlaqi dəyərlərin bəşəriyyətin əmin-amanlığını təmin edən fenomen olduğunu göstərir.

Azərbaycanın siyasi həyatında patriarxal, ənənəvi və liberal mədəni-əxlaqi dəyərlər mövcuddur. Lakin bu gün Azərbaycanın siyasi praktikasında liberal mədəni-əxlaqi dəyərlər üstünlük təşkil edir. "Azərbaycanda liberalizm artıq təşkilatı-siyasi qüvvə kimi (həm də liberal mədəni-əxlaqi dəyər olaraq) fəaliyyət göstərir və liberalizmin qarşıya qoyduğu məqsədlərin çoxunun reallaşmasına misal olaraq göstərə bilərik ki, respublikamızda vətəndaş cəmiyyətinin və hakimiyyətin əsaslarının yaradılması, parlamentarizmin tətbiq edilərək hakimiyyətin dövlət səviyyəsində bölgüsünün liberal prinsipi həyata keçirilmişdir. Liberalizmin bir çox müddəaları-dövlət və bazarın sintezi, fərdlərin bazar imkanları və hüquqi dövlət ideyası Azərbaycanda tətbiq edilərək istifadə olunur" (İsmayılov, 2013:37)

Bu fikirlər ölkəmizin demokratik siyasi həyatında liberal mədəni-əxlaqi modelin də reallaşdığını, respublikamızın daxili və xarici siyasətində liberalizmə əsaslandığını ifadə edir.

Siyasi həyata təsir edən mədəni-əxlaqi dəyərlər sistemində ləyaqət, ədalət, azadlıq, alicənablıq, humanizm, vətənpərvərlk əsas yer tutur. "İnsanlığı ifadə edən cəmiyyət, həssaslıq rəhmdillik, xeyirxahlıq və s. kimi nəcib hiss və təzahürlər həqiqi humanizmi səciyyələndirir". Göründüyü kimi, mədəni-əxlaqi dəyərlər sistemi daha geniş əhatə dairəsinə malikdir.Humanizm mədəni-əxlaqi dəyərin tərkib hissəsində bir komponent və onun formalarından biridir. ABŞ –ın Nyu-York Universitetinin fəxri professoru Buffaro Pol Kurts humanizmi belə səciyyələndirir: "Humanizm insan azadlığı və müstəqilliyindən doğan dəyərlər və ləyaqət meyarlarının məcmusudur. Humanizm etikası dini-avtoritar etikaya qarşı durur; humanizm fövqəltəbiilik ideyasını inkar edir". Kurs humanizmin mədəni-əxlaqi dəyərlər sistemi tərkibində siyasi həyata müsbət praktiki təsir etdiyini qeyd edir.

Mədəni-əxlaqi dəyərlər sisteminin tərkib hissəsi kimi dünyəvi humanizm siyasi həyati problemlərin həllində İTK-ya, elmə, təfəkkürə böyük əhəmiyyət verir, mədəniyyətin postmodernist paradiqmasının əsasını təşkil edir. Bir çox humanist alimlər, o cümlədən rus alimi İ.M.Borzenko müasir dövrün bütün qlobal tendensiyalarının nəzərə alınmasını, əmin-amanlıq, sülh şəraitində yaşayış, sosial-əxlaqi ədaləti, siyasi həyatın mənasının dərk edilməsini, siyasi varlığın humanistləşmə-sində ümumibəşəri həmrəyliyi... bəşəriyyətin mövcud olmasının əsas imperativləri kimi (Борзенко, 1999:60)nəzərdən keçirir.

Mədəni-əxlaqi dəyərlər sistemində önəmli yer tutan humanist dəyərlər və imperativlərin siyasi həyata təsirini, onun demokratikləşmə və demokratiya ilə bağlılığını göstərmək olar. Humanist dəyərlər siyasi həyat üçün aktuallıq kəsb edir, insanların əxlaqını və mənəviyyatını inkişaf etdirir, ümumsiyasi demokratiya ideyasına nüfuz edir. "Demokratiya-elə bir dövlət idarə üsulu tipidir ki, burada hakimiyyətin mənbəyi vətəndaşdır... Müasir anlamda demokratiya yeni hadisədir. Bu fenomenin müəyyən institutlar, siyasi davranış normaları sistemi, vətəndaşların siyasətdə (və siyasi həyatda) iştirakı kimi məqamlarının yüz ildən də az yaşı vardır. (Rüstəmova, 2017:169). Filkrimizcə, burada demokratiya, siyasi həyatın demokratikləşməsi mürəkkəb fenomen hesab edilır, bu prosesdə vətəndaşın, bütövlükdə xalqın iştirakı yüksək dəyərləndirilir.

Siyasi həyatda mədəni-əxlaqi dəyərlər hiss və cəhdlərin sintezi kimi dəyişməz rol oynayır, siyasi həyatın məqsəd və mənasının dərk olunmasında həlledici amil kimi çıxış edir, şəxsiyyətin ictimai həyatın bütün sahələrində, o cümlədən siyasi həyatda mövqeyini müəyyənləşdirir. Mədəni-əxlaqi dəyərlər məhz siyasi həyatda siyasi məna kəsb edir, dəyər yönümü kimi dərk və qəbul edilərək reallaşır. "Son illərdə ölkəmizdə bazar münasibətləri və azad sahibkarlığın inkişafı, əsaslı iqtisadi islahatlar, özəlləşdirmə, siyasi və mənəvi sferaların demokratikləşdirilməsi fonunda həm bütövlükdə cəmiyyətin, həm də hər bir şəxsiyyətin həyatında ümumhumanist dəyərlər və ideallar getdikcə daha möhkəm yer tutmaqdadır" (Rzayev, 2009:46).

Şübhəsiz ki, siyasi, iqtisadi həyatın inkişafı mədəni-əxlaqi dəyərlərin həyata keçməsini zərurətə çevirir. Mədəni-əxlaqi dəyərlər qlobal ideya istiqaməti kimi təzahür edir, siyasi, əxlaqi və maddi tərəqqinin stimulaşdırılmasında əsaslı rol oynayır. Bu dəyərlər "bütövlükdə, mədəni paradiqma olaraq yeni, həmçinin zamanın və təcrübənin sınağından çıxmış daha real, həyatın əhəmiyyətli baxışlarını mənimsəyərək bilik və metodların dünyagörüşü sistemi kimi təzahür edir. Bu cəhətlər insana cəmiyyətdə və təbiətdə öz yerini müəyyənləşdirmək imkanı yaradır.Bununla da mədəni-əxlaqi dəyərlərin müasir mədəniyyətdə güclü, mühüm istiqamət olduğu aydın olur.

Mədəni-əxlaqi dəyərlər kommunikasiya dəyərləri kimi təkcə konkret bir ölkənin siyasi həyatına deyil, bütün bəşəriyyətə nüfuz edən fenomen kimi çıxış edə bilir. "... Onlar zaman və məkan hüdudlarını aşaraq məhdud etnik və ya mədəni birlik çərçivəsindən çıxır, siyasi, yaş və digər fərqlərə məhəl qoymadan az qala bütün dünyanı bürüyür".

Ümumbəşəri mədəni-əxlaqi dəyərlərin yaranması dövrün ən mühüm problemlərindən biridir. Bu, ümumbəşəri ideralların yeni humanizm fəlsəfəsi və mədəniyyətinin

formalaşdırılması sayəsində həyata keçirilə bilər. İnsanların həyat fəaliyyətlərinin tənzimləyicisi kimi antik dövrdən işlənib hazırlanmış, İntibah humanizminin irəli sürdüyü mənəvi dəyərlərin fəlsəfi əsasları və ideologiyası insana və insanlığa böyük fəlakətlər gətirən acgözlüyü, maddi nemətlərin israfçılığını qəbul etmir. Biz burada bəşər tarixində mövcud olan saysız-hesabsız nəzəriyyələrdən, ideyalardan, ideologiyalardan və s. söhbət aça bilərik. Lakin bu məsələnin çözümünün bir açarı vardır. İnsan nə edirsə etsin,onun əməli əxlaqi dəyərlərə söykənməlidir. Əxlaqi dəyərlər isə böyük bir tarixi təkamül yolu keçmişdir, universal xarakter daşıyır və ümumbəşəri xüsusiyyətləri özlərində birləşdirməklə son dərəcədə güclü requlyativ imkanlara malikdir.

Müasir Azərbaycanın siyasi həyatında baş verən dəyişikliklər və siyasi yeniləşmə mədəni-əxlaqi dəyərlər sisteminin dövlət səviyyəsində reallaşdırılmasını zərurətə çevirir. Cəmiyyətdə, siyasi həyatda mədəni-əxlaqi inkişaf konsepsiyasının işlənməsi normativ dəyərlərin qərarlaşmasını sürətləndirir. Azərbaycan tədqiqatçısı, professor M.Rzayev dəyərlər sisteminin səviyyələri sırasında birinci yerdə universalıyaların mütləq dəyərlərin müstəsna dərəcədə mühüm yer tutduğunu göstərərək yazır: "Universaliləri (həqiqət, xeyirxahlıq, gözəllik, iradə azadlığı və s.) dünyanın dəyərlər baxımından anlaşılmasının nümunəsi və çıxış nöqtəsini təşkil edən insan praktikası ilə müqayisə etmək olar. Bununla əlaqədar göstərilməlidir ki, varlığın ən ali dəyərini insan həyat təşkil edir. Mühüm aksioloji prinsip kimi çıxış edən humanizmin əsl mənası hər şeydən əvvəl bu məqamda ifadə olunur" (Rzayev, 2009:48-49).

Hər bir siyasi həyatda mədəni-əxlaqi dəyərlərin formalaşdırılması, insanların onlara fəal münasibətinin yaranması olduqca mürəkkəb və ziddiyyətli prosesdir. Bəşəriyyətin real praktikası göstərir ki, insanlar yalnız öz fərdi mədəni-əxlaqi dəyərlərinə əsaslanaraq yaşaya və hərəkət edə bilərlər. Bu zaman insana elə möhkəm dəyərlər lazımdır ki, daha mürəkkəb, xüsusi qeyri-standart şəraitə əsaslana bilsin, öz dəyər yönümünün istiqamətini və məqsədyönlülüynü müəyyənləşdirə bilsin. Mənəvi-əxlaqi dəyərlər nə qədər dərin və müxtəlif olsa şəxsiyyət onu bir qədər yüksək qaydada qavraya bilər, onun daha dərindən şəxsi idealına və əqidəsinə çevrilər, onun dəyər yönümü daha mütərəqqi olar, şəxsiyyət tarixi prosesə daha fəal daxil ola bilər.

Fərdi şüurun mədəni-əxlaqi dəyərləri qavramasının səmərəliliyi və dərəcəsi siyasi həyatın obyektiv şəraitindən, şəxsiyyətin özünün mənəvi-psixoloji xüsusiyyətlərindən, mədəni səviyyəsindən asılıdır. Bu zaman şəxsiyyətin əxlaqi dəyər yönümünün formalaşdırılması daha dərinləşir və fundamental mədəni-əxlaqi və sosial-siyasi dəyərlərə əsaslanır.

Beləliklə, dəyərlər sistemində əsas yerlərdən birini tutan mədəni-əxlaqi dəyərlər mədəniyyət və mənəviyyatın qarşılıqlı münasibətlərini ifadə edir.

**İstifadə edilmiş mənbələr**

Əliyev, H.Ə. Müstəqillik yollarında.III kitab.-Bakı:Azərnəşr, -1997. - 609 s.

Əzimova, R. İnsanşunaslıq-XXI əsrin elmidir/R.Əzimova.-Bakı:Təknur, -2012. -186 s.

Ağayeva, Z. Mənəvi dəyərlər və sosial-siyasi gerçəklik/Z.Ağayeva.-Bakı: Elm, -2014.-186 s.

Мамедзаде, И. Опыт интерпретации морали/ И.Р.Мамедзаде.-Баку:Муаллим, -2006. -168 с.

Rzayev, M. Fəlsəfədə dəyər kateqoriyası/M.Rzayev. –Bakı:AzTU, -2009. -60 s.

İsmayılov, D.Y. Liberalizm. -Bakı: Xəzər Universiteti, -2013, -208 s.

Rüstəmova, A. Müasir dünya və Azərbaycan reallıqları:fəlsəfi təhlil/A.Rüstəmova. -Bakı:AFPoliqraf, -2017. -240 s.

Борзенко, И.М.Планетарные аспекты гуманистического мировззрения. //Москва: Здравый смысль, 1999, №3(12), - с. 52-71

Гуманизация порядка формирования государственных органов и ее аксиологическая начала: [Электронный ресурс]/Москва, /https/lawbook.online/qosudarstvennıx-pra-va-teoriya/ qumanizatiya- poruadka-formiorvaniya-71861/html.21.05.2015/
Борисинков, А.А. Элементы политической жизни: [Электронный ресурс]/Москва, /http: //lekstiil.org/3-66535.html.

## FAŞİZMİN BƏŞƏRİYYƏTƏ GƏTİRDİYİ FACİƏLƏR: HAYNRİX TEODOR BÖLL

**Məlahət Osmanova**
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət İdarəçilik Akademiyası, dosent əvəzi
E-mail: malehat@inbox.ru

**Açar sözlər:** ekzistensializm, müharibə, alman ədəbiyyatı, qəhrəman, obraz, yazıçı.

Alman yazıçısı, tərcüməçisi və ssenaristi Haynrich Teodor Böll 1972-ci ildə ədəbiyyat üzrə Nobel mükafatı laureatı olmuşdur. O, İkinci Dünya Müharibəsindən sonra formalaşan alman ədəbiyyatının ən görkəmli nümayəndələrindəndir.

Haynrich Böll, Almaniya rəhbərlərinin və xalqının başlanmış dünya müharibəsinə görə günahı problemini qaldıran ilk yazıçılardan biridir. Ona görə, müharibə heç kim üçün bəhanə ola bilməz. Ölkənin başına gətirilən nasizm cinayətinə görə məsuliyyət təkcə nasist fanatiklərinin deyil, həm də onların ardınca gedən milyonlarla almanların üzərinə düşür. O, öz həmvətənlərinə hər zaman keçmişlərini xatırladır. Çünki hadisələri canlandırmadan nə nasizmi, nə də Qərbi Almaniyanın müharibədən sonrakı inkişafını izah etmək mümkün deyil. Bəşər həyatının qiymətdən düşməsini nümayiş etdirən, misilsiz qəddarlıq və mənasızlıqda milli fəlakət yaşayan o nəslin yazıçısı Böll, ekzistensializmdən, bu ümidsizlik və dözümlülük fəlsəfəsindən təsirlənmişdi. Yazıçının dövrü təkcə nasist keçmişi ilə deyil, həm də əbədi İncil dəyərləri ilə sınaqdan keçirilir.

Yazıçı, müharibənin sonunda əsgərlərin taleyindən bəhs edən "*Adəm, sən harada idin?*" adlı ilk romanını yazır. Əsərdə bir-birindən tamamilə müstəqil olan doqquz hekayə, müharibənin əhval-ruhiyyəsini tamamilə dəqiq şəkildə çatdıran vahid bir süjetdə birləşir. Yazıçı, obrazların təsvirində kontrast texnikasından istifadə edərək, onları ən xırda təfərrüatı ilə maraqlı və ətraflı təhlillə təsvir etmişdir. Bütün obrazlar son dərəcə ümumiləşdirilmişdir. Yazıçının romanı orijinal və yetkin bir əsərdir. Burada müəllifin seçdiyi formada ideya və icra harmonik uyğunluq vəziyyətinə gətirilir. "*Adəm, sən harada idin?*" sualının cavabı aydındır - "müharibədə." Bəs onun müharibədə olmasında, yaxud, Almaniyada müharibə və faşizmin mümkün olmasında günahkar kim idi? – sualları əsərin əsas məzmununu təşkil edir. Yazıçı, qəhrəmanlarını incəliklə təsvir edir, lakin, onların hərəkətlərini heç bir şəkildə şərh etmir, qəhrəmanlarını təbliğ etmir, heç bir siyasi proqram irəli sürmür, nə etmək lazım olduğunu demir, amma nəyin mümkün olmadığını dəqiq bilir: İncil qanunlarını poza bilməzsiniz, din, İncil və insanlıq arasındakı əlaqəni poza bilməzsiniz [Böll 1972, 45].

Yazıçı əsərdə çatdırır ki, insanlar, onlardan tələb olunan hər şeyi mexaniki şəkildə yerinə yetirən saat mexanizmi kimidirlər. Qəhrəmanların qorxusu yoxdur və onların hamısı bir zəncirlə bir-birinə bağlıdırlar. Onların hər birinin öz dərdi vardır. Hər şey hədsiz yorğunluq, kədər, qəm və sonu gözləmə ilə müşahidə olunur. Bu insanlar, artıq müharibənin əvvəlində öz güc və istəkləri ilə əylənən deyil, heç nə istəməyən insanlardır. Onlar yalnız evə dönmək və bir neçə qurtum su istəyən insanlardır. Ölüm – qoca və ya cavan, rəssam və ya memar olmağından asılı olmayaraq hamını haqlayır. Müharibənin dəhşəti, ilk növbədə, ölümü adi hala gətirməsidir.

Yazıçı, dəhşətli epizodları, bir yəhudi qızının ölümünü, iki əsgərin yenicə öldürülmüş yoldaşının cəsədinin yanında keçirdikləri pikniki təsvir edir. Onun qəhrəmanları müharibə zamanı qaçmağa çalışan, passiv müqavimət göstərən və həlak olan əsgərlərdir. Mürəkkəb süjet xəttində yazıçının qəhrəmanları sərgərdan, qaçaq, real hadisələr qarşısında aciz, dağıdılmış şəhərin xarabalıqları altında yaşayan kiçik insanlar kimi təqdim olunur. Son ümidini itirmiş insanlar, qəti addım atmağa qadir deyillər. Amma buna baxmayaraq, onların bu dünyada öz yerlərini tapmaq ümidi var [Nagele 1976, 65].

Yazıçıya görə, müharibə və həyatda olduğu kimi, aclıq qürurdan, ağrı həyadan, məhəbbət qorxudan güclüdür. İnsanlar dərilərini xilas etmək üçün, öz arzu və ehtirasları, tənbəllik və səhlənkarlıqları, bədbəxtlikləri və dəlilikləri, əbədi arzuları ilə “kiçik adam” olaraq qalırlar. Üçüncü Reyxin ordusunun qalıqları ilə birlikdə birdən-birə müharibəyə və geri çəkilməyə başlayan bu “kiçik adama” təəssüflənməmək mümkün deyil. Belə bir insan sadəcə olaraq öz funksiyasını yerinə yetirən bir insandır, ucsuz-bucaqsız həyat okeanından bir damladır [Balzer 1997, 44].

Reyxin sonunu sevinclə və səbirsizliklə gözləyən dinc sakinlər artıq bayraqları qaldırıblar. Ancaq qəhrəmanların heç biri dinc xoşbəxtliyi dadmaq qismətində deyildi. Strateji əhəmiyyətli körpünün bərpasında keçmiş memar əsgər Faynhals iştirak edəcək. Körpü bərpa edildi və dərhal partladıldı ki, düşmən ondan istifadə edə bilməsin, Faynhals uzun illər əvvəl tərk etdiyi evə çata bilsin. O, atasının sığınacağının astanasında gülləyə tuş gəlir. Onun sevgilisi həbs düşərgəsinin komendantı tərəfindən şəxsən vurulur. Onun ifasına inamı, insanda onun kamilliyinə, cəsarətinə həqiqi inamı eşidən yazıq komendant buna dözə bilməyib, atəş açır və o, qaz kamerasında yəhudi kimi deyil, alman komandirinin nifrətindən ölür. Sahə xəstəxanasının həkimləri təslim olmağa hazırdırlar. Əsgərlər zabitlərinin sadist əmrlərinə tabe olaraq ölürlər. Yazıçı çatdırır ki, təsadüfi insanlar, həyatın təsadüfi qurbanlarıdırlar. İnsan həyatını məhv edən cəhənnəm maşınının sükanı arxasında olan adam bu kabusun günahkarıdır. Burada bəlkə də “kiçik adamın” günahı da vardır. Onlar, Allahın “*Adəm, sən harada idin?*” sualına cavab verəcəklər [Balzer 1997, 23].

Haynrich Böll tərəfindən 1954-cü ildə yazılan və bədii cəhətdən tamamlanan güclü əsərlərindən biri də "*Sahibsiz ev*" adlı romanıdır. Bu əsərdə kasıb və varlının antiteziyası, milli günah və faşizm aktlarına görə məsuliyyət problemi, keçmişin prizmasından indini dərk etmək məsələsi, həyatı iki dünyada keçən və hərbi keçmişin izlərini daşıyan qəhrəmanların taleyi problemləri önə çıxır.

Roman kasıb və varlının antiteziyası, sinfi təzadlar əsasında qurulub. Qarşımızda iki dünya peyda olur: biri tam təminat içində yaşayan Martin Bax, digəri isə, yoxsulluğun acısını yaşayan və "əxlaqsız" kimi tanınan anası üçün utanıb əziyyət çəkən Haynrix Brilax. Hər iki qəhrəman müharibənin sonunda doğulan, atasız böyüyən uşaqlardır. Onların dostluğu səmimi və təsirlidir. Kasıblığın nə olduğunu bilməyən Martin məktəbli dostunun həyatının yaxşılaşmasını istəyir, bəzilərinin tox, bəzilərinin ac qaldığı sistemə qarşı nifrət edir.

Romanda qarşımıza iki dünya çıxır: real və ideal. Real dünya – pulun hökm sürdüyü böyüklərin amansız dünyasıdır. İdeal dünya - uşaqların öz arzuları və həzzləri ilə yaşadığı dünyadır. Martin öz ideal dünyasında yaşayır və hərdən real dünya ilə də təmasda olur. Lakin, real dünya onda ikrah hissi oyadır.

Haynrix Brilax, ətrafdakı hər şeyin iki dünyaya bölündüyünü çox aydın şəkildə bilir. Bir dünya məktəb, digəri isə, onun yaşadığı həyatdır. O, üçüncü dünyanı da bilirdi. “*Martinin üçüncü dünyası ilk ikisinə bənzəmirdi. Bu, soyuducular, qadınların evlənmək istəmədiyi və pulun heç bir rol oynamadığı bir dünya idi.*” [Böll 1981, 167] O, erkən oyanmış şüurlu bir uşaq olsa da, həyatda artıq çox şey öyrənməyi bacardı. Məsələn, "qara bazar", insanların "əxlaqlı" və "əxlaqsız" olması, cəmiyyətin kasıb və yoxsullara bölünməsi kimi reallıqları dərk edirdi və bunlar ona çox iztirablar yaşadırdı. Onun Martinlə dostluğu onların sosial vəziyyətindəki fərqləri hamarlasa da, ətrafdakı insanların diqqətindən yayınmadı.

Uşaqları həqiqətən birləşdirən yeganə şey ataları haqqında fikirləri idi. Hər ikisi ölmüş atalarını ideallaşdırırlar. Romanda atalarını itirmiş hər iki oğlanın taleyinin müharibənin sındırdığı anaların taleyi ilə sıx bağlı olmasına da diqqət yetirmək lazımdır. Qarşımızda isə, hər biri öz aləmində yaşayan iki qadın, iki ana görünür. Müharibədə həyat yoldaşı, şair Raymund Baxı itirən Nella Baxın həyatı iki dünyada cərəyan edir. O, real dünyada, qohumları arasında, ərinin istedadının pərəstişkarları arasında yaşayır. Və bu həyat mənasız və cansıxıcıdır.

Haynrixin anası Vilma Brilax tamam başqa həyat yaşayır. Vilmanın həyatı həqiqətən də dəhşətlidir. İllüziyalar və xəyallar dünyası onun üçün demək olar ki, mövcud deyil. O, bütün gücünü sağ qalmağa, uşaqlarını yedizdirməyə və böyütməyə yönəltdi. Qarşımızda dişləri çürümüş kasıb, yorğun qadın obrazı var. O, uğursuz olaraq şəxsi həyatını qurmağa çalışsa da alınmır. Onu tez-tez aldadırlar. Onun tam hüquqlu ailə yaratmaq istəyi cəmiyyət tərəfindən pislənir və o, “əxlaqsız” kimi tanınır. Anasını da “əxlaqsız” hesab edən oğlu bu fikirlərdən əziyyət çəkir. Yazıçı əsərlərində müasir cəmiyyəti mənəviyyat nöqteyi-nəzərindən tənqid etməsi, təsadüfi deyildir. Vilma Brilax sadəcə kasıb, pulsuz və kimsəsiz olduğu üçün cəmiyyətin “əxlaqsız” damğasına məruz qalmışdır [Heinrich 1974, 72]. Romanın sonunda bu fikir Haynrixin də beynini qurcalayır. O, get-gedə əxlaqi məsələlər haqqında düşünmək istəmir və o, anasının üzündə bir anlıq yaranan ümidi düşünür.

Yazıçı romanda dünyaya başqa iki rakursdan baxmağa dəvət edir: indiki dinc və keçmiş müharibə dünyası [Sulzgruber 1997, 21]. İndiki ilə keçmiş arasındakı məsafə hər gün nə qədər çoxalsa da, bu faşist və hərbi keçmiş dəyişməz olaraq qalır. Yazıçı oxucuları öz qəhrəmanlarının keçmişi ilə tanış etməklə yanaşı, həm də ölkəsinin tarixinin ayrı-ayrı fraqmentlərini canlandırmağa nail olur. Qarşı tərəfin nöqteyi-nəzərindən müharibə haqqında oxumaq çox maraqlıdır. Üstəlik, bunlar bizim bəzi fərziyyələrimiz deyil, orada yaşayan və hər şeyi görən müəllifin təsvir etdiyi reallıqdır. Tarixə, ölkəsinin hərbi keçmişinə müraciət edən yazıçı günah və faşizmlə əlbir olmaqda bütün alman xalqının məsuliyyəti məsələsinə toxunur. Bu mövzu romanın Gezeler, Şurbigel, Ata Villibord kimi personajlarının timsalında ən tam şəkildə açılır. Onların həyatında həm də iki dünyaya bölünmə var: insanların Hitlerə fanatik şəkildə dəstək verdiyi dünya və demokratik ideallar dünyası. Bu tip personajlara münasibət bildirən bir çox tənqidçilər onların hamısının Hitlerin hakimiyyəti illərində nasizmə məharətlə uyğunlaşdıqlarını, müharibədən sonra isə, Qərb demokratiyası və xristian əxlaqının müdafiəçisi kimi çıxış etməyə başladıqlarını yazırdılar. Tənqidçilərin fikrincə, romanda Martinin nənəsi, Nellanın anası kimi bir personajın da əvvəllər qeyd etdiyimiz iki dünya ilə əlaqəsi var idi. Nənə nəvəsinə ailənin sərvət mənbəyi olan marmelad zavodundan və Hitler hakimiyyətə gəldikdən sonra gəlirlərinin artması ilə bağlı nostaljilərindən danışır. O, eyni zamanda, qızı Nellanın ərini itirməsi və şəxsi həyatını nizama salmaması, yeganə sevimli nəvəsi Martinin atasız böyüməsindən də narahat olur. Amma yenə də sinfi mənsubiyyətinə görə, nənə faşist hakimiyyətinin qurulmasında əməyi olanlara aiddir. Ona görə də, o, cinayətlərə aid olan məsuliyyət payını daşıyır [Fischer 1992, 210].

Beləliklə, romanın qəhrəmanları bu günü yaşayan, gələcəyə ümidlə baxan uşaqlar istisna olmaqla, həyatdan irəli baxaraq keçirlər, eyni zamanda daim geriyə dönürlər. Keçmiş onlar üçün yalnız böyüklərin xatırlatmaları sayəsində mövcuddur və onlar bütün həyatları boyu yalnız ən parlaq və müsbət anları yadlarında saxlayırlar. Heinrich Böll öz əsərində dəfələrlə nasist Almaniyasında baş verənlərə görə xalqının məsuliyyəti və milli günahı, hərbi keçmişin aşılmazlığı məsələsini qaldırdı. Bu romanı ilə yazıçı göstərdi ki, müharibə bütün insanlar üçün dəhşətlidir. Burada nə qalib, nə də məğlub vardır. Müharibədə yalnız qurbanlar vardır.

**Ədəbiyyat**


1. Balzer, B. Das literarische Werk Heinrich Bolls: Einfuhrung und Kommentare, Deutscher Taschenbuch Verlag, Munchen 1997, 416 p.

2. Böll, H. Wo warst du Adam?: Roman, Deutscher Taschenbuch Verlag, Munchen, 1972, 144 p.
3. Böll, H. Haus ohne Hüter. München: Deutscher Taschenbuch Verlag dtv 1981.
4. Fischer, A. Inszenierte Naivität. Zur ästhetischen Simulation von Geschichte bei Günter Grass, A. Drach und Walter Kempowski. München, 1992.
5. Heinrich, M. H. Heinrich Böll – eine „christliche“ Position? Juris Verlag, Zürich 1974.
6. Nagele, R. Heinrich Böll. Einfuhrung in das Werk und in die Forschung. Frankfurt a.M.: Athenaum Fischer Taschenbuch Verlag, 1976, 209 p.
7. Sulzgruber, W. Heinrich Böll. Haus ohne Hüter. Analysen zur „Sprachfindung, zu den Kritikmustern und Problemkonstellationen im Roman. Edition Praesens, Wien 1997.

## DAVAMLI İNKİŞAFA NAİL OLMAĞIN ƏSAS PRİNSİPLƏRİNƏ DAİR

**Məsud Şükürov**
Fəlsəfə üzrə fəlsəfə doktoru,
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun böyük elmi işçisi
mesud.shukurov@mail.ru
https://orcid.org/0000-0002-6043-2548

**Açar sözlər:** davamlı inkişaf, qısamüddətli proqnozlar, uzunmüddətli proqnozlar, beynəlxalq həmrəylik, sülh, müharibə, ekologiya

Ümumi mənada sosial davamlılıq insan rifahının ölçüsü olaraq təyin edilir. Sosial davamlılıq sadə insanların yaşam mövcudluğu ilə əlaqəli bir narahatlıq deyil, insanların xəyal edə biləcəyi ən yaxşı həyat tərzinə sahib olmaq arzusudur (Bədəlov və Ağayev 2008). Davamlılığa təsir edən sosial-mədəni baxımdan ən önəmli məsələ nəsillərarası bərabərlikdir, yəni ehtiyac duyduğumuz təbii ehtiyatlardan istifadə edib qalan hissəsini gələcək nəsillərə ötürməyimiz deməkdir. Bunu biz optimal varislik prinsipi də adlandıra bilərik. Bu səbəbdən biz sosial aspektlərdən danışarkən sığınacaq, təmiz su və yaşamaq üçün zəruri qidası olmayan insanların yaşayış səviyyələrini artırmağa çalışmalıyıq.

Sosial davamlılığı təşviq etmək üçün birinci növbədə aşağdakıları nəzərə almalıyıq:

1. İcma iştirakçılığı: Bura yerli mənafe və rifah qrupları aid edilməklə toplum daxilində yer alan bütün sosial institutlar daxil edilməlidir. Biz bura geniş şaxəli quruluş kimi də baxa bilərik. Cəmiyyətin təmərküzləşməsi üçün də bilavasitə ciddi rol oynayan sosial qrupun təşviqi, müasir dövrdə sosial davamlılığın təşviqinin ən prioritet istiqamətlərindən biridir;

2. Xərclərin SWOT analizi: Əlaqəli sosial xərclər də daxil olmaqla, xırdadan böyüyə qədər bütün məhsulların ömrünün tam istehlak xərclər ölçülməli və təhlil edilməlidir;

3. İqtisadi optimallaşdırma: Ölçülə bilən iqtisadi fayda üzərində sosial təşkilat sistemlərinin tənzimlənməsi və cəmiyyətin rifahında optimallaşdırmanın təşviq edilməsi əsas prioritetlərdən biridir. Praqmatik baxış bucağı ilə düşünülən rifaha istiqamətləndirilmiş iqtisadi təşviq, eləcə də motivasiya yarada bilən kompleks addımlar bura aiddir;

4. Düzgün qiymətləndirmə: Buraya aid olan əsas fikir ehtiyac olan vəsaiti ədalətli şəkildə bölüşdürülməsinin qiymətləndirilməsidir. Təbii ki, bu prosesi uğurlu icra etmək üçün, ilk öncə prosesi düzgün qiymətləndirmək vacibdir.

Sosial davamlılığı təşviq etmək üçün ikinci mühüm amil sosial davamlılıq meyarlarını müəyyənləşdirməkdir:

• Sosial məqbulluq: Riskin minimuma endirilməsi, şəffaflığın artırılması və maraqlı tərəflərin iştirakının təmin edilməsi;

• Sosial rifah: Firavanlığı, təhlükəsizliyi, sağlamlığı və qida təhlükəsizliyini qorumaq, eləcə də yaxşılaşdırmaq;

• Enerji təhlükəsizliyi və xarici ticarət: Xarici riskli enerji idxalından asılılığın azaldılması, sərfəli enerjiyə çıxış, müsbət xalis enerji balansı nümayiş etdirmək, enerji ilə əlaqəli materiallar üçün idxal və ixracat arasındakı ticarət balansını yaxşılaşdırmaq;

• Resursların qorunması: Yenilənə bilən mənbələrə nisbətən bərpa olunmayan mənbələrdən istifadənin minimuma endirilməsi və enerjinin investisiya qoyuluşunun artırılması;

• Aqrar inkişaf və peşə təhsili: İş imkanları yaratmaq, səmərəliliyi artırmaq və ixtisaslı kadrları yetişdirmək.

Cəmiyyətlər tərəfindən vurğulanan sosial davamlılıq fərqli başa düşülür (Price&Dube, 2008). Şəhər tullantılarının təmizlənməsi texnologiyasının sosial davamlılıq baxımından iki əsas məqamdan nəzərdən keçirilməlidir:

Biz bölgünü, çatışmamazlıqları tam olaraq dərk etmək üçün, sosial davamlılıq anlayışının hesablanması və təsnifatına diqqət yetirməliyik.

Sosial davamlılıq S-LCA tərəfindən hesablanır. Bu metod həm də istehsaldan istehlaka və ömrünün sonuna qədər bütün həyat dövrlərini nəzərə alaraq ELCA metodologiyasına əsaslanır (De Kruijf &Van Vuuren, 1998). Məqsəd sosial və sosial-iqtisadi şərtləri yaxşılaşdırmaqdır (Jacob&Abel, 2002).

Sosial davamlılıq bu mənada ətraf mühiti yaxşılaşdırmaqla yanaşı, vətəndaşların rifahını artırmağa xidmət edir. Yoxsul təbəqəyə pulsuz tibbi yardım və uşaq baxımı kimi məişət problemləri bu tipli proseslərə daxildir.

Davamlı İnkişafın sosial dayanıqlığı ilə bağlı Hindistanın baş naziri İndira Qandi maraqlı tezislə çıxış edirdi: “Çox yoxsul ölkələr müvəqqəti ekoloji deqradasiyanı qəbul etməlidirlər. İlk öncə dərhal ərzaq və sığınacaq ehtiyaclarını ödəmək lazımdır”. Onun fikrincə, inkişaf etməkdə olan ölkələr ətraf mühitin qorunmasını iqtisadi inkişafdan üstün tuta bilməzlər. Bu baxışdan fərqli olaraq “sosial davamlılıq” nəzəriyyəsi yoxsulluğun azaldılmasının ətraf mühitin tənəzzülünə səbəb olmamasını təklif edir. Geniş rakursdan baxdıqda burada biz sənayeləşmənin ekologiyaya verdiyi zərəri ikinci planda görməliyik.

Davamlı inkişafa nail olmağın əsas prinsipləri aşağıdakılardır:

1. Qlobal Məsuliyyət: Məlum olduğu kimi, dünyadakı sivilzasiyalar qlobal nəticələrə səbəb olan tullantı və çirklənmə yaradır. Bu vəziyyətdə, bütün şəhər və ölkə rəhbərliklərinin həm öz vətəndaşlarına, həm də digər ölkələrdə yaşayan insanlara fayda gətirəcək mexanizm istehsal etmək üçün “qlobal məsuliyyət” ideyasını izah etmələri lazımdır. Burada “qlobal məsuliyyət” dedikdə, bütün dünyanı vahid evimiz kimi başa düşmək fikri əsas götürülür;

2. İnsan faktorlu ümumi yanaşma: Ətraf mühit problemlərinin əksəriyyəti birbaşa insan fəaliyyəti ilə əlaqəlidir və insan sağlamlığına birbaşa yaxud da dolayı təsir göstərir. Məsələn, iqtisadi yaxud digər insan fəaliyyətləri həm ətraf mühitə, həm də insan sağlamlığına müsbət, eləcə də mənfi təsir göstərir. Bunun üçün bütün dünya ölkələri davamlı inkişafın əsas elementləri olan iqtisadiyyata, ətraf mühitə və sağlamlığa dair ortaq bir yanaşma qəbul etməlidirlər;

3. Tərəfdaşlıq: Bütün sektorların səylərini yeni icma iştirakı və məlumatlılığı ilə əlaqələndirmək, həyata keçirmək üçün ümumi tərəfdaşlığa ehtiyac var. Belə bir yanaşma, müxtəlif səviyyələrdə qəbul ediləcək qərarların ətraf mühitə və sağlamlığa təsirlərini təyin etmək üçün çox əhatəli strategiyaların müəyyənləşdirilməsinə kömək edəcəkdir;

4. İştirakçı yanaşma: Vətəndaşlara demokratiyanın alətlərinə daha təsirli giriş imkanı təmin etməklə həm yerli, həm də qlobal həqiqətlərə həssas olmaq və fərqli baxışları təmsil etmək mümkün olacaqdır. Burada insanların həm fərdi həmçinin də ictimai birliklər, ümumictimai fəaliyyət çərçivəsində proseslərdə iştirak etməsi yaxud ictimai nəzarət sisteminin qurulması əsas paradiqmadır;

5. Yenilənmiş istiqamət: Müasir dövrdə vətəndaş cəmiyyəti və idarəetmə dinamikası son dərəcə aktuallaşır. Ənənəvi tərəfdaşlar paradiqması ilə yanaşı, bu sahədə qeyri-kommersiya qurumları, beynəlxalq şirkətlər və beynəlxalq media kimi yeni institutlar da böyük ölçüdə rol oynamağa başlamışdır. Bu tendensiya hər kəs üçün sağlamlıq, eləcə də davamlı inkişaf məqsədləri üçün qlobal səviyyəyə keçməyi zəruri edir (Wilde&others, 2006).

Son onilliklərdə bəşəriyyət getdikcə daha çox əlverişsiz iqlim dəyişikliklərinə və təbii fəlakətlərə, eyni zamanda müharibələrə, siyasi və sosial-iqtisadi qeyri-sabitliyə səbəb oldu. İnsanlar öz davranışları ilə ətraf mühitə mənfi təsir göstərərək yer kürəsinin və gələcək nəsillərin yaşamasını təhlükəyə atdılar. Bütün bu tarixi hadisələr əsas arqument kimi daha az təzyiq və ətraf mühitə təsir etməyə imkan verəcək bütün mənbələrin daha rasional idarə edilməsinə yönəlmiş davranış dəyişikliklərinin necə də bizim həyatımızın sonrakı dönəmində lazımlı olduğunu bir daha ciddi sübutlarla açıqca bizə göstərdi. Gələcək nəsillərə təhlükə yaratmadan resursların uzunmüddətli istismarını təmin edəcək bu cür məsuliyyətli davranışların toplu şəkildə nəzəri konsepsiyası kimi biz də davamlı inkişafı proses olaraq başa düşməliyik. Bu məzmun, anlayış olaraq davamlı inkişafın əsas forma müxtəlifliklərinin prioritet istiqamətlərini yaradır.

**Ədəbiyyat siyahısı**

1. Bədəlov Ə.M., Ağayev A.M..Bazar iqtisadiyyatı şəraitində Azərbaycanın milli iqtisadiyyatının dayanıqlı inkişafının əsas istiqamətləri. Bakı, 2008.
2. Price C., Dube P. Sustainable Development And Health: Concepts, Principles And Framework For Action For European Cities And Towns. EUR/ICP/POLC060305a-European Sustainable Development and Health Series: 1. 1997.
3. De Kruijf H.A., Van Vuuren D.P. (1998) Following Sustainable Development İn Relation To The North-South Dialogue: Ecosystem Health And Sustainability İndicators. Ecotoxicology and Environmental Safety 40: 4–14.
4. Jacob T.J., Abel R. (2002) Sustainable Development And Health: An Indian Perspective. Lancet 360 (24): 638-9
5. Wilde J., Boydell L., Rugkasa J. Integrating Sustainable Development AndPublic Health On The İsland Of Ireland. Public Health 120: 2006, 601-603.

# MOTİVASİYA – KADR POTENSİALININ YÜKSƏLDİLMƏSİNƏ TƏSİR EDƏN FAKTOR KİMİ

**Kənan Abbasov**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*kenan.abbasov4092@gmail.com*

**Açar sözlər:** motivasiya, kadr potensialı, təşkilat, işəgötürən, sosial müdafiə

## Motivasiya

Bütün təşkilatların ortaq problemi işçilərin səmərəli və ya istənilən səviyyədə işləməməsidir. İşçilərin məhsuldar olmamasının və işləməməsinin səbəbi müxtəlifdir. Ola bilər ki, onlar bunu lazımi səviyyədə həyata keçirə bilmirlər. Amma bəzən öz işində, hətta xidmətdə də bacarıqlı olan təcrübəli işçilərin lazımi effektivliyi eyni şəkildə göstərmədiyi müşahidə olunmaqdadır. İnsan məqsəd qoyur və nəticə əldə etmək üçün hər cür səy göstərir. Məqsədə çatmağın bütün yolları qeyri-adidir. Sənaye inqilabının əvvəlindən işçilərin məhsuldarlığı və performanslarını artırmaq və işçilər baxımından onları gördükləri işdən və iş mühitindən məmnun etmək işəgötürənləri daim narahat edirdi. Ona görə də insanları işə həvəsləndirməyin yolları araşdırıldı və çox maraqlı nəticələr ortaya çıxdı. Bu baxımda bir çox nəzəriyyələr işlənib hazırlanmış və bu nəzəriyyələrdən asılı olaraq insanları həvəsləndirmək üsulları irəli sürülmüşdür.

Motivasiya sözü latınca “hərəkət etmək”sözündəndir. İnsanlar gördükləri işdən və iş mühitindən razı olduqları müddətcə daha məhsuldar olmaqdadır. İqtisadi məmnunluq bu baxımdan zəruri şərt olaraq qeyd olunmaqdadır. Buna görə insanları işə cəlb etməyin yolları araşdırılmış və çox maraqlı nəticələr əldə edilmişdir. Motivasiya işçinin işini gözlənilən keyfiyyət və kəmiyyətdə yerinə yetirməsinə təsir göstərmək olaraq ehtiva etməkdədir (Ergül, 2005:70).

Daxili Motivasiya Faktorları

Daxili motivasiya, heç bir xarici mükafat və ya təsir olmadan bir şey etmək, hərəkət etmək və davam etdirmək üçün daxildən gələn motivasiyadır. Daxili motivasiya amilləri bioloji əsaslı və psixoloji əsaslı olaraq iki yerə bölünür. Bioloji əsaslı daxili motivasiya nümunəsi kimi verilə biləcək ən əsas impuls aclıq nəticəsində yemək istəyidir. Aclıq vəziyyətində qanda qlükoza səviyyəsinin azalması hormonları aktivləşdirir ki, beynə qida yemək lazım olduğu barədə məlumat verilir. Nəticədə aclıq hissini boğmaq üçün yemək motivasiyası yaranır. Psixoloji amilləri bioloji faktorlar kimi ədədi məlumatlarla ölçmək olmaz. İnsanın bir işi görmək istəyir, xoşbəxtlik və ya qəzəb, sıxılma hissi onun bu işi görmək motivasiyasına təsir edən psixoloji amillərdəndir. Yüksək psixoloji motivasiya hədəf davranış üçün son dərəcə vacib amildir. Xarici motivasiya bir davranışdan sonra davranışı davam etdirmək və ya dayandırmaq üçün verilən möhkəmləndirmələrdən təsirlənir. Xarici motivasiya nümunələri, uşağın anasının onu qəzəbləndirəcəyini bildiyi bir şeyi etməməsi və ya müəllimin təqdirini qazanmaq üçün ev tapşırığını yerinə yetirməsidir (Aksoy, 2006:125.

## Kadr potensialı

Kadr potensialı sosial-iqtisadi kateqoriya olub, cəmiyyətin malik olduğu fiziki və intellektual imkanların məcmusunu təşkil edir. Onun tərkibində ən mühüm və aparıcı yeri fiziki və zehni cəhətdən inkişaf etmiş əmək qabiliyyətli yaşında olan əmək qabiliyyətli əhali tutur. Bu isə o deməkdir ki, konkret sosial-iqtisadi tarixi inkişaf mərhələsində, hansı ölkədə ictimai istehsal prosesinin əsasını və subyektini təşkil edən əhalinin fiziki və zehni cəhətdən inkişaf etmiş hissəsi çoxdursa, həmin ölkə daha çox məhsuldar insan resurslarına malikdir. İnsanlar və onların istedadı ölkənin ən qiymətli resursudur. Buna görə də hər bir ölkədə və

regionda həmin resursların idarə edilməsi və onlardan səmərəli istifadə olunması strateji vəzifəyə çevrilmişdir. Peşəkar karyera konkret işçinin öz peşəkar fəaliyyəti prosesində müxtəlif inkişaf mərhələlərindən keçməsi ilə xarakterizə olunur: təhsil, işə qəbul, peşəkarlığın yüksəldilməsi, fərdi peşəkarlıq qabiliyyətinin saxlanılması, yekunlaşma, təqaüdə getmək. Hər bir işçi müxtəlif təşkilatlarda bu mərhələləri müntəzəm keçə bilər. Kadr potensialı (latınca potensial-imkan, güc) anlayışı konkret şəxslərlə əlaqələndirilir.Bu müəyyən bir şəxsin işgüzar keyfiyyətlərinin mövcudluğunu,təzahür səviyyəsini, əhəmiyyətini əks etdirir (Əlizadə, 2021:26).

**Kadr potensialının yüksəldilməsi**

Təşkilatlarda kadr potensialının yüksəldilməsi ən prioritet məqsədlərdən biridir. Bu məqsədlə bir çox üsullardan istifəadə olunur. Mükafatlandırma bu üsullardan biri olaraq daha çox ön plana çıxmaqdadır. Mükafatlar və cəzalar fərdin idarəetmə çərçivəsi ilə bağlı səlahiyyətlərdir. bu idarə fərdi istək və ehtiyaclarını müəyyən alətlər vasitəsilə təmin etməklə istəklərini artırmağa çalışır.

Mükafat fərdin öz nöqteyi-nəzərindən davranış tezliyini artıran hər hansı bir hadisə kimi müəyyən edilə bilər. Bu tərif fərdin davranışını necə idarə etdiyinə görə mükafatlandırılmasını izah edir. Colin Pitts mükafatı bir vəzifə yerinə yetirmək, xidmət göstərmək və ya bir öhdəliyi yerinə yetirməkdən əldə olunan qazanc kimi dəyərləndirmişdir. Pittsə görə bu vəzifələrin müntəzəm icrası müqavilə bağlanan işçilər üçün əsas mükafat əmək haqqıdır. Bununla belə, mükafat əmək haqqını özündə cəmləşdirən və bonuslar, pensiya, tibbi sığorta, mənfəəti əhatə edən bir paketdir (Məmmədova, 2021:143).

Kadr potensialının yüksəldilməsi üçün tədbirlər sistemi:

- Kadrların hüquqi və sosial müdafiə sisteminin yaradılması;
- Kadrların peşə hazırlığının elmi və metodiki cəhətdən təminatı;
- İdarəçilik proseslərində yüksək peşəkarlığın təmin edilməsi;
- Kadrların qabiliyyətlərini və peşə bacarıqlarını nümayiş etdirə bilməsi üçün sosial şəraitin və hüquqi təminatların yaradılması;
- İxtisaslı və gənc kadrların ön plana çəkilməsi;
- Kadr potensialından səmərəli istifadə;
- Kadrların maddi-texniki və maliyyə təminatının həyata keçirilməsi;
- Kadrların müasir texnologiyalarla təmini;
- Kadrların təlim metodlarının düzgün yerinə yetirilməsi (Tunçer, 2013:90).

Təşkilatın fəaliyyət növündən və sahəsindən asılı olmayaraq, menecerlər motivasiyanın yüksəldilməsi ilə yaxından məşğul olmalıdırlar. Motivasiya və performans bir-biri ilə sıx bağlıdır. Motivasiyasız kadrlardan yüksək performans gözləmək olmaz. Təşkilat meneceri təşkilat daxilində və xaricində fizioloji, psixoloji və sosial mühiti, ehtiyacları öncədən müəyyən etməli, təşkilatda çalışan kadrların performansını maksimuma çatdırmaq üçün ən uyğun üsul və metodları tətbiq etməlidir. Beləliklə, həm işçilərin ehtiyacları yerinə yetiriləcək, həm də biznes məqsədlərinə nail olunacaq. Əgər menecer işçiləri biznes məqsədlərinə uyğun istiqamətləndirirsə, bu ancaq motivasiya ilə mümkün ola bilər. Təşkilati məqsədlərə çatmaq üçün işçiləri çox işləməyə həvəsləndirmək idarəetmə üçün ən böyük problemlərdən biridir. Yüksək motivasiyalı işçilər təşkilatın ehtiyac duyduğu başlıca faktorlardan biridir (Əliyev, 2020:230).

**İstifadə olunmuş mənbələr:**

Aksoy, H. (2006). Örgüt ikliminin motivasyon üzerine etkisi (Doctoral dissertation, Marmara Universitesi (Turkey)).

Əliyev, X. Q. (2020). Sənaye Müəssisələrində Kadr Potensialının İnkişaf İstiqamətləri.
In İqtısadi Təhlükəsizlik: Mövcud Vəziyyət Və Perspektivlər (pp. 324-327).

Əlizadə, L. S. (2021). İnformasiya Təhlükəsizliyi Sisteminin Qurulması Prinsipləri. In Xx Республиканская Научная Конференция Магистрантов (Pp. 86-87).
Ergül, H. F. (2005). Motivasyon ve motivasyon teknikleri. Elektronik Sosyal Bilimler Dergisi, 4(14), 67-79.
Məmmədova, İ. R. (2021). Koronavirus Dövründə İnsan Resursları Problemləri. In Xx Республиканская Научная Конференция Магистрантов (Pp. 142-143).
Tunçer, P. (2013). Örgütlerde performans değerlendirme ve motivasyon. Sayıştay Dergisi, (88), 87-108.

## ANTİK FƏLSƏFƏDƏ QANUN VƏ ƏDALƏT KATEQORİYALARI

**Günel Heydərova**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun dissertantı*
*e-mail: Alesker.lala@gmail.com*
*https://orcid.org/0000-0001-5784-2418*

**Açar sözlər**: antik fəlsəfə,, etika, dövlət, qanun, ədalət, mənəviyyat

Antik fəlsəfənin görkəmli nümayəndələri Platon və Aristotelin qanun və ədalət haqqındakı fikirlərini araşdırmağa səy göstərmişik. Platon ilk dəfə mütləq ideyanı siyasi, dövlət, qanun və etik kontekstə daxil edən filosof idi [8, s.235]. Platonun etikası bütövün estetikasına tabedir: ideal bir dövlət qurmağın ən yüksək həddi bütövün gözəlliyidir. Gözəl bir bütövün "xoşbəxtliyi" insani "xeyir" deyil, fəlsəfi və siyasi "ədalət"dir. İdeal dövlət, ideyaların reallaşması və ideya dünyasının yer üzündəki ictimai və siyasi həyatda mümkün olan maksimal təcəssümü kimi yozulur. İdeal və ədalətli dövlət, bütövlükdə kosmos, dövlət və insan ruhu arasında ahəngin qurulmasından irəli gəlir.

Platon sistemində Mütləq varlığın hüquq və dövlətlə əlaqəsi özünü ədalət ideyasında aşkar edir. Mütləq varlığı bu sistemdən təcrid etməklə Platonun hüquq və dövlət barədə fikirlərini anlamaq olmaz. Çünki insan qanunlara, normalara və dövlət hakimiyyətinin əmrlərinə yalnız məcburiyyət qarşısında tabe olmur, onun üçün qanun və dövlət həm də öz fitrətinə yad olmayan yüksək bir dəyərdir. İnsanların hüquq normalarına riayət etməsi əxlaq normalarına uyğundur. Həm hüquq, həm də əxlaq normaları insanın müvəqqəti ehtiyacları və ehtirasları üzərində hakim güc qismində yüksəlməklə, onları nisbi və tək olan şeylərin üstündəki Mütləqə doğru ucaldırlar. Buna görə də, hüquq və əxlaq normaları, insanları məhdudlaşdırmır, əksinə, onların mənəvi azadlığının gerçəkləşməsinə şərait yaradırlar.

Platona görə, vəhdət, kamil xeyir və fəzilət ilə səciyyələnən İlahi Zəkada, daha sonra isə, xeyir və şər ilə müşayiət olunan Dünya Ruhunda təcəssüm olunur. Xeyirxah dünya ruhunun hərəkətlərini izləyən fəzilət ideyası ideal dövlətlərdə və insan şəxsiyyətinin mükəmməl əxlağında təcəssüm edərək dünyaya daxil olur. Dövlət və qanun, fəzilət və ədalət ideyasında tutduğu yerə görə, müvəqqəti və nisbi olan hər şeyin üstündəki mütləq başlanğıcın əlamətlərini daşıyırlar. Mütləq olan, dövlət və insan arasındakı əlaqə, ədalət ideyası ilə gerçəkləşir. Ədalət, insan və dövlətin daxili bütövlüyünü təmin edən və hər ikisinin ən yüksək prinsipi olan bir başlanğıcdır. Fəzilət ideyası "bilinən şeylərə həqiqəti verir və insana idrak qabiliyyəti bəxş edir..." [7, c.3, s. 291]. O, elə bir bilikdir ki, "... onun sayəsində ədalət və digərləri faydalı və yararlı olur.." [7, c.3,s. 286].

Platon, ədalətli insanın nə olduğu sualının müzakirəsini, ədalətli dövlətin analizi ilə başlayır. Platona görə, hər hansı bir dövlət və hər hansı bir qüvvədə olan qanun, son həddə ədalət fikri ilə üst-üstə düşən dövlətin əbədi fikri və hüquq ideyasına əsaslanır. Ədalət, yalnız fərddə deyil, dövlətdə də müşahidə olunur. Ancaq, dövlət fərddən daha böyükdür. Buna görə də, ədalət dövlətlərdə daha şox ifadə edilir və onu dövlətin timsalında tanımaq daha asandır. Beləliklə, Platon bu müqayisəni apararkən ədalət məsələsini dövlətin necə olması məsələsi üzərində izah etməyə çalışır. Ona görə, ədalət, yalnız şəxsin dövlətin vətəndaşı olduğu müddətdə həyata keçirilir. Çünki ədalət öz həqiqəti ilə yalnız dövlətdə aşkar olur. Hüquq, azadlığın gerçəkləşmiş formasıdır.

Platona görə, dövlət anlayışı, azad iradənin varlığı ilə bağlı olan bir anlayışdır. Dövlət və qanun, insanlar tərəfindən yaradılır. Lakin, onların içindən ən yaxşılarının zəkası hesabına meydana çıxır. Yaradılan ictimai-siyasi formasiyalar, ictimai-siyasi quruluşlar o zaman dövlət hesab oluna bilər ki, onlar, varlığın təməlində olan, mütləq fəzilət fikri üzərində cəmlənmiş həqiqət, fəzilət və gözəlliyin vəhdətini ifadə etmiş mütləq ideyada yerləşən dövlətin ilkin ideyası ilə uyğun olsunlar [3, s.189].

Platona görə, ədalət — müdriklik, ədalətsizlik isə — əxlaqsızlıq və cəhalətdir. Həqiqi müdriklik həqiqətə yaxın olduğu üçün, əsil ədalət də həqiqətə uyğundur. Ədalət və həqiqət, əsil varlıq ilə eyni olduğu üçün, o, əxlaqsızlığa, cəhalət və yalana qarşıdır. Bu baxımdan, ədalətli insan ədalətsizliyə yol verə bilməz. Bu yanaşma, Sokratın ədalət və həqiqət anlayışlarının vəhdəti prinsipinə uyğundur.

Platon hesab edirdi ki, ədalətli insan yalnız ədalətli dövlətdə mövcud ola bilər. Ədalətli insan ədalətli dövlətdən qətiyyən fərqlənmir. Bu bənzərlik, insan və dövlətin ümumi quruluşundan irəli gəlir. Bu ümumi quruluğun əsasında üç əsas fəzilət vardır: müdriklik, cəsarət və təmkin. Ədalət, bu fəzilətlərin mahiyyətində dayanır. Dövlətdə bu fəzilətlər özünü üç təbəqədə aşkar edir: hökmdarlar, gözətçilər və əkinçi-sənətkarlar [5, s.48].

Platona görə, zəka davranışı idarə edən yazılı qanunlara dönüşür. Mənəviyyatın qanundan və ya əksinə asılı olması, ilahi zəkanı aktuallaşdırır. Qanunlar zəka ilə dərk olunaraq əməllərə keçdiyi üçün, qanun ilə zəka vəhdət təşkil edir. Qanunların əsas məqsədi insanlara xoşbəxt həyat mühiti yaratmaqdır.

Platona görə, cəmiyyətdə müdrik şəxslər tərəfindən qoyulmuş dini-əxlaqi normaların məcmusu olan qanunların ədalətli şəkildə reallaşması əxlaqi qaydaların varlığını zəruri edir. Çünki cəmiyyət, əxlaqi imperativlərin qanunlarla birləşdiyi sistemlərdə yönləndirilən bir fenomendir. Əxlaqi dəyərlərdən təcrid olunan qanunlar dövlətin varlığına zərər gətirmək təhlükəsi vardır.

Platona görə, qanunun əxlaqdan bir qurum kimi təcrid edilməsi qeyri-mümkündür. Dövlətin qanunlarını həyata keçirən idarəçilərin idarəetmə mədəniyyəti və əxlaqı burada mühüm rol oynayır. Bu baxımdan, o, qanunvericilik ilə məhkəmə qərarları arasındakı uyğunsuzluqları qanun, məhkəmə, əxlaq arasındakı disharmoniya kimi dəyərləndirir. Qanunlarla əxlaqın nisbiliyini və hətta bəzən bir-birinə zidd olduğunu bildirən Platona görə, dövlət və qanunlar dəyişməklə, əxlaqi dəyərlər də dəyişir və bunlardn çıxış yolu müdriklər tərəfindən idarə olunan ilkin sinifsiz cəmiyyət tipinə qayıtmaqdır. Çünki o cəmiyyətdə ümumi qaydalar və əxlaq normaları bir-birini tamamlayır, münaqişələr ortadan qalxırdı.

Bütün vətəndaşları qane edən və insanları "vəhşi heyvanlardan" ayıran qanun dövlətin təməlidir. Dövlət rəhbərləri də daxil olmaqla hamı qanun qarşısında bərabər olmalıdırlar. Platon bildirir ki, "qanunun heç bir gücünün olmadığı və kiminsə səlahiyyətində olduğu yerdə dövlətin yaxın ölümünü görürəm." Qanun vətəndaşların və dövlətin həyatında ədalətin təcəssümüdür.

Platon düşünürdü ki, ifrat zənginlik xüsusilə, gənclərin mənəvi tərbiyəsinə mənfi təsir göstərir. Yaxşı tərbiyə almış insanlar yaxşı qanunlar yaratdırlar. Bu yolla əldə edilmiş müdriklik daxili və xarici münasibətlərə rəhbərlik etməklə ümumdövlət məsələlərini həll

etməyə imkan verir. Dövlətin gücü, onun sabitliyi özlüyündə kortəbii şəkildə yaranmır. Onlar, vətəndaşların siyasi mədəniyyətinə əsaslanır. İctimai münasibətlərin uzlaşması, bütövün mövcudluğu naminə şəxsi maraqları cilovlayan rasionalizmə əsaslanır, başqa insanlar üzərində rəhbərlik etmək üçün mənəvi hüquq verir. O, hökmdarlar və rəiyyət arasında qarşılıqlı əlaqələr həyata keçirən müəyyən harmoniyaya bənzəyir. Onlar arasında harmoniya müasir hüquqi cəmiyyətdə vətəndaş cəmiyyəti ilə dövlət arasında əks əlaqəni xatırladır.

**Aristotelin** etikası özündə bir sıra siyasi-etik problemləri əhatə edir. Ədalət probleminin işıqlandırılmasında etika və siyasətin nisbəti aydın şəkildə özünü göstərir. Ədalət, insan münasibətlərində bütün fəziləti təmsil edir və siyasətin predmetinə aid olur. Siyasət, hüquq və qanunlar ədalət dedikdə bütün fəzilətləri, yəni, siyasi ədaləti nəzərdə tutur. Aristotel yazır: "Ədalət anlayışı həm qanuniliyi, həm də bərabərliyi, ədalətsizlik isə qeyri-qanuniliyi və qeyri-bərabərliyi ifadə edir. Qeyri-qanunilik və qeyri-bərabərlik fərqli anlayışlardır. Onlar, bütünün bir hissəsi kimi bir-birindən fərqlənirlər. Bütün qeyri-bərabərliklər qeyri-qanunidir. Lakin, bütün qeyri-qanuniliklər qeyri-bərabər deyildir." [1, V, 5].

Ədalətin təhlili prosesində Aristotel "xüsusi ədalət"dən bəhs edir və onun iki təzahür növünü fərqləndirir: bölüşdürülən və tənzimlənən ədalət. Bu anlayışların məzmununun aydınlaşdırılması Aristotelin siyasi və hüquqi baxışlarını anlamaq üçün zəruridir. Çünki burada söhbət mahiyyətcə siyasi münasibətlər və ədalətli qanun üçün məcburi olan xüsusi bərabərliyin obyektiv mənasından gedir.

Bölüşdürülən ədalət cəmiyyətin üzvləri arasında bölüşdürülə bilən hər şeyin (hakimiyyətin, şərəfin, ödənişlərin və s.) bölüşdürülməsi zamanı ortaya çıxan ədalətin təzahürüdür. Burada müxtəlif şəxslərin həm bərabər, həm də qeyri-bərabər şəkildə müvafiq nemətlərə malik olması mümkündür. Bu ədalət, mübadilə sahəsində fəaliyyət göstərir [1, V, 5]. Bu cür ədalət mülki-hüquqi əqdlər, zərərin, cinayətin və cəzanın ödənilməsi sahəsində tətbiq edilir. Aristotelin özü ədalətli bölgünü bütün vətəndaşlar üçün ümumi olan nemətlərin bölüşdürülməsi kimi, bu və ya digər vətəndaşın ümumi işə verdiyi töhfəyə və ya haqqına mütənasib olaraq şərh edir.

Tənzimlənən ədalət mübadilə prosesində çox və az arasındakı orta mövqedə olan ölçünü nəzərdə tutur. Yalnız bütün bu şərtlərin düzgün müəyyənləşmiş nisbətini nəzərə alaraq, ədaləti tənzimləmək olar. Bu uyğunluğun pozulması, çəkişmələrə və mübahisələrə gətirib çıxarır.

Aristotel ədaləti bölüşdürən prinsip kimi — "ləyaqətlə bölmək" məsəlinə istinad edərək, bütün vətəndaşlar üçün ümumi olan nemətlərin layiqincə bölünməsinin zəruriliyini əsaslandırır. O yazır: "Bütün insanlar, ədalətin bölüşdürülməsində ləyaqətin rəhbər tutulmasının tərəfdarıdırlar. Lakin, ləyaqətin meyarını hər kəs eyni cür görmür. Demokratik cəmiyyətin vətəndaşları onu azadlıqda, oliqarxik zümrə sərvətdə, aristokratik zümrə onu fəzilətdə görürlər." [1, V, 6].

Bölüşdürülən ədalət zərərin və xeyirin ortasında olan və özbaşınalığı məhdudlaşdıran ədalətdir. Bu ölçünün pozulması bərabərsizlik yaradır. Belə bir şəraitdə tərəflər ədalət ölçüsünü bərpa etmək üçün, hakimə və məhkəməyə müraciət edirlər. Aristotel deyir: "Məhkəməyə getmək ədalətə baş vurmaq deməkdir. Çünki hakim ədalətin mücəssiməsinə çevrilmək istəyir. Üstəlik, insanlar qərəzsiz hakim axtarırlar. Bəzən hakimləri vasitəçilər hesab edirlər. Məhz bu vasitəçilik insanlara ortada olan ədalətli qərarın əldə olunmasını təmin edir." [1, V, 7].

Aristotelin etik araşdırmalarına görə, siyasi ədalət azad və bərabər insanlar arasında mümkündür. Siyasi ədalət, hökmranlığın siyasi forması (qul, ata, uşaq üzərində, ər-arvad münasibətlərindən fərqli olaraq) və insanlar arasında münasibətləri təşkiletmənin siyasi-hüquqi üsulu kimi ortaya çıxır. Aristotelin irəli sürdüyü mülahizələrdən görünür ki, o, hüquq və qanunu siyasi fenomen kimi dəyərləndirir. O, siyasi hüququ təbii və şərti hüquqa bölür. Aristotelin təbii hüquq adlandırdığı siyasi hüququn bir hissəsi ilk növbədə ona görə təbiidir ki, o, siyasi xarakterlidir, insanın siyasi təbiətinə uyğundur və buradan irəli gələn tələb və insan

qarşılıqlı münasibətlərdə siyasi ədalət haqqında təsəvvürləri ifadə edir. Təbii hüququn Aristotel anlayışında təbii, siyasi, etik (iradəli), intellektual və hüquqi məqamlar üst-üstə düşür. Aristotel, qanunun şərti anlayışını izah edərkən bildirir ki, qarşılıqlı sazişə (yəni şərti hüquqa) əsaslanan hüquqi münasibətlər meyarlara bənzəyir. Hər yerdə eyni meyarlar işləmir. Bu baxımdan, şərti hüquq, siyasi quruluş kimi, hər yerdə eyni deyildir [1, V, 10].

Aristotelin şərhində hüquq, siyasi xarakter daşıdığı kimi, həm də siyasi (dövlət) quruluşun müxtəlif formaları ədalət prinsipinə və hüquq ideyasına uyğundurlar. Siyasi quruluş (dövlət) və hüquq, bu siyasi-hüquqi ünsiyyət üzvlərinin azadlığını nəzərdə tutur. Siyasət (dövlət) və hüquq azadlığın formalarıdır, azad insanların ünsiyyət formasıdır. Lakin, o, despotik tabeçilikdə və ya qul vəziyyətində olan insan və cəmiyyətlərə aid deyildir.

Təbii və şərti (iradi-yeni) hüququn siyasi xarakteri, onların prinsipial birliyini və bu vəhdətə əsaslanan şərti hüququn təbii hüquqa uyğun olmasının zəruriliyini, qanunun qəbul edilməsi zamanı şərti hüquq qaydalarının müəyyən edilməsi prosesində siyasi ədalət prinsiplərinin və tələblərinin nəzərə alınmasının zəruriliyini müəyyən edir. Aristotel qanunvericiliyi, siyasət və hüququn qarşılıqlı əlaqə kontekstində siyasətin bir hissəsi kimi qəbul edir. Aristotelə görə, hüquq, bütövlükdə siyasi bir hadisə kimi "siyasi hüquq"dur. Bu, xüsusilə, qeyri-siyasi hüququn mümkünsüzlüyü məsələsini ortaya qoyur. Yəni ona görə, qeyri-siyasi (despotik) ünsiyyət, ictimai quruluş və idarəetmə formalarında hüquq yoxdur. Həm təbii, həm də şərti hüquq siyasi hadisələrdir və siyasi xarakter daşıyırlar.

Aristotel vurğulayır ki, qanun zorakılığı hüquq və ya hüquq mənbəyi kimi şərh edə bilməz. Zorakılıq öz-özlüyündə hüquq yaratmır. Hüquq və zorakılığın nisbətinin bu cür şərhi, onun təlimində despotizm üçün səciyyəvi olan, siyasi-hüquqi münasibətlərin olmadığı ədalətsiz və qanunsuz qüvvədən istifadənin inkarına yönəldilmişdir. Aristotel deyir: "Bizim axtardığımız məfhumun həm ədalət, həm də siyasi ədalət (hüquq) anlayışında olduğunu diqqətdən qaçırmaq olmaz. Siyasi ədalət, bir cəmiyyətdə olan insanlar arasında yer alır və onların özünü təmin etmək məqsədini daşıyır. O, azad və bərabər (məna, proporsionallıq və ya rəqəm baxımından) insanlar arasında mövcuddur. Bu cür münasibətlərdə olmayan insanlar bir-biri ilə bağlı siyasi ədalət (hüquqlar) əldə edə bilmirlər. Lakin, onlar, əvvəlkinə bənzər müəyyən ədalətə malikdirlər. Münasibətləri müəyyənləşdirən qanunlara sahib olan insanlar hüquqa malikdirlər. Qanun cinayəti, məhkəmə isə, həqiqət və qeyri-həqiqətin bölüşdürülməsini nəzərdə tutur." [1, V, 10].

Aristotelin qiymətləndirməsinə görə, fəzilətdə müəyyən dərəcədə zorakılık, zorakılıqda isə, müəyyən dərəcədə fəzilət elementi mövcuddur. Bu fikrin tərəfdarları belə qənaətə gəlirlər ki, köləlik müharibənin nəticəsi kimi hüququn əsaslarına söykənir. Aristotel belə qənaətə etiraz edərək yazır: "Amma bu fikirlərin özündə ziddiyyət vardır. Əslində, müharibə prinsipinin hüquq ideyasının əleyhinə olduğunu demək olar. Heç bir halda iddia etmək olmaz ki, kölə olmağa layiq olmayan insan, hər halda, belə olmalıdır." [2, - 1, 2, 18, 19].

Aristotelin özü, insanların təbiətlə azad və qullara bölünməsi haqqında təsəvvürlərə əsaslanaraq, təbiətin bu bölünməyə meyilli olmasına baxmayaraq, həmişə buna nail ola bilməyəcəyini qəbul edir. Aristotel qeyd edir ki, təbiətə görə insanların qul və azad insanlara ayrılması olduqca təbiidir. Aristotel ağa və qulun münasibətlərini təhlil edərkən, "hüquq ideyasının zorakılığına xas olub-olmaması" məsələsinə xüsusi diqqət yetirir [2 - 1, 2, 17, 19]. O bildirir ki, "bəzi adamlar, öz təbiətinə görə azad, bəziləri isə quldurlar. Qullar üçün qul olmaq həm faydalı, həm də ədalətlidir." [2- 1, 2, 15, 16, 24].

Aristotel qanun və universal sazişlərin müddəalarını şərti hüquqa aid edir. Bu zaman o, yazılı və yazılmamış qanun haqqında danışır. Yazılmamış qanun dedikdə, həmçinin müəyyən edilmiş (müsbət) hüquqa aid olan hüquqi adətləri (adi hüquq) nəzərdə tutur. Qanunun siyasi keyfiyyətində əsas məqam onun siyasi ədalət və hüquqa uyğun olmasıdır [2- 1,2,18,19]. Beləliklə, hüquq öz ifadəsini, təcəssümünü qanuna riayətdə tapmalıdır. Qanunun hüquqdan

geri çəkilməsi, Aristotelin konsepsiyasına əsasən, siyasi formalardan despotik zorakılığa doğru, qanunun despotizm vasitəsinə daxil edilməsi deməkdir.

Aristotel və Platon üçün, polis (dövlət) tərkiblərdən təşkil olunan bir bütündür. Lakin, Aristotel, Platonun əmlak, qadın və uşaqların ictimailəşdirən "ifrat bütün" dövlətini tənqid edir. Ona görə, bu dövlət süquta məhkumdur. Aristotelin qiymətləndirilməsinə görə, Platonun dövləti şəxsiyyətsizliyə, təsərrüfatsızlığa və tənbəlliyə aparır, hər cür qarışıqlıq və nifaqlarla müşayiət olunur. Halbuki, cəmiyyətdə dostluq münasibətləri dövlət üçün ən böyük nemətdir.

Aristotel, fərdin, xüsusi mülkiyyətin və ailənin hüquqlarını müdafiə edir. Çünki ona görə, xüsusi mülkiyyət, insanın özünə təbii sevgisində, insanın təbiətində mövcuddur. Aristotel hesab edir ki, özünə-sevgi çox dəyərli fəzilətdir. "Hər bir insan özünə daha çox dostdur və özünü daha çox sevməlidir." [1, IX, 8]. Aristotelə görə, bu cür özünə-sevgi, ədalətsiz eqoizmdən fərqli olaraq, daha rasional və gözəldir. Qanunverici buna görə şəxsi mülkiyyəti rasional və ləyaqətli başlanğıc kimi tanımalıdır. Lakin, tamahkarlığa və ifrat zənginliyə qarşı çıxan Aristotel bildirir ki, mülkiyyət xüsusi, ondan istifadə isə, ümumi olmalıdır.

Aristotelə görə, siyasi hakimiyyət insanların deyil, qanunun hökmüdür. O, yazır: “Kim hüququn hakim olmasını tələb edirsə, görünür, yalnız ilahi iradə və ağlın hakim olmasını istəyir. Kim bir insanın hakim tələb olmasını tələb edirsə, bu tələbə heyvani element gətirir. Çünki heyvani bir şey olan ehtiras və qəzəb, hökmdarları doğru yoldan azdırır. Qanun tənzimlənən ağıldır." [2, III, 11, 4].

Aristotelin fikrincə, insanın hökmranlığı (ağıl və qanun yerinə) hakimiyyətdən sui-istifadə və mümkün tiraniya (zülüm) ilə nəticələnə bilər. Aristotelə görə, qanunun məqbulluğu, onun siyasi ədalət və hüquqa uyğunluğu ilə müəyyənləşir. Qanun, siyasi təbiəti və hüquq ideyasını düzgün ifadə etdiyi üçün məntiqidir [1, V, 10]. Aristotelin şərhində qanunun ağıllı olması, onun tələblərinin tamah və eqoist maraqlardan azad olması, onun bitərəfliyi və şəxs-üstü olması, əmr və qadağalarının ümumi olması, hamı qarşısında bərabər olması ilə bağlıdır. Buna görə də, ədalət axtarışında neytral olan qanuna müraciət etmək lazımdır [2, III, 11, 6].

Aristotelin fəlsəfi-hüquqi konsepsiyası əvvəlki yanaşmaların müəyyən sintezi və gələcək inkişafı kimi ortaya çıxır. "İnsan hər şeyin meyarıdır" deyən sofistlər ədalət, hüquq, qanun haqqında təsəvvürlərini subyektivləşdirmişdilər. Bu durumdan çıxış yolu kimi, Sokrat və Platon, siyasi və hüquqi hadisələrin obyektiv və ilahi təbiətə malik olduğunu irəli sürdülər. Aristotelin konsepsiyasında bu iki axtarış istiqaməti insanın siyasi təbiətində sintez edilir. O, siyasi-hüquqi hadisələr və münasibətlərdə ədalət meyarının obyektiv təbiətini təbii-insani keyfiyyətdə şərh olunan insanın siyasi təbiəti ilə əlaqələndirir.

Aristotel və Platonun ideyaları sonralar ictimai fikir tarixinə böyük təsir göstərmişdir. Filosof İlham Məmmədzadə bu iki mütəfəkkirin fikirləri arasında ciddi fərqlərin olduğunu və bu fərqli yanaşmaların onların etika, dövlət və siyasətin qarşılıqlı əlaqələrinə baxışlarında özünü göstərdiyini qeyd edir [6, s. 14-15].

**İstifadə olunmuş ədəbiyyat siyahısı**


1. Аристотель. Никомахова этика. **[Electronic resource]** / Электронная библиотека «Гражданское общество». URL: https://www.civisbook.ru/files/File/Aristotel_Nikomakhova.pdf
2. Аристотель. Политика. **[Electronic resource]** / М. : Праксис, - 2010 - URL: https://iknigi.net/avtor-aristotel/110582-politika-aristotel/read/page-1.html
3. Гегель, Г.В.Ф. Лекции по истории философии. **[Electronic resource]** / Книгавторая. Т. 1. Ч. 1. – СПб. Наука - 1994. – 584 с. URL: http://filosof.historic.ru/books/item/f00/s00/z0000389/st000.shtml
4. Иванов, В.Г. История этики древнего мира. **[Electronic resource]** / Ленинград 1980.- 224 с. URL: https://vk.com/doc30601958_447941014

5. История философии права: Монография **[Electronic resource]** / Санкт-Петербургский ун-т МВД России, 1998. URL: http://kursach.com/biblio/0010022/403.htm
6. Мамед-заде, И. Введение в этику. Баку «Муаллим» изд. 2004, 160с.
7. Платон. Собрание сочинений в 4 т. Т. 3/Пер. с древнегреч.; Общ. ред. А. Ф. Лосева, В. Ф. Асмуса, А. А. Тахо-Годи; Авт. вступ. ст. и ст. в примеч. А. Ф. Лосев; Примеч. А. А. Тахо-Годи. М.: Мысль, 1994. - 654 с.
8. Русская философия права: философия веры и нравственности: Антология / Составители А.П. Альбов, Д.В. Масленников, А.И. Числов, С.В. Филиппова; автор и руководитель проекта академик В.П. Сальников. – СПб.: Алетейя, 1997. – 399 с.

## AİLƏ MƏİŞƏTİNDƏ DİNİ ŞÜUR PROBLEMİ

**Tünzalə Əliyeva**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işçisi

**Açar sözlər:** dini süur, ailə-nigah, inanc, adət-ənənə, etiqad

Ailə mürəkkəb sosial anlayış olaraq bir çox elmlərin öyrənilməsinin obyekti qismində çıxış edir. Hər bir elm sahəsi özünəməxsus xüsusiyyətlərini nəzərə alaraq ailənin və onun funksiyalarının inkişaf istiqamətlərinin müxtəlif tərəflərini öyrənir.

Azərbaycan qədim sivilizasiya ocaqlarından biri hesab olunur. Belə ki, Azərbaycan ərazisində tapılmış və "alimlərin sərəncamında olan müxtəlif fauna qalıqları və paleolit dövrü əmək alətləri sübut edir ki, Azərbaycanda ibtidai insan hələ Abşeron dövründən yaşamağa başlamışdır". Bununla yanaşı aparılmış arxeoloji qazıntılar nəticəsində əldə olunan materiallar əsasında Azərbaycanda müxtəlif dövrlərə aid dini təsəvvür və inancların mövcud olduğunu iddia etmək üçün tam əsas vardır. Nümunə üçün, "...Azərbaycanın mezolit və neolit dövrləri əhalisinin müəyyən dini etiqadlarla əlaqədar (tapılmış materiallar o zamanlar) əcdadlara sitayişin formalaşdığını göstərir". Tarixi mənbələrdə də qeyd edildiyi kimi, həmin dövrlərə aid "qəbirlərdə tapılan əşyalar insanların axirət dünyasına inamı haqqında məlumat verir". Belə qayaüstü təsvirlərlə zəngin olan Qobustan ərazisində də rast gəlinən antropomorf fiqurlar tədqiqatçılara görə, "...qadına aid olub məhsuldarlıq ideyasını təcəssüm etdirirlər". Bu baxımdan anaxaqanlıq dövrünə aid olan bu qadın fiqurlarının simasız təsvir edilmələri başqa yerlərdə olduğu kimi, Azərbaycanın ibtidai dövründə də yaşamış insanların dini şüurundan xəbər verir. Bu isə öz növbəsində Azərbaycanda o dövrdə yaşayan insanların da kollektiv səciyyə daşıdıqlarını, animizm, ovsunçuluq, totemizm, fetişizm kimi ibtidai inanc formalarının mövcud olduğunu ifadə etməkdədir (1, 440 s.).

Qeyd edək ki, tədqiqatçılar Azərbaycan ərazisində inanc və təsəvvürlər kimi mövcud olmuş ibtidai dini formalarından animizm, ovsunçuluq, totemizm və fetişizmi daha çox fərqləndirirlər. Odur ki, bu inanc və təsəvvürlər ilk öncə matriarxat dövrünə aid olmaqla yanaşı, hər biri Azərbaycanın ailə məişətində dini təzahürlər yaratmış və ona uyğun dini şüur formalaşdırmışlar. Bu cür ibtidai dini formalardan biri də, adi dini şüura aid edilə biləcək dini inanc və təsəvvürlərdən olan, ətraf aləmin canlı olduğuna və ruhun ölməzliyinə inamdan bəhs edən animizm təsəvvürləridir.

Ailə uşağın dünyagörüşünü formalaşdırır, onun əxlaqının, mənəvi aləminin sosial mədəni özəyini yaradır. O, tarixi ənənələrin vacib ünsürlərindən biri olaraq, yeni nəsildə şüur stereotipləri, davranış və hərəkət qaydaları haqqında təsəvvürlər yaradır, sosial təcrübəni nəsildən nəslə ötürür. Azərbaycanlıların toy mərasimində əsas etibarı ilə magiyanın artım (törəmə), qoruyucu (profilaktik), birlik, bolluq və oxşarlıq (simvolik) tipləri və növləri vardır. Bu isə özünü ailə və cəmiyyətdə dini şüurun inkişaf səviyyəsində göstərməsinə baxmayaraq,

əksər hallarda sadəcə adət halını almış zahiri bir icraçılıq kimi qiymətləndirilir. Qadınların qismətinə "gözəl düşüncə", kişilərin payına isə "dərin ağıl" düşür. Sevgi, məhəbbət, həqiqi gözəl hiss və duyğular, yüksək əxlaq da mənəviyyata əsaslanmalıdır."Qadına qarşı olan məhəbbət ümumiyyətlə məhəbbətin əsasıdır. Qadını sevməyən insanları da sevməz" deyən L.Feyerbax da məhəbbətin zəkanın və təbiətin universal qanunu olduğunu qeyd etmişdir. Məhəbbət insan üçün ən ali və ilkin qanundur. İnsanların birgə yaşayış qaydalarını ilahiləşdirən Feyerbax qadın-kişi məhəbbətinə nigaha da dini məna verirdi.

Ailə problemi müasir dövürdə çox elmlər o cümlədən sosiologoya tərəfindən öyrənilir. Ən çox öyrənilmiş sahələr ailənin reproduktiv funksiyası, qadının peşə fəaliyyəti və ictimai vəzifələri, ailə uşaqların tərbiyə olunması, valideynlər və uşaqların münasibətləridir. Ailə bütün fəaliyyət sahələrində həm ictimai həm də fərdi funksiyaları yerinə yetirir. Ailənin funksiyaları tarixi kateqoriyalardır, ənənəvi və müasir xarakter daşıyır. Məsələn, müasir Azərbaycan ailəsinin nikah mərasimlərində və bəzi yerlərdə gəlinin ovcuna düyü bağlanıb yola salınması, gəlin oğlan həyətinə daxil olduqda bəyin ona tərəf üç alma atması, üzəçıxdı mərasimindən sonra duvağının barlı ağacın budağının üstünə qoyulması, gəlinin qucağına oğlan uşağının oturdulması və b. misal göstərmək olar". Azərbaycanda yeni qurulmuş ailədə və ümumiyyətlə, qadının uşağı olmaması problemi də əksər hallarda dini təfəkkürlə izah edilməkdədir. Belə ki, "Qadının uşaqının olmamasının səbəbi iki cür izah olunurdu: ya qadın (gəlinə) "çillə düşmüşdür", ya da Allah yanında günahkardır". Əlbəttə, ailədəki bu sonsuzluq probleminin ikinci halında qadınla bərabər kişilər də günahkar hesab edilsə də, "...xalqın inamına görə qadına çillə ölüdən, diri adamdan, heyvandan, axar sudan, köklü ağacdan, qayadan, yeddi yol ayrıcından və s. düşə bilər". Odur ki, məsələn, "Ordubad rayonunda həmzad və çillədən uşaqsız qadınlar mollada "göbək duası" yazdırır və onu həmişə özləri ilə gəzdirirdilər". Çillənin götürülməsinin, "kəsilməsi"nin bəzi üsullarına gəldikdə isə, Q.Qeybullayev qeyd edir ki, "gəlinə çillə düşsə qoyun kəsib ciyərini isti halda tənzifə bükür, üç adamdan biri onu gəlinin örpəyinin üstündə (başında) tutur, ikincisi suyu ciyərin üstündən axıdır, üçüncüsü isə tökülən suyu qayçılayırdı". Bu üsulla çillənin bir sıra heyvanlarla və bitki ilə, məsələn, göyərdilmiş səməni otu ilə kəsmək qaydası da vardır. Bir növ bu cür müalicəvi magiyanın mərkəzində duran su ilə əlaqədar ayinlər isə, suyun " - təmizləyici, yuyub aparıcı..., həm də axmaq xüsusiyyətinə malik" olması ilə bağlıdır (2, s.120).

Bununla yanaşı, ailə - məişətdə magiyanın təqlidi tipi ilə də qarşılaşmaq olar ki, bunun "mahiyyətini "şey özünə oxşarını yaradır" prinsipi təşkil edir". Təqlidi magiyaya misal olaraq, "məsələn, uşaqsız qadının uşaqlı qadının döş südündən içməsi və s." göstərmək olar. Bu cür müalicəvi magiyaya başqa bir misal kimi, ailə-məişət ayinlərimizdə yer almış, məsələn, "ananın döş südü olmadıqda və ya azlıq etdikdə boynundan "süd daşı" adlanan süd rəngli muncuq asıl"ması kimi kökü fetişizmə gedib çıxan ənənələri də sadalamaq yerinə düşərdi. Heç də təsadüfi deyildir ki, özündə magiyanın icrasını və pirlərə sitayiş adətlərini əks etdirən bir çox ayinlər bir yerdə toplana bilir. Məsələn, Bakının mərkəzi olan İçərişəhərdə xalqın nəzir deyib, yemək payladıqları "Süd quyusu" adlı su quyusu məhz bu inanclardan irəli gələrək müqəddəsləşdirilmişdi.

Bütövlükdə, Azərbaycan ailəsində dindarlığın yüksək olması, milli-mənəvi dəyərlərə və ənənələrə sadiq qalmalarını xüsusi qeyd etmək lazımdır. Dindarlıq dini təsəvvürlər və fəaliyyətlərdə baş verən proseslər və tendensiyalarla yanaşı, dinin bir fərdə və ya qrupa təsir dərəcəsidir. Tarixən Azərbaycanda əhalinin dindarlıq səviyyəsi həmişə yüksək olmuşdur. Sovet dövründə dinə və dini ayinlərin həyata keçirilməsi əleyhinə təqiblər nəticəsində dindarlıq kəskin şəkildə azaldı. Kommunistlərin, alimlərin, müəllim və ziyalıların, həmçinin gənclərin (pionerlər və Komsomol üzvləri) iman gətirmələri qadağan olunmuşdu. Əhalinin mömin bir hissəsinin dindarlığı gizli və qeyri-müəyyən bir xarakter daşıyırdı. Lakin buna baxmayaraq dini adət-ənənələr, onların ayinlərinin yerinə yetirilməsi və s. amillər ailə mühitində nəsildən-nəslə ötürülmüşdür (3, s.235).

Ailənin əsasını nikah təşkil edir. Nikah ər ilə arvad arasındakı münasibətləri və onların qarşılıqlı öhdılıklərini hüquqi yolla rəsmləşdirən müqavilədir. Nikah sevgiyə və inama arxalandıqda daha möhkəm olur. Vaxtıilə hegel deyirdi ki, iki müxtəlif cinsin nümayəndəsi arasında nigah adlanan əlaqə sadəcə olaraq təbii heyvani əlaqə və hətta mülki müqavilə də deyildir. O hər şeydən əvvəl ər ilə arvadın ikisini bir şəxsə çevirərək qarşılıqlı sevgi və inam əsasında yaranan mənəvi ittifaqdır. Nikahın emosional-psixoloji, mənəvi və estetik dayaqları sevgi münasibətləridir. Lakin nəzərdə tutulmalıdır ki bəzən nigah sevgidən kənarda və sevgi isə nigahdan kənarda ola bilir. Arximed deyirdi ki, sevgi elə bir teoremdir ki, onun hər gün sübut olunmağa ehtiyacı vardır.

Sevgi cismani yaxınlıqdan daha çox mənəvi emosional ülfətə ehtiyacdan törəyir. O şəxsiyyətin formalaşmasına, özünüreallaşdıra bilməsinə və yaradıcı imkanlarının üzə çıxarılmasına güclü təsir göstərir. Sevginin mənəvi estetik əsasları bunda ifadə olunur ki, insan özünə digər cinsdən yoldaş tapır, bu isə onun həyat enerjisinin artmasina, uzun-müddətli sevinc hissinin möhkəmlənməsinə müsbət təsir edir.

Ümumiyyətlə, ənənə halını almış adətlərin nəticəsi olaraq çağdaş zəmanəmizdə belə azərbaycanlı ailəsinin mənəvi həyatında və məişətdə pirlərə inamın mühüm yer tutduğunu görə bilərik. Hətta, Q.Qeybullayevin də vurğuladığı kimi, Musa Kalankatlının “Alban tarixi”ndə deyilir ki, albanlarda övladı olmayan qadınların pirlərə getməsi və (pirlərdən) uşaq xahiş etməsi adəti” mövcud olmuşdur. Elə günümüzdə də ailə münasibətlərinə qədəm qoymağa hazırlaşan gəlin və bəy toy ərəfəsində pirlərə gedir, uşaqsızlıq və müxtəlif xəstəliklər vaxtı ziyarətgahlara nəzir deyərək qurban kəsdirirlər. Bəzi tədqiqatçılar bu ziyarətlərdə qadınlardan bəhs edərkən vurğulayırlar ki, “keçmişdə pirlərə müəyyən ənənəvi səcdə qaydası vardı və bu qayda üç ünsürdən ibarət idi: qadın əvvəlcə pirin qarşısında ayaq üstə əlləri sinəsinə çarpaz vəziyyətdə durub yalvarır, sonra əyilərək piri öpür, daha sonra torpağından bir çimdik götürüb suya salıb içirdi” (4, 152 s.).

Bu baxımdan Azərbaycan ailəsindəki “qadın dindarlığı ibtidai icma dinləri ilə bağlı ayin, ovsun və mərasimlərin icra olunmasında xüsusilə özünü göstərirdi”. Başqa bir tərəfdən də, “bu mənəvi sərvətin qorunub saxlanılmasının əsas şərti qadınların zahının və çağanın sağ qalması, xəstələnmiş uşaqların sağaldılması üçün külli miqdarda türkəçarə və ayinlərin, müqəddəs yerlərə siayişlə əlaqədar bir sıra adətlərin icra etmələri idi” (5, s.87-103).

Ümumiyyətlə, azərbaycanlı qadınlar içərisində ənənəvi olaraq cadunun qüvvəsinə inamın çox güclü olması hətta, “kişinin və qadının ailədə dava-dalaş salması onların “qəlbinə şeytan girməsi” ilə izah olunurdu”. Odur ki, ailəyə yaxın insanlar tərəfindən adətən dini adət və ənənələrə əl atılaraq “...araları soyumuş ər və arvadı...barışdırmaq üçün cadugərə “dua-cadu” (dua – şirni, şirni duası) yazdırırdılar”. Çox vaxt ailədə ər-arvad münasibətlərinə soyuqluq gətirən amillərdən biri də elə buna bənzər fəaliyyətin nəticəsi kimi, “...qadınla kişi arasında gərgin münasibətləri düşmənçilik məqsədilə ikisindən birinin paltarına qurd yağı sürtülməsində görürdülər” (6, 300 s.) .

Azərbaycan ailəsinin və məişət tarixinə diqqət edərkən görürük ki, məsələn, “...albanlarda qohumdan evlənmə qaydası geniş yayılmışdı, lakin IV əsrdən Albaniyada qərarlaşmış xristian dini belə nikaha qarşı çıxmışdı”. Kilsə tərəfindən təşfiq edilən ekzoqam nikahlarda isə ailə başçısı vəfat etdikdə onlara məxsus torpaq sahəsinin kilsə əmlakına çevrilmə ehtimalı artırdı. Odur ki, Alban kilsəsinin addımlarını məhz iqtisadi baxımdan izah edərkən Q.Qeybullayev, dul qalmış qardaşı arvadına evlənməyin qadağan olunduğu Aluen qanunnaməsinin 10-cu bəndinin də bu məqsəd güddüyünü iddia etmişdir. “Alban tarixi”nin müəllifi Musa Kalankatlının məlumatlarından o da “aydın olur ki, albanlarda xristian dininə qulluq etməyənlərlə nikah yasaq” olmuşdu. Amma xalqımıza aid bayatılardan da göründüyü kimi, bəzi hallarda başqa dindən olan insanlar da bir-birini sevir və qarşıya çıxan maneələrə görə giley-güzar etmişlər (7, 240 s.).

Dini şüurun mövcudluğu müəyyən dini düşüncələrin və dəyərlərin, eləcə də müəyyən bir dinə və dini qruplara aid olmaqla təzahür olunur. Dini şüur insanın həyatında müxtəlif dövrlərdə və müxtəlif şərtlərlə formalaşa bilər. Bu, bir insanın dini münasibətlərin sisteminə daxil edilməsi və dini fikirlərin, dəyərlərin və emosional normaların qəbulu ilə baş verir.

Beləliklə, dini şüur daha çox ailə mühitində, bununla yanaşı dindar ailədə tərbiyənin verilməsi kimi, ətrafdakıların, eləcə də dini rəhbərlərin və təbliğçilərin təsiri altında formalaşır.

## NƏTİCƏ

Beləliklə, Azərbaycan ailə - məişətində ibtidai təsəvvür və inanclar sinkretik bir şəkildə təzahür etdiyindən onların hər birinin ayrı-ayrılıqda, saf bir şəkildə müşahidə etmək qeyri-mümkündür. Azərbaycan ailə məişətində dini şüurun necə inkişaf etdiyini əyaniləşdirən ən gözəl nümunələrdən biri kimi, fövqəltəbii qüvvələrin ovsunlanması və onlardan muhafizə olunma metodlarının tarixən inkişaf etdirildiyini göstərmək olar.

## ƏDƏBİYYAT SİYAHISI

1. Qeybullayev Q. Azərbaycanlılarda ailə və nikah (XIX əsr və XX əsrin əvvəlləri). I hissə, B., Elm, 1994, 440 s.
2. Qədirzadə N.Q. Ailə və məişətlə bağlı adətlər, inamlar, etnogenetik əlaqələr. B., Elm, 2003, 120 s.
3. Əliyev R.Y. İslamda ailə və nikah münasibətləri. İrşad İAM, 1999, 235 s.
4. Eminov A. Şərq ailəsinin sirrləri. B., Sabah, 1992, 152 s.
5. Rüstəmov R. Din, genetika və ictimai irsiyyət baxımından qadın-kişi münasibətləri. Dövlət və din, iyul-avqust, 2011, 4 (24), s.87-103.
6. Mövsümova L.C. Azərbaycan qadını uzaq keçmişdən indiyədək. B., Ulu, 2002, 300 s.
7. Алиева Я.Н. Тенденции изменения социальной структуры Азербайджанской общества и их отражение на семейных отношениях. Диссертация на соискание ученый степени кандидата социологических наук. Б., 2006, 240 с.

# БЛАГОТВОРИТЕЛЬНОСТЬ В АЗЕРБАЙДЖАНЕ КАК ОБЩЕСТВЕННАЯ ДЕЯТЕЛЬНОСТЬ

**Фарида Багирова**
Научный сотрудник института философии и социологии НАНА
faridabaqirova@ yahoo.com

**Açar sözlər:** xeyriyyəçilik, kömək, təqaüdlər, təşkilat, həmkarlar ittifaqı

Məqalədə Azərbaycandakı xeyriyyə təşkilatlarının fəaliyyəti təhlil olunur. Bildirilir ki, tarixən ölkəmizdə belə təşkilatlar olub. Onların bəziləri qadınlara kömək etmək məqsədilə yaranıb. 44 günlük müharibə və pandemiya dövründə xeyriyyə təşkilatları öz fəaliyyətlərində xüsusilə fərqləndilər. Ehtiyacı olan insanlara yaşlılara, qadınlara, qazilərə, şəhid ailələlərinə, uşaqlara, aztəminatlı ailələrə, qaçqınlara yardımlar edildi, onlara maddi və mənəvi köməklik göstərildi.

В начале 20 века, с появлением в Азербайджане были заложены основы благотворительных традиций, где большую роль сыграло появление буржуазии. Азербайджанские меценаты строили школы, гимназии, больницы, театры, отправляли молодежь учиться за границу. Для большинства меценатов XVIII–XIX вв. благотворительность стала практически образом жизни, известно, что многие крупные промышленники и банкиры происходили из беднейших слоев населения. При этом благотворительная деятельность наиболее крупных и известных меценатов отличалась большим профессионализмом и именно поэтому принесла столь значительные результаты для азербайджанской культуры. Принципиально важно то, что меценаты не только поддерживали деятелей культуры и искусства, но и заботились о том, чтобы культурные ценности были доступны широким слоям общества. Осуществлялась благотворительная деятельность по учреждению новых школ и училищ, выделялись субсидии на стипендии студентам, финансировались фонды в помощь учащимся. Важно лишь то, что именно благодаря их щедрости, истинному патриотизму на рубеже XIX–XX вв. произошел настоящий расцвет национальной культуры.

Национальная буржуазия проделала не малую работу для развития страны вспомним, например, о деятельности таких меценатов, как Зейналабдин Тагиев, Муртуза Мухтаров, Шамси Асадуллаев, Муса Нагиев, Гасан бека Зардаби и.т.д.. Помимо упомянутых выше нефтяных магнатов, их жены также занимались как общественной деятельностью, так и благотворительностью. Большую роль на деятельность женщин - активисток в стране оказали великие события, революции и конечно то, что Баку стал городом нефтяного бума, который и дал толчок началу женского движения. Азербайджанские аристократки, тратили много сил и средств воспитанию юных азербайджанских девушек, борорлись за демократические свободы.

Отметим что, первая женская организация была созданна в 1908 году благодаря жене азербайджанского общественного деятеля Гасан бека Зардаби - Ханифе Меликовой. Благотворительница организовывала женские консультации в деревнях, несмотря на гонения и преследования, приобщала людей к знаниям, науке. Ханифа ханум сыграла большую роль в судьбах азербайджанских женщин. Она была одной из основательниц известного женского благотворительного общества «Ниджат», вошла в историю как основательница первой в Баку школы для девочек. Ханифа ханум защищала права женщин-мусульманок, боролась против их эксплуатации в обществе, стремилась поднять их интеллектуальный уровень. Выросшая в аристократической семье, никогда не встречавшая в жизни проблем Ханифа-ханум вынуждена была преодолевать тяжелые испытания на пути просвещения своего народа. Наряду с обучением детей в собственной квартире, ходила по домам для того, чтобы обучать женщин грамоте, письму и шитью, в то же время Ханифа-ханум переводила с русского языка на азербайджанский сказки и рассказывала их детям, делала им прививки. После открытия в Баку школы для девочек-мусульманок, Ханифа ханум взяла на себя роль директора женской школы, не боясь угроз со стороны духовенства, стала матерью для девочек.

Особенно хочется вспомнить Сону ханум жену Г.З.Тагиева в которой он нашёл чуткую и верную спутницу, помогавшую ему во всех благотворительных начинаниях. В течение многих лет она была неземенимым педагогом Александрийского женского русско-мусульманского педагогического училища для девочек - мусульманок, основанной Г.З.Тагиевым в 1901 году. Одновременно Сона ханум Тагиева также попечительствовала над старейшей школой для девочек - Бакинским учебным заведением Святой Нины. Много известно также о помощи сиротам, раненым воинам и благотворительных вечерах и обедах, акциях милосердия и, которые устраивала Сону ханум. Блистая очаровательной улыбкой, она выходила к гостям в окружении

девочек с подносами разноцветных ленточек, которые хозяйка дома вручала гостям. В ответ гости клали на поднос внушительные суммы денег, в результате собирались огромные пожертвования на образование детей из бедных семей, на больницы и приюты. Вокруг Соны ханум собирались самые известные женщины того времени, которые вносили свои личные деньги в благотворительные акции, организовывали сборы пожертвований. За активную благотворительную деятельность 1908-м году Сона-ханум была удостоена медали «За усердие». В 1917 году приход новой власти для семьи Тагиевых, как и для многих других, обернулся страшной трагедией. В результате после смерти бакинского мецената семья осталась без средств к существованию, подверглась преследованиям и гонениям. До сих пор многие Люди старшего возраста вспоминают о раздавленной горем и отчаянием женщине, часто появлявшейся на улицах Баку в 20-е – 30-е годы,

Отметим что, до наших дней дошли исторические документы с планом участка земли площадью около 2,5 гектара в поселке Гала, который подарил Мусульманскому Дамскому благотворительному обществу в 1914 году Муртуза Мухтаров. В данное общество вошли такие педагоги - просветительницы, как Рахиля ханум Казиева, Сара ханум Везирова, Пери ханум Топчибашева, Исмет ханум Ашурбекова и многие другие великосветские дамы. На этом участке Муртуза Мухтаровым были также возведены два сиротских дома. К сожалению, этому обществу так и не суждено было осуществить все свои начинания до конца: страшной трагедией для всех его членов обернулись апрельские события 1920 года. Не вытерпев хамства красноармейцев, Муртуза Мухтаров покончил с собой.

Говоря о бакинских благодетельницах, нельзя обойти вниманием Исмет ханум Ашурбекову - Султанову, жену известного промышленника, мецената Балабека Ашурбекова. Переехав после свадьбы в 1904 году в Баку, Исмет ханум близко сходится с Соной ханум Тагиевой и Лизой ханум Мухтаровой. Вместе своими маленькими дочерями она оказывала большую помощь Г.З.Тагиеву и Соне ханум в организации благотворительных вечеров. Мать шестерых детей, она находила время для благотворительной и просветительской деятельности, являясь одним из наиболее активных членов Мусульманского Дамского благотворительного общества. В доме Ашурбековых находили помощь и поддержку многие бедные студенты, в особенности тифлисские мусульмане. Вместе с тем Исмет ханум прекрасно владела персидским, немецким и французским языками.

Опираясь на вышеизложенное отметим, что за короткий период наши благородные дамы сделали так много, что будущие поколения еще будут вспоминать о них с большой благодарностьюс к сожалению, их деятельность широко не изучена.

Азербайджанский народ, внесший большой вклад в мировую цивилизацию, по праву гордится своими сынами и дочерями, занявшими достойное место в плеяде выдающихся деятелей. Сохранение и пропаганда присущих азербайджанскому народу традиций, благодаря деятельности таких личностей, во все времена представляет особую актуальность. Оценив роль женщин в жизни страны сегодня, Президент Ильхам Алиев отметил: «Уверен, что азербайджанская женщина, полностью понимающая свою ответственность перед обществом, и впредь будет вносить большой вклад в прогресс нашей независимой республики» ( см.3 Меценатство, основанное на толерантности // Азербайджанский конгресс : ежене дельная общественно-политическая газета. 2013. Вып. 39. 1 нояб.).

Сегодня Первый вице - президент Азербайджанской Республики, президент Фонда Гейдара Алиева, посол доброй воли ЮНЕСКО и ИСЕСКО Мехрибан Алиева выполняет образцовую работу по реализации социальных, научно - образовательных и культурных проектов не только в Азербайджане, но и во многих странах Европы. Ее

деятельностью и опытом пользуются многие первые леди многих стран. Фонд Гейдара Алиева, уделяет постоянное внимание таким социальным проблемам общества как: строительство и реконструкции ряда школ, детских садов и детских домов, строительство новых здравоохранительных учреждений, создание лечебно - диагностических, реабилитационных центров, лечение больных сахарным диабетом и талассемией, проведение акций сдачи крови и др. В этом смысле Фонд Гейдара Алиева играет исключительную роль в азербайджанском обществе. За истекшие годы Фонд Гейдара Алиева продемонстрировал свою роль в общественной жизни Азербайджана, заявив о себе как об организации, где планируются и реализуются: широкомасштабные проекты и программы; подготовка и реализация программ и проектов в сферах науки и образования, культуры и спорта, экологии; решение социальных проблем, а также выявление творческого потенциала граждан. За свою благотворительную деятельность глава Фонда Мехрибан ханым Алиева удостоена множества международных наград и почетных званий.

Благотворительность, милосердие являются наилучшими качествами, присущими менталитету, традициям азербайджанского народа. Успешное продолжение этих традиций Фондом Гейдара Алиева является неоценимым фактом. Необходимо также признать, потенциальную благотворительную деятельность Лейлы Алиевой – внучки Г.Алиева, проявление ее человеческих качеств, для которой благотворительность стала одним из самых главных приоритетов деятельности и естественным состоянием. Лейлу Алиеву можно часто увидеть на благотворительных мероприятиях для детей, лишенных родительской опеки, из семей беженцев и вынужденных переселенцев, обитателей детских домов куда она всегда приходит со своими детьми.

Еще одним благородным делом Лейлы Алиевой стало создание Азербайджанского молодежного объединения России (АМОР) – это первая молодежная организация, которая своими благотворительными проектами сразу же привлекла к себе внимание. АМОР в первую очередь, объединила проживающих в Росси азербайджанскую молодежь, т.е., интелектуалов, патриотов, стремившихся к новшевствам. Сегодня АМОР серьезная организация, способная решать серьезные задачи. Например, на счету у организации гуманитарная акция «У крови нет нации!», по оказанию безвозмездной помощи молодыми людьми пациентам российских больниц, нуждающихся в переливании крови, или же акция «Убедись, что ты здоров, скажи болезни нет!» помогает нашим соотечественникам и россиянам пройти бесплатное обследование в российских клиниках. Активисты АМОР, также посещают детские дома, устраивают праздники, ремонтируют, детские сады, создают парки, спортивные площадки. На сегодняшний день АМОР - самая активная молодежная организация за пределами Азербайджана. Напомним, что признанием заслуг АМОР и его лидера стало награждение Лейлы Алиевой в прошлом году российской медалью Пушкина за большой вклад в укрепление дружбы и сотрудничества с Российской Федерацией, развитие экономических связей, сохранение и популяризацию русского языка и культуры за рубежом.

Описывая благотворительной деятельность в современном Азербайджане, важно подчеркнуть роль фонда «Red Hearts» занимающийся благотворительной деятельностью и оказывающий моральную и финансовую поддержку тысячам наших соотечественников. Напомним, что недавно фонд провел мероприятие под назвнием «Onlar bizə əmanətdir» («Позаботимся о детях шехидов»), где почти 1634 ребенка до 16 лет, потерявшие своих отцов во время Второй Карабахской войны, получили праздничные подарки. Следует отметить, что Red Hearts был основан в декабре 2019 года по инициативе сотрудников Kapital Bank. Организация, которая в настоящее время

осуществляет свою деятельность как благотворительный фонд, главным образом оказывает помощь детским домам, приютам и нуждающимся людям.

Сегодня каждый знает не понаслышке, что новогодняя ярмарка «Холодные руки, горячее сердце» является одним из крупнейших благотворительных проектов не только в Азербайджане, но и во всём регионе. Проект, который давно называют «зимней сказкой Баку» ежегодно успешно реализуется Фондом «Nargis» с 2013 года. Это одна из самых зрелищных новогодних ярмарок в СНГ, где каждый год десятки тяжело – больных детей из разных уголков Азербайджана, обретают здоровье благодаря средствам, собранным на этой ярмарке.

Фонд Nargis был учрежден в 2012 году главным редактором журнала Nargis Ульвией Махмудовой. В 2016 году Фонд официально зарегистрирован в Минюсте. Главная цель Фонда – помощь социально незащищенным людям, в первую очередь детям, имеющим серьезные заболевания, такие как врожденная сердечная недостаточность, талассемия, лейкоз, рак, почечная недостаточность и др. За годы своей деятельности Фонд помог сотням детей из всех районов республики. Несмотря на трудности в период пандеии, Фонд Nargis не останавливал своей работы, лишь за 2020 – 2021 годы Фондом было организовано лечение свыше 50 детей и раздача нуждающимся продуктовых наборов. Только за весну 2020 года продукты питания были доставлены 400 семьям по всей стране, а в период 44-дневной Отечественной войны Фонд оказывал помощь солдатам и их семьям, организовывал гуманитарные акции для жителей Барды и Тертера, которые пострадали от армянской агрессии и понесли существенные материальные потери. Совместно с посольством Турции, в мае 2019 года Фондом был запущен проект «Объединяя Девичьи башни», в рамках которого на Площади фонтанов всем желающим предлагался ифтар.

В заключении хотелось бы напомнить и про деятельность председателя профсоюза института философии и социологии НАНА Ахмедовой Аси Хумаяг кызы. Председатель профсоюза НАНА Ахмедова Ася Хумаяг кызы с 2005 года работает в Институте философии и социологии. Отличаясь своей научной деятельностью, Ахмедова также известна своей активностью в общественных делах. После избрания председателем она привлеко большое внимания профсоюза к своей работе. В результате эффективной работы в этой области, в 2020 году Свободный профсоюз НАНА наградил ее Почетным указом «За эффективную научную деятельность и общественные услуги», а в 2021 году КПСА наградил ее медалью «Азербайджанский профсоюз 115» за службу в профсоюзной конфедерации.

Тем временем, особое место в общественной деятельности А.Ахмедовой, проживающей в качестве вынужденного переселенца с 17 лет, занимает внимание и забота о семьях шехидов. Она часто организовывает встречи с семьями шехидов на различных мероприятиях. Наряду с научной и общественной деятельностью А.Ахмедова также увлекается публицистикой и поэзией. Невозможно не впечатлиться, читая патриотические стихи и литературно-публицистические статьи этой поэтичной дамы.

Отметим что, на сегодняшний день в нашей стране действуют многие благотворительные организации, такие как: Благотворительное общество «Кура-Хазар», Общественный фонд Азербайджанской Республики «Здоровье», Гуманитарный детский фонд «Бута», Благотворительное общество «Семья солдата», Благотворительное общественное объединение поддержки инвалидов, Гянджинский детский фонд, Общественное объединение помощи женщинам и сиротам «Гюлюстан», Общественное объединение социальных исследований «Гюзаран», Благотворительное общественное объединение «Шонгар», Благотворительное общественное объединение им. Шамси Асадуллаева, Центр гуманитарной и социальной поддержки «Умид-98»,

Общественное объединение «Забота о вынужденных переселенцах «Юрд», Общественное объединение «Помощь социальному развитию «Йукселиш», благотворительные центры «Женщины за милосердие», «Сэнсиз», «Гунеш» и др.

**Список литературы:**


1. Бендрикова А.Ю. Благотворительная деятельность в Забайкалье: специфика, тенденции развития : автореф. дис. … канд. социол. наук. Барнаул, 2004.
2. Талыбова С.Г. Культурно-просветительская и благотворительная деятельность азербайджанской буржуазии (конец XIX – начало XX века) : дис. … канд. истор. наук. Баку, 1994. С. 202.
3. Меценатство, основанное на толерантности // Азербайджанский конгресс : ежене дельная общественно-политическая газета. 2013. Вып. 39. 1 нояб.
4. Аслан Асланов. Бакинский рабочий.-2016.- 1 июля.- С.2.-3


# GEYİMLƏRİN SİMVOLİK FƏLSƏFƏSİ


**Şəhla Abdullayeva**
Azərbaycan Dövlət İqtisad Universitetinin müəllimi
shaxlaabdullayeva1964@gmail.com



**Açar sözlər:** geyim, dəb,işarə, dəyər, simvolika, mədəniyyət, don, köynək


Müasir dövrün xarakterindən irəli gələn sürətli dəyişmə, inteqrasiya, qloballaşma və s. kimi gerçəklik kontekstində Azərbaycan geyim mədəniyyətinə baxdığımız zaman milli ruh, milli əxlaq, milli-mənəvi dəyərlərin əsas kütləsini təşkil edən elementlərin bu prosesdən zərər görməməsi üçün ilk növbədə onların qorunması haqqında düşünmək lazım gəlir. Azərbaycan gənclərinin ənənəvi mədəniyyətə bağlılığını təmin etmək və ya onların bu dəyərləri itirməsinə mane olmaq üçün cəmiyyətimizin sosial-fəlsəfi və əxlaqi-etik aspektdən öyrənilməsinə, mövcud etik-fəlsəfi proseslərin əsas təmayüllərinin, cərəyan və istiqamətlərinin müəyyənləşdirilməsinə ciddi ehtiyac vardır. Ənənəvi geyim mədəniyyətinin öyrənilməsi, onun rəmzlərinin və funksiyalarının müəyyənləşdirilməsi etnik başlanğıca, milli köklərə qayıtmağın əsas vasitələrindən biridir. Geyimlər üzərindəki rəmzlərdən aydın olur ki, hələ yaxın keçmişdə, XX əsrdə bir çox mərasim (toy, bayram, müxtəlif kollektiv şənliklər) geyimlərində ənənəvi elementlər müşahidə olunmuşdur.

Geyimlərin simvolik funksiyaları ilə məşğul olan, onları tədqiqata cəlb edən ilk müəlliflərdən biri P.Q. Boqatırev olmuşdur. Onun yanaşması xarakteri etibarilə funksional yanaşmadır və əsasən aşağıdakıları əhatə edir:

“-hər bir predmet təcrübi və işarəvi məqsəd daşıyır;

-predmetlərin işarəvi tərəfi funksiyalarda (sosial, yaş, magik, dini, mərasim, şənlik, bayram, gündəlik, peşəkar, estetik) özünü göstərir;

-hər bir predmet sözlü, milli və dini mənsubiyyət funksiyalarına malik olur;

-hər bir predmet birdən çox funksiya daşıyır;

-hər bir predmetin funksiyası zamanla əlaqəli olaraq dəyişə bilər (magik funksiya estetik fuksiyaya (və ya əksinə) qarışır) və predmetin başqa işarəvi hadisələrlə (iqtisadiyyat, mədəniyyət) əlaqəli olması da ona öz təsirini göstərir” (Богатырев, 1971:52)

Beləliklə, mərasim geyimlərinin maksimum dərəcədə simvolik funksiyaları qoruduğu məlum olur. Geyimin hər bir ünsürü müəyyən bir vəzifəni yerinə yetirməklə yanaşı insanın praktik hərəkət sistemi ilə bağlı olur. Məsələn, uşağın dünyaya gəlməsi müəyyən ritual formaları ilə qeyd olunur, çünki uşaq marginal məkanda yerləşdirilməlidir. Bu zaman o təbitət dünyasından (bioloji kod) mədəniyyət dünyasına (mədəni kod) keçmiş olur. Yeni doğulan uşaq geyim mədəniyyətində öz geyim dünyasına daxil olur. Bizim milli geyim

mədəniyyətində uşaqların (bəbələrin) bələnməsinin müxtəlif variantları vardır. Buraya bələklər, bələk bağları, altlıq, ip, köynək və s. daxildir.Bununla yanaşı bələmənin özündə də regional və lokal xüsusiyyətlər müşahidə olunur.

Həddi buluğa çatana qədər istifadə olunan geyimlərdə işarələrin sayı artır, geyim kompleksinin strukturunda ritual ciddi rol oynayır və bu dəyişmələr öz simvolik əksini geyim nümunələrinin formasında və onun rəmzlərində tapır. Beləliklə, geyimlərin sayı artır və onların simvolik elementləri çoxalır. Burada bəzək və rəng semantikasının xüsusi yeri vardır. Bəzək elementləri isə bu simvolik sistemə əlavə rənglər daxil edir. Geyimlərin həm sayca, həm də bəzək baxımından zənginləşməsi prosesi toya qədər davam edir və bundan sonra azalmağa başlayır. Bu xüsusiyyət müxtəlif geyimlərdə öz izlərini uzun müddət saxlamışdır. Bunlar daha çox baş geyimlərində, üst geyimlərinin bəzəklərindəki rəng simvolikasında öz əksini tapır. Belə ki, uşaqların, yeniyetmə və gənclərin geyimlərinin rəngləri ilə yaşlıların geyimlərinin rəngində və ornamentlərində müəyyən fərqlər nəzərə çarpır. Uşaqların geyimləri çox rəngli, gənclərin geyimləri nisbətən az rəngli, yaşlıların geyimləri isə daha çox monorəngli olur. Bu birrəngli geyimə milli ənənədə "saya" deyilir. Saya birrəngli geyimdir. Məsələn, tamamilə qara rəngdə geyinmək, boz, qəhvəyi və s. tünd rənglərdə geyinmək yaşlı insanlar üçün həm ədəbi, həm də dəbi özündə birləşdirir. Saya monoton bir geyimdir, xüsusi rəng çalarları və simvollardan uzaqdır. Amma saya geyimin özü də ənənəvi geyim formalarına əsaslanır və güclü şəkildə ənənəyə bağlanır. Burada, təbii ki, mərasim geyiminin rolu olduqca böyükdür.

Orta əsr Azərbaycan geyim mədəniyyətində İslamın ciddi təsiri ilə bir sıra dəyişikliklər baş verir. Xüsusilə, geyim "bu dünya" ilə "o dünya" arasında körpü rolunu oynamağa başlayır. İnsanlar hər iki dünya üçün ortaq olan geyimlərdən istifadə edirlər. Bu həm baş geyiminə, həm də üst geyiminə aiddir. Belə ki, başa dolanan əmmamə (kişi geyimlərində) həm də hər bir situasiyada ölümə hazırlığın rəmzi olaraq həm geyim, həm də kəfən kimi istifadə olunurdu. Ölümü unutmamaq, dünyanın faniliyini yaddan çıxarmamaq üçün əbədi dünyanın geyimini müvəqqəti dünyada həmişəlik olaraq ən yüksək yerdə, başın üstündə gəzdirirdilər. Belə yanaşma insanlarda "o dünya" inancını gücləndirir və imanın kamilləşməsinə xidmət edirdi(Əliyev, 2011:89).

Eyni zamanda ağ geyim, ağ xalat, ağ əba, ağa bürünmə və ya sarınma şəklində olan geyimlər də fəlsəfi baxımdan ağ əmmamə ilə eyni dünyagörüşü, düşüncəni və davranışı əks etdirirdi. Bu yolla islam əxlaqı və iman geyim mədəniyyəti üzərində hakim olur və onu öz prinsiplərinə uyğun şəkildə tənzimləyə bilirdi. Orta əsr fəlsəfəsini əsərlərində aydın şəkildə əks etdirən Məhəmməd Füzuli "ağ geyim" haqqında ("Pənbeyi daği cünun içrə nihandır bədənim"-dəlilik səbəbindən dağlanmış bədənimə qoyulan pambıqlarla bədənim tamamən örtülmüşdür) ilahi eşq kontekstində "Diri olduqca libasım budur, ölsəm kəfənim" deyirdi. Burada geyimlə kəfənin eyniləşdirilməsi geyimdə rəmzləşən vəhdət fəlsəfəsini əks etdirir.

İslam öncəsi bizim ənənəvi geyim mədəniyyətində rəng və bəzək rəmzlərindən geniş istifadə olunub. Eyni zamanda "o dünya"ya yola salınanda da geyimlər, bəzək əşyaları və s. də ölən insanla birlikdə dəfn edilib. Xüsusilə, sərdabə tipli məzarlarda bu adətlərin olduğu arxeoloji tədqiqatlarla təsdiqlənir. Bu tipli, "geyim-keçimli" "o dünya"ya yola salma ənənəsi də əslində əski inanclarda möhkəm şəkildə qorunan "o dünya" inancından irəli gəlirdi. Geyim-keçimin, bəzəklərin, zəruri əşyaların və atın ölən adamla birlikdə "o dünya"ya yola salınması özündə bu əşyaların ölən adama "o dünya"da lazım olacağı haqqındakı təsəvvürlərlə bağlı idi. İslam öncəsində "o dünya" inancının olduğunu, insanların "o dünya"da da yaşamağa davam etmələrinə inanması açıq şəkildə görünür. "O dünya"ya yola salınan adamın yanındakı zəruri əşyalar və geyimlər İslam öncəsi inanclarında da fərqli bir şəkildə iman elementlərinin olduğunu göstərir. Xristianlarda "o dünya"ya yola salma zamanı geyimlərdən istifadə olunması ənənəsi indi də mövcuddur. Hətta bunun üçün xüsusi "ölü geyimləri" də vardır. "Ölü geyimləri"nin də özünəməxsus dəbi və qayda-qanunları

mövcuddur. Bu “diri geyimləri”ndən daha çox mühafizəkar bir dəbi özündə ehtiva edir. Müsəlmanlar ağ əmmamə və ağ əba geyərək ölüm paltarını hər zaman hazır saxladıqları kimi, xristianlarda da eyni funksiya daşıyan “ölüm köynəyi”ndən istifadə olunmuşdur. “Ölüm köynəyi” üçün çox zaman “toy köynəyi” ömür boyu qorunmuş və ölüm günü üçün saxlanmışdır. “Kitabi-Dədə Qorqud”da rast gəldiyimiz Beyrəyin qanlı köynəyi motivi köynəyin ritual funksiyası ilə bağlıdır.

Ənənəvi geyim özündə rəng simvolikası və ya rəng kodu ilə yanaşı ictimai kodu da ehtiva edir. İctimai kod vasitəsilə geyimdə mədəniyyət tipləri, müxtəlif dövrlərin ənənələri, adətləri, əxlaq və ədəbi, müxtəlif etnoslarla təmasları və əlbəttə ki, dövrün dəbləri haqqında məlumat ötürülür. Ənənəvi geyim mədəniyyətində yaş, cins, etnik mənsubiyyət, yaşayış yeri, sosial status, peşə və s. haqqında da məlumat daşınır. Əlimizdə olan hər hansı bir geyim nümunəsi əslində sosial kod olaraq deşifrə edilə bilir və bu zaman biz o geyimi geyən fərd haqqında bir sıra məlumatlara malik oluruq. Hər bir geyimdə konkret fərdin əxlaqi-mənəvi dəyərlərlə əlaqəsi də öz əksini tapır. Ənənəvi geyim mədəniyyəti xarakteri etibarilə özündə ən əski çağlardan gələn xüsusiyyətləri bu və ya başqa şəkildə qoruyur, utilitar və işarəvi səciyyə daşıyır, yəni həm praktik, həm də simvolik tələbləri yerinə yetirir. Əlbəttə, hər bir geyim ilk növbədə fiziki məqsədə xidmət edir, insanı soyuqdan və istidən qoruyur, təbiətin sərt şərtlərinə qarşı insanın müqavimətini artırır, digər tərəfdən isə, insanın mənəvi dünyası ilə bağlı olur, onun rəmzi ifadəsi rolunda çıxış edir. İstər fiziki, istərsə də rəmzi mənada olsun, bütün hallarda paltar insanı qorumağa xidmət edir. Bəlkə rəmzlərin, bəzəklərin, ornamental funksiya daşıyan elementlərin qoruma qabiliyyəti açıq şəkildə görünməyə bilər. Amma insanların inanc dünyasında rəmzlərin qoruma qabiliyyətinə inam daha yüksəkdir, çünki fiziki qorumanın imkanları tükənəndə də rəmzlərlə ifadə olunan magik, mistik və ya ilahi qoruma öz funksional imkanlarını saxlayır(Əliyev, 2011:78)

Azərbaycan geyim mədəniyyəti tarixində ən əski geyim formalarından biri köynəkdir. Köynəyin arxaik ritualda xüsusi bir mövqeyi olduğu da görünür. Çünki hazırda da “köynəkdən keçirmək” övladlığa götürmək, doğmalıq mənası ifadə edir. Bu mənada köynəyin xüsusi bir sakrallaşdırıcı funksiyasının olduğunu düşünə bilərik. Arxaik ritualdan gələn bu magik mənşəli element sonrakı dövrlərdə də doğmalaşma mənasında istifadə olunub. İslam dövründə də köynək özünün arxaik ritual funksiyasını tamamilə itirməyib və ənənəvi mədəniyyətin digər hadisələrinə transformasiya olunub. Sünnət mərasimi zamanı da uşaqlara köynək və ya don geyindirilir. Bunun situasiya ilə əlaqədar olaraq fiziki funksiyası aydın görünürsə, onun ənənəvi mədəniyyətdə transformasiya olunan magik funksiyası arxada qalır, lakin tamamilə yox olmamışdır. Uşağa atasının, böyük qardaşının köynəyi və ya bacısının donu geyindirilir. Bu ailə üzvləri arasında doğmalığı qorumağa və gücləndirməyə göstərilən magik ritual dəstəyinin qalığıdır.

Bir sıra mərasimlərdə magik qüvvənin köynəyin qolundan və ya yaxasından bədənə daxil olması və adamı möhkəmləndirməsinə və uğurla təmin etməsinə inam olmuşdur.

Müasir dövrdə də toy öncəsi mərasimlərdən biri “paltar kəsdi” və ya “paltar biçdi” adlanır. Bu mərasimdə gəlin üçün paltarlar hazırlanır və gəlin paltarı bəzəklərlə təmin edilir. İndi bu adət artıq şəhərlərdə müşahidə olunmur, buna daha çox özündə mühafizəkar xüsusiyyətləri qoruyan ucqar dağ kəndlərində rast gəlmək olar.

Paltarın ənənəvi mədəniyyətdə funksiyaları geniş və müxtəlifdir. Geyim üzərinə tikilmiş müxtəlif bəzəklər təkcə ornamental funksiya daşımır, eyni zamanda magik funksiyanı da yerinə yetirir. Məsələn, uşaq paltarlarına tikilmiş müxəlif bəzəklərin mənşəyi magik səciyyə daşıyır. Bu cür elementlər uşaqları bəd ruhlardan və ya gözdəyməsindən (nəzərdən) qoruyur. Uşaq ana köynəyinə büründüyü zaman o nəzərdən uzaq olur. Bəzən paltarların üzərinə gül rəmzləri tikilir. Bu bir tərəfdən mərasim geyimlərinin dəbdəbəliyini artırır, digər tərəfdən də rəmzi bir funksiya daşıyır. Bu baxımdan geyimlərin özlərinin və onların üzərindəki bəzəklərin rənglərinin də mənaları vardır və onlar kodlaşmış məlumat daşıyıcılarıdır. Məlumdur ki, ağ

rəng daha çox ölümü simvolizə edir. Çünki ölünü bizim ənənəvi mədəniyyətdə ağ rəngli kəfəndə "o dünya"ya yola salırlar. Qadınlarda müəyyən bir dövr üçün qırmızı rəng xarakterik sayılır. Lakin yaşlı qadınlarda bu rəng geyim etik sayılmır. Toy mərasimlərində qırmızı rəng üstünlük təşkil edir və sevgi simvolu kimi səciyyələnir. Eyni zamanda qırmızı rəngin magik qoruyucu funksiyası da vardır. Gəlin ata evindən köçən zaman onun paltarlarının üstündəki qırmızı bəzəklər onu bəd ruhlardan, şər qüvvələrdən və nəzərdən qoruyur. Eyni zamanda ənənəvi geyimlər insan haqqında geniş məlumat təqdim edə bilir: "Adamı geyiminə görə qarşılayıb, ağlına görə yola salırlar". Geyimə görə adamın kim və nəçi olduğu, hansı bölgəni təmsil etdiyi, ailə vəziyyəti, cinsi, yaşı və statusu haqqında təsəvvür əldə etmək mümkündür. Geyimin üzərindəki ənənəvi ornamentlərə görə heç tanış olmayan adamlar belə bir-biriləri haqqında, yaşı, ailə vəziyyəti və s. haqqında təsəvvür əldə etmək mümkündür. Belə xarakterizə edilir ki, geyim bəşəriyyətin tarixini danışa bilər. Geyimlərin üzərindəki bir çox elementlər bəşəriyyətin uşaqlıq dövründən qalan arxaik ritualdan qaynaqlanır və bəd ruhlardan qorumaq məqsədinə xidmət edir. Keçən əsrə qədər bir çox ənənəvi geyimlər və ya onların üzərindəki ornamental elementlər qalırdı. Bu elementlər qədim dövrün yadigarları kimi daha çox özündə mühafizəkarlığı əks etdirən müxtəlif xalq mərasimlərində yaşayır. Arxaik ritualdan gələn bəzi elementlər ritualın transformasiyası ilə birlikdə müasir dövrə qədər gəlib çıxıb, bəziləri isə öz ilkin mənalarını itirərək arxaikləşib.

Ənənəvi mədəniyyətdə, o cümlədən folklorda geyimlərin simvolik fuknsiyaları ilə bağlı Muxtar Kazımoğlunun, Sabirə Dünyamalıyevanın, Kamran Əliyevin, Ağaverdi Xəlilovun tədqiqatlarında dəyərli təhlillər aparılmış, rəmzlərin altında duran mənalar aydınlaşdırılmışdır.Tədqiqatçıların ənənəvi geyimləri öyrənmək üçün çox müraciət etdikləri Orta əsr qaynaqlarından biri də "Kitabi-Dədə Qorqud"dur. Burada təqdim edilən obrazların geyimləri Orta əsrlər dövrünün Azərbaycan geyimləridir. Belə obrazlardan biri olan "Beyrək sosial münasibətlər sistemində olduğu kimi geyimi ilə də fərqlənən obrazdır. Bu xüsusiyyəti müşahidə edən K.Əliyev belə qənaətə gəlir ki,"Beyrəyi digər obrazlardan fərqləndirən və diqqətdən heç vaxt yayınmayan cəhətlərdən biri onun geyimi ilə bağlıdır" (Əliyev, 2011:86)

Bu fikri davam etdirən A. Xəlilə görə "geyim təkcə fiziki və ya sosial əhəmiyyətə malik deyil, o, eyni zamanda ritual-mifoloji funksiya daşıyıcısıdır.Yəni geyimin fiziki, sosial və ritual mənaları vardır. Bu mənalar iki əsas istiqamətdə şərh oluna bilir:

1.Sosial məna, yəni gerçək məna.

2.Mifoloji məna, yəni simvolik məna"(Xəlil,2006:65)

Tədqiqatlardan əldə edilən qənatə görə fərqli status yaradan əsas geyim vahidi "niqab"dır. Üzün hər hansı geyim vasitəsilə örtülməsi üzü örtülən adamı adilikdən çıxarır. "Çünki niqab xüsusi semantikası olan işarədir və onun ayrılıqda təhlilinə ehtiyac vardır. Kitabi-Dədə Qorqudda 4 niqablı obraz müəyyənləşdirir: "Beyrəyin, Qanturalının, Qaraçəkirin və oğlu Qırxqınıqın üzərində niqab vardır. Niqab sadalanan qəhrəmanlardan başqa heç kimdə müşahidə edilmədiyinə görə bu geyimin əlahiddə və əlamətdar bir funksiya daşıdığı kifayət qədər bəllidir". Niqabın mübarək simalara aid olduğunu bilirik. Burada niqab müqəddəsliyi qoruyan vasitə rolunda çıxış edir. Bu niqabın mənalarından yalnız biridir. Ritual mənasına görə niqab ritual personajının vəzifəsi ilə əlaqəlidir. Ola bilər ki, niqab gizlinliyin, tanınmamağın işarəsi olsun. Beyrəyin börü(qurd) totem fratriyasında mövqeyini göstərən bir maskadan da söhbət gedə bilər. Ola bilər ki, Beyrəyin üzündəki niqab qurd maskası olsun. Çünki Oğuzlara görə "qurd üzü mübarəkdir". Bu qurd maskası onu qurdlaşdırır və onu börü toteminin özünə çevirir. Əslində Beyrək elə qurddur, "börük"dür, qurdabənzərdir. Bu onun həm totem mənsubiyyətinin, həm də totem klanındakı mövqeyinin göstəricisidir. Çünki o qurd boyunun (klanın) bayı (patronu) Baybörənin oğludur. Totem klanının növbəti başçısı da odur. Ona görə o, niqabla gəzir ki, statusunu sosiallaşdırsın " (Xəlil,2006:65)

Orta əsrlərə aid yazılı abidələrdə rast gəldiyimiz geyimlərdən biri də dəmir dondur. Donun, ümumiyyətlə, paltar mənasını ifadə etdiyini bilirik. Zaman keçdikcə don xüsusiləşmiş

və konkret bir geyim növünü bildirmişdir. Kitabi-Dədə Qorqudun əsas obrazlarından biri olan Beyrəyin geyimlərindən biri onun dəmir donudur."Şübhəsiz ki, "Dədə Qorqud" eposu qəhrəmanlıq səciyyəsi daşıdığına görə burada əsas geyim növü dəmir dondur və mətndə çox vaxt igidləri də dəmir donlu igid adlandırırlar. Dəmir don döyüş üçün lazım olan bir geyim formasıdır və müasir anlamda "bronojileti" xatırladır"(Əliyev, 2011:87)

Eposda dəmir donun işləndiyi situasiyaları diqqətlə araşdırdıqdan sonra belə qənaət əldə edilmişdir ki, "eposda birmənalı olaraq igidlər, yaxud bir-biri ilə döyüşən tərəflərin təmsilçiləri döyüş əhval-ruhiyyəsinə uyğun şəkildə həmişə dəmir donlu olmuşlar. Belə bir geyim forması bir tərəfdən vuruşlarda iştirak edən igidlər üçün tam səciyyəvidir, digər tərəfdən isə qəhrəmanlıq eposunun poetikasına tam uyğundur" (Əliyev, 2011:88)

Donun geyim mənası ifadə etdiyini yuxarıda bildirmişdik. Maraqlıdır ki**,** eposda müşahidə edilən geyim formalarından biri sarı dondur. Sarı rəng ilk növbədə Günəşi simvolizə edir, sevinc, xoşbəxtlik mənalarını ifadə edir. K.Əliyev geyimin bu növünü izah edərək yazır: "Mətndə "Sarı donlu Selcan xatın" ifadəsinə gəldikdə isə bu, tamamilə başqa bir məsələdir. Belə ki, "Qanlı Qoca oğlu Qanturalı boyu"nda "Gözəllərin başı Sarı donlu Selcan xanım"dan danışılır. Şübhəsiz, burada hər hansı hərbi geyimdən yox, sarı rəngli qadın paltarından bəhs olunur. Yəni "sarı don" döyüş geyimi forması deyil. Ona görə ki, mətndə Selcan xanımın döyüşə hazırlığından danışılarkən aydınca söylənir: Qanturalının atını gizlicə yəhərlədi. Özü də altdan yaraqlanıb, üstdən geyindi. Süngüsünü əlinə aldı, bir yüksək yerə çıxıb gözlədi" (Kitabi-Dədə Qorqud,1988:188).

Artıq bu nümunədəki "altdan yaraqlanıb, üstdən geyindi" ifadəsi birbaşa dəmir dona işarədir. Amma sarı don isə onun mərasim geyimidir. Eyni zamanda sarı rəngli donun o zaman qadın geyimlərində bir dəb olduğunu da düşünə bilərik. Çünki bir tərəfdən bu rəng xüsusi bir simvolik mənaya malikdir; bu onun ritual mənasıdır, ikincisi isə, sarı rəngin estetik baxımdan da gözəl görünüşü təmin edə bilməsidir. Rəmzi olaraq təbiət kultları ilə, inanc elementləri ilə geyimlərin əlaqəsi onu geyən adamlarda mənəvi dəyərlərə bağlılıq yaradır. Bu da başqa deyilişlə, modanın mənəvi dəyərlərin genezisində iştirakının göstərici kimi səciyyələndirilə bilər.

**İstifadə olunmuş ədəbiyyat**

Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, - 1988.
Əliyev, K. Eposun poetikası: "Dədə Qorqud" və "Koroğlu"- Bakı, 2011
Xəlil, A. Əski türk savlarının semiotikası / A.Xəlil. – Bakı: Səda, - 2006
Богатырев, П.Г. Вопросы теории народного искусства /-Москва, - 1971

## AZƏRBAYCANIN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN VƏTƏN MÜHARİBƏSİNDƏ ROLU

**Səbirə İsgəndərova**
Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, f.ü.f.d., dosent
sebireiskender@gmail.com
**Yeganə Bağırova**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, elmi işçi
yeganebaqirova@ yahoo.com

**Açar sözləri:** qlobal, modelləşdirmə, media, sosial, informasiya

Müasir dünya münaqişələrlə və qarşıdurmalarla doludur. Qlobal problemlər dedikdə, adətən, ətraf mühitin çirklənməsi, demoqrafik partlayış, yoxsulluğ, millətçilik, dini fanatizm, mədəniyyətin tənəzzülü, kütləvi informasiya vasitələrinin kommersiyalaşdırılması və bu kimi

hallar başa düşülür. Müharibələrin xronologiyasının öyrənilməsi sübut edir ki, hərbi incəsənətin inkişafı yeni texniki vasitələrin və rabitə texnologiyalarının kəşfi ilə sıx bağlıdır. İnformasiya-kommunikasiya vasitələri bəşəriyyətin bütün tarixi boyunca inkişaf etmişdir. Bu proses müasir dövrdə də özünü göstərir və kütləvi kommunikasiyanın yeni səviyyələrinin tətbiqinə zəmin yaradır.

KİV-in cəmiyyətlə münasibətlərinin modelləşdirilməsi ilə bağlı elmi diskussiyalarda sistemlərarası qarşılıqlı əlaqə əsas problem kimi göstərilir (struktur nəzəriyyəsi) (Гидденс, 2005: 24). Məlumdur ki, bu münasibətlər müstəqil şəkildə fəaliyyət göstərmir, çünki reaksiyalardan ibarət olan qaydaların alt sistemindən asılıdır. Müasir plüralist cəmiyyətlərdə KİV-in fəaliyyəti reallığın sosial məsuliyyətli modelləri ilə bağlı mövzuları təqdim etməkdən başlayır (*Вайшенберг*, 2004:65) .

Dini dayaqların, mənəvi dəyərlərin məhv edilməsi, informasiyalaşdırma təzyiqi altında "ənənəvi mədəniyyətlər" arasında sosial ziddiyyətlərin kəskinləşməsi terrorizm problemini aktuallaşdırır. Təsadüfi deyil ki, terrorizmin mənəvi ölçüsü bəşəriyyətin mövcudluğu üçün ümumi qaydaya çevrilir. Qeyd edək ki, neoliberal qloballaşma terrorizmin siyasi-ideoloji, bioloji, etnomədəni, dini, iqtisadi və informasiya formalarının meydana gəlməsini də şərtləndirir.

Bəzi müəlliflər böhranı təkamül inkişafının adi hal kimi dəyərləndirirlər (Бауман, 2004: 142). Bütün dünyada neqativ hadisələrin informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin təsiri altında yayıldığını nəzərə alsaq, bu gün qlobal problemlərin həlli üçün effektiv alətlərin aşkar etməsi vacib sayılır. Burada da qeyd etdiyimiz kimi, cəmiyyətin mənəvi seçiminə böyük diqqət yetirilir. Yəni, qlobal və lokal hadisələri bütün bəşəriyyətin maraqları naminə dərk etmək və istiqamətləndirmək qabiliyyətinə görə məsuliyyət daşıyan mənəvi-əxlaqi təcrübə mühüm əhəmiyyətə malikdir.

Müharibə və onun məqsədləri haqqında ictimai rəy müasir müharibənin ekzistensial qaynağıdır.Aydındır ki, hazırda ictimai rəyin dəstəyi olmadan müharibə aparıla bilməz. Buna görə də, kütləvi informasiya vasitələrində hərbi əməliyyatların işıqlandırılmasına nəzarətin həyata keçirilməsi müharibəyə münasibətin formalaşmasına kömək edir [Chaliand, 1992:52]. Bununla yanaşı, KİV reallığı anlamağa və dəyişməyə qadir olan vətəndaşların məlumatlandırılmasına görə məsuliyyət daşıyır.

Təbii ki, müəyyən məzmunu seçərkən, media hansı problemin ictimai və prioritet mövzu olacağını müəyyən edə bilər. Cəmiyyətin seçiminə təsir göstərən KİV-lər hansı məsələlərin daha vacib və sosial əhəmiyyətli hesab edilməli olduğunu göstərirlər. Bəzi hallarda KİV-lər təxribat siyasəti aparmaqla, düşmənçilik və dözümsüzlük alətinə çevrilirlər. Məsələn, on illər ərzində Ermənistanın media sektoru Azərbaycan xalqına qarşı nifrəti qızışdırmağa, ölkəmizə qarşı hərbi əməliyyatlara haqq qazandırmağa yönəlmiş subyektiv xəbər kontenti formalaşdırırdı.

Müharibə və silahlı münaqişələrin kütləvi informasiya vasitələrin köməyi ilə işıqlandırılması problemi sosial elmlər nümayəndələrinin araşdırmalarında da öz əksini tapır. Məlumdur ki, media münaqişələrdə əhəmiyyətli dərəcədə rol oynayır, çünki o, müharibənin işıqlandırılması və qanuniləşdirilməsi üçün istifadə etdikləri vasitələrin bir elementidir. Təqdim olunan plan işində biz silahlı münaqişə və müharibələr haqqında məlumatın yalnız KİV-in xüsusiyyətləri ilə deyil, həm də hərbi vəziyyətlərdə mövcud olan konkret amillərlə müəyyən edildiyini qeyd edirik.

Kütləvi informasiya vasitələrinin müharibələrdəki rolunu təhlil edərək qeyd etmək istərdik ki, müharibə şəraitində kütləvi informasiya vasitələrinin müdafiə etdiyi "obyektivlik" və "bitərəflik" hərbi məqsəd və prioritetlərlə heç də həmişə uyğun gəlmir. Belə ki, kütləvi informasiya vasitələrinin məqsədi cəmiyyəti məlumatlandırmaqdırsa, ordunun məqsədi ən az itki ilə müharibə qazanmaqdır.

Hər hansı bir müharibə düşmənin qarşısını almaq üçün kifayət qədər təsirli ola biləcək hərbi və psixoloji əməliyyatlar vasitəsilə aparılır. Psixoloji silah ümumi hərbi strategiyanın mühüm bir hissəsidir. Psixoloji silahların təyinatı düşmənin qarşısını almaqda, döyüş ruhunun sarsılmasında, öz qoşunlarının döyüş ruhunun möhkəmləndirilməsində ifadə olunur. Qədim dövrlərdən etibarən hərbi strateqlər daha az xərclə hərbi qələbələrin təmin edilməsi üçün psixoloji prosedurların üstünlüyünü göstərirdilər. Ancaq mətbuatın sənayeləşməsi ordunu psixoloji silah konsepsiyasını dəyişməyə vadar etdi. Yəni mətbuatın kütləvi istehsalı, yayılması və istehlakı siyasətçiləri və hərbçiləri kommunikasiya strategiyalarına yenidən baxmağa məcbur etdi.

Qeyd etmək lazımdır ki, Fransa inqilabından sonra "vətəndaş" və "ictimai rəy"kimi anlayışlar aktuallığı ilə ölçülür. Belə ki, ictimai rəyə arxalanmaq hərbi sahəyə cavabdeh olan hakimiyyət qurumları üçün həyati əhəmiyyət kəsb edir.

Zamanla yeni kütləvi informasiya vasitələri siyasətçilərə və hərbçilərə vətəndaşların kütləvi məlumatlandırılması və inandırılması üçün geniş imkanlar açmışdır. Lakin informasiyaya nəzarət kontekstində bu yeni imkanlar bir sıra problemlər yaratmışdır. Bu səbəbdən, XIX əsrin ortalarından, yəni kütləvi informasiya və kommunikasiya vasitələrinin və mətbuat agentliklərinin ortaya çıxmasından bəri, hakimiyyət strukturları cəmiyyət və mətbuatla ünsiyyət formalarını uyğunlaşdırmağa çalışırlar.

Tarixdən bildiyimiz kimi, Birinci Dünya müharibəsi hərbçilərə psixoloji müharibənin yeni üsullarını tətbiq etməyə imkan verdi. Belə ki, o zaman ingilis ordusu hərbi rabitənin peşəkarlıq səviyyəsinin artırılmasının zəruriliyini dərk edərək ilk İnformasiya Nazirliyi və təbliğat Departamenti yaratmışdır (Шалианд, 1992:42).O zamandan bəri müharibələr dövlətlərə informasiya idarəçiliyinin yeni üsullarını tətbiq etməyə kömək edirlər.“Hərbi müxbirlər yarandığı vaxtdan bəri bütün münaqişələrin işıqlandırılmasında dəyişikliklər baş vermişdir: alt senzura mətbuatının köməyi ilə bütün millətin səfərbər edilməsi (Birinci Dünya müharibəsi); radio və televiziyadan kütləvi təbliğat və səfərbərlik vasitəsi kimi istifadə edilməsi (İkinci Dünya müharibəsi); daha mobil çəkiliş avadanlığı və hərbi əməliyyatlar zonasına göndərilən beynəlxalq jurnalistlərin sayının artması (Vyetnam müharibəsi); canlı peyk rabitəsi və SNN fasiləsiz xəbər yayımı proqramının meydana gəlməsi (1991-ci ildə Fars körfəzində müharibə); kütləvi informasiya vasitələrinin qloballaşması...(Əfqanıstan, İraq). Bütün bunlar ictimaiyyət tərəfindən müharibədə baş verən hadisələrin və bəzi müharibə aktlarının qanuniliyinin qəbul edilməsinə fəal təsir göstərir” (Мерсье, 2005: 66-67).

Kütləvi informasiya vasitələrində qeyd olunan hallar qarşılıqlı fəaliyyətin yeni modelinin formalaşmasını şərtləndirdi. “Texnologiyaların KİV-ə təsiri kontekstində, Fars körfəzindəki müharibə...peyk texnologiyası sayəsində real vaxt rejimində hadisələrin faktiki olaraq dayanmadan işıqlandırılmasının nümunəsi idi. Canlı yayım televiziya xəbərlərini daha sıx yaşamağa imkan verir. Tamaşaçı döyüşün ortasında real vaxtda cərəyan edən həyat hadisələrini müşahidə edir, lakin bu, ...ona kənardan baş verənləri daha miqyaslı və real qəbul etməyə mane olur” ( Мерсье, 2005:69).

Qarşılıqlı fəaliyyətin müasir modeli daha çox bu iki sosial sistemin mürəkkəbliyini və qarşılıqlı təsirini nəzərə almalı idi. Çoxsaylı empirik nəticələr səbəbindən bu model xüsusilə əhəmiyyətli görünür və daha ətraflı aşağıda nəzərdən keçiriləcəkdir.

44 günlük Vətən müharibəsi zamanı azərbaycan xalqı, demək olar ki, bütün mühüm hadisələr haqqında informasiyanı kütləvi informasiya vasitələrindən əldə edirdi.Cari vəziyyət haqqında məlumatlar hərbi əməliyyatlar zonasından reportajlarda, xəbər proqramlarında, gündəlik və həftəlik qəzetlərdə öz əksini tapırdı. Bununla yanaşı, bu tarixi dövrdə vətəndaşların sosial şəbəkələrdə yaydıqları məlumatlar da böyük maraq doğururdu.

Diqqətə yetirək ki, ictimai rəyin formalaşması aşağıdakı mərhələlərdən keçir: informasiyaya çıxış, şəxsi fikrin formalaşması, şəxsi fikirlərin mübadiləsi, şəxsi fikirlərin

sintezi, ən aktual fikirlərin ifadə edilməsi. Bu da o deməkdir ki, hər bir mərhələ üzrə yeni media ictimai rəyin formalaşmasında və ifadəsində misilsiz rol oynayır.

Fikrimizcə, ənənəvi KİV və sosial şəbəkələrdən səmərəli istifadə müharibə dövründə milli maraqların qorunması baxımından xüsusilə vacibdir. Təsadüfi deyil ki, 44 günlük Vətən Müharibəsi zamanı kütləvi informasiya vasitələri ilə cəmiyyət arasında qarşılıqlı əlaqə özünü daha aydın və qabarıq şəkildə göstərib.

İşğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarının Mühəndis Qoşunları tərəfindən minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi işləri media nümayəndələrinə praktiki nümayiş etdirilib. Jurnalistlər, həmçinin Azərbaycan Ordusunun silahlanmasına yeni qəbul edilən müasir mühəndis texnikasının fəaliyyətini səhra şəraitində izləyiblər.

Media-tur çərçivəsində jurnalistlər Ağdam rayonunda yeni quraşdırılan modul tipli hərbi hissələrdə yaradılan məişət şəraiti ilə də tanış olublar. Bundan əlavə, bu rayonun ərazisində yerləşən Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin açılış mərasimində də KİV nümayəndələri iştirak ediblər.

Hesabat dövründə nazirliyin feysbuk səhifəsində 1087, instaqram səhifəsində 1087, teleqram səhifəsində 1082 məlumat paylaşılıb, tvitter səhifəsində isə 1087 tvit yerləşdirilib. Müdafiə Nazirliyinin yutub kanalına ümumilikdə 410 video yüklənib.

Yekun olaraq qeyd etmək lazımdır ki, plan işində KİV-lə cəmiyyətin qarşılıqlı əlaqəsi hər iki tərəfin bir-birini şərtləndirdiyi və təsir göstərdiyi sosial sistem kimi təhlil edilir. Belə ki, hərbi şəraitdə KİV-lə cəmiyyət arasında nisbət iki sistem arasında qarşılıqlı təsir və qarşılıqlı asılılığın mürəkkəb nisbəti kimi başa düşülür.

Müharibə şəraitində cəmiyyət öz məqsədlərinin böyük bir hissəsinə yalnız media sektoru vasitəsilə nail ola bilər. Əksinə, KİV-in fəaliyyəti cəmiyyətin qarşılıqlı fəaliyyətə hazır olmasından asılıdır. Buna əsaslanaraq demək olar ki, hər bir tərəf digər tərəfin üstünlüklərini təmin etməklə, səmərəli və effektiv əməkdaşlıq standartlarının formalaşmasına zəmin yaradır.

Beləliklə, media cəmiyyət ilə dövlət strukturları arasında vasitəçiliyi öz üzərinə götürməklə ictimai proseslərə əhəmiyyətli dərəcədə təsir göstərib. Müharibə zamanı cəmiyyətin media ilə qarşılıqlı əlaqəsi bütün cəmiyyətin səfərbər olmasını şərtləndirib.

## Ədəbiyyat


Chaliand G. La persuasion de masse – Guerre psychologique, guerre mediatique, Robert Laffont, Paris, 1992

https://ted.az/az/view/news/34160/mudafie-nazirliyi-resmi-internet-sehifesinde-ve-sosial-shebeke-hesablarinda-paylashilan-melumatlarin-statistikasini-achiqlayib

Бауман З. Глобализация. Последствия для человека иобщества. М.:«Весь Мир».2004,188 с.

*Вайшенберг* З.Новостная журналистика: Учебное пособие / За ред. В. Ф. Иванова. К.: Академия Украинской прессы, 2004. 262 с.

Гидденс Э.Социология.М.:Эдиториал УРСС, 2005, 632 с.

Мерсье А. Война и средства массовой информации: постоянные и переменные величины.Международный журнал Красного Креста,декабрь 2005 г, т.87 № 860.

Niyazov X. Dövlət informasiya siyasəti (KİV timsalında).Bakı: "Time Print" MMC., 2016. 324 s.

https://azerbaijan.az/information/604

https://azerbaijan.az/information/604

https://president.az/articles/1373/print

http://anl.az/down/meqale/azerbaycan/2011/may/174008.htm

Шалианд Г.Убеждение массой. Guerre Psyologique, Guerre mediatique. Париж: Изд.: Роберта Лаффона, 1992.

# ERMƏNİ QƏSBKARLARI TƏRƏFİNDƏN XARABALIĞA ÇEVRİLƏN QARABAĞ (VƏTƏN MÜHARİBƏSİ KONTEKSTİNDƏ)

**Firuzə Əliyeva**
Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
e-mail – firuzaeko@gmail.com
**İlhamə Hüseynova**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, elmi işçi
ilhamahuseynova@ yahoo.com

**Açar sözlər:** Qarabağ, işğal, müharibə, azad, mədəni, dini, tarixi

Qarabağ Azərbaycanın qədim tarixi diyarıdır. 30 il ərzində vəhşi bir tayfa oıan ermənilər tərəfindən işğala məruz qalmışdır. Qarabağ torpağı Azərbaycanın qədim mədəniyyət mərkəzidir. Bu torpaqda mənəvi dəyərlərimiz olan – Xan Şuşinski, Üzeyir Hacıbəyov, Xurşidbanu Natavan, dahi tar ustası Sadıqcan, Bülbül və başqa şair, yazıçı və bəstəkarlar yaşayıb yaratmışlar. 30 il ərzində erməni vəhşiləri bu diyarı talan etmişlər. Lakin Ali Baş Komandanımızın əmri ilə 2020-ci ildə Vətən müharibəsi başlandı. Əsgər və zabitlərimizin qanı bahasına Qarabağ torpaqları erməni qəsbkarlarından 44gün ərzində azad olundu.

1. Qarabağ Kiçik Qafqazın cənub-şərq hissəsində yerləşir. Azərbaycanın tarixi-coğrafi və etnik-mədəni regionlarından olan Qarabağın ərazisi şimalda Kür çayından başlayaraq cənubda Kiçik Qafqaz dağlarına, şimal-şərqdə Araz çayına, qərbdə Göyçə gölündən və Dərələyəzdən, şərqdə Qarabağ düzünə qədərki geniş ərazini əhatə edir. Coğrafi cəhətdən Qarabağ ərazisi 1923-1991-ci illərdə mövcud olmuş inzibati vahidin – Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisindən bir neçə dəfə böyükdür (Dağlıq Qarabağın öz ərazisi 4400 kvadrat kilometrdir (Azərbaycan Respublikasının Dövlət Arxivi (ARDA), f.894, iş 148,10).

Bildiyimiz kimi 1920-ci ilin əvvəllərində bolşeviklər tərəfindən Ermənistana peşkəş edilmiş Zəngəzur bölgəsi Qarabağ vilayətinin bir hissəsini onun qərbini təşkil edir. Zəngin yeraltı və yerüstü su ehtiyatlarına malik Qarabağ diyarında ölkənin su ehtiyatlarının 18% toplanmışdır. Azərbaycandakı 9 iqlim qurşağından 6-sı Dağlıq Qarabağdan keçir. Qarabağ öz relyef, iqlim və eləcə də torpaq tiplərinin zənginliyi ilə də fərqlənir. Bu diyarın şərq hissəsində, düzən ərazilərdə boz-qəhvəyi, şimal-qərbdə və cənub-şərqdə dağ-qəhvəyi, yüksək dağlarda isə qəhvəyi dağ meşə və dağ qaratorpaq torpaqlar vardır. Bitki örtüyü də müxtəlifdir. 114 min hektar ərazini meşələr, 57 min hektarını kolluqlar tutur. Qarabağın meşələrində palıd, fıstıq, cökə, vələs, çinar və s. ağacları, qoz, alma, armud, albalı və s. kimi meyvə meşələri olmuşdur. Bəzi ağacların yaşı 150-200 ilə hündürlüyü 25-30 metrə çatır. Lakin təəssüflər olsun ki, erməni vandalları 30 il ərzində bütün bunları yerlə-yeksan etmişdir. Talançılar nadir ağacları kökündən kəsərək xarici ölkələrə satmışlar.

Zəngin faydalı qazıntı yataqları ilə fərqlənən Qarabağda Mezozoy və Kaynozoy geoloji eralarına aid əhəngdaşı, gil yataqları geniş yayılmışdır. Tərtər, Xançay çayları arasında Mehman Dərə yatağında qalay, mis, sink, gips, əhəng çıxarılırdı. Hadrut rayonunda mərmər yataqları mövcuddur. Dağlarda xromit, qurğuşun, polumetal filizi tikinti materialları, sement,

odadavamlı kərpic, təbaşir istehsalı üçün zəruri olan digər təbii materiallar mövcuddur. Ağdərə rayonunun Dovşanlı kəndi yaxınlığında oyma və üyündücü daş yatağı yerləşir. Şuşa şəhərində yerləşən Turşsu mineral hidrokarbonat mənbəyi bir çox xəstəliklərin müalicəsində istifadə olunduğundan çox populyar idi. Burada, həmçinin müxtəlif tərkibli 11 bulaq növünə aid 120 mineral su mənbəyi kəşf edilmişdir. (Мамедов, 2007:42). Təəssüflər olsun ki, 30 il ərzində erməni qəsbkarları bu yerlərin ekologiyasını, flora, faunasını vəhşicəsinə məhv etmişdirlər. Qarabağın ərazisi e.ə.IV əsrdən – eramızın VIII əsrin əvvəllərindən, Azərbaycan Alban dövlətinin, VIII-XII əsrlərdə Sacilər, Salarilər, Rəvvadilər, dövlətlərinin, Səlcuq imperiyasının və Azərbaycan Atabəylər (Eldənizlər) dövlətinin, XIII-XV əsrlərdə Elxanilər (Hülakülər), Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin, 1501-1736-cı illərdə Azərbaycan Səfəvilər dövlətinin, 1748-1821-ci illərdə isə Qarabağ xanlığının tərkibində olmuşdur.

Qarabağ xanlığı çar Rusiyası tərəfindən işğal edildikdən sonra Qarabağ özünün ilkin inzibati-siyasi mahiyyətini itirərək Yelizavetpol quberniyasının tərkibində 4 qəzaya – Şuşa, Zəngəzur, Cəbrayıl, Cavanşir qəzalarına bölünmüşdü. Qarabağın yuxarı dağlıq ərazilərinə iddialı olan erməni daşnaklarının rəhbərləri rəsmi sənədlərdə bu ərazini "Dağlıq Qarabağ" adlandıraraq münaqişənin əsasını qoydular. Bolşevik Sovet hakimiyyətinin xəyanəti nəticəsində 1923-cü il iyulun 7-də ermənilərə muxtariyyat hüququ verilərək – Dağlıq Qarabağ Muxtar Vilayəti yarandı. Bu illərdən etibarən Qarabağda erməni milliyətçiləri fəallaşaraq Qarabağdan bütün azərbaycanlıları qovaraq etnik-siyasi üstünlük qazanmağa başladılar. 1992-ci ilin fevralında erməni silahlı qüvvələri Rusiyanın köməyi ilə Xocalı şəhərini ələ keçirərək, əhaliyə qarşı tarixdə görünməmiş qəddarlıq etdilər. Xocalı soyqırımında 613 nəfər öldürülmüş 421 nəfər yaralanmış, 1275 nəfər əsir götürülmüşdü. (Xocalı 1992, 2014:43).

Beləliklə, erməni vəhşiləri Qarabağ və onun ətraf rayonlarını tamamilə dağıtmışdırlar. İşğal edilmiş ərazilərdə Azərbaycanın tarixi-mədəniyyət abidələrinə qarşı erməni terrorçuları vəhşilik edərək onları özününküləşdirməyə çalışmışdılar. Belə ki, onlar Alban dövrü xristian dini abidələrini erməniləşdirilərək özününküləşdirmiş, alban mədəniyyətinin izlərini itirmək üçün "bərpa" işləri adı altında alban memarlığının özünəməxsus xüsusiyyətlərini məhv etmişlər.

Bildiyimiz kimi müasir Qarabağ ərazisi tarixi Azərbaycan Albaniya dövlətinin ərazisi olmuş, burada alban memarlığının bir çox nümunələri mövcud olmuşdur. Azərbaycan ərəblər tərəfindən istila edildikdən sonra Qafqaz Albaniyası əhalisinin əksəriyyəti islamı qəbul etsə də Qarabağın dağlıq hissəsində xristianlıq öz mövcudluğunu qoruyub saxlamışdı. Azərbaycanda islamın monteist dinlərə dözümlü münasibəti özünü həm də qeyri-müsəlman abidələrə münasibətdə özünü göstərirdi. Buna görə də Azərbaycanda islam dini abidələri ilə yanaşı alban xristian məbədlərinin tikintisi də davam edirdi. 705-ci ildə xəlifənin Alban Apostal kilsəsinin erməni Qriqorian kilsəsinə tabe etdirilməsi haqqında fərmandan sonra Qarabağın dağlıq hissəsində xristian albanların etnik simalarının itirməsi, konfessional ermənilərin təşəkkül tapması prosesi gücləndi. (Бuниянков, 1999:27).

Rus qafqazşünası V.Veliçko bu haqda yazırdı ki, Qarabağın erməni-qriqorian təriqətinə etiqad edən sakinlərini erməni adlandırmaq düzgün deyildir. NMənşəcə onlar dağlı və türk tayfalarından əmələ gəlmişlər və yalnız 3-4 əsr bundan əvvəl erməniləşdiriblər (Величко, 1904:154). Sonralar Xilafətin Qafqazda hökmranlığının zəifləməsi nəticəsində VIII əsrin sonu IX əsrin əvvəllərində Alban kilsəsi yenidən öz müstəqilliyini bərpa etmişdir.

Xəzərlərin şimaldan hücumları nəticəsində ərəblər Qafqazı tərk etməli olmuş və beləliklə də erməni kilsəsinin alban xristianlarına təsiri azalmışdı. XII əsrdə alban kilsəsinin müstəqilliyi tam bərpa edilmişdi. 1441-ci ildə Kilikiya erməni katalikosluğunun Üçkilsəyə köçürülməsindən sonra Alban və erməni kilsələrinin yerli xristianlara rəhbərliyi uğrunda rəqabət güclənmişdir. VII-VIII əsrlərdə bu mübarizə kəskin xarakter almış, alban məbədlərinə hökmranlıq gah Eçmiədzin (erməni katalikosluğu), gah da Gəncəsar (alban katalikosluğunun) əlinə keçmişdir. Qarabağ albanları erməni kilsəsinə tabe olmaqdan imtina etmişlər. Qeyd edək

ki, Alban kilsəsinin erməniləşdirilməsi və ləğv edilməsi çarizm tərəfindən ermənilərin Cənubi Qafqaza, o cümlədən Qarabağa köçürülməsindən sonra başlanmışdır. Nəticə də Qarabağda yerli azərbaycanlıların sayı azalmış ermənilərin sayı isə çoxalmışdır. Hansı ki, vaxtı ilə Qarabağda əhalinin əksəriyyətini azərbaycanlıla təşkil edirdi. Rus müəllifi Skibitski yazırdı ki, 72,6% azərbaycanlı Qarabağda yaşadığı halda, 13,4% erməni idi. (Скибицкий, 1889:39).

Cənubi Qafqaz Rusiyanın tərkibinə daxil edildikdən sonra Qarabağın demək olar ki, bütün xristian alban əhalisi erməniləşdirildi. Alban kilsəsi ləğv edildikdən sonra erməni millətçiləri Qarabağda albanların zəngin mənəvi, tarixi, mədəni və memarlıq irsini erməniləşdirməyə nail oldular. Bütün bunlardan sonra Alban kilsəsinin bütün arxivləri, kitabları, əşyaları erməni məbədlərinə və kitabxanalarına daşınaraq erməniləşdirməyə məruz qaldılar. Bütün bunlara baxmayaraq albanlar uzun illər erməniləşdirməyə qarşı mübarizə aparmışlar. Belə ki, 1867-ci ildə qədim albanların varisləri olan udinlər kilsələrinin əllərindən alınmasına qarşı etiraz edərək çar I Nikolaya məktub yazmışlar. Hələ o zamanlar Qarabağda aparılan erməniləşdirmə və qriqorianlaşdırmadan yaxa qurtarmaq üçün udinlərin bir hissəsi Qəbələyə köçmüşdülər. 2020-ci ilin Vətən müharibəsində Qarabağ torpaqları erməni quldurlarından azad edildikdən sonra udinlər Qarabağdakı alban kilsələrini ziyarət etməyə getmişlər.

Erməniləşdirməyə məruz qalsalar da udinlər öz tarixi dini etnik mənsubiyyətlərini yaddan çıxartmamışlar. Buna misal olaraq görkəmli filosof, kilsə xadimi, Qarabağ məliklərindən Məlik-Bəylərovun nəslindən olan Pavel Florenskinin dediklərini göstərmək yerinə düşər. O, ailəsinə 20 sentyabr tarixli yazdığı məktubunda göstərirdi ki, Qarabağ erməniləri əslində erməni deyil, xüsusi tayfalardır. Qədimdə onlar alban adlanırdılar, ermənilər isə onları axavanlar adlandırırdılar, onlar özlərinə məxsus dillərini və adətlərini saxlayıblar. Sonra P.Florenski yazır ki, onun anası ermənicə bircə kəlmə demək, Ermənistan haqqında danışmaq və oxumaq, eləcə də, maraq naminə hətta olsa da bizi erməni kilsəsinə aparmaq belə istəmirdi. Sonda filosof vurğulayır ki, erməni kilsəsi açıq-aşkar millətçi xislətlidir və elə ermənilər də bu cür düşünür. (Флоренский, 1992:136-137).

Ermənilərin bütün cəhdlərinə baxmayaraq Azərbaycanın bir çox ərazilərində olduğu kimi Qarabağ ərazisində də Alban xristian abidələri öz əvvəlki formalarını qoruyaraq dövrümüzə qədər gəlib çatmışdır. Bu gün həm Qarabağın dağlıq hissəsində, həm də işğaldan azad olunmuş rayonların ərazilərində mövcud xristian məbədlərinin hamısı Azərbaycan tarixinin Alban dövrünün yadigarlarıdır, erməni daşnakları bu abidələr üzərindəki həqiqi tarixini əks etdirən yazı nümunələrini pozmuş olsalar da tarixi mənbələr arxeoloji qazıntılar və memarlıq tədqiqatları həmin ərazilərdə olan və dünya memarlığının şedevrləri sayılan bu abidələrin ermənilərlə heç bir əlaqənin olmadığını sübut edir.

Ermənilər Alban irsinə mənsub kilsə və mənbələrlə yanaşı Qarabağ və ətraf rayonlardakı Alban xaç daşlarını da erməniləşdirərək bəşər mədəniyyətinə qarşı daha bir cinayət törətmişlər. Onu da qeyd etmək lazımdır ki, bu daş sənəti nümunələri xristianlığa qədərki inanc və düşüncələri özündə əks etdirir. (İsmayılov.F.Erməni xaçkarları: Mifologiya, yoxsa reallıq? http://news.milli.az (seci-ety) 53714 html).

Hazırda işğaldan azad edilmiş Azərbaycan ərazilərində Alban abidələrinin hamısını erməni kilsələri kimi təqdim edirlər. Alban dövrünün bütün növdən olan tikintilərini "erməni kilsəsi" adlandıran ermənilər Dağlıq Qarabağda bunların sayının 175 olduğunu iddia edirlər. Qarabağdakı işğalçı rejimin mətbuat orqanlarından birində burada 167 erməni kilsəsi, 8 monastr kompleksi, 2500 xaç daşı, 10000 qəbirüstü epiqrofik yazılı daş, 33000 qədim qəbir daşının erməni mənşəli olduğu bildirilir.

Lakin tarixi mənbələr göstərir ki, Qarabağın ermənilərin etnik tarixi və coğrafiyası ilə heç bir əlaqəsi yoxdur. Onlar çar Rusiyası tərəfindən Azərbaycana köçürülmüş tayfalardır. Ermənilərin bütün iddialarına, baxmayaraq Alban memarlığı erməni xristian abidələrindən

kəskin şəkildə fərqlənir. Belə ki, Albaniyada xristianlıq memarlığı üslubunda dairəvi məbədlər deyilən xüsusi memarlıq yayılmışdı ki, bu da yalnız albanlara aiddir.

Alban dini memarlıq abidələrini xüsusilə monastr və məbədlərini səciyyələndirən cəhətlərdən biri də onların daxili fəzanın dördtağlı kompozisiya ilə olmasıdır. Bu isə xaç formalı plan quruluşuna gətirib çıxarır. Qeyd etmək lazımdır ki, məbədlərin xaç-günbəzli kompoziyası ilə ilk dəfə Azərbaycan memarlığında istifadə olunmuşdur. Bu kompozisiyanın kökləri VIII əsrə aiddir. Xaç-günbəzli memarlıq abidələri dini binalarda və həm də memorial abidələrin yeraltı sərdabələrində də geniş istifadə olunmuşdur.

Gəncəsar məbədi Kəlbəcər rayonunun Vəngli kəndində, Xaçınçayın sol sahilində yerləşən XIII əsr xristian alban monastrıdır. XIII əsrdən başlayaraq XIX əsrə qədər Gəncəsar monastırı Qafqaz Albaniyasının dini və mədəni mərkəzi olub. Hələ Sovet dövründə aparılan tədqiqatlardan məlum olmuşdur ki, bu abidə Həsən Cəlal və anası Xorişə xatun tərəfindən 1216-1238-ci illərdə inşa edilmişdir. Hal-hazırda ermənilər bu abidənin onlara məxsusluğunu sübut etdirmək üçün dəridən-qabıqdan çıxır, abidəni həm daxildən, həm də xaricdən ciddi surətdə dəyişdirmişlər.

2020-ci il sentyabrın 27-də başlamış Vətən müharibəsində Azərbaycanın Müzəffər ordusu erməni quldurlarını Qarabağda darmadağın etdilər. Vəhşi ermənilər Azərbaycanın bu qədim tarixi diyarını yerlə-yeksan etmişdilər. Bu bölgədəki həm xristian, həm də islam dini abidələri Azərbaycan Respublikasının müvafiq orqanları tərəfindən qeydiyyata alınmış və beynəlxalq təşkilatlara təqdim edilmişdir. Bu ərazilərdəki tarixi, dini və mədəniyyət abidələrinin syahısı, tarixi və mövcud vəziyyəti haqqında bir çox kitablar, büroşuralar, bukletlər hazırlanıb müəyyən yerlərə təqdim olunmuşdur. Bu kitablarda işğal zamanı dağıdılmış tarixi, dini mədəniyyət abidələrinin siyahısı öz əksini tapmışdır (Müharibə və tarixi mədəniyyət abidələrimiz. İşğal olunmuş Azərbaycan ərazilərində xanəgahlar, pirlər, ziyarətgahlar, 2006:31).

Ermənilər təkcə Dağlıq Qarabağ və işğaldan azad olunmuş ərazilərində deyil, ətraf rayonlardakı ərazilərdə də Alban mədəniyyətinə məxsus abidələri erməniləşdirməyə çalışmışlar. Belə ki, onlar Dağıstanın Nügədi kəndindəki qədim Alban məbədini erməni məbədi kimi təqdim edirlər (Гусейнов, 2015:229-232)

Ermənilər işğal etdikləri ərazilərdə məqsədli şəkildə Alban abidələrinin forma və görkəmini dəyişdirməklə, onlar üzərindəki Alban ornamentlərini və yazı nümunələrini saxtalaşdırmaqla, Azərbaycan maddi mədəniyyətinin izlərini məhv etməklə bu torpaqların onlara məxsus olması ilə bağlı dünyaya çığır-bağır salırlar.

İşğal edilmiş ərazilərimizdə erməni quldurları təkcə mədəni, tarixi, dini abidələrimizi deyil, eyni zamanda yerli azərbaycanlılara soyqırım etmiş, onları vəhşicəsinə evlərindən didərgin salmışlar. Erməni vəhşiləri azərbaycanlıların məzarlıqlarını belə dağıtmışlar.

İşğal olunmuş ərazilərdə Azərbaycanın mədəni irsini təşkil edən mədəniyyət obyektləri-muzeylər, kitabxanalar, mədəni-maarif müəssisələri xüsusi qəddarlıql məhv edilmişdir. Ermənilər 12 muzey, 6 rəsm qalareyası, tarixi əhəmiyyətli 9 sarayı qarət edərək yandırmışlar. Nadir əhəmiyyətli 40000 muzey sərvəti və eksponatı talan olunmuşdur. Dağıdılan və yandırılan 927 kitabxanada 4,6 milyon kitab və misilsiz əlyazma nümunələri məhv edilmişdir. Dağlıq Qarabağ bölgəsində və ətraf rayonlarda Azərbaycanın milli mədəniyyət ocaqlarına erməni vəhşi tayfalarının vurduqları ziyanı dəqiq hesablamaq mümkün deyildir, çünki talan və məhv edilmiş sərvətlər təkcə Azərbaycanın deyil, eyni zamanda bütün dünya sivilizasiyasının misilsiz mədəniyyət nümunələridir. Əhaliyə vurulmuş mənəvi-psixoloji zərbə ilə yanaşı, ilkin hesablamalara görə, Ermənistan Silahlı Qüvvələrinin təcavüzü nəticəsində Azərbaycan iqtisadiyyatına 300 milyard, bəlkə də ondan da çox ABŞ dolları dəyərində ziyan dəymişdir. Böyük əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına Füzuli rayonunda yerləşən 4 tarixi-dini abidə - Əhmədallar kəndindəki XIII əsr türbəsi, Babı kəndinin yaxılığında XIII əsrə aid Şeyx Babı türrbəsi, Qarğabazar kəndində

Karvansaray XVII əsr, Aşağı Veysəlli kəndində Mirəli türbəsi XIV əsr, Xocavənd rayonu üzrə 27 məbəd, kilsə, məscid, Xocalı rayonunda 3 məbəd və türbə, Zəngilan rayonunda 5 qüllə, türbə sərdabə, Şuşa şəhərində 30000 müxtəlif təyinatlı tarixi-memarlıq abidəsi erməni daşnakları tərəfindən dağıdılmışdır. Eyni zamanda arxeoloji abidələrdən Ağdam rayonunda 93 abidə, Füzuli rayonunda 14 abidə, Xocavənd rayonunda 3 arxeoloji abidə, Xocalı rayonunda 12, Kəlbəcər rayonunda 5, Qubadlı rayonunda 11, Laçın rayonunda 8, Şuşa rayonunda 5 Zəngilan rayonunda 3 arxeoloji abidə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 32 saylı 02.08.2001-ci il trixli qərarı ilə Ermənistan tərəfindən dağıdılmış tarix və mədəniyyət abidələri sırasına daxil edilmişdir.

Bundan başqa bu siyahıya işğal olunmuş ərazilərdəki yerli əhəmiyyətli arxeoloji abidələr, əsasə qəbiristanlıqlar və köhnə yaşayış yerləri (Ağdamda 4, Cəbrayılda 9, Kəlbəcərdə 1, Laçında 3, Zəngilanda 4 abidə) daxil edilmişdir.

Nəticə olaraq qeyd etmək lazımdır ki, 2020-ci il sentyabrın 27-də Müzəffər Ali Baş Komandanınəmri ilə Azərbaycan Silahlı Qüvvələri erməni düşmənlərinə qarşı döyüşə başladılar. 44 gün davam edən bu qanlı döyüşlər nəticəsində 30 il ərzində erməni qəsbkarları tərəfindən məhv edilmiş tarixi ərazilərimiz geri alındı. Erməni vəhşiləri 30 il ərzində tarixi Azərbaycan torpaqları olan Qarabağ və ətraf rayonlarını talan etmiş, mədəniyyət abidələrini dağıdaraq yerlə-yeksan etmişlər. Erməni vəhşiləri işğal olunmuş ərazilərimizdə, nəinki dini, tarixi mədəni abidələrimizi, eyni zamanda zəngin qızıl, filiz yataqlarını istismar etmiş, qədim meşələrimizi məhv edərək, flora, faunamızı zəhərləmişlər. İşğal olunmuş şəhə rvə kəndlərin adlarını dəyişərək erməniləşdirmişdilər. Bütün bu dağıdılmış şəhər və rayonlarımızı yenidən bərpa etmək üçün dövlət başçısı müdrik siyasətçi İlham Əliyev bir sıra qərar və sərəncamlar vermişdir. İşğaldan azad olunmuş ərazilərin bərpası üçün külli miqdarda maliyyə vəsaiti ayrılaraq geniş quruculuq işlərinə başlanılmışdır. Prezidentin sərəncamı ilə qaçqın və köçkünlərin tez bir zamanda öz dədə-baba torpaqlarına qayıtması üçün əməli tədbirlər görülür. 44 günlük Vətən müharibəsi vəhşi erməni tayaları və onların havadarlarına göz dağı oldu. Onlar artıq başa düşürlər ki, Azərbaycan xalqının heysiyyatı ilə oynamaq olmaz. Bu xalq döyüşkən vir xalqdır. Azərbaycanın qüdrətli sərkərdələri, döyüşçüləri vardır. Nəhayət ki, Qarabağ torpaqları Müzəffər azərbaycan ordusunun güclü həmləsi nəticəsində düşmən işğalından azad oldu. Təəssüflər olsun ki, erməni işğalçılarının tör-töküntüləri hələ də havadarlarının köməyi ilə Qarabağdan tam çıxmamışlar. Erməni vəhşiləri hələ də rus qardaşlarının dəstəyi ilə Qarabağ torpaqlarında yaşayırlar. Lakin Azərbaycan dövləti qədim torpaqları olan Qarabağda geniş quruculuq işləri aparır. Xalqımız heç vaxt düşmən qarşısında əyilməyib və əyilməyəcəkdir. Bu yerdə görkəmli mütəfəkkir Əli bəy Hüseynzadənin bu sözləri yada düşür "Türklər ya ölərlər, ya da hicrət edərlər, fəqət qul olmazlar. Bəli Azərbaycan xalqı heç vaxt, heç bir zaman "qul olmaq" sindromunu qəbul etməmişdir və etməyəcəkdir" (İsmayılov, 2020)

İkinci Qarabağ müharibəsinin nəticəsi Qafqazın yeni geosiyasətində böyük dəyşikliklər yaratdı. Qafqazda yeni geosiyasi reallıq qlobal və regional güclər tərəfindən qəbul edilərək Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində mühüm addımlar atılmış oldu. 10 noyabr aktının imzalanmasından sonra siyasi proseslərə seyrici mövqeyində qalan dövlətlər və güc mərkəzləri bu vəziyyətdən çox narahat olduqlarını bəyan etdilər. Bəzi təşkilatların əhəmiyyətsiz olduğunu anladılar.

## Ədəbiyyat

Azərbaycan Respublikasının Dövlət Arxivi (ARDA), f.894, s.10, iş 148
Xocalı 1992, B. 2014.
İsmayılov K., Balayev A. Azərbaycanın tarixi mədəniyyət abidələrinə qarşı erməni terroru. B.2020.

Müharibə və tarixi mədəniyyət abidələrimiz. İşğal olunmuş Azərbaycan ərazilərində xanəgahlar, pirlər, ziyarətgahlar. AMEA İnsan Hüquqları İnstutu. B., 2006
Буниядов З.М. Азербайджан в VII-IX веков. B.1999
Величко В.Л. Кавказ. СПБ, 1904.
Гусейнов Р.Азербайджан и армянский вопросна Кавказе В., 2015
Мамедов Н. Природно-географический обзор Нагорно-Карабахской зоны Азербайджана. Журнал Ирс (Наследие, 2007, №4-5)
Скибицкий М.А. Материалы для устройства казенных летных и земных пастбищ и для изучения скотоводства на Кавказе Т.Н.Тифлис 1889
Флоренский П.А. Детям моим. Воспоминания прошлых дней. Геологические исследования. Из Соловецких моим Завещание. М, 1992

## "BÖYÜK QAYIDIŞ" PROQRAMI ÇƏRÇİVƏSİNDƏ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN BƏRPA İSTİQAMƏTLƏRİ

**Asya Əhmədova**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu Həmkarlar İttifaqı Komitəsinin sədri
asyahmed75@gmail.com

***Açar sözlər:*** *işğal, bərpa, infrastruktur, "Ağıllı şəhər", "Ağıllı kənd".*

44 günlük İkinci Qarabağ Müharibəsi zamanı rəşadətli Azərbaycan Ordusunun döyüş meydanında qazandığı uğurlar 30 ilə yaxın işğal altında olan ərazilərin azad edilməsi ilə yanaşı, həm də erməni işğalçılarının həyata keçirdiyi vandalizmin daha aydın şəkildə üzə çıxmasına imkan yaratdı. Bütün dünyaya məlum oldu ki, Ermənistan illərdir işğal altında saxladığı Azərbaycan ərazilərində böyük dağıntılar həyata keçirmiş və mövcud olan infrastrukturu demək olar ki, tamamilə məhv etmişdir. Təsadüfü deyil ki, müharibədən sonra Ağdama səfər edən xarici media nümayəndələri buranı Cənubi Qafqazın Xirosiması adlandırmışdır.

İkinci Qarabağ müharibəsində əldə olunan hərbi-siyasi Zəfərdən sonra azad edilmiş ərazilərə "Böyük qayıdış"ın təmin edilməsi Azərbaycan hökuməti qarşısında duran əsas vəzifələrdən oldu. Bu istiqamətində məqsədyönlü fəaliyyətin tez bir zamanda həyata keçirilməsi üçün tezliklə əraziləri minalardan təmizləmək və bərpa işlərinə başlamaq lazım idi. Çünki bərpa prosesi həyata keçirilmədən həmin ərazilərin sosial-iqtisadi inkişafını təmin etmək mümkün deyildir. Odur ki, müharibə bitəndən dərhal sonra, 24 noyabr 2020-ci ildə ölkə Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında" sərəncam imzaladı. (https://president.az) Bu sərəncama əsasən Əlaqələndirmə Qərargahı və onun tərkibində də müxtəlif məsələlər üzrə fəaliyyət göstərəcək 17 işçi qrupundan ibarət İdarələrarası Mərkəz yaradıldı. İşçi qruplarının bütün istiqamətlər üzrə planlı və kompleks şəkildə fəaliyyətinin həyata keçirilməsi üçün isə Strateji Fəaliyyət Planı hazırlandı. Bunun ardından isə Prezident İlham Əlyevin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də isə işğaldan azad olunmuş ərazilərin bərpası növbəti illərdə ölkənin sosial-iqtisadi inkişafına dair beş milli prioritetdən biri kimi müəyyən edildi. Sənəddə bu prioritetin uğurla reallaşdırılması üçün iki məqsəd müəyyən edilirdi: dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiya.

Dağıntıların hərtərəfli və miqyasının böyük olması azad edilmiş ərazilərin bərpası prosesini mürəkkəb və zaman alan prosesə çevirir. Ona görə də bərpa prosesinin müxtəlif iqtisadi və sosial istiqamətlər üzrə bir neçə mərhələdə həyata keçirilməsi planlaşdırılıb.

Birinci mərhələdə büdcədən ayrılan vəsaitlər əsas iki məqsəd üçün, infrastrukturun formalaşdırılmasına və kommunal xidmətlərin əlçatanlığının təmin edilməsinə yönəldilib. Növbəti mərhələdə isə daha çox özəl və xarici investisiyanın cəlb edilməsinə yer ayrılacaqdır.

Ümumilikdə, bərpa prosesi ilə bağlı müəyyən edilmiş əsas məqsədlər bərpa işlərinin keyfiyyətli və qənaətli şəkildə həyata keçirilməsi, müasir standartlara cavab verən inkişaf modelinin yaradılması, azad edilmiş ərazilərin texnologiya baxımından yüksək inkişaf etmiş əraziyə çevrilməsi, qabaqcıl texnoloji şirkətlərin bərpa prosesinə cəlb edilməsi və azad edilmiş ərazilərin "Yaşıl Enerji" zonasına çevrilməsidir. İşğaldan azad edilmiş ərazilər sıfırdan bərpa olunduğuna görə Qarabağın bərpası prosesində texnoloji yeniliklərin tətbiqi və müasir standartlara cavab verən infrastrukturun yaradılması da əsas məqsədlərdəndir. Bərpa-quruculuq işlərinin həyata keçrilməsi üçün 2021-ci ilin dövlət büdcəsindən 2,2 milyard manat vəsait də ayrılmışdır. Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə Qarabağ Dirçəliş Fondu da təsis olunmuşdur.

"Böyük Qayıdış" proqramının birinci mərhələsi məhz azad olunmuş ərazilərdə avtomobil, dəmiryolu və hava limanı layihələrinin həyata keçirilməsi ilə yeni yol-nəqliyyat infrastrukturunun yaradılmasından ibarətdir. Bu istiqamətdə ilk işlərə avtomobil yollarının çəkilməsi ilə başlanıldı. Tərtər rayonunun Suqovuşan və Talış kəndlərinə gedən avtomobil yollarının yenidən qurulması ilk layihələrdən biri oldu. Hələ döyüşlərin davam etdiyi dövrdə bu yolların çəkilişinə başlanıldı. Yol Tərtər şəhərindən Suqovuşan kəndinə qədər, Suqovuşandan Talış kəndinə doğru uzanan hissəsi isə Çaylı kəndindən Talış kəndinə qədər uzanır. Həmçinin Talış kəndindən Naftalan şəhərinə yeni yolun inşası da planlaşdırılır. Qeyd edilən avtomobil yollarının birləşdirilməsi nəticəsində Tərtər şəhəri ilə yanaşı, alternativ olaraq Naftalan şəhərindən də Talış və Suqovuşan istiqamətində hərəkət etmək mümkün olacaqdır.

Digər böyük əhəmiyyətə malik olan avtomobil yolu isə Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yoludur. Prezident İ.Əliyev tərəfindən 2020-ci il noyabrın 17-də Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalanmış və sərəncama əsasən Prezidentin ehtiyat fondundan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 50 milyon manat ayrılmışdır. Bu layihədə Füzulidə tikiləcək yeni hava limanına giriş yolunun inşası da nəzərdə tutulurdu. Yolun simvolik məna daşıyan hissəsi Füzuli-Şuşa avtomobil yoludur. Bu yol Topxana meşələrinin ətəyindən keçməklə Daşaltı kəndinə, oradan isə Şuşa şəhərinə və İsa bulağına uzanır. Füzuli-Şuşa yolu əsgərlərimizin Qarabağın mərkəzinə, xüsusilə də Şuşaya doğru irəlilədikləri yoldur. Ona görə də ölkə başçısı İ. Əliyev  bu yolu "Zəfər Yolu" adlandırmışdır. O, çıxışlarının birində "...Adını "Zəfər yolu" qoydum. Çünki biz bu yoldan keçərək Şuşanı azad etdik..."-demişdir.(https://respublika-news.az › uğur düsturu: qalib lider, yenilməz xalq)

Şimal istiqamətində isə Toğanalı-Kəlbəcər avtomobil yolunun çəkilişinə başlanılıb. Bu yol Göygöl rayonunun Toğanalı kəndindən başlayaraq, Murov dağı silsiləsindən keçərək, Kəlbəcər, İstisu və Laçın istiqamətində davam edəcəkdir. Bu yolda tunellərin tikintisi də nəzərdə tutulur.

Bunlardan başqa Horadizdən Zəngilana, oradan Qubadlıya və Laçın rayonuna qədər avtomobil yolunun çəkilişi də nəzərdə tutulub. Beləliklə qeyd edilən avtomobil yollarının çəkilişi nəticəsində həm şimaldan, həm də cənubdan Laçın və Kəlbəcər rayonlarına aparan müasir yol-nəqliyyat infrastrukturu yaradılacaqdır.

Avtomobil yolları ilə yanaşı bərpa prosesində dəmiryollarının da çəkilməsi və yenidən qurulması nəzərdə tutulub. Belə dəmir yollarından biri Bərdə-Ağdam dəmiryoludur. Bu yol şərq istiqamətindən Qarabağa hərəkət etməyə imkan yaradacaq. Şuşanın Qarabağda əsas turizm və mədəniyyət mərkəzlərindən birinə çevrilməsi nəzərdə tutulduğundan Şuşaya da dəmiryolu xəttinin çəkilişi planlaşdırılıb. Odur ki, Horadiz-Füzuli və Füzuli-Şuşa dəmir yolu

xəttləri də inşa olunacaqdır. Digər nəzərdə tutulan dəmir yolu layihəsi isə Horadiz-Ağbənd dəmir yolunun yenidən tikilməsidir. Bu yol Ermənistan ərazisindən keçməklə Naxçıvana gedən Zəngəzur dəhlizinin əsas komponentlərindən biridir.

İşğaldan azad edilmiş ərazilərin sürətli inkişafının təmin edilməsi və turizm potensialının tam olaraq reallaşdırılması üçün hava limanlarının da tikintisinə başlanıldı. İlk hava limanı layihəsi Beynəlxalq Füzuli Hava Limanının layihəsi oldu. 2021-ci ilin yanvarında Azərbaycan Prezidenti Füzulidə beynəlxalq hava limanının tikintisi barədə sərəncam verdi və həmən ilin yanvar ayının 14-də hava limanının təməlqoyma mərasimi baş tutdu. Bu hava limanının əsas məqsədi xarici qonaqların və turistlərin azad edilmiş ərazilərə, xüsusilə də Şuşaya gəlişini təmin etməkdir. 2021-ci il oktyabrın 26-da isə hava limanının rəsmi açılışı olmuşdur. Açılışda Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak ediblər. Qeyd edək ki, Rəcəb Tayyib Ərdoğanın və Türkiyənin dövlətinin rəsmilərinin olduğu Türkiyənin bir nömrəli təyyarəsi, elə Ankara - Füzuli hava xətti ilə uçuş edərək, birbaşa Füzuli Beynəlxalq Hava Limanına enmişdir.( https://ru.wikipedia.org › Fuzuli havaalanı)

Bundan başqa Zəngilan və Laçın rayonlarının ərazisində də hava limanın tikintisi nəzərdə tutulur. Bu rayonlarda tikiləcək aeroportlar strateji əhəmiyyətə malikdir. Zəngilanda aeroportun tikilməsi sadəcə, turizmin inkişafına xidmət etməyəcək, eyni zamanda beynəlxalq əhəmiyyətli logistika mərkəzinə çevriləcək. 2021-ci ilin fevralında Azərbaycan Prezidenti bəyan etdi ki, Zəngilan rayonunda Logistika Mərkəzinin yaradılması planları nəzərə alınmaqla rayonda beynəlxalq aeroport tikiləcəkdir. Onun sözlərinə görə, Ermənistan və İranla həmsərhəd olan Zəngilan rayonunun coğrafi mövqeyi rayonun nəqliyyat-logistika mərkəzinə çevrilməsinə imkan verəcək. 2021-ci ilin aprelində Zəngilan rayonunda gələcək aeroportun təməlqoyma mərasimi keçirildi. Aeroportun uçuş-enmə zolağının uzunluğu 3 kilometr olacaqdır. Hava limanı ağır nəqliyyat təyyarələri də daxil olmaqla, bütün növ hava gəmilərini qəbul edə biləcək. Aeroportun tikintisinin 2022-ci ildə başa çatdırılması planlaşdırılır (https://az.wikipedia.org ›Zəngilan Beynəlxalq Hava Limanı)

Laçın ərazisində tikiləcək aeroportla bağlı isə ilkin ideya var və bunun üçün ərazi də ayrılıb. Bu aeroport təkcə Laçın üçün yox, həm də Kəlbəcər rayonu ərazisinə hava nəqliyyatı ilə gediş-gəlişi asanlaşdıracaq. Laçın aeroportu ölkənin ən hündür hava limanı olacaq. Ekspert Ərşad Hüseynov deyir ki, bu ərazidə hava limanının tikilməsi ərazinin turistik potensialından geniş istifadə olunmasına imkan verəcək. Bütün bunlar həmin ərazilərin abadlaşdırılması və bərpası planları çərçivəsində həyata keçiriləcək (https://aqreqator.az › Laçın aeroportu). Bərpa prosesində qarşıda duran mühüm vəzifələrdən biri də işğaldan azad edilmiş ərazilərdə enerji infrastrukturunun qurulması və enerji təhlükəsizliyinin təmin edilməsidir. Əsas məqsəd azad edilmiş torpaqlarda ən müasir standartlara cavab verən enerji sisteminin yaradılması və ölkənin ümumi enerji sisteminə inteqrasiya edilməsidir. Artıq “Azərenerji” və “Azərişıq” tərəfindən Şuşa şəhərinə elektrik enerjisi xətti çəkilib. Bu xətlərlə yanaşı “Azərişıq” tərəfindən işğaldan azad edilmiş ərazilərdə xüsusi dövlət əhəmiyyətli binaların elektrik enerjisi ilə təchizatının təcili təmin olunması məqsədilə “Azərişıq Qarabağda” layihəsi həyata keçirilir. Eyni zamanda azad edilmiş ərazilərdə mövcud olmuş Su Elektrik Stansiyalarının (SES) da bərpası və yenidən qurulması həyata keçirilir. Belə stansiyalardan biri, Laçında yerləşən və 8 meqavat gücündə olan “Güləbird” SES artıq istifadəyə verilmişdir. 2021-ci ilin fevralın 14-də Prezident İlham Əliyev stansiyanın açılışını etmişdir. İşğaldan azad olunmuş ərazilərdə infrastrukturun yaradılması və nəzərdə tutulan digər işlərin həyata keçirilməsi baxımından bu stansiyanın böyük əhəmiyyəti vardır. Stansiya təxminən 7 min nəfər əhalinin elektrik enerjisi ilə təminatına imkan yaradacaq. Güləbird stansiyasında istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və stansiyaya yaxın ərazilərdə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcəkdir. Suqovuşanda yerləşən “Suqovuşan-1” və “Suqovuşan-2” SES-lərində də əsaslı

təmir işləri aparılıb, Füzuli rayonundakı "Şükürbəyli" yarımstansi yenidən qurulub, Cəbrayıl rayonundakı "Xudafərin" və "Qız qalası" SES-lərinin tikintisinin isə 2024-cü ilədək yekunlaşacağı planlaşdırılıb.

Bütün bunlarla yanaşı azad edilmiş ərazilərin təbii qazla təminatı ilə bağlı hazırlanmış proqram çərçivəsində SOCAR tərəfindən ümumi uzunluğu 416 kilometr olan magistral qaz xəttinin çəkilməsi də nəzərdə tutulur. Azad edilmiş ərazilərdə həyata keçirilən enerji siyasətinin əsas məqsədi isə həmin əraziləri "Yaşıl Enerji" zonasına çevirməkdir. Buna görə də azad edilmiş ərazilərdə energetika sahəsində görüləcək işlərdə bərpaolunan enerji mənbələrindən istifadəyə və ekoloji təmiz texnologiyaların tətbiqinə üstünlük verilir. Bu isə enerji resurslarından daha səmərəli şəkildə istifadə edilməsinə imkan yaradacaqdır. Kəlbəcər və Laçın rayonlarında böyük külək enerjisi potensialı, Zəngilan və Cəbrayıl rayonlarında isə daha çox günəş enerjisi potensialı vardır.

Şəhər və kəndlərimizin işğalçılar tərəfindən əsaslı şəkildə dağıdılması bu istiqamətdə əsaslı işlərin görülməsini tələb edir. Odur ki, azad edilmiş ərazilərin bərpasının əsas istiqamətlərindən biri də məhz şəhər və kəndlərin yendiən qurulmasıdır. Bərpa prosesində kiçik kəndlərin salınması səmərəli olmadığından işğaldan əvvəl əhalisinin sayı çox az olan kəndlərin birləşdirilərək daha böyük kəndlərin salınması nəzərdə tutulur. Bu resurslardan daha səmərəli istifadəyə və xərclərin optimallaşdırılmasına imkan verəcəkdir. Bu proseslərin həyata keçirilməsi üçün şəhərlərin yeni baş planları hazırlanır və infrastrukturun bərpası istiqamətində zəruri tədbirlər həyata keçirilir. Şəhər və kəndlərin yenidən qurulmasında "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyalarından istifadə nəzərdə tutulur. Xatırladaq ki, birinci belə layihə Zəngilan rayonunun Ağalı kəndində reallaşdırılır. Kənddə layihənin icrası 5 komponent üzrə aparılır. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələridir. Ərazidə tam tədric olunmuş və innovativ tikinti materiallarından istifadə olunmaqla 200 fərdi ev tikilib. Həmçinin məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzləri inşa olunur, turizm infrastrukturu yaradılır. "Ağıllı kənd"də bütün yaşayış evləri, sosial obyektlər, inzibati və ictimai iaşə binaları, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesi alternativ enerji mənbələri ilə təmin ediləcək. Layihənin icrasında Türkiyə, Çin, İtaliya və İsrail şirkətlərinin mütəxəssisləri iştirak edirlər.

Sonda qeyd edək ki, azad edilmiş ərazilərin bərpası təkcə Qarabağ regionunun deyil, bütünlükdə Azərbaycan iqtisadiyyatının inkişafı baxımından böyük əhəmiyyət daşıyır. Qarabağ regionunun bərpası və orada mövcud olan iqtisadi imkanların bərpa edilməsi həmin ərazilərin ölkə iqtisadiyyatında payının işğaldan əvvəlki səviyyəyə çatmasına şərait yaradacaqdır. Bu isə Azərbaycan iqtisadiyyatının inkişafına imkan yaratmaqla yanaşı qeyrineft sektorunun inkişafını əsaslı şəkildə dəstəkləyəcəkdir. Yenidənqurma və bərpa prosesinin həyata keçirilməsi Azərbaycanda ümumi iqtisadi inkişafa təkan verəcək, yeni iş yerlərinin yaranmasına şərait yaradacaqdır.

## İstifadə olunmuş ədəbiyyat


https://president.az

https://aircenter.az ›Azad edilmiş ərazilərdə bərpa prosesinin əsas ...

https://az.wikipedia.org › Zəngilan Beynəlxalq Hava Limanı

https://azerforum.com ›İşğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işləri ...

https://aqreqator.az ›Laçın aeroportu...

https://hafta.az › zeferin-tentenesi

https://ru.wikipedia.org › Fuzuli havaalanı

https://respublika-news.az › uğur düsturu: qalib lider, yenilməz xalq.

# AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ BAŞ VERƏN SOSİAL-İQTİSADİ PROSESLƏRİN AİLƏ MÜNASİBƏTLƏRİNƏ TƏSİRİ

**Həlimə Qafarova**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işçisi
helime.qafarova@mail.ru

**Açar sözlər:** ailə, qadın, cəmiyyət, kişi, hüquq,

Cəmiyyətdə yeni dəyər və davranış modellərinin ortaya çıxması ilə ailə modelinin mahiyyəti də müəyyən dərəcədə dəyişməyə məruz qalır. Cəmiyyətdə formalaşan həyat tərzinin səviyyəsi sosial münasibətlərə təsirsiz ötüşmür. Bununla belə, cəmiyyətin sosial təsisat kimi ailəyə olan tələbləri birbaşa cəmiyyətin özünün inkişafına müvafiq olaraq dəyişir və bunun müqabilində onun funksiyaları və formaları da yenilənməyə məcbur qalır. uasir cəmiyyətdə baş verən sosial-iqtisadi proseslərin ailə münasibətlərinə təsirinin öyrənilməsinin aktuallığı onunla izah olunur ki, o, müəyyən mənada cəmiyyətin inkişaf səviyyəsini əks etdirir. Ailənin yeni dəyərlər sisteminə uyğunlaşmaq bacarığı birbaşa onun mədəni, iqtisadi və sosial imkanlarından asılıdır. Burada ailə üzvlərinin təhsil və mədəni səviyyəsi, ailənin mənəvi və iqtisadi əsası əhəmiyyətli rola malikdir. Başqa sözlə, ailəni cəmiyyətin güzgüsü hesab etmək olar.

Məlumdur ki, ailə cəmiyyətin mühüm təsisatlarından biri olaraq bir çox sosiohumanitar elmlərin tədqiqat obyektidir. Ona görə də onun çoxlu sayda tərifinə rast gəlmək olar. Ən sadə təriflərdən biri belədir: Ailə nigah, yaxud qan qohumluğuna əsaslanan kiçik sosial qrupdur (3, 19s.). Ailəni çox zaman obrazlı şəkildə «kiçik dövlət» adlandırırlar (4, 109s.). Onu cəmiyyətin, dövlətin mövcudluğunun və tərəqqisinin təməli hesab edirlər. Ailə quruluş və forma baxımından tarixən dəyişən, universal əlamətlər ilə qohumluq əlaqələri sistemini, şəxsiyyətin sosial və fərdi keyfiyyətlərinin inkişafını təmin edən və müəyyən iqtisadi fəaliyyəti həyata keçirən bir qrupdur (6, 45s.). Bir çox sosial funksiyaları yerinə yetirməklə ailə cəmiyyətin inkişafında mühüm rol oynayır və hər bir cəmiyyətin sosial strukturunun mühüm komponentinə çevrilmiş olur.

Ailənin hüquqi əsası sayılan nigah qadınla kişi arasında rəsmi formada bağlanılan müqavilədir. Nigahda ər ilə arvad arasında formalaşan münasibətlərin hansı səviyyədə qurulması təbii ki, onların həm özlərindən, həmçinin də digər kənar şərt və səbəblərdən asılıdır. Qeyd edək ki, ailədə şəxsiyyətlərarası uyuşma çox çətin və incə məsələdir. Ümumiyyətlə, bir-biri ilə ünsiyyətdə olan insanların uyuşma səviyyəsi müxtəlif olur. Şəxsiyyətlərarası uyuşma ünsiyyətdə, birgə fəaliyyətdə və yaxud ailədə qarşılıqlı qəbuletmə deməkdir. Qurkonun sözləri ilə desək, şəxsiyyətlərarası uyuşma dəyərlər oriyentasiyasının optimal əlaqələndirilməsinə, sosial və əxlaqi mövqelərə, zövq ümumiliyinə, temperament və xarakter göstəricilərinə, emosional və intellektual tərəflərə əsaslanır (5, 97s.). Ailə münasibətlərinin tənzimlənməsi düşüncə tərzi, dünyagörüşü və maraqlar kimi amillərdən asılıdır. Qadın və kişinin vərdişləri, məqsədləri, zövqləri bir-birindən çox fərqli olursa qarşıdurmalar başlayar. Ortaq düşüncələri olsa belə, bir-birilərinin fərqli düşüncələrini qəbul edə bilmirlərsə və ya bir-birlərinə özlərini təzyiqlə qəbul etdirməyə çalışırlarsa yenə qarşıdurma yaranır. Bu kimi səbəblər müəyyən mənada ailə münasibətlərinin davamlı olaraq pozulmasına səbəb olan amillərdir. Sadalanan amillər ailələrdə daxili, sosial-psixoloji amillərdir ki onlar ailəyə təsirsiz ötüşmür.

Ailənin mahiyyəti onun quruluşunda, formalarında, funksiyalarında və bir də ailə üzvlərinin ailədə rolunda ifadə olunur. Cəmiyyətin inkişafının hər hansı bir mərhələsində ailələrin ənənəvi funksiyaları yeni məzmun və keyfiyyət kəsb edir. Cəmiyyət inkişaf etdikcə, orada baş verən mənəvi və mədəni normalar dəyişdikcə, ailələrin məzmunu və funksiyaları da dəyişilməyə məruz qalır. Lakin cəmiyyətdə baş verən sosial-iqtisadi proseslərin ailəyə təsiri daha əhəmiyyətli dərəcədə özünü göstərir. Kapitalizm cəmiyyətində qadının iqtisadi

münasibətləri inkişaf etdikcə ailə münasibətləri də təkmilləşir və artıq yeni mərhələyə yüksəlir (4, 123s.). Ailədə uşaqların sayının neçə olmasına bele cəmiyyətdən qaynaqlanan problemlərin təsiri vardır.

Ümumi halda ailənin cəmiyyətdə yerinə yetirdiyi bir neçə əsas funksiyalar vardır. Bunlara təsərrüfat- iqtisadi, nəsil artırma, tərbiyəetmə, qarşılıqlı kömək, sağlamlığın qorunması və s. kimi funksiyaları göstərmək olar. Ailənin möhkəmliyi və sabitliyi də məhz bu funksiyaların nə dərəcədə həyata keçirilməsindən asılıdır.

Sağlam ailə cəmiyyət üçün sağlam nəsil yetişdirir. Sağlam ailə dedikdə, bir neçə amilləri sistemləşdirmək mümkündür. V.Satir sağlam ailə kimi aşağıdakı xüsusiyyətləri daşıyan ailələri nəzərdə tutur. Hər şeydən əvvəl ailənin hər bir üzvü digərini özü qədər ailədə vacib şəxs hesab edir. Hər kəsin problemi bütov ailənin problemi sayılır, hər bir ailə üzvü ailənin qayğılarında öz məsuliyyətini hiss edir, bir-birinə hər zaman dəstək verir. Ailədə inam, dürüstlük və səmimiyyət qorunaraq, hər kəs bir-birinə qayğı göstərir, bir-birinə hörmət və sevgi ilə yanaşır (7, s.11). Öz növbəsində bunun əksinə olaraq, qeyri-sağlam ailələrdə qeyri-səmimi mühit, bir-birinə laqeydlik, konfliktli münasibətlər hökm sürür.

Ailəni səciyyələndirən iki mühüm xüsusiyyət onun üzvlərinin məişət birliyi və qarşılıqlı məsuliyyətidir. Gələcək nəslin yetişməsində əsas pay ailənin üzərinə düşür. Ona görə də demək olar ki, cəmiyyətdə ailə münasibətlərinin məqsədyönlü şəkildə tənzimlənməsi sosial sifarişdir. Bunun üçün ailə münasibətlərinin müvafiq sosial-iqtisadi, hüquqi və mənəvi-psixoloji, ideoloji əsasları yaradılmalıdır. Müasir dövrdə cəmiyyətdə baş verən dərin sosial, iqtisadi və siyasi dəyişikliklər həyatın bütün sahələrində olduğu kimi ailə münasibətlərinin xarakterində və strukturunda da müəyyən dəyişikliklərə səbəb olmuşdur. Ailə təsərrüfatının və ailə büdcəsinin təşkili bütün dövrlərin və bütün cəmiyyətlərin aktual problemi hesab edilir. Bu baxımdan, ailənin iqtisadi problemlərinin həllinə olan maraq daimi və kütləvi xarakter daşıyır.

Müasir dünyada vahid ailə tipi yoxdur. Bu gün həm hər kəsin şəxsi rollarına görə vəzifələrinin bölündüyü demokratik, həm də yalnız tabeçilik münasibəti ilə idarə olunan avtoritar quruluşlu ailələr vardır (8, 78s.). Avtoritar quruluşlu ailələrdə əsasən kişi yeganə rəhbər olub, mülkiyyətin təkbaşına təminatçısı, həmçinin sahibi hesab edilərək ailə münasibətlərinin tənzimlənməsini öz üzərinə götürür. Bu tip ailə tipi bir cox şərq ölkələri ücün xarakterikdir. Ailələri hakimiyyət tipindən asılı olaraq aristokratik, demokratik və tranik olmaqla da qruplara ayıranlar vardır (2, s. 20-21). Aristokratik ailədə sədaqət, demokratik ailələrdə hörmət və tiranik ailələrdə isə qorxu prinsipinə əsaslanan münasibətlər hökm sürür.

Müasir həyat tərzinin təsirilə demək olar ki, ən çox demokratik ailə münasibətləri üstünlük təşkil edir. Belə ailədə və ya «bərabər münasibətlər» ailəsində qarşılıqlı vəzifələr və öhdəliklər, adətən, daha dəqiq və ədalətli şəkildə bölünür. Başqa sözlə, ailədə tərəf müqabili olan qadınla kişi arasında birlikdə müəyyənləşdirilmiş ədalətli rol bölgüsü mövcud olur. Tərəf müqabilləri bu və digər problemin həllində bir-birinə yaxından kömək edir, ailə qayğıları ilə bağlı qərarları birgə məsləhət və qarşılıqlı anlaşma şəraitində qəbul edirlər. Belə ailələrdə emosional dayanaqlılıq, adətən, kifayət qədər yüksək olur. Cəmiyyətdə məhz belə ailələrin çoxalması və onların daha da mükəmməlləşdirilməsi, o cümlədən bu istiqamətdə sistemli işlərin aparılması cəmiyyətin və dövlətin hər zaman diqqət verməli olduğu bir məsələdir.

Yuxarıda qeyd etdiyimiz kimi ailə müəyyən iqtisadi funksiya yerinə yetirir. Buraya ailə büdcəsinin, ailə təsərrüfatının idarə olunmasından başlayaraq məsuliyyət və müəyyən əmək bölgüsü ilə tamamlanan bir cox xırda işlər aiddir.

Ailələrin istər sosial, istər iqtisadi problemlərinin həllində kömək ola biləcək məqsədyonlü fəaliyyət proqramı işlənməlidir. Çünki dövlətin gələcək vətəndaşlarının şəxsiyyət kimi formalaşmasının sonrakı mərhələlərində ona təsir edən sosial amillər ailədə əsası qoyulmuş təməldən çox asılıdır. Həyatımızda müxtəlif mədəniyyətlərin qarşılıqlı əlaqələrinin intensivləşməsi, yeni dəyərlərin əxz edilməsi ailə məsələlərinə diqqətin

vacibliyini şərtləndirir. Cəmiyyətdə formalaşan yeni ailə modellərinin yaranma xüsusiyyətləri bundan çox asılıdır.

Müasir dövrdə münasibətləri rəsmi dövlət nigahı ilə tamamlanan ailələrlə yanaşı, nigahsız yaşayan və ya yalnız dini nigahla yaşayan ailələrə də geniş təsadüf edilir. Son illərdə nigahsız yaşayan ailələrin sayı nəzərə çarpacaq dərəcədə artmışdır. Bu məqam müasir, inkişaf etmiş ölkələr üçün xarakterik hal sayılır. Xüsusən gənc nəslin ailə qurmaq, rəsmi nigaha girməyə olan marağı getdikcə azalır. Yaxud da qurulan ailələr uzunömürlü olmur, tez bir zamanda dağılmaya məruz qalır.

Müasir cəmiyyətdə ailənin bir sosial institut kimi get-gedə zəiflədiyini hesab edən alimlər də vardır (6, s. 159). Əvvəllər qadın təsərrüfat işlərinə və uşaqların tərbiyəsinə, ər isə ailənin maddi və mənəvi təminatına cavabdeh idisə, müasir qadınların əksəriyyəti çalışmaqla ailənin iqtisadi təminatçısından birinə çevrilir. Bu da ailənin idarəolunması funksiyasına həm müsbət, həm də mənfi olmaqla təsirsiz ötüşmür. Təəssüf ki, bir çox ailələrdə qadının işləməsi səbəbi ancaq ailənin büdcəsinə kömək olmaq zərurətindən yaranır. Maddi vəziyyətin pis olması ilk olaraq ailə üzvlərinin sağlamlığına, uşaqların bəslənmə və təhsil vəziyyətinin pisləşməsinə təsir edir. Bundan sonra isə cütlüklər arasında məsuliyyətlərin yerinə yetirilməsi mövzusunda problemlər yaşanır. Bəzən narazılıqlar o həddə çatır ki, hər iki tərəfin bütün müsbət xüsusiyyətlərinə baxmayaraq, məhz bu kimi səbəblərdən ailələr dağılmaya məruz qalır.

Bildiyimiz kimi ailədələrdə özünü göstərən çətinliklərin, konfliktlərin səbəbləri müxtəlifdir. Görkəmli rus yazıçısı L.N.Tolstoyun sözləri ilə desək, "bütün xoşbəxt ailələr bir-birinə oxşayır, bədbəxt ailələrin hər biri isə özünəməxsus tərzdə bədbəxtdir". Hər bir konkret ailədə çətinliklərin, münaqişələrin səbəblərini müəyyənləşdirmək və onları optimal yollarla aradan qaldırmaq lazımdır.

Düzdür, bəzi ailələrdə iqtisadi problemlərin olmadığı halda belə münaqişələr baş verir. Bəzən isə iş sıxlığı səbəbi ilə də ailədaxili münasibətlərin tənzimlənməsinə vaxt ayıra bilməyən ailələr də vardır. Ata və ana əksəriyyətlə gec gəlir, səhər erkən gedir. Həftə sonlarında belə çalışır. Yoldaşına və uşaqlarına yetərincə maraq göstərə bilmir. Həm ana, həm də ata işləyirsə sanki, uşaqlar evdə sadəcə vaxt keçirmiş olurlar. Heç bir maddi problemləri olmasa belə, ailədaxili mənəvi psixoloji mühit normal olmadığı üçün belə ailələr də cəmiyyətdə sağlam ailə hesab oluna bilmirlər.

Göründüyü kimi, ailədaxili münaqişələri doğuran səbəblər kifayət qədər mürəkkəb və rəngarəngdir. Lakin ümumilikdə bu səbəbləri iki qrupa ayırmaq olar. Birincisi, ailə qurulanadək mövcud olan səbəblər, ikincisi ailə qurulduqdan sonra yaranan səbəblər. Birinci səbəblər sırasını çox zaman risk amilləri qrupu adlandırırlar. Bu, elə səbəblər çoxluğudur ki, mümkün ailə böhranını və ya ailənin dağılma riskini ailə qurulmamışdan öncə özündə əks etdirir. Müvafiq cəhdlərə baxmayaraq, ailə qurulana qədər olan tanışlıq əksər hallarda bu riski aradan qaldırmır. Risk amilləri insanın tərbiyəsi, şəxsiyyəti, milli, irqi, dini mənsubiyyəti, sosial statusu, eyni zamanda, nigahın şərtləri ilə bilavasitə bağlıdır. Ailədə tərəf müqabillərinin təhsilində və yaşında böyük fərqin mövcudluğu, tərəf müqabillərindən birinin spirtli içkilərə, nakromaniyaya meylliliyi və ya aludəçiliyi, çox erkən yaşda nigaha daxilolma, nigaha və ailəyə qeyri-ciddi münasibət, ilkin tanışlıq müddətinin çox qısa olması, ailə qurduqdan sonra uşağın dünyaya gəlməməsi ehtimalı və tərəf müqabillərindən birinin bunu arzulamaması, valideynlərin nigahın bağlanılmasına kəskin etiraz etməsi, qarşılıqlı razılıq olmadan məcburiyyət qarşısında nigahın bağlanması və s. kimi halları göstərmək olar. Bu amillər ailə həyatının ilk illərində xüsusilə həlledici təsirə malik olur (http://az.wikipedia.org/wiki/Ailə_münaqişələri). Bu onu göstərir ki, risk amilləri qrupu ailə quranların həyatını ilk illərdə bir çox cəhətdən təyin edir. Burada Azərbaycan ailələrinin çoxu üçün xarakterik olan bir cəhəti də qeyd etmək lazım gəlir. Bir sıra hallarda erkən nigaha daxilolma, çox vaxt isə gənc ailə cütlüklərinin öz valideynlərindən maddi və mənəvi cəhətdən

asılı olması onların ailə məsuliyyətini hiss etmək, birgə məqsədlərini müəyyənləşdirmək imkanını məhdudlaşdırır. Belə olan halda, gənclərin valideynlərindən biri gənc ailənin təminatından tutmuş məişət məsələlərinin həllinə qədər bütün problemləri öz üzərinə götürür.

Tədqiqatçılar boşanmalara və ailənin dağılmasına gətirib çıxaran səbəbləri ümumilikdə üc qrupa ayırmağı məqsədəuyğun hesab edirlər: 1. maddi-məişət problemləri; 2. şəxsi münaqişələr; 3. xarici təsirlər (4, 56s.). Maddi-məişət problemləri ailənin yaşayış tərzi ilə bağlı meydana çıxan müxtəlif çətinlikləri özündə əks etdirir. Yaşayış şəraitinin ağırlığı, tərəf müqabillərindən birinin ailə təsərrüfatını idarə etmək istəməməsi və ya bunu bacarmaması, maddi təminatın olmaması və digər müvafiq problemlər ailələrin dağılmasına səbəb olan mənfi amillərdən sayılır. Belə problemlərin davamlı xarakter alması ağır maddi-mənəvi sıxıntılar doğurur. Bu və digər səbəblərdən əhalinin maddi, sosial-iqtisadi rifahında, mənzil təminatında yaranan problemlər qurulan ailələrin sayının azalmasına gətirib çıxaran mühüm amillərdən sayıla bilər. Bəzən bu səbəbdən ailələr ya qızın, yaxud da oğlanın ailəsi ilə birlikdə yaşamaq məcburiyyətində qalırlar. Hətta onların hər ikisi işləsə belə müstəqil yaşayış yeri əldə edə bilmələri çətin olur.

Beləliklə, ailə həyatında meydana cıxan cətinliklər həm ailə qurmaq istəyənləri, həm də ailəliləri ciddi çətinliklərlə üzləşdirir. Bununla belə, bəzi ailələrin dağılmasını mütləq şəkildə mənfi amil kimi qiymətləndirmək mümkün deyil. Belə ki, bu amil istər-istəməz hər kəsin diqqətini ailə-nigah münasibətlərinə çəkir, cəmiyyətdə sosial ədalətin, mənəvi, mədəni və əxlaqi prinsiplərin qorunub saxlanması zərurətini bilavasitə təsdiqləyir. Müasir həyat ailənin yalnız iqtisadi yükünü deyil, psixoloji və mənəvi yükünü də artırmışdır. Yuxarıda sadalanan həm sosial, həm də iqtisadi səbəblərdən qaynaqlanan ailə problemlərinin ailə münasibətlərinə ağır zərbə vurmasının qarısı alınmazdır. Buna görə də belə nəticə çıxarmaq olar ki, ailə münasibətlərinin yaxşılaşmasını şərtləndirən amillərin inkişafı zəruridir. Müasir cəmiyyətdə yeni ailə modelinin formalaşmasına yardımçı bütün imkanlar ailənin sosial iqtisadi inkişafından asılıdır. Məsələyə sosial- fəlsəfi aspektdən yanaşdıqda qeyd etmək lazımdır ki, cəmiyyətdə sosial-iqtisadi məsələlər hər zaman böyük əhəmiyyət kəsb etmişdir. Məhz ailə münasibətlərinə bu məsələlərin təsiri də hər zaman böyük olmuşdur. Lakin fikrimizcə, bugünki səviyyədə inkişaf etmiş modern cəmiyyətin öz sifarişidir ki, münasibətlərin həllində vacib amil kimi maddi məsələlər dayansın. Bir halda ki, belədir, Azərbaycan cəmiyyətində ailə münasibətlərində problemlərin həlli şansı böyükdür. Bunu söyləməyə dövlətin iqtisadi imkanlarının getdikcə daha da artması imkan verir. Ailənin gələcəyini müəyyən edən mənəvi psixoloji, sosial-iqtisadi siyasi və digər amillər daim cəmiyyətin və dövlətin sosial siyasətinin diqqət mərkəzində olmalıdır. Cəmiyyət dəyişdikcə, ailə də dəyişir və inkişaf edir. Müasir şəraitdəbütün dünyada olduğu kimi Azərbaycanda da ümumi yanaşma səviyyəsində qiymətləndirildikdə ailə problemlərinin tədqiqi, insanların ailə həyatında başverən dəyişikliklərin öyrənilməsi kifayət qədər böyük əhəmiyyət kəsb edir, dünyada dəyişən, yeniləşən şərait ailə məsələlərinə münasibəti də kökündən dəyişir. Yeniləşən şərait ailələrə, insanlara bütün mənfi və müsbət xüsusiyyətləri ilə yanaşı, yeni qayğılar gətirir. Bununla bağlı araşdırılması zəruri olan problemlərin sırası kifayət qədər genişdir. Beləliklə, nəticə olaraq görürük ki, ailə həyatı ilə bağlı problemlərin tədqiqi, öyrənilməsi həm nəzəri cəhətdən, həm də praktik baxımdan çox mühüm əhəmiyyət kəsb edən və heç də asan olmayan bir məsələdir. Belə ki, ailə və nigahın dayanıqsızlığı, boşanmaların sayının artması ilə bağlı yaranan çoxsaylı problemlər bu gün bir cox dünya ölkələri üçün xarakterikdir. Başqa sözlə, ailə təsisatı indi özünün çətin və böhranlı anlarından birini yaşayır. Ailəni daxildən möhkəmləndirən bir cox amillər mühüm əhəmiyyət kəsb edir. Sosial-iqtisadi, mənəvi intellektual, əxlaqi-etik vəbioloji-psixoloji amillər bu cəhətdən daha çox əhəmiyyət kəsb edir. Ailə yalnız iki gəncin təmiz sevgisi üzərində qurulmur. Sonralar hərəkət və davranışlar, mühit və adamlarla ünsiyyət, həyat və həyati problemlərə münasibətlər çoxalır, ailə həyatı getdikcə mürəkkəbləşir.

Bildiyimiz kimi ailələlərdə özünü göstərən çətinliklərin, konfliktlərin səbəbləri müxtəlifdir. Görkəmli rus yazıçısı L.N.Tolstoyun sözləri ilə desək, "bütün xoşbəxt ailələr bir-birinə oxşayır, bədbəxt ailələrin hər biri isə özünəməxsus tərzdə bədbəxtdir". Hər bir konkret ailədə çətinliklərin, münaqişələrin səbəblərini müəyyənləşdirmək və onları optimal yollarla aradan qaldırmaq lazımdır.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Konstitusiyası, B.: Qanun, 2002, 100s.
2. Əsədov A. Maskulinliyin və feminliyin sintez formaları arasında dövlət və ailə paralelləri. Genderşünaslıq, B.: Səda, № 2, 2000, s. 20-21.
3. Афанасьева Т. М. Семья. — 2-е издание, перераб. и доп. — Москва: Просвещение, 1988. — 284 с.
4. Гавров С. Н. Историческое изменение институтов семьи и брака. — М.: МГУДТ, 2009. — 366 с.
5. Гурко Т.А. Трансформация института современной семьи // Социологические исследования. — 1995. — № 10. — С. 95—99.
6. Гребенников И. В. Основы семейной жизни: Учебн. пособие. М.: Просвещение, 1991.
7. Сатир В. Как строить себя и свою семью. М., 1992, С. 11
8. Радугин А.А. , Радугин К.А. Социология. М.: Центр, 2000, 281с.
9.http://az.wikipedia.org/wiki/Ailə_münaqişələri


# İSLAM VƏ BUDDİZM KONTEKSTİNDƏ ŞƏXSİYYƏTİN MƏNƏVİ İDEALLARI MƏSƏLƏLƏRİNƏ DAİR BƏZİ MÜLAHİZƏLƏR


**Məmmədtağı Rzayev**
Bakı Slavyan Universiteti, dissertant
e-mail: m.rzayev@hotmail.com



**Açar sözlər:** islam, buddizm, mənəvi ideal, təkəbbür, yekəxanalıq, özünütəsdiq, zahidlik


Din dünyanı dərk etməyin xüsusi üsulu, keyfiyyəti olaraq fövqəltəbiiyə, inanca əsaslanan mənəvi fəaliyyət sahəsidir. Din özünə əxlaqi normaların və davranış növlərinin, mərasimlərin, sitayiş hərəkətlərinin külliyyatını və insanların təşkilatlarda birliyini ehtiva edir. Hər bir din insanda müəyyən dəyərlər formalaşdırır ki, bu da özündə requlyativ element daşıyan özünəməxsus davranış proqramı yaradılmasına yardım edir. Din insanlara özlərini mənəvi birlik kimi dərk etməyə kömək edir. Bu insanlar ümumi dəyərlər və məqsədlər vasitəsi ilə bir-birnə bağlanırlar. Din onların özünütəsdiq etməsinə, eyni baxış, dəyərlər, inanclara sahib ictimai sistemə inteqrasiya olunmalarına yardım edir. Həyat dinin insanın inanc vasitəsi ilə xilasında böyük rolunun olduğunu göstərmişdir. Onu da vurğulayaq ki, bütün dünya dinləri insan həyatını Allahın müqəddəs lütfü kimi qəbul edirlər. Təbiidir ki, praktikada hər şey daha mürəkkəbdir, belə ki, bəşər tarixinin elə dövrləri olmuşdur ki, bəzi məqamlarda dini təlimlərin ayrı-ayrı müddəaları özünəməxsus izah edilməyə çalışılmış, güc tətbiq etməyə, qan tökməyə haqq qazandırılmışdır.

Müxtəlif keçməkeşlərə baxmayaraq, bütün mövcud dinlər insanın özünütəsdiqində ciddi rol oynadığı qənaətinə gəlmək mümkündür. Aralarındakı müxtəlifliklərə baxmayaraq demək olar ki, bütün dinlər insanın özünütəsdiqini iradə azadlığı və xoşbəxt həyat

bağlılığında təqdim edirlər. Təbiidir ki, ən ümumi səviyyədə müşahidə edilən bu oxşarlıq konkret məsələlər üzrə fərqliliklərin olduğunu da istisna etmir.

Dində xeyir və şər, etik prinsiplər, insan azadlığı və məsuliyyəti, insan özünütəsdiqi problemi müəyyən mənada, mənəvi ideal məsələsinə gətirib çıxarır. Mənəvi ideal insanın həyatı dərk etməsində, öz həyatını dəyərləndirməsində, həyatın mənası haqqında təsəvvürlərin formalaşmasında ciddi rol oynayan faktorlardan biridir. Bu səbəbdən də dini dünyagörüşü ilə mənəvi ideal arasında əlaqələrin fəlsəfəsinin öyrənilməsi bütün dövrlər üçün aktual problemlərdən biri olmuşdur. İnsanın mənəvi-əxlaqi dəyərlərinin transformasiyasının daha böyük təsirə malik olduğu müasir dövrdə problemin bu aspekti bəşəriyyətin gələcəyi baxımından ayrıca önəm kəsb edir. Maraqlıdır ki, XX əsrin ikinci yarısı və XXI əsrin başlanğıcında bütövlükdə bəşəriyyətin taleyi ilə bağlı qlobal problemlərin kəskinləşməsi fonunda məhz dini-mənəvi dəyərlər yenidən aktuallaşdı və aktuallaşmaqda davam edir. Bu da dinin insan həyatının təməl şərtləri ilə sıx bağlı olduğunu və hər təhlükə yaranan zaman insanın Allaha üz tutması faktının süni olmadığını göstərir. Hər bir halda müasir tarixi mərhələ üçün dini-mənəvi özünütəsdiq fərdi səviyyə ilə yanaşı, həm də qlobal səviyyədə mövcudluq şərtləri ilə birbaşa bağlıdır.

İslamda Allahın təsvir edilməsi, həmçinin birbaşa Allahla assosiasiya oluna bilən obrazlar qəbuledilən deyil. İslam dinin fundamental xüsusiyyəti bütpərəstliyi qəbul etməməkdir. Bu hal "Allahdan başqa Allah yoxdur" ehkamında ifadə olunmuşdur. Allah elə bir varlıqdır ki, nə növü, nə çoxluq halı vardır. Bu termin vahid Allahın İslam konsepsiyasının digərlərindən fərqləndiyinə işarədi.

Bir sıra araşdırmaçılarnın mövqeyinə görə, "İslam din olaraq yeni bir təfəkkür və həyat tərzi gətirdi. Bu zaman iki yöndə proseslər vüsət aldı: bir tərəfdən, əvvəldən var olan biliklərin, düşüncənin yeni istiqamətə yönəldilməsi, uyğunlaşdırılması, digər tərəfdən, sırf İslamın öz spesifik ideyalarının get-gedə çiçəklənməsi baş verdi" [1, s.23]. Öncədən var olan biliklərin yeni istiqamətə yönəldilməsi İslamın bir din hadisəsi olaraq xeyli prinsipial dini ehkamları öz keyfiyyətlərinə uyğun qiymətləndirməsi anlamına gəlir. Yəni İslam özündən əvvəlki bilikləri kortəbii yox, konkret öz missiyasına tam uyğun olaraq yeni istiqamətə yönəltmişdir. Müsəlman üçün Allah hər şeyə qadir, Yaradan və bütün dünyaları saxlayandır. Allah heç şeyə oxşar deyil və onunla heç nə müqayisə oluna bilməz. Quranın "İxlas" surəsində deyilir: "O Allah birdir (heç bir şəriki yoxdur); Allah (heç kəsə, heç nəyə) möhtac deyildir!; O, nə doğmuş, nə də doğulmuşdur!; Onun heç bir tayı-bərabəri (bənzəri) də yoxdur!"[3, 1-4; 112, s.604]. İslam Allaha hər hansı insani keyfiyyət və ya xüsusiyyətin şamil edilməsini qəbul etmir. Allahın yaradılışın yeddinci günündə istirahət etməsi, Allahın insanlara qarşı hansısa cəzalar hazırlaması və ya O, hansısa insani varlıqlarda təcəssüm edilir kimi ideyalar İslamda küfr hesab edilir.

Islam müqəddəsləri vurğulayırlar ki, özünüdərk edən, öz Allahını da dərk edə bilər. Heç kim özündən qaçmaq məqsədi ilə İslamdan yararlana bilməz. Hər bir kəs öz hərəkətləri və davranışlarına stimul verən faktorları öyrənməli və qiymətləndirməlidir. Bu zaman o, özünə qarşı səmimi olmalıdır. Öz davranışlarını dərk etməklə insan özünün həqiqətən kim olduğunu qəbul etmək imkanı qazanır, bu həqiqətə riayət etməklə inanc sahibi həmçinin Allahını tanıya bilir. Özünə həqiqi nüfuz etmək Allahı həqiqi dərk etməyə aparır.

Dinə görə, insan ona irsən verilən çoxlu sayda gözəl keyfiyyətləri dərk etməlidir. Onları hansı səbəbdən olur-olsun qəbul etməkdən imtina etmək Allahın lütfünü rədd etmək anlamına gəlir. İnsanın həyatını dolduran kiçik möcüzələri görə bilmək Allaha səmimi təşəkkürün əlamətləridir və bu, öz növbəsində, İlahinin verdiklərini zənginləşdirir. Peyğəmbərin belə bir kəlamı var: *"Sizin özünüzə arzu etdiyinizi qardaşınıza da arzu etməyənə qədər inancınız səmimi olmayacaq"[4, s.17].* Bu və digər məsələlərdə İslamla digər dini təlimlərin və xüsusən də Qədim Şərq fəlsəfi sistemlərinin müddəaları arasında oxşarlığın olması aydin görünür. İslamda təkəbbürlülük qınanılır. Bu səbəbdən insanın özü barədə layiq

olmadığı yüksək fikirdə olması məsələsi, hər hansı yüksək keyfiyyətə malik olduğundan lovğalıqla danışması, özünü başqalarından üstün tutması xoşa gəlməz haldır. Amma bununla yanaşı, özünəhörmət təqdirəlayiq bir hal kimi dəyərləndirilir, özünəhörmət hər hansı bir insanın var olmasına hörmətlə yanaşmanın ifadəsi kimi qəbul edilir. İslama görə insan öz varoluşundan razıdırsa, bu artıq özünəhörmət olduğu deməkdir. Digər insanlara yuxarıdan aşağı baxmaq, başqasının var olduğunu qəbul etməmək, onu heçə saymaqdır ki, bu da Allahın təqdir etmədiyi bir məqamdır. Bütün bəndələri Allah yaratmışdır və onun bu nemətinə kimsənin yuxarıdan aşağı baxmağa haqqı yoxdur. Peyğəmbərin təkəbbürü ittiham edən bütün hədislərində təkəbbür başqa insanlara yuxarıdan aşağı baxmaq kimi izah edilir. Özünəhörmət "mən varam" kimi mühüm faktın təsdiqidir, "sən yoxsan" və ya "sən heç kimsən" kimi kiməsə yuxarıdan baxmağın təsdiqi deyil. "Sən kimsən, mən dəyərliyəm" fikri özünəhörmətin tam əksidir. Oxşar fikirlərə bir çox mütəfəkkirlərin də görüşlərində rast gəlmək olar. Məsələn, Erik Fromm "Azadlıqdan qaçma" əsərində vurğulayırdı ki, "Özü haqqında yüksək fikir özünəhörmətə heç cür oxşamır, əksinə, onlar bir-birinə əksdir. Özünü çox yüksək tutmaq hansısa mənada əclaflığın bir növüdür. Hər bir əclaflığa oxşar olaraq özü ilə bağlı əsassız olaraq yüksək fikirdə olmaq da acgözlükdür. Belə insan mahiyyətcə, özünü heç sevmir, əksinə, onun özünün özündən xoşu gəlmir. Məhz sevginin bu çatışmazlığında hər bir yekəxanalığın kökü vardır" [8, s. 52].

Göründüyü kimi, yekəxanalığın insanın özünəhörmətlə heç bir əlaqəsinin olmadığı barədə E. Fromun yuxarıda qeyd edilən mülahizələri İslamda əsrlər öncə formalaşmış ehkama çox oxşardır. İnsanın özünü sevməsi ilə özü haqqında yüksək fikirdə olmasının sərhədləri barədə belə bir qənaətə gəlmək olar ki, insanın özünə sevgisi digərinə mütləq hörmət etmə ilə sıx bağlıdır. Yekəxanalıq isə özünə sevginin çatışmazlığından qaynaqlanan elə bir hissdir ki, başqasının varlığını qəbul etmir. Yəni özünü sevən öncə insan kimi öz varoluşunu qəbul edən deməkdir. Başqasının varlığını qəbul etmək elə öz varlığını qəbul etmək deməkdir. Bu dialektika pozulduqda, insan özü haqqında yüksək fikirdə olur ki, bu da başqasının kimliyini inkar etməkdə ifadə olunur.

İslamda bəndənin Allahın əmanəti olması tezisi vardır. Allah bizi bizə etibar edir. Allahın əmanətini qorumaq və Ona qayıdana qədər korlamamaq bəndənin borcudur. Əgər insan onu hardasa çirkləndiribsə və ya ona ruhi laqeydlik göstəribsə, təmizləməyə borcludur. Ancaq Allahın əmanətinə nifrət etməyə və ya ona yuxarıdan aşağı baxmağa haqqı yoxdur. İslama görə insan öznə hörmətlə yanaşmalı, Yaradanın yaradılış qüdrətinə daim heyran olmalıdır. Quranda buyrulur ki,*: "Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından Özün qoru!"*[3, s. 3;191, s.74].

Buddizmdə dini təsəvvürlər və şəxsiyyətin mənəvi idealları bir qədər fərqli məzmuna malikdir. Budda Allah deyildi, adi insan idı. O, həyatın əzab-əziyyət olduğu qənaətinə gəlmiş, şəxsi nümunəsində bu əziyyətdən qurtulmağın yollarını göstərməyə çalışmışdır. Burada insanın öz problem və qüsurlarını aradan qaldıraraq "Nurlanması" əsasında digərlərinə yardım edə bilməsi mühüm məqamlardan sayılır. Oxşar transformasiyalara istənilən insan qadirdir. Buddizmin mənəvi idealında bu aspektin yer alması onun kütləviləşməsini sürətləndirmişdir. Müəyyən mənada Buddizm hər kəsin qəbul edə biləcəyi mənəvi obraz yaratmışdır. Təbii ki, Budda insanların eyni olmadığını, onların fərqli xarakterə və meyllərə malik olduğunu başa düşürdü. Ona görə də o, hər hansı doqmatik sistem irəli sürmədi, öyrənənin fərdi keyfiyyətlərindən asılı olaraq müxtəlif sistemlər və metodlar irəli sürülməsini məqbul saydı. O, mənəvi dəyərlərin insanların öz şəxsi təcrübələrində yoxlanılmasına üstünlük verirdi. Bu praktiki təmrin də Buddizmdə mənəvi idealın ayrılmaz hissəsi olmuşdur.

İnduizmdən fərqli olaraq Buddizmdə kasta ideyası yoxdur, insanların imkanlarının eyni olması baxımından bərabər olmaları ideyası vardır. İnduizmdə olduğu kimi Buddizmdə də karmadan danışılır. Ancaq burada karma fərqli, başqa ideyaya malikdir. Bu, tale və ya qədər ideyası deyil. Klassik İnduizmdə karma ideyası borc ideyasına yaxındır. İnsanlar fərqli

həyat və sosial şərtlərdə doğulurlar, onların karması və ya borcu həyati situasiyalarda davranışın klassik nümunələrinə uyğun hərəkət etməkdir. Buddizmdə karma nələrisə düşünməyə və ya etməyə həvəsləndirən "impulslar" kimi ifadə edirlir. Bu impulslar öncəki adi hərəkətlərin və davranış modellərinin nəticəsi kimi meydana gəlir. Anacq hər bir impulsa uyğun hərəkət etmək zərurəti yoxdur, bizim davranışımız ciddi determinilәşmiş deyil. Karmanın buddist konsepsiyası, əsasən belədir.

İnduizmdə və Buddizmdə yenidən dünyaya gəlmə (reankarnasiya) vardır, ancaq fərqli başa düşülür. İnduizmdə Atman haqqında danışılır. Atman və ya "Mən" permanentdir, dəyişməzdir, cism və ağıldan ayrıdır, hər zaman eynidir və bir həyatdan digərinə keçir. Bütün bu "Mən"lər və ya Atmanlar kainatla və ya Brahma ilə birdir. Beləliklə, ətrafımızda gördüyümüz müxtəliflik illüziyadır, çünki reallıqda biz hamımız birik. Buddizm bu problemi başqa cür izah edir. Budizmə görə, dəyişməz "Mən" mövcud deyil və ya həyatdan həyata adlayan Atman da yoxdur. Buddizmə görə, hər bir kəs fərdidir, hətta Budda olandan sonra da o öz fərdiliyini saxlayır. Deməli, Buddizmə görə, hər şey Mütləqdə eyni və ya bir deyil.

Buddizmdə problemlər və çətinliklərdən azad olmağa aparan müxtəlif fəaliyyət növlərinə xüsusi əhəmiyyət verilir. Bu zaman ağıl və ürəyə təsir edən daxili texnikalara müraciət əsas götürülür. Budda olmaq üçün özünü başqalarına yardım etməyə tam olaraq verməlisən və bu yolda daim kamilləşməlisən. Bu yol insanı azadlığa aparır. Budda öyrədirdi ki, insan nirvana səviyyəsinə çatanda şüur axını kəsilir və ya şam kimi sönür. Bu, insanlara əziyyətlərin sonunun gəldiyini hiss etməyə imkan verir. Məlumdur ki, Buddizmdə insanın mənəvi idealı əziyyətlərdən qurtulmaqdan ibarətdir. Bu ideala çatmağa hər kəsin imkanı vardır. Lakin o, konkret fərddən asılıdır. Budda olmaq tamamilə problemlərdən azad olmaqdır. Buddizmin mənəvi idealı bu dünyada deyil, göylərdə zənginlikdir, sabitlikdir.

Buddizmə görə, bu dünyada hər şeyin dəyişkənliyi əbədi olduğundan, belə dünyada dəyişməz mənəvi ideal ola bilməz. Mənəvi idealın bu dünyadan yüksəkdə olan, sabit bir vəziyyətdə olması, Buddizmdə insanın mənəvi özünütəsdiqi daim indiki zamana diqqət yönəltməsi ilə sıx bağlıdır. İndiki zamana diqqət yönəltmək keçmiş və gələcəyi unutmaq deyil, sadəcə hər şeyin dəyişkən olduğu bir yerdə dünənin dərdini, sabahın isə qayğısını ürəyə salmaq əhəmiyyətsizdir, çünki onların hər biri insanın iradəsindən asılı deyil.

Məlum olduğu kimi, monoteist dinlərdə Allah hərşeyəqadir Ali varlıqdır, dünyanı və ondakı bütün canlı varlıqları yaradandır. O, mütləq Xeyir və Sevgidir. İslam, İudaizm və Xristianlıq Allah sözü altında yaradıcı qüvvəni nəzərdə tutur. Buddizmin diniliyi isə Allaha inamda deyil, mənəvi zənginliyə can atmaqdadır ki, buna da çatmanın yolunun varlığın dərk edilməsi və düzgün həyat tərzi ilə mümkünlüyü qeyd edilir.

İslam insana düzgün həyat sürməsini tövsiyə edir. Yəni Allah nəyi buyurursa, onlara əməl etmək lazımdır. Bu qayda ilə insan düzgün həyatını yaşaya bilər və onun mənəvi idealı bununla məhdudlaşır. Eyni zamanda, insanın Allahın əmrlərindən çıxmaması onun üzərinə böyük məsuliyyət qoyur. Deməli, İslamda iradə azadlığı ilə məsuliyyət bir-birinə daha çox bağlıdır. Bütün bunlar İslamda insanın kamilləşməyə laqeyd münasibətinin olması demək deyil. İslam insan kamilliyini Allahın buyurduqları çərçivədə görür. Ondan kənara çıxmaq olmaz. Belə olan halda dünyanın nizamı pozular, çünki insan dərhal şeytanın təsiri altına düşə bilər. Bu hal İslamda insanın mənəvi-ruhi və psixoloji qabiliyyətlərinə təvazökar yanaşması kimi maraqlı bir qənaəti meydana çıxarır.

İslamda insanın mənəvi idealının birbaşa Allah obrazı ilə sıx bağlı olması bütün bunlara görə, daha maraqlıdır. Bu obraz insanı həmişə müəyyən qaydalar üzrə yaşamağa yönəldir. İslamda insan idealı birmənalıdır. Şərq dini təlimlərində isə məsələyə fərqli yanaşmalar vardır.

Buddizm insanın mənəvi zənginləşməsi məsələsini qaldırır və bunun yolunu dünyəvi istək və arzulardan azad olmaqda görür. Yəni faktiki olaraq çıxış yolunu yalnız mövcud dünyada, həyatda görmür. Zahidlik şüuru burada üstünlük təşkil edir. Buddizm bu problemə

fərdi yanaşdığından hər kəs üçün eyni olan konkret qayda göstərmir. Buddizm təklif edilən yolu seçməyənləri də qəbul edir, onları “qanundankənar” saymır. Ancaq bu insanların daim əzab içində yaşayacaqlarını ifadə edir. Əzablardan qurtuluş istək və arzulardan qurtuluş olduğundan bu yolu seçənlər kütləvi ola bilməz. İdeal halda isə bu, bəşəriyyətin “eynilərin harmoniyası” kimi qeyri-müəyyən və passiv duruma düşməsi deməkdir. Çünki insan nəsli davam etməlidir, onun istəklərdən tamamilə imtinası real deyil. Şərq dini təlimlərinin mənəvi-əxlaqi aspekti təbii ki, maraqlı məqamlarla zəngindir. Onlar insanda humanizm, dostluq, qarşılıqlı yardım və s. kimi xüsusiyyətlər formalaşdırır. Buddizm həyatı dərk etmək əsasında onun nemətlərindən imtinanı, şüurun tamamilə “təmizlənməsini” təbliğ edir. Son nəticə nirvana vəziyyətidir ki, bütünlüklə Kosmik şüura bağlanmağı nəzərdə tutur. Ancaq nirvananın konkret təsvirini vermək mümkün deyil, çünki bu qeyri-müəyyən bir psixoloji durumdur.

Normativ İslama görə, hər bir vəziyyətində müəslman tərki-dünya deyil. O, yalnız ölümündə bu dünyadan gedir, qalan bütün hallarda verilən dünyada həyatı düzgün yaşamalıdır. Ona qoyulan qadağaların da məqsədi bundan ibarətdir. Deməli, İslamla bir çox Şərq dini təlimlərinin mənəvi ideal obrazları fərqlidirlər.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. Bünyadzadə, K. Y. Islam fəlsəfəsi: tarix və müasirlik / K. Y. Bünyadzadə. - Bakı: “Çaşıoğlu”, - 2010. -154 s.
2. Əliyev R. Y. İslam / R. Y. Əliyev. - Bakı: İrşad, - 2000. - 380 s.
3. Qurani-Kərim /ərəb dilindən tərcümə edənlər: Z. Bünyadov və V. Məmmədəliyev. – Bakı: “Çıraq”, - 2005. - 636 s.
4. Аль - Бухари, М. Сахих аль - Бухари [Свод хадисов имама аль - Бухари] / Аль - Бухари М. пер. с араб. В. А. Нирша. - Москва: Умма, - 2003. - 1121с.
5. Васильев, Л. П. Религии Востока. Конфуцианство, буддизм и даосизм / Л. П. Васильев. - Москва: Либором, -2012. - 194 с.
6. Всеобщая история религий мира / - Москва: Эксмо, - 2009. - 736 с.
7. Эррикер, К. Буддизм / К. Эррикер. Пер. с англ. Л. Бесковой. - Москва: ФАИР-ПРЕСС, - 2002. - 304 с.
8. www.verapravoslavnaya. ru


# TARİX FƏLSƏFƏSİNDƏ SƏBƏBİYYƏT PRİNSİPİ


**Xalidə Nəzərova**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işçisi
xalide.nezerova @yahoo.com



**Açar sözlər:** fəlsəfə, sistemlilik, səbəbiyyət, varlıq, qanunauyğunluq, məntiq, metodoloqiya.


Tarix fəlsəfəsi – elmin (tarix elminin) mühüm istiqamətlərindən biri olmaqla ilk dəfə Avropada, intibah dövründə diqqət mərkəzinə gəlmişdir. “Tarix fəlsəfəsi” terminini elmi dövriyyəyə Volter daxil etmişdir. “Təsvirçi” tarixlə, yəni yalnız faktların aşkarlanması ilə məşğul olan tarixlə tarixi prosesin nəzəri konstruksiyası arasında fərqin ilk dəfə ciddi şəkildə əsaslandırılmasına J.J.Russonun əsərlərində rast gəlinir. Ona qədərki dövrdə D.Vuko “yeni elmlə (tarix fəlsəfəsi)” əldə edilən “əbədi ideal tarix” və ayrı-ayrı xalqların empirik tarixi anlamında fərqin mövcudluğunu göstərmişdir.

Sistemlilik prizmasından tarixi materialist baxışın əsas müəllifi K.Marks olmuşdur. XX əsrdə tarix fəlsəfəsinin inkişafı N.Berdyayev, K.Yaspers, R.Aronun əsərlərində geniş vüsət almışdır. Tarix fəlsəfəsinin interpretasiyaları sırasında U.Rostou və A.Toynbinin konsepsiyaları daha populyar mövqe tutur (Поппер Карл. Предположения и опровержения. M. 2008, стр. 49).

Tarix fəlsəfəsi Qərb ölkələrində kifayət qədər populyardır. E.Karr yazırdı ki, tarixin fəlsəfəsinə fikir verməyən tarixçilər.... "....bizim həyətyanı bağçalarımızda cənnət yaratmağa" çalışanlardır. Müasir tarix fəlsəfəsi – fəlsəfi biliyin nisbi müstəqil sahəsi olmaqla, cəmiyyətin inkişafının təbiətdən fərqli keyfiyyət özünəməxsusluğunu öyrənir.

Fəlsəfənin əsas problematikasını və fəlsəfi fikrin mahiyyətini müəyyənləşdirmək üçün ən düzgün yol fəlsəfə tarixinin izlənməsi deyil, insan təfəkkürünün müasir mərhələdəki strukturunda onun nisbi yerinin təyin olunmasıdır. Başqa sözlə, fəlsəfənin özünəməxsusluğu elm, din, incəsənət, əxlaq, siyasət, hüquq və s. şüur formaları ilə müqayisədə müəyyənləşdirilməlidir. Və ancaq müasir baxımdan, məhz fəlsəfi fikir kimi dəyərləndirilməli olan sahənin meyarları ayırd edildikdən sonra əvvəlki tarixi mərhələlərdə həmin bu şüur formalarının qarşılıqlı nisbəti haqqında fikir yürütmək olar. Ancaq belə yanaşdıqda, məsələn, orta əsrlərdə fəlsəfəyə aid edilən bir mövzunun və ya əsərin müasir anlamda əslində ilahiyyata, yaxud elmə, siyasətşünaslığa aid olduğu aşkara çıxır.

Fəlsəfə tarixində isə müasir insan keçmiş insanın düşüncələrini təhlil edir. Eyni dövrdə yaşayanların müəyyən məsələlər haqqında düşüncələrini müqayisə etməklə yanaşı, həmin məsələlərə dair müasir informasiya bazasından və çağdaş düşüncədən də istifadə edir. Və çox vaxt zaman fərqi itir, keçmiş bir təlimin izahı üçün müasir tədqiqatçıya və müasir bir təlimin izahı üçün keçmiş tədqiqatçıya istinad edilir.

Hər bir elm toplanmış təcrübə əsasında inkişaf edir. Tarix elmi də əvvəlki nəsillərin tarixi təfəkkürünün ən əhəmiyyətli inikası kimi təsəvvür edilir. Yeni bilik isə həm özündən bilavasitə əvvəlki biliyin, həm də tədqiq edilən tarixi problemə aid daha əvvəlki biliklərin hamısının dəyərli məzmununu ehtiva edir. Tarixçi təkcə faktların aşkar edilməsi ilə kifayətlənməməlidir. Tarixə aid elmi əsərin məqsədi öyrənilən keçmiş hadisələri bərpa etməkdir. Axı keçmiş də reallığa malikdir. Tarixi reallığın inikası elə tarixin bərpa edilməsidir. Alim tarixi bərpa etməklə hadisənin təsvirini və təhlilini gerçəklikdə mövcud olanlara yaxınlaşdırmağa çalışır. Tarixi idrakın vəzifəsi reallığın mümkün qədər düzgün surətini verməkdir, hərçənd, tarixdə biliyin relyativlik (nisbilik) dərəcəsi hər hansı başqa sahədə olduğundan çoxdur. Keçmişdən əxz olunmuş biliklər müasir dövrə məxsusdur. Onları elmi şəkildə dərk etmədən irəli getmək mümkün deyil. Keçmiş yaradılmış mədəniyyətdə, sabitləşmiş sosial əlaqələrdə və ənənələrdə, hətta sosial-siyasi quruluşda da yaşayır.

Tarixçi konkret tarixi məsələnin öyrənilməsinə başlamazdan əvvəl hökmən yadda saxlamalıdır ki, tarixi tədqiqatda elmi irs aşağıdakı qaydada ifadə olunmuşdur: tarixçi başqa tədqiqatçıların irəli sürdüyü məsələləri toplanmış biliklərdən çıxış edərək həll etməyə çalışır; yeni faktlarla köhnə bilik arasında ziddiyyətlər aşkar edildikdə bunlardan sonuncusu elmi tənqidə məruz qalır, yeni anlayış həmişə əvvəlki tarixi fikrin tənqidi və elmi şəkildə yenidən işlənməsi prosesində yaranır. Buna görə də tarixi hadisələrin ciddi səbəb-nəticə əlaqələrinin aşkar edilməsi elmi cəhətdən çox vacibdir.

İdrak prosesini insanların keçmişdəki praktiki fəaliyyətindən ayırmaq olmaz. Düşünən zəka sahibi faktlar arasında vəhdət və fərq olmasını görür, buna görə də ən əhəmiyyətli faktlar üzərində diqqətini cəmləşdirir. Tarixçi keçmişi öyrənərkən hadisələrin mahiyyətinə getdikcə daha dərindən nüfuz edir. Öyrənilən dövrün təsviri tarixi hadisənin məzmununa adekvat olana qədər bu idrak prosesi davam etməlidir.

Buna görə də tarixi tədqiqatın vəzifəsi bizə gəlib çatmış tarixi hadisələr məcmusundan yalnız ciddi əhəmiyyət kəsb edənləri və elmi nəzəriyyəyə uyğun olanları seçməkdən, onların

köməyi ilə tarixi mənzərəni yaratmaqdan, onların arasında mövcud əlaqələri aşkar etməkdən ibarətdir.

Tarixin dərk edilməsi tarixçinin öyrənilən tarixi dövr haqqında mötəbər biliklər əldə edilməsinə yönəlmiş yaradıcı fəaliyyətidir. Buna görə də tarixçi obyektiv tarixi biliyə can atmalı və bu bilik ayrı-ayrı tarixi faktların və ya hadisələrin birləşdirilməsi deyil, elmi nəzəriyyə olmalıdır. Bu nəzəriyyə məntiqi baxımdan ardıcıl olmalıdır. Elmi tarixi bilik həmişə elmi nəzəriyyə, yəni, tarixin öyrənilən sahəsinin mühüm əlaqələri barədə dolğun təsəvvür yaradan elmi müddəalar sistemi forması kəsb etməyə çalışır. Sırf məntiqi mənada nəzəriyyə məntiqi araşdırma baxımından qapalı fikirlərin məcmusudur. Məntiqi mövqedən çıxış etsək, hətta ayrıca bir təklif məntiqi nəticə ilə birlikdə götürüldükdə nəzəriyyə ola bilər. Nəzəriyyə tarixi faktları və hadisələri maksimum dolğun izah etməli, onları özlərinin əsası kimi müəyyən edilən əlaqələr sisteminə uyğunlaşdırmalıdır. “Metodoloji baxımdan hər bir nəzəriyyə öz müddəalarının təsvirinin maksimum dolğunluğuna və adekvatlığına, tamlığına və onların bir-birindən nəticə kimi çıxarılmasına, onların arasında daxili ziddiyyət olmamasına çalışmalıdır” (Всемирная Энциклопедия. Философия. М. АСТ Минск, 2001:1069).

Peşəkar tarixçi təkcə tarixi faktları dəyərlərə aid etməyə çalışmaqla kifayətlənməyib, həm də onların barəsində dəyərli mühakimələrə malik olmalıdır. O, pisləməli və tərifləməli deyil. Əks halda o özü subyektivizm yoluna düşür. Obyektiv tədqiqatçı həmişə özünün öyrəndiyi dövrə xas olan dəyərlər tapmağa çalışır. “Tarixçi mənbələri öyrənərkən aşkar etdiyi motivasiya komplekslərini ixtiyari şəkildə birləşdirə bilməz; o, həmin komplekslərin düzgün nisbətlərini tapmalı, motivasiya üfüqlərinin həqiqi mənzərəsini, bununla da bütün tarixi gerçəkliyin mənzərəsini bərpa etmək üçün onların bir-birinə nisbətini müəyyən etməlidir” (Философия и методология истории:195).

Bəzi tarixçilərin yol verdiyi qüsur ondan ibarətdir ki, onlar mənbələr haqqında məsələni həqiqilik məsələsindən aydın fərqləndirə bilmirlər. Hər hansı tarixi hökmün həqiqiliyi problemi “yalnız və ya əsasən müəyyən mənbələrin mənşəyi baxımından həll edilə bilər. Lakin ümumiyyətlə, bu məsələ fərqlidir və biz müəyyən hökmün və ya müəyyən informasiyanın həqiqiliyini, bir qayda olaraq, informasiyanın mənbəyinə və ya mənşəyinə müraciət etməklə deyil, daha qısa yolla – iddia edilən faktların özlərini tənqidi şəkildə yoxlamaq vasitəsilə müəyyən edirik

Dünyada bütün varlıqların və hadisələrin bir - biri ilə bağlanması, insanlarda bir qaydanın mövcud olduğu fikrini yaradır. Reallıqda da bunu görürlər. Səbəbiyyət prinsipi belə ifadə olunur: hər şey səbəblə əmələ gəlir, səbəbsiz heç nə baş vermir. Səbəb məhz konkret varlığın, obyektin baxılan vəziyyətindən əvvəl onun mühitlə və digər sistemlə baş verən əlaqələridir. Belə əlaqələr obyektin yenidənqurulmasına və keyfiyyətinin dəyişməsilə, yəni yaşaması ilə nəticələnir. Yəni hər bir yeni vəziyyət səbəblərin nəticəsidir. Orta vəziyyət qanunu səbəbiyyət prisipini əsaslandıran izahlardan biridir. İnsan tarixində qədimdən məqsədəuyğunluq prinsipi də müəyyən edilmişdir.

Dünyada məqsədəuyğunluq prinsipini Aristotel aşkar etmişdir, bunu sonralar teist din nəzəriyyələri qəbul etdi və bunu əsas götürərək dini təlimə dünyanı ağıllı müdrik Ruhun yaratdığını və idarə etdiyi fikrini əlavə etdilər. Bu haqda Deism dini nəzəriyyəsi xəbər verir. Burada deyilir: “Allah hər şeyi istədiyi – yəni özünün hesab etdiyi məqsədəuyğun formada yaratmış və belə - məqsədəuyğun idarə edir”. Lakin bu mövqe kökündən səhvdir. Aşağıdakı izahlar buna əsas verir. 1) Məqsədəuyğunluq kimi görünən nümunələr, şeylər, təbiət qanunlarının nəticəsidir. 2) Kim deyə bilər ki, Hitlerin 20 milyon insanı qırması, Azərbaycanın Ermənistan; Fələstinin İsrail tərəfindən işğalı, meşədə ceyranın şir tərəfindən yeyilməsi və ya damcının havada şar şəklində olması, kimin məqsədinə uyğundur. Bu necə Allahın məqsədinə uyğun ola bilər? Hətta Musa dini əsasında yaradılmış dinlərin özünün dediyi kimi “Allah müsbətdir, ancaq xeyiri müdafiə edir” fikrini qəbul etsək, bütün bu məsələləri Allahın məqsədinə aid edə bilmərik. İdrak və məntiq buna icazə vermir. Burada

dinlərin öz dili ilə məntiq, idrak və gerçəklikdən imtina edərək, özünün qurduğu tələyə yenidən düşdüyünü aşkar edirik. Demokrit (b.e.ə. 500 il), Volter və digər mütəfəkkirlər təbiətdə Səbəblik prinsipinin üstün olduğunu qeyd edir. Yəni səbəb olmasa heç nə ola bilməz. Ərəb alimi Əl Qazali səbəbliliyi, habelə dünyanın əbədiliyi və qanunauyğun xarakterini inkar edir və deyirdi: "səbəb adlandırdığımız şey hadisələrin zamana görə adi ardığıllığıdır". Hadisələrin ardıcıllığı haqda olan bu fikrə həyatda təsdiq olunan bir düzəliş etmək lazımdır. Daha düzü, demək lazımdır ki, hadisələr adi – təsadüf deyil, qanunauyğun ardıcıllıqla baş verir. Əlbəttə, bu arqumentlərə görə məqsədəuyğun hərəkət və ya formanı şeylərin və canlıların özü ilə mühit arasındakı əlaqəsinin nəticəsi olmasını qəbul etməliyik (səbəb və nəticə). Reallıqda biz bunu hər bir şeyin tarixinə baxmaqla və ya müşahidə etməklə görə bilərik.

Canlı təbiətdə bizə məqsədəuyğun görsənən prinsip Çarlz Darvinin aşkar etdiyi təbii seçmə və adaptasiya prinsipinin təzahürüdür. Həqiqətən, müxtəlif və fasiləsiz yeniləşən mühitlərdə yalnız uyğunlaşan, güclülər və yaşamağa qabil olan növlər yaşayır və məhz mühitin imkan verdiyi forma və yaşayış üsulları seçənlər yaşayır. Yaşaya bilməyənlər və uyğunlaşa bilməyənlər məhv olur, nəsilləri kəsilir. Nəticədə biz hər canlı heyvan və ya bitki növünün spesifik mühitdə yaşamasını və həmin mühitə uyğun forma və həyatla yaşamasını müşahidə edirik. Uyğun olmayanların yaşamadığını müşahidə edirik. Konkret olaraq insandan və insan sistemindən danışdıqda, onun bütün hərəkət və fəaliyyəti özünün konkret mühit təsiri ilə seçdiyi özünə və öz fikrincə məqsədəuyqun hərəkət və fəaliyyətdir. Gördüyümüz bütün ev heyvanlarını (məsələn inək, qoyun, at, keçi, xoruz, toyuq) və qida bitkilərini (məsələn, buğda, çovdar, düyü, qreçka) bəzi xürufatçı dinlərin dediyi kimi Allah belə formada yaradıb, insanlara verməmişdir. Bu heyvan və bitki növlərini insan öz məqsədinə uyğun seçmiş çarpazlaşdırmış, çoxaltmış, qorumuş və bu gün də onların hesabına yaşayır. Təbii və süni seçmə, mühitə uyğunlaşma, universal fiziki qanunlar- universal cazibə qanunu və başqaları hər şeyə elə forma verir və hər şey elə yaşama üsulu seçir ki, bu onun üçün adekvat və rasional olsun. Bu, kənardan baxana hər şeyin ağılla, məqsədə uyğun olması və yaşaması görüntüsü yaradır. Şeylərdə belə bir xüsusiyyəti və bu mülahizəni və ya təəsüratı yaradan məhz bu prinsiplərdir. Nəticə: dünyada və təbiətdə və canlılarda ümumi məqsədəuyğunluq prinsipi kimi görsənən şeylərin və canlıların mühitə uyğunluq prinsipi var. Başqa sözlə, hər şey tabe olduğu və ya tərkibində olduğu mühitlərin, sistemlərin tələbinə, şəraitinə uyğun forma və yaşama üsulu seçir.

Məqsədəuyğunluq prinsipi səhv anlama nəticəsində formulə edilmiş ifadədir və yalnız görüntüdür. Və hökmən kimin məqsədinə uyğundur sualını yaradır. Dinlər təbii uyğunluq qanununu belə ifadə etməklə məhz hər şeyin Allahın məqsədinə uyğun olması fikrini insanların beyninə yeridirlər. Yuxarıda gördük ki, məhz xəstəliklər, müharibələr, zəlzələ, genosid, qasırğalar Allahın məqsədinə uyğun ola bilməz. Deməli, burada Allahın heç bir məqsədi yoxdur. Hər şey öz yaşama məqsədinə nail olmaq üçün forma və davranış seçir və ya ancaq uyğun olanlar qala bilir. Məsələn, Yerin Günəş ətrafında fırlanması ilə gecə - gündüz yaranır, insana isə Günəşin Yerin ətrafında fırlanması görsənir. Gecə və gündüzü yaratmaq Günəşin və Yerin məqsədi deyil; fırlanma nəticəsidir, Yerin olmağına xidmət edir, Yerin yaşama üsuludur. Kainatda və təbiətdə, canlılarda və bitkilərdə ümumi qanunauyğunluq və harmoniya prinsipi var. Ümumi qanunauyğunluq prinsipini, şeyin olduğu mühitin ümumi qanunlarına (tələblərinə) uyğunluqu kimi başa düşmək lazımdır. Yəni hər bir şey cisim, canlı, heyvan, bitki, insan olduğu mühitin ümumi qanunlarına – tələblərinə uyğun forma almalı, uyğun formada yaşamağa məcburdur. Qanunauyğunluqlar isə səbəblilik prinsipinin əsasıdır. Bütün dəyişiliklər səbəb kimi qəbul olunan aşağıdakı qanunlar altında baş verir: 1. Dünyanın və hər şeyin tamlıq qanunu 2. Orta vəziyyət qanunu 3. Univesal fiziki qanunlar: Nyutonun cazibə qanunu; təsir, əks təsir qanunu; saxlanma qanunları, 4. Son hədlər - keçid qanunu. 5. Təkin çoxluq içində yaşamaq və üstün vəziyyətə çalışmaq qanunu, 6. Özünü saxlama -

yaşamağa çalışma qanunu 7. Təkin çoxluq (mühit ) içində yaşama, forma və həyat üsulu seçmə qanunu . Bu iki formada reallaşır: a) təbii seçmə və adaptasiya qanunu canlılar üçün, b) cansız təbiət üçünsə bütövlüyünü saxlaya bilmək prinsipi - yəni konkret mühitlərdə öz fiziki xassələrinə uyğun olaraq zəruri forma, struktur, yerləşmə yeri əldə etmə. 8. Hər şeyin öz əksinin olması (Tovhid Mehdi. Dünyaya pəncərə. Bakı, Səda nəşriyyatı, 2008). Məhz əksi ilə mübarizə (tarazlığa çalışmaq) yaşamağa səbəb verir. Məhz konkret varlığın həyatı yaşamağa mane olan əks qüvvələri dəf etmək – onlara üstün gəlmək üçün mübarizə və çoxluqdan (mühitdən) maksimum istifadə eməkdir. Səbəbiyyət prinsipindən istifadə etmək insan üçün xüsusi əhəmiyyətlidir.

İbn Xəldun tarixi elmə çevirmək üçün onu fəlsəfə ilə bağlamağın zəruriliyini irəli sürür. Tarixçilər sosial, siyasi, iqtisadi, mədəni və fiziki şərtlərə (yəni, ətraf mühitin hadisələrə təsirinə) fikir versələr, fəlsəfi ümumiləşmələr aparsalar, bu halda tarix kökü fəlsəfədə olan elmə çevrilir. Belə tarix elmə xas olan cəhətlərə malikdir: 1) öz mövzusu var-bu, insan cəmiyyətləridir; 2) tarixi hadisələrdən doğan öz məsələləri var; 3) hadisələrin mahiyyətini, daxili mənasını tapmaqdan ibarət öz qayəsi var.

Tarixdə səbəbiyyəti Veber ehtimallarla ifadə edir. Məsələn, tam planlamaya əsaslanan iqtisadi sistem çox böyük ehtimalla müəyyən tip siyasi təşkilata gətirəcək. Hər bir səbəbiyyət əlaqəsi ayrı- ayrılıqda natamamdır, müəyyən ehtimalı olan əlaqədir. Bu baxımdan, bütöv cəmiyyət hər hansı bir ünsürlə, iqtisadi, siyasi, dini ünsürlə şərtləndirilə, şərtə bağlana bilməz.

Beləliklə, tarix elminin predmeti tarixi hadisələr və faktlardır. Tarix elmi idrak nəzəriyyəsinə əsaslandıqda tarixin ən dərin mahiyyətinə varır. Odur ki, tarixi idrakın elmiliyi problemi bu gün bizim üçün son dərəcə vacibdir. Bu, həm də onunla şərtlənir ki, biz uzun əsrlər boyu bu və ya digər iri dövlətlərin tərkibinə daxil olmuşuq, nəhayət, XX əsrin axırlarında dövlət müstəqilliyi qazanmışıq. Bu da bizə milli tariximizə kənar diktat olmadan, müstəqil surətdə nəzər salmağa imkan verir. Nəticədə bu gün tarixi idrakda bütünlükdə tariximizin, həmçinin ayrı-ayrı tarixi hadisələrin ənənəvi təhlili və izahı metodologiyasının yeni tənqidi qiymətləndirilməsi baş verir.

Tarix elmində böyük irəliləyiş gözlənilir, qədim və orta əsr Azərbaycan tarixinə maraq açıq-aşkar artmışdır; tarix elmi xarici ölkələrin muzey və kitabxanalarından yeni məxəzlərlə zənginləşir; orijinal tarixi mətnlərin dilini bilən gənc mütəxəssislərdən ibarət yeni elmi korpus formalaşır və s. Lakin sosial-humanitar elmdə baş verənləri müsbət qiymətləndirməklə yanaşı, qeyd etmək vacibdir ki, tarix elmimiz hələ faktoqrafiyadan, eləcə də təsvirçilik metodundan tam xilas ola bilməmişdir.

## Ədəbiyyat siyahısı

Tovhid Mehdi. Dünyaya pəncərə. Bakı, Səda nəşriyyatı, 2008
Поппер Карл. Предположения и опровержения. М. 2008, стр. 49.
Всемирная Энциклопедия. Философия. М. АСТ Минск, 2001, стр. 1069
Философия и методология истории, стр. 195

# MODERNLƏŞMƏ VƏ MƏNƏVİ İRS

**Xanımağa İsmayılova**

AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işçisi
muradbalam@hotmail.com

***Açar sözlər**: modernləşmə, mənəvi irs, sosiomədəni modernləşmə, intibah, dirçəliş.*

Modern sözü yunanca (moderne) ən yeni deməkdir və müasir fəlsəfi ədəbiyyatda müəyyən obyektin müasir, yeni tələblərə və normalara uyğun təkmilləşdirilməsi, yaxşılaşdırılması, yeniləşdirilməsi kimi şərh olunur. Son illərdə ölkə və xarici fəlsəfi ədəbiyyatda modernləşmə probleminə diqqət artmış və bəzi mənbələrdə modernləşmə dedikdə cəmiyyətin siyasi, sosial-iqtisadi, mədəni inkişafının müasir Qərb sivilizasiyasına uyğun təkmilləşdirilməsi başa düşülür. Məsələn, iqtisadçı alimlər modernləşməni iqtisadi kateqoriya hesab edərək onu – geniş mənada, müxtəlif təkmilləşdirmələr tətbiq etmək yolu ilə müasir tələblərə uyğun mütərəqqi irəliləyişlərə, dəyişikliklərə nail olmaq kimi səciyyələndirirlər. Modernləşməni fəlsəfi aspektdən tədqiq edən alimlər onun "postsovet məkanında, o cümlədən Azərbaycanda iqtisadi inkişafdan və ölkənin texnoloji baxımdan yenidən təchiz olunmasından başladığını" [3,113] göstərsələr də "sonra isə bu nailiyyətlərin əsasında sosiomədəni modernləşmənin formalaşdığını"[3,113] diqqətə çatdırırlar. Sosiomədəni modernləşmə ictimai şüurun yeniləşməsi və mənəvi irsin dirçəldilməsi, mənəvi irs isə xalqın gələcəyə yönəlmiş ictimai şüurun dərk olunması zamanı daha çox faydalıdır. Azərbaycan tədqiqatçısı, professor İlham Məmmədzadə sosiomədəni modernləşmə və mənəvi irsin əlaqələri ilə bağlı yazır: "Azərbaycanın sosiomədəni modernləşməsi təkcə yeni texnologiya, bazar mexanizmlərinin sürətli keyfiyyətli tətbiqini deyil, kreativ və innovasion şüurun köməyilə millətin sivilizasiyalı yenilənməsini şərtləndirə biləcək keyfiyyətcə yeni qarşılıqlı münasibətlərin...yaradılmasını da ehtiva edir"[3,114]. Şübhəsiz ki, bu yenıləşmə prosesində mənəvi irsin dirçəldilməsi mühüm rol oynayır.

Müstəqil Azərbaycan çoxdan dünyəvi dövlət kimi formalaşıb. Bununla belə cəmiyyətdə mənəvi irsin tərkib hissəsi olan dini dəyərlər bu dünyəviliklə bərabər əsas amilə çevrilmişdir. Oleq Sıqankovun bu məsələ ilə bağlı fikirləri xüsusi maraq doğurur: "Azərbaycan haqlı olaraq bununla fəxr edə bilər ki, Islam təkcə ölkənin mütərəqqi dünyəvi tərəqqisilə ilə birgə inkişaf edir, həm də bütün cəmiyyətə tamamilə unikal, müxtəlif aspektdən ahəngdar inkişaf naminə tarixi-mədəni irsdən ən diqqətli istifadə etməyə ən dolğun və geniş imkan verildiyini praktikada sübut etməyə nail olmuşdur".[4] Bu gün iqtisadi cəhətdən güclü və modern dövlət olaraq Azərbaycan dayanmadan sürətlə irəliləyir, inkişaf edir.

Azərbaycanlıların ictimai şüurunun modernləşməsi və mənəvi irsinin dirçəldilməsi üçün bir neçə istiqamət göstərilir:

1. Rəqabətə davamlılıq. Bu isə təkcə maddi məhsul deyil, həm də mənəvi sərvət - bilik, intellektual dəyər və nəhayət, keyfiyyətli insan kapitalı ehtiyatı deməkdir. Bir millətin uğurunu təbii, maddi sərvətlər deyil, həm də insanların rəqabət qabiliyyəti müəyyən edir.

2. Praqmatizm - öz milli və şəxsi sərvətlərini dəqiq bilmək, onlardan qənaətlə istifadə etmək və buna uyğun olaraq öz gələcəyini planlaşdırmaq, israfçılığın, təkəbbürün, şou-biznesin yolunu bağlamaq bacarığıdır.

3. Mənəvi irsin, milli özünəməxsusluğun qorunub saxlanması. İstənilən dövlət öz inkişaf modelini formalaşdırır. Biz də öz inkişafımızda milli adət-ənənələrimizi, dilimizi, incəsənətimizi, ədəbiyyatımızı itirməməliyik.

Müasir Azərbaycan öz tarixi keçmişinin, demək olar ki, əsas mənəvi irsini, adət-ənənələrini şüurlu surətdə inkişaf etdirir ki, bunun da əsas özəyi dinlərin və mədəniyyətlərin

plüralizminin mövcudluğudur. Dünya sivilizasiyasının dəyərləri və nailiyyətlərini, tükənməz mənəvi irsini nəsillərdən-nəsillərə keçirərək zəngin-ləşən azərbaycanlılar Şərq xalqı kimi özlərinə xas olan islami koloriti milli həyat tərzinə çevirmişlər. Azərbaycan tarixən müxtəlif dünya mədəniyyətlərinin qovuşu-ğunda yerləşdiyi üçün onun seçimi həmişə mədəniyyətlərin sintezi olmuşdur. "Əsrlər boyu müxtəlif mədəniyyətlər çərçivəsində formalaşmış klassik cəmiyyətdə, bir qayda olaraq, üç sosial təbəqəyə modernləşməyə əsas impuls verir: yaradıcı ziyalılar, alimlər, elm adamları; biznes icması, sahibkarlar, bankirlər; ilk ikisinin ən yaxşı nümayəndələrinin daxil olduğu üçüncü qrup adətən güc elitası, üstəlik hakim bürokratiyanın ən parlaq nümayəndələri aiddir. Ölkədə inkişaf hərəkatının hansı istiqamətdə və hansı ideoloji-mənəvi əsaslar üzərində aparılacağı da məhz bu qruplardan asılıdır".[4]

Milli ziyalılar da modernləşməyə təkan verərək mənəvi irsi, milli dili, ədəbiyyatı, incəsənəti, milli-mənəviliyi, dəyərləri və milli kimliyi, eyni zamanda müasir mədəniyyətin inkişafına öz töhfəsini verməsi istiqamətində yeni ideyalarla çıxış edirlər. Xalq kütləsi də öz növbəsində modernləşməyə cəlb edilərək müasir elmi biliklərə yiyələnir, yeniliyə əngəl yaradan ideyaları aradan qaldırır, həyata rasional baxış formalaşdırır, mənəvi irsini qoruyur. Milli dil ümumbəşəri mədəni dəyərlərə qovuşur. Xalq milli şüurunu inkişaf etdirir, tarixi və müasir təfəkkürə mənsubluğunu, bəşər tarixində öz rolunu, milli hisslərini və milli böyüklüyünü dərk edir. Bütün Avropa xalqları kimi Azərbaycan xalqı da öz ictimai şüurunu modernləşdirir, mənəvi irsini dirçəldir, inkişaf etdirir, eləcə də milli birliyə nail olur. "Bu baxımdan Azərbaycan xalqı özünün milli-mənəvi irsinə - onu bütövləşdirən və zənginləşdirən komponentlərə - dil, din, adət-ənənə, eyni zamanda birgəyaşayış mühiti və tolerantlıq kimi xüsusiyyətlərə söykənərək bəşəriyyətin mürəkkəb və ziddiyyətli ictimai-siyasi sınaqlarından məharətlə çıxa bilmiş, dünya xalqları arasında öz varlığını, dövlətçilik ənənələrini qoruyub saxlamağı bacarmışdır. Tarixi hadisələrin gedişatı göstərdi ki, minilliklər ərzində formalaşmış milli-mənəvi sərvətimiz milli mənlik şüurumuzu oyadaraq müstəqil dövlətçiliyimizin bərpasına səbəb olan əsas amildir."[2,14] Deməli, modernləşmə, qloballaşmanın ağır sınaqlarından çıxmaq üçün mənəvi irsin dirçəldilməsi mühüm gücdür. Mənəvi irsin modernləşməsi dövlətin, dövlətçiliyin inkişafına da kömək edir.

Ulu öndər Heydər Əliyev modernləşmə və mənəvi irs probleminə xüsusi diqqət yetirmişdir. H.Əliyev Azərbaycanın müstəqilliyinin dövlətçiliyin möhkəmləndirilməsindən, modernləşmədən və mənəvi irsin dirçəldilməsindən asılı olduğunu göstərirdi. Modernləşmə ilə yanaşı, dil, din, adət-ənənə və mentalitetdən ibarət mənəvi irsin qorunub saxlanmasını mühüm vəzifə hesab edən ümummilli lider diqqətə çatdırırdı ki, modernləşmə prosesi elm və texnologiya ilə bərabər mənəvi irsə də güclü sirayət edir. "Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra xalqın təkidi və istəyi ilə hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev həyata keçirdiyi dövlət quruculuğu işləri ilə bərabər, milli-tarixi yaddaşın bərpasına da xüsusi önəm vermiş, mədəniyyətimizi, mənəvi dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirmişdir. Mənsub olduğu xalqın tarixi keçmişinə, mənəvi irsinə dərindən bağlı olan Ümummilli Lider bütün həyatı boyu mənəvi-əxlaqi və dini dəyərlərimizin, adət-ənənələrimizin keşiyində durmuşdur". [2,11]

Dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi genişmiqyaslı iqtisadi islahatlar ictimai şüurun müasirləşdirilməsinə, mənəvi irsi intibahına təsir edir. Dövlət başçısı modernləşmənin mühüm prioritetlərini müəyyənləşdirir. İctimai şüurun müasirləşdirilməsi ölkədə birlik və harmoniyanın möhkəmləndirilməsi üçün mühüm addımdır. "Müstəqil Azərbaycan dövlətinin ana dilinə - dövlət dilinə qayğısı azərbaycançılıq ideologiyasının daha da yetkin ifadəsinə və zənginləşdirilməsinə, ümummilli ideyalarla müstəqil dövlətçilik strategiyasının üzvi surətdə əlaqələndirilməsi yolu ilə ölkəmizdə milli şüurun və müstəqil dövlətçilik təfəkkürünün birgə və bariz surətdə səsləşməsinə işıq salır.

Mühüm siyasi-ideoloji xarakterə və ümummilli mahiyyətə, elmi-praktik əhəmiyyətə malik olan bu fərman yeni vətənpərvər nəsillərin yetişib hazırlanmasına, azərbaycançı qüvvələrin daha geniş və sistemli şəkildə formalaşdırılmasına meydan açır."[1]

Beləliklə, "mənəvi irs" və "modernləşmə" anlayışları asimmetrikdir və dixotomiya (ikililik– X.İ.) təşkil edə bilməz. Müasir və ənənəvi cəmiyyətlər arasında çox böyük fərqlər var və buna görə də modernləşmə üçün universal reseptlər ola bilməz. Ənənəvi cəmiyyətləri tamamilə statik və hərəkətsiz təsəvvür etmək də yanlışdır, onlar da inkişaf edir və modernləşmənin zorakı tədbirləri bu üzvi inkişafla ziddiyyət təşkil edə bilər. Modernləşmənin əsas ideyası ondan ibarətdir ki, sənayeləşmə və kapitalizmin inkişafı prosesi onun ilkin şərti və əsası kimi insanın fərdi azadlığını və muxtariyyətini, onun hüquqlarının əhatə dairəsinin genişləndirilməsini nəzərdə tutur.

İkinci dərəcəli modernləşmə inkişaf etməkdə olan ölkələrdə (üçüncü dünya ölkələri) yüksək inkişaf etmiş ölkələrin simasında və müəyyən edilmiş sosial təşkilat və mədəniyyət, mənəvi irs nümunələrinin mövcud olduğu sivil mühitdə baş verən sosial-mədəni dəyişiklikləri əhatə edir.

Müasir dövrdə ənənəvi cəmiyyətlərin, mənəvi irsin modernləşdirilməsi konsepsiyalarında da əsas müddəalar dəyişdi:

• Müasirləşmə proseslərinin hərəkətverici qüvvəsi kimi artıq siyasi və intellektual elita deyil, ən geniş kütlələr qəbul edilir;

• Müasirləşmə bu halda elitanın qərarından deyil, vətəndaşların kütləvi informasiya vasitələrinin və şəxsi ünsiyyətlərin təsiri altında həyatlarını Qərb standartlarına uyğun dəyişmək istəyənlərin kütləvi istəyindən asılıdır;

• Bu gün müasirləşmənin daxili deyil, xarici amilləri - qüvvələrin qlobal geosiyasi uyğunlaşması, xarici iqtisadi və maliyyə dəstəyi, beynəlxalq bazarların açıqlığı, inandırıcı ideoloji vasitələrin mövcudluğu - müasir dəyərlərə əsaslandıran doktrinalara diqqət yetirilir.

• Bu gün modernləşmə təkcə uzun müddət əsas hesab edilən iqtisadi göstəricilərlə deyil, həm də dəyərlərlə, mədəni kodlarla, mənəvi irsin intibahı ilə qiymətləndirilir.

**İstifadə edilmiş ədəbiyyat**

1.Həbibbəyli İ. İlham Əliyevdən milli-mənəvi dəyərlərin və milli varlığın qorunub saxlanılmasına növbəti dəyərli töhfə//07.11.2018 /https:// science. gov.az/ az/news/open/9096
2.Qurbanlı M. İlham Əliyevdən zəngin milli-mənəvi dəyərlərin və mütərəqqi tarixi ənənələrin qorunmasına böyük töhfə //Dövlət-din,№ 6 (53), noyabr-dekabr, 2017, s.13-20
3.Məmmədzadə İ. Bir daha fəlsəfə haqqında. Müasir yanaşmalar.Təmayüllər. Persrektivlər. Bakı:Təknur, 2012, 216 s.
4.Цыганов О.Синтез культур-традиции народа//Известия, 2010, 29 апреля,с.10
5. http://anl.az/down/meqale/izvestia/2010/aprel/116900.htmhttp

## FƏLSƏFƏDƏ FİKRİN HƏQİQİLİYİNİN ƏSASLANDIRLMASI

**Almaz Həsənova**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işçisi
hesenova20151111@gmail.com

**Açar sözlər:** fəlsəfə,idrak, həqiqət, problem, təfəkkür

İnsanlar arasında fikir mübadiləsi bəşər cəmiyyətinin mövcud olması və inkişafının zəruri şərtidir. Fikir mübadiləsi olmadan insanlar təbiətin kortəbii qüvvələrinə qarşı birgə mübarizə apara bilməzdi və ictimai istehsalın inkişafında yeni müvəffəqiyyətlərə nail olmaq çətinlik törədərdi.

Bəşər təcrübəsi göstərir ki, fikir mübadiləsi prosesində insanlar gerçəkliyi əks etdirən anlayış və hökmləri passiv formada deyil, şüurlu olaraq qavrayır və nəsildən-nəslə ötürürlər. Söhbətdə, diskussiyada, iqtisadi, siyasi və mənəvi problemlərin müzakirəsi prosesində hər bir şəxs çalışır ki, öz fikir və mülahizələrinin doğruluğunu əsaslandırsın, yanlış fikirləri təkzib etsin və məntiqi səhvlərə yol verməsin.

Çoxəsrlik təcrübədə insanlar əmin oldular ki, məntiqilik, əsaslılıq və həqiqətlilik düzgün təfəkkürün vacib xassələrindəndir. Təfəkkürün bu xassələri obyektiv gerçəkliyin ən ümumi qanunauyğunluqlarından birinin – cism və hadisələrin qarşılıqlı əlaqə və bağlılığının beynimizdə inikasıdır. Buna görə də, obyektiv gerçəkliyin cisim və hadisələrinin inikası olan fikirlər arasında da qarşılıqlı əlaqə və münasibət vardır.

Lakin təbiətdə və təfəkkürdə əlaqələr müxtəlifdir. Bu əlaqələrdən bir qismi əşya və hadisələrlə ilk tanışlıqdan aşkar olur, bunların doğru və yalanlığı bizə hiss orqanlarının vasitəsilə bəlli olur. Lakin elə əlaqələr də vardır ki, onlar hissi idraka müyəssər olmur, onu birbaşa qavramaq mümkün deyildir. Məsələn torpağı şumladıqda, əmələ gələn izlər müəyyən hərəkəti ifadə edir və bu hər bir adam üçün aşkardır, lakin göy gurultusu ilə şimşək çaxması arasındakı əlaqəni bilavasitə dərk edə bilmirik, bunlar bilvasitə əlaqələr adlanır.

Fikirlər arasında əlaqələr də belədir, hər bir fikir gerçəkliyin inikasıdır. Lakin fikir gerçəklikdəki hadisələrin mexaniki, bilavasitə və ya tam fotosu deyildir, burada ümumiləşdirmə və abstraksiyadan istifadə olunur. Bu və ya digər mühakimə prosesində obyektiv gerçəklikdəki cisim, hadisələr arasındakı əlaqə və bağlılığının inikası olan fikirlər arasındakı əlaqənin zəruriliyini sübut etmək, həqiqiliyini aşkara çıxarmaq bacarığı təfəkkürün vacib əlamətidir. Bəşər təcrübəsində bir fikrin həqiqiliyi digər fikirlərin, faktların həqiqiliyi ilə sübut olunur [İsrafilov,2001:22].

Deməli, həqiqət elə məntiqi prosesdir ki, burada hər hansı bir fikrin, müddəanın həqiqiliyi praktikada həqiqiliyi yoxlanılmış digər fikirlərin, hökmlərin köməkliyi ilə əsaslandırılır. Əgər söylənilən müddəa praktikada yoxlanılmayıbsa, onda belə sübut müvəffəqiyyətsizliyə uğrayacaqdır. Hər bir düzgün həqiqət son nəticədə təcrübəyə, faktlara əsaslanmalıdır.

Bütün elmlərdə həqiqət anlayışından istifadə olunur, elə bir elm yoxdur ki, orada fikrin məzmununun həqiqiliyini əsaslandırmaq tələb olunmasın. Həqiqətdə doğru nəticə əldə etmək üçün çox vaxt qaydalardan istifadə olunur. Həqiqət anlayışının ümumi qaydaları, tələbləri dedikdə, buraya həqiqətin strukturu, onun üsulları, sübut olunan fikrə münasibətdə ümumi qaydalar, qanunlar və s. daxildir.

Obyektiv reallığın biliklərin uyğunluğu haqqında problemi fəlsəfədə həqiqət problemi kimi tanınır. Əslində həqiqətin nədən ibarət olması sualına cavab verdikdə , o, biliklərin xarici dünya ilə əlaqəsini, bilik və obyektiv gerçəkliyin uyğunluğunun necə qurulduğunu və doğrulanmasını özündə ehtiva edir. Həqiqət biliyin adekvatlığının ölçüsü, obyektin subyektlə mahiyyətini dərk etməsinin üçün xarakterikdir.

Təcrübə göstərir ki, bəşəriyyət nadir hallarda həqiqətə həddindən artıq aşınma və xəyal qırıqlığı olmadan çatır. Səhv, yanlış anlayış gerçəkliyə uyğun olmayan, həqiqət kimi qəbul olunan şüur məzmunudur. Bəşəriyyətin biliksəl fəaliyyətinin tarixi göstərir ki, səhvlər bilik tarixinə davamlı şəkildə müşayiət olunur.

Həqiqətə can atan insan ağlasığmaz şəkildə hər cür yanlış təsəvvürə düşür. Yanlış təsəvvürlərin epistemoloji, psixoloji və sosial əsasları var. Lakin onları yalanlardan fərqləndirmək lazımdır. Yalan, kimisə aldatmaq üçün nəzərdə tutulmuş reallığın təhrifidir. Yalan, həm olmayanın uydurması, həm də nəyinsə şüurlu bir şəkildə gizlədilməsi ola bilər. Həmçinin yalanın mənbəyi məntiqi səhv düşüncə də ola bilər. Elmdəki yanlış təsəvvürlər getdikcə aradan qaldırılır və həqiqət özünə yol açır.

Adi şüur həqiqəti idrakın əldə edilmiş nəticəsi hesab edir. Lakin elmi biliklər sistemi varlıq haqqında hərtərəfli məlumat anbarı deyil, məhdud, yaxınlaşan, daha da genişlənən və şeylərin

mahiyyətini dərindən öyrənmək üçün bir pilləkən boyunca gedən bir hərəkət kimi sonsuz bir prosesdir. Beləliklə, həqiqət prosesin və nəticənin vəhdətidir.

Həqiqət tarixidir və bu mənada o, "dövrün uşağıdır" [İsrafilov,2001:22]. Hər hansı bir idrak obyekti tükənməzdir, daim dəyişir, çox xüsusiyyətlərə malikdir və ətraf mühit ilə saysız-hesabsız əlaqələrin əlaqələri ilə bağlanır. Hər bir idrak səviyyəsi elmin inkişaf səviyyəsi, cəmiyyətin tarixi səviyyələri ilə məhdudlaşır.

Elmi bilik, o cümlədən ən etibarlı, dəqiq bilik nisbi xarakter daşıyır. Biliklərin nisbiliyi onun natamamlığı və ehtimal xarakterində olması ilə əlaqələndirilir.Həqiqət nisbidir, çünki o, obyekti tamamilə bütövlükdə deyil, tükənməz şəkildə əks etdirmir, əksinə, daim dəyişən və inkişaf edən müəyyən həddlər, şərtlər, münasibətlər daxilində əks etdirir.

Nisbi həqiqət həqiqətdir, ancaq istənilən hər hansı bir şey haqqında məhdud məlumata malik olur. Mütləq həqiqətlərə gəldikdə isə, kimin və nə vaxt dediyindən asılı olmayaraq, tamamilə həqiqət olaraq qalırlar.Mütləq həqiqət elmin sonrakı inkişafı ilə təkzib edilməyən, ancaq zənginləşdirilmiş və təsdiqlənən biliklərin məzmunudur.

Elmin inkişafı prosesi hər biri əvvəlkindən daha dəqiq olan mütləq həqiqətə ardıcıl yaxınlaşmalar şəklində təqdim edilə bilər. İdraka dialektik yanaşmanın əsas prinsiplərindən biri həqiqətin konkretliyidir. Konkretlik – həqiqət anlayişina xas olan xüsusiyyətdir. Həqiqət nəzəriyyəsinin mühüm bir prinsipini konkretlik təşkil edir. Həqiqətin konkretliyi bu deməkdir ki, o real əlaqələr, obyektin bütun tərəflərinin qarşılıqlı təsiri, onun əsas xassələri və inkişafı haqqında biliyi ifadə edir. Konkretliyin digər şərti mövcud tarixi şəraiti, məkan və zaman amilini nəzərə almaqdır. Yəni müəyyən şəraitdə eyni bir obyekt haqqında həqiqi olan fikir başqa şərəitdə yalan ola bilər. Göründüyü kimi bu prinsip ehkamçılıq ilə bir araya sığmır. Ümumi foraıul və sxemlərlə kifayətlənməməyi, real şəraiti nəzərə almağı tələb edir. Bu prinsip göstərir ki, mücərrəd (dəyişməz), hər şeyi əhatə edən (bütün şəraitlərdə doğm olan) həqiqət yoxdur.

Konkretliyi aşağıdakı misaldan yəqin etmək olar. Suyun 100 dərəcə Selsidə qaynaması fikri yalnız konkret şəraitdə, yəni atmosfer təzyiqinin 760 mm civə sütununa bərabər olduğu yerdə həqiqidir. Belə şərait olmayanda həmin fikir həqiqiliyini itirir. Beləliklə, konkretlik prinsjpi normativ funksiya daşıyır. O, inteqrativ (birləşdirici) və sintetik (bütov) göstəricidir[İmanov,2010:245]. Bu göstərtci həqiqətin mütləq, nisbi və prosessual olmasından irəli gəlir. Həmin keyfiyyətlərə malik olan həqiqət konkret olmaya bilməz. Həqiqətin konkretliyi həm də bu deməkdir ki, onun təbiəti təkcə obyektiv reallıqdan asılı deyildir. Bu işdə həqiqətin əldə edilməsi yollan və vasitələri də mühümdür.

İnsanlara öz biliklərinin doğruluğuna zəmanət verən nədir və həqiqəti yalan və səhvdən ayırmaq üçün əsas olan nədir? R. Dekart, B. Spinoza, G. Leybnis xəyal edilə bilən həqiqəti, aydınlığını və düşünülənin aydınlığının meyarı kimi təklif etmişdir. Aydın olan budur ki, ağıl müşahidəçi üçün açıqdır və şübhə doğurmadan açıq şəkildə belə tanınır. Belə bir həqiqətin nümunəsi isə "bir kvadratın dörd tərəfi var" həqiqətidir . Həqiqətin belə bir meyarıda inkişaf etdirildi: həqiqət budur ki, əksəriyyətin rəyinə uyğundur.

Əlbəttə ki, bunun da öz səbəbi var: əgər bir çox insan müəyyən bu və ya digər prinsiplərin həqiqiliyinə əmin olub inandılarsa, bunun özü səhv anlayışa qarşı vacib bir zəmanət ola bilər.Bununla yanaşı, R. Dekart, həqiqət məsələsinin səs çoxluğu ilə həll edilmədiyini də qeyd etdi. Bəzi fəlsəfi sistemlərdə praqmatizm prinsipi kimi həqiqət meyarı mövcuddur.

Həqiqi praqmatizm həyatımızın hər tərəfinə ən uyğun olan və təcrübəmizin cəmiyyət ilə əlaqəli olan bizim üçün ən yaxşısını "işlədiyini" qəbul edir və burada heç nə əldən verilməməlidir. Həqiqətin meyarı olaraq, təcrübə yalnız birbaşa deyil, həm də dolayı formada işləyir. Əlbəttə ki, təcrübənin hər hansı bir fikri, biliyi tam təsdiq edə və ya təkzib edə bilməyəcəyini unutmamalıyıq. Təcrübə – "hiyləgər insan": nəinki həqiqəti təsdiqləyir və səhvi üzə çıxarır, eyni zamanda tarixən məhdud imkanlarından kənarda olanlara səssiz qalır. Bununla birlikdə, təcrübənin özü daim elmi biliklərin inkişafı əsasında təkmilləşdirilir, inkişaf

etdirilir və dərinləşdirilir. Təcrübə - empirik həyat təcrübəsindən tutmuş ən sərt elmi təcrübəyə qədər çoxşaxəlidir.

İ. Kant yazırdı: "Şübhəsiz ki, bütün bilgilərimiz təcrübədən başlayır ...". Biliyin hisslərdən başlandığı aydın olur.Bununla razılaşmaq çətindir; lakin filosofların böyük əksəriyyəti bu fikirdədir. İnsan görmə, toxunma, eşitmə, dad, qoxu kimi hiss orqanlarına malikdir. Onlar biliyin ilkin, həssas bir mərhələsini təmin edirlər. Rasional idrakın üç forması - konsepsiya, mülahizə, nəticə - insanın düşüncə tərzində idarə etdiyi ağılın məzmununu təşkil edir. Kantdan sonrakı fəlsəfi ənənə ağıl və səbəbi ayırd etməkdir. Ağıl məntiqi təfəkkürün ən yüksək səviyyəsidir. Səbəb ağıldan daha az çevikdir, nəzəri azdır.

Həssas və rasional bir-biri ilə əlaqəlidir və bir çox filosof da bununla razılaşır.Rasional olmasa, həssaslıq birliyin olmadığı bir çoxluq kimi görünəcəkdir. Həssas olmadan rasional, həyatdan məhrum bir şeyə çevrilir.İdrak həssaslıqla rasionaldır. Tutaq ki, bizi "bu alma"nın görüntüsü maraqlandırır. O sarı, dəyirmi, şirindir. Üç konsepsiya var: rəng anlayışı, həndəsi forma anlayışı və zövq anlayışı. Rəng anlayışı müxtəlif rəngləri əhatə edir, onlardan bu vəziyyətdə yalnız sarı rəng var. Buna görə, dad anlayışı bu vəziyyətdə "şirin" hissi ilə təmsil olunur. Almanın zehni görüntüsü çoxsaylı anlayışların və onların sensor göstəricilərinin kəsişməsi kimi çıxış edir. Bilik həqiqəti təcrübi, praktik yoxlama ilə sübut olunur. Ancaq yadda saxlamaq lazımdır ki, təcrübənin özü məhduddur və həqiqət tarixi, buna görə hər hansı bir həqiqət həmişə nisbi olur və daim yenilənməyə ehtiyacı var.

Obyektiv həqiqətin aşağıdakı üç aspekti var: varlıq, aksioloji və praksioloji. Həqiqətin varlıq aspekti onda həm subyektiv-predmetli, həm də mənəvi (bu, idrakın obyekti başqa bir insanın mənəvi aləmi, təyin olunmuş nəzəriyyələr, ehkamlar sistemi olduğu hallara aiddir) olan varlığın müəyyən edilməsi ilə bağlıdır [İmanov,2010:244]. Varlığın özünün idrakın subyektindən kənarda olub onunla bağlı olmasına baxmayaraq, o, subyektə obyekt kimi, yəni obyektiv reallıq kimi müəyyən olur. Həqiqətin özü öz varlığını əldə edir.

Həqiqətin aksioloji aspekti onun insanın bütün, o cümlədən praktiki fəaliyyəti üçün dəyər kəsb etməklə, həyatın mənası ilə bağlı olmaqla mənəvi-etik, estetik və praksioloji məzmuna malik olduğunu göstərir. “Həqiqət” anlayışı “doğruluq” anlayışı ilə ayrılmaz bağlıdır. V.Dalın lüğətində deyilir: doğruluq “əməldə həqiqətdir..ədalətdir, düzgünlükdür, etibardır; doğru davranmaq həqiqətə, ədalətə uyğun davranmaq deməkdir; insana xas olan keyfiyyət kimi doğruluq sözlə əməlin bir-birinə tam uyğun olması deməkdir”.

Həqiqətin praksioloji aspekti həqiqətin praktika ilə əlaqədə olduğunu nümayiş etdirir. Öz-özlüyündə bu məqam, yəni həqiqətin praktika üçün faydalı olması onun aksioloji aspektinə də daxildir, lakin burada o, müstəqil kimi qeyd olunmalıdır.

Həqiqət ideya ilə predmet arasında müəyyən münasibətlərin olduğunu göstərir.

Buna görə də o, həm predmetin xassələri haqqında obyektiv biliyi, həm də ondan praktikada istifadə etmə imkanlarının subyektiv dərkini ehtiva etməlidir. Həqiqəti bilən insan təkcə bu predmetin xassələri haqqında deyil, həm də ondan praktiki istifadə imkanları haqqında dəqiq təsəvvürlərə malik olmalıdır. Praktika həqiqəti ona görə təsbit edir ki, təsdiq olunmuş həqiqət praktikanın gələcək inkişafına xidmət edə bilsin.

Üstəlik hissi obrazlar olduqca subyektivdirlər. Onlar subyektin sinir sisteminin vəziyyətindən, müşahidə şəraitindən, hazırlıq dərəcəsindən, sosial-mədəni faktorlardan və s. asılıdır. Buna görə də F.Bekon hesab edirdi ki, «həqiqət zamanın qızıdır». Lakin əgər bu belədirsə, onda o, obyektiv məzmundan məhrumdur. T.Hobbs Bekonun empirizmini və Dekartın raisonalizmini sintez etməyə çalışaraq, həqiqəti belə səciyyələndirir: «həqiqət ağılın qızıdır». Həqiqətin vahid anlayışının və kriterilərinin yoxluğu Kanta biliyin həqiqiliyi kriterilərinin aşkara çıxarılmasını fəlsəfənin mərkəzi məsələsi adlandırmağa əsas vermişdi. Bu xüsusiyyətlərin aşkara çıxarılmasında insanın beyninə daxil olan informasiyaların təbii və

sosial obyektləri sadəcə olduğu kimi deyil, onların insan tərəfindən onunla qarşılıqlı təsirdə dəyişilməsi prosesində əks etdirməsi mühüm rol oynayır [İmanov,2010:242]. Öz növbəsində insanın əldə etdiyi biliklər də obyektiv aləmdə düzgün istiqamət götürmək, təbii və sosial obyektləri bu və ya digər fəaliyyət formalarında dəyişdirmək üçün tətbiq edilir.

Bu ilkin mülahizələr həqiqətin klassik konsepsiyasının zəif tərəflərini aşkara çıxarır. Həqiqət haqqında uyğunluq (korrespondent) nəzəriyyəsinin bu və digər çətinlikləri ona gətirib çıxardı ki, çoxları həqiqəti əldə edilməsinə cəhd göstərilən, lakin əl çatması mümkün olmayan hansısa bir tənzimləyici ideya və ya ideal etməyə başladılar. Belə bir şəraitdə həqiqət haqqında klassik konsepsiyadan fərqlənən yeni nəzəriyyələr meydana çıxdı. Bunlardan biri də koherent həqiqət konsepsiyasıdır.

Koherent nəzəriyyə çərçivəsində biliyin həqiqilik kriterisi olaraq, onun ziddiyyətsizliyi, yəni daha geniş bilik sistemi ilə ziddiyyət təşkil etməməsi qəbul edilir. Bu konsepsiyanın tərəfdarları dünyanı ona daxil olan hətta ən xırda və əhəmiyyətsiz hadisələrin belə qarşılıqlı təisrdə olduğu vahid bir tam hesab edən fəlsəfəi monizm prinsipindən çıxış edirlər. Buna görə də hesab edirlər ki, ayrı-ayrı predmet və hadisələr haqqında biliklər bütöv bir tam kimi dünya haqqındakı biliklər sistemi ilə uyğunluq təşkil etməlidir.

Bu konsepsiyanın tərəfdarları çox olmasa da, onun rasional mənası vardır. Doğrudan da, biz adətən elə yeni biliyi həqiqət hesab edirik ki, o, əvvəldən mövcud olan digər biliklər sistemi ilə məntiqi ziddiyyət təşkil etməsin. Buna görə də koherent həqiqət konsepsiyasının biliyin rasionalcasına qəbul edilməsinin real mexanizmlərini əks etdirdiyini hökm etmək olar. Lakin biliyin daxili ziddiyyətsizliyi onun həqiqiliyi üçün kifayət deyildir. Təsəvvür edər ki, biz məntiqi cəhətdən ziddiyyətsiz olan hansısa bir biliklər sisteminə malikik. Əgər bu sistemdə bütün hökmləri ona əks olan hökmlərlə əvəz etsək, onda yenə də məntiqi cəhətdən ziddiyyətsiz olan yeni bir biliklər sistemi almaq mümkündür.

Praqmatizmə görə yalnız insana fayda gətirən və praktikada müvəffəqiyyətlə tətbiq edilən bilik həqiqətdir (Ç.Pirs, C.Dyui, U.Ceyms). Praqmatizmin banilərindən biri olan amerikan psixoloqu Uibyam Ceyms, məsələn, hesab edirdi ki, «Allah mövcuddur» hökmünün həqiqət olması Allahın real mövcudluğundan asılı olmayıb, onun mövcudluğuna olan inamın insanların birgəyaşayışı üçün faydalı olması ilə şərtlənir. Adi gündəlik həyatda bizim biliklərimizin həqiqət olması öz təsdiqini onların praktik tətbiqində tapır.

**İstifadə olunmş ədəbiyyat**

1.İsrafilov M. Məntiq. Bakı, Turan evi,2001
2. İmanov H. Fəlsəfənin əsasları.Bakı, Turan evi, 2010

## DİNİ DƏYƏRLƏRİN ÖZÜNƏMƏXSUS XÜSUSİYYƏTLƏRİ

**Şəfəq Hacıyeva**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işçisi
sefeq.haciyeva56@mail.ru

**Açar sözlər: din, dəyərlər, fəlsəfə, insan, dünya, ictimai şüur,**

Minilliklər boyu dini inanclar mövcud olmuşdur. Bu, hər qəbilənin ibadət etdikləri bir neçə tanrıya sahib olmaları demək idi. Daha spesifik olaraq, ibtidai xalqların ruhlar və tanrılar haqqında fikirləri, bir qayda olaraq, mifoloji formada ifadə edilmiş və miflərin əsas süjetləri günəş və ay, cənnət və yer, dəniz, atəş, ulduzlar, külək və s. kimi təbii hadisələr idi. Nəzərə alınmalıdır ki, insan tərəfindən miflərin yaradılması onun yaradıcılığa və özünü

tanımaq üçün atılmış ilk addım idi. İbtidai cəmiyyətlərdə və xüsusən də ilkin sinif dövlətlərində din təbiətinə görə qəbilə dini idi, daha sonra isə milli-dövlət və ümumdünya dini olur. Sonradan dini təlimlər təkallahlığa çevrilir və bəziləri dünya səviyyəsinə çıxır. Görünüşünə görə ilk dünya dini buddizmdir (e.ə. VI-V əsrlər), ikincisi - xristianlıq (I əsr) və sonra islam (VII əsr). Bu dinlər milliyyətindən, dilindən və ictimai-siyasi quruluşundan asılı olmayaraq ortaq inanclı insanları birləşdirir.

Tarix boyu ən yaxşı insanlar tərəfindən yaradılan bütün dünyagörüşlər hamı üçün ortaq olan tək dünyamızı fərqli şəkildə əks etdirir və varlığımızın, idrakımızın və varlığımızın inkişafının fərqli yollarını izah edir.

Fəlsəfə və din insanın dünyadakı yeri, insanla dünya arasındakı əlaqə haqqında sualı cavablandırmağa çalışır. Suallar eyni dərəcədə maraqlıdır: yaxşı nə var? pis nədir? xeyir və şərin mənbəyi haradadır? Mənəvi kamilliyə necə nail olmaq olar? Din kimi, fəlsəfəyə də mümkün təcrübə hüdudlarından kənara, ağıldan kənara çıxmaq xasdır. İnsanlara insan və bəşəriyyətin obyektiv məqsədlərinə, dünya missiyamıza ən yaxşı cavab verəcək bir dünyagörüşü verməyə çağırılırlar. Bu dünyagörüşü ilə yaşamaq rahat və təsirli olmalıdır. Həyata istiqamət verməli, onları bütöv inamlı və mütənasib inkişafa yönəltməlidir. (Fəlsəfə ensiklopedik lüğəti, 1997)

Ancaq aralarında fərqlər var. Din kütləvi bir şüurdur. Fəlsəfə nəzəri, elit bir şüurdur. Din şübhəsiz inanc tələb edir və fəlsəfə həqiqət olduğunu sübut edir. Fəlsəfə hər zaman hər hansı bir elmi kəşfi dünya haqqında məlumatımızı genişləndirməyin şərtləri kimi qəbul edir.

Din də fəlsəfə ilə yanaşı hər biri öz baxımından ilahiyyatla da əlaqəlidir. İlahiyyat vəhy ilə verilən dini şüur amillərini kifayət qədər şərh etməyə çalışır. Din tarixi dini şüurun yaranması və inkişafı prosesini araşdırır, müxtəlif dinlərin formalaşmasının ümumi prinsiplərini tapmaq üçün müqayisə edir və təsnif edir. Fəlsəfə ilk növbədə dinin mahiyyətini təhlil edir, dünyagörüşü sistemindəki yerini müəyyənləşdirir, psixoloji və sosial cəhətlərini, ontoloji və idrak mənasını ortaya qoyur, inamla bilik arasındakı əlaqəni, insanla Tanrı arasındakı münasibətlərin problemlərini, dinin mənəvi mənasını və cəmiyyət həyatındakı rolunu, həm insanın, həm də insanlığın mənəviyyatının inkişafında rolunu işıqlandırır (Канке, 2000)

Dinin əsas xüsusiyyəti dünyaya hakim olan fövqəltəbii qüvvələrə inanmaq və ibadət etməkdir. Dinin fəlsəfi idealizmlə ortaq xüsusiyyətləri və epistemoloji kökləri var. Din elmi dünyagörüşü ilə uyğun olmayan bir dünyagörüşüdür. Din ictimai şüurun formalarından biridir. Dinin tarixi missiyalarından biri də bəşər övladının birliyi, ümumbəşəri əxlaq normalarının əhəmiyyəti və davamlı dəyərlərin şüurunun formalaşmasıdır. Din sosial bir qurumdur. Dini dünyagörüşü insanın narahatlıqlarına, ümidlərinə və iman axtarışına yönəlmişdir. Din birmənalı, düz xüsusiyyətlərə sığmayan mürəkkəb bir mənəvi təhsil və sosial-tarixi fenomendir. Din dünyanın inkişafının hisslər tərəfindən qəbul edilən bu dünyada və digər dünyada (cənnətdəki), fövqəltəbii, həssas olaraq iki qatlanaraq həyata keçirildiyi bir dünyagörüş formasıdır. Dini müxtəlif tərəflərdən nəzərdən keçirmək olar: insan psixologiyası nöqteyi-nəzərindən, tarixi, sosial və s. Bütün bu konsepsiyanın tərifi həlledici dərəcədə əsas şeydən asılı olacaqdır: daha yüksək güclərin, yəni Tanrı və ya tanrıların varlığının və ya yoxluğunun tanınması. Din öz quruluşu ilə mürəkkəb və çoxşaxəli fenomendir.Bütün dinin ilkin elementi imandır. Din xarici aləmin bir əksidir, bir insanın real həyat təcrübəsini əks etdirir, mənəvi dəyərlər sistemini, mənəvi idealları qoruyur. (Поппер, 1983)

Din ictimai şüur forması kimi ictimai həyatın real tərəflərinin bir əksidir. Dini şüur ictimai şüurun bir forması olaraq bir tərəfdən sosial varlığı (dindar bir insanın varlığını) əks etdirir, digər tərəfdən özünü (varlıq) yaradır. İctimai şüur quruluşu elementlərinin işləməsi və qarşılıqlı təsirinin təhlili göstərir ki, din bütün sahələrə nüfuz edir, bütün elementlərə müəyyən təsir göstərir, dünyaya , ailəyə, cəmiyyətə münasibətləri müəyyənləşdirir.

Ən ümumi şəkildə dinin bir cəmiyyətin, bir qrupun, bir şəxsin mənəvi həyatının bir sahəsi olduğunu, bunun dünyanın və mənəvi istehsal sahəsinin praktik - mənəvi mənimsənilməsinin xüsusi bir yolu olduğunu söyləyə bilərik . Bütövlükdə cəmiyyətlə əlaqəli

olaraq, din fəaliyyətlərin həyata keçirildiyi, mürəkkəb bir quruluşun formalaşdığı sosial bir alt sistem kimi görünür.

Hər hansı bir sistem və alt sistemlər heç bir elementə endirilə bilməz və bu elementlərin qarşılıqlı əlaqəsi xaricində hesab edilə bilməz və bunların qarşılıqlı əlaqəsi ilk növbədə işləmə prosesində həyata keçirilir. Din cəmiyyətin bir alt sistemi olaraq tarixin gedişində dəyişən və konkret tarixi vəziyyətə uyğun olaraq müəyyən funksiyaları yerinə yetirən fərqli bir yer tutur.

Dinin bir neçə vacib funksiyası ayrılır: ideoloji, kompensasiyaedici, ünsiyyətçi, tənzimləyici, inteqrativ.Din dünyagörüşü funksiyasını insanda, cəmiyyətə, təbiətə dair müəyyən bir baxış növü olduğu üçün həyata keçirir. Bir insanın varlığına məna vermək, bir möminin varlıq məhdudiyyətlərindən çıxması, gələcəkdə daha yaxşı bir həyat ümidi tutması, əzablardan, bədbəxtliklərdən qurtuluşu və s.

Kompensasiya funksiyası insanların vəziyyət qarşısında asılılığını və gücsüzlüyünü təmin edir. Zərurət təzyiqi, məhdud imkanlar "ruhda azadlıq" ilə aşılır, sosial bərabərsizlik günahkarlıqda "bərabərliyə" çevrilir, əzab çəkməkdə, parçalanma və təcrid cəmiyyətdəki qardaşlıqla əvəz olunur, insanların gündəlik həyatda ayrılığı və laqeydliyi Tanrı ilə şəxsi ünsiyyət və dini qrupda ünsiyyət ilə kompensasiya olunur. Dinin kommunikativ funksiyasına informasiya mübadiləsi, qarşılıqlı təsir, bir insanın bir insanın qavrayışı və Tanrı ilə ünsiyyət prosesləri daxildir.

Tənzimləmə funksiyası ondan ibarətdir ki, müəyyən fikirlərin, dəyərlərin, münasibətlərin, fikirlərin, ənənələrin, adətlərin köməyi ilə fərdlərin, qrupların, icmaların fəaliyyətləri və münasibətləri, şüuru və davranışları idarə olunur. Mömin, zahid nümunələrini və əfsanələrdəki personajları həyatda təqlid etməyə çalışmalıdır.

İnteqrativ funksiya həmfikir insanların icması və ya etirafı daxilində həyata keçirilir. Bununla birlikdə, fərdin dini şüurunda və davranışında uyğunsuz meyllərə rast gəlinirsə, sosial qruplarda və cəmiyyətdə bir-birinə qarşı çıxan fərqli etiraflar varsa, din parçalanma funksiyasını yerinə yetirir. (Поппер, 1983)

Dini şüur iki səviyyəyə malikdir - gündəlik və konseptual. Gündəlik şüur insan varlığı şərtlərinin birbaşa əks olunduğu obrazlar, fikirlər, stereotiplər, əhval-ruhiyyə və hisslər, vərdişlər və ənənələr şəklində meydana çıxır. Bu səviyyədə duyğular dominant rol oynayır - hisslər və ləzzətlər, şüur əyani məcazi formalarda ifşa olunur.

Gündəlik şüurun komponentləri arasında nisbətən sabit, mühafizəkar və hərəkətli, dinamik var: birincisinə ənənələr, adətlər, stereotiplər, ikincisi - əhval-ruhiyyə (dua edən, tövbə edən) daxildir.

Konseptual səviyyə anlayışların, ideyaların, prinsiplərin, mülahizələrin, anlayışların xüsusi inkişaf etdirilmiş sahəsidir. Buraya daxildir: hər dinin özəyi olan Tanrı doktrinası; dini - etik, estetik, hüquqi və digər anlayışlar; dini fəlsəfə. İlahiyyat bütün bu teologiyanı birləşdirir.

Dini şüurun özəyi inancdır, lakin hər inanc dindar deyil. İnam bir məqsədə çatmaqda, hadisənin baş verməsində, nəzərdə tutulan davranışda xüsusi bir psixoloji güvən vəziyyətidir. Məqsədin həyata keçirilə biləcəyi barədə dəqiq məlumat çatışmazlığı olduğu halda bir fikrin həqiqətinə inam. İstədiyiniz şeyin reallaşacağına dair gözləntiləri ehtiva edir.

Dini etiqad imandır:

- fövqəltəbii obyektiv varlığında;
- bu fövqəltəbii ilə ünsiyyət qurma qabiliyyətində;
- bəzi mifoloji hadisələrin faktiki yerinə yetirilməsində, bunlara cəlb olunmada;
- doqmaların, mətnlərin müvafiq təqdimatlarının həqiqətində;

dini qurumlar - qurular, peyğəmbərlər, ruhanilər (Поппер, 1983)

Dini şüurun dialoq xarakteri inamla əlaqələndirilir. Fövqəltəbii obyektiv mövcudluğa inam, onunla ünsiyyətə inamı və bu cür ünsiyyəti dialoqu da əhatə edir. Dialoq səsləndirmə və

ya daxili nitqin köməyi ilə ibadətdə, duada, meditasiyada həyata keçirilir. Dini fəaliyyət kult və təriqət ola bilər. İkincisi, teoloji əsərlərin yazılması , rəhbərliyi, mediada çıxışları və s. Din insandan əvvəl təbiətdə dərin kökləri olan dünyanı izah etməyin təbii, üzvi bir formasıdır. Görünüşü psixikanın və şüurun ortaya çıxması ilə sıx əlaqədardır, bu yalnız mövcudluğun bir və ya digər izahına - şahidi olduğumuz və iştirak etdiyimiz hər şeyə inam olduqda mümkündür. Ən azından ən sadə izah: dünya mövcud olduğu üçün mövcuddur. Ancaq şüur nə qədər yüksəkdirsə, inancı o qədər mürəkkəbdir. Tanrı şüurunun səviyyəsi növün inkişaf səviyyəsinə və dünyadakı mövqeyinə uyğundur (Канке 2000)

Din dünyanı izah etməyin ilk formasıdır. Fəlsəfə dini izah edir, yalnız izahın deyil, həm də dünyanın məqsədyönlü inkişafının vəzifələrini qarşısına qoyur. Yüksək məqsədlərinin əsl dərkində fəlsəfə ilə din arasında heç bir fərq yoxdur və tarixi bir boşluq yoxdur. (Rüstəmov, 2004)

İnkişaf etməkdə olan hər bir din və ya fəlsəfə əvvəlcə dünyagörüşünün bir növ yeni izahını verən hipotezdir. Bəziləri, az, bir fərziyyə irəli sürürlər və bu bir mənada əlverişli olarsa, digərləri, çoxları bunu qəbul edir və fərziyyədən inam qurur. Vaxt keçdikcə inam doqmalara çevrilir. Sonra yeni fərziyyələr yaranır, bəziləri yenidən iman kimi formalaşır. "Dinin qorxunun məhsuludur" iddiası bəşəriyyəti təhqir edir. Qorxu deyil, dünyanın şüurlu bir şəkildə izah edilməsinə ehtiyac, dinin və eyni zamanda şüurun doğmasına səbəb oldu.

Həyatı qorumaq üçün heyvanlar və insanlar ətraf mühitdə gəzməlidirlər. Yaşamaq və xüsusilə də dünyanın çevrilməsi üçün şüurun dəstək nöqtələrinə ehtiyacı var, materiala uyğun olan kifayət qədər sabit bir ideal dünyaya sahib olmaq lazımdır. Və mövzu əsas, təməl daşı anlayışları - əmrlər və aksiomalar çərçivəsində durur. Bu çərçivə bir çox insana xas olan inancdır. Onun çərçivəsində insanlar psixikanın və şüurun fərdi, dinamik strukturlarını yaradırlar. Ətrafdakı dünya və fərdin orqanizmi nə qədər mürəkkəbdirsə, bir o qədər geniş, daha mükəmməl bir inamdır. İnam nə qədər mürəkkəbdirsə, bir o qədər fərdi, dinamik konstruksiyaları qəbul edə bilər. (Fəlsəfə ensiklopedik lüğəti, 1997).

Din inamın ən yüksək formasıdır. Bir insana niyə yaşadığını, işlədiyini, övlad dünyaya gətirdiyini, ona dəstək olduğunu, ona rəhbərlik etdiyini izah edir. Dünyadakı mövqeyimizi göstərir, Kainatdakı "Mən"i istiqamətləndirir, varlığın mənasının bir versiyasını verir.
Fəlsəfə də buna çağırılır; ancaq insanın qarşısında duran vəzifələri genişləndirir. Deyir, yalnız var olmalıyıq, dünyanı tanıyıb inkişaf etdirməliyik. Fəlsəfə inanmağın ənənəvi olduğunu izah etməyə çalışır. Fəlsəfə elm, din və poeziyanın sintezidir; elmə poetik inam; öz dövrünün biliyi əsasında gələcəyi görmək sənəti. Fəlsəfə "elmi üsullarla" inancın yaradılmasıdır. İnam, din halına gəlməyən materialist anlayışlara fəlsəfə deyilir (Поппер, 1983)

Din varlığın bütün maddi və mənəvi formalarını, eləcə də mərasimlər və sehrli hərəkətlər məcmuəsini ağıllı şəkildə yaradan və yaradan "başqa", fövqəltəbii dünyanın və varlıqların - ruhların, tanrıların və ya Tanrının varlığına inamla şərtləndirilən dünyanın qavrayışı, əxlaq normaları və davranış növüdür. Din ictimai şüurun formalarından biridir; ibadət mövzusu olan fövqəltəbii qüvvələrə və varlıqlara (tanrılara, ruhlara) inama əsaslanan mənəvi fikirlər toplusudur. Din kainatın və insanlığın inkişafına nəzarət edən qeyri-maddi bir dünyanın varlığına inamdır. Elmin zəif inkişafı şəraitində din dünyanın izahının yeganə forması olduğunu iddia edir. (Канке, 2000)

Dinin gerçəklik fenomeni olaraq ortaya çıxması probleminə üç baxış var:

-Ateist mövqe - din müşahidə olunan təbiət hadisələrini elmi izah etməyin mümkünsüzlüyü səbəbindən müəyyən bir şüur səviyyəsində yaranır.

-Dini mövqe - insan Allah tərəfindən yaradıldı, bir dəfə onunla birbaşa ünsiyyət qurdu, lakin Yer kürəsinə endikdən sonra bu cür ünsiyyət mümkün olmadı, bunun üçün vasitəçilərin köməyinə müraciət etmək və müəyyən hərəkətlər etmək, şifahi formulları tələffüz etmək, xüsusi obyektlərdən istifadə etmək lazımdır.

-Orta mövqe - mövcud elmi biliklərin və ictimai düşüncələrin vəziyyətini nəzərə alır, ancaq insanın Allah tərəfindən yaratması ilə bağlı dinin əsas postulatına əsaslanır: Yer kürəsinə enmə nəticəsində insan onunla ünsiyyəti, hətta varlığını da tamamilə unutdu.

Bir çox tədqiqatçıya görə din aşağıdakı funksiyaları yerinə yetirir:

-Dünya dünyagörüşü: din dünyaya, insanın içindəki yerə, insanların bir-biri ilə münasibətlərinə baxışların məcmusudur;

-Aksioloji (dəyər): din ümumbəşəri mənəvi dəyərləri müəyyənləşdirir və təbliğ edir;

- Tənzimləmə: din bu təlimin əmrlərinə və ideallarına əsaslanan bir norma sistemi - davranış qaydaları inkişaf etdirir. Normalar insan davranışında icazə verilən şeyin sərhədlərini müəyyənləşdirir və insanlar arasındakı münasibətləri tənzimləyir;

-Kompensasiya: din insan həyatındakı bəzi "boşluqları" doldura bilər, bir şeyin çatışmazlığını kompensasiya edə bilər;

- Qanuniləşdirmə: din ictimai münasibətləri ilahi nüfuz gücü ilə əsaslandıra bilər, mövcud iqtidarı dəstəkləyir və onun ideologiyası kimi çıxış edə bilər;

- İnteqrasiya: insanlar din bayrağı altında birləşirlər (inteqrasiya edirlər), digər tərəfdən eyni şüarlar altında birləşmə insanların başqa etirafların nümayəndələri ilə qeyri-bərabərliklərini anlamalarına gətirib çıxarır ki, bu da anlaşılmazlıq və qarşıdurmalara səbəb olur. (Rüstəmov, 2004)

Fəlsəfənin dünyanı dərk etməyin bir yolu kimi özünəməxsusluğu gerçəkliyin mifoloji dərk etməsi ilə müqayisədə aşkarlanır. Mifologiya ibtidai, qəbilə cəmiyyətinin dünyagörüşüdür. Mifologiya, öz-özünə meydana gələn əfsanələrdən, həyat haqqında, mənşəyi haqqında, sənətkarlığın mənşəyi haqqında nəsillərə ötürülən əfsanələrdən ibarətdir.

**İstifadə edilmiş ədəbiyyat**


Fəlsəfə ensiklopedik lüğəti. Bakı, NPB, 1997.

Rüstəmov Y. Fəlsəfənin əsasları. Bakı, 2004.

Канке В.А. Основные философские направления и концепции науки. Итоги XX столетия. М.: Логос, 2000.

Поппер К. Логика и рост научного знания. М.: Прогресс, 1983.


## VƏTƏN MÜHARİBƏSİNDƏ ƏLDƏ OLUNAN HƏRBİ, SİYASİ VƏ İNFORMASİYA MƏKANINDAKI QƏLƏBƏLƏR


**Aypara Abbasova**

AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işçisi

ayparaabbasova@yahoo.com



**Açar sözlər:**Vətən, Azərbaycan, hərbi potensial, müasir cəmiyyət, informasiya məkanı


Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Şanlı Ordumuz 30 ilə yaxın müddətdə düşmən işğalı altında olan torpaqlarımızı azad etməklə dünya çapında yeni şanlı səhvə açmış oldu. Beləki, torpaqlarımızın hər qarışının azad olunması uğrunda gedən genişmiqyaslı döyüşlər, ön cəbhədə Ordumuzun, arxa cəbhədə isə xalqımızın şanlı tarix yazaraq istər döyüş meydanında , istərsə də informasiya məkanında düşmən üzərindəki sarsıdıcı zərbələri , hər zərbədən qazanılan qələbələri ordu və xalda böyük inam, ruh yüksəkliyi yaratdırdı. Bu gün tarixi qələbəsi ilə yadda qalan Vətən müharibəsi həmçinin

informasiya komunikasiya texnologiyalarnında yeni fəaliyyət yanaşmalarının meydana gəlməsini də labüt etdi. Müasir dünyada informasiya komunikasiya texnologiyalarının sürətlə inkişafı nəticəsində asanlıqla əldə edilən hər hansı informasiya dövlətlərin , cəmiyyətlərin özünü ifadə etmək baxımından əvəzsiz vasitədir. Beləki müharibə aparan ölkələr malik olduqları informasiya resurslarından istifadə etməklə qaşı tərəfin həm ictimai , həm siyasi , həmdə hərbi mühitinə sarsıdıcı təsirlər etməyə çalışırlar. Feyk xəbərlərlə cəmiyyətdə mənəvi-psixoloji durumu azaltmaqla , xalq arasında çaşqınlıq və ruh düşkünlüyü yarada bilirlər. Və ya deyilənlərin əksinə olaraq informasiya texnologiyaları haqq səsimizin dünya ictimayətinə çatdırılmasında , xalq –ordu- dövlət birliyinin möhkəmlənməsində mühüm rol oynayır. Vətən müharibəsi dövründə hərbi meydanında əldə olunan qələbələrlə bahəm informasiya məkanındada əldə olunan siyasi-diplomatik uğurların şahidi olduq. Ali Baş Komandanın hər gün dünyanın ən nüfuzlu KİV-lərinə müsahibələr verməsi, verilən sualları dəqiq faktlarla cavablandırması, erməni yalanlarını diplomatik yollarla üzə cıxarması və ifşa etməsi informasiya mühariəbəsində də uğuırlarımız qaçılmaz etdi. Ali Baş Komandan kimi Prezident İlham Əliyev müharibə dövründə 30 yaxın müsahibədə beynəlxalq informasiya məkanında Azərbaycana qarşı yönəlmiş bütün hücumları öz diplomatiyası ilə darmadağın etdi. O, erməni yalanlarını ifşa etməklə bərabər onun havadarlarının da planlarını alt-üst etdi.

Bu gün bir daha şahid olduq ki, informasiya komunikasiya texnologiyalarının sürətli inkişafı bütün sahələr kimi hərb sahəsinə də öz ciddi təsirini göstərir. Inkişaf edən informasiya texnologiyaları hərbi sahələrə geniş və davamlı surətdə tətbiq edilir. Hamıya məlum olan hadisələr bir daha göstərdi ki, bütün sahələrlə bahəm hərbi-siyasi sahələrində informasiya komunikasiya texnologiyalarına inteqrasiyası məsələləri istiqamətində davamlı layihələrin reallaşdırılması günümüzün əsas tələbi və dövlətin prioritetidir.

Müasir informasiya cəmiyyətində bütün dünyada olduğu kimi ölkəmizdə də xüsusi informasiya resursları yaradılır və eyni zamanda davamlı inkişaf etdirilir. Müasir tələblər baxımından İnformasiya Komunikasiya Texnologiyalarının inkişaf səviyyəsi hər bir dövlətin sosial –iqtisadi, (səhiyyə,elm, təhsil,mədəniyyət, turizim, və. s), həmçinin hərbi siyasi potensialının göstəricilərindəndir. Bütün bu saydıqlarımızın bariz və fəxarətlə qeyd edə biləcəyimiz nümunəsi Vətən torpaqlarımızın analoqu olmayan , yeni texnologiyaların tətbiqi ilə işğaldan azad etməyimizdir. Belə ki , ölkəmizdə vətəndaşlarımızın informasiya texnologiyalarının imkanlarından sərbəst və manəsiz isdifadə etmələrinin təmin olunmasına, bununla bahəm İKT infrastrukturunun yaranmasına , davamlı inkişafına və gücləndirilməsinə , informasiya texnologiyalarının yenilənməsinə xüsusi diqqət yetirilir. Ölkəmizdə demək olar ki, bütün sahələrdə informasiya texnologiyalarının tətbiqi ciddi ugurlar qazanıb. İKT sektoru ölkəmizdə ən dinamik və davamlı inkişaf edən bir sahədir. Ən yeni , müasir texnologiyaların Respublikamıza gətirilməsi və tətbiqi, milli- mədəni irsimizlə bağlı, haqq səsimizi dünyaya çatdırılması ilə bağlı materilların virtual məkanda yerləşdirilməsi, milli internet resurslarının zənginləşdirilməsi, əhalinin çox hissəsinin internet istifadəçisinə çevrilməsi informasiya komunikasiya texnologiyalarının inkanlarından istifadə üçün zəmin yaradır.

Hamıya məlum olduğu kimi İKT sektorunun inkişafı dövlətimiz qarşısında təbii sərvətimiz olan neftdən sonra ikinci priotet sahədir. 2013 –cü ilin informasiya komunikasiya texnologiyaları ili elan olunması bu sahənin necə vacib prioritet səhə olduğunu göstərir. İKT sektorunun ölkə iqtisadiyyatı üçün nə qədər önəmli olduğunu ölkə Başçısı Prezident İlham Əliyev hər zaman bəyan edib. Uğurla gerçəkləşdirilən sosial-iqtisadi islahatların davamlı və tarazlı inkişafı stimullaşdıran dövlət proqramlarının, ictimai həyatın bütün sahələrini əhatə edən fərman və sərəncamların nəticəsi olaraq respublikamız dünyanın sürətli inkişaf yolunda olan, qlobal maliyyə-iqtisadi böhrana əzmlə sinə gərən dövlətləri sırasına yüksəlmişdir. Cənab Prezident İlham Əliyev elmi əsaslarla yeritdiyi sosial-iqtisadi strategiya nəticəsində cəmiyyətin ümumi potensialının milli məqsədlər naminə səfərbər olunması inkişaf prosesində

dinamizmi və məqsədyönlü təmin etmiş , hər bir mərhələ üçünqarşıda duran vəzifələrin həllinə real imkanlar açmışdır.

Müasir cəmiyyət həyatındakı sürətli dəyişikliklər elm və təhsil konsepsiyasının müasirləşdirilməsini, inkişaf etmiş dövlətlərin maarifçilik ənənələrinin mənimsənilməsinin, eləcə də mənəvi-intelektual intihaba xidmət edən siyasətin yeni əsaslarla davam etdirilməsini vacib məsələ kimi gündəmə gətirmişdir. Artıq iqtisadi qüdrəti ilə tarixən dünya siyasətinə təsir inkanlarını qoruyub saxlamış bir çox dövlətlərin gələcək taleyi heç də onların malik olduqları zəngin təbii sərvətlərlə deyil, ilk növbədə, elmi-intelektual potensialı, insan kapitalı ilə şərtlənmişdir. Inkişafını malik olduğu zəngin neft-qaz ehtiyatlarının gətirdiyi dividentlərə bağlamayan Azərbaycan da mövcud resurslarını məhz insanların intelektual resurslarının gücləndirilməsi yönümündə qurur. "İqtisadi inkişaf sürətinə görə Azərbaycan inkişaf etmiş ölkələr sırasındadır. Biz bu maddi dəyərləri, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı , biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir və beləliklə ölkənin intelektual potensialı da möhkəmlənir. Artıq vaxt gəlibdir ki, biz məhz bu sahəyə sərmayə qoyaq",- deyən cənab Prezident İlham Əliyev neftdən əldə olunan gəlirlərin insan kapitalına çevirilməsi istiqamətində məqsədyönlü siyasət həyata keçirir. Dövlət başçısı bildirir ki, neft Azərbaycan üçün məqsəd deyil, davamlı iqtisadi tərəqqini təmin etmək üçün vasitədir. Dünya təcrübəsində iqtisadiyyatın yalnız neft üzərində qurulması , habelə neft gəlirlərinə güvənlik nəticəsində iqtisadi sistemi iflic edən "Holland sindiromu" kimi mənfi presedent də var. Məhz buna görə də ölkə başçısı iqtisadi inkişafa yalnız neft amili hasabına nail olmağı məqbul saymır, tarazlı və davamlı tərəqqi naminə qeyri-neft sektoruna , İKT-nin inkişafına xüsusi diqqət yetirilməsini önə çəkir.

Dünyanın inkişaf parametrləri baximindan müşahidə olunan qloballaşma prosesinin aktuallığı ən müxtəlif faktorların çuğlaşması ilə şərtlənmişdir ki, bu faktorlar da demoqrafik, təbii ekoloji, texnoloji, iqtisadi, siyasi, sosial-mədəni faktorlardan ibarətdir. Sadalanan bu faktorların həlli problemləri bu gün nəinki azalır, əksinə , müəyyən mənada kəskinləşir. XX əsrin ikinci yarısından daha kəskin xarakter alan qlobal problemlər artıq əsrin sonlarında bəşər həyatı və dünya iqtisadiyyatının vahid informasiya məkanında bütövləşməsi bu prosesə yeni fərqli baxışları gətirdi və beləliklə də bunlar ən müxtəlif sahələrdə öz təsirini göstərməyə başladı. Bu sahələrdən biri də hər bir dövlət üçün strateji əhəmiyyətli məsələ olan insan kapitalının davamlı inkişafı məsələsidir. Indi bütün dünyada sosial-mədəni amil olan insan kapitalının formalaşması və davamlı inkişafı xüsusi diqqət mərkəzindədir. Hər bir dövlət bilir ki, inkişaf vüsət aldıqca gəlir mənbəyi maddi resurslar deyil, elm, bilik və elmin biliyin məhsulu olan elmi-texniki naliyyətlər, innovasiyalardır. Cəmiyyətdə biliyin əsas amil olması, həmin cəmiyyətdə təhsilin rolunu gücləndirir və bu da cəmiyyətin inkişaf səviyyəsinin təhsildən asılı olduğunu göstərir. Güclü təhsil isə hər bir ölkə üçün strateji rasurs olub, ölkənin istər təhlükəsizliyi, istər suverenliyi, istərsə də iqtisadi baxımdan inkişafını təmin edir. Elmdə zəiflik ölkə üçün hər bir sahədə gerilik gətirir. Elmin , biliyin kapitala çevrilməsi isə güclü iqtisadi gəlirə, davamlı inkişafa nail olmağa yol acır. Yeni təhsil sistemləri köhnə ənənəvi təhsil sistemlərindən fərqli olaraq sərhədləri aşaraq qapalı sistemlərdən çıxaraq hər hansı bir ölkənin deyil, ümumbəşəri maraqları ifadə edir. Təbii ki , bu günün tələbləri baxımından təhsilli insan anlayışı çox dəyişmişdir. Belə ki, informasiya- kompüter şəbəkəsi təhsilini reallaşdiran insan yeni bir təhsil sistemi ilə qarşı-qarşıyadır. Bu günün insani var gücü ilə zehni potensialını işə salır. Çünki bu yeni elmi bilik tutumlu cəmiiyyətin mərkəzində insan anlayışı durur. Insan bu yeni cəmiyyətin simvoludur və hər şey insan üçün nəzərdə tutulur.

Elmi bilik tutumlu cəmiyyətin qurulmasi, reallaşdırılması, insan kapitalınındavamlı inkişafı dövlətimizin qarşısında duran ən prioritet məsələdir. Bu cəmiyyətdə təhsilin,elmin humanistləşdirilməsi, mənəviyyatın dəyərlərə hörmətin, etikanın məsuliyyətin dərk edilməsi əsas məsələdir. Qloballaşan dünyada rəqabətə tab gətirmək üçünsə daim yenilənən və inkişaf edən informasiya texnologiyalarına arxalanmaq lazımdır. Elm və bilik tutumlu informasiyanın

yaradılması, əldə edilməsi, istehsal prosesinə praktik tətbiqi təkcə sosial-iqtisadi inkişafın deyil, həm də qlobal rəqabətin mühüm şərtidir. Bu vəzifələrinsəhəyata keçirilməsi baxımından ölkə prezidentinin " Azərbaycan 2020-gələcəyə baxış" İnkişaf Konsepsiyasının tətbiqi haqqında imzaladığı fərman cox problemlərə aydınlıq gətirməklə bərabər , həm də bu problemlərin həlli yollarını gostərmişdir.Umumiyyətlə davamlı inkişaf konsepsiyasının əsas prinsipləri 1983-cü ildə BMT tərəfindən yaradılmış Ətraf mühit və inkişaf üzrə Beynəlxalq komissyanın hazırladığı  və 1987-ci ildə geniş ictimayyətin müzakirəsinə təqdim olunmuş məruzəsində öz əksini tapıb və bu prinsiplərə görə dünyanın bütün dövlət və xalqları sosial-iqtisadi siysətlərinə yenidən baxılmalı , inkişafın kəmiyyət deyil, keyfiyyət parametrlərinə üstünlük verilməli, insan, cəmiyyət və təbiət arasında harmonik tarazlıq qorunmalı, insan mövcudluğunun təbii əsaslarını dağıtmayan və sonrakı tədrici inkişafa imkanlar saxlayan sosial-iqtisadi quruluşu formalaşdırmalı. Ümumiyyətlə, bu inkişaf konsepsiyasının mahiyyəti planetin ehtiyatlardan səmərəli və qənaətlə istifadə, təbii mühitin qorunub saxlanması ,indiki və gələcək nəsillərin həyat keyfiyyətinin yaxşılaşdırılması şərtilə insanların tələbatının ağıllı şəkildə ödənilməsi və bütün dünyada sülhün saxlanılmasına yönəlmiş sosial-iqtisadi və ekoloji inkişafı nəzərdə tutur.

Informasiya  cəmiyyəti məsələlərinə dair yüksək səviyyəli beynəlxalq görüşlərdə qeyd edilirdi ki rəqəmsal həmrəyliyin gündəliyinin məqsədi cəmiyyətin formalaşmaqda olan informasiya cəmiyyətinə qatılması üçün vaçib olan insan maliyyə  və texnoloji resursların səfərbəredilməsi üçün şəraitin yaradılmasıdır. Beynəlxalq birlik formal və qeyri-formal təhsil sistemlərində hamı ücün tədris proqramlarını genişləndirməyi rabitə və İKT sahəsində əhalinin savadını artırmağı və bununla da İKT kontinentinin işlənməsi münasibətində hər kəsin potensialının artırılmasını tövsiyə edir.

Müasir informasiya və telekommunikasiya texnologiyalarının inkişafı, cəmiyyətin sosial-siyasi və mədəni həyatında informasiya vasitələrinin təsirinin güclənməsi bu sahənin infrastrukturununyeniləşməsini zəruri edir. Ölkəmizin dünya informasiya məkanına daxil olması və informasiya cəmiyyətinə keçidlə əlaqədar şəxsiyyətin, cəmiyyətin və dövlətin informasiya təhlükəsizliyinin təmin edilməsi xüsusi əhəmiyyət kəsb edir. Buna görə də informasiya texnologiyalarının inkişafına və fəaliyyətinin təkmilləşməsinə dövlət dəstəyi müasir dövrümüzün tələbinə çevrilmişdir. Bu dəstək cəmiyyətdə söz azadlığını , insanlarin obyektiv informasiya əldə etmək hüququnu təmin etmək məqsədi ilə dövlət tərəfindən müəyyən olunan təşkilatı –texniki, hüquqi, iqtisadi tədbirlərin məcmusunu ehtiva edir.

1990-cı illərin ortalarında respublikada ictimai-siyasi sabitlik təmin edildikdən sonra ölkənin davamlı inkişaf strategiyasımüəyyənləşdirildi, demokratik islahatların həyata kecirilməsinə başlandı. Bütün sahələrdə olduğu kimi təhsil sistemində də müasir dövrün tələblərinə uyğunlaşdırılması, beynəlxalq təcrübənin öyrənilməsi və tətbiq edilməsi istiqamətində müvafiq işlər görüldü. Təhsil infrastrukturunun yeniləşdirmədən,müasir tipli məktəblər inşa etmədən, təlim-tədris prosesinə lazımi şərait yaratmadan ,dünya ölkələrinin mütərəqqi təhsil ənənələrini nəzərə almadan bu məqsədlərə nail olmaq qeyri-mümkün idi. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın birbaşa təşəbbüsü ilə həyata keçirilən " Yeniləşən Azərbaycana yeni məktəb" lahiyəsi bu baxımdan cəmiyyətdə daha böyük əks-səda doğurmuşdu. Lahiyə çərçivəsində yalnız 2005-ci ildə Azərbaycanın ən müxtəlif bölgələrində 132, sonrakı mərhələdə 106-dan artıq yeni məktəb binasının tikilərək istifadəyə verilməsi və lazımı avadanlıqlarla xüsusi ilə də informasiya texnologiyaları ilə təhciz olunması dövlətin bu sahədə həyata keçirdiyi işlərə əvəzsiz töhvədir. Bu gün ümumtəhsil məktəbləri müəllimlərinin 70%-i kompüter kursları kecmişdir. YUNESKO-nun Təhsil sistemində İnformasiya Texnologiyaları üzrə İnstitutun statistik hesabatında gostərilən MDB və Baltik ölkələrinin ümumtəhsil sistemində İKT-nin tətbiqi ilə bağlı başlıca göstərişlərə əsasən informatika müəllimlərinin ylnız 70%-i  MS Office Word proqramı və mətn redaktorlarından istifadəni bacarır. Müasir dövrdə dövlətin təhsil sistemini müəyyənləşdirməsi məktəblərin

kompüterləşdirilməsi üçün kifayət deyil. Lakin bəzi məktəblər müxtəlif beynəlxalq lahiyələr vasitəsilə kompüter avadanlığına malik olur müəllimlər üçün təlim kursları təşkil edilir, bəzi məktəblərə isə bu bxımdan Azərbaycandafəaliyyət göstərən şirkətlər yardım edir.

Son illər Azərbaycan Respublikasında informasiya və komunikasiya texnologiyalarından istifadə sahəsində bir sıra ciddi addımlar atılmış və bu istiqamət dövlət siyasətinin prioritetlərindən birinə çevrilmişdir. Belə ki, Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramında gənc nəslin informasiya və komunikasiya texnologiyalarından səmərəli istifadə vərdişlərinə yiyələnməsi ən mühüm vəzifələrdən biri kimi qarşıya qoyulmuşdur.

İnformasiya texnologiyalarından istifadə etməklə təhsilin keyfiyyətini yüksəltməyə xidmət edən , bütün pillə və səviyyələrdə vətəndaşlara təhsil almaqla bərabər digər imkanları təmin edən , təhsil informasiya sisteminin dünya təhsil sisteminə inteqrasiyasına imkan verən vahid təhsil informasiya yaratmaq və əhalini informasiyalaşdırılmış cəmiyyətə hazırlamaq dövlətin əsas prioritetlərindəndir.

İnformasiya və komunikasiyasi texnologiyalarının tətbiqinin səviyyəsi hər bir ölkənin intelektual və elmi potensialının dövlət idarəçiliyində şəffaflığın və demokratiyanın imkişafının əsas göstəricilərindəndir. Bu gün baş verənlər də sübut etdi ki , elmi sahələrdə (orta və ali təhsil müəssisələrində) informasiyalaşdırma, kompüter, telekomunikasiya texnologiyalarının, müasir informasiya sistemlərinin tətbiqi yeni biliklərin alınmasını və onlardan isdifadə edilməsini təmin edir. Müəllim, tələbə, alim, mütəxəssislərin zəruri informasiyalarla yetərincə və anında təmin edilməməsi təkcə elmin deyil digər sahələrində inkişaf tempinin azalmasına gətirib çıxara bilər. Hamıya məlum olduğu kimi sadalananların baş verməməsi üçün ən müasir informasiya komunikasiya texnologiyalarından istifadə etməklə və informasiya fondlarını elektronlaşdırmaqla nail olmaqla olar.

İnformasiya emalı sahəsində köklü dəyişikliklərə müvafiq olaraq müxtəlif zamanlarda müxtəlif informasiya inqilabları baş vermişdir. Ilk inqilab yazının meydana gəlməsi, ikinci inqilab kitab çapının meydana gəlməsi, üçüncü inqilab elektrikin, teleqrafın, telefonun,radio və televizyanın meydana gəlməsi, dördüncü inqilab mikroprosessorların, fərdi kompüterlərin, internetin meydana gəlməsi ilə əlaqədardır. Bütün bu saydıqlarımızı ümumiləşdirərək qeyd etmək olar ki, cəmiyyətin inkişafı kənd təsərufatı sənaye dövrlərindən keçərək informasiya mərhələsinə daxil olmuşdur. Informatikanın tarixi isə məhz dördüncü informasiya inqilabı ilə başlayır.

"İnformatikanın inkişaf tarixi, onun bir elm sahəsi kimi formalaşması mərhələləri kompüter texnikasının inkişaf tempinə uyğundur. Ona görə də 1960-cı illərdən sonrakı dövrlərdə informatika fundamental bir elm sahəsi kimi formalaşmış və bir çox yeni elmi istiqamətlərin yaranmasına səbəb olmuşdur. Bundan başqa bir çox ölkələrin ali məktəblərində informatikaya aid olan çoxlu sayda yeni ixtisaslar və fənlər tədris olunmağa başlanmışdır.(Ilqar . Təzadlar 2010)

" Azərbaycan 2020: Gələcəyə Baxış" inkişaf konsepsiyasının nəzəri- metodoloji əsaslarına söykənərək respublikamızda ölkə başçısı, prezident İlham Əliyevin xüsusi tapşırığı ilə kompüter texnikası istehsalı sahəsində məqsədyönlü işlərin həyata keçirilməsi, təhsil, pensiya, vergi, gömrük, səhiyyə, mədəniyyət, turizim, internetin inkişafı və.s bu kimi digər sahələrdə bir çox iri İnformasiya Komunikasiya Texnologiyaları layihələrinin işə başlaması ölkədə müntəzəm olaraq beynəlxalq səviyyəli İKT sərgilərin, forumların, konfransların keçirilməsi , İKT-nin tətbiqi sahəsində mühüm, vacib qərarların qəbulu , o cümlədən İKT sahəsində mütərəqqi islahatların aparılması , olkəmizin İKT sahəsində bütün beynəlxalq tədbirlərdə iştirakı ümumilikdə informatika və informasiya komunikasiya texnologiyaları elminin ölkədə sürətlə inkişaf etdiyinin şahidi oluruq.

Elm ,təhhsil anlayışı öz fəlsəfi missiyası ilə "biliklər iqtisadiyyatı" meydana gəlməzdən əvvəl də sosium üçün vacib fundament olub. Adətən qeyd olunur ki , biliklər iqtisadiyyatı

dövründə beynəlxalq rəqabətlilik isdedat axtarışı üzərində qurulur. Hansı ölkələr ki, öz kadırlarına lazım olan biliklər verir və daha güclü isdedad yatişdirir, həmin ölkələr digərləri ilə rəqabətdə daha öndədir. Bu baxımdan dünyada artıq diqqət daha çöx universitetlərə yönəlib. Obrazlı desək, indi var-dövlət və zənginlik yaratmaq üçün bədənin boğazdan yuxarı hissəsini işlətmək lazımdır. Hansı ölkələrin ki, təhsili akademik mükəmməllik üzərində qurulub həmin ölkələr yeni inkişaf etmiş nəsil hazırlaya bilir və həmin nəsilin nümayəndələri beynəlxalq rəqabətlə ayaqlaşa bilir, birbaşa xarici investisiyalar cəlb etmək gücünə malik olur. Müasir təhsil mükəmməl olduğu qədər də münasib olmalı və ölkənin ehtiyacı olduğu sahələri əhatə etməlidir.

Informasiya komunikasiya texnologiyalarının sürətli inkişaf cərəyanları ilə baş başa qaldığımız müasir dövürdə cəmiyyətlər – sosial, siyasi, mədəni, iqtisadi və başqa istiqamətlərdə müxtəlif təsirlərə məruz qalırlar və heç şübhəsiz ki, təsirlərdən ən çox məruz qalan sahə elm , təhsil sahəsidir.

Dəyərlər davranışların mənbəyi sayılır və onların haqqında fikir yürütməyə imkan verən bir anlayış kimi qəbul olunur. Bundan əlavə , dəyərlər fərdlərin nələrə əhəmiyyət verdiklərini müəyyənləşdirərək istəkləri, seçimləri, arzuedilən və edilməyən vəziyyətləri göstərir. Bununla yanaşı dəyərlər daşıdıqları mənalardan asılı olaraq öz aralarında çərçivələnirlər. Sıralanmış müəyyən dəyərlər toplusu dəyər ustünlüklərini müəyyənləşdirən bir sistem yaradır.

Tomas Kun “ Elmi inqilabların strukturu” adlı əsərində paradiqmanı müəyyən bir cəmiyyətin üzvləri tərəfindən bölüşdürülən inancların, dəyərlərin , texniki vasitələrin tamı olaraq müəyyənləşdirmişdir.

Elm istehsalı ənənəsində mövcud olan paradiqmatik dəyişmə və bununla əlaqədar məlumatın təbiəti ilə bağlı yeni dəyərlər, öyrənmə və öyrətmə müddətlərində dəyişikliklər meydana gətirmişdir. Bu sahədə başlıca dəyişikliklər təhsil və tədris müddətlərində maraq mərkəzinin öyrənməyə doğru meyillənməsidir. Çünki müasir elm və təhsil anlayışı heç nəyə laqeyid qalmır , onun üçün indi hər şey elmi maraq kəsb edir. Yaşadığımız , bu müasir cəmiyyət bütün sahələrdə innovasiyaya əsaslanaraq müxtəlif növlü dəyişmələri labüd edir. Bu gün informasiya texnologiyalarının hədəfi elm, təhsil funksiyalarının yenidən müəyyənləşdirilməsini bir zərurət halına çevirməkdir. Bütün bunların təməlində isə qeyd olunduğu kimi inanclar , dəyərlər və texnologiyaların inkişafı, dəyişməsi durur. Təbii ki, bu dəyişmələr yeni paradiqmaların yaranmasını labüd edir.

Hər sahədə, məsafənin daha az əhəmiyyət daşıyaraq siyasi,iqtisadi , sosial və mədəni sahələrdə dünyanın daha çox bütünləşməsi kimi xarakterizə olunan qloballaşmainformasiya cəmiyətində yüksələn əsas dəyərlərdəndir. Bununla yanaşı müasir dövrdə elm və təhsildə qlobal yaxınlaşma bir tamdır.

XXI əsrdə informasiya komunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi bir vaxtda kompleks biliklər arasından lazım olanı seçməyi bacaran , hissləri bir yerə yığa bilən , intuisiya , hissiyatlılıq, anlayış formalaşdıran sosial, inkişaf etmiş fərdlərə ehtiyac yaranır.

Bu gün baş verənlər bizə belə bir nəticəyə gəlməyə imkan verdi ki , elm ,təhsil sistemləri , elmi tədqiqat inistutları, universitetlər , məktəblər, həmçinin müəllim və tələbə heyyəti, şagirdlər , alimlər yeni, sürətli bir dəyişim və inkişaf prosesindən keşmiş olacaqlar.

İnformasiya cəmiyyətində ən əhəmiyyətli faktorlardan biri elm və təhsilin yalnız məzmununu dəyişmək kifayət deyildir. Daha çox tədris metodlarına təsir edən dəyişikliklər etmək lazımdır.

Beləki , müəllimin çox sayda tələbə və ya şagirdə dərs dediyi bir sıra standart testlərlə mənimsəməni aydınlaşdırmaq üçün yoxlama apardığı vərdiş edilmiş metodların dəyişdirilməsinə də ehtiyac vardır. Informasiya cəmiyyətində ənənəvi təhsil tədricən həyata keçən və bahalı təhsildir. Kompüter texnologiyası və xüsusilə interaktiv multimedia təhsil prosesinə daxil edilməlidir. Kompüter texnologiyası tətbiq olunaraq təhsildə inkişafa çatmaq üçün müəllimlər yenilikləri öyrənməli və eyni zamanda yeni tədris modelləri

hazırlamalıdırlar. Informasiya cəmiyyətində şagird və tələbələrin məlumatı sadəcə tapmaq deyil , analiz edərək biliyə çevirmək üçün öz metodlarını öyrənmələrinə kömək edən və müəllimin bir məsləhətçi olduğu tədris metodlarına ehtiyac vardır.

Müasir informasiya cəmiyətində informasiya komunikasiya texnologiyalarının yaratdığı geniş imkanlar əsasında elmin, təhsilin planlaşma və reallaşma əhatəsi köklü surətdə dəyişir. Qeyd edildiyi kimi informasiya texnologiyalarının sürətli inkişafı elmin , təhsilin dar çərçivədən çıxaraq qloballaşmasına imkanlar yaradır. Informasiya texnologiyaları ilə zamandan,məkandan asılı olmayaraq istənilən forma və məzmunda təhsil almaq və ya elmi yeniliklərə yiyələnmək olar. Bu gün genişhəcimli informasiya komunikasiya resursları elmi biliklərə yiyələnmənin asanlaşması imkanlarını xeyli artırır.(müəllim.edu.az)

İnformasiya texnologiyalarının elm, təhsil sahələrinə tətbiqi nəticəsində yeni müasir anlayışlar ,modellərmeydana gəlir və həmçinin elm, təhsildə isdifadə edilə bilən yeni innovativ vasitələr yaranır.

Müasir cəmiyyətin informatlaşması artıq çox fərqli,günbəgün dəyişən, inkişaf edən, bir mühit yaratmışdır vəbu cəmiyyətin insanının yaşam tərzi, fəaliyyəti informasiya mühitində reallaşır. Yranan yeni mühitin tələblərinə uygun olaraq elmin, təhsilin məzmun və metotları dəyişir , inkişaf edir. Təhsil informasiya təhsil məkanı sahəsində reallaşır. Elm , təhsil sahələrində dövr edən informasiya massivinin həcmi o qədər böyük, onun emalına ayrılan vaxt o qədər azdır ki, bu prosesləri informasiya sistemləri olmadan səmərəli idarə etmək mümkün deyil.

Bu gün Azərbaycan Respublikası beynəlxalq, mötəbər kürsülərdən öz sözünü deməklə, öz mövqeyini bildirməklə, qlobal arenada cərəyan edən siyasi, iqtisadi, elmi proseslərdə özünəməxsus mövqeyi olmaqla yanaşı həmçinin siyasi-hərbi arenada da 5-ci nəsil hərbi potensiala malik olduğunu da təsdiq etdi. Azərbaycan hərbi arenada öz sözünü deməklə yanaşı informasiya məkanında da uğurlar əldə etməyi bacardı.

**ƏDƏBİYYAT SİYAHISI**

1. İsa Əliyev, Yaşar Mmmədov. "Azərbaycan 2020: Gələcəyə baxış " İnkişaf Konsepsiyasının nəzəri- metodoloji əsasları. Bakı-2012
2. İsa Əliyev, Sakit Hüseynov, Aqil Əsədov. Milli İqtisadiyyat: Modernləşmə və Davamlı İnkişaf
3. "İnformasiya savaşı heç bir sərhəd tanımır". Aynurə Pənahqızı. Şərq 2021-18 may. http:www.anl.az "sherq"
4. Postmüharibə dövründə informasiya savaşı- Münasibət-525Az https:525.az "news"165686-post...
5. İnformasiya müharibəsi: məqsəd və hədəflər. Xalqqazeti.com https:xalqqazeti.com. "news"
6. " Dövlət üçün informasiya təhlükəsizliyi də prioritetdir"- Müdafiə Nazirliyi https:mod.gov.az.pre

# ŞƏXSİYYƏTİN KOQNİTİV ÖZÜNÜDƏRK PROSESİNDƏ EMOSİONAL AMİLLƏR

**Telli Cabbarova**
Gəncə Dövlət Universitetinin dissertantı
e-mail: ziyacabbarli@mail.ru

***Açar sözlər:*** koqnitiv, emosional, özünüdərk prosesi, fərd, obyekt, subyekt, şəxsiyyət.

Son dövrün araşdırmaları təsdiq edir ki, emosional amillər şəxsiyyətin koqnitiv özünüdərk prosesinə ümumən adaptiv təsir göstərir. Onlar, təfəkkür və davranışın adaptiv funksiyalarının təmin olunmasına şərait yaradırlar. Bu baxımdan, bizim tərəfimizdən şəxsiyyətin özünüdərki prosesində koqnitiv və emosional amillərin bir-biri ilə qarşılıqlı təsirinin araşdırılması məsələsi, həm ümumi psixoloji problemlərin həllində, həm də onların praktiki tətbiqində böyük aktuallıq kəsb edir.

Emosional intellektin (Eİ) inkişaf etdirilməsi müasir dövr üçün əhəmiyyət kəsb edir. Çünki insanların kütləvi şəkildə virtual internet məkanına aludəçiliyi, onların bir-biri ilə canlı ünsiyyətini azaldır və emosional inkişafında problemlər yaradır. Bunların fəsadları, ailələrin dağılmasında, zorakılıq hadisələrinin, intiharların, sosial problemlərin artmasında, qeyri-adekvat davranışların çoxalmasında özünü biruzə verir. Bu baxımdan, Eİ tədqiq olunması və onun praktika tətbiqi yollarının araşdırılması mühüm əhəmiyyət kəsb edir.

Eİ motivasiya ilə sıx bağlıdır. Motivasiya isə, təhsildə mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, təhsildə motivasiya səviyyəsinin yüksəldilməsi, Eİ inkişaf etdirilməsindən keçir. Çünki Eİ inkişaf edən şagird və ya tələbələr özlərini sərbəst şəkildə ifadə edə bilir və ətrafdıkaların diqqətini özünə yönəldə bilirlər. Eİ yaddaş və diqqəti, qavrayış və düşünmə qabiliyyətini gücləndirdiyini nəzərə alsaq, onun təlim və tərbiyə prosesində nə qədər əhəmiyyətli olduğunu göstərə bilərik.

Şəxsiyyətin psixoloji formalaşması prosesinin məktəbəqədərki mərhələdə formalaşdığını nəzərə alsaq, Eİ inişafında ailənin və ilkin yaşam mühitinin nə qədər əhəmiyyətli olduğunu anlaya bilərik. Eİ inkişafı ilə bağlı proqramların effektli olduğunu göstərir. Bu proqramların xüsusilə təlim və tərbiyə proseslərində, təhsil sistemində, dərsliklərin və metodik vəsaitlərin hazırlanmasında, təhsil idarəetməsi sahəsində, pedaqoqların davranışlarında tətbiqi mühüm əhəmiyyət kəsb edir. İQ-dən fərqli olaraq Eİ səviyyəsinə daha yaxşı inkişaf etdirmək və təlim etmək mümkündür. Bunun üçün, ilk növbədə məktəbəqədərki mərhələdə uşaqların təxəyüllərini, qavrayışını və ətraf aləmi emosional dəyərləndirmə bacarığını təkmilləşdirmək, Eİ-nin inkişafında mühüm əhəmiyyətə malik olan süjet-rol oyunlarını geniş şəkildə tətbiq etmək lazımdır. Bunun üçün, Eİ araşdırılması mühüm əhəmiyytə malikdir.

Eİ tədqiqi mühüm əhəmiyyət kəsb edir. Çünki onlar nəinki sosial-psixoloji, həm də fərdi psixoloji xüsusiyyətlərlə birbaşa bağlıdırlar. Müasir tədqiqatların nəticələri göstərir ki, beyinin intellektual strukturuna daxil olan biliklər, ilk öncə beynin emosional strukturuna daxil olaraq, orada qiymətləndirilir. Burada belə çıxır ki, intellektual qərarlar əslində emosional səviyyədə həll olunduqdan sonra koqnitiv səviyyəyə enir. Deməli, Eİ zəif olan fərdlər qərarvermə prosesində zəif, Eİ güclü olanlar isə, aktiv iştirak edirlər. Eİ səviyyəsi yüksək olanlar nəinki fərdi, həm də sosial səviyyədə öz fəaliyyətlərini, davranışlarını daha rasional şəkildə tənzimləmə, digər insanları daha dərindən anlayıb, onları idarəetmə qabiliyyətinə malik olurlar. Bu özünü, aparılan eksperimentlərdə də təsdiq edir. Deməli, koqnitiv və emosional proseslərin qarşılıq fəaliyyət prosesində araşdırılması, müasir şəxsiyyət modelinin formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Eİ – emosional informasiyanın hazırlanması, şərhi və istifadəsi ilə bağlı olan intellekt növüdür. Ondan kənarda koqnitiv proseslərin inkişafını təsəvvür etmək mümkün deyildir. Buna görə də, Eİ fenomenin dərindən öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Bunun nəticəsi olaraq, Eİ psixologiyada ayrıca bir sahə kimi inkişaf etməyə başladı.

Şəxsiyyətin özünüdərki prosesində koqnitiv və emosional amillər bir-biri ilə qarşılıqlı təsirdədir. Bu problem, koqnitiv və emosional psixologiyanın qarşılıqlı əlaqəsi çərçivəsində müzakirə olunur. Mövzunun tədqiqi bu günədək zəif inkişaf etmişdir. Çünki psixologiyanın koqnitiv və emosional aspektləri biheviorizmin zəiflədiyi dövrə qədər ayrı-ayrılıqda araşdırılmışdır. Koqnitiv və emosional amillər bir-biri ilə qarşılıqlı əlaqəsi məsələsinə XX əsrin 80-ci illərindən başlayaraq diqqət artmışdır. Qərb psixoloqları intellektdə emosional amilləri təcrid olunmuş araşdırdıqları halda, sovet psixoloqları (S. Rubinşteyn, V. Şadrikov, B. Ananyev, A. Bruşlinski, N. Talızin, B. Veliçkovski, L. Venqer) yaradıcı təfəkkürü müşayiət edən emosiyalara nəzər yetirmişlər. M. Arnold, R.Lazarus, S. Şexter, A. Ellis kimi tədqiqatçılar koqnitiv proseslərdə emosiyaların rolunu empirik metodlarla öyrənməyə çalışmışlar. Aparılan araşdırmalar göstərmişdir ki, şəxsiyyətin özünüdərki prosesində koqnitiv (fikir, əqidə, dəyərləndirmə və s.) və emosional (sevinc, kədər, həyəcan, qorxu, qəzəb, mərhəmət və s.) amillər bir-biri ilə qarşılıqlı təsirdə və üzvi əlaqədədirlər [Bridge 2017, 45]. Onları bir-birindən ayırmaq yanlış metodologiyadır. Çünki şəxsiyyətin özünüdərki prosesində koqnitiv amillərdə emosional, emosional amillərdə isə, koqnitiv amillər mövcuddur. Onlar bir-birini tamamlayır və bir-birinin inkişafına qarşılıqlı şəkildə təsir göstərir. Halbuki, bu günədək belə bir fikir mövcud idi ki, emosional amillər şəxsiyyətin koqnitiv özünüdərk prosesinə və onun məntiqi davranışlarına mənfi təsir göstərir.

Artıq müasir dövrdə, problemin tədqiqi inteqrativ fənlərarası əlaqə müstəvisində formalaşan metakoqnitiv psixologiya, koqnitiv elm çərçivəsində aparılır. Metakoqnitiv psixologiya çərçivəsində problem proseslərin ayrı-ayrılıqda təhlilindən sintetik yanaşmaya doğru inkişaf edir. Bu özünü, Eİ konsepsiyasında təsdiq edir. Emosional və koqnitiv psixi prosesləri vahid psixi struktur çərçəvəsində dəyərləndirən Eİ konsepsiyaları XX əsrin sonunda meydana çıxmışdır. 1990-cı ildə ABŞ tədqiqatçıları C. Mayer və P. Salovey ilk dəfə olaraq Eİ konsepsiyasını ortaya qoydular. Eİ nəzəriyyələri arasında Daniel Qoulmenin, Reyven Bar-On, C. Mayer, D. Karuso və Salovey nəzəriyyələri daha çox tanınırlar. Eİ konsepsiyaları ilə bağlı aparılan tədqiqatlarda subyektiv amillərin üstünlük təşkil etməsi, onun mübahisə obyektinə çevrilməsinə səbəb olur. Bəzi tədqiqatçılar onu “sosial intellekt” kimi dəyərləndirir və ya onun məzmununu konkretləşdirməkdə çətinlik çəkirlər. Adətən, yeni konsepsiyalar elmdə özünə yer edənədək, mübahisələr müstəvisində təkmilləşərək inkişaf edirlər [Forgas 2013, 44].

İnsan psixikası koqnitiv və emosional başlanğıcların sintezindən ibarətdir. Onların bir-birindən təcrid olunaraq öyrənilməsi çətindir. Çünki onlar, bir bütünün ayrılmaz inteqrativ hissələridirlər. Lakin, onları ayrı-ayılıqda öyrənmədən bir araya gətirmək mümkün deyildir. Koqnitiv psixologiyanın XX əsrin ortalarından sonra meydana çıxma səbəbləri bununla bağlıdır (50-60-cı illər ABŞ bihevioristləri E. Qatri, E. Tolmen). Onun da bir neçə istiqamətləri formalaşmışdır.

İdrak prosesində mühüm rol oynayan emokoqnitiv funksiyaların tədqiqi, “fikir, ideya” kimi mürəkkəb fenomenlərin mahiyyətinin açılmasına imkan vermir. Fənlərarası əlaqə təlimi olan “Kovnitiv elm”in meydana çıxması zərurəti buradan irəli gəlir. İstənilən fəaliyyət prosesi emokoqnitiv mənşəlidir. Çünki istənilən fəaliyyətin strukturunu təşkil edən motivasiya, məqsəd və əməliyyat birbaşa fərdin psixikasını formalaşdıran koqnitiv və emosional xüsusiyyətlər ilə bağlıdır. Bu baxımdan, şərti olaraq fəaliyyətöncəsi koqnitiv və emosional amilləri fəaliyyətin daxili forması, onun praktiki reallaşmasını isə, fəaliyyətin xarici forması hesab etmək olar.

Koqnitiv və emosional amillərin qarşılıqlı əlaqəsindən bəhs edən, emosional intellekt ilə bağlı nəzəriyyələr və eksperimentlərdən yararlanaraq və onlar arasında müqayisəli təhlil apararaq koqnitiv funksiyaları və onlara təsir edən emosional amilləri müəyyənləşdirməyə çalışdıq. Müəyyən olunmuşdur ki, sadə koqnitiv proseslərdən fərqli olaraq, mürəkkəb koqnitiv proseslər, fərdin şüurüstü səviyyəsində mexaniki şəkildə sürətlə həll edildikdən sonra şüur səviyyəsinə enirlər. Lakin, emosiyalar şüurüstü səviyyədə informasiyaların koqnitiv sxemlərə çevrilməsi və mental əməliyyatların reallaşması prosesində iştirak edirlər. Bu onu göstərir ki, emosiyalar koqnitiv funksiyaları qabaqlayır və onlara müəyyən istiqamətlər verirlər. Koqnitiv funksiyalar həm daxili, həm də xarici siqnalları ilk öncə emosional funksiyalar vasitəsilə qəbul etdikləri üçün, sırf koqnitiv xarakterli deyillər [Frijda 2015, 88]. Bu baxımdan, onları emokoqnitiv funksiyalar kimi səciyyələndirmək daha doğru olardı.

Koqnitiv inkişafın yarı hissəsinin genetik amillərlə, digər hissəsinin isə xarici amillərlə bağlı olduğu eksperimentlər nəticəsində sübut olunmuşdur. Həm daxili, həm də xarici amillər, şəxsiyyətin formalaşması prosesində paralel şəkildə iştirak edirlər. Koqnitiv inkişafa təsir edən mühüm amillərə - qidalanma, ev şəraiti, emosional-koqnitiv ünsiyyət, təlim-tərbiyə və digərləri aiddir. "Ağır həyat şəraiti" (stress, münaqişələr, kədər, tənhalıq, ailə və iş həyatında uğursuzluqlar və s.) koqnitiv inkişafa mənfi, "yüksək həyat şəraiti" (stress və münaqişələrdən uzaq sağlam həyat tərzi sürmək, daima dostlar və qohumlar ilə pozitiv ünsiyyətdə olmaq, ailə və iş həyatından zövq almaq, səviyyəli təlim-tərbiyə prosesi və s.) müsbət təsir göstərir.

Emosiyalar, obyektiv aləmə, mövcud hadisələrə, özünə və digər varlıqlara fərdin ehtayacından irəli gələn subyektiv dəyərləndirməsini əks etdirən psixi prosesdir. Emosiyanın mənşəyi, həm daxili, həm də xarici amillər ola bilər. Daxili amillər emosiyanın insan təbiətinin ayrılmaz hissəsi olduğunu göstərirsə, xarici amillər daxili emosional resursları qıcıqlandırmaq funksiyasını daşıyır. Çünki xarici siqnallar olmadan daxildə qıcıqlanma prosesi zəifləyir və emosional inkişaf geriləyir. Bu baxımdan, bunlar bir-birini tamamlayırlar. Emosiyalar arasında daha fundamental, güclü və təsiredici emosiyalar digərlərinin formalaşmasına səbəb olurlar. Lakin, bu emosiyalardan hansının ilkin olması məsələsi mübahisə mövzusu olaraq qalır [Loewenstein, 2016, 99].

Ağrı verən emosiyalardan (qəm, qorxu) qurtulub həzz verən emosiyalara yetişmək (səadət, sevinc) cəhdi bütün canlılar üçün nə qədər universal xarakter daşısa da, emosiyalar subyektlərə görə fərqli parametrlərə malik olur. Emosiyaların əksər funksiyaları koqnitiv inkişafa şərait yaradır. Emosiyaları və həyəcanları idarə etmək qabiliyyəti, insanın koqnitiv imkanlarını da inkişaf etdirir. Emosiyalar nəzarət altında saxladıqda koqnitiv effekt verir. Onlar nəzarətdən çıxdıqda isə, həm fizioloji, həm də psixoloji təhlükələr yaradırlar (emosional pozğunluq). Emosiyalar affekt, həyəcan, hiss, əhval-ruhiyyə, motivasiya, stress, ehtiras, frustrasiya kimi psixi proseslər emosiyadan fərqlənsələr də, hamısını emosional hallar kimi səciyyələndirirlər. Çünki onlar, emosiyaların müddətinə, gərginlik səviyyəsinə və aşkarolma səviyyələrinə görə bir-birindən fərqlənir, öz xarakterinə (müsbət və ya mənfi), intensivlik və davamlılığına, məzmumuna və orqanizmin səfərbərlik səviyyəsinə (stenik-aktiv və ya astenik-passiv) görə müəyyən qruplara bölünürlər [Martin, 2011, 34]. Bu baxımdan, onları, emosiyaların müxtəlif növləri kimi də səciyyələndirmək doğru olardı.

Cinslərin Eİ səviyyəsi arasında fərq cüzidir və bu fərqlər əsasən Eİ tərkib xüsusiyyətləri ilə bağlıdır. Qadınların şəxslərarası münasibətlərdə (emosional sosial əlaqələr, sosial məsuliyyət, empatiya), kişilərin isə, şəxsdaxili göstəricilərdə (öz hüquqlarını tələb etmək, özünütəsdiq), stresslərin idarə olunmasında (stressdən qorunmaq, impulsivliyə nəzarət), adaptasiyada (problemlərin həlli, optimistlik, müstəqillik) üstünlüyü müşahidə olunur. Qızlarda empatiyanın oğlanlardan fərqli olaraq tez və güclü inkişaf etməsi, onların kiçik yaşlardan gəlincik oyuncaqlarına qayğıları, valideynlərin onları daha emosional şəkildə tərbiyə etməsi və onlarda verbal, dil qabiliyyətlərinin tez oyanması ilə bağlıdır. Cinslərin davranışları və Eİ inkişafı sahəsində ciddi fərqlər 13 yaşdan başlayaraq özünü göstərir. Cinslərin fərqli

emosional mühitlərdə yetişməsi, onlara təlqin olunan gender rolları və onların fizio-psixoloji xüsusiyyətləri buna əsas verir. Gender rolları cinslərin emosional inkişaf iqtiqamətlərini müəyyənləşirir. Gender rollarına görə, qızlar üçün arzuolunmaz emosiyalar bunlardır: küskünlük, qüssə, depressiya, qorxu, utanma, ağlama. Gender rollarına görə, oğlanlar üçün arzuolunmaz emosiyalar bunlardır: qəzəb, aqressiya, mübarizlik. Gender rolları cinslərin emosional inkişafının bir-birindən təcrid olunmasını və kişilərdə empatiyanın zəifləməsinə səbəb olur ki, bu da cinslərin qarşılıqlı anlaşmasına əngəl törədir və boşanmalara səbəb olur.

**Ədəbiyyat**


1. Bridge Berna, Duyguların Eğitimi, Beyaz Yayınları, İstanbul, 2017.
2. Forgas J. P. Affective influences on attituedes and judgments. Handbook of Affective Sciences Oxford: Oxford University Press. 2013.
3. Frijda N. H. Emotions are functional, most of the time. The nature of emotion NY: Oxford University Press. 2015.
4. Loewenstein G. Lerner J. The role of affect in decision making. Handbook of affective sciences Oxford: Oxford University Press. 2016.
5. Martin L. L. Clore G. L. Theories of mood and cognition. Appraisal processes in emotion: Theory, methods, research. Oxford: Oxford University Press. 2011.


## MÜASİR GƏNCLƏRİN FORMALAŞMASINDA DÖVLƏT SİYASƏTİ VƏ QAYĞISI


**Ceyran Hüseynli**

AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun kiçik elmi işçisi

ceyran.huseynli.13@gmail.com



**Açar sözlər:** millət, cəmiyyət, gənclik, gənclər siyasəti, dövlətçilik, vətənpərvərlik


Hər bir xalqın, millətin, dövlətin gəncləri onun həm bugünü, həm sabahı, həm də gələcəyidir. Bir xalqın, millətin mövcud olması, yaşaması, inkişafı üçün onun sağlam gəncliyinin olması vacib şərtdir. Çünki hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin bərqərar olması, daha da möhkəmləndirilməsi gələcəyin etibarlı təminatı olan intellektual səviyyəli gənclərin və kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Mənsub olduğu xalqın öz Ana dili, tarixi, mədəniyyəti, adət-ənənələri, milli-mənəvi dəyərləri ilə tərbiyə olunmuş gənc layiqli vətəndaş kimi yetişdirilməli, milli ruhda tərbiyə olunmalıdır. Gənc nəslin tarixi köklərimizə bağlı olaraq vətənpərvərlik ruhunda düzgün yetişdirilməsi, onların milli keyfiyyətlərə, dəyərlərə, hərtərəfli biliyə malik olmaları dövlət siyasətində önəmli yer tutur. Bu baxımdan ölkəmizdə gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin inkişafına təkan vermiş, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynamışdır. Azərbaycan Respublikasında gənclər siyasətinin əsas məqsədi gənclərin fiziki, əqli və mənəvi inkişafına şərait yaratmaq, onların imkan və bacarıqlarının reallaşdırılmasına, sosial problemlərinin həllinə və hüquqlarının müdafiəsinin təmin olunmasına kömək etməkdir.

Bugün müstəqil dövlətçiliyimizin üzərində bərqaərar olduğu dayaqlarından biri də Azərbaycan gəncliyidir. Gənclərimizin əsl Azərbaycan vətəndaşı kimi formalaşmasında Ümummilli lider Heydər Əliyevin danılmaz əməyi, misilsiz xidmətləri olmuşdur. “Hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini ilk növbədə gənc nəslə bağlayır. Gənc nəslin

vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Bugün iftixar və qürur hissi ilə bildirmək istəyirəm ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi indi də qoruyub yaşadır" [http://www.ikisahil.com/index]. Bu dəyərli fikirləri söyləyən Ümummilli lider Heydər Əliyev gənclərə olan inamını, onlara duyduğu iftixar hissini böyük məhəbbətlə bildirirdi. Ulu öndər ölkə rəhbəri olduğu ilk dövrlərdən gənclərin himayədarı olaraq sağlam düşüncəli yeni nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi hesab edirdi. Azərbaycan gənclərinin bugünümüzün müasir inkişaf etmiş yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında birmənalı olaraq dövlətimizin apardığı gənclər siyasətinin mühüm rolu olmuşdur.

Bu siyasətin banisi olan Ulu öndərin gənclər siyasəti əsrlər boyu xalqımızın malik olduğu milli-mənəvi dəyərlər əsasında müstəqillik, dövlətçilik, azadlıq və onların qorunması uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsindən ibarət olub. Ümumilikdə gənclər siyasəti beş əsas istiqaməti özündə əks etdirir. Bura gənclərin tarixi köklərimizə bağlı olaraq vətənpərvərlik ruhunda, azərbaycançılıq, dövlətçilik, dünyəvilik prinsiləri əsasında Azərbaycan xalqının tarixinə, mədəni irsinə, adət-ənənələrinə, dövlət dininə və rəmzlərinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması; gənclərin elmi, intellektual potensialının artırılması istiqamətində təhsil və mədəni islahatlar həyata keçirmək; gənclərin təşkilatlanmasını təmin etməklə, onları müstəqilliyimizin keşiyində vahid qüvvə kimi birləşməyə səfərbər etmək; gənclərin dövlət idarəçiliyində rolunu əhəmiyyətli dərəcədə artırmaq və onların məsuliyyət hissini formalaşdırmaq daxildir:

Respublikaya rəhbərliyinin bütün dövrlərində Ulu öndər sağlam gəncliyin, bu dövlətə sahib çıxa biləcək bir nəslin yetişdirilməsinə xidmət edirdi. Ümummilli lider gənclərlə bağlı məsələləri öz siyasətinin əsas tərkib hissələrindən biri hesab edir, gənclərin imkan va bacarıqlarını yüksək qiymətləndirir, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verir, bu siyasəti müstəqil Azərbaycan dövlətinin ən mühüm fəaliyyət istiqamətlərindən biri kimi dəyərləndirirdi. Dahi şəxsiyyət gənclərin dövlət və cəmiyyətin bütün sferalarında iştirakının təmin edilməsini vacib məsələlərdən biri kimi elan etmişdir. Azərbaycan gənclərinin ilk ümumrespublika forumunun keçirilməsi, 2 fevralın Azərbaycan gəncləri günü elan edilməsi, dövlət proqramlarının qəbulu, "Dövlət gənclər siyasəti haqqında" fərman və geniş fəaliyyət proqramının təsdiq edilməsi Ulu öndərin gənclərə böyük qayğısı idi.

Əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bugün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar. Bugün Azərbaycanda müasir dövrün tələblərinə uyğun aparılan gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Dövlətin gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin aparıcı qüvvəsinə çevrilib. Dövlət gənclər siyasəti – gənclərin öz bilik və bacarıqlarını, təbii potensialını mükəmməl reallaşdırmasını, cəmiyyətdə layiqli yer tutmasını təmin edən şəraitin yaradılması məqsədilə dövlət tərəfindən müəyyən edilmiş prioritetlər və həyata keçirilən tədbirlər sistemidir [http://www.elibrary.az/docs/jurnal/jrn2017_932.pdf].

Son illər respublikamızda gənclərin hərtərəfli inkişafının təmin olunması üçün həyata keçirilən tədbirlər siyasi, sosial-iqtisadi, təşkilati – hüquqi şərait və təminatların yaradılmasını sürətləndirib, onların ictimai-siyasi fəallığının artmasına kömək edib. Bugün ölkəmizdə gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilib. Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir, siyasi, iqtisadi, humantiar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayırlar.

Ölkə Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən gənclər siyasəti bugün öz yeni mərhələsini yaşayır. Azərbaycan dövləti sürətli inkişaf dövrünü yaşayır və bu inkişaf təbii ki, gənclər üçün yeni imkanlar açır. Dövlətimizin siyasətində gənclər məsələləri mühüm və əsas yer tutur. Azərbaycanın sosial-iqtisadi imkanları artdıqca, bütün sahələrin inkişafına sərmayələr qoyulur və bu, çox müsbət nəticələr verir. Təbii ki, gənc nəsil bu prosesdən kənarda qalmayıb və gəncliyin inkişafı, yüksək intellektli, vətənpərvər gəncliyin yetişməsi üçün çox əhəmiyyətli layihələr həyata keçirilir. Cənab Prezidentin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən siyasətin başlıca istiqamətlərindən biri gənclərə dövlət dəstəyinin gücləndirilməsindən, onlara hərtərəfli diqqət göstərilməsindən ibarətdir.

Cənab Prezident tərəfindən ölkədə həyata keçirilən gənclər siyasəti gənclərin bütün təbəqələrinin hərtərəfli inkişafını, ölkənin ictimai-siyasi həyatında onların yaxından iştirakını təmin etməkdədir. Yeni mərhələdə dövlət başçısı tərəfindən aparılan siyasət ən müxtəlif sahələri əhatə edir. Belə ki, bu siyasət gənclərin tərbiyəsi, sağlamlığı, təhsili, intellektual və mənəvi inkişafı, asudə vaxtının səmərəli təşkili, həmçinin, gənclərin cəmiyyət həyatının bütün sahələrində fəal iştirakı ilə bağlı məsələləri əhatə edir. Gənclərlə düzgün iş strategiyasının müəyyənləşdirilməsi və bu strategiyadan irəli gələn vəzifələrin dəqiqliklə yerinə yetirilməsi nəticəsində bugün Azərbaycan gənci idman, elm, mədəniyyət, incəsənət və s. sahələrdə böyük nailiyyətlər əldə edir, dövlətçilik ənənələrini daim uca tutur, çoxşaxəli dövlət islahatlarının həyata keçirilməsində yaxından iştirak edir [http://ikisahil.com/post/67911-news-67911]. Bugün inkişaf edən, bütün istiqamətlərdə davamlı olaraq gücünü artıran dövlətimizin qarşısında dayanan hədəflər hər bir vətəndaş üçün çox önəmlidir.

Dövlət başçısı 2015-ci il yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncam müasir dövrdə elmin və informasiya texnologiyalarının sürətli inkişafının dövlətin gənclərlə bağlı zamanın tələblərinə uyğun siyasət yürütməsini zəruri etdiyindən gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə imzalanmışdır. Prezident İlham Əliyev gənclərimizin dini ekstremizm, separatizm, beynəlxalq terrorizm kimi təhlükəli, zərərli təsirin altına düşməsinin qarşısını alan yeni iş metodlarının tətbiqi zərurəti ilə əlaqədar "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının təsdiq olunmasına dair Sərəncam imzalayıb. Gənclərlə bağlı bütün məsələlərin geniş əhatə olunduğu bu mühüm sənəd Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə geniş imkanlar açıb [https://sia.az › news › politics].

Dövlət gənclər siyasəti, ölkənin gələcəyini etibar edəcəyi nəslin hazırlanması bugün də Prezident İlham Əliyevin böyük önəm verdiyi sahədir. 30 illik işğala son qoyulan, torpaqlarımızın azad olunması ilə başa çatan İkinci Qarabağ müharibəsi müstəqillik və dövlətçilik tariximizin olduqca mühüm səhifələrindən biridir. Bu müharibədə həqiqətən vətənini canından çox sevən, uğrunda son damla qanına qədər vuruşan, onu sonda nə gözləyəcəyini bilmədən gözüyumlu döyüşə gedən, qazi olaraq həyatının sonuna kimi şikəst qalmağı gözə alan, bütün sevdiklərini, ailəsini, övladlarını geridə qoyaraq Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşə gedən igidlərimizi, oğullarımızı - gənclərimizi gördük.Qanında milli ruh olan, döyüş əzmli xalqımızın mərd igid oğulları – on minlərlə vətəndaşımız könüllü şəkildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etdilər. 44 günlük müharibənin nəticəsində İlham Əliyevin Ali Baş Komandanlığı ilə ordumuz 30 ildən artıq idi ki, davam edən erməni işğalına birdəfəlik son qoydu, respublikamızın qanuni hüquqlarını bərpa etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşada – Cıdır düzündə xalqa müraciətində deyir: " Biz bu vəziyyətlə barışmadıq və mən dəfələrlə deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu vəziyyətlə barışmayacaq. Siyasi, iqtisadi, hərbi, mənəvi istiqamətlərdə, gənc nəslin tərbiyə edilməsi istiqamətində məqsədyönlü siyasət aparılırdı və elə gənc nəsil yetişdi ki, canını fəda etdi torpaq uğrunda. Elə gənc nəsil yetişdi ki, öz qanı-canı bahasına torpağımızı düşmənin əlindən aldı. Müharibədə bütün nəsillərin nümayəndələri

iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövründə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər. İlk növbədə, biz onlara borcluyuq, bütün Azərbaycan xalqına borcluyuq. Bütün xalqımız bu Qələbəni yaxınlaşdırırdı və bütün amillər birləşərək bu müharibənin nəticələrini şərtləndirdi"[ https://sia.az › news › politics].

Azərbaycanda gəncliyə dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir, bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Azərbaycan gənclərinin günümüzün müasir, inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında, birmənalı olaraq, dövlətimizin apardığı gənclər siyasətinin mühüm rolu olmuşdur.Bütün bunlar isə Azərbaycan gəncliyinin sabahına daha böyük inamla baxmağa əsas verir.Gənclər hər bir ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi, mədəni həyatında mühüm rola malik olan aparıcı bir qüvvədir. Bugün əminliklə deyə bilərik ki, Azərbaycanı daim bütün bəlalardan qoruya bilən, Azərbaycan dövlət müstəqilliyini qoruyub saxlaya bilən, keşiyində duran gəncliyi var.

**Ədəbiyyat:**

http://www.gencleri.az/index.php
http://www.ikisahil.com/index
http://www.elibrary.az/docs/jurnal/jrn2017_932.pdf
http://ikisahil.com/post/67911-news-67911
https://sia.az › news › politics

## AZƏRBAYCANIN CƏNUBİ QAFQAZDA YENİ GEOSİYASİ İNKİŞAF DİNAMİKASI: ŞUŞA BƏYANNAMƏSİNİN TARİXİ VƏ SİYASİ ƏHƏMİYYƏTİ

**Nailə Əlicanova**
AMEA Fəlsəfə və Sosiologiya İnistitutunun elmi işçisi
naila.alicanova @bk.ru

**Açar sözlər:** Cənubi Qafqaz, siyasət, iqtisadi, hərbi, regional

Avropanı Asiya ilə birləşdirən Cənubi Qafqaz bölgəsi həm Rusiya həm də digər dövlətlərin xarici siyasətlərində ən önəmli yeri tutmaqdadır. Başda Rusiya olmaqla Amerika, Avropa Birliyi, Türkiyə, İran kimi dövlətlərin də Cənubi Qafqazda öz maraqları var.

İllər əvvəl Prezident S.Dəmirəl Cənubi Qafqazda etnik münaqişələrin nizamlanması ilə Avropa dövlətlərini və ATƏT kimi Qərb institutlarını bu məsələdə əməli fəaliyyət göstərməyə çağırırdı. Onun fikrincə, əgər Rusiya regionda etnik münaqişələrin qəti olaraq nizamlanmasında pozitiv rol oynamaq istəyirsə, o, öz davranış modelini dəyişməlidir. Əgər Rusiya buraya kənardan müdaxilə üçün qapalı olan öz iyeyarxiyası kimi baxırsa, o zaman o, sülhün bərqərar olmasında maraqlı deyil. Əgər Rusiya hesab edirsə ki, region dövlətlərini Rusiyanın bir hissəsinə çevirmədən Qafqazda sabitliyi bərqərar etmək mümkün deyil, onda hazırkı durum onun üçün çox sərfəlidir.

Məhz Türkiyə Prezidenti S.Dəmirəl tərəfindən Cənubi Qafqazda (Ermənistan, Gürcüstan, Azərbaycan + Rusiya, İran, Türkiyə) 3+3 təhlükəsizlik və əməkdaşlıq miqyasının yaradılması ideyası 1990-cı illərdə irəli sürülüb. Daha sonra, 2003-cü ildə İrəvana regional səfəri zamanı bu ideya İranın Xarici İşlər naziri Kamal Xarazi tərəfindən də səsləndirilmişdi. O zaman "3+3” formatında "Böyük Qafqaz” yaratmaq ideyası da adlanırdı.

Amma Rusiya Qafqazda geosiyasi vəziyyəti 2008- ci ildə yenidən dəyişdi. Beləki 15 gün davam edən müharibə nəticəsində Rusiya Abxaziyznı ,Cənubi Osetiyanı Gürcüstandan alaraq avqustun 25-də Abxaziya və Cənubi Osetiyanın müstəqiliyini tanıdı, sentyabrın 9-da isə onlarla diplomatik münasibətlər yaratdı.

Qafqazda digər geosiyasi deyişiklik 44 günlük müharibə nəticəsində uzun müddət işgal altında olan torpaqlarımızın alınması nəticəsində baş verdi.

30 il ərzində Azərbaycanın torpaqlarını işğal altında saxlayan təcəvüzkar Ermənistana dünya güclərinin təzyiqlər göstərməməsi onun daha böyük iddialarla yaşamasına səbəb oldu. Ermənistanın 2020-ci ilin sentyabrın 27-də həyata keçirdiyi təxribat da bunun təsdiqi idi. Nəticədə əks-hücum əməliyyatına başlayan Azərbaycan Ordusu öz torpaqlarında döyüşdü və üçrəngli bayrağımızın işğaldan azad edilmiş torpaqlarımızda dalğalanmasına nail oldu. Beynəlxalq təşkilatların 30 il ərzində edə bilmədiklərini Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qısa müddətdə gerçəkləşdirdi. Bu gün işğalçı Ermənistanın qarşısında dayanan əsas tələb sülh müqaviləsini imzalamaqla, regionda təhlükəsizliyin təmin edilməsi, kommunikasiyaların açılması, yeni əməkdaşlıq formatlarının yaradılmasıdır. Bu gün Avropa İttifaqı 44 günlük müharibədən sonra yaranmış yeni geosiyasi reallığı və Prezident İlham Əliyevin regional liderliyini qəbul edir, Azərbaycan Prezidenti ilə yaxın təmasları Cənubi Qafqaz regionunda sülh və sabitliyin bərqərar olmasında mühüm amil kimi görür. Tarixi təcrübə göstərdi ki, Azərbaycanın getdikcə artan iqtisadi, siyasi və hərbi gücü ədalətin bərqərar olmasında həlledici amil oldu.Ərazi bütövlüyümüzün bərpa edilməsi nəticəsində Cənubi Qafqaz regionunda yaranmış yeni geosiyasi vəziyyət region dövlətlərin iqtisadi və siyasi əlaqələrin inkişafı üçün zəmin yaratdı. Türkiyəli təhlilçi və təhlükəsizlik eksperti Abdullah Ağar Azərbaycanın İkinci Qarabag müharibəsində qələbəsini “Avrasiya geopolitikası baxımından çox önəmli bir zəfər” adlandırıb.”Münaqişə başa çatdıgından Azərbaycan Ermənistanla sərhədlərin delimitasiyası və demarkasiyası, bir- birinin suverenliyi və ərazi bütövlüyünün qarşılıqlı şəkildə tanınması prinsipi əsasında sülh sazişi üzrə danışıqlara başlamağa hazır olduğunu bəyan edib. Belə bir saziş regionumuzu sülh və əməkdaşlıq regionuna çevirə bilər.Lakin biz hələ də təkliflərimizlə bağlı Ermənistandan reaksiya görməmişik.”Azərbaycan Cənubi Qafqaz regionunda yeni realliqlar yaradıb və hər kəs bunu nəzərə almalıdır.”(2, s.91)

Azərbaycan Respublikası müstəqilliyini elan etdikdən sonra iri dünya və reqion dövlətlərinin geosiyasi maraqlarının kəsişdiyi Cənubi Qafqaz regionunda sülh və əməkdaşlıgın tərəfdarı kimi çıxış edir.II Qarabag müharibəsindəki qələbəmiz Cənubi Qafqaz regionunda təhlükəsizlik və əməkdaşlıq münasibətlərinin inkişafi üçün yeni geosiyasi vəziyyət yaranıb.

Azərbaycan Respublikası heç vaxt başqa ölkələrin ərazilərinə göz dikməmişdir. Mübarizəmiz yalnız öz torpaqlarını işgalçılardan azad etmək uğrunda olub.

Ali Baş Komandan cənab prezidentimiz İ.Əliyevin dediyi kimi “ Biz 30 il Vətən həsrəti ilə yaşamışıq.30 il ədalətsizliklə barışmalı olurduq,amma barışmırdıq və hər dəfə deyirdik ki, bu vəziyyətlə heç vaxt barışmayacayıq,nəyin bahasına olursa olsun öz dogma torpaqlarımızı işgalçılardan azad edəcəyik və bunu etdik”(1, s.52)

Bu qələbəni həm də yaxın qonşumuzun Türkiyə Respublikasının desteyi ilə əldə etdik. Bu müttəfiqlik resmi beyannamə imzalanaraq tesdiqləndi.İllər əvvəl her iki ölkənin rehberlerinin bu sözləri hələ bundan sonrada daim səslenecek.

XX əsrin əvvələrində Mustafa Kamal Atatürk demişdir: “ Azərbaycanın sevinci sevincimiz,kədəri kədərimizdir.”

XX əsrin sonlarında Heydər Əliyev demişdir:” Türkiyə və Azərbaycan bir millət , iki dövlətdir.”

İyunun 15-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoganın təkbətək görüşündən sonra “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi” imzalanıb.

Bəyannaməni Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan imzalayıblar.İyunun 15-də Şuşa Bəyannaməsinin imzalanmasından sonra hər iki prezident mətbuata birgə bəyanatlarla çıxış ediblər.

İ.Əliyev bəyanatda deyir:”....Birgə Bəyannamə - Müttəfiqlik haqqında Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldirir.Bəyannamənin adı Müttəfiqlik haqqında bəyannamədir və bu ad öz- özlüyündə hər şeyi göstərir, hər şey deyir.Türkiyə və Azərbaycan bir- birinə dünya çapında ən yaxın olan ölkələrdir.Bizi birləşdirən bir çox amillər var,ilk növbədə tarix, mədəniyyət , ortaq etnik köklər ,dilimiz,dinimiz,milli dəyərlərimiz,milli maraqlarımız,xalqlarımızın qardaşlıgı bu birliyi təmin edir.Bu gün biz dünya miqyasında ,dünya çapında nadir əməkdaşlıq,iş birliyi, müttəfiqlik nümünəsi göstəririk.”(3)

Birgə Bəyannamədə tarixi Qars müqaviləsinə istinad edilir.Tarixi Qars müqaviləsi dqz 100 il bundan əvvəl imzalanmışdir.Bu da böyük rəmzi məna daşıyır.

Azad edilmiş Şuşa şəhərində 100 ildən sonra müttəfiqlik haqqında imzalanan Birgə Bəyannəmə bizim gələcək iş birliyimizin istiqamətini göstərir.

Fevralın 11–də Türkiyə Prezidenti Rəcəb Tayiib Ərdogan Şuşa Bəyannaməsinin resmi şəkildə dərc edilərək qüvvəyə minməsi ilə bagli qərarı imzaladı.

Fevralın 12–də isə Prezident İ.Əliyev “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik haqqında” Şuşa Bəyannaməsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunun imzaladı.(3)

Beyannamənin ən vacib məqamaları bunlardır:

1. 2021-ci il iyunun 15-i Azərbaycan tarixində xarici dövlət başçısının Bakıda yox Qarabağda qarşılaşması ilə əlamətdar oldu.

2. Bu Bəyannamə Qurtuluş günü -15 iyun tarixinə ,Qarabag,Zəngəzur üçün vacib olan Qars müqaviləsinin 100-cü ildönümünə təsadüf etməsi də tarixi faktdlr.1921-ci il 13 oktyabr –Qars müqaviləsi Azərbaycan SSR, Ermənistan SSR və Gürcüstan SSR ,Türkiyə Qarsda RSFSR –in iştirakı ilə baglanmışdır.Bu müqavilə tarixdə Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası ilə Türkiyə arasında sülh müqaviləsidir.Bununla tarixi ədalət bərpa olundu.

3. Bu həm də yeni regional nizamin başlangıcıdır.

4. Bəyannamənin en vacib məqamı hərbi əməkdaşlıqdır.Qeyd edilir ki, iki dövlətin ərazi bütövlüyünə , suverenliyinə üçüncü dövlət və ya dövlətlər tərəfindən təcavüz edildiyi təqdirdə bir – birini qoruyacaqlar.

5.Digər vacib məaqamlardan biri də nəqliyyat məsələləri ilə baglıdır.Zəngəzur dəhlizinin adının çəkilməsi mühüm amillərdəndir.

Müharibədə qalib gəlməklə Azərbaycan nəinki regionda, dünya dövlətləri içərisində də öz qüdrətini təsdiq etdi.

Yaxın 30 ildə tarixi onu sübut etdi ki, bu qələbəmizi qəbul edə bilməyən qüvvələr təkcə xaricdə deyil, daxildə belə nizamı pozmağa, herc – mərclik yaratmağa maraqlıdırlar.

Hegel yazır: ”Ugurlu müharibələr, daxili hərc – mərcliyin qarşısını alır və dövlət hakimiyyətini möhkəmləndirir.” (4, s.574) Cənubi Qafqazda sülhün və sabitliyin qorunması dövlət siyasətinə çevrilməli, hər bir dövlətin qarşısında duran vacib məsələ olmalıdır .

Azərbaycanın regionda belə siyasi kursu həyata keçirməyə ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişinin ilk günlərindən başlanmışdır. Hal – hazırda bu siyasəti prezident İ.Əliyev uğurla həyata keçirir.

Prezident İlham Əliyevin bu gün regionda erməni işğalçılarından Azərbaycan torpaqlarının azad edilməsinə yönəlmiş ədalətli siyasəti Cənubi Qafqazın sülh, sabitlik və əməkdaşlıq regionuna çevrilməsini təmin edən yeganə siyasətdir.

Bu gün Azərbaycanın regionda yaratdığı yeni reallıqlar regionun sabitliyi üçün hamı tərəfindən qəbul edilməlidir.. Bunun üçün Ali Baş Komandan tərəfindən konkret irəli sürülmüş tələblər isə tarixi siyasi əhəmiyyəti ilə yanaşı, Cənubi Qafqazın yeni konfiqurasiyasını bilavasitə müəyyənləşdirməyə xidmət edir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**

1. Cənubi Qafqazda ərazi-sərhəd problemləri: Qars müqaviləsindən Şuşa Bəyannaməsi. Respublika Elmi Konfransı. 23 sentyabr 2021, Bakı
2. Prezident İlham Əliyevin Azərbaycanın inkişaf strategiyası: Fəlsəfi, sosioloji və siyasi təhlil. Bakı-2021
3. Şuşa Bəyannaməsi tam mətni. 16 iyun, 2021. https://report.az "xarici siyasət".
4. Hegel "Müharibə haqqında müdriklik məbədi" Bakı 2005.
5. mynet.com/cevaplar/1998-6366712

## ETNOS HUMANİTAR ELMLƏRİN TƏMƏL TERMİNLƏRİNDƏN BİRİ KİMİ

**Aysel Hacıyeva**
*Bakı Dövlət Universitetinin doktorantı*
*e-mail:haciyevaaysel1025@gmail.com*

**Açar sözlər: etnos, xalq, xüsusiyyət, mentalitet, arxetiplər,davranış, stereotip**

Hazırda tarixi xüsusiyyətlərin və mədəni-tarixi təzahürlərin mentaliteti xarakterizə etməsi fikri geniş yayılıb. Nəzərə almaq lazımdır ki, mentalitetin özü zaman və məkan hüdudlarında dəyişikliklərə məruz qalır. Tarixi dinamiklik və transformasiyalara məruz qalan etnoslar bütün dəyişikliklərə baxmayaraq öz milli mənsubiyyətlərini saxlayırlar. Belə bir vəziyyət isə etnik mentalitetin formalaşması və inkişafı məsələlərinin elmi-nəzəri araşdırılmasını tələb edir. Elmi ədəbiyyatlarda etnik mentalitet məsələsi bu və ya digər dərəcədə Y.V.Çesnov, M.M.Qromıko, Z.K.Tarlanov, V.V.Kolesov, V.V.Napolskix, Ə.Ə.Bayramov, A.Şükürov və b. əsərlərində öz əksini tapmışdır. Lakin qeyd etmək lazımdır ki, tədqiqatçıların əsərlərinin böyük hissəsi etnosların dünyanı qavranılması və davranışları spesifikasına həsr edilmişdir. Bununla yanaşı etnosların mentalitetinin araşdırılması ilə bağlı nəzəri metodoloji baza kifayət qədər işlənilib hazırlanmamışdır. Bəzi filosoflar, tarixçilər mentaliteti xalqların tarixi yaddaşı, davranış praktikası və düşüncə formaları prizmasından nəzərdən keçirirlər [Пантин, 1994:29-331]. Bu baxımdan R.A.Dodonovun nəzəri-metodoloji yanaşması diqqəti cəlb edir. O, etnik mentallığın üç səviyyəli strukturunu təklif edir[Додонов, 1998].

Kulturoloji və fəlsəfi ədəbiyyatlarda etnik mentalitetin öz təbiətinin ikili məziyyətləri ilə diqqəti cəlb etdiyi göstərilir. Bir tərəfdən mentalitetə psixoloji, şüuraltı, təbii-bioloji

başlanğıclar aid edilir, digər tərəfdən mentalıtet sosial-mədəni xüsusiyyətlərlə şərtlənmişdir.

Etnik mentalitetin biososial şərhçiləri öz fikirlərini mental strukturların şüuraltı, stereotip davranışları əsasında təsbit edirlər. Məhz bu xüsusiyyət etnik mentalitetin genetik məziyyətləri barəsində mühakimə yaratmağa imkan verir. Etnik mentalitetin biososial təbiəti hqqında konsepsiya İ.Kant, F. Engels, J.Pijenin baxışları həmçinin K.Q.Yunqun arxitiplər, L.N.Qumilyovun passionarlıq və komplementarlıq haqqında hipotezləri əsasında qoyulmuşdur.

L.N.Qumilyov V.İ.Vernadskinin dünyanın noosferada biokimyəvi enerjisi haqqında fikirlərinə əsaslanaraq belə bir fikir irəli sürürdü ki, hər bir canlı orqanizmin öz energetik müstəvisi vardır. Müvafiq olaraq etnik müstəvi (meydan), canlı orqanizmin canlı enerjisini yaradan müstəvi haqqında mühakimələr irəli sürmək olar. Bu energetik modeli qəbul edərək etnos probleminə aid etsək, o zaman hər hansı bir etnosun sistem tərəddüdləri barəsində təsəvvür yaratmaq olar. Müvafiq olaraq etnoslar arasında fərqlər barəsində də mühakimə yürütmək olar. Müstəvidəki tərəddüd tezliklərinə uyğun müxtəlif etnik qrupların ritmlərinin xarakteri barəsində fikir söyləmək olar. Özümüzə məxsus olanı hiss etdikdə deməli ritmlər unisona düşür. Bunun əksinə isə insanın yad insan olması barəsində hisslər də yarana bilər [Гумилев, 1990:43-44]. Etnik birliyi, bütövlüyü izah etmək üçün Qumilyov komplemantarlıq prinsipini irəli sürür, burada qarşılıqlı şüurlatı xoşagəlmə və bir-birinə əks hisslər öz əksini tapmışdır. Şəxsi səviyyədə komplemantarlığın müxtəlif variasiyaları vardır, etnik birlik səviyyəsində özünün dəqiq ifadəsini tapır. Etnik mentallıqla, stereotiplərlə, davranış praktikası ilə bağlı etnik mentalitet fundamental etnik formlaşdıran və etnik differensiallığı yaradan prinsipdir. Onun əsasında etnoslara özününkü və yadlara bölmək hissləri xasdır. Qumilyov komplementarlığın üç səviyyəsini xüsusi ilə qeyd edir: pozitiv (müsbət komplementarlıq), neqatıv-mənfi komplementarlıq) və neytral (neytral komplementarlıq). Öz ideyalarını əsaslandırmaq üçün Qumilyov ingilislər və polineziyalıların, fransızların və şimali afrikalıların, Alyaskanın aluetləri, hindularının və rusların mədəni münasibət və əlaqələrinə diqqət yetirir.Xalqlar arasında sülh və hərbi əlaqələr bioenerji müstəvidə tərəddüdləri müəyyənləşdirir. Bir-biri ilə qarşılıqlı əlaqədə olan etnosların passionarlıq səviyyəsini müəyyənləşdirməyə imkan yardır. Onun konsepsiyasında əsas vurğu etnosların və etnomədəni birliklərin müxtəlifliyi üzərinə düşür. Hər bir etnosa unikal mədəniyyət məxsusdur. Qumilyov hesab edir ki, ailədən dövlətə qədər müxtəlif ictimai strukturların yaradılması üçün baza təşkil edir. Bu baza əsasında daha mürəkkəb təsisat-superetnoslar yaranır. Bir zamanlar N.İ.Konrad tərəfindən “Qərb” və “ Şərqə “ bölünən dünya Qumilyovun dediyi kimi bərabərləşir. Ümumiyyətlə, L.N.Qumilyovun əsərlərərində passioanrlıq konsepsiyası qırmızı xətt ilə keçir. Bir zamanlar L.N.Qumilyov öz fikirlərinə görə tənqidə məruz qalmışdır. Qeyd etmək lazımdır ki, Qumilyovun konsepsiyası etnogenez problemində bir çox ağ ləkələrə cavab tapılmasına xidmət edə bilər.

Müvafiq olaraq etnoloji elmdə, qarışıq fənnlərdə məsələn etnoklimatologiyada yeni bölmələrin yaranmasına səbəb olur. Mentalıtetin psixoloji və şüuraltı təbiətini K.Q.Yung bir-birindən fərqləndirir, o elmi dövriyyəyə arxetip anlayışını daxil etmişdir. K.Yung hesab edir ki, arxetiplərin psixi məzmunu şüurun təsirinə məruz qalmır. Müvafiq olaraq arxaik, psixi məzmun daşıyır[Юнг,1991:98-99]. Kollektivin maraqları üçün özünü fədaetmə faktları ilə əlaqədar (məsələn, yapon kamikadzeləri, samuraylar) nümunələri araşdıraraq K.Q.Yung bu insanların etnopsixi davranışlarında əsas vurğunu insanların etnomədəni xüsusiyyətləri üzərinə keçirir.Yung bu təzahürləri arxitiplər adlandırır.

Etnosların yaranması, onların mentaliteti arxetiplərlə sıx bağlıdır. Arxetiplər dvranışlar üçün əsas rolunu oynayırlar.Dünyanın etnos tərəfindən qavranılmsına kömək edir. Etnosların daxili birliyini gücləndirir, nəsillər, epoxalar, mədəniyyətlər arasında məna əlaqəsini təmin edir. Beləliklə, etnik mentalitetə biososial yanaşma ictimai psixologiyanın elementar səviyyəsini xarakterizə edir və soçiumun konkret həyat tərzinə əsaslanır. Burada etnosun

müəyyən təbii və sosial mühitə adaptasiyası öz əksini tapır. Etnik mentalitetin göstərilən modeli özündə mental avtomatizmin elemntar xüsusiyyətlərini əks etdirir. Deyilənlərlə yanaşı həmin yanaşma çərçivəsində etnik mentalitetin əxlaq, hüquq, incəsənət sahələrində təzahürlərini izah etmək çətinlik yaradır. Etnik mentalitetin araşdırılmsına sosial-mədəni yanaşma xüsusi maraq yaradır. Bu yanaşma ona əsaslanır ki, etnosun mentalıteti mədəni-tarixi genezisi prosesində formalaşır və həmin xalqın yaddaşında qalır. Sosial mədəni yanaşma mövqeyindən qeyd etmək lazımdır ki, etnik mentalitet xalqın müəyyən, özünəməxsus yaddaş kimi çıxış edir.

A.P.Butenko və Y.V.Kolesniçenko hesab edirlər ki, etnik mentalitet özündə xalqların tarixi-mədəni talelərini, xalqların şüurunda möhkəmlənmiş stereotipləri ehtiva edir [Бутенко, 1996: 99].

Ümumiyyətlə, etnos termini sosial-humanitar elmlərin təməl teminlərindən biridir. Bəşəriyyətin müasir etnomədəni mənzərəsi olduqca mürəkkəbdir, bu isə çox saylı tədqiqatçı yanaşmasının yaranmasına səbəb olmuşdur. S.M.Şirokoqorov, Y.V.Bromley, V.İ.Kozlov və b. etnos haqqında elmi nəzəriyyənin formalaşmasında olduqca böyük xidmətləri vardır. Lakin eyni zamanda qeyd etmək lazımdır ki, etno-mədəni nəzəriyyələrin daha da inkişaf etdirilməsinə ehtiyac vardır. İndki dövrdə etnosun təbiətinin dərk olunması ilə bağlı üç əsas yanaşma diqqəti cəlb edir: primordualizm-hər bir etnosun, millətin müəyyən taixi-mədəni təzahürlərdə rolunu nəzərdən keçirir; konstruktuvizm, hər bir etnosu, milləti insanların şüurlu fəaliyyətinin nəticəsi kimi nəzərdən keçirir; instumentalizm- etnosu, milləti müəyyən iqtisadi və sosal məqsədlərə nail olunmasında alət kimi nəzərdən keçirir.

Hesab edirik ki, etnos termini altında müəyyən tarixi ərazilərdə formalaşmış, dayanıqlı insan birliyini nəzərdə tuturuq. Həmin dayanıqlı insan birliyi mədəniyyət, dil, din , təsərrüfat tipi, psixologiya, mentalitet birliyi ilə birlik halında formalaşmışlar. Həmin etnosun milli mənsubiyyəti digər millətlərdən fərqlənir[Бромлей,1983:57-58].

Müvafiq olaraq etnosun aşağıdakı parametrlərini xüsusi olaraq seçmək olar: dil, həmin insanların mənşələrinin və tarixi talelərinin ümumiliyi; təbii-coğrafi mühit; mədəniyyət; din; milli mənsubiyyət hissi.

S.A.Tokarev inandırıcı şəkildə sübut edirlərki, mənşə ümumiliyi, dil, ərazi və s. birliyi ayrı-ayrılıqda etnosu formalaşdıra bilməz. S.A.Tokarev qeyd edir ki, dil etnik birliyin formalaşmsı üçün xüsusi əhəmiyyət kəsb edir, lakin eyni zamanda etnik birliyin məcburi əlaməti deyildir. Bu səbəbdən də bütün bu kriteriyalar hamısı etnos üçün eyni əhəmiyyəti daşımırlar, etnosu bir bütöv halında tam xarakterizə etmir [Токарев,1964:43].

Etnik mentalitetin formalaşması determinantı rolunu dil oynayır. Dil mədəniyyət fenomeni kimi özündə tarixi prosesləri, ənənələri, adətləri təcəssüm etdirir. Dünyanın dərk olunmasına, toplanılmış biliklərin saxlanılmasına, nəsildən-nəsilə ötürülməsinə xidmət edir. Dillər dünyasının dərk olunması, eyni zamanda da dünyanın dərk olunması deməkdir. Tədqiqatçılardan N.Y.Karaulov, O.A.Kornilov, D.S.Lixaçov, V.A.Maslou, N.Y.Şvedov, E.S.Yakovlev və b. etnosların linqvomədəni xüsusiyyətlərinin araşdırılması ilə məşğul olmuşlar. Linqvist E.D.Polivanov dövriyyəyə psixofonetika anlayışını daxil etmişdir. Bu anlayış altında etnosun psixofonetikası başa düşülür. Plivanov hesab edir ki, səslər arasında psixoloji və fizioloji fərqlər vardır. Dil etnosun ünsiyyət vasitəsidir. Rus insanı "r" və "l" səsrlərini bir-birindən fərqləndirir. Yaponiyalı isə bu işdə çətinlik çəkir. Beləliklə, dil istənilən milli mədəniyyətin vacib və ayrılmaz tərkib hissəsidir.

Qeyd etmək lazımdır ki, tarixi proses tədiqatçıların əksəriyyətinin hesab ediyi kimi milli mentalitet prosesinə öz təsirini göstərir. Eyni zamanda şəxsiyyətin dünyanı dərk etməsi və hiss etməsinə mədəniyyət də təsir göstərir, mədəniyyət xalqın tarixi formalaşması prosesində formalaşır. Bu səbəbdən də mədəniyyətdə əks olunmuş xüsusiyyətlər milli mentalitetin də formalaşmasına öz təsirini göstərir. Etnik mentalitet təzahürlərinin dərk olunması üçün sosial-siyasi tarixin öyrənilməsi də xüsusi əhəmiyyət kəsb edir. Belə bir zəmində qeyd etmək

lazımdır ki, kliotravmatik hadisələrə də diqqət yetirmək lazımdır: bunlar sosial münaqişələr, müharibələr, inqilablar və s.dir. Belə hadisələr zamanı insan davranışları və cəmiyyətdə köklü dəyişikliklər baş verir. Çox aydın görünür ki, tarixi hadisələrin xarakter və istiqamətləri tarixi şəxsiyyətlərin mentalitetinin xüsusiyyətlərindən də asılıdır. Təsərrüfat fəaliyyətində insanın təbii-coğrafi mühit ilə qarşılıqlı əlaqəsi milli xarakter, həyati dəyərlər və milli mentalitetdən də asılıdır. Təbii iqlim şəraiti insan xakaterinə, insan həyatına təsir göstərir. Məşhur fransız maarifçisi Ş.Monteskye "Qanunların ruhu" əsərində yazırdı ki, hər bir ölkənin siyasi və vətəndaş qanunları ölkənin fiziki xüsusiyyətlərinə uyğun olmalıdır, hər şeydən öncə həmin ölkənin iqliminə (soyuq, isti, yaxud mülayim iqlimə), torpağın keyfiyyətinə, onun yerləşdiyi əraziyə, həcmlərinə, xalqların həyat tərzinə-əkinçilərin, ovçuların və ya çobanların, azadlıq səviyyəsinə, dövlət, quruluşuna, əhalinin dininə, sərvətə meylliyinə, sayına, ticarətə, adət-ənənələrinə; sonunda bütün bunlar bir-biri ilə bağlıdır. Qanunları təsdiq edən qanunvericilərin məqəsdlərinə uyğundur [Монтескье, 1970:540-541].

Təbii-coğrafi amilin mentalitetə təsiri mövzusu tarixçilərin araşdırmalarında xüsusi yer tutur. Belə tədqiqatçılardan L.N.Qumilyov diqqəti cəlb edir. O, hesab edir ki, hər bir insan təbii mühitlə sıx bağlıdır. İnsanları qidalandıran landşaft insanlara müəyyən davranışları diktə edir, onları birləşdirir, digərlərindən fərqli edir. Nümunə üçün qeyd etmək lazımdır ki, dağlıq ərazilərdə yaşıyanların həyat tərzi (xarakteri, vərdişləri, ənənələri) dəniz sahillərində, yaxud meşəliklərdə məskunlaşanların həyat tərzindən fərqlənir. Etnoslar hər zaman təsərrüfat fəaliyyətlərinə görə ətraf mühit ilə sıx bağlıdırlar.

Etnologiya alimləri qeyd edirlər ki, dünyanın fərqli regionlarında bir-birinə oxşar mentallığı olan etnoslar yaşayırlar. Nümunə üçün qeyd etmək lazımdır ki, Avropada Piriney və Alplarda, Asiyada Himalayda yaşayan etnoslar və Amerikalılar arasında oxşar mental xüsusiyyətlər var. Bənzər oxşarlığı onunla izah etmək olar ki, həmin etnosların təbii-iqlim şəraitinə adaptasiyası üçün vaiantlar o qədər də çox deyil. Bu adaptasiyaları təsərrüfat-mədəniyyət tipləri adlandırmaq olar. Qeyd edilənlər dövlətin siyasi quruluşuna, iqtisadiyyyata, təsərrüfat həyatına , etnik birliyin psixikasına öz təsirlərini gösərir. Etnik mentalitet ətraf mühitə uyğunlaşmağa təsir edir. Bir çox tədqiqatçılar etnik fərqliliklərin yaranması əlaməti kimi milli şüuru və ya kollektiv mənsubiyyəti göstərirlər. Bir vacib məsələni də xüsusi qeyd etmək lazımdır ki, etnik özünü dərk etnosun psixikası və mədəniyyətindən asılıdır. Göründüyü kimi etnik və milli mənsubiyyət problemi öz aktuallığını saxlayır, hələ də ictimai diskussiya mövzusuna çevrilmişdir. Çox zaman qlobal inteqrativ proseslərlə bağlıdır. Bəzən ziddiyyətli fikirlər səslənir. İddia olunur ki, qlobal mədəniyyətin təsiri altında millətlər yox olub gedəcəkdir. Qlobal mədəniyyət və iqtisadiyyat yeni keyfiyyətlər qazanmaqdadır (millət-dövlət-Avropa İttifaqı). Müasir sosial humantar elmlərdə hələlik yekdil fikir yoxdur ki, milli mənsubiyyət fenomeninin predmeti nədən ibarətdir. Bu səbəbdən də sosial humanitar elmlərdən hər biri həmin məsələnin bu və ya digər aspektlərinin araşdırılmasına həsr olunmuşdur. Eyni zamanda milli mənsubluq və mənsubiyyət anlayışlarının məzmununun şərhi ilə əlaqədar problemlər vardır. Həmin anlayışlar terminoloji sinonimlərdir, yoxsa fərqlər var?.

Nəzərə almaq lazımdır ki, əgər mentaliteti dünyanın dərk olunmasının kollektiv forması kimi qəbul etsək onun əsasını müəyyən davamlı mənsubiyyət hissi təşkil edir. Millətin mentaliteti uzun müddət ərzində formlaşırsa milli mənsubiyyət daha plastik mental təsisatdır. Hətta bir mentalitet çərçivəsində bir neçə mənsubiyyət tipləri formalaşa bilər. Onlar bir birindən zaman və məkan , sosial mədəni ətraf mühit fərqləri ilə seçilirlər. Belə bir kontekstdə Moskvalıların və Peterburqlıların şimallılara aid mənsubiyyət hisslərinin yaranması barəsində fikir irəli sürmək olar. Sosial mədəni mənsubiyyət hissi milli birliyi və milli gücü təmin edir. Onun imkanları daxili və xarici təhlükələrə qarşı dayanma gücünü verir. Mənsubiyyət hissi çox səviyyəli ideyalar sistemindən ibarətdir. Həmin ideyalar dünyada retrorspektiv və perspektivdə diqqəti cəlb edir[Султанов,2012:117-118].

Müxtəlif milli mənsubiyyət hisslərinin forma və növlərində təməl rolunu mentalitet oynayır. Mentalitet də şüurlu və şüuraltı olan, məntiqilik və emosionallıq, insan düşüncəsi və davranışları öz əksini tapır. Mentallıq insan inamının , hisslərinin, emosiyalarının, hərəkətlərinin dərin mənbəyi kimi çıxış edir. Tarixi-mədəni inkişaf prosesi zamanı formalaşan mentalitet mənəvi-davranış spesifikasının əsasını təşkil edir, bir xalqın digər xalqdan seçilməsinə zəmin yaradır. Bu səbəbdən də mentalitet milli mənsubiyyət hissinin formalaşmasına təsir göstərən başlıca amillərdəndir. Müasir elmi diskussiyalarda mentalitet problemi dini mənsubiyyət kontekstində nəzərdən keçirilir. Dini mənsubiyyət kateqoriyasına bir çox alimlər müraciət edirlər. Müasir qloballaşan dünyada dini mənsubiyyət məsələsinin öyrənilməsi dinlər və etnoslararası ziddiyyətlərin kəskinkışdiyi bir vxtda daha da aktuallaşır. Dinlər və mentalitetlər arasında sıx bağlılıq heç bir şübhə doğurmur. Fikir ayrılıqları ancaq bu əlaqənin qiymətləndirilməsi zamanı yaranır. Şərti olaraq qeyd etmək lazımdır ki, mübahisələr əsasən nəyin birinci olması məsələsi ətrafında gedir. Yəni din və yaxud mentalitetin birinci olması məsələsi ətrafında mübhisələr gedir. Problemin sonrakı inkişafı bu təsirin nədən ibarət olması ətrafında getdi. Adətən bu məsələlər konkret etnoslarla bağlı müzakirə olunur. Nümunə üçün qeyd etmək lazımdır ki, yaponların mentalitetinin formlaşmasına dzen-buddizm təsir göstərmişdir. Bu təsir nədən ibarətdir, yaponların psixi düşüncə tərzi, hissləri, vərdişlərinə dini təsir necə olmuşdur? Yapon mentalitetini araşdıran tədqiqatçılar V.A.Pronikov və İ.D.Ladonov yazırlar ki, dzen-buddizmin ideyaları yapon xalqının vərdişlərinə və hisslərinə dərindən təsir göstərmişdir. Xalq bu təsiri dərk etmir. Analoji təzahürləri çinlilərdə də müşahidə etmək olar [Пронников,1985:145].

Azərbaycan milli mədəniyyətini araşdıran tədqiqatçılar göstərirlər ki, islam mədəniyyəti və dini azərbaycan mentalitetinin formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. İslamin əsas aspektləri aşağıdakılardır: dini ideologiyanın birliyi, ali qüvvələrə güvənmə. Mentalitetdə bu özünü müdrik deyil, adalətli hökmdara inamın yaranmasında göstərmişdir. Uzun müddət ərzində Tanrının köməyi, himayəsi kimi qiymətləndirilmişdir. Beləliklə, insan insana deyil, İlahi simaya tabe olur. Müəyyən etnik qrup dini onun mentaliteti ilə üst-üstə düşdüyü məqamlar çərçivəsinə qəbul edir. Deyilənlərlə yanaşı etnik mədəniyyətlərin dinlərlə qarşılıqlı əlaqəsi barəsində danışarkən nəzərə almaq lazımdır ki, etnosdakı dini inanclar özünəməxsus xüsusiyyətlər qazanır və bu xüsusiyyətlər həmin etnosun milli ruhu, mədəniyyəti və əzəli inanclarının təsiri ilə izah olunur. Etno mədəniyyətdə xaqlların mentaliteti ilə əlaqədar din müəyyən dəyişikliklərə məruz qalır. Etnos, cəmiyyət öz inkişafında dini və dini mədəniyyəti yeniləşdirirlər.

Etnosun maddi və mənəvi mədəniyyəti etnik mentalitetinin rəngarəngliyinin formalaşmasında mühüm rol oynayır, eyni zamanda mədəniyyətin formalaşmasına təsir göstərir. Etnosun mədəniyyəti- bir növ etnik psixologiyanın maddi təcəssümü kimi də dəyərləndirilə bilər. Mədəniyyətin və onunla bağlı stereotiplərin formalaşması qonşu xalqlarla sıx əlaqədə baş verir. Etnosun mentaliteti məzmun etibarı ilə bir sıra anlayışlara yaxındır. Bunlar aşağıdakılardır: təsərrüfat mədəniyyəti, xalq müdrükliyi, xalq folkloru və s. Xalqın mentaliteti bunların əsasını təşkil edir. Etnik mentalitetin məzmunu hər şeydən öncə xalq folkloru, incəsənəti, mədəniyyətində bütünlükdə özünü büruzə verir. Məhz onların vasitəsi ilə mentalitet insanların şüurlarına təsir edir, psixoloji və emosional baxımdan möhkəmlənir. Mentalitetin məzmunu xalqın uzun müddətli mədəni-tarixi təcrübəsinin nəticəsidir. Etnik mentalitet ətraf mühitə elmi-fəlsəfi, etik-estetik, mənəvi psixoloji təsəvvülərdə özünü büruzə verir. Eyni zamanda xalq müdrüklüyü, xalqın dilinin təsviri kimi də özünü büruzə verir. Özündə xalq mahnılarını, rəqslərini, folklorunu, atalar sözlərini ehtiva edir. Mentalitet xalqın hərəkətinin sosial-psixoloji və ayırı-ayrı şəxslərin davranış proqramı kimi özünü göstərir. İnsanların təsərrüfat fəaliyyətinə, şüuruna, təsərrüfat subyektlərinin davranışlarına xüsusi təsir göstərir. Burada çox saylı qeyri iqtisadi mənşəli amllər içərisində etnomədəni, etnopsixoloji, etnososial determinatlar xüsusi yer tutur. Bu mənada hər hansı bir etnosun

təsərrüfat mədəniyyəti barəsində danışmaq olar. Beləliklə, mentalitet sistemi milli mənsubiyyət hissinin, düşüncəsinin əsasını təşkil edir, etnik inteqrasiyaya xidmət edir. Etnik mentalitet eyni zamanda tarixən formalaşmış etnik birliyin dayanıqlı üzvü birlik və vəhdəti kimi də özünü büruzə verir. Burada sosial psixoloji xüsusiyyət və əlamətlər də diqqəti cəlb edir. Bu əlamətlər ancaq hər hansı bir etnosa aid olub özünün unikallığı ilə seçilir.Bunlar milli dünyagörüşü, özünü aid etmə, sosial praktika, əxlaqi imperativlər kimi də diqqəti cəlb edir. Belə bir kontekstdə kollektiv, konqnitiv şüuraltı haqqında ideya və təsəvvürlər də xüsusi maraq doğurur [Смирнов, 2017:871]. Burada kollektiv koqnitiv şüuraltı ona zidd olan bir sıra ideyaların təyiqinə məruz qalır, gec tez həmin təzyiqqin altında çıxaraq geriyə doğru hərəkət edəcək.

Kollektiv, koqnitiv şüuraltı olan fərdə məxsus olan deyil, bütün insanlara aiddir. Müxtəlif insanlar üçün eyni rol oynayır. Şüuraltının belə bir forması irsən keçən beyinin strukturunun məhsulu kimi diqqəti cəlb edir. Bir ölkədə yaşayan və ümumi iş ilə məşğul olan insanlar arasında şüuraltı səviyyəsində ümumi birləşdirici rolunu oynayır. Ümumi toplanılmış təcrübə bu insanlar üçün anlaşılmaz olacaqdır. Belə bir təcrübə nəsildən nəsilə ötürülür-sonradan gələn nəsil onu qəbul edəcək, əsas sayacaq. Koqnitiv olan haqqında onu qeyd etmək lazımdır ki, burada informasiyanın xüsusi emalından söhbət gedir. Ətraf aləmdən informasiya beyinə daxil olur, şüuraltı olaraq emal olunur. Müvafiq olaraq subyektiv reallıq fenomenini, şüur fenomenini dərk edirik. Belə bir proses əldə edilən informasiyanın izahı kimi diqqəti cəlb edir. Bu intuitiv olan kütləvi xarakter daşıyır. Şüuraltı kolektiv koqnitiv hər bir insanın universal qabiliyyətidir. Neyron mexanizmi vasitəsi ilə təmin olunmuşdur. Hər bir insan bu mexanizm vasitəsi ilə dil və ünsiyyət vasitəsi ilə ünsiyyət apara bilir. Kollektiv şüuraltının variasiyası bəşəriyyətin makromədəniyyətlərinin arealını göstərir.

Burada söhbət müxtəlif areal formalarından gedir. Nümunə üçün qeyd etmək lazımdır ki, qərb mədəniyyəti, ərəb-müsəlman mədəniyyəti, Çin, Hindistan, həmçinin kollektiv şüuraltı variantları müxtəlifliyi ilə diqqəti cəlb edir. Məhz bu səbəbdən Qərb Şərqi başa düşmür. Qərb və Şərq müxtəlif şəraitlərdə və müxtəlif tarixi hadisələr kontekstində inkişaf etmişdir. Bu səbəbdən ətraf mühit, insanların həyatı dərk olunur. Kollektiv, koqnitiv şüuraltı mədəniyyət məntiqində təcəssüm olunur, dəyərlər sisteminin əsasını təşkil edir, insanın həyatının dərk olunmasını təmin edir.

Burada kollektiv şüualtı variantlılığı müxtəlif mədəniyyətlərdə insanlar arasında fərqləri müəyyənləşdirir. Həmin insanlar müxtəlif dinlərə inanır, müxtəlif fəlsəfi düşüncələri vardır. Burada determinant rolunu müxtəlif və bir-birindən fərqli dəyərlər və mənəvi normalar oynayır. Etnik mentalitet düşüncə avtomatizmi və sterotiplər kimi çıxış edir, insan şüuruna və davranışına təsir göstərir. Deyilənlərlə yanaşı göstərilən deteminantlar mütləq olmayıb hər şeyi əhatə etmir. İnsan şüurlu və azad fərd kimi hər zaman özü üçün davranış azadlığı, mənəvi seçim hüququ saxlayır. Qəbul etmək lazımdır ki, etnomental determinantlar mövcuddur və etnik özünəməxsusluqlara, tipoloji modellərin formalaşmasına davranış tezliklərinə, sosial praktikalara aparıb çıxarır. Bu model və diapozonlar legitim reaksiya (qıcıq) normaları kimi çıxış edir. Mədəniyyətdə əks olunmuş və təhkim olunmuşlar, nəsildən nəsilə ötürülür. Hər bir yeni nəsildə gənc nəslin mental yükü yeni biliklər və təcrübə qazanır.

## ƏDƏBİYYAT

1.Пантин И. К. Национальный менталитет и история России // Вопросы философии. 1994. №1

2. Додонов Р.А. Этническая ментальность: опыт социально-философского исследования. Запорожье, 1998.

3.Гумилев Л.Н. География этносов в исторический период. Л., 1990

4.Юнг К.Г. Об архетипах коллективного бессознательного // Архетипы и символ. М., 1991

5.Бутенко А. П., Колесниченко Ю. В. Менталитет россиян и евроазийство: их сущность и общественно-политический смысл // Социологические исследования. 1996. № 5
6.Бромлей Ю. В. Очерки теории этноса М.: Наука, 1983
7. Токарев С.А. Проблема типов этнических общностей (К методологическим проблемам этнографии) // Вопросы философии. 1964. № 2
8. Монтескье Ш. О духе законов // Антология мировой философии. В 4-х томах. М., 1970
9. Султанов К.В., Романенко И.Б. Социокультурная идентичность молодежи как философская проблема // Общество. Среда. Развитие. 2012.
10. Пронников В. А., Ладанов И. Д. Японцы. М., 1985
11.Смирнов А.В. Коллективное когнитивное, бессознательное и его функции в логике, языке и культуре //Вестник Российской академии наук. 2017. Том 87. № 10

## AZƏRBAYCANDA MİLLİ TƏHLÜKƏSİZLİK STRATEGİYASININ DEMOQRAFİK ASPEKTLƏRİ

**Şövkət Mustafazadə**
müstəqil tədqiqatçı
shovketmustafazada@gmail.com

**Açar sözlər:** demoqrafiya, əhalinin sayı, əhalinin təbii artımı, milli təhlükəsizlik, milli təhlükəsizlik konsepsiyası.

Bəşəriyyətin inkişaf tarixi əhalinin təkrar istehsal dinamikasının dəyişməsi ilə sıx bağlıdır. Müasir dövrün qlobal problemləri arasında demoqrafik problemlərin həllinin vacibliyi və mühümlüyü bütün dövlətlər tərəfindən qəbul edilmişdir. Əhalinin qocalması prosesinin güclənməsi ictimayyətin qarşısında ciddi sosial - iqtisadi, sosial-psixoloji, tibbi-sosial və etik problemlər qoyur. Bunların arasında işçi qüvvəsi, ictimaiyyətin iqtisadi yükünün artması, istehlak səviyyəsinin xarakterinin dəyişməsi, ahılların sağlamlığı və tibbi-sosial kömək üçün vəsaitlərin artırılması və s. ilə bağlı problemləri göstərmək olar. Qlobal və milli səviyyədə davamlı insan inkişafı iqtisadi, sosial və demoqrafik inkişafla birlikdə qarşılıqlı əlaqələrin mürəkkəb sistemini təşkil edir.

Son zamanların demoqrafik tədqiqatlar göstərir ki, doğumun ümumdünya səviyyəsi, yəni qadının reproduktiv yaşı müddətində dünyaya gətirdiyi uşaqların orta sayı XXI əsrin əvvəlində 2,9 %–a qədər düşmüşdür. Onu da qeyd etmək lazımdır ki, 1985-ci ildə bu səviyyə 4,2 % təşkil edirdi. Müasir dövrdə bir çox ölkələrdə ailələr bir və ya iki uşaqla kifayətlənirlər. Bu gün dünya əhalisinin 44%-nin yaşadığı 61 ölkədə doğum səviyyəsi əhalinin indiki sayını saxlamaq üçün zəruri olan 2,2-% dən aşağıdır. 30-dan çox ölkədə əhalinin sayı sabitləşib və uzun illər ərzində dəyişilmir.[8] BMT-nin proqnozlarına görə, bir sıra Avropa ölkələrində əhalinin ümumi sayının azalmasına baxmayaraq, dünyada əhalinin ümumi sayı 2025-ci ildə artacaq və 8 milyard nəfərdən çox olacaqdır. Məlumdur ki, əhalinin nəzarətsiz artımı ilə mübarizə aparan ölkələr üçün hələ bunun universal həlli mövcud deyil, lakin bir sıra regionların təcrübəsi göstərir ki, bu problem həll olunandır. Bunun üçün hər bir ölkənin spesifik xüsusiyyətlərini nəzərə alan uzunmüddətli kompleks proqramların həyata keçirilməsi vacibdir. Bir daha qeyd etmək lazımdır ki, demoqrafik problemlər iqtisadi, sosial, siyasi, ekoloji və ən əsas milli təhlükəsizlik problemləri ilə sıx bağlıdır.

«Milli təhlükəsizlik» termini ABŞ-da II dünya müharibəsindən sonra – 1947-ci ildə «Milli təhlükəsizlik haqqında» Qanun qəbul edildikdən sonra meydana çıxsa da, ölkəmiz

üçün, faktiki, yeni termindir. Əvvəllər bu termin, ilk növbədə, dövlətin təhlükəsizliyini – müstəqilliyini, bağımsızlığını, ərazi bütövlüyünü nəzərdə tuturdu. Hazırda isə dövlətin təhlükəsizliyi mütləq məqsəd deyil, çünki o özü də bütövlükdə cəmiyyətin, ayrılıqda isə hər bir insanın təhlükəsizliyini təmin etməlidir. Cəmiyyət isə yalnız sülh və azadlıq şəraitində inkişaf etmək, siyasi, sosial-iqtisadi və mənəvi seçimini gerçəkləşdirmək hüququna malik olduğu halda təhlükəsizlik vəziyyətində olur. [4,s.59]

Azərbaycan Respublikasında «təhlükəsizlik» anlayışı əsasən ölkəmiz müstəqilliyini əldə etdikdən sonra konseptual tərifini tapmış və formalaşması başa çatmışdır. Müstəqil dövlətçilik maraqlarının təmin edilməsi tələbləri, yeni geosiyasi aktorlarla birbaşa ünsiyyətin yaradılması, tamamilə fərqli təhlükəsizlik mühitinə daxil olması, iqtisadi, ictimai-siyasi münasibətlərin demokratiya, vətəndaş cəmiyyəti, bazar iqtisadiyyatı yoluna çıxması və s. yeniliklər, digər postsovet respublikalarında olduğu kimi, Azərbaycanda da şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyinə dair yeni-yeni yanaşmaların, proqram və konsepsiyaların yaradılması zərurətini ortaya çıxarmışdır. Bütün bunlar Azərbaycan dövlətindən ölkənin milli vəzifə və tələblərinə uyğun, yeni prinsiplərə söykənən Milli Təhlükəsizlik Konsepsiyasının (MTK) formalaşdırılmasını tələb etmişdir. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin nəzəri əsasları müstəqil dövlətimizin banisi Heydər Əliyevin 1993-2003-cü illərdəki ayrı-ayrı çıxışlarında öz əksini tapmışdır.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2004- cü ildə Milli Təhlükəsizlik Konsepsiyasının hazırlanması üzrə işçi qrupu yaradılmışdır. Həmin il Azərbaycan Respublikasının Milli Məclisi "Milli təhlükəsizlik haqqında" Qanun qəbul etmişdir. Bu Qanun özündə ümummilli lider Heydər Əliyevin milli təhlükəsizlik təliminin əsas prinsiplərini, məqsəd və vəzifələrini əks etdirməklə yanaşı, həm də ölkənin Milli Təhlükəsizlik Konsepsiyasının yaradılmasını şərtləndirmişdir. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası Azərbaycan Prezidentinin 2007-ci il 23 may tarixli Sərəncamı ilə təsdiq olunmuş və fəaliyyət üçün əsas götürülmüşdür.[4,s.61]

Milli Təhlükəsizlik Konsepsiyası ölkənin milli təhlükəsizlik siyasətinin həyata keçirilməsində uzunmüddətli strateji vəzifə və prioritetləri özündə əks etdirən konseptual sənəd hesab olunur. Konsepsiyada Azərbaycanın gələcəkdə hərbi və sərhəd doktrinasının, xarici siyasət və təhlükəsizlik strategiyasının, iqtisadi, ekoloji, informasiya və digər həyati əhəmiyyət kəsb edən sahələrin təhlükəsizliyi siyasətinin formalaşdırılmasının vahid prinsipləri müəyyən olunmuş, hər bir sahə üzrə ayrıca təhlükəsizlik konsepsiyasının hazırlanması tövsiyə edilmişdir . Giriş, dörd bölmə və yekun müddəalardan ibarət olan MTK-da XXI əsrdə ölkənin milli maraqlarının təmin olunması ilə bağlı hakimiyyət strukturlarının bəzi fəaliyyət istiqamətləri müəyyən edilmiş və milli təhlükəsizlik sahəsində dövlət siyasətinin normativ- hüquqi bazası öz əksini tapmışdır.

Milli təhlükəsizlik siyasətinin birinci ali məqsədini Azərbaycanın dövlət müstəqilliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, vətəndaşların hüquqlarının, cəmiyyətin milli və vətəndaş birliyinin, ölkənin sabit inkişafının tələb etdiyi ən ümdə dövləti vəzifələr və onların təminatı yolları, mövcud milli ehtiyatların bu işə səfərbər edilməsi proqramı və bəhs olunan sahədə məsuliyyətli dövlət idarəçiliyinin yaradılması təşkil edir.

Hər bir dövlət kimi, Azərbaycan da xaricdən müdaxilə olmadan öz dövlət idarəçiliyini yaratmaq, onun strateji inkişaf yolunu seçmək, ölkənin konstitusiya quruluşunun, daxili həyatının, cəmiyyətin və hər bir vətəndaşın təhlükəsizliyini, əhalinin firavan həyatını təmin etmək, milli - vətəndaş birliyini və ictimai-siyasi sabitliyi qorumaq və s. kimi strateji vəzifələr həyata keçirir. Bu vəzifələrin reallaşdırılması onun milli təhlükəsizliyinin ikinci əsas məqsədini təşkil edir.

Ümumilikdə, milli təhlükəsizlik siyasəti beynəlxalq hüquq normalarına, ölkə konstitusiyasına, daxili qanunlara və prinsiplərə, insanların, cəmiyyətin və dövlətin maraqları arasında tarazlığın gözlənməsinə, həmin tərəflərin qarşılıqlı məsuliyyətinə əsaslanmalıdır.

Təhlükəsizlik məsələlərinin nəzəri cəhətdən nisbətən az işlənməsi özünü həm də onda büruzə verir ki, hələ də «milli təhlükəsizlik» söz birləşməsinin işlədilməsinin mümkünlüyü barədə mübahisələr davam etməkdədir. Problem ondan ibarətdir ki, «milli» sözü «millət» sözündən yaranmışdır. Bu anlayışın artıq oturuşduğu məqamlarda heç bir problem doğurmur. Məsələn, milli gəlir, milli iqtisadiyyat, milli maraqlar dedikdə, hamıya aydındır ki, söhbət ayrılıqda götürülmüş millətin deyil, ümumxalq gəlirindən, maraqlarından gedir. «Milli siyasət» anayışından istifadə edildikdə isə hamıya aydındır ki, burada müxtəlif millətlərdən olan insanlara münasibətdə siyasət nəzərdə tutulur.[4,s.63]

Milli təhlükəsizliyin tərifində, sadəcə, insan deyil, şəxsiyyət anlayışı ehtiva edilir. Bu, tamamilə əsaslıdır və söhbətin sosial subyekt qismində insandan getdiyini vurğulayır. Şəxsiyyət sosial baxımdan önəmli cizgilərin sabit sisteminə malik fərddir, fərd isə özəl xüsusiyyətləri olan ayrılıqda götürülmüş bir insandır.

Təhlükəsizlik obyektlərinə daxili və xarici mənbələrdən real və potensial təhdidlər daxili və xarici təhlükəsizliyin təmin olunması üzrə fəaliyyətin məzmununu təşkil edir. Milli təhlükəsizlik – son dərəcə mürəkkəb çoxsəviyyəli funksional sistemdir ki, burada aramsız olaraq şəxsiyyət, cəmiyyət və dövlətin həyati baxımdan önəmli maraqlarının qarşılıqlı əlaqəsi və onların həm daxili, həm də xarici təhdidlərlə qarşıdurması prosesləri cərəyan edir. Bu əlaqələnmə və qarşıdurma zamanı maraqlar və təhdidlər daim milli təhlükəsizlik sisteminin digər elementlərinin – daxili və xarici ətraf mühit amillərinin və idarəetmə sisteminin hərəkətlərinin təsirinə məruz qalır (cədvəl 1). Bu sistemin məqsəd funksiyası qismində həmin maraq və təhdidlərin müdafiə olunma dərəcəsi çıxış edir. Bu zaman milli təhlükəsizlik sistemi ilə milli təhlükəsizliyin təmin edilməsi sistemini fərqləndirmək lazımdır. Birincisi, maraqlar və təhdidlərin qarşılıqlı əlaqəsi proseslərini əks etdirən funksional sistem, ikincisi isə orqanlar, qüvvələr, vasitələr, müxtəlif təşkilatların milli təhlükəsizliyin təmin edilməsi məsələlərini həll etməli olan təşkilati sistemidir. Həm milli təhlükəsizlik sisteminin, həm də onun ayrı-ayrı növlərinin mərkəzində şəxsiyyət, cəmiyyət və dövlətin önəmli maraqları dayanır. Bir çox hallarda belə bir tənqidi qeydlə rastlaşmaq olur ki, təhlükəsizliyə bu cür yanaşma zamanı biz anlaşılmaz, konkret olmayan, mücərrəd, maraq kateqoriyası ilə pərdələnmiş nəyi isə müdafiə etməli oluruq. Müdafiə obyekti qismində maraqların deyil, bilavasitə insanın, ərazinin, dövlətin və i.a. seçilməsi təklif edilir.




**Şəkil 1. Milli təhlükəsizlik sistemi[4,s.59]**

Milli təhlükəsizlik məsələlərini təhlil etdikcə tədqiqatçılar bu sahədə demoqrafik göstəricilərin də əhəmiyyətini vurğulayır. Bu demoqrafik göstəricilərdən əhalinin yaş

strukturu önəmli rol oynayır. Belə ki, milli təhlükəsizliyin tədqiqat obyektlərindən və istənilən dövlətin əsas demoqrafik və ictimai-iqtisadi xarakteristikalarından biri əhalinin məhz yaş strukturudur. Yaş strukturunun göstəriciləri əhali artımının tədqiqatı və proqnozlaşdırılmasının, əhali sayının və onun müxtəlif qruplarının mütənasibliyinin perspektiv hesablamalarının, xəstəliklər və ölüm səbəblərinin qanunauyğunluqlarını müəyyən etmək üçün əhəmiyyətlidir. Yaş strukturu əhalinin təkrar istehsalının tipini, iqtisadi fəal əhalinin ümumi əhali sayında xüsusi çəkisini müəyyənləşdirir, habelə ölkənin hərbi potensialı haqqında və sosial siyasətin formalaşmasında, cəmiyyətin iqtisadi və sosial infrastrukturunun ən əhəmiyyətli göstəricilərinin planlaşdırılmalarında lazım olan bir sıra məlumatlar haqqında təsəvvür yaradır.

Əhali və onun strukturu ilə bağlı kəmiyyət və keyfiyyət göstəriciləri milli gücün əsas elementləridir və təbii ki, Azərbaycan xalqının genofondunun qorunması, miqrasiya və demoqrafiya kimi məsələlər milli təhlükəsizlik baxımından olduqca mühümdür. Bu baxımdan, həmin göstəricilər sosial sahələrin və insan kapitalının inkişafı "İnkişaf Konsepsiyası"nın əsas prioritetlərindən biridir. Təhsil və səhiyyədə keyfiyyətin yüksəldilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, gender bərabərliyinin təmin olunması və ailənin inkişafı, gənclərin potensialının və idmanın inkişaf etdirilməsi bu prioritet çərçivəsində əsas istiqamətlərdir.

BMT- nin ekspertləri tərəfindən işlənmiş və 1990-cı ildə təqdim olunmuş insan inkişafı konsepsiyası davamlı inkişafın əsas və yeganə məqsədini – əhalinin rifahını vurğulayır. Eyni zamanda, sosial-iqtisadi inkişaf yolunda əhalinin rifahının təminatı hər bir dövlət üçün əsas məqsəd kimi hesab olunur.

Beləliklə, insan inkişafı və sosial-iqtisadi inkişaf qarşılıqlı əlaqəlidir və bir-birini şərtləndirirlər. İnsan inkişafının demoqrafik aspektləri əhalinin sağlamlığı, ömür uzunluğu, əhalinin yaşlaşması, doğum, reproduktiv sağlamlıq və digər geniş sahəli məsələləri özündə cəmləşdirir. Əhalinin yaş strukturunun demoqrafik təhlilini aparmaq üçün həmçinin aşağıdakı bəzi göstəricilər də nəzərdən keçirilir. Demoqrafik asılılıq əmsalları adlanan göstərici ən çox maraq doğuranladan biridir. Belə ki, bu göstərici əmək qabiliyyəti olmayan əhalinin əmək qabiliyyətli əhaliyə yükünü göstərir. Ümumi demoqrafik asılılıq əmsalı əmək qabiliyyətli yaşda olan əhalinin sayına qocaların və uşaqların sayının cəminin nisbəti kimi təyin edilir. Bir qayda olaraq, bu nisbət 100-ə və ya 1000-ə vurulur. Göründüyü kimi, ümumi demoqrafik asılılıq əmsalı uşaqların və yaşlı əhalinin asılılıq əmsallarının cəminə bərabərdir.

Demoqrafik asılılıq göstəricisinə əks olan göstərici isə demoqrafik dəstək adlanır. Bu isə neçə nəfər əmək qabiliyyətli yaşdakı şəxsin əmək qabiliyyəti olmayan bir nəfəri dəstəkləməsini (himayə etməsini) göstərir. Daha bir göstərici qocalma indeksi – uşaqların sayına qocaların sayının nisbəti kimi hesablanır. Bu göstərici demoqrafik qocalmanın dərəcəsini qiymətləndirmək üçün istifadə olunur. Son 50 ildə "demoqrafik qocalma" anlayışı demoqrafiyada və statistikada ümumi olaraq qəbul olunmuşdur. Bu göstərici əhali strukturunda dəyişkən kəmiyyət kimi üç əsas dövrlərdə təhlil edilir: 1. reproduksiyaya qədər; 2. aktiv fəaliyyət; 3. reproduksiyadan sonra onun ardınca gələn aktiv fəaliyyətin dayandırılması.[9, c.52]

Məşhur demoqraf Sandberq əhalini yaş strukturuna görə üç tipə ayırmağı təklif etmişdi: proqressiv, reqressiv və stasionar. Əhalinin proqressiv yaş strukturu (sinonim: əhalinin proqressiv tipi) — əhalinin yaş strukturunda 0- 14 yaşda əhalinin ümumi əhaliyə nisbətən xüsusi çəkisi (faizlə) 50 və yuxarı yaşda əhalinin ümumi əhaliyə nisbətən xüsusi çəkisindən (faizlə) böyükdürsə, bu zaman əhalinin sayca artması təmin edilir. Əhalinin reqressiv yaş strukturu (sinonim: əhalinin reqressiv (geriləyən) tipi) — əhalinin yaş strukturunda 50 və yuxarı yaşda əhalinin ümumi əhaliyə nisbətən xüsusi çəkisi 0-14 yaşda əhalinin ümumi əhaliyə nisbətən xüsusi çəkisindən böyükdürsə, o zaman gələcəkdə əhalinin sayının ixtisarı təhlükəsini gözləmək lazımdır. Əhalinin stasionar yaş strukturu (sinonim:

əhalinin stasionar tipi) — əhalinin yaş strukturunda 0-14 yaşda əhalinin ümumi əhaliyə nisbətən xüsusi çəkisi 50 və yuxarı yaşda əhalinin ümumi əhaliyə nisbətən xüsusi çəkisinə bərabərdirsə, bu əhali sayının sabitləşməsinə şərait yaradır.[9,c.52]

| - | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2024 | 2025 | 2026 | 2027 | 2028 | 2029 | 2030 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **0-4** | 8,7 | 8,8 | 8,8 | 8,8 | 8,6 | 8,3 | 8,0 | 7,8 | 7,5 | 7,3 | 7,1 | 6,9 | 6,7 | 6,4 | 6,4 | 6,3 |
| **20-24** | 9,2 | 8,8 | 8,4 | 8,0 | 7,6 | 7,2 | 6,9 | 6,5 | 6,2 | 6,0 | 5,9 | 5,8 | 5,7 | 5,6 | 5,9 | 6,2 |
| **40-44** | 6,6 | 6,5 | 6,4 | 6,3 | 6,5 | 6,7 | 6,8 | 7,0 | 7,2 | 7,4 | 7,6 | 7,7 | 7,9 | 8,1 | 8,1 | 8,1 |
| **60-64** | 3,6 | 3,8 | 4,0 | 4,3 | 4,6 | 4,9 | 5,2 | 5,5 | 5,8 | 5,8 | 5,7 | 5,7 | 5,6 | 5,6 | 5,5 | 5,5 |

**Cədvəl 1. 2013-2030-cu illər üzrə Azərbaycan Respublikası əhalisinin dörd yaş qrupu üzrə tərkibi, faizlə.[8]**

2016-cı ildə aparılmış 2050-ci ilədək olan Azərbaycan Respublikası əhalisinin gözlənilən sayı haqqında proqnoz məlumatlara əsaslanaraq, 0-4, 20-24, 40-44, 60-64 yaş qruplarında əhali sayının faizlə ifadəsi hesablanmış və cədvəl 1 tərtib edilmişdir. Cədvəl 1-dən istifadə edərək şəkil 3 qrafiki alınmışdır. Şəkil 1-dən göründüyü kimi 2013-2030-cu illərdə Azərbaycan Respublikasında əhalinin 0-4, 20-24, 40-44, 60-64 yaş qruplarında (faizlə) güclü "dalğalar" proqnozlaşdırılır. Belə ki, 0-4, 20-24 yaş qruplarında əhali sayı azalma, 40-44, 60-64 yaş qruplarında isə artım qeydə alınır. Dövlətin ictimai-iqtisadi inkişafının strategiyasının hazırlanması vaxtı bu vəziyyətin nəzərə alınması mütləqdir.

Müasir dövrdə Azərbaycan Respublikası sürətlə inkişaf etməkdədir. Ölkənin qısa zaman kəsiyində iqtisadi və sosial sahədə qazandığı yüksək nailiyyətləri, ümumbəşəri humanitar problemlərin, XXI əsrin çağırışlarının həllinə yönəldilmiş dünya əhəmiyyətli təşəbbüsləri, gündən-günə artan beynəlxalq nüfuzu Azərbaycanı bir çox istiqamətlərdə regional və qlobal liderə çevirmişdir. Bu fakt bir çox beynəlxalq təşkilatlar, o cümlədən BMT, UNESCO, Dünya Bankı və digər nüfuzlu qurumların rəsmi sənədlərində, müstəqil ekspertlər tərəfindən hazırlanmış hesabatlarda öz təsdiqini tapmışdır. Əldə edilmiş nailiyyətlərin əsasında Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş innovativ inkişaf strategiyası durur. İnsan Kapitalının inkişafı hər bir ölkənin, o cümlədən də Azərbaycanın qarşısında dayanan əsas məqsəddir. Çünki, insan kapitalına qoyulan investisiya bütövlükdə insanların rifahı, dövlətin inkişafı, ölkədə demoqrafik stabilliyin əldə edilməsi ilə milli təhlükəsizliyin təmin edilməsi deməkdir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi saytı- https://www.stat.gov.az.
2. Azərbaycan Respublikasının Prezidentinin rəsmi saytı- https://president.az/az.
3. Ələkbərov U.K. İnklüziv inkişafın idarəedilməsinin əsasları, Ali məktəblər üçün dərslik, Bakı, 2018. Səh 65-67.
4. “Milli təhlükəsizlik strategiyası”.Bakı, 2016, s.59 – 63.
5. Məmmədov A. Tarixi demoqrafiya. Dərslik, Baki, 232 s.
6. Qasımlı V.Ə. İqtisadi artım. Post-konflikt və Post-pandemiya dövrü: Çağırışlar və Həllər, Bakı, 2021.səh 155.
7. R. C. Əfəndiyev «Azərbaycanda əhalinin demoqrafik yaşlanması: problemlər, xüsusiyyətlər və nəticələr». LAMBERT, Latviya, 201, s.56.
8. World Population Prospects 2019- https://population.un.org/wpp/.
9. М.Б.Денисенко. Калмыкова Н.М. Демография. Учебное пособие. М., 2017.с.51-52.

# KÜR ÇAYI EKOLOJİ HÜQUQİ REJİMİN OBYEKTİ KİMİ

**Maral Həsənova**
*AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun*
*böyük elmi işçisi*
***e-mail:*** *dralijafarli@gmail.com*

**Açar sözlər:** su məcəlləsi, su fondu, yerüstü su obyektləri, su qanunvericiliyi, yerüstü su ehtiyatları, ekoloji problemlər, Xəzər dənizi, su ehtiyatları, Kür çayının çirklənməsi, beynəlxalq-cinayət hüququ, Azərbaycan Respublikasının su fondu, beynəlxalq qanunlar.

**Ключевые слова:** водный кодекс, водный фонд, поверхностные водоемы, водное законодательство, ресурсы поверхностных вод, экологические проблемы, Каспийское море, водные ресурсы, загрязнение реки Кура, международное-уголовное право, водный фонд Азербайджанской Республики, международное право.

Susuz həyat yoxdur.Təbiətə həyat verən, əkinləri cücərdən, sünbülləri böyüdən,yer üzərində həyat başlamadan öncə var olan həyatın özüdür su. Bərəkətin simvoludur, canlıların möhtac olduğu ən vacib elementdir, dövlətləri güclü, ya da zəif edən, tarixə istiqamət verəndir su. Yüz illər boyunca uğrunda müharibələr aparılıb,cinayətlər törədib, çünki suya sahib olan hər şeyə sahib olandır.

Azərbaycan Respublikasında sudan istifadənin hüquqi rejimi 26 dekabr 1997-ci il tarixli Azərbaycan Respublikasının Su Məcəlləsi ilə tənzimlənir[ 1]. Bütün təbii ehtiyatlar kimi suyun da iqtisadi dəyəri var. Ancaq suyun dəyəri digərlərinin önünə keşir, çünki həyat və yaşayış su ilə mümkündür. Yəni su yoxdursa, biz canlılar üçün heç bir təbii ehtiyatların mənası yoxdur.Buna görə də su ölkələrin mövcudluğu,gələcəkləri,təhlükəsiz maraqları və iqtisadi baxımdan böyük əhəmiyyətə malikdir.Su münasibətlərinin obyektləri Azərbaycan Respublikasının su fondu və su fondunun torpaqlarıdır.

Azərbaycan Respublikasının su fondu aşağıdakılardan ibarətdir:

1.Yerüstü su obyektləri
2.Yeraltı su obyektləri
3. Sərhəd su obyektləri
4. Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsi

Su minlərlə bitki və heyvan üçün yaşayış mühitidir.Atmosferdə oksigenin sabit saxlanması da yaşıl bitkilərin sudan istifadə edərək fotosintez reaksiyası əsasında oksigen ayarlanması ilə əlaqədardır.

Yer səthinin təxminən 70%-nin su ilə örtülməsinə baxmayaraq, ildən-ilə su çatışmamazlığı artmaqdadır. Su və su ehtiyatları artıq dünyanın bir nömrəli qlobal problemi olaraq qalmaqdadır. Respublika ərazisində istifadəyə yararlı sular məhdud ehtiyatlara malik olmaqla qeyri-bərabər paylanmışdır. Orta illik həcmi 36 milyd.$m^3$-ə yaxın olan su ehtiyatlarının 21 milyd. $m^3$-i ölkə kənarda formalaşır.

Azərbaycan Respublikasının su məcəlləsinin 12 və 14-cü maddələrinin göstərişinə əsasən su obyekti üzərində dövlət-bələdiyyə-xüsusi mülkiyyət mövcuddur.Azərbaycan Respublikası su qanunvericiliyi su obyektlərindən istifadə və onların mühafizəsi dövlət idarəetməsinin əsas prinsiplərini özündə təsbit etmişdir. İdarə etmə sistəminə daxildir: Azərbaycan Respublikası Nazirlər kabineti, Azərbaycan Respublikası Ekologiya Nazirliyi,Təbii sərvətlər nazirliyi,Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar cəmiyyəti,Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti [4].

Azərbaycan əhalisinin su təchizatında müstəsna rol oynayan iki əsas çayın-Kür və Arazın hövzələri bütünlüklə düşmən ölkə olan Ermənistanın ərazisini, Gürcüstan ərazisininin

böyük bir hissəsini,eləcə də Türkiyə və İran ərazisində xeyli sahəni əhatə edir və Azərbaycanın sərhədlərini keçənə qədər artıq ciddi çirklənməyə məruz qalmış vəziyyətdə olur.Səbəbi isə düşmən Ermənistan ərazisindən tullantıların və zəhərli kimyəvi maddələrin Kür çayına axıdılmasıdır.Azərbaycan ərazisində su ehtiyatlarından içmək və təssərüfat-məişət ehtiyatları ilə yanaşı suvarma əkinçiliyi və kənd təsərrüfatının digər sahələrində,balıqçılıq,hidroenergetika, ekoloji və digər məqsədlərlə geniş istifadə olunur.

Respublika ərazisində yerüstü su ehtiyatlarından illik istifadə 11-12 milyd.$m^3$-ə yeraltı su ehtiyatlarından illik istifadə isə 2,3-2,5milyd.$m^3$ə yaxındır.

Kənd təsərüfatında,şəhərlərdə məişət və sənayedə suya olan tələbat getdikcə artır. Buna görə də şirin suya ehtiyac hər il daha çox hiss olunmaqdadır. Bu isə su mənbələrinin çirklənməsi ilə bir başa əlaqəlidir.Dövlət tərəfindən yaradılmış komissiyanın xüsusi təsnifatı mövcuddur.

Su həlledici olduğu üçün,suyun təbiətdə dövr etməsi və axını ilə əlaqədar zəhərlənmə geniş ərazilərə yayılır. Bu yayılma çaylarda,o cümlədən Kür çayında daha sürətlə baş verir (100km-ə çatır).Kür çayının çirklənməsi onda həll olmuş oksigenin də miqdarının azalmasına səbəb olur.Oksigenin azalması isə suda yaşayan bitkilər və heyvanların həyat fəaliyyətini çətinləşdirir. Çirklənmədən ən çox şirin su hövzələri ziyan çəkir. Çünki məişətdə,texnikada və kənd təssərüfatında işlənən sular çayların və şor olmayan göllərin suyudur.

Su obyektlərinin istifadəsi və mühafizəsi üzərində dövlət nəzarəti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 sentiyabr 1998-ci il tarixli 195 saylı qərarı ilə təsdiq edilmişdir [5]. Sənaye mənşəli tullantılar hidrofloranın normal həyat fəaliyyətini pozmaqla yanaşı, hövzədəki suyun fiziki-kimyəvi xassələrini də dəyişir.Belə sular nəinki, içmək üçün, həm də kənd təsərrüfatında suvarma və texniki məqsədlər üçün də yaramır. Təbii suların neft və neft məhsulları ilə çirklənməsi daha ağır nəticələr verir.

Məişət tullantılarının suya axıdılması da hidrosferi çirkləndirdiyi üçün zərərli sayılır.Bu tullantıların sürətlə artmasına və suda mikrofloranın sürətlə artmasına və bununla da oksigenin azalmasına, çox zaman,hətta tam təhlükəsinə səbəb olur. Belə mühitdə isə yalnız anaerob mikroblar artıb çoxalır. Anaerob mikrobların həyat fəaliyyəti nəticəsində əmələ gələn qazlar mühitdəki canlılar üçün ikinci ölüm vasitəsinə çevrilir.

Azərbaycanda içməli su kimi istifadə edilən Kür,Araz və digər çay sularının keyfiyəti əsasən qonşu ölkələr tərəfindən pisləşdirilir.Kür çayına axıdılan tullantı sularının böyük bir hissəsi Gürcüstan və əsasən də düşmən ölkə olan Ermənistanın payına düşür. Əhalinin həyatını və sağlamlığını qorumaq və lazimi sanitariya şəraiti yaratmaq məqsədi ilə müvafiq icra hakimiyyəti orqanları Kür çayına xüsusi diqqət yetirib, ondan istifadə olunmasının başqa şərtlərini təyin edə bilərlər.

Cənubi Qafqazdakı səth sularının bir hissəsi Türkiyə və İranın ərazisində formalaşır.Kür və onun əsas qolları olan Araz çayları Cənubi Qafqazın əsas su arteriyasıdır. Bu çayların hövzəsində regionun əsas şirin su ehtiyatı cəmləşmişdir.Su obyektlərinin çirklənmə səviyyəsinə dövlət nəzarəti xüsusi monitorinq sistemi ilə həyata keçirilir. Mövcud qanunvericilik su obyektlərində fövqaladə ekoloji vəziyyət və ekoloji fəlakət zonalarının yaradılmasını,onun geniş təhlilini və hüquqi vəziyyəyini nəzərdə tutur.

Qeyd etmək lazımdır ki,Azərbaycanın su resurslarının 80%-i Kür çayı və onun qollarının üzərinə düşür.Azərbaycan,Gürcüstan və Ermənistanın su mühafizə təşkilatının məlumatlarına görə 1992-ci ildə Kürün hövzəsinə 575 milyon kvadratkilometr tullantı suları axıdılmışdır. Onlardan ümumi həcmin 52 faizi Ermənistanın, 42 faizi Gürcüstanın,5 faizi isə Azərbaycanın payına düşür.

Su obyektlərinə tullantı sularının axıdılmasına Su Məcəlləsinin 77-79-cu maddəsinə uyğun nəzərdə tutulan tələblərə rayət edilmədiyindən Beynəlxalq hüquqa zidd olduğundan düşmən respublikanın bu məsələdə cinayət törətdiyi açıq- aşkar görünür [2].

Odur ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaratdığı komissiya BMT-nin Qida təhlükəsizliyi və sulardan istifadə komisiyyasına xüsusi müraciət göndərməlidir.

Sonrakı illərdə Kür çayına birləşən Araz və ona qoşulan çaylar mənfur qonşularımız tərəfindən daha çox çirkləndirilmişdir. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 250.1. maddəsi ilə yerüstü və yeraltı suların istifadə olunan su mənbələrinin çirkləndirilməsi məsuliyyət yaradır. Eyni zamanda 250.3.maddəsi ilə isə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulmuşdur.Azərbaycan əhalisi və iqtisadiyyatının təmiz su ilə təmin edilməsi üçün bu çirkli suların təmizlənməsi bu günün vacib problemlərindəndir [3].

Bəşəriyyətin "həyat mənbəyi" hesab olunan suların çirklənməsi ətraf mühitə edilən ən ciddi təsirlərdən hesab edilir. Suların çirklənməsi və yaranan ekoloji problemlər cəmiyyətdə təhlükəli proseslər kimi qiymətləndirilir.Su mühitinə düşən zərərli qarışıqların əksər hissəsi axınlar vasitəsilə çirklənmə mənbələrindən çox uzaq məsafələrə aparılaraq, geniş sahələrdə ekoloji problemlərin yaranmasına səbəb olur. Su mühitinin mühafizəsi,sudakı flora və faunanın qorunub saxlanması, suların öz-özünü tənzimləməsi ən aktual problelərindən biridir. Odur ki, qonşu dövlətlərin Kür çayı ilə bağlı törətdikləri hər bir qanun pozuntusu beynəlxalq-cinayət hüququ ilə məsuliyyət yaratdığı tam aydınlığı ilə göstərilməlidir. Müvafiq beynəlxalq qanunlar qarşısında tədbirlər görülməsi üçün həyəcan təbili çalınmalıdır ki, xüsusi tədbirlər görülsün.

**İstifadə edilmiş ədəbiyyat:**

1.Azərbaycan Respublikası Konstitusiyası. 2018.Bakı
2. Azərbaycan Respublikası Su məcəlləsi. Bakı
3. Azərbaycan Respublikası Cinayət Məcəlləsi. Bakı 2017
4. Azərbaycan Respublikası Qanunvericilik toplusu. 30 sentyabr 1998-ci il
5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 mart 2000-ci il tarixli 56 saylı qərarı

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MADDİ-MƏDƏNİ İRSİMİZƏ QAYGISI MƏDƏNİ PRİORİTETLƏRİMİZİ MÜƏYYƏN EDİR

**Mirələm İbrahimli**
Bakı Avrasiya Universitetinin dissertantı

**Açar sözlər:** Ulu öndər, maddi-mədəni irs, təcrübə, mədəni yaradıcılıq, mədəniyyət

Ulu Öndər tariximizin ən uğurlu təcrübələrini, milli-mənəvi dəyərlərimizi müdrik bir həssaslıqla birləşdirərək ən ali milli sərvətin – müstəqil Azərbaycan dövlətinin banisi olmuşdur. Öz tarixi köklərinə söykənən müstəqil Azərbaycan mədəniyyətinin inkişafı və tərəqqisi 1993-cü ildən başladı. Həmin il hakimiyyətə gələn Ulu Öndər mədəniyyətimizi dağılmaq təhlükəsindən xilas etdi. Ümummilli Liderin səyi nəticəsində Azərbaycanın maddi-mənəvi sərvətləri, xalqın yaratdığı maddi və mənəvi dəyərlər xalqın özünə qaytarıldı. Bu dahi şəxsiyyət hələ sovet dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə Azərbaycanın mədəniyyət və incəsənətinin əsl himayədarı idi.

Hələ o vaxt dahi rəhbər dilimizi, mənəviyyatımızı, milli-mənəvi dəyərlərimizi Azərbaycanın gələcəyi üçün qoruyub saxlamağın vacibliyini xüsusi qeyd edirdi. Ulu Undərin hakimiyyəti dövründə mədəniyyətimizin hüquqi bazası möhkəmləndi. 1998-ci il fevralın 6-da

qəbul olunan "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunu ölkəmizdə mədəniyyət siyasətinin əsas prinsiplərini müəyyənləşdirdi, mədəniyyət sisteminin demokratik əsaslarla təşkili və idarə olunmasının, mədəniyyət sahəsində fəaliyyətin hüquqi və beynəlxalq əlaqə formalarını müəyyənləşdirdi. Qanunla yanaşı bir sıra hüquqi-normativ sənədlər də qəbul olundu ki, onlar da mədəniyyət siyasətinin həyata keçirilməsinin tənzimlənməsində əhəmiyyətli rol oynadı.

Fərdi və kollektiv mədəni yaradıcılığın potensial resursları daha çox gerçəkləşmə imkanı əldə etdiyi üçün istənilən lokal nöqtədə, fərdi mədəni-innovativ təşəbbüsün kəskin şəkildə artmasını şərtləndirir. Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin layiqli davamçısı olduğunu əməli addımları ilə sübuta yetirən Azərbaycan Prezidenti İlham Əliyev regionda cərəyan edən proseslərin istiqamətini müəyyənləşdirən, ona təsir göstərən ciddi fenomenə çevrilmişdir. Bu gün Prezident İlham Əliyevi, eyni zamanda, Azərbaycanın milli mənəvi dəyərlərinin ən qüdrətli mühafizəçisi kimi görürük. Prezident İlham Əliyevin konsepsiyasına görə, milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən mühüm şərti məhz dövlətçilikdir. Təbii ki, Dövlətçiliyimizin möhkəmlənməsi milli dəyərlərimizin inkişafı və möhkəmlənməsində, zəngin folklor ənənələrimizin toplanılmasında əsas şərtdir.

Qarabağ folklorunun toplanılması tarixi əsasən XIX əsrdən başlayır. Əlbəttə bu dövrə qədərki bir çox əlyazmalarda Qarabağdan toplanmış və ya Qarabağdan toplanmasa da, bu bölgəyə aid folklor nümunələrinin mövcudluğu istisna olunmur. Amma XIX əsrdə artıq mətbuat səhifələrində Qarabağ folkloru ilə bağlı məlumatlar nümunələr çap olunmağa başlayır. "Tiflis əxbarı"nda, eləcə də həmin əsrin ortalarında nəşr olunan bir çox digər mətbuat orqanlarında Qarabağ və onun tarixi-etnoqrafiq mənzərəsi haqqında məlumatlara rast gəlirik. Bu baxımdan "Kafkaz" qəzetinin mövqeyini xüsusi qeyd etmək olar (5). Bu həm də marifçilik dövrü Azərbaycan ziyalılarının fəaliyyəti ilə genişlənirdi. Bu qəzetdə ardıcıl olaraq folklor nümunələri, o cümlədən Qarabağ folkloruna aid örnəklər rus dilinə tərcümə edilərək çap olunmuşdur.

Xalqın milli mentalitetinin formalaşması və özünüdərkində folklor xüsusi böyük rolu vardır. Eyni zamanda bütün dünya xalqlarının şifahi ədəbiyatının oxşar xüsusiyyətləri də çoxdur. Beləki bir çox xalqların atalar sözləri bəzən eyni tipli vəziyyətləri də əks etdirir. Onlar yalnız məntiqi məzmunun ötürüldüyü obrazlara görə fərqlənirlər. Atalar sözləri aforizmlər kimi birbaşa və ya digər məzmunda ifadə planına malikdirlər. Atalar sözlərinə sirayət edən tibbi görüşlər özündə xalq təbabətinin əldə etdiyi çoxillik nailiyyətləri ehtiva edir.

Məlum olduğu kimi "bəşər elm və mədəniyyətin beşiyi Şərq olduğu kimi folklor elminin də ilkin rüşeymləri Şərq ölkələrində yaranmışdır. Ümumən əksər Azərbaycan nağıllarına, xüsusilə də əfsanələrə xas olan bir sıra cəhətlərdən, detallar və işarələrdən hər iki poemada yaradıcı şəkildə istifadə edilmişdir. Mifoloji fantaziya və mifoloji düşüncənin bu şəkildə anlaşılması onun təfəkkürə münasibətini də aydınlaşdirmağa kömək edir (6,s.8)
Tarixən folklor da mədəni inkişafa təsir edən amil olaraq inteqrasiya proseslərində vacib rol oynamışdır. Yaxşı cəhət odur ki, əfsasədən götürülən bütün xətlər müasir tələb və ehtiyaclar süzgəcindən keçirilmiş, dəyərli müasir mənalar ifadə etməyə yönəldilmişdir. Bəzən folklor motivlərinin sadəcə olaraq zahiri əlaməti qalmış, bütün ruhu ilə müasir zəmanəyə müəyyən söz demək səviyyəsinə qaldırılmışdır. Nəticə olaraq nağıl, atalar sözləri və sairə vasitəsilə müasir insanlara öz keçmişini xatırtlatmaq, vətən, xalq məhəbbəti aşılamaq, xəyanətə barışmamaq təbliğ olunmuşdur (3.s.12).

Bu illər ərzində Azərbaycan dövləti mədəniyyət sahəsi ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, o cümlədən, "Silahlı münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında", "Ümumdünya mədəni və təbii irsinin qorunması haqqında", "Arxeoloji irsin qorunması haqqında" konvensiyalara qoşulmuşdur. 1997-ci ildə Mədəniyyət haqqında Avropa Konvensiyasını ratifikasiya etdikdən sonra Azərbaycan Avropa Şurasının

Mədəniyyət, Siyasəti üzrə Departamenti ilə də yaxından əməkdaşlıq edir. Nəticədə bir sıra maraqlı proqramlar həyata keçirilmişdir. Məsələn “Azərbaycan Respublikasında mədəniyyət siyasəti” məruzəsi hazırlanmış, Strasburq şəhərində təqdimatı keçirilmiş və müxtəlif dillərdə çap olunmuşdur. Yeni mədəniyyət siyasətinə müvafiq olaraq yaradıcı xadimlərə dövlət köməyi də nəzərdə tutulmuşdur, o cümlədən, respublika Prezidentinin sərəncamına əsasən onlara fərdi pensiyaların, dövlət mükafatlarının, fəxri adların, gənc yazarlara isə təqaüdlərin verilməsinə başlanmışdır. Azərbaycan mədəniyyətinin görkəmli şəxsiyyətlərinin yubileyləri və əlamətdar hadisələrin təntənəli qeyd edilməsi, beynəlxalq səviyyəli festival, müsabiqə, konqres və konfransların keçirilməsi də təqdirəlayiqdir. Xüsusi vurğulanmalıdır ki, Azərbaycan UNESCO-nun nəzdindəki Ümumdünya İrs Mərkəzi ilə də uğurlu əməkdaşlıq edir. Bunun nəticəsi olaraq 2000-ci ildə Bakı şəhərinin tarixi mərkəzi “İçərişəhər”, “Şirvanşahlar” sarayı və “Qız qalası” ilə birlikdə həmin mərkəzin siyahısına daxil edilmişdir(8). Məlum bir həqiqətdir ki, hər hansı sənətkar foklordan bəhrələnərkən özünün daha çox eşidib inandığı, qəlbinə və varlığına hakim kəsilən variantları bədii əsərinə gətirir. Bir çox folklor janrımızda poemasında motiv eyni olsa da, mövzu tam başqa şəkildə tamamlanır.

Ulu Öndər bütün zamanlarda ədəbi mühitin gözəlləməsinə siyasi dəstəyini əsirgəməmişdir. Azərbaycan müstəqillik qazandıqdan sonra Ulu Öndər Heydər Əliyevin böyük səyi nəticəsində milli mədəniyyətimizə dövlət qayğısı artdı, mədəniyyət xadimlərinə Prezident təqaüdləri, mükafatları verildi, onlar fəxri adlara layiq görüldülər. Azərbaycanın məşhur mədəniyyət xadimləri tariximizin heç bir mərhələsində Heydər Əliyevin hakimiyyəti illərində olduğu qədər yüksək qiymətləndirilməmişlər. Bu illər ərzində mədəniyyətlə bağlı keçirilən tədbirlərin sayı artmış, onların bir qismində Ulu Öndər şəxsən iştirak etmişdir .Ümummilli Lider söyləyirdi: “ İnsanların ürəyinə, qəlbinə təsir edə bilən ədəbiyyatımız olubdur, şeirimiz olubdur və həmin şeirlər, həmin sözlər doğrudan da xalqımızda, millətimizdə milli ruhu oyadıbdır, milli əhval-ruhiyyəni canlandırıbdır, milli dirçəliş prosesini gücləndiribdir. Məhz bunların nəticəsində bizdə milli psixologiya, milli ideologiya formalaşmağa başlayıbdır. Bəlkə bu milli psixologiya, milli ideologiya indi böyük bir sistem şəklində deyil, yəni bir sənəd, bir kitab, bir proqram yoxdur. Amma bu olmalıdır və biz bunun üzərində işləyirik. Azərbaycanın mədəniyyəti öz milliliyini saxlayaraq bu zəmin əsasında klassik mədəniyyət səviyyəsinə gəlib çatmışdır”(1). Buradan bir daha mühüm qənaətə gəlitik ki, Ümummilli liderin çağırışları hər zaman maddı-mədəni inkişafımızın strateji hədəflərini müəyyən etməkdədir.

**Ədəbiyyat**


1.Heydər Əliyev, “Müstəqillik yolu”, Seçilmiş fikirlər. Bakı, 1997,

2. Azərbaycan jurnalı, 1974, №10, səh. 45

3. Qarabağ: Folklor da bir tarixdir. AMEA Folklor İnstitutu, I kitab, Bakı, 2012, 463 səh.

4. Qarabağ folkloru: problemlər, perspektivlər. Respublika Elmi konfransının materialları. 26 dekabr 2012. AMEA Folklor İnstitutu, Bakı, 2012, 324 səh., səh.63.

5.Yurd həsrətli aşıq. “Folklorşünaslıq məsələləri” V bur. Bakı, BDU nəşri, 2002, s. 227-233.

6.Qarabağ aşıq mühitində bayatı. “Elmi axtarışlar”, Bakı, “Səda”, 2006, XXVI, s. 18-21.

# DÜNYANIN DƏRKİ VƏ ONUN ŞƏRTLƏRİ

**Məlahət Tağıyeva**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, elmi işçi
lemanhemzeyeva @gmail.com

**Açar sözlər:** dünya, idrak, hiss, duyğu, həqiqət, cəmiyyət

İnsan - şüurun formalaşdığı ilkin çağlardan bəri qarşılaşdığı, üz-üzə gəldiyi təbiəti, kainatı, dünyanı və burada baş verən prosesləri dərk etməyə, anlamağa, qavramağa çalışmışdır. Ümumiyyətlə, dünya dərkediləndirmi? Təfəkkürümüzdə obyektiv gerçəkliyin adekvat (doğru), düzgün inikasını verə bilirikmi? İnsan təfəkkürü gerçəklik qanunlarını aşkar edə bilərmi, təbiətin sirlərinə yiyələnə bilərmi? Bütün bu kimi suallar, yəni dünyanın dərk olunması, bu dərkolunmanın şərtləri və vasitələrilə bağlı olan nə varsa ta qədim zamanlardan filosofları düşündürən ən mühüm suallardan olmuşdur. Onların müşahidələri, düşüncələri, analogiya və hipotezləri dünyanın, Yerin, Günəşin və ulduzların yaranması, təbiətin əbədiliyi və sonsuzluğu haqqında suallara idrakı qane edən cavablar axtarışına yönəlmişdir. Filosoflar tədricən insana, insanın mahiyyətinə, onun ictimai-həyati məsələlərinə, tarixin və mədəniyyətin mənasına da maraq göstərməyə başladılar [Mehdiyev, 2010:8].

Dünyanın dərki, bəşər cəmiyyətinin inkişafı və idarə olunması, tarixi inkişaf mərhələləri məhz insanla, onun fiziki və intellektual təkamülü ilə bağlıdır. Ətraf aləmdə baş verən hadisə və proseslərin səbəblərini və qanunauyğunluqlarını öyrənmədən insan düzgün səmtləşə bilməz. O, gerçəkliyi mütabiq (müvafiq surətdə) əks etdirməklə, özü ilə dünya arasındakı münasibətləri tənzim edir. Buradan aydın olur ki, dünyaya idraki münasibət "dünya-insan" münasibətləri sisteminin ayrılmaz tərəfidir. Təbiət və cəmiyyət hadisələri haqqında əldə edilən faktlar, külli miqdarda yeni biliklər, saysız-hesabsiz elmi kəşflər dünyanın dərk edilməsinin elmi mənzərəsini ifadə edir, insanın bir daha təbiətin sirlərinə qismən də olsa vaqif olduğunu göstərir. Əgər bugün bir cismi, hadisəni dərk etmiriksə, gec-tez elmin və təbiətşünaslığın inkişafı nəticəsində onu dərk edəcəyik. Idrak prosesində insan təfəkkürü az bilikdən çox biliyə, sadədən mürəkkəbə, biliksizlikdən tam və dəqiq biliklərə doğru inkişaf edir. İdrak gerçəkliyin insan şüurunda məqsədyönlü inikası prosesidir. Buna görə də, idrak prosesinin özü mürəkkəb və ziddiyyətli xarakter daşıyır.

İnsan dünyanı dərk etməklə ona dəyişdirici təsir göstərə bilir. İdrak prosesi insanın praktiki fəaliyyəti əsasında baş verir. Onun mahiyyətini gerçəkliyin mənəvi mənimsənilməsi təşkil edir. İdrak nəticəsində əldə olunan biliklər (təbiət, cəmiyyət və təfəkkür qanunlan) insanın praktiki fəaliyyətində müstəsna dərəcədə böyük rol oynayır. İnsan öz fəaliyyətini həmin qanunları və xassələri nəzərə almaqla təşkil edir və istənilən nəticələri alır. Lakin idrak prosesi təkcə mövcud situasiyaların dərki demək deyildir. Burada həm də əvvəlki dövrlərdə qazanılmış nailiyyətlər, keçmiş nəsillərin idraki təcrübəsi əhatə olunur. Odur ki, idrak prosesi insanın əvvəldən malik olduğu biliklər və təsəvvürlər, dəyər oriyentasiyası, tələbatları prizmasından keçərək baş verir [Hacıyev, 2012:230].

İdrakın məqsədi həqiqətə nail olmaq, təbiət və cəmiyyət qanunlarını kəşf etmək və onun bəşəriyyətin tərəqqisi naminə istifadə etməkdir. Məsələn, qədim zamanlarda babalarımız odun, daşın, dəmirin və s. cisimlərin xassələrini öyrənməklə, ondan müdafiə məqsədilə silah kimi, yaxud da təsərrüfatda alət kimi istifadə ediblər. Daha sonralar isə atomun quruluşunun öyrənilməsi, istilik-nüvə reaksiyalarından, atom enerjisindən dinc məqsədlə istifadə olunması, kosmik fəzanın tədqiqi və digər faktlar dünyanın dərk edilənliyini sübut edir.

İdrak “canlı müşahidədən ” başlayır, yəni idrak canlı müşahidədən mücərrəd təfəkkürə yüksəlir, oradan da praktikaya doğru gedir. Biliklərimizin doğruluğu isə praktikada yoxlanılır. İnsan gerçəkliyi dərk edərkən, ilk növbədə, ona məxsus olan hiss üzvlərindən (görmə, eşitmə,

dadbilmə, iybilmə, lamisə orqanları (toxunmaqla hiss etmə)) istifadə edir, onun köməkliyi ilə maddi aləmi dərk edir [İmanov, 2010:197]. Yuxarıda qeyd etdiyimiz kimi, canlı müşahidə, yaxud hissi idrak bütün biliklərimizin mənbəyini təşkil edir. Canlı müşahidə prosesində insan maddi aləmlə birbaşa təmasda olur, bunsuz dərketrmə prosesi yoxdur.

İdrak obyektiv gerçəkliyin hiss orqanlarında inikası ilə başlayır, bu inikas nəticəsində alınan bilik bilavasitə bilikdir. Lakin bu inikasa passiv proses kimi baxmaq olmaz, inikas insanın fəal idraki fəaliyyətidir, canlı seyrdir. Insan obyektiv gerçəkliklə birbaşa əlaqə yaradaraq, aləm haqqında biliklərə yiyələnir. Hissi idrak, yəni canlı müşahidə, gerçəklik haqqında bütün biliklərimizin mənbəyini təşkil edir. Canlı müşahidə və yaxud hissi idrak özü də üç əsas formada – a) duyğu; b) qavrayış; v) təsəvvür formasında həyata keçirilir [Hacıyev, 2012:237].

Duyğu – obyektiv gerçəklikdəki cisim və hadisələrin ayrı-ayrı xassələrinin, tərəflərinin (cismin rəngi, forması, iyi, dadı, bərkliyi, boşluğu və i.a.) beynimizdə əks olunmasıdır. Insanda daha çox görmə analizatoru və ona uyğun olan duyğu sistemi inkişaf etmişdir. Duyğuların mənbəyi maddi aləmdəki cisim və hadisələrdir. Duyğuların müxtəlifliyi maddi gerçəkliyin rəngarəngliyi ilə müəyyən olunur. Duuğuların fizioloji əsasını hiss üzvləri, sinirlər və baş beyin analizatorları təşkil edir. Duyğu materiyanın ilk forması olan üzvi materiya ilə bağlıdır. Maddi gerçəklikdəki cisim və hadisələr bizim hiss orqanlarımıza təsir edərək, müxtəlif duyğular əmələ gətirir. Duyğu cisim və hadisələrin surətidir, şəklidir, obyektiv gerçəkliyin subyektiv inikasıdır.

İdrak prosesində duyğular aşağıdakı funksiyaları yerinə yetirir,: 1) qavrayışın substraktı olaraq ona xarici predmetlərin strukturunu əks etdirmək imkanı verirlər; 2) xarici predmetlərin obyektiv xassələrinin əlamətləri rolunda çıxış edirlər; 3) sadə təsəvvürlərin formalaşmasının əsasıdır [Fəlsəfə ensiklopedik lüğəti, 1997:115]. Deməli, bütün biliklərimizin ilkin mənbəyi maddi aləmdir.

Hissi idrakın daha yüksək forması təsəvvürdür. Təsəvvür – gerçəkliyin predmet və hadisələrinin predmet və hadisələrin özlərinin hiss orqanlarına bilavasitə təsiri olmadan da şüurda saxlanılan və yenidən canlandırılan hissi-əyani, ümumiləşdirilmiş obrazıdır. Təsəvvürdə insanın praktikada obyektiv olaraq əldə etdiyi şey təsbit olunur və saxlanılır [Fəlsəfə ensiklopedik lüğət,1997:418]. Yəni, təsəvvür keçmişdə və indiki zamanda qavradığımız cisim və hadisələrdəki cəhətlərin, tərəflərin beynimizdə hissi obrazıdır. Əgər qavrayış cismin bizim hiss orqanlarımıza bilavasitə təsiri nəticəsində yaranırsa, təsəvvür belə təsirdən kənarda meydana gəlir. Məsələn, usaqlıq dostumuzun təsəvvürü, yaxud səyahət zamanı müşahidə etdiyin gölün, meşənin hafizəmizdə canlandırılması və s. yaddan çıxartmamalıyıq ki, bir cisim, hadisə haqqında yaranan təsəvvür hər bir adamda eyni olmur, bu təsəvvür hər bir şəxsin dünyagörüşündən, biliyindən və mədəni inkişaf səviyyəsindən asılı oılaraq fərdi səciyyə daşıyır. Bəzən deyirlər ki, təsəvvür də qavrayışdır, lakin cisimsiz qavrayışdır.

Təsəvvürlə qavrayış bir-biri ilə vəhdət təşkil `etsə də, lakin bir sıra fərqli cəhətləri də vardır: a) cisim və hadisələrsiz qavrayış yoxdur; b) qavrayış aydın və konkret olur; v) qavrayış və təsəvvür bir-birindən nisbi sabitliyə görə də fərqlənir; c) qavrayış dərin prosesdir, təsəvvür isə tez dəyişir, keçici xarakter daşıyır; d) təsəvvürdə keçmişdəki və indiki əşyaların, hadisələrin surətləri də əks olunur; e) təsəvvürdə qavrayış nisbətən cisim və hadisələrin daha səciyyəvi cəhətləri əks olunur. Məsələn, yaxşı musiqiçi dünyanın müxtəlif xalqlarına məxsus musiqi melodiyalarına, zərgər isə zinət əşyalarının zərifliyi haqqında aydın təsəvvürə malik olur.

Beləliklə, hissi idrak bizə gerçəklikdəki cisim və hadisələrin ancaq müəyyən xarici əlamətləri haqqında bilik verir. Belə biliklərlə insan heç vaxt kifayətlənə bilməz. Insan daim çalışır ki, hissi idrakın verdiyi məlumatları ümumiləşdirsin, şeylərin mahiyyətinə nüfuz etsin, təbiət və cəmiyyətin inkişafındakı qanunauyğunluqları dərk etsin. Əgər insan hissi idrakın

verdiyi məlumatlarla kifayətlənsəydi, onda Günəş və Ayın tutulma səbəblərini, şimşəklə göy gurultusu arasındakı bağlılığı vəs. bu kimi hadisələri öyrənə bilməzdi. Deməli, insan cisim və hadisələrin mahiyyətinin dərk olunmasında heç vaxt təfəkkürsüz keçinə bilməz. Təfəkkür – gerçəkliyin beynimizdə inikasının ən yüksək formasıdır. Məntiqi idrakın formaları da təfəkkürdən başlayır.

Təfəkkür – obyektiv aləmin anlayışlarda, mühakimələrdə, nəzəriyyələrdə və s. əks olunmasından ibarət, bu və ya digər məsələlərin həlli ilə bağlı fəal proses, xüsusi qayda təşkil olunmuş materiyanın – beynin ən yüksək məhsuludur. Təfəkkür insanların istehsal fəaliyyəti nəticəsində yaranır və gerçəklikdəki cisim və hadisələrin ümumiləşmiş vasitəli və məqsədəuyğun formada beynimizdə inikasıdır.

Təfəkkür həm meydana gəlmə xüsusiyyətinə, fəaliyyət üsuluna, eləcə də, nəticələrinə görə ictimai təbiətə malikdir ki, bu da onun bəşər cəmiyyəti üçün səciyyəvi olan əmək və nitq fəaliyyətilə əlaqədə mövcud olması ilə izah olunur [Fəlsəfə ensiklopedik lüğəti, 1997:419]. Buna görə də, insanın təfəkkürü nitqlə həyata keçirilir və onun nəticələri ilə təsbit olunur.

Təfəkkürə abstraksiya (mücərrəd təfəkkür), analiz və sintez, müəyyən vəzifələrin qoyuluşu və onların həlli yollarının tapılması, hipotezlərin, ideyaların və s. irəli sürülməsi xasdır. Bu və ya digər fikir həmişə təfəkkür prosesinin nəticəsidir. Təfəkkürün gerçəkliyi ümumiləşdirilmiş şəkildə əks etdirmək qabiliyyəti insanın ümumi anlayışlar yaratmaq qabiliyyətində ifadə olunur. Təfəkkürün gerçəkliyi vasitəli şəkildə əks etdirmək qabiliyyəti insanın əqlinəticə, məntiqi nəticə, sübut hadisəsinə qabiliyyətində ifadə olunur. Bu qabiliyyət idrak imkanlarını genişləndirir, hiss üzvlərinin köməyilə bilavasitə qavrayışa müyəssər olmayanı dərk etməyə imkan verir.

İdrak prosesi mürəkkəb strukura malikdir. Onun tərkibində iki əsas səviyyə mövcuddur: hissi və rasional. Hissi idrakı dərketmə prosesinin ilkin səviyyəsi adlandırmaq olar, lakin bu obyektlərin və hadisələrin, varlıq proseslərinin mahiyyətini dərk etmək üçün kifayət deyildir. Bu o deməkdir ki, onun əsasında idrak prosesinin "ikinci mərtəbəsi" - rasional idrak və ya düşüncə - qurulur, yəni cisimlərin, hadisələrin əsas xüsusiyyətlərinin məqsədyönlü şəkildə əks olunması anlayışlarda, mühakimələrdə və əqli nəticələrdə təsbit edilmiş olur. Aydındır ki, idrak prosesinin iki hissəyə - hissi və rasional “bölünməsi” şərtidir. Bu idrak prosesini (idrakın dərki prosesi) dərk etmək üçün lazımdır [https://works.doklad.ru/view/vqMMZE5hVBY.html]. İdrak prosesinin struktııoanda rasional pillə daha yüksək yer tutur. Belə ki, xarici aləmdəki obyektərin mahiyyəti və inkişaf qanunauyğunluqları məhz həmin mərhələdə aşkar olunur. Rasionalizmə görə səhih biliyin məntiqi əlamətləri olan ən ümumilik və zərurilik təcrübədən və onun ümumiləşdirmələrindən əldə edilə bilməz; bunlar yalnız ağlın özündən, anadan olandan ağıla xas anlayışlardan , ya da ağlın yalnız rüşeymləri, meylləri şəklində mövcud olan anlayışlardan hasil edilə bilər [Fəlsəfə ensiklopedik lüğət, 1997:350].

Bütün elmlər, hər biri öz sahəsində və fəaliyyəti çərçivəsində, mövcudolma, hərəkət və həyat ölçülərini, qanunauyğunluqlarını axtarmaqla, kəşf etməklə, formalaşdırmaqla, yəni ayrı-ayrı idrak sahələri üzrə rasionallıq şəbəkəsini qurmaqla məşğuldur. Fəlsəfə isə yeganə elm sahəsidir ki, onun vasitəsilə ayrı-ayrı “dar” məzmun-mahiyyətdə formalaşıb fəaliyyət göstərən rasionallıq (məntiq) konsept şəbəkələri və epistomologiyaları vahid əsasda və yüksək bir səviyyədə ümumiləşmə, üzvi sintezləşmə əldə edirlər və geniş mənada varlığın, universiumun dərki və özünüdərki prosesinin alətinə çevrilirlər; bununla da gerçəkliyin, bəşəriyyətin, insan həyatının, ictimai praktikanın müəyyənləşməsində və gedişatında öz töhfələrini vermiş, xidmətlərini göstərmiş olurlar [Abbasov, 2018: 62].

Fəlsəfə bütövliikdə bəşəriyyətin intellektual, mənəvi və praktiki həyati nailiyyətlərini əhatə etməyə, ümumiləşdirməyə və dərk etməyə çahşmaqla bərabər, həm də gerçəklik haqqında ümumi biliklərm məzmununu və onlann əldə edilməsi üsullannı nəzəri cəhətdən əsaslandırır. Fəlsəfə dünyagörüşünün qeyri-fəlsəfi formalarım tənqid etmək və

rasionallaşdırmaq yolu ilə həqiqi idrakın yolunu təmizləyir, dünya haqqında yeni təsəvvür formalaşdırır, insanlarm dünyaya münasibətini, ictimai hadisələrin qiymətlərinin nəyin əsasmda yaranmasmı, gerçəkliyin bu və ya digər faktlarının nəyə görə qəbul edilməsini və ya edilməməsini aydmlaşdırmağa kömək edir [Mehdiyev, 2010:9].

Fəlsəfə elminin başlıca vəzifəsi dövrün xüsusi, ümumi mahiyyətinə varmaqdan və səciyyəvi xüsusiyyətlərini işıqlandırmaqdan ibarətdir ki, bununla da zəruri olan özünüdərki həyata keçirir. Söhbət konkret ictimai mühitin, bəşəri və sosial gedişatın, insan həyatının, iqtisadi, siyasi və mədəni-mənəvi proseslərin elmi meyarlar, tarixi ənənə və perspektivlər, sosio-mədəni dəyərlər səviyyəsindən rasionallığının açılmasından, bütövlükdə isə idraki və əməli-praktiki fəaliyyətin rasionallıq zəminlərinin yaradılmasından, düşüncə və hərəkət konstruktivliyinin etibarlı şəbəkəsinin qurulmasından gedir [Abbasov, 2018:59].

Rasional idrak məntiqi təfəkkürdə ifadə olunur. Rasional idrak özündə iki növ məntiqi təfəkkürü: düşüncə və zəkanı birləşdirir. Düşüncə biliyi sistemə çevirir və insan standart şəraitə, xüsusilə də, utilitar vəzifələri həll etmək şəraitinə uyğunlaşdırır. Zəka biliyi daha dərin və ümumiləşmiş xarakterdə yaradır. Zəka obyekti əksliklərin vəhdətində təhlil edir. Zəka hissi idrakın verdiyi məlumatları təhlil etməklə yanaşı, özünün qəbul etdiyini də tənqid etmək qabiliyyətinə malikdir. Rasional idrak təfəkkürdə daha dolğun açıqlanır [İmanov, 2010:204].

İrrasional biliyi rasionaldan ayrı, idrakın müstəqil bir bilik forması kimi təqdim etmək olmaz. M.Heydeggerin qeyd etdiyi kimi, "irrasionalizm yalnız özünü dərk etməyən rasionallıqdır." Ən azı, gələcəkdə irrasionallığın qismən rasionallaşdırılması imkanına icazə verilir [https://works.doklad.r u/view/vqMMZE5hVBY.html]. Ümumi qəbul edilən şərhə görə, irrasionalizm fəlsəfədə bir tərəfdən dünyanı dərk etməkdə ağlın, şüurun imkanlarını inkar edən və ya məhdudlaşdıran bir istiqamətdir, digər tərəfdən isə dünya düzəninin rasionallığını ya azaldır, ya da ümumiyyətlə rədd edir. Demək, irrasionalizm – zəkanın, təfəkkürün idraki imkanlarının məhdudluğunu israr edən, məntiqi anlayışlarda ifadə oluna bilməyən və onun yerinə dünyanı mənimsəməyin digər formalarını iman-etiqadı, intuisiyanı, hissi, instinkti, təcrübələr və s.-ni idrakın əsas növü kimi qəbul edən fəlsəfi təlimdir [Fəlsəfə ensiklopedik lüğəti, 1997:191]. İrrasionalizm – gerçəkliyi qanunauyğunluqdan məhrum, təsadüfi hadisələrə, kor-koranə iradəyə tabe olan qarışıqlıq hesab edir.

Beləliklə, tarixi inkişafın başlanğıcından bugünədək insan zəkalı bir varlıq kimi təşəkkül tapıb, inkişaf etdkcə onun özünü anlaması, qiymətləndirməsi və təsdiqi formalaşır. Öz hərəkətlərini düşünərək, təfəkkürünü, təsəvvürlərini və idrak fəaliyyətinin digər formalarını təhlil edərək, insan həm də dünyanı dərk etməyə, onu anlamağa çalışır. İnsanların praktikası inkişaf etdikcə, elm və texnika təkmilləşdikcə, reallığın dərk olunması miqyası da genişlənir və dərinləşir. Buna uyğun olaraq idrakın obyekti də bir yerdə dayanıb durmur, dəyişilir və genişlənir.

## ƏDƏBİYYAT


1. İmanov H. R. Fəlsəfənin əsasları. Dərs vəsaiti. Bakı, "Turan evi", 2010.
2. Fəlsəfə ensiklopedik lüğəti. "Azərbaycan Ensiklopediyası" NPB,1997.
3. Mehdiyev R.Ə. Fəlsəfə. Dərs vəsaiti. Bakı, "Şərq - Qərb", 2010.
4. Abbasov Ə. Elmi idrakda rasionallıq paradiqmalarının məntiqi-metodoloji xüsusiyyətləri //Müasir elmin məntiqi və metodoloji problemləri, II kitab. Bakı, 2018.
5. Hacıyev Z.C. Fəlsəfə. Ali məktəblər üçün dərs vəsaiti. Bakı, " Turan evi ", 2012.
6. https://works.doklad.r u/view/vqMMZE5hVBY.html

# SEPARATİZMƏ QARŞI ƏN YAXŞI CAVAB SİYASİ TƏCRÜBƏ VƏ TOLERANTLIĞIN HARMANİYASIDIR

**Emin Həsənli**

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının dissertant
https://orcid.org/0000-0002-9663-2146
ehesenli1977@gmail.com

**Açar sözlər:** tolerantlıq, mübarizə, torpaqların azad edilməsi, separatizm

Ermənilərin Azərbaycana qarşı təcavüzünün başlanması və separatizm cəhdlərinin XX əsrin əvvəllərindən silahlı toqquşma və terrorla müşahidə edilən mərhələsi başlanmışdır. Bu prosesi XX əsrdə 3 mərhələyə bölə bilərik. I mərhələ 1905-ci il milli Azərbaycan kapitalizminin formalaşıb möhkəmlənməsi ərəfəsində ortaya çıxdı. Ikinci mərhələ SSRİ tərkibində ərazilərimizə etdikləri təhdidlər və xalqımızın İrəvandan deportasiyasıdır. III mərhələ XX əsrin sonunda ermənistan tərəfindən başlanan hücum və faşizm siyasətidir.Onlar ərazi iddialarını bəhanə edərək terror və silahlı basqınlar törətməklə fəaliyyətə başladılar. Məhz III böyük hücumlarından sonra ermənistan özünü nəinki regionda, eyni zamanda dünyada ifşa etdi. Azərbaycan Respublikasının mövcud resursları-təkmil dövlət siyasəti, ratifikasiya olunmuş beynəlxalq hüquqi aktlar, milli qanunvericilik, müasir diplomatik şərait.ölkəmiin hərbi-iqtisadi gücü, Ermənistanın təcavüz və digər cinayətlərə görə beynəlxalq hüquqi məsuliyyətə cəlb edilməsinə əsas və imkanlar yaradır(2.s.123). Bu gün Azərbaycan öz inkişafının yüksək mərhələsindədir. Ölkəmizin uğurlu sosial-siyasi inkişaf prioritetləri məqsədyönlü və düzgün istiqamətlərə səfərbər olunmuşdur. Digər bir tərəfdən Azərbaycan müxtəlif uğurlu layihələrlə bərabər ötən dövr ərzində ordu quruculuğunu da müvəffəqiyyətlə gücləndirmişdir. Təməl prinsipləri müstəqil Azərbaycanın daha da güclənməsinə istiqamətlənmiş Ulu Öndər Heydər Əliyev ideyaları Qarabağın azad edilməsi, işğalçıların ərazilərimizdən qovulması, məcburi köçkünlərin doğma torpaqlarına qaytarılması əhalinin həyat şəraitinin yüksəldilməsi prinsipi üzərində qurulmuşdur. Bu prinsipial ideoloji xətt bu gün müzəffər Azərbaycan ordusu və Ali Baş Komandan İlham Əliyevin qətiyyətli addımı ilə tarixi qələbəmizlə nəticələndi. Xalqımız dövlətçilik və milli birliyin qorunmasının, milli kimliyin təhlilinin yeni tarixi mərhələsinə qədəm qoydu. Azərbaycan öz ordusu ilə böyük uğurlara imza atdı və ərazilərimizi işğaldan azad etdi. Təbii ki, bütün bunlar həm də Azərbaycan Respublikası prezidentinin böyük diplomatiyaya, uzaqgörən siyasi strategiyaya, əsaslanan ideoloji uğurlarının nəticəsində mümkün oldu. Ulu Öndərin siyasi məktəbinin layiqli davamçısı cənab İlham Əliyev hər zaman ölkənin gələcək inkişafına kompleks yanaşaraq gələcək inkişafın sosial-siyası prioritetlərinə proqram xarakterli çıxışlarla münasibət bildirmişdir: "Bu gün dünyada yeni bir dövr yaşanır. Bunu televiziyadan və kütləvi informasiya vasitələrindən hər bir vətəndaş görür ki, həm bölgədə, həm dünyada inkişaf, əfsuslar olsun, müsbət istiqamətdə getmir. Yeni təhlükələr, təhdidlər, risklər, qarşıdurmalar, müharibələr yaranır. Əfsuslar olsun ki, gələcəklə bağlı proqnoz verərkən nikbinlik üçün heç bir əsas yoxdur. Belə bir şəraitdə hər bir ölkə, əlbəttə, ilk növbədə daxili resurslara arxalanmalı, öz təhlükəsizliyini daha da böyük dərəcədə təmin etməli, dünyada yaşanan maliyyə və iqtisadi böhran zamanı öz iqtisadi modelində müəyyən düzəlişlər aparmalıdır"(6). Bu gün ölkəmizin artan dinamik rolu, qoşulduğu sosial-iqtisadi layihələr həm də regionun təhlükəsizliyi üçün zəruri əhəmiyyət daşıyır. Bu prosesin əsas təməl prinsiplərində həm də Ulu Öndər Heydər Əliyev siyası məktəbindən başlanan yüksək vətənpərvərlik ideyaları dayanır. Zəfər günümüzün reallıqlarını şərtləndirən tarixi məqamlar

içərisində bu amilin xüsusi rolu, yeri vardır. Ulu Öndər Heydər Əliyev ideyaları ölkəmizin dəyərlər sisteminə aydınlıq gətirdi. Şəxsiyyətin dəyərlər mövqeyindən mənalandırılması sofist Protaqorun insanı hər şeyin ölçüsü kimi qiymətləndirməsində (6,s.78), Demokritin insani xeyirxahlıqlar haqqında ideya və müddəalarında, Sokratın praktiki fəlsəfəsində də ifadə olunmuşdur. Dəyərlərə differensial mövqedən yanaşmaq cəhdləri Aristotelin yaradıcılığında özünü göstərmişdir. O, bir tərəfdən, öz-özlüyündə kifayət edən dəyərlərdən (insan, xoşbəxtlik, ədalət və s.) danışır,digər tərəfdən isə göstərirdi ki, dəyərlərin əksəriyyəti müxtəlif xarakter daşıyır, çünki uşaqlara, qadınlara, kişilərə, o cümlədən xeyirxah insanlara müxtəlif əşyalar eyni dəyərlilik təsiri bağışlamır.Yalnız ümummilli maraqlara söykənən dəyərlər xalqın əbədi ideoloji süurunda dərin yer ala bilir. Ulu Öndərin siyasi ideyaları içərisində mühüm yer alan Azərbaycançılıq ölkə gəncliyinin dəyərləri işərisində ən mühüm istiqamətlərdəndir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hər zaman daxili və xarici auditoriyaya "əgər Ermənistan kompromisə gəlməzsə biz torpaqlarımızı lazım gəlsə güç yolu ilə azad edəcəyik" kimi tarixi ədaləti qaytaracaq ideya-tezisləri qələbəmizin təməlində dayanan mühüm amillərdəndir. Azərbaycan prezidentinin ən mühüm gücü həm də hər zaman haqqı-ədaləti müdafiə etməsi, beynəlxalq normaların yerinə yetirilməsində təşəbbüskarlığıdır(1.s.86).

Vətən müharibəsində mülki şəxslərə və onların mülkiyyətinə dəymiş ziyanın aradan qaldırılması daim Azərbaycan Respublikası Prezidentinin xüsusi diqqəti mərkəzindədir. Düşmən tərəfin dəymiş zərərləri ödəməsi məsələsi də daim aktualdır. Beləki, Ermənistanın bu zərəri ödəməsinə beynəlxalq nəzarət mexanizmləri yaradılmalı və bu nəzarət mexanizmlərinin işi yalnız Azərbaycanın haqlı tələbatını ödəmək olmayıb, eyni zamanda gələcəkdə və regionda yarana biləcək bu kimi vəziyyətlərin təkrarlanmaması üçün dünyada nümunəvi addım olardı. Qətiyyətlə demək olar ki, Ermənistanın vurduğu maddi zərərin miqdarı indiyədək dövlətlərin qarşı tərəfə ödədiyi maddi-mənəvi zərərlərdən qat-qat çoxdur və təbii ki, bu da Azərbaycana mərhələli şəkildə ödənilməlidir.

Ölkə başçısı tərəfindən Vətən müharibəsinin bitdiyi andan Qarabağ qazilərinə yeni mənzillərin verilməsi prosesi başlandı. Həmin şəxslər birbaşa onlar üçün tikilən mənzillərlə bərabər, hökumətin sosial evlər layihəsindən də yararlandılar. Dövlət başçımız erməni təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" 2020-ci il 6 noyabr tarixli sərəncamı da bu qəbildəndir. Bu Sərəncama əsasən Azərbaycan Respublikasının Baş nazirinin rəhbərliyi ilə Dövlət Komissiyası və 11 işçi qrupu yaradılıb. Yaradılmış işçi qruplarına 11 rayonda mülki əhaliyə, dövlət əmlakına, sahibkarlıq fəaliyyəti subyektlərinə, nəqliyyat vasitələrinə, kənd təsərrüfatı məhsulları və texnikasına, o cümlədən əhaliyə məxsus tələf olmuş heyvanlar üzrə dəymiş ziyanın müəyyənləşdirilməsi ilə bağlı müvafiq tapşırıqlar verilib. 11 rayonda mülki əhaliyə, dövlət əmlakına, sahibkarlıq fəaliyyəti subyektlərinə, nəqliyyat vasitələrinə, kənd təsərrüfatı məhsulları və texnikasına, o cümlədən əhaliyə məxsus tələf olmuş heyvanlar üzrə dəymiş ziyanın müəyyənləşdirilməsi ilə bağlı müvafiq addımlar atıldı. İlkin qiymətləndirmələr başa çatdıqdan dərhal sonra Prezident İlham Əliyevin növbəti sərəncamı ilə problemin aradan qaldırılması üçün addımlar atılmağa başlandı. Bu Sərəncama görə təcavüz nəticəsində dağıdılmış və ya qəzalı vəziyyətə düşmüş yaşayış evləri üzrə məişət əşyalarına dəymiş ziyanla bağlı hər bir ailəyə 6000 manat, şəxsi əşyalara dəymiş ziyanla bağlı hər bir ailə üzvünə 1500 manat və digər ziyan dəymiş yaşayış evləri üzrə hər bir ailəyə 1000 manat məbləğində maddi yardımın ayrılması qərara alınıb. Bu kimi sosial siyasət həm də dünya təcrübəsi üçün yaxşı nümunə və əlverişli inkişaf modeli sayıla bilər.

Ədəbiyyat

1.Azərbaycan Dövlət Müstəqilliyinin 10 illiyinə həsr olunmuş,<< Suverenlik, demokratiya, dövlət idarəçiliyi >>mövzusunda elmi sessiyanın materialları ( 10 oktyabr 2001-ci il ) / red. S.T.Qəndilov və b. / Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası.-Bakı,2002. -163s.
2.Həyat Sosiologiyası B, Avropa nəşriyyatı 2021. 142 səh.
3.59.Strateji Təhlil –Azərbaycan Respublikasının daxili və xarici siyasəti,beynəlxalq münasibətlərə dair analitik jurnal.SAM,say 4 2012 191 s.
4.Müasir dövrdə Azərbaycan Türkiyə əməkdaşlığı. //Azərbaycan- Avropa əlaqələri: mövcud problemlər və əməkdaşlığın əsas istiqamətləri (elmi konfransın materialları), Bakı – Şirvannəşr 2005. s. 179-189
5.İlyenkov E.V. Dialekticheskaya logika. M.: Mısl. 1998.
6.https://president.az/articles/16703

# PREZİDENT İLHAM ƏLİYEVİN UGURLU SİYASƏTİ QƏLƏBƏ VƏ TƏHLÜKƏSİZLİK PARADİQMALARINA SÖYKƏNİR

**Hüseyn İbrahimov**
Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
husib@mail.ru

**Açar sözlər:** uğurlu siyasət, milli həmrəylik, siyasi mədəniyyət, sülh, iqtisadiyyat

Müasir pandemiyanın dalğalanan çevrəsi və bu hüdudda kəskinləşən dünya böhranı o qədər çoxşaxəlidir ki, bu təsirlər dövlətlərin suverenliyinə təhdidlər yaradır. “Biz öz addımlarımızı elə atmalıyıq ki, postkarantin rejiminə hazırlıqlı olaq”, –deyə ölkə başçısı cəmiyyətin sistemini bu prosesin sonrakı mərhələsinə səfərbər edir. Bu proseslər dövründə Azərbaycan xalqı və dövləti həmrəy şəkildə problemləri həll etməyə səfərbər olunmuşdur. “Ölkəmizdə milli həmrəylik bu günə kimi müşahidə edilməyəcək şəkildə artıb. Bu bizim xalqımızın böyüklüyünü göstərir”. Cənab İlham Əliyev bu tezisində milli həmrəyliyin əsas təsiredici, səfərbəredici faktorunun məhz xalqın iradəsi olduğunu diqqətə çatdırmaqla cəmiyyətin maraqlarını önə çəkir. Azərbaycan öz inkişafının dünyanı bürüyən pandemiya ilə mübarizə şəraitində yeni mərhələsinə qədəm qoyur. Bu mərhələnin ən mühüm dəyərlər sistemini xalq və hakimiyyətin birliyi, xalqın sağlamlığının qorunması, mümkün iqtisadi fəallığın yönəldilməsi təşkil edir. “Bizim üçün əsas prioritet məsələ insanların sağlamlığı, onların sosial müdafiəsi və vəziyyətə uyğun şəkildə iqtisadi fəallığın artmasıdır” –deyə ən mürəkkəb şəraitlərə müvafiq fəaliyyət mexanizmini dövlət başçısımız diqqətə çatdırır. Göründüyü kimi, pandemiya şəraitində cənab prezidenti düşündürən ən vacib prinsip insanların sağlamlığıdır. İnsan sağlamlığı qaygısı cəmiyyətin qorunması, bütövlüyü və dövlətin suverenliyi deməkdir.

Bu fəaliyyət mədəniyyəti ölkənin siyasi mədəniyyət göstəricilərindəndir. Azərbaycanda siyasi mədəniyyət göstəricilərinin idarəetmə prosesində təkmilləşməsi ideyası Azərbaycan Respublikası prezidentinə məxsusdur. Azərbaycanda xalq- dövlət inteqrasiyasının ideoloji əsasları həm də Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Xanım Əliyevanın uzun illər Azərbaycanın mədəni-tarixi

irsinin, milli maraqlarının beynəlxalq təşkilatlarda müdafiəsi siyasəti ilə möhkəmlənmişdir. Azərbaycanın Birinci vitse-prezidentinin beynəlxalq təşkilatlarda milli maraqlarımızın və mədəni irsimizin qorunması istiqamətində apardığı böyük mədəni- ideoloji təbliğat fəaliyyəti ölkəmizi qlobal beynəlxalq dialoq yerinə -beynəlxalq problemlərin həllinin siyasi məkanına çevirmişdir.

Azərbaycan prezidentinin Dağlıq Qarabağda Ermənistanın seçki adı ilə təşkil etdiyi proseslərə münasibəti qəti və aydındır. Xüsusən, ölkə başçımız bütün beynəlxalq qurumların Ermənistanın Dağlıq Qarabağda apardığı seçki oyununa münasibətinin mənfi olduğu təqdirdə Avropa Şurası Parlament Assambleyasının mövqe bildirməməsini lazımi anda tənqid etdi. Onu da qeyd edək ki, Avropa Şurası Parlament Assambleyası Dağlıq Qarabağda hərbi xuntanın təşkil etdiyi seçkiləri tanımadığı bəyanatını bir qədər gec səsləndirmişdir.

Azərbaycanın bu günə qədər tutduğu yolun fəlsəfəsi sülhün regionda təhdidə məruz qalmaması siyasəti ilə bərabər multikulturalizm konsepsiyasının dünyada möhkəmlənməsinə çağırışları ilə zəngin olmuşdur. Azərbaycan müasir müstəqilliyi mərhələsinin keçid prosesini uğurla başa çatdıran ölkə olaraq COVİD -19 pandemiyasının çətin sosial-iqtisadi nəticələrindən də az itkilərlə çıxmağı və insan təhlükəsizliyini maksimum təmin etməyi əsas götürmüşdür.

Azərbaycan öz iqtisadiyyatını liberal bazar iqtisadiyyatı norma və prinsipləri ilə qurur. Azərbaycan Respublikasının prezidenti çıxışlarında bildirir: "İqtisadi liberallaşmaya inamla getməliyik". Məhz Prezidentin iqtisadi sahədə fəallığı qorumaq siyasətinin nəticəsidir ki, ölkəmiz "iqtisadi azadlıq indeksi"nə görə bu gün 19 pillə irəliləyərək 44-cü yerdədir. Azərbaycan "iqtisadi azadlıq indeksi"ni daha çox təkmilləşdirən 11 ölkə sırasındadır. İqtisadi azadlıqların təmin olunması sosial dövlət dayaqlarının möhkəmləndirilməsində xüsusi əhəmiyyət daşıyır. Hətta pandemiya yüksələn xətlə getdiyi dövrdə Azərbaycan Respublikası prezidentinin çıxışlarının, verdiyi sərəncamların əsas ideyasında liberal iqtisadiyyata əlavə imkanlar, pandemiya şəraitində mümkün iqtisadi fəallığı təmin etmək taktikası və sosial dövlət strategiyası yer alır. Pandemiyanın sürətlə vüsət aldığı Avropanın ən inkişaf etmiş ölkəsi olan Fransa qoruyucu-maska vasitələrinin istehsalına pandemiyadan xeyli sonra –aprel ayının ikinci yarısı başlamışdır. Azərbaycan bu sahədə operativ təşəbbüslər göstərərək pandemiyanın ilk həftələrində maska istehsalına sürətləndirdi. Ölkə başçısının liberal yönümlü demokratik siyasəti ölkəmizi istehsal və xidmət sahəsinə investisiya qoyuluşu üçün əlçatan etmişdir. "Bizim iqtisadi sahədə apardığımız siyasət və iqtisadi sabitlik pandemiyaya qarşı mübarizədə bizə əlavə imkanlar yaradır", - söyləyən dövlət başçısı karantin rejimindən mərhələli şəkildə çıxmaq ideyasını cəmiyyətin diqqətinə çatdıraraq bu dövrün cətin postulatını birgə və təmkinli dəf etməyin mümkünlüyünü qarşıya qoyur.

## DONORLUQ MƏSƏLƏLƏRİ VƏ ONUN ELMİ-HÜQUQİ ASPEKTLƏRİ

**Ceyhun Əhmədov**
AMEA Hüquq və İnsan Haqları institutunun dissertantı
ceyhun553@gmail.com
https://orcid.org/0000-0002-8758-6141

